**YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ**

# ƏSƏRLƏRİ

**ÜÇ CİLDDƏ**

**II CİLD**

"AVRASİYA PRESS"
BAKI-2005

*Bu kitab “**Y.V.Çəmənzəminli.** Əsərləri. Üç cilddə. II cild”*
*(Bakı, Elm, 1976) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edən: **Məryəm Axundova**

Redaktor: **Tofiq Hüseynoğlu**

**894.3613 - dc 21**
**AZE**
**Çəminzəminli Yusif Vəzir. Əsərləri.** Üç cilddə. II cild. Bakı, “AVRASİYA PRESS”, 2005, 664 səh.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında kiçik hekayə janrının görkəmli yaradıcılarından biri kimi tanınmış Yusif Vəzir Çəmənzəminli eyni zamanda iri həcmli əsərlər müəllifidir.

Oxuculara təqdim olunan bu cilddəki “Studentlər”, “Qızlar bulağı”, “İki od arasında” əsərləri ilə Yusif Vəzir ədəbiyyatımız tarixində bir romançı kimi də xüsusi yer tutur.

Kiyev təhsil illərinin müşahidələrindən doğan “Studentlər” romanı Çəmənzəminlinin ictimai fikir meydanında söylədiyi öz sözü, öz mülahizələri idi.

Yazıçının “Qızlar bulağı” əsəri ədəbiyyatımızda ilk tarixi-fəlsəfi romandır. Doğma xalqının taleyi və tarixi Yusif Vəziri ömrü boyu düşündürmüş, o bu xalqın mənşəyini, uzaq zamanların qaranlığında itən köklərini arayıb axtarmış və romanda özünəməxsus baxımdan əks etdirmişdir.

Vətənin taleyi haqqında mühüm tarixi keçidlərdə xalqımızın qarşısına çıxan “olum, ya ölüm” məsələləri haqqında dərin düşüncələr Y.V.Çəmənzəminlinin XVIII əsrin böyük sənətkarı və dövlət xadimi Molla Pənah Vaqifin adıyla bağlı olan “İki od arasında” romanında yüksək bədii sənətkarlıqla, həqiqətə güzəştsiz sədaqətlə əksini tapmış və roman ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur.

Romanların mətni müəllifin əlyazmaları ilə tutuşdurulmuş, əvvəlki nəşrlərdə siyasi-ideoloji mülahizələrlə aparılmış ixtisarlar bərpa edilmişdir.

**ISBN 9952-421-08-5**

© “AVRASİYA PRESS”, 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# Romanlar

# STUDENTLƏR

## BİR NEÇƏ SÖZ

"Studentlər" inqilabdan əvvəl türk (azərbaycanlı – *M.A.*) tələbələrin həyatını göstərir. Bu həyat çox da zəngin, mündəricəli və yüksək məfkurə izincə qoşan bir həyat deyil. Bu da babalar həyatının müasir bir şəklidir. Babalarımız əsrlər boyu dini mübahisələrlə vaxt keçirmiş, Rüstəmbəylə Əli də bu yolu davam etdirirlər; babalarımız alış-veriş edib, min bir fəsadla zəngin olur, əlsiz-ayaqsızları istismar edirdi. Qulu da eyni tipin müasirləşmişi deyilmi? O zamanın hər bir mütəxəssisi yeni sənət, yeni fənlə təchiz olunmuş birər tacir, xudbin adamlar deyilmi?

Babalarımız şəhvət üstündə vicdanlarını boğmağa alışıq idilər; çoxarvadlılıq, qadın hüququnu tanımamazlıq və bundan irəli gələn dəhşətlər adət yerini almışdı. Fərəməz, Qulamrza, Cəfər və başqaları da eyni yolla getmirlərmi?

Tələbələrimizin içində inqilab ruhlu, əməkçi kütləni düşünən, ictimai yaraların nərədən doğduğunu anlayanlar da var idi. Lakin bunların bütün fəaliyyəti irtica dövrünün qorxunc məngənəsi arasında əzilirdi. Yığılışmaq yasaq, danışmaq yasaq, hökumətə qarşı baş verə biləcək hər bir hərəkət susdurulur, insanlar həbsə və sürgünlərə sürüdülürdü... Səlmanla Əhməd havası xəfiyyə qoxuyan bu mühitdə yaşayır və onun dəhşətini hər an duyurdular...

O zaman tələbə həyatı və tələbə mühiti belə idi.

Bu gün tələbə həyatı bambaşqadır. Bu başqalığın səbəbi də bəllidir: elmi yalnız azlıq təşkil edən imtiyazlı bir sinfin malı edən çar hökuməti təşkilatı yıxılmışdır; iş başına gələn əməkçi sinfi məktəb və bütün elmi müəssisələrin qapılarını geniş kütləyə açmışdır. Əməkçi balalarının oxuması üçün tələbə yurdları qurulmuş, təqaüd təyin edilmişdir. İndi artıq təhsilini bitirmək üçün min bir sənət dalınca qoşan Bəhramlar yoxdur.

Maddi cəhətdən təmin olunan tələbələr eyni zamanda mənəvi varlığı da duyurlar. Hər bir şura tələbəsinin qarşısında yüksək bir əməl var: bunlar mütəxəssis olaraq, ixtisaslarını sosializm quruluşuna həsr edəcəklər.

İndiki tələbələrin ruh yüksəkliyini təmin edən bir amil daha var: bunlar, doğrudan da, tarixdə əmsalı olmayan yüksək bir dövrdə yaşayırlar. Gələcək bu dövrü və bu dövrün təməl daşını atanları alqışlayacaq...

Bu mülahizələri nəzərdən keçirərək "Studentlər"i oxuyan gənclər tarixə qarışmış bir həyatı təsvir etmiş müəllifə, bir az da olsa, haqq verərlər zənnindəyəm.

*Y.VƏZİR*
*Bakı, aprel 1936*

# BİRİNCİ KİTAB

## BİRİNCİ HİSSƏ*

### 1

Bir-iki dəqiqə keçmədən qapı bir az aralandı.

– Kimdir? – deyə nazik bir səs eşidildi. Student şübhəli bir nəzər fırladaraq sordu:

– Otaq buradamı kirayə verilir?

– Burada verilir, – deyə qız o saat qapını açdı. Student balaca bir koridora girdi; qulluqçu qız sol tərəfdəki qapını açıb, otağa baxmağı təklif elədi. Student papağı əlində otağın ortasında duraraq, əvvəlcə qulluqçu qızı diqqətlə nəzərdən keçirdi: orta boylu, qırmızı yanaqlı kəndli balası məlahətdən məhrum deyildi.

– Deyin görüm, bu otaq qışda isti olurmu? Qulluqçu bir az qızararaq cavab verdi:

– Çox isti olur. Keçən il də burada student olurdu, həmişə evdə bir köynəkdə oturardı.

Student divarın dibinə çəkildi, bir də otağa diqqətlə baxmağa başladı. Otaq pis deyildi; student otağına məxsus hər bir şey vardı: yazı masası, kürsü, əlüzyuyan, çarpayı, hətta elektrik işığı da yerində idi. Otaq bəyənilməli idi. Student qulluqçudan qiymət xəbər aldı. Qız bir az duruxdu, "qoy xanımı çağırım", – deyə otaqdan çıxdı.

Otağın rahat və uyğunluğundan, qulluqçunun safdil və gözəlliyindən başqa, student üçün bir ayrı məsələ də var: bu da xanımın xoşsifətliyidir. Bunun üçün bizim student də xanımın gəlməsini həyəcanla gözlədi. Bir də qapı açıldı və içəriyə orta boylu, sarışın, dedikcə zərif bir xanım girdi. Onun gülər üzü studenti çox məmnun etdi.

– Bağışlayın, sizə zəhmət verirəm, otağın qiymətini lütfən söylərmisiniz?

---

* Bu əsərin 1931, 1935 və 1936-cı illərdəki nəşrləri ilə 1968, 1976-ci illər nəşrləri arasında ciddi fərqlər var. 1968 və 1976-cı il nəşrlərində ideoloji-siyasi mülahizələrə görə "təmizləmə" məqsədilə ixtisarlar aparılmışdır. Bu nəşrdə bütün nəşrlər tutuşdurulmuş, hər cür ideoloji-siyasi "təmizləmə"lərin izləri aradan qaldırılmış və ixtisarlar bərpa edilmişdir (*Red.*).

Xanım altuna bənzər tüklərini üzündən oyan-bu yana dağıdaraq, məhcub bir tərzdə:

– Həmişə bu otaq on yeddi manata gedir, – dedi.

– Student:

– İşıq haqqı və qulluqçu muzdu kimin öhdəsində qalır?

Xanım studentin üzünə baxmağa cəsarət etməyərək, qulluqçuya tərəf döndü:

– İşığı biz öhdəmizə götürərik, ancaq siz qulluqçunu razı eləyin, – dedi.

Student razı oldu, bu səfər daha diqqətlə otağa baxıb soruşdu:

– Qonşu otaqda kim olur? Səs-küy olmur ki?..

Xanım gülümsündü:

– Arxayın olunuz, səs olmayacaq, ora yemək otağıdır. Bir ərimdir, bir də mən. Ərim də çox vaxt evdə olmur.

Student xanımla vidalaşaraq iki gündən sonra daşınacağını bildirdi.

2

Bir neçə gün idi ki, student otağa daşınmışdı. Amma ev sahibləri barəsində hələ lazımi məlumat toplamamışdı. Bircə bildiyi onların çox sakit və mehriban olmaları idi. Bir neçə günün ərzində xanıma bircə dəfə koridorda rast gəlmiş, salam verdikdə xanım başı aşağı cavab verərək dərhal uzaqlaşmışdı. Xanımın ərini hələ görməmişdi.

Bir axşam qulluqçu samovar gətirəndə student qəsdən ona bir sual verdi:

– De görüm, yavıqda paltaryuyan varmı?

Qız ciddi bir səslə:

– Budur, bizim küçənin tinində "Varşava paltar yuyanı" var. Orada təmiz yuyurlar, – dedi.

Student yeni bir sual olmasa, qulluqçunun gedəcəyini görərək, yenə sordu:

– Deməli, lap yaxşı yuyurlar, eləmi?

Qulluqçu divarın bir nöqtəsinə baxa-baxa:

– Lap yaxşı yumalarını bilmirəm, amma gərək yaxşı yusunlar.

Student sualların arasını kəsməmək üçün yenə soruşdu:

– Siz də paltarlarınızı oramı verirsiniz?

– Yox, biz özümüz yuyuruq. Bizim elə artıq paltarımız olmur.

Student mətləbə yetişirdi:

– Yaxşı, bəs xanımın uşağı yoxmu?

Qulluqçu gülümsündü:

– Yox.

Student də gülə-gülə:

– Bəs görəsən niyə?

– Ərə getdiyi bir ildir...

Qulluqçu büsbütün utandı və sözünün axırını yavaşca söyləyərək qızarmış bir halda otaqdan çıxdı.

Studentin marağı bir az yatdı, ev sahiblərinin təzəcə ər-arvad olduqlarını da bildi. Bu xəbər onun ürəyində lətif bir hiss oyandırmamış olmadı: təzə ailənin gənc üzvlərinə qarşı qəlbində bir hörmət bəsləməyə başladı. Belə ki, yoldaşları, adət üzrə ondan "ev sahibi xanım gözəldirmi?" – deyə iyma ilə soruşduqda ciddi cavab verdi:

– Çox da gözəldir! Mənə nə? Özgə arvadı barəsində belə suallara heç bir lüzum yoxdur.

3

Student özünə müvafiq bir ömür sürməkdə idi. Səhər darülfünuna, günorta aşxanaya, axşam da ya dərsləri ilə məşğul olar və ya bir yana gedərdi. Bu axşam student evdə qalaraq, atasına məktub yazmaqla məşğul idi. Məktubu yazdı, qurtardı, zərfi bağladı və sonra durub yatağında uzandı. Yatmaq vaxtı deyildi; bikar uzanmaq da əl verməzdi. Qalxdı, bir az otaqda o baş-bu başa dolandı. Kitablarını qarışdırmağa başladı. Gözünə yeni bir şey çarpmadı: hamısını oxumuş, hələ çoxunu sətir-sətir təhlil etmişdi.

Birdən-birə ev sahiblərinin qonaq otağında bir dolab kitab olduğunu xatırladı. Sevincli bir halda qulluqçunu çağırdı, xanımın yanına kitab dalınca göndərdi.

Xanım da burada kitab oxumaqla məşğul idi. Qulluqçu içəri girdikdə student qapının arxasında idi; xanım əlindəki kitabı masanın üstünə qoyub, sualverici nəzəri ilə qapıya baxdı. Qulluqçu söylədikcə onun rəngi dəyişməyə başladı. Xanım gülümsünə-gülümsünə:

– Bilmirəm necə kitab verim ki, xoşlarına gəlsin, – dedi.

Qulluqçu döyükdü. Xanım da cəsarətsiz bir halda duruxdu. Student qapının arasından:

– Xırda hekayələr olsa, çox məmnun olaram, – dedi. – Yoxsa işsizlikdən darıxıram.

Xanım xoş bir təbəssümlə studenti içəri çağırdı. Görüşdülər. Student həlim və cəsarətsiz səslə:

– Bağışlayın, sizə əziyyət verirəm. Bilirsiniz, könlüm heç yana getmək istəmir. Evdə də işsiz oturmaq olmur. Bunun üçün də sizi narahat etməyə məcbur qaldım. Məni məzur görünüz.

Xanım məmnun bir halda:

– Zərər yoxdur. Zərər yoxdur... Buyurun, əyləşin.

Student sandalya çəkib oturdu. Kitab büsbütün yaddan çıxdı. Görünür ki, xanım da evdə tək darıxırmış: bunun üçün iki tərəf də böyük bir həvəslə danışığa girişdi. Ən əvvəl xanım studentin haralı olduğunu soruşdu:

– Yəqin, siz qafqazlısınız.

– Bəli, qafqazlıyam.

– Ürəyimdə bircə arzu var. O da Qafqazı görmək. Qafqaz barəsində o qədər kitab oxumuşam, o qədər qəribə sözlər eşitmişəm ki, adı gələndə ürəyim əsir.

Student bütün vücudu ilə sandalyanın arxasına söykəndi, xanımı süzərək gülümsündü. Sanki "Qafqaz gözəldir, mən də o gözəlin yavrularındanam", – demək istəyirdi.

Xanım, görmədiyi ölkənin xəyali gözəlliyinə məftun bir halda sözünə davam edirdi:

– Yəqin uca dağları görəndə adamın bütün kədəri yadından çıxır...

Xanım qulluqçuya yönəlib gülə-gülə:

– Liza, daha bundan sonra evdə yalnız qaldıqda darıxmayacağıq: təzə kirayəçi öz ölkələrindən bizə nağıl edəcək, qəribə-qəribə şeylər eşidəcəyik.

İndiyə qədər divarın dibində duran Liza masanın kənarına gəldi. Xanım birdən:

– Bağışlayın, sizin adınız nədir?

– Mənim adım Rüstəmbəydir.

Xanım bir-iki dəfə "Rüstəmbəy" deyə təkrar etdi. Dili dürüst tutmadı. Qızardı və qayət lətif təbəssümlə Lizaya dedi:

– Görürsən, Liza, nə çətin addır. Bizimkilər asandır. Məsələn, Sofya Sergeyevna (studentə üzünü çöndərərək), bu mənim adımdır, – dedi. – Sizin üçün yəqin çətin gəlmir.

Rüstəmbəy indiyə kimi xanımın sözlərini məcburi bir təbəssümlə qarşılayırdı; indisə ciddi bir sima ilə dedi:

– Əlbəttə, bizlərə çətin gəlmir, çünki biz çocuqluğumuzdan rus məktəblərində oxuyuruq...

4

Söhbət qızışdı. Rüstəmbəy Qafqaz barəsində xanıma bir çox şeylər nağıl elədi, şücaət və cəngavərliyindən danışdı, qafqazlıların adət və ayinlərini təsvir edərkən, xanımın nəzərində vətənini yüksəltmək üçün quldurluq və qanlılıq kimi adətlərdən bəhs etmədi.

Xanım gözlərini Rüstəmbəydən ayırmadan onu böyük bir həvəslə dinləyir, Qafqazın şəklini xəyalına gətirərək onu füsunkar bir ölkə kimi təsəvvür edirdi. Studentin hər sözü xanımın xəyalındakı lövhəyə yeni boyalar əlavə edirdi. Xanıma hər şeydən artıq qafqazlıların şücaət və qoçaqlığı xoş gəldi. Qısqanc kişilərin qadın yolunda qan tökmələri Sofya xanıma o qədər qəribə gəldi ki, studentə bu xüsusda təkrar-təkrar sual verməyə başladı:

– Məsələn, mən qafqazlı olsaydım və sizinlə söhbət elədiyimi ərim görsəydi, məni öldürərdimi? – dedi.

Rüstəmbəy gülümsündü və düşünə-düşünə dedi:

– Qafqazın elə yerləri var ki, yad kişi ilə söhbət etdiyindən ər arvadını öldürər. Elə yer də var ki, öldürməz; lakin qısqanar, acıqlanar.

Xanım heyrət içində Lizanın üzünə baxdı və bir az fikirləşdikdən sonra gözlərini yenə Rüstəmbəyə döndərib ona ciddi bir nəzər atdı.

Studentin iri və hirsli gözləri, vəhşi baxışı, qara qəşəng bığları onu qorxutdu; xanım masanın üstündən kitabı götürdü, dirsəyinə dayaq verərək əlini çənəsinə söykədi. Artıq sual verməyə cəsarət etmədi.

Rüstəmbəy xanımı əyləndirmək üçün söhbətin davamına çalışırdı:

– Sizin şimalda kişilər elə həlimdirlər ki, arvadları və ya tanış qızları özgələri ilə gəzib danışdıqda qanları əsla coşmur. Bizlərdə isə işlər tamam özgə cürdür. Qafqazlının hələ arvadı bir kənara, bir qadın tanışı özgəyə gülər bir üz göstərsə, qısqanclıqdan özünü itirər.

Rüstəmbəyin sözləri Sofya xanımın sükutunu pozdu, xanım kitabı masanın üstə atdı:

– Qısqanclıq yaxşıdır – yerində; hər şey üstə qısqanclığa meydan verməyin, zənnimcə, mənası yoxdur.

– Sizin sözlərinizin doğruluğunu inkar edə bilmərəm; ancaq qısqanclıq qafqazlının qanındadır; nə qədər etsə də, öhdəsindən gələ bilməz.

Xanım güldü və zarafatla:

– Deməli, siz də qısqancsınız?

– Əlbəttə! Əlbəttə!

– Yaxşı, tutaq ki, sizin məhbubənizlə bir yad kişi gəzir. Onda nə edərdiniz?

– Nə edəcəyimi indidən deyə bilmərəm, ancaq onu bilirəm ki, hər nə olsa da, var qüvvəmlə rəqibimi məhbubəmdən uzaqlaşdırardım.

– Necə uzaqlaşdırarsınız?

– Boğazından yapışıb, güclə uzaqlaşdırardım! Rüstəmbəy son sözlərini elə bir qeyzlə dedi ki, o saat rəqibi ilə savaşır kimi oldu. Sofya xanım qəhqəhə ilə güldü:

– Hələ rəqib olmaya-olmaya siz hirsinizdən alt dodağınızı gəmirirsiniz; olsaydı nə edərdiniz?

Lakin bu sırada Rüstəmbəy də artıq gülməyə başladı.

Zəng vuruldu. Bir neçə dəqiqə sonra qulluqçu Rüstəmbəyin yanına qonaq gəldiyini xəbər verdi. Yoldaşlar koridorda görüşdülər. Rüstəmbəy şad bir halda əlini uzatdı:

– Ya Allah, Əli, – dedi. – Xoş gəlmisən.

Əli ortaboy, nazik bığlı, pəjmürdə tüklü bir student idi. İstər söhbətində, istərsə tərpənişində çox ağır idi. Hər bir hərəkətində əsla adi studentlərə bənzəmirdi. Fikir və xəyalı həqiqət aramaq idi. Ruhani alimlərlə görüşər, dinə dair bir çox məsələlər soruşar, zaviyələrə gedər, rahiblərin həyatını öyrənməyə çalışardı. Bir molla, bir dərviş yox idi ki, onlarla mübahisəyə girişməsin. Buna görə də sabit fikrə malik deyildi. Daima axtarış yolunda, tərəddüd içində yaşayırdı.

Rüstəmbəy Əlini otağına dəvət etdi. Əli mülayim bir sima ilə:

– Bağışla, yoldaş, – dedi, – bəlkə sənə əziyyət verirəm. Əli sözlərini qurtararaq, elə bil oturmağa cəsarət eləmirdi. Rüstəmbəy ona kürsü göstərdi, əyləşməsini təklif etdi. Əli oturdu və əllərini ova-ova təkrar:

– Yoldaş, sənə mane olmuram ki? – dedi.

Rüstəmbəy gülümsündü və xoşhallıqla cavab verdi:

– Yox, qardaş. Məni yad eləməyindən çox məmnunam. Yoxsa qapımı açıb girən yoxdur. Müsəlman studentləri mənim yanıma gəlməyə qorxurlar; çünki onların ciddi söhbətlə araları yoxdur. Zavallılar kitabdan yaman ürkürlər. Tərs kimi mənim kitabxanamda da belə dolaşıq kitablar var ki, ciddən qorxmalıdır.

Rüstəmbəy gülümsündü və sonra gözlərini küncdəki kitab qəfəsəsinə döndərdi. Əli ciddi bir halda kitabları nəzərdən keçirdi.

– Yoldaş, – dedi, – o iri kitab Tövratmıdır?

Rüstəmbəy gulümsündü:

– Tövratdır; müsəlman studentlərini qorxudan Tövrat. Əli yavaşca qalxdı, kitabxanaya tərəf yönəldi:

– Bağışla, bu “Kitabi-əqdəs”ə baxmaq olarmı? – deyə qəfəsədən nazik bir kitab çıxartdı.

Əli kitabı vərəqlədi. Orasına, burasına baxdı və müqəddiməsini oxumağa başladı. Bir müddət sükuta daldılar.

Qonşu otaqdan ev xanımının səsi gəlirdi: qulluqçuya sifariş verməkdə idi. Tavanın üstündə kim isə bərk tappıltı salmışdı. Aşağı mərtəbədən piano səsi gəlirdi.

Əli kitabdan aralandı. Fikirli gözlərini Rüstəmbəyə döndərərək dedi:

– Babiliklə əsla tanış deyiləm. Amma onların tarixini oxumaq lazımdır.

Rüstəmbəy müxtəsərcə olaraq babilik və bəhailik barəsində Əliyə məlumat verdi. İranın məzhəb mənbəyi olmağından bəhs etdi. Cəfəri təriqətlərdən danışdı.

Əli Rüstəmbəyin sözlərini diqqətlə dinləyirdi. Arabir sual verir və öz rəyini bildirmək fürsətini də əldən qaçırmırdı. Birdən bəhailiyin artması barəsində soruşdu:

– Deyirlər, Amerikada bəhailik getdikcə intişar edir.

Rüstəmbəy bu fikirlərin doğruluğuna şərik olmaq istəmədi və acıqlı bir halda:

– Zənnimcə, – dedi, – Amerikanın yeni dinə ehtiyacı yoxdur. Amerikanın dini sənaye və ticarətdən ibarətdir. Amerikada xalq o qədər işə məşğuldur ki, başlarını qaşımağa belə macalları yoxdur. Din axtarmaq işsizlik əlamətidir. Din və məzhəb icadı şərqlilərin inhisarındadır. Ömrümüzü o qədər işsizliklə, xəyal və mövhumatla keçiririk ki...

Din haqqındakı söhbət Rüstəmbəyin ən sevdiyi məsələlərdən biri idi. Ona görə danışdıqca qızışdı və bu məsələ barəsində geniş məlumatı olduğunu göstərdi. O danışırkən tarixin qanlı səhifələri, həyatın donub, bir nöqtədə qalması... bir lent kimi Əlinin gözü önündən keçdi. Avropanın din düşməni olan ümdə mütəfəkkirlərinin adları təkrar edildi. Axırda Rüstəmbəy xoş bir təbəssümlə dedi:

– Avropada dünyaya hədsiz-hesabsız mütəfəkkirlər gəlmiş, orada böyük filosoflar, geniş məlumatlı alimlər olmuş; ancaq Avropa tarixində din icad edənlərə rast gəlmədim. Lüter və Qalvin kimi din islahatçıları olmuş, yeni din uyduran olmamışdır. Amma bizim Şərqdə iki eşşəyin arpasını bölməyə qadir olmayanlar belə peyğəmbərlik iddiasına düşmüşlər.

Rüstəmbəy bir qədər sükut etdi. Əli onun nitqinin bəxş etdiyi təsirdən fikrə dalmışdı. Yenə üst mərtəbədən tappıltı gəlirdi. Altdan piano əvəzində çocuq bağırtısı eşidilməyə başladı. Əli Rüstəmbəyin üzünə baxdı, nəzərləri qarşılaşdı. Rüstəmbəy yenə başladı:

– Mən bəhailiyi qəbul edənlərə diqqət etdim. Bunların içində bir nəfər də olsun kamil adam yoxdur, hamısı yarımçıqlardır ki, avamlıqdan aralanıb, kamilliyə də çatmayıblar. Zatən gərək belə də olsun; çünki avam dinində möhkəm olar və ayrı dini öz dininə tərcih etməz; arif və kamillərin də dinə ehtiyacı yoxdur. Onlar dinsiz də yaşayışın yolunu tapmışdırlar. Namaz, oruc, ziyarət və qeyri-bunlar lüzumsuz şeylərdir. Ona görə ariflər yeni din axtarmaq deyil, öz dinlərinə belə etina etmirlər. Bunlar dinə qul olmağı alçaqlıq bilirlər. O ki, qaldı yarımçılıqlara – bunlar təzə din axtarmaqda tərəqqipərvərlik iddiası edirlər. Halbuki dinlə elm bir-birinə düşməndir; həmişə vuruşublar, qiyamətədək də vuruşacaqlar.

Əli çənəsindəki yumşaq tükləri buraraq qulaq asır, onun fikirlərini təsdiq edərək başını tərpədir və bəzən də üzünün cizgilərində parlayan ifadə ilə ona şərik olmadığını duydururdu. Nəhayət, Rüstəmbəyin sükutundan istifadə edərək sözə başladı:

– Yoldaş, – dedi, – din haqqında söylədiklərinin bir çox nöqtələri ilə razılaşıram. Bilirəm ki, din uydurma bir şeydir. Bilirəm ki, dinsiz də yaşamaq olar. Gözəlcə bilirəm ki, heç bir sağlam dimağ din səfsətələrinə inanmaz və inanmamalıdır. Lakin din bir əmri-vaqe olaraq, insaniyyətlə bərabər doğmuş və əsrlərdən bəri dolanbac tarix yollarında onu təşyi edir, ona yol göstərir. Bu gün bizim istehza etdiyimiz Konfuçi, Budda, Musa, İsa və Məhəmmədlərin arxasınca milyonlarca adamlar gedir; həm də fədakar və mütəəssib adamlar. Bu hala nə deyərsən? Məsələ din icad edəndə deyil, məsələ bəşərin din axtarmasındadır. Peyğəmbər olmadan da insanın dini vardı. Oda, günəşə, aya, daşa, heyvanlara tapınan azmı olmuş?

Əli sözlərini bitirmişdi, lakin gözlərinin düşüncə içində çarpınması onun qane olmamasını göstərirdi. O sanki qaranlıq üfüqdə bəzi parıltılar sezmiş, lakin onun işıq olub-olmamasını kəsdirə bilmirdi. Rüstəmbəy də düşünürdü. Bunun da fikir sahəsində yeni hərəkət başladığı gözlərindən duyulurdu.

Əli:

– Bəs nə etməli? – deyə məyus bir çöhrə ilə Rüstəmbəyə müraciət etdi.

Rüstəmbəy mətin bir səslə:

– Həyatın məqsədini anlamalı!.. – dedi.

Söhbət gecə yarısına qədər çəkdi. Əli ayağa durdu, üzr istədi və axırda bir neçə kitab alıb getdi.

## 6

Rüstəmbəy Üçdəyirmanlı Alışbəyin oğlu idi. Bu bəy kənddən daşınıb şəhəri özünə həmişəlik qərargah tutduqdan sonra bəylik və ağalıq əlamətlərini büsbütün itirmişdi. "Bəy" ləfzi çox vaxt onun rişxəndinə səbəb olurdu: "Nə bəybazlıqdır – hər kəsin qarnı toxdur, ondan yaxşı bəy yoxdur", – deyirdi.

Bu neçə ildəki şəhər məişəti arvadı Zeynəb xanımın tərzi-həyatını əsla dəyişməmişdi; xanımlara məxsus təmtəraq köhnə qaydası ilə gedirdi. Haraya getsəydi dalınca qulluqçu qəlyan gətirər, məclislərdə qapıda durar, xanımın başmaqlarını gözlərdi. Hamam səfəri isə daha cəlallı olardı. Görərdin, əvvəlcə xanım ahəstə-ahəstə yola düşdü, dalınca nökər Xanqulu bir qolunda iri boğça, o birisində su satılı, arxadan da qulluqçu Qızyetər çarşabın ucu ağzında, çəp gözlərini bərəldə-bərəldə bir əlində gümüş qəlyan, o birində tənbəki çanağı gedir. Qızyetərin başmağının bir tayının dabanı düşmüş olduğuna görə axsayırdı və hərdən ayağı büdrəyib, çuxura düşdükdə diksinər, duruxardı və bir neçə dəqiqə çuxura əyri-əyri baxdıqdan sonra nə fikir elərdisə, axırda: "Buy, qadan alım", – deyə yola düşərdi.

Hamama yavıqlaşdıqda Qızyetər özünü cəld içəri salar, "Xanım hamama gəlir", – deyə hamını xəbərdar elərdi. Hamamçı Hürzad əl-ayağa düşərdi; cansürtən Şərəf haman daş döşəməni yumağa başlardı; hamamçı Tükəzban xanımın arxası üçün həcəmət hazırlardı... Bir dəqiqədə səkiyə süzəni salınardı. Ondan sonra albuxara suyunun tədarükünə düşərdilər ki, xanım hamamdan çıxandan sonra içib sərinlənsin.

Bu həngamə bir neçə saat çəkərdi. Biçarə Xanqulu hamamın çöl divarına söykənər, mürgü döyərdi.

Hamam səfəri kimi fövqəladə hadisələr tez-tez ittifaq düşməzdi; həftədə bir dəfə olardı. Bəlkə, demirəm, xeyir-şər işi düşsəydi, onda yenə Qızyetərlə Xanqulunu səfərbərlik halına gətirərdilər. Səfərbərlik də bu idi ki, Xanquluya uzunboğaz çəkmə geydirərdilər (adi vaxtlarda, Xanqulu başmaqlı olardı), belinə bir uzun xəncər bağlardılar. O ki qaldı Qızyetərə, bunun da rəsmi libası gümüş düyməli çəpkəndən ibarət idi. Bir də üstü güllü qara çitdən bir dizliyi var idi ki, onu da hər yerə qıyıb geyməzdi.

Qalan vaxtlar isə hərəsi öz işinə məşğul olardı.

Ağalar nökər və qulluqçuya donluq vermirdilər. Bunlar qarınlarının çörəyinə və əyinlərinin paltarına qulluq edirdilər. Bir də ki, özlərinə məxsus müftə otaqları var idi. Kənddən şəhərə bəhrə az gəldiyinə görə ağaların həyatı yavaş-yavaş sadələşir və əsnaf dolanışığına dönürdü; nökərə qədimdə libas bağışlardılar, indi isə bu qayda dəbdən düşürdü. Libas dursun kənarda, ona çörək verməyə imkan yox idi. Odur ki, Xanqulu neçə il idi ki, özü üçün qazanc yolu tapmışdı. Ağasının həyətində kələm əkər, göyərti becərər, tut çırpar, tutundan sirkə qayırardı. Beləliklə, əyninin libasını və cib xərcliyini təmin elərdi. Asudə vaxtı yenə bəylərin və xanımın qulluğunda olardı.

Zeynəb xanım Ağqoyunlu Cahangirbəyin qızı idi. Cavankən "diribaşlığı" və müdrikliyi ilə ata-anasının heyrətinə səbəb olardı. Həmişə hazırcavab, sözü üzə dik söyləyən idi. Cahangirbəy deyirdi: "Arvad, Zeynəbə heç kəs yiyə durmayacaq. Atamın yatdığı yer haqqı, hansı qapıya getsə, geri qaytaracaqlar". Arvad isə ayrı fikirdə idi; bilirdi ki, qızlarının içində ərə gedib, əvvəl oğul və qız anası olan Zeynəb olacaq. Necə fikir eləmişdi, elə də oldu – on altı yaşında ikən Alışbəyə qoşuldu, qaçdı.

Alışbəy onda iyirmi üç, ya iyirmi dörd yaşında qaraqaş-qaragöz bir igid idi. Həmişə at belində, qolunda qızılquş, yanında tulaları – peşəsi ova getmək idi. Bir gün Alışbəyin yolu Ağqoyunludan düşdü. Bağların arasında fışdırıqlaya-fışdırıqlaya getdikdə, gözü bağda gəzən iki qadına sataşdı. Biri, görünür ki, xanım idi, o biri qulluqçu. Xanım ağ, totuq qız idi. Səliqə ilə geyinmişdi. Ortadan ayrılmış saçlarının üzərində qızıl pərəkli araxçın yan qoyulmuşdu; ağ kəlağayı qulağlarına do-

lanmış qara zülfünü və uzun gərdənini qucaraq aşağı sallanmışdı; çəhrayı arxalıq sinəsində yarımdairə təşkil edərək, qızıl toqqa sarılmış incə belində düymələnmişdi. Tafta köynək köksünün lətif yuvarlaqlarını əks etdirirdi. Ətəyində bir sıra əşrəfi, boynunda qızıllı şəvəsi vardı. Arxalığın geniş qolundan çıxıb zövqlə sallanan köynək qolları çəhrayı boyası ilə ağ biləklərə çox yaraşmış və sanki bir-birinə rəng verib, rəng alırdı... Bağın yabanı çiçəkləri arasında bu da çiçək kimi zəngin və gözəldi. Alışbəyi görüncə qaşlarını qaldırdı, fitnəli gözlərini süzdü və işvəkar bir səslə qulluqçuya dedi:

– Ovçuluq gözəl işdir.

Qulluqçu üzündən dünyagörmüş və çoxbilmiş adama bənzəyirdi. Çox fikir eləməyərək cavab verdi:

– Gözəl işdir, ovçuda hünər olsa.

Alışbəy kinayəni anladı və qızın gözəlliyindən, ruhluluğundan valeh oldusa da, özünü itirmədi:

– Ovçuda hünər olar, – dedi. – Sonada vəfa olsa.

Zeynəb xanım bu cavabdan xoşlanaraq yenə də gözlərini süzdü və gözəl bir təbəssümlə Alışbəyin ürəyini ələ aldı. Alışbəy ova əhəmiyyət vermədi. Bir-iki qırqovul ovladı, çayın kənarında göy ot üstdə uzandı – fikri Ağqoyunluda idi. Qızın tərpənişi, sözləri və təbəssümü zehnində canlanırdı. Ürəyi sızıllamağa başladı. “Ovçuluq gözəl işdir”, – deyə qızın sözlərini təkrar elədi, gözləri doluxdu, durdu və mətanətsiz bir halda ata mindi, öz-özünə: “Ev basmaq, adam öldürmək də lazım gəlsə, qız gərək mənim olsun”, – deyə qərar verdi.

Getdikcə Alışbəyin cəsarəti artdı. Bir də Ağqoyunlunun damları gözünə sataşdı. Alışbəyin cürət və cəsarəti yox oldu: bədəni keyidi, qız olan bağı gördükdə ürəyi sürətlə döyünməyə başladı.

Bağda heç kəs yox idi. Atın üzərindən boylanıb baxdı. İstədiyini görə bilmədi. Qızın bir neçə saat əvvəl durduğu otluq bir az əzilmiş, çiçəklər yerə yatmışdı... Alışbəyin ürəyindəki fərəh və ümid söndü; o, acı bir tənhalıq duydu. Ona əvvəlcə şən və süslü görünən çiçəklər indi qəmgin və solğun kimi idi.

Ayaqları ilə atı tərpətdi: sanki yiyəsinin məyusluğunu duyaraq, at da məyus və könülsüz addımlarla yürüməyə başladı. Alışbəyin gözləri həp bağda idi, uzaqlaşdıqca sanki canı, həvəsi və şövqü də ondan ayrılıb, yar bağında dolaşmada idi. Çəpərin dibi ilə axan arxın həzin səsi kədər saçırdı.

Başqa bağlar başlandı. İki yol ayrıcındakı yosma dəyirmanın yanında atı geri döndərdi. Yenə fərəh və ümid canlandı. Yar bağına yaxınlaşdıqda atı yavaşıtdı. Yenə yəhərdən boylanıb baxdı.

Kolun dalından qulluqçunun qalxıb yaşmanmasını sevinclə gördü. Alışbəy atı saxladı. Qulluqçu gülümsənə-gülümsənə çəpərə yavıqlaşıb əlini uzatdı. Yavaş səslə:

– Ay bəy, – dedi, – ala bunu.

Alışbəy döyükdü və əlini uzatdıqda qulluqçu ona bir tərəfi dişlənmiş bir alma verdi.

Alışbəy heyrətlə almadakı xırdaca diş yerinə diqqət etdikdə qulluqçu başladı:

– Bunu xanım göndərdi, bir də bir sifariş elədi.

– Nə sifariş?

– Dedi bəyə deyinən ki:

Ağ almanı dişlədim,
Dişlədim gümüşlədim;
Qardaş gəldi – qıymadım,
Yar gəldi – bağışladım.

Bu dəfə də Zeynəb xanımın kəskin oxu hədəfə isabət etdi. Alışbəyin ürəyi təzədən yaralandı və qan damcıları axıb cəmi bədənini ağzına aldı. Nitqi kəsildi. Dili ağzında qurudu. Axırda:

– Sabah səhər ertə burada hazır olsun, gəlib onu aparacağam, – deməyə qadir oldu.

Qulluqçu çəpərdən aralandı və uzaqlaşdıqca Alışbəyin ağlı başına gəlməyə başladı. Bir də onu çağırdı:

– Mən Üçdəyirmanlı Həsən ağanın oğlu Alışbəyəm. Sonra elə bilər, görəsən kiməm.

Qulluqçu güldü:

– Başına dönüm, elə Zeynəb xanım da sənin tayın, bərabərindir: Cahangirbəyin qızıdır. Bu bağ-bağat, ilxı, əkin, biçin – hamısı onundur.

Alışbəyin Zeynəb xanımdan üç qızı və iki oğlu var idi. Qızının böyüyünü Sarıhəsənli Nəsirbəyə vermişdi. Lakin az çəkmədi öldü və yerinə ikinci qızını verdi. Üçüncü qızı isə Sığırlı Laçınbəydə idi. Deməli, şəhərdə Alışbəyin ailəsi bir o qədər də böyük deyildi: Zeynəb xanım, böyük oğlu Səmədbəy və özü idi.

Yay vaxtları Rüstəmbəy də təhsildən qayıdardı və qızlar da övladları ilə yaylamağa gələrdilər. Onda ailə böyüyər, həyatın yektərzliyi pozulardı.

Qış fəsli isə Alışbəyin ailəsində bir dəyişiklik olmazdı. Zeynəb xanım həmişə qəlyan damağında, pəncərənin içində arxasını püştiyə söykəyib oturardı. Qızyetər ona şəhərin övza və əhvalatından nağıl elər; Alışbəy də məscid həyətinə gedər, qazının hücrəsinin qabağında oturaraq dini mübahisələrə qulaq verərdi. Səmədbəy isə qulluğunda olardı – şəhər naçalnikinin dəftərxanasında mirzə idi.

Yeri gəlmişkən, Səmədbəy barəsində də bir neçə söz:

Alışbəy kənddə Səmədbəyin tərbiyəsi üçün bir dayə tutmuşdu. Bu dayə pak ürəkli, saf bir qadındı və bu saflığı ilə də Səmədbəyə düzlük və doğruluğu təlqin eləmişdi. Lakin iradəsiz olduğu üçün balaca Səmədi öz təsirində lazımınca saxlaya bilməmişdi. Səməddə bir inadlıq və istədiyini yerinə yetirmək adəti baş vermişdi. Burada Səmədin ilk övlad olması da bir rol oynamışdı.

Nə qədər Səməd ev dairəsində idi, onun inadı, təbii, nəticəsini büruzə vermirdi. Elə ki, böyüdü, evdən uzaqlaşdı, həyatla qarşı-qarşıya gəlməyə başladı, onda tərbiyəsinin fənalığı məhsul verməyə üz qoydu. Məktəbdə uşaqlarla düz yola getməzdi. Hamını öz fikrinə, öz arzusuna tabe etmək istərdi. Bu isə baş tutmayacaq bir iş idi. Müəllimlərlə də rəftarı yaxşı olmurdu: hazırcavablığı ilə onları da zara gətirirdi. Odur ki, oxuya bilmədi, orta məktəbin dördüncü sinfində dərsi tərk etdi.

Əvvəllər cavanlarla bir az dağda-bağda gəzdi, dolandı, boş ömür keçirdi. Sonralar təngə gələrək qulluğa girmək istədi. Alışbəy onu pristavın dəftərxanasına qoydu. Bir müddət yazdı.

Lakin çox çəkmədən oradan da çıxdı.

Bir ildən sonra imtahan verdi, kənd müəllimi oldu. Burada da övc eləyə bilmədi. Müəllimlik işinin zəhmət və əziyyəti Səmədbəyi təngə gətirdi. Şəhərə qayıtdı.

Hər nə də olsa bəy uşağı olduğundan bu dəfə naçalnikin dəftərxanasına girməyə nail oldu. Səmədbəyin dost və yoldaşı olmaması onu faydalı bir yola sövq etdi: o, kitaba sarılaraq mütaliəyə başladı.

Rüstəmbəy əvvəllər böyük qardaşına əsla bənzəmirdi. Nə qədər uşaq idi, öz xüsusi işləri ilə məşğul idi – məktəbə gedərdi, dərslərini lazımınca hazırlardı. Qalan vaxtı evdə oturardı, küçəni və onun müzür

təsirini bilmərrə tanımazdı. Alışbəyin səmimi ibadəti pak əxlaqlı Rüstəmbəyin ürəyində dindar hisslər oyatmamış olmadı.

Allah ona ən yavıq, ən sevimli bir hami, bir dost, bəlkə bir qardaş kimi göründü. Ümidlərini ona bağladı, fikrini və xəyalını ona həsr elədi. Atası namaz qıldıqda Rüstəm də onun arxasında namaza durardı, mənasını anlamadığı sözlər əsrarəngizliyi ilə onun ürəyini oxşardı.

Səməd həmişə Rüstəmin ibadətinə rişxəndli bir təbəssümlə tamaşa edərdi:

– Rüstəm, – deyərdi, – balam, səndən yaxşı molla çıxar. Nahaq yerə də realniyə gedirsən. Yaxşısı budur ətəbata get.

Qardaşının sözləri Rüstəmin xətrinə dəyərdi.

– Canım, mənim işimə qarışma. Allahımla mənim arama niyə girirsən?

– Ay axmaq, Allahınla sənin aranda yer yoxdur ki, girim. Allah bütövdür, dibsiz və kənarsızdır. Ondan ayrı bir şey yoxdur; daha sən niyə özünü Allahdan ayırırsan.

Rüstəmbəy Səmədbəyin ciddi sözlərinə qulaq verər, mənasını dərk etməyə qadir olmaz və çox vaxt düşünməyə belə cəsarət eləməzdi. Bununla belə, qardaşının sözləri Rüstəmə təsir bağışlardı.

Gecələr yatağında onun sözlərini xatırlayaraq fikrə dalardı. Əvvəllər qorxa-qorxa, sonralar hər bir fikri açıqca təhlil və tənqid etməyə adət elədi. Allah, onun peyğəmbərləri və tarixi-müqəddəsdəki möcüzələr barəsində çox düşündü. Anlamadığı məsələləri Səməddən soruşdu.

Səməd də onu başa salmağa çalışdı. Rüstəmi bu məsələlər artıqlığınca həvəsləndirdi. Tez-tez qardaşına müraciət elədi. Mübahisəyə girişdilər. Səməd fikirlərini təlqin etmək üçün ona kitablar verdi. Kitablar Rüstəmin fikir dairəsini genişləndirdi, lakin qəti olaraq onun köhnə əqidəsinə xələl vura bilmədi. Yenə adəti üzrə Rüstəm ibadətinə davam edirdi.

Rüstəmbəyin əmisi Bakıda qulluq edirdi. O sonsuz olduğu üçün Rüstəmi Bakıya göndərməsini Alışbəyə yazdı. Rüstəmbəy altıncı sinifdən Bakıda oxumağa davam etdi. Əmisi Baxışbəy və arvadı Nabat xanım onun xətrini çox istərdilər. Rüstəm də onlara öyrənişib, qarşılıqlı hörmət və məhəbbətdə davam edirdi.

Bakı həyatı Rüstəmbəyin dəruni aləminə böyük təsir buraxmamış olmadı. Özünəməxsus dərs otağında fikir və xəyalına geniş meydan

verməyə müvəffəq oldu. Yavaş-yavaş Səmədin sözlərini zehnində ehya edib təhlilinə çalışdı və onları fikir dairəsində həzm eləməyə cəhd etdi. Bir gün Rüstəm öz-özünə:

– Allah doğmayıb və doğulmayıb, – dedi, – deməli, var imiş, var və olacaq. Böyükdür və küllün cəmidir. Ondan ayrı bir şey yoxdur; hamısı onda mövcuddur, hamıya da o nüfuz elər... Allah hər şeyə etidalidəmlə baxır; acıq və intiqam, rəhm və əvəz onda yoxdur. Günah, savab Allah yanında bərabərdir; onun üçün "fərq" mənası mövcud deyil.

Bu qərarla Rüstəmbəy uzun-uzadı özü ilə mübahisə elədi və axırda dərin bir əqidə ilə:

– Belə olduqda, – dedi, – Allah bizim ibadətimizə möhtac deyil. Onun üçün bizim dua və diləyimizi eşitmək də ağıla müvafiq gəlməyən işlərdəndir; çünki Allah qanunu, təbiət nizamı sabit və sarsılmazdır...

Belə-belə fikirlər Rüstəmbəyi artıqlığınca məşğul edirdi. Həllinə aciz olduğu məsələlərdə məlumatlı adamlara və kitabxanalara müraciət edərdi. Onu çox həvəsləndirən məsələlərdən biri də möcüzə idi. Qardaşı ona demişdi ki, möcüzə ola bilməz, ona inanmaq, sağlam ağıllı adamların işi deyil. Möcüzə adamları aldatmaq üçün icad olunmuşdur.

Rüstəmbəy bu sözləri fikrinə gətirdi. Təkrar-təkrar öz-özünə söyləndi, şərh elədi:

– Möcüzə, – dedi, – yəni imtiyaz. İmtiyaz, yəni təbiət müvazinəsini pozmaq. Təbiət müvazinəsi pozulduqda əbədi qanunun sabitliyi sarsılır. Bu da ola bilməz; çünki əbədi qanunun sabitliyi Allahın ədalətinə dəlildir. Əbədi qanun qeyri-sabit olduqda Allahın ədaləti şübhə altına düşür.

Bu məsələni Rüstəmbəy həll olunmuşədd edərək o birisinə keçdi.

– Həzrət İsanın göyə çəkilməsinə, – dedi, – necə inanmaq olar?

Bu sözləri huşsuz bir halda deyərək Rüstəmbəy yazı masasına yavıqlaşdı, oradan hirslə bir mədən daşı götürdü və yuxarı qaldırıb, əlindən saldı. Daş sürətlə aşağı endi və tappıltı ilə döşəməyə düşdü.

– Daş aşağı düşdü.- Rüstəmbəy dərin bir əqidə ilə dedi, – çünki əbədi qanun belə qayda qoymuşdur. Daş göyə qalxsaydı, bu, imtiyaz olardı. Təbiət imtiyaz tanımaz, daş da adam kimi durduğu yerdən özü özbaşına göyə qalxmaz: hər kəs əksinə etiqad eləsə, imtiyaza iman etmiş olur və bununla da Allahın ədalətinə inanmır...

Realni məktəbin son sinfində Rüstəmbəyi həvəsləndirən məsələlərin hamısı həll olunmuşdu. Bunun nəticəsi olaraq Rüstəmbəy namazdan və orucdan əbədi əl götürmüşdü. Onun inanıb iman etdiyi bircə Allah idi. Onu özünə, əzəmətli ağıl, zəka, yaradıcı bir qüvvə kimi təsəvvür edir, lakin lazımınca tərif və tövsif edə bilmirdi: Tövrat, İncil, Quran və qeyri din mənbəyi olan kitabları oxumaq, fəlsəfə ilə dürüst tanış olmaq lazım gəlirdi.

Rüstəmbəy üçün bu yeni dövr studentliklə başlanmışdı.

7

Sofya xanım yata bilmirdi. Xəyalı Rüstəmbəylə məşğul idi; onun vəhşi baxışı, hirsli danışığı Sofyanı qorxudur, ona rahatlıq vermirdi. Nə qədər səy eləyirdi, gözlərini bərk-bərk yumaraq başını yorğanın altında gizləyir, studentin heybətli siması gözlərinin önündən uzaqlaşmırdı.

– Yaramaz, – deyə, neçə dəfə öz-özünə təkrar elədisə də, aram tapa bilmədi; – kirayəçi bir student barəsində fikir eləmək yaramaz. Yaramaz! – dedi.

Lakin iradəsi fikrinə tabe olmaqdan imtina etdi. Yeni bir qüvvə, dəhşətli bir qüvvə bütün vücudunu sarmaqda idi. Birdən yerindən sıçradı:

– Fedya! Fedya! – deyə iztirabla ərini oyatdı. – Fedya. Naxoşlamışam, lampanı yandır. Qaranlıqdan qorxuram.

Feodor İvanoviç durdu, lampanı yandırdı:

– Əzizim, nə olmuşdur? – dedi. – Yoxsa bu gün özünü soyuğa verdin?

– Yox, Fedya, ürəyim sıxılır.

Sofya ərinin üzünə baxdı, gülümsündü və sonra onu qucaqlayıb başını sinəsinə söykədi.

Feodor İvanoviç arvadını bağrına basdı, başını sığalladı:

– Heç zadın yoxdur, sevgilim, naz eləyirsən, – dedi.

Sofya cavabında başını qaldırdı, xəstələrə məxsus bir nəzərlə ona baxdı. – Fedya, əzizim, bilsən səni necə istəyirəm.

Feodor İvanoviç arvadının sözündən məmnun bir halda, təbəssümlə:

– İnanıram, sevgilim, inanıram, – dedisə də kişi arvadının bu hərəkətini əsla başa düşmədi, bir məna da vermədi. Sofya sakit olan kimi lampanı söndürüb yuxuya getdi.

Arvad isə yenə yata bilmədi: Rüstəmbəyin siması füsunkar bir gözəlliklə zehnində canlandı.

Bu dəfə Sofya xanım studentin baxışından qorxmadı, gözlərinin içinə dik baxdı. Birdən yenə xanımın ürəyinə qorxu çökdü, bütün bədəni titrəməyə başladı. Soyuq əlləri ilə boğazındakı xaçından bərk-bərk yapışdı, dua oxudu, Allahı çağırdı... Lakin ruhuna sükut gəlmədi. Zəfini duydu və başını yasdığa söykəyərək ağladı.

8

Zəng ikinci dəfə vuruldu. Səsə kimsənin gəlmədiyini gördükdə Rüstəmbəy çıxdı. Qapını açdı. Sofya xanımla əri idi. Sofya xanım Rüstəmbəyi görən kimi əvvəl döyükdü, rəngi qaçdı. Sonra üzünə qan gəldi, yanaqları qıpqırmızı oldu. Feodor İvanoviç nəzakətlə baş endirdi və dedi:

– Siz niyə zəhmət çəkirsiniz, qulluqçu açardı.

Sofya xanım yavaş səslə:

– Yəqin, Liza gəzməyə getmişdir. Bağışlayın, sizə zəhmət verdik.

Rüstəmbəy də baş əydi:

– Çox xoşdur, – dedi.

Feodor İvanoviç sarı və nazik bığlarını buraraq gülə-gülə:

– Bu bazar axşamında necə olmuş da gəzməyə getməmişsiniz?

– Çox xoşhallıqla gəzərdim, heyf ki, yatıb yuxuya qalmışam.

– Ah, yuxuya qalmısınız... Onda buyurunuz bizə.

– Çox gözəl, – deyərək Rüstəmbəy otağına getdi.

Cəld güzgünü qapdı, saçlarını qaydaya saldı, libasını düzəltdi və bığlarının uclarını bir az da yuxarı qaldıraraq gəzinməyə başladı.

Qonşu otaqdan səs gəlirdi – görünür ki, ev yiyələri gözləyirdilər. Rüstəmbəy yavaşca koridora çıxdı, qapını tıqqıldatdı:

– Gəlmək olarmı?

İçəridən:

– Buyurunuz! – səsləri eşidildi.

Girdi. Studenti yemək masasının kənarına dəvət etdilər. Oturdu. Masanın üstündə bir-iki kitab vardı. Sofya xanım onları yığışdırdı və ərinin üzünə baxa-baxa oturdu.

Feodor İvanoviç ağ dəsmalını çıxarıb, geniş alnını sildi, gözlərinin bulaqlarını təmizlədi və zarafatla dedi:

– Siz evdə oturdunuzsa, biz sinematoqrafa getdik, şəklə baxdıq.

Rüstəmbəy mehriban bir səslə:

– Doğrusu, mən şəkilləri heç sevmirəm; hamısı bir-birinə bənzəyir.

Sofya xanım cavab olaraq:

– Əlac nədir. Evdə oturub darıxmaqdansa şəklə baxmaq yaxşıdır.

Rüstəmbəy dedi:

– Əlbəttə, doğru buyurursunuz, lakin mən küçədə qarışqa kimi gəzişən adamları görməyi, şəhərin səs-küyünə qarışmağı şəklə tərcih edirəm.

Sofya xanım ciddi və təkidedici bir səslə:

– Həmişə bu küçədə gəzmək adamı axırda təngə gətirər. Bir də küçədə əl-ayağa dolaşmaq bir az münasibətsiz çıxar.

Feodor İvanoviç gülə-gülə ayağa qalxdı və rişxəndedici bir sima ilə:

– Rüstəmbəy, şəkil barəsində mənim zövcəmlə danışmayın; çünki o şəkil məftunudur; bilxassə komik şeyləri çox sevər. Məsələn, biri qaçır, biri qovur, ayaqları süd küpəsinə ilişir, süd dağılır, küçəni sel basır...

Sofya xanım ərinin sözlərini kəsdi:

– Xeyr, bağışlayasan, mənim elə şəkillərdən zəhləm gedir, – deyərək gülümsündü, sonra təbəssümünü gizlədi və ərinə acıqlı kimi görünməyə çalışdı.

– Əzizim, bilirsən nə var: mənim üçün yüz şəkildən üç yumurtanın qayğanağı daha yaxşıdır... Bir şey ver yeyək.

Xanım güldü:

– Sənə yeməkdən savayı ayrı şey lazım deyil.

Qulluqçunu çağırdılar, yemək istədilər.

Feodor İvanoviç pəncərəyə tərəf gedib, oradan tütün qabını və çubuğunu gətirdi. Yerində oturub çubuğunu doldura-doldura:

– Rüstəmbəy, – dedi, – mən qulluqda papiros çəkirəm, evdə çubuq. Çubuğun ayrı hüsnü var. Bununla belə, sizin papiros çəkmədiyinizə qibtə ilə baxıram. Sizdən əvvəl bu otaqda bir tələbə yaşayırdı, çox pinti idi: masanın üstü və otağın döşəməsi belə kül və papiros qırıntıları ilə dolardı. Bizim xanım, təbiidir ki, ondan heç də məmnun deyildi. Sizin təmizkarlığınızı isə çox bəyənir; mənə həmişə məmnuniyyətlə söylər.

Feodor İvanoviç sözünü bitirib, qəhqəhə ilə arvadının üzünə baxdı. Sofya xanım qızardı və həyəcanını gizlətmək üçün:

– Rüstəmbəy, "Tayfunu" gördünüzmü? – deyə sordu.

– Rüstəmbəy təəssüflə:

– Hələ görməmişəm, bu günlər gedəcəyəm.

Feodor İvanoviç qəti bir səslə:

– Çox gözəl pyesdir, görmənizi şiddətlə tövsiyə edirəm. Yaponların vətənpərvərliyi bizə örnək olmalıdır. Mənə pyesin bir yeri çox xoş gəldi: bir avropalı yapona bir sual verir: Necə oldu da az vaxtda olduqca tərəqqi etdiniz? – deyir. Yaponun cavabı çox maraqlıdır: "Dövlətimizin tərəfindən hər birimizin üzərinə qoyulan vəzifəni lazımınca yerinə yetirdik", – deyir... Böyük sözdür!

Rüstəmbəy gülərək:

– Bizdə tərsinədir. Vəzifə başdansovma deməkdir...

Qulluqçu yemək gətirdi. Rüstəmbəyə də təklif etdilər, yemədi.

Feodor İvanoviç ağzındakı tikəni çeynəyərək:

– Əzizim, hər şeydən əvvəl, vəzifə paylayanın nüfuzu olmalıdır. Bir axmağın biri başda oturduqda vəzifə qüdsiyyəti yada düşərmi?

Feodor İvanoviç ağzındakını udub qumrov səsi verən qəhqəhə ilə:

– Bizdən heç ağlım bir şey kəsmir: bizimki "bəlkə"yə qalmışdır. Bəlkə işlərimiz düzələ, – dedi, təkrar qəhqəhəsinə davam etdi.

## 9

Rüstəmbəyin yapdığı təbliğat nəticəsində üç tələbə türkcə savadsızlıqlarını ləğv etməyə razı olmuşdu. Rüstəmbəy həftədə iki dəfə bunlara dərs deyirdi. Bu axşam Fərəməzgildə toplanmalı idilər. Rüstəmbəy Xəlili orada buldu, Fərəməzin özü isə yox idi.

Rüstəmbəy:

– Ay Xəlil, balam, bəs ev sahibi hanı? – deyə sordu. Xəlil qəhqəhə ilə:

– Ev sahibi kürsəyə gedib, dedi, siz oxuyun, mən də gələcəyəm. Bilirsən ki, o, babaları Qacar tərəfə çəkmişdir: bütün qüvvətini bığla kürsəyə verir.

– Yaxşı, bəs Pərviz haradadır?

– Pərvizin də kefi yoxdur, səhərdən axşama qədər laboratoriyada "Əcəb asudə idim, gəldi düçar oldu mənə", – deyə oxuyub, zəhləmi tökür.

Rüstəmbəy heyrətlə:

– Bax, bunu anlamıram: tələbə olasan, özünü də könlün olmadan evləndirələr.

– Hər şeyi sən öz arşınınla ölçmə: tacirlərin özlərinə məxsus bir ənənələri var. Bunlar sərvət dağılmasın deyə, həmişə zəngin yerdən evlənərlər. Pərvizin atası fabrikant, qızın da atası mülkədar, vəssalam. Çox da Pərviz başqasını sevir. Onun ağzına vurarlar, o da dinməz. Bu hal sənə-mənə yabançıdır. Çünki biz tacir ailəsindən deyilik.

Rüstəmbəy susdu. Durub bu böyük otağı dolaşdı, divardakı böyük tablolara tamaşa etdi, qız fotoqrafiyalarını seyr edib, gəlib oturdu. Zəng səsi eşidildi. Kim isə koridor qapısını açdı. Sonra otaq qapısı döyüldü; Rüstəmbəy və Xəlil sözləşmiş kimi bir yerdə:

– Gəlin, – dedilər.

İçəri orta boylu, uzun xətli, incə bığlı, qıvrım saçlı bir tələbə girdi:

– Bah, ya Allah, İsgəndər, həmişə sən gələsən. İsgəndər görüşüb, yumşaq kanapenin üstündə oturdu.

Xəlil:

– İsgəndər, evləndiyini eşitdik, bu necə işdir?

– İşdir də, iş də insan başına gələr.

Rüstəmbəy:

– Sən ki, Allahsan, necə oldu da insan hərəkətinə başladın, – dedi.

İsgəndər istehzalı heyrətlə:

– Allah evlənməz? Mən sami Allahı deyiləm, yunan Allahıyam.

– Deməli, onlar evlənər.

– O!.. Evlənər nədir, əllərindən hər bir kələkbazlıq gələr!

Tələbələr gülüşdü. İsgəndərin öz sözü özünə daha da xoş gəldi.

– O, yunan Allahları çox kələkbazdırlar, – deyə təkrar güldü.

Birdən Xəlil ciddi səslə:

– Yaxşı, Fərəməz evdə yoxdur deyibən, biz çay içməyəcəyik? – deyə qalxıb zəngi çaldı və qulluqçuya samovar gətirməsini tapşırdı. Sonra İsgəndərə müraciətlə: – Allah, – dedi, – mən ölüm, necə evləndin?

– Əşi, evlənməyə nə var, o ki, asan işdir. Ali qadın kurslarının yanından keçirdim. Gördüm yoxuşdan bir qız gedir. Yer qar idi, ayağı sürüşürdü. Yeriyib qoluna girdim, yoxuşa çıxartdım. Məndən çox razılıq elədi. Dedim: "Ən böyük razılıq odur ki, mənim ömür yoldaşım olasınız". Qız gülərək üzümə baxdı, heyrət etdi. Mən təklifimi təkrar

etdim. Razı oldu. Sonra bir-birimizin adını öyrənib, tatar mollasının yanına getdik. Vəssalam.

Hamı gülüşdü. Qəhqəhə o qədər şaqqıltılı idi ki, Pərvizin içəri girməsindən heç kəsin xəbəri olmadı.

Pərviz həmişəki kimi şıq geyinmişdi və həmişəki kimi də pərt və məyus idi. Lakin məyusluğuna baxmayaraq, yenə də ətirlənməyi unutmamışdı və əllərini tərpətdikcə hava qoxuyurdu.

Xəlil gülə-gülə:

– Pərviz, Allahın evlənməsini eşitdinmi? – deyə sordu. Pərviz məyus bir təbəssümlə:

– Eşitdim. Vallah, kefiniz var, – dedi və İsgəndərin üzünə həsrətlə baxdı.

Xəlil:

– Pərviz görürsən, yan, tökül. Bunun hər bir ixtiyarı öz əlində olmasaydı, özünə "Allah" deməzdi. Biz indi bunun Allahlığını təsdiq edirik.

Pərviz yenə qibtə edərək İsgəndərə baxdı və əlini qulağına yavaşca qoyub oxudu:

"Əcəb asudə idim, gəldi düçar oldu mənə..."

Pərvizin səsindəki kədər hər kəsi susdurdu: diqqətlə dinləyib, axırda əl çaldılar.

Samovar gəldi. Xəlil çay dəmlədi, Fərəməzin mürəbbəsi olduğunu bilirdi, açıb mürəbbə çıxardı, yağ, pendir, çörək, qoydu. Hamı masanın ətrafına toplanıb çay içmədə idi, Fərəməz gəldi.

Fərəməz uca boylu, qara bığlı, geniş kökslü, şıq geyimli bir tələbə idi. Nəzakətlə hamıya əl verib oturdu.

Xəlil:

– Ev yiyəsi çay içərmi? – deyə sordu.

– Həyasızlığa bax, hələ soruşur da.

– Haqlısan, bilirəm kürsəkdən sonra ürəyin bərk yanıb. Pərviz yenə heyrətlə:

– Kürsəyəmi getmişdi? – dedi.

– Bəs nədir?! Hamı sənin kimi başına vaxtsız xalta salmaz ki...

Pərviz yenə heyrətlə Fərəməzə baxdı, əlini qulağına qoyub oxudu:

"Əcəb asudə idim, gəldi düçar oldu mənə..."

Yenə qəhqəhə qopdu.

Bu dəfə zarafatın istiqaməti Fərəməzə tərəf çevrildi.. Rüstəmbəy:

– Mən görürəm, bu axşam siz dərs oxumaq fikrində deyilsiniz, heç olmasa, Fərəməz hara getdiyini anlatsın.

Pərviz Rüstəmbəyə:

– Deyəsən, sən də ayılırsan, – dedi.

– Bəs necə, cahıl-cavan deyilmi?

Pərviz bu dəfə də Rüstəmbəyi qibtə ilə süzüb, əlini qulağına qoydu. Hər kəs onun nə oxuyacağını duyaraq bir səslə:

"Əcəb asudə idim, gəldi düçar oldu mənə..." – deyə oxudular. Sonra yenə qəhqəhə partlatdı.

## 10

Sofya xanım yenə yata bilmirdi, bütün fikir və xəyalı Rüstəmbəy idi: xəyalında cilvələnən simaya oxşanaraq böyük bir həzz duyurdu: vücudu məst olmuşdu, ürəyi də xoş bir sızıltı ilə dolu idi... Xanım öz-özünə:

– İlahi, – deyirdi, – onun baxışı nə qədər gözəldir. Sofya xanım ağlayaraq o biri üzünə döndü və əlini yorğanın altından çıxardıb, başına söykək verdi, köksünü ötürdü və yenə xəyala daldı.

– Nə üçün Rüstəmbəy mənim deyildir? – dedi. – Nə üçün onun məhbubəsi, dostu və sevgilisi deyiləm?.. Nə üçün?..

Xanım hövlnak bir surətdə sıçradı, yatağın içində oturdu, gözləri ərinə sataşdı... Yuxudan oyanan kimi oldu; bir az öz-özündən utandı, vicdan əzabı duydu.

Xanım yavaşca uzandı: yorğanı başına çəkərək, gözlərini bərk-bərk yumdu.

Dəruni bir səs ona rahatlıq vermir: "Nə yapmaqdasan, ey vəfasız qadın?" – deyirdi...

Sofya xanım gözlərini açdı; yuxusu qaçmışdı. Bir də o biri üzünə çevrildi. Ürəyi yenə xoş bir iztirabla dolu idi. Rüstəmbəy hal və hərəkətləri ilə artıq ona hakim idi.

Sofya durdu, yatağında oturdu. Gözlərini həsrətlə ərinə dikdi, fikrə getdi: "Nə üçün Fedya qaraşın deyildir? Nə üçün rəftarı Rüstəmbəyinkinə bənzəmir? Nə üçün onda qısqanclıq yoxdur?"

Sofya xanım ayaqlarını çarpayıdan aşağı salladı və bədənini düz tutaraq öz-özü ilə cəsarətlə danışmağa başladı: "Heç kəsdən qorxmuram, hər nə könlüm istəyir, onu eləyirəm. Nə olacaq olsun. Çox

olar – Fedyadan boşanaram. Bir parça çörək tapmağa müstəid deyiləmmi? Günah tamam Fedyadadır: sabahdan axşamadək işləyir, gecə başını qoyur yatır, əsla məndən xəbəri olmur. Fedya mənim halımı anlamalı, elə etməli ki, mən darıxmayım. İşsizlikdən az qalır bağrım çatlasın. Axır mən gəncəm, əylənmək istəyirəm, indi də yaxşı gün görməyib, bəs nə vaxt görəcəyəm?..”

Sofyanın gözlərindən bilaixtiyar yaşlar süzülməyə başladı. O qədər ağladı ki, gecəliyinin döşü tamam islandı. Birdən nə təhər oldusa, ərinə yazığı gəlməyə başladı. “Zavallı cəmi zəhməti mənim üçün çəkmirmi? – dedi. – Mənim yemək, geymək və istirahətimi o təmin etmirmi? Fedya mənim bütün arzularımı yerinə yetirməyə çalışır, hər nə istəyirəm haman alır, gətirir. Mən də bunun əvəzində...”

Xanım əzaba uğradı; bir də cəsarətlə: “Günahkaram! Əxlaqı pozğunam! Vəfalı ərimi qoyub, gəldi-gedər bir qafqazlıya həvəslənirəm...”

Bir də xanım qeyri-şüuri bir halda yerindən sıçrayıb, küncdə, qarşısında sönük işıq yanan İsanın təsvirinə yanaşdı, dizi üstə düşüb tövbəyə başladı:

– İlahi, əfv diləyirəm. Günahımdan keç, məni haqq yola hidayət elə. Zəifəm, bağışla!..

Sofya xanımın solmuş yanaqlarından yenidən yaş axmağa başladı.

## 11

Axşam saat on ikidə Rüstəmbəy teatrdan qayıtdı. Nədənsə qapıya qulluqçu əvəzinə Sofya xanım gəldi. Rüstəmbəy üzr istədi:

– Bağışlayın, sizi, deyəsən, oyatdım, – dedi.

Xanım saçlarını üzündən dağıda-dağıda:

– Zərər yoxdur. Mən hələ yatmamışam; yatağın üstə uzanıb ərimi gözləyirəm.

– Əriniz hələ evdə deyilmi?

– Xeyr, kluba getmişdir.

– Onda o, çox gec gələr – deyə, Rüstəmbəy gülümsündü. Qırmızı dodaqları bir balaca əyildi, bığlarına və təzə qırxılmış üzünə elə məlahət verdi ki, Sofyanın fikrini özünə cəlb etdi. Rüstəmbəy bu gün çox cazibəli idi; lətif geyinmişdi, ətirlənmişdi; özü də çox nəşəli idi.

Sofya xanım otaq qapısına söykənərək koridorda durmuşdu. Yanaqları qızarmışdı; işıldayan sarı zülfləri dağınıq bir halda üzünə tökülmüşdü. Rüstəmbəy bu zülflərin gözəlliyinə heyran olmuşdu. O, divara söykəndi:

– Heç yuxum gəlmir, – dedi, – könlüm müsahib axtarır.

Sofya xanım ciddi bir halda qaşlarını qaldırdı və qəmli gözlərini süzərək, sakit bir səslə:

– Sizə müsahib nəyə lazımdır; onsuz da xoşbəxtsiniz, – dedi.

Rüstəmbəy gülümsündü:

– Xoşbəxt olduğumu nə bildiniz?

Sofya xanım cavab olaraq ciddi bir nəzərlə Rüstəmbəyin gözlərinə baxdı. Rüstəmbəy bir şey duymayaraq oynaq bir halda elektrik işığını söndürüb, yandırmağa başladı.

Bir də duruxdu, fikrə getdi. Sonra üzünü Sofyaya döndərdi. Nəzərləri bir-birinə rast gəldi. İkisi də fikir içində, ikisi də ciddi və müəmmalı idi.

Rüstəmbəy xanıma yavıqlaşdı, dirsəyi ilə qapıya söykəndi, durdu.

– Sizin fikrinizcə mən xoşbəxtəmmi?

Sofya əvvəlki mövqeyini dəyişməyərək yerə baxa-baxa:

– Xoşbəxtsiniz.

– Doğruluğuna inana bilərəmmi?

– Əlbəttə.

Rüstəmbəy titrəyən əli ilə xanımın sinəsindən aşağı sallanan saçını oxşadı və sonra onları dodaqlarına qovuşdurdu. Xanım dinmədi. Rüstəmbəy bir az da irəli əyildi. Duruxdu. Ürəyinin döyünməsinə bir az qulaq verdi və sonra məst bir halda üzünü Sofyanın üzünə yavıqlaşdırdı.

Xanım üzünü əlinin üstə qoydu, bir də qapıya söykəndi, sızıltı və iztirab dolu bir səslə:

– Allah xatirinə, məndən əl çəkin, günahımı artırmayın, – deyir, ağır bir xəstə kimi zarıldayırdı. – Allah xatirinə, məndən əl çəkin; – deyirdi, – zəfimdən istifadə etməyin.

Rüstəmbəy davamlı bir busənin ləzzətindən mütəəssir bir halda çəkilmiş, kənarda durmuşdu. Bir dəqiqə əvvəlki hərəkəti ona röya kimi görünürdü. Yuxudan ayılan kimi oldu. Gözü Sofya xanıma sataşdı. Nəfsinin əsiri olan bu qadına bir az acıdı. Ona nəsihət eləmək istədi, bir də xanımın gözəlliyi onun fəlsəfəsinə qələbə çaldı: ehtirasa tutul-

muş student divanə kimi xanımı bağrına basıb dodaqlarını, qırmızı yanaqlarını və ağ gərdənini busə odu ilə yandırmağa başladı.

Sofya xanım studentin qucağında hissini qaib edərək, bütün varlığını yaddan çıxartdı.

Bir də gözünü açdı. Rüstəmbəyin vəhşi baxışına rast gəldikdə ayıldı:

– Bu nə işdir? – deyə bu kəlmələri xanım neçə dəfə təkrar elədi və studentin əlindən çıxıb, kənara çəkildi.

Sofya xanım otağına çəkilmək meylində idisə də ayaqları getmir, studentdən aralana bilmirdi. Əllərini üzünə qoydu, ağlamsındı:

– Aman, nə günah işlər görməkdəyik!..

Vicdan zəlzələsi bütün vücuduna yayıldı. Zavallı qəmli gözlərini Rüstəmbəyə döndərdi, yalvardı.

– Allah xatirinə, məndən əl çəkin... Rüstəmbəy, mənə yazığınız gəlsin.

Rüstəmbəyin də vicdanı oyandı, bu da bir tərəfə idi, lakin xanımdan aralanmağa cəsarət eləmədi.

– Sofya Sergeyevna, günah eləyirik. – Əlbəttə... həm də çox böyük günah.

Student bir az duruxdu, otağına getmək istədi, gedə bilmədi; özündə bir böyük qüvvə hiss elədi, bu qüvvə onu xanıma tərəf çəkirdi.

Nəfs vicdana qalib gəldi, şəhvət hissi damarları ilə axaraq vücuduna yayıldı. Rəngi qaçmış bir halda yenə xanıma yavıqlaşdı.

Rüstəmbəy xanımın üzünə diqqətlə baxdı, gülümsündü: özündə nəfsindən başqa bir qüvvə duymurdu.

Sofya xanım da iradəsini qaib etmişdi, hərdənbir dili ilə qurumuş dodaqlarını isladır, studentin üzünə heyran-heyran baxırdı... Birdən bilaixtiyar ikisi də dodaq-dodağa gəldilər...

Çoxmu öpüşdülər – bu onlara məlum deyil idi: bütün varlıq onların gözündən itmişdi. Ancaq özlərinə gəldikdə student saata baxdı və içini çəkdi:

– Vay, saat üçdür, – dedi. – İndicə əriniz gələcək. Öz otağının qapısını açdı: bir də fikirləşdi, qapının arasında dayandı. Xanımın baxışından onun getməyə əsla meyli olmadığı görünürdü.

Rüstəmbəy qapını daha da açdı və "salamat qalın", – dedi.

Lakin yenə aralana bilmədilər, bir də yavıqlaşdılar. Bir də öpüşdülər. Yenə şəhvət nəşəsindən ayıldıqda hərəsi bir guşəyə çəkildi,

vicdanları ilə mühakiməyə girişdilər. Nəhayət, studentin siması qayət ciddiləşdi; xanıma baxmayaraq, otağının qapısını açdı:

– Salamat qalın, – dedi.

Rüstəmbəy otağına girdikdə lampanı yandırmadı, öz-özünə: "Bəlkə Sofya xanımın əri küçə ilə gəlməkdədir, deməzmi bu vədə kirayəçinin işığı niyə gəlir", – deyə fikirləşdi, ürəyinə qorxu çökdü, otağının ortasında hərəkətsiz durdu.

Elə bil donmuşdu; fikir və xəyalı da onunla bərabər dayandı. Bir neçə dəqiqə keçdi. Student ayıldı və halından xəbərdar olmaq üçün öz-özünə dedi: – "Mən nə etdim... Özgənin arvadını yoldan çıxardıram..."

Rüstəmbəy mütəəssir oldu və əli ilə başından yapışıb, xəstələrə məxsus bir halla zarıldadı:

– Günah işləyirəm.

Səs qaranlıq otaqda uzun bir müddət qəribə bir halda cingildəməyə başladı; divarlarla toqqaşdı və yenidən qayıdaraq, Rüstəmbəyin qulaqlarına doldu:

– Günah işləyirəm...

Rüstəmbəy yenə dondu, fikri də donub qalmışdı; bütün vücudu yoxluq aləminə dalmış kimi idi.

Bir azdan ayıldı. Pəncərə gözünə sataşdı, yavaş-yavaş masanı görməyə də qadir ola bildi. Hər tərəfi diqqətlə süzdü, özünü yada saldı. Mənasız yerə otağın ortasında durduğunu da sezdi. İstədi irəli yerisin, lampanı yandırsın; bir də işlədiyi günah yadına düşdü. Yenidən onu fikir götürdü. Yenə pəncərə və yazı masası gözlərindən qaib oldu. Cansız və ruhsuz bir sütun kimi dim-dik qaldı... Bir də "nə etməkdəyəm?" – deyə döyükmüş gözlərini ətrafa saldı; bir-iki addım atdı, çarpayısına yanaşdı. Yatacağını düzəldib, yatmaq istəyirdi, lakin nədənsə əlləri qalxmadı, iradəsi onu tərk etmişdi.

Bir neçə dəqiqə bu halda dayandı, fərsiz gözlərini bir nöqtəyə dikdi və yenə mənasız yoxluğa daldı. Varlıq nəzərində heçə çevrilmişdi. Çarpayısının üstə oturduqda, özünə gəldi, düşünməyə başladı. Bu axşam Sofya xanımla ilk dəqiqələrdən tutmuş sonuna qədər keçirdiyi vaxtı xatirinə gətirdi; hər əhəmiyyətsiz nöqtəni zehnində ehya edərək təhlilinə çalışdı, inanacaq şeylər çox az idi, hər şey ona yuxu kimi gəlirdi. Özünə sual verdi:

– İşin bu dərəcələrə qədər varmasına səbəb nə oldu?

Başını aşağı saldı, gözlərini yumdu: Rüstəmbəy bu suala cavab tapa bilmirdi.

Yenidən ayağa durdu, döyükmüş nəzəri ilə pəncərədən çölə baxdı... Küçədən fayton səsi gəlirdi, işıqlaşmışdı.

Rüstəmbəy üsulluca yatağına uzandı, gözlərini yumdusa da, yuxuya gedə bilmədi.

## 12

Rüstəmbəy günorta çağı yuxudan oyandı. Durdu, geyindi, əl-üzünü yuyub evdən çıxdı. Studentlərə məxsus aşxanaya getmək istəyirdi. Öz küçəsindən sağ tərəfə dönüb Böyük Vladimir küçəsinə çıxdıqda student Cəfərə rast gəldi. Görüşdülər. Cəfər gülümsünə-gülümsünə Rüstəmbəyin qoluna girdi:

– Deyəsən, Rüstəm, bu gün tez acmısan, – dedi.

Rüstəmbəy ciddi bir səslə:

– Hələ acmamışam, bir az gəzmək istəyirəm.

– Mən də acmamışam, ancaq iştaha üçün bir az dolanmaq lazımdır.

Rüstəmbəy güldü:

– Yediyin beş şahılıq nahardır, ona da iştaha açırsan.

İkisi də bir yerdə gülüşdü. Birdən Rüstəmbəy ciddiləşdi, siması süni bir şəkil aldı. Cəfər yoldaşının üzündəki dəyişikliyi görərək:

– Balam, gözümə birtəhər dəyirsən, naxoş deyilsən ki? – dedi.

– Yox.

– Özü də, deyəsən yuxudan indicə durmuşsan... Gecə harada idin ki?..

Rüstəmbəy düşünmədən cavab verdi:

– Heç yerdə, evdə.

Cəfərin dodaqlarında iymalı bir təbəssüm gəzməyə başladı. Bu təbəssümlə də Rüstəmbəyi süzdü. Rüstəmbəy süni bir ciddiyyətlə:

– Gülümsənirsən, – dedi.

Cəfər özünü saxlaya bilmədi:

– Deməli, gecələr yata bilmirsən.

Rüstəmbəy bu sözlərdən sonra özünü itirdi, qızardı və üç-dörd dəfə Cəfərin üzünə baxaraq söz tapa bilmədi. Sonra dəruni iztirabını bildirməmək məqsədilə yenə süni bir tərzdə ciddiləşdi:

– İmtahanların nə vaxt başlanır?.. Yəqin, oxumaqdan-macal tapa bilmirsən.

Cəfər daha da gülümsündü:

– Olanda olur, – dedi.

– Nə olur?

Cəfər iymalı təbəssümlə:

– Məsələn, gecə ev xanımı ilə söhbət bir az artıq çəkir, yuxudan qalırsan.

Rüstəmbəy özünü büsbütün itirdi. O, halını gizlətmək üçün acıqlı bir səslə:

– Sən də zarafata vaxt tapdın, mən ölüm, qoy görək, – dedi.

Cəfər dodaqlarındakı təbəssümə təğyir vermədən:

– Zarafat eləmirəm, olanda olur, – dedi.

Rüstəmbəy daha da acıqlı:

– Mən ölüm, əl çək, ovqatım təlxdir.

– Çox səsə-küyə salma, guya mən heç zad bilmirəm. Sən dünənki sərçəsən, amma mən arvadbazlıqda saqqal ağartmışam... Bala, zarafat deyil, səkkiz ildir studentəm, bu Kiyev şəhərində mən bilirəm nələr eləmişəm...

Rüstəmbəy yumşaldı və Cəfərə baxaraq bir az da gülümsündü. Cəfər də gümanının doğruluğunu duyub lovğalandı:

– Adın nədir – Daşdəmir, yumşalısan, yumşalı... Buncuğaz qoca Cəfərə kələk gəlmək istəyir. Bala, o fəndlərdən çoxdan çıxmışam, kələk gəlmək istəyirsənsə, özgələrə gəl.

Rüstəmbəy daha dinmədi. Cəfər bir az səbir edib başladı:

– Bunlar dursun kənarda, indi de görüm xanımın qəşəngdirmi? Utanma, indi cavanlıqdır da, arvadbazlıq eləməyən kimdir... Ancaq bir iş var ki, səninkini Allah lap evində yetirib; deməli, biz qoca vaxtımızda dağı-daşı gəzək, sən başıyın altına qoy otur...

Rüstəmbəy gülümsündü, Cəfər sözlərində davam edirdi:

– Gülərsən. Mən özüm işin başını açandan sonra gülərsən. Sən kiçiksən, qayda bu idi ki, gəlib mənə məsləhət eləyəydin, deyəydin: "Ay Cəfər əmi, bir belə iş var, nə təhər eləyim?". Onda mən də sənə yol göstərərdim. Yoxsa, daha indi nə deyim...

Rüstəmbəy yenə gülümsündü:

– Canım, – dedi, – axır nə olub ki... Arvad-zad yoxdur, nahaq yerə güman eləyirsən.

Cəfər Rüstəmin sözlərini kəsdi:

– Ey bivəfa cavanlar, getdikcə xarab olursunuz, studentliyə ayrılıq salırsınız. Qardaş, biz hamımız yoldaşıq, hər kəsin əlinə nə düşdü, gərək xudbinliyi kənara qoyub, yoldaşını da yada salsın...

Rüstəmbəy Cəfərin sözlərinə daha etina eləmədi. Cəfər bir az danışıb, sükut etdi. İkisi də dinmədən aşxanaya yönəldi.

13

Aşxananın önündə qız və oğlan tələbələr növbəyə düzülmüşdülər, bilet gözləyirdilər. Növbə bu gün çox uzun idi, darvazadan çıxıb Fundukleyevski küçəsinin ortasına qədər uzanmışdı. Cəfər bunu gördükdə içini çəkdi:

– Paho veey... ada, bu gün nə çox adam var.

Rüstəmbəy təəccüb etməyərək:

– Balam, ancaq iki saatdan sonra nahar eləmək olacaq, növbə çox uzundur.

– Səbir elə, bu saat düzəldərəm. Sən növbədə dur, mən baxım görüm bilet tapa bilərəmmi. Onda tez olar.

Rüstəmbəy gəldi, bir qızın arxasında növbəyə durdu. Cəfər ətrafa göz gəzdirdi, bir də gülümsündü, tanışa rast gəlmişdi:

– Allah saxlasın, Vartan.

– Allah saxlasın.

– Vartan, gör biletin varmı?

Vartan gülə-gülə:

– Bilmirəm, görək varmı, – deyərək qotazlı bir kisə çıxartdı.

– Ey Vartan, sən də qədim adamsan ha, indiki studentlər bu kisənin qədrini bilməzlər.

– Hə, canım, sənin-mənim qabağımda indikilər nə köpəkoğludur.

Cəfər güldü və əlini Vartanın pırpız saqqalına uzatdı.

– Ay bij Vartan!

Vartan burnunu çəkə-çəkə kisənin dibindən bir neçə sarı və qırmızı bilet çıxartdı və hesablayaraq dedi:

– Canım, bu mənim supum, bu da kotletim, qalan da sənin, ta məni öldürməyəcəksən ki...

Vartan biletləri Cəfərə verdi, gülə-gülə növbəyə duranların yanından keçib aşxanaya girdi.

– Sağ ol, Vartan! – deyə Cəfər Rüstəmbəyin yanına gəldi:

– İşlər yaxşıdır. Vartandan beş şahılıq bilet aldım, bir o qədər də tapsaq, qarnımızı doyduraraq.

Rüstəmbəyin önündə növbəyə duran qız diqqətlə türk dilinə qulaq verirdi. Bunu Cəfər duyaraq, Rüstəmbəyə göz elədi.

– Qabağında duranla aran necədir? – dedi və sonra talibəyə yönələrək rusca başladı:

– Yoldaş, deyin görək bizə satmağa artıq biletiniz varmı? Acından ölürük.

Cəfər sözünü qurtaran kimi ağız burnunu elə əydi ki, talibə gülməyə başladı:

– Heyf ki, yoxdur, olsaydı daha növbəyə durmaq lazım gəlməzdi.

– Bəli, doğru buyurursunuz. Ancaq dedim, bəlkə birdən oldu.

– Olmaya-olmaya birdən necə ola bilərdi? – deyə talibə daha da güldü və sonra özünü gülməkdən saxlayaraq qızarmış üzünü aşağı saldı.

Növbəyə duranların böyründən bir dəstə student keçirdi. Cəfər onlara yönəldi:

– Bağışlayın, yoldaşlar. Sizdən bir ricam var. Biletiniz varsa, bir naharlıq iltifat buyurun.

Studentlər durdular və biri məmnun bir halda qoltuğundan bir dəstə bilet çıxartdı:

– Buyurunuz, – dedi, – nə qədər sizə lazımdır, götürün. Cəfər bir neçəsini götürdü, pul verdi:

– Sağ olunuz, yoldaşlar! – deyə papağını qaldırdı. Onlar da cavabında:

– Bir şey deyil, – dedilər. Cəfər dərhal Rüstəmbəyə yanaşdı:

Qardaş, indi növbədən çıxa bilərsən, iki naharlıq biletimiz var. Əlavə bir fincan qəhvə də içməyə ixtiyarımız var.

– İkinci növbə balacadır.

– Burada adam həmişə az olur, çətin əvvəlkidir. Rüstəmbəy və Cəfər yemək salonunun qapısında növbəyə durdular. Bilet satılan daxıldan xilas olan gənclər gəlib ikinci növbəyə dururdular, Kimi nahar intizarında bikef duraraq fikrə getmişdi, kimi papiros çəkir, tüstüsünü havaya buraxırdı. Qafqazlılar deyib gülüşürdülər, səs-küyləri hamının nəzərini özlərinə cəlb eləmişdi. Cəfər ətrafdakıları tənqid edərək qəhqəhə çəkirdi.

– Rüstəmbəy, bir arxanda duran qıza bax. Zalımın nə balaca burnu və dodaqları var...

– ?!

– Deyirəm, Rüstəmbəy birdən adamın bir belə arvadı ola, özü də ildə bir qız doğa. Qızlar da anası kimi arıq-uruq ola...

Rüstəmbəy mabədini düzəltdi:

– Özünün də çoxlu borcu ola, tez-tez gəlib qapını döyələr...

– Hə, – Cəfər başladı, – gözəl qızların da buzov karvanı kimi, tökülüb gəlib sənə xəbər gətirələr ki, pul dalınca gəliblər.. Xülasə, adamın ürəyi dağ kimi olar...

Növbə irəli gedirdi. Qapının yanında bir tələbə durub, masa nömrəsi paylayırdı. Cəfər:

– İki dənə yan-yana nömrə verin, – dedi.

Tələbə nömrələri uzatdı:

– Bir on beş var, bir də on, buyurun orada dəyişiniz. Nömrələrlə salona daxil oldular. On beşinci masada bircə boş yer var idi. Cəfər nömrəni boş kürsünün üstə qoydu:

– Qardaş, bu bizim yerimiz. Sənə də öz yanımda bu saat yer taparam. Deyəsən, bu yoldaş yeyib qurtarır.

Cəfərlə yan-yana bir yəhudi tələbəsi oturmuşdu, nahara məşğul idi. Cəfər soruşdu:

– Yoldaş, siz naharı qurtarırsınızsa, nömrənizi bizə verin.

Tələbə razı oldu, onuncu nömrəni aldı, özününkünü ona verdi. Rüstəmbəy də on beşinci masada yer tutdu. Sonra nahar dalınca getdilər.

Salonun baş tərəfində aşpazlar bişmiş paylayırdılar. Rüstəmbəy və Cəfər masanın üstündən adama bir boşqab götürdülər.

– Rüstəm, nə yeyəcəksən?

– Mən əvvəlkinə borş alacağam, sonra görək nə olur.

– Mən sup.

Hər kəs istədiyini aldı. Əvəzində neçə qəpiklik bilet lazımsa verdilər və yerlərinə gəldilər.

Salona arası kəsilmədən adam girib-çıxmaqda idi. Ortalıqda ağ geyimli xidmətçi qızlar dolaşırdı. Kimi boşalmış qabları geri daşıyır, kimi doldururdu. Hərə bir işlə məşğul idi. Qabların cingiltisi, adamların səs-səmiri salonu doldurmuşdu. Hamıdan da artıq qafqazlılar, küy eləməkdə idi. Arabir Cəfər də səslənirdi:

– Vay, Vartan, aşna, haradasan?

O da həmin tonla:

– Ağzında zəhrimarını ye, köpək oğlu, – deyirdi. – Aşna haradan olduq, sən musurman, mən erməni.

– Yenə erməniliyini bildirmə, dur gəl bura. Vartanın səsi kəsildi. Yoldaşı ilə söhbətə məşğul idi.

Cəfər ondan vaz keçərək nəzərini öz masasına çevirdi. Qarşısında sarısaqqal bir rus tələbəsi oturmuşdu. Özü kimi sarışın və arıq arvadı da yanında idi.

– Rüstməbəy, qabağımızda oturan ər-arvaddı ha, ona bax: ikisi bircə qab sup almış.

Rüstəmbəy gülümsündü:

– Onun üçün ikisinin də boynu armud saplağına dönüb də...

– Bunları aparasan Qafqaza, özlərinə də eyzən kələm dolması verəsən, kökələlər.

Rüstəmbəy güldü. Rus tələbəsi başını qaldırıb, yazıq bir baxışla onları süzdü. Elə bil aclıq gözlərini fərddən salmışdı.

Cəfər ayağa durdu:

– Gəl qəhvə dalınca gedək. Sən öl, bizlər bunlara görə çox ağıllıyıq. Gör, pulum olmasa, min il qala evlənərəmmi?

Vartan on beşinci masaya yavıqlaşdı. Dişini qurdalaya-qurdalaya:

– Adə, Cəfər, – dedi, – yenə qudurmusan, qəhvə içirsən?.. Cəfər süni təkəbbürlə:

– Niyə içməyim, ay orac?

– Köpək oğlunun sözünə bax, elə biləsən dədə-babası qəhvə içmişdi.

– Yox, səninki içmişdi. Get, köpək oğlu darı əkməyinə.

– Bircə buna bax, Rüstəmbəy, sən məzhəb, bircə bu köpək oğluna bax gör nə lovğa-lovğa oturub burada qəhvə içir, atasının pendir-çörək yeməkdən dişinin dibi gedib...

Bu halda salonda bərk bir qəhqəhə yayıldı. Hamı dönüb, aşağı tərəfə baxdı. Vartan sözünü kəsib, bir az dayandı və sonra:

– Budur, Həsənqulu gəldi, – dedi, – musurmandı deyən eşşək kimi anqırır.

Həsənqulu qarayanız, arıq bir student idi. Fövqəladə qəhqəhəsi ilə aşxanada şöhrət qazanmışdı. O güləndə, salondakı neçə yüz nahar edənlərin səsi bilmərrə yox olardı. Həsənqulu on beşinci masaya yavıqlaşdı. Burada səs-küy daha da ucalmışdı. Vartan kənara çəkilə-çəkilə:

– Canım, musurman artdı, daha burada durmaq xatadır, – deyə getdi. Hamı gülüşdü.

Yenə Həsənqulunun qəhqəhəsi salonu başdan-başa qavradı və xalqın heyrətinə səbəb oldu. Cəfər ayağa qalxdı:

– Sağ ol, Həsənqulu, sənsiz buraların ləzzəti yoxdur. Rüstəm də gülümsündü:

– Həsənqulu, niyə gec gəlirsən?

– Balam, günortaya kimi yatırıq, iştahamız olmur.

Cəfər:

– İştaha açmaq istəyirsənsə, gəl buradakı qızlara bax, gör necə acırsan.

– Yaxşıca balalar var, anamın gəlini olsunlar. O gün burada bir cuhud qızı oturmuşdu.. Qənbərlə qarşısında əyləşdik, bir saat gözümüzü ona zillədik. Axırda acıqlandı, durdu getdi.

– Balam, Qənbər də bijləşib, əvvəllər elə dinc idi ki, amma indi qızlarla gözləşir.

Rüstəmbəy ciddi sima ilə qulaq asırdı, dinmirdi. Nəhayət, söhbətə qarışdı:

– Studentlik yetirir. Adam nə qədər dinc olsa da axırda xarab olur.

Birdən Rüstəmbəy öz sözlərindən dilgir olaraq pozuldu, bikef bir halda masadan çəkildi.

– Salaməleyküm, Rüstəmbəy, – deyə ləmfaviməzac bir student ona əl uzatdı. Görüşdülər. Rüstəmbəy ciddi və soyuq bir təbəssüm oynada-oynada dedi:

– Pay, Əliyar, ya Allah!.. Nə qayırırsan? Görükmürsən.

– Mən görükürəm, sən görükmürsən. Yəqin kələyin var. “Kələk” sözü Rüstəmbəyin ovqatını bir az qarışdırdı.

Güclə yadından çıxartdığı işlər gözlərinin qarşısında yenidən canlanmağa başladı, Sofya xanım havayı öpüşləri ilə zehnində təcəssüm etdi. Anlaşılmaz bir qorxu soyuq pəncələri ilə bütün bədənini əzməyə başladı.

Rüstəmbəy bilaixtiyar əlini Əliyara uzadıb aralandı.

## 14

Cəfər addımlarını sürətlə ataraq Rüstəmbəyə yetişdi.

– Canım, yenə peyğəmbər kimi başını aşağı salıb camaatdan qaçırsan.

Rüstəmbəy mənalı bir nəzərlə Cəfərə baxdı. Cəfər gülümsündüsə də, Rüstəmbəy dəyişmədi, görünür ki, cəmi fikir və hissləri dəruni aləmi ilə məşğul idi. Cəfər məəttəl qaldı: "Gədə dəli olmayıb ki?" deyə fikrə getdi. Sonra onu başdan-ayağa süzdü, o haman əvvəlki Rüstəmbəy idi, ancaq gözə bir az fikirli və bikef dəyirdi.

Dinmədi. Yan-yana bir az getdilər. Sükutu Cəfər pozdu:

– İndi qarpız yesək pis olmaz. Belə deyilmi?

Rüstəmbəy fikirli gözlərini Cəfərə dikdi. Sözlərini çeynəyə-çeynəyə dedi:

– Ya... xşı... ye...yək.

İkisi də küçəni o taya keçib, qarpız satan bir gənc qıza tərəf yönəldilər. Cəfər qarpızları bir-bir çırtmaladı:

– Xala, bu neçəyədir? Qız gülümsündü və rişxəndlə:

– Əmi, beş şahıdır, – deyə cavab verdi. Cəfər ağzını əydi:

– Paho!.. Xalacıq, bu çox bahadır, qarpıza beş şahı vermək student cibinə yaraşmaz.

– Yaraşmaz, yeməsin. Student gərək qarpız yesin?

Qız qəhqəhə çəkdi, güldü. Cəfər qarpızı əlinə götürdü, o biri əli ilə də qıza üç şahı uzatdı.

– Student bundan artıq verə bilməz, – dedi.

– Yox, olmaz.

– Olmaz, mən də almaram.

Cəfər qarpızı hirslə yerinə qoyub, geri çəkildi, qiymətini azaltmaq üçün bir-iki addım da qızdan uzaqlaşdı. Sonra duruxsunub Rüstəmbəyə dedi:

– Deyəsən, köpək qızı üç şahıya verməyəcək.

Rüstəmbəy əlini cibinə saldı:

– Zərər yoxdur, gedək beş şahıya alaq, məndə pul var.

Cəfər razı olmadı:

– Yox, sən qoy dursun, mən alacağam.

Bir də qıza yavıq gəldilər. Cəfər əlini qızın çənəsinə uzatdı:

– Nə xəsisdir, bizim bu xala, – dedi.

Qız Cəfərin əlini üzündən uzaqlaşdırdı:

– Dinc dur, – dedi.

Cəfər qarpızı qoltuğuna vurdu, yola düzəldilər.

Bir-iki küçə keçdilər. Sonra bir həyətə girdilər. Pilləkənlə çıxıb, zəngi vurdular. Qapı açıldı. Daxil oldular.

Cəfər otağın qapısını açarı ilə açıb, Rüstəmbəyi içəri dəvət elədi.

– Bu otaq sənə peşkəşdi. Xoş gəlmisən.

– Sağ ol.

Rüstəmbəy daxil olan kimi, otağı nəzərdən keçirdi. Böyük pəncərənin qarşısında yazı masası qoyulmuşdu. Masanın üzərində bir çox rəsmlər var idi. Cəfər bunları yığışdırıb qarpıza yer düzəltdi. Qulluqçunu çağırdı. Boşqablar və çəngəl-bıçaq gəldi, qarpız kəsildi. Cəfər dedi:

– Yaxşıca qarpızdır.

Rüstəmbəy çəyirdəkləri ağzından tökə-tökə:

– Pis deyil...

Bu halda zəng vuruldu. Kim isə qapını açdı. Cəfərin qapısını tıqqıldatdılar:

– Gəlmək olarmı?

– Buyurun! – deyə Cəfər ayağa qalxdı.

Qapı açıldı. İçəri qaraqaş, qaragöz, nazik bığlı bir student girdi. O gülümsünərək:

– Balam, qarpız yeyirsiniz, – dedi. Rüstəmbəy ayağa durdu:

– Ya Allah, Çingiz.

Mehribancasına görüşdülər, bir-birinin əlini bərk-bərk sıxdılar, oturdular.

Çingiz qarpızdan bir parça kəsib önünə qoydu.

## 15

– Ay Çingiz, balam, haradasan? Aşxanaya da vaxtında gəlmirsən ki, bir az söhbət eləyək.

– Cəfər, başım bərk qarışıqdır.

– Nəyə?

– Nəyə olacaq, imtahanlara. Həkim babayıq, o qədər imtahanlarımız var ki, bircə rahat çörək yeməyə də macalımız yoxdur.

– İndi nə hökm olubdur ki, özünü öldürürsən. Qoy, sonra verərsən.

– Olmur, evdə işimiz elədir ki, gərək tez qurtaram. Atam yazır ki, qocalmışam, tez ol qurtar, gəl. Mən də gərək bir az səy eləyəm.

– Sən öl, kişi bu yeddi ilin ərzində heç mənim işimdən baş açmadı. Deyir: “Hansı kursdasan?” – Deyirəm: “Dördüncüdə”. – deyir: – Bəs üç ildi oranıca niyə qurtara bilmirsən?”. Xülasə, yazıqların başına ip salıb oynadırıq...

Rüstəmbəy Cəfərin sözünü kəsdi.

– Dədəmi mən başa salmışam. İndi havaxt ki, qayıdıram, deyir: "Qurtarmağa neçə imtahanın qalmışdır?" Arxayın eləmişəm ki, iki ilə qurtaracağam.

Cəfər gülə-gülə:

– Nə bilir ki, hələ dörd ildən sonra da qurtarmağa meylin yoxdur.

Rüstəm ciddi:

– Yox, iki ilədək qurtarmalıyam.

– Neçə imtahan vermisən ki?

– Hamısını vermişəm, üçü qalır, bir də ki, dövlət imtahanı. Deməli, ikisini dekabrda verərəm, biri də maya qalır. O biri il də diplom alarıq...

Çingiz təkidlə:

– İki ilə qurtararsan. Nə var ki, yurist deyilsənmi?

Cəfər Rüstəmbəyə işarə edərək:

– Balam, asanca fakültəyə girirlər, dörd ildə oynaya-oynaya qurtarıb gedirlər. Biz yazıq da meyit içində, azarlı yanında illərlə küllənirik.

Qarpız qurtardı. Qulluqçu gəlib qabıq və boşqabları apardı. Çingiz papiros yandırıb çarpayının üstə uzandı. Rüstəmbəy Cəfərdən razılıq istədi:

– Uzanmaq olarmı? – dedi.

– Buyur, buyur!

Rüstəmbəy də uzandı.

Cəfər fikirli bir halda otağın ortasında duraraq saata baxdı və gülümsünə-gülümsünə:

– Allahdan gizlin deyil, sizdən nə gizlin, mənim bir gedəcək yerim var. Siz yatın. Sonra durub çay qoydurarsınız. Mən də gələrəm, bir yerdə içərik.

Çingiz gülümsündü və Cəfərin üzünə kinayə ilə baxmağa başladı.

– Dostum, – dedi, – işini duymuşam, qız görüşünə gedirsən, deyəsən.

Rüstəmbəy də gülümsündü:

– Elə olan işə bənzəyir, – dedi.

Cəfər hiyləgər bir təbəssümlə göz vurdu və qonaqları sakit eləyə-eləyə:

– Qardaş, hər sirr Allah yanındadır. Siz də mənim işlərimə əl apar-mayın.

Cəfər sözlərini qurtaran kimi, şapkasını başına basıb otaqdan çıxdı.

Rüstəmbəylə Çingiz gülüşdülər və Cəfərin səmimi rəftarından məmnun oldular.

Bir-iki dəqiqə sükutdan sonra Çingiz papirosu ağzından çıxartdı. Rüstəmbəyə tərəf yönəldi.

– Rüstəm, işlərin nə təhərdir?

– Niyə Çingiz, yaxşıdır. Hazırlaşıram, görək imtahan vaxtı necə olacaq.

– Heç zad olmaz, verərsən gedər: "Roma hüququnu" hazırlamır-sanmı?

– "Roma hüququ", bir də "Kilsə hüququ". Sənin işlərin nə təhər-dir?

– Dünən kimyanı verdim. İndi hələ gəzirəm. Bir neçə gündən son-ra yenə oxumağa başlayacağıq.

– Onda o biri imtahanın nə vaxt olar?

– Görək, olsun ki, bir aydan sonra.

– Cəfərin işi nə təhərdir?

– Niyə, yaxşıdır.

– İki ilə qurtararmı?

– Oxusa qurtarar.

Bir az sükutla keçdi. Çingiz papirosun külünü kənara töküb dedi:

– Daha nə var? Mənim başım imtahana qarışdı, dünyadan xəbərim olmadı.

– Bir az qələyan var, – deyə Rüstəmbəy gülümsündü. – İdarəmiz-dən şikayət edirlər.

Çingiz bu sözlərdən bir az pərt oldu, çünki müsəlman "zemlyaçest-vosunun" sədri olduğu üçün, bu şikayətlər ən əvvəl ona toxunurdu. Ağzından papirosu çıxartdı və həyəcanını büruzə verən səslə dedi:

– İş şikayətsiz olmaz. Bu həmişə belə olur...

Rüstəmbəy qəti bir səslə:

– Bilirsən, Çingiz, sən idarəni çağır, bir danışaq.

– Mən bir şey demirəm. Gəlin danışaq. İndi mən tamamilə bika-ram...

Bununla elə bil iki tərəfin də mövzusu tükəndi; susdular...

Çingiz yuxudan oyandı. Rüstəmbəyi oyatmamaq üçün üsulluca durdusa da, olmadı – Rüstəmbəy də gözlərini açdı. Əvvəlcə səksəkəli qalxaraq, mənasız bir nəzərlə ətrafı süzdü, sonra dürüst ayıldı:

– Çingiz, nə çox yatmışıq, balam? – dedi.

– Zor yatdıq.

– Deməli, mənim sözlərim ikimizə də layla çaldı ha...

– Hə... Amma lap gecə düşmüşdür...

– Cəfər də gəlmədi, vüsalı uzun çəkdi.

– Hara gəlir?.. Gedək bizə.

Rüstəmbəy razı oldu.

Küçəyə çıxdılar, hava çiskindi. Geniş qaldırımların üstə çıraqların işığı uzun əkslər buraxmışdı. Xanımlar tələsik ötüb keçirdilər. Çingiz:

– Çəkmələrimiz bulanaçaq, – dedi.

– Zərər yoxdur.

Bir müddət ikisi də dinməz, yan-yana getdi. Birdən Rüstəmbəy başladı:

– Məni yuxu tutdu, təfsilatını söyləmədim. Teymurbəy qonaqlıq vermiş, bütün müxalifləri çağırmış imiş. İdarənin ətrafında danışıq olmuş. Ümumi iclas çağırıb, idarəyə hücum etməyi qərara almışlar. Məqsəd – yeni idarə seçməkdir. Teymurbəy və Qulu da namizəddirlər.

Çingiz xısın-xısın güldü.

– Deməli, işlər bu şəkildədir... Qorxma, onlar ümumi məclisdə qazansaydılar, elə əvvəldən qazanardılar. Bu adamların etibarları yoxdur.

– Deyirlər ki, yeni gələn cavanları idarəyə seçirlər də, köhnələrin adını çəkmirlər.

– Köhnənin adı çəkilirmi? Yenilərə meydan verməlidir.

## 16

Çingiz Cəlalla bir otaqda olurdu. Cəlal ortaboy, qarayanız, arıq bir student idi. Dodaqlarında həmişə rişxəndli bir təbəssüm olurdu. Təbiətində bir bədbinlik var idi, ətrafındakılardan ümidsiz idi. “Molla Nəsrəddin” məcmuəsinin ruhu ilə bəslənərək dünyada istehzadan başqa bir şeyə qadir deyildi. Milli sahədə pis, yaxşı – hər şey onun rişxəndinə mucib olurdu. İnanmırdı və inamsızlığında da qəti və doğru idi.

Otağa girdikdə Cəlal gülə-gülə onları qarşıladı:

– Ay Rüstəm, – dedi, – balam, yenə Tövrat oxuyursan? Mən ölüm məni yerə soxma. Yoxsa Tolstoy olmaq istəyirsən? Xa-xa-xa!.. Ola da bilərsən, – sənin Tolstoydan nəyin əskikdir ki? Xı-xı-xı...

Rüstəmbəy Cəlalın rişxəndinə adət eləmişdi, onun üçün etinasız bir halda paltosunu çıxartmağa başladı. Cəlal sözlərində davam edirdi.

– Amma sənə heyfim gəlir, istəmirəm Tolstoy kimi dəli olub, ayaqyalın çöllərə düşəsən. Qocalıqdan onun ağlı başından oynamışdı, sənə nə olmuşdur?

Zarafatdan sonra Cəlal adəti üzrə:

– Bunlar dursun kənarda, – dedi, – hələ de görüm, bizə niyə gəlmirsən?

Rüstəm mehriban bir səslə:

– Cəlal, dinmə, başım bərk qarışıqdır.

– Balam, nə olub? Yuristin başı niyə qarışıq olsun? Mənim kimi axşamadək laboratoriyada işləmirsən ki? Çingiz kimi yekə-yekə kitabları əzbərləmirsən ki?..

Çingiz rişxəndlə:

– Başı bərk qarışıqdır: axşamadək Cəfərlə qarpız, yeyir.

Cəfər adı gəldikdə Cəlal bir az duruxdu:

– Rüstəm, sən hara, Cəfər hara? O bir lotu, bij, min hin yarmışın biridir. Sən dinc bir adam. Gözlə, səni xarab elər...

Rüstəmbəy oturdu. Cəlal sözlərinə ciddi bir məna verməyərək, zarafat edər bir halda Rüstəmbəyi nəzərdən keçirdi.

Rüstəmbəy:

– Balam, təəccüb eləmə, Cəfərlə dostuq, – dedi.

– Təəccüb eləmirəm. Bilirdim ki, studentlik səni də xarab eləyəcək. Yadındadırmı, bir vaxt var idi, məktəbdə yoldaşlara vəz elərdin? Deyirdin gərək biz hamıya müqəddəs nəzərlə baxaq. Bütün qadınları özümüzə ana-bacı hesab edək.

Çingiz heyrət içində Rüstəmbəyə baxdı.

– Məgər bunun belə fəlsəfəsi də var idi?

– Bəs nədir, Rüstəm böyük filosof idi. Qızları görəndə deyirdi: "Siz mənim bacımsınız". Odur ki, qızlar da həmişə bundan qaçırdılar. Xı-xı-xı.

Hamı səmimi bir halda gülüşdü. Cəlal danışdıqca Çingiz döyükmüş gözləri ilə Rüstəmi başdan-ayağa süzürdü. Axırda:

– A kişi, bu ki qəribə adam imiş. Mən Rüstəmbəyi iki il var ki, tanıyıram. Ondan irəli üzünü də görməmişdim, – dedi.

Cəlal elə bil lovğalanmışdı:

– Ey, mən Rüstəmi uşaqlıqdan tanıyıram. Bir neçə il də realnidə oxumuşuq. Sonra Bakı realnisinə getdi, aralandıq. Bunun uşaqlığı qəribə idi, bir müddət namaz qıldı, deyirdi: "Namaz gimnastikadır". Xa-xa-xa. Bir müddət oruc tutdu. Bir müddət türkcə və farsca oxudu, bir az millətpərəstlik elədi. Sonra bunların hamısını tulladı. İndi də Cəfərdən arvadbazlıq öyrənir. Xa-xa-xa.

Yenə gülüşdülər. Çingiz çay tökdü. Sonra çarpayının altından bir qutu çıxardıb, mürəbbə küpəsini açdı, qaba mürəbbə qoydu.

– Rüstəmbəy, çayı qabağına çək, niyə irəli oturmursan?

– Hələ Cəlalın vəzinə qulaq asıram.

Çingiz masanı səliqəyə sala-sala:

– A kişi, siz ki, bir yerdə oxumuşsunuz? Bəs mən niyə indiyə qədər bunu bilməmişəm? Deməli, Qulu da sizinlə yoldaş imiş.

Cəlal bir də gülə-gülə:

– Həmişə nə cür düşürsə, bij adamlar bununla dostluq eləyir. Qulunu bu qardaş hesab eləyirdi. İkisi bir yerdə millətpərəstlik eləyirdilər. Bircə o millətpərəstliyə bax. Xa-xa-xa.

Çingiz təəccüblü:

– Quludamı millətpərəst idi?

Cəlal:

– Qulu millətpərəst idi, aralıqda da öz xüsusi işini düzəldirdi.

Rüstəmbəy ciddi:

– Ay Cəlal, böhtan danışma, elə şey olmurdu.

– Ay yazıq, sən uşaqsan. Bu saat millətpərəstlik bir pərdədir ki, bütün lotuluqlar onun dalında olur.

– Məsələn?

– Din və millət adı daşıyan cəmiyyət və müəssisələrimizi al – "İslamiyyə mehmanxanası", "İslamiyyə limonadı", "Milli papiros"... Bunlar lotuluq deyilmi? Tacir pul qazanıb, kef çəkmək üçün din və milləti əlində oyuncaq edir. Bakıda qoçular evlərində tələbə yurdu açır, hərəsi beş-on tələbəyə aylıq verir. Bu əxlaqsızlıqdır, yoxsa millətpərəstlik? Yoxsul gənclərin maddi vəziyyətindən istifadə edilərək, namusları ləkələnir... Bu rüsvayçılıqlara millətpərəstlik deyirlər...

Söhbət qızışaraq Tağıyev-Behbudov məsələsinə keçdi. O zaman Bakı milyoneri Hacı Zeynalabdin Tağıyev mühəndis Lütfəlibəy Behbudovu gənc arvadına qısqanaraq, evinə çağırdıb döydürmüş, rüsvay etdirmişdi. Məhkəmə bu işə baxmış və bütün Rusiya qəzetləri məsələyə uzun sütunlar həsr etmişdi. Təbiidir ki, tələbələr məsələyə vaqif idilər, lakin işin iç tərəfi hər kəsə bəlli deyildi. Bu barədə Cəlal yoldaşlarına maraqlı şeylər anlatdı:

– Mənim bədbin olmağa haqqım var, – dedi, – çünki savadsız bir milyoner bir türk ziyalısını rüsvay edir, özü də ziyalılar əli ilə. Məsələ də ziyalılar arasında olan, ziddiyyətdən doğur. Bilirsiniz ki, 1905-dən başlayaraq Ağabəyin şöhrəti Azərbaycanda artmağa başlamışdı. Bu adam biri türkcə, biri rusca Bakıda gündəlik iki qəzet nəşr edirdi, bir çox cəmiyyətin başında durmuşdu, "Difai" kimi Azərbaycana muxtariyyət tələb edən komitə də bunun işi idi. Qoçuluğu qaldırmaq üçün "Hidayət" cəmiyyəti təşkil edən də Ağabəy idi. Bu adamın nüfuzunu təsəvvür ediniz: sünnilərlə şiələri barışdırmaq üçün Şəkiyə gəldikdə şəhərin bütün əhalisi onu qarşılamağa çıxmış və "La-ilahə-illəllah, Ağabəy rəsulillah", – deyə bağırmış.

Ağabəyin bu nüfuzu millətpərəstliyi inhisarında saxlamağa qalxışan Əliyarbəyi rahat buraxmırdı. Əliyarbəy Tağıyevin sadiq qullarından idi və onun naşiri-əfkarı olan rusca "Kaspi" qəzetəsinin başında dururdu. Əliyarbəy Tağıyevin kapitalına istinad edən kimi, Ağabəy də milyoner Murtuza söykənirdi.

Rəqabət sahəsində bir-biri ilə çarpışan milyonerlərlə bərabər, onların ətrafına toplanan ziyalılar da çarpışırdı. Millətpərəstliyə baxırsınızmı?..

Behbudov məsələsi Əliyarbəyin düzəltdiyi bir intriqa idi. O zaman Bakıda məktəb, teatr, mətbuat, cəmiyyətlər sahəsində işləyənlərin əksəri Qarabağdan gəlmə ziyalılar idi. Ağabəy və Behbudov da qarabağlı idilər. Əliyarbəy millətpərəstlik inhisarını əldə etmək üçün ortaya bir bakılı-qarabağlı məsələsi saldı. Həm də bunun təməlini Bakı "padşahı" Tağıyevin evində atdı.

Nəticədə Əliyarbəy Ağabəy dəstəsinə qələbə çaldı... Qəribə burasıdır ki, Əliyarbəyin özü tiflisli idi...

Söhbətə dərin bir diqqətlə qulaq asan Çingiz içini çəkdi.

– Əşi, sən mənim üçün yeni bir aləm açırsan, – dedi. – Mənim bunlardan heç xəbərim yoxdur.

Cəlal həyəcanlı bir halda:

– Bəs nə, – dedi. – Axırda Behbudov Qarabağa getməyə məcbur oldu, Ağabəyi əvvəl klubda döydülər, sonra Tağıyev çağırıb Qafqazı tərk etməsini tələb etdi.

Ağabəyin Türkiyəyə fərar etməsinin səbəbi budur. Əlibəy Hüseynzadənin "Füyuzat" jurnalını Tağıyev nəşr edirdi, Sultan Əbdülhəmidin işarəsinə görə Tağıyev bu jurnalı qapamışdı. Türkiyədə hürriyyət elan olunar-olunmaz Hüseynzadə də oraya getdi...

Rüstəmbəy söhbətə qarışdı:

– Mənim eşitdiyimə görə, – dedi, – Ağabəyin Qafqazdan getməsinin səbəbi "Difai" məsələsi olmuş, çünki "Difai" terror gücü ilə zənginlərdən pul tələb etməyə başlamışdı. Hətta Musa Nağıyevi oğurlayıb, yüz min manat aldıqdan sonra buraxmışdılar. Təbiidir ki, Tağıyev təşvişə düşmüş və Ağabəyin getməsini tələb etmiş.

Yadımdadır, Ağabəy Şuşaya gəlmişdi. Orada "Difai" komitəsi təşkil etmək istədi, tacirlər əvvəl etiraz etdilər. Bir axşam camaatı Gövhər ağa məscidinə topladı. Birinci erməni-türk vuruşmasından bir az keçmişdi. Vəziyyət olduqca gərgin idi. Ermənilər şəhərdən altmış araba arvad-uşaq toplayıb, başqa şəhərlərə göndərmişdilər, yeni vuruşmaya hazırlaşdıqları duyulurdu. Doğrudan da, bir il sonra şiddətli vuruşma oldu. Belə həyəcanlı bir zamanda Ağabəyin şəhərə gəlməsi kimi fərəhə, kimi də qayğıya salmışdı. Ağabəy məsciddə uzun bir nitq söylədi, Şuşanın Zaqafqaziya türkləri üçün böyük mənası olduğunu anlatdı, dedi: "Şuşa bir qaladır, bura əldən getsə, çolum-çocuğumuzu götürüb, Arazı o taya keçməkdən başqa bir çarəmiz qalmır..." Sonra "Difai" məsələsini açdı və gizli bir təşkilat yapacağını söylədi. Tacirlər əl-ayağa düşdülər, terror gücü ilə pul tələb edilməsindən qorxub, razılıq vermədilər. Ağabəy əsəbi bir adamdır, küsüb getdi. Sabah tezdən camaat tökülüb qapısına gəlmişdi, on mindən artıq adam vardı. "Bizi hara qoyub gedirsən"? – deyə bağırışırdılar. Nəhayət, Ağabəy komitə təşkil etməmiş getməyəcəyini bildirib, camaatı sakit etdi. Çingiz heyrətlə:

– Komitə düzəltdimi?

– Düzəltdi.

– Qoçaq adammış.

Rüstəmbəy təəssüflə:

– Qoçaqlığına qoçaq idi, ancaq... Tutulan yol düz deyildi. Əvvəla, Ağabəy ittihadi-islam məfkurəsi daşıyırdı: Nə qədər boş bir məfkurə! İkinci, "Daşnaqsütyuna" qarşı "Difai" ilə çıxmaq qanı qanla yumaq demək idi. Madam ki, avtonomiya üçün etnoqrafi hüdud məsələsi meydana çıxırdı, bunu bir erməni-türk müşavirəsi çağırıb sülhlə həll etmək olmazdımı?

Çingiz etiraz etdi:

– Bu əngəl məsələdir. Gərək türk arasındakı ermənilər erməni arasına, erməni arasındakı türklər türk arasına keçəydi. Çar hökuməti buna razı olmazdı. Bu avtonomiyaya hazırlıq demək idi. Çar siyasəti bu avtonomiya məsələsini boğmaq üçün türk-erməni düşmənçiliyini məxsus körükləyirdi...

Susdular. Rüstəmbəyin düşüncəli üzündə bir fərəh ifadəsi vardı:

– Ah, bizim ziyalıların tarixi yazılsa da: ittihadi-islam, Turan... min bir çarpışma... Keçilən yolların böyük qüsurlarına baxmayaraq axırda öz doğma ölkəmizin siyasi, iqtisadi və mədəni ehtiyaclarına dönəcəyik, ermənilərlə də barışıq yolu bulacağıq... Bunlar olacaq. Xalqımıza fayda verəcək ziyalılar da yetişəcək. Bu da mütləq olacaq! Ancaq Cəlal kimi bədbin olmağa da gəlməz: mədəniyyətə doğru yeni addım atan xalqların tarixində də belə şeylər olmuşdur. Yeni yetişənlər yaxşı olarlar...

Cəlal onun sözünü kəsib:

– Sənin yeniyetmən Qulu deyilmi? – deyə istehza ilə güldü. Bizdən adam olmaz, vəssalam!

Çingiz gülə-gülə:

– Balam, – dedi, – bu yaman kafirdir, yola gəlməsi çətindir.

Qapı taqqıldadı, o dəqiqə söhbət kəsildi. Əllərini ova-ova içəri bir student girdi.

– Ya Allah, Məcid, – deyə Çingiz ayağa qalxdı. Rüstəmbəy və Cəlal rəsmi surətdə Məcidə əl verərək görüşdülər. Bunların rəftarında studentliyə məxsus sadəlik və mehribanlıq görünmədi, çünki Məcid studentlərə qarışmazdı, türk tələbələrini artıqlığınca həvəsləndirən seçki cəmiyyət idarəsi, şərq müsamirəsi kimi işlərə əsla etina etməz, kənarda duraraq ancaq öz xüsusi işlərinə çalışardı, gecə-gündüz məktəb kitabları ilə məşğul idi...

Rüstəmbəy Məcidi nəzərdən keçirdi. Onun sadəlövh siması və axmaq gözləri Rüstəmbəyi bir az fikrə saldı, ürəyində ona qarşı anlaşılmaz bir hiss əmələ gəldi – nifrət və təəssüf bir-birinə qarışdı.

Cəlal məcburi bir halda soruşdu:

– Məcid, bu il qurtarırsınızmı?

Məcid cavabında əllərini ova-ova:

– Görək, – dedi, – və sonra Çingizin üzünə baxdı, mənasız bir surətdə güldü:

– Vallah, deyirlər qurtaracağam, amma mən özüm heç zad bilmirəm.

Çingiz Rüstəmbəyə tərəf:

– Sən Məcidi tanımırsan, bu kişi zor adamdır. Zarafat deyil, bir neçə aydan sonra doktor olacaq.

Məcidin qoltuğunun altı bir az da şişdi. Yenə adi gülüşü ilə Rüstəmbəyə yönəldi:

– Görürsünüz, Çingiz də deyir qurtaracağam. Amma özüm bilmirəm nə olacaq. Xa-xa-xa!..

Çingiz:

– Canım, niyə bilmirsən nə olacaq, sən də qurtarmayanda kim qurtara biləcək? – deyə təkid etdi.

– Təki elə olsun, nə deyirəm, ay qardaş! Xa-xa-xa!..

Taqqıltı yenə sükuta səbəb oldu. İçəriyə qoltuğu portfelli, üzündən-gözündən süni karkünlük tökülən bir tələbə girdi. Məcid gülə-gülə:

– Ədə, bu axşam burada məclis qurmaq istəyirsiniz, nədi? Qoyun görək, siz Allah, tutub aparıb salarlar qazamata, evimiz yıxılar.

Çingiz təzə gələn studenti Məcidə təqdim etdi; tanış oldular.

Cəlal rişxəndli bir təbəssümlə:

– Ay Həsən, balam, portfelində nə var? Amma sənə ayrı cür yaraşır. Bığların da sallaqdır, lap İran naibinə oxşayırsan. Xa-xa-xa!.. Xa-xa-xa!..

Hamı güldü. Çingiz gülüşünü büruzə verməmək üçün soruşdu:

– Həsən, nə təhərsən?

Həsən əvvəlki ciddiyyətini saxlamışdı; o, qaşlarını bir az da yuxarı qaldırdı:

– Ay Çingiz, səninlə xüsusi bir söhbətim var.

Çingiz dərin bir etina ilə:

– Nə var, Həsən, xeyirdirmi?

– İdarə işindən ötrü gəlmişəm... Uşaqlar idarədən razı deyildirlər.

– Hansı uşaqlar?

Həsən karkün bir tərzlə portfelini açdı, bir kağız çıxartdı. Çingiz kağızı aldı və fikirli bir halda sətirlərə göz gəzdirməyə başladı. Başdan rusca yazılmışdı: "Biz aşağıda imzaları qeyd olunan müsəlman tələbələri, cəmiyyətimiz idarəsinin pozularaq, yenidən seçilməsini qət elədik, çünki məzkur idarə bəzi şəxslərin təhriki ilə əmələ gəlib, ümumun xahiş və rəyi nəzərdə tutulmamışdır".

Çingiz imzaları oxuduqda Qulunun imzasına rast gəldi. Dilxor oldu, rəngi qaçdı. Rüstəmbəy kağızı aldı, baxdı. Cəlal da ona yanaşaraq oxumağa başladı. Məcid etidali-dəmlə çay içirdi. Çingiz əsəbi bir halda papiros yandırdı:

– Həsən, – dedi, – bir yana yığışmışdınız, yoxsa yox? – Dünən Teymurbəy bizi evinə çağırmışdı. Mən getdim gördüm Qulu da oradadır, bir-iki də ayrı tələbə var idi. Bir az gözlədik, daha heç kəs gəlmədi. Sonra Qulu söhbət açdı.

– Nə dedi?

– Hələ söz demədi, dedi seçki düz olmamışdır. Doğrudan da, Çingiz, biz gərək idarəyə yaxşı adam seçək. Qulu kimi adamı nahaq yerə seçməmişik.

Rüstəmbəy qaşqabağını salladı. Cəlal gülümsündü. Həsən Cəlalın gülüşündən pərt oldu. Birdən əllərini ata-ata səsini ucaltdı.

– Yenə gülümsünürsən, Cəlal? Heç bir zaddan baş açmayan təzə tələbə seçilsə, xoşunuza gələrmi?

Həsən sözlərini qurtarar-qurtarmaz çəkildi, geridə oturdu. Bunun bu hərəkəti Cəlalı daha da güldürdü:

– Bala, görünür, Qulu səni yaman doyurmuşdur.

– Ay kişi, sən Allah, bəsdir! – deyə Həsən üzünü kənara döndərdi.

Məcid dərin sükut içində kənarda söhbətə qulaq verirdi. Buradakıların hamısı ona bikar və boşboğaz kimi görünürdü. Ona görə orada oturmağa darıxırdı, könlü öz otağını, məktəb kitablarını istəyirdi. Ayağa qalxdı. Bir az otağa tamaşa eləyərək yazı masasına yavıqlaşdı. Əlinə tibbə dair bir kitab keçdi. Vərəqlədi, bu kitabdan imtahan vermişdi. Onu bəlkə əzbər bilirdi. Lakin yenə də kitab onu maraqlandırdı, ora-burasını oxumağa başladı. Yenicə kefi açılırdı ki, başlanan "idarə söhbəti" onun canını sıxdı. Birdən kitabı masanın üstünə tullayıb, hamıya əl verdi, otaqdan çıxdı. Onun gedişinə heç kəs etina etmədi. Bircə Çingiz ayağa qalxıb, onu qapıya qədər ötürdü. Həsən ayaq üstə duraraq çığırırdı. Cəlal onu sakit edə-edə:

– Qardaş, bir az yavaş danış, bizi otaqdan qovdurarsan. Bilirəm, sizdən millətpərəst çıxmayacaq, ancaq bizi otaqsız qoyarsınız.

Rüstəmbəy hirsli:

– Həsən, mənə orası qəribə gəlir ki, sən köhnə student ola-ola aldanırsan. Canım, axı sən Qulunun necə adam olduğunu bilirsən!

– Mən heç zad bilmirəm.

– Bilmirsən, Çingizdən soruş.

Çingiz Rüstəmbəyin bu cürətindən bir az incidi və özünü itirməyərək, söhbəti basdırmağa başladı:

– Həsən, səndən bircə sual edəcəyəm. De görüm, seçki nə təhər olmalı idi ki, qanuna müvafiq gələ idi?

– Təzə studentlərdən namizəd yazanda, sizin dediklərinizi yazmışdılar. Gərək belə olmayaydı. Bir sual da Rüstəmbəy verdi:

– Həsən, neçə təzə student var?

– Beş-altı.

– Sizin deməyinizə görə, bu beş-altı adam bizə səs verməsəydi, biz idarəyə düşməyəcək imişik, belə deyilmi?

Cəlal Rüstəmbəyin fikrini anlayaraq başladı:

– Bunlar idarəyə qırx səslə düşüblər. Bəs o altı adamdan başqalarını kim öyrətmişdi ki, bunların adlarını yazdırdılar?

– Nə bilim, – deyə Həsən cavabdan aciz qaldı.

Cəlal qəhqəhə çəkib güldü.

– Səni zor qızışdırıblar! – dedi.

Rüstəmbəy gülümsündü və sərzənişlə:

– Həsən, qardaş, aldanma. Hər firqəbazın dalınca yüyürmə; gəl cəhd eləyək iş görək. Müsamirə düzəldək, kitabxanamızın kitablarını artıraq, vaxtlı-vaxtında üzvlük haqqı toplayaq ki, pulumuz artsın... Yoxsa studentləri bölük-bölük etməkdən faydalı bir nəticə çıxmaz.

– Həsən sükuta getmişdi. Rüstəmbəyin sözləri, az da olsa, ona əsər eləyirdi.

Cəlal adi gülüşlə ayağa durdu. İmzalı kağızı götürüb, portfelin içinə qoydu və Həsənə dedi:

– Bu kağızı götür apar evə, lazımın olar.

Həsən Cəlalın hərəkətlərindən bir az xoşlandı: dodaqlarında təbəssüm nişanı göründü. Lakin bu təbəssüm sürətlə yox oldu və siması yenidən süni bir ciddiyyət aldı:

– Mən ölüm, zarafat eləmə!

Cəlal gülə-gülə:

– Mən də deyirəm, görəsən, nə xəbər gətirmişdir. Bala, Teymurbəy sizə çay verib qızışdırır, amma heç özü kağıza qol qoymur. Qorxur sözü yerə düşə; kişi dünyagörmüş, hiyləgər adamdır, indi bizi də görəndə deyəcək ki, yenə uşaqlar ortalığa nifaq salırlar.

Cəlal sözünü qurtarandan sonra irəliləyib Həsəni qucaqladı:

– Gəl bir güləşək, görüm sənin canın nədir ki, düşüb ortalığı qarışdırırsan?

Həsən bir az dartındısa da olmadı. Cəlal əl götürmürdü. Nəhayət, o hirsləndi:

– A kişi, yavaş görüm!

Cəlal etinasız:

– Deyəsən, studentlik ürəyini üzüb, candan düşmüsən. Həsən yumşaldı, karkünlüyü kənara qoyaraq, birdən Cəlalın qılçasından yapışdı. Rüstəmbəylə Çingiz gülməyə başladılar:

– Qoçaq Həsən, – deyə Çingiz kürsüləri ortalıqdan yığışdırdı ki, toxunmasınlar.

Bir az hərləndikdən sonra Cəlal Həsəni çarpayının üstə yıxdı:

– Canın bu imiş, niyə çığırırdın? – dedi və dizini onun qarnına qoydu. Həsən çığırmağa başladı. Cəlal bir az boşladıqda Həsən sıçrayıb, çarpayıdan qalxdı, yenidən güləşmə başlandı. Bu dəfə bərk səs-küy saldılar. Kürsülər döşəmənin üstünə yıxıldı, gurultu qopdu, bir neçə dəqiqə belə keçdikdən sonra otağın qapısını hirsli-hirsli tıqqıldatdılar. Çingiz cəld qapını açdı. Ev sahibi xanım acıqlı:

– Belə hərəkətlər olarmı? Bura tövlə deyil, bura insan yeridir...

Xanımın bu qaba sözləri hamını sükuta məcbur etdi. Həsən və Cəlal bir-birindən aralanıb, kənara çəkildilər və töyşüməyə başladılar.

## 17

Ertəsi gün Həsən Qulunu görməyə getdi, evdə tapmadı. Oradan Anatomiya institutuna getdi. İnstitutun böyük salonuna girdikdə üfunət qoxusu burnuna vurdu. Uzun masaların üstündə parçalanmış meyitlər qoyulmuşdu. Ağ geyimli tələbələr təşrihə məşğul idilər. Həsən salonu gözdən keçirmədə ikən, ucaboylu, iri bığlı bir tələbə ona qarşı gəldi:

– Gözüm, burada fəna qoxu var, sən alışmamısan, koridora çıxaq, – dedi.

Çıxdılar. Həsən qayət sakit bir səslə:

– Qulu, – dedi, – Çingizlə görüşdüm. Rüstəmbəy də orada idi. Bunlar yeni seçkiyə yanaşmaq istəmirlər, özləri də müsamirəyə hazırlanırlar.

– Zərər yoxdur. İndi biz gərək idarəyə qarşı propaqandamızda davam edək. Harada narazı varsa, başımıza toplayaq. Hər kəsi görsən tapşır üzvlük haqqı verməsin, bildinmi? Biz həqiqət tərəfdarı olmalıyıq. İntixabın düz olmadığını hər kəs bilir. Teymurbəy kimi adamı kənarda buraxmaq olmaz. Bu, lazımlı adamdır. O, idarədə üzv olsaydı, işlər belə olmazdı. Bildinmi, gözüm, indi sən get, sonra görüşərik.

Qulu Veylabad tacirlərindən Hacı Vəlinin oğlu idi. Hacı Vəli "kəsik mal satan" ləqəbi ilə şəhərdə məşhur idi, çünki ildə neçə dəfə Moskvaya gedərək, sövdəgər dükanlarında artıq qalmış çit və parçaları toplar, gətirərdi. Başqalarına nisbətən bir qədər ucuz satdığı üçün tədavülü də çox olardı. Hacı Vəli malik olduğu sərvəti yalnız parçaçılıqdan deyil, müamiləçilikdən və oğurluq mal alış-verişindən qazanmışdı. Maddi böhran keçirən ailələr, bütün yoxsullar ona borclu idi. Yüksək faiz alar və girovsuz da pul borc verməzdi. Evində iki otaq dolusu rəhn qoyulmuş şeylər var idi. Burada nələr yox idi: xalı, gəbə, qab-qacaq, gümüş, qızıl, ipək paltarlar və i. a. Ehtiyac içində çırpınan ailələr bir-iki manat üçün qadın dizliyi belə girov gətirmişdilər.

Hacı Vəlinin müəyyən prinsipləri var idi. Əvvələn, rəhn gətirilən şeyləri zorluqla qəbul edərdi. "Müamiləçiliyi tövbə etmişəm!" deyə hər kəsi bu cümlə ilə qarşılardı. Bu vasitə ilə ehtiyacda olanları o ki, lazımdır yalvartdırar və sonra hər şeyi yarı dəyərinə qəbul edərdi. İkinci, elə bir faiz təyin edərdi ki, müştəri malını bir də geri almağa qadir ola bilməzdi. Nəticədə Hacı rəhnləri bir-bir satardı.

Bu sayədə Hacı böyük bir sərvət sahibi olmuşdu. Lakin bu sərvətə baxmayaraq, Hacı yeməz, geyməz, ailəsini də sıxıntı içində saxlardı. Onun gündəlik naharı soğan-çörək və ya pendir-çörəkdən ibarət idi. Evində plovbişmə tarixi bir hadisə kimi qarşılanardı.

Hacının iki oğlu var idi. Kiçiyi Qulu idi. Oğlanlarının istiqbalı haqqında da Hacı Vəlinin müəyyən planları və prinsipləri var idi. Deyirdi:

– Varis çox olursa, aralarında qovğa olar, dövlət dağılar.

Odur ki, böyüyünü dükanda oturdar, qazanc yollarının bütün sirlərinə vaqif edərdi. Kiçiyini də təhsilə göndərmişdi. Böyük oğluna demişdi:

– Sən tacir ol, yerimdə otur.

Kiçiyinə də:

– Sən də həkim ol, sənətinin çörəyini ye...

Qulu təhsilə sırf tüccari bir zehniyyətlə getmişdi. "Oxumaq, qazanmaq, sərvət sahibi olmaq" onun birinci şüarı idi. Hələ məktəb qurtarmadan Qulu qazanc yollarını öyrənmişdi. Yayda dərs deyirdi. Kiyevə gedərkən atasının məsləhəti ilə oraya xalı, gəbə, həna, quru meyvə aparar, satardı. Bahar vaxtı geri dönərkən saxsı mal, tüfəng, tapança və patron gətirərdi. Beləliklə olduqca çox pul qazanardı.

Kiyevdəki türk cəmiyyətinə qarşı bəslədiyi fikirlər və çevirdiyi intriqalar da tüccari zehniyyətdən irəli gəlirdi. Qulunun planlarınca cəmiyyət vasitəsilə bir çox "tüccari əməliyyat" yapmaq mümkün idi. Odur ki, cəmiyyətə girmək birinci arzularından idi.

Lakin buna mane olacaq bir əfkari-ümumiyyə var idi. Tələbələrin bir hissəsi Qulunun kim olduğunu duymuşdu. Kiyevə gələr-gəlməz Qulu bir "tüccari əməliyyat" yapmışdı. Bunu çoxları bilirdi. Şəhərdə dükan açmağa ixtiyarı olmayan bir yəhudi harada isə Qulu ilə görüşür, Qulunun təmiz bir adam olduğuna inanaraq, onun adına mağaza açır və əvəzində Quluya ayda əlli manat verirmiş. Bir neçə aydan sonra yəhudi bir başqa şəhərə mal dalınca getdikdə Qulu mağazanı bir başqasına satır. Nəticədə yəhudinin bütün varı əlindən çıxır.

Qulunun bu "əməliyyatı" bir çox tələbələrin xatirində olduğu üçün, onun idarəyə girməsinə bir maneə təşkil edirdi.

Lakin Qulu planlarının tətbiqi üçün var qüvvəsini sərf edir, gənc və safdil tələbələr vasitəsilə intriqalar çevirmədə davam edirdi.

Həsən məsələnin iç tərəfini bilmirdi, odur ki, Quluya inanaraq təşrihxananı tərk etdi.

Həsən küçəyə çıxar-çıxmaz uzunsaçlı, tələbə tujurkasının altından yaxası yan tərəfdən düyməli qırmızı köynək geymiş bir studentə rast gəldi. Durdu:

– Səlman, ya Allah! – dedi.

Səlman gözlərini qıyaraq, gözlüyünü düzəltdi.

– Paho, ya Allah, – deyə cavab verdi.

– Səlman, görükmürsən?

– Mən görükürəm, sən yoxsan!
– Başım qarışıqdır.
– Nə olub ki?
– A kişi, idarə məsələsi.
– Yeni seçkimi?
– Hə!
– Lüzumu varmı?
– Necə?
– Əsil məsələ orada deyil.
– Bəs nədədir? – deyə Həsən heyrətlə Səlmana baxdı.
– Zemlyaçestvo ikinci məsələdir.
– Bəs birinci nədir?
– Birinci?.. Burada siyasi təşkilatlar var, türklər oraya cəlb olunmalıdır. Lakin biz buna əhəmiyyət vermirik. Mədəni sahədə çalışmaq lazımdır, lakin siyasi sahə ondan əhəmiyyətlidir.
Başqaların təsirinə tez düşən Həsən tamamilə Səlmanın məftunu oldu, düşündü, birdən gülümsünərək:
– A kişi, bəs bunu mənə niyə demirsən?
Səlman da gülümsündü:
– Neçə demirəm, deyirəm. Bir zaman kiçik risalə payladım. Sonra xahiş edənləri kursa çağırdım. Kimsə gəlmədi.
– Mən hazıram. İstərsən bir neçə adam da yığaq, oxuyaq.
– Yaxşı olar.
– Nə vaxt başlayaq?
– İstərsən bu axşam.
– Harada?
– Bizdə olmaz, tərəddüd altındayam. İstərsən sizə gəlim.
Həsən bir az düşündü, razı oldu. Aralandılar. Sonra Səlman ayaq saxladı:
– Həsən, – deyə çağırdı.
Həsən durdu və geri döndü. Səlman gözlərini qıyaraq:
– Əhmədi də gətir. Belə məsələlərlə çox maraqlanır. Deyəsən, Bakıda bir az işləmişdir.
– Yaxşı, deyərəm.
– Di sağ ol.
– Sağ ol.

Axşam Səlman Həsənin yanına getdikdə, Əhmədi orada gördü. Əhməd bu il Ali ticarət məktəbinə daxil olmuş gənc bir tələbə idi. Görüşdülər, Həsən qulluqçunu çağırdı, çay ismarladı.

– Əhməd, işlər nə təhərdir? – deyə Səlman soruşdu.

– Yaxşıdır, Səlman, oxuyuram.

– Bizim işimizə necə baxırsan? Əhməd bir az qızardı, qəti səslə dedi:

– Çox gözəl işdir. Oxumalıyıq... Sonra bir müddət keçmiş hazır kadrımız olar da, kiçik bir təşkilat yaparıq.

Səlman təsvibedici bir səslə:

– Əlbəttə, bu mütləq olmalıdır. Bu gün davam edən irtica tarixi gedişi sürətləndirir, vaqe olacaq hadisələr zamanca bizə yaxınlaşır. İnqilab üçün zəmin çoxdan hazırdır. Biz də istər nəzəri, istərsə əməli məsələlərə vaqif olmalıyıq.

Yoldaşlar, inqilab üçün ən böyük amillərdən biri bilgidir. Dünyagörüşümüzü təyin etmək üçün bizə müsbət bilgi lazımdır. Marksizm nəzəriyyəsi bilgi sahəmizi olduqca genişləndirəcək, dünyaya yeni görüş öyrədəcək.

Səlman əlini qoltuq cibinə atdı, iki qatlanmış bir qırmızı risalə çıxartdı, qatını düzəltdi, masanın üzərinə qoydu:

– Əvvəlcə bundan başlamalıyıq, – dedi. Həsən maraqla:

– O nədir?

– Bu "İqtisadi söhbətlər"dir. Bu, əsasdır. Bunu bildikdən sonra başqa əsərlərə keçəcəyik. Ancaq bir iş var. Həftənin müəyyən günləri kursa davam etməlisiniz. Ciddiyyət göstərəcəyinizə əminəm. Bildinizmi?

– Çox gözəl, – deyə Əhməd və Həsən cavab verdilər.

– İndi dərsə başlayalım...

## 18

Səlman gürcü yoldaşı Şaliko ilə imtahana hazırlaşırdı. Bu gün də yenicə oturub kitab oxumada idilər, bir də Tolstoyun vəfat xəbərini eşitdilər. Zatən Tolstoyun qaçması və yolda xəstələnməsi bir böyük hadisə olmuş, bilxassə tələbələri həyəcana gətirmişdi. Tolstoy demək, çar idarəsinə qarşı ümumi bir etiraz demək idi.

Xəbəri eşidər-eşitməz Səlmanla Şaliko küçəyə çıxdılar. İlk nəzərə çarpan atlı və piyada qorodovoylar oldu. Hər ehtimala qarşı zabitə tərəfindən tədbir görülmüşdü.

Darülfünuna doğru axın-axın tələbələr getməkdə idi. Səlman və Şaliko da getdi. Darülfünuna gedən Böyük Vladimir küçəsində atlı qorodovoylar toplanmaq istəyən tələbələri dağıtmaqda idilər.

Bulvarno-Qudryavski küçəsinin tinində Səlman Həsən və Əhmədə rast gəldi:

– Ya Allah! – dedi.

– Ya Allah, – deyə cavab verdilər.

– Bu gün nümayişdə iştirak edirik, deyilmi?

– Əlbəttə, – deyə şən bir surətdə cavab verərək, Həsən və Əhməd Səlmanın qoluna girdilər və Şaliko ilə bərabər darülfünuna doğru getdilər.

Kərpici boyalı darülfünun binasının qarşısında bir çox tələbə durmuşdu. Qorodovoylar bunları bir tərəfdən dağıtdıqda o biri tərəfə yığılırdılar. Səlman da yoldaşları ilə durdu. Qırmızı sifətli və yoğun vücudlu bir qorodovoy bunlara yanaşdı:

– Durmayın, dağılın!

Səlman istehzalı təbəssümlə:

– Dursaq nə olar? – dedi.

– DağılIn, deyirəm.

– Dağılın, deyirəm! – deyə Səlman onu yamsıladı. Qorodovoy hiddətləndi. Bunlara hücum etdi. Tələbələr qaçaraq darülfünunun pilləkəninə çıxdılar.

Arxadan bir qorodovoy da gəldi, sonra bir ayrısı da yanaşdı. Tələbələr dönüb darülfünuna girdilər. Sol tərəfdə xədəmələr durmuşdular. Bunlar tələbə bileti istədilər. Səlman və yoldaşları biletlərini göstərib keçdilər.

Uzun və yarıişıq koridorlarda həmişəkindən daha çox tələbə var idi. Lakin kimsə auditoriyaya girmək istəmirdi. Dərsə gələn professorlar geri dönürdülər.

Bir az keçmiş uzunboylu, qara gözlüklü rektor göründü. Tələbələrə müraciət edərək bir şeylər söyləmək istədi:

– Rədd ol! Rədd ol! – deyə hər yerdən səslər eşidilirdi. Rektor dərhal ortalıqdan qaib oldu. Koridorun başında duran bir dəstə tələbə

içlərindən birini çiyinlərinə aldı; o, yüksək və aydın səslə nitqə başladı.

– Yoldaşlar, istibdad pəncəsində inləyən yüz minlərcə işçilər baş qaldırmadadır...

Bir dəqiqədə ətrafı bürüyən qorodovoyları görən kimi tələbələr natiq arkadaşlarını çiyinlərindən endirib, aralarında gizlədilər.

– Dağılın! Darülfünunu tərk edin! – deyə ətrafdan səslər eşidilirdi. Buna cavab olaraq tələbələr bir səslə "Marselyoz" oxudular.

Darülfünunu tərk etməyə məcbur olan tələbələr küçəyə çıxar-çıxmaz bir-birinin qoluna girərək "zəncir" təşkil etməyə başladılar. Bir dəqiqədə küçənin bir hissəsini işğal etdilər.

– Zəncirin qırılmasına mane olun, – deyə nümayiş rəhbərləri əmr verdilər. Get-gedə zəncir dairəsi genişləndi və genişləndikcə də qorodovoyların hücumu artdı. Piyadalar zənciri qıra bilmədilər, yardıma atlılar gəldi. Hər tərəfdən tələbələrin üzərinə atlar çapıldı. Arada qadın çığırtıları eşidildi. Zəncir qırıldı, hərə bir tərəfə qaçdı və yenidən bir yerə yığılaraq, "Marselyoz" oxudular. Hücum şiddətləndi. Bir neçə tələbə həbs olunub, götürüldü. Bunları qurtarmaq niyyəti ilə qarşılarına bir dəstə tələbə çıxıb zəncir təşkil etdi. Atlı qorodovoylar yenidən hücuma başladılar. Bu dəfə qorodovoylar qamçı çıxardılar və qarşılarına gələnləri vuraraq hərəni yenidən bir tərəfə qaçırdılar. Ələ gecən bir dəstə də həbs olundu.

Səlman və Rüstəmbəy də bunların arasında idi.

O zaman inqilabi hərəkatda tutulub, həbs olunmaq gənclər üçün bir şərəf sayılırdı. Təbiidir ki, Səlmanla Rüstəmbəy də özlərini qorodovoya fəxrlə təslim etdilər. Həbsxanaya getdikcə dəstə böyüdü. Söhbət və qəhqəhə davam etdi. Yol uzunu qorodovoyu da rahat buraxmadılar.

Səlman gülərək:

– Cənab qorodovoy, bağışlayın, siz kəndli deyilsinizmi?

Qorodovoy qaba səslə:

– Kəndliyəm, nə olsun? – dedi.

– Yəqin orada iş tapmamışsan da şəhərə gəlmisən, çünki torpaq mülkədar əlindədir, mujikə icarəyə verir. Mujik də ha çalışır, axırda ona borclu çıxır. Odur ki, acından ölməmək üçün baş götürüb şəhərə gəlir.

Qorodovoy Səlmanın üzünə diqqətlə baxdı, bir söz demədi, acıqlı görünürdüsə də, acığı zahiri idi. Səlman sözlərində davam edirdi:

– Amma, dostum, zavoda getməli idin, qorodovoyluq bir şey deyil. Biz sənə torpaq tələb edirik, sən də bizi tutub həbsxanaya aparırsan.

Qorodovoy hiddətli:

– Sus! – dedi və vəzifəsinin mühüm olmasını bildirmək üçün əlini yoğun bığlarına çəkib, qürurunu bir daha artırdı.

Rüstəmbəy Səlmana yönələrək:

– Onda nə günah var, – deyə qorodovoya eşitdirdi, – o, bir baltadır, sapı başqasının əlindədir.

Salman:

– O lap pis, – deyə əlavə etdi, – adam da balta olub, sapını cəllad əlinə verərmi?

Cəllad sözü qorodovoyu büsbütün acıqlandırdı:

– Susun! İxtişaşçılar! O balta olmasa, siz nələr yapmazsınız?!

Uzaqdan həbs edilənləri seyr edən Həsən çox fikrə getməyərək arxa küçəyə döndü, nümayişçilərdən uzaqlaşdı.

Atlı qorodovoyların hücumundan daldalanaraq Əhməd Nikolay parkı darvazasının başına dırmaşıb, orada oturmuşdu. Orada-burada toplanmaq istəyən tələbələrə qarşı hücum davam etməkdə idi. Bir dəstə tələbə qaçaraq, parka girdi. Qorodovoy parkın qapısını kəsdirib durdu:

Əhməd yuxarıdan:

– Ey, utanmırsan, belə iş görürsən? – dedi.

– Sus! Yoxsa tutaram.

– Buna haqqın varmı?

– Sus!

– Sən sus, utanmaz! Ayda otuz manat üçün özünü satırsan!

– Sus, deyirəm, – deyə qorodovoy hücum etdi. Şallaq çatmadı, qorodovoy məyus olaraq geri çəkildi və bəhanə ilə darvazadan uzaqlaşdı.

Əhməd arxadan:

– Alçaq, xain! – deyə çığırırdı.

## 19

Nümayiş bitər-bitməz Səlmanın və Rüstəmbəyin həbs olunmaları münasibətilə "zemlyaçestvo" fövqəladə bir iclas çağırdı.

Axşam saat yeddidə Çingiz iclası açdı:

– Yoldaşlar, – dedi, – idarə üzvü Səlman və Rüstəmbəyin həbs olunmalarını bilirsiniz. Əvvələn bunların buraxılmaları haqqında tədbir görülməli; ikinci, bunlara hər gün yemək göndərməlidir. İştə, bu iki məsələnin müzakirəsi üçün sizi buraya dəvət etdim. Bu barədə sual vermək istəyən varmı?

Qıçını-qıçının üstündən aşıraraq xırda bığlarını buran Şirin dedi:

– Sual yeri yoxdur, məsələ bəllidir.

Xəlil söz aldı:

– Necə yoxdur? – dedi, – qurtarılmaq üçün nə tədbir görmək lazımdır?

Sədr:

– Daha başqa sual yoxdur ki? – deyə sordu.

Məclis sükuta getmişdi.

Sədr:

– Deməli, yoxdur. İndi Xəlilə cavab verirəm. Tədbir – bir vəkilə müraciət etməkdən ibarətdir.

– Necə? – deyə Xəlil etiraz etdi. – Bu hələ tezdir. Hər halda bir neçə gün gözləməliyik. Bəlkə buraxacaqlar.

– Buraxmasalar? – deyə Şirin sordu.

– Buraxmasalar, onda “ağa durur, ağacan durur” – yenə toplaşıb müzakirə edərik.

Sədr:

– Yoldaşlar, söz alın, sonra danışın... Məsələ belədir: tədbir görək, yoxsa görməyək?

– Hələ gözləyək, – deyə Xəlil cavab verdi.

Sədr:

– Xəlilin rəyinin əleyhinə söz söyləyən varmı?

Heç kəs dinmədi.

Sədr:

– Onda məsələni səsə qoyuram. Hələlik tədbir görülməni təxirə salmaq tərəfdarları əllərini qaldırsın. Üzvlər əl qaldırdılar.

– Qəbul olundu. İkinci məsələ haqqında sualınız varmı?

Şirin:

– Yoxdur, – dedi, – icrası haqqında danışaq.

Xəlil söz istədi:

– Mənim anlayışımca, – dedi, – on manat təxsis etməli və növbə ilə yemək daşımağa adam təyin etməli.

Sədr:

– Bu barədə daha danışmaq istəyən varmı?

Heç kəs dinmədi.

– Deməli, əvvəlcə pul təxsisi məsələsini səsə qoyuram. Kim tərəfdardır əl qaldırsın.

Üzvlər əl qaldırdılar.

– İkinci, miqdar məsələsidir. Xəlil on manat təklif edir. Başqa təklif yoxdur ki?

– Yoxdur.

– Kim on manat təxsis olunması tərəfdarıdır, əl qaldırsın.

Üzvlər əl qaldırdılar.

– Keçdi. İndi növbə məsələsinə keçək. Sabah kim getmək istəyir?

Xəlil:

– Mən.

– O biri gün kim?

Şirin:

– Mən.

– Sonra? – deyə Çingiz sual nəzəri ilə Həsənə baxdı. Həsən dinmədi.

Çingiz gülümsədi. İstehza təbəssümü hər kəsin dodağına yayıldı. Həsən qızardı və hiddətlə:

– Mən gedə bilməyəcəyəm, məni bağışlayın.

– Səbəb? – deyə Xəlil sordu.

– İşim var.

Xəlil qəhqəhə çəkərək güldü.

– Aşna, – dedi, – deyəsən qorxursan?

Hamı gülüşdü. Çingiz gülüş vəziyyətindəki simasını ciddiləşdirərək masanı tıqqıldatdı:

– İndilik, – dedi, – iki adam bəsdir. Xəlil, sabahın pulunu xəzinədardan al.

Xəlil gülə-gülə Şirinə tərəf yönəldi:

– Yoldaş xəzinədar, – dedi, – pulu çıxart görüm.

Sədr masanı tıqqıldatdı:

– İclası bağlayıram, – dedi.

İclasın bağlanması üzvləri gərgin vəziyyətdən qurtardı, o saat gurultulu söhbətlər, zarafatlar və qəhqəhələr başladı:

Şirin zarafatla:

– Ay Çingiz, – dedi, – sənin bir müsbət tərəfin varsa, o da iclası uzatmamağındır.

– Deməli, başqa müsbət cəhətim yoxdur?

– Onu Quludan soruşmalı. Ha-ha-ha!..

Hamı gülüşdü və Həsənin üzünə baxdı. Həsən pərt oturmuşdu. Bu əsnada Cəlal gəlib çıxdı. İri qıllı papağını və paltosunu çıxarıb asdı və burnunu dəsmalına silərək:

– Yenə nədir, a millətpərəstlər, deyəsən, milləti qabağa aparırsınız. Kül o millətin başına ki, sizin kimi sərkərdələri ola.

Şirin gülərək:

– Sərkərdələrin ikisini bu gün tutmuşlar.

– Zarafat eləməyin, bizdə o qeyrət yoxdur.

– Vallah, doğru deyirəm. Rüstəmbəylə Səlmanı həbsxanaya aparmışlar.

Cəlalın üzü bir az ciddiləşdi. Sonra birdən qəhqəhə çəkib, gülməyə başladı:

– Siz öləsiniz, – dedi, – indi özlərini batırmışlar. Gərək Həsəni aparaydılar, aparsaydılar indi bunun ürəyi getmişdi.

Həsən pərt bir halda:

– Sən Allah, zarafatınızı qoyun dursun. Heç yeri deyil. Cəlal bunun pərtliyinə etina etməyərək:

– Özü də Qulu ilə bir yerə salaydılar, ha-ha-ha!.. Qulu bunu cırığa verib, özünü qurtarardı.

Yenə qəhqəhə qopdu. Şirin ciddi səslə:

– Qulu həbs olunarmı? Yəqin bu gün heç evdən çölə çıxmamışdır.

Cəlal:

– Yox, canım, – dedi, – kişinin babalın yumayın; indicə küçədə rast gəldim. Çoxlu şey alıb aparırdı. Onun axı əntiqə bir qızı var, hərdən aparıb evdə yedirdir. Özü də qorxusundan heç kəslə tanış etmir ki, əlindən alarlar.

– Yəqin başqa bir kələyi var.

– Daha qızla eşqbazlıqdan başqa nə kimi kələyi olar ki?..

Şirin Cəlala cavab olaraq iyma ilə güldü:

– Yəqin qız vasitəsilə Qafqaza mal göndərir. Cəlal yenə qəhqəhə çəkdi:

– Sən öl, olar. Afərin onun atasına, əsil nəhəng odur. Çingiz rəsmən Həsənin yanında bu söhbətlərə qarışmırdısa da, Qulunun əleyhinə söylənənlərin hamısına şərik idi. O, bütün kinini yalnız xəfif təbəssümü ilə ifadə edirdi. Bitərəfliyini bildirmək üçün Həsənin üzünə baxıb dedi:

– Balam, kişinin qeybətini etdiniz, bəsdir, indi bir az çay içək. Həsən, irəli otur görək.

Çay ətrafındakı söhbət o vaxt çox moda sayılan millət məsələsi ətrafında olurdu. Cəlal özünəməxsus bədbinliklə deyirdi:

– Qardaş bizdən bir şey çıxmaz! Biz kim olduğumuzu belə dərk etməmişik. “Müsəlmanam” deyirsən, bütün üç yüz milyonluq topuğu cırığa qoşulub itirsən... Bəli, indi-indi özünə “türk” deməyə başlamısan. Camaatımız türk olduğunu bilirmi? Biz özümüzü tanımayan kimi, başqası bizi heç də tanımır. Nahaq yerə də ermənilər və gürcülərlə bir tərəziyə girmək istəyirik – onlar hara, biz hara!

Şirin Cəlalın mübahisələri ilə razılaşmırdı:

– Canım, bir tərəziyə girmirik, ancaq Qafqazda say etibarilə hamıdan çox olduğumuz üçün istər-istəməz tərəziyə girəcəyik.

– Saya bir qəpik verməzlər, mədəniyyətdən danış.

– Altı-yeddi yüz illik ədəbiyyatı olana “mədəniyyəti yoxdur” demək olarmı? – Yalnız Avropa mədəniyyətini hələ almamışıq...

– Əsli də odur!

Şirin soyuqqanlılıqla:

– Sözümü kəsmə, bir az hövsələn olsun. Biz yeni mədəniyyətə yalnız 1905-ci ildən başlayırıq. 5 ildir. Yaxşı, beş ildə azmı irəli getdik? Bu gün mətbuatımız, nəşriyyatımız, teatrımız, az-çox milli məktəblərimiz var, ziyalılarımız yavaş-yavaş yetişir. Daha nə istəyirsən? Əsrlər boyu yatmışdıq. Bu gün ayılmışıq.

Şirinin sözləri Cəlalı qane etmədi, o yenə əvvəlki kimi qəti olaraq:

– Heç bu gün də ayılmamışıq, – deyib durdu, – bizdə adam yoxdur, adam!

Çingiz sözə qarışdı:

– Adam birdən yetişməz ki!.. Rus məktəblərində oxuyanların içindən bir faiz də camaata yararlı adam çıxsa, yenə yaxşıdır.

Cəlal yenə israrla: – Çıxmır! – dedi.

Şirin güldü:

– Canım, – dedi, – bütün bəlalar özümüzə inanmamaqdan irəli gəlir. Necə yəni çıxmır? Madam yeni mədəniyyətdə aşılanmağa başlamışıq, adam yetişəcək. Elə adamlar yetişəcək ki, bəlkə səni də, məni də götürüb atacaq, yerimizdə oturacaq. Xalqın ayılmağı qəribə bir şeydir: bir də görürsən bəlli olmayan səbəbdən xalq sahəsinin hər bir guşəsində çiçək açmağa başladı...

Cəlal qəhqəhə çəkərək:

– Çiçəyin biri, məsələn, Qulu, – dedi və Həsənin üzünə baxdı.

Həsən bir az açıqlanaraq:

– Heç Quludan çıxmırsınız. Qulu kimdən pisdir? Vallah, hamınızdan qoçaqdır, hamınızdan da millətpərəstdir.

Cəlalın və Şirinin gülməsi Həsənin sözlərini kəsdi... Məclis ciddi söhbətdən yenə zarafata keçdi. Qulu yenə dillərdə əzbər olmağa başladı.

Çingiz gülümsəyərək məmnuniyyətlə dinləyirdi.

## 20

Həsən Veylabad məmurlarından Mirzə Səmədin oğlu idi. Mirzə Səməd şəkər məktəbini qurtarıb, iyirmi yaşından etibarən məmur zümrəsinə daxil olmuşdu. İlk əvvəl məmur həyatını sülh məhkəməsində kargüzarlıqla başlamış və bir müddət sonra dilmanc olmuşdu. O zaman türklərdən rusca bilən az olduğu üçün Mirzə Səməd xalq arasında məruf olmuşdu. Ərizə yazdırmaq istəyən, məhkəməyə işi düşən, divanla əlaqədar olanlar Mirzə Səmədə müraciət edərdi. Mirzə də əlindən gələn işləri görər və əvəzində mükafatını alardı. Bir gün olmazdı ki, nəqd pul, qırqovul, quzu, xalça kimi şeylər ona peşkəş göndərilməsin. Mirzə bolluq içində yaşar, padşah və hökumətə qarşı sədaqət bəslərdi. Bu sədaqəti çocuqlarına da təlqin etmək üçün otaqların birində divarda çarın möhtəşəm rəsmini asmışdı. Peşkəş quzuların kababını yedikdən sonra həşəmətli padşahına tamaşa edərək:

– Ömrün uzun olsun, – deyə minnətdarlıq hisslərini ibraz etməkdən çəkinməzdi.

Həsən çar rəsminin altında dünyaya gəlmiş, onun qarşısında böyümüşdü.

Realni məktəbinə davam etdikdə orada çarın bir başqa rəsminə də təsadüf edərdi.

Bu rəsm evlərindəkindən daha iri, daha əzəmətli idi. Rəsmi günlərdə məktəbliləri böyük salona yığar, onlar padşahın rəsmi qarşısında sıra ilə düzülərdilər. Keşiş ruhani ayin icrasından sonra padşaha dua oxuyar xaç suyu ilə məktəbliləri sulardı. Hər kəs xaç çəkərdi. O zaman Həsən gözlərini yerə dikərək padşahı düşünürdü. Hər sadiq təbəənin divarından asılan bu rəsm ona übudiyyət hissləri təlqin edərdi.

İyirmi beş illik məmur həyatından sonra Mirzə Səməd Veylabad şəhərini tərk edib, Bakıya gəldi. Həsəni də leyli olaraq Bakı realnisinə verdi.

O zaman leyli məktəbinə yalnız zadəgan və məmur çocuqları qəbul olunardı. Dağlıq məhəllələrin alçaq və xaraba evlərində, karvansara guşələrində yaşayan yüzlərcə fəqir məktəblilərə rast gələn Həsən özünün bunlardan imtiyazlı olduğunu duyar, səbəblərini düşünərdi. Çar rəsminin əzəməti onun üzərində bir qat daha artardı. Lakin get-gedə məktəb mühiti onu dəyişməyə başladı. 1905-ci il inqilabı məktəblərdə tətillər doğurdu, məktəblilər inqilab hərəkatına qoşularaq siyasi təşkilatlar yapdılar. Marksizm əsaslarını öyrənmək üçün xüsusi kurslar vücuda gəldi.

Bu böyük hərəkat Həsəni sürükləməmiş olmadı. O vaxt texnik məktəbində siyasi mühazirələr oxunardı. Həsən də bu mühazirələrə davam etməyə başladı.

Bir gün Mirzə Səməd Həsənin masa qutusunda kağız ararkən siyasi risalələrə rast gəldi. Əvvəl heyrətindən döyükdü və sonra risalələri götürdü yandırdı.

Həsən evdə yox idi. Gələrkən atası onu təkcə otağa çağırıb, sakit bir tərzdə söhbətə tutdu:

– Həsən, – dedi, – sən bilirsən ki, mənim dünyadan xəbərim yoxdur. Sən ora-bura gedirsən, yəqin eşidirsən, bilirsən, de görüm bu işlərin axırını necə görürsən?

Həsən atasından gözləmədiyi bu suala əvvəl cavab verə bilmədi:

– Necə, dədə? – dedi.

– Belə, bu işlərin axırı necə olacaq? Vururlar, yıxırlar, heç bir şeyin sonunu nəzərə almırlar. Axır bu ölkənin bir sahibi var, bu gün başı davaya qarışıbsa sabah açılacaq, onda hesaba baxılmayacaqmı?

Həsən güldü. Atasının fikirlərini anladı. Başını aşağı saldı.

Mirzə sözlərinə davam etdi:

– Oğlum, atan dünyagörmüş adamdır. O, həyatın gedişini səndən gözəl anlayır. Mən bu işlərin axırını pis görürəm, çünki “padşahla padşahlıq etmək olmaz” atalar misalını yadına sal. Zənnimcə, bir gün gələr də bu gün padşaha ağ olanların hamısını cəzalandırarlar. Bu dursun kənarda, məktəb uşağı oxumalıdır. Onun birinci hünəri məktəb qurtarmaqdır. Əlində kağızı olmalıdır. Bu olmasa ortalıqda qalasıdır. Bizim neft mədənimiz yoxdur. Biz qələmimizin çörəyini yeyirik. Qələm olmazsa, ortalıqda avara qalarıq...

Mirzə Səməd uzun-uzadı danışdı, axırda tapdığı risalələrdən bəhs etdi.

– Belə işlər sənə yaraşmaz, – dedi, – sənin əsil vəzifən oxumaqdır.

Həsən qızardı, məhcub bir halda:

– Bir yəhudi yoldaşım vermişdir, – dedi.

– Sənin yəhudi ilə nə əlaqən var? Onlar bəlkə qarışıqlıq istəyirlər. Biz ki, istəmirik...

O gündən etibarən Həsən mühazirələri tərk etdi. Siyasi iclaslardan, tətildən vaz keçdi. Mühafizəkar müəllimlərlə çarpışan məktəblilər sinifdə dərsi buraxıb tez-tez iclas qurardılar. Bu iclaslarda Həsən iştirak etməz, sinifdə yalnız başına qalaraq müəllimlə dərs keçərdi. Müəllim-şagird mücadələlərində müəllimlərin tərəfini saxlardı. Həsənin bu hərəkəti məktəblilərin nifrətinə səbəb olardı. Onu boykot edərdilər. Kimsə onu danışdırmaz, əl verməzdi..

Rusiyada irtica artdıqca polis şiddəti get-gedə qüvvətləndi. Məktəb üsulu da yavaş-yavaş əvvəlki şəklini almağa başladı. Bir neçə inqilabçı şagird dışarı atılaraq, məktəb zahirən təskin edilmişdi.

Həsən böyük bir həvəslə məktəbə davam etmədə idi. Şagirdlərin yanında fəna ada malikdisə də, müəllimlər onu sevərdilər. İstedadsızlığına rəğmən o, məktəbi birinci sırada qurtardı.

Həsənin şəhadətnamə alması Mirzə Səməd üçün böyük bir hadisə olmuşdu. Ona sivil bir libas və student şapkası aldı.

Həsən Kiyevə yola düşmədən əvvəl Mirzə Səməd yenə onu yalnız otağa götürdü. Uzun-uzadı nəsihət elədi, axırda:

– Başını sal aşağı, dərslərinə qurşan, – dedi, – siyasi işə qarışma!

Həsən atasının sözlərini altun xətlə mərmər üzərində yazılmış bir kətəbə kimi qəbul etdi.

21

Xəlilin qoltuğunda bir bağlı yataq takımı və Əhmədin əlində bişmiş, polis dairəsinə girdilər. Çirkli pilləkənlərlə ona-buna toqquşaraq yuxarı çıxdılar. Sağ tərəfdəki boyası getmiş və çirkdən qaralmış qapını açdılar, fəna qoxulu isti hava üzlərinə çırpdı. İçəridə bir çox adam var idi. Şapkasız və silahsız qorodovoylar qonşu otaqlara girib-çıxmada idilər. Tanıdıqları bir məmura yanaşdılar:

– Yemək gətirdik, – dedilər.

– Gözləyin, – deyə məmur acıqlandı və yazısına davam etdi.

Xəlillə Əhməd geri çəkilib, divarın yanındakı skamyanın üstündə oturdular. Bir azdan tanış bir çinovnik bunların yanından keçib, qonşu otağa girdi, on beş dəqiqə geri dönmədi. Tələbələr gözləməkdən usanaraq otaqda gəzinməyə başladılar.

Çinovnik geri döndü. Bunlara bir söz demədən yerinə keçdi. Xəlil ona yanaşdı. Çinovnik Xəlilin üzünə baxaraq:

– Gözləyin görək nə olacaq? Zəhləmi tökməyin, – dedi, yenə qarşısında kağızları araşdırmağa başladı.

Bir neçə dəqiqə keçdi. Şapkasız bir qorodovoy çinovnikə yanaşaraq nə söylədisə o, tələbələri çağırdı. Xəlil və Əhməd qalxıb irəlilədilər:

– Yoldaşlarınız buraxılmışdır, pilləkənə çıxsanız rast gələrsiniz. Söyləyin düz dolansınlar.

Xəlil və Əhməd şeyləri qaparaq otağı tərk etdilər. Pilləkəndə yoldaşlarına rast gəlmədilər. Əhməd küçəyə endi. Orada da Səlman və Rüstəm yox idi.

– Budur, gəlirlər, – deyə Əhmədi Xəlil səslədi. Əhməd geri dönərək yoldaşlarını ikinci mərtəbədən enən gördü. Xəlil iki-üç pillə atılıb əvvəl Səlmanı və sonra Rüstəmbəyi bağrına basdı. Öpüşdülər.

Əhməd də yanaşdı, şən sima ilə yoldaşları ilə qucaqlaşaraq dəfələrlə öpüşdü.

Xəlil:

– A kişi, – dedi, – biz sizə yemək və yataq gətirdik. Dedik "səfəriniz" uzun çəkəcək.

Səlman gülə-gülə:

– Uzun çəkmədi, – dedi, – tez oldu.

– Bəs yataqsız necə yatdınız?

– İlk gecə yata bilmədik. Sonra alışdıq.

– Az qalmışdı vəkil tutaq, böyük bir proses başlayaq. Xa-xa-xa!..

Yoldaşlar gülüşdülər. Sonra şeyləri bölüşərək polis dairəsini qəhqəhə ilə tərk etdilər.

22

Qulunun təşəbbüsü ilə bu axşam Teymurbəyin apartmanında yeni bir iclas çağırılmışdı. Qulu hər kəsdən əvvəl gəlib, Teymurbəylə bərabər iclasda aparacaqları xətti-hərəkəti təyin etməkdə idi:

– Teymurbəy, – dedi, – biz müsamirə məsələsini ortaya atmalıyıq. Çox olar, müsamirəni özümüz düzəldərik.

Teymurbəy brilyant üzüklü barmaqları ilə yoğun bığlarını burdu, düşündü və tərəddüd içərisində:

– Qulu, – dedi, – müsamirə bizim işimiz deyil, zənnindəyəm.

– Nə üçün?

– Sən çox məşğulsan. Mən də ki...

– Qorxma! Acığa düşdükdə adam hər işi görər. Çingizin inadına qələbə çalmaq üçün imtahanlarımdan belə vaz keçirəm.

Teymurbəy bir az da düşündü, dedi:

– Yox, müsamirə bizim işimiz deyil. Ancaq məsələni biz qoya bilərik. Bu vasitə ilə Çingizi və ətrafındakıları güzəştə məcbur edərik. Yoxsa bizi saymaq istəmirlər.

Qulu da çoxdan bu fikri daşıyır, lakin Teymurbəydən gizləyirdi. Teymurbəyin təsirə düşərək zemlyaçestvoya qarşı boş davranacağından qorxurdu. Teymurbəyin əhvali-ruhiyyəsini tamamilə öyrənmişdi. Onun pula ehtiyacı olmadığını bilirdi. Teymurbəyi zemlyaçestvoya qarşı hərəkətə sövq edən yeganə amil şöhrət və heysiyyət məsələsi idi. Teymurbəyin bu zəif cəhəti Quluya bəlli idi. Odur ki, Qulu onu təhrik etmək üçün daima şərəf məsələsindən bəhs edərdi. Bu dəfə də:

– Teymurbəy, – dedi, – müsamirəni tərtib edəcəyimə əmin ol. Sən müsamirə heyətinə sədr ol, yerdə qalan işləri mən görərəm.

Teymurbəy şən sima ilə:

– Olaram, ondan boyun qaçırmıram, ancaq onların da iştirakı lazımdır.

Qulu simasına süni bir ciddiyyət verdi. Sonra:

– Nə desən ona razıyam. Ancaq bu fikir aramızda qalsın. Uşaqlara başqa şəkildə deməliyik.

– Nə cür?

– Bu axşam sən sədrlik elə, mən təklifdə bulunacağam. Teymurbəy gülümsədi. Qulu:

– İşin yoxdur, – dedi, – uşaqlar gəlsin, tədbir yollarını mən göstərərəm.

Qulu müzəffər bir halda əllərini şalvar ciblərinə qoyaraq salonun divarından asılan çılpaq qadın rəsmlərinə tamaşa etməyə başladı.

Zəng vuruldu. Bir az keçmədən Cəfər içəri girdi, görüşdülər.

– Qulu, – dedi, – yenə nə kələyin var?

– Gələn yoxdur, müsamirə düzəldirik.

– Mən ölüm?

– Sən öl, səni də qadın dəvətinə göndərəcəyik.

– Dəysin, – deyə Cəfər əlini Quluya uzatdı. O da əli ilə vurdu.

Qulunun təklifi Cəfərə böyük bir mövzu oldu, o, böyük bir nəşə ilə bu fikrin inkişafına girişdi:

– Demiyevkanın bütün əyan xanımlarını patrones sifəti ilə dəvət edərəm. Bir avtomobil icarə edərsiniz, gedərəm, bir-bir daşıyaram... pişik balalarını daşıyan kimi... Xoşuma gəlirsən, Qulu, gətir üzündən öpüm.

Cəfər Qulunu qucaqladı. Öpüşərkən qapı açıldı, Həsənqulu girdi:

– Balam, nə olmuşdur? – dedi. – Nə xəbər var? Cəfər aralandı, Həsənquluya əl verərək:

– Aşna, iş var, – dedi.

Qulu və Teymurbəy maraqlandılar.

– Nə iş?

Cəfər heyrətlə:

– Bilmirsiniz? Onda deyim. Mən elə bilirdim sizin də xəbəriniz var.

– Nə olub? Söylə!

– Qulamrza bir məmurun evində otaq tutmuşdu. Görünür, onun arvadı ilə arası kök imiş. Məmur bunu duyur. Bir gün məmur “bir həftəliyə məzuniyyətə gedirəm”, – deyə şeylərini toplayır, evdən gedir.

Sonra xəlvətcə dönür, mətbəxdən gəlib çarpayının altında gizlənir. Arvadın heç bir şeydən xəbəri yox. Qulamrza axşam teatrdan qayıdanda yataq otağında arvadı yatmış görür. Çarpayının kənarına əyləşir, dilxoşluğa başlayır. Bu halda məmur çarpayının altından çıxaraq arvada bir bıçaq. Qulamrza yüyürür mətbəxdən dəhrəni qapır. Kişi görür iş fənadır, pəncərədən atılır, qaçır... İndi ev, şey, arvad Qulamrzaya qalmışdır.

Hamı qəhqəhə çəkərək güldü. Cəfər gülə-gülə sözlərinə davam edirdi:

– Qəribə burasıdır ki, məmur dünən küçədə Qulamrzaya rast gəlir. Ondan üzr istəyir, deyir: "Bağışla, səninlə heç bir düşmənçiliyim yoxdur. Düşmənçiliyim arvadıma qarşıdır". Xa-xa-xa!..

Təkrar gülüşdülər. Qulu dedi:

– İndi Qulamrzaya tez-tez qonaq getməliyik.

– Bəs nə!

Bir az keçmiş yenə zəng vuruldu. Sonra salon qapısında Qulamrza göründü. Onu görən kimi hamı ayağa qalxaraq əl çaldı. Qulamrza qızardı, qəhqəhə çəkdi. Görüşdülər. Qulamrza:

– Bu gün hər yerdə təbriklə qarşılanmışam. Mənim işim Molla Nəsrəddinin təzə paltar geyməsinə dönmüşdür. Molla təzə paltar almışdı. Hara çıxdı, təbrik elədilər. Kişi təngə gəldi. Axırda camaatı həyətinə yığıb dedi: "Camaat, baxın, təzə paltar almışam; hər kəs təbrik edəcəksə, burada eləsin qurtarsın"... İndi mən də, deyəsən, sizi bir həyətə yığacağam...

Yenə gülüşdülər.

Qulamrza Cəfərin yanında oturdu. Qəhqəhələrdən sonra məclisə bir sakitlik düşdü. Teymurbəy saata baxaraq, qonşu otağa getdi və çox keçmədən ara qapını taybatay açdı.

– Buyurun, – dedi.

Tələbələr yemək otağına keçdilər. Ağ örtülü böyük masa səliqə ilə düzəlmişdi. Burada orta hallı tələbənin həsrətinə mucib olan bir çox şeylər qoyulmuşdu: mürəbbə, pasta, meyvə, zərif bulkalar, paxlava, şəkərbura və cürbəcür dadlılar.

Aşağı tərəfdə samovarın yanında ev xanımı oturmuşdu. İri gözlü uzun kirpikli şumal bir qız çay fincanları düzməkdə idi.

Teymurbəy ev sahibəsini və qızını müsafirlərə təqdim etdi. Tanış oldular. Yer göstərildi, hər kəs əyləşdi, Qulu özünü ev xanımının ya-

nına verdi. Cəfər qızla bərabər əyləşdi, Qulamrza qızın qarşı tərəfində yer tutdu.

Bir az sonra yemək otağına iki tələbə də girdi: biri dolğunvücud, qırmızısifət idi, o biri arıq, ortaboylu idi. Bunları görən kimi Teymurbəy ayağa qalxdı:

– Pa, ya Allah, Ocaqverdi, ya Allah, Bəhram, – dedi. Ocaqverdi kömbə əlini uzatdı:

– Ya Allah, – dedi, – balam, belə xeyir işiniz var, bəs bizə niyə xəbər vermirsiniz? Bəhramla bir az bundan qabaq eşitdik, dedik, gedək görək nə var.

– Yaxşı elədiniz, iş başlananda sizə xəbər verəcəkdik. Yadımızdan çıxmamışsınız.

Bəhram köhnədən bu ailə ilə tanış idi, gedib gəlirdi. Teymurbəy Ocaqverdini xanıma və qızına təqdim etdi. Oturdular. Xanım Ocaqverdiyə və Bəhrama çay verdi.

Bir müddət sakit keçdi. Paxlavanın bir-ikisini yedikdən sonra Qulu dəsmalı ilə bığlarını düzəldə-düzəldə xanıma müraciət etdi:

– Anna İvanovna, paxlava xoşunuza gəlirmi? Xanım bir az düşünər kimi:

– Yaxşıdır, ancaq çox yağlıdır.

Qız türk gənclərinə xoş gəlmək üçün:

– Mama, – dedi, – məncə, çox gözəldir. Bunu necə bişirirlər?

Bəhram:

– Katya, mən bilirəm, bir gün bişirərəm, görərsiniz.

– Eləmi?

– Ciddi deyirəm!

Cəfər Bəhramın əlindən bir çox işlər gəldiyini bilirdi, ancaq paxlava bişirməsini bilmirdi. Heyrətlə:

– Bəhram, belə iş var, bəs bizi niyə yada salmırsan?

– Balam, nə vaxt çağırdınız, gəlmədim?

Qulu süni bir səmimiyyətlə:

– Bəhram, pul verək, sən müsamirə üçün bir az paxlava hazırla.

Bəhram məmnun bir səslə:

– Nə deyirəm, – dedi, – hazırlaram.

Hər kəsin əhvali-ruhiyyəsinə görə hərəkət edən Qulu Bəhramı da razı buraxdığından məmnun qaldı. Məclisdəkilərin hamısı zatən onun

fikirlərinə əvvəlcədən şərik idi. Bunu Qulu bilirdi. Lakin bütün bunlara baxmayaraq, müsamirə tərtib ediləcəyinə inanmırdı.

Çaydan sonra qonaqlar yenə salona döndülər. Ara qapı örtüldü, xanım və Katya ötəki tərəfdə qaldılar.

Qulu tələbələrin birləşməsini görərək dedi:

– Yoldaşlar, bu axşam nə məqsədlə buraya toplandığınızı bilirsiniz. Məclisimizi idarə etmək üçün sədr lazımdır. Mən öz tərəfimdən Teymurbəyin seçilməsini təklif edirəm. Kim razıdır əlini qaldırsın.

Sözlərini qurtarmamış Qulu əlini qaldırdı və onu təqibən hər yerdən əllər qalxdı.

Teymurbəy məmnun bir halda rəyasətə keçdi.

İlk söz alan Qulu oldu. Qulu müsamirənin faydasından bəhs edərək, məsələni milli sahəyə keçirdi.

– Bizim millət, – dedi, – hamıdan geridədir. Onu heç kəs saymır. Bir milləti saydırmaq üçün onun mədəni cəhətlərini göstərməlidir. Müsamirə buna bir vasitədir...

Qulu nitqi ilə ətrafdakıların milli hisslərini oxşamağa çalışdı və nəticədə hər kəsin fikir və iradəsinə hakim oldu.

Sədr:

– Sualınız yoxdur? – dedi.

– Mənim var.

– Söylə.

– Zemlyaçestvo idarəsinin xəbəri varmı?

– Başqa sual yoxdur ki?

– ?!

– Qulu, cavab ver! Qulu ayağa durdu:

– Yoldaşlar, hələlik idarənin bu işdən xəbəri yoxdur. Ancaq iş yoluna qoyulduqdan sonra onlara xəbər veriləcək. Etiraf etməliyik ki, idarə bir az tənbəllik göstərir. Müsamirələrin mövsümü keçmədən iş görməlidir.

İndiyə qədər başını aşağı salaraq, təsbeh çevirən Ocaqverdi ayılan kimi oldu:

– Qardaşlar, – dedi, – ortaya nifaq düşər. Bunu şəriətimiz bizə mən edir. Yaxşısı budur ki, müsamirə məsələsində hamının rəyi bilinsin; Kiyevdə yüzdən çox müsəlman tələbəsi var. Bunlara da xəbər verməli.

Qulu yenə söz aldı:

– Mən, – dedi, – tamamilə Ocaqverdinin fikrinə şərikəm. Lakin yüz tələbəni bir yerə yığmaq mümkün deyil. Biz əsas etibarilə məsələni qəbul edək, sonra hər kəsə xəbər verərik.

– Bu yaxşı fikirdir, – deyə Cəfər Ocaqverdinin üzünə baxdı.

Sədr:

– Buna etiraz yoxdur ki? – dedi.

– Yoxdur, – deyə cavablar gəldi.

– Deməli, əsas etibarilə müsamirə qəbul olunur. Sonra nə etməli?

Qulu yenə söz aldı:

– Ümumi iclas çağırıb, məsələni müzakirəyə qoymalı. Sədr:

– Bu barədə də sualınız və ya sözünüz varmı?

– Yoxdur. İkinci iclasa qədər məsələ saxlanılsın, – deyə məclis rəy verdi.

– İclası qapayıram. Ümumi iclasın vaxtını təyin edərik.

İclasdan sonra xüsusi söhbətlərə keçildi. Cəfər Ocaqverdiyə müraciət edərək:

– Dostum, görükmürsən? – dedi.

– Cəfər, başım qarışıqdır.

– Nəyə?

– İmtahana, dünən verməli idim. Geri döndüm.

– Niyə?

– Darülfünuna ayaq basdıqda başım gicəlləndi. Sonra yadıma düşdü ki, vəfat günüdür. İmtahana getmək olmaz.

Cəfər Quluya göz vurdu və Ocaqverdini ələ salmağa başladı:

– Dünən hansı vəfat günü idi? – dedi.

Ocaqverdi dindar bir sima ilə başını yuxarı qaldırdı, ciddi bir səslə dedi:

– İmami-Zeynalabidin əleyhissəlamın vəfatı idi... Ona fəda olum.

Cəfərin dodağında istehzalı bir təbəssüm oynadı.

– Allah rəhmət eləsin! – dedi.

Teymurbəy gülümsündü. Qulu üzünə təğyir verməməyə çalışdı. Qulamrza qəhqəhə ilə gülməyə başladı.

– Ay Ocaqverdi, sən qəribə adammışsan ki!.. Ehtimal, sən yaxşı oruc tutursan, namaz qılırsan, eləmi?

– Təbii deyilmi?

– Təbii niyə olur?

Münaqişə olacağını hiss edən Qulu saata baxdı:

– Gecə keçir, getməliyik, – dedi və örnək olmaq üçün ayağa qalxdı. Tələbələr də onu təqib etdilər.

## 23

Hələ pilləkəndən enərkən Qulu Bəhramın qoluna girib, onu dəstədən kənara çəkməyə çalışdı.

– Necəsən, gülüm? – dedi, – bilirsən ki, səninlə dostam. Bəhram hərif olduğu üçün Qulunun bu mehribanlığına əhəmiyyət vermədi və ağızucu olaraq: "sağ ol" dedisə də, bu nəvazişdən sonra əməli bir təklif olacağını gözlədi.

Bəhram səhv etmirdi. Qulu Bəhramın vasitəsilə bəzi əməliyyat yapmaq fikrində idi. Qulunun edə biləcəyi təklifləri aydınlaşdırmaq üçün Bəhramı oxucularımıza təqdim etməliyəm.

Bəhram tacir ailəsinə mənsub idi. Ancaq bu tacirlikdən ona tüccari istedaddan başqa əməli bir şey qalmamışdı.

Atası ona pul göndərmirdisə də, Bəhram ac qalmırdı, qazanc yollarını öyrənmişdi. Əvvələn, şəhərdəki İran səfarətxanasında katiblik edirdi. Lakin bu vəzifə onu lazımınca təmin etmirdi. Zatən səfarətxananın heç bir təxsisatı yox idi. Buranı zəngin bir yəhudi taciri icarəyə götürmüşdü, o, müəssisənin imtiyazlarından istifadə edərək hörmətlə yaşar və ticarətinə davam edərdi. Səfirin türkcə və farsca savadı olmadığı üçün azəri tələbələrindən birini yanında saxlar, səfarətxana işlərini ona gördürərdi.

Şəhərdə iranlılar çox az idi. Qibleyi-aləmin bütün təbəələri bir neçə dəllal və baqqaldan ibarət idi. Bundan başqa, ildə şəhərə bir neçə dəstə urmiyalı meymun gəzdirən gələr, bir müddət yaşar və gedərdi. Bunların bütün səfarətxana müaməlatı Bəhramın gündə yalnız yarım saat vaxtını alardı.

Bir il əvvəl Varşava təriqi ilə Avropaya səfər edən bir İran ricalı bir neçə gün Kiyev səfirinin müsafiri olmuşdu. Bəhram ricalın hüsnütəvəccöhünü qazanmaq üçün ona rast gələr-gəlməz:

"Cəhan, ey bəradər, nəmanəd bəkəs"* beytini oxumuş və əllərini döşünə qoyaraq ona təzim etmişdi.

---

* Ey qardaş bu dünya heç kəsə qalmayacaq

Şeyx Sədinin Rusiya şəhərində ismi zikr olunması ricalın o qədər xoşuna gəlmişdi ki, cibindən bir "şirü xurşid" nişanı çıxarıb Bəhramın döşünə taxmışdı.

Rəsmi qəbul günləri və hökumət müəssisələrinə müraciət etdikdə Bəhram bu nişanı taxardı. Bu nişan sayəsində Bəhramın nüfuzu təbəələr arasında artmışdı, ona peşkəş belə gələrdi.

Bunlara rəğmən səfarətxana Bəhramın həyatını təmin etmirdi.

Bəhramın ikinci sənəti cırıq palazları yamamaq və ləkəli xalıları təmizləməkdi. Xalı satılan dükanların birində elanı var idi. Bu elan sayəsində ayda on beş manata qədər qazanardı.

Bəhramın ixtisası bununla da bitmirdi. O, bir də başqalarının əvəzinə imtahan verməklə şöhrətlənmişdi. Bu peşə ona ildə beş yüz manata qədər qazanc verərdi. Zəngin tacir balaları çətin imtahanlara Bəhramı göndərirdilər. Bu asan iş deyildi, dəftərxanada bir məmurla anlaşıb, matrikuldakı rəsmin yerinə Bəhramın rəsmini qoydurmalı idi. Sonra professor tanımasın deyə onun yanına başqa-başqa qiyafədə gəlməli idi. Bəhram bu çətinliklərə yol tapmışdı. Qiyafəsini dəyişmək üçün may ayından başlayaraq üzünü qırxdırmaz və sentyabrda Kiyevə uzun bir saqqal gətirərdi. Bu saqqalla başqasının yerinə bir neçə imtahan verdikdən sonra saqqalın şəklini dəyişərdi. Nəhayət, üzünü qırxdırıb bu qiyafədə də bir neçə dəfə professorların yanına gedərdi.

Bəzi tələbələr arasında satınalma imtahan adi bir şey olmuşdu. Qiymətlər belə qəti idi. Məsələn: qeyri-üzvi kimya imtahanı üç yüz manat idi. Bunun aşağı-yuxarısı yox idi, nırx əvvəldən belə qoyulmuşdu.

Bəhramın da başlıca varidatı burada idi...

Qulu Bəhramın qolunu ərklə sıxdı.

– Sən öl, qoçaqsan, – dedi, – qoçaq adamları çox sevirəm... Ancaq bəzən xoşuma gəlmirsən. Gəl, get, dərdin olanda de. Yoldaşlıq bəs nədən ötrüdür?

Bu başlanğıcdan sonra Qulu əsil məsələyə yanaşmağa çalışdı, bir yəhudi tacirinə bir İran pasportu lazım imiş, bir başqasının da yerinə bir imtahan verməli imiş.

Bu təkliflər Bəhramı maraqlandırmadı, o gülümsədi, vaxtının yoxluğunu irəli çəkdi və qəti bir cavab verməkdən çəkindi.

Qulu baltanın daşa dəydiyini duyaraq özünü sındırmadı, söhbəti dəyişdi və uzun bir girişdən sonra:

– Allahın altında sənin mənə işin düşəydi, qara ləleşiyin necə adam olduğunu görəydin, – dedi. – Sən vəfasız adamsan.

Bəhram dinmədi...

24

– Fərəməzbəy evdədirmi?

– Evdə yoxdur.

– Müsaidə edin, bir məktub yazım qoyum.

Xidmətçi qız çox düşünmədən ucaboylu, xurmayı saçlı gənc bir xanımı içəri buraxdı. Xanım koridora girib xidmətçi qızın üzünə mənalı-mənalı baxdıqda qız əli ilə sağ tərəfdəki qapını göstərdi. Xanım Fərəməzin otağına girdi. Otağın gözəl döşənəcəyi, divardakı cürbəcür fotoqraf rəsmləri və tablolar, Fərəməzin səliqəli yatağı, ipək yorğanı, təmiz ağ yasdıqları yatağın arxasına vurulmuş zərif Kaşan xalçası – bunların hamısı xanımın heyrətinə səbəb olduğundan buraya ilk dəfə gəldiyi duyulurdu. O, titrək əli ilə paltosunun cibindən bir zərf çıxarıb, yazı masasının üzərinə buraxdıqda özünü oradakı gümüş güzgüdə gördü. Qara, solğun şlyapasının altından süzülən saçlarının ucları və paltosunun yaxasındakı xəz yağmurdan islanmışdı. Sonu bir az aşağı meyllənmiş burnunun ucunda da şeh danələri vardı. Xanım dəsmalını çıxarıb, ağ dəyirmi üzünü sildi, saçlarını düzəltdi və geri çəkilərkən gözləri Fərəməzin rəsminə sataşdı. Xanım çoxdan həsrətdə bulunan bir adam kimi diksindi. Gözlərinə dolan damlalar bir an rəsmi büllur arxasında dəyən kimi oldu – rəsm parçalanaraq rəngin atəşlər arasında titrədi.

Xanım masadan geri çəkilərək gözlərini sildi, titrəşən büllurlar qaib oldu. Qəmli gözləri ilə otağı təkrar süzdü, yürüyüb çarpayının ətəyindəki xalçanın üzərinə dizləri üstə düşüb başını Fərəməzin yasdığına söykədi... Bu dəqiqələr onun üçün ən ələmli və eyni zamanda da ən dadlı dəqiqələr idi. Bütün qəlbini həyəcanlandıran hissləri göz yaşları ilə axırdı. Sanki illər keçdi, ürəyi tövbə qapısı kimi açıldı və həyatının ən bəxtiyar zamanları gözlərinin önündən bir-bir keçdi... İlk dəfə onu aptekdə görmüşdü. Bir şey ismarlayıb, çek aldı və çeklə bərabər kassa qapıcığına yanaşdıqda ətrafa ətir saçıldı... Pul əlində, gözləri onda, çırpınan qadın qəlbi uçub, kassa qəfəsəsindən çıxmaq istədi... Pulun artığını alarkən "mersi" dedi, üzü gülümsədi, qırmızı do-

daqları parlayıb, ağ dişlərinə şəfəq verdi, yanağında bir çökək əmələ gəldi... Bu, insan deyildi; əsatirlər üfüqündən doğan bir Apollon idi... getdi... Dodaqlarından daman şərab havanı sərxoş etdi. Bütün gün məst və pərişan keçdi. O biri gün yenə gəldi. Bu gün daha şıq, daha cazibəli idi. Uzun ağ barmaqları ilə pulu kassaya uzatdıqda, bu barmaqlar qadın qəlbinə toxunan kimi oldu. Əninlər duyaraq studentə tamaşa etməyə başladı. Həlim təbəssümlə ona baxan iri, qara gözlər artıq yabançı deyildi...

Artıq qadın qəlbi yaralanmışdı, şən pərişanlıq onu qaplamış, gecələr yuxuya həsrət qalmışdı. O, aptekə gəlirdi... Bazar günü. İlk baharın şən və günəşli bazarı!.. Onlar bir-biri ilə görüşdülər... Bir ay bağ və meşələrdə gül-çiçək arasında keçdi... Şən, gözəl, xoşbəxt dəqiqələr!..

Xanım özünə gələrək dəsmalı ilə gözlərini sildi. Koridordan gələn zəng səsi onu büsbütün ayıltdı. Cəld yerindən qalxıb, qulaq asmağa başladı. Qapı açıldı. Ucaboylu, geniş kökslü, gözəl bir tələbə içəri girdi. Xanım:

– Fərəməz! – deyə qızardı və özü duymadan bir-iki addım irəli yeridi.

Fərəməz pərt olan kimi, yavaş səslə:

– Tosya, – dedi və tələsməyərək palto və şapkasını çıxardı. Dəsmalı ilə əllərini və bığlarını silib, Tosyaya əl verdi, – buyurun oturun! – deyə yer göstərdi.

Qarşı-qarşıya oturdular. Bir müddət ikisi də danışmağa mövzu tapmadı. Nəhayət, Fərəməz sükutu pozdu:

– Bərk qar yağır, – dedi.

– Yenə əriyirmi?

– Əriyir.

Sükut. Mövzu tükəndi. Fərəməz pəncərəyə baxdı. Hava dürüst qaralmamışdısa da, durub işığı yandırdı. Sonra divardakı mühazirələr cədvəlinə barmağını qoyub düşündü. Onu daima gözləri ilə izləyən Tosya:

– Sizə mane olmuram ki? – deyə sordu və oturduğu sandalyada rahatsız bir vəziyyət aldı.

Fərəməz soyuq bir tövrlə:

– Yox, yox! – deyə gəlib yerində oturdu. Sonra sönük təbəssümlə:

– Çoxdan aptekə gəlmirsiniz.

Fərəməz gülümsədi:

– Sağalmışam, – deyib Tosyanın üzünə baxdı.

– Siz sağaldınızsa, məni xəstə hala saldınız, – deyib başını aşağı saldı, görünür, gözləri yaşardı. Bir-iki dəqiqə sükutdan sonra gözlərini silib, başını yenə yuxarı qaldırdı və naləli bir səslə:

– Neçin bir neçə ay əvvəl təsadüf bizi bir-birimizə rast gətirdi? Qız idim, qayğısız idim, gündüzlər işləyib, axşamlar dul anamın yanına çəkilərdim. Həyat mənə göydə uçuşan buludlar kimi şən və yüngül görünərdi. Uzun qış axşamlarını roman oxurdum, eşq macəraları ilə əylənirdim. Onlar mənə gülünc görünərdi... Nə qədər yanılırmışam. Həyat təsəvvürümün əksi imiş...

Tosya son sözü söylərkən səsi qırıldı. Yenə başını aşağı saldı. Bütün bədəni diksinirdi.

İndiyə kimi laqeyd duran Fərəməz Tosyanın əllərini gözlərindən ayıraraq:

– Tosya, Tosya, indi bu artıq çocuqluqdur. Bu göz yaşları nəyə lazım ki?

Tosya hönkürərək:

– Hər kəs mənim vəziyyətimdə olsa ağlar. Bəzən başıma hava gəlir. Zarafatmı, qızlıq tacını çaldırmaq, gülünc olaraq tərk olunmaq, indi də... iki aylıq...

Fərəməz cəsarətlə:

– Nə böyük iş imiş. Çocuq var, saldırmalı. Ən asan bir iş. Bu qədər sentimentallıq nəyə lazım? Durun üzünüzü yuyun, çay ismarlayım, içək. Boş bir işdən ötrü nəşəmizi pozmayın.

– Sizin üçün asan işdir.

– Asan olmamış nə var ki?..

Tosya ayağa durub, masanın üstündən zərfi götürdü, cibinə qoydu və qapıya yönələrək:

– Verdiyiniz məsləhətlərə qarşı təşəkkür edirəm. Fərəməz onun qarşısını kəsdi və getməyinə mane olaraq:

– Axmaq olmayın. Vəziyyətinizin çarəsi var. Saldırmağa mən hazıram.

Tosya büsbütün hiddətləndi:

– Buraxınız, gedirəm. Anam məni gözləyir. Buraya məsləhət üçün gəlməmişdim.

– Bir az oturunuz, sonra gedərsiniz.

Tosya mətanətli səslə:

– Buraxınız! Məni də özünüz kimi vəfasız bilməyin. İki aylığın dərdi sizə düşməz, o mənə aiddir, o mənim ilk və son eşqimin məhsuludur. O, bir zaman, siz məni sevən vaxtlar, sizin idi; indi sizin deyil. Onun anası mən və atası qəlbimdə yaşayan eşqdir. Çəkilin! – dedi və Fərəməzi itələyib, otaqdan çıxdı. Bu çıxış elə bir surətlə oldu ki, Fərəməz onu təşyi etməyə belə fürsət tapmadı.

Gecə düşmüşdü. Bir neçə dəqiqə əvvəl sıxıntılı görünən otaq sanki istirahət saçmağa başladı. Fərəməz güzgünün qarşısına gəlib, bığlarını düzəltdi, nə düşündüsə gülümsədi və sonra qalxıb zəng düyməsini basdı. Bir dəqiqə sonra xidmətçi qız hazır oldu. Fərəməz oynaq bir halda:

– Samovarı gətir, – deyə əmr verdi.

# İKİNCİ HİSSƏ

## 1

Rüstəmbəy bəhai Əbülfərəcə məktub yazırdı. Yazdı və oxumağa başladı: "Möhtərəm əfəndi, ikinci məktubunuzda əvvəlki məsləhətinizi təkrar edirsiniz, məni bəhai dininə dəvət etməkdən çəkinmirsiniz; təzə din deyə bəhailiyi mədh edirsiniz, bəhailik zəmanəyə müvafiq bir dindir və i. a. Bu sözləri çox bəhailərdən eşitmişəm, lakin bircə iş var: din bir o qədər də zəruri şeydirmi? Onun yolunda bu qədər çalışmağa dəyərmi? Zənnimizcə, dindən uca, ondan zəruri bir ayrı şey var. Onun adına həyat və yaşayış deyirlər. Biz həyatı sevsək, onu yüngülləşdirsək, ən həqiqi mömünlüyə çatarıq... Bu fikirləri keçən məktublarımda cənabınıza məlum eləmişdim. Artıq təkrara lüzum yoxdur.

Sonra bəhailiyə "təzə din" deyirsiniz. Zənnimizcə, bunda da böyük səhv eləyirsiniz. Dinə təzə demək olmaz, din həmişə köhnədir. Səbəb budur ki, hər bir din əbədilik iddiasına düşür, din bir qanun, bir qayda təşkil etdikdə əbədi ola bilməz. Olduqda təzəliyini itirir və zəmanə tələbinə müvafiq gəlmir. Bəhailik bu gün təzə görünsə də, bir ildən, beş ildən sonra təzəliyini mütləq itirəcəkdir, çünki əbədi "təzəlik" yoxdur, zaman belə təzəliklərin düşmənidir. Bu nöqteyi-nəzərdən həyat zamanla "təzəliyin" mübarizəsindən ibarətdir. Bu mübarizə şiddətini yox etdikdə həyat da mənasını itirir. Deməli, din və ya başqa bir qanun sabit bir halda əbədi hökmranlıq etdikdə, həyat ruhunu qaib edir. İnsanın meyl və həvəsi məhdud bir dairəyə düşərək sönür. Dirilik əvəzinə yuxu və yarımcanlılıq əmələ gəlir. Bu hal cəmi dinlərdə görünmüş, bununla mübarizə etmək üçün qanlı inqilablar doğmuş və nəticədə dünyəvi qanunlar qələbə çalmışdır. Bəhai dini də bu qanlı pillələrdən keçəcək..."

Rüstəmbəy məktubu qurtarmamış masanın üstə tulladı və otaqda gəzinməyə başladı. Dini kitablar, mübahisələr və metafizik fikirlər onu o qədər təngə gətirmişdi ki, ruhuna zövqverici bir şey axtarırdı. Birdən ürəyində Sofya xanıma qarşı bir həvəs oyandı, onunla görüşmək xəyalına düşdü. Bu həvəs elə sirli bir tərzdə zühur etdi ki, özü də heyrət etdi. Sonra: "Sofya xanımı görməkdən məqsəd nədir?" – dedi və cavab olaraq ürəyinin aramsız döyündüyünü hiss etdi. Lakin bu halından xoşlandı, ürəyinin çarpınması ona cəsarət verdi.

Rüstəmbəy sevindi: “Biz gərək qadınlardan qaçmayaq, – dedi, – biləks həmişə onlara yaxınlaşmalıyıq”.

Rüstəmbəy otaqda gəzə-gəzə öz-özünə danışırkən qapı tıqqıldadı. Rüstəmbəy:

– Buyurun, – deyə dərhal cavab verdi. Qulluqçu daxil oldu və qızara-qızara:

– Bu gün soba qalamaq lazımdırmı?

Rüstəmbəyin filosofanə siması birdən-birə dəyişildi, dodaqlarında səmimi və təmiz bir təbəssüm oynamağa başladı:

– Lazım nədir, vacibdir! – dedi.

Qulluqçu gülümsündü və daha da qızardı. Otaqdan çıxdı. Nədənsə Rüstəmbəy də bunun arxasınca getdi. İkisi də mətbəxə daxil oldu. Sofya xanım Rüstəmbəyi görən kimi özünü itirdi, yanaqları alma kimi qızardı, iki gün idi ki, görüşməmişdilər.

Rüstəmbəy Sofya xanımın halını anlamırdı, bu dəqiqə o, sadəlövh bir çocuğa bənzəyirdi. O istərdi ki, qulluqçu onun qollarının üstə odun yığsın və o da böyük bir həvəslə onları otağa daşısın...

– Odunları ver, mən daşıyım, – dedi.

Liza gülə-gülə xanımın üzünə baxdı. Sofya xanım özünü toxtatdı, titrək səslə:

– Madam ki, istəyirlər, qoy daşısınlar, – dedi və gülümsündü.

Liza odunları Rüstəmbəyin qucağına doldurdu.

– Kifayət elər, – dedi.

Mətbəxdən çıxdılar. Sofya xanım heyrətli gözləri ilə Rüstəmbəyi təşyi edirdi. Birdən onun da ürəyində bir şadlıq əmələ gəldi. Rüstəmbəyin bu sadəliyi Sofya xanımı artıqlığınca məmnun etdi. “Amma nə cazibəlidir”, – deyə içini çəkdi.

– Soba yanırmı? – deyə qapının arasından səs gəldi.

Rüstəmbəy sobanın yanında oturmuşdu, durdu, Sofya xanım daxil oldu.

Rüstəmbəy cavabında:

– Yaxşı yanır.

Sofya xanım irəli yeridi, odunları maşa ilə döyəclədi, çırpdı. Sonra bir-birinə yavıqlaşdırıb, sobanın ağzını örtdü.

– Yaxşı, alovlananda yadıma salın, qapayım, – dedi.

– Siz zəhmət çəkməyin, qulluqçuya deyərəm qapayar. Sofya xanım sobaya söykənərək:

– Zəhmət olmaz, – dedi, – ev işlərindən çox xoşlanıram.

Rüstəmbəy divara dayanmışdı. Ətrafa göz gəzdirərək sanki söz axtarırdı.

– Görürsünüz nə gözəl axşamdır, – dedi. – Bu vaxtlar çırağı yandırmayıb qaranlıqda oturmağı çox sevirəm. Göyün qızartısı həmişə ürəyimdə bir kədər duyğusu oyadır. Çox vaxt elə bilirəm dünyada məndən bədbəxt, məndən yazıq adam yoxdur. Belə anlarda məni ağlamaq tutur.

Sofya xanım:

– Siz də mi ağlaya bilirsiniz? – deyə maraqla soruşdu:

– Bəli, bəzi vaxt insan üçün göz yaşlarından əziz, ondan yavıq bir dost ola bilməz.

Sofya xanım heyrətlə Rüstəmbəyi süzdü və əllərini daraqlayaraq dedi:

– Sizin bir şairanə təbiətə malik olduğunuzu bilmirdim...

– Bəli, bəli, – deyə Rüstəmbəy gülümsündü və zarafatla, – hərdənbir şeir də yazaram. Yəqin bunu da bilmirdiniz? – deyə əlavə etdi.

– Şeir də mi yazırsınız?.. Onda, xatirə olaraq birini verin.

Rüstəmbəy güldü:

– Zarafat edirəm. Məndə təb əsla yoxdur, bircə dəfə, yadımdadır, bir qıza şeir yazmışdım, o da xoşuna gəlməmişdi. Kədərimdən az qaldı bağrım çatlasın.

Sofya xanım qəhqəhə çəkərək güldü:

– Daha niyə kədərləndiniz ki?

– Niyə kədərlənməyim ki, gözümün işığı kimi istədiyim bir dilbəri şerimlə xoşhal edə bilmədim.

– Xı-xı-xı... Siz istərdiniz məhbubəniz xoşhal olsun, eləmi?

– İstərdim nədir? Onun üçün canımdan da keçərdim.

– Sizin bu qədər eşqpərvər bir qəlbə malik olduğunuzu zənn etməzdim.

Rüstəmbəy fəxrlə:

– “Qafqaz” ləfzi bir eşq mücəssəməsi deyilmidir?

– Qafqaz eşqin ikinci ifadəsidir, bu doğru. Ancaq siz mənim təsəvvür etdiyim qafqazlıya bənzəmirsiniz. Biz qafqazlını eşq yolunda ölüb-öldürən, incə belində kəskin xəncər daşıyan bir igid kimi tanıyırıq. Ah, bir dəfə bir müsamirədə ağ çuxalı, ağ papaqlı biri oynadı... Onda qız idim, heç unutmam, oynarkən vəhşi səslər çıxarırdı, inanır-

sınızmı, duyğularımdan nəfəsim tutulurdu, mənə belə gəlirdi ki, bir az da oynasaydı, yıxılıb bayılacaqdım... Ah, o rəqsdə nə gözəlliklər vardı. Məncə, Qafqaz rəqsi cəsur kişilik, hünər, fədakarlıq ifadəsidir. Eyni zamanda onda bir bəkarət və paklıq var...

Rüstəmbəy zarafatla:

– Sabahdan bir xəncər alıb, tələbə tujurkasının üstündən bağlayacağam, başıma da bir ağ papaq qoyacağam.

– Karikatura olar. Bundan sonra sizə yaraşmaz, mədəniyyət artıq sizi aşılamışdır.

– Aşılanmaqda qazanmışam, yoxsa qaib etmişəm? Sofya xanım düşündü:

– Məncə, qazanmışsınız. Şübhəsiz ki, qazanmışsınız. Kompliment də zənn etsəniz, sizdə bu iki həyatın müsbət cəhətləri birləşmişdir – Qafqazın ənənəvi doğruluq və saflığını saxlayırsınız...

Rüstəmbəy yenə zarafatla:

– Komplimentinizdən məmnunam, – deyə süni qürurla otaqda gəzinməyə başladı.

Sofya xanım sakit:

– Kompliment deyil... Oy, başımız söhbətə qarışmış, gecənin düşməsindən xəbərim olmamışdır.

“Sağ olun” deyib, qapının arasında yox oldu.

2

Gecə düşmüşdü. Rüstəmbəy elektriki yakıb, dərsləri ilə məşğul olmağa başladı. Bir az oxudu, başına bir zad girmirdi. Durub bir az otaqda hərləndi, dolandı, gəlib yenə oturdu. Bir az da oxudu, bir nəticə çıxmadı. Gözlərini bir nöqtəyə dikərək fikrə getdi, öz-özünə “belə olmaz, qabaqda imtahan var, məşğul olmamaq mənim üçün böyük eyibdir”, – deyə söyləndi.

Nəsihət də kar eləmədi. Durub çarpayının üstə uzandı. Soba otağı qızdırmışdı, elektrik ətrafı gözəlcə işıqlandırmışdı, bu dəqiqə otaqda xülyapərvər bir sükut hökmrandı – bütün bunlar Rüstəmbəyi oxşayır, ürəyində sirli duyğular oyadırdı.

Sofya xanımla əri qonşu otaqda deyib gülüşürdülər. Xanımın nazik səsi almaz dənələri kimi tökülərək Rüstəmbəyin ürəyini yaralayırdı. Yenə Sofya xanımla görüşmək meyli onu qapladı. Öz-özünə: “Bilmi-

rəm, bu axmaq kişi nə vaxt çıxıb kluba gedəcək”, – dedi. Gülümsündü. Dırnağı ilə divarı cızmağa başladı. Orada bilaixtiyar: “Mən çox axmaq adamam” sözlərini yazdı. Sonra yazdığını oxudu. Düşündü. Bir də oxudu. Fikirləşdi, halı dəyişildi, özünə acığı tutdu, birdən-birə durdu və yenə oxumağa başladı. Bu dəfə beynini ciddi fikirlər məşğul etdi. O, müvəqqəti olaraq Sofya xanımı yadından çıxartmışdı.

Bir-iki saat sonra kişi kluba getdi. Bu, Rüstəmbəyin kitabdan əl çəkməsinə kifayət edərdi. Qalxıb otağı aramsız dolanmağa başladı. Bir qapı şıqqıltısı eşitdikdə ürəyi ayağının altına düşdü; “Sofya deyəsən gəlir”, – deyirdi. Çox çəkmədi, doğrudan da xanım gəldi. Görüşdülər.

– Bilirsiniz nə üçün gəldim? – deyə Sofya xanım sordu, – dedim bəlkə sizdə mənim oxumadığım bir kitab tapıla.

Rüstəmbəy fikirləşdi, kitablarını araşdırmağa başladı, lakin fikri kitab tapmaq deyildi. O, Sofya xanıma kitab lazım olmadığını da yəqin bilirdi. Ona görə, yalandan da olsa, əlini yazı masasına uzatdı.

– Məndə sizi həvəsləndirəcək bir kitab yoxdur, zənn edirəm.

Sofya xanım kürsü çəkib oturdu və bir az sərzənişlə:

– Məni maraqlandıra bilməyən kitablarınızın nə olduğunu söylərmisiniz?

Rüstəmbəy kitablarını bir-bir göstərib, tərif etməyə başladı:

– Bu böyük kitab “Əhdi-ətiq”dir. Musanın hiylələri, Onon, Lut, Davud, Yusif, Süleymanın eşq macəralarından və Əyyubi Səburun pintiliyindən və murdarçılığından bəhs edər.

Sofya xanım bir az pərt:

– Müqəddəs kitaba istehza etməyiniz, günahdır.

– Bu, Volterdir. Ən böyük şarlatan, eyni zamanda da ən böyük alimdir. Bu, İncildir, tanıyırsınız. Adı var, özü yox bir müəllifin safdil xülyasıdır. Bu Spenserin “Dimaği-ruhani və cismani tərbiyə”sidir. Bu kitab nə sizə lazımdır, nə mənə; mən evli deyiləm, sizin də çocuğunuz yoxdur.

Sofya xanım bu təriflərdən xoşlanır və gülümsəyirdi. Rüstəmbəy davam edirdi:

– Bu, qadın və yəhudi əleyhinə yazılmış ən mükəmməl kitabdır, müəllifi də bir yəhudi balasıdır.

Sofya xanım üzünü qırışdıraraq:

– Axmaq, – deyə fırlatdı.

Rüstəmbəy cəld:

– Acıqlanmayın, o cəzasına çatmışdır, iyirmi üç yaşında ikən özünü öldürmüşdür.

– Yaxşı olmuş, qalsaydı, kim bilir, daha nələr yazardı.

– Bu Ştrausdur, sizin İsanın iç üzünü açıb tökür... Bağışlayın, bilmədim.

– Lütfən, dini duyğularıma toxunmayın.

– Bu Nitşedir. Bu da cəzasını almışlardandır; "güclüyə kömək, gücsüzə kötək" – deyə bağırdı, çağırdı, axırda dəli oldu... Bəsdir, yoxsa yenə deyim?

– Oxumalı bir şey yoxdurmu?

Rüstəmbəy kitabları eşələyib bir əsər çıxardı:

– Bax, bunu hər bir qadın oxumalıdır! – deyə bir kitab verdi.

Sofya xanım kitabı alıb, baxdı və masaya söykədiyi dirsəyinin altına qoydu.

– Sizə bir sual verəcəyəm, – dedi.

– Əmrinizə hazıram.

– İstehzasız. Bu qədər kitabların içində xoşunuza gedən hansıdır?

– Ömər Xəyyam...

– Onu da verin oxuyum.

– Təəssüf ki, fars dilindədir, siz bilməzsiniz.

– Rusca yoxdurmu?

– Rusca var, məndə yoxdur. Dünyanın hər bir dilinə tərcümə olunmuşdur.

Sofya xanım çox maraqlandı, ona qəribə gələn ərəb hürufatına heyrətlə tamaşa edib, bir sıra suallar verdi və nəhayət, Ömər Xəyyamdan bir-iki parça oxuyub, tərcümə etməsini Rüstəmbəydən rica etdi. Rüstəmbəy bir neçə rübai oxudu.

Sofya xanım:

– Çox gözəl! Ah, nə gözəldir, – dedi. – Bir-ikisini də oxuyun.

Rüstəmbəy gülərək:

– Olmaz, hər gecə gələrsiniz, oxuyaram; gecədə iki rübai.

Sofya xanım qəhqəhə ilə:

– Ah, nə kələkbazsınız! – dedi.

Bir az sükut düşdü. Sofya xanım dirsəyinin altındakı kitabı qaldırıb vərəqlədi, o tərəf-bu tərəfinə baxdı və düşüncəli bir nəzərlə Rüstəmbəyi süzüb dedi:

– Buraya topladığınız kitablar bəzən canınızı sıxmırmı?

– Ah, bilsəniz, bəzən necə darıxıram, qəlbim qəfəsdəki quş kimi çırpınır.

Sofya xanım onu təkrar süzdü, Rüstəmbəyin üzündə hami axtaran bir çocuq ifadəsi vardı. Həlim bir təbəssüm Sofya xanımın çöhrəsini parlatdı.

Rüstəmbəy təbəssümə məğlub oldu və Sofyanın qarşısında diz çökdü: başını onun qoluna söykəyib, gözlərinə həsrətlə tamaşa etməyə başladı. Sofya xanım zərif əllərini üsulluca qaldırıb, Rüstəmbəyin başını sığalladı... Rüstəmbəy zəif bir səslə:

– Məni oxşayın. Mənə xoş sözlər söyləyin. Həyatımda kimsə mənə xoş sözlər söyləməmişdir – dedi.

Sofya onun başını sığallaya-sığallaya:

– Sizə nə olmuşdur, xəstəyə bənzəyirsiniz.

– Bəli, xəstəyəm.

– Xəstəliyiniz nədir?

Rüstəmbəy mətanətli bir səslə:

– Gün-gündən sizə öyrənişirəm, susuz və havasız dolanmaq çətin olan kimi, sizsiz də həyatım müşkülləşir. Xəstəliyim budur.

Sofya inanmaz bir təbəssümlə:

– Sizi etirafi-eşqdə bulunmağa kim təşviq etdi? Rüstəmbəy üzündəki ifadəni dəyişməyərək, başını xanımın dizi üstə qoyub, sükuta daldı.

Bir neçə dəqiqə Rüstəmbəy başını qaldırıb, qəmli bir nəzərlə Sofyanın üzünə baxdı, sonra yavaşca durub, otağın bir guşəsinə çəkildi.

Sofya onu xoş sözlərlə dindirdi:

– Əziz filosofuma nə olmuş, nədən fikrə dalmışdır?

Xanım mehriban bir halda Rüstəmbəyin qoluna girib, başını onun çiyninə söykədi. Rüstəmbəy diksindi, qolunu ehmallıca xanımın qolundan xilas etdi.

– Bir-birimizə yad və naməhrəm olduğumuzu unutmayın! Sofya xanım bu sözlərdən dilgir olaraq heyrət içində:

– Sizə nə oldu? – dedi.

Rüstəmbəy:

– Mənə?.. Heç zad!.. İçimdəki ədalət səsi oyanıb, məni haqq yola dəvət edir.

Sofya xanımın heyrəti daha da artdı.

– Sözlərinizin mənasını anlamıram.

– Siz kimsiniz?

Sofya xanım incimiş bir halda:

– Lüzumsuz bir sual verirsiniz... Siz məni tanımırsınızmı?

– Tanıyıram. Bağışlayın! Ancaq siz özgənin arvadı ola-ola mənim sizinlə belə rəftar etməyə nə haqqım var?

Sofya Rüstəmbəyin fikrini anladı və kədərli bir səslə:

– Əlbəttə, əlbəttə! Əvvəldən gərək sizinlə mənim aramda belə bir yavıqlıq və yersiz dostluq olmayaydı. Çünki...

Rüstəmbəy xanımın sözlərini kəsdi.

– Çünki mən müvəqqəti olaraq sizin evdə yaşayan bir adamam. Bugün-sabah gedəcəyəm. Kim bilir, bir də sizinlə görüşəm, ya görüşməyəm!.. Lakin əriniz sizinlə bir yerdə olacaq. Onun hüququnu tapdalamaq olmaz!..

Sofya xanım ağlamsındı və əllərini üzünə qoyub otaqdan çıxmaq istədi. Rüstəmbəy təkidlə:

– Lütfən, bir neçə dəqiqə dayanınız. Sofya qapıda durub üzünü yerə dikdi. Rüstəmbəy sözlərində davam edirdi:

– Rica edirəm, məni əfv ediniz!.. Mən sizin xeyrinizi istəyərək deyirəm. Sizin əriniz yaxşı adamların biridir, mənim də xətrimi istəyir. Bunun əvəzində ona xəyanət eləmək insanlığa yaraşmaz. Əmin olun, o gecəki hadisədən sonra mən sizin zövcinizlə danışmağa utanıram, üzünə gülə bilmirəm. Onu görəndə nitqim kəsilir.

Sofya xanım Rüstəmbəyin sözünü kəsərək qapını araladı və:

– Bunların hamısını anlayıram, – deyə getmək istədi. Rüstəmbəy hövlnak:

– Sofya xanım! – dedi. – Mənim günahlarımdan keçin? Allah xatirinə, məni bağışlayın.

Son sözləri Rüstəmbəy elə hərarətlə dedi ki, Sofya ağladı.

– Sizdə günah yoxdur. Rüstəmbəy! Günahkar mənəm. Ərimin yaxşılıqları əvəzində ona xəyanət edən...

Rüstəmbəy Sofyanın əlini öz əlinə alaraq:

– Ağlamayın, Sofya xanım! – dedi. – Bundan sonra siz mənim bacımsınız, məni özünüzə qardaş hesab edin.

### 3

– Şirin, Rüstəmbəy həmişə müəyyən vaxta neçə dəqiqə qalmış hazır olar, bəs, görəsən, bu gün niyə ləngidi?

Şirin Çingizin cavabında:

– Hələ tezdir, səkkizə on beş dəqiqə işləyir, gələr çıxar.

– Görəsən, bütün üzvlərə xəbər verilmişmidir?

– Gərək hamısına xəbər verilmiş olsun.

Çingiz papiros yandırdı, kibriti külqabına atdı, dedi:

– Uşaqlar deyirlər ki, Rüstəmbəy axır vaxtlar çox dəyişmişdir?

– Necə?

– Axır, Rüstəmbəy məzəli bir oğlandır, həmişə danışar, gülər. İndi bikefdir.

– O günü mən də aşxanada onu bikef gördüm. Əvvəllərdə yəhudi qızlarının gözəlliyindən danışıb əhsən deyərdi. İndi qadın adı çəkiləndə sükuta gedir.

– Onda başqa bir hal var: Tövrat oxuya-oxuya peyğəmbərliyə çatacaq, ya da ki, Cəlal demişkən, dəli olub, çöllərə düşəcək. Xa-xa-xa!..

Yoldaşlar gülüşdülər.

– Şirin, mənə belə gəlir ki, bizim hər bir tələbə başlı-başına bir tipdir. Bəzən bunun səbəbini düşünürəm; məncə, bu hal bizdə ictimai həyatın olmamasından irəli gəlir.

Şirin başını tərpədib, Çingizin fikrini təsdiq etdi:

– Təbii deyilmi? – dedi, – hərə bir küncə qısılıb özbaşına yaşayır, hər küncün də özünə məxsus bir qaydası var. Qəribədir, hər ailənin, hər qövmün, hər məhəllənin, hər şəhərin öz-özlüyündə bir xüsusiyyəti var. Əşirət dövründə bir ailə başçısının şəxsi xisləti yekə bir nəslə keçmiş və indiyə qədər də davam edir.

Çingiz papirosunun külünü külqabına çırparaq:

– Sizdə məhəllə təəssübü varmı?

– Var.

– Bizdə qəribədir. Şəhərimizdə neçə məhəllə var. Məhəllə camaatı məhəllələrinin təəssübünü çəkir. Məhəllə adamına o biri məhəllədən birisi toxundumu, bütün məhəllə onu müdafiəyə qalxışar. Məhərrəmlikdə bir məhəllə dəstə çıxarıb o biri məhəllə ilə dava edər. Arada adam da ölər... Eh!.. Doğrudan, çox geridəyik!..

Şirin:

– Zəng vuruldu, – dedi.

Bir dəqiqə keçməmiş Səlman içəri girdi. Çingiz səsinə təğyir verməyərək:

– Səlman, gec gəlirsən! – dedi.

Səlman paltosunu çıxartdı və çeşməyini düzəldərək gözlərini qıya-qıya əl verdi.

– Balam, arvad evdə yox idi, oğlumu tək qoyub gələ bilmədim.

Çingiz gülə-gülə:

– Vallah, yaxşı atasan! Deməli, uşağı növbə ilə saxlayırsınız.

Səlman gülümsündü:

– Canım, evlənmək bir kişilik deyil, gecələr körpənin səsindən yata bilmirəm.

Şirin iymalı bir təbəssümlə:

– Ay Səlman, arvad gündüzlər səni tək qoyub gedəndə bəs qeyrətinə dəymir?

– Hara gedir ki?

– Məsələn, bu axşam hara getmişdi?

– Bacılığı ilə kilsəyə getmişdi.

Çingiz həvəsli bir halda:

– Səlman, arvadın müsəlmanlığı qəbul eləmədimi? Səlman güldü:

– Canım, dinmə, ölkə qarışıqdır.

Şirin yenə hiyləgər bir sima ilə:

– Bəs, yaxşı, oğlun nədir, rusdur? Müsəlmandır?

Çingiz sakit bir səslə:

– Atası türk, anası rus, oğlu da firəng.

Hamı güldü. Söz Səlmanın özünə hamıdan artıq xoş gəldi. Onun gülüşü daha da uzun çəkdi.

Rüstəmbəy daxil oldu. Adəti üzrə gülümsündü və paltosunu çıxardıb, yoldaşları ilə görüşdü. Çingiz əlini uzatdıqda:

– İndicə sənin söhbətini eləyirdik, – dedi, – indiyə kimi sənin iclasa gec gəlməyin görünməmişdi. Bu gün qırx dəqiqə birdən ləngimişsən.

Şirin:

– Yəqin, qız görüşünə getmiş imiş.

Rüstəmbəy təkidlə:

– Canım, yox! Yatıb yuxuya qalmışam.

Ara bir az sakit oldu. Çingiz saata baxdı.

– Deyəsən, daha heç kəs gəlməyəcək, – dedi.

Şirin:

– Gəlməsələr, onda müsamirə barəsində danışmağa haqlı deyilik; çünki məsələmiz mühümdür, o birilərin də rəyini bilməliyik.

Səlman gözlüyünü düzəldərək, əli ilə xırda bığlarını tumarlayıb başladı:

– Müsamirə vermək fikrindəmisiniz?

– Bir elə fikir var.

– Uşaqlar yenə idarə seçmək xəyalındadırlar. Bəs o necə olacaq?

Şirin güldü və Çingizin üzünə baxaraq:

– Müsamirə məsələsi ortalığa düşsə, təzə seçki heç kəsin ağlına gəlməz, – dedi.

– Deməli, bəzi padşahlar daxili iğtişaşı yatırtmaq üçün qonşu dövlətə hərb elan edən kimi, siz də hay-küyü müsamirə ilə yatırdırsınız!

Çingiz gülümsündü və papirosunu yandırdı:

– Səlman, – dedi, – o gətirdiyin kitab nədir?

– Marksın “Kapital”ıdır, – deyə Səlman cavab verdi.

– Sosialistmisən?

– Neçə ildir.

– Belə de də!.. İçindəkilərdən bizə də söyləsənə!.. Səlman “Kapital”ı əlinə alıb vəcdlə:

– Bu kitab köhnə aləmi tamamilə yıxacaq, – dedi, – daşı daş üstə qoymayacaq...

– Sonra? – deyə Şirin onun sözünü kəsdi. Səlman soyuqqanlılıqla:

– Sonra yerində böyük bir bina quracaq. Bu bina Babil qülləsindən və Misir ehramlarından da yüksək olacaq...

Səlman sakit, dərin bir əqidə ilə marksizmə dair uzun-uzadı danışdı, hamı onu diqqətlə dinlədi. Natiq türk tələbələrinin yalnız mədəni məsələlərlə məşğul olmasını nöqsanlı bir hal saydı, onları Ümumrusiya əməkçiləri ilə birlikdə mütləqiyyət və kapitala qarşı mübarizəyə dəvət etdi.

Qulluqçu samovarı gətirdi. Şirin yazı masasını təmizləyib otağın ortasına çəkdi. Çay həngaməsini bunun üstündə düzəltdilər: samovar qoyuldu, stəkan və nəlbəki düzüldü. Çörəyi doğradılar, boşqaba qoydular, yağ gəldi. Hamı masanın ətrafına yığıldı.

Student axşamlarının yeganə dostu – samovar bu dəfə də ağ buğla yoldaşları qapladı.

Hamı şad, hamı fərəhli idi, təkcə Rüstəmbəy kədərli görünürdü. Kim bilir, onun qeyri-sabit təbiəti yenə nədən mütəəssir olmuşdu. Bunu Çingiz də anladı.

– Rüstəmbəy, fikirdəsən! – dedi.

Rüstəmbəy gözlərini Çingizə döndərərək, məyus bir təbəssümlə onu qarşıladı və sonra bir parça çörək götürüb, özünə yağ yaxmacı qayırdı:

– Hərdən məni fikir aparır.

– Səbəbi nədir?

– Səbəbi odur ki, millətimizin gələcəyini xarab görürəm.

"Millət" sözü gəldikdə hamı gülümsündü və bu inanmaz gülüş və şübhə ilə Rüstəmbəyə baxdılar. Rüstəmbəy səsinə təğyir verməyərək ciddi bir sima ilə:

– Zarafat eləmirəm, – dedi, – millətimizin vəziyyəti bəzən məni elə bir hala gətirir ki, az qalır başıma hava gəlsin.

Şirin yenə gülümsündü:

– Doğrusu, o qədər "millət", "millət" deyib çığırdılar ki, indi adamın gülməyi gəlir... Əlbəttə, mən sənin sözlərinə inanıram, bilirəm ki, millətin halına yanırsan.

Rüstəmbəy başını aşağı salaraq çayla məşğul oldu. O birilər də çay içməkdə idilər. Heç kəs danışmır, ancaq hamı ürəyində haman "millət məsələsi"ni müzakirəyə qoyaraq həllinə çalışırdı.

Səlman gözlüyünü çıxardıb, yaylığı ilə sildi, gözlərini qıya-qıya sükutu pozdu:

– Mən həmişə demişəm və yenə də təkrar eləyirəm: heç bir milli məsələ öz-özlüyündə həll oluna bilməz. Milli müqəddəratımızı əməkçilərin taleyinə bağlamalıyıq. Ayrıca milli məsələnin həlli demək – ölkəmizdə milli kapitalın və milli feodalizmin inkişafı deməkdir. Bu da zülm hökmranlığından başqa bir şey deyildir. Yoldaşlar, zülm-zülmdür, bunun milli və ya qeyri-millisi yoxdur. Hansı şəkildə olursa-olsun zülmü yox etməlidir.

Şirin Səlmanın fikrinə şərik ola bilmədi:

– Bizdə, – dedi, – ümumin anladığı kapital və proletar yoxdur. Bu iki sinif vücuda gəlincəyə qədər sən deyən sahəyə gecə bilmərik.

Səlman əsəbi bir halda:

– Bax, bu kökündən doğru deyil. Bizdə kapital da var, proletar da. Bakı sərvəti nə deməkdir? Bakı və Şəki fabriklərində can çəkişdirən minlərcə işçilər proletar deyil də nədir?

Səlman sevdiyi mövzunu olduqca coşqun və məntiqi bir surətdə təsvir və inkişaf etdirirdi. Uzun-uzadı münaqişələrə meydan açıldı.

Gənclər xalqı əzən və məhv edən amillərdən bəhs etdilər. Rüstəmbəy də mühüm bildiyi dini məsələyə keçərək elmi dəlillərlə dinlərə hücum etdi. Şirin Rüstəmbəyin sözlərini dinləyərək yerində aram tapa bilmirdi. Görünür ki, onunla bəzi nöqtələrdə həmrəy deyildi.

– Unutmamalıdır, – dedi, – dində günah yoxdur:

Rüstəmbəy qəti surətdə:

– Günah dindədir, çünki həyatla dinin arasında böyük uçurum var.

– Uçurum ola bilməz. Din həyat üçün təşkil olunmuşdur. Peyğəmbərlər öz qövmlərinin cəhalət içində boğulduğunu gördükdə, onları haqq yola dəvət etmişlər. Bu haqq yol da dindir.

– Yaxşı! O peyğəmbərlər bizdən neçə əsr əvvəl dünyaya gəlmişlər?

Şirin duruxdu, qorxurdu Rüstəmbəy onu “bağlasın”:

– On əsr, – dedi, – iyirmi əsr, ondan qədim də gələnlər var, hamısı bir vaxtda dünyaya gəlməmişdir.

Rüstəmbəyin simasında müzəffər bir şadlıq göründü:

– Çox gözəl, – dedi, – peyğəmbərlər öz əsrləri üçün bir qanun yaparaq, bir yol qoydular, o yol bizim həyatımıza uyğun gələr, gəlməz?

Səlman cavab verdi:

– Əlbəttə, gəlməz.

Şirin bir az hirsləndi:

– Siz dini mən düşünən kimi düşünmürsünüz. Din bir həqiqətdir ki, heç vədə sönməz. “Yalan danışma!”, “Adam öldürmə!”, “Oğurluq və quldurluq eləmə!”, “Fağıra rəhm elə!”... Əksərən dinin əsası belə-belə həqiqi əmrlərdən ibarətdir. Bunları pozmağa hacət yoxdur, insanlıq durduqca bu fikirlər onun üçün bir müqəddəs qanun sanılacaq.

Rüstəmbəy coşqun səslə:

– Din bir sən deyən əmrlərdən ibarət deyildir. “Müqəddəs” deyilən kitablarda bunlardan başqa bir xeyli xürafat var ki, onları zəmanəmizin uşaqlarına nağıl eləsən rişxəndlə gülərlər.

– Mən bilmirəm, uşaqların gülməsinə səbəb olan nədir?

– Cənnət, cəhənnəm, mələklər, göylərin sadəlövh təsviri, təbiət qanununa zidd, yalan möcüzələr və qeyri... nağıl eləməklə qurtarmaz. Get, Tövrat, İncil, Quran və qeyri “müqəddəs” kitabları oxu, onda bilərsən!..

## 4

Səlman Balayurdlu kəndindəki dəllək Qasımın oğlu idi. Qasım neçə il vardı ki, şəhəri tərk edib, bu kənddə sakin olmuşdu. Bu neçə ilin müddətində özünə bir dükan da qura bilməmişdi: bütün tənxahı qırmızı fitə, güzgü və kisəbənddən ibarət idi. Qasım sabit deyil, səyyar bir dəllək idi. Səhərdən axşama qədər kəndin bazarını dolanar, girəvəsinə gələn müştərilərin başını qırxar, birçəklərini düzəldər, saqqallarını vurardı. Səlman da kiçik vaxtından hamamda qulluq eləyirdi, səkiləri süpürür, bazara göndərilir və camadar məşğul olanda ayağa da su tökürdü.

Bir gün kənd müəllimi hamama gəlmişdi. Səlman ona xidmət edərkən müəllimin nəzərini özünə cəlb elədi. Müəllim çocuğun kim olduğunu öyrəndi. O, bir gün dəllək Qasımdan Səlmanı məktəbə göndərməsini rica etdi. Müəllimin təklifi Qasım kişinin ağlına batdı.

O zamandan Səlman kənd məktəbinə davam etdi və eyni zamanda hamamı da tərk eləmədi, günortadan sonra yenə müştərilərə xidmət etmədə idi.

Səlman kənd məktəbini bitirib Bakıya gəlmişdi.

Bakı həyatı Səlman üçün hər nə qədər ağır olsaydı da, o bu həyatdan şikayətçi deyildi. Əvvələn, gələn kimi şagirdlər cəmiyyəti buna Hacı Hacıağa karvansarasında bir otaq tədarük elədi, kirəsini də cəmiyyət verirdi. Sonra da gimnaziyaya daxil oldu. Məsələnin iki mühüm cəhəti həll olunmuşdu. O ki qaldı yemək məsələsi, bu təsadüfdən asılı idi, olurdu yeyirdi, olmayanda aclığa qatlanırdı. Gündə bir boşqab sup tapmaq onun üçün bir böyük nemət idi.

Səlmanın karvansara həyatı getdikcə çətinləşirdi. Bir tərəfdən otaq deyilən bu yer pəncərəsiz idi, işıq tağlı artırmaya açılan qapının başından düşürdü. Sonra, neft pulu olmadığından çox zaman qaranlıqda qalır və dərslərini hazırlaya bilmirdi Bəzi vaxtlar dalandardan xəlvət artırma lampası alır, mənzilinə gətirirdi. Bir neçə dəfə belə elədikdən sonra bir gün dalandar duyuq düşdü, gəldi, Səlmanın abrını tökdü. Buna rəğmən Səlman bu işdən əl çəkə bilmədi. Dərs hazırlamaq üçün yeganə çarə bu idi. Get-gedə məsələ gərginləşdi, dalandarla arası tamamilə pozuldu. Karvansara sahibinə şikayət olundu, nəticədə bir şey çıxmadı. Dalandar Səlmana qarşı təzyiqini birə on artırdı. Səlmanı incitmək üçün hər yeri süpürdükdən sonra zibilini onun mənzili-

nin önünə yığar, ona su verməzdi. O, dərs oxurkən qapısının ağzında səs-küy salar, dərsinə mane olardı...

Günlərin birində Səlman yenə lampanı götürərkən dalandar onu tutdu, hirsli bir halda mənzilinə soxuldu və şeylərini cırıq məfrəşinə doldurub, artırmadan aşağı atdı.

O zaman şagirdlər cəmiyyətinin bir-iki üzvü Çənbərəkənddə Pozenov küçəsində olurdu. Səlman çar-naçar məfrəşini bir hambala verib, Pozenov küçəsinə yollandı.

Səlmanın məfrəşi ilə otağa daxil olması cəmiyyət üzvlərini heyrətləndirmədi: bunlar belə hadisələrə alışmışdılar. Harada yersiz-yurdsuz və kimsəsiz şagird varsa, burada daldalanardı. Odur ki, otaqdakı bir çox yatağın yanına Səlmanın da çirkli yorğan-döşəyi salındı.

Bir il də belə keçdi. Sonralar işlər bir az asanlığa döndü. Səlman şəhərə dürüst bələd olaraq dərs demək kimi pul qazanmaq yollarını yavaş-yavaş öyrəndi.

Milyonerlər Bakısında bir boşqab sup həsrətində çırpınan Səlman özü kimi yoxsulların acınacaq halını daima düşünər və qurtuluş yolu arardı. Marks nəzəriyyəsi ilə tanış olar-olmaz "qurtuluş yolu" deyə bu nəzəriyyəyə sarıldı və həyatının sonuna qədər kapitalizmlə mübarizə edəcəyinə söz verdi. İştə, bu günkü münaqişədəki səmimiyyəti bir dəfə haqq bilib sarıldığı məsləkin inikası idi.

– Yoldaşlar, – dedi, – siz əsil məsələni bir kənarda buraxıb qol-qanaddan yapışırsınız. Sosializmdə xalqı qaranlıqda buraxacaq səbəblərin heç birisinə yer qalmayacaq.

Sizi maraqlandıran bütün məsələlərin həlli kapitalın məhvi ilə bitəcək.

Xəlilin içəri girməsi münaqişəyə xitam verdi:

– Balam, bu qədər gec gəlmək olmaz, – deyə onu qarşıladılar.

– Bağışlayın, işim var idi.

Şirin:

– Bəs bizim işimiz yoxdur? – dedi.

Xəlil bir az ciddi:

– Canım, əksəriyyət buradadır. Niyə məclisi açmadınız?

– Müsamirə qoymaq istəyirik, onun üçün hamımızın fikrini dinləmək icab etdi.

Xəlil başını buladı:

– Eh, – dedi, – siz də indi ayılmısınız.

Xəlilin sözlərindən hər kəs bir şey duyar kimi gözlərini ona dikdi.

Xəlil bu halı görüb gülümsündü:

– Görünür, heç bir şeydən xəbəriniz yoxdur, – dedi, – Qulu müsamirə düzəldir.

Çingizin rəngi qaçdı. Bu xəbər hər kəsdən artıq ona təsir etdi.

– Necə yəni müsamirə düzəldir? – dedi.

– Düzəldir. O günü Teymurbəyin evinə toplanıb qərar çıxarmışlar.

Şirin:

– Kimlər var imiş? – deyə sordu.

– Çox adam var imiş. Hətta bizim idarədə də onların tərəfdarı var.

Üzvlər heyrətlə bir-birinin üzünə baxdı.

Şirin:

– Həsən olmasın? – deyə gülümsündü.

– Tapmısan!

Şirin güldü. Səlman gözlüyünü düzəldərək dedi:

– Bu Həsən qəribə adamdır. Müəyyən nöqtədə dayana bilmir. Marksizmlə maraqlandı. İki dəfə görüşdük, sonra yox oldu. Tolstoy günündə bizim həbs olunduğumuzu görən kimi gözdən itdi. Monarxist rus tələbələrinə yanaşdığını da eşidirəm, xülasə, qəribə şeydir.

Çingiz masanı bir də taqqıldatdı.

– Yoldaşlar, – dedi, – məclisi açıram. Müsamirə məsələsini müzakirə etməliyik. Birinci müsamirəmiz gecən il ümumun rəğbətini qazanmışdı. Bu ilki ondan da maraqlı olmalıdır. Tam bir müvəffəqiyyət əldə etmək üçün bütün tələbələrimiz işə cəlb olunmalıdır. Müsamirə düzəltmək üçün ayrıca bir heyət seçməlidir. Həm də bütün tədbirləri bu gün görmək lazımdır ki, sabahdan işə başlansın.

Çingizin təklifinə qarşı kimsə etiraz etmədi. Gecən il də belə olduğu üçün məsələ bəlli idi. Lakin heyətin başında duracaq adam haqqında bir az münaqişə oldu.

Müxalifləri susdurmaq üçün Çingiz Teymurbəyin namizədliyini irəli sürürdü. Buna qarşı Səlman şiddətlə etiraz etdi. Uzun münaqişədən sonra Səlmanın rəyasətində bir heyət seçildi. Teymurbəyi də xəzinədar seçdilər.

Çingiz məclisi qapadı. Xüsusi söhbətlər başlandı. Teymurbəyin evindəki yığıncaqdan maraqlanaraq hər kəs Xəlili əhatə etdi və suallar verdi.

Xəlil suallara cavab verə-verə ayağa qalxdı və Çingizə müraciət edərək: – Çıxaq! – dedi.

– Çıxaq, ancaq hara gedək?

Şirin gülərək:

– "Millət qızı"nın yanına gedək.

Çingiz razı oldu. hamı ayağa qalxdı. Şirin paltoları asqıdan alıb, sahiblərinə verdi.

"Millət evinə" yola düşdülər...

Fatma xanım bir il idi ki, Kiyevə gəlmiş, ali məktəbin tibb şöbəsinə daxil olmuşdu. Bunun Kiyev şəhərinə gəlməsi türk tələbələri üçün görünməmiş bir hadisə idi, çünki Fatma xanımdan əvvəl bu şəhərə müsəlman talibəsi gəlməmişdi. Ona görə hamı üçün əziz idi. Fatma xanımın gəlməsini hamıdan qabaq bilən və axtarıb onunla tanış olan Rüstəmbəy idi.

Əvvəl gündən Rüstəmbəy Fatma xanımın yaxşı tanışlarından biri oldu. Rüstəmbəy Fatma xanımın artıq dərəcədə xatirini istərdi, bunu görən bəzi tələbələr Rüstəmbəyə sataşardılar. Bu dəfə də yolla gedərkən Şirin Rüstəmbəyə yanaşıb, iymalı bir təbəssümlə:

– Dostum! – dedi, – yenə Fatma xanımın yanına gedirik deyə kefin kökəlir.

Rüstəmbəy gülümsündü, başını buladı. Şirinlə həmrəy olmadığını bildirdi.

– Boynuna al, Rüstəmbəy! – Biz bilirik ki, Fatma xanıma bənd olmusan. Bu gün-sabah da toyundur.

Çingiz də gülümsənərək:

– Allah xeyir versin! – dedi. – Rüstəmbəy çoxdan bəri bir elmli türk qızı axtarırdı. Axırda ki, tapdı.

Rüstəmbəy başını qaldırdı, gülə-gülə Çingizin üzünə baxdı:

– Canım! – dedi, – deyəsən, siz məni güclə evləndirəcəksiniz!

Hamı qəhqəhə ilə güldü. Şirin əvvəlki halında:

– Güc niyə olur, özün bəyənmisən. Sağ-salamat qızdır, yaxşı analığı çıxar. Həmi uşağına tərbiyə verər, həm də sənə ömür yoldaşı olar.

– Canım, mənim fikrimdə evlənmək yoxdur, bənd də olmamışam. Mehribanlıq eləyirəm, çünki borcumdur eləyim. "Millət qızına" da mehriban olmayıb, kimə olacağam, Rusiyada otuz milyon xalqın bircə-ikicə münəvvər qızı var, bütün ümidimiz onlaradır. Bir məxluq ki, ümid yolu ola, əlbəttə, onu sevərlər.

– Mən də ondan ötrü deyirəm də... xı-xı-xı..

– Rüstəmbəy, Allah xeyir versin, – deyə hər tərəfdən onu təbrik edirdilər.

Rüstəmbəy daha dinmədi, gülümsündü, başını aşağı saldı.

Xəlil sözə qarışdı:

– Kişidən əl çəkin, – dedi. – Ondan və məndən evlənən çıxmaz.

Səlman:

– Sən heç, – dedi, – sənə gündə biri olmalı. Rüstəmbəyə gəldikdə, o da evlənməməkdə haqlıdır, bu iş tələbə işi deyil. Arvadın nazı, uşağın vəngiltisi, dərs... hamısı da bir otaqda. İnsanın əli-qolu bağlanır. Baxın, indi siz Fatma xanımın yanına gedirsiniz, gedəcəksiniz, danışacaqsınız, kefiniz istədiyi zaman da evə qayıdıb, rahat uzanacaqsınız. Sorğunuz yox, sual vereniniz yox.. Məndən sizə əmanət: məktəbi bitirib iş sahibi olmayınca evlənməyin!

Səlman sözlərini bitirib, tində durdu.

– Bəs niyə durdun? – deyə ondan sordular.

– Nach Haus*, yoxsa arvad atamı yandırar.

Səlman yoldaşlara əl verib ayrıldı.

Qar yağırdı, ətraf tamam ağ geyinmişdi. Külək əsdikcə həzin bir xışıltı gəlirdi. Qar yerlə sürünüb, küçə aşağı gedir, birdən ac qurd dəstəsi kimi tökülərək fənər dirəklərini əhatə edirdi. Gah da qeyzlə qalxıb pərvanələr tək çırağın başına fırlanır, sonra məyus bir halda yerə səpilirdi. Aləm sükuta dalmışdı. Bu sükutu pozmamaq üçün sanki tələbələrin də səsi kəsildi. Fundukleyevski küçəsi ilə aşağı endilər. Çovğun bunları da qarşıladı. Pərvanələr ətraflarını aldı.

## 5

"Millət qızı" ortaboylu, dolğun, gülərüzlü bir qız idi. Danışdıqda dodaqlarında həyalı bir təbəssüm zühur edər, yanaqları qızarardı. Onun rəftarı nazik, özü çox mehribandı; hər tərpənişində o qədər səmimiyyət vardı ki, çox vaxt ali məktəb talibəsinə oxşamayıb, sadə ürəkli bir çocuğa bənzərdi. İlk rast gələrkən bəxş etdiyi xoş təsir getdikcə daha da dərinləşir, insanın ürəyinə işləyirdi.

Fatma xanım bu tanış təbəssümü ilə tələbələri qarşıladı.

---

* Evə

– Neçə vaxtdı ki, heç məni yada salmırsınız, – dedi. Çingiz salam verdi, Fatma xanımla görüşdü, onun sözlərinə nə cavab verəcəyini bilmirdi. Birdən:

– Bilirsiniz, – dedi, – başımız bərk qarışıqdır. İmtahanlar, cəmiyyət işi – hamısı bir-birinə qarışmışdır.

– Bəhanə gətirməyin! İşsiz kimdir ki? – Hamının işi var, amma hərdənbir tanışınızı yad eləsəniz, pis olmaz.

Fatma xanım bu sözlərindən utanır kimi oldu. Gülümsündü, tələbələrin üzünə baxa-baxa qıpqırmızı qızardı.

Çingiz və Şirin yumşaq taxtın üstə oturub, arxasına söykəndilər. Xəlil kənarda əyləşdi. Şirin iymalı təbəssümlə:

– Bilirsiniz, Fatma xanım, Çingiz bəhanə eləyir, vaxtı çoxdur, ancaq başı qızlara qarışmışdır, – dedi.

Çingiz qızaran kimi:

– Yalan deyir, öz əməlini mənə isnad verir.

– Yalan demirəm, dünən də görüşə getmişdi.

Çingiz bir az da pərt oldu. Gülümsündülər. Rüstəmbəy sol tərəfdəki yazı masasına yavıqlaşdı; "Vaxt" qəzeti onun nəzərini cəlb etmişdi. Qəzeti əlinə aldı.

– Fatma xanım, – dedi. – "Vaxt"ı haradan almısınız?

– Ufadan göndərmişlər.

Rüstəmbəy bir az da oxudu:

– Başa düşürəm, amma bəzi sözlər var ki, mənasını bilmirəm.

Fatma xanım:

– Mən də çoxunu başa düşə bilmirəm, – dedi; – çünki "Vaxt" bizim tatar ləhcəsində yazmır.

Qeyri tələbələr də bu söhbətdən həvəsləndilər, diqqətlə qulaq verməyə başladılar. Şirin:

– Bizim Qafqaz qəzetləri də elə dildə yazır ki, adam başa düşə bilmir, – dedi. – Rüstəmbəy də bizi məzəmmət eləyir ki, biz türk qəzetini oxumuruq.

Rüstəmbəy öz adını eşidərək qəzeti masanın üstə qoydu və ciddi sima ilə:

– Əlbəttə, – dedi, – ifrat eləyirlər. Amma eləsi də var ki, lap sadə bir dildə yazır. Məsələn "Molla Nəsrəddin".

– "Molla Nəsrəddin"i oxuyuram, başa düşürəm, qəzeti də o dildə yazsalar, adam qanar.

– Nə qədər asan dildə yazsalar, yenə dürüst başa düşə bilməzsən, çünki bizim danışdığımız dil az sözlərdən əmələ gələn yoxsul bir dildir. Bu dil münəvvər bir adamın düşüncələrini ifadə etməkdən acizdir. Buna görə də mübahisəmiz və elmi bir söhbətimiz olduqda öz dilimizi tullayıb, rus dili ilə danışırıq. Bu qüsurumuzu düzəltmək üçün dilimizi genişləndirməli, yəni xarici dillərindən bir xeyli söz götürməliyik. Hal-hazırda ifrat etsələr də qəzetlərimiz bu yolda çalışır. Siz də qəzet oxuyub, dilimizə yeni daxil olan sözləri öyrənməlisiniz.

Şirin yenə təkidlə:

– Nə qədər oxuyuram, başa düşə bilmirəm.

– Mən də, – Çingiz dedi, – bir dəfə həvəsləndim, istədim türkcə oxuyam – olmadı, çox çətin dildə yazırlar.

Bunların sözlərini Xəlil də təsdiq etdi. Rüstəmbəy hirsləndi, səsini bir az ucaltdı, dodaqlarında acı bir təbəssüm oynayırdı:

– Canım, – dedi, – on beş il rus məktəbində oxuyursunuz, həmişə ruslarla onların dilində danışırsınız, yenə də rusca dürüst danışmağı bilmirsiniz. Bir kitab da oxuyanda saatda bir açıb əcnəbi sözlərinin lüğətinə baxırsınız. Amma iki ay türkcə oxumaqla hər şeyi bilmək istəyirsiniz. Sizlər öz dilinizi əsla sevmirsiniz. Sevsəydiniz, zəhmətə qatlaşaraq onu incədən-incəyə öyrənərdiniz.

Şirin istehzalı təbəssümlə:

– Ay Rüstəmbəy, – dedi, – məni bağışla, sən həmişə bir az mücərrəd danışırsan. Bu gün içində yaşadığımız şəraitdə türk dilinə yer yoxdur, daha doğrusu, lüzum da yoxdur. Məktəblər rusca, idarələr rusca, çörək də bu dildən çıxır. Hər kəsin öz ana dilini bilməsi vacibdir, bunu anlayıram. Ancaq öyrənməyə vaxt yoxdur.

Rüstəmbəy Şirinin yürütdüyü mülahizələrlə şərik ola bilmədi:

– Vaxt tapılar, həvəs yoxdur, milli hiss yoxdur. Baxın, polyakların milli məktəb açmağa haqları yoxdur. Hökumət polyak dili və polyak mədəniyyəti ilə şiddətlə mübarizə edir, buna baxmayaraq, polyak dilini bilməyən, öz dilində danışmayan bir polyak tapılmaz. Polşaya göndərilən rus məmurlarını belə polyaklaşdırırlar...

Fatma xanım sözə qarışdı:

– Bizə qarşı da böyük təzyiq var, özümüz də ruslarla qarışıq yaşayırıq, amma hamımız öz dilimizi bilirik, ədəbiyyatımızla maraqlanırıq.

Şirin güldü. Fatma xanım pərt olub qızardı.

– Tatar dilinin yarısı rus sözüdür, pyat rükət namaz soverşayem...

Hamı gülüşdü, Fatma xanım daha da qızarıb, qəhqəhə çəkdi.

Çingiz ciddi səslə:

– Rüstəmbəy haqlıdır, ancaq bizi polyaklarla müqayisə etmədə səhv edir. Polyaklar yüksək mədəniyyətə malikdirlər, vaxtilə böyük dövlət olmuşlar, rus mədəniyyəti onlara nisbətən çox aşağıda olduğu üçün polyaklara təsir yapmır. Bizdə vəziyyət büsbütün başqadır. Biz mədəni deyilik, olan mədəniyyətimiz də müasir mahiyyət daşımır. Odur ki, rus mədəniyyətinə təmas edər-etməz, onun təsirinə düşüb, ruslaşırıq...

Çingizin mülahizələri etiraza səbəb olmadı. Sanki məsələ aydın idi – hamı susurdu. Sükutu Fatma xanım pozdu.

– Yadımdan çıxdı soruşam, – dedi, – müsamirə nə vaxtdır?

Çingiz cavab verdi:

– Bu axşam müsamirə düzəltmək üçün xüsusi heyət seçildi. Sabahdan işə başlayacaq.

– Bu neçənci müsamirədir?

– İkinci.

– Müsamirəyə necə ad qoyursunuz?

– Keçən il "Müsəlman müsamirəsi" adlandırmışdıq, bu il də belə olacaq.

– Keçən ilkini çox mədh edirlər. Gərək bu il ondan da gözəl olsun.

Rüstəmbəy əvvəl döyükmüş bir nəzərlə Fatma xanıma baxdı. Sonra sevincək bir halda:

– Fəxr edə bilərik ki, müsamirəmizin adı hələ də ağızlarda çəkilmədədir.

Çingiz:

– Qəribə burasıdır ki, – dedi, – burada bu qədər türk studentinin olduğunu heç kəs bilmirmiş. Bu müsamirə bizi hamıya tanıtdı. Çoxları "Qafqaz müsamirəsi" bilib gəlmədikləri üçün heyfsilənmişlər. "Müsəlman müsamirəsi"nin ayrıca xüsusiyyəti olduğunu sonradan bilmişlər. Çoxları bu ilkini gözləyir.

Fatma xanım soruşdu:

– "Qafqaz müsamirəsi"ni kimlər tərtib edir?

Xəlil dedi:

– Burada bir Qafqaz "zemlyaçestvo"su var. Əvvəllər oraya bütün Qafqaz tələbələri daxil olardı. Sonralar ermənilər və gürcülər yavaş-yavaş oradan çəkildilər. Biz də sayca artdıqdan sonra öz cəmiyyətimi-

zi təşkil elədik və tamamilə müstəqil yaşayırıq. Ayrı-ayrı təşkilatlara mənsub olmayan əqəliyyət "Qafqaz zemlyaçestvosu"nda qaldı. Odur ki, müsamirələri də əvvəlki nüfuzunu itirdi. Bizim müsamirənin müvəffəqiyyəti onun yeniliyi ilə təmin olundu. Şərqə məxsus köşklər yapdırmışdıq, hamımız da türk, fars və ərəb milli libaslarındaydıq. Salonda milli musiqi var idi, şərq bazarı qurulmuşdu, ayrıca bir dairədə bir paşanın hərəmi və odalıqları göstərilmişdi... Avropalıları maraqlandıran bir çox şeylər vücuda gətirilmişdi. Fatma xanım içini çəkdi:

– Ah, – dedi, – bu çox maraqlıdır. Mən də görmək istərdim.

Rüstəmbəy gülə-gülə:

– Az qalmışdır, görərsiniz...

Şirin rişxəndli iyma ilə Rüstəmbəyin sözlərini kəsdi:

– Fatma xanım, Rüstəmbəy paşa olar, siz də onun hərəm dairəsinin dürri-giranbəhası!

Hamı gülüşdü. Yalnız Fatma xanım bu sözlərin əsil mənasını anlamadı, döyükmüş bir nəzərlə tələbələrin üzlərinə baxaraq qızardı.

Çingiz məsələni başqa nöqtəyə yozmaqla Fatma xanımı bu vəziyyətdən qurtardı.

Bir az sonra İsgəndər gəlib çıxdı.

– Allah, buyur! Allah, buyur, – deyə hər tərəfdən ona müraciət etdilər.

Fatma xanım İsgəndərə nə üçün "Allah" dediklərinin mənasını anlamayaraq, heyrətlə ətrafdakıların üzünə baxırdı. İsgəndər oturdu.

Rüstəmbəy:

– Allah, bəs arvad hanı?

– İsgəndər ciddi:

– Arvadı hələ evə gətirməmişəm.

Şirin zarafatla:

– Allahlıq iddiası edirsən, özün də evlənirsən. Bu olarmı?

İsgəndər gülərək:

– Bu olar, yunan Allahları nələr etməzdilər. Çox kələkbaz idilər.

Çingiz:

– Deməli, sən yunan Allahısan, onda türklər səndən əl çəkməlidirlər, – dedi.

İsgəndər etiraz etdi:

– Yox, mən bütün Allahlardan yüksəyəm. Hər şey mənə tabedir, siz də mənə tabesiniz, – dedi və şaqqıltı ilə güldü.

Fatma xanım yenə bu “Allah” söhbətlərinə qulaq asır, bir şey anlamırdı. Şirin Fatma xanımın heyrətini duyaraq:

– Fatma xanım, – dedi, – siz, görünür, bir çox işləri bilmirsiniz. Biz tələbələrdə zahiri aləmdən başqa bir də batini aləm var. İsgəndər bu batini aləmin nümayəndəsidir.

İsgəndər Şirinin sözlərini kəsdi:

– Etiraz edirəm, bu günahkar bəndə Allahın zatını təhrif edir, – dedi. Yenə şaqqıldadı və gülərək sözünə davam etdi, – xilqətdə zahir və batin yoxdur, dünyada yalnız bir “mən” var, hər şey ona tabedir – o, mənəm.

İsgəndər yenə şaqqıldadı. Şirin sözünə davam etdi:

– Allah, sən bir az səbir elə, mən bildiyimi deyim, sonra səhvimi düzəldərsən... Deməli, Fatma xanım, bu indi danışanı üç yerə bölmək olar: biri sizin tanıdığınız İsgəndərdir, bu, adamdır – yeyir, içir, gəzir, gülür və sairə; ikinci, Allahdır: hər şeydən yüksəkdir, ruh olaraq eşqdən başqa hər şeydən məhrumdur...

Fatma xanım gülərək:

– O!.. Bu əxlaqsız Allah imiş, – dedi.

Hamı güldü. İsgəndər şaqqıldayaraq etiraz etmək istədi. Şirin onu qabaqlayıb dedi:

– Yox, Fatma xanım, siz deyən qədər əxlaqsız deyil. İsanın arxasınca gedən kimi, bunun da arxasınca gedən bir çox mürid qızlar var. On gündə bir teosofik cəmiyyətdə bu vəz edər, bir gün gedin, görün bunu təqdis edən nə qədər qız var... Deməli, müəyyən bir dairə var ki, bunu yalnız Allah deyə tanıyırlar. Bunun üçüncü adı Aleksandr Cavadoviçdir. Bu ad bütün xidmətçi qızlara, aşxana və qəhvəxana qızlarına və yurdda-yuvada qınında yanmış yaşlı qadınlara bəllidir. Onlar da Aleksandr Cavadoviçi Allah sanarlar, ancaq burada bunun rolu həqiqi Allah roluna çox az bənzər...

İsgəndər yenə Şirinin sözlərini kəsdi. Etiraz etdi, qızardı. Lakin Şirin onun sözlərinə əhəmiyyət verməyərək davam etdi:

– İndi bir az da sizin və mənim tanıdığımız İsgəndərdən danışmalıyam. Bu, Gəncədə Şah Abbas məscidinin yanında bir bəy ailəsində doğulmuşdur. Yaxşı evləri və üzüm bağları var. Amma hələ bir dost bu bağın üzümündən dadmamışdır... Acığın tutmasın, qulaq as... Buna baxmayaraq bizim bu İsgəndər çox yaxşı və mərifətli oğlandır. Özü də çox kitab oxuyur. Bunun oxuduğu kitabların təsirini bilmək üçün, Fat-

ma xanım, sizə bir misal söyləyim. Keçən yay Gəncəyə gedəndə İsgəndər kitabxanasını bir qırğız tələbəsinin yanında qoymuşdu. Qırğız yayda bu kitablardan oxumağa başlayır. Bilirsiniz axırda nə oldu? Payızda gəlib gördük qırğız saçlarını uzadıb, sayır-vayır söyləyir. O da Allahdan yüksək olduğunu iddia edirdi. Yazıq indi dəli olub düşüb çöllərə.

Hamı qəhqəhə ilə güldü, İsgəndər özü də şaqqıldadı.

– İsgəndər belə İsgəndərdir, – deyə Şirin sözlərinə davam edirdi. – Bunun bir məharəti də var. Bu Nitşenin "Zərdüşt belə söyləmiş" adlı əsərini çox sevər. Zərdüştün bütün fəlsəfəsini bir rəqsdə ifadə edər. Bu dahiyanə bir rəqsdir. Oynasın, baxın!

– Oynasın, oynasın! – deyə rica bulundular.

Şirin:

– Yox, – dedi, – ac qarına olmaz, bizim Allah bir az qarınquludur. Fatma xanım çayı hazırlasın, bir az da çək-çək* versin, sonra.

Çay məclisi söhbət, zarafat və qəhqəhələrlə keçdi. Sonra masanı kənara qoyub, rəqs üçün yer hazırladılar. Fatma xanım bu həngaməyə həsrətlə tamaşa edirdi, çünki musiqisiz rəqs təsəvvür etmirdi. Nəhayət, məsələni anladı: tələbələr ağızlarında diringi tutdular, İsgəndər rəqsə başladı.

Məsdi məzari məsdərə
Həsti füzari füstərə...

İsgəndər Fatma xanımın təsəvvür etmədiyi bir tərzdə oynayırdı. Şirin isə rəqsdəki əcaib hərəkətlərin fəlsəfəsini anladırdı. Məsələn: havanı yumruqlamaq Əhrimənlə mübarizə etmək idi, fırlanmaq Hürmüzdə dua, təpik atmaq isə divləri tapdalamaq mənasına idi.

Rəqsin sonunda İsgəndər Fatma xanımın qarşısında əllərini havada yelləndirərək dayandı. Fatma xanım Şirindən:

– Bu nə deməkdir? – deyə soruşdu.

Şirin:

– Qadınlara intəhasız hörməti olduğuna işarə edir, – dedi.

Fatma xanım əl çaldı.

Hamı:

– Yaşasın Allah! – deyə bağırdı.

---

* Balda qaynadılmış yumru xəmir

## 6

İri darvazadan palçıqlı həyətə bir adam girdi. Ehtiyatlı addımlarla yavaş-yavaş irəliləyib, bir tərəfi bir az çökmüş daxmanın taxta pilləkəni ilə yuxarı çıxdı. Qapını yumruğu ilə döydü və içəri girdi. İlk nəzərini cəlb edən pərdə arxasındakı çarpayıdan sallanan uzunboğaz çəkməli ayaqlar oldu: kim isə orada uzanmışdı. Sağ tərəfdəki alçaq qapını cırıltı ilə açdı: xırda bir otaqda iki çarpayı arasına sıxılmış bir masa ətrafında yaşlı bir qadınla bir qız oturub çay içirdilər. Bunların yanından ötüb, xırda qapını tıqqıldatdı:

– Buyurun, – deyə səs gəldi, sonra qapı açıldı.

– Ba!.. Rüstəmbəy, – deyə Əli irəli yeridi.

Əyri döşəmə və tavanlı bu komanın dibində bir dəmir çarpayı yerləşmişdi; həyətə baxan xırda pəncərənin önündəki masanın yanında sarıbəniz, yastıburun bir tələbə oturmuşdu. Masanın üstündə nərdtaxta vardı.

Rüstəmbəy paltosunu və şapkasını çıxarıb, divardakı mismardan asdı:

– Ya Allah, Niyazi, – deyə oturan tələbəyə əl verdi, – sən hara, bura hara? – dedi.

Niyazi bir az kar olduğu üçün, görünür, Rüstəmbəyin sözlərini eşitmədi, əlini qulağının arxasına söykəyib:

– Nə dedin? – deyə sordu.

Rüstəmbəy bir az bərkdən:

– Deyirəm, sən hara, Əli hara?

Niyazi əlini qulağından çəkib gülümsəyərək:

– Əli ilə biz bərk dostuq. İkimiz də nərdtaxta aşiqiyik. Hərdən ürəyim darıxanda nərdtaxtanı qoltuğuma vurub buraya gəlirəm.

Əli qonşu otaqdan bir kürsü gətirib Rüstəmbəyi oturtdu. Nərdtaxtanı yığışdırdılar. Əli:

– Nə var, nə yox? – dedi. – Eşitdim, müsamirə düzəldirsiniz?

– Elə fikrimiz var, ancaq nə sən, nə də Niyazi yaxın durmursunuz. Niyazinin yenə ictimai işi var, üç ildən bəridir zemlyaçestvonun kitabxanaçısıdır. Sən heç bir şeydə iştirak etmirsən. Səbəbini bilmirəm.

Əli məyus bir səslə:

– Əh, nə lüzumu var, iş mənsiz də gedir.

– Sənsiz də gedəndə nə olar?

Əli üzünü Niyaziyə çevirdi, acı bir təbəssüm simasına əzab süsü yaxdı. Niyazi əlini yenə qulağına dayaq verib, başını irəli uzatmışdı: söylənənləri eşitməyə çalışırdı.

Əli:

– Rüstəmbəy, – dedi, – individualist olduğumu bilirsən; insandan qaçaqlığım da bəlli... Artıq izahata lüzum varmı? – Bir müddət susdu, sonra yenə üzündə əzab ifadəsi göstərərək sözlərinə davam etdi:

– Həyatın məqsədini anlamıram: "Nə üçün yarandıq?" – sualı beynimi yara etmişdir, həllindən acizəm. Dini kitabları oxudum, mənə yol göstərə bilmədi, filosofları tədqiq etdim, məni qane etmədilər... Yolu büsbütün itirdim, bədbin oldum, özümü öldürməyə qalxmışdım, cəsarətim yetişmədi... Yenə fəlsəfəyə döndüm: Şopeanhaueri, Qartmanı diqqətlə oxudum, bunlar da məni doyurmadı. İndi Ömər Xəyyam vəziyyətində yaşayıram, o, guşeyi-xərabətdən, mən də nərdtaxtadan zövq alıram.

Əli tühaf bir gülüşlə sözlərinə xitam verdi. Niyazi yavaş səslə:

– O!.. Nərdtaxta əbədi və əzəli bir qüvvədir: "Ləm-yələd vələm yuləd!..". Rüstəmbəy, istəyirsən bir əl oynayaq.

Rüstəmbəy ağzını büzərək:

– Yox, heç bir oyundan zövq almıram... "Ləm-yələd və ləm-yuləd" kitabdır. Ayrı zövqüm yoxdur.

Rüstəmbəy arabir buraya gələr, Əli ilə uzun-uzadı münaqişə edər, onu qane edə bilməzdi. Əlinin bədbinliyi ailə bədbəxtliyindən doğmuş bir şey idi. Onun üç dayısı, dörd xalası gənc ikən ölmüş və bu müsibətlərin şahidi olmuş dindar babası: "Budurmu Allahın adilliyi?!" – deyə, sönüb getmişdi. Əli bu faciəni görərək, səbəbini aramağa çalışmışdı, tapa bilməmişdi. Babasının vəfatından sonra ata-anası və yeganə qardaşı ölmüşdü. Çocuq ikən tək qalan Əli yenə səbəb və məntiq aramağa qalxışmışdı. Özü demişkən, hər bir yola müraciət etmişdisə də, onu maraqlandıran suala cavab tapa bilməmişdi...

Rüstəmbəy gülərək:

– Əli, çay içmişsiniz, yoxsa içəcəksiniz? – dedi. Niyazi barmaqları ilə qulağını əhatə edərək sözləri qavradı və bir şey kəşf etmiş kimi sevinərək:

– Əli elə bilir ki, bədbin adam çay içməz.

Əli güldü:

– İçər! İçər! – dedi və durub o biri otaqdan üç stəkan rəngsiz çay gətirdi.

Yenə söhbət başlandı. Rüstəmbəy Niyaziyə müraciət etdi:

– Sən nə aləmdəsən? Darülfünuna gedirsənmi? – deyə sordu.

– Getmirəm, lüzum da görmürəm. Atamın bir balaca mülkü, əkini-biçini var. Məndən başqa da övladı yoxdur. Ata mülkünü idarə etmək üçün ali təhsilə ehtiyac yoxdur. Bir-iki il burada dolanıb geri qayıdacağam. Özümlə böyük kitabxana aparıram. Orada vaxtım çox olacaq, oturaram, oxuyaram.

Rüstəmbəy cavab vermədi. Bir müddət sükut içində çay içdilər. Sonra yenə Niyaziyə yönəldi:

– Vaxtın necə keçir, darıxmırsanmı?

– Yox, gündüzləri yatıram, gecə də sabaha qədər ya oxuyuram, ya da yazıram. Darıxanda da nərdtaxtanı qoltuğuma vurub bir yana gedirəm. Amma elə gecələr olur ki, bu işlərin heç birini könlüm istəmir. Bir gecə oturub, "Əcnəbi sözləri lüğəti"ndəki sözləri saydım. Lüğətin üstündə 50.000 söz olduğu qeyd olunmuşdu, mən saydım 44 söz əskik çıxdı.

Rüstəmbəy:

– Buna nə qədər vaxt sərf etdin? – deyə sordu.

Niyazi müzəffər bir təbəssümlə:

– Gecə sabahadək saydım.

Yoldaşlar gülüşdü. Rüstəmbəy əlini Əlinin çiyninə qoydu, mehriban səslə:

– Görürsən, dostum, – dedi, – insan darıxanda özünə məşğələ tapa bilir...

Əli onun sözünü kəsərək:

– Əsas olmalı, əsas da dəruni mətanətdən ibarətdir. Məndə bu əsas sarsılmışdır. Ağlımı da şübhə sarmış, o da istiqamətini itirmişdir. Mexanizmi və poslası pozulmuş bir gəmi təsəvvür et – o mənəm! Həyat dənizinin dalğaları arasında avara-avara sallanıram... Gülməyiniz, məni heç bir fikirlə qane edə bilməzsiniz. Həyatın bir üzvündən baş vermiş çirkin bir fıram, kəsilib atılmaqdan başqa bir çarəm yoxdur!

Əli sözlərini elə qətiyyətlə bildirdi ki, ətrafındakıların etiraza cəsarəti qalmadı

## 7

Səlman həftələrdən bəri başında cövlan edən fikrini Xəlilə açdı. Xəlil çoxdan hazır imiş kimi heyrət etmədi və coşqun bir halda dedi:

– Çox yaxşı. Ancaq sirri hər kəsə açmamalıdır, çünki hamımız tərəssüd altındayıq.

Səlman çox sakit:

– Bir şey olmaz, – dedi, – olsa nə olur ki?

Bu sözlərdən sonra planlarının təfsilatını müzakirə etdilər. Bütün Rusiya darülfünunlarında təhsildə olan türk tələbələri nümayəndələrindən mürəkkəb bir gizli qurultay çağırılması qət olundu.

Xəlil:

– Qurultay çağırılana qədər hazırlıq aparmaq üçün bir heyət lazımdır, bu heyətə kimlərin çağırılması lazımdırsa, indidən kəsdirməlidir.

Səlman cavabında:

– Altı nəfər lazımdır. Bir sədr, katib, dörd də üzv. İndi üzvlüyə kimi namizəd göstərirsən?

– Birinci Çingiz.

– Yox, Çingizi qoy dursun.

– Nə üçün?

– Çingiz təbiətən mübarizədən uzaq bir sahə üçün yaranmışdır. Onda inqilabi duyğu yoxdur. Bizə inqilabçı ruhlu, cürətli və gözüaçıq adamlar lazımdır. Bizimlə dar ağacına qədər yoldaşlıq edə bilən inqilabçılar lazımdır.

Xəlil bir az məyus baxışla:

– Bizdə inqilabçı varmı? – dedi. Səlman qəti surətdə:

– Var! Var! Gənclərin içində elələri var ki, özlərini oda vurarlar. Məsələn: təzə gələnlərin içində Əhməd adlı biri var, həqiqət üçün göylərə çıxar, ulduzları qoparar. Onun özü kimi bir yoldaşı da vardır. Bu iki. Sonra, Fatma xanım da lazımdır. Hə... de görüm.

Xəlil Rüstəmbəyin adını çəkdi, Səlman ağzını büzdü:

– Rüstəmbəy yaxşı oğlandır, ancaq... bəy balasıdır. Toxluqdan Tolstoy kimi mənəvi axtarış dövrü keçirir. Ruhunda "romantizm"lə "rasionalizm" çarpışmadadır. Qələbə nə tərəfdə qalacaq, bəlli deyil... dəruni "refleks"... nə bilim nələr.. yoldaş, təkamülün aramla yürüməsinə vaxt yoxdur. İnqilabi addımlar lazımdır! Bildinmi?

– Onda mənim namizədim yoxdur. Kimi istəyirsən yaz. Səlman razı oldu və cəld dedi:

– Bu günlər hamınızı iclasa çağıracağam. Hazır ol. Moskva, Peterburq, Kazan, Odessa, Xarkov və başqa yerlərdəki türk tələbələrinin adreslərini öyrən. İndilik bu. Ehtiyatlı ol, dalınca gəzən adamları tanı, diqqət et.

Səlman sözlərini qurtarıb, nə isə düşünürdü, bir də Xəlil onu fikirdən ayıltdı.

– Mircəlal Kiyevə gəlmişdir, üç gün əvvəl küçədə ona təsadüf etdim. İstərsən bir namizəd də o olsun.

– O yaxşıdır. Özü də köhnə inqilabçıdır. Ancaq bir nitqində pristava xoş gəlmək üçün əksinqilabçılıq göstərmiş, deyirlər, bundan ötrü Mircəlal gizli olaraq boykot olunur. Bu günlər Mircəlalın şəxsi ricasına görə idarəmiz bu məsələyə baxacaq. Məhkəmə üzvləri seçilmiş, mən də müddəiyi-ümumi təyin olunmuşam. Hə, sən iclasda yoxdun: səni də müdafiəçi seçdik. Bir çox şahidlər dəvət etmişik. Zənn eləyirəm, mühakimə iki gün çəkər. Əgər Mircəlal bəraət qazansa, onu da bu işə qarışdırmaq faydalı olar.

Xəlil güldü:

– Bu əhvalatı bilirəm. Mircəlal bir az hərdəmxəyaldır.

Səlman:

– Qəribədir, – dedi, – bizdən, hələ ki, qüsursuz bir adam çıxmır. Yaxşı başlayır, bir də görürsən ortada xarabladı. Bunun sirrini bilə bilmirəm.

– Xam öküz samını qırar. Bunlar hamısı xamlıqdandır. Ömründə ictimai iş görməmişdir: evdə bişməyib, qonşudan da pay gəlməyib. Zəkamız belə xamdır, orada irsi olaraq məhdud həyati təcrübədən başqa nə var ki?.. Hələ bu gün gördüyün ziyalı gənclər yüksək təbəqəyə mənsubdurlar: bəy, xan, əfəndi və axund ailələrindən olduqları daşıdıqları famillərindən görünür. Bunlar, köhnə də olsa, yenə bir mədəni mühitdə böyümüşlər. İndi tacir balaları axıb gəlməyə başlamışdır. Bu günkü maddi qüvvəni bunlar təmsil edir: hamısı pullu, məişət məsələlərində açıqgöz və elmi mənimsəyərək daha asan qazanc yolları arayırlar. Bunlar bəy və axund balalarına nisbətən daha elastikdirlər, lakin ictimai işə az yarayırlar. Yoxsullar hələ görükmür. Sənin kimilər hələ tək-tək çıxır. Hamısı sənin kimi olsa, yaxşıdır. Amma mənə belə gəlir ki, yoxsul balaları büsbütün xamdırlar, çünki heç bir irsi mədəniyyətə malik deyillər.

Səlman bu fikrə şərik olmaq istəmədi, o, biləks yoxsul balalarının, xam torpaq kimi, münbit bir zəmin daşıdıqlarını irəli sürdü:

– Bu gün, – dedi, – ölkədə varlılar hakimiyyəti olduğu üçün ölkənin bütün mədəniyyətindən yalnız varlılar istifadə edirlər. İnqilab bir gün qələbə çalar da, məktəblər və mədəni müəssisələr qapılarından bizi də içəri buraxarlar, onda görərsən biz nə möcüzələr göstəririk.

Səlmanın coşqun danışığı Xəlilə olduqca məzəli gəldi, özünü saxlaya bilməyib güldü:

– Ey nərim, – dedi, – deyəsən, ürəyin bərk yanıb.

– Bəs yanmaz? Siz nəsəbiniz və pulunuzla açdığınız qapıları mən alnımla açmışam.

Səlman da öz sözlərindən xoşlanıb gülməyə başladı. Sonra otağı dolaşaraq:

– Deməli, qurultayı çağırırıq. Çağıraq bu donuq tələbəliyi silkələyək, görək nə çıxır.

– Silkələyək, – deyə Xəlil yenə güldü və birdən təşvişə düşən kimi, – saat neçədir? Evdə qız məni gözləyir, o da silkələnməlidir...

Səlman onu pilləkəndən ötürərkən həsrətlə dedi:

– Subaylıq sultanlıqdır – vur, kef sənindir!

8

Zemlyaçestvo idarəsinə iki ərizə verilmişdi: biri Mircəlalın, biri də Əlinin idi. Mircəlal yazırdı: “...1905-ci ildə məni erməni casusu deyə Şuşa şəhərindən qovmuşdular. O zamandan bəri gizli olaraq boykot edilir və haqsız olaraq üzərimdə ağır bir ləkə daşıyıram... İkinci, məni “rus xalqı ittifaqı” tərəfindən təşkil edilmiş vətənpərəst nümayişdə söylədiyim nitq üstündə qəbahətləndirirlər...”. Bu ittihamlardan özünü təmizləmək üçün Mircəlal mühakimə edilməsini rica edir və bu iki məsələyə dair uzun-uzadı izahatlar verirdi. Əlinin dərdi başqa idi: Həsənqulu hər gün onun yanına hədsiz-hesabsız “şurum-burum”çu (köhnə paltar alan) tatar göndərib, onu rahatsız edirmiş, Əli ərizəsində bu xuliqanlığa xitam verilməsini rica edirdi.

İdarə ərizələrə baxıb, bir məhkəmə heyəti ayırdı: Şirin sədr, İsgəndərlə Niyazi iclasçı təyin olundu, prokurorluq vəzifəsi Səlmana, müdafiəçilik də Xəlilə tapşırıldı.

Heyət Şirinin otağında toplanmışdı. Şikayətçi və müttəhim olunanlarla bərabər Rüstəmbəy və Fərəməz də şahid sifəti ilə çağırılmış-

dı. Birinci Mircəlalın işinə baxıldı. Şirin təqsirnaməni oxudu və sonra Mircəlala söz verdi:

– Əhvalat necə olub, nağıl elə, – dedi.

Mircəlal uzunboylu, arıq və bir az çopur bir tələbə idi. Əsəbi olduğu üçün danışanda tez-tez boynunu dartırdı:

– Yoldaşlar, – deyə sözə başladı, – məsələni daha aydın etmək üçün bir az ətraflı danışmam icab edəcək. 1905-ci il Bakıda baş verən erməni-türk qırğınından sonra bütün Zaqafqaziyada vəziyyət olduqca gərginləşmişdi. Bir tərəfdən inqilabi hərəkat hər yeri qaplamış – üsyan, tətil, hökumət məmurlarının öldürülməsi; o biri tərəfdən də milli tələblər və bundan irəli gələn etnoqrafi hüdud məsələsi ölkəmizi çaxnaşdırırdı...

Zaqafqaziyada o zaman vəziyyət belə idi: qüvvət burjuaziyada idi, burjuaziya da qudurub yolu şaşmışdı. Şəxsi faydaya milli rəng verib, ortalıqda yoxsulların qanı boş yerə axıdılırdı. Bu hadisələr çar siyasəti üçün əlverişli bir vasitə oldu: çar məmurları inqilabı susdurmaq üçün bu hadisələri körükləməyə başladılar: ermənilər yaşayan yerlərdəki rus polisləri əvəzinə türk polisi təyin etdilər, erməni-türk vuruşmalarında hökumət əsgəri gah bir tərəfə kömək edir, gah o biri tərəfə. Nəticədə iki xalqın ikisini də bir-birinə lazımınca döydürürdü. Mən və mənim kimi gənclər, təbiidir ki, olan hadisələrin iç üzünü bilir və ona qarşı çıxmaq istəyirdik. Ancaq bizim səsimiz zəif idi, ona qulaq asan yox idi. Ermənilərə qarşı qardaşlıq hissi bəslədiyim üçün məni xainlikdə müttəhim edib, axırda Şuşa şəhərindən qovdular. Həqiqət budur.

Mircəlal susdu. Rəngi qaçmışdı. Dəsmalını çıxarıb alnını sildi.

Mircəlalın söylədikləri hakimləri də mütəəssir etmişdi, bir müddət sükuta dalaraq qaldılar, sonra sədr dedi:

– Mircəlal, Şuşa hadisəsi necə oldu? Bir az təfsilatı ilə söylərmisən? Türk-erməni düşmənçiliyi əvvəldən də orada vardımı? Vuruşmanın başlıca səbəbi nə oldu? Maraqlıdır, söylə.

Mircəlal düşünərək, yerə baxırdı. Rəngi yenə açıq idi, yalnız qulaqları qızarmışdı. Yenə boğazını dartırdı.

– Yoldaşlar, – dedi,- 1905-ci ilə qədər istər Şuşada, istərsə civarında ermənilərlə türklər çox gözəl yaşayırdılar. Çox sıxı dostluq vardı, hər bir türk ailəsinin bir erməni kirvəsi var idi ki, evə məhrəm idi və ailə üzvü kimi sayılardı. Şəhərin yarısında erməni, o biri yarısında türk yaşadığına baxmayaraq, erməni sənətkarlarının və sövdə-

gərlərinin türk məhəlləsində və türk baqqallarının erməni məhəlləsində dükanları var idi. Daşnaqsütyun təşkilatı meydana çıxana qədər iki qardaş xalq arasında bir fəna hadisə baş verməmişdi. Daşnaqlar rol oynamağa girişdikdən sonra işlər dəyişilməyə başladı. Bilxassə Türkiyədən qaçıb gələn daşnaqlar vəziyyəti daha da gərginləşdirməyə çalışdılar. Şuşanın vaxtilə erməni məliklərinə məxsus olmasını irəli sürdülər... Bakı hadisəsindən sonra iki tərəfin də silahlanması şiddətləndi. Təbiidir ki, "yüz gün yaraq-bir gün gərək" – bir gün vuruşma düşdü...

İsgəndər sədrə müraciət edib, sonra Mircəlala sual verdi:

– Türk gəncləri erməni məhəlləsində, erməni yoldaşlarının evinə gedərdilərmi?

Mircəlal:

– Hər gün gedərdik. Əvvəla, realni məktəb erməni məhəlləsində idi. İkinci, bütün hökumət müəssisələri də orada idi. Erməni məhəlləsi şəhərin abad bir yeri idi. Türk hissəsi qaranlıq və xərabə bir halda idi. Odur ki, biz hər gün erməni hissəsinə gəzməyə gedərdik. Yayda hər axşam bulvarda olardıq.

İsgəndər yenə sual verdi:

– Erməni-türk vuruşması saat neçədə başlandı?

– Axşam çağı idi, saatı yadımda deyil.

– Yaxşı, özün deyirsən ki, hər axşam bulvarda olardıq. Bəs o axşam necə oldu ki, getmədin, evdə qaldın? Yəqin getsəydin, indi sağ qalmamışdın.

– Düzdür. O məsələ belə oldu. – Mircəlal bir az duruxdu, boynunu dartdı və titrək əli ilə incə bığının ucunu burdu. – O belə oldu: mən Şuşadan çıxıb, getmək istəyirdim, çünki köhnəlik, mövhumat məni təngə gətirmişdi, asudə yaşamaq imkanı yox idi. Başımdakı şapkaya bir söz atırdılar, əynimdəki buluza gülürdülər, əlimə ağac alırdım, türklər arasında vəlvələ qopurdu, erməni qızı ilə gəzirdim, daşnaqlar hədələyirdi... Canım boğazıma yığılmışdı. Odur ki, şəhəri tərk etmək istəyirdim. Rüstəmbəy mənimlə oxuyurdu, yoldaşdıq, onun Bakıya gedəcəyini eşidib, mən də həvəsləndim. Ancaq yol pulum yox idi. Atam köçərilər arasında alış-veriş edərdi. Dağdan on dənə motal göndərmişdi, bunları satmaq istədim: bir baqqalla danışdım, gəlib baxmasını vəd etdi. Vuruşma düşən günü səhər tezdən darvaza döyüldü, mən də otağımda döşəmənin üzərində yatmışdım. On dörd yaşında bir

bacım vardı, otağa girib baqqalın gəlməsini xəbər verdi. Cəld durub geyindim və bacıma dedim ki, yatağı içəri otağa apar, baqqal mənim otağıma gəlsin.

Pilləkəndən enib, darvazanı açdım, baqqalı içəri çağırdım, pilləkəndən çıxarkən otağımdan bir tappıltı eşidildi. Əhəmiyyət vermədim. İçəri girdikdə... bacımı yerə uzanmış gördüm, sol döşündən qan axırdı... Yastığın altında brauninq tapançam var idi, bacım yatağı yerdən qaldıranda tapança yerə düşüb açılmış, güllə bacımın arxasından çıxıb divara dəymişdi. O günü bacımı dəfn edib, geri qayıtdıqda, atışma səsi eşidilməyə başladı...

Mircəlal titrək əli ilə bir sandalya çəkib oturdu. Üzünə ölü rəngi çəkilmişdi. Otaqda dərin bir sükut vardı. Hamı düşüncədə idi, yalnız Niyazi məmnun bir təbəssümlə karandaşının üzərində bıçaqla öz adını həkk edirdi.

## 9

Sədr şahidlərdən Rüstəmbəyi çağırdı.

– Rüstəmbəy, məsələ haqqında nə bilirsən, danış.

– Mircəlalın dedikləri tamamilə doğrudur, – dedi. – Bacısının dəfn mərasimində mən də vardım.

Sədr Rüstəmbəyin susduğunu görüb dedi:

– Başqa bir şey əlavə etmək istəmirsən ki?

– Yox.

Sədr:

– İkinci şahid Fərəməzdir. De görək nə bilirsən? Fərəməz pəhləvan kimi yerindən qalxıb, Hakimlər masasına yanaşdı. Məclisdə sıxıldığından rəngi qızardı. Şəhadət barmağının arxası ilə bığlarını düzəldib, sözə başladı:

– O zaman Şuşaya Süleyman gəlib, orada bir sosial-demokrat özəyi düzəltmişdi. Mən, Rüstəmbəy, Xəlil və Mircəlaldan ibarət olan bu özəyin rəhbəri Xandəmirov adlı bir erməni studenti idi. 1905-ci ilin yayında hər səhər Xandəmirov teatrının həyətində toplanardıq, student bizə mühazirə oxuyardı. Bir gün Xandəmirov bizə dedi ki, yaxşı olardı xalq arasından da bir adam özəyə gələydi. Biz fikirləşdik, dedik kimi aparaq. O zaman Hüseyni adında bir gənc şair vardı. Hər cümə günü xanlıq evdə camaata mühazirə oxunurdu. Hüseyni də orada şeir

oxuyub alqışlanırdı. Məsləhətləşdik, dedik, Hüseynini aparaq. Apardıq. Bir dəfə gəldi, sonra daha istəmədi. Bir də eşitdik ki, gedib xanlıq evdə xəbər salıb ki, dörd tələbə var ermənilərə xəbər daşıyır...

Fərəməz sözünü bitirmədən gülməyə başladı, hakimlər də güldü. Niyazi bıçağı masanın üstünə qoyub, sədrdən bir şeylər soruşdu, sonra təbəssümlə Fərəməzi süzdü.

Şahidlər dindirildikdən sonra sədr üzvlərlə pıçıldaşıb, Mircəlalın ikinci işinə baxdığını bildirdi.

Mircəlal:

– "Rus xalqının ittifaqı"nın xuliqan təşkilatı olduğunu bilirəm, – dedi. – Nitq deməkdə məqsədim başqa idi, fikrim onların fəna yola sapdığını anlatmaq idi. Nə təhər oldusa pis çıxdı. Doğrusunu deyim, bir-iki də qəşəng qız var idi. Onların xoşuna gəlmək istədim. Bilirsiniz, qız görəndə ağlım yerindən oynayır.

Hamı gülüşdü. Sədr məclisi kiritmək istədi, lakin özü də gülməyə qapılıb, qəhqəhə çəkdi. Mircəlalın hərdəmxəyallığı hamıya bəlli olduğu üçün daha təfsilata girişmədilər, məsələ hakimlərə aydın idi. Sədr üzvləri ilə pıçıldaşıb, prokurora söz verdi.

Prokuror uzun nitqində Mircəlalın mübarizə sahəsində zəifliyini, ardıcılsızlığını, məntiqsizliyini meydana çıxardı, "O, erməni-türk vuruşmaları ilə şiddətlə mübarizə etməli idi. Onun bu sahədəki passivliyi silinməz bir ləkədir, – dedi. – O, iki tərəfin də silahlanmasını gördükdə erməni və türk gənclərini bir yerə yığıb, etirazlar etməli idi, gurultu salmalı idi. O bu sahədə təşəbbüsdə bulundumu? Yox, bulunmamışdır! Mircəlalın əsil qəbahəti, bax, buradadır!.."

Prokurorun bu məaldakı nitqi bir saat çəkdi.

Müdafiəçi də əksini söyləyərək dünyada tam mənası ilə müsbət adam olmamasını, hər gözəlin bir eybi olmasını, adama qiymət verilmək lüzumunu irəli sürdü...

Mircəlala son söz verdikdən sonra hakimlər otağın bir küncünə çəkilib müşavirə etdilər, nəticədə Mircəlal bəraət qazandı. Qərarın kopyasının Mircəlala verilməsi də ayrıca qeyd olundu.

Mircəlal sevinc içində idi, hamıya təşəkkür edib, yoldaşlarının əllərini sıxdı. Xəlil gülə-gülə onun arxasına vuraraq:

– Qız görəndə bir də ağlın yerindən oynamasın, ha!.. – dedi.

Mircəlal:

– Oynamaz, oynamaz, – deyə otağı tərk etdi.

Əlinin işinə başlarkən indiyə qədər laqeyd görünən Niyazi sədrdən söz istədi. Həsənqulu uzun boğazını bir az da irəli uzadıb, Niyaziyə diqqətlə baxırdı.

Niyazi dedi:

– Həsənqulu, şurum-burumçuları Əlinin evinə göndərməkdə fikrin nədir? Bu xuliqanlıqdan əlinə nə gəlir?..

Sədr Niyaziyə tərəf yönəlib, məhkəmə nizamına tabe olmasını tələb etdi. Niyazi eşitməyərək özündən çıxdı və hücumuna davam etdi. Prokuror və müdafiəçi durub Niyazini zorluqla sakit etdilər.

Məhkəmə işinə davam etdi. Həsənqulu özünü doğruldacaq bir söz deyə bilmədi: "Canım, burada nə var ki? Adam zarafat eləməz? Mən də zarafat üçün göndərdim", – deyə təkrar edirdi.

Prokuror çıxışında Həsənqulunu rüsvay etdi. Müdafiəçi belə öz vəzifəsini unudub, o da Həsənquluya qarşı hücum vəziyyəti aldı. Zatən Həsənqulu kitabxanadan kitab götürüb qaytarmaz, üzvlük haqqı verməz; ictimai işlərə yaramayan bir adam olduğu üçün hər kəs ondan pərt idi. Odur ki, onu lazımınca utandırıb töhmətləndirdilər və qərarın da kopyasını əlinə verdilər. Əlavə olaraq Əlidən üzr istədilər.

## 10

Sofya xanım köksünü ötürdü və həzin bir səslə:

– Ürəyinizdə mənə qarşı bəslədiyiniz hissləri bilmək istərdim, – dedi.

Rüstəmbəy gözünü "Kilsə hüququ"ndan ayırmadan:

– Hiss aldadıcı bir şey olduğundan hissə heç inanmıram, – deyə cavab verdi.

Sofya xanım həyəcanlı:

– Sizin yanınızda olmağımla olmamağım arasında heç bir fərq duymurmusunuz?

Rüstəmbəy suala dərhal cavab verə bilmədi. Fikirləşdi. Başını kitabdan qaldırıb, Sofyanın rəngi qaçmış simasına baxdı:

– Əlbəttə, – dedi, – sizin yoxluğunuzu hər vaxt hiss edirəm. Ürəyim sizi axtaran kimi olur, ancaq buna elə məna vermirəm.

– Səbəb?

– Çünki bu hal "eşq" deyilən boş ləfzdən irəli gəlməyib, öyrəniş və alışmaqdan törəyir...

Sofya xanım döyükdü və bir az incidi. Gileyli səslə:

– Niyə eşqə boş ləfz deyirsiniz?

Rüstəmbəy bir az hirsli:

– Çünki eşq yoxdur, eşq şairlərin boş xəyallarının məhsuludur. Eşq bir xəyaldır. Xəyalla ömür keçirmək isə işsizlərin işidir. Öyrəniş və alışma var. Bir adam bir adama öyrənişir, alışır, onu görmədikdə könlü sıxılır.

Rüstəmbəyin sözləri Sofya xanımı ox kimi yaraladı. Təhqir olunmuş izzəti-nəfsi ona rahatlıq vermədi. Bir az sükuta getdi, kədərli gözlərini Rüstəmbəyin gözünə dikib, sərzənişli bir səslə dedi:

– Heç yuxusuz gecələri təsəvvür edə bilirsinizmi? Bir tərəfdən daxili iztirab, bir tərəfdən göz yaşları!.. Sübh tezdən gözünüz göyün pak qızartısına düşdükdə, əcib bir sızıltının vücudunuza yayıldığını hiss etmisinizmi? – Bunları necə izah etməli?

– Bu qəribə halları eşqmi sayırsınız?

– Yox, gözüm, bunlar vücudun xəstəliyidir.

– Bəs bu xəstəliyi törədən nədir? – deyə Sofya xanım soruşdu və üzündə qalibiyyət nişanəsi göründü.

– Bu xəstəliyi törədən xəyal və işsizlikdir!

Sofya xanım yenə məyus bir halda başını aşağı saldı. Rüstəmbəyin cavabı onu razı salmazdı, eşqin böyük bir qüvvə olduğuna inanırdı. Rüstəmbəy yenə "Kilsə hüququ"na tərəf yönəldi. Başına bir şey girmədi, Sofyanın yanında oxumaq mümkün deyildi. Kitabı yumdu və qoluna söykənib, fikrə getdi. Birdən: – "Eşq" deyilən xəstəliyin səbəblərini sizə deyim, – dedi. – Yaradılışda anlaşılmaz bir sirr var, bu, törəmək və artmaq sirridir. Hər yaranan yaşamalı və nəslinin baqiliyinə çalışmalı – təbiətin hökmü budur. Hiss təbiət qədər əzəlidir, bir anadan doğmuş əkizdir. Hiss təbiət zəkasının təzahürüdür, təbiət istədiyini hiss vasitəsilə görür. Yaranmışlar müəyyən yaşa çatıb, törətmək qabiliyyəti duyar-duymaz hiss onları idarə etməyə başlayır. Gənc zəka vücuda rəhbərlik etmədə acizlik göstərir, hər şey yolundan sapıb, həqiqi aləm bir başqa şəkildə görünür, vücud xəstə bir şəkil alır: yuxusuzluq, xəyal, göz yaşları başlayır...

Sofya xanım Rüstəmbəyin sözlərini diqqətlə dinləyir, lakin nə təsdiq edir, nə də etiraz edirdi. Rüstəmbəy sözlərini qurtardıqda xanım ona həsrətlə baxdı, gözlərində səadət nuru parlayırdı. Rüstəmbəy

bunu hiss etdi, lakin bundan istifadə etmək istəmədi. Xanım ayağa durdu və nazlı balalara məxsus bir əda ilə Rüstəmbəyin yanına gəldi. Əlini çiyninə qoyub baxmağa başladı. Rüstəmbəyin ürəyi döyündü, amma halını büruzə vermək istəmədi. Xanım qaşlarını qaldırdı, sözlü və dərdli simasını bir də Rüstəmbəyə göstərdi. Studentin üzündə heç bir dəyişiklik görmədikdə dərdləndi, ağlamsındı və yavaşca əyilərək dodaqlarını onun yanaqlarına yavıqlaşdırdı. Bu zərif, lakin cürətsiz busə Rüstəmbəyə bir təsir bəxş edə bilmədi və əksinə olaraq onda bir inad oyandırdı.

Rüstəmbəy əlini sipər eləyib, üzünü xanımın odlu yanaqlarından qorumağa başladı.

Xanım mənliyinin təhqir olunduğunu hiss edirdi. Əllərini üzünə qoyub küncə söykəndi.

Rüstəmbəy irəli yeridi və onu üsulluca qucaqladı. Xanım hıçqırmağa başladı.

– Mən bu dəqiqələrdən qorxurdum, – dedi, – indi artıq acizliyimlə mübarizə edə bilməyəcəyəm!

Rüstəmbəy ehtiramla xanımın başını bağrına basdı, yaşlı gözlərini qurutdu. Peşmanlıq, təəssüf və nifrət hissi bir-birinə qarışaraq onun ürəyini bürüdü.

## 11

Səhər tezdən Qulu ilə Xəlil gedirdilər. Rüstəmbəy salam verdi. Xəlil:

– Ya Allah, Rüstəm, – deyə əl verdi və sonra mehriban bir halda qolunu onun qoluna keçirib: – Balam, niyə görükmürsən? – dedi.

... Rüstəmbəy Qulu ilə soyuq bir halda görüşdü:

– Xəlil, başım qarışıqdır, imtahana hazırlaşıram. Bir tərəfdən də otaq məsələsi, – olduğum yerdən çıxmaq istəyirəm.

Qulu qaşqabaqlı üzünü bir az xoşlaşdırdı, qayğılı bir halda:

– Yoxsa otağın pisdir?.. Həmişə qulluğunda hazıram.

Qulunun sözləri Rüstəmbəyə təsir etmədi. Onun ürəyi Quludan sınmışdı. Ona görə simasında soyuqluq müşahidə oluna-oluna:

– Sağ ol, Qulu, – dedi, – zəhmətinə razı deyiləm. Özüm axtarıb taparam.

Qulu daha dinmədi. Ürəyindəki kin Rüstəmbəylə mehriban bir halda müsahibə eləməsinə mane oldu.

Bir müddət sükut içində getdilər. Sonra Qulu vidalaşıb aralandı.

Xəlil işdən dürüst xəbərdar deyildi, heyrətlə Rüstəmbəyə baxıb dedi:

– Rüstəm, deyəsən, Qulu ilə aran bir az sərinləşmişdir?

– Xüsusilikdə dostam, yoldaşlıqda mənə hər nə işi düşsə, əmələ gətirməyə hazıram. Amma ictimai işlərdə bir-birimizlə düşmənik.

– O niyə?

– Özün bilirsən ki, ictimai işdə şəxsiyyətimi büruzə vermərəm, şəxsi mənfəətimi heç vədə nəzərdə tutmaram. Öz xüsusi işlərimdən əl çəkib, ümum üçün çalışaram, vuruşaram, sözü həmişə açıq danışaram. Beləliklə də dostlar məndən üz döndərir, özümə hər yerdə düşmən qazanıram.

Xəlil çox safqəlbli adam idi. Hiyləgərlərin ürəyinə yol tapmağa müqtədir deyildi, bu səbəbdən idi ki, Qulunun zahirinə və danışığına baxdıqda onu təmiz bir adam hesab edirdi. Ona görə də Rüstəmbəyin işarəsini dürüst başa düşə bilmədi:

– Daha Qulu ilə aran niyə dəysin?

Rüstəmbəy gülümsündü. “Görəsən türk tələbələrinin gözləri niyə bağlıdır?” – deyə fikrindən keçirdi və sonra qeyzlə:

– Ay qurban olum, – dedi, – mən nə eləyim ki, siz hər şeyə göz yetirə bilmirsiniz. Gərək sizi bir yerə yığıb çağıram: “Ay... qoymayın, içinizə qurd girdi!” Onda da qorxuram sözümə inanmayıb, mənim özümü qurd hesab eləyəsiniz.

Xəlil gözlərini döyə-döyə:

– Bu nazik mətləb oldu, başa düşə bilmədim. Rüstəmbəy qəti surətdə:.

– Xəlil, Qulunun cəmiyyət işlərində yürütdüyü siyasət xoşuma gəlmir. Aramızda fəsad toxumu salmaq, intriqa törətmək... bir o qədər də mədh olunası hərəkətlərdən deyil, zənnindəyəm. İdarəmizi ümumi məclis seçdi. Layiq olmasaydı, seçməzdi. Daha fitnə və fəsada nə lüzum var... Burada bir tələbə ənənəsi var, ildə bir dəfə idarənin bir hissəsini yeni gəlmə gənclərlə doldururuq. Təcrübəli yoldaşlar yeniləri xalq işinə alışdırır. Təşkilatımızda müvəffəqiyyət bundan irəli gəlir. Bu gün cəmiyyətimizin pulu, kitabxanası, türkcə gecə kursu, nəşriyyat heyəti, məruzə heyəti və asari-ətiqə heyəti vardır. Türkcə kitab basdırmışıq və yenə də basdıracağıq. Rusiyanın darülfünun olan hansı şəhərində türk tələbələrinin belə təşkilatı var?

Xəlil qəti:

– Heç yerdə!

– Bu gözəl təşkilatı yıxmaq istəyirlər... – Rüstəmbəy son sözlərini qeyzlə deyib susdu.

Bir az getdilər, sonra həlim bir səslə əlavə etdi:

– Balam, otaq axtarıram. Ora səs-küylüdür, dərs oxuya bilmirəm.

Rüstəmbəy əsil fikrini gizlətdi, otaq dəyişməkdə Sofya xanımdan uzaqlaşmaq istəyirdi və öz yalanından qızardı. Birdən gözünə sağ tərəfdə yapışdırılmış kiçik bir kağız sataşdı. Onu oxumağa başladı.

– Xəlil, gəl bir bu otağa baxaq.

Döndülər. Qapını açdılar. Dar koridorla gedib sol tərəfdəki zəngi vurdular. Qapıya iri gövdəli bir arvad gəldi. Girdilər.

– Otaq hansıdır? – dedilər.

Xanım yoğun səslə dodaqlarında nə dedisə, tələbələr onun dalınca getdilər. Ağır havalı yemək otağından keçdilər. Balaca və qaranlıq bir koridora girdilər. Xanım bir qapının qabağında durub tıqqıldatdı:

– Otağa baxmağa gəlmişlər, olarmı? – dedi.

Tələbələr bir-birinin üzünə baxdılar, gülümsündülər. Bir azdan sonra içəridən səs gəldi:

– Olar.

Girdilər. Gözlərinə ilk sataşan balaca bir çarpayı oldu. Biri yorğana bürünüb uzanmışdı, başını da gizləmişdi.

Xanım otağı göstərdi və gülümsünərək əlini çarpayıya uzatdı:

– Qız evlərinə getdiyinə görə otaq boşalır. Yoxsa otaqdan çox məmnundur.

Tələbələr ətrafı dürüst nəzərdən keçirirdilər, otaqdan ağılları bir şey kəsmədi: qaranlıq idi.

Xəlil yavaşcadan soruşdu:

– Xala, bu qız kimdir?

– Talibədir, – deyə xanım gülümsündü.

– Gözəldirmi?

Xanım Xəlilin üzünə baxdıqda daha da gülməyə başladı və sağ əlini çırpıb otaqdan çıxdı. Tələbələr də onun ardınca getdilər. Birdən Xəlil geri döndü, qapının arasından içəri baxıb dedi:

– Kolleqa, salamat qalın!

Yorğan tərpəndi, pərişan saçlar arasından dilbər bir çöhrə göründü.

– Sağ olun, – deyə başını gizlətdi.

– Sizin kimi bir dilbəri olmayanın sağlığından nə çıxar ki?!.

Qız yenə başını yorğanın arasından çıxartdı, gözlərini qıyaraq, xoş bir əda ilə Xəlili süzdü. Xəlil coşdu:

– Nə vaxt gedirsiniz?

– Sabah axşam saat yeddidə.

– Müsaidə edin, vağzala gəlib sizi ötürüm.

Sükut. Qız yenə gözlərini qıydı. Xəlil qəti səslə:

– Sabah axşama mütləq gələcəyəm, – deyib getdi.

Ocaqverdiyə rast gəldilər, bir qoltuğunda kitab, o birində bir xoruz gedirdi. Çox düşüncəli idi. Xəlil gülə-gülə onun qolundan dartdı:

– Ədə, o qədər fikirlisən ki, biz yekəlikdə adamları da görmürsən. Hələ de görüm bu xoruz nə əhvalatdır?

Ocaqverdi yuxudan ayılan kimi səksəndi:

– Ya Allah! Ya Allah! Bilirsən, gedə-gedə sabahın dərdini çəkirəm, sabah qurban bayramıdır, qoyuna gücüm çatmır, dedim heç olmasa bir xoruz kəsim, ha-ha-ha!.. Axı bir dədə-baba adətimiz var, yaddan çıxarmaq olmaz ki...

Gülüşdülər. Xəlil maraqla:

– Yaxşı, xoruzu nə bişirəcəksən?

– Plov, sən öləsən, Bakıdan zəfəran da gətirmişəm.

– Bəs plovu tək yeyəcəksən?

– Yox! İş var... Sizi çağırmamağımın səbəbi var: özün arifsən, bilirsən. Bizim ev xanımımızın yanına əyalətdən bir qonaq gəlmişdir. Bilirsən, kefin istəyən bir qızdır, pərvərdigar haqqı, çıraq kimi yanır. Bir yanaqları var ki, bax, lalə.

– Deməli, bu qurban onun yolunda kəsilir?

Ocaqverdi məsum bir halda boynunu əydi və kitab olan əlini qaldırıb, çənəsinə söykədi:

– Axı dərd əhlisən, bilirsən, pərvərdigar haqqı, xoruz deyil, özümü də qurban verrəm! – Sonra səsini dəyişərək yavaşcadan: amma belə mülayim adamdır...

– Mərhəmətlidir!

– Ah nə mərhəmətli, nə mehriban!.. Özü də aranı sazlamışıq.

Xəlil zarafatla:

– Yəni ara sazdırmı?

Ocaqverdi müzəffər bir səslə:

– Əşi, rəhmətliyin oğlu, saz nədir, pərvərdigar haqqı, iş-işdən çoxdan keçib, – deyib yoluna davam etdi və bir-iki dəfədə arxa tərəfə çönüb, gülə-gülə başını tərpətdi.

Rüstəmbəylə Xəlil bir xeyli dolandılar: otaqlara baxdılar, xoşlarına gələn olmadı, bəzisi qaranlıq idi, bəzisi rütubətli. Xülasə, Rüstəmbəyə layiqli bir otaq tapılmadı. Sonra yenidən axtarmağı qərarlaşdırdılar və hələlik aşxanaya tərəf getdilər. Birdən Xəlilin yadına düşdü ki, təvəllüd günü münasibətilə verəcəyi ziyafətə Rüstəmbəyi çağırmamışdır.

– Bilirsən, Rüstəm, ürəyimdə bir şey var, elə ha istəyirəm sənə deyim, yadımdan çıxır... Şənbə günü anadan olan günümdür.

Rüstəmbəy güldü: "Mən ölüm?" – deyə şən bir halda soruşdu. Xəlil:

– Hə, doğrudan!

– Yaxşı, pulun var?

Xəlil bir az düşüncəli və səmimi bir tonla:

– Balam, pulum yoxdur. Ancaq hərə bir şey gətirəcək, – dedi.

– Çox yaxşı, mən də şərab gətirərəm.

Xəlil Rüstəmbəydən belə iş baş verməsinə inanmayaraq, heyrətlə baxdı və qəhqəhə çəkib güldü:

– Sənə, – dedi, – ayrı cür yaraşar. Budur, görəcəyik əlində dəsmala bağlı bir neçə şüşə çaxır gətirirsən. Xa-xa-xa!..

– Sən öl, Xəlil, "anadan olmaqda" savab iş görürsən, çoxdan bəridir içməmişəm, gərək bir "lül-qənbər" olam. Daha Tövrat oxumaqdan, Allah axtarmaqdan, xalq yolunda çalışıb söyüş qazanmaqdan yorulmuşam. Qoy bir az içim, bəlkə dərdlərim yadımdan çıxa.

## 12

Altı üzvdən ibarət bir siyasi heyət əmələ gəlmişdi. Fatma xanım, Əhməd və tələbələr məhkəməsində bəraət qazanmış Mircəlal da buraya daxil idi. Səlman sədr olmuşdu. Beşinci iclasda proqram düzəldilmiş, dəvətnamələr isə ikinci iclasdan sonra göndərilmişdi. Çağırılan qurultayda Səlman məruzəçi sifəti ilə "Ümumi siyasət", Əhməd "Türklər və çar idarəsi", Mircəlal "Rusiyada sol firqələrlə rabitə", Fatma xanım "Türk qadınlarının vəziyyəti", Xəlil "Çar hökuməti və ona qarşı mübarizə yolları" haqqında məruzədə bulunacaqdılar. Be-

şinci iclas bu məruzələrin tezisləri ilə aşna olub təsvib etmişdi. Qurultaya gələnlərin yatacaq yerləri müəyyən oldu. Qət olunmuşdu ki, qurultay qərar çıxarıb bitənə qədər üzvlər şəhərə çıxmasınlar və bütün hərəkət və fəaliyyətlərini gizli saxlasınlar. Tələbələr cəmiyyəti "zemlyaçestvo" təbiidir ki, qurultaydan xəbərdar idi. Hətta buna uzun bir iclas da həsr etmişdi və nəticədə qurultayın xərci üçün 200 manat da ayırmışdı. "Siyasi heyət" də cəmiyyət idarəsi sədri Çingizi fəxri üzv sifəti ilə qurultaya seçmişdi. İlk iclası Çingiz açmalı idi.

Səlmanın təklifinə görə, hər ehtimala qarşı tədbirlər görülmüşdü. Qət olunmuşdu ki, məclislərə zahirən ziyafət şəkli verilsin və yığıncaq otağında musiqi alətləri saxlanılsın. Küçə qapısına polislərə qarşı gözətçilər təyin olunmuşdu. Xülasə, həbs olunmamaq və gizli vəsiqələri ələ keçirməmək üçün mümkün qədər tədbir görülmüşdü.

Qurultay məsələsi ilk meydana çıxanda "zemlyaçestvo" ətrafına toplananlar arasında uzun-uzadı müzakirələr olmuşdu. Əvvəl yalnız maarif məsələləri irəli sürülmüşdü, qurultay siyasətlə məşğul olmamalı idi. Səlman "siyasi məsələlər həll olunmasa, maarif məsələsi həll oluna bilməz", – deyə qəti bir xətti-hərəkət yürüdürdü. Rüstəmbəy isə əksini iddia edirdi. Mədəni qüvvəmizin azlığından şikayət edərək, olanların da təhlükəli yolla getməsini məsləhət görmürdü. Tələbələr tutular, təşkilatımız ləğv olunar, nəticədə də zərərdən başqa bir şey olmaz. Maarif yoluna yenicə ayaq basmış bir xalqa siyasət yaramaz. Fərqi yoxdur, irtica getdikcə qüvvətlənir, başını qaldıranı Sibirə sürürlər. Belə bir qorxulu zamanda meydana çıxmaqda nə məna var?

Xəlil Rüstəmbəyin mülahizələrini onun qorxaqlığına yozurdu:

– Ay Rüstəmbəy, – deyirdi, – sən kölgəndən qorxursan, deyirsən, vay, tutularam, Tövratım kimə qalar?! Canım, bu zaman Tövrat zamanı deyil, mübarizə zamanıdır, inqilab aşıb-daşır, çarlığa qarşı şiddətlə davam edən mübarizəyə biz də qoşulmalıyıq! Həbsdən niyə qorxursan ki? Nə olar-olar!..

Rüstəmbəy fikrini anlatmağa çalışırdı:

– Canım, – deyirdi, – mən qorxmuram. Deyirəm, camaatımıza rəhbər lazımdır, rəhbər olacaq adamları da həbsə aldıqdan sonra camaat rəhbərsiz qala bilər. Mənim qorxduğum budur! Bir də bir dəstə həbs olundumu, atalarının gözləri qorxacaq, bir daha buralara tələbə göndərməyəcəklər.

Rüstəmbəy fikrinə tərəfdar tapa bilmədi, çünki inqilab hərəkatı zahirən məğlub da olsa, için-için alovlanıb, ətrafı qaplamada idi, buna qarşı laqeyd bir vəziyyət almaq qabil deyildi.

13

Xəlil ev xanımı ilə yemək masasını düzəldirdi. Rüstəmbəy əlində kağıza bükülü çaxır şüşələri ilə girdi. Xəlil:

– Mənim otağıma apar, – dedi.

Rüstəmbəy qonaq otağından keçib, Xəlilin mənzilinə daxil oldu. Burada yazı masası ortaya çəkilmiş, Qulamrza duzlu xiyar doğrayırdı. Bir tərəfdə də Pərviz istiot və badımcan turşularının qutusunu açırdı. Rüstəmbəy salam verdi. Salamı aldılar.

– Nə gətirmisən?

– Çaxır.

Qulamrza gülümsündü və əlini uzatdı:

– Dəysin, – dedi, – o bu hərəkəti ilə "şərab gətirməklə ürəyimdən xəbər verdin" demək istəyirdi.

Rüstəmbəy onun əlinə vurdu.

Pərviz çox səliqəli bir adamdı. Təmiz geyinməkdə tay və bərabəri yox idi. Bu dəfə də gözəl geyinmişdi. Üzünü qırxdırmış və başını elə daramışdı ki, tük-tükdən aralanmışdı. Rüstəmbəyi görən kimi onu başdan-ayağa süzdü və birdən əlini qutudan çəkib sildi, yudu və irəli yeridi:

– Boyunbağın düz durmur, – dedi və düzəldə-düzəldə, – bədənini niyə əyri tutursan, döşünü qabağa ver, özünü də düz tut.

– Döşümü irəli vermək mənim harama yaraşır? Əlində işini gör!

– Niyə yaraşmır? Gözəl, göyçək oğlansan, ancaq bir azca pintisən. Üzünü qırxmısan, kirşan vurmamısan, belə eləməzlər, onda üz göy görükər. Buraya gəl!

Pərviz Rüstəmbəyi masaya tərəf çəkdi və qutudan kirşan çıxarıb onu kirşanladı. Sonra bığlarını və başının tüklərini qaydaya saldı.

– İndi düzəldin, – dedi, – gedə bilərsən.

Rüstəmbəy Qulamrza ilə şeyləri yemək otağına daşımağa başladı. Şərab və pivə şüşələrini düzdülər, pamidor, xiyar və qeyri məzələri qoydular, boşqab, çəngəl, bıçaq, dəsmal və qeyrilərini səliqə və səhmana saldılar, çörək doğradılar, qədəhləri hazırladılar.

Qonaqlar yavaş-yavaş gəlirdi. Bir rus talibəsi salonda Pərvizlə oturmuşdu. Çingiz Fatma xanımla söhbətə məşğul idi. Zəng vuruldu, Cəfər gəldi, hamı ilə görüşdü. Özünü yemək otağına tərəf verdi, qapıdan baxdı:

– Uşaqların hərəsi həftədə bir anadan olsa kefdir ki... – dedi.

Qulamrza cavabında:

– Gələn həftə də mən anadan oluram.

– Onun altdakı həftə də xeyir işinin qonaqlığını verərsən.

Qulamrza gülümsündü və Cəfəri qucaqladı.

– Teymurbəy, xoş gəlmisiniz! – deyə arxadan səs gəldi. Cəfər irəli yeridi.

– Salamməleyküm.

Teymurbəy onun əlini sıxdı. Çingiz və Pərviz ayağa qalxdılar, Teymurbəyə yer göstərdilər.

Onun dalınca qapıda Qulunun uca boyu görünməyə başladı. Seyrək tüklərini darayıb, geniş alnına tökmüşdü, nazik qaşlarının altından baxan xırda gözləri hiylə saçırdı. Uzun burnu yoğun bığlarının ortasına çökmüşdü.

Qulunu da içəri dəvət etdilər. Əlində bir kağız torba tutmuşdu:

– Anadan olan uşaq hanı? – deyə dodaqlarında süni bir təbəssüm oynatdı, burnu bir az da uzandı.

Xəlil irəli yeridi:

– Mənəm! – dedi.

Torbadakı şirnini verdi.

Xəlil uşaq kimi tullandı və sonra gedib Fatma xanımın qabağında diz üstə çökdü, şirni təklif elədi.

Fatma xanım güldü, qızardı və əlini torbaya saldı.

Bu qayda ilə Xəlil o biri qıza da şirni verdi. Sonra Quluya təklif elədi və Qulu təmkin və vüqarla əlini torbaya salmaq istədikdə Xəlil durub qaçdı. Hamı gülüşdü. Qulu isə bir az pərt oldu.

Yenə qonaqlar gəlməkdə idi. Bir-iki qız və oğlan da gəldi. Xəlil onları hamı ilə tanış elədi. Hərə qızın biri ilə otağın bir guşəsinə çəkildi.

Bir də, Qulamrza əlində qaval içəri daxil oldu.

– Anadan olan gərək bir oynasın, – dedi.

Hamı bir səslə onun rəyini təsdiq elədi.

Xəlil dinmədi, fikirli-fikirli qonaqların üzünə baxdı və birdən sükutu pozdu.

– Kaspar, – dedi, – balam, tarı köklə, əlac yoxdur, gərək oynayam!

Hamı güldü.

Kaspar "Uzundərə" çaldı, Qulamrza qavalı dınqıldatdı. Xəlil ortalığa sıçradı və elə bir nəzakətlə oynadı ki, ümumun heyrətinə səbəb oldu.

Çörək masasının ətrafında xüsusi bir mehribançılıq müşahidə olunurdu. Hamı şad bir halda yeyib-içmədə idi. Cəfəri tamada seçmişdilər, dəqiqədə bir lətifə söyləyib hamını güldürürdü. Xəlilin təvəllüdü münasibətilə o məzəli bir nitq dedi və axırda da:

– Allahdan diləyim budur, nə məni studentlikdən ayırsın, nə studentliyi məndən! – dedi. Bir az duruxdu və Xəlilin üzünə baxa-baxa, – əlbəttə, Xəlil də mənim kimi səbirli adamdır, altı ildir ki, studentdir. Ümidim budur ki, bir neçə il də sabitqədəm olar, yenə bu axşamkı kimi bir yerdə bir neçə təvəllüd gününü də xoş keçirərik, – dedi.

Qədəhlər qalxdı, çaqqaşdılar. "Allah sizi arzunuza çatdırsın", – deyə Xəlilin və Cəfərin sağlığına içdilər.

Bir balaca sakitlik düşdü, qonaqların başı yeməyə qarışdı. Səlman başını qaldırdı, tamadanın üzünə baxdı. Tamada onun diləyini duydu və işarə ilə izin verdi.

Səlman ayaq üstə durdu. İztirabdan titrəyən əli ilə qədəhini qaldırdı və bu halla bir neçə saniyə dayandı, fikirli baxışı ilə hamını dərin bir sükuta məcbur etdi. Sonra yavaşca qədəhini endirdi, masanın üstə qoydu və bir də ətrafı ciddi bir nəzərdən keçirərək başladı:

– Qaranlıq bir gecə idi. Xalq tamam yatmışdı. Təkcə bir gənc yuxudan oyanıb səhəri gözləyirdi. O tez-tez yatağından qalxır, intizarlı gözlərini şərq tərəfə döndərib, sübhün əlaməti olan dan ulduzunu axtarırdı. Lakin ulduzdan bir əsər görməyərək məyus bir halda yatağında uzanırdı. Yenə gözlərinə yuxu gəlmirdi. Yatmaqdan usanmışdı. İztirab içində çırpınaraq işıq arayırdı... Münəvvərlərimizin halı yuxudan bıqan bu gəncin halını andırmırmı? Zülmət içində çarpınaraq yenə ümidlərini qaib etmir və Şərq tərəfdə əlamət arayırlar. Ey münəvvərlər, qaranlıq hökmranlığı artıq bitmişdir. Dan ulduzunu görürsünüzmü? (Əlini Fatma xanıma uzatdı). Sübh yaxınlaşır, günəş çıxacaq və həyatverici şüası yeni aləmi tənvir edəcək. Ey xalqın ümidi! Ey sevgili bacımız! Mübarək qədəmləriniz xeyirli olsun!..

Səlmanın nitqindən hamı mütəəssir olaraq dik ayağa qalxdı. Fatma xanıma səmimi xeyirlər diləndi, "ura" çığıraraq, təntənəli bir surətdə badənuş oldular.

Bir az sükutdan sonra yenə məclis əvvəlki vəziyyətini aldı. Hamı yeyib-içməkdə, hamı şadlıqda idi. Tamada tez- tez əmr verir, qədəhlər dolur, nitqlər söylənirdi. Lətifələrlə xanımları güldürürdülər.

Qulu ayağa qalxdı. Nitqə başladı. Məzmunu yenə haman "bədbəxt millət"in halına həsr olundu. Qulu camaatın dərdinə "ağladı", cavanlarımızın laqeydliyindən dəm vurdu və axırda "millətin ümidi bizlərdədir, cəhd eləməliyik ümidi puça çıxmasın. Yaşasın millət!" – deyə sözlərini qurtardı.

Qədəhlər qalxdı. Amma səmimiyyət görünmədi. Rüstəmbəy isə etina belə eləmədi. Hələ qaşqabağını da salladı, qələyana gəldi, öz-özünə "utanmır", – dedi, – "millətçilik iddiasına düşür".

Rüstəmbəyin yanında oturan qız onun halını duydu:

– Niyə bikefsiniz? – dedi.

– Qulaq yalan eşidərkən, şad olmaq mümkün deyil, çünki bir adam o birinə yalan dedikdə onu qanmaz hesab edir. Bu da mənim ürəyimi sıxır.

Qız Rüstəmbəyin sözlərini lazımınca anlamadı, onun halını kefliliyə yozdu.

Yenə şərab içilirdi. Məclisdə iştirak edənlərin adları bir-bir yad olunurdu. Çoxları bir-biri ilə "bruderşaft" içirdi. Onların içində Rüstəmbəyin nəzərini cəlb edən Qulu ilə Çingiz oldu. Bunların üz-üzə içib öpüşmələri Rüstəmbəyi tamam dilxor elədi. Ürəyində qalan az-çox şadlıq əsəri büsbütün itdi. O baxdı, gördü vəziyyəti dəniz ortasında qalmış bir xırda adaya bənzəyir, ətrafını qaplayan yalançılıq, ikiüzlülük dalğaları onu da qərq eləmək istəyir.

– Tamada, mənə izin ver, danışmaq istəyirəm, – deyə Rüstəmbəy ayağa qalxdı. Simasından zəhər yağırdı, hirsli gözlərində ildırım parlayırdı. Rəngi tamamilə qaçmışdı.

– Əfəndilər, – dedi, – nitq nə üçün söylənər – bilirsinizmi? Bir adamın fikir və əqidəsini ətrafdakılara nəqş etməkdən ötrü. Ona görə nitq natiqin iztirab və həyəcanının tərcümanı olar. Onu dinləyənlər də natiq kimi ürəklərində bir yanğı duyarlar. Bizim aramızda isə nitq bu məqsədi daşımır, sözümüz əqidəmizə tərcüman olmaqdan, pərdə olub əqidəsizliyimizi gizləyir. Hər kəsin nə xəyanət və tərbiyəsizliyi varsa,

nitqlə yola verir. Ona görə, gəlin, millət və insaniyyəti kənara qoyaq, onların sağlığına badənuş olmaq bizim kimi sözü ilə feli bir olmayanların işi deyildir. Belə olduqda nitqimizin təsirsizliyi saxta qəlbimizi büruzə verir. Yaxşısı budur, qədəhlərimizi götürək və islah olmamızı diləmək şərəfinə içək. Şəxsiyyətimiz islah olunmasa, doğruluğu dərk eləməyə müqtədir olmaz və millət qeydinə də qala bilmərik. Yaşasın islah olunmuş şəxslər! Sağ olsun qəlblərində həqiqət atəşi yananlar! Yox olsun saxtakarlar!

Rüstəmbəyin nitqi məclisə ağır bir təsir bağışladı. Hamı heyrət içində bir-birinin üzünə baxdı. Tamada nitqin nə qədər yersiz olduğunu işarə ilə Rüstəmbəyə bildirdi. Qulu incidi. Nitqin Qulu ilə Teymurbəyə işarə olduğu hamıya bəlli idi. Bununla belə Rüstəmbəyə həmrəy tapıldı: Salman, Pərviz, Xəlil, İsgəndər, Kaspar və rus qızı qədəhlərini qaldırıb, Rüstəmbəylə çaqqaşdılar. Rüstəmbəy oturdu. Rus qızı onun əlini sıxdı:

– Yoldaş, – dedi, – fikrinizə şərikəm, sağ olun! Təşəbbüsün əsası islah olunmuş şəxsiyyətdir.

Qızın sözləri Rüstəmbəyin ürəyinə su səpirdi. Yaraları təzələndi. Məclisi bilmərrə yaddan çıxardaraq, onunla şirin müsahibəyə girişdi:

– Görürsünüz, nitq söyləməklə özlərini insaniyyət dostu kimi göstərirlər. Bunların hamısı yalançıdır, məktəbi ikmal edən kimi tamam bir ayrı dona girəcəklər. Məvacibləri xatirəsinə ağaları nə təhər çalsa, bunlar da elə oynayacaqlar.

Rüstəmbəy bu sözlərdən sonra başını aşağı salıb, daha dinmədi.

Hamı ayağa durdu. Yavaş-yavaş salona keçdilər. Yemək otağı tamam boşaldı. Rüstəmbəy başını üsulluca qaldırdı. Qorxunc gözlərini ətrafa gəzdirdi, durdu. Salonun qapısına yavıqlaşdı, tar şirin çalınırdı. Tamadanın əmri ilə əl çalırdılar, Pərviz "Tərəkəmə" oynayırdı. Keflər duru idi.

Rüstəmbəy bu büsata bir azca tamaşa elədi. "Mən niyə şad ola bilmirəm?" – deyə öz-özündən sordu. Ürəyi sıxıldı. Vücudu təklik hissi ilə doldu. "Hamı məndən uzaqlaşır, – dedi, – məni anlayan yoxdur!.. Mən təkəm! Mən yazığam...".

Rüstəmbəyin könlü ağlamaq istədi. Birdən geri döndü, çöl qapıya tərəf getdi. Səssizcə, heç kəsə bildirmədən, paltosunu götürüb yola düşdü.

14

Ziyafət gecə saat dördə qədər çəkdi. Qonaqlar Xəlildən razılıq edib getdilər. Cəfər Qulamrza ilə sözləşmişdi, küçəyə bərabər çıxdılar. Sonra Kasparı və İsgəndəri də kənara çəkdilər. Kefləri bir az duru idi. Qulamrza Kasparın şapkasını çıxarıb əyri qoydu:

– Kaspar, – dedi və əlini uzatdı, – dəysin!

Kaspar gülümsündü, lakin Qulamrzanın əlinə vurmadı. Qulamrza Kasparın bu hərəkətindən inciyən kimi:

– Kaspar, sən əgər ömründə kabab yeyib kef eləmisənsə dəysin!

Kaspar Qulamrzanın əlinə şəstlə vurdu və dedi;

– Məzhəb haqqı, sənnən dostam, nə desən elərəm. Qulamrza Kasparı qucaqlayıb öpdü.

– Kaspar, bu gecə sabaha qədər kef eləyirik. Denən, sən öl, eləyəcəyəm.

– Sən öləsən ki, eləyəcəyəm.

– Di gəl. Cəfərlə İsgəndər necə oldu?

– Odu, orada.

– Di gəlin fayton tapaq.

Cəfərlə İsgəndərə yanaşdılar. Qulamrza İsgəndərə tərəf yönələrək:

– Allah, – dedi, – atam-anam sənə fəda olsun. Ömrü bir tərəfdən dadlı, o biri tərəfdən də çox gödək yaratmısan. O gödək həyatın yarısı da yuxuda keçir. Müsaidə et də, bu gecə yatmayıb, sabaha qədər kef eləyək.

İsgəndər vüqarla:

– Hazıram! Yaratdığım gödək həyatdan özüm də razı deyiləm.

Cəfər:

– Uzatmalı, – deyə bağırdı.

– Uzatmalı! – deyə səs-səsə verdilər.

Qulamrza başa keçib Kasparın qoluna girdi. İsgəndər də o biri tərəfdən Kaspara yanaşdı. Cəfər də ondan yapışdı. Qaldırımın eni qədər yayıldılar. Qulamrza əmr verdi:

– Bir, iki, üç – yürü!

İntizamlı əsgər kimi yürüməyə başladılar. Dalandar qaldırımın qarını təmizləyirdi, ona rast gəlib dayandılar, yavaş-yavaş onu qavramağa başladılar. Dalandar hiddətlənib, süpürgəni yuxarı qaldırdı.

Qulamrza:

– Atın, tutun! – deyə əmr verdi,

Tələbələr bir dəqiqədə dalandarı əllərinə alıb qaldırdılar:

– Məhv olsun qar, yağış, zibil! – deyə bağırışdılar. Gənclərin nəşəsi dalandara da təsir etdi, atılıb-tutulduqca qəhqəhə ilə gülürdü.

Küçənin başında bir fayton durmuşdu, tələbələr yanaşdılar:

– Müştərin yoxdur ki?

Faytonçu diksinib mürgüdən ayıldı:

– Yox, – deyə cilovları topladı.

– Bizi apar!

– Hara?

Kaspar:

– Qulamrza, cavabını ver, – dedi. Qulamrza:

– Yamaya* gedəcəyik. Bu Kasparı evləndirmək istəyirik.

Faytonçu gülümsündü:

– Yaxşı, minin!

Qiymət danışıldı. Tələbələr oturdular. Qulamrza qozlaya çıxdı:

– Sür! – dedi.

Atlar götürüldü. Gecənin sükutunda atların ayaq səsləri evlərə düşürdü. Yama şəhərin kənarında idi. On beş dəqiqə sonra palçıqlı bir küçəyə girdilər, nəhayət, fayton artırmasından iri qaz lampası asılmış bir evin qarşısında dayandı. Qapıçı təzim etdi, koridordan keçib, böyük bir salona girdilər. Vals çalınırdı. Qızlar və oğlanlar rəqs edirdi. Ucuz ətir və tər qoxusu damağa çökürdü. Tələbələr divarların dibində düzülmüş qırmızı məxmərli sandalyalarda yerləşdilər. Qulamrza paltosunu və şapkasını çıxarıb, bir tərəfə atdı və salonu gözdən keçirdi, boş qız yox idi. Sonra gözləri qapının ağzında oturan yoğun vücudlu, çopur sifət və süni qaşlı ekonomkaya sataşdı. Gedib onu rəqsə çağırdı.

Ekonomka gülümsündü və papirosunun külünü kənara töküb, xırıltılı səslə:

– Olmaz, – dedi, – qızlardan götürün.

– Boşu yoxdur.

– İndi olar: ya kabinələrdən çıxarlar, ya buradakılar boşalar.

Qulamrza:

– Mən səni istəyirəm, – deyə təklifsiz bir halda ekonomkanın qolundan yapışıb qaldırdı. Yoldaşları əl çaldı.

---

* Yama – fahişəxanaların olduğu yer

Vals qurtardı, oynayanlar oturdular. Salonun baş tərəfində qambur bir məmur məktəbli qız paltarı geymiş bir qadına tam mənasilə qur yapırdı: bir dəstə çiçək gətirmiş, arabir şokolad təklif edir, lətif söhbətlərlə onu əyləndirirdi. O biri tərəfdə matros geyimli bir qız bir gənclə oturmuşdu. Qarşılarında bir ayrısı saçlarını darayıb, çiyinlərinə tökmüşdü. Bunun da yanında bir pirkeşik var idi.

Ekonomka papirosu tüstülədə-tüstülədə ayağa durdu.

– Oturmaqdan fayda çıxmaz, qız götürün! – deyə salondakılara müraciət etdi. Tələbələrə yanaşdıqda Cəfər dedi:

– Kimi götürək? Burada qız azdır.

– Əfəndilər, gec gəlmişsiniz, qızların çoxunu götürmüşlər. Bir az gözləyin, kabinələrdən çıxacaqlar.

Qambur məmur pul verib musiqi çaldırdı. Rəqs başlandı. Bu əsnada yan qapıdan salona gözəl bir qızla bir tələbə girdi. Oğlan qızın belini qucub, rəqsə başladı.

Qızı görcək tələbələrin içinə vəlvələ düşdü, hər biri ona müştəri çıxdı. Cəfər sakit bir səslə:

– Yoldaşlar, atalar "yol böyüyündür" demiş. Böyüyə hörmət lazımdır.

– Təbii, təbii, – deyə hər kəs onunla razılaşdı. Qulamrza əlini qulağına qoyub, segah deyə-deyə ekonomkaya yanaşdı:

– Bu gələn yaxşıdır. Ancaq o tələbə işi əngəl edir. Ekonomka sakit səslə:

– Əngəl olmaz. O hər axşam burada olur: aralarında eşq məsələsi var... Bir az sonra gedər.

Qulamrza heyrət edərək ekonomkanın yanında oturdu və əlini əlinə qoyub dedi:

– Eşq nədir, canım? Burada eşq olurmu?

– Bu qızın tarixi başqadır!

– Necə?

– Bu qız yüksək bir ailəyə mənsubdur. Çox ərköyün saxlanılmış, özü də nəcib qızlar institutundan məzundur. Atasına darılmış, acığa düşmüş... axırda buraya iltica etmişdir.

– Bu tələbə buradamı tanış olmuş?

– Yox, köhnədən evlərinə gedib-gələnlərdən imiş...

Qulamrza qalxıb, məsələni yoldaşlarına anlatdı. Qıza qarşı olan maraq bir qat daha artdı.

Rəqs qurtardı. Hər kəs yenə oturdu. Tələbə isə qızla qol-qola qapıya doğru getdi. Qapının yanında durdular, əl-ələ verdilər, qucaqlaşdılar, öpüşdülər. Aralandılar, bir də öpüşdülər. Sonra oğlan qapıdan çıxdı, qız da həyəcanla dönüb, salondan keçdi; yan qapıda qaib oldu. Tələbələr məyus bir halda bir-birinin üzünə baxdı. Cəfər kədərlə:

– Balam, Qulamrza, biz ki, damaq qaldıq.

Kaspar:

– Sən ölləsən ki, elədir, – deyə əlavə etdi.

Buraya yalnız maraq üçün gəlmiş İsgəndər belə təəssüf duydu. Qulamrza:

– Durun görüm, – deyə yenə ekonomkaya yanaşdı:

– Bəs qız necə oldu? – dedi.

– Otağındadır.

– Nə vaxt gələcək?

– Bəlkə gəlmədi. Bir az keçsin, sizdən biriniz oraya gedər.

– Yaxşı, o, birimizin, yerdə qalanlarına qız olmayacaqmı?

– Olar. Hələ biriniz oraya getsin görək.

Bir az sonra Qulamrza qızın yanına gedilə biləcəyini xəbər aldı.

– Cəfər əmi, buyur! – deyə təklif olundu.

Cəfər qalxdı. Qulamrza onun əlini iki ovcunun içinə aldı:

– İltimasi-dua! – deyə əlindən öpdü.

Kaspar Cəfərə tamaşa edərək gərnəşdi. İsgəndər yerindən qalxıb, bir də oturdu, Qulamrza yüyürüb, ekonomkanın belini qucaqladı. Ekonomka Cəfəri salondakı qızlardan birinə qoşub, yola saldı.

Pilləkənlə ikinci qata çıxdılar, koridorda dörd-beş qapı var idi. Cəfəri təşyi edən qız birini: Nelli!" – deyə döydü. Qapı açıldı, Nelli göründü.

– Buyurun! – dedi.

Cəfər və qız içəri girdilər. Nellinin kiçik otağının bütün müxəlləfatı bir çarpayı, komod, ləyən, su qabı və bir güzgüdən ibarət idi. Çarpayısının arxasına bir fabrik xalçası salınmışdı. Komodun üstündə süni çiçək, pudra və ətir şüşələri var idi. Divarlardan avampəsənd şəkillər asılmışdı. Otaqda ucuz ətir, adi pudra və rütubət qoxuları bir-birinə qarışmışdı. İçəri girər-girməz, Cəfəri təşyi edən qız haman təkliflərdə bulundu:

– Şərab söyləyimmi?

– ?

– Pivə!

– ?

– Limonad! Nelli limonad istəyir.

Bu sözlərin hamısını rədd edən Cəfərə Nelli süst bir sima ilə baxdı və ağızucu:

– Bir limonad al, susuzam, – dedi.

Belə təkliflərin daima olduğunu bilən Cəfər qızların sözlərinə əhəmiyyət verməyərək, soyunmağa başladı. Cəfəri təşyi edən qız sonra bir sual da verdi:

– Bir vizitmi olacaq, yoxsa sabaha qədər qalacaqsan?

Cəfər:

– Bir, – deyə barmağı ilə işarə etdi.

– Di vizit pulunu ver!

Cəfər cibindən bir gümüş manat çıxarıb qıza verdi. Qız getdi, Nelli otağının qapısını bağladı.

Salondakılardan bircə qambur qalmışdı. Matros geyimli və saçları çiyninə tökülmüş qızlar salondakı bədənnüma güzgülərin qarşısında özlərini süsləyirdilər. Kaspar Qulamrzaya müraciət edərək:

– Mən də bunların birini götürmək istəyirəm.

Qulamrza:

– Dur seçək, – dedi.

Durdular, Kaspar qızlara yanaşıb, əhli-xibrə kimi onları gözdən keçirməyə başladı:

– Qulamrza, bu matroska deyəsən pis deyil? – dedi. Qulamrza qızın çənəsini əlləşdirdi, yanaqlarını oxşadı, sonra belini qucub, onu özünə tərəf çəkdi.

– Kaspar, – dedi, – yağlı, yumşaqdır, götür apar, atayın payı olsun!

– Denən, sən öl.

– Sən ölmə, atan ölsün!

– O biri necədir?

– O çox arıqdır. Bu, yan-yancaqlıdır. Apar, Allah xeyir versin!

Kaspar qızı təkrar süzdü, ehtiyatlı müştəri kimi, hər tərəfinə diqqətlə baxdı, sonra qızın qoluna girdi və salondan çıxdı.

İsgəndər bu evə ilk dəfə gəlirdi. O, düşmüş qadınlar haqqında çox oxumuşdu, onların düşməsinin qadın hüquqsuzluğundan, iqtisadi vəziyyətdən irəli gəldiyini bilirdi. Lakin məsələnin bu qədər acı və iyrənc olduğunu təsəvvür etməzdi. Onda bu həyata qarşı bir ikrah əmələ gəldi və qonaqlıqdan gətirdiyi nəşə qara buluda güc gətirə bilməyən

ulduz sayrışması kimi itib getdi. "Qadın həyası, insan şərəfi, ana ülviyyəti... yalnız bir manat! Hər kəs istərsə!.." – deyə düşündü və daldığı aləmi acı bir qəhqəhə titrətdi... Sonra ayılan kimi oldu, gördüklərinə inanmamaq istədi. Özünü qane etmək üçün Qulamrzaya yönələrək:

– Qulamrza, – dedi, – yoldaşlar gələnə kimi, gəl bu qızı danışdıraq.

Qulamrza çiyninə saçlarını tökmüş qızı çağırıb, dizinin üstdə oturtdu, ona papiros verdi:

– Çoxdanmı çəkirsən? – deyə sordu.

– Bu evə girəndən sonra alışdım.

– Neçə ildir?

– İki il oldu.

– Ondan əvvəl harada idin?

– Kənddə.

– Necə oldu da buraya gəldin?

– Gedək mənim otağıma, orada söylərəm.

– Gedərik, söylə.

Qız papirosun tüstüsünü havaya buraxaraq:

– Gəldim, – dedi.

İsgəndər başını maraqla qıza yaxınlaşdırdı:

– Kənddə ərə gedə bilmirdinmi? – dedi.

– Gedəcəkdim. Bir kiçik zabit, "evlənəcəyəm" deyə məni aldatdı. Çocuğum qaldı. Saldırmaq üçün şəhərə gəldim.

Saldırdım. İş aradım, bir evə xidmətçiliyə girdim. Ev sahibi məni rahat buraxmadı... Təkrar aldandım. Oranı tərk etdim...

Qız sözünü kəsdi. Yapma təbəssümlə Qulamrzanı qucdu, üzündən öpdü.

– Gedək otağıma? – dedi.

– Yorulmadınmı?

Qız:

– Yorulmaram, – deyə laübali hərəkətlə Qulamrzanı çim-diklədi. – Nə kişisən, – dedi, – qucağında qız oturmuş da hərəkətə gəlmirsən!

Qız Qulamrzadan ümidini kəsib, İsgəndərin qucağına keçmək istədi. İsgəndər:

– Yanımda otur! – deyə qızdan diksindi. Qız bu hərəkətdən incidi, hiddətlə:

– Xəstəmi zənn etdin? Hərifin iddiasına bax, özün xəstəsən!

İsgəndər qızardı, qəhqəhə ilə güldü:

– Nə həyasızdır! – dedi, sonra sakit olub qızdan üzr istədi.

Qız bundan cürətlənərək bu dəfə İsgəndəri otağına çağırmağa başladı. İsgəndər:

– Mən xəstəyəm, getməyəcəyəm, – dedi, – gəl yanımda otur, sənə dadlı bir nağıl deyim.

Bu əsnada Cəfər geri döndü, Qulamrza onu görcək yerindən dik qalxdı:

– Ay pir olmuş, gəl də, mən səni gözləyirəm.

– Nellinin yanınamı getmək istəyirsən?

– Bəs bilmirsən?

Qulamrza durub ekonomkanın qulağına bir söz pıçıldayıb, Nellinin otağına getdi.

## 15

Rüstəmbəy açarını uzatdı, qapıya sürtdü. Neçə dəqiqə taqqıltı saldı, açar yerini tapa bilmədi. Dalğın-dalğın qapının dalında durdu. Fikrə getdi və sonra yenə açar yerini axtarmağa başladı. Axırda tapdı. Açarı uzatdı. Bu dəfə açar girmədi. Yenə taqqıltı saldı. Yenə sükuta getdi. Yenidən açarla qapını taqqıldatmağa başladı, zəngi vurmaq ağlına gəlmədi.

– Kimdir? – deyə qapının dalından tutqun bir səs gəldi. Rüstəmbəyin dodaqlarında mənasız bir təbəssüm bəlirdi:

– Mənəm, – dedi və mətanətsiz səsi dalanda cingildədi. Qapı açıldı. Rüstəmbəy kömür döymüş kimi səyələnə-səyələnə içəri girdi. Sofya xanım yataq otağının qapısını bağlayıb yox oldu.

– Qapını bağlayın və koridordakı çırağı keçirin – deyə içəridən xanımın səsi gəldi.

Rüstəmbəy irəli yeridi. Əlini dəstəyə atıb dartdı – qapı kilidli idi, açılmadı.

– Sofya Sergeyevna! Sofya Sergeyevna!

Rüstəmbəyin səsinə cavab gəlmədi. Bir də zarıltı ilə çağırdı:

– Sofya Sergeyevna! Ay Sofya Sergeyevna!

– Nə deyirsiniz?

– Bircə qapını açın.

– Ərim indicə klubdan qayıdacaq, gedin yatın. Rüstəmbəy qapıya söykəndi. Ürəyi bulanır, başı gicəllənirdi. Halı olduqca pəjmürdə idi. Yenə fəqanedici səslə:

– Rica edirəm, yarım dəqiqəliyə qapını açın, sizə bircə söz deyəcəyəm.

Sofya xanım təkidlə və bəlkə bir az acıqlı:

– Allah xatirinə, gedin yatın, məni bəlaya salarsınız!

– Bircə dəqiqəliyə açın, sonra gedim.

Xanımın əlacı kəsildi:

– Hələ gəlməyin, çılpağam, – dedi və qapını açdı, sonra tez çarpayısında uzanıb, yorğana büründü.

Rüstəmbəy bir az gözləyib girdi. İsanın şəklinin önündə yanan lampacıqdan otağa bir azca işıq düşmüşdü. Sükut və yarımişıq buraları bir zaviyə guşəsinə döndərmişdi. Rüstəmbəyin təhqir olunmuş izzətinəfsi bu yarımişıq sükuta qarşı susdu. Doluxsunmuş Rüstəmbəy dizi üstə xanımın çarpayısının qabağında çökərək, günahkar bir bəndə məbəd qarşısında duran kimi mat qaldı:

– Həmişə təkliyimi hiss edirdim, – dedi, səsində sızıltı və nalə eşidildi, – bu axşam onun bir əmri-vaqe olduğunu bildim. Hamı məndən üz döndərmiş, meydanda təkcə qalmışam. Bircə həqiqi dostum da yoxdur ki, əlini mənə uzatsın... Mənim ümidim sizədir, ürəyimin dərdini sizə açdıqca, halım yüngülləşir...

Sofya xanım acıqlandı və Rüstəmbəyin sözlərini kəsdi:

– Nə demək istəyirsiniz?.. Siz keflisiniz, yaman da keflisiniz. Allah xatirinə, durun, gedin yatın.

Rüstəmbəy başını çarpayıya söykəyib, xar və zəlil bir halda sükuta getdi, gözləri yaşardı, bir də başını qaldırdı:

– Göz yaşlarımı görürsünüzmü? – dedi.

– Görürəm!.. Gedin yatın, sabah danışarıq! Tez olun, odur, ərim gəlir.

Rüstəmbəy ayağa qalxdı:

– Əlvida, – dedi, – sizin də vəfasızlığınız mənə məlum deyilmiş. Bunun da bu axşam aşkara çıxmağı müqəddər imiş.

Rüstəmbəy otaqdan çıxıb, məyus bir halda getdi. Öz aləmində Sofya xanımdan mehribanlıq və təsəlli gözləyirdi. Bunun əvəzində cəfa gördü. Qəlbi ondan da sındı. İndi daha ümid bağlamalı bir yeri yox idi. Çox qəmgin və peşman bir halda öz otağına gəldi. Öz-özünə "hamıdan zəhləm gedir, – dedi, – çünki hamının məndən zəhləsi gedir. Yaxşısı budur ki, hamıdan uzaqlaşım..."

16

Xalı mağazasında Bəhrama bir xalça göstərirdilər. Ortasında bir ləkəsi var idi, kənarı da bir az cırıq idi:

– Neçə verir? – dedi.

Mağazaçı:

– Üç manat. Yarı-yarıya.

– Yarısına razı deyiləm. Məndən ip gedir, səndən nə gedir? – deyə Bəhram bir az darıldı.

Mağazaçı gülə-gülə əlini Bəhramın çiyninə qoydu:

– Yaxşı, ikisi sənin.

Bəhram xalçanı buraxdı:

– Gəlirəm, – deyə çıxdı və bir az keçməmiş əlində bir gələm içəri girdi.

Mağazanın arxa tərəfinə keçdi, xırda bir otaqda paltarını dəyişdi, sonra xalçanı yerə döşəyib dizlərini yerə qoydu və kələmlə xalçanın ləkəsini sürtdü. Bir az sonra ovulub tökülmüş kələm qırıqlarını təmizləyib, ləkəyə baxdı, bir əsər görünmədi.

Xalçanı başdan-başa sürtdü, çırpdı və kənarlarından tutub, diqqətlə süzdü, təzə kimi idi.

Otağın bir tərəfində, yayları meşini cırıb kənara çıxmış bir köhnə taxt var idi. Bəhram bu taxtda oturub, xalçanı dizinin üstə aldı, xalçanın cırıq yerini gözdən keçirdi. Ərişləri uc-uca gətirərək düyün tutan yerləri düyünlədi. Baxdı, bir çox ilmələr tökülmüşdü. İp torbasını açdı. İpləri xalçanın cırıq yerləri ilə tutuşdurdu. Uyğun boyalarını seçdi, cırığını yamamağa başladı.

Yamaq qurtardıqdan sonra Bəhram qayçı ilə hamarladı və təzə iplər gözə sıçramasın deyə, bir kağız yandırıb, yamaq yerini alovda ütdü.

Xalça hazır idi. Bəhram təhvil verdi, pulu alıb getdi.

Heyətin qərarına görə müsamirədə Katya odalıq* rolu oynayacaq idi. Lakin şərq qadınına bənzəmək üçün saçları boyanmalı idi. Katyanın başına həna qoymaq Bəhrama həvalə olunmuşdu.

Bəhram xalı dükanından çıxar-çıxmaz tramvaya minib, Teymurbəygilə getdi. Katya Bəhramın gələcəyini bilirdi. Bəhram irəliki gün oraya bir kisə həna və rəng aparmışdı. Zəng vurular-vurulmaz qapı aralandı və açılmış saçları çiyinlərinin iki tərəfini qaplamış Katya göründü:

* Osmanlı sarayında şahzadələrə təxsis olunmuş qızlara "odalıq" və ya "gözdə" deyərdilər.

– Siz olduğunuzu bildim, – deyə təbəssümlə parlayan mərcan dodaqları aralandı və ağ inci dişləri parladı.

Bəhram vaxta qiymət verən karkün adamlar kimi qətiyyətlə dedi:

– Su hazırdırmı?

– Bu saat hazır olar.

Bəhram cəld içəri girdi. Yemək odasında tələbə tujurkasını çıxartdı, qollarını çırmadı və mətbəxə getdi. Samovar qoyulmuşdu. Xidmətçi qıza bəzi təlimat verib döndü.

Yemək otağında ləyən hazırlandı. Bəhram həna torbasını açdı. Katya maraqla torbaya baxırdı:

– Çoxmu qara olacaq? – deyə sordu.

– Bu qızardacaq, üzərindən rəng qoyulduqda qapqara olacaq.

– Tüklərim xarab olmaz ki?

– Əsla! Təbii şəkil alacaq. Həm də elə parıldayacaq ki, tam şərqli bir qız olacaqsınız.

– Aman, nə gözəl !..

Bəhram əlinə qayış əlcəkləri geyə-geyə:

– Müsamirədə birinci gözələ mükafat veriləcək. Sizin qazanacağınıza əminəm.

– Nə söyləyirsiniz?

– Elə!.. Su hazırdır, zənn edirəm, çox isti olmamalı. Xidmətçi qız suyu gətirdi. Bəhram hənanı ləyənə töküb islatdı.

– Katya, gəlin oturun!

Katya şən bir halda masaya yaxın bir yerdə oturdu. Bəhram əlcəkli əli ilə hənadan götürüb Katyanın başına yaxdı.

Həna yaxıldıqda Katya diksindi, üzünü qırışdırdı və qayğılı bir səslə:

– Bəhram, həna saçlarımı tökməz ki? – deyə sordu.

Bəhram işinə davam edərək:

– Biləks, tüklərin diblərini bərkidir. Şərq qadınları bunsuz dolana bilməzlər. Hənanı buralarda hələ tanımırlar, amma tanıyacaqlar. Mən buraya gələn ili bir neçə kisə gətirmişdim. Tanıdığım xanımlara payladım. Bilirsiniz, müftə verirdim, götürmək istəmirdilər. Axırda ki, öyrətdim. Bu il iki yüz kisə satmışam.

Katya altdan-altdan baxaraq:

– Bravo, – dedi, – qoçaqsınız.

– Başqa çarə varmı? Oxuyub bitirmək lazımdır. Bu zamanlarda ya pul olmalı, ya enerji... Pul da ki, bizdə yoxdur.

– O günü Teymurbəylə sizdən bəhs edirdik – sizə aşiqdir, deyir əlindən hər bir iş gəlir...

– Həyat, həyat öyrətmişdir... Həna deyəsən bir az soyuqdur; başınızı üşütmür ki?

– Bir az.

Bəhram hənaya isti su qatdı və bir daha danışmadı, bütün fikri sabahkı imtahana həsr olunmuşdu: Teymurbəyin əvəzinə getməli idi.

17

"Dvoryanskoye sobraniye" teatrının qapısı dopdolu idi: "Müsəlman müsamirəsi"nə bilet alırdılar. Gözəl afişalar, qəzet elanları və keçən ilki müsamirənin xatirəsi kiyevliləri buraya cəlb etmişdi. Bəhram ləzgi libası geymiş, Teymurbəyə bilet satmağa kömək edirdi.

Rüstəmbəy, Sofya xanım və əri adamları aralayaraq keçdilər. Paltar soyunulan yerdə üst libaslarını çıxartdılar. Sofya xanım Rüstəmbəyi fəxrlə süzdü. Anadolu qiyafəsində idi. Qırmızı fəs, qırmızı ipək qurşaq; sırmalı arxalıq Rüstəmbəyə çox yaraşırdı.

Foye Sofya xanımın heyrətinə mucib oldu, burası bir Şərq aləmi mənzərəsi almışdı. Bir tərəfdə ərəb üslubunda yapılmış xırda bir köşk, ötəki tərəfdə Şərq bazarı, qarşısında uzun saçlı dərviş qəsidə oxuyur. Türk tələbələri, hərəsi bir libasda, avropalı tamaşaçıların arasında qərib bir mənzərə təşkil edirdilər.

Bir də "bazar"dan xalqı aralayaraq Şirin çıxdı, ağ ərəb geyimi, uzun burnus, əyri qılınc buğdayı simasına çox yaraşırdı. Rüstəmbəyə təsadüf edərək həyəcanla dedi:

– Rüstəmbəy, bəs yelpiklərin üzərində niyə yazı yoxdur?

– Onu siz bilirsiniz. Nə yazı?

– "Müsəlman müsamirəsini unutmayın" – deyə möhür ismarlanmışdı. Bəs hanı?

– Yelpiklərin yanında olacaq.

– Di gəl sən onları möhürlə, müştərilər var. Rüstəmbəy izdihama qarışaraq Sofya xanımdan ayrıldı.

Şirin burnusun ətəklərini toplayaraq qarşı tərəfdəki bufetə getdi.

Gözəl bəzənmiş növbənöv yeməli və içməli şeylərlə dolu bufet piştaxtasının arxasında Qulu durmuşdu. Uzun qəzil* papaq, astarı mavi qara və qollu çuxa, uzun arxalıq və qırmızı qurşaq Qulunu tam bir

* Süni quzu dərisi

"Təbriz uşağı" şəklinə salmışdı. Barmağındakı iri əqiq qaşlı üzük Qulunun iranlılığını tamamlayırdı.

Şirin Quluya müraciət edərək:

– Qulu, balam, bəs "bazar"a şərab və su lazım deyilmi? Qulu zarafatla:

– Balam, siz təsbeh satırsınız, yelpik satırsınız, daha şərab nəyə lazımdır?

Şirinin çöhrəsində dəyişiklik görməyən Qulu haman zarafatı tərk etdi və ciddi olaraq:

– Gülüm, – dedi, – bu saat xidmətçi gəlsin, şərab, istərsən, bir az da dadlı göndərərəm.

Şirin:

– Yaxşı, – dedi, "bazar"a döndü.

Sofya xanım foyeni gəzdikdən sonra proqramda göstərilən "hərəm dairəsi"ni görmək istədi. Özbək geyimli Əhmədə müraciət etdi:

– Bağışlayın, – dedi, – paşanın hərəm dairəsini göstərə bilərmisiniz?

Əhməd çapanın uzun qollarını tez-tez çirmələyərək, onları hərəmə təşyi etdi.

Məxsusi bir otaqda ipək taxt üstündə iri sarıqlı, enli qurşaqlı Cəfər oturub, ipək yastıqlara söykənmişdi. Nargilə damağında idi. Taxtın önündə, ipək döşək üzərində Katya uzanaraq əlvan püştələrə söykənmişdi. Katya qırmızı ipək şalvar geymişdi, incə qurşağının saçaqlı ucları yanına düşmüşdü. Başındakı ağ xutuz qara saçlarına uyğun idi.

Şərq qiyafəli bir neçə qız da oturmuşdu. Ocaqverdi hərəm ağası qiyafəsində, qəhvə paylayırdı.

Tamaşaçılar otağı doldurduqda paşanın əmri ilə musiqi çalınır, qızlardan biri rəqs edirdi.

Sofya xanım Katyanın "Ceyranı" oynamasına məftun oldu. Yenidən oynamasını gözləmək istədi. Bir də fərraş qiyafəli Qulamrza yanaşdı:

– Əfəndilər, – dedi, – yerimiz balaca olduğu üçün hərəmi görməyə başqa tamaşaçılara da imkan verməliyik. Lütfən hərəm dairəsini tərk edin! Paşamızın əmri budur.

Sofya xanım əri ilə çıxdı.

– Proqramda daha nələr var? – deyə zövcü sordu.

Sofya xanım:

– Əvvəl konsert olacaq. Sonra səhnədə Şərq toyu göstəriləcək. Şərqin yuxusu təmsil olunacaq. Axırda da rəqslər.

Sofya xanım əri ilə tamaşa salonuna girib, yerlərində oturdular.

Rüstəmbəy yelpikləri möhürlədikdən sonra durub getmək istədi. Lakin izdihamı yarıb çıxmaq mümkün deyildi; dərviş qiyafəli Niyazi təbərini çiyninə qoyub qəsidə deyərək tamaşaçıları buraya toplamışdı. Onun sırmalı taqyəsi, uzun cübbəsi, arxasındakı ceyran dərisi və qolundakı kəşkülü, bunların hamısından da artıq heybətli səsi diqqətləri cəlb etmişdi.

Şirin bir qızla bərabər tamaşaçılara təsbeh, yelpik, Şərq ətri və başqa şeylər təklif edirdi...

Rüstəmbəy çətinliklə kənara çıxdı. Ətrafı gəzib, Sofya xanımı axtardı. Nəhayət, onu tamaşa salonunda görüb geri qayıtdı. Fərəməzlə Xəlil köşklərin birində çiçəklə kruşon* satırdılar. Yanlarında Kiyev zadəganlarına mənsub iki dilbər oturmuşdu. Rüstəmbəy onlara yanaşdı, Xəlil Rüstəmbəyi qızlara təqdim etdi:

– Əsmərlərin ən parlaq nümayəndəsi! – dedi.

Qızlar qızararaq Rüstəmbəyin əlini sıxdılar və biri çəkinərək dedi:

– Doğrudan da baxdıqda insanı bir az da dəhşət götürür.

Rüstəmbəy gülə-gülə:

– Çoxmu dəhşətliyəm? – deyə sordu.

Qız onu süzərək:

– Çox, – dedi, – lakin ədasından əsmərlərə məftun olduğunu deyə bilmədi, qıpqırmızı kəsilib totuq əlləri ilə üzünü qapadı.

Xəlil bir az qısqandı, yavaş səslə:

– Qırışmal, sənin kimi qaraqaş, qaragözü görəndə daha mənə məhəl qoymayacaq ki... Mən ölüm, ötüş, əngəl eləmə.

Rüstəmbəy də eyni səslə:

– Bir gül ver, gedim.

– Ala ikisini verim, – deyə Rüstəmbəyə iki gül verdi. Rüstəmbəy qara gözləri ilə qızı başdan ayağa oxşayaraq çəkildi.

Bir-iki addım getməmiş tühaf bir mənzərəyə təsadüf etdi, sadə geyinmiş bir xanım kənarda durub çiçək satılan köşkdən gözlərini çəkmirdi. Əllərini tez-tez daraqlayır, açır, barmaqlarını əzişdirir, köksü enib qalxırdı. Rəngi qaçmışdı, gözlərindən kin yağırdı. Rüstəmbəy ona baxa-baxa keçdikdə bir də xanım "Fərəməz!" deyə qışqırıb, yerə yıxıldı. Rüstəmbəy köməyə qoşdu, haradansa Mircəlalla Səlman da çıxdı. Xanımı qaldırıb, boş otaqlardan birinə apardılar. Teatr xidmət-

---

* İçki

çilərindən bir-iki qız çağırdılar, su gətirildi, xanımı ayıltmağa başladılar. Qızların birisi xanımı tanıdı:

– Tosya, – dedi, – nə oldu? İstidənmi oldu?

Tosyanın rəngsiz dodaqları qımıldadı:

– Yox, məni evə apar! – dedi.

Rüstəmbəy xanımı apararkən Xəlildən aldığı gülləri dişində saxlamışdı. Özünü itirdiyindən onları büsbütün unutmuşdu. Bir də gülləri nə məqsədlə aldığını xatırlayaraq, salona qoşdu.

Səhnədə şərq yuxusu göstərirdilər; canlı bir şəkil idi... Qürub, göyün bir tərəfi sumağı qırmızıya boyanmış, sərvlər qoynunda yüksələn minarənin sivri təpəsi atəş saçır. Xülyapərvər bir sis üfüqləri qaplamış. Sərin fəvvarəli hovuzun kənarındakı paşa da ipək yastığa söykənərək bayğın xəyallara dalmış. Bir də onun məst gözləri böyüyür, o yavaş-yavaş qalxır və həyəcan içində çırpınır... Sərvlərin arasından bir qız çıxır, bu, Şərqin gözəli, xəyalların süsüdür! Bu o qədər incədir ki, hind şalı kimi üzükdən keçər!

Paşa yavaş-yavaş yerindən qalxır. Bir də həzin səslə: "Gəl, gəl, gözəlim!" – deyə bayılır...

Pərdə düşdü. Alqış salonu titrətdi. İndiyə qədər qapıda duran Rüstəmbəy tənəffüsdən istifadə edərək cəld içəri girdi və gülləri Sofya xanıma təqdim edib döndü.

## 18

Dışarı qapıdan şıqqıltı gəldi. Rüstəmbəy maraqlandı, koridora çıxdı. Sofya xanım orada idi.

– Xoş gördük.

– Xoş gördük, Rüstəmbəy!

– Gedən kim idi?

– Ərim idi!

– Bəs niyə tez getdi?

– Bazarda işi var.

Rüstəmbəy bir az duruxdu. Sofya xanım:

– Nə qayırırsınız? – dedi.

Rüstəmbəy cavab olaraq qapısını açdı və yazı masasını nişan verdi. Xanım başa düşmədi və otağa girib, masaya tərəf getdi. Rüstəmbəy barmağı ilə kitabı göstərdi. Oxumaq meylindəyəm demək istəyirdi.

– Ahhh!.. Mən də deyirəm nəyə işarə eləyirsiniz.

Rüstəmbəy güldü.

Sükut düşdü. Rüstəmbəy söz demək istədi, ürək döyünməsi qoymadı. Axırda başladı:

– Sofya Sergeyevna! Sizə bir xəbər verəcəyəm... Köçürəm.

Sofya xanım döyükdü, guya damarlarına elektrik qüvvəsi buraxdılar. Nə danışdığını anlamadan:

– Köçürsünüz? Çox yaxşı – dedi.

Ağrısı sonradan duyulan yaralar kimi, Sofya xanım da xəbərin kəskinliyinin əsərini yavaş-yavaş duymağa başladı. Sızıltı ürəyinə yayıldı.

– Hara köçürsünüz? – deyə elə bir halla soruşdu ki, bu sualların arxasında bir xeyli sual gizlənmiş kimi göründü.

Xanım titrək səsi ilə: "Nə üçün köçürsünüz? Məndənmi incimisiniz?" – demək istəyirdi. Lakin cəsarət edə bilmirdi.

Rüstəmbəy onun halını duydu, yazığı gəldi.

– Sofya Sergeyevna, – dedi və iztirabını sezdirməməyə çalışdı. – İlk dəfə sizə köçdükdə özümlə də sizin cavan ailəyə çoxlu hörmət gətirmişdim. Ərinizlə sizi görəndə ürəyimdə sizə qarşı saf hisslər doğurdu. Lakin bu hisslər uzun müddət ömür sürmədi. Bunların əvəzində başıma qara fikirlər girdi, saflıq itdi. Yaxşı ki, vicdanım tez oyandı. Mənə gecə-gündüz rahatlıq vermədi. Nəfsimlə mübarizəyə girişdim, qalib gəldim. Sonra sizinlə üz-üzə gəldikdə təkrar ehtiras toruna düşdüyümü hiss etdim. Yenə vicdan divanı quruldu. Yenə rahatlığım pozuldu. Ruhum əzilib sıxılmağa başladı. Bu da məni nicat yoluna çıxarda bilmədi, sizi "bacı" deyə adlandırdım-bacıya baxan nəzərlə baxa bilmədim... Axırda mübarizədən yoruldum. Bircə əlacım qalmışdı ki, onu da bu günlərdə əmələ gətirəcəyəm – köçürəm...

Sofya xanım böyük şövqlə qulaq verirdi. Birdən ürəyində əsrarəngiz bir sevinc doğdu, bədəni elə bil ağır bir yükdən xilas olub yüngülləşdi. Həlim bir təbəssüm qırmızı dodaqlarını işıqlandırmağa başladı. Sofya xanım istədi yerisin Rüstəmbəyi qucaqlasın, bacı sevgisi ilə öpsün – cəsarətsizliyi yol vermədi. Əllərini yaşlı gözlərinin üstünə qoyub, otaqdan çıxdı.

## 19

Sabah erkən Bəhram Rüstəmbəyi yuxudan oyatdı və qəti səslə dedi:

– Uşaqları tutdular!

Rüstəmbəy yuxudan bir az aralanıb, yatağında çevrildi:

– Necə yəni tutdular? – dedi.
– Qurultay daha birinci iclasdan ələ keçdi.
– O biri şəhərlərdən də mi gəlmişdilər?
– Gəlmişdilər.
– Bəs nə tez? Nə vaxta təyin olunmuşdu?
– Bu qədər tez gələcəkləri təsəvvür olunmurdu. Nə isə oldu.
– Neçə adam tutulmuşdur?
– On üç, ikisi qızdır.
Rüstəmbəy tez geyinməyə başlarkən Bəhram sözünə davam edirdi:
– Gizləməliləri gizləmək lazım, “hava buluddur”.
Getməyə tələsən Bəhrama Rüstəmbəy:
– Dayan, çay iç, – dedisə də Bəhram o biri yoldaşlara da xəbər vermək üçün yola düşmüş, Rüstəmbəyin çay təklifinə ancaq “sağ ol” deyə bilmişdi.

20

Fayton qapıda idi. Rüstəmbəy çamadanlarını və yatağını xidmətçi qıza verdi:
– Faytona qoy. Sonra kitab səbətini götür, faytonçu ayağının altına qoysun.
Xidmətçi qız getdi. Rüstəmbəy Sofya xanımla vidalaşmaq istədi. Orta qapını örtdü:
– Sofya Sergeyevna! Gəlmək olarmı?
Sofya xanım qapının ağzında gözləyirmiş kimi haman:
– Buyurun! – dedi.
Rüstəmbəy daxil oldu.
Sofya xanımın yanaqları qızarmışdı, gözlərini tühaf bir hüzn sarmışdı.
– Ehtimal köçürsünüz, – dedi.
– Elə.
– Yaxşı yol! – deyə Sofya xanım başını aşağı saldı. Rüstəmbəy qəti səslə:
– Salamat qalın! – deyə əlini uzatdı.
Sofya xanım gözlərini qaldırmayaraq əl verdi. Ayrıldılar.
Rüstəmbəy faytona oturarkən yuxarı baxdı: Sofya xanım pəncərəyə söykənib ağlayırdı.

# EPİLOQ

O vaxtdan iyirmi il keçir, iyirmi təcrübə və sınaq ili. Bu iyirmi il müddətində yuxarıda göstərdiyim qəhrəmanlarım bir çox mühüm siyasi hadisələr şahidi olmuşlar, kimi axıra qədər şahidliyində davam etmiş, kimi isə hadisələrə qarışıb mübarizə etmişdir. Siyasət yolu ilə gedənlərlə, təbiidir ki, təkrar-təkrar görüşəcəyik, lakin bir sıra "şahidlər"in aqibətindən burada da bəhs edə bilərik, çünki bunlarla görüşmək imkanı bir daha olmayacaqdır. Təəssüflə deyə bilərəm ki, Əli hələ tələbə ikən özünü asıb öldürdü.

Yerdə qalanları həyatlarını öz ixtisaslarına həsr edərək yaşayır və başqa-başqa mühit və interesler təsirində bir-biri ilə görüşməyə belə lüzum duymurlar. Fərəməz evlənmiş, lakin yenə əvvəlki flirt aləmindən çəkilməmişdir. Tosyadan olan qız arabir Kiyevdən ona qonaq gəlir, lakin daimi olaraq anasının yanında yaşamağı tərcih edir. Pərviz pambıq sahəsində mühüm bir şura işçisidir, əksər vaxtı qəzalarda keçər. Şəhərə gəldikdə təsadüfən sabiq yoldaşlarının məclisinə düşərsə, Kiyevi həsrətlə xatırlar və çox sevdiyi "Əcəb asudə idim, gəldi düçar oldu mənə" mahnısını oxuyar. İsgəndər çallamış, onda Allahlıq əlamətlərindən əsər belə qalmamışdır. Niyazinin mülkü milliləşdirildikdən sonra Bakıya gəlmiş və kitabxanaçılıq edir. Məcidlə Həsənin harada olduqları bəlli deyil. Vartan Şura Ermənistanında çalışır, Kaspar isə daşnaqlara qoşulub xaricə getmiş. Ocaqverdi, deyirlər, yenə dindarlığında davam edir.

Bəhram doktordur, bir neçə yerdə vəzifəsi olduğu üçün daima qoşduğuna təsadüf edilir. Evdə olarkən belə rahat durmur, düyü arıtlamaqda, bişmiş bişirməkdə həmişə arvadına kömək edər.

Cəfərlə Cəlal isə qəza şəhərlərində yaşayırlar.

BİRİNCİ KİTABIN SONU

*Firuzə-Aşqabad, 1914*
*Bakı, 1935*

# İKİNCİ KİTAB

*1917-ci ildə*

## BİR NEÇƏ SÖZ

"1917-ci ildə" həyatımızın iyirmi beş illik məsafəsini təsvir edəcək roman silsiləsinin ikinci cildidir. İnqilabdan əvvəl siyasətlə az məşğul olmuş türk ziyalıları inqilabdan sonra ayrı-ayrı firqələrə və siyasi qruplara ayrılır. Bunlardan bir hissəsi xaricə köçüb, Avropa kapitalistlərinin təsirinə düşür. O biri hissə şuralar platformasında duraraq çalışır. Oktyabr inqilabı əskimiş həyatı yıxır və onun yerində yeni və parlaq bir həyat qurur. Maarif və mədəniyyət geniş əməkçi kütləsinin arasına yayılaraq yeni adamlar, şura ziyalı və mütəxəssisləri doğurur.

Bu yeni dövrü qismən təsvir edəcək "Tərtər" adlı romandan sonra "Xaricdə" və "Çırpışmalar" (1905-1909-cu illər) yazılacaq ki, roman silsiləsinin dördüncü və beşinci cildlərini təşkil edəcək.

*MÜƏLLİF*

# BİRİNCİ HİSSƏ

## 1

Qalitsiyanın kiçik bir şəhərində əsgər libaslı iki gənc qarşı-qarşıya gəldi. Bir-birlərini görüb tanıdıqda üzlərində heyrət deyil, sevinc parladı.

– Ya Allah, Çingiz! – deyən səslə:

– Ya Allah, Rüstəmbəy! – deyə cavab gəldi. Qucaqlaşdılar, bir neçə dəfə səmimi olaraq öpüşdülər.

– Çingiz, bizim şəhərə xoş gəlmisən! Səsin Karpatdan gəlirdi. Bura nə əcəb?..

– Bir balaca işim var. Cəbhəni tərk etmək istəyirəm, buraxmırlar. Məsələnin həlli buradan asılı imiş.

– Sihhi-trendə imişsən. Yenə oradamısan?

– Oradayam.

– Peterburqun ən yüksək ailələrinə mənsub xanımlar orada xəstə baxıcı imişlər...

Çingiz Rüstəmbəyin zarafatını qəhqəhə ilə qarşıladı və onun qoluna girərək:

– Sənin işlərin nə təhərdir? – dedi.

– Zemqusaram![*] Ordu yanında “Zemokok” müfrizəsi müdiriyəm.

– Zemqusar olduğunu libasından görürəm. Vəzifən nədir?

– Düşmən tərəfindən tərk olunmuş silah və əmvali-mənquləni toplayırıq.

– Düşmən də ki... tərk... etmir, biz tərk edirik...

Yoldaşlar səmimi olaraq gülüşdülər və söhbət edə-edə küçəni başa çıxdılar.

Birdən Rüstəmbəy:

– Çingiz, haraya gedirsən? – dedi.

– Bu yaxında həkimlər yurdu var, orada qalıram.

– Yeməyi?

– Orada verirlər.

– Bizə gedək. İndi saat 12-dir. Gedək. Bir az söhbət edərik, onacan da yemək hazır olar.

---

[*] Zemstvo təşkilatlarının hərbi olmadıqlarına baxmayaraq, əməkdaşları zabit forması geyirdilər. İstehza üçün bunlara “zemquslar” deyirdilər.

Çingiz çox düşünmədən razı oldu.

– Evin yaxındadırmı?

– Burada! – deyə Rüstəmbəy əlini uzatdı.

Yandırılmış, uçurulmuş evlərin yanı ilə getdilər.

Beş dəqiqə sonra ikimərtəbə evin qarşısında durdular.

– Burada oluram, – deyə Rüstəmbəy evi göstərdi. Buranı soldatlar söküb yandırmışdı. Yenidən təmir etdirdim. Görürsən, pəncərənin çərçivələri təzə ağacdır. Boyası belə yoxdur.

2

Rüstəmbəy Çingizi geniş bir otaqda qəbul etdi. Bir tərəfdə iki səfəri çarpayı, o biri tərəfdə bir masa və bir sandalya vardı. Otağın bütün təfrişatı bundan ibarətdi.

Oturdular.

Çingiz papiros çıxardı və mərmi stəkanından yapılmış külqabını özünə tərəf çəkib soruşdu:

– Rüstəmbəy, evdən nə xəbər var?

– Bir şey yoxdur. Kişi Allahın rəhmətinə getmiş. Şəhər çox bahalıqdır. Buğdanın pudu on manata imiş. Bəzi yerlərdə camaat kooperativ açır, lakin daşımaq vəsaiti olmadığı üçün, mal vaxtında gəlib çıxmır, xülasə, işlər xarabdır.

– Gələn qəzetlərdən də elə görünür.

– Qəzet ala bilirsənmi?

– Təsadüfən, bir-iki nömrə "Kaspi" göndərmişdilər.

İki ildən bəri Qafqaz qəzetlərinə həsrət qalan Rüstəmbəy "Kaspi"dən maraqlandı:

– Aman, vətəndən təzə bir şey varmı?

– Təzə nə olacaq?..

Bu əsnada içəri əsgəri qiyafədə şişman bir adam girdi.

– Bağışlayın, mane olmaram ki?

– Yox, gətirin, – deyə Rüstəmbəy qələmi mürəkkəbə batırdı.

Gələn müfrizənin mühasibi idi. Rüstəmbəy qol çəkib mühasibi yola saldı və sual nəzəri ilə Çingizi süzdü.

Çingiz papirosunu tüstülədərək davam etdi:

– Köhnə hamam, köhnə tas. Kars vilayətində dağılmış müsəlman kəndlərinə bir də Şərqi Anadolu əlavə olundu. Qafqazda müharibədən zərər görən müsəlmanların sayı iki yüz mini keçdi. Bakı cəmiyyəti-

xeyriyyəsi böyük bir təşkilat qurub, dağılan yerlərdə müsəlmanlara kömək etmədədir... Bunlardan başqa, gözə çarpacaq bir şey yoxdur. Şəkər, un, sabun qəhətliyini bilirsən...

– Bilirəm, – deyə Rüstəmbəy başını tərpətdi. – Ərzaq böhran hər yerdə var... Bilmirəm, bunun axırı necə olacaq.

– Axırı bəlli.

– Necə?

– Necə?.. Cəbhədə müvəffəqiyyətsizlik, daxili hərc-mərc, hökumət gündə bir dəyişilir, dövlət duması susdurulmuş; hər yerdə narazılıq... Bunların nərələrə vara biləcəyi bəlli deyilmi?..

3

İri gövdəli, uca boylu, qıvrım saqqallı bir adam içəri girib:

– Əfəndimiz həzrətləri, yemək hazırdır, – dedi və çəkildi.

Rüstəmbəy Çingizə:

– Gedək! – dedi.

Durdular. Az işıqlı koridorda əllərini yudular və xırda bir otağa keçdilər. Rüstəmbəy idarə mühasib və hesabdarını Çingizə təqdim elədi, ağ süfrəli masanın ətrafına toplandılar. Aşçı Nataşa borş gətirdi, hesabdar töküb payladı. Çingiz nəzakət üçün mühasibə yönəldi:

– İdarənizin binası gözəldir, – dedi. – Ayrıca yemək otağınız belə var.

Mühasib yoğun bığlarını düzəldərək:

– Rüstəmbəyə mədyunuq. Hər bir rahatlığımızı təmin etmişlər. Baxınız, aşçı qızı özü ilə Odessadan gətirmişdir, gözəl bişirir. Südümüzü təmin etmək üçün inək belə saxlayırıq.

– İnəyiniz də mi var? – deyə Çingiz heyrət etdi.

– Var. Ancaq inəyin özünə görə bir tarixçəsi də var. Qışda ot tapılmadığı üçün aclıq çəkmiş inəklər paylanırdı. Rüstəmbəy birini aldı. Heyvan arıqlıqdan yeriyə bilmirdi. Bir ay bəsləndi, sonra süd verməyə başladı. İndi gündə bir vedrə süd verir.

Tam bir məmnuniyyət nümayiş etdirmək üçün mühasib qəhqəhə ilə güldü.

Nataşa bir qab kotlet gətirdi. Masanın üzərinə qoyarkən gözünün yanı ilə Çingizə baxdı, dolğun dodaqlarının bir tərəfi qalxdı, yanaqları qan aldı.

Çingiz Nataşanın halını duymaz kimi söhbətinə davam etdi:

– Mənzil böhranı burada da varmı? – deyə sordu.

Mühasib həmsöhbətə susamış kimi ayrıca bir ləzzətlə:

– Təbii, – dedi. – Bir çox idarələr ətraf kəndlərdə yerləşmiş. Şəhər çox balacadır. Bir çox evlər xarab edilmiş. Siz rusların qaydasını bilirsiniz – deyə mühasib qəhqəhə çəkdi sonra sözlərinə davam etdi, – bir evdə yaşarıq, rahat olarıq, gedərkən də pəncərələrini, qapılarını çıxarıb apararıq. Soldat yaşadığı yeri xaraba qoymasa, oradan əl çəkməz!

Mühasib yenə sözlərinə qəhqəhə ilə xitam verdi. Yemək otağından çıxarkən Rüstəmbəy "Voronov" deyə çağırdı. Cavab olaraq həmən evin o biri tərəfindən səs gəldi.

Rüstəmbəy Çingizlə böyük otağa girər-girməz Voronovun iri heykəli qapının arasında göründü:

– Əfəndimiz həzrətlərinin nə əmri var? – deyə təzim etdi.

– Get, Pleşşuka söylə, atları qoşub gəlsin.

– Bu dəqiqə, əfəndimiz həzrətləri! – deyə Voronov qaib oldu.

– Rüstəmbəy, atları nə edirsən?

– Gedək. Şəhəri gəzək.

– Vaxtın varmı?

– Vaxt çoxdur. Bütün günü burada deyilikmi? Bizim əsil işimiz idarədə deyil. Bizim müfrizənin dörd bölüyü var. Bunlar sipər boyu yayılaraq işləyir. Hərəsində iki-üç yüz fəhlə, əlli-altmış araba var. Bu gün səhər müavinim bölükləri yoxlamağa getmiş. O qayıtdıqdan bir-iki gün sonra mən gedəcəyəm. İşim bu!

– İdarədə işiniz olmurmu?

– Nə iş olacaq ki? Gündə bir neçə kağıza qol çəkirəm, bir neçə əmr yazıram. Düşəndə birbaş mühəndisin ya zemsoyuz müvəkkilinin yanına gedirəm. Vəssəlam.

– Vallah, yaxşı işdir! Müavinin kimdir? Yaxşı yola gedə bilirsinizmi?

– Gedirik. Moskvalı bir gəncdir. Qadınlar içində böyük müvəffəqiyyəti var...

Çingiz gülümsündü və müavinin tərcümeyi-halından yaxa qaçırmaq üçün dodaqlarına yeni bir papiros alıb, pəncərəyə çəkildi. Şüşələri tüstü bürüdü.

– Rüstəmbəy, o böyük bina nədir? – deyə şəhəri göstərdi.

– Sol tərəfdəkimi? Orada ordu komandanı qalır. Bir dəfə mən də oraya ziyafətə dəvət olunmuşdum...

Çingiz yenə gülümsündü və söhbətin inkişafına meydan vermək istəmədi.

4

Voronov brekin gəldiyini xəbər verdi. Rüstəmbəy və Çingiz paltolarını geyib çıxdılar. İki kəhər qoşulu brek qapının ağzında durmuşdu. Pleşşuk Rüstəmbəyə təzim edərək kənara çəkildi.

– İşlər necədir, Pleşşuk? – deyə Rüstəmbəy qaldırım üzərindən küçəyə endi, atları və breki diqqətlə süzdü. Üzündə böyük məmnuniyyət duyuldu. Atlar tumarlı idi, dırnaqları boyalı, brek də yuyulub təmizlənmişdi.

Rüstəmbəy:

– Buyur, Çingiz! – deyə brekin ön tərəfində yer göstərdi.

Çingiz sol tərəfə, Rüstəmbəy sağ tərəfə mindi, Pleşşuk da arxaya çıxdı. Rüstəmbəy cilovları əlinə alıb sürdü.

– Çingiz! – dedi, – bu şəhərdə bir çox öyrənməli şeylər var. Buralarda əksəriyyət təşkil edən rusinlər də olsa, mədəni simaları görünmür. Hər yerdə polyaklar, polyak panı və onun mədəniyyəti gözə çarpır. Zatən, Qalitsiyanın hər bir nöqtəsində bu hal görünür.

– Küçələrin adlarına bax – həp polyak tarixi... xülasə, Qalitsiya həyatı mənim üçün bir məktəb oldu – bilmədiyim çox şeyləri öyrəndim. Biz tərəqqimizi dinlə mübarizədə təsəvvür edirik. Halbuki polyak mədəniyyəti ilə kotoliklərin arasında ayrı-qeyrilik görünmür...

Çox da mübahisə sevməyən Çingiz təkidlə:

– Bizim din başqa, bunlarınkı başqa, – dedi.

– Başqalıq görmürəm – dinlərin hamısı tərəqqiyə ziddir.

– Məncə, belə deyil. Bu günkü xristian aləmi mədəniyyətin beşiyi, islam aləmi isə cəhlin mənbəyidir. Nəticə etibarilə mühakimə etsək, dinlərin arasındakı fərq aydın olar.

5

Ətrafın bəxş etdiyi intibalar, yeni mühakimələrə meydan verə biləcək mövzular, yoldaşların mülahizələrinə xitam verdi. Brek ratuşa-

nın[*] yanından keçərkən bazarın maraqlı mənzərəsi gözə çarpdı. Uzun pesili[**] yəhudilər, həsir şapkalı, tikməli kaftanlı kəndlilər bazara dolmuşdu. Orada-burada rus soldatları, hərbi məmurlar görünmədə idi.

Brek sağ tərəfə çöndü. Küçənin iki yanındakı ev və dükanlar yanmışdı. Müharibə meydanına yaxın yerlərin xaraba olması o qədər təbii idi ki, bu yanıq evlər Çingizin nəzərini cəlb etmədi. Lakin şəhəri ona göstərən Rüstəmbəy bu evlərin yanından sükutla keçə bilmədi:

– Çingiz, – dedi, – buralar vaxtilə yəhudi məhəlləsi imiş. Ruslar hücum edərkən yəhudiləri talan etmişlər. Kazaklar burada çox adamlar qırmış, deyirlər.

Çingiz çöndü və yanmış məhəllələri maraqla gözdən keçirdi. Rüstəmbəy sözlərinə davam edirdi:

– İstila olunan torpaqlarda yəhudilərin yaşamasına imkan verməmək bu günkü siyasətin başlıca tələblərindəndir. Bu siyasəti müntəzəm surətdə həyata keçirilər...

– Axmaq siyasətdir! – deyə Çingiz gülümsədi. – Yəhudi də bildiyini eləyir: inqilab alovunu körükləndirənlərin ön sırasında gedir; dünya bankirləri arasında müəyyən mövqeyə malik olaraq Rusiyanın beynəlmiləl vəziyyətini pozur. Bu gün ruslar cəbhələrdə qırılarkən, yəhudilər əsgərlikdən boyun qaçırır və ticarət vasitəsilə dövlətin bütün faydalarını əlində toplayır... "Qədim millət"lə zarafat olmaz.

Brek kiçik bir qapı yanında dayandı: – Buyur! – deyə Rüstəmbəy Çingizi içəri dəvət etdi: – burada bir qəhvə içək.

## 6

Yanğından saxlanılmış, xırda təmiratla ala-yarımçıq süs verilmiş bir otağa girdilər. Bura zemstvo məmurları ilə dolu idi. Orada-burada şəfqət bacıları oturmuşdu. Qəhvəxana sahibi xanım polyaklara mənsub nəzakətlə masaları dolaşıb müştərilərlə danışır, onları məmnun etməyə çalışırdı. Rüstəmbəyi tanıyırdı, onu görcək yanaşdı, görüşüb yer göstərdi. Oturdular.

– Nə buyuracaqsınız? – deyə gülümsədi, rəngsiz dodaqlarını dili ilə isladıb, əskimiş üzünə təravət vermək istədi.

– Südlü qəhvə, pasta.

---

[*] Şəhər idarəsi

[**] Gicgahlardan salladılan bir çəngə tük

Xanım nəzakətlə baş endirib çəkildi.

Bir neçə dəqiqədən sonra qəhvə hazır oldu.

– Buyur, – deyə Rüstəmbəy sükutu pozdu. Qəhvə içməyə başladılar. Rüstəmbəy sözlərində davam edirdi, – yoldaşlardan nə var? Mən hər kəslə əlaqəni kəsdim.

– Bir ay əvvəl Kiyevdə idim. Bəzilərinə rast gəldim. Qulu klinikada işləyir...

Rüstəmbəy:

– Yox əşi? – deyə onun sözlərini kəsdi. Çingiz vəziyyətini dəyişmədən:

– Nə yox, əşi? – Qulunu tanımırsanmı? O kişi zor adamdır!

Rüstəmbəy heyrətində davam edərək:

– Zor da olsa, axır klinikaya düşmək də çətin işdir. Bir çox namizədlər arasında müvəffəqiyyət qazanmaq böyük bir işdir... Deməli, müftə otaq da vermişlər.

– Təbii!.. Professor Petrovun əlinin altında işləyir və Petrovun vaxtı olmayanda onun xəstələrinə də baxır.

– Xülasə, yaxşı pul qazanır! – Hə, kefi kökdür.

– Xəlil oradadırmı?

– Oradadır. Qurtarır.

– Zemlyaçestvo dururmu?

– Varmış, dedilər. Amma fəaliyyəti görükmür. Nəşriyyat büsbütün durmuş...

Rüstəmbəy onun sözlərini kəsərək:

– Deməli, bütün fəaliyyət də bizimlə xitam buldu.

– Elə, elə! – deyə Çingiz papirosun tüstüsünü havaya sovurub sükuta daldı. Rüstəmbəy də pasta ilə qəhvəyə məşğul bir halda düşüncədə idi.

Birdən Rüstəmbəy fincanı nəlbəkiyə qoydu, gülümsəyib dedi:

– Fatma xanımla, təbii, məktublaşırsan.

Çingizin dodaqlarında şən bir təbəssüm oynadı:

– Hərdənbir yazır.

– Oxuyurmu?

– Heç bilmirəm necə oldu.

Rüstəmbəy maraqlı bir sima ilə:

– Vallah, – dedi, – toyunuzu eşitdim. Ancaq adresinizi bilmədiyim üçün daha təbrik məktubu yaza bilmədim. Amma çox sevindim. Gözəl və münəvvər bir ailə təşkil etdiniz... Toyunuz necə keçdi?

– Nə toy? Axşam tatar mollasının yanına getdik, oradan da Fatmanın çamadan və səbətini faytona qoyub bizə gəldik. Vəssalam!

– Daha nə olacaq – sadə və gözəl.

Rüstəmbəy məmnun bir halda qəhvəsini bitirib, sandalyanın arxasına söykənib oturdu. Mövzuları tükənmiş kimi görünürdü.

7

Rüstəmbəy Kiyevdəki həbsi xatırlayaraq:

– Çingiz, – dedi, – siz həbs edildikdən sonra mən Kiyevi tərk etmişdim. Yəqin, bilirsən. Siz buraxılanda da mən orada yox idim. Qafqazda eşitdim, doğrusu çox da heyrət etdim; çünki əvvəl həbsinizə başqa rənglər verirdilər. Jandarm dustağı olduğunuz üçün vəkillər qəti bir söz deyə bilmirdilər. Qanunun üsuli-idarəyə qarşı maddələrinin tətbiqindən qorxurdular. İş bu şəkildə olduğu bir halda necə oldu da sizi iki aydan sonra buraxıb, məktəbdən belə xaric etmədilər?

Çingiz düşünərək bir-iki dəfə adəti üzrə gözlərini qırpıb:

– Ortalıqda bir şey yoxdu, – dedi. – Bizi vaxtından əvvəl həbs etmələri işimizə yaradı. Qurultayda hələ heç bir qərar çıxarılmamışdı, ələ bir vəsiqə belə keçmədi. Bilirsən ki, qurultaya yenicə toplanmışdıq, polis gəldi.

Rüstəmbəy istehza ilə gülümsəyərək:

– Bir şeyi də yoxlamaq istəyirdim: deyirlər, istintaq zamanı bəzi yoldaşlar olduqca alçaq və lüzumsuz ifadədə bulunmuşlar. Biri hətta demiş: “Biz ata-babadan taxta qarşı sədaqət göstərmişik. Mən də müti olacağıma söz verirəm...”

Çingiz bunların vaqe olduğunu təsdiq edərək:

– Bunlar təbiidir, – dedi, – həyatında təşkilat görməyən, siyasi tərbiyəsi olmayan, işləyib bişməyən bir zümrədən nə gözləmək olardı? Hamımız qorxu içində idik. Buna baxmayaraq, özünü itirməyənlər də az deyildi. Xəlil həbsin əvvəlindən axırına qədər soyuqqanlılıqla davrandı; Fatma xanımın cəsarəti jandarmları belə heyrətə salmışdı; Mircəfər kəskin lətifələri ilə müstəntiqlərin hiddətinə səbəb olmuşdu...

Bununla bərabər, Şirinin Qulamrzaya yazdığı bir məktubu gördüm: “Ayaqlarını qucaqlayıb öpürəm, nə edirsiniz edin, məni həbsdən qurtarın!” – deyə yazmışdı. – Çingiz güldü: – Zalım yaman darıxmışdı, – deyə əlavə etdi.

Rüstəmbəy də istehza ilə güldü və bir az düşünüb dedi:

– Amma tutulmayan tələbələrin sizə çox köməyi dəymişdi, eləmi?

Çingiz təşəkkür ifadə edən bir təbəssümlə:

– O! – dedi, – hər gün yeməyimiz, vaxtında camaşırımız gəlirdi. Həbsdə heç bir korluq çəkmədik. Zemlyaçestvonun bütün pullarını bizə sərf etmişdilər...

Qəhvəxana xanımı Rüstəmbəyə yanaşıb:

– Yenə əmriniz varmı? – deyə sordu.

Rüstəmbəy:

– Yox, sağ olun! – deyə çıxarıb pul verdi.

Xanım nəzakətlə:

– Nə tələsirsiniz? Oturun! – dedi.

Çingiz Rüstəmbəyə:

– Sağ ol! – deyib qalxdı.

O axşamı brek Çingizi vağzala gətirdi.

## 8

Rüstəmbəyin köməkçisi bölükdən döndü. İçəri girdikdə Rüstəmbəyi səfər çarpayısının üstündə uzanmış gördü. Yanında bir çox paytaxt qəzetləri vardı.

Salamına cavab olaraq:

– Vah, Vanya, gəldin? – deyə qalxıb yastığa söykəndi, – yeni nə var?

Vanyanın gülər üzünə bir qat daha təbəssüm yayılaraq:

– Gözəllik! – dedi, – işlər yaxşıdır; sizi ikinci bölükdə gözləyirlər. Zina gözəl düşbərə bişirmişdi. Araq da qayırdıq!..

Vanya sözlərinə dadlı qəhqəhə ilə xitam verdi, dolğun qırmızı dodaqları aralanaraq, qırxılmış bığları altından bir sıra parlaq dişlər göründü.

– Rüstəmbəy, sizdə nə var? – deyə dadlı bir əda ilə sordu. – Görürəm, çox qəzetiniz var.

– Heç... cəbhə arxasında işlər fənadır. Bəzi nazirlər çəkilmiş, yerinə yenisi gəlmişdir. Bu “yenilikdən” əfkari-ümumiyyə heç də razı deyil. Ərzaq böhranı günü-gündən şiddətlənir, dükanların qarşısında uzun növbələr əmələ gəlmiş, şəkəri bir çox yerlərdə kartla verirmişlər... Xülasə, işlər fənadır!

– Bunlar, Rüstəmbəy, yeni xəbər deyil. Kabinetdə də bir nazirin gedib o birisinin gəlməsi ilə iş bitməyəcək... inqilab olacaq.

– İnqilabı hər kəs gözləyir, ancaq... zaman məsələsi var: indimi? Düşmənə qələbə çaldıqdan sonramı?

Vanya hiddətlə əllərini çırpdı:

– Nə düşmən! Hər kəs zara gəlmiş-qoy nə olur, olsun! Fərqi yoxdur, biz müharibəni qazanmayacağıq.

Rüstəmbəy Vanya ilə yan-yana yaşayaraq, heç bir vaxt onunla dərin bir münaqişəyə girişmirdi. Vanya yaşca ondan kiçik, təhsilcə ondan aşağı (Vanya orta məktəbi belə ikmal etməmişdi), məsləkcə də bambaşqa bir adamdı. Rüstəmbəyin mülahizələri bəzən onun sinirlənməsinə səbəb olurdu. Bu dəfə də ümumin təkrar etdiyi "birinci vəzifə düşmən məhv etməkdir" – cümləsi ilə sözə xitam vermək istədi. Lakin Vanya bu sözlərin doğruluğuna inanmayaraq:

– Yox. Rüstəmbəy, daxili düşməni məhv etməliyik, – dedi. Rüstəmbəy mövzunu dəyişdi:

– Borisin (bölük müdiri) atları necədir? Yenə manqo xəstəliyi varmı? – deyə sual verdi.

– Baytar gəlmiş də, iyirmi manqolu at ayırmış, sonra aparmaq istəmiş. Lakin Boris verməmişdir, çünki, deyirlər, atları aparıb cəbhə arxasında satırmışlar. Boris atları ayrıca bağlatdırıb işə buraxmır. Sizdən əmr gözləyir.

Rüstəmbəy qəzetləri yerə qoydu və bir az heyrətlə:

– Nə əmr? Atları görmədən əmr verə bilərəmmi?

– İyirmi atı əldən vermək üçün baytarların mülahizəsini dinləməli.

– Elə isə sabah buradan baytar aparın!

– Mən də o fikirdəyəm, yoxsa biz məsul olarıq. Rüstəmbəy yataqdan qalxdı, gərnəşərək masaya yanaşdı:

– Bölük nərədə dayanmış? – deyə sordu.

– Yazlavesdə.

– Uzaqmı?

– Uzaq deyil, – deyə Vanya iki verstlik xəritənin bir parçasını masanın üzərinə sərdi və barmağı ilə Yazlavesi nişan verdi.

Rüstəmbəy xəritəni diqqətlə süzdü və:

– Burada monastır da var, – dedi.

– Ah, gözəl bir polyak monastırı var. Boris hərdən oraya ət almağa gedir.

– Görməlidir, – deyə Rüstəmbəy maraqlandı.

Polyak mədəniyyətinə qarşı o qədər böyük hörməti vardı ki, onun hər bir təzahürü Rüstəmbəydə maraqdan çox milli həyəcan oyadırdı.

9

Rüstəmbəy bölüyə getmədən əvvəl tövləyə baş çəkmək istədi: arabir oranın təmizliyinə nəzarət edərdi. Tövlə xaraba bir həyətdə yerləşmişdi. Rüstəmbəy içəri girən kimi mehtər, arabaçı şad bir çöhrə ilə onu qarşılayıb təzim etdilər. Rüstəmbəy salam verib onlarla bərabər həyəti dolaşdı. Hər yerə qum səpilmişdi. Təmizliyə riayət olunmasını sevdiyini bütün qulluqçu və işçiləri bilirdi. Tövlə də təmiz idi. Atlar Rüstəmbəyi tanıyırdılar. Başlarını yan tutaraq, xəfifcə fınxırdılar. Rüstəmbəy onların başlarını tumarladı, yallarını əlləşdirdi və sağrılarını oxşadı. Atlardan birinin ayağı pıçılğan idi, onu soruşdu.

– Yaxşılaşır, – cavabını aldı.

– Müalicə edirsinizmi?

– Təbii.

Rüstəmbəy atı tövlədən dışarı çıxartdırıb seyr etdi. Sonra dal ayağını götürüb, yarasına baxdı. Yara üzə düşürdü. Rüstəmbəy:

– Bağlayın! – deyə atın ayağını yerə qoydu. – Pleşşuk, qoş gedək, gec olar.

Pleşşuk tövləyə yüyürdü. Bu əsnada mehtər böyük bir vəzifə ifa edər kimi ciddi bir sima ilə Rüstəmbəyə yanaşaraq:

– Əfəndimiz həzrətləri! – dedi və yan tərəfdəki xaraba evin balkonunu göstərdi, – onlar ikidir. Hər gün yanlarına adam gəlir...

– Kim?

– Fahişələr, əfəndimiz həzrətləri.

Rüstəmbəyin dodaqları bir balaca qaçdı, sonra yenə adi şəklini aldı:

– Özünüzü gözləyin, – dedi, – burada xəstəlik çoxdur. Bazarda burnu düşmüş kəndliləri görürsünüz – bu, belə xəstəliyin nəticəsidir.

Mehtər ağasının məsləhətinə qarşı təzim edib, məmnun bir halda geri çəkildi.

Qoşulmuş qazalaq Rüstəmbəyi gözləyirdi. Oturdu:

– Pleşşuk, baytarı götürüb bölüyə getməliyik, ancaq hava soyuqdur, qar da gözlənilir. Bilmirəm kürkü götürəkmi?

Pleşşuk qozladan yarı çönərək:

– Əfəndimiz həzrətləri, götürməlidir, mütləq götürməlidir! – dedi.

– Onda idarəyə sür.

Arpadan qızışmış atlar şən bir halda ağalarını apardılar.

10

Yarım saat sonra qazalaq şəhərdən çıxıb gözəl şose ilə cənuba doğru gedirdi. Hava sakin idi, ancaq qar ətrafı ağartmışdı. Rüstəmbəy sarı, uzun yaxalı kürk geymişdi, yanında başlıqlı bir gənc oturmuşdu. Bu, baytar idi. Yoldakı kiçik meşəyə çatana qədər kimsə bir söz söyləmədi. Rüstəmbəy bu yolla ilk dəfə getdiyi üçün ətrafa böyük maraqla tamaşa edirdi. Bir də sipərlərdən bir dovşan çıxıb qarın üzəri ilə qaçdı, birdən tel örgüyə rast gəlib, özünü itirdi, dönüb bir xəndəyə təpildi.

İndiyə qədər sükuta dalan baytar:

– Ah, dovşan! – deyə içini çəkib, yerində hərləndi, – tüfəng olsaydı atardıq, – dedi.

Rüstəmbəy cavab tapa bilmədi: zatən ov və tüfənglə heç də maraqlanmırdı, ömründə bir güllə belə atmamışdı. Baytar bir az boylandı, ətrafa tamaşa edərək, yenə sükuta daldı.

Qazalaq əski Avstriya sipərlərinin yanından keçirdi, bütün məntəqə oyuq-oyuq idi: düz və təpələrdə sağ yer qalmamışdı. – Hər yer xəndək idi; tel örgülər pozulub orda-burda yıxıq dirəkləri və qırıq məftilləri gözə çarpırdı, yanıq evlərin yıxıq divarları və hisli bacaları görünürdü...

Rüstəmbəy üzünü baytara tutaraq:

– Müharibə nə dəhşətdir! – dedi, – baxın, abadanlıqlar yıxılmış, vaxtilə məhsul verən tarlalar alt-üst olmuşdur!

– Doğrudan da elə! Bunları mədəni şəklə salmaq üçün nə qədər vaxt və əmək lazımdır!

İkisi də susdu, sanki müharibənin dəhşətini təsvir etməyə söz bulamadılar. Birdən baytar qayət sakin bir səslə:

– Bilirsiniz, buralarda yüz mindən artıq rus əsgəri tələf olmuş! Biz texnika ilə deyil, sayımız, adamımızın çoxluğu ilə iftixar edə bilərik. Hər düşmən blindajı qarşısında minlərcə meyit buraxaraq, irəli keçmişik...

– Yenə də düşmənə lazımi qələbə çalmırıq, – deyə Rüstəmbəy baytarın sözlərini kəsdi.

– Elə, elə! Çünki min bir nöqsanımız var: hərbi ləvazimatımız yetmir, "müttəfiqimiz" ingilislərə müraciət edirik, elə mərmilər göndərir ki, topumuza düşmür. Sanki qəsdən məğlub olmamızı istəyirlər. Məmləkətimizin daxili bərbad – duma ilə hökumətin arası gərginləşmiş; mübarizə get-gedə dəhşətli bir şəkil alır... İşə baxan yoxdur. Ərzaq böhranı, nəqliyyat pozğunluğu... Böhranlar ölkəni ağzına almışdır. Belə bir vəziyyətdə qüvvətli, təşkilatlı və vətənpərvər bir düşmən qarşısında durmuşuq. Təbii, düşmən halımızı bizdən gözəl bilir – ərkani-hərbimizdə casusları var, saray belə onlarındır... Nəticədə rus xalqı bu çöllərdə boş-boşuna qırılır...

Baytarın rəngi üzündən götürülmüşdü, dodaqları titrəyirdi.

11

Yazlaves monastırı görünmədə idi. Ətrafı bağ və bostanlı bu böyük bina basəfa bir guşədə salınmışdı. Qış və hərb kimi iki təxribkar cəllad qarşısında yenə əzəmət və qürurdan məhrum deyildi, lakin həyatı sönmüşdü; hər yerdə boşluq və sönüklük görünürdü. Sanki alt tərəfindəki kəndin fəci mənzərəsindən kədərlənərək nisyana dalmışdı.

Araba monastırın yanından dönüb, kəndə doğru endi. Dərə içində yerləşən böyük kənd sınıb tökülmüş saxsı qab yığınını andırırdı; bir salamat ev qalmamışdı, bombardman buranı bir xarabazara döndərmişdi.

Pleşşuk yanıq evlərin arası ilə sürüb çay yuxarı dikləndi, sonradan təmir olunmuş bir evin qarşısında durdu. Arabanın səsinə dikdəki çəpərə bir ortaboylu, qırmızıyanaqlı qadın çıxdı və Rüstəmbəyi görcək süst siması təbəssümlə parladı:

– Ah, Rüstəmbəy! – deyə daş pilləkənlə cəld aşağı enib, qazalaqdan enən Rüstəmbəylə görüşdü: – Sizi çoxdan gözləyirik, – dedi, – bu gün Boris gələcəyinizi zənn etməyib, fəhlələrə baş çəkməyə getdi.

– Tanış olunuz! – deyə Rüstəmbəy baytarı Zinaya təqdim etdi.

Görüşdülər. Sonra yuxarı çıxıb, xırda pəncərəli komaya girdilər. İçərisi ağardılmış, divarları cürbəcür rəsmlər və xəritələrlə bəzənmiş otaq olduqca isti idi. Qonaqlar paltolarını çıxartdılar. Zina bunlara yer göstərdi. Oturdular. Qapının girəcəyindəki böyük kürə otağın bir tərəfini tutmuşdu. Kürə ilə baş divar arasına iri yastıqlı bir çarpayı yerləşmişdi. Boş qalan iki divarın qarşısında skamyalar qayrılmışdı.

Zina otaqdan çıxdı və bir dəqiqə keçmədən bir gənc fəhlə bir əlində bir ləyən, o birində bir qab içəri girdi:

– Buyurun, yuyunun! – dedi.

Müsafirlər frençlərini çıxarıb, yuyunmağa başladılar. Zina gəlib masanı düzəltdi: yağ və çörək qoydu. Yuyunub qurtaran Rüstəmbəyə təmiz havlı* verdi.

Qonaqlar daranıb, geyinib, masanın ətrafına toplandılar... Zina stəkanlara kakao töküb, masanın üstünə düzdü.

12

– Zina... atanızın adını bilmirəm...

– Zina Pavlovna.

– Zina Pavlovna! – deyə baytar təkrar etdi, – gözəlcə istirahətiniz var; bilxassə komanız çox xoşuma [gəldi].

Zina bir az qızararaq:

– Bura xaraba idi. Boris təmir etdirdi. Bizdən başqa kənddə kimsə yoxdur. Ərzaq məsələsi bir az çətindir: əti şəhərdən, çörəyi də bir saatlıq məsafədə yerləşən transportdan gətiririk.

– Bəs fəhlələriniz nərədə işləyir? – deyə Rüstəmbəy soruşdu.

Zina tələsik:

– Yaxındadır. Adam göndərdim, indi Boris gələr, gedib baxarsınız.

– Maraqlıdır!..

– Alman blindajları ilə məşğuldurlar.

– Burada çox olmalı, – deyə baytar əlavə etdi.

– Yazlaves müharibəsi məşhurdur. Burada avstriyalılara böyük qələbə çaldıq. Sonra...

– Sonra almanlar köməyə gəldi, dayandıq, – deyə Zina "baytarın cümləsini tamamladı."

Alman sözü baytarın yarasının közünü qopardı, hiddətləndi:

– Bu mənhus xalqı, – dedi, – oturduğu yerdən qoparmaq olmur! Avstriya ilə müharibə asandır, almana hələ bata bilmirik. Ancaq axırda qələbə çalacağıq – buna şübhə olmaz! Acından qırılırlar: ölkələri mühasirədə, yollar tutuldu, müttəfiqləri zəif... İşi başa aparacağı şübhəlidir... İndi də ki, Amerika ilə arası pozulmuşdur. Amerika müharibəyə girsə, Almaniya öldü.

---

* Üz dəsmalı

Zina:

– İndi bu cəbhəyə türklər də gəlmişdir, – dedi. – Soldatlarımız onlardan da şikayətçidir. Yamanca vuruşurlar, deyirlər.

– Türkdən nə çıxar – cəmi bir qol ordudur. Bütün əsgərlərini bu cəbhəyə ata bilməzlər ki?!.. Qafqazda və Ərəbistanda işləri fənadır: ordumuz Ərzurum və Həmədanı keçmiş. Müttəfiqlər Bağdad və Fələstin cəbhəsində böyük müvəffəqiyyətlər əldə etmişlər...

Zina onun sözlərini kəsərək:

– Buna qarşı Almaniyanın da müvəffəqiyyəti az deyil. Rumıniya, Serbiya, Qaradağ, Belçika sıradan çıxarılmış; Fransa və Rusiyanın böyük məntəqələri istila olmuş... sualtı qayıqları müttəfiqlərə böyük tələfat verir. Aclığa gəldikdə, bizdə də başlamaqdadır – Moskvada 7-8 başlıq bir ailə 13-14 saat dükanın önündə növbəyə durduqdan sonra 1-2 bulka ala bilir... Bu, aclıq deyilmi?..

Baytar hiddətlənərək Zinanın sözlərini kəsdi:

– Bizdə aclıq yoxdur, bizdə intizamsızlıq, təşkilatsızlıq var. İşimizi pozan budur. Cəbhədə hansımız aclıq çəkir? Baxın, anbarlarımız məkulatla doludur.

– Arxadakı Rusiya necə?

– Rusiyada da aclıq yoxdur, intizamsızlıq var, ehtikar var...

– 0 büsbütün fəna!

## 13

Borisin içəri girməsi münaqişəyə xitam verdi. Orta boylu, çəlimsiz, xoş sima bu gənc təzim edib qonaqlarla görüşdü.

– Yaxşı oldu gəldiniz, – dedi, – bu gün əlimizdə maraqlı bir iş var. Yeməkdən əvvəl atlara baxarıq, sonra blindajlarımızı görərik.

Qonaqlar təsvibedici sima ilə başlarını tərpətdilər.

Zina özünəməxsus mehribanlıqla:

– Boris, axşam da Zaqoringilə gedək.

Boris tabe bir halda:

– Gedərik, – dedi.

Rüstəmbəy:

– Zaqorin kimdir? – deyə sordu.

Boris:

– Kazak zabitidir, transportda olur. Axşamlar bir- birimizə gedib, gəlirik. Araqları da olur. Bir cazibəli xanımı da var.

Baytar məmnun bir halda:

– Deməli, yaşayırsınız.

– Eh, bir balaca!

Rüstəmbəy karkün bir səslə:

– Baytar əfəndini atlara baxmağa gətirdim. Deyir, iyirmi atınız manqolu imiş.

Boris qətiyyətlə:

– Heç də manqolu deyil. Ayırdım. İndiyə qədər manqo əlaməti görünmür. İstərsiniz gedək, baxaq.

Rüstəmbəy baytarın üzünə baxdı, baytar məsələni anlayıb:

–Mən hazıram! – dedi.

Durub paltolarını geydilər. Boris bunları yarıuçuq bir tövləyə apardı.

– Sergey, atları bir-bir aç gətir! – deyə əmr verdi. Yarımkürklü, çal qəzil papaqlı qoca tövlənin həyətinə bir at çıxardı. Baytar atın burnuna baxdı, dəliklərini araladı:

– İrin axmır ki? – deyə sordu.

Boris təkidlə:

– Yox, yox! – dedi.

Baytar Rüstəmbəyin üzünə baxaraq:

– Bu at salamatdır. O birilərini gətirin baxaq.

Qoça atları bir-bir çıxardı. Baytar hamısını müayinə edib, heç birində xəstəlik tapmadı.

– Hər halda, – dedi, – üç-dörd gün o biri atlara qatmayın, burunlarından irin axmasa, işə buraxa bilərsiniz.

Boris baytarın sözlərindən son dərəcə məmnun olaraq, müzəffər bir halda:

– Aparırdı, zorla saxlamışam, – dedi.

– Tühaf! – deyə Rüstəmbəy baytarın üzünə baxdı.

Baytar gülümsədi.

– Olur! – dedi.

## 14

Tövlənin dışarısında yəhərlənmiş üç at qonaqları gözləyirdi. Mindilər. Atlar götürüldü. Kəndin xarabaları arasından keçib açıqlığa çıxdılar. Ətrafı mərmi dəlik-dəlik etmişdi. Bütün düz və təpələr ala-yarımçıq örtülmüş xəndəklərlə dolu idi. Boş yerə sərf olmuş bu əməyə insan heyrət edirdi.

Boris atını yolun sağ tərəfinə döndərdi. Rüstəmbəy də baytarla döndü. Gözlərinin qarşısında geniş bir sahə açıldı. Xırda təpələrin arxasında çal papaqlı fəhlələr görünürdü – qucaqlarında bir şeylər daşıyırdılar.

Atlar fəhlələrə yaxınlaşıb dayandılar. Boris atdan enən kimi, müsafirlər də endilər. Fəhləbaşı qaçaraq yüyürüb təzim etdi və atların cilovlarından yapışdı.

– Nə var? – deyə soruşan Borisə fəhləbaşı:

– Hər şey hazırdır, sizi gözləyirik, – dedi. Fəhləbaşı atları bir başqa fəhləyə verib, qonaqları apardı. Açıqlıq bir yerdə torpaqdan bir az yüksək xırda bir bina göstərdi.

– Bu, alman blindajıdır, – dedi.

Arxa tərəfdə xırda qapısı var idi, içəri endilər. Heyrətə mucib olan bir şey yox idi: blindaj təqribən üç kvadrat metrlik, üç xırda pəncərəli çargül bir otaqdan ibarətdi; tavanı payalardan və divarları sementdə yoğrulmuş dəmirlərdən qayrılmışdı. Blindajın ortasına çırpı yığılıb, üzərinə beş dənə altı düyümlük mərmi qoyulmuşdu.

Boris üzünü Rüstəmbəyə çevirib başladı:

– Burada bir-iki mitralyoz qoymuşlar, hücum edənləri biçib-tökmüş. Top mərmiləri buna kar etmir, dinamitlə zorluqla dağıdılır – o qədər möhkəmdir! İndi bizim üsulumuzu nümayiş etdirim də, baxın.

“Bizim üsul” dedikdə Boris istehza ilə güldü. Blindajı tərk edib üzərinə çıxdılar, fəhləbaşı orada idi. Boris irəli yeridi:

– Buranı dəlib, – dedi, – piraqsilin şəfləri qoyuruq, sonra biqford qaytanı vasitəsilə odlayırıq. Lakin bunda bir o qədər qüvvət olmur. İndi çəkilək, fəhləbaşı odlasın.

Müsafirlər maraqlandılar – piraqsilinə maraqla baxdılar, qaytanı əlləşdirdilər və almanlar blindajı hörərkən arasına köhnə kotanlar qoymuş olduqlarını gördülər.

Rüstəmbəy vəzifəsindən doğan bir sıra sualla Borisə müraciət etdi.

Bu rəsmi və qeyri-rəsmi söhbətlər qurtardıqdan sonra Boris qonaqları daldaya götürdü. Bir də bir partıltı eşidildi; blindajdan xəfif tüstü çıxdı, yüyürüşdülər – blindajın üzəri bir az çatlamışdı.

Sonra Boris “öz üsulunu” nümayiş etdirdi. Qonaqlar yenə uzaqlaşdılar. Fəhləbaşı blindajdakı çırpıları yandırıb qaçdı.

Bu dəfə partlayış zəlzələni andırdı – yer titrədi. Kimsə yerindən tərpənməyə cəsarət etmədi.

Boris:

– Bəlkə də mərmilərin hamısı birdən partlamamışdır, – deyə ehtiyat etdi.

Bir az sonra fəhləbaşı gəldi və mərmilərin tamamən partlamasını xəbər verdi.

Qoşdular. Blindajın divarları və tavanı adda-budda xətərlənmişdi. Çatlaq belə görünmürdü.

15

Nahara Zina düşbərə bişirmişdi. Zina sibirli olduğu üçün bu bişmişi çox sevər və gözəl bişirərdi. Gələn qonaqlara həp düşbərə ikram edərdi. Mütəvaze süfrəni səliqə ilə düzəltmişdi: bir qab Voloqod yağı və ağ çörək qoymuşdu; boşqabların yanında iri stəkanlar qoyulması araq olmasını göstərirdi.

Baytar əlini yuyarkən gözləri bu stəkanlara sataşdı:

– Boris Vladimiroviç, deyəsən arağınız var? – dedi.

– Var, özüm qayırmışam – bir az spirt tapmışdım, su qatıb düzəltdim.

– Zatən, biz də elə qayırırıq.

Masanın kənarında oturan Rüstəmbəy bığlarını buraraq:

– "İçkinin yasaq edilməsi ilə fayda əldə edildimi?" – deyə bəzən öz-özümə sual verirəm, – dedi.

Baytar qəti olaraq:

– Şübhəsiz! – dedi və Rüstəmbəyin istehzalı təbəssümünü görərək:

– Baxın, – deyə sözlərinə davam etdi. – Cəbhədə əsgər araq tapa bilmir, samoqon* da buralarda yoxdur. Spirt və odekolon ilə ehtiyacını dəf edənlər bizim kimilərdir (baytar gülümsədi). Rusiyada, təbii, məsələ başqa şəkildədir – bütün yasaqlara rəğmən içki böyük meydan almaqdadır.

Rüstəmbəy gülərək:

– Müqəddəs Vladimirin dediyi doğru imiş – "rusun şadlığı içkidir, onsuz yaşaması mümkün deyil".

– Elə, elə! – deyə baytar güldü:

– Onun üçün də Məhəmməd dinini qəbul etmədik.

---

* Evdə çəkilən araq

Bu əsnada gənc fəhlə əlində buğlanan qazanla içəri girdi. Zina qonaqları masaya dəvət etdi. Boris arağı stəkanlara tökməyə başladı.

Oturdular. Rüstəmbəyi, təbii, amir sifətilə yuxarıdan oturtdular. Boris ixlaskar bir təbəssümlə qədəhi qaldırdı:

– Əfəndilər! – dedi, – əziz qonaqlarımızın şərəfinə içəlim. Rüstəmbəy, sağ olun!..

– Sağ olun!

– Sağ olun!

Zina işvəkar bir əda ilə Rüstəmbəyi süzüb:

– Rüstəmbəy, içmirəmsə də ruhən nəşənizə şərikəm, sağ olunuz, – dedi.

Rüstəmbəy məmnuniyyətlə baş əydi. Qədəhləri bir-birinə vurdular, sonra diskinər kimi içib üzlərini qırışdırdılar.

Yağla çörək ağızları acı təmdən qurtardı. İştaha dillərə qələbə çaldı: kimsə danışmaq həvəsində deyildi.

Nəhayət, sükutu Rüstəmbəy pozdu; ayağa qalxıb:

– Əfəndilər, – dedi, – ilk qədəhi mənim və əziz qonağınızın şərəfinə qaldırdınız. Şəxsən mən bu şərəfə layiq deyildim; çünki məclisimizdə məndən daha şərəfli, təqdir və təqdisə layiq bir sima var. Möhtərəm Zina Pavlovna böyük rus qadınlığını təmsil edərək, məclisimizə süslər bəxş edir. Əfəndilər, mən rus deyiləm, amma rus mədəniyyətinin məhsuluyam; bütün mənəvi tərbiyəmi rus ədəbiyyatından almışam. Ədəbiyyatda təmsil edilən Tatyana, Liza və Nataşalara məftun olaraq, ötədən bəri rus qadınlığına hörmətlər bəsləyə gəlmişik. Zina Pavlovna da o qadınların yüksək bir nümunəsidir. Cəbhəyə qədər ərinin dalınca gəlməsi dekabrist qadınlarının fədakarlığını andırır. Yaşasın Zina, səadət ulduzu parlasın da, yollarımızı işıqlandırsın!

Qədəhlər qalxdı Zina gülərək:

– Rüstəmbəy, bir az mübaliğəyə vardınız – dedisə də, Rüstəmbəyin nitqindən son dərəcə məmnun qaldı...

## 16

Qazalaq bağça kənarında xırda bir evin önündə durdu... Boris və Zina əvvəlcə enib, Rüstəmbəyə və baytara yol göstərdilər.

Qonaqları qayış geyməli gözəl bir gənc qarşıladı. Bu, Zaqorin idi.

– Gəldiyinizə çox şadıq, – dedi. – Siz gəlməsəydiniz də biz gələcəydik.

Zaqorin müsafirləri bütün təfrişatı bir neçə qırıq sandalya və axsaq masadan ibarət geniş bir otağa götürdü. Burada çal bığlı, abdal qiyafəli bir baytar və iyirmi yeddi yaşlarında ağ, dolğun və cazibəli bir xanım var idi.

Zina:

– Yevgeniya Artyomovna, ya Allah! – deyə xanımın boynunu qucaqladı, öpüşdülər, sonra baytara əlini uzatdı, baytar əlini öpdü.

– Əfəndilər, tanış olun! – deyə Zaqorinin səsi gəldi. Müsafirlər ev adamları ilə tanış olaraq, bir-birinə əl verdilər.

Tavandan asılan neft lampasının tutqun işığı can sıxırdı. Zina bunu duyaraq ərkyana:

– Əfəndilər, – dedi, – bu işıq nədir? Heç utanmırsınızmı?

Zaqorin nəfəri çağırıb bir lampa da istədi.

Zina bununla iktifa etmədi, otağı səliqəyə salmağa başladı. Masanın üzərinə ağ süfrə saldı, arayıb şamlar tapdı, yandırdı və masanın yuxarı və aşağısına qoydu: nəfər gətirən lampanı da bir tərəfdən asdı. Otaq başqa bir şəkil aldı.

Çalbığ baytar arvadına müraciət edərək:

– Jenya, – dedi, – yemək düzəlt görək. Yevgeniya Artyomovna qapını açıb mətbəxə girdi. Çalbığ baytar müsafirləri əyləndirmək üçün sükutu pozdu:

– Burada can sıxıntısından ölürük, – dedi. – Təsəvvür edin, aylardan bəri buradayıq. Ətrafda atlarımızdan başqa kimsə yoxdur... Jenyanı yazıb evdən gətirtdim. Yenə həyatımız sıxıntıdan qurtarmadı... Bərəkətlər versin ki, aptekimizdə spirt çoxdur. Bu, canımızı bir qədər qurtarır.

Bu əsnada Jenya içəri girdi. Zina:

– Siz içirsiniz, bundan Jenyaya təsəlli olurmu? – deyə güldü.

– Onun da təsəlli yeri var, – deyə baytar iyma ilə söylədi.

Arvadı laübali bir əda ilə:

– Axmaqlama! – dedi və qaşlarını oynatdı. Baytarın iyması Zaqorinə aid idi – Zaqorinin qadınına qur yapdığını bilir və bunu təbii görürdü. Jenyanın hürriyyətinə mane olmadığından dolayı bir az da fəxr edirdi.

Jenya Zinanın qulağına bir şeylər pıçıldadı, Zina qalxdı. Bir yerdə masanı düzəltməyə başladılar; boşqab düzdülər, çəngəl-bıçaq qoydular. Boşqablar yetmədiyindən dolayı ev adamlarının ikisinə bir boşqab təxsis edildi.

Bir az sonra Zaqorin qızarmış bir halda mətbəxdən çıxdı, küncə tərəf yönəlib bir şüşə araq gətirib masaya qoydu.

– Jenya, bax, stəkanı yaddan çıxardıq, – deyə Zina şaqqıltı ilə güldü. Haman qalxıb oranı, buranı ararkən, Jenya ona köməyə gəldi. Bir fincan, iki stəkan və bir səfər parçı tapıb gətirdilər.

Zina yenə gülə-gülə:

– Əfəndilər, – dedi, – bir adam içməməlidir.

Jenya:

– Mənim ərim içkidən imtina edir, – dedi.

Çalbığ baytar:

– Mən səndən imtina edərəm də, araqdan imtina etmərəm! – dedi.

Zina süni heyrətlə:

– Mən Jenyanın yerinə olsaydım, bu sözlərdən dilgir olardım, – dedi.

– Ağlıma belə gəlmədi! – deyə Jenya işvəkar bir halda çiyinlərini atdı.

Mətbəxin qapısı açıldı, içəri yanıq qoxusu ilə bərabər nəfər girdi. Əlində gətirdiyi tavanı masanın üzərinə qoydu və qolu ilə alnının tərini silərək, cəld çıxdı.

Jenya qonaqların boşqablarını əlinə alaraq:

– Bağışlayın, əfəndilər, – dedi. – Bizim yerdə təzə ət süs qəbilindəndir. Okorokdan başqa bir şeyimiz yoxdur.

– Xoşdur! Xoşdur! – deyə qonaqlar razılıq etdilər. Zaqorin qablara araq tökdü. Çalbığ baytar səfər parçından yapışdı. Stəkan yetmədiyini duyaraq Zaqorin nəfəri çağırdı, onun fincanını istədi.

Fincanı alar-almaz müsafirlərin şərəfinə qədəh qaldırdı.

Zina ərkyana bir tərzdə yanında oturan Rüstəmbəyin stəkanını götürüb, bir qurtum aldı və yenə yerinə qoyaraq:

– Sağ olun, Rüstəmbəy! – dedi.

– Sağ olun! – deyə səsləndilər.

Borisin səsi bir az kal çıxdı. Zinanın hərəkətindən qısqandığı bəlli idi. Bunu Zina duyar-duymaz dəruni bir zövq aldı.

Zina zatən eşq dənizinin sakin halından xoşlanmazdı; yalnız fırtınadan həzz alardı. Odur ki, arabir Borisin ona qarşı bəslədiyi hissləri yoxlamaq üçün onu qısqandırmağa çalışırdı. Rüstəmbəyin gəlməsi onun üçün gözəlcə bir vasitə olmuşdu.

İkinci qədəhi çalbığ baytar qaldırdı:

– Mən, əfəndilər, – dedi, – qadınlara çox pərəstiş edənlərdən deyiləmsə də...

Burada Zina onun sözlərini kəsərək:

– İnanan daşa dönsün! – dedi.

Baytar "Siz elə zənn edin" sözləri ilə Zinaya cavab verib, nitqinə davam etdi – ...yenə də qadınların şərəfinə içməyi sevirəm. Yaşasın məclisimizə güllər saçan qadınlar!

Pinti baytarın şairanə sözləri hər kəsi əyləndirirdi.

Ənva cins və nəslə mənsub qədəhlər qalxdı, araq boğazları qıcıqlayaraq keçib getdi.

Zina Borisin sakin və laqeyd olmasını duyaraq, yenə xorladı. Gülər çöhrəsini Rüstəmbəyin üzünə yanaşdıraraq, pıçıltı ilə:

– Yanınızda oturduğumdan dolayı məmnunsunuzmu?- dedi.

Rüstəmbəy gülümsədi və arağın təsirindən keyimiş dodaqlarını uşaq kimi büzərək:

– Olduqca! Olduqca!.. – deyə bir neçə dəfə bərkdən təkrar etdi.

Rüstəmbəyin sözlərini eşitmədi. Acı təbəssüm dodaqlarına yayıldı. Zinanın yarasına su səpilən kimi oldu.

## 18

Artıq araq şüşənin sonuna çatırdı. Spirt beyinləri dumanlandırmışdı. Çalbığ baytar coşaraq arabir:

– Acıdır! – deyə bağırır və hər kəs qonşuluğundakı qadını öpürdü. Tühaf burası ki, özü Zaqorinlə Rüstəmbəyin arasında oturduğu üçün öpüşlərdən tamamilə məhrum idi. Jenyanın Zaqorin və gənc baytarla öpüşdüyünü gördükdə ənsəsini qaşıyaraq:

– Əfəndilər, işlərim yaşdır! – deyə gözlərini yumur və üzünü turşudurdu.

Boris Zinanın qızarmış yanaqlarını görərək stəkanındakı arağını sıra daxilində içib masadan qalxdı. Sarsıntılı addımlarla pəncərəyə ya-

naşdı və divardan asılan gitaranı alıb, köksünə basdı. Titrək barmaqları ilə gərgin simləri dilləndirə-dilləndirə yanıqlı bir şərqi söylədi.

Məclisdəkilərin nəşələri bir qat daha dalğalandı. Çalbığ baytarın təklifinə görə arağın sonu qədəhlərə töküldü:

– Ekstra Borisin sağlığına! – deyə məst dodaqlardan qopan gurultu otağı titrətdi. Kim isə:

– Havaya çıxalım, – dedi.

– Çıxalım! Çıxalım! – deyə səslər bir-birinə qarışdı.

Bir də Zaqorin gitaranı qapıb, vals çalaraq fırlandı. Haman, kişilər qadınların belini qucaraq otaqda tur yapmağa başladılar.

Boris Zina ilə oynayırdı. Zina turu yarımçıq buraxıb Rüstəmbəyə yönəldi:

– Bir tur da bizimlə edəlim! – deyə qoluna girdi. Rüstəmbəy çəkinərək:

– Həyatımda heç rəqs etmədim, – dedi.

– İlk dəfə olsun! – deyə Zina gərdənini əyərək cazibəli bir vəziyyət aldı. Siması həm yalvarır, həm məftun edirdi. Rüstəmbəy məyus bir halda:

– Heç bilmirəm; doğru sözümdür!

– Ricama qarşı “yox” ola bilərmi? – deyə Zina dilini əzdi.

Rüstəmbəy Zinanım iradəsinə tabe bir halda əli ilə onun belini əhatə etdi. Vücudunun lütfkar hərarətindən təkrar məst olaraq tura başladı.

Valsdan sonra Boris padespan çaldı. Zaqorinlə gənc baytar xanımları rəqsə dəvət etdilər.

Zina ilə Zaqorin böyük müvəffəqiyyət göstərdilər. Sürəkli alqışlarla məclisə xitam verildi.

## 19

Ətrafda qarın sönük ağartısından başqa gözə bir şey çarpmırdı. Tam bir sükut dünyanın gənc dövrünü andırır, ruha dəhşətlər saçırdı.

Qapının şaqqıltı ilə açılması şaxtalı havanı titrədərək əks-sədalar doğurdu. Zinanın qumrov kimi cingildəyən səsi qarlı boşluqları oyadar kimi oldu. Buna mütəaqib sərxoş qəhqəhələr, qırıq ifadələr bir-birinə qarışıb, xülyapərvər qaranlığın sükutuna təkrar-təkrar xələl vurdu.

Zina Rüstəmbəyin qoluna sığınaraq yolu sürətlə atlamada idi; gənc baytarla Zaqorin Jenyanın qoluna girmişdilər; çalbığ baytarla Boris arxadan gəlirdi.

Bunların dəruni övzaları bir-birinin əksi idi; çalbığ nəşə ilə dolu, laübali halda deyir, danışır və arvadının əylənməsindən olduqca məmnun idi; Boris isə iztirab içində çırpınırdı. Zinanın işvəbazlığı, nümayişkar qəhqəhələri, ehtirasa qapılmış dişi ədası Borisə toxunur, qəlbində yaralar vücuda gətirirdi. Qısqanclıq atəşi ilə yanan gözləri Zina ilə Rüstəmbəyi təqib edirdi; onlar uzaqlaşmağa çalışır, get-gedə qarlar ağartısında yekvücud bir kölgə təşkil edən bu iki gənc qaib olur və Borisi də uçuruma doğru sürükləyirdi. Bir də Zinanın uzaqlarda qopan qəhqəhəsi Borisi ildırım kimi vurdu. Əvvəl qeyzlə coşdu, onda xəşin bir erkək mənəmliyi oyandı. Lakin haman buna mütəaqib əksi bir dalğa gələrək, onun dəruni atəşini söndürdü. Hüzn və laqeydlik duyğusu vücudunu aldı. Köksündən talesizliyini andıran kədərli bir səs qopdu: yanıqlı şərqisi ətrafın sükunpərvər dərdlərinə yeni dərdlər artırdı.

Uzaqlarda Rüstəmbəyə sarılan Zina əvvəl ərinin səsindən indiyə qədər duymadığı həzzlər duydu; sonra tühaf bir hala düşdü – Borisə yaxın olmaq istədi. Haman Rüstəmbəydən aralanıb, gözləri ilə geriləri seyr etməyə başladı. Rüstəmbəy ona yaxınlaşaraq, onu yenə qucmaq istədi. Lakin Zina onu yavaşca itələyərək geri çəkildi və uzaqdan eşidilən səsləri dinləməyə başladı. Rüstəmbəy onun əlindən yapışıb, dodaqlarına aparmaq istədi, Zina isə onun əlini rədd edib:

– Onlardan ayrı düşürük, yaxşı olmadı! – dedi və sürətlə qayıtdı. Rüstəmbəy heyrət edə-edə onu təqib etdi. Bunların gəlmələrini duyan Zaqorin:

– Hə, əfəndilər, deyəsən, usandınız, – deyə onları qarşıladı.

Zina peşman səslə:

– Yox! – deyib onlara yanaşdı.

Jenya onu görcək gənclərdən aralanıb, Zinanı qucaqlayaraq kənara çəkdi:

– Aman, Zina! Bu gənc baytar nə cazibəli çocuqdur! – deyə pıçıldadı və ehtirasındam Zinanı qucub, yanağını dişlədi.

– Divanəsən! – deyə Zina xəfifcə olaraq gülümsədi və:

– Borisi gözləyək, sonra gedək, – dedi.

Boris ilə çalbığ baytar yavaş-yavaş irəliləyirdilər. Boris Zinanı Jenya ilə qol-qola gördükdə iztirablı qəlbinə su səpildi; haman səsindəki titrəyiş yox olmağa başladı; qısqanclığı aram buldu. Bu bir neçə dəqiqənin içində çəkdikləri ələmlər ona gülünc göründü. Yanaşıb, əlini Zinanın qoluna keçirdi və çocuq saflığı ilə oxşamağa başladı.

## 20

Sabah yuxudan gec qalxdılar. O günü müsafirlərin şəhərə dönəcəklərini ev sahibləri bilirdilər. Zinanın israrən:

– Bu günü də qalın! – deməsinə baxmayaraq, Rüstəmbəy də:

– Yox, getməliyik! – dedi və Pleşşuka hazırlanmasını əmr etdi.

Çayı içib qazalağa mindilər. Planlarına görə Boris Yazlaves monastırını onlara göstərməli idi. O da ön tərəfdən oturub yola düşdülər.

Qar lopa-lopa yağırdı. Gecəki kefdən sonra hər kəsdə bir süstlük vardı. Kimsə danışmaq istəmir, yalnız ətrafın seyri ilə məşğul idi. Bu halla da monastırın qapısına çatdılar. Boris əvvəlcə qazalaqdan enib qapını döydü, sonra içəri girib, icazə almağa getdi. Çox çəkmədən geri gəldi:

– Buyurun gedək! – dedi.

Daş döşəli yolla gedib, balaca bir otağa girdilər. Burada bunları 44-45 yaşlı rəhban libaslı bir qadın qarşıladı. Bu, buranın müdiri imiş.

Ziyarətçiləri polyaklara məxsus dadlı nəzakətlə qarşılayıb, monastıra təşyi etdi. Gözəl koridorlardan keçib, mərmər məlaikə heykəlli pilləkənlə yuxarı çıxdılar, balkondan kilsəyə tamaşa etdilər.

Hər yer boş idi. Vaxtilə kübar ailələrinə mənsub qızlar burada tərbiyə və təhsil görərmişlər. Müharibə üzündən hər kəs Avstriyanın içərilərinə çəkilmişdi. Müdir qadınla bir neçə xadimədən başqa buralarda kimsə qalmamış. Bunlar monastırın bəkçiliyini bir müqəddəs vəzifə bilərək, müharibədən doğan bütün zülm və vəhşətə qarşı illərdən bəri fədakarlıq göstərə bilmişdilər. Ötüb gecən rus soldatları tərəfindən bu qadın dəfələrlə təhqir olunmuş, soyulmuş və əzablar görmüşdü. Monastırın gümüş qabları, tarla və bostanların toxumluqları belə çalınmışdı. Təbiidir ki, qadın rusların qələbəsinə açıqdan-açığa zidd idi. İmkan olsaydı, kimsəni monastır qapısından içəri buraxmazdı. Nə etməli ki, müharibə zorbalıqları qadının milli və dini heysiyyətini qırmış, onu boyun əyməyə məcbur etmişdi...

Ziyarətçilər geniş otaqlarda yerləşən kitabxanaya gəldilər. Minlərcə cildlər məftil şəbəkəli çərçivələr arxasında dolablara düzülmüşdü.

Qar basmış bağa enib, sönük xiyabanları, xaraba bostanları, çiçəkliyi, oranjereyaları, tövləni... bir neçə dəfə gəzdilər, vaxtilə parlaq bir mədəniyyət məhsulunun xarabazara döndüyünün şahidi oldular.

Nədənsə monastırın bu qədər ələmli mənzərəsi hər kəsdən artıq Rüstəmbəyə təsir etdi. Polyakların fəlakətini məhkum millət nümayəndəsi sifətilə daha yaxından, daha səmimi olaraq duya bildi. Çoxdan bəri uyumuş milli-hissi qələyana gəldi. Halını kimsəyə bildirmədən monastırı tez tərk etməyə çalışdı. Dərin bir sükut içində qazalağına əyləşdi və qəm möhrü ilə qapanmış dodaqları şəhərə çatıncaya qədər bir dəfə də olsun qımıldanmadı.

## 21

Rüstəmbəy qazalaqdan enib idarəyə gəldi və soyunub yenicə yuyunurdu, bir də Vanya sevinərək ona yanaşdı:

– Rüstəmbəy, – dedi, – yeni xəbəri eşitdinizmi?

– Yox, – deyə Rüstəmbəy asma yuyuncağın altından başını qaldırıb, üzünün suyu axa-axa Vanyanı maraqla süzdü.

– Rasputini öldürmüşlər.

– Kim? – deyə Rüstəmbəy qalxdı.

– Bəlli deyildir.

Rüstəmbəy üzünü cəld yudu, məsələnin təfsilatını öyrənib, otağına çəkildi.

İki əməkdaş səfər kürsülərinə istirahətlə yerləşməyə çalışaraq Rasputin ətrafında uzun-uzadı danışığa başladılar.

Rasputinin savadsız bir mujik olması, Sibirdən Peterburqa gəlib, saray məhafillərində böyük bir mövqe qazanması bunların heyrətinə mucib olurdu. Vanya qəzetlərin sütunlarını dolduran bu hadisənin bir parçasını Rüstəmbəyə nağıl edir, sonra bunun ətrafında mülahizələr yürüdürdülər.

– Rüstəmbəy, bütün saray bu adamın əlində imiş. Çariçanın vasitəsilə çara nüfuz edirmiş. Heyrət deyilmi? Təsəvvür edin. Rasputin istədiyi adamları vəzir təyin etdirir, xoşuna getməyənləri əzl etdirir...Yüksək zadəgən qadınlarının ən gözəlləri ilə yaşayır. Bütün saray buna tapınır, bunu müqəddəs “starets” sanır...

Rüstəmbəy Vanya ilə həmişə ehtiyatla danışırdısa da bu dəfə özünü saxlaya bilmədi:

– Əzizim, burada heyrət yeri yoxdur: Rusiya "umulmaz vaqeələr ölkəsi" adı ilə mərufdur. Burada hər şey hərc-mərc bir haldadır. Bir ovuc aristokrat mədəniyyəti yüz milyonluq mujik vəhşətinə; xristianlıq skit zehniyyətinə; slav tatara, tatar slava; Asiya Avropaya, Avropa Asiyaya qarışıb bulanıq bir şey vücuda gətirmişdir. Avropa qitəsinin böyük bir hissəsində yaşadığı halda, adət ənənə, tarix, üsuli-idarə etibarınca heç də Avropa məmləkətlərinə bənzəməz; Asiyanın böyük bir parçasına malik olduğu halda, Rusiyanı "asiyalı" deyə də tələqqi etmək olmaz...Xülasə, bu ölkə müəyyən bir sima və aydın bir xarakterə malik deyil. Belə ölkədən Rasputinin çıxması təbii deyilmi?

Vanya bu sözlərin haqlı olduğunu duyurdusa da, Rüstəmbəyə etiraz etmədən çəkilə bilmədi:

– Rüstəmbəy, məsələ ölkənin əhvali-ruhiyyəsində deyil ki; bunlar həp alman oyunlarıdır. Çariça alman olduğu üçün həp Almaniya üçün çalışır. Rasputin də bunların adamıdır. Rasputin Almaniya ilə barışmaq tərəfdarı idi. Bu Rasputinin öz fikridimi?

Rüstəmbəy sükuta getdi. Münaqişədən yaxa çəkməyə yol axtarırdı. Bir də:

– Paytaxt qəzetləri haradadır? Oxumaq istəyirəm, – dedi.

Vanya Rüstəmbəyə bir yığın qəzet verdi. Rüstəmbəy çarpayısının üzərinə uzanaraq:

– Vanya, idarəmizdə nə yeniliklər var? – deyə sordu. Vanya bir az kinli kimi:

– Bir şey yoxdur, – dedi, – ikinci bölükdən gəlmişdilər; kürk və ayaqqabı göndərdim. Sabah pula gələcəklər, çek verərsiniz, alarlar.

– Bankda nə qədər pulumuz var?

– Siz bilirsiniz, gərək səkkiz min olsun.

– Yaxşı, – deyə Rüstəmbəy qəzetlərə daldı.

İndiyə qədər Rasputindən bəhs etməyə cəsarət etməyən mətbuat "starets"in fəzailinə aid uzun sütunlar həsr etmişdilər. Bunları Rüstəmbəy böyük maraqla oxudu. Mətbuatın tonu tamamilə hökumətə və saraya zidd idi. Yüksək məmurların sui-istemalları, xəyanətləri, səhlənkarlıqları açıqdan-açığa yazılırdı. O biri tərəfdən də məmləkətin keçirdiyi iqtisadi böhran – aclıq, yoxsulluq aydın surətdə təsvir olunur-

du. Artıq xarici siyasət, müharibə kimi böyük bir hadisə ikinci və bəlkə üçüncü sıraya keçirilərək, həp daxili övza müzakirə olunmada idi.

## 22

Rüstəmbəy əsil vəzifəsindən başqa, ictimai işlərlə də məşğul olardı. Zemstvo əməkdaşları üçün üç yurd təşkil etmişdi. Bunlardan biri qadınlara məxsus idi. Gəlib keçən, ya şəhərdə xidmət edən şəfqət bacıları orada yaşayırdılar.

Rüstəmbəy nahardan sonra yurdları dolaşıb, qadın yurdunda dayandı; tanışı Tatyana və Volodya onu çaya saxladılar. Tatyananın əri Volodya Rüstəmbəyin darülfünun yoldaşı idi. Çox zaman imtahanlara bir yerdə hazırlaşmışdılar. Bir aralıq Rüstəmbəy Volodyanı qaib etmiş, sonra təsadüfən ona Qalitsiyada rast gəlmişdi. Volodya əsgərliyə cəlb olunaraq, hərbi məktəb bitirib cəbhəyə göndərilmişdi. Gənc qadını Tatyananı da zemstvo ittifaqında şəfqət bacısı sifəti ilə yerləşdirmişdi.

Rüstəmbəyi yemək otağında qəbul etdilər. Xidmətçi qız samovar gətirdi. Otaq isti və işıqdı. Cəbhədə bir kəsə müyəssər olmayan bu istirahətə bir də dadlı söhbətlər əlavə olundu.

Rüstəmbəy:

– Volodya, nə əcəb? – deyə sordu.

– Bəhanə ilə bir günlüyə qopub gəldim; sabah erkən gedirəm.

– Cəbhədə nə var?

Volodya əlini çırpdı:

– Məyusluq, tam bir məyusluq! Əsgər yorulubdur, sülh istəyir. Müvəffəqiyyətsizlik hər bir nəfərin ruhunu pozmuşdur. "Bizi başdakılar satırlar", – deyə ümumi bir qənaət hasil olmuşdur.

– Baş komandanlığın ərkani-hərb zabiti Myasoyedovun işi buna dəlil deyildir?

– Təbii! hər yer alman casusu ilə doludur. Nə addım atırıq, düşmən bilir. Bundan başqa, silah yetmir. Nizam yox. Daxilin hərc-mərci də bəlli...

–Yaxşı, – deyə Rüstəmbəy Volodyanın sözlərini kəsdi, – bunların sonu nə olacaq?

– Sonu? – heç! Almanla təklikdə sülh yapmaqdan başqa çarə yoxdur.

– Bu ola bilərmi? Hər kəs "son zəfərə qədər müharibə" bağırır. "Sədaqət"dən bəhs edirlər. Müttəfiqlərə söz vermişik, zarafat deyil!..

Son sözləri Rüstəmbəy istehza ilə söylədi və bu, Volodyanın rişxəndinə səbəb oldu.

– “Son rus əsgərinə qədər müharibə” şüarı daha doğrudur. Müttəfiqlər bunu istəyir. Biz şərq cəbhəsində qana bulaşdığımız halda ingilislər bir addım belə irəli getməyib qüvvələrini saxlayırlar. Təqib etdikləri siyasət bəlli deyildir.

Rüstəmbəy istehzalı təbəssümlə:

– Bəlli deyil?.. İngiltərə hərb nazirinin söylədiyi sözlər yadındadırmı?

– Xeyr! Bizim cəbhədə qəzet gördüyümüz yoxdur ki!..

– “Hərb müqəddəratını son bir milyon ingilis əsgəri həll edəcək”, – demişdir.

– Məsələ aydındır: hər dövlət gücdən düşdükdən sonra İngiltərə sağlam qüvvələrlə meydana çıxıb qələbə çalacaq və sülh şəraitini diqtə edəcək... Bu “dost”ları görərək insan hər şeydən ikrah olur!.. Bıqdım, iyrəndim! Başqa mövzuya keçəlim.

– Elə, elə, – deyə Tatyana ərinin təklifini təsvib etdi.

## 23

Tatyana çayı süzdü, tatlılar qoydu.

– Buyurun, – dedi və mənsub olduğu aristokratiyanın ədasınca ifadəsində “ğ” səsini çox eşitdirərək sözə başladı: – İçin, sinirlərinizi təskin edin; onsuz da bu axmaq müharibədən bir şey çıxmayacaq.

Rüstəmbəy Tatyanaya müraciət edərək:

– Sizin işiniz necədir? – deyə soruşdu.

– Nə işim? Hamam müdiriyəm, qadınların çimməsinə nəzarət edirəm, – dedi və qəhqəhə ilə güldü; qəhqəhəsi belə xırıldadı.

Volodya da gülümsədi:

– Tühafsan! – deyə arvadının yanağını oxşadı.

– Bilirsən, Volodya, Rüstəmbəy bizə gəlməyə qorxurdu.

– Neçin?

– Namusuna təcavüz olmaqdan ehtiyat edirdi...

Volodya arvadının safdil və tühaflığını Rüstəmbəyə bildirmək istədi:

– Rüstəmbəy, Tanya bir az tühafdır... bunun sözlərinə əhəmiyyət vermə, – dedi.

Lakin sözə həvəsi olan Tatyana zarafatlarına davam etdi:

– Bir axşam burada bir xanım vardı. Əcuzəliqa bir şey idi. Yəqin dərzi imiş, "vətən hissi" qələyana gəlmiş də, cəbhəyə tərəf azim olmuşdu, ha-ha-ha-ha!.. Xülasə, Rüstəmbəyi ovlamaq istəyirdi. Deyəsən, bir şey çıxmadı...

Tatyana xırıltılı gülüşü ilə sözlərinə nəhayət verdi. Xoş ədalı ifadəsi, cazibəli istehzası Rüstəmbəy və Volodyanı da güldürdü.

– Sonra... – deyə sözlərinə davam etdi, – bu axşam etiraf axşamıdır; Volodyanı hər şeydən xəbərdar etməliyəm. Volodya, Rüstəmbəy dediklərini lazımınca yerinə yetirir – məni "yabançılardan" gözləsin deyə tapşırmışdın. Vəzifəsini gözəlcə ifa edir; bir hərəm ağası qədər ayıqdır. Ancaq...

Volodya gülümsünərək onun sözlərini kəsdi:

– Bəsdir, bəsdir! Axmaqlama! Bəlkə Rüstəmbəy sənin axmaq safdilliyinə bələd deyildir...

– Bələddir! Bələddir!.. Ancaq, sözümü yarımçıq qoydun, ancaq... bir gün axşam, bizim bir gənc mühasib var, gəldi də, şəhərdən dışarı gəzməyə getdik...

– Tatyana, yetməzmi? – deyə Volodya ciddi səslə dedi.

– Nə etməli? Bu hamam məni zara gətirdi. Sıxıntıdan insan boğulur. Rüstəmbəy də əxlaq müdərrisliyi edir... Əylənmək təbii bir ehtiyac deyilmi?

Volodya Tatyanaya qarşı böyük hisslər bəslədiyi üçün onun səmimi hərəkətində fənalıq duymadı, biləks, xoşlandı, onda tühaf ehtiras alovları parladı.

## 24

Səhər ertə Vanya Rüstəmbəyi sevinclə oyatdı:

– Yeni xəbərlər var! – dedi. – Petroqradda üsyan olmuş, hökuməti düşürmüşlər.

Rüstəmbəy yatağından ildırım kimi qalxdı; cəld yuyunub, çay belə içmədən baş zemstvo idarəsinə qoşdu. Bir çox əməkdaşlar toplanmışdı. Hər kəs fərəh içində bir-birini təbrik edirdi. Alınan rəsmi bir teleqramda Lvovun sədarəti ilə yeni bir kabinet təşkil olunduğu bildirilirdi.

Başqa məlumat olmadığı üçün hərə bir mülahizə yürüdürdü. Statist Quxman deyirdi:

– İndi yatmaq zamanı deyildir; təşkilata başlamalıdır. Aşağıdan yuxarı şuralar qurmaq icab edəcək. Birinci sırada ictimai təşkilatları – Qırmızı xaç, şəhər və zemstvo birliklərini bir mərkəzə bağlamaq lazımdır. İclaslar çağırıb, Petroqrad hadisələrinin əhəmiyyətini izah etməlidir.

Vanya nümayişlər yapılmasını lazım bilib:

– Sabah tezdən qırmızı bayraqlarla küçəyə çıxmalıyıq, – dedi.

Bu fikir də oradakılar tərəfindən təsvib olundu.

Lakin müəyyən xətti-hərəkət üçün Petroqrad hadisələrinin təfsilatı lazım idi. Dövlət dumasının təlimatı gözlənilirdi. Duma liberal fikirlər daşıyanlar üçün bir avtoritet idi; onun hər bir hərəkəti ruhlarda qələyan edək protestlərin tərcümanı idi.

Lvov ümumi Rusiya zemstvo ittifaqı rəisi olduğu üçün onun kabinet təşkil etməsi bütün zemstvo əməkdaşlarına böyük ümidlər verirdi.

– Yarım saat sonra şəhərdəki zemstvo müvəkkilinin departament müdiri sifəti ilə Petroqrada dəvət olunması xəbəri yayıldı. Bu da əməkdaşlar arasında yeni fərəhlər doğurdu. Bəziləri bunu şəxsi faydaları üçün bir fali-xeyir kimi tələqqi edir. Rüstəmbəydən kölgə kimi bir addım uzaqlaşmayan mühasib imkan bularaq müti bir təbəssümlə ona dedi:

– Rüstəmbəy, müvəkkilimiz yüksəldi; sizin də yuxarı gedəcəyinizə şübhə edilmir; amandır, məni unutmayınız! Fəaliyyət və sədaqətimi bilirsiniz!..

Rüstəmbəy gülümsədi, bir söz deməyib, bir-iki dəfə baş əyməklə iktifa etdi.

## 25

Rüstəmbəy baş idarədən çıxıb evə dönərkən xəyalı qanadlanmada idi. O özünü ən xoşbəxt bir adam sayırdı. Ruh yüksəkliyinin, mətanətin, fəaliyyət atəşinin həddi yox idi. Öz-özünə "inqilab nə böyük feyzdir!" – deyə gülümsəyir, nəşələnirdi – böyük dəyişikliklər olacaq: ruslaşdırma, provoslavlaşdırma əbədi olaraq tarix səhifələrinə keçir. Artıq hakim və məhkum millət yoxdur... Bərabərlik, tam bir bərabərlik xalqlar arasında ziddiyyəti qaldıracaq; qardaşlıq günəşi yeni aləmi parladacaq. Artıq hər bir xalqın müqəddəratı öz əlinə keçəcək.

Rüstəmbəy bir də Rusiyada yaşayan 40 milyonluq türk-tatar xalqlarını gözlərinin önünə gətirdi: bunlar üç yüz ildən bəri çar hökmranlığından olmazın zülmlərini görmüşlər; Qazan, Həştərxan, Krım və Sibir xanlıqları dağılmış; Orta Asiya istiqlaliyyəti məhv olmuş. Dağıstan və Azərbaycan hürriyyətini tərk etməyə məcbur olmuşlar; rus mühacirləri çar hakimiyyəti sayəsində sel kimi axaraq, türk-tatar xalqlarını əzib pərakəndə hala salmışlar. Bir qismi hicrəti məhkumiyyətə tərcih etmiş, digəri assimilə olmağa müncər qalmışdı.

Rüstəmbəy dayandı. Qaraqanadlı, xəşin bir kabus dırnağından qurtarmış kimi, asudə nəfəs alaraq, yoluna davam etdi.

...1905 inqilabı bizə milli mətbuat, ana dili, qismən milli məktəb bəxş etdi. İnqilab sədası əsrlərdən bəri cəhldə boğulan xalqları maarif və mədəniyyət yoluna sövq etdi. Bu inqilab isə milli müqəddərat şüarı daşımalı; artıq mərkəziyyət idarəsi yox olub üsuli-idarə federasiya şəklinə çönməlidir...

Rüstəmbəy uzun-uzadı mülahizələr yürütdü və keçmişə qarşı nifrətlər yağdırmaqda davam etdi. İndi cəbhə artıq onu maraqlandırmamağa başladı; o, milli sahə arayır, öz xalqına qarışmaq, onun dərd və nəşəsində iştirak etmək istəyirdi.

26

"Zemokok" əməkdaşlarının bir qismi müdirin evində nahar edirdi. Rüstəmbəy də orada yeyirdi. Bu gün yeni xəbərlər eşitdi. Bir neçə gün əvvəl Dumanı ləğv eləyən Nikolay xəl olunmuşdu. Taxtı qardaşı Mixailə tərk etmişdisə də, o da hakimiyyətdən vaz keçmişdi: daha doğrusu, məcbur edilmişdi. Məmləkətin yeganə sahibi Dövlət dumasının icraiyyə komitəsi imiş. Bundan başqa paytaxtda "Soldat vəkilləri şurası" əmələ gəlmiş imiş. Yeməkdə həp bu məsələlər ətrafında danışılır, cürbəcür mülahizələr yürüdülürdü. Rusiyada cümhuriyyət idarəsi olacağına inananlarla bərabər, Rusiyanı monarxsız təsəvvür etməyənlər də vardı.

Nahardan sonra əməkdaşlar dağılmağa başladı. Tatyana yerindən qalxıb Rüstəmbəyin yanına gəldi və laübali bir əda ilə əlini uzadıb, onun başının tükündən dartdı. Rüstəmbəy heyrət edərək qızardısa da, Tatyananın tühaflığını nəzərə alıb, ona darılmadı.

Tatyana gülə-gülə:

– Dostum, gedək! – dedi.

Rüstəmbəy qalxdı, bərabərcə çıxdılar. Küçədə Tatyana onun qoluna girdi.

Hava xoş idi. Əriyən qarın seli şaqqıltı ilə axırdı. İnqilab nəşəsi ilə bərabər, bahar havası da ruhda min bir hiss oyadırdı. Rüstəmbəy ilk dəfə olaraq, hərarətini duyduğu Tatyananı erkəklərə məxsus bir nəzərlə süzdü. Ağ çöhrəsinə qan səpilmişdi; gərdənindən doğub yanaqlarına doğru qol-budaq atan incə mavi damarları lətafət saçırdı; qonur parlaq gözlərində bahar nəşələri oynayır, insanı coşdururdu; zərif köksündən görünən ağ təmiz köynəyinin krujevası titrərkən ehtirası qıdıqlayır, atəşləndirirdi.

Bir də Rüstəmbəydə canlanan ehtirasa qarşı başqa hisslər doğdu; nəfsi-heyvaniyyə yavaş-yavaş geriləyərək, qaib oldu. Rüstəmbəy yenə əvvəlki kimi Tatyana ilə yoldaş qadını deyə pak bir niyyətlə danışmağa başladı.

– Nərəyə getmək niyyətindəsiniz? – deyə sordu.

– Həkimə getməliyəm.

– Xəstəmisiniz?

– Baxın, barmaqlarımın arasına ziyilə bənzər şeylər çıxmışdır. Bunu həkimə göstərməliyəm.

Rüstəmbəy Tatyananın əlini əlinə alıb seyr etdi və bir söz demədi. Xəstəxanaya doğru getdilər.

Yolda nümayişçilərə rast gəldilər. Bir bölük soldat önlərində zabitləri olaraq qızıl bayraqlar və şüarlarla gedirdilər. Hamısının köksündə qırmızı bant vardı. Arabir "Yaşasın hürriyyət!" deyə bağırırdılar.

Bunlara istehza ilə tamaşa edən Tatyana:

– Axmaqlar! – deyə fırlatdı.

Rüstəmbəy heyrətlə:

– Tatyana, sizdən belə hərəkət gözləmirdim, – dedi.

Tatyana gülərək:

– Mujik hürriyyətin mənasını bilirmi, zənn edirsiniz? – deyə sordu, – bunlar qoyun kimidirlər. Yakıb yıxmaqdan başqa bir şeyə qadir deyillər.

– Bu zadəgan zehniyyətidir!

– Nə olur-olsun! Mujikə mən bələdəm, onu gözəlcə bilirəm, 1905-də nələr yapmadı!

– Haqları yoxmu idi?

– Heç də yoxdu! Zadəganlar olmasa, bu kirli və tənbəl mujiklər acından ölər!

– Tatyana, bu fikirlərinizlə məni qane edəməzsiniz. Mujik daima istismar olunmuş və olunmadadır. Buna artıq xitam verməli. İstismar əsrimizə yaraşmır.

– Siz qırmızı imişsiniz ki!.. – deyə Tatyana gülümsədi və Rüstəmbəyin qolunu sıxdı.

27

Xəstəxana polyak zadəganlarından birinin köşkündə yerləşmişdi. İri darvazadan içəri girib, güllük bir xiyabanla saraya doğru irəlilədilər.

Sərvlər arasında dikili mərmər vazlar və heykəllər vardı: vaxtilə buraların dilfirib bir mənzərəsi olduğu görünürdü. Müharibə atəşi buraları da yakmışdı: ağacların çoxusu qurumuş, çiçəklik sönmüş, xiyabanlar pozulmuş, hər yeri alaq basmışdı. Bu pərişan gözəllik Tatyanaya təsir etməmiş olmadı; Rüstəmbəyə oxşanaraq, məst gözləri ilə onu süzdü:

– Bilirsiniz, – dedi, – bu mənzərə məndə həsrət duyğuları oyadır. Mənə belə gəlir ki, bu sarayı bir eşq yaratmışdır. Müharibə bu eşqi söndürmüş, saray da onunla bərabər sönmüşdür. İndi bu sarayda bir eşq həsrəti duyulur.

Tatyana sözlərini xülyapərvər bir hüznlə bitirib, Rüstəmbəyin üzünə tamaşa etdi. Doğrudan da, gözləri həsrət, eşq həsrəti sezirdi.

İki-üç pilləkən çıxıb, geniş terrasdan koridora girdilər. Koridorları dolaşıb, həkimin kabinetini buldular. İçəri girər-girməz Rüstəmbəy içini çəkdi – köhnə dostuna rast gəlmişdi:

– O, Bolislav Vasilyeviç! – deyə əlini uzatdı. – Nə gözəl təsadüf! Son dəfə görüşdüyümüz beş il əvvəldi.

– Elə, elə, dostum! Burada görüşəcəyimizi heç də kəsdirməzdim, – deyə doktor onun əlini sıxdı.

Rüstəmbəy Tatyananı təqdim etdi, həkimin masasının önündə oturdular. Uzun söhbətə vaxt yoxdu. Həkim Rüstəmbəyin gəlməsinin səbəbini sordu, o da Tatyananın əllərini göstərərək məsələni anlatdı. Həkim baxıb gülümsədi:

– Əriniz nərədədir? – deyə sordu və iri bığının bir ucu yuxarı qalxdı.

Tatyana qızararaq:

– Cəbhədə, – dedi.

– Yanınızda olmalıdır... İsteri xəstəliyiniz var.

Tatyana pərt bir halda ayağa qalxdı; çıxdılar. Bütün yolu xanım Rüstəmbəyi sərzənişli sözlərlə yaralamağa çalışdı.

## 28

Səhər ertə Rüstəmbəy pəncərənin önündə durub neçə gündən bəri küçələrdə davam edən soldat nümayişlərinə tamaşa edirdi. Şəhərin bircə küçəsi vardı, bu da çox uzun deyildi. Ona görə əsgərlərin nümayişi bu küçəni gündə neçə dəfə aşağı enib yuxarı qalxmaqdan ibarətdi. Bu əsnada nümayişçilər bir dəfn mərasiminə rast gəldilər; sadə bir tabutun arxasınca bir uniat keşişi, bir neçə də kəndli gedirdi. Soldatlara bu bir vasitə oldu. Dönüb bu tanımadıqları ölünü qəbiristanlığa təşyi etdilər.

Soldatların intizamı pozaraq bütün günü küçələri dolaşmaları Rüstəmbəyə qeyri-təbii göründü. O, məyus kimi pəncərədən geri çəkildi. Xalqa qarşı bəslədiyi iman sarsılmağa başladı, "bəlkə də Tatyana haqlıdır!" – deyə düşündü, uzun-uzadı mülahizələr yürütdü. Xalqın yetişmədiyini etiraf ilə bərabər, çar idarəsini də təsvib edə bilmədi.

Bu əsnada qapı tıqqıldadı. "Gəl!" deyər-deməz qapı açıldı, Zaqorin içəri girdi. Görüşdülər. Rüstəmbəy yer göstərdi, qarşı-qarşıya oturdular. Zaqorin dilgir kimi görünürdü. Danışmağa belə meyli yoxdu. Bunlar bir-birinə o qədər yabançı görünürdü ki; başqa-başqa siyasi məsləkə mənsub olmaları aydın surətdə gözə çarpırdı. Əvvəldə ordu rəhbərləri ilə zemstvo əməkdaşları arasında böyük bir uçurum vardı. İnqilab bu uçurumu bir qat daha dərinləşdirmişdi. Zemstvoçular liberal fikirlər daşıdıqları halda, zabitlər irticapərəst idilər.

Bir neçə dəqiqə davam edən sükutu Rüstəmbəy pozdu:

– Hürriyyət transporta da əks etdimi? – deyə sordu.

Zaqorin istehza ilə:

– Əks etdi də, meyvə də verdi. Təşəkkürlər edirəm!

– Nə olmuş ki?..

– Nə olacaq – bir nömrəli əmri buraxdılar, ordunun bütün intizamını pozdu. İndi hücuma qabilmiyik?

– Nə üçün qabil deyilik?

– Qabil olub-olmadığımızı yalnız əsgər olan bilər. Siz sivil adamlarsınız, siz bunu bilməzsiniz. İtaət olmayan bir orduda hərb qabiliyyəti ola bilərmi? – Təbii, ola bilməz! Bir nömrəli əmr zabitlərlə soldatlar arasında böyük bir ziddiyyət törətdi. Artıq intizam qaydalarını tənqidə qalxışmışlar. Qışlada nəfərlər tapılmaz oldu; hər kəs küçələrdə, nümayiş yapmada... Hürriyyəti anlayıram, ancaq hürriyyət onumu tələb edir?..

Zaqorin gümüş papiros qutusunu çıxarıb bir papiros yandırdı və yanıqla çəkib tüstüsünü burnunun dəliklərindən buraxdı. Hirsindən rəngi qaçmışdı, dişlərini bir-birinə sürtərək, yanaqlarının əzələlərini titrədirdi. Bir neçə dəqiqə bu vəziyyətdə qalıb, sükutu yenə özü pozdu:

– Sonra, – dedi, – İngiltərədə hürriyyət yoxmu? – Orada hürriyyətlə bərabər bir kral da var. Bizdə hürriyyəti çarlığın ləğvində görürlər. Halbuki bizim ölkə çarsız yaşaya bilməz! Mujikə bir qorxu lazımdır; onsuz o, ölkəni xaraba qoyar...

Rüstəmbəy onun sözlərini kəsərək, etiraza qalxışmaq istədi, lakin müvəffəq olmadı. Zaqorin:

– Məni qane edəməzsiniz! – deyə ona danışmaq imkanı vermədi, – biz müharibəni qaib edən kimi, bədbəxt Rusiyanın gələcəyini də təhlükəyə sövq edirik! – deyə qeyzlə ayağa qalxdı.

Rüstəmbəy onu nahara saxlamaq istədi. Zaqorin rədd etdi və gəlməsinin səbəbini belə söyləmədi.

## 29

Zemstvo baş idarəsində iclas çağırılmışdı.

İşçilərdən tutmuş yüksək əməkdaşlara qədər hamı buraya toplanmışdı. Çar zamanı yığıncaqlar yasaqdı. Bunun üçün bu axşamı hürriyyətin feyzlərindən ədd edərək, buradakılar ayrıca bir həzz duyurdu. Hürriyyətin mahiyyətini dərk etməyənləri də oraya maraq cəlb etmişdi. Tatyana da burada idi. Onun gəlməsinin səbəbi sırf əyləncə meylindən irəli gəlirdi. Daima böyük şəhər həyatına alışmış; axşamlarını teatrlarda, ballarda, təntənəli salonlarda keçirən gənc bir xanım üçün cansıxan cəbhədə nüdrətən baş verən bu axşam böyük bir əylən-

cə təşkil edirdi. Məclisin bir tərəfində oturub, ətrafındakılarla şirin söhbətə məşğuldu. Hər kəs deyib-gülüşür, yalnız bir neçə sıra təşkil edən işçilər sükut içindəydi.

Yuxarı başdan bir gənc qalxıb iclasın məqsədini anlatdı və sədr seçilməsini təklif etdi.

Rüstəmbəy əlavə olaraq dedi:

– Bizim üç adamdan ibarət bir mütəşəbbüs heyətimiz var. Heyətin məqsədi Qızıl xaç, şəhərlər ittifaqı və zemstvo ittifaqı kimi ictimai təşkilatları birləşdirməkdir. Səlahiyyətdar bir komitə seçildikdən sonra bizim heyətin vəzifəsi bitmiş olur. Bu gün mərkəzi zemstvo komitəsi seçməlisiniz. Başqa ictimai təşkilatlar da komitə seçəcək, sonra bu komitələrin də mərkəzi bir komitəsi olacaq.

Rüstəmbəy sözlərini qurtarar-qurtarmaz yenə əvvəlki gənc yerindən qalxdı:

– Yoldaşlar, – dedi, – sədrliyə namizədlər göstərin. Məclis bir səslə Rüstəmbəyi göstərdi.

Rüstəmbəy gurultulu alqışlar arasında sədarət kürsüsünə çıxdı. Həyəcanlı olduğu simasından bəlli idi; sanki məclis də bunu duydu – sükuta daldı.

Rüstəmbəy məclisi açıb, böyük bir siyasi nitq söylədi. Çar idarəsinin bütün zülmlərindən, zorbazlıqlarından bəhs edib, istibdadın canlı bir lövhəsini cızaraq məclisdəkilərə təqdim etdi. Milli məsələ sahəsində yürüdülən xətti-hərəkəti göstərib yəhudi, Ukrayna, türk-tatar və başqa xalqların vəziyyətlərini təsvir edərək, dəfələrlə alqışlandı. Nəhayət, qüvvətli bir düşmən qarşısında bulunulduğunu xatırladaraq, nizam və intizama riayət olunmasını tövsiyə etdi.

Çıxışlar başlandı. Çar üsuli-idarəsini zəmmedici nitqlər söyləndi. Danışmaq həvəsinin hər kəsi qapladığı meydana çıxdı. Komitə seçkisi ancaq gecə saat ikidə bitə bildi.

## 30

Vanya başını bulayaraq, təliqəni Rüstəmbəyə uzatdı:

– Bu qərarı biz özümüz çıxarmalı idik, – dedi.

Rüstəmbəy bir şey anlamayaraq:

– Nə olmuş ki?

– Soldat vəkilləri şurası üçüncü bölük müdirinin iyirmi dörd saat ərzində qovulmasını tələb edir.

Rüstəmbəy hövləki:

– Melkovodovunmu? – deyə sordu.

– Bəli!

Rüstəmbəyin rəngi üzündən götürüldü, təliqəni alıb maraqla oxudu, sonra əlində fırlayaraq:

– İşçilərlə qaba rəftar edirmiş – təbii deyilmi? Melkovodov feldfebel olmuş, bunun üçün işçi ya soldat adam sayılmır. Dikər tərəfdən, işçi ilə xoş rəftar edən kimdir ki? Zemstvoda Sibirdən dönmüş siyasilər var. Bunların da rəftarı feldfebellərinkindən yaxşı deyildir. Bunda da heyrət yeri yoxdur – sosialistlər demişkən "Şüuru varlıq müəyyən edər" – hərb əsnasında insani rəftar yada düşməz; bizdən iş tələb edirlər; işin nə vasitə ilə görülməsi aranılmır...

Rüstəmbəy hirsindən təliqəni kənara atıb düşüncəyə daldı. Masanın önündə ayaq üstdə qalan Vanya:

– Şuranın tələbini yerinə yetirmək icab edəcək.

– Nə etməli! Ancaq yerinə qoymağa adam yoxdur. Kimi qoymalı? Bölüyün malı tələf olsa bizi məsul tutacaqlar.

Rüstəmbəy müavini ilə bərabər məsələni ətraflı müzakirə edib, bölük köməkçilərindən birinin göndərilməsini qərara aldılar.

– Vanya, mən də getməli olacağam. Voronova bir at verdir, birinci bölükdən köməkçi Kasparyanı çağırsın. Əmr yaz, aparsın: səhər saat 7-də burada olmalıdır... Bir yerdə gedək, bölüyü təhvil alsın.

Vanya təsvibedici bir halla dönüb qələm otağına getdikdə qapının arasında dördüncü bölük müdiri Aslanbəyə rast gəldi. Görüşdülər. Vanya bir az içəriyə çəkilərək bölüyü xəbər aldı.

Aslanbəy bığlarının uclarını şişləyərək:

– İşlər xarabdır; işçilər qələyan içindədir. İşə çıxan yoxdur. Sabahdan-axşama qədər mitinqdədirlər.

Vanya qəhqəhə çəkərək içindən güldü:

– Deməli, sənin də işin yaşdır! – deyib otağı tərk etdi.

Aslanbəy maraqlı şeylər anlatdı. Cürbəcür "şübhəli" adamlar cəbhə boyunu dolaşıb, əsgəri və ictimai təşkilatları dağıtmada imiş. İşçi işə getmir; əsgər zabitləri saymır; "müharibə yetər!" – deyə qərarlar çıxarılır, min bir tələblər verilir...

Aslanbəy uzun-uzadı anladıb:

– Bu işlərin sonu fəna görünür, – dedi və, – məni xilas edin, vətənim Dağıstana getmək istəyirəm, – deyə əlavə etdi.

Rüstəmbəy daha da dilgir oldu. Cavab verməyə söz belə bulamadı.

Melkovodov bölüklər arasında “Rasputin” ləqəbi ilə məşhur olmuşdu. Zatən qiyafə etibarilə də “staretsi” andırırdı: dağınıq saqqal, ehtiraskar təbəssümlü, qılıqlı, dilli bir adamdı; hiylələrinin hüdudu görünmürdü. Yanına köməkçi qəbul etməz, göndərilənləri də intriqalarla qaçırdardı.

Yalnız başına yaşayaraq, sirlərinə kimsəni vaqif etməzdi.

Rüstəmbəylə Kasparyan gəldikdə Melkovodov heyrət etdisə də, duyğusunu aşkar etmədi; amirini böyük bir nəzakətlə otağına qəbul etdi. Qonşu otaqda ona qədər qadın vardı. Bunlar çörək bişirməyə və başqa işlərə məşğuldular. Melkovodov kəndin bütün xoşsima qadınlarını buraya toplamışdı.

– Haman, yemək tədarükünə düşüldü. Qocanın arağı da varmış. Lakin Rüstəmbəy içmək istəmədi: o, rəsmi bir vəziyyət almışdı.

Yeməkdən əvvəl işçilərin yataq yerlərinə, anbara və tövləyə baxdılar. Melkovodovun nizam və intizamı fəna deyildi. Atları gözəl saxlanılırdı, anbarında ayaqqabı, kürk, çuval-çuval arpa və qənd, bir boçka yağ və başqa şeylər vardı.

Anbardan sonra Rüstəmbəyin işçiləri bişmiş tiyanına yanaşdı; xörəyi daddı, məmnun qalmadı – ağıza alınası deyildi. Buradakı işçilər şikayətə başladı. Hər tərəfdən narazılıq səsləri eşidildi.

Rüstəmbəyin gəlməsini eşidən işçilər tiyanın ətrafına toplandılar. Etiraz səsləri getdikcə yüksəlməyə başladı. İşçiləri təskin etmək üçün Rüstəmbəyin nitq söyləməsi lazım gəldi.

Yarım saat sonra Kasparyan bölüyü təhvil aldı. Anbardakı ayaqqabılar, camaşır və paltarlar ehtiyacı olanlara paylandı. Rüstəmbəy yeməyin yaxşılaşmasına dair ayrıca əmr verdi.

Nəticədə Melkovodov hirsinə malik olmayacaq bir hala gəldi:

– Bizdə yaxşı işçiyə qiymət vermirlər, mən bu qədər çalışdım da, axırda qərib bir mükafata nail oldum! – deyə şikayətləndi.

Axşamçağı Rüstəmbəy yola hazırlandı. Melkovodov getməməzlik etdi:

– Burada bəzi işlərim var, qurtarım, sonra gedərəm,- dedi, Rüstəmbəy razı olmadı. Soldat vəkilləri şurasının əmrini göstərdi və bərabərcə getməsini israr etdi. Nəhayət, qoca istər-istəməz bölüyü tərk etdi.

Get-gedə ordu pozulur, itaət itirdi; zabitlərlə soldatlar arasında mövcud olan düşmənçilik kəskin bir şəkil alırdı; böyük vədlərlə cəbhəyə sövq edilən işçilər ümum pozğunluqdan istifadə edərək, qaçıb dağılırdı. Sərxoşluq ümumi bir xəstəlik olmuşdu. Təşkilat və müəssisələrin apteklərindən spirt oğurlanıb içilirdi; oğurluğun önünü almaq mümkün deyildi; intendant və ictimai təşkilatlar anbarlarının malları bazarlarda satılmada idi; saxta sənədlər düzəltmək, pul götürüb qaçmaq, ya "itirmək" adi işlərdəndi.

İclasların sayı günü-gündən artırdı; hər kəs danışmaq istəyirdi, hamı da qəzetlərdə yazılan və mitinqlərdə dəfələrlə söylənən sözləri təkrar edirdi. Meydana "Vətən təhlükədədir!" – deyə şüarlar atılır, heç kəs də vətən müdafiəsi üçün çalışmırdı. "İşçilər işə!", "Əsgərlər sipərə!" cümlələri cəbhədə başdan-başa dolaşır, kimsə də əməl etmirdi. Mitinqlərdə heyət seçib paytaxta göndərmək bir moda təşkil edirdi. Çıxarılan qərarlar bir yerə toplansa idi, böyük dağlar vücuda gələrdi...

Bunların hamısı kino şəridi kimi hər saat, hər dəqiqə Rüstəmbəyin gözlərinin önündən keçir, nədənsə onda ikrah duyğuları doğururdu. Vaxtilə böyük Fransa inqilab tarixini sevə-sevə oxuyan Rüstəmbəy indi inqilabdan yavaş-yavaş soyumağa başlayırdı. Ətrafındakıların vəzifələrinə sadiq olmaması, səhlənkarlıqları, boşboğazlıqları Rüstəmbəyi mənən incidirdi. Açıq danışa bilmir, danışsaydı da bir nəticə verməyəcəyini bilirdi. Susduqca da hirsi içəridə toplanaraq sinirlərini gəmirirdi.

Nəticədə onda bir laqeydlik, naümidlik əmələ gəlmişdi. O özünü yalnız hiss etməyə başlamışdı. Onda evlənmək fikri doğub zəruri bir şəkil almışdı. O, saatlarca düşüncədən ayrılmır, həp yalnızlıqdan qurtarmaq yolları arayırdı. "Bir qız olsa da, eşqi ilə məni bir çıxılmaz yoldan qurtarsa... insana dəruni mətanəti yalnız şəxsi səadət verə bilər!.. İnsanı için-için yeyən sirlər yalnız həyat yoldaşına söylənilər... Fərdi şadlıq və dərdə də o şərik ola bilər... Zatən, evlənmənin də vaxtıdır. Yuva həsrəti təbiidir, vaxtı keçdikcə də əzab artır... Əməl, əməl etməli!.. Ancaq qız yoxdur! Oxumuş, elmli türk qızı yoxdur? Olanlar da çarşab altında..."

Rüstəmbəy uzun-uzadı düşündü, istədiyinin çarəsini bulamadı. Odlandı, qadınları çadra zindanına atan islamiyyətə qarşı küfrlər yağ-

dırdı; şapkasını başına keçirib küçəyə çıxdı. Hava gözəl idi. Nahardan sonra xalq gəzməyə çıxmışdı. Rüstəmbəy nərəyə gedəcəyini əvvəlcə kəsdirəmədi. Məqsədsiz bir vəziyyətdə küçə aşağı endi. Bir də Tatyananı xatırladı. Onda danışmaq, dərdləşmək arzusu canlandı. Qəti addımlarla yürüməyə başladı. Kədərləri unudulan kimi oldu.

Qadın yurdunun qapısı bağlı idi. Tıqqıldatdı. Gələn olmadı. Bir az gözləyib yenidən döydü. İçəridən şıqqıltı eşidildi. Döşəmənin üzərinə düşən sandalyanın səsi gəldi. Tələsik tappıltılar duyuldu. Bir-iki dəqiqədən sonra qapı açıldı... Rüstəmbəylə Vanya üz-üzə gəldilər. Vanya pörtmüşdü; saçları dağınıqdı; ürəyinin çarpıntısı belə duyulurdu. İkisinin də ağzından "salam" sözü eyni vaxtda fırladı. Nahardan sonra ayrıldıqlarına baxmayaraq, qarıxıb əl-ələ tutuşdular.

– O, Vanya! – dedikdə Rüstəmbəyin səsi titrədi. Vanya özünü itirmiş bir halda Rüstəmbəyi içəri dəvət etdi. Girdi. Tatyana onu özünə məxsus laübali təbəssümlə qarşıladı. Yanaqları yanırdı, gərdənində və buxağında qırmızı ləkələr vardı. Suçlu bir halda Rüstəmbəylə görüşdü və ona yer göstərdi. Rüstəmbəyin nəzərini ilk cəlb edən yataq oldu: yorğan və yastıq ala-tələsik düzəlmişdi.

Rüstəmbəy yatağın beş dəqiqə əvvəlki halını xəyalına gətirib əzablı düşüncələrə daldı. Ruhi-övzai bir qat daha pozuldu. Ətrafındakılar da sanki bunun tühaf vəziyyətini duyaraq, bir söz belə deməyə cəsarət etmədilər.

Ortalığı qaplayan sükut bir neçə dəqiqə davam etdi. Nəhayət, Rüstəmbəy yaralı bir təbəssümlə qoluna bağlı saata baxıb:

– Getmək lazımdır! – dedi və haman ayağa qalxdı. Tatyana onu təşyi edərək:

– Yəqin, qadın yurdu bu gün xoşunuza getmədi: buraların pakizə adətləri pozulur! – deyə qəhqəhə ilə güldü.

Rüstəmbəy gülümsədi, lakin bir şey söyləmədi.

## 33

Küçəyə çıxdıqda bahar havası onun atəş saçan üzünə sərinlər səpdi. Aramla addım ataraq yürüməyə başladı. Rüstəmbəy Tatyananı Vanyaya qısqandımı? – bilmirdi. Lakin onda bir neçə vaxtdan bəri doğan bədbin hisslər daha da dərinləşirdi. Aləm ona başqa bir şəkildə görünməyə başladı – vəfa, sədaqət, əhd-peyman kimi mənalar gülünc

göründü... Onda tühaf ikilik baş verdi. İki fikir, iki mülahizə, iki mühakimə bir-birilə çarpışmağa başladı... "Həyatda heç bir mənəvi amil yoxdur. Əsrlərin mədəniyyəti ibtidai cismaniyyətə bir hərf belə artırmamışdır. Ehtiras bütün çılpaqlığı ilə yaşayır və yaşayacaq... İnsan təbiətin quludur; libasına baxmayaraq, təbiət kimi çılpaq və vəhşidir... İnsan vəhşiliyini daima etiraf etmiş və buna qarşı din və dövlət kimi zəncirlər icad etmiş. Lakin insan vəhşətinə qarşı bunlar da acizdir!.."

Bir də yolla gedən motosiklet Rüstəmbəyi düşüncədən ayırdı, gözləri küçələrdə qaynaşan adamlara sataşdı. Hər kəs şəndi; qadın və kişilər şux bir əda ilə qonuşur, gülüşürdü; həyat hər addımda duyulur; kimsədə bədbin fəlsəfə izi görülmürdü. Rüstəmbəy keçirdiyi böhrandan darğın olan kimi oldu. "Hər kəs yaşayır"! – deyə öz-özünü məzəmmət etməyə başladı. Bir də gözləri yol kənarındakı yarı quru yarı təzə yarpaq açmış bir ağaca sataşdı. Budağın birində qarğa durub çöplərdən yuva tikirdi. Qarğanın səyi Rüstəmbəydə tühaf hüznlər doğurdu. "Mən bir qarğadan da acizəm!" dedi və yalnızlıq kədəri onu yenidən qapladı, "Yuva, yuva!" – deyə evə doğru qoşdu.

Ağır düşüncələr içində otağına girib masanın üzərində bir məktub buldu. Açdı. Sətirləri bir-bir gözdən keçirdikdə birdən içini çəkdi. Bu gün sabah ertə Zaqorinin özünü öldürdüyünü Boris xəbər verib, Rüstəmbəyi dəfnə dəvət edirdi.

Rüstəmbəy məktubu masanın üzərinə atdı və sonra bir az duruxub sandalyaya çökdü. Bu gün duyduğu cürbəcür təsirlər nəticəsi olaraq, əsrarəngiz bir yoxluğa daldı.

## 34

Saat on birdə rənglənmiş bir qutuda Zaqorinin meyitini evdən çıxardılar. Əynində qara çərkəz libası, üzərində yabanı çiçəklər vardı. Tabuta Rüstəmbəy, Boris, baytar, bir də yanındakı nəfər yapışmışdı. Öndə gedən Zina ilə Jenya hönkürtü ilə ağlayırdılar. Arxa tərəfdən də tabutu bir neçə transport mehtəri təşyi edirdi.

Şose yola çıxıb qarşıdakı döşə dikləndilər. İki kazak tərəfindən qazılmış qəbir hazırlandı. Tabutu qəbrin kənarına qoyub, hər kəs alnının tərini silməyə başladı. Rüstəmbəy son dəfə olaraq vida nəzəri ilə Zaqorini süzdü. Simasında tühaf bir hüzn vardı. Keçirdiyi son böhran-

lar üzünə təsir edib donmuşdu. Nədənsə bu sönmüş çöhrənin ifadəsi Rüstəmbəyə yabançı gəlmədi. Əvvəllər Zaqorinlə arasında olan məslək ayrılığı birdən silinib getdi. İndi Zaqorin onun gözündə bir qəhrəman, hərəkəti təqdir ediləcək bir bahadır kimi görünürdü. Yaş damlaları kirpikləri arasında titrədi.

Rüstəmbəy eyni qənaətlə də nitqə başladı. O bir-birinə zidd iki aləm təsvir etdi. Birinin inqraza doğru sürüklənərək, ayrı-ayrı fərdləri də qədər macəralarına tərk etdiyini qeyd etdi. "Tarixdə yalnız nadir şəxsiyyətlər qədərə boyun əyməzlər" – dedi. "Biləks, özləri qədərin gedişini təyin edərlər. Zaqorin qədərə yol göstərmək qüvvəsinə qadir deyildisə də, qədər oyuncağı da olmaq istəmədi, o, mənsub olduğu cəmiyyətin şərəfini müdafiə edərək, əcəl kasəsini iftixarla boşaltdı".

Rüstəmbəyin nitqinin sonu mütəəssir şəkil aldı: "Bu tənha təpədə səni yalnız qərib olaraq tərk edir, kədərli yaşlarla qəbrini suvarırıq. Qoy üzərində bitən çiçəklər yorğun yolçulara ələmlərini bildirsin!".

Rüstəmbəyin son sözləri Jenyanı daha da kövrəltdi: seyhə çəkib, qəbrin yanına sərildi.

Jenyanı qaldırıb qəbirdən uzaqlaşdırdılar. Tabutu qəbrə sallayıb torpaqla örtdülər. Baş tərəfində taxta bir xaç tikib, geri döndülər. Kimsə danışmırdı. Rüstəmbəylə yan-yana gedən Boris:

– Səbəbi tühafdır! – deyə pıçıldadı, buraxıb getdiyi məktub daha qəribədir: "Başlı-başını saxlasın – vəhşi mujik zənciri qırdı!" – bu qədər! Mərhumun son ifadəsi bu olmuşdur...

– Özünü saat neçədə öldürmüşdür?

– Səhər saat səkkizdə. Çay içmiş, sonra nəfəri baş mehtərin dalınca göndərmişdir.

– Bəs Jenya ilə əri harada imiş?

– Evdə yatmış imişlər. Jenya tappıltı eşitmiş, əhəmiyyət verməmişdir. Sonra gəlib qan içində görmüşlər...

– Tühaf bir aqibət! – deyə Rüstəmbəy köksünü ötürdü.

## 35

Çingiz Qafqazdan Rüstəmbəyə bir bağlı qəzet göndərmişdi. Burada türkcə "Yeni iqbal", "Açıq söz", "Sovqat", iki ildən bəri toxdayıb yenidən nəşrə başlayan "Molla Nəsrəddin" və rusca "Kaspi" qəzeti vardı. Çoxdan bəri vətən mətbuatından məhrum olan Rüstəmbəy Çin-

gizin töhfəsindən son dərəcə məmnun oldu. Axşam yatağına uzanıb şamın işığında bu qəzet və məcmuələri başdan-başa diqqətlə oxudu, nəticədə Qafqaz türklərinin mədəni və siyasi səviyyələrini aydın surətdə təsəvvür edərək, qeyri-məmnun bir hala gəldi. "Kaspi" qəzetinin "Из жизни и прессы мусульман" sərlövhəli sütunlarında arnaut, ərəb, kürd, çin müsəlmanlarından bəhs açması onun sinirlərinə belə toxundu. Başqa-başqa ictimai, iqtisadi və siyasi şəraitdə yaşayan, ayrı-ayrı dillərdə danışan bir çox xalqların ittihadi-islam məfkurəsi ətrafına toplanılması Rüstəmbəyə olduqca süni göründü. Türkcə mətbuat da onu qane etmədi: bunlarda qəti bir yol, siyasi bir istiqamət yoxdu. Əksəri yıpranmış mövzularla məşğuldu. Ümum mətbuatın möndərəcəsi vaqe olan böyük hadisələrə uymurdu. Başlıca bəhs maarif və mədəniyyətə aid idi.

"Cəmiyyəti-xeyriyyə", "Nicat", "Səfa", "Nəşri-maarif" kimi Bakı cəmiyyətləri də həp eyni dairədə fəaliyyət göstərirdi. Fikirləri məşğul edən ən böyük hadisə yüz minlərcə müsəlmanın müharibədən zərər görməsi idi. Qars və Ərdəhan cəhətlərin "üsyan" edən müsəlmanları çar ordusu tərəfindən "təskin" edilərək, yüzlərcə kəndlər xaraba qoyulmuşdu; Ərzurum, Trabzon və istila olunmuş başqa Türkiyə torpaqları qırğınlar keçirib pərişan halda idi. Dul qadınlardan və yetim çocuqlardan ibarət qaçqın dalğası Gəncəyə qədər gəlmişdi. Bakı "Cəmiyyəti-xeyriyyəsi" bütün dalğın yerlərdə şöbələr açıb, zərər görən müsəlman əhalisinə yardımda bulunurdu. Türk gəncliyi var qüvvəsini bu sahədə sərf etmədə idi. Rüstəmbəy bu cür fəaliyyəti təsvib və ümumi mənada anlaşılan siyasətə yer qalmamasına təəssüf edirdi.

"Gəncədə ilk dəfə olaraq, mövludi-nəbi olmuş" – bu da işmi? Bu, müvəffəqiyyət deyə qəzet sütununda xəbər verilirmi? İnqilab gurultuları ilə bu tutarmı?"..

Rüstəmbəyin düşüncələrini Vanyanın gəlməsi pozdu: taqqıltı ilə qapını açıb girdi. Adi təbəssümü ilə Rüstəmbəyi süzərək şapkasını çıxardı:

– Saat 12-dir, hələ yatmamısınız?

– Tezdir!.. Sən harada idin?

– İclasda idim.

– Nə iclas?

– Nə bilim – soldatlara kitabxana və qiraətxana açırıq; xalqı maarifə sürükləmək istəyirik, – deyə güldü.

– Sürükləyin!.. Daha nə xəbər var?

– Bir qol ordunu cəbhəyə sövq etmək istəmişlər də, getməmiş.

– Necə getməmiş?

– Mitinq qurmuşlar, getməməyə dair qərar çıxarmışlar.

– Deməli, ordu yıxılır.

– Nə fərqi var? Bu saat ümumi tələb kontribusyon və anneksionsuz sülhdür. Boş yerə vuruşmadan nə çıxar?

Rüstəmbəy bir şey söyləmədi. Yenidən qəzetlərə daldı, Rusiyadakı iqtisadi böhranlara dair verilən xəbərlərə göz gəzdirdi. Un, şəkər, sabun, ayaqqabı yoxluğu ehtikara böyük meydan vermişdi. Get-gedə ölkə yoxsulluq uçurumuna doğru sürüklənir və müvəqqəti hökumət də önünü almaqdan acizdi.

Vanya Nataşanı çağırıb yemək istədi. Nataşa gözlərini ova-ova gəldi: yuxudan ayıldığı bəlli idi. Dolğun köksünü Vanyanın qarşısında nümayiş etdirərək, cazibəli bir əda ilə:

– Bir az toxtayın, qızsın! – dedi və eyni əda ilə çönüb, yancaqlarını titrədərək otaqdan çıxdı.

Vanya ehtiraslı bir nəzərlə onu təqib etdi və bir-iki dəfə yerində qurcuxdu; rəngi qaçmışdı, burnunun tənələri yellənirdi.

Rüstəmbəy qəzetin o biri üzünü çevirdi: Qafqazda Zemstvo təşkilatı qurmaq üçün Tiflisdə olan ilk müşavirə xəbərləri gözlərinə çarpdı. Zərurətdə qalan çar hökumətinin bir hiyləsi deyə əhəmiyyət vermədi. “Toydan sonra nağara” – deyə qəzeti kənara atdı. “Çar düşdü, Zemstvo da öldü. İndi millətlərin müqəddəratı məsələsi meydana çıxır”, – dedi və sevincək bir sima ilə soyunub yatağına girdi.

## 36

Nataşa əlində qab içəri girdi. Onunla bərabər odekolon qoxusu da otağı doldurdu. Vanyaya yemək verib divara söykəndi. Özünə olduqca süs vermişdi: yuyunub, üzünü pudralamışdı; saçları səliqə ilə daranmışdı.

Vanya şəhvətəngiz bir nəzərlə onu süzərək, yeməyə başladı. Rüstəmbəyin yuxusuna mane olmamaq üçün danışmaqdan çəkindi.

Rüstəmbəy gözlərini yummuşdusa da oyaqdı. Oxuduğu qəzetlərin təsirinə düşərək, həp vətəni ətrafında düşünüb gələcəyini təyin etməyə çalışırdı. İnqilabın törətdiyi hərc-mərclikdən bəzən məyus olurdu-

sa da ümidini kəsmirdi. “Ta pərişan nə şəvəd kar bəsaman nərəsəd”* – deyə bu anarxiyadan böyük bir şey doğacağına inanırdı. Düşüncəsinin birinci sırasını təşkil edən öz vətəni və öz milləti idi: Rüstəmbəy islamiyyət məfkurəsi ilə əlaqədar deyildisə, Turan idealı daşıyanlardandı. O, “Tərcüman” qəzeti məktəbinə mənsub olaraq, “dildə, işdə, fikirdə birlik” tərəfdarı idi. Odur ki, milli müqəddərat deyə düşündükdə Azərbaycanla bərabər Türküstan, Edil Boyu və Krımı da nəzərdə tuturdu...

Nataşa vəziyyətini dəyişmədən gözləyirdi. Vanya yeməyini qurtarıb, həsrətli təbəssümlə Nataşanın üzünə baxdı, nəzərləri bir-birini qıdıqladı. Nataşa vücudunu Vanyaya sürtərək qabları yığışdırıb getdi. Vanya gərnəşib yerindən qalxdı. Sonra titrək əllərilə frençinin düymələrini aça-aça şamı söndürüb, qaranlıqda soyundu.

Rüstəmbəy uyumamışdı, düşüncə və mülahizələrində davam edirdi. Onu Vanya uyumuş zənn etdi və oyatmamaq üçün ehmalca yatağına uzandı.

Rüstəmbəy həqiqi aləmdən ayrılıb xəyala dalmağa başlamışdı. Türk-tatar aləmini hürr, müstəqil, müntəzəm və mütərəqqi bir dövlət şəklində təsəvvür edirdi. Bu işdə özünün də böyük rolu vardı. O, ədəbi bir dil yaradır, bir çox islahat yapır, əlifbanı dəyişir, dini dövlətdən ayırır. Avropaya minlərcə tələbə göndərir... Turan dövləti-müəzzəməsi müntəzəm dəmiryollara, qüvvətli donanmaya, nizamlı orduya malikdir. Elm, ədəbiyyat və sənət tərəqqinin ən yüksək dərəcələrinə sığmışdır. Gənclərin təbii vergiləri aranır, o yolda təhsil verilir. Vergi və fövqəladə zəkaya malik olanların həyatı dövlət tərəfindən təmin olunur; ixtisasları sayəsində qeydsizcəsinə çalışırlar.Rüstəmbəy şəxsi səadətini də unutmur: gözəl, tərbiyəli bir türk qızı ilə evlənib, bir çox çocuq atası olur...

Vanya yatağından yavaşca qalxdı. Rüstəmbəyə bir az qulaq verib, çarpayıdan endi. Qapını ehmalca açıb, Nataşanın yanına keçdi. Çox çəkmədi, Nataşanın taxtının cırıltısı Rüstəmbəyin beynini xəyal dumanından təmizlədi. Yavaşca qalxdı, qısqanc gözlərini qaranlıqda zilləyərək, iztirabla dinləməyə başladı. Nataşanın işvəkar iniltisi qanını coşdurdu...

---

* Dağılmasa düzəlməz

Vanyanın geri dönməsi sanki illər çəkdi – əzabdan boğuldu. Nəhayət, Vanya yavaş addımlarla gəldi, yatağına uzanar-uzanmaz xoruldamağa başladı.

Rüstəmbəyin isə xəyalı həqiqətə, həqiqəti də əzaba qarışaraq yuxusunu pozdu.

## 37

Lenin Süyüsdən Almaniya təriqilə dönüb Petroqrada gəlmiş və Kseşinskinin sarayını iqamətgah etmişdi. Vaxtilə xarici ölkələrə fərar edən və Sibirə sürgün olan bolşeviklər də Leninin ətrafına toplanmada idilər. Petroqrad müşavirəsində Lenin mühüm bir çıxışda bulunmuşdu – bütün firqələrin proqramlarını tənqid edib, əməkçiləri bolşevik təşkilatı ətrafına dəvət etmişdi. Leninin nitqi bütün Rusiyaya inikas edib, böyük mübahisələrə meydan vermişdi. Hər yerdə "qansız" inqilabın bitməsi, daha doğrusu, həqiqi inqilabın hələ başlanmaması qənaəti zehinlərə yerləşmədə idi. Leninin sözləri yeni peyğəmbər kəlamı kimi ağızlarda dolaşırdı; bolşeviklərin naşiri-əfkarı olan "Pravda" qəzeti əl-əl gəzir və müəyyən dairələrdə böyük təsir buraxırdı.

İnqilabın ilk günlərində bütün Rusiya iki yerə ayrılmışdı: biri hürriyyətə tərəfdar, o biri isə tamamilə ona zidd idi. İndi isə vəziyyət dəyişilmişdi; hürriyyətçilər belə cürbəcür təmayüllər göstərirdilər, sinif bəhsi yeni zehniyyətlər doğururdu. Artıq proletariat Rusiyanın hər tərəfindən baş qaldıraraq Leninə "ləbbeyk" deməyə başlamışdı.

Leninin atdığı toxumlar hər yerdən artır, cəbhədə zəmin bulurdu. Bu da təbii idi; müvəqqəti hökumət "Zəfərə çatıncaya qədər müharibənin davamı!" şüarı ilə meydana çıxdığı halda, Lenin təxirsiz sülh tələb edirdi, odur ki, milyonlarca əli tüfəngli kəndlilər də cəbhədən Leninə "ləbbeyk!"* deyirdi.

Çar Rusiyasında yüz milyondan artıq, başqa-başqa dillərdə danışan xalqlar velikoruslar tərəfindən təhkim olunub istismar edilirdi. Əzilən xalqlar hürriyyəti tam mənası ilə anlayaraq milli müqəddəratın həllini gözləyirdilər. Lakin müvəqqəti hökumətin xətti-hərəkəti və məmləkəti mərkəziyyət üsulu ilə idarə etməsi məhkum xalqları ümidsizliyə sövq edirdi. Milli məsələdə hazırkı hökumətlə çar hökuməti

---

* Bəli

arasında xətti-hərəkət etibarilə heç bir fərq görünmürdü. Lenin bu sahədə də yeni vədlər verirdi. Rusiyaya zor ilə ittifaq olanların ayrılmasını və başqalarının da geniş məhəlli muxtariyyət qazanacağını elan edirdi. Velikoruslardan başqa Rusiyada yaşayan bütün xalqlar Leninə "ləbbeyk!" deyirdi.

Rüstəmbəyin də Lvov, Milyukov, Quçkov hökumətindən get-gedə soyuyaraq, Leninə yavıqlaşmasının başlıca səbəbi milli məsələdən irəli gəlirdi. Rüstəmbəy qırx milyonluq türk-tatar xalqlarının məhkumiyyətdən qurtarmasını şiddətlə istəyirdi; inqilaba da həmişə bu nöqteyi-nəzərdən baxaraq, onun doğru yolda olub-olmamasını kəsdirə bilirdi. Rüstəmbəydə sinfi görüş yoxdu. Daha doğrusu, qeyri-şüuri bir halda ifadə olunurdu. O, milləti bir dildə danışan, bir ənənəsi olan, bir torpaqda yaşayan və bir ideal daşıyan yeknəsəq bir kütlə kimi təsəvvür edir və onun hürr yaşamağının tərəfdarı idi. O, bir kök daşıyan dillərdəki ayrılıqları şivə və provinsializm tərəqqi edərək, vahid ədəbi dilin şivələrə qələbə çalacağına qane idi.

Bu mülahizələrə istinadən türk-tatar aləminin bir yerə toplanıb bir dövlət təşkil etməsində heç bir maneə görmürdü. Rüstəmbəy Leninin milli nəzəriyyəsini də öz zehniyyətinə uyduraraq qəbul etmişdi.

Bundan başqa, Leninin imperialistlərə qarşı hərəkət etməsi də Rüstəmbəyin rəğbətini qazanmışdı: Milyukov İstanbulun ilhaqını istədiyi halda, Lenin ona tamamilə əleyhdardı. Lenin bütun Şərq xalqlarının ana torpağında müstəqil olaraq yaşamalarını tələb edirdi.

## 38

Rüstəmbəy iki ildən bəri məzuniyyətə getməmişdi – cəbhə həyatı onu son dərəcə yormuşdu. Onda axır vaxtlar baş verən tənhalıq duyğusu və məyusiyyət də qismən yorğunluğundan irəli gəlirdi. Bəzən tənhalıq hissi onu boğub çıxılmaz bir yola sövq edirdi.

Bu sabah yuxudan ağır bir duyğu sıxıntısı ilə qalxmışdı. Hər kəsə və hər şeyə qarşı səbəbsiz bir hiddət bəsləyirdi. Çay içərkən Vanya ona müttəfiqlərə verilən nota haqqında söyləyərək:

– Sosialistlər haqlı olaraq Milyukovla Quçkovun istefasını tələb edirlər. Bunlar tamamilə çar nazirlərinin proqramını yürüdürlər, – dedi.

Rüstəmbəy cavab olaraq əlini çırpdı:

– Əh, ürəkaçan bir şey yoxdur; hər şey fəna, hər yer qaranlıqdır. Gələcək belə işıq izi göstərmir.

Rüstəmbəy sözlərini elə bir sima ilə söylədi ki, Vanya söhbətin davamına cəsarət etmədi.

Çay sükutla keçdi və qurtarar-qurtarmaz Rüstəmbəy şapkasını alıb evdən çıxdı.

Rüstəmbəy evi tərk etməkdə müəyyən bir məqsəd təqib etmirdi – dəruni sıxıntısını susdurmaq üçün onu bıqdıran mühitdən uzaqlaşmaq istəyirdi.

Kəndə gedən yola çıxdı. Bir çox kişi və qadın şəhərə gəlirdi. Bunların bəzisinin burunlarını yara yemişdi, fəci bir mənzərə təşkil edirdilər. Müharibənin nəticəsi olan bu xəstəliyi Rüstəmbəy çox kəndlərdə müşahidə etmişdi, bu dəfə də laqeyd bir şahid sifəti ilə onları süzərək keçdi və şəhərə nazir bir təpədə dayandı. Yamacda salınan bu şəhərin ortasından axan çay burularaq, meşə ətəyində parlaq bir ayna təşkil etmişdi; təzə yarpaqlı ağaclar çayın durğun sinəsinə əyilib, gözəlliyə məftun olan kimi görünürdü; hava təmiz və sərindi – may günəşi hələ şiddətinə malik deyildi; meşə üfüqə doğru irəlilədikcə mavi sislərə dalırdı...

Rüstəmbəy bu dilfirib mənzərəni seyr edərkən, bir də arxadan qoluna bir əl yapışdığını duyub çöndü.

– O, Svyatoslav İvanoviç, – dedi, görüşdülər. Təqribən qırx yaşlarında olan qızartdaq saqqallı bu adam zabit paltarında idi. Frençinin sağ döşündə mavi xaçlı darülfünun nişanı vardı. Svyatoslav İvanoviç məruf bir senatorun oğlu olaraq zadəgana mənsubdu. Atasının sayəsində ön cəbhədə deyil, arxa tərəfdə xidmətə cəlb olunmuşdu. Bu da atası kimi olduqca mühafizəkar və inqilabın şiddətli əleyhdarı idi.

– Necə varsınız? – deyə Rüstəmbəy onun halını soruşdu.

– Fəna. Çox fəna! – dedi. – Artıq izahata ehtiyac varmı?

Rüstəmbəy gülümsəyərək:

– İnqilab!.. – dedi. – Yenilik ağrı ilə doğulur.

– Hansı yenilik? Bu uyğunsuzluqlar yenilikmi? Qaragüruhun tüğyan etməsi, əsrlərdən bəri qurulan bir idarənin pozulmasımı? Yox, buna yenilik adı verə bilmərəm; savadsız, sərxoş, tənbəl və yıxıcı bir xalq yenilik qura bilməz! Lvovlara təhəmmül edə bilmədiyimiz halda, ortalığa bir də bir Lenin çıxdı – bu, baltanı bir az da ağacın dibindən vurur... Vursun, baxalım sonu nə olacaq?! Bunların hamısı alman oyu-

nudur; Lenin düz adam olsaydı, Vilhelm onu qapalı vaqonda bizə göndərməzdi... Hər halda bir daha danışmamağı qət etmişəm. Biz kimik ki? Danışığımıza kim məna verər ki?.. – Birdən mövzunu dəyişdi və eyni zamanda siması da dəyişildi: – Əzizim, necəsiniz, nə ilə məşğulsunuz? – dedi.

– Təşəkkür edirəm. Yorulmuşam, məzuniyyətə getmək istəyirəm.

– Zatən hamımız məzun deyilmiyik? – deyə dodaqlarında tənəli təbəssüm oynatdı; – müharibə artıq uduzulmuş, indi əsarət zənciri önündə boyunlarımızı aşağı əyməliyik...

Rüstəmbəy susmuşdu. Müsahibinə qarşı söz söyləməyə nə marağı, nə də iştahası vardı. Bunu Svyatoslav İvanoviç duydu:

– Seyrəmi çıxmısınız, yoxsa müəyyən bir məqsədinizmi var? – deyə sordu.

Rüstəmbəy yaxasını qurtarmaq üçün:

– Kəndə, sklada gedirəm, – dedi.

– Onda, əzizim, yolunuza mane olmayım, – deyə əlini uzatdı.

Rüstəmbəy onun əlini sıxıb, kəndə doğru getdi.

## 39

Şəhərdə yer olmadığı üçün Rüstəmbəy anbarı kənddə saxlayırdı. Kənd yaxındı; zatən at və araba olduğu üçün çətinlik çəkilmirdi.

Rüstəmbəy yavaş-yavaş yürüyərək kəndə çatdı. Kənd vuruşmalar görmədiyi üçün salamat qalmışdı. Küləş taxtapuşları Çin üslubunu andırırdı; karnizlərin ucları yarımdairə təşkil edərək yuxarıya doğru qalxmışdı. Kəndin kilsəsi də eyni üslubda idi. Rüstəmbəyə kənddə rast gələn rusinlər salam verərək, tənbəl addımlarla uzaqlaşırdı. Qadın gözə az çarpırdı; görünür qaçıb dağılmışdı; çünki əsgər gecən yerdə heç bir qız və qadın özlərini kişilərin təcavüzündən saxlamağa qadir deyildi. Cəbhə məntəqəsində qalanların əksəri əxlaqən pozulmuş və fəna xəstəliklərə tutulmuşdu.

Rüstəmbəy bir daxmanın qapısına yanaşıb açdı. İçəridə oturan iki ləzgi Rüstəmbəyi görcək dik qalxdı. Rüstəmbəy:

– Oturun, oturun! – deyə cəld irəliləyib yığılan qənd kisələrindən birinin üstündə oturdu.

Anbar müdiri Məhəmməd və köməkçisi Ömər oturmağa cəsarət etməyib bir neçə saniyə ayaq üstə qaldılar; yalnız Rüstəmbəyin təkli-

findən sonra oturdular. Məhəmməd ortaboylu, dolğun, təqribən qırx beş yaşlı bir kişi idi. Ömər uzunboylu və arıqdı; Məhəmməddən gəncdi. İkisi də milli libasda idi.

– Ağa, çay buyurun, – deyə Məhəmməd çay təklif etdi və dişləmə qəndi qoydu. Masanın üstündə yavan çörək, çay və xırda doğranmış qənddən başqa bir şey yoxdu. Rüstəmbəy buna diqqət verərək:

– Məhəmməd, bəs çayı nə üçün yavan içirsiniz? – deyə sordu.

Məhəmməd gülümsüyərək yerə baxmasında davam etdi bir şey söyləmədi.

Rüstəmbəy təkrar:

– Yağınız yoxmu? – dedi.

– Var. Bir neçə çəllək var.

– Bəs nə üçün yemirsiniz?

– ?!

– Canım, özünüzə korluq verməyin! Burada əlli kisə qənd var – çayı dişləmə içirsiniz, yağ var – yemirsiniz.

– Nə bilək, ağa, dedik bəs olmaz.

– Necə olmaz, bu işçilər üçün deyil, bəs kimin üçündür? Ömər, dur yağ gətir, qənd də çıxar.

Ömər durub qızararaq, bir qab yağ və qənd gətirdi. Rüstəmbəy hərəsinin stəkanına bir parça qənd saldı:

– Hər gün çayı şirin içərsiniz. – dedi, – günorta da təzə ət tapmasanız, konserv yeyin.

Ləzgilərin ikisi də məmnun təbəssümlə gah Rüstəmbəyin üzünə, gah yerə baxırdılar.

Bunların bu qədər utancaq və düz olduqları Rüstəmbəyi bir az darıldırdı. "Bu qədər ifrata varmaq olarmı?" – deyə Rüstəmbəy öz-özünə düşünürdü. "Doyunca yeməyə belə cəsarət etmirdilər. Halbuki bunlardan əvvəl sklada qoyulanlar nə qədər mal oğurlamışdılar... Hər halda, zəmanə hərəkətinə bənzəmir..."

Rüstəmbəy:

– Sizin ailəniz yoxmu? – deyə soruşdu.

– Ağa, var.

– Onlara pul göndərirsinizmi?

– Nə bilim, ağa, topladığımızdan göndəririk.

Məhəmmədin mütəvaze ifadəsi Rüstəmbəyi mütəəssir etdi. Bunların acizliyi ürəyini kədərlərlə doldurdu. Qəti bir səslə:

– Baxın, Qafqaz bu saat böyük iqtisadi böhran keçirir, qənd, un, düyü və başqa məkulat tapılmır. Ayda evinizə hərəniz yarım put qənd, bir put un göndərə bilərsiniz, izin verirəm.

Ləzgilər yavaş səslə dəfələrlə razılıq etdilər. Rüstəmbəy də etdiyi hərəkətindən fərəhlənərək, mənəvi həzz duydu. Sonra anbarı dolaşaraq cürbəcür əmrlər verib çıxdı. Məhəmməd onu kəndin sonuna qədər təşyi etdi.

40

Nahardan sonra Vanya ilə Rüstəmbəy otaqlarına çəkildilər. Rüstəmbəy çarpayısının üzərinə uzanıb, Mopassanın hekayələrini əlinə götürdü. Mopassan Rüstəmbəyin sevdiyi yazıçılardan biri idi.

Vanya otaqda gəzinirdi, tərəddüd içində idi. Evdə qalmaq niyyəti olmadığı bəlli idi. Rüstəmbəyə tərəf çönərək;

– Rüstəmbəy, bu axşam iclasa gəlməyəcəksinizmi?

– Nə iclas? – deyə Rüstəmbəy üzünü turşutdu. – İclaslardan artıq xoşlanmıram.

– Nə üçün? Əvvəllər ki, çox xoşlayırdınız.

– Əvvəllər... – deyə Rüstəmbəy ağzını büzdü, bir gözünü qıyaraq, başını tərpətdi, ancaq sözünü yarımçıq kəsdi.

Vanya təkrar:

– Rüstəmbəy, bu axşam gedək – məmnun dönəcəyinizə əmin ola bilərsiniz. İndi böyük iclaslarda bir soldat var, o rəyasət edir. Gözəl natiqdir. Özü də hazır adamdır. Deyirlər, müharibədən əvvəl Moskvada işçi olmuş və gizli təşkilatlarda iştirak etmişdir. Özü bolşevikdir və bir dərnəyi də var. Mən də ora yazılmaq istəyirəm...

Vanyanın sözləri Rüstəmbəyi qane etmirdi – o bu sözləri istehzalı təbəssümlə qarşılayırdısa da, Vanya danışığına davam edirdi:

– Məncə, bolşeviklər haqlıdır: müharibənin əməkçilərə faydası yoxdur. Müharibə yalnız burjuylara, tacirlərə lazımdır; onlar mallarına bazar axtarır, mən də ortalıqda qurban gedirəm.

Rüstəmbəy Mopassanı kənara qoydu.

– Bunları anlayıram, – dedi, – ancaq... intizamsızlığa, ədəbsizliyə təhəmmül edə bilmirəm... Sərxoş soldatlar məclisə gəlib adamı təhqir edirlər. Münəvvərlərə qarşı bir kin başlamışlar; kimsə amirini tanımaq istəmir. Xülasə...

Vanya qeyzlə:

– Rüstəmbəy, siz boş şeylərdən dilgir olursunuz; əsrlərcə əsarətdə böyümüş xalqdan nələr gözləmək olar? Əsir zənciri qırmış, hürr vəziyyətə hələ alışmamışdır. Onun özünü idarə edə bilməməsi hələlik təbiidir. Lakin bunlar düzələcək. Xalqı təşkilata sövq etməli və onu hazırlamalıdır. Məyus olub, bədbinliyə varmaqdan nə çıxar ki?!.

Rüstəmbəy onun sözlərini kəsərək:

– Bunlar doğru, – dedi, – ağlım tamamilə dediklərinizə şərikdir, lakin ürəyim... başqa şeylər duyur: ürəyim inqilaba qarşı daha əvvəlki kimi çırpınmır. Səbəbini bilə bilmirəm. Bəlkə də məyusluğum yorulduğumdan irəli gəlir... Vanya, çox yorulmuşam, cəbhədən qaçıb dincəlməliyəm...

Vanya səsini alçaldaraq:

– Məzuniyyətə nə vaxt gedirsiniz?

– Bir-iki gündən sonra Ternopola gedib, baş müdirimizdən icazə istəyəcəyəm, razı olmasa, istefamı verəcəyəm.

Vanya cavab vermədi və "istefa" sözündən məmnun olan kimi göründü.

# İKİNCİ HİSSƏ

## I

Rüstəmbəy sabah qatarı ilə Kiyevə gəldi. Ternopolda bir axşam qalıb, məzuniyyətə icazə almışdı. Artıq bir ay istirahət edə bilərdi.

Bələdiyyə idarəsinin arxasında xırda bir oteldə yerləşib, yaxın qəhvəxanalardan birinə getdi. Burası adamla dolu idi – masaların ətrafında oturanlardan başqa, bir çoxu ayaq üstə duraraq bərkdən danışırdı; mövzuları həp ticarətdən idi – şəkər, un, sabun, gön sözləri tez-tez təkrar olunurdu. Qəhvəxana adətən bir bursa şəkli almışdı.

Rüstəmbəy qəhvəxananın tüstülü havasından dilgir olaraq, gəldiyinə də peşman oldu. Lakin geri dönməyə də ərindi, bir masanın kənarında duraraq, südlü qəhvə ismarladı. Qarson ancaq beş dəqiqədən sonra gətirə bildi. Rüstəmbəy cəld içib çıxdı.

Hava gözəldi; kəstanə çiçəklərinin qoxusu insanı məst edirdi. Cəbhədən xilas olmuş Rüstəmbəy asudəliyini duyaraq sevinir, eyni zamanda da nərəyə gedəcəyini, nə cür vaxt keçirəcəyini də bilmirdi.

Kreşşatikə çatdı. Nəzərini ilk cəlb edən Stolıpinin abidəsi oldu: sabiq baş nazirin heykəlini qaldırıb, pyedestalın yanına yıxmışdılar. “Sizə böyük sarsıntılar lazım, bizə böyük Rusiya lazımdır”, – deyə yazılan sözlər hələ pyedestaldan silinməmişdi. Abidənin ətrafına beş-on adam toplanıb, abidə pilləkənlərinin yuxarısında duran və şapkasının kokardını qırmızı şilə ilə örtən bir zabitin nitqini dinləyirdi. Rüstəmbəy də maraqlandı – abidəyə yaxınlaşıb, qulaq asdı. Zabit məzuniyyətdən dönüb cəbhəyə gedirmiş, inqilab ordusuna fədakarlıqla xidmət edəcəyini vəd edirdi.

Rüstəmbəy gülümsünərək, abidədən uzaqlaşdı. Mağazaların ağzında qutular qoyulmuş və üzərində: “Qəzetəni oxuduqdan sonra buraya salın, qəhrəman ordumuza lazımdır”, – deyə yazılmışdı.

Bütün gördükləri Rüstəmbəy üçün yeni idi – şəhərdən çoxdan çıxmışdı. İki il əvvəl olduğu kimi, hər yer hərbi əlbəsəli adamlarla dolu idi; sivil libasa az təsadüf olunurdu. Gözəl geyimli qadınların sayı bəlkə bir az da artmışdı. İqtisadi böhrana baxmayaraq, həyat coşub-daşmada idi.

Rüstəmbəy Nikolay küçəsinə çatdı, dayandı. Buradakı meyvə mağazası sahibi İmranı xatırladı. Türk tələbələrinin həmişə İmranın ma-

ğazasına toplandığını bilirdi. Nikolay küçəsinə dönüb, dördüncü nömrəli mağazaya girdi. Onu ucaboylu, qırmızıyanaq, başının yanları ağarmış bir gənc gülə-gülə qarşıladı:

– Ya Allah, Rüstəmbəy! – deyə əlini sıxdı.

– Ya Allah! Sağlıq-salamatlıqdırmı?

– Niyə.

– İşlərin necədir?

– Yaxşıdır. Sən necəsən, büsbütün gəldinmi?

– Yox, yenə gedəcəyəm.

İmran gülər üzlə sandalya verib, Rüstəmbəyin oturmasını rica etdi. Rüstəmbəy oturdu. Bu əsnada mağazaya bir xanımla bir kişi girdi. İmran Rüstəmbəyi tərk edib müştəriləri nəzakətlə qarşıladı. Rüstəmbəy yerindən qalxdı:

– Səftər içəridədirmi? – deyə sordu.

İmran diqqətini müştəridən ayırmayaraq başını tərpətdi. Rüstəmbəy xırda qapıdan mağazanın arxa tərəfinə keçdi. Kirli bir koridorun sol tərəfindəki qapını tıqqıldatdı. İçəridən rusca:

– Kimdir? – deyə səs gəldi.

Rüstəmbəy içəri girdi, yarımişıq, kirli, rütubət qoxulu bir otaqda paslı çarpayıdan bir gənc qalxdı. Rüstəmbəyi görcək iri burnu üzünə yayıldı. Çapıq kimi yanaqlarını parçalayan iki qırış bir az da dərinləşdi və tənəli qaşları yuxarı qalxaraq:

– Pah, balam zemqusar oldun getdin ki!.. – dedi və bir neçə saniyəlik fasilədən sonra: – kasıb adamıq, yatırıq... bu saat durum, – dedi.

Səftər qaşlarını hələ təbii yerinə endirməyib, solğun yorğanını atıb, ayaqlarını çarpayıdan aşağı salladı. Paltarını geyinərək:

– Balam, oralar necədir? – dedi, – bura qarış-bulaşdır... Cuhudlar bütün malları gizlədirlər; gümüş pul yox oldu... heç bir şey tapılmır.

Rüstəmbəy:

– Bizdə bolluqdur, – dedi.

– Yəqin qənd gətirmisən, çayı da yalnız içirsən, – son sözləri deyərkən, Səftərin yenicə normal şəkil almış qaşları yenə də yuxarı doğru çəkildi. Üzündə həsəd əlamətləri görülməyə başladı.

– Bir şey gətirməmişəm, – deyə Rüstəmbəy Səftərin qələyana gəlmiş ruhunu təskin etdi.

Səftər geyindi, koridora çıxdı. Bir az sonra üzünü yuduğu divardan asma yuyuncağın cingiltisindən bəlli oldu.

Rüstəmbəy gözlərini gəzdirərək otağa tamaşa edirdi – hər yer kir və toz içində idi; öldürülmüş taxtabitilərin qanı solğun şpaleri ləkələmişdi; künclərdəki qurumlardan milçək ölüləri asılmışdı... Bura tam bir "musurman" mənzili idi.

2

Səftər Veylabad tacirlərindən Bikef İbadın oğlu idi. Bikef İbad şəhərdə xeyrə-şərə yaramayan, fərdi həyat sürən bir adamdı. Onun nə evdə, nə də dışarıda şad bir halını görən olmamışdı; gülmək məfhumu ona yabançı idi. Az danışar və yavaş danışar. Verilən salama belə yalnız dodaqlarının tərpənməsi ilə cavab verərdi. Ticarət üsulu da tühaf idi – kimsə ilə şərik olmanı sevməz, bankla əlaqədə bulunmaz və varidatını da özündən başqa kimsə bilməzdi. Arvadı və uşaqları belə onun işlərindən xəbərsizdi. Səftəri gimnaziyaya vermişdi, ondan heç bir şey əsirgəmirdi, lakin ticarətin sirlərinə vaqif etməkdən çəkinirdi.

Bir gün Bikef İbad iflas etdi. Borcluların əlindən şəhəri tərk etmək məcburiyyətində bulundu. Xokənddən xəbəri gəldi. Orada bir rus qadını ilə evləndiyi duyuldu. Veylabaddakı ailəsi başsız qaldı. Onlara məktub belə yazmamağa başladı.

Səftər gimnaziyanı bitirib, Kiyevə gəldi və əqrabalıq həsəbilə İmranın mağazasının arxasında yerləşdi. Bu dar otaqda Səftər, mağaza qarsonu və İmran dörd il bir yerdə yaşamışdılar. Əvvəllər çarpayıda İmran, pəncərənin önündəki batıq taxtda Səftər və döşəmənin üzərində də qarson yatardı. Bir il əvvəl İmran başqa bir mənzil tapıb çıxmış və çarpayı Səftərə qalmışdı...

Səftər üzünün suyu süzələnərək içəri girdi və çarpayının başına atılmış kirli havlını götürüb qurulandı.

– Balam, heç nişandan-zaddan almısanmı? – deyə qəhqəhə ilə güldü, – doktor Vəlibəy cəbhədən bir "Stanislav" gətirib lap döşünün ortasında gəzdirirdi. Ha-ha-ha!.. Heç onu gəzdirməzlər ey!.. Onu biz görmüşük paradda-zadda taxarlar; bu həmişə döşünə taxırdı. İnqilabdan sonra gizlədi. İndi onun yerində bax, bu yekəlikdə (iki baş barmağı ilə şəhadət barmaqlarını uc-uca qoyaraq, bir dairə təşkil edib qaşlarını qaldırdı) bir qırmızı bant taxır. Rüstəmbəy:

– Vəlibəy buradadırmı? – deyə cəld soruşdu.

– Buradadır, buradadır. Sabah iclas olacaq, görərsən.

– Harada?

– Qulamrzagildə.

– Xəlil bəs harada olur?

– Yenə gördüyün yerdə.

– Bəs qurtarmır?

– Qurtarır... ya da qurtarmış – bilmirəm. İmranın içəri girməsi söhbəti kəsdi:

– Ay Səftər, samovar gətir. Rüstəmbəyə çay ver.

İmranın sözlərinə cavab olaraq Səftər koridora çıxdı, samovarı püflədiyi eşidildi.

Çox çəkmədi içəri çirkdən göyərmiş yanı batıq bir samovar gəldi. İmran komodun qutusundan bir az çörək və çatlaq boşqabda bir az saralmış pendir çıxarıb masanın üstünə qoydu.

Səftər çay tökdü. Masanın ətrafına yığıldılar. İmran çıxıb mağazadakı qarsona bir şeylər tapşırıb, yenə döndü.

Çay əsnasında Rüstəmbəy tələbələri birbəbir soruşdu. Mir Cəfərin də burada olduğunu öyrəndi. Bütün mitinqlərdə nitq söylədiyini dedilər. Bir həftə əvvəl Çingiz Fatma xanımla Qafqaza getmişmiş...

Qapı cırıltı ilə açıldı. İçəri didik bığlı, sallaq dodaqlı, əyribel bir adam girdi. Əynində boğazınadək düyməli, uzunqol bir geyməsi, uzun çəkməsinin üstünə qırış-qırış toplanmış bir şalvarı vardı; çəkməsi, görünür, aylardan bəri silinməmişdi; dörd-beş gündən bəri qırxılmamış üzündən kəsalət yağırdı. Döşündə darülfünun nişanı vardı. Rüstəmbəyi görcək iri ağzını açıb, kirli dişlərini göstərərək:

– Xoş gəlmisən, – dedi və iri, qəssab əlinə bənzər əlini uzatdı.

Rüstəmbəy yerindən qalxmayaraq:

– Ya allah, Cabbar, sən də buradasan?

– Buradayam.

– Nə qayırırsan?

– Qulluq edirəm.

İmran Cabbarın başına qapaz salıb, Rüstəmbəyə tərəf yönəldi:

– Bunun qulluğu adam dolaşdırmaq, şərirlikdir...

Səftər İmranın sözlərini kəsərək:

– Özü də Qulu ilə bərk dostdur.

Rüstəmbəy:

– Onda, Cabbar, "elmi-şuma məlum şud" dedi. İndiyə qədər mehriban görünən Cabbar birdən dilgir oldu:

– Bəsdir; paxırınızı açaram, – dedi və hirsindən gözlərinin çanağı genəlməyə başladı. İmran qəhqəhə ilə onun döşündən itələdi:

– Nə paxır açacaqsan, oğraş? – dedi. – Özün başdan-ayağa paxır deyilsənmi?

Cabbar daha da hiddətləndi:

– Ağzımı açdırmayın, – dedi və dönüb qapıdan çıxdı. İmran qəhqəhəsində davam edirdi.

– Elə bilirsiniz köpək oğlu küsdü – yox; özünü yeməyə yetirəcək. Peşəsi orada-burada sülənməkdir. O günü bir kağız yazıb ki, mənə əlli manat göndərməsən özümü öldürəcəyəm. Mən də yazdım ki, cəhənnəmə, gora öldür.

Səftər yenə qaşlarını qaldırdı:

– Sən öl, lap adımızı batırıbdır. Anası Suyuyumşaq Ballı Veylabadda məşhur olan kimi, bu da burada məşhurdur. Rüstəmbəy başını bulayaraq dərin düşüncələrə daldı.

## 3

Axşam Rüstəmbəy Xəlilin görüşünə getdi.

Xəlil təhsilini qurtarıb vətənə dönmədən əvvəl bir-iki aylıq vaxtını kefə həsr etməyi qət etmişdi. Rüstəmbəy Xəlilin yanında ortaboy, çəlimsiz və tühaf bir qız gördü. Xəlil gülümsünərək:

– Tanış ol, bizim müvəqqəti ev adamı, – deyə qızı təqdim etdi.

Rüstəmbəy zarafatla:

– Bu neçənci “müvəqqəti ev adamıdır?” – deyə sordu.

– Ey... Çox. Allah Rusiyaya bərəkət versin; bolluqdur! – dedi və sonra qıza müraciət edərək:

– Tanya, tapşır samovar versinlər, – deyə əlavə etdi. Tanya qucağındakı qutunu pəncərənin içinə qoyub, kimsənin üzünə baxmayaraq, otaqdan çıxdı. Rüstəmbəy onu başdan-ayağa süzdü və birdən:

– Xəlil, deyəsən boynu doludur, – dedi.

Xəlil iftixarla:

– Bəs nə, dörd aylıq uşağı var.

– Bəs necə olacaq.

– Hamınınkı kimi.

İkisi də güldü. Sonra Xəlil papiros yandırıb, ayağını ayağının üstünə qoydu:

– Bizdə olsa, qızı da öldürərlər, məni də. Halbuki, rus zehniyyəti, büsbütün başqadır: qız hər kişidən bir övlad qazansa da hərəkəti məqbuldur. Fərəməzin üç qızdan üç uşağı olduğunu bilirsən. Uşaqlar durur və analarının ailəsində bəslənir...”Namus”deyilən məna ruslara yabançıdır.

Xəlilin son sözləri Rüstəmbəy üçün böyük bir mövzu idi. Mülahizə yürütməyə həvəsləndi:

– Məncə, – dedi, – ruslar haqlıdır, nəfsə sədd çəkmək boş işdir. Bu sami zehniyyəti islamiyyətlə bərabər gəlib, bizi boğur. Burada xüsusi mülkiyyət məsələsi xüsusi rol oynayır.

– Əlbəttə, əlbəttə, əlbəttə, – deyə Xəlil Rüstəmbəyin fikrini təsvib etdi. – Sosializm əmlak xüsusiyyəti ilə bərabər, “namus” sədlərini də uçuracaq.

Xəlil sözlərini bitirib düşündü, fikirli gözləri oynamağa başladı, sanki bir sözlər söyləmək istəyirdi; bir də ciddi bir səslə:

– Rüstəmbəy – dedi, – tühaf adamsan...

– Necə?

– Sənin bütün fikrin və fəaliyyətin bizə yaxındır; nə üçün sosialist firqəsinə girmirsən?

Rüstəmbəy cavab vermədən əvvəl bir az düşündü və samovar gətirən qızla bərabər içəri girən Tanyanı süzərək:

– Bilirsən, Xəlil, sosialistlərin hər şeyini qəbul edirəm; milli məsələdə yolumuz ayrılır.

– Nə üçün?

– Beynəlmiləl ola bilmirəm. Öldür, ola bilmirəm.

– Nə üçün, biz milli məsələni inkar etmirik ki...

Rüstəmbəy gülərək:

– Təbliğata lüzum yoxdur, məni qane edə bilməzsən. Proqramınızı dəfələrlə oxumuşam, ağlıma batmadı... – Rüstəmbəy bir az duruxdu, sonra: – sənin sosialist olduğunu bilirdim; Bakıda ikən Vəlibəy, sən işləyirdiniz. Ancaq mən sizi mübariz sosialistlərdən hesab etmirdim... Siz “məkruh” sosialistsiniz, ha-ha-ha!..

Xəlil “məkruh” sözünü anlamadı. Rüstəmbəy izah etdi:

– Şərən qoyun əti yeyilər, it əti yeyilməz, amma dovşan əti yeyilər də, yeyilməz də – “məkruhdur”.

Türkcə savadsız, türklük və islamiyyətə yabançı olan Xəlil indiyə qədər eşitmədiyi “məkruh” məsələlərindən çox xoşlandı və güldü.

Tatyana çay masasını düzəltdi. Rüstəmbəyə çay təklif etdi. Tatyananın xatirəsi üçün indiyə qədər yarı rus, yarı türkcə danışmaq tamamilə ruscaya çevrildi. Rüstəmbəy şəkər əvəzinə masaya qoyulan konfetə baxaraq:

– Siz burada şəkər tapmırsınız, biz də, cəbhədə şəkəri qoymağa yer tapmırıq.

Tatyana Rüstəmbəyə cavab vermədi, Tərki-dünya kimi, heç bir şeylə əlaqədar deyil kimi görünürdü. Çay da içmədi, yenə qutusunu pəncərədən götürüb qucağına aldı.

Xəlil təkrar əvvəlki mövzuya döndü:

– İndi firqəyə mənsub olmaq zəmanənin birinci tələbatındandır. Mən əvvəl... necə dedin?

– Məkruh.

– Məkruh sosialist idim. İndi təşkilata gedib-gəlirəm; çıxışda bulunuram. Bu lazımdır, sən də bir firqəyə mənsub olmalısan; bax da, məsləkinə görə bir firqə seç; çünki zemlyaçestvo dövrü artıq keçdi.

Rüstəmbəy çay istəkanını nəlbəkidə fırlayaraq:

– Hələ dincəlirəm; yorğunam. Cəbhə ilə vidalaşıb buraya dönəcəyəm... sonra... baxalım, – dedi və birdən səsini yüksəldib, – hə sabah iclas varmış, nə münasibətlədir?

– Eyni məsələdir: “Hali-hazır və biz” mövzusu ətrafında danışılacaq. Sonra, yəqin münaqişə olacaq. Mən menşevik platformasını müdafiə edəcəyəm; Mir Cəfər eserlərlə çalışır; Vəlibəy vaxtilə Bakıda işləmişsə də indi heç bir təşkilata yanaşmır. İnqilaba tərəfdardır Ancaq kimlə gedəcəyi bəlli deyil.

– İclas harada olacaq?

– Qulamrzagildə.

– Hə, Qulamrza yenə o arvadı saxlayırmı?

– Yox, boşadı. İndi evlidir.

– Nişanlısını gətirdi?

– Hə.

– Oxudurmu?

– Özü dərs deyir.

– Sizlərlə görüşdürürmü?

– Görüşürük. Əvvəl arvadı utanırdı, indi yavaş-yavaş məclisə alışır. Buraya çarşabla gəlmişdi. Ancaq başımıza senzor kəsilmişdir – yanında hər şey danışa bilmirik.

– Qulamrza yenə cahıllıq edirmi?

– Əşi, edirik.

– Bəs arvad?

– Əşi, arvadı aldatmağa nə var. Qulamrza dərs verir, deyir: buradan buraya qədər əzbərlə, gəlirəm. O əzbərləyir, biz də gəzirik.

Rüstəmbəy bu "üsuldan" xoşlandı:

– Yaman adamsınız, – dedi və qolundakı saata baxıb, ayağa qalxdı:

– Sabah gəlim, iclasa bir yerdə gedək, – dedi. Xəlil razı oldu.

– Yaxşı, – dedi, – qızı yola salım da, gedərik.

– Hara salacaqsan ki?

– Nə bilim, kənddə olur, vağzala aparıram... nə yerini söylər, nə qutusundakını. Bütün əmlakı qucağındakı qutudan ibarətdir. İçində də (xəlvət baxmışam) bir-iki məktub, bir qutu kirşan və bir xırda güzgüdən başqa bir şey yoxdur.

– Tühaf!

## 4

Rüstəmbəy Xəlillə Qulamrzagilə gedərkən ön tərəfdən gələn tramvay nəzərini cəlb etdi: vaqonlar ağzına qədər dolu idi. Pilləkənlərdən belə əsgər libaslı adamlar sallanmışdı. Birdən bir adam pilləkəndən atılıb qaçmağa başladı. Bunu mütəaqib bir ayrısı da sıçrayıb:

– Tutun! Tutun! Pulumu apardı! – deyə bağıraraq, qoşdu.

Xalq tökülüb cibgiri əhatə etməyə başladı. Oğruya ilk yanaşan birisi ona bir şapalaq çəkdi. Bu bir siqnal oldu: hər tərəfdən cibgirə yumruq döşəndi. Rüstəmbəy bir dəqiqədə yüzlərcə adamın bir nöqtəyə toplanıb, cibgiri cəzalandırmasını görərək, qara camaatın nə böyük dəhşət təşkil etdiyini ilk dəfə olaraq duydu. Ayaqlar altında bir torba döyülmüş ət şəkli alan meyitin yerlə süründürülməsi onda ikrah edilən bir qorxu doğurdu. Həyəcan içində Xəlilin qoluna girib, sözünə davam edərək:

– Dəhşət! – dedi.

Xəlil gülə-gülə:

– Şəhərə yeni gəlməyin bəlli, biz bu mənzərəni hər gün görürük.

Uzaqda böyük bir izdiham gözlərinə çarpdı. Birisi yüksək bir yerə çıxıb qollarını ölçə-ölçə nitq söyləyirdi. Küçələrdə aşıb-daşan adamların arasından tühaf bir qorxu ilə keçib, sola döndü. Çal papaqlarına

sarı-mavi lentlər yapışılmış bir Ukrayna bölüyü gəlirdi. Ön tərəfdə gedən əsgər şair Şevçenkonun uzun payaya bağlanmış rəsmini aparırdı. Həyəcanlı ağızlardan qopan milli şərqi Rüstəmbəyin bir az əvvəl keçirdiyi dəhşəti dağıtmağa başladı. Milli muxtariyyət məfkurəsi onu qaplayaraq, qanadlandırırdı.

5

Rüstəmbəylə Xəlil pəncərələri həyətə açılan geniş bir otağa girdikdə oradakılar onları xoş bir təbəssümlə qarşıladılar. Qulamrza:

– Pa, ya Allah! – deyə Rüstəmbəyin əlini sıxdı və üzündən öpdü. Vəlibəy də qalxıb onunla öpüşdü. Qulu da zahirən xoş göründü. Mir Cəfər Rüstəmbəyi döşü darülfünun nişanlı şıq paltarda görüb, tühaf bir hala düşdü: dərununa çökən həsəd dalğalanaraq üzünü bulandırdı: seyrək qaşları oynadı, gözlərinə qan doldu. Tutulmuş bir halda Rüstəmbəyə əl verdi və öpüşməkdən çəkindi.

Rüstəmbəy Mir Cəfərlə bir məktəbdə oxumuş və bir sinifdə oturmuşdu. Uzun müddət dost keçinmişdilər. Ali təhsil üçün hərəsi başqa-başqa şəhərlərə getmişdi. Bir il sonra Mir Cəfər vərəm xəstəliyinə tutularaq məktəbdən ayrılmaq məcburiyyətində bulunmuşdu. İki il dərs deyərək, Krımda özünə müalicə etdirmiş, sonra təhsilin davamı üçün Kiyevə gəlmişdi. Rüstəmbəyin vaxtında qurtarıb qulluğa girməsi ondakı həsədə səbəb olmuşdu. Rüstəmbəy məsələni anladı və yoldaşının münasibətsiz hərəkətinə qarşı laqeyd davranaraq, çəkilib kənarda oturdu.

Vəlibəy özünəməxsus mehribançılıqla Rüstəmbəyə tərəf yönəlib:

– Rüstəmbəy, bizim yerlərdə nə var? – deyə sordu: – Axır mən də bir müddət oralarda oldum. Bilmirəm, xəbərin vardımı?

– Vardı. Səni Lvovda görmüşdülər.

– Heyf ki, görüşə bilmədik. Qəribə şeylərə rast gəldim. Sonra nağıl edəcəyəm...

– Hələ buradasanmı? – deyə Rüstəmbəy onun sözlərini kəsdi.

Cavab olaraq, Vəlibəy yanında Rüstəmbəyə yer göstərdi. Rüstəmbəy cəld qalxıb onun yanında oturdu və yavaş səslə danışmağa başladılar. Vəlibəy cəbhə həyatından bir az nağıl edərək dedi:

– Bir neçə gündən sonra vətənə gedirəm. Sözündən-sovundan. Nə qulluğun olsa, hazıram.

– Çox sağ ol!

– Hələ ki, sağam... Sənin fikrin nədir? Rüstəmbəy bir az düşünüb tərəddüd içində:

– Bir ay dincəlib, cəbhəyə dönəcəyəm. İşləri təhvil verməli, sonra görək nə olacaq.

Vəlibəy bir sirr kimi pıçıldadı:

– İndi Bakıda türk ziyalı qüvvələrinə çox ehtiyac var.

– Onu bilirəm. Ancaq nədənsə hələ Bakıya könlüm yatmır.

– Səbəb?

– Səbəb çoxdur. Əvvələn, ora hazır getməliyəm. İkinci, Bakı mühitində – qoçular, zorlular, "mənəm-mənəm" deyən ziyalılar arasında dolana bilərikmi?

Vəlibəy yoğun bığlarını tumarlayaraq:

– Sən də çox dərin düşünürsən, – deyə qırıq-qırıq gülməyə başladı.

Rüstəmbəy qayət ciddi:

– Ay Vəlibəy, bax, sən həkimsən, sənətin var. Onu dərinləşdirməyə çalışacaqsan. Mən hüquqşünasam – vəkillikdən başqa, bir də xalqın ictimai işlərinə yaramalıyam. Federasiya fikri günü-gündən meydan almadadır. İndi federasiya əsaslarını bilirəmmi? – Yox! Qərbdə və Amerikada bir çox dövlətlər var. Bunların qanuni-əsasisindən, üsuli-idarələrindən xəbərim varmı? – Yox! Müxtəsərcə olaraq darülfünunda keçdik. Vəssalam... İndi bir müddət burada oturub, bunlarla məşğul olmaq icab edər. Bilgisiz olaraq millətə xidmət etmək olmaz. Bilgimiz də olmasa, xalq arasında heç bir nüfuzumuz ola bilməz.

Vəlibəy yenə qırıq-qırıq gülərək:

– Aşna, sən arxayınçılıqdan danışırsan.

– Başqa cür də ola bilməz.

Bu əsnada qapı açıldı. Cabbar gəldi. Salamına soyuq cavab alıb, bir tərəfdə oturdu. Mir Cəfər onu nifrətəngiz bir nəzərdən keçirdi.

## 6

Tələbələr yavaş-yavaş yığılırdı. Səlman və Əhməd də gəldi. İclasın gecikməsini görən Rüstəmbəy qolundakı saata baxdı:

– Vaxt keçir, – dedi.

Bunu görən Mir Cəfər istehza ilə qoluna baxdı və:

– Vaxt keçir, – deyə Rüstəmbəyin ağzını yamsıladı. Sonra cibindən vizit kartını çıxarıb, üzərinə bir şeylər yazdı və Rüstəmbəyə uzat-

dı. Rüstəmbəy suçlu-suçlu alıb, bu sətirləri oxudu: “Ya sən, ya mən – ikimizdən birimiz yaşamalıdır. Səni duelə çağırıram. Sekundantlarını göstər”. Mir Cəfərin tühaflığına yaxından bələd olan Rüstəmbəy yoldaşının hərəkətindən heç də heyrətlənmədi. Mətin bir səslə:

– Mən hazıram. Qaçan alçaqdır! – dedi.

Mir Cəfər Rüstəmbəyin mətanətini duyub, sönük səslə:

– Alçaqdır! – dedi və susdu.

Məclisə sakitlik düşdü. Hər kəs məsələnin nədən doğduğunun səbəblərini anlamayaraq bir-birinin üzünə baxırdı.

Bəzilərinin dodaqlarında heyrət təbəssümü donub qalmışdı.

Səlman Əhmədə tərəf yönələrək:

– Bu Mir Cəfərin də əcəb işləri var, – dedi, – hələ yersiz çıxışının üstündə bir dəfə mühakimə olunmuşdu. Yenə çocuq hərəkətindən əl çəkmir, – dedi.

Başqalarının qüvvətinə yaranan Cabbar Səlmana xoş gəlmək üçün geniş ağzını açaraq bərk gülüşü ilə məclisdəki sakitliyi pozdu. Rüstəmbəyə bata bilməyən Mir Cəfər bunu əldə bir vəsilə edərək, yerindən dəli kimi qalxıb, Cabbara bir şapalaq vurdu. Məclisdəkilər durub Mir Cəfəri yerində oturtdular. Hər kəsdə bir qələyan vücuda gəldi.

Səlman həyəcanlı bir səslə:

– Yoldaşlar, – dedi, – bu gün Rusiyada əldə edilmiş hürriyyətə müəyyən bir şəkil verildiyi bir zamanda biz də burada dərəbəylik dövrü, qolçomaq və qoçu üsulları yeritməyə çalışırıq. Mir Cəfər kimilərin vəhşi hərəkətlərinə artıq xitam verilməlidir. Bu saat qəti olaraq deməliyik ki, Mir Cəfərə aramızda yer yoxdur!

Hər kəs Səlmanın sözlərini təsdiq edərək:

– Ar olsun! Eyib! – deyə səsləndi. Vəlibəy ayağa durub, mülayim səslə dedi:

– Yoldaşlar, bu gün Rusiyadakı bütün millətlər hürriyyətdən lazımınca istifadə etmək yollarını arayırlar. Baxın, paytaxtında oturduğumuz Ukrayna nə cəsur addımlar atır. Müvəqqəti hökumətlə belə hesablaşmaq istəmir... Baxın, biz nə ilə məşğuluq... Mir Cəfərin xatirinə dəyməsin, onun indiki hərəkəti mədəni bir hərəkət deyil. Elə hərəkətlərin baş verməsinə imkan verməməliyik.

Vəlibəydən sonra Xəlil istehzalı gülüşlə:

– A Mir Cəfər, sən başdan-başa təzad imişsən ki! Küçələrdə dediyin gözəl nitqlər harada, bu qoçuluq harada?

Mir Cəfər:

– Sən də qoy görüm, – deyə çəmkirdi və sandalyadakı vəziyyətini dəyişib susdu.

7

Bir az keçmiş Qulu ayağa qalxıb:

– Yoldaşlar, biz buraya mühüm bir iş üçün gəlmişik, zənn edirəm, – deyə uzun bir nitq söylədi. Zamanın siyasi incəliyindən, bütün millətlərin muxtariyyət yolunda çalışmalarından, Ukrayna hökumətinin müvəqqəti hökumətlə razılaşmayaraq ordu təşkil etməsindən və bu kimi bir çox məsələlərdən bəhs açdı. Axırda "biz də əl-ələ verərək çalışmalı, geridə qalan millətimizi irəli çəkməliyik",- deyə nitqini bitirdi.

Məclis Qulunu alqışladı. Rüstəmbəy Vəlibəyin qulağına "boş sözdür" – deyə pıçıldayıb gülümsədi. Vəlibəy isə zahirən Rüstəmbəyə şərik olmayaraq, Qulunu məmnun etmək üçün üzünə baxdı və xoş bir təbəssümlə alqışını Quluya duydurdu.

Xəlil ayağa qalxdı. Zemlyaçestvo dövrünün bitməsini, artıq siyasi platformaya keçmək ehtiyacını bildirdi. Bu əsnada "sədrsiz məclis olmaz, sədr seçməli", – deyə səslər eşidildi.

– Vəlibəy!

– Vəlibəy!

– Xəlil!

İndiyə qədər sözlərini kəsib ayaq üstə qalan Xəlil gülə-gülə:

– Mən Vəlibəyin sədr olmasını təklif edirəm. Kim tərəfdardır əl qaldırsın!

Vəlibəy əksəriyyətlə qəbul olundu. Mir Cəfər səsdə iştirak etmədi. Qulu isə könülsüz olaraq əl qaldırdı.

Vəlibəy görkəmli bir yerdə oturub, rəsmən məclisi açdı, sonra milli məzmunda bir nitq söyləyərək, Rusiyadakı vəziyyəti təsvir edib, müsəlmanların siyasətcə hazır olmadıqlarını qeyd etdi. "Bütün millətlər, – dedi, – təşkilat yaparaq, məclisi-müəssisan qarşısına hazır çıxmaq istəyirlər. Halbuki biz hər işdə geri qaldığımız kimi, burada da ləng iş görürük". Sonra Vəlibəy ziyalı azlığından şikayət edərək, mövcud olanlar arasında da ittihad olmadığından bəhs etdi və əlavə olaraq: "Bu gün burada bir nəticəyə gəlib, ümumi bir dil tapmalıyıq;

çünki bunu bizdən həm zaman, həm də millətimiz tələb edir", – deyib nitqini qurtardı.

Danışmaq istəyənlər yazıldı. Səlman, Əhməd, Mir Cəfər, Xəlil, Rüstəmbəy, bir neçə tələbə və məktəbi yeni ikmal etmişlər çıxışda bulundular. Kiyev türk tələbələri tarixində ilk dəfə olaraq məslək ayrılığı duyulmağa başladı. Əvvəllər zemlyaçestvo ətrafına toplanıb yalnız mədəni-maarif məfkurəsi daşıyan gənclər indi artıq köhnə çərçivəyə sığmamağa başlamışdılar. Eser, menşevik, bolşevik və milli demokratik platformalar irəli sürülərək, hər kəs müəyyən proqram dairəsində hərəkət etməyə çalışırdı.

Nitqlərdən sonra uzun-uzadı münaqişələr oldu, nəticədə məclis bir neçə qrupa ayrıldı. Səlmanla Əhməd bolşevik, Xəlil menşevik, Mir Cəfər eser olaraq qaldılar. Məclisin əksəriyyəti isə milli məfkurə daşıyan bitərəflər idi. Bunlar heç bir firqəyə mənsub deyildilər, milli hərəkatda edəcəkləri iştirakın şəkli və üsulu da hələ təbəllür etməmişdi.

Məclisdə söylənənlər kimsəni qənaətbəxş etmədi, hər kəs əvvəlki məsləkinə sadiq olaraq məclisi tərk etdi.

8

Axşam Vəlibəy Rüstəmbəyi "Kupeçeskoye sobraniye" bağçasına dəvət etmişdi. Mayın aydınlıq bir axşamı idi. Dneprin geniş köksü yaldız saçırdı. Yasəmən və kəstanə çiçəklərinin qoxusu ruha təravət verirdi. Bağçadakı şıq geyimli, şən söhbətli adamlar sanki şəhərdəki çörək və şəkər böhranı ilə heç də əlaqədar deyildilər.

Rüstəmbəylə Vəlibəy əvvəl açıq havadakı kinoya gedib, "Qriqori Rasputin" adlı şəklə tamaşa etdilər. Sonra bağçanın restoranına gəlib, çiçəklər arasındakı bir masaya yerləşdilər. Vəlibəy qarsonu çağırıb, yemək və içki ismarladı. Ağ örtülü masanın üzərinə əlvan məzələr düzüldü, araq qoyuldu. Vəlibəy özünəməxsus nəzakətlə qədəhləri doldurdu və Ömər Xəyyamın bir rübaisini söyləyərək, qədəhini qaldırdı:

– Rüstəmbəy, – dedi, – xoş gəlmisən! İnqilabın nərələrə varacağını və bizi haraya sürükləyəcəyini hələ bilmirəm. Qoca fars "dəm qənimətəst"* deyər. İndi bu dəqiqələr də bir qazancdır. İçək, sağ olaq.

– Vəlibəy, sağ ol! – deyə Rüstəmbəy qədəhini Vəlibəyin qədəhinə vurub içdi.

---

* Burada: bir anın özü də qənimətdir.

Vəlibəy boşalmış qədəhləri təkrar doldurub dedi:

– Qəzetləri, yəqin diqqətlə oxuyursan.

– Təbii.

– Bu müvəqqəti hökumətdən axır, deyəsən, bir şey çıxmayacaq... Müttəfiqlərə verdiyi notanı gördüm, yenə köhnə hamam, köhnə tas; çar siyasəti dəyişilmir – müvəqqəti hökumət müttəfiqlərlə bağlanan bütün əhdnamələrə sadiq qalır... Milyukov yenə İstanbulu tələb edir. “Son zəfərə qədər müharibə” şüarı utanmazcasına davam edir...

– Vəlibəy, bu siyasət yeriməz, ordu vuruşma qüvvətini qaib etmişdir, paytaxtda soldat və işçi şurası ilə hökumət arasındakı uçurum get-gedə dərinləşir; bolşeviklər yorğun vücudlarda doğan xəyalları həqiqətə çevirmək istəyir; Ukrayna muxtariyyət bayrağını qaldıraraq, başqa millətləri də arxasınca aparır, iqtisadi böhran, hərc-mərclik məmləkəti alt-üst edir... belə bir zamanda əski siyasəti yürütmək qabilmi?

Vəlibəy qədəhi qaldırıb, Rüstəmbəyin nitqinin sonunu gözləyirdi. Nitq bitər-bitməz:

– Ukraynanın şərəfinə içək, – dedi, – qoçaq adamlar yetişdirmişdir.

Rüstəmbəy səmimi bir halda qədəhinə yapışdı və ukraynaca: “İşşe ne vmerla Ukraina!”* – deyib içdi.

Bir neçə dəqiqə başları yeməyə qarışdı. Lakin sükut uzun sürmədi. Rüstəmbəy:

– Ukrayna, – dedi, – fürsəti əldən buraxmır, cəbhədən ukraynalıları yavaş-yavaş çəkib milli ordu təşkil edir; müvəqqəti hökumətdən muxtariyyətinin tanınmasını tələb edir; məktəb və idarələri milliləşdirir; milli nəşriyyata çalışır... Tələbəlik zamanımızda Kiyevdə Ukrayna dilinin danışıldığını eşitməmişdik. İndi yavaş-yavaş eşidilməyə başlandı. Çar zamanı yalnız bir qəzetləri vardı, onu da müharibə başlar-başlamaz hökumət qapadı. Əlan gör nə qədər qəzet və jurnalları var... Bax gör biz nə haldayıq! “Kaspi” hələ ittihadi-islamın quyruğundan əl çəkmir. Bir tələbə məktub almış: Bakı küçələrində qoçular türk qadınlarının ayaqlarından dikdaban çəkmələri çıxarırmışlar... Belə dəhşət olurmu?.. Oh, Vəlibəy, iç, dərdimizi unudaq, islamiyyət bizim axırımıza çıxdı.

İki dost məyus bir halda qədəhləri başlarına çəkib, uzun müddət susdu.

---

* Ukrayna hələ ölməmişdir.

Qarson bifşteks gətirdi. Vəlibəy şərab istədi. Böyük qədəhlərə şərab töküldükdən sonra Vəlibəy Rüstəmbəyə Azərbaycan işlərini anlatmağa başladı:

– Bakıda Ümumqafqaz müsəlmanları qurultayı olmuşdur. Bəzi qərarlar çıxarmışlar. Federasiya şəklini qəbul etmişlər... Təbii, qurultay hadisəsiz keçməmişdir. Qurultayda iştirak edən çarşabsız bir qadına qarşı tapançalar çıxmış; yekə rüsvayçılıq!.. Küçədəki çəkmə çıxarmaq fəqərəsi bu hadisədən sonra olmuşdur... Sonra, Gəncədə bir ədəmi-mərkəziyyət firqəsi varmış. Bakıdakı federalist firqəsi ilə birləşərək, meydana "müsavat" adlı bir firqə çıxmışdır. Proqramlarını görməmişəm...

Rüstəmbəy Vəlibəyin sözlərini kəsdi:

– "Müsavat"ın proqramı ilə tanış olmaq istəyirdim. Bəlkə gətirdəsən.

– Gətirdərəm, ya da gedəndə özüm göndərərəm.

– Gətirsən Qulamrzaya ver, o mənə verər, bəlkə sən getdin, sonra görüşmədik.

– Yaxşı.

Rüstəmbəy bir az düşünüb:

– Görəsən, başında kimlər durmuş? – deyə sordu.

– Nəsibbəylə Əhməd Muxtar olmalıdır. Rüstəmbəy bu adamları uzaqdan tanıyırdı:

– Yəni, bunların hazırlığı var? – deyə düşündü.

Vəlibəy gülümsünərək:

– Nə deyim? – dedi, – hər halda müsəlman daha bunlardan artığını yetişdirməyəcək ki!.. İşlərlər, öyrənərlər.

– Təhsilləri necədir?

– Nəsibbəyi bizzat tanımıram. Eşitdiyimə görə, darülfünunda olmuş, ancaq qurtarmamışdır. Əhməd Muxtara yaxşı bələdəm. Bizimlə də bir qədər işləmişdir. Heç bir təhsili yoxdur, xudayi-nabitdir. Bütün məziyyəti türkcə savadlı olmasındadır. Yaxşı natiqdir... Bu qədər. Bişmiş bir siyasi adam demək olmaz. Dövlət təşkilatı üçün yararlı adam deyildir. İfrat inad və şöhrətpərəstdir: "Burada mən, Bağdadda kor xəlfə"... Nə başını ağrıdım, kor atın kor da nalbəndi olar... – deyə qırıq gülüşünə davam etdi.

Rüstəmbəy düşüncələrindən ayrılmayaraq, bir daha sual vermədi.

9

Gecə saat birdə evə dönərkən Mir Cəfərin iclasdakı hərəkətini xatırladılar. Vəlibəy qırıq-qırıq gülərək dedi:

– Qəribə adamdır!

– Doğrudan da, qəribədir... Çocuqluqda da belə idi, amma indi ifrata varmışdır. Çocuqluğumuzdan son dərəcə dost idik. Bir-birimizə gedər-gələr, bir dəqiqə belə ayrı durmazdıq. Ən mod və ən mütərəqqi məsələlər ətrafında bəhs edər, müəyyən fikirlərə gələrdik. Bunda səbir və hövsələ yoxdu. Bir şeyi deyərdi, həyata keçirilməsində mətanət göstərməzdi. Bir gün kiçik qardaş və bacılarımıza savad öyrətməyi qərara aldıq. Dərs başlandı. Mir Cəfərin qardaşı oxumamazlıq edirdi. Bir müddət dərs dedi, çocuq tənbəllik göstərdi. Axırda yanına çağırıb qəti olaraq soruşdu: "Qardaş, oxumaq istəyirsənmi?" Çocuq: "Yox" dedi. Mir Cəfər: "Hürrsən" – deyə onu buraxdı. Dərs bitdi. Qardaşı indi də savadsız və sənətsiz bir adamdır. Mən Mir Cəfəri məzəmmət elədim: "Ehmallıqla oxut" – dedim. Mənə cavabı bilirsən nə oldu? "Çocuğun hürriyyətinə təcavüz etməyə haqqın yoxdur", – dedi.

– Hürriyyəti belə anlamışdır, – deyə Vəlibəy güldü.

Rüstəmbəy sözlərinə davam edirdi:

– Hər şeyi tərsinə başa düşmək bunda bir xassədir... Bir gün teatra getmişdik. Parterdə idik. Bir də gördüm paltarını soyunur. "Canım nə qayırırsan? Burada köynəkli oturmaq olarmı? Axır bir qayda var". Mənə: "Əfkari-ümkumiyyədən qorxursan? – dedi. – Hər şey cəhənnəm olsun, mənə şəxsim və istirahətim lazımdır, – deyə cavab verdi.

– Deməli teatrda yarıçılpaq oturdu.

– Təbii, yüz yerdən ağızlar buruldu, istehzalar olundu...Nə isə, başının bir damarı qırıqdır...

– Qeybət olmasın, – deyə Vəlibəy sözə başladı, – mən də bundan bir fəqərə eşitmişəm. Bir ay əvvəl Moskvaya tələbələr qurultayına getmişdi. Bir gün tramvay yelli keçərkən Mir Cəfər fit verir. Bir qəzamı oldu – deyə o saat tramvay vaqonlarını dayandırırlar. Vaqonların dayandırılmasının səbəbəini bilməyən miniklər arasına çaxnaşma düşür. Bir də Mir Cəfər səslənir; "Mən mindim, indi vaqonu sürə bilərsiniz", – deyir. Camaat buna qarşı nifrətlər yağdırır. Bu adam indi Kiyev mitinqlərinin Allahı sanılır.

– Çünki gözəl natiqdir. Ruscaya incədən-incəyə vaqifdir. Ədəbiyyatı ətraflı tədqiq etmiş; mətbuatda belə iştirak edir... Ancaq həyatı ki-

tablarda yazılan kimi qəbul edir. Fikir və hərəkətindən də kitab qoxusu gəlir, olduqca səthidir.

Vəlibəy ciddi bir səslə:

– Adamlığı da yoxdur. İnqilab həyatı çalxalayıb bu kimiləri üzə atırsa, bunlar aləmi məhv edər, axırda özləri də məhv olarlar.

Rüstəmbəy Vəlibəyin sözlərini təsdiq edərək:

– Bilirsən onda nə həsəd var? Yaxşı yeyənləri, geyənləri, yaşayanları görəndə içini gəmirir. Yakıb yıxmaqda ləzzət duyanlardandır.

– Bu necə ailədəndir? Kasıbdırmı?

– Atası xırda alış-verişçidir. Ancaq buna köməyi dəymir, ailəsini belə zorluqda saxlayır...

Vəlibəy qırıq gülüşü ilə Rüstəmbəyin sözlərini kəsdi.

– Duel necə oldu? – deyə sordu.

Heç! Duelə azmı adam çağırmış. Puşkinin vaxtında yaşadığımızı zənn edir... Bu da oxuduğu kitabların təsirindən doğmurmu?

## 10

Rüstəmbəy yataqdan yenicə qalxmışdı. Xəlil içəri girdi. Görüşdülər.

Xəlil:

– Yəqin hələ çay içməmisən? – deyə sordu.

– Yox, indicə durdum. Yuxudan doya bilmirəm. Cəbhənin yorğunluğu indi duyulur. Son zaman mənən də yoruldum.

– Yəqin ora da bura kimi hərc-mərcdir.

– Təbii, eyni anarxiya.

– Kerenskinin bütün populyarlığına baxmayaraq, qəti bir xətti-istiqaməti yoxdur. Görünür, yalnız gözəl nitq söyləməklə məmləkət idarə olunmur.

– Aparat da pozuqdur, başı dəyişdilər, aşağı qaldı. Çarlıq ruhu ilə bəslənmiş məmurlar dünənki vəkil, jurnalist, tacir nazirə tabe olarmı? Məmur psixologiyası başqadır. Hökumətin aşağıdan yuxarıya doğru pillə ilə çıxan məmur arasında nüfuzu olmadığı üçün məmur da vəzifəsinə sadiq deyildir. Bax, teleqram poçtla göndərilir, məktub yollarda itir, vergi yığılmır, banklar bərbad olmağa başlayır. Alverçilik gündən-gündən artır, hökumət və ictimai təşkilatlar anbarları oğurlanıb bazarlarda satılır. Uzaqgörənlər qızıl və brilyant toplayır; sabit dəyərli şeylər aranır. Bu gün satın alınan hər bir şey üç gün sonra birə iki qiy-

mətə gedir. Qiymətlər yüksəlir məmurun maaşı yüksəlmir, ehtiyac da bir tərəfdən məmuru işindən soyudur...

Xəlil onun sözünü kəsdi:

– Rüstəmbəy, – dedi, – yalnız məmur deyil, hər kəs şaşmışdır. Nədənsə, bu hökumətə inanılmır. Bax: hər bir mitinqdə "hürriyyət istiqrazı"ndan bəhs olunur. Hamı bilir ki, hürriyyətin irəli sürdüyü hökumətə kömək lazımdır. Ancaq heç kəs yazılmır. Mən köhnə inqilabçı olaraq hələ istiqraza yazılmamışam.

Xəlil sözlərinə əlavə olaraq qəhqəhə ilə güldü, sonra otağın küçəyə tərəf açılan pəncərəsinə yanaşıb baxa-baxa:

– Yığış, çıxaq, – dedi.

Hava olduqca gözəldi. Qəhvəxanaların birinə girdilər, – Rüstəmbəy Xəlilə südlü qəhvə təklif etdi, içmədi.

– Toxam, – dedi, – tez ol, çıxaq. Tacirlərin əlindən indi qəhvəxanalarda yer yoxdur. Mənim də, nədənsə, bunlardan zəhləm gedir.

Rüstəmbəy:

– Sənin atan, – dedi, – məmur olmuş, yəqin həmişə də tacirə borclu olmuşdur. Səndə çocuqluqdan onlara qarşı bir ikrah əmələ gəlmişdir.

– Doğrudan da belədir. Bilirsən, atam ev tikdirirdi. Bir sövdəgər Hacıdan altı yüz manat borc almışdı. Yazıq kişi beş il pulu verib qurtara bilmədi, müamilə müamilə üstündən gəlirdi. Özləri də elə yumşaq olurlar ki, üzlərinə də tüpürsən incimirlər. Amma səni lazımınca istismar edirlər. Atam öləndən sonra anamın yanına gəlib edərdilər. Bütün qızıllarımızı, xalı və ipəklərimizi onlara satdıq. Kim bilir, nə qədər ucuz alırmışlar. Qardaşım Parisdə oxurkən ona pul göndərmək lazımdı. Anam gözəl bir tirmə girov qoyub, əvəzində əlli manat aldı. Əlli manatı vaxtında verə bilmədiyimiz üçün müamilə artmağa başladı... Xülasə, şal əldən getdi, nəticədə tacirə də borclu çıxdıq...

Xəlil yenə güldü və təbəssümündə ikrah duyuldu.

Rüstəmbəy qəhvəsini qurtarıb, qəhvəxanadan çıxdı:

– Yaxşı, atan məmur, çarın sadiq məmuru, anan Mehdi xanın qızı – bəs bu menşeviklik haradan çıxdı?

Xəlil əvvəl oynaq, sonra ciddi bir halda:

– Bilirsən, biz Bakıda hökumət pansionunda yaşayırkən, gizli ədəbiyyatla çox maraqlanardıq. Bir gürcü yoldaşım vardı, bu mənə xırda risalələr verərdi, oxurdum. Yavaş-yavaş menşeviklərin proqramı ilə

tanış oldum, xoşuma gəldi. Yoldaşım məni bir firqəçi ilə tanış etdi. Arabir görüşərdik. Sonra türk gənclərinin arasında işləmək mənə tapşırılmışdı. Bir neçə məktəbliyə mühazirə oxuyurdum. Zavodlarla da az-çox əlaqəm vardı... Belə!..

Rüstəmbəy gülə-gülə:

– İndi de görüm, aşna, federasiyaya tərəfdarsan, yoxsa yox?

Xəlil düşünərək:

– Demokratik cümhuriyyət, zənn edirəm, hər kəsi qane edər.

– Yox, – deyə Rüstəmbəy qətiyyətlə cavab verdi, – onda aramızda dağlar var. Hər millət müqəddəratını özü həll etməli. Bu günün şüarı budur!

11

İmranın meyvə mağazasına çatana qədər iki dost arasında siyasi mükalimə davam etdi. Biri o birini qane edə bilmədi. Nəhayət, Rüstəmbəy qeyzlə:

– Bundan sonra məhkum xalqlar arasında menşeviklik nüfuz qazana bilməz. Bu sahədə bolşeviklər daha da uzaqgörəndirlər, – deyə münaqişəyə xitam verdi.

İmran mağazanın arxasında idi. Rüstəmbəylə Xəlil də oraya keçdi. Səftər də orada çaya məşğuldu. Səmimi görüşdən sonra hərə bir tərəfdə yerləşdi. Sonra Xəlil gülə-gülə:

– Balam, – dedi, – mənim tacirlə aram olmadığını hamı bilir, ancaq, İmran, səni mən tacir hesab etmirəm; çünki sən studentlər içində böyüyərək, tacir olmusan; hamıya da köməyin dəyir...

Səftər onun sözünü kəsərək, yarı rus, yarı türkcə:

– Yaxşı, bu müqəddəmədən məqsəd nədir?

Xəlil gülə-gülə:

– İmrandan iyirmi beş manat borc istəyirəm. Xəlilin birdən məqsədə keçməsi hamının gülüşünə səbəb oldu. Xəlil ciddi:

– Bilirsən, İmran, qardaşımdan pul gözləyirəm, gələn günü verərəm.

İmran hörmətlə əlini gözünün üstünə qoyub:

– Gözüm üstə! Çayımı içim, verim, – dedi və o saat sözü dəyişdi: – Deyirlər, Cabbar şapalaq yeyib; amma nə olub!.. Mir Cəfərlə tanışlığım yoxsa da, görən kimi əlindən öpəcəyəm.

Səftərin yenə qaşları yuxarılara doğru çəkildi, üzünün batığı bir az da dərinləşdi. Məxrəci gülüşlə:

– O gündən bəri yoxdur. İndi, kim bilsin, haralarda sülənir, – dedi.

Xəlil səmimi səslə:

– Balam, kişiyə sataşmayın.

Səftər yenə qaşlarını qaldırıb, bir şeylər demək istəyirdi, bir də İmran masadan qalxaraq:

– Xəlil, gülüm, gəl, – dedi.

İmran daxıldan iyirmi beş manat çıxarıb Xəlilə verdi və yavaşca əyilib Rüstəmbəyin qulağına:

– Sən pulları haraya yığırsan? – deyə pıçıldadı.

Rüstəmbəy çox düşünməyərək:

– Yanımdadır. Lazımındırsa verim. İmran cazibəli bir səslə:

– Yanında boş qalınca işə buraxsan yaxşı olmazmı? – deyə sordu və təkidlə əlavə etdi: – Bilirsən bu saat necə pul qazanmalı vaxtdır... Sənə də yaxşı olar, mənə də.

Rüstəmbəy haman cibindən iki min manat pul çıxarıb İmrana verdi. Sonra Xəlilə müraciət edərək:

– Balam, pul lazımındı, məndən niyə istəmədin?

– Sən gedərgisən. Kim bilir, səninlə bir də nə vaxt görüşəcəyəm. İmran buralı, mən buralı. Borc aldığım birinci dəfə deyil ki, beş ildir...

Bu əsnada iri çopur burunlu, qarasifət bir adam girib:

– Səfarətxana katibi Səftər xan buradadırmı? – deyə sordu.

İmran ağzını arxa qapıya tərəf çevirərək istehza ilə:

– A Səftər xan, – dedi, – rəiyyətlərindən biri səni axtarır.

Rüstəmbəy maraqlı gülüşlə:

– İran səfarətxanası katibliyi indi Səftərdədirmi?

– Bəli, – deyə İmran yenə istehza ilə ağzını bir balaca burdu: – Meymun oynadanları bir müddət Bayram qırxdı, indi Səftər xan qırxır.

Sözlərini bitirib, İmran xısın-xısın gülərək əlini Rüstəmbəyə uzatdı. O da əlini onun əlinə vurdu.

## 12

Rüstəmbəy tez səhər İdzikovskinin xüsusi kitabxanasına getdi. Bu kitabxana hökumət və şəhər kitabxanalarına nisbətən daha zəngindi.

Əlavə olaraq, İdzikovski kitabxanasında bir çox inqilabi əsərlər də vardı. Rüstəmbəyi də maraqlandıran da elə bu kitablardı. Müntəzəm surətdə oxuyaraq, hazırlanmaq istəyirdi, çünki inqilabın irəli sürdüyü məsələlərə qarşı onun ali təhsili kafi görünmürdü.

Rüstəmbəy kitab kataloqunu götürüb varaqlamağa başlaldı. Özünə bir balaca proqram düzəltdi. Marks, Engels, Lenin, Plexanov, Kautski, Bebel və Joresi də bura daxil etdi. Lakin bunlardan əvvəl tarix və iqtisadiyyatla məşğul olmağı lazım bildi. Sonra on səkkizinci əsr ensiklopedistlərinin əsərləri və Kontun pozitivizmi ilə çox maraqlandı. Xülasə, bir çox düşüncə və mülahizələr yürütdükdən sonra qədim dövlət təşkilatlarına dair bir kitab alıb, kitabxanadan çıxdı. Ürəyi qoltuğundakı kitabın fərəhi ilə dolu bir halda oxumağa qoşarkən, bir də şıq geyinmiş, siması tanış görünən bir xanıma rast gəldi. Xanımın gözləri Rüstəmbəyə sataşıb haman qeyri-məmnun bir halda yerə dikildi, yanaqları qızarıb, solğun laləni andırdı.

Rüstəmbəy dayandı və özünəməxsus bir səmimiyyətlə:

– Sofya Sergeyevna, – deyə səsləndi.

Xanım sönük bir halda duruxdu və Rüstəmbəyin ona tərəf uzanmış əlini istər-istəməz sıxmaq məcburiyyətində bulundu. Rüstəmbəy:

– Çoxdan görüşmədik, – dedi, – zövcünüz hardadır?

Xanım ağızucu olaraq:

– Cəbhədədir, – dedi və suçlu-suçlu ətrafa baxdı.

Rüstəmbəy xanımı hürkmüş vəziyyətdən çıxarmaq üçün:

– Ha tərəfə gedirsiniz? Sizi bir az təşyi edim, – dedi

Xanım bu təklifdən xoşnud olmayan kimi, bir neçə saniyə yerində qaldı. Tərəddüd içində olduğu bəlli idi. Lakin Rüstəmbəyin israredici hərəkəti xanımı yoluna davam etməyə sövq etdi.

İkisi də bir müddət sükut içində yan-yana getdilər. Sonra Rüstəmbəy:

– Yenə əvvəlki yerinizdəmi qalırsınız? – deyə sordu. Xanım cavab verməkdən çəkindi və sualın yersiz olduğunu duydurmaq üçün etinasız bir halda mağazalara baxmağa başladı. Yanaqları təkrar qızarıb soldu. Gözlərinin kənarından süzülən etirazlı baxış, Rüstəmbəyin cəsarətini qırdı. Bir neçə addım getməmiş xanım durdu və yenə gözlərini yerə dikərək, əlini uzatdı:

– Mən aptekə gedəcəyəm, – deyib cəld aralandı. Rüstəmbəy tühaf bir halda yoluna davam etdi. Qeyri-şüuri olaraq əlini bığına atdıqda

Sofyanın əlindən qopan ətir qoxusu damağına çökdü. Kitabxanada əldə etdiyi fərəh əvəzinə ruhunda bir acılıq çöküntüsü duydu.

13

Sofya xanımın məsələsi Rüstəmbəyi bir neçə müddət şiddətlə məşğul etdi. Vaxtilə pəncərəyə söykənib hüznlü göz yaşları ilə Rüstəmbəyi təşyi edən Sofya bu dəfəki soyuq Sofyanın əksi kimi görünürdü. Bu, əsrarəngiz bir müəmma olaraq, Rüstəmbəyi çıxılmaz bir vəziyyətə soxmuşdu. Dərdini unutmaq üçün kitaba dalır, tarix və fəlsəfədə ruh təskinliyi arayır, müvəffəq olmur. Qara sətirlərdən nəşət edən mürəkkəb fikirlər arasında həp Sofyanı görür, solğun laləni andıran yanaqları ən qüvvətli bir fəlsəfə kəsilərək Rüstəmbəyin ağlını pərdələyirdi.

Qəzeti əlinə götürür – rollarını bitirib çəkilən komandanlar, nazirlər ona çocuq oyuncağı kimi gəlirdi. Küçədəki nümayişlər, siyasi münaqişələr, nitqlər, şüarlar – bunların hamısı onun marağına, səthi də olsa, nüfuz etmədən uçub gedir, kiçicik bir iz belə buraxmırdı. Artıq şəhər ona bir istirahət yeri deyil, zindanxana kimi gəlirdi.

Bir gün dəruni böhranlar içində Xəlili arayıb tapdı. Xəlil də onun kimi maddi həyatın dolambac yollarına nabələd, hiylə zəruriyyətinə yabançı bir adam olduğu üçün Rüstəmbəylə dərd şəriki ola bilirdi. Məslək ayrılığına baxmayaraq, aralarında səmimi dostluq vardı.

Xəlil Rüstəmbəyi iztirab içində gördükdə gülümsədi:

– Yenə səndə bir şey var, – dedi, – eşqmi, mənəvi böhranmı? – deyə sordu.

Rüstəmbəy deyəcəyi sözlərdən qəlbi təskin bularaq:

– Xəlil, – dedi, – dəruni müvazinəmi pozan bir şey var. Eşqdirmi? Bilmirəm. Şair və psixoloqların tərifinə inanılarsa, bu şey eşqdir. Lakin, doğrusunu deyim, ağlım bu eşq deyən qüvvəyə heç də inanmır... Allahı sevərsən, eşq varmı? Bunu sən duydunmu?

Xəlil sakit gülüşü ilə bir az düşünüb dedi:

– Rüstəmbəy, eşqin nə olduğunu həyatımda anlamadım. İlk əvvəl özümün erkək olduğumu duyar-duymaz məndə qonşumuzdakı bir malakan arvadına qarşı həvəs oyandı. Həvəs məni qadına tərəf çəkirdi. Bir gün gedib qadını evdə yalnız gördüm. Coşmuş erkək baxışı ilə onu süzdüm. Qadın halımı duyaraq tühaf bir vəziyyətə düşdü: qızardı,

dadlı bir təbəssümlə üzümə baxıb, əli ilə bir iki dəfə yanaqlarıma vurdu... Yalnız bunu xatırlayıram: qadını qucaqlayıb çarpayının üzərinə atdığımdan xəbərim olmamış... O gündən etibarən rast gəldiyim qadınla elə rəftar etmişəm. Təbii ehtiyacın dəfi üçün heç bir şairanə müqəddəməyə lüzum duymadım. Bu qədər. Sən başqa – ehtiyacı susdurmağa çalışırsan, ehtiyac hissi müqavimətdən şişərək xəstə bir şəkil alır.

Bu sözlərdən sonra Xəlil ciddiliyini qaib edərək qəhqəhə ilə gülüb əlavə etdi:

– Dəruni böhran dediyin dişi dərdidir. Bir dişi tap da, normal bir adam ol. Vəssəlam! Yoxsa, hər şeydən avara olacaqsan.

14

Rüstəmbəy Xəlilin sözlərini haqlayaraq susdu. Lakin ağlı təsvib edən şeyi dəruni bir başqa qüvvə inkar edirdi. Bu qüvvənin təyini yolunda çox düşündü, "bacarıqsızlıq" – deyə fikrindən keçirdi. Bir də yazıq bir əda ilə Xəlilin üzünə baxıb:

– Bacarıqsızlıq, – dedi, – görürəm, sən deyənlər doğru; ancaq həyata keçirmək üçün bir şeylər lazım... vaxt və bacarıq lazımdır. Bu da ki, məndə yoxdur. Mən təbiətən yalnız bir məqsədə doğru gedə bilirəm, ikiyə ayrılmıram. Dərunimdə bir əsgər var; "arş irəli!" – dedimi, yürüyürəm. İstiqamət dəyişilməz, əfəndim! – deyə Rüstəmbəy güldü, Xəlil də gülərək:

– Bir dəfə də qadın cəbhəsinə hücum etməli, – deyə qəhqəhə ilə güldü.

– Mən razıyam, zalım oğlu "əsgər" razı olmur. İkisi də güldü. Sonra Xəlil ciddi bir səslə:

– Bu axşam boşam. Dünən Tanya gəlmişdi, ehtirasımı söndürdü. Bu axşam münasib bir yerə gedə bilərəm.

– Məsələn.

– Gələndən Qulamrzagilə getmisənmi?

– İclas günü orada idik...

Xəlil:

– O heç! – deyə Rüstəmbəyin sözlərini kəsdi, – kişi evlənmişdir, ailə sahibidir. Ziyarət etmək borcundur.

– Yaxşı, – deyə Rüstəmbəy razı oldu.

– Saat neçədir? – deyə Xəlil soruşdu. Rüstəmbəy qoluna baxaraq:

– Beşə bir az qalır, – dedi.

– Bir-iki saat gəzək, sonra gedək. Vladimirski qorkaya tərəf getdilər.

Monastırın yanındakı qapıdan qorkaya girib, Dneprə nazir xiyabanda bir skamyaya yerləşdilər. Dnepr daşıb, qarşıdakı slobodkanı basmışdı. Sağ tərəfindəki çar bağı çiçəklər içində cilvələnirdi; sərin hava yasəmənlər arasında titrəyərək rayihələr saçırdı. Sol tərəfdəki altun qalpaqlı kilsələr yaldızlı şüalar səpələyirdi.

Bu gözəl mənzərə Rüstəmbəyin ürəyində hüznlər doğururdu. Yan tərəfdən xoş bir təbəssümlə yoldaşının sönük çöhrəsini süzən Xəlil:

– Yenə nə düşünürsən? – dedi.

Rüstəmbəy dərin – düşüncədən zorluqla ayrılaraq köksünü ötürüb dedi:

– Mənə belə gəlir ki, həyatın qəlbi daima məndən kənar bir yerdə çarpır. Mən bu çarpıntının olmasını duyuram, amma onda iştirak etmirəm.

Rüstəmbəy fəal bir vəziyyət alıb, qollarını ölçərək:

– Həyat coşarkən hər bir fərdin köksündə əks-sədalar doğurmalı; çünki fərdlər həyatdadır, həyat fərdlərdə deyil... Bax, mən bu əks-sədaları duymuram. Həyat dairəsindən kənarda duraraq, yalnız iştiraksız bir şahid vəzifəsi görürəm...

– Sənin bu fəlsəfənin mənasını anlamıram, – deyə Xəlil onun sözlərini kəsdi və bir az da kəskin: – Nə üçün həyatdan kənarda qalırsan? İndi pul qazanırsan, gəncsən, gözəlsən, təhsilin var – həyatın ən coşqun yerinə belə girməyə əlində vəsilələrin var. Nədənsə passiv duraraq rezonyorluq edirsən... Əzizim, insanın, ya heyvanın dərunində təbii bir çağırış var. Çağırdımı – “baş üstə!” deməli. Sən bunu unudursan. Canlı həyat tələblərinə qulaq asmırsan da, kitablardakı səfsətələri dinləyirsən...

İki qızın bunların yanından ötüb getmələri Xəlilin nitqinə xitam verdi. Arxalarınca müştəri gözü ilə baxaraq, düşündü. Birdən:

– İştə həyat, tamaşaya lüzum varmı? Dur gedək, tanış olaq.

Rüstəmbəy getməməzlik göstərdi:

– Əşi, işin yoxdur? – dedi.

Xəlil hiddətlə onun qolundan tutub dartdı:

– Bu iş deyil? Dur, – deyə onu yerindən qaldırdı.

İri addımlarla yürüyüb, bir az sonra sürəti azaltdılar. Qızlar addım səsləri eşidərək geri çöndülər və bir-birinə bir şeylər söyləyib gülüşdülər. Xəlil Rüstəmbəyə yönəlib sevinclə:

– İşlər yaxşıdır, – dedi və sonra qızlara eşitdirərək: – Bahar gözəldir, ancaq... onu duyanlar və anlayanlar üçün gözəldir.

Qızlar yenə geri dönüb, sonra yenə pıçıldaşaraq gülüşdülər. Xəlil sözlə qızları daşlamada davam edirdi:

– Bahar ildə üç ay gəlib insanları nəşələndirib gedər. Lakin... burada bir mühüm "lakin" var. Dürüst qulaq asın. Gənclik baharı yalnız bircə dəfə gələr... Təkrar olunmaz!.. İstifadə etməyən peşmanlıq oduna yakılar...

Qızın biri yavaş səslə:

– Amma nə ustalıqla başlayır, – dedi və yoldaşına qısılaraq güldü.

Xəlil cəld:

– Mən doğrudan da ustayam, səadət sarayı yapıram.

Qızın bu dəfə ikisi də çönərək işvəkar heyrətlə:

– Eləmi? – deyə Xəlildən soruşdular.

– Elə! Elə! – deyə Xəlil qızın birinə yanaşdı və o biri qıza:

– Yoldaşım utancaqdır. Lütfən onu məşğul ediniz, – dedi.

Qızlar qəhqəhə ilə gülərək, yaxındakı skamyaya əyləşdilər. Rüstəmbəy sağdan, Xəlil də sol tərəfdən oturdu.

## 15

Şirin söhbət davam edirdi. Xəlil məzhəkələr, lətifələr, cürbəcür dadlı vəqələr söyləyib qızları güldürürdü. Rüstəmbəy də danışır, o da maraqlı söhbət sahəsində Xəlildən geri qalmırdı.

Xəfif qaranlıq yavaş-yavaş çökərək, ətrafı doldurur; orada-burada işıqlar parlayıb sayrışmağa başlayırdı. Əlvan rəngli parlaq zolaqlar Dneprin səthində oynaşmada idi. Qoşa-qoşa dolaşan oğlan və qızların sayı get-gedə artır, gənclər tənha skamyalara yerləşirdi.

Xəlil yanındakı qızın əlini əlinə alıb oxşayır və xəfif müqavimətini qıraraq arabir dodaqlarına götürürdü. Artıq söhbət ümumilikdən fərdiliyə keçmişdi; hər kəs öz yanındakı qızı məşğul etmədə idi. Lakin xətti-hərəkətlər başqa-başqa idi.

Xəlilin axır məqsədi qızı "bişirib" bir gün otağına gətirmək, məramına çatmaqdı. Rüstəmbəy isə heç bir məqsəd təqib etmirdi və bəzən vaxtın lüzumsuz yerə keçməsinə də təəssüflənirdi. Birdən:

– Oturduğumuz bəs deyilmi? – deyə Xəlil səsləndi.

Rüstəmbəy:

– Necə istərsəniz, – deyə cavab verdi.

Qalxdılar.

Xəlil öz qızı ilə ön tərəfə keçib bir az da aralanmağa çalışdı. Rüstəmbəy sakit addımlarla onu izlədi.

Qorkadan yüz addımlıq bir məsafədə qızlar əl verib, qonşu küçələrdən birinə getdilər.

Xəlil şən bir halda qolunu Rüstəmbəyin qoluna keçirib qəlbi sükutla:

– Randevu hazır! – sabah axşam görüşəcəyik. – Sən də təyin etdinmi? – deyə sordu.

Rüstəmbəy passiv bir gülüşlə başını fırladı:

– İşin yoxdur? – dedi.

Bu sözlər Xəlili özündən çıxardı:

– Dünyada hamı işsizdir də, təkcə sən iş adamısan.. Amma iddian var ha!.. Sən yaxşı ki, Allah deyilsən, yoxsa dünyanı qadınsız yaradardın... Amma tühafsan ha!..

Rüstəmbəy laqeyd gülüşündə davam edərək, Xəlilin hiddətli gözlərini süzür, bir söz belə demirdi. Xəlilin deyinib susacağını bilirdi; elə də oldu. Xəlil Rüstəmbəyin ətraflı yaşamamasını, pedantlığını tənqid edərək coşdu. Səsini yüksəldib, kəskin sözlər belə qullandı. Sonra sakit olub susdu. Bir müddət danışmayaraq yürüdülər, axırda adi rəftarları ehya olundu.

Xəlil və Rüstəmbəyi Qulamrza nəzakətlə qarşılayıb, otağa dəvət etdi. Burada ortaboylu, çəlimsiz bir qadın ayağa qalxıb, cəsarətsiz bir təbəssümlə qonaqlara təzim etdi.

Qulamrza:

– Rüstəmbəy, Xəlil tanışdır, sən tanış deyilsən. Sayadla tanış ol, – deyə arvadını təqdim etdi.

Rüstəmbəy və Xəlil Sayadın əlini sıxıb oturdular. Xırda dolabın üzərindəki samovar mürgü döyən pişik kimi hərdəmbir xoruldayırdı. Sayad qonaqlara çay tökdü. Masanın üstünə ağ çörək, yağ, pendir və pasta qoydu. Sonra dolabdan zoğal mürəbbəsi çıxardı. Rüstəmbəy:

– Qulamrza, – dedi, – yəqin Qafqazdan qəzet gətirdirsən.

– "Kaspi" gəlir. Sayada da "Açıq söz" gətirdirəm; çünki Sayad yalnız türkcə oxuyur, – deyə Qulamrza gülümsədi və güzəştedici bir nəzərlə arvadına baxıb əlavə etdi: – İndi rusca da oxumağa başlamışdır.

Xəlil:

– Sayad bacı, – dedi, – indi gərək rusca danışılanda başa düşəsiniz.

Sayad aşağı baxaraq:

– Bir az başa düşürəm... ancaq hələ danışa bilmirəm.

Birdən Sayadın üzü qəmgin bir şəkil aldı:

– Müsəlmanlar belədir də, qız uşağını oxutdurmurlar, bədbəxt edirlər. Ana dilini də Qulamrzadan öyrənmişəm. Bilsəniz, necə qorxa-qorxa oxuyurdum.

Xəlil təsəlli verərək:

– Sayad bacı, qəm eləməyin, hələ cavansınız.

Sayad yenə yerə baxa-baxa:

– Axır, başqa millətlərin içində biz nəyə geri qalaq?

Rüstəmbəy populyar bir surətdə Dreper nəzəriyyəsini Sayada anlatmağa başladı:

– Sayad bacı, – dedi, – bu yalnız bizdə deyil, başqalarında da görünmüşdür. Millət bir fərd, bir adam kimi şeydir, böyüyər, gənclik və qocalıq dövrləri keçirər. Sonra ölər. Cahil və kamil vaxtları olar.

Rüstəmbəy yunan, Roma, Misir, fars və ərəb mədəniyyətinin parlaq zamanlarını təsvir edib, sonra düşdüklərini qeyd edərək:

– Bizim millət də, – dedi, – indi cahil dövrünü keçirir; lakin ayılmasının əlamətləri görünür, ayılacaq və parlaq bir gələcəyə də malik olacağı şübhəsizdir.

Məxsus Sayadın bilgisini artırmaq üçün söylənilən bu fikir başqalarını daha çox maraqlandırırdı. Xəlil Dreper nəzəriyyəsinə qarşı etiraz edərək, Marks nəzəriyyəsini irəli sürdü və qədim mədəniyyətlərin yox olmasını iqtisadiyyat qanunu ilə izah etməyə çalışdı.

Rüstəmbəy münaqişəyə girmədən əvvəl Sayadın səviyyəsini nəzərdə tutaraq, qalxıb divarda asılan xəritəyə yanaşdı. Hər kəs gözlərini xəritəyə tərəf çevirdi. Hələ coğrafiyanı qavramayan Sayad bacı həsrətlə xəritəyə baxaraq, var qüvvəsini Rüstəmbəyin sözlərinin ətrafına topladı. Rüstəmbəy vaxtilə mədəniyyət beşiyi olan ölkələri göstərərək:

– Baxın, – dedi, – Makedoniya kimi bəlli olmayan ölkədən bir İsgəndər çıxır, dünyanı istila edib, millətinin adını tarix səhifəsində yerləşdirir. Ərəbistan çöllərindən bir Məhəmməd zühur edib, meydana bəzi demokratik fikirlər atır. Nəticədə bir çox millətləri və ölkələri öz millətlərinin hakimiyyətinə tabe edir... İsgəndərlər, Məhəmmədlər,

Atilla və Teymurlar millətin gənclik enerjisindən nəşət edən qüvvələrdir.

Rüstəmbəyi diqqətlə dinləyən Qulamrza:

– Rüstəmbəy, bu tarixi simalarmı millətini irəli çəkir, yoxsa millətmi bunları irəli sürür? – deyə sordu.

Rüstəmbəy qətiyyətlə:

– Fərd bir kollektivin üzvüdür; meyvə ağacın məhsuludur. Fərd kollektivin, meyvə ağacın xassəsini daşıyır. Tarixi sima millətin ruhundan doğar, o ruhu yüksəldər və aləm qarşısında nümayiş etdirər. Tarixi sima millətin təzahürüdür. Millətin qabında bir şey olmazsa, təzahürü də olmaz!

Xəlil dinləyərək arabir başını bulayırdı; Rüstəmbəyin sözü bitər-bitməz açıldı:

– Deməli, sənin fikrincə, millətin biri istedadlı, digəri isə istedadsız olur?

Rüstəmbəy dərin bir etiqadla:

– Bəli! – dedi.

Xəlil kəskin bir halda:

– Bu fikir qətiyyən doğru deyil, – dedi. – İstedadca millətlər arasında fərq yoxdur. Şərait başqadır; tarixi, ictimai və iqtisadi şəraiti əlverişli olan millətin tarixi rolu da başqa olur.

Rüstəmbəy Xəlilin fikirlərinə şərik olmayıb, öz təsəvvürlərini doğrultmaq üçün tarixdən alınmış bir çox dəlillər göstərməyə başladı. Nəhayət, Qafqazı irəli sürərək eyni şəraitdə yaşayan gürcü, erməni və türklərin mədəni səviyyələrini qeyd etdi.

Erməni və gürcü mədəni və gözüaçıq olduğu halda, türklər cəhalət içində boğulur. Halbuki üçünün də ictimai və iqtisadi vəziyyətləri az-çox bərabərdir, – dedi.

Xəlil yenə etiraz etdi.

Münaqişə uzandı, nəhayət Qulamrza ortaya başqa bir məsələ atmaqla söhbəti dəyişdi.

## 16

Rüstəmbəy məzuniyyətini bitirdikdən sonra bir ay da artıq Kiyevdə qaldı. Bu iki ayı, bir dəqiqə qaib etmədən, kitab və qəzetlərin mütaliəsi ilə keçirdi. Paytaxt qəzetlərindən başqa, Qafqaz mətbuatını da təqib etmədə idi. Kerenski hökuməti bütün idarəsizliyi ilə davam edir

və hərc-mərclik geniş Rusiyanın bir başından tutmuş o biri başına qədər dalğalanırdı. Cəbhə get-gedə pozulur vətənpərvər nitqlər, çağırışlar artıq kimsəyə təsir etmirdi. İdarə ipi qırılıb hər vilayət, hər şəhər, bəlkə hər kənd özbaşına qalmışdı. Çörək, un, şəkər kartları ərzaq böhranının önünü ala bilmir; mağazalar və dükanlar qarşısındakı növbələr uzanmaqda idi. Ehtikar görülməyən bir şəkil almışdı. Hər şey alınıb satılır; məmləkətin şərəf və namusu belə müzaidə edilirdi. Bir tərəf yoxsulluq əziyyətinə davam edərkən, digər tərəf kef məclislərində pullar səpirdi. Xanımlar və qızlar üçün bir kilo şəkər umulmaz bir hədiyyə olaraq, ailələrdə nəşələr doğururdu. Əmtəə və ərzaq olduqca boldu; lakin zabitə nırxına boyun əyməyərək, gizli anbarlarda saxlanılırdı.

Kerenski hökuməti mərkəziyyət idarəsi platformasında duraraq, milli və territorial hərəkata xor baxmada davam edirdi. Federasiya yolu ilə mətanətli gedən Ukrayna xalqına: "Məclisi-müəssisana qədər ümumi vətəndən ayrılmayın, ümumi ordunu pozmayın", – deyə tövsiyədə bulunmasına baxmayaraq, Ukrayna radası və general sekretariatı milli dövləti təşkilatında davam edirdi. Krım tatarları da kiçik miqyasda eyni hərəkəti təqib edirdilər, qurultay çağırıb, tatar əsgərlərini Krıma toplayırdılar.

Qafqazda işlər hələ qeyri-müəyyəndi, buradakı millətlər hələ bir-biri ilə ümumi dil tapmamış, qəti siyasi istiqamət görünmürdü. Gürcülər menşeviklərin, ermənilər daşnaqların başına toplanan kimi görünürdülər. Türklərin vəziyyəti olduqca tühafdı: yeni zühur etmiş "Müsavat"ın xalq arasında kökü dərin deyildi. Sol və sağ məsləkli ziyalılar rəyasət qovğası ilə məşğuldu. Ziyalı qismi az, hazırlıqsız və daha doğrusu, məsləksizdi. Nüfuzlu milyonerlər və bütün zənginlər çar tərəfdarı idi. Əməkçilər və xırda ziyalıların bir qismi "Hümmət"in ətrafına toplanaraq, get-gedə qüvvət kəsb etmədə idi. İşçi hərəkatı genişlənir, tətillər sənaye məntəqələrini qaplamada idi. Kənd də sakit deyildi: üsyanlar, bəy evlərinin dağıdılması adi şəkil almışdı. Ruhani qismi də inqilabdan pay umaraq dini firqələr təşkilinə çalışırdı: Gəncədə "Firqeyi-Məhəmmədiyyə", Şuşada "İttihadiyyə", Bakıda "Zühuriyyuni-Mehdiyyun" firqələri meydana çıxmışdı.

Çar zamanı Azərbaycandan əsgər alınmaması milli məfkurə daşıyanlar üçün çıxılmaz bir vəziyyət təşkil etmişdi. Hər bir millət öz əsgərlərini topladığı bir halda, Azərbaycan bu imkandan istifadə edə bilmirdi. İmperialist müharibəsi zamanı bəylərin təşəbbüsü ilə könül-

lülər toplanıb alman cəbhəsinə göndərilmişdi. “Vəhşi diviziya” adı ilə məruf olan bu könüllülər indi milliçilər üçün bir məfkurə olmuşdu. “Zərurət zamanı”nın istinadgahı deyə onlara böyük ümidlər bağlanırdı...

Rüstəmbəyin iki aylıq mütaliəsi siyasi cərəyanları, firqə proqramlarını öyrənməsi ona qəti bir yol göstərmədi. Kimlə gedəcəyini, hansı firqəyə qoşulacağını belə kəsdirə bilmədi. Siyasi üfüq onun gözlərində olduqca qaranlıqdı. Əvvəlcə xəyalını məşğul edən Turan məfkurəsi indi sarsılmış, onun düzgün və əməli olmasından şübhə etməyə başlamışdı. Azərbaycan məsələsini aydın təsəvvür edə bilmirdi. Türkiyəyə ilhaq məsələsinə şiddətlə əleyhdardı: kapitulyasyonlarla bağlanıb yoxsulluq içində çırpınan, daim müharibələrə sürüklənən, mədəniyyətsiz, texnikasız Türkiyəyə doğru meyl etmək ona qorxunc görünürdü. Bütün tərəddüdlərinə baxmayaraq, Rüstəmbəy federasiya tərəfdarlığında mətindi. Lakin bu federasiyanı Rusiyada hansı firqənin iş başına keçməsi təmin edəcəyinə hələ ağlı irmirdi.

17

Bir gün Rüstəmbəy bir dükandan qəzet aldıqda Səlmanı da orada gördü. Səlman Rüstəmbəyi süzərək, kinayə ilə:

– A Rüstəmbəy, – dedi, – deyəsən, haqq yola gəlirsən.

– Necə?

– “Pravda” oxumağa başlamısan.

Rüstəmbəy gülümsüyərək:

– Mən “Pravda”nı çoxdan oxuyuram. Leninin bir məqaləsini belə buraxmıram.

Səlman heyrətlə:

– Bəs nə durmusan, niyə bizə qarışmırsan?

Rüstəmbəy bir az düşündü:

– Səlman, – dedi, – bilirsən, bir yolu ətraflı bilməsəm, o yolla gedə bilmərəm.

– Nə vaxta qədər öyrənəcəksən? – deyə Səlman onun sözlərini kəsdi.

– Toxta... bu gün meydana atılan firqələrin hamısının tədqiqi ilə məşğulam. Firqə xaricində işləməyimin mümkün olmadığını da bilirəm. Axırda yəqin ki, sipərlərdən birində silah arkadaşlığını öhdəmə alacağam. İndi isə...

– Yox, aşna, bu olmadı. Bax bu intelligent tərəddüdünü sevmirəm. Bizcə ya "hə", ya "yox"; ya dost, ya düşmən: ikisinin ortası yoxdur! – son sözlərini Səlman sərt və qaba şəkildə söylədi.

Rüstəmbəy susub qalmış, bir söz belə cəsarət edib deyə bilmirdi. Daha doğrusu, bir məsələdə Səlmanla daban-dabana zidd olduğunu duyaraq, lüzumsuz münaqişəyə meydan vermək istəmirdi. Səlman isə bunun kənarda laqeyd durmasının səbəbini araşdırmada davam edirdi:

– Siz intelligentlər "kim eşşək olsa, biz ona palan olarıq" – deyə xudbin bir surətdə yaxanızı kənara çəkirsiniz. Deyirsiniz – qoy mübarizə davam etsin, başqasının qanı tökülsün də, biz salamat qalaq; axırda baxarıq. Mən də deyirəm: "Yox, əfəndilərim, proletariat qanı ilə qazanılmış hürriyyətdə sizə yer yoxdur". Bunu qəti olaraq bilməlisiniz!

Rüstəmbəy Səlmanın qeyzlə söylədiyi sözləri dinləyib gülümsəyir, bir şey demirdi.

Yolu bir müddət dinməz getdilər, sonra Səlman əlini Rüstəmbəyə uzadaraq:

– Yolumuz ayrılır, xudahafiz.

Rüstəmbəy Səlmanın əlini əlində saxlayaraq onun ayrılmasına mane oldu:

– Bir az dur, – dedi.

İkisi də bir kəstanə ağacı kölgəsində qarşı-qarşıya durub, müntəzir bir hal aldılar. Rüstəmbəy əvvəl həyəcanlı, sonra istirahəti-qəlb sızan sözlə:

– Bilirsən, – dedi, – səninlə səmimi olaraq danışmasam, sonra vicdanım məni incidər... – Burada Rüstəmbəy söz bula bilməyən utancaq adamlar kimi, bir az dayandı, əllərini sıxışdırıb sözlərinə davam etdi. – Mühitiminmi, aldığım tərbiyəninmi sayəsində olaraq, dürüst bilirəm, məndə ölməz bir milli ruh var. Milliyyət hissi bütün vücuduma, bütün maddi və mənəvi varlığıma hakimdir...

– Təəssüf! Təəssüf! – deyə Səlman onun sözlərini kəsdi.

– İltifat buyur... Dünyada hər bir şeyə milli nöqteyi-nəzərdən baxıram. Dünyada məni düşündürən yeganə məsələ müsəlmanların velikorus hakimiyyətindən qurtarmasıdır. Bunu bizə təmin edən firqəyə "ləbbeyk" deməyə hazıram. Vəssalam.

Səlman ağır bir yük altından qurtaran kimi, asudə nəfəs alaraq gülümsədi:

– Siyasi məramnamən elə bu? – deyə heyrət etdi. – Biz milli dava deyil, sinif davası edirik. Bunu, yəqin, bilirsən.

– Bilirəm.

– Yaxşı. Buna baxmayaraq Rusiyada yaşayan bütün millətlərə tam bir hürriyyət vəd edirik; qoşma cümhuriyyət və muxtariyyətin bir az da ötəki tərəfinə gedirik: Rusiyadan ayrılmaq istəyənlərə belə maneələr göstərmirik... Millətlərə daha bundan böyük və nə verilir?..

Səlman susdu və fikrindən hasil olan təsirləri duymaq üçün gözlərini Rüstəmbəyin üzündən çəkmirdi. Rüstəmbəy isə buna cavab olaraq gülümsəyir və mənalı təbəssümündə şübhə, tərəddüd, inamsızlıq ifadələri əks etdirirdi.

Səlman bunu duyaraq:

– İşim var, gedirəm, – deyə Rüstəmbəydən ayrıldı və ondan sonra Kiyevdə bir daha görüşmədilər.

## 18

Cabbar tələbələr təşkilatından uzaqda dolanan bir adamdı. Az-az görünər, necə yaşadığı da kimsəyə bəlli olmaz. Bunun Kiyev həyatı aydın olmadığı kimi, keçmişi də olduqca qaranlıqdı. Qəza şəhərlərindən birində doğulmuş, yeddi-səkkiz yaşlarında atasını qaib edib Bakıya gəlmiş. Sonra orta məktəbi nərədə və necə bitirdiyi məlum deyildi. Hər halda keçirdiyi həyatın çox da dadlı olmadığı xislətindən görünürdü; əsəbi, acıdil, şərəfini güdə bilməyən, tamahkar bir adamdı. Coşqun zamanı bir fənalıq yapar, sonra peşman olar, əzab çəkər, təkrar fənalıq törədər, vicdan əzabı çəkər i. a... Bütün həyatı beləcə mənəvi eniş-yoxuşdan ibarətdi. Onu kimsə sevməz, həqiqi bir dostu belə yoxdu. Kirayə etdiyi otaq sahibləri ilə dalaşar, xidmətçi qızları acı sözlərlə darıldardı.

Cabbarın acı macəraları arasında təsadüfi bir eşq də parlayıb sönmüşdü. Özü kimi alçaqboylu, çirkin üzlü, biçimsiz geyimli bir qıza rast gələrək tanış olmuş, evinə dəvət etmişdi. Əsəblərinin müvəqqəti müvazinəsindən istifadə edərək, bir yerdə keçirdikləri üç-dörd saat müddəti səmimi bir dillə bütün həyatını qıza anladıb, sonra; "Yeni və xoşbəxt bir həyat başlanğıcı namına əlimi sənə uzadıb eşqini diləyirəm", – deyə sözlərinə xitam vermişdi. Cabbarın təklifi qıza o qədər səmimi görünmüşdü ki, haman razı olmuş və bir neçə dəqiqə sonra

göz yaşları ilə sirab olan yanağını onun qara dodağına təslim vermişdi. Lakin bu qara dodaqlar ehtirasla dolu eşq gecəsinin sabahından başlayaraq, qıza qarşı təhqiranə sözlər fırlatmaqdan çəkinməmişdi. Bir həftə sonra ayrılmışdılar.

Bu tez parlayıb tez də sönən eşq nəticəsi olaraq, Cabbarın bir oğlu var. Kənddə anasının yanındadır. Cabbar oğlunu görməmişsə də, fotosunu qoltuğunda saxlar, çocuğun dodaqları öz dodaqlarına bənzədiyi üçün sakin zamanları ona qarşı atalıq hissi duyar.

Cabbarın bir qardaşı da var. Cabbar onu çox sevər və dünyada ondan gözəl və ağıllı bir adam təsəvvür etməz. Kirayə etdiyi otaq sahibi xanıma qardaşının fəzayilindən o qədər söyləmiş ki, xanım onunla görüşməyi yaxın bir məfkurə kimi düşünərdi. Bir gün Cabbar xidmətindən evə döndükdə, xanım onu sevinclə qarşılayıb:

– Qardaşınız gəlmişdir, – deyə təbrik etdi. Cabbar xanımın xəbərini ürək çırpıntısı ilə dinləyib, hövləki soruşdu:

– Bəs necə oldu? Nə üçün qalmadı?

Xanım:

– Adresini qoyub getdi, – dedi. – Bessarabkada bir oteldə düşmüş.

Cabbar heç bir mühakimə yürütmədən Bessarabkaya doğru qoşdu. Çirkli bir otelin üfunətli pilləkəni ilə dırmanıb, qaranlıq koridoru dolaşaraq, nömrələrdən birinin qapısını tıqqıldatdı. Qapı açıldı. Çopurdan gələ-götür olmuş pələ burunlu, qıvrım uzunsaçlı, kirliyanaqlı bir gənc görünərək:

– Yəqin, Cabbar qardaşsınız, – deyə onu mütəşəkkir baxışla süzdü.

Cabbar hövləki:

– Qardaşım burada deyilmi? – deyə sordu.

Cavabında gənc daha da yumşaq səslə:

– Zatən mən də sizin qardaşınız deyilmiyəm? – deyə gülümsədi.

Cabbar bu işin acı bir zarafat olduğunu duyaraq özündən çıxdı, dünyada nə qədər fəna söyüşlər varsa, bu gəncə qarşı yağdırıb geri döndü.

Bir gün sonra iş təfsilatı ilə Azərbaycan kolonisinə məlum oldu. Bu gənc irani imiş. Səftərə müraciət edib, vətəninə getmək üçün yol kirayəsi istəmiş. O da sataşmaq üçün Cabbarın adresini verib, yanına göndərmişdi. Cabbar qardaşının fəzilətləri ilə ev xanımını maraqlandırdığı halda, eybəcər bir "qardaşın" gəlməsi onu xanımın yanında rüsvay etmişdi.

## 19

Rüstəmbəy Kiyevdəki baş idarələrindən bir telefonoqramma alıb, oraya getdi. Müdir onu həmişəkinə nisbətən soyuq qəbul edərək:

– Məzuniyyətinizin vaxtından tam bir ay keçir. Ya xidmətinizə dönün, ya gedib müfrizəni təslim verin, – dedi.

Rüstəmbəy təklifin haqlılığını etiraf edib, heç bir etirazda bulunmayaraq:

– Xəstə idim; bu yaxında gedib kimə desəniz təslim edərəm, – dedi.

Bununla məsələ bitmiş hesab edilərək müdirlə Rüstəmbəy arasında başqa bir söhbət olmadı. Rüstəmbəy geri döndü. Opera teatrının qarşısında, Böyük Vladimir küçəsinin tininə çoxlu adam toplaşmışdı. Adamlar bir-birini basaraq restoranın pəncərəsinə boylanırdı. Rüstəmbəy də camaatın arxasında dayandı, Ukrayna məsələsi üçün Kerenski, Sereteli və Tereşenkonun müşavirəyə gəldiklərini duydu. Bir də xaki frençli, bığ və saqqalı qırxıq, geniş alın, təlx sifət birisi masanın arxasından qalxıb, pəncərəyə doğru gəldi. İzdiham:

– Yaşasın Kerenski, yaşasın müvəqqəti hökumət! – deyə onu alqışladı.

Rüstəmbəy etirazedici bir sima ilə izdihamdan ayrıldı. Bir zaman "hürriyyət şairi" – deyə xalqın təqdis etdiyi bu adama o da tapınırdı. Lakin milli hərəkətlərə-zidd, üsuli-idarədə mərkəziyyət tərəfdarlığı məlum olan, xarici siyasətdə çardan geri qalmayan bu adam indi artıq Rüstəmbəyin rəğbətini qazana bilməzdi. Zatən Kerenskinin ulduzu sönməkdə idi; onun populyarlığı xırda bir zümrə dairəsindən kənara çıxa bilmirdi.

Rüstəmbəy Kreşşatikə enib, İmranla vidalaşmaq üçün "Qafqaz" mağazasına getmək istəyirdi. Təsadüfən yolda İmrana rast gəldi; görüşdülər:

– Sabah cəbhəyə gedirəm, mənə görə qulluq. İmran heyrətlə:

– Bəs bunu bir az əvvəl niyə demədin? – deyə sordu. Rüstəmbəy telefonoqrammanı anlatdı. İmran səmimi bir səslə:

– Sabah gedə bilməzsən, – dedi. – Sabah nahara bizdəsən, o biri gün gedərsən.

Rüstəmbəy bir az düşünüb, mütərəddid bir vəziyyət aldı. Onu duyan İmran təkidlə:

– Düşünmək yeri yoxdur, – dedi. Nə olar, bizim xatirəmiz üçün bir gün gec get.

Rüstəmbəy razı oldu. İmran təkrar:
– Səfərin uzunmu sürəcək? – deyə sordu.
– Yox, işləri təslim verib gəlirəm.
– Çox gözəl. Gəl, burada iş çoxdur.

20

O biri gün saat üçdə Rüstəmbəy, Xəlil və Səftər İmranın otağına toplaşmışdılar. Rüstəmbəy yemək masasının baş tərəfində, Xəlillə Səftər də yan tərəfində oturmuşdular. Ağ örtülü masanın üstə araq, şərab, konyak və əlvan məzələr qoyulmuşdu. Sağ tərəfdəki komodun üzərindəki vazlarda cürbəcür meyvələr vardı.

İmran girir-çıxır, arabir koridordan səsi eşidilirdi. Rüstəmbəy bu gün çox nəşəli idi. Xəlil "Müvəffəq olmadığımız eşq" deyə meydana bir mövzu atmış, hər kəs şəxsi macəralarından bir şey anladırdı. Növbə Rüstəmbəyə gəlmiş, bu da bir qızın ona aşiq olub onu izlədiyini, eşq dərsi dediyini anladıb hamını güldürürdü.

Yemək başlanıb sağlıqlar söylənməkdə idi. Bir də qapı açıldı, Cabbarın əsəbi siması hər kəsi heyrətə saldı: o buraya çağırılmamışdı. Səftər gülə-gülə əyilib, "Zalım oğlu yeməyin iyini elə tez alır ki", – deyə Rüstəmbəyin qulağına pıçıldadı. Sonra eyni tərzlə:

– Bah, "qardaş", ya Allah. Buyur görək, – deyə istehza ilə güldü.

Cabbar "qardaş" sözündən son dərəcə pərt olaraq mırıldandı və sandalya alıb, masadan kənarda oturdu. İmran laübali bir halla:

– Ə, adam oğlusan, gəlmisən gəl otur, zəhrimarlan. Cabbar yenə cavab verməyərək, öz-özünə mırıldandı.

Bu dəfə İmran qalxıb onun sandalyasını masaya doğru sürüklədi. Xəlil ciddi səslə:

– Təklifim var, – dedi. – Qədəhləri doldurun Cabbarın sağlığına içək.

Qədəhlər doldu, Xəlil sağlıq başladı:

– Bu gün, – burada müvəffəq olmadığımız eşqdən söylədiklərimiz bizim aciz olduğumuzu göstərdi. Halbuki gənc, gözəl və canımız sulu vaxtı müvəffəq olmasaq, bir az sonra lap avara qalasıyıq. Bu yolda Rüstəmbəyin geridə qalması məni büsbütün məyus edir. Bərəkətlər ki, Cabbar kimi alıcı quşların aramızda olması işləri tamamilə dəyişir. Ovlamır, ovlamır, ovlayanda kəkliyi gözündən vurur...

– Heç cücə də vurmur.

– Aldığı arvadı gördük, yoluq qarğaya oxşayır, – deyə sözlər Xəlilin sağlığını kəsdi.

– Yoldaşlar, təvəqqə edirəm mane olmayın. Mən deyim qurtarım, siz də deyərsiniz... Məncə, Cabbar alıcı quşdur. Aldı da, kişi olduğunu da göstərdi; nər kimi bir oğul da qazandı...

– Özündən deyil!

– Görəsən hansı dalandardandır, – deyə eşidilən replikalar yenə Xəlilin sözlərini kəsdi. Cabbar pərt oldusa da, acığını boşqablardakı məzələrdən alırdı. Yedikcə, otluğa buraxılmış camış kimi ağzı marçıldayırdı.

Nəhayət, uzun istehzalardan sonra qədəhlər qaldırıldı. Sonra məclisdəkilərin sağlığına birər qədəh içib, nitqlər söylədilər. Bilxassə Rüstəmbəyin səfəri münasibətilə onun şərəfinə badənuş olub, səmimi və həssas sözlər söyləndi. Axırda yenə Cabbarla əylənməyə və zarafata qalxışdılar.

Səftər söz aldı. Qaşlarını qaldırıb sərzənişlə:

– Cabbarın hər bir qabiliyyətindən danışıldı, amma ən böyüyü unuduldu, – dedi. Cabbar Səftərdən xeyirli söz baş verməyəcəyini duyub, əsəbi bir hal aldı; kirpiksiz gözlərini döyüb dişlərini qıcıdaraq, yanaqlarının arıq dərisini oynatmağa başladı. Səftər sözlərinə davam edirdi:

– Bunun iti bir burnu var, xörək iyini bir verstlikdən alar, o saat özünü yetirir...

– Ov tulası kimi, – deyə İmran fırlatdı.

– Yəni burnu elə məşhurdur? – deyə Xəlil əlavə etdi.

Cabbar yerindən qımıldanaraq:

– Ağzımı açdırmayın, paxırınızı açaram, – dedi, gözlərini bərəltdi və Səftərə tərəf yönələrək:

– Sən barı dinmə, səfarətxanada sülənirsən! Peşən rüşvət yeməkdir!..

Bir də şərabla dolu qədəh Cabbarın başına yamandı. Əlavə olaraq Səftər sıçrayıb Cabbarı yaxaladı. Hər kəs yerindən qalxıb bunları araladı. Məclisi sakit etdilər. Yemək bir müddət sükut içində keçdi. Bir də İmran qəhqəhə ilə Cabbarın başına bir qapaz salıb:

– Bu dil ki, səndədir, hələ çox döyüləcəksən, – dedi.

Cabbar İmranın hərəkətindən sınmayaraq, yeməyinin sürətini belə yavaşıtmadı.

Rüstəmbəy çamadanını toplarkən qapısının tıqqıltısını eşitdi. İrəliləyib qapını araladıqda bənizi qaçmış Cabbara rast gəldi. Bu adam dünəndən bəri bir az solmuş və bir az da incəlmişdi.

Rüstəmbəyi görcək rusca:

– Müsaidə et, girim, – dedi.

– Buyur.

Cabbar suçlu-suçlu içəri girdi və şeylərin qablanmasını görərək:

– Deyəsən, gedirsən? – deyə qərib adam kimi bir tərəfdə durdu. Rüstəmbəy yer göstərərək:

– İki saatdan sonra gedirəm, – dedi.

– Hansı şəhərdə olursan?

– Buçaçda.

– Avstriya şəhəri gərək olsun.

– Elə... Bağışla çamadanı qablayım, sonra danışaq.

– Yaxşı, sən işini gör, mən mane olmaq istəmirəm.

– Bu dəqiqə qurtarım... Yaxşı oldu gəldin, hələ vaxt var.

Rüstəmbəy əldəki şeyləri yığışdırıb, çamadana və sakvoyaja qabladı və otağı dürüst yoxladıqdan sonra saatına baxıb əllərini yudu, sildi və oturdu.

Cabbar hörmətkar bir tərzdə:

– Bilirsən, – dedi, – buraya müəyyən bir məqsədlə gəldim... Dünən sənin yanında nəzakətsizlik oldu. Mənim sinirlərim pozğun, bizim adamların da tərbiyəsi yox. Bilirsən dünəndən bəri nə qədər mənəvi əziyyət çəkmişəm. Gecə sabaha qədər yatmamışam...

Cabbar sözlərinin davamına müstəid deyildi; birdən doluxsunub, gözlərindən yaş süzələndi.

Rüstəmbəy heç bir söz söyləməyərək onu seyr etməyə başladı. Cabbar cibindən girli bir dəsmal çıxarıb gözlərini sildi; sonra qoltuğundan bir yırtıq dəftər çıxarıb, içindən bir rəsm götürdü. Rüstəmbəyə uzatdı:

– Bax, – dedi, – bu mənim oğlumdur, – bu sözlərlə bərabər Cabbarın üzündə məyus bir təbəssüm parlayıb sönərək əzab cizgilərinə dəyişildi. – Bax, dodaqları mənimkilərin tibqi deyilmi? İftiralar nəyə lazım?

Cabbarın gözləri yenə yaşla doldu. Bir neçə dəqiqəlik sükutdan sonra şikayətedici səslə:

– Bir il əvvəl görürəm “Kaspi” qəzetində yazılmış: “Kiyev tələbələrindən Cabbar Salah oğlu fücətən vəfat etdi”. Buradan hansı xəbis isə qəzetə belə bir məlumat vermişdi... Bu vəhşətə qarşı nə deyəsən; sən bu sürüdən vətən və millət xadimliyi gözləyirsən...

Rüstəmbəyin təkrar saata baxması Cabbarı düşündürdü: sözlərini yarımçıq kəsib dik qalxdı.

– Bağışla, – dedi, – səni rahatsız etdim. Ürəyimə toplananları sənə söyləmək üçün gəldim... Bəzən mühit mənə çox ağır görünür...

Rüstəmbəy Cabbara təsəlli verdi, deyilənlərə çox da əhəmiyyət verməməsini tövsiyə edərək, zəngi basdı. Bir dəqiqə sonra qarson hazır oldu. Rüstəmbəy fayton çağırmasını rica etdi. Qarson haman çəkilib getdi, Cabbar da təkrar üzr istəyib, otağı tərk etdi.

# ÜÇÜNCÜ HİSSƏ

## 1

Ternopola doğru yürüyən tren başdan-başa siyasi münaqişəyə qapılmışdı. Birinci sinifdən tutmuş üçüncü sinfə qədər – hər kəs qruplara ayrılıb, bəhs etmədə idi. Leninin nitqləri, "Pravda"nın məqalələri, bolşevik təbliğatı hər şeydən artıq beyinləri atəşləndirmişdi. Artıq müharibənin əvvəllərində süni olaraq coşdurulmuş vətən hissi sönmüşdü. Burjua qəzetlərinin təhrikinə baxmayaraq, "Son zəfərə qədər müharibə" şüarı da ölmüşdü. Kerenskinin cəbhədə hücuma keçilməsi əmri də əksəriyyət arasında təsir doğurmamışdı. Sülh və asayiş xəyallarda hökm sürən yeganə bir qüvvə idi. İnqilabdan razı olmayanlar üçün hələ vətən, boş da olsa bir məna ifadə edirdi. Bunlar müharibənin davamını, müttəfiqlər arasında imzalanan müahidələrə riayət edilməsini, zəif səslə də olsa, irəli sürürdülər. Komandan qismi isə olduqca bədbindi, ordunun hərbə müstəid olmasına inanmırdı.

Rüstəmbəylə birinci sinifdə əyləşən bir general deyirdi:

– Kerenski Fransa inqilabını sətirbəsətir təqlid edirdi. O vaxt Parisdə olan hadisələr ordunun zəfərinə mane olmurdu. Bu hal bizdə tətbiq olunarmı? Mərkəz deyil, bütün Rusiya başdan-başa çaxnaşmışdır. İllərdən bəri səngərlərdə bit basan soldat arxaya, evinə və ailəsinə baxır. Vətən hissi bizdə hələ inkişaf etməmişdir.. Mədəni səviyyəmiz sıfra müsavidir. Ərzaq böhranı Rusiyanı dalğalandırır. Bunları kor gözləri ilə görməyən Kerenski əlindəki qırmızı dəsmalla soldatda inqilab hissi oyatmağa qalxışır. Bu adam sanki səhnədə diktator rolu oynayır, həyatla heç bir əlaqəsi yoxdur. Dövlət işləri kəndirbazlığa dönmüş.

Qarşıda oturan keşiş müsahibinin sözlərini təsdiq edərək, uzun saqqalını tərpədirdi:

– Əh! – deyirdi, – cuhudlar müqəddəs Rusiyanı batırdılar. Taxt yıxıldı, kilsə ləkələndi, əxlaq pozuldu...

Döşü darülfünun nişanlı bir zemstvo əməkdaşı gülə-gülə keşişin sözlərini kəsdi:

– Ata, – dedi, – bədbinliyiniz, zənnimcə, yersizdir; inqilab olmasa yenilik doğulmaz. İnqilab zəruri idi. Təbii pozğunluqların bir gündə düzəlməsini ummaq da əbəsdir...

İnqilab Qərbdə sənələrcə davam etmiş. Bizdə də, şübhəsizdir ki, uzun sürəcək.

Keşiş əllərini havada fırladaraq:

– Əcəb təsəlli verirsiniz! – dedi. – Biz inqilaba hazırmıyıq? Rus mujiki fransız kəndlisi ilə müqayisə edilərmi? Biz bunları din və taxt nüfuzu ilə saxlayırıq. Bu gün bu iki qüvvə yıxıldıqdan sonra mujikin vəhşətinə qarşı nə ilə sədd çəkəcəyik?

Zemstvo əməkdaşı gülümsünərək:

– Ata, – dedi, – zahiri qüvvə ilə adam idarə olunarmı? Mujikdə şüur oyatmalı, onu hazırlamalı, mədəniləşdirməlidir.

General sərt nəzərlə zemstvo əməkdaşını süzdü və ona xitabən söz deməyə tənəzzül etməyən kimi üzünü keşişə çevirdi və istehza ilə:

– İştə, hürriyyət mujikdə şüur oyatdı; hər yerdə üsyan olur, nəticədə də vətən torpağını düşmənə tərk edirik. Başqa yerlərdən vaz gecəlim, keçdiyimiz stansiyalara baxın da, görün nə uyğunsuzluqlar törənir; hər yerdə mujik abadanlığı yıxıb dağıdır.

– General o qədər xəşin bir hala düşmüşdü ki, əməkdaş bir daha ağzını açmağa belə cəsarət etmədi.

Rüstəmbəy ətrafındakılarla mübahisəyə girişməkdən çəkinirdi, bu adamlar ona olduqca yabançı görünürdü. Hər yerdə eşitdiyi siyasi söhbətlər onu təngə gətirmişdi. Qalxıb koridora çıxdı. Qonşu vaqonda bir ukraynalı bir dəstə rusla söz güləşdirirdi. Ruslardan biri:

– “Ukrayna” məmləkətin kənarındakı torpağa deyilir. Bu adda bir dövlət olduğu bizə bəlli deyil. Sonra milli dili, mədəniyyəti mənliyi olmayan bir insan kütləsinə “millət” deyilmirmi?

Ukraynalı dərin bir küdurətlə:

– Ukrayna olanda hələ Moskva dövlət təşkil etməmişdi. Mədəniyyətə gəldikdə siz bizim deyil, biz sizin müəlliminiz olmuşuq. Siz Velikoruslar hər şeyi inkar etməyə öyrənmisiniz. Başqa millətləri məhkum edərək, cinayətkar hərəkətinizi doğrultmağa çalışırsınız... Bax da, bizim dilimiz yoxmuş. Bəs, Şevçenko “Kobzar”ını nə dildə yazmışdır.

– Yox, əfəndim, bu fırıldaqçılıq artıq davam etməz: millətlər öz müqəddaratlarını özləri təyin etməlidirlər...

Rüstəmbəy vaqonları dolaşdı, hər yerdə eyni – Kerenskinin Kiyevə gəlməsi, paytaxtda işçilərin nümayiş edib hakimiyyətin şuralara verilməsini istəmələri, milli məsələ ətrafında münaqişələr, sülhmü,

müharibəmi?.. kimi məsələlərin beyinləri alovlandırması. Hər şeydən artıq bolşeviklərin elan etdikləri şüarlar əksəriyyət arasında rəğbət qazanmada idi.

Rüstəmbəy bu haldan olduqca məmnun qalaraq, vaqonuna dönüb uzandı.

2

Rüstəmbəy idarəsinə dönüb, vəziyyəti tamamilə dəyişilmiş gördü: əməkdaşlar Vanyanı müfrizə başçısı seçmişdilər. Bundan əsla dilgir olmadı. Vanya ilə səmimi olaraq görüşdü və "bir həftə sizə qonağam, sonra Kiyevə dönəcəyəm", – deyə əvvəlcədən xəbərdarlıq etdi.

Günorta yeməyindən sonra Rüstəmbəy bir az istirahət edib, hamama getmək istədi. Vanya brek qoşdurdu. Rüstəmbəy arabaçı Pleşşukla yan-yana oturub yola düşdü.

Pleşşuk sabiq ağasına qarşı hörmətinə davam edirdi. Rüstəmbəyin xidmətindən xaric edilməsi bu hörmətə yoldaşlıq rəngi vermişdi.

Rüstəmbəy:

– Nə var, nə yox? Necəsiniz? – deyə Pleşşukdan soruşdu.

Pleşşuk çoxdan söhbətə hazır kimi:

– Nə olacaq? Hər işlər pozulan kimi, müfrizə də pozuldu. Bütün bölüklər işdən çəkilib, buradakı meşəyə yığılmışdır. Əməkdaşlar keflə məşğuldurlar... Sizin gəlmənizdən heç də məmnun olmayacaqlar. İndidən sizə xəbər verirəm...

Bu sözlərdən sonra Pleşşuk Rüstəmbəyin üzünə zənlə baxdı və sözlərinin təsirini görməyib susdu. Rüstəmbəy onu məyus etməmək üçün:

– Cəbhədən nə eşidilir? – deyə sordu. Pleşşuk açılışdı:

– Hələ bir xəbər yoxdur. Ancaq buradakı qol ordunu göndərmək istədilər, soldatlar getmədi. Mitinqin qərarı bu oldu.

Rüstəmbəy gülümsündü. Pleşşuk da gülümsünərək:

– Yoldaş müdir, – dedi, – xalq yorulmuş, müharibəyə həvəs qalmamışdır...bir də, bağışlayın, mən çox oxumamışam, amma müharibənin mənasını anlayıram. Bizi ölümə yollayırlar, ortalıqda kapitalistlər pul qazanır...

Pleşşuk sözlərini qurtarıb, cəsarətsiz olaraq Rüstəmbəyi süzdü və onun üzündəki təbəssümdən ilham alıb, iclaslarda eşitdiyi fikirləri bir-bir ona söylədi.

Rüstəmbəy Pleşşukun tamamilə bolşevik təsirinə düşdüyünü duydu; çünki təxir etmədən sülh yapma, düşmən əsgərləri ilə qardaşlaşma, hakimiyyətin əməkçilərə verilməsi kimi fikirlər milyonların ruhunda zəmin bulan bolşevik məhsulu idi.

Rüstəmbəy böyük maraqla:

– Mitinqlər tez-tez olurmu? – deyə sordu.

Pleşşuk sevinclə:

– Tez-tez...İndi iş adama yapışmır; hər kəsi mitinqdə, iclasda, kitabxanada, savad kursunda görərsiniz. Soldatlara dərs deyirlər. Onlara məruzə olur. Hamının gözlərini açmaq istəyirlər... Bilirsiniz, çar idarəsi və keşişlər xalqı qaranlıqda saxlamışdı, indi hürriyyətdir.

Brekin hamamın qapısında dayanması Pleşşukun sözlərini yarımçıq buraxdı. Rüstəmbəy camaşırını götürüb, zemstvo təşkilatı tərəfindən taxtadan yapılmış hamama getdi.

3

Axşam Vanyanın bir qonağı gəlmişdi. Seyrəksaqqal, sarıbəniz bu adamın əynindəki köhnə pencəkdən poçt məmuru olduğu duyulurdu. Məmur ibtidai məktəbi bitirdikdən sonra poçta girmiş və iyirmi il cürbəcür poçt qulluqlarında bulunduqdan sonra, nəhayət, hürriyyət sayəsində poçta vida demiş və bir aylıq təbliğatçı kursunu bitirib, cəbhəyə göndərilmişdi. Bunda o qədər həvəs vardı ki, ilk çıxışını səbirsizliklə gözləyirdi.

Vanyaya müraciət edərək:

– Siz yalnız hansı iclasda danışacağımı bildirin də, yerdə qalanını özüm bilərəm, – deyirdi.

Vanya vüqarla:

– Yoldaş, sizi yoldaş Quxmana təhkim etmişik, sabah gedib görüşərsiniz. Bu gün gəldiniz, tələsməyin, sabah işə başlarsınız.

Məmur təkrar-təkrar eyni məsələyə dönmək istəyirdi.

Rüstəmbəy hər gün Vanyanın yanına cürbəcür adamların gəlib təlimat aldığını görürdü. Vanyanın artıq rəsmən bolşevik firqəsinə daxil olduğu bəlli olurdu.

Vanya bir gün Rüstəmbəylə uzun-uzadı danışdı, bolşeviklərin siyasi proqramlarını izah edib, onun da firqəyə girməsini tövsiyə etdi.

Rüstəmbəy həmişəki kimi, yenə açıq danışmaqdan çəkinərək, firqəyə girməməsinə bəhanələr gətirdi.

Vanya mehriban səslə:

– Rüstəmbəy, – dedi, – monarxist olmadığınızı bilirəm; biləks, çarlığa düşmənsiniz. Hürriyyəti səmimi olaraq istəyirsiniz; kadetlərin xətti-hərəkətləri xoşunuza gəlmir; onların İstanbula göz dikmələri sizin sinirinizə belə toxunur.. Deməli, yolunuz sosialistlərlə birdir..., bolşeviklərdən başqa həqiqi sosialistlər varmı?

Rüstəmbəy gülümsünərək:

– Bunların hamısı doğru, – dedi. – Lakin... mən məhkum millətə mənsub olduğum üçün, federasiyadan başqa yol tanımıram. Bolşeviklər federasiyanı tanıyırlarsa, gec-tez onlarla qol-qola gedəcəyimə əmin ol.

Vanya müzəffər bir sima ilə firqəsinin milli məsələ haqqındakı bütün qərarlarını izah etməyə başladı. Nəticədə Rüstəmbəydən qəti bir cavab almayaraq susdu.

Ağır və uzun sükutdan sonra başqa bir mövzu sahəsinə keçilib söhbət qızışdı. Köhnə xatirələr, macəralar canlı lövhələr kimi gözlərinin önündən keçərək, onları gecənin yarısına qədər əyləndirdi.

4

– Cəbhə yarılmış!

– Almanlar gəlir!

– Düşmənin süvarisini yaxın kənddə görmüşlər!

– Axırımızdır!.. – deyə ətrafdan səslər eşidilir.

Həyəcan bütün xalqı şaşırmışdı. Rüstəmbəy küçəyə çıxdı. Rəngləri üzlərindən götürülmüş adamların hərəsi bir tərəfə qaçırdı; küçəni başa çıxıb, şəhərin ortasından gecən şose yola yaxınlaşdı... Burada gördükləri təsəvvürün fövqündə idi: avtomobillər, adi arabalar, batareyalar, zirehli avtolar, süvarilər, əlvan alaylara mənsub əlitüfəngli və tüfəngsiz soldatlar, inəklər, atlar... bir-birinə qarışaraq sürətlə çəkilirdi. Cəbhə başdan-başa çözülüb Rusiyaya doğru axırdı. Səsdən və taqqıltıdan qulaq tutulurdu. Hər kəs bir-birini əzib, ön tərəfə keçmək istəyirdi. Avtomobillər xırda arabalara toxunub aşırır; adamlar tapdalanır; hərbilər zemstvo karvanını yarıb atlamağa çalışır... Bəzən dəhşətli qovğalar olur, başlar yarılır. Qüvvətlilər basıb keçir, zəiflər arxada qalır. Şose yolu daşqın çay şəkli almışdı...

Rüstəmbəy geri döndü. Yolda onu addım başına bir zemstvo əməkdaşı durdurub: "Bizim halımıza qalan varmı?" – deyə soruşurdu. Qadınlar göz yaşı tökürdülər. Rüstəmbəy təsəlli verə-verə baş idarəyə gəldi. Haman, ictimai təşkilatların komitəsinin fövqəladə iclası çağırıldı. Beş dəqiqə sonra üzvlər hazır oldular. Vəziyyət aydındı – çox danışılmadı: bütün fikirlər Buçaçı tərk etmək ətrafında toplandı. Rüstəmbəy söz istədi:

– Yoldaşlar, bütün ictimai təşkilatları və onların əməkdaşlarını qurtarmaq üçün bir adama fövqəladə səlahiyyət verməliyik və onun bütün əmrlərinə tabe olmalıyıq, – dedi.

Hər kəs bu fikri təsvib etdi, yalnız bir qız etiraz edərək:

– Yoldaşlar, – dedi, – inqilabın bizə verdiyi ən böyük feyz məsələnin müştərəkən həll edilməsidir. Bu haqdan bizi məhrummu etmək istəyirsiniz?

Rüstəmbəy sinirləndi:

– Yoldaş, – dedi, – düşmən bizi qoyun sürüsü kimi qarşısına qatdığı bir zamanda məsələ, özü də həyat məsələsi, müştərəkən həll edilməz.

Can qorxusu o qədər qüvvətli idi ki, qızın təklifi tərəfdar bulamadı.

– Namizəd göstərin, – deyə eşidilən kəsə cavab olaraq məclis Rüstəmbəyi irəli çəkdi.

Katib titrək əli ilə qərarı yazdı, imzalar atılıb Rüstəmbəyə verildi.

5

Rüstəmbəy bir dəqiqə qaib etmədən yüngül bir qazalağa minib, ərkani-hərb idarəsinə sürdü. Zemstvo təşkilatları hərbi cəhətcə baş mühəndisə tabe idi. Rüstəmbəy bağçaya nazir terrasda baş mühəndisə rast gəldi. Yaxından tanış olduğu bu adam həmişəkinə heç bənzəmirdi: bənizi qaçmış, huşsuz və özünü itirmiş bir halda idi. Rüstəmbəyin salamına belə cavab vermədi.

Rüstəmbəy:

– Vəziyyəti aydın təsəvvür edə bilmirik, – dedi. – Məsləhət görürsünüzsə şəhəri tərk edək.

Mühəndis onun sözlərini eşitmirmiş kimi, donuq bir halda üzünə baxıb, cavab vermirdi. Rüstəmbəy təkrar ricada bulundu. Bir neçə saniyəlik sükutdan sonra mühəndisin rəngsiz dodaqları qımıldanmağa başladı:

– Telefonu kəsmişlər, rabitəmiz qalmamışdır. Cəbhənin nərədə yarıldığını bilmirik... İstərsiniz çəkilin... Köçün! – deyə zəif səslə əlavə edib, Rüstəmbəyə əl vermədən ayrılıb getdi.

Rüstəmbəy qazalağı sabiq idarəsinə sürüb, Vanya ilə görüşdü:

– Vanya, – dedi, – bir saata hazırlan. Anbardan ləzgiləri çağır. Girəvənə gecən arabaları, atları səfərbərliyə al. On beş günlük məkulat götür. İdarənin qarşısında hazır olun, gəlirəm.

Rüstəmbəy zemstvo xəstəxanasına gəldi. Xəstələr həyəcan içində idi. Qısa olaraq xəstələrə:

– Sabah günəş doğmadan sizi şəhərdən çıxaracağam. Buna əmin olun! Qorxu və həyəcana lüzum yoxdur, – dedi. Rüstəmbəyin mətin və səmimi sözləri hər kəsdə ümid canlandırdı; üzlər güldü, ürəklərdə ona qarşı minnətdari hisslər nəşət etməyə başladı.

Rüstəmbəy xəstəxana küçəsində bir tövləyə təsadüf etdi. Qazalağı saxlayıb, içəri girdi. Axura on dənə at bağlanmışdı. Həyətdə bir neçə araba və fayton vardı. Hansı təşkilatın olduğunu sormadan araba və faytonların qoşulmasını əmr etdi.

Bir neçə dəqiqədən sonra, Rüstəmbəyin qazalağı başda olaraq, müfrizə idarəsinin qarşısına bir araba qafiləsi gəldi...

Vanya Rüstəmbəyin əmrlərini yerinə yetirmək üçün bütün adamlarını səfərbərlik halına gətirmişdi. İşləri təcili olaraq, bitirdikdən sonra yemək yeyib, məsləhətə oturdular. Əvvəlcə iki verstlik xəritəni qarşılarına qoyub, geri çəkiləcək yolu təyin etdilər. Zemstvo karvanının, bilxassə çəlimsiz arabaların şosedəki şiddətli axına davam gətirə bilməyəcəyini nəzərə alaraq, şərqə deyil, cənuba – Kamenets-Podolskiyə tərəf çəkilməyi məsləhət gördülər. Cəbhənin Ternopol cəhətində yarılması ehtimal edilərək, cənubun təhlükəsiz olduğu nəzərə alındı. Ümumi çaxnaşıqda bu yol qaçanların nəzərini cəlb etmirdi. Bura ilə çəkilmək tələsməmək imkanı verirdi. Bunun da çəkilənlər üçün əhəmiyyəti böyükdü: arabalar xarab olduqda qolayca təmir edilə bilərdi.

Bunu qərara alıb, çəkiləcək adamların sayı və on beş günlük məkulatı, minilən və yüklənilən arabaların miqdarı hesablandı. Vəzifələr bölündü. Bölüklər bir yerə toplanıb, arabalar yüklənməyə başlandı. Xəstəxanaya, idarələrə arabalar göndərildi. Ləzgilər başda olaraq, kiçik bir süvari dəstəsi təşkil olunub silahlanırdı.

Rüstəmbəy Məhəmmədi yanına çağırıb dedi.

– Məhəmməd, süvariləri al da şose yola get, zemstvo arabalarından az minikli və boşuna rast gəlsəniz, yoldan çevirib tövləmizə göndərin. Miniklərinə də buranı göstərin. Bildinmi?

– Bildim, ağa!

– Bəzən bir adam yekə arabanı məşğul edib qaçır, halbuki biz adamlarımızı doldurmağa araba tapmırıq, bildinmi? Miniyi çox arabaya dəyməyin.

– Bildim, ağa. Daha əmrin yoxdur ki? – deyə Məhəmməd təzim etdi.

– Yoxdur. Gedin, amma gecə saat beşə qədər yolu güdməlisiniz.

– Baş üstə, ağa, – deyə Məhəmməd getdi.

6

Rüstəmbəy paltarını çıxarmayaraq, quru səfər çarpayısının üzərində uzandı və sabaha qədər gözlərinə yuxu gəlmədi. Yayın gözəl gecələrindəndi. Hava sərin və sakitdi.. Yalnız şosedəki axın gurultusu təbiətin sükununa dəhşətlər saçırdı. Arabir idarənin önündən də arabaların və adamların keçməsi eşidilirdi. Bir-iki dəfə idarə pilləkəni ilə çıxıldığı da duyuldu.

Atışma səsi hələ eşidilmirdi. Yalnız göyün şimal-qərb tərəfində tez-tez qızartı parlayıb qaib olurdu.

Saat dörddə Rüstəmbəy yataqdan qalxdı və koridora yuyunmağa çıxdıqda Voronovu orada hazır gördü. Voronovun təziminə cavab olaraq:

– Voronov, – dedi, – alman gəlir, qorxmursanmı?

– Heç də yox, əfəndim həzrətləri, – deyə uzunboğaz çəkmələrinin dabanlarını bir-birinə çırpdı.

Səsə Nataşa da qalxdı. Dolğun ağ qollarını başının arxa tərəfinə söykəyərək, döşlərini qabartdı və nümayişkar bir halda gərnəşdi.

Rüstəmbəy üzünü cəld yuyub:

– Voronov, tövləyə get, söylə hazır olsunlar. Nataşa, südlə çörək! – deyə əmr verdi.

Bir neçə dəqiqə sonra Rüstəmbəy Vanya və başqa əməkdaşlarla yemək otağına girdikdə, orada baş örtüləri qırmızı xaçlı iki qıza rast gəldi. Bunlar gecə yoldan qayıdanlardan imiş, tanış oldular. Qızların biri uzunboylu, qara kirpikli, buğdayı sifət; o biri isə ortaboylu, dolğun

vücud, sarışındı. İki qızın bir-biri ilə danışığından ucaboylunun adı Musya olduğu bəlli oldu. Nədənsə bu ad Rüstəmbəyə çox xoş gəldi.

Nataşa yemək verdi. Hər kəs iştaha ilə yeyərkən qızlar çəkinirdi. Rüstəmbəy yağ və çörək götürüb, onlara təklif etdi və Musyaya ayrıca bir iltifat göstərməsi hər kəsin nəzərini cəlb etdi.

Rüstəmbəyin nəzakətinə qarşı Musyanın çöhrəsi parladı, gözlərində bir təbəssüm oyandı və çox çəkmədən yenə şux baxışı hüzn dumanlarına daldı. Rüstəmbəy gözlərinin altınca onu süzdü – yemək boğazından getmirdi, ətrafdan eşidilən hər bir səs və sədaya qarşı diksinib, gözləri yaşarırdı.

Yemək bitdi. Oturanlar ayağa qalxdılar. Əvvəlcə gedən Vanya dönüb karvanın hazır olduğunu söylədi. Rüstəmbəy cəld pilləkəndən enib, qazalağına mindi. Küçə başına qədər düzülmüş yüklü və minikli arabaları dolaşdı. Xəstələri bir-bir yoxladı. Hamı sevinc içində idi. Yerləri rahat olmayanları başqa arabalarda yerləşdirib, ön tərəfə keçdi. Süvarilər şoseyə yaxın durmuşdular.

– Məhəmməd, – deyə ləzgiyə müraciət etdi, – məni gözlə. Siz yolun sol tərəfindəki axını bir dəqiqəliyə dayandırarsınız, bizim karvan yola qoşulmaq imkanı bular.

– Baş üstə, ağa. Daha başqa əmrin varmı?

– Yox!

Rüstəmbəy təkrar geri döndü. Arabaların bir-birindən ayrılmamasını şiddətlə əmr etdi.

İdarədəkilərin hamısı küçə qapısında idi, bölük müdirləri də hazırdı. Zina həmişəki kimi şəndi. Bu təhlükələr ona dadlı bir macəra kimi görünürdü. Tez-tez Vanyanın qolundan dartıb, gülməli bir şeylər anladırdı. Musyanın gözlərində yuvarlanan yaşlar dan yerinin qızartısını əks etdirərək, gözəl üzünə lətif məsumiyyət bəxş etmişdi. Rüstəmbəy ona yanaşdı:

– Nə üçün qorxursunuz? Şayiələr tamamilə yalandır, alman süvarisi, görünür, hələ uzaqdadır. Yaxın olsa idi, dünəndən bəri buraya gəlmişdi. Əmin olunuz, sizi sağ-salamat Rusiya torpağına çıxaracağam.

Rüstəmbəyin mətin sözləri Musyanı sakit etdi.

– Bəs nə üçün ləngiyirsiniz? – deyə ərklə sordu.

– Bu saat yola düşürük. Buyurun mənim yanımda oturun. Musya məmnuniyyətlə razı oldu. Rüstəmbəy onun qayış gödəkçəsinin qoluna girib, qazalağına oturtdu. Özü də Musya ilə yan-yana oturaraq:

– Vanya, xanımları brekinə mindir, vaxtdır! – dedi. Rüstəmbəyin qazalağı ilə brek ön tərəfə keçdi. Arabaların tərpənməsinə əmr verildi. Süvarilər axını yararaq, yolun ortasına yeridilər. Bağırtı, təhdid və söyüşlə axının bir tərəfini dayandırdılar. Rüstəmbəy qazalaqda ayaq üstə durub, arxaya xəşin baxışlar göndərərək, şoseyə girə bildi. Yüzdən artıq arabadan mütəşəkkil zemstvo karvanı fövqəladə sürətlə Rüstəmbəyin arxasınca gedərək ümum axına qoşuldu.

7

Təqribən üç-dörd verstlik bir məsafədən sonra şoseni tərk edib, sağ tərəfə çönməli idi. Şəhər dairəsi bitib kəndlər başlayırdı. Şosenin o tay-bu tayındakı xəndəklər at cəsədləri və sınıb düşmüş arabalarla dolu idi. Rüstəmbəy Məhəmmədi çağırıb, yolun sağ tərəfindəki axına mane olmasını əmr etdi. Süvarilər yavaş-yavaş hücuma başladılar. Yenə söyüş, təhdid və qamçı qüvvəsi ilə yolun sağ tərəfi addım-addım istila olunmağa başladı. Karvan böyük çətinliklə məqsədinə çatdı. Artıq məsələ bitmiş hesab edilə bilərdi. Cənub yolu başlar-başlamaz karvan asanlıqla sağa dönüb, axından qurtardı. Bu yol tamamilə boşdu. Hər kəs Rusiyaya doğru gedən ən yaxın şərq yolunu təqib edirdi.

Asudəliyə çıxaraq, Rüstəmbəy qazalağının sürətini azaltdı və xoş bir təbəssümlə Musyaya baxıb:

– Musya, – dedi, – çətinlik bitdi; indi heç bir qorxu yoxdur. Yollar olduqca gözəldir, səfalı yerlərdə düşərgə qayırıb istirahət edəcəyik.

Musya Rüstəmbəyin sözlərindən son dərəcə məmnun olaraq gülümsədi və sağ yanağında lətif çökək zühur etdi.

Bir də, son araba karvandan qırılıb geridə qalmış – deyə xəbər gəldi. Rüstəmbəy, Vanya, Boris və bir neçə işçi piyada olaraq, xəndəklə yuxarı diklənməyə başladılar. Arabaya toxunulub, bir təkəri xəndəyə düşmüşdü. Boris üst tərəfə keçib yolla gələnləri qamçı ilə durdurmağa çalışdı. Şoseyə çaxnaşıq düşdü. Bir soldat arabasının qəflətən dayanması qəzaya səbəb oldu, arxadakı avtobus arabaya çarpıb onu xəndəyə sürüklədi. Boris özünü xəndəyin o biri tərəfindəki bostana atıb canını qurtardı. Bununla məsələ bitmədi, avtobus inersiyaya tabe olaraq, bir təkəri xəndəkdə olan arabanı da aşırdı. Atlar yıxılıb çapalamağa başladı. Hər tərəfdən söyüş və bağırtı qopdu. Vanya ilə Boris köməyə qoşdu. Arxadan Rüstəmbəy gəldi. Cəld atları açıb, bos-

tana keçirdilər. İşçilər qənd və un kisələrini daşımağa başladılar. Nəhayət, oxu sınmış arabanı da böyük zəhmətlə sağ yola çıxara bildilər.

Bu hadisə qadınlar üçün bir əyləncə oldu: hamı iki yolun ayrıcına toplanıb uzaqdan seyr edirdi. İşlərini müvəffəqiyyətlə bitirib geri dönən kişiləri qəhrəmanları qarşılayan kimi qarşıladılar. Rüstəmbəy Musyanın qoluna girib qazalağa mindi. Oxu sınmış arabanı və atları arxa tərəfə bağlayıb, yola düşdülər.

Günəş qalxmış, isti can sıxırdı. Karvan yavaş-yavaş yürüyürdü. Borislə Vanya Rüstəmbəyin qazalağı ilə yan-yana gedərək, söhbət edirdilər.

Vanya deyirdi:

– Tələsik çəkildik, çox şeylərimiz anbarda qaldı. Yaxındakı kənddə axşamlayıb, yükümüzü yenidən yoxlasaq fəna olmaz.

– Almanların yaxında olması da mübaliğəli imiş, – deyə Boris əlavə etdi.

Rüstəmbəy:

– Sınan arabanın yüklərini o birilərə yığdıq, onlar da sına bilər, arabanı da təmir etməlidir.

– Arabanın birini boşaldıb, anbarda qalan qənd və undan gətirməlidir. Niyə batsın...

Mülahizələr yürüdülərkən kənd də görünməyə başladı.

Kənddən yalnız bağçalı bir ev qalmışdı; yerdə qalanı uçub dağılmışdı. Burada qoca bir polyak ailəsi yaşayırdı. Bir qoca kişi və iki yaşlı qadından ibarətdi. Müharibə başlar-başlamaz bunlar gənc övladlarını Avstriyanın içəri cəhətlərinə göndərmişdilər. Vaxtilə müəllimlik edərmişlər, indi artıq üç-dörd ildən bəri evə gözətçilikdən başqa sənətləri yoxmuş. Otaqların birində özləri qalıb, yerdə qalanı ötüb gecən hərbilərin mənzili olur. Vaxtilə gözəl olan bu ev indi olduqca dağılmış, heç bir təmir də görməmişdi. Bağça da xaraba halda idi.

Karvan evin qarşısında dayandı. Borisi ev sahibinin yanına göndərdilər. Bir az keçməmiş Boris gülə-gülə evdən qayıtdı:

– Gəlin! – deyə yoldaşlarını çağırdı.

Borisin arxasınca ev sahibi də çıxdı. Başının seyrək tükləri səliqə ilə daranmış, ağ bığları burulub, ucları yuxarı qaldırılmışdı; üzü yenicə qırxılmışdı və qulaqlarında pudra izləri görünürdü. Əynindəki köhnə ağ şalvardan, mod boyunbağıdan vaxtilə səliqə ilə geyinməsi duyulurdu. Nəzakətlə qonaqlara təzim etdi və polyak şivəsi ilə:

– Xoş gəlmisiniz, əfəndilər! – dedi.

Otaqların biri qadınlara, ikisi də kişilərə təxsis olunub, səfər çarpayılarını və yataqları oraya daşıdılar.

8

Axşam yeməyinə ev sahiblərini də çağırdılar. Kişi qara pencəkli və qarılar da şleyfli, qara atlaz paltarda gəlmişdilər. Əllərində uzun zəncirləri boyunlarına keçmiş lornetləri də vardı. Dörd il davam edən müharibə, qan və vəhşət bu ailənin kübar adətlərini pozmamışdı. Evlərində piano varmış və hər gün sevdikləri kompozitorlardan birər parça çalarmışlar.

Polyak ailəsinin gəlməsi mədəniyyət ətrafında bəhs açılmasına səbəb oldu.

Vanya Avstriya mədəniyyətinin rus mədəniyyətindən yüksək olduğunu etiraf etməklə bərabər bu mədəniyyətin müəyyən sinfə mənsub olmasını irəli sürürdü.

– Mədəniyyət nə deməkdir? Müəyyən sinfin yaratdığı bir məhsuldur. Avstriyada da mədəniyyət yaradan zadəgan və burjuaziyadır. Əməkçi xalq bundan istifadə edə bilmir. Rusun kəndlisi savada belə möhtac olduğu halda, polyak panları mədəniyyətin hər sahəsini mənimsəmişdilər.

Ev sahibi nəzakətli bir tərzdə sinif məsələsini rədd edərək, mədəniyyəti milli zəkaya isnad etdi:

– Polyakların əksəriyyəti mədənidir, – dedi, – rusinlər isə mədəniyyəti mənimsəyə bilmirlər. Çox tənbəldirlər. Baxın, zadəgan və burjuaziyası belə polyaklara nisbətən çox geridirlər.

Boris yavaş səslə:

– Pan, – dedi, – bizim Rusiyada hökumət xalqı qaranlıqda saxlayırdı. Onlara məktəb açmırdı. Mədəni imtiyazlardan yalnız bir qrup istifadə edə bilirdi.

Ev sahibi:

– Ədalətlə söyləməliyəm Avstriyada qanun qarşısında hər kəs bərabərdi.

İndiyə qədər sakit duran Olesya (Musyanın yoldaşı) birdən dilləndi:

– Pan, – dedi, – məsələ sizin dediyiniz kimi də deyil; baxın, mən iki ildir cəbhədəyəm. Burada qanunun hər kəsi bərabər tutduğunu

görmürəm. Ukraynalılar daim əzilmiş, istismar olunmuş və onları müdafiə edən də olmamış. Hökumətə yaxın olan polyak zadəganı öz millətlərindən başqa kimsənin halına qalmamışdır. Hər şey polyakın, başqasının canı çıxsın! – demişlər. Daha qanun qarşısındakı bərabərlik harda qaldı?

Olesyanın ukraynalı olub milli məfkurə daşıdığı ilk dəfə olaraq meydana çıxdı. Olesya istər polyaklara, istərsə ruslara qarşı bəslədiyi düşmənçiliyi açıqdan-açığa bildirirdi. Polyak və rus gəlmələri əvəzində "lyax" və "moskal" kimi təhqiramiz sözlərdən belə çəkinmirdi. Rus və polyak dillərini bildiyi halda, hər kəslə yalnız ukraynaca danışırdı.

Məclisdə milli məsələnin kəskin bir şəkil alacağını, duyan Rüstəmbəy məclisi pozmağa çalışırdı:

– Yoldaşlar, münaqişəni buraxın da, gözəl gecədən istifadə edək; gəzmək istəyənlər qalxsınlar, – deyə özü qalxaraq, örnək olmaq istədi. Onu mütəaqibən qadınlar yemək masasını tərk etdilər.

Rüstəmbəy Musyanın qoluna girib, yolun qırağına doğru seyrə çıxdı.

## 9

Axşam qənd, yağ və un üçün iki araba göndərilmişdi. Bunlar sabah erkən dolu gəldi. Rüstəmbəy ot biçdirib, üzərində yatmışdı. Səsə oyandı. Hamı qalxdı; arabaçılar hələ yatırdı. Gecə bunlar müfrizə aptekindən spirt oğurlayıb içmişlərmiş. Oyadılıb töhmətləndirildilər. Sərxoşların sayəsində karvan ancaq günəş qalxan zaman yola düşə bildi. Ev sahibləri ilə səmimi olaraq vidalaşdılar və xoş təsir buraxmaq üçün onlara təqribən iki aylıqlarını təmin edə biləcək miqdarda məkulat verildi.

Yazlavesə qədər yol tanışdı. Ötəki tərəfini görmədikləri üçün əməkdaşlara maraqlı gəlirdi. Gözəl şoselər, abad qəsəbələr gözə çarpırdı. Lakin hər yerdə də rusin kəndliləri avam və qeyri-mədəni kimi görünürdü.

Bir neçə günlük səyahətdən sonra karvan Kamenets-Podolskiyə çatmadan şərqə dönüb, köhnə Rusiya hüdudunu keçdi. Avstriyanın gözəl şoseləri çınqılla döşənmiş rus şosesi ilə əvəz olundu.

Axşamdan çox keçmiş bir kəndə yetişib, keşişin evində qonaq qaldılar. Keşiş vətəndaşlarına əlindən gələn hörməti etdi, bütün əmək-

daşlara ağ çörəklə süd verdi. Vətənpərvər bir hisslə ordunun övzaını sordu və cəbhənin pozulmasından olduqca mütəəssir oldu. Karvan kəndin qəbiristanını düşərgə edərək, orada gecələdi.

Kənddə qəzet olmadığı üçün vəziyyətin nə halda olduğu aydınlaşa bilmədi. Alman haralara hücum etmiş, nə qədər əsir düşmüş, bu məğlubiyyətin daxildəki təsiri necə olmuş... Bu kimi suallara hər kəs cavab arayırdı da, tapa bilmirdi. Bunun üçün mədəni mərkəzə yetişmək əməkdaşlar üçün bir məfkurə təşkil edirdi. Lakin gedəcəkləri Proskurov şəhərinə qədər xəritədə belə bir mərkəz görünmürdü. Yollar həp kəndlərdəndi.

İkinci gün bir zadəgan köşkünü düşərgə etdilər. Ev sahibləri polyak imiş, vaxtilə paytaxta köçüb, evə gözətçi olaraq, bir xanım qoymuşdular. Bu xanım zemstvo karvanını düşmənçiliklə qarşıladı. Buna baxmayaraq əməkdaşlar köşkün bir hissəsində yerləşdilər. Köşk ikimərtəbəli böyük evdi. Qiymətli mebeli və təfrişatı, muzeyi vardı. Geniş zalı, bilyard otağı, zəngin kitabxanası, həyətində oranjereyası və döl heyvanları vardı. Köşkün ətrafında səliqə ilə bağ salınmışdı.

Köşk olan kənd böyükdü və başdan-başa yeknəsəq komalardan ibarətdi. Hələ kəndə girərkən kaşanə ilə yan-yana duran yoxsul damlarını görən Vanya:

– Baxın, bu onlarca fəqir komalar qazandığını bu parazitlər yeyir, – demişdi. Sonra intiqam hissi ilə titrəyən səslə: – Bunların hamısını sakinləri ilə bərabər yıxıb məhv edəcəyik! – deyib əlavə etmişdi.

Olesya da köşkün polyaka mənsub olduğunu duyar-duymaz milli ədavəti coşmuşdu:

– Bu istismara qarşı Ukrayna milləti laqeyd qala bilərmi? – deyə köksünü ötürmüşdü.

## 10

Gözətçi qadının etirazına baxmayaraq, həyətin bir guşəsində ocaq qalanıb, yenicə kəsilmiş qoyunun ətindən xörəklər hazırlanırdı, tüstü həyəti bürümüşdü. O biri tərəfdən Venus heykəlini əhatə edən çiçəklik döşənmiş, əməkdaşlar kefə məşğuldular. Spirtdən yapılmış araq və əlvan məzələr düzülmüşdü. Qadınların başına çiçəklərdən qayırma taclar qoyulmuşdu. Vanya tacı qızıl, Rüstəmbəy bənövşə və Boris də sarı çiçəklərdən yapmışdı. Qızıl – eşq ya inqilab; bənövşə – nəfislik;

sarı da – vəfasızlıq mənasına idi. Qadınlar öz taclarından olduqca məmnun qalmışdılar. Bilxassə Zina nəşəsindən bayılırdı; Borisin onu Vanyaya qısqanması Zinaya həzzlər verirdi. Qadınını vəfasızlıqla qəbahətləndirən Boris zahirən Olesyanın yanında oturmuşdusa da, bütün varlığı Zinaya bağlı idi. Zinanın Vanyaya qarşı işvəkar davranması onu odlayırdı. Gitaranı bağrına basıb, üfüq bəkarətini hələ üzlərində daşıyan məhcub aya baxaraq, simləri ağladır. Vanya Zinanın boynunu qucaqlayıb, yanıqlı şərqilər söyləyirdi.

Rüstəmbəy qədəhlərin doldurulmasını təklif edib, sağlıq başladı:

– Yoldaşlar, – dedi, – bu axşam eşq ilahəsi Venusun qonaqlarıyıq. Aydın gecə, nəfis hava, ətraf çiçək, hamımızın köksündə gənc ürək çarpıntısı... bunlarda böyük bir sirr, dərin bir məna yoxmu? Venusun dodaqlarında həkk olan lətif təbəssümə baxın. Bu təbəssüm eşq ilahəsinin bizdən məmnun olduğunu göstərmirmi? İlahəni daha məmnun etmək üçün onun təmsil etdiyi daimi hissin şərəfinə içəlim. Yaşasın eşq! Yaşasın hisslərimizi tac edərək, başlarında daşıyan qadınlar!..

Hər tərəfdən:

– Yaşasın! – deyə, – səslər eşidildi. Rüstəmbəy qədəhini qaldıraraq, qadınları alqışladı və gözləri Musyanın gözlərinə sataşdıqda, bir az dayanıb, sonra coşqun bir halda:

– Musya, ey təsadüfün tufanından dərilmiş çiçək! Eşq ilahisinin qarşısında and içirəm ki, sizə qarşı ən incə, ən nəfis və ən yüksək hisslər bəsləyirəm. Gözəl saçlarınız üzərində iftixarla yerləşən tac solar, ancaq o tacın təmsil etdiyi hisslər solmaz! – deyə nitqinə xitam verdi.

Rüstəmbəy alqışlandı. Zina kinayə ilə:

– Rüstəmbəy, şairanə mühit və araq sizi də həssas etmiş, – deyə qədəhini onun qədəhinə vurdu.

Məzələr bitib, xörəklər gəldi. Keçirilən qorxu, əziyyət və yorğunluğu unutmaq ehtiyacı hələ də qüvvətli idi. Voronova araq hazırlanması əmr olundu. Sərxoş beyinlər yenidən dumanlanmağa başladı.

Bu dəfə bölük müdiri Kasparyanın təklifi üzrə Rüstəmbəy tamada seçildi. Məclisin indiyə qədər nizamsız getməsinə təəssüf edərək, iştirak edənlərin sağlığına "nizam"la birər-birər içildi. Bölük müdirləri də varlıqlarını bildirməyə başladılar. Kasparyan söz istədi:

– Yoldaşlar, – dedi, – iş göstərməsə, insanı tanımaq olmazmış. Məsələn, biz Rüstəmbəyi bir tələbkar amir, intizampərvər iş adamı, başqasını işlədən, bəzən sərt və özü də ifrat işləyən bir adam kimi ta-

nıyırdıq. Rüstəmbəy fanatik bir rəhban kimi həyat keçirirdi, həsrətində olan qadınlar ona yanaşmağa belə cəsarət etməzdilər, çünki “iş vaxtı yalnız iş” onun başlıca şüarı idi... Yoldaşlar, ricət qorxuları və yol sarsıntılarından sonra biz Rüstəmbəydə yeni sifətlər kəşf edirik. Rüstəmbəyin böyük məclis adamı və gözəl yoldaş olması meydana çıxır...

Bu həqiqi amirin və səmimi yoldaşın şərəfinə içəlim.

– Yaşasın Rüstəmbəy! – deyə səslər qopdu.

Boris gitaranı kökləyib çaldı. Vanya da şərqi söylədi.

## 11

Gənc əməkdaşlar məclisin axırına qədər davam edə bilməyib, bir-bir cərgədən çıxdılar. Bunların bəzisinin qolundan və qıçından yapışıb, otun üzərinə uzandırdılar. İçkidən özlərini qaib etmişdilər. Böyüklərdən Boris, Kasparyan və Zinadan başqa kimsə qalmadı. Zina da içmişdi: lakin mətin və nəşəli idi. Rüstəmbəy:

– Məclisin sonunu Venusun pərəstişi ilə bitirəlim, – deyə təklif etdi.

Qalxdılar, çiçəklər dərib, eşq ilahəsinin saçlarını, gərdənini və sinəsini bəzədilər. Sonra bir qız, bir oğlan əl-ələ tutaraq Venusun önündə diz çökdülər və sitayiş edər kimi baş əyib, bir-biri ilə öpüşdülər.

Bununla məclisə xitam verib, qoşa-qoşa gəzməyə getdilər.

Çiçəklikdən sonra xiyabanlar başlayırdı. Əsgər kimi düzülmüş çinarlar uzun kölgələr salmışdı. Dərin bir sükut ətrafı bürüyərək kainatla həmahəng olmuşdu. Zina Vanyanın, Olesya Kasparyanın, Musya da Rüstəmbəyin qolunda idi. Arxadan əlli addımlıq bir məsafədə Boris onları izləyərək, gitarası ilə dərdləşirdi; simlər gecənin istirahətinə qarşı fəğanlar qoparırdı.

Musyanın incə geyimi hərarət saçırdı. Rüstəmbəy gənc qızın hərarətindən xoşlanıb, sözlə ifadə olunmaz həzzlər duyurdu. Musya yapdığı təsiri sövqi-təbii ilə hiss edir və Rüstəmbəyin üzünə həsrətlə baxırdı. Rüstəmbəy bir söz söyləməyib, məst və məsud addımlarla səthi yaldızlanmış gölçəyə doğru yürüyürdü.

Musya dayandı, əlini Rüstəmbəyin qolundan çıxarıb, saçlarını düzəltməyə başladı. Titrədilən saçlardan havaya ətir saçıldı. Saçlarını nizama saldı və arxa tərəfə çönüb, uzun xiyabanı süzdü:

– Bu xiyabanın adını bilirsinizmi? – dedi.

Rüstəmbəy qızın qarşısında məst bir hal alaraq, cavabdan aciz qaldı. Musya:

– Xiyabanın adına “Hələ ifadə olunmamış fikirlər” deyərlər, – deyə öz sualına özü cavab verdi.

Rüstəmbəy gülümsədi; lakin gülümsənməsi ilə Musyanın məramını anlamaması meydana çıxdı. Musyanın ürəyi sıxıldı. Məyus bir halda yola davam etdi və bir-iki addım da Rüstəmbəydən irəlidə yürüməyə başladı.

Gölçə ayın sədəf hədiyyələrini köksünə toplayaraq uyuyurdu. Sallama söyüdlər pərişan kölgələri ilə gölçənin bir tərəfini istila etmişdi. Hər şeydə eyni ifadə, eyni təzahür vardı: sükun, dərin sükun... sirr hər yerdə hökmfərma idi.

Kölgəliyə sıxılan bir skamyaya oturdular. Rüstəmbəy qolunun birini skamyanın söykənəcəyinə buraxıb qaldı, Musya bir az ona meyllənərək, oturub əvvəl sükutu pozmağa cəsarət etmədi.

Kasparyanla Vanya da gəlib gölçənin ötəki tərəfində yerləşdilər. Boris görünmürdü, yalnız yanıqlı şərqisi uzaqlardan eşidilirdi.

Musya üçün Rüstəmbəy bir sirr olmuşdu: yarım saat əvvəl hər kəsi əyləndirən, nəşələndirən bu adam indi qələndəri dərviş kimi zikrə dalmışdı. Musya ərklə əlini onun qoluna salıb, başını çiyninə söykədi:

– Niyə dinmirsiniz? Bir şeylər söyləyiniz, sizi dinləmək istəyirəm, – dedi, səsində əninlər duyuldu.

Rüstəmbəy diksinib sanki yuxudan ayıldı. Musyanın əlini alaraq:

– Nə deyim?.. Mənə belə gəlir ki, bu gecənin sükutunu pozmaq böyük günah işləmək deməkdir... hava dalmış, gölçə dalmış, ağaclar yarpaqlarını belə qımıldatmaq istəmir, bunlarda bir sirr var. İnsan da müstəqil həyatından ayrılıb, kainata qoşulmaq istəyir. Danışmaq bu arzuya mane olur.

Musya Rüstəmbəyin mülahizələrini mürşid kəlamı kimi qəbul edib, bir müddət susdu. Lakin Rüstəmbəyin duyduğu batini həzzlərə vara bilmədi.

Rüstəmbəyi dinləmək ehtiyacı ona aman vermədi. Yenə onun qoluna girdi, oxşandı və xəstə baxışla ona tamaşa etməkdən çəkinmədi.

Uzaqdan xoruz banı eşidildi. Bunu mütəaqib bir neçə xoruz da səsləşdi.

Rüstəmbəy əllərini havada fırladaraq:

– Ah, xain xoruz! Məni ana dənizdən ayırdın, – deyə içini çəkdi.

Musya Rüstəmbəyin sözlərini anlamadı:

– Siz çox tühafsınız, – dedi, – dəniz nədir? Musyanın safdilliyi Rüstəmbəyə xoş gələrək güldü:

– Musya, – dedi, – hiss etibarilə kişilərlə qadınlar arasında təbii bir fərq vardır. Qadının hissi vahiddir. Bu hiss əbədi və əzəlidir. Sevmək və sevilmək qadın üçün yeganə bir məfkurədir. Başqası yoxdur. Kişilərin, bilxassə fikir yürüdən kişilərin hissində ikilik var: sevib-sevilmək məfkurəsi xaricində o, ikinci bir məfkurəyə pərəstiş edir. Bu, mənəvi eşqdir. Burada qadın yoxdur. Ürək beyinlə uzlaşıb barışır. Dəruni bir ahəng vücuda gələrək, insanı maddi aləmdən ayırıb, nisyan istirahətinə daldırır. Dəniz dediyim nisyan istirahətindən ibarətdir. Mən nəyəm?.. Müvəqqəti həyat üçün dənizdən ayrılmış bir damla! Qətrə arabir dənizə qovuşub da qəlbi istirahət bulmalı... Yoxsa maddiyyət çarpışmaları onu üzər...

Rüstəmbəyi heyrətlə dinləyən Musya onun sözlərini kəsib:

– Sizin də hissinizdə ikilik varmı? – deyə sordu.

– Təbii.

– Görmürəm. Nisyan eşqi olduğunu duyuram! O birisini görmürəm.

Musyanın sözləri əvvəl Rüstəmbəyi şaşırtdı, gülümsədi, cavab verə bilmədi. Sonra Musyanın əlini dodaqlarına aparıb:

– Bəlkə də haqlısan, – deyə öpdü, – ancaq... tanışlığımız çoxmu oldu? Bu vaxt bir adamı öyrənməyə az deyilmi?!

Musya Rüstəmbəyin əlini əlləri arasına alıb oxşadı. Qadınlıq heysiyyəti məmnun kimi görünürdü.

## 12

Köç üçün əmr verildi. Hazırlıq başlandı. Bütün əməkdaşlar iş başında idi. Gözətçi polyak qadını fırlayıb həyətə çıxdı:

– Uyğunsuz işlər görürsünüz, vəhşi barbar da sizdən yaxşıdır. Gecə atları buraxmışlar, botanik bağçanı korlamış, fidanlığı alt-üst etmişdir. İşçilər meyvə ağaclarını yolmaqla kifayətlənməyərək, zirzəminin qapısını sındırıb, əlli-altmış illik şərabları oğurlamışlar. Belə olurmu? Almanlar bu vəhşi ölkəni istila etməkdə haqlı deyillərmi? Gəlsələr, bu torpaqda nizam və intizam olar. Bir daha bu axşam yapılan vəhşətə yer qalmaz...

Rüstəmbəy qadının şikayətlərini eşidər-eşitməz haman məsələni tədqiqə başladı – xanım tamamilə haqlı imiş. Ən qiymətli ağaclar yolunub tökülmüş, çiçəklər tapdadılmışdı. Köşkün dörd tərəfi nəcisdi. Zirzəmidə qədim şərabı içməkdən başqa, qabları sındırıb yerə atmışdılar. Bir çox yerdə qapı və pəncərələri belə sağ buraxmamışdılar. Xülasə, köşk talan edilmiş yəhudi evlərini andırırdı...

Rüstəmbəylə Vanya bölük müdirlərini çağırıb, məzəmmət etməyə başladılar. Rüstəmbəy:

– Qaldığımız yerlərdə ən acı təsirlər buraxırıq. Baxın, vaxtilə Rusiyaya ilhaq etmək istəyən rusinəri belə pozulub geri qaçmamızla sevindirdik. Səbəbi göz qarşısında, – deyə Rüstəmbəy əli ilə güllüyü və zirzəmini göstərdi...

Vanya onun sözlərini kəsərək:

– Biz hakimiyyətin proletariata verilməsini tələb edirik; çünki proletariat hakimiyyətinin əməkçilərə xoşbəxt həyat təmin etməsinə inanırıq. Belə tələbdə bulunduğumuz halda xuliqanlığa yer verməyə haqlıyıqmı? Mən də zülmlə yapılmış bu kaşanələrə düşmənəm. Lakin sizin adamların yapdığı tərzdə deyil. Biz gözəl binalar, bağ-bağçaları, abadanlığı yıxmayacağıq; içindəkilərin hakimiyyətini qırdıqdan sonra mülklər zəhmətkeşlərin olacaq. Bu evlərdə işçilər istirahət edəcəklər. Bu gün-sabah bizə keçəcək abadanlıq pozulurmu? Öz malına qarşı düşmən kəsilmək şüursuzluğumuzu göstərmirmi?..

Boris məzəmmətdən dilgir olaraq:

– Vanya, – dedi, – bizimkilərin yıxıcı olduğunu yenimi görürsən? Bunlar həmişə belədir. Bunu gözəlcə bilirsən. Yenə əvvəllər cərimələmə ilə qorxudurduq; indi mujik heç bir şeydən qorxmur. Cəzalanmaq üçün qovsan, daha da sevindirərsən; çünki yaxalarını bizdən çoxdan qurtarmaq istəyirlər. Bunları qorxudan başqa bir cəzan varmı? Yoxdur.

Vanya:

– Onlarda sinfi duyğu oyadın! – deyə bağırdı.

Boris:

– İştə, oyatdıq, – dedi, – zadəganlar düşmənimizdir, deyə belə edirlər.

– Bu, firqənin xətti-hərəkətini anlamamaq deməkdir, – deyə Vanya əllərini havada oynadıb yanına saldı...

Gözətçi qadının yanında uzun-uzadı münaqişə oldu. Kimsə kimsəni qane edə bilmədi. Nəticədən də bir şey çıxmadı. Yalnız işçilər deyil, əməkdaşların da zaldan bir çox şey "çırpmaları" yolda bəlli oldu.

Bu dəfə Rüstəmbəy əməkdaşlarına qarşı sərzəniş oxları yağdırmağa başladı. Ortalıqda kəskin münaqişə vücuda gəldi. Rüstəmbəy rus düşmənçiliyi ilə belə ittiham olundu. Musya Rüstəmbəyin müdafiəsinə qoşdu.

– Siz hamınız qərəzlə danışırsınız, – dedi. – Heç kəs qəbahətini etiraf etmək istəmir. Biz mədəni deyilik, vəssalam. Qalitsiyada öz xristian və slav qardaşlarımız bizdən razı qaldılarmı? Qalmadılar. Polyaklar qədimdən bizə düşməndilər; rusinləri də düşmən etdik; çünki bizim vəhşət və yıxıcılığımıza kimsə dözə bilmir..

Əməkdaşlar arasındakı münaqişə və gərginlik yeni düşərgəyə qədər davam etdi.

## 13

Karvan dayandı, əməkdaşlar arabalardan tökülüb, qəsəbəyə getdilər. Əksəri yəhudi dükançılarından ibarət olan bazar kir və üfunətdə batmışdı. Əməkdaşlar hər şeydən əvvəl qəzet arayıb, böyük maraqla oxudular. Alman hücumunda davam edirmiş. Ordu pozulmuş və bir çox yerdə əsgərlərin zabitləri öldürməsi baş vermişdi. Bunun önünü almaq üçün yenicə baş komandan təyin olunan general Kornilov hürriyyət elanı ilə ləğv olunan ölüm cəzasını təkrar ehya etmişdi...

Rüstəmbəy bu qərarı təsvib edərək, intizamın bərpa edilməsinə ümid etdi; lakin fikrini kimsəyə açmadı.

Əməkdaşlar qəsəbəni dolaşıb zəruri hesab olunan bəzi şeylər aldılar. Geri dönərkən kirli bir pəncərədən gələn gurultulu çocuq səsləri nəzərlərini cəlb etdi. Qapıdakı səliqəsiz lövhədən buranın yəhudi məktəbi olması meydana çıxdı. Rüstəmbəylə Musya içəri girdilər. Səsdən qulaq tutulurdu. Fəna qoxu ürək bulandırırdı. Xırda, tozlu otaq yan-yana sıxılmış çocuqlarla dolu idi. Birisi ortada durub, əlindəki çubuğu havada oynadır, uşaqlar da çubuğun qorxusundan əllərindəki kitablara baxaraq bağırışırlardı. Başı araqçınlı ravvin yuxarıda oturub, yazı ilə məşğuldu... Rüstəmbəy çocuqluqda oxuduğu mollaxananı xatırladı.

O biri əməkdaşlar küçədə oturub, Rüstəmbəylə Musyanı gözləyirdilər. Bunlar gələr-gəlməz yola davam etdilər. Rüstəmbəy Vanyaya müraciət edərək:

– Vanya, – dedi, – günəş batmadan karvanı yerləşdirməliyik. Buralar çox murdardır. Bir yaxşı yer axtarmalı.

Vanya:

– Atı yəhərlədib özüm getməliyəm. Yəqin yaxında köşk var, bunsuz deyil.

Karvanın durduğu yerə dönüb Vanya ilə Voronov atlanıb getdilər.

Yarım saat sonra karvan mütəvaze bir köşkün yanında yerləşdi. Köşk sahibləri rus idilər. Qonaqları məmnuniyyətlə qarşıladılar. Əməkdaşlar evin ikinci mərtəbəsindəki uzun balkonda yerləşdilər. Balkonun önünü sarmaşıq örtmüşdü. Ətraf bağlıqdı. Hər yerdə pintilik və tənbəllik izi gözə çarpırdı. Bağ və xiyabanları alaq basmışdı. Qurumuş ağaclar kəsilməmiş dururdu. Evdəki nökərlər cır-cındır içində idi. Sarısaqqal, alçaq boylu ev sahibinin üzünə sərxoşluq damğası basılmışdı...

Nataşa ilə Voronov yemək tədarükünə düşdülər. Qaynar suda qızdırılmış konserv qutuları açıldı. Əməkdaşlar yuyunub, yeməyə oturdular.

14

Axşam yeməyindən sonra Zina nazlanaraq:

– Ah, bir dondurma olsa da! – deyə Vanyanın üzünə baxdı. Vanya gülümsündü; lakin heç bir təşəbbüsdə bulunmadı. Zina darılan kimi:

– Eh, siz fəna kavalersiniz, – dedi və ağzını büzdü. Bu sözlərdən sonra Boris yerindən qalxıb, balkondan aşağı endi. Bunun getməsinə kimsə əhəmiyyət vermədi. Rüstəmbəy:

– Aydın gecədən istifadə etməmiz yaxşı olmazmı? – deyə meydana bir təklif fırlatdı. Sanki ruhlardan xəbər verdi. Əməkdaşlar qalxıb bağa endilər. Xiyaban basırıq və bürkü idi. Taxıl tarlasına çıxdılar. Uzaqdakı meşəlik təpəyə qədər uzanan tarla dərz tayaları ilə möhtəşəm bir şəkil almışdı. Havada ruh oxşayan bir sərinlik vardı. Ayaqların altında xışıldayan küləş bir ritm vücuda gətirərək, bədirlənmiş aya qarşı duakar hisslər duydurar kimi görünürdü. Təbiətdə əsrarəngiz bir cazibə vardı. Bu cazibə gənclərin qəlblərində əks edərək, hərəsini tənha bir guşəyə sövq edirdi. Rüstəmbəylə Musya sağ tərəfdə yüksə-

lən bir təpənin ətəyinə sığınaraq, gözəl mənzərənin tamaşasına daldılar. Zina ilə Vanya yavaş addımlarla uzaqlaşırdılar; Kasparyanla Olesya qaib olmuşdu.

Rüstəmbəy təbiətdən nəşələnərək:

– Musya, – dedi, – bu yer xoşunuza gedirmi?

– Ah, çox gözəldir!

– Burada bir neçə gün istirahət edərik; ev sahibləri də qonaq sevəndirlər, qalmağımıza məmnundurlar.

– Yol bizi çox yordu. Doğru, mən hüdudumuzu keçənə qədər qorxurdum.

Rüstəmbəy gülümsəyərək Musyanın əlini əlinə aldı:

– Nədən? Mən sizinlə deyilmi idim?

– Orası düz, ancaq sizi hələ dürüst tanımırdım... Lakin sizə o qədər inanırdım ki, "öl" deyəydiniz, ölməyə hazırdım...

Musyanın səmimi sözləri Rüstəmbəyin hisslərinə toxundu. Musyanın ucları soyumuş barmaqlarını dodaqlarına götürüb öpdü və sonra yanağına söykəyərək, qızın aşağıya doğru baxan gözlərinə tamaşa etməkdən çəkinə bilmədi. Bir neçə sakit dəqiqə keçdi. Musyanın Rüstəmbəyin yanağına söykənmiş nəbzi yuvasını itirmiş, quş kimi çırpınırdı. Rüstəmbəy onun əlini təkrar öpərək yavaş səslə:

– Musya, – dedi, – indiyə qədər eşq nə olduğunu duydunuzmu?

Musya hüznlü baxışla Rüstəmbəyi süzərək:

– Son günlərə qədər belə bir hissi duymamışdım... Musyanın sözləri qırıldı, səsi titrədi. Nəbzi daha da çırpındı. Rüstəmbəy də vücudunda bir titrəyiş duydu. Bir də sol tərəfində oturan Musyanı özünə tərəf cəlb edib üzünü onun alovlu yanağına qovuşdurdu... Odlu damlalar üzünü islatdı. Rüstəmbəy məst bir halda çəkilib Musyanı süzdü və onun göz yaşlarından doğan səadətə qarşı atılaraq, dodaqları ilə dodaqlarını buldu. Sanki qətrə çoxdan həsrətində bulunan dənizə qovuşaraq, sakit oldu. Bütün maddi varlıq nisyan qarşısında əriyib yox oldu. Bədirlənmiş ay belə iczindən susmuşdu...

Borisin qısqanc erkək fəğanları ilə dolu səsi Rüstəmbəyi ayıltdı:

– Musya, – dedi, – görürsən, Boris Zinanı arayır.

Musya:

– Tühafdır, bu Zina ərini sevmirmi?

Rüstəmbəy istehza ilə:

– Sevir, Vanyanı ondan daha çox sevir, – deyə güldü.

– Bunu anlaya bilmirəm: iki adam sevilərmi?

– İştə, görürsən, sevilir.

– Bu, əxlaqsızlıqdan başqa bir şey deyil!..

Borisin şərqisi fəğanlar yaymaqda davam edirdi. Buna cavab olaraq:

– Boris! Boris! Ey!.. Buraya gəl! – deyə Zinanın səsi eşidildi.

Bir az sonra Kasparyan da uzaqdan səsləndi. Rüstəmbəy cavab verdi.

– Vaxtdır! – deyə təkrar Kasparyanın səsi eşidildi. Rüstəmbəy ayağa qalxıb, Musyanı da qaldırdı. Yavaş-yavaş Zinanın səsi gələn dərəyə doğru yürüdülər. Oraya çatdıqda tühaf bir mənzərəyə rast gəldilər. Borislə Vanya ağlayırdılar. Boris deyirdi:

– Vanya, sən mənim dostum və yoldaşımsan; səni bilirsən, sevirəm...

Vanya da göz yaşlarını silərək:

– Mən də səni sevirəm... Zinaya qarşı da eyni hiss bəsləyirəm...

Rüstəmbəy bunların xüsusi işlərinə qarışmaq istəməyərək, geri döndü və rast gəldikləri Kasparyanla Olesyanı da geri çevirdi.

Hər kəs keçirdiyi axşamın təsirinə düşərək sükut içində idi.

Evə gəldikdə masanın üzərində bir qab dondurma gördülər – Borisin at üstündə qəsəbədən gətirdiyi bəlli oldu.

## 15

Ev sahibi balkonda oturan əməkdaşlara yanaşıb salam verdi. Yer göstərdilər, oturdu. Ev sahibi gündəlik siyasi məsələlərlə çox maraqlanırdı və paytaxt qəzetlərini yenicə gözdən keçirib gəlmişdi.

Rüstəmbəy:

– Yeni nə xəbəriniz var? – deyə sorduqda ev sahibi gülümsündü.

– Hələlik yaxşı xəbər yoxdur, – dedi.

Vanya heyrətlə:

– Nə üçün? – deyə sordu.

Ev sahibi söyləyəcəklərinin haqlı olduğunu duydurar bir tərzlə:

– Cəbhədə müvəffəqiyyətsizlik, daxildə anarxiya. Daha, yaxşı nərədə qaldı? Asayiş o qədər pozulmuşdur, evdə oturmağa belə qorxuruq mujik qoyulan qanunu tapdalayıb keçir...

Vanya bir az sərt:

– Mujik acdır, mujik torpaqsızdır, mujik qazanır, ağalar yeyir – bu düzdürmü?.. Mujik onu əzən qanunu tapdalamağa haqlıdır; işçi onu boğan qanunu ləğv etməyə haqlıdır. İnqilabın tələbi budur!

Ev sahibi qarşısındakının hansı məsləkə mənsub olduğunu duyaraq, bir az cəsarətsiz:

– Oğlum, siz gəncsiniz, mən də gəncliyimdə belə əqidədə idim... Ancaq... bu fikirlər dildə və yazıda xoşdur, işə gəldikdə yaxşı bir nəticəyə varmır...

Vanya etiraz etdi:

– Qərb dövlətləri inqilab yapmadımı? – dedi.

– Yapdı; lakin bizim kimi baltanı dibindən vurmağa qalxışmadı!

– Bağışlayın, balta hələ dibindən vurulmamışdır. İndi hələ müdaraçalıq dövrüdür: sosialistlər kadetlərlə, onlar fabrikçilərlə uzlaşıb baş tovlayırlar. Əsil inqilab proletariatın iş başına gəlməsində olacaq.

Ev sahibi məyus bir halda susdu. Bir az başını bulayıb gülümsədi:

– Hər bir fikri həyata keçirmədən əvvəl məmləkətin vəziyyəti və xalqın əhvali-ruhiyyəsi də nəzərə alınmalıdır, zənn edirəm. Vəhşi xalq hürriyyətin qədrin bilərmi? Mujik tənbəldir, əxlaqsızdır, yıxıcıdır. O, başına buraxılsa, aləmi qana döndərər. Rusun bütün dövlət adamları və mütəfəkkirləri bu fikrə şərikdirlər.. Siz Rusiyanın müqəddəratını bunlara tapşırmaq istəyirsiniz...

Vanya hiddətləndi.

– Bu sözləri çox eşitdik. Bu yalnız sizə və mənsub olduğunuz sinfə fayda verən bir fikirdir. Siz, təbii, mülkünüzü və imtiyazlarınızı yenə əlinizdə saxlamaq istəyirsiniz. Siz zəhmətsiz yemək istəyirsiniz; lakin bu artıq keçməz.

Vanya sözlərini bitirib, müzəffər bir surətdə gülməyə başladı.

Rüstəmbəy ehmal bir səslə söhbətə girişdi:

– İstibdad dövrü bitmiş hesab olunmalıdır, – dedi. – Geriyə dönmək yoxdur. Çar idarəsinin uyğunsuzluqları heç bir fikir və mülahizə ilə doğruldula bilməz. Zəhmət şüarı hər şeydən yüksəkdir. Mülkədarların müftəxorluğuna nəhayət verməlidir. Rus əməkçi xalqının əzilməsi göz önündədir. Rus əzildikdə bizim kimi qeyri xalqlar iki dəfə əzilir. Siz boğulduğunuzdan şikayətlənirsiniz, biz məhv olduğumuzdan... Belə bir hal davam edə bilməz!..

Başqaları da söhbətə girişərək, münaqişə alovlandı. Kasparyan erməni və Olesya Ukrayna məsələlərini irəli sürərək, köhnə idarəyə

qarşı küfrlər yağdırdılar. Ev sahibi Ukrayna məsələsinin süni olaraq meydana çıxmasını iddia etdi. Erməni və türk məsələlərinə vaqif deyilmiş, ancaq bu xalqların tam hüquqa malik olmalarını eşitmiş imiş. Yəhudi məsələsi mövzui-bəhs oldu:

– Yəhudilər istismarçı bir millətdirlər, – dedi. – Bunları hər ölkədən qovmuşlar. Bunlara hüquq verilsə, bütün Rusiyanı istismar edərlər.

– Yəhudilər bir millət olaraq hüquqdan məhrum edilə bilməzlər, – deyə fikirlər yürüdüldü... Bir saatdan artıq davam edən münaqişə kimsəni məsləkindən daşındırmadı. Nəticədə ev sahibinin irticapərvər olduğunu hər kəs təsdiq etdi.

16

Proskurov şəhərinə qədər bir düşərgə qalmışdı. Onu da mədəni bir polyak ciftliyində keçirdilər. Ər, arvad və qızlarından ibarət bu ailə təhsillərini xarici ölkələrdə görmüş, bir neçə dillərə vaqif adamlardı. Olduqca nəzakətli və qonaqpərvər idilər. Malik olduqları geniş torpaqdakı kəndlilər itaətsizlik göstərməyə başlamışdılar. İzinsiz olaraq meşəni kəsib, mülkədarın taxılını biçmişdilər. Bu vəziyyətdən təşvişə düşən mülkədar təsadüfən evinə gələn qonaqları buraxmaq istəmirdi. Zemstvo əməkdaşlarının gəlməsi bunları olduqca sevindirdi. Qonaqlara ayrıca otaqlar təxsis olundu, təmiz yataqlar verildi və orada qaldıqları üç günün müddətində gözəl yeməklərlə ikram olundular.

Hələ bölükləri yerləşdirməmişdilər; fraklı qoca lakey onları nahara dəvət etdi. Yuyunub getdilər. Ev sahibi gül-çiçəkli geniş terrasda bunları qarşılayıb, yemək otağına götürdü. İyirmi dörd adamlıq yemək masasının ətrafında ev sahiblərindən başqa üç də zabit vardı. Ev sahibi müsafirləri dolğun qadınına, sarışın sadə geyinmiş qızına və zabitlərə təqdim etdi. Oturdular. Otağın kübar üslublu mebeli vardı. Divarlardan iyirmiyə qədər əcdada mənsub rəsmlər asılmışdı; böyük Yekaterina dövrünə aid qiyafələr də görünürdü. Masanın zəngin servizləri, bir-birini mütəaqib verilən əlvan yeməklər əməkdaşları heyrətə gətirirdi; çox xörəkləri həyatlarında ilk dəfə görür və yemək qaydasını belə bilmirdilər. On beş-iyirmi növ içki vardı.

Əməkdaşlar içəri girdikdə Rusiya almanlarına dair bəhsə təsadüf etdilər. Gənc bir zabit deyirdi:

– Rusiyada yaşayan almanlar vətən yolunda lazımi sədaqət göstərdilər, zənnindəyəm. Mən alman olaraq, üç ildir cəbhələrdə vuruşu-

ram, iki dəfə də yaralanmışam; çünki Rusiyanı özümə həqiqi vətən bilirəm. Mənim bir yoldaşım vardı. Bu, orduya cəlb olunar-olunmaz özünü öldürdü; buraxdığı məktubda: Rusiyaya xəyanət, yoxsa alman millətinə qarşı düşmənçilik? – bu iki yolun heç birisi ilə gedə bilmədim – deyə yazmışdı... – İkiüzlülük alçaqlıqdır.

O biri zabit sönük səslə:

– Saray işi xarabladı. Çariça həm öz xanədanını, həm də Rusiyanı batırdı.

Üçüncü zabit qeyzlə:

– Çariçanın, – dedi, – qəbahəti yoxdur; biz alman kimi, yüksək texnikalı bir millətlə müharibə etməyə hazır deyildik. Bunu sabiq hərbiyyə naziri Kuropatkin də söyləmişdi. Buna baxmayaraq, ingilis hiyləsinə aldandıq. Çariça müttəfiqlərdən ayrılaraq, sülh yapmağı irəli sürürdü. Başqa çarə də yoxdu. Elə olsaydı, həm xanədanı, həm də ölkəni bu günkü biabırçılıqdan qurtarardıq. Satqın nazirlər, axmaq deputatlar işi xarabladı. Nəticədə böyük Rusiya şərəfsiz bir hala gəldi. Bu işlərin sonunu belə düşünməyə ağlım irmir...

Zemstvo əməkdaşları ilə hərbilərin arasında olan uçurum sayəsində söhbət zabitlərdən başqasını qaplamadı. Yeməklərin ləzzəti söhbətə qələbə çaldı.

Uzun müddət davam edən nahardan sonra qəhvə ilə likör verildi. Ev sahibi bufetdən bir qutu Havay sığarası çıxarıb, qonaqlara təklif etdi.

Nahardan sonra çiçəkliyə, oradan da meyvə bağına keçildi. Buralarda da zabitlərlə əməkdaşlar bir-birinə qarışmırdı: ev sahibi əməkdaşları, qızı da zabitləri təşyi edirdi.

Zabitlərdən biri köşkün təsərrüfat cəhəti ilə maraqlandı. Ev sahibi bunları götürüb, təsərrüfat maşınlarını, heyvanların son sistem axurlarını, pendir və pivə zavodlarını göstərdi. Oranjereyanın mükəmməliyyatı, döl heyvanlarının saxlanılması – bütün təsərrüfatdakı nizam hər kəsin heyrətinə səbəb oldu. Ev sahibinin təsərrüfata böyük marağı varmış – Qərbdən və Amerikadan iyirmiyə qədər məcmuə gətirib, kənd təsərrüfatındakı bütün yenilikləri təqib edirmiş.

## 17

Zadəganların dəbdəbəli saraylarını görən Rüstəmbəy mujik damlarını da dolaşmağı qərara aldı. Vanyaya təklif etdi, o, əllərini havada fırlayaraq:

– Orada yoxsulluqdan başqa nə var ki, bilirəm, kəndlərdə böyümədimmi? – deyə cavab verdi.

Sabah çaydan sonra Rüstəmbəy Musya ilə bərabər köşkü tərk etdi. Ev sahibi xanım ağacın altında oturmuşdu. Gəlib keçən bəzi kəndli qadınlar onun əlini öpürdülər.

Kənd köşklərdən bir az aralı idi. Tozlu yolla getdilər. Hasarların arasında toz qopdu: iki-iki bir-birinin önünə qoşulmuş altı gözəl at və arxada şıq bir brek göründü; köşk sahibi qızı ilə bərabər sabah gəzməyindən dönürdü. Şapka qalxdı keçdilər. Kəndin geniş bir küçəsi vardı. Bütün daxmalar bu küçə uzunu yapılmışdı. Daxmaların küçəyə qarşı kiçik bağçaları vardı. Cağların başına küpələr çevrilmişdi. Hər yeri günəbaxan və gülxətmi bürümüşdü. Ağarılmış bir komaya girdilər, iki otaqdan ibarətdi. Birində kərpic divar sobası vardı. İri yastıqlı bir taxt qoyulmuşdu. Otağın küncü ikonalarla dolu idi. Burası qonaq otağı, ya rəsmi otaqmış; o birisi olduqca kirli, tör-töküntü idi. Ev sahibləri arvad və uşaqlar hərə bir işlə məşğuldu. Burnunun önünə milçəklər yığılmış bir qız çocuğu çörək gəvələyirdi. Müşəmbəsi neçə yerdən cırılmış masanın üzərinə kartof və soğan tökülmüşdü. Kirli döşlüklü arvad nahar hazırlayırdı.

Qonaqları görcək arvad müti bir surətdə əllərini döşünə daraqlayıb təzim etdi.

Rüstəmbəy məqsədini gizləyərək:

– Buradan bir bölük əsgər keçəcək, onlara mənzil axtarırıq, – dedi.

Qadın tabe bir halda:

– Bircə otağımız var, bəyənsəniz, tutun.

Rüstəmbəy:

– Bir az dincəlmək olarmı? – deyə müsaidə istədi.

– Buyurun!

Rüstəmbəy və Musya oturdular. Rütubət iyi damaqlarına çökdü.

– Əriniz hanı?

– Dəyirmana buğda aparmış.

– Buğdanız çoxdurmu?

– Allaha şükür, qışımızı görər. Ancaq... yalnız çörəklə iş bitmir. Bir inəyimiz vardı, gəbərdi; təzəsini almağa pulumuz yoxdur.

– Kartofunuz boldurmu?

– Allaha şükür, görər.

Rüstəmbəy dərin bir maraqla:

– Yayı işləyirsiniz, bəs qışda nə qayırırsınız?
– İş olanda ərim ağalıqda işləyir.
– Gündə neçə qazanır?
– On qəpik.
– Taxılınız olmayan il olurmu?
– Olur.
– Onda nə edirsiniz?
– Eldən borc alırıq. Bəzən burada yəhudilər və müamiləçi ruslar var, onlardan nisyə olaraq satın alırıq. Xırmana qədər gözləyirlər.
– Bahamı satırlar?
– O, çox! Bəzən birə üç qiymətə. Onların borcundan çıxmaq çətin olur; çünki öz torpağımız azdır, ağadan icarəyə götürürük: məhsulun yarısı da ağaya çatır.
Rüstəmbəyin marağı bir az söndü. Qadından razılıq edib, ağır havalı komanı tərk etdi. Bağçanı bürüyən günəşli hava üzünə çarpıb onu sevindirdi. Gilənar ağaclarının altında titrəşən sarı ləkələr ona olduqca yeni və cazibəli göründü.
Rüstəmbəylə Musya bir neçə komaya da girdilər. Bir-birinin eyni. Yalnız bəzisi təmiz, bəzisi isə olduqca kirli idi. Bir neçə yerdə mujiklər samoqon arağı çəkirdilər. Keflilərə də rast gəldilər. Həftələrcə içənlər varmış.
Kəndin ortasına çatıb, kilsənin yanında oturdular. Bir-iki dilənçi gəlib bunların qarşısında diz çökdü və Rüstəmbəyin əlindən öpmək istədi. Rüstəmbəy əlini kənara; çəkərək, ciddi səslə:
– Ayağa durun, sonra məramınızı anladın! Dilənçilər qalxıb, xaç çəkərək təzim etdilər. Rüstəmbəy onlara pul verib yola saldı və sonra Musyaya müraciət edib:
– Musya, – dedi, – bu mujiklərin qulcasına davranmalarını heç də sevmirəm. İdarədə də belədirlər; sözlərini demədən əvvəl masanın qarşısında dizi üstə düşüb əl öpərlər.
– Təbii deyilmi? Əsrlərcə qüvvətlilərə qul olmuşlar. Üzərlərində əsarətin izini daşıyırlar.
– Mujiki xəşin deyə təsvir edirlər. Bu nə qədər doğrudur?
– Mədəni olmayanların hamısı belə deyilmi?
– Yox. Rus mujikinin başqa bir xüsusiyyəti varmış: yıxıcılıqla məşhur imiş. Hər halda mujiki ətrafı tanıyan rus münəvvərləri bunları mənə belə tanıdıblar. Cəbhədə gördüklərim məndə bu qənaəti qüvvətləndirdi.

– Deyirlər, mujik üçün ibadətlə cinayət eyni məna ifadəsi imiş: mujik ibadətini buraxıb cinayət yapar, sonra ibadətinə davam edərmiş...

Musya məyus bir halda ağzını burdu. .

– Nə deyim? – dedi. – Mən şəhərliyəm, mujiki yaxşı tanımıram. Ancaq mujik haqqında rəylər ələləksər mənfidir. Mujik yalançı, ikiüzlü, hiyləgər, tənbəl və oğrudur deyirlər. Amma yüz milyonluq mujikin hamısımı belədir? Rus klassikləri biləks bunları müsbət və Allah qorxusu daşıyan kimi təsvir edirlər.

Evə dönənə qədər mujik ətrafında danışdılar. Rüstəmbəy sektantlardan bəhs açıb, onların hakimiyyətə zidd olduqlarını söyləyərək:

– Məncə, – dedi, – bunlara yalnız şiddətli bir hökumət intizam öyrədə bilər. Liberal hökumət mujik inadına qalib gələ bilməz!..

Musya susaraq Rüstəmbəyi dinləyib, ağlı irmədiyi məsələlərin həllinə qalxışmırdı. Daha doğrusu, Musya şən, könülaçan söhbətlər dinləmək istəyirdi.

## 18

Proskurovun ətrafındakı yollarda qaçıb dağılan əli tüfəngli soldatın sayı-hesabı yoxdu. Üç ildən bəri bir zümrənin faydası üçün cəbhədən-cəbhəyə sürüklənən işçi və kəndli, nəhayət, bir imkan bulub, müharibə dəhşətlərindən yaxasını çəkərək, evinə, pərişan ailəsinə qovuşmaq istəyirdi. Bütün verilən vədələr, coşdurulan vətən hissi, təhdid və cəza bu böyük axına qarşı sədd çəkməyə qadir deyildi. Baş komandan Kornilovun ölüm cəzasını ehya etməsi kimsənin nəzərini belə cəlb etmir, papaqlarında kəllə əlaməti olan "ölüm alayları" da hərc-mərcliyin önünü almaqdan acizdi.

Cəbhədən qaçanlar Proskurova toplanırdılar; şəhər və ətrafı cürbəcür idarələr və təşkilatlarla dolmuşdu. At, araba, avtomobil, ənva alaylara mənsub süvari və piyada qoşun hissələrinə hər addımda rast gəlinirdi. Bir düzəngahda düşərgə yapan "vəhşi diviziya"nın bir bölüyü hər kəsi maraqlandırırdı. Bunlar dairə təşkil edərək, zurna çalıb oynayırdılar. Ətraflarında böyük bir izdiham vardı. Bunların ləzgi qiyafəsi, mahir rəqsləri, bağırtı və şənlikləri Musyanı olduqca maraqlandırmışdı. Qazalağı saxladıb qozluya söykənərək, tamaşa edirdi. Arabir içini çəkərək Rüstəmbəyin qolundan dartır və rəqs edənləri göstərib, sevincindən az qala bayılırdı.

Rüstəmbəy isə maraq deyil, nifrətlə tamaşa edirdi. Bunların Qafqaz şəhərlərindəki sərsərilərdən olduğunu və cəbhədə düşməndən çox sülhpərvər əhaliyə qan uddurduqlarını bilirdi. Qalitsiyanın hər bir kəndlisi onları dəhşətlə xatırlayırdı.

Rüstəmbəy vəhşilərin "fəzilətlərini" çox eşidib bıkmışdı. Odur ki, Musyanı məmnun buraxmaq üçün arabir gülümsəyir, lakin üzündən kin yağırdı. Azərbaycan türklərinin bunlara qarşı ümidlər bəslədiyini xatılrlayaraq, yasa batdı və atları çevirib, karvanı izləməyə başladı.

Karvan Proskurovda yer tapmayıb, açıq havada qalmışdı. İrəliki gün yağış yağmış, palçıq dizə çıxırdı. Buna baxmayaraq, düşərgə qərar verilib, zemstvo baş idarəsi aranılmağa qoşuldu.

Şəhərdə un, qənd, ayaqqabı, at ticarəti böyük meydan almışdı. Dəllallar köçlərin arasını dolaşaraq, zəmin hazırlayır, gecələr də mal qaçırırdılar. Ərzaq böhranlarından istifadə edərək, dövlət malları əldən ələ keçirdi.

İkinci gün Musya ilə Olesya baş idarələrini tapıb, Kiyevə dönmələrinə əmr almışdılar. Bundan əvvəl Musya Rüstəmbəylə şəhərə getdi. Musya anasına teleqraf göndərəcəkdi. Bir-iki saat şəhəri dolaşdılar. Musya Rüstəmbəyi ən gözəl, iki tərəfi çiçək bağçalı küçələrdən apararaq onu eşq və hörmətlə dinləyirdi... Lakin Rüstəmbəy Musyanın verdiyi suallara düşünərək cavab verib onu qane etmirdi. Rüstməbəyin yoldakı rəftar və hərəkəti Musyanın ürəyində bir ümid doğurmuşdu. İndi Musya bu ümidin bir söz, bir vədlə təsdiq edilməsini gözləyirdi. Rüstəmbəy isə buna yanaşmırdı.

Nəhayət Musya açıq olaraq:

– Sabah mən gedirəm, siz bir az da olsa mənim yoxluğumdan kədər duyacaqsınızmı? – deyə mənalı baxışla Rüstəmbəyi süzdü.

Rüstəmbəy gülümsünərək:

– Musya, bu suala cavab vermək üçün bir müqəddimə etməliyəm. Mən dosta, bilxassə qadın dostuma tez alışıram; lakin bu alışmanın özündə bir acı duyuram: çünki qəlbim deyəni ağlım və ağlım deyəni qəlbim inkar edir. İştə bu dəruni təzad məndə əzab hissi doğurur. Sizinlə ilk görüşəndən bəri əzab içindəyəm. Bu əzabın yeganə əlacı... ayrılıqdır...

Musya izəəti-nəfsinin xətərlənməsini duyaraq, sərzənişlə:

– Deməli, ayrılmamızı səbirsizcəsinə gözləyirsiniz, – dedi və gözləri yaşardı.

Rüstəmbəy Musyaya təsəlli verərək:

– Yox, əzizim, – dedi, – fikrim anlaşılmadı. Hər bir fərd söylədiyi sözü və hərəkəti üçün məsuldur. Qəti bir söz söyləsəm, yerinə yetirməliyəm. Boş vədləri sevmirəm...

Musya yenə qeyri-məmnun bir halda onun sözlərini kəsdi:

– Deməli, bu on beş günlük dostluğumuz, hərəkətimiz və ifadələrimiz yalnız boş bir əyləncə imiş.

Rüstəmbəy cəld:

– Yox, nə üçün? Hiss coşmazmı? Coşdu... Qəlblər yuvalarından uçub bir budağa qondu... Gəncliyin iqtizası bu.

– Deməli qəlblər yenə yuvalarına dönməli; çünki boş-boşuna uçmuşlarmış...

Rüstəmbəy etdiyi müqayisəni canlı olaraq təsəvvür edib gülməyə başladı. Gülüşü Musyanı büsbütün dilgir etdi. Hiddətindən əlini Rüstəmbəyin qolundan çəkib, bir neçə addım ön tərəfə yürüdü. Rüstəmbəy arxadan onu süzdü. Musyanın yolda əzilmiş paltarı, ənsəsində sual işarəsi kimi qıvrılmış tükü, palçıqlı, bir az da dabanı getmiş uzunboğaz çəkməsi ona olduqca gülünc göründü. İçində bir acı duydu.

Mətanətsiz addımlarla bir müddət yürüdülər. Bir az sonra Musya ayaq saxlayaraq, geri çöndü. Qara kirpikli parlaq gözləri ilə Rüstəmbəyə baxdı, alt dodağını dişlədi. Gülləri solduran yanağında lətif bir çökək zühur etdi: "Qəlbim, həyəcanım, bütün varlığım həp sənindir!" – deyən kimi oldu.

Rüstəmbəyin üzü parladı. Ürək çarpıntılarından eşidilməz bir ifadələr qoparaq Musyanın həyəcanlarına qarışdı. Qadın hissi qane olmuşdu. Qollar bir-birinə yenidən sarıldı və mətin addımlar onları düşərgəyə doğru sövq etdi.

## 19

Qazalaq Musya ilə Olesyanı vağzala gətirdi. Rüstəmbəy və Kasparyan onları təşyi edirdilər. Şeyləri vaqona qoyub, platformaya endilər. Rüstəmbəy vaqonun bir başında, Kasparyanla Olesya da bir az uzaqda durmuşdular.

Musya əli ilə Rüstəmbəyin qoluna təmas edərək:

– Rüstəmbəy, – dedi, – bax, tez-tez yazınız! Gözləyəcəyəm.

– Yazaram. Hələlik Nikolay küçəsindəki meyvə mağazasına yazın, otaq tutduqdan sonra yeni adresimi bildirərəm.

– Yaxşı!.. Yol elə ağır keçəcək ki...

Rüstəmbəy Musyanın səsindəki hüznü duyaraq:

– Keçməz. Öyrənərsiniz. İnsan hər bir şeyə qələbə çalan bir məxluqdur, – dedi.

Musya bu fikrə şərik olmayan bir tərzdə:

– Yox, Rüstəmbəy, mən o məxluqdan deyiləm, – dedi, gərdənini bir az əydi və çocuq kimi dabanının üzərində sol və sağa fırlanmağa başladı. Rüstəmbəyə baxaraq, üzündəki hüzn əlamətləri şadlıqla əvəz olundu.

Bir də Rüstəmbəyin frençinin düyməsindən yapışıb:

– Mən ölərəmsə, ağlarsınızmı? – deyə dodaqlarında tühaf bir təbəssüm oynatdı.

Rüstəmbəy gözləmədiyi bir suala qarşı:

– Mən sizi, – dedi, – daima gənc, şən, lətif həyəcan da cilvələnən təsəvvür edirəm. Sizə matəm süsü yaraşmır...

Musya peşman kimi:

– Yox, yox, zarafat edirəm, – deyə ayaqlarının ucları ilə yarımdairə yapdı.

Rüstəmbəyə bu mövzu o qədər xoş gəldi ki, bu sahədə mülahizələr yürütməyə başladı:

– Gənc həyat elə böyük bir qüvvədir ki, mətin qayanı belə yıxar. Gənc olduğumu idrak edən dəqiqələr özümü kainatın hakimi zənn edirəm...İnsan özünün baqi olmadığına inanarmı? Gündə yüz minlərlə ölülər belə görsəm, öləcəyimə qane ola bilmirəm. İnsan təbiəti tühaf bir zehniyyətə malikdir...

Musya Rüstəmbəyin məntiqi, aydın və nikbin sözlərini dərin bir eşqlə dinləyirdi. İkinci zəng vuruldu. Haman ikisi də hazır bir vəziyyət aldı. Rüstəmbəy sağ əlini irəli uzatmaq istəyirdi, Musya sıçrayıb onun boynunu qucaqladı və dodaqlarından öpdü. Sonra günah işləmiş kimi qaçıb vaqona çıxdı. Olesya içəri girər-girməz pəncərədə göründü. Musya isə bir az ləngidi. Üçüncü zəng vurulana yaxın başını pəncərədən çıxardı, gözləri yaşlı idi. Tez-tez çəkilir, arxada ağ dəsmalı ilə gözlərini silirdi.

Qatar tərpəndi. Musya gözlərindən ayırdığı dəsmalını salladı:

– Unutmayın! – deyə hayqırdı.

– Yaxşı yol! Salamat gedin!

Tren getdikcə dəsmal havada yellənir, üzərində daşıdığı göz yaşlarının sirlərini Rüstəmbəyə duydururdu.

Artıq son vaqon da gurultu ilə keçib getdi. Kasparyan yanaşıb Rüstəmbəyin qoluna girdi, bir yerdə qazalağa doğru getdilər.

20

Yolda müfrizənin işlərinə dair bəhs açıldı. Kasparyan Rüstəmbəyin cəbhədə olmadığı zaman törənən işlərin təfsilatını anlatdı. Rüstəmbəy maraqsız bir halda dinləyib:

– Bilirsiniz, – dedi, – Vanyanın seçilməsi isabət olmuş. Zemstvo təşkilatları rollarını bitirmiş, heç bir əhəmiyyəti qalmamışdır. Bizim üçün, bilxassə sizin və mənim üçün yeni fəaliyyət sahəsi açılır – milli sahə. Bu gün milli müqəddərat məsələsinin coşqun bir vaxtında bizim vətəndən uzaq yerlərdə qalmamız cinayətdir. Millət bizi yetişdirdi, biz də bu zəruri vaxtda millətin köməyinə qoşmalıyıq.

Kasparyan sözlərini təsvib edən bir halda dinləyib:

– Qafqazdan xəbəriniz varmı? – deyə sordu.

Rüstəmbəy düşünərək:

– Ətraflı məlumatım yoxdur. Ancaq ziyalıya ehtiyac olduğunu bilirəm. Bu ehtiyac bilxassə bizdə çoxdur... Sonra Qafqaz xalqları arasında saziş yoxdur, fəna işlər baş verə bilər. Bunun önünü almalıyıq.

Kasparyan fikrə dalaraq:

– İşlər elə dolaşdı ki, – dedi, – çıxacaq yolu belə görmürəm. İndi Türkiyə cəbhəsində də belə bir iş olsa, kim bilir, bədbəxt erməni milləti nələr çəkəcək? Halbuki nələrə ümid edirdik!..

Rüstəmbəy səmimi bir səslə:

– Bilirsiniz, – dedi, – erməni məsələsini bizimlə əlaqədar bir məsələ olaraq deyə ətraflı tədqiq etmişəm. Bilaxirə müharibə əsnasında Moskvada rusca nəşr etdiyiniz məcmuə və kitabları gözdən keçirdim. Erməni hərəkatının tarixi ilə də az-çox tanışam... Erməni millətinə xeyirxah bir türk sifəti ilə bunu deməliyəm ki, erməni milli hərəkat rəhbərləri bir çox səhv yapmış və yapırlar. Çar idarəsinə muxtariyyət ümidi bəsləmək boş bir xəyaldan başqa bir şey deyildir. Vaxtilə rus xarici nazirlərindən birisinin "Ermənistan bizə ermənisiz lazımdır" sözləri xatırımızdadır. Çar hökumətinin erməni məsələsinə qarşı tutduğu xətti-hərəkət daima bundan ibarət olmuş. Böyük Petrodan bəri bütün çarların sizə verdiyi vədlər boşa çıxmış. Sizi üsyana təhrik etmişlər, köməyə gəlməmişlər, nəticədə də erməni qırılmış. Avropalılar da sizə qarşı eyni xəyanətdə bulunmuşlar: Türkiyədə üsyanlar yapdı-

rıb, erməni millətini məhv etdirmişlər. Paris və Berlin müahidələrindəki erməni məsələsinə aid qeydlər də boşa çıxmış. İştə, "xristian" Avropa və Rusiyanın sizə verdiyi "faydalar!" Millətinizin faciəsi yaxını qoyub uzaqda dost aramaqdan irəli gəlmiş. Zənn edirəm, millətin müqəddəratını keşişlərin və kor gözlü daşnaqların çəngindən qurtarmanın zamanı çoxdan gəlmişdir. Qafqaz millətlərinin qardaşlığı mövzusunda təbliğat yapmalı, bütün gəncləri bu işə cəlb etməli, camaatımızın salamatı yalnız bu yoldadır!

Son sözlərini bitirərkən Rüstəmbəyin həyəcandan dodaqları titrəyirdi. Kasparyan fikirdə, sanki tərəddüd içində idi. Bir az sonra ayılan kimi oldu:

– Sözləriniz haqlıdır, – dedi, – amma...

Kasparyan sözünü bitirmədi. Daşnaq zehniyyəti sanki onu da zəhərləmişdi.

## 21

Rüstəmbəy Kiyevdən bir teleqram aldı, bilatəxir Kiyevə dönməsi tələb olunurdu. Düşündü – burada Vanyanın barmağı olduğu aydındı. Rüstəmbəyin işçilər arasında populyar olduğu Vanyanı təşvişə sövq edirdi; çünki istəsəydi seçki vasitəsilə təkrar iş başına çıxa bilərdi. Halbuki Rüstəmbəy çəkilib milli sahədə çalışmağı hər şeyə tərcih edirdi. Vanyanı çağırıb məsələni anlatdı:

– Teleqram aldım, gedirəm, – dedi, – zatən bunsuz da getməyə qərar vermişdim.

Vanya ciddi:

– Yəqin sizə baş idarədə məsul bir iş verəcəklər...

– Artıq zemstvo xidmətində qalmağa lüzum görmürəm; indi bir az da öz millətim üçün çalışmaq istəyirəm.

Bu sözlərdən sonra Vanyanın üzü sərt və şübhə edər bir şəkil aldı:

– Hər millət özü üçün çalışsa, mövcud olan anarxiya bir qat daha artar ki...

Rüstəmbəy ağzını burub kənara baxdı və bir az düşünüb:

– Görürsünüz nələr olur? Hər ağızdan bir səs çıxır. Ölkə hərcmərc; dövlət aparatı pozulmuşdur, bunun sayəsində xalq da məhv olub gedir. Millətlər mərkəzdən ümidlərini kəsərək, özlərinə ümid bağlamağa başlayırlar. Ayrı çarə varmı?

Vanya kədərli bir halda:

– Deməli, siz də ukraynalıların izincə getmək istəyirsiniz.

– Təbii deyilmi?

Vanya bir söz söyləmədi, yenicə yerləşdiyi xırda otağı dolaşaraq düşündü:

– Millətlərin yeganə çarəsi bolşeviklərə qoşulmaqdır. Xudbincəsinə kənara çəkilməklə məsələ həll olunmayacaq. Kənara çəkilmək əcnəbi kapitalistlərinin qucağına atılmaq deməkdir!

Rüstəmbəy qəti olaraq:

– Bolşeviklər iş başına keçəcəklərmi? Dövlət intizamını ehya etməyə müvəffəq olacaqlarmı? Milli məsələni necə həll edəcəklər?.. Bunlar birər məsələdir...

– Bolşeviklərin iş başına gəlməsinə zərrəcə də olsa şübhə etməməlidir; çünki biz geniş əməkçi kütləsinin arzusunu tərənnüm edirik. O kütlə əksəriyyət təşkil edir, qüvvət də o kütlədədir. Bu saat o kütlənin təşkilatı ilə məşğuluq. Təşkilat bitər-bitməz Kerenskinin zəif əlini dövlət idarəsi polad əllərə alınacaq. Bu olacaq! Buna inanmalı!

Rüstəmbəy inanmayaraq, dinlədi, bir şey söyləmədi; qərarından çəkilmək niyyətində deyildi. Bu əsnada Kasparyan içəri girdi. Vanya gülərək:

– Kasparyan münsif olsun, – dedi. – Kasparyan, sən ermənisən, şübhəsiz, milli ruh daşıyırsan, milli məsələni inqilab necə həll edəcək? Bunu bilirsənmi?

Kasparyan məsələnin birdən-birə zühur etməsindən şaşdı:

– Nə üçün mənə bu sualı verdin? – deyə sordu.

Vanya:

– Rüstəmbəylə bəhs etdik, onu qane edə bilmədim, bu barədə sənin rəyini bilmək istəyirəm.

Kasparyan oturub düşündü:

– Milli müqəddərat, – dedi, – əsrin ən kəskin məsələsidir. Millətləri ələ almaq üçün hərə bir vəd verir. Çar hökuməti Polşaya istiqlaliyyət, bizə də muxtariyyət vəd etmişdi. Çar yıxıldı, vədi də öldü. İndi Rusiyadakı firqələr bu məsələ ilə məşğuldurlar. İş başına gələn esdeq və eserlər çarın mərkəziyyət siyasətindən əl çəkmək istəmirlər. Ukrayna məsələsindən dolayı kadetlər müvəqqəti hökumətdən çəkildilər. Rusiyanın ən mədəni qüvvələri də, bilirsiniz, kadet firqəsindəndir.

Yeganə ümid bolşeviklərdir. Bunların millətlərə olan vədləri böyükdür. Ancaq bolşeviklərin qüvvəti mənə bəlli deyil; dövlət adamlarını da tanımıram... Yeganə çarə, hələlik, milli muxtariyyət üçün çalışmaqdır.

Rüstəmbəy bu sözləri eşitcək yerindən sıçrayıb:

– Bravo, Kasparyan! – dedi, əlini uzatdı.

Kasparyan onun əlini bərk-bərk sıxdı. Vanya bundan bir az pərt oldusa da, özünü itirmədi.

– Bağışlayın, bu sizin məlumatsızlığınızdan doğur. Siz Lenini oxuyun, onun milli məsələ haqqındakı fikirləri ilə tanış olun. Tanış olsanız, əminəm ki, fikrinizi dəyişərsiniz.

Kasparyan Vanyanın sözlərini təsdiq edərək:

– Ola bilər, – dedi, – ancaq mərkəzin siyasəti millətləri elə qorxutmuş ki, oradan nəşət edən böyük vədlər belə şübhəli görünür. hər halda yaşayarıq da, vədlərin doğru və yalan olduğunu bilərik. İndilik qarışıqlıq və fəlakətdən başqa bir şey görmürəm.

Vanya bunları yenidən inandırmağa çalışdı və sözünün qüvvəti üçün Leninin milli siyasət haqqındakı fikirlərini anlatdı.

## 22

Rüstəmbəy getməli idi; şeyləri qablanıb bileti alınmışdı. Sabahdan bölüklərə çıxıb bütün işçilərlə vidalaşdı. Rüstəmbəyin getməsi münasibətilə Vanya nahara Kasparyanı, Zina və Borisi də dəvət etmişdi. Çox içib, çox nitqlər söyləndi, axırda Rüstəmbəy hamısı ilə öpüşdü.

İki qazalaq hazır oldu. Şeylər yükləndi, mindilər. Zina, Boris, Vanya birinə, Rüstəmbəylə Kasparyan da o birisinə. Miniklər xəfifcə sərxoş idilər. Vanya deyib, gülüb Zinanı əyləndirirdi. Kasparyan isə səmimi və ciddi bir halda etirafa qapılaraq, ürəyinin ən gizli guşələrini Rüstəmbəyin qarşısında açmışdı. Bu adamın millətinin gələcəyindən başqa düşüncəsi yox imiş – hər an, hər dəqiqə eyni məsələ ətrafında fikir yürüdürmüş. Bu günkü etiraf Rüstəmbəyin səmimi tövsiyəsinin nəticəsi imiş. Yarı rusca, yarı türkcə dedi:

– Rüstəmbəy, sənin canına, səni çox sevirəm. O gündən sənin dediklərini fikirləşdim... Məssəb haqqı, doğru deyirsən. Düzdür, o gün sənə cavab vermədim; çünki, doğrusunu deyim, inanmırdım. Bağışlayasan, mən düz adamam – inanmadım. Axır, canım, bu da səbəbsiz

deyil. Müsəlmanlar bizi çox qırmışlar, biz də müsəlmanları az öldürməmişik. Düşmən olmuşuq. Bu düşmənçiliyi tərbiyə və təhsilimiz bir qat daha artırmışdır. Erməniyə qarşı zülmləri evdə atamız-anamız, kilsədə keşiş, məktəbdə müəllim, müəlliflər, jurnalistlər o qədər söyləmişlər ki, varlığımız kinlə yoğrulmuşdur...Sənə doğrusunu deyim, bizi qırdıran, məhv edən bu kin olmuşdur.

Müsəlmanın bir məsəli var: "Qanı qanla yumazlar, su ilə yuyarlar". Daşnaqlar həmişə qanı qanla yumaq istəmişlər...

Kasparyan titrək əli ilə cibindən papiros çıxarıb, zorluqla yandırıb nəşə ilə çəkdi, sonra məst bir halda sözünə davam etdi:

– Biz əl-ələ verib, keçmişi yaddan çıxarmalıyıq. Əlini ver! – deyə Rüstəmbəyin əlini qapıb sıxdı. Bir-birinin üzünə baxaraq, qucaqlaşıb öpüşdülər. Ayrılarkən Rüstəmbəy mehriban baxışla onu süzdü – Kasparyanın gözləri yaşarmışdı.

Stansiyaya qədər Kasparyan danışdı, erməni məsələsini təhlil edərək, bu məsələnin həlli üçün atılan addımların bütün səhvlərini göstərdi. Nəhayət, dedi:

– Canım, Bakı sizin, Tiflis gürcünün, biz də İravanda yaşasaq, sizə mane olarıq?

Rüstəmbəy cəld:

– Təbii, yox. Hər bir millət öz etnoqrafi hüdudunda sərbəst yaşamalıdır. Bu, millətlərin haqqıdır...

Stansiyaya gecikmişdilər. Şeyləri cəld yerləşdirib vidalaşdılar. Kasparyan təkrar Rüstəmbəyi qucaqlayıb öpdü.

# DÖRDÜNCÜ HİSSƏ

## 1

Kiyev Rüstəmbəyin nəzərində olduqca dəyişilmişdi: əsgər libaslı adamların sayı bir qat daha artmışdı. Yorğun və düşgün soldatlarla bərabər, qadın bölükləri də gözə çarpırdı. Kerenski hökuməti ordunun ruhunu yüksəltmək üçün könüllü qadınları da əsgərliyə cəlb etmişdi. Ukrayna hökumətinin atdığı cəsarətli addımlar bütün şəhəri bir-birinə zidd iki qüvvəyə ayırmışdı. Şəhərin az bir hissəsi Ukrayna hərəkatını təsvib edirdi. İdarə və məktəblərin milliləşməyi haqqında yayılan şayiələr əksəriyyəti həyəcana belə gətirirdi. Tramvayda bir rus qadının o birinə: "Mən balalarımı boğaram da, Ukrayna milli məktəbinə verməərəm", – deməsinin Rüstəmbəy şahidi olmuşdu.

Ehtikar daha da şiddətlənmişdi: çocuqdan böyüyə hər kəs alıb satırdı. Ərzaq və iaşə məsələsi bir az da kəskinləşmişdi. Xırda pul qaib olmuşdu və bundan da min bir çətinliklər doğurdu. Almanların hücuma davam edərək, Baltik sahillərini istila etməsi kimsəni mütəəssir etmirdi. Kef yerlərində axıdılan şampan şərabının sayı-hesabı yoxdu. Gənc qızlar arasında alverçilərdən nüfuzlu və mötəbər adam təsəvvür edilmirdi; çünki modalı paltar, ipək corab, incə ayaqqabı, şokolad və ətir kimi az tapılan şeyləri yalnız alverçi təmin edə bilərdi. Oğurluq və cibgirlik adi sənət olmuşdu. Xalq bunu cəbhəni tərk edib qaçmışlara istinad edərək, qəzetlərdə tühaf elanlar dərc edirdi: "Yoldaş oğru, cibimdən çıxardığın portmonetdəki pullar sənin, vəsiqələrimi göndərmək zəhmətində bulunmanızı iczlə rica edirəm. Adresim bu..." Rüstəmbəy bu kimi elanlara qəzet sütunlarında çox rast gəlirdi.

Yenə küçələrdə natiqlər nitq demədə idi – insanlar danışıq xəstəliyinə tutulmuş kimi, gecə-gündüz yorulmadan ağızlarından söz axıdırdılar. Kimsə də söylənmişlərə yeni bir şey artırmırdı. Qəzetlər də eyni halda idi: Petroqradda çağırılmış "Demokratik müşavirə"də söylənilən nitqlər geniş qəzet sütunlarını doldurmada davam edir, qurtarmaq bilmir. Nitqlərə baxmayaraq, anarxiya dövləti çeynəmədə idi.

Rüstəmbəy zemstvo baş idarəsi tərəfindən təklif olunan yeni xidməti rədd edib, qulluqdan tamamilə çəkilmişdi. Milli hərəkata qoşulmaq üçün hazırlıq görürdü. Hər yerdə firqə mənsubiyyəti soruldüğu üçün Rüstəmbəyin də bir firqəyə qoşulması lazım gəlirdi. "Müsavat"

proqramını səbirsizliklə gözlədiyi halda, bu proqram onu məmnun etmədi. Rüstəmbəy məsləkcə daha sol idi.

Bir axşam "Müsavat" proqramından məmnun qalmadığını Qulamrzaya açdı. Qulamrza dedi:

– Proqramın qəbul etmədiyin yerlərini söylə də, müzakirə edək. İrəlidə çağırılacaq qurultayda biz də öz proqramımızı təklif edərik; qəbul etməsələr, başqa bir firqə təşkilinə çalışarıq.

Rüstəmbəy razı oldu:

– Bilirsən, – dedi, – "Müsavat" proqramında iki təsir var: müqəddiməsi Ziya Göyalp fəlsəfəsi üzərində qurulmuş, mündərəcə də kadet proqramından alınmışdır. Bunun ikisi də bizim üçün əlverişli deyil. Ziya Göyalp "İslamlıq, müasirlik, türklük" – deyə meydana üç qanadlı şüar atmışdır. Bu, səfsətədən başqa bir şey deyildir. İslamlıq bir din olaraq, müasirliyə ziddir. Bundan başqa, siyasi bir firqə təşkilində dinə lüzum varmı? Məqsəd Azərbaycan muxtariyyəti isə, dini deyil, dövləti nöqteyi-nəzəri müdafiə etməliyik. Mündəricəyə gəldikdə "Müsavat"ın torpaq məsələsi həlli də məni məmnun etmir. "Torpağı kəndli bəydən satın alacaqmış", – deyilir. Bu, bəylərin faydası deməkdir. Torpaq məccani olaraq kəndlilərə verilməlidir. Torpaq əkənindir. Torpaq bilavasitə üzərində işləyənindir. Bizim şüarımız bu olmalıdır...

Rüstəmbəy "müsavat" proqramının tənqidi yolunda uzun-uzadı mülahizələr yürüdüb, axırda dedi:

– Bizə müsavatçı deyilməz. Biz milli sahədə çalışırıq, ancaq hələlik özümüzə ünvan qəbul etmərik. Olsa-olsa, türk federalistləri adını daşıyarıq.

Qulamrza gülümsündü və Rüstəmbəylə tamamilə şərik olduğunu bildirdi.

## 2

İndiyə kimi Rüstəmbəyin sözlərini dinləyən Sayad bacı yerində qımıldandı və gözləri Rüstəmbəyin boş stəkanına çarparaq, ayağa qalxdı. Cəld çay verib, yerində əyləşdi. Rüstəmbəy susmuşdu. Qulamrza müsavat proqramını gözdən keçirirdi. Sayad bacı nə düşünürdüsə qaşları qalxır, yanaqları qızarmağa başlayırdı. Çox çəkmədi:

– Bəri baxın, – deyə sükutu pozdu. – Rüstəmbəy, burada firqə təşkil etmək istəyirsiniz?

Rüstəmbəy:

– Firqə deyil, milli təşkilat yaratmaq istəyirik, – deyə cavab verdi.

– Oraya kimlər girəcək?

– Kim istərsə. Əvvəl ümumi iclas çağıracağıq, fikrimizi izah edərik də, sonra meyli olanlar yazılar.

Sözlərini bitirdikdən sonra Rüstəmbəy bir az düşünüb, Qulamrzaya müraciət etdi:

– Doğrudan, Qulamrza, burada kimlər qalmışdır?

– Köhnələrdən az adam var. Qulu klinikada doktorluq edir. Cabbar yenə öz aləmində. Səftər oxuyub qurtarmağa çalışır...

– Bunlar heç! – deyə Rüstəmbəy onun sözlərini kəsdi.

– Cavanlardan bir neçəsi var: Həqqi, Əbdürrəhim, Həsənoğlu. Sonra bir-iki nəfər də var... Bilirsən, hərə bir tərəfə dağılmışdır. Bu qarışıqlıqda təzə tələbə də gözlənmir. İndi adama ehtiyac olduğu üçün çoxları Bakıda və qəzalarda işləyir.

– Zemlyaçestvo ki, fəaliyyət göstərmir.

– Yay tətili münasibətilə işləmirik. Üzvlərdən bircə mən qalmışam. Yeni seçki olmalıdır.

Rüstəmbəy gülümsündü:

– Daha zemlyaçestvo zamanı öldü... Komitə seçərik də, zemlyaçestvonun pul və kitabxanasını əlimizə alarıq.

Qulamrza heyrət edər kimi:

– Razı olarlarmı? Siyasi komitə ayrı, zemlyaçestvo ayrı. Komitə buradakı bütün türkləri başına toplaya bilməyəcək. Elə deyilmi? Burada cürbəcür məsləkli adamlar var.

– Burası düz. Ancaq indi inqilabi yol – deyə mod bir təbir var. Biz də inqilabi yolla hər şeyi həcz edərik. Razı olub olmamağa çox da əhəmiyyət verən yoxdur.

Qulamrza və Sayad bacı Rüstəmbəyin cəsarətinə heyrət edərək gülüşdülər.

Gecə saat on birə qədər oturub, iki yoldaş irəlidəki fəaliyyətlərinin planını düzəltdilər. Çağırılacaq adamların siyahısı tutuldu, gün təyin olundu. Nəhayət, Qulu ilə Cabbara xəbər verilməməsini qət edib, gəzməyə çıxdılar.

## 3

Sabah çaydan sonra Rüstəmbəy oturub Şimali Amerika Qoşma Cümhuriyyətinin dövləti təşkilatını tədqiq edirdi, qapı tıqqıldadı:

– Gəlin! – deyə söylər-söyləməz qapı açıldı. Musyanın atəş saçan çöhrəsi bulud arxasından doğan ay kimi zühur etdi.

Rüstəmbəy onu heç də gözləmirdi. Yazdığı bir sıra məktuba belə cavab verməyə vaxt tapmamışdı. Bir az soyuq, bir az da heyrətli bir təbəssümlə yerindən qalxıb Musyanı qarşıladı.

– Buyurun! Buyurun! Xoş gəldiniz! Baxınız, sizi otağımda heç də təsəvvür etməzdim, – dedi.

Musya şən addımlarla irəli atıldı, barmaqlar bir-birinə sarıldı. Sonra Rüstəmbəy Musyanın xırda çamadanını alıb masanın üzərinə qoydu. Ona yer göstərdi. Oturdular. Musya açıq kitabı süzərək:

– Kitabla məşğulsunuz, dostları unutduran kitabla, – deyə başını tərpətdi.

Rüstəmbəy də:

– Nə etməli? Həyatın tələbi bu, – deyə başını tərpətdi. Musya bir az qızararaq:

– Üç məktub göndərdim, birinə cavab yox. Nə oldu? – deyə düşündüm. Rahatsız oldum. Dedim, gedim də görüm..

Musyanın sözləri və hərəkəti Rüstəmbəyə o qədər tühaf göründü ki, tam altı əsr əvvəlki zamanların qəhrəmanlarını andırdı. Ətrafda coşan siyasi hadisələr fərdi həyatı və hissi uzaq keçmişlərə atan kimi görülürdü. Qəlb xatirəsi üçün iki günlük yol zəhmətinə qatlaşan bu şən və zərif qızla öz arasında altı əsrlik bir məsafə duydu. Cəsarətsiz səslə:

– Nə incə və böyük qəlbə maliksiniz! Mən bu fədakarlığa dəyərəmmi? – dedi.

– Özünüzü mənim yanımda əskiltməkmi istəyirsiniz? Qabil deyil! – deyə dodaqlarında yarı istehza, yarı ciddi bir təbəssüm parladı. Rüstəmbəy də istər-istəməz gülümsədi:

– Musya, – deyə ayılan kimi oldu, – yəqin çay içməmisiniz, gətirsinmi?

Musya qızararaq, söz deməyə cəsarət etmədi. Rüstəmbəy otaqdan çıxıb samovar verilməsini söylədi. Kitabı götürüb masanın üstünə çörək və pendir qoydu:

– Yıkanmaq istərsinizmi?

Musya cəsarətsiz səslə:

– Fəna olmazdı, – deyə qalxıb yuyuncaqda yuyunmağa başladı.

Xidmətçi qız stəkan gətirdi. Bir az sonra samovar da gəldi. Musya yıkanıb, silinib, böyük güzgü qarşısında saçlarını düzəldirdi. Rüstəmbəyin gözləri ona sataşdı – səliqə ilə tikilmiş paltarı mütənasib vücuduna olduqca yaraşırdı. Cəbhədə bir az yabanı görünən Musya olduqca mədəni bir gözəlliyə malikdi. Ağıllı baxışı, dolğun sinəsi, həlim və tərənəli səsi – bütün hərəkəti xanımlıq haqqına haiz olduğunu bildirirdi. Rüstəmbəy bunu duydu, ancaq səadət yolunun yalnız bircə saniyəlik bir məsafəsini görə bildi; dəruni aləminin uzaq bir guşəsində nədənsə tufan qopdu. Soyuq bir kabus arzulara, nəşələrə, sevinclərə toxunub yıxdı. Qarışıq bir hiss vücuduna hakim oldu. Musya ilə arasında olan altı addımlıq məsafə yenə altı əsrlik göründü.

– Nə üçün düşünürsünüz? – deyə Musya onu fikirdən ayırdı.

Rüstəmbəy:

– Heç! – deyə cavab verdi, lakin dodaqlarında fırlanan söz qulaqlarına çatmadı.

– Sizə manemi oluram?

– Yox!

– Bir saatdan sonra gedəcəyəm. Bir dəqiqəliyə də olsa görüşmək istədim.

– Mənə heç də mane olmursunuz... Bir neçə gün qonaq qalın da, sonra gedərsiniz, – deyə Rüstəmbəy yavaş-yavaş fikirdən ayrıldı.

Musya özünə çay töküb gətirdi. Rüstəmbəyə də təklif etdi, sərbəst bir hərəkətlə yeyib içdi. Sonra bir ev xanımı kimi masanı yığışdırdı.

– Rüstəmbəy, siz oxuyun, mən mane olmaq istəmirəm, – dedi və komoda tərəf yönəldi. Komodun qutularını bir-bir açıb səliqəyə salmağa başladı. Oraya tökülmüş çörək qırıntılarını təmizlədi, qəzet döşəyib, çörək və pendir boşqablarını qoydu. Masanın üzərindəki kitabların tozlarını silib, qayda ilə düzdü. Paltar dolabını da unutmadı – paltar və camaşırları töküb səliqəyə saldı. Nəhayət, sökük camaşırları və yırtıq corabları ayırıb, sandalyanın üzərinə çəkildi.

Rüstəmbəy sandalyaya söykənib, dərin bir düşüncə ilə Musyaya tamaşa edirdi. Musya dadlı bir təbəssümlə onu süzərək:

– Kişiləri yalnız buraxmaq olmaz, – dedi. – Arabir onları yoxlayıb, yalnız guşələrinə qadın şəfəqqəti saçmalıdır.

– Doğru, – deyə, – Rüstəmbəy tamaşa edirdi. Musya iynəni saplayıb camaşırın sökük yerləri ilə məşğuldu. Diqqət və ciddiyyəti ilə Rüstəmbəyi heyrətə gətirirdi.

4

Musyanın tikiş və yamaq işləri bir saata qədər davam etdi. Eyni zamanda da xidmətçi qız evi yığışdırıb, döşəmələri sildi. Musya güzgüdə bir də özünü seyr edib, Rüstəmbəyin yanında oturdu. Rüstəmbəy ona həsrətlə baxaraq:

– Ah, bu inqilab bir neçə il əvvəl və ya bir neçə il sonra olsa idi də, – dedi.

Musya:

– Onda nə olardı? – deyib cavabını maraqla gözlədi.

– Onda mənim də şəxsi səadətim təmin olunardı.

– İnqilabın şəxsi səadətə manesi varmı?

– Əlbəttə, var. Baxın, üzərimizdə nə qədər vəzifə var.

– Nə üçün vəzifələrin hamısını öz üzərinizə yükləyirsiniz? Bir az da biz qadınlara tərk edin. Qadın sizlə bir yerdə vəzifə daşıya bilməzmi?

Rüstəmbəy məsələni dürüst təsəvvür edə bilməyib susdu. Musya onun yanlış fikirlərini islah etmək məqsədi ilə:

– Siz, – dedi, – həyatı maneəsiz, tikansız bir düz yol kimi təsəvvür edirsiniz. Həyatda inqilabdan da ağır amillər var. Bunlara baxmayaraq, xoşbəxt insanlar azmı?

– Bəlkə də var. Ancaq mənə çətin gəlir.

– Burada çətin bir şey yoxdur. Ən böyük çətinlik yalnızlıqdır. Təbiət qadın və kişiləri bir-birinə yoldaş yaratmışdır. Onlar həyat çətinliklərini birlikdə yox edirlər. Hər halda iki təkdən qüvvətlidir.

Musyanın mətanətli sözləri Rüstəmbəyi qane edə bilmir. O, şəxsi səadəti ümumi səadətə zidd bir qüvvə bilirdi. İkisinin bir aralıqda ola bilməsinə inanmırdı. Şəxsi səadət arzusu içərisindən, ümumi səadət arzusu da dışarıdan onu sıxırdı. İki təzyiq arasında müvazinətini qaib edərək, əzab içərisində çırpınırdı.

– Musya, – dedi. – Siz məni tühaf bir adam zənn edirsiniz. Halbuki mən iki yol ayrıcında qalmış bir zavallıyam – bir zamanda yolun ikisi ilə də getmək mümkün deyil.

Musya səsini yüksəldərək:

– Yol iki deyil, birdir: şəxsi səadəti təmin edib, sonra ümumi səadət yolunda çalışmaq mümkün deyilmi? Mümkündür!.. Dünyada ümum üçün çalışanların hamısı şəxsi həyatdan əl çəkmişlərmi? – Xeyr, bunların biri o birinə mane deyildir. Biləks, şəxsi səadəti olanlar daha da rahat çalışırlar...

Rüstəmbəy:

– Nə edim ki, mən acizəm, – deyə yenidən fikrə daldı. Musya onun əlini əlinə alıb:

– Siz düşünməyin, – dedi, – xoşbəxt olmaq yolunu mən sizə öyrədərəm. Bu, yalnız arzuya bağlıdır. İnsan öz taleyinin ağasıdır. Bir kərə ağa olduğunuzu unutmayın. Sonra qəlbinizi ağıl zənciri ilə əsir etməyin: qəlbdə yanan çıraq ağlınkından işıqlıdır.

Bu mətin sözlərin heç birisi Rüstəmbəyi daldığı tərəddüddən ayıra bilmədi. Sabahleyn susmuş şəxsiyyəti Musyanın təsirinə düşərək, üsyan etmişdi.

5

Naharı bir yerdə yedilər. Rüstəmbəy Musyanı evdə buraxıb, saat beşdə təyin olunan iclasa qoşdu. Cəmi on yeddi adam gəlmişdi. Yarım saat gözlədikdən sonra yığılanlar Rüstəmbəyi sədr seçdilər. O, məclisi açıb məqsədini bildirdi.

Qulamrza “Müsavat” proqramını oxudu. Rüstəmbəy də tənqid edərək fikrini izah etdi. Suallar verən olmadı. Münaqişə başlandı. Əbdürrəhim türk ədəmi-mərkəziyyət firqəsinin türk siyasəti aparmasına etiraz edərək:

– Yoldaşlar, – dedi, – “türk” sözü ilə biz türk olmayan müsəlmanları özümüzdən uzaqlaşdırırıq. Azərbaycanda kürd, dağıstanlı və islamiyyətə mənsub olan başqa qövmlər də yaşayır. Bunlar da öz milli firqələrinimi təşkil etməlidirlər? Milli siyasət müsəlmanlığa nifaq sala bilər. Ona görə mən bu komitəyə girməyi lazım bilmirəm, – dedi və yerində oturdu.

Döşündə tibb fakültəsi nişanı olan birisi şişman vücudu ilə sandalyanı şıqqıldadaraq:

– Mən həkim babayam, mən firqəni nə edirəm? Həkimlik də elə bir firqədir, – deyə söylədi və qara yanaqlarına yaraşan uzun bığını tumarlamağa başladı.

Yerdə qalanlar etirazsız olaraq milli komitəyə yazıldı. Yeddi kişidən mürəkkəb bir komitə seçildi. Rüstəmbəy sədr, Qulamrza da katib oldu. Həqqi, Həsənoğlu, Zeynal, Müslüm komitəyə üzv seçildilər. – Komitə üzvləri olmayanlar gedə bilər, – deyə Rüstəmbəyin səsi eşidildi.

Əbdürrəhim və başqaları durub getdilər. Komitə isə yenidən iclas açıb müzakirəyə oturdu.

Rüstəmbəyin müqəddiməsindən sonra birinci sözü Qulamrza istəyib dedi:

– Yoldaşlar, "Müsavat" proqramını rədd etdik. Başqa proqram da yoxdur. Proqramsız işləmək mümkün olmadığı üçün əlimizdə yazılı bir şey olmalıdır. Rüstəmbəydən təvəqqe edək, bizə bir proqram düzəltsin.

– Sonra müzakirə edək, – deyə Həsənoğlu əlavə etdi.

– Təbii, komitəyə təqdim edər, müzakirə edərik. Komitə bu təklifi qəbul etdi. Sonra bir çox məsələlər irəli sürüldü. Başlıca olaraq: Ukrayna xadimləri ilə sazişə girmək qeyd olundu. Zemlyaçestvo məsələsi müzakirə olundu, bunun da yeganə varisi komitə olduğu bildirilib, pulların və kitabxananın həczi qərara alındı.

Nəhayət, həftənin müəyyən bir günü iclas üçün təyin olundu. Sonra iclas qapandı. Ayağa qalxdıqda bir də Rüstəmbəy dedi:

– Yoldaşlar, Qulamrza ilə mənə həvalə edin, komitəyə möhür ismarlayaq.

– Yaxşı, yaxşı! – deyə təsvib etdilər.

## 6

Komitə üzvləri təcrübəsiz, az məlumatlı, adi tələbələrdi. Kimisi təhsilini qurtarmaqda idi. İctimai işlərlə heç biri məşğul olmamışdı, odur ki, bacarıqsız olduqları gözə çarpırdı. Bunların hərəsinin bir xüsusiyyəti vardı. Həqqi tənbəl və inad; Zeynal acıdilli; Müslüm safdil; Həsənoğlu isə şəxsi faydasını güdən, tacir ruhlu və qapalı ürəkli bir adamdı. Tühaf burasıdır ki, bunları bir-birinə bağlayan nə xüsusi dostluq vardı, nə də şəxsi həyat. Hərəsi bir şəhərdən gəlmiş, təsadüfən Kiyevdə görüşmüş və ruhən biri digərinə yabançı qalmışdı.

Buna baxmayaraq, milli hiss bunları milli komitə ətrafına toplaya bilmişdi; lakin bunların milli hissləri də müəyyən bir xüsusiyyətə

malik idi. Ailə və çocuqluq mühitləri bu hissi bunlara verməmişdi. Orada onları bəsləyən yalnız dini məfkurələr olmuşdu. Deməli, milli ruh bunlarda üzvi deyil, təqlid qanunu vasitəsilə doğmuşdu. Kiyevdə polyak studentlərinə rast gələrək, onların rus dilini boykot etmələrini, milli ənənə və tarixlərinə sarılmalarını görmüşdülər; yəhudi, gürcü, erməni və başqalarının milli təşkilatları ilə aşina olub aydın bir məfkurə yolunda çarpışmalarının şahidi olmuşdular...

Özgələri təqlid edərək: "Bizim də bir mənəmliyimiz olmalıdır", – demişdilər. Rüstəmbəy bu ruhi vəziyyəti duyaraq, cürbəcür xassələr daşıyan adamları bir fikir ətrafına toplaya bilmişdi.

Fikrin özü belə, onu daşıyan gənclər kimi, hələ təbəllür etməmişdi, tərəddüd və şübhə daima istiqamətini pozurdu. Komitənin başında duran Rüstəmbəy belə sabit bir fikrə və sarsılmaz bir məfkurəyə malik deyildi. O daima oxuyur, axtarır və bəzən çıxılmaz yollara belə düşürdü.

## 7

Axşam Rüstəmbəy evə döndükdə otağında bir ailə istirahəti duydu. Samovar hazır, masaya əlvan yeməli şeylər düzülmüşdü. Ətir qoxusu damağa çökürdü. Divardakı rəsmlərə sus üçün incə bantlar taxılmışdı. Hər yerdə nizam və səliqə görünürdü. Yataq camaşırı belə dəyişilmiş və yanındakı xırda masanın üzərinə vazda gözəl çiçəklər qoyulmuşdu.

Musya onu görcək tez qalxdı, şapkasını alıb asdı.

– Yuyunmaq istərmisən? – deyə yumşaq bir səslə sordu. Rüstəmbəy yuyunub, masanın ətrafında Musya ilə qarşı-qarşıya oturdu. Musya:

– Yəqin, yorulmusan? – deyə sordu.

– Yox. Seçki bitdi, indi çalışmaq lazımdır.

Musya çay tökdü:

– Bazara getdim, – dedi, – bulka tapa bilmədim. Bir yerdən üç dənə pasta ala bildim. Xırda pul olmadı, əlli qəpiyi də orada buraxıb gəldim.

– Elədir, indi burada yaşamaq çətindir. Heç bir şey tapılmır.

– Bizim şəhər də belədir: ərzaq komitələri təşkil etmişlər, onlar da alış-verişlə məşğuldurlar. Bir gün qadınlar çörəkçi dükanına hücum edib dağıtmışdılar.

– Getdikcə daha fəna olacaq. Baxın, bolşeviklər iş başına keçmək istəyirlər. Onların şüarlarını blirsinizmi? – "Cəbhədə sülh, arxada müharibə," – deyə hayqırırlar. Hakimiyyət üstündə qanlar töküləcək.

Musya bir az düşünərək safdil bir halda:

– Bilmirəm, – dedi, – insanlar daha nə istəyir, çarı yıxdılar, hürriyyət qazandılar, di məmləkəti yaxşı idarə etsinlər. İndi işlər daha da xarablaşır. Rüstəmbəy gülümsünərək:

– Təbii deyilmi? – Kerenski xalqın istədiyini vermək istəmir. Baxın, müharibə yenə davam edir, mərkəziyyət üsulu yenə qalır...

Musya diqqətlə dinləyərək:

– Sizcə, Rüstəmbəy, nə olmalı? – dedi.

– Məncə, federasiya. Millətlər öz-özlərini idarə etməlidirlər. Siz ukraynalı olaraq, bunu bilməlisiniz.

– Mən ukraynalıyam, ancaq milli dilimi bilmirəm. Bir də ukraynaca yalnız kəndlilər danışır.

Rüstəmbəy:

– Eyib! Eyib! – deyə istehza ilə başını tərpətdi.

Musya da:

– Məndə qəbahət var? – deyib oynaq bir halda gözlərini süzdü.

Mövzunu dəyişdilər. Cəbhəni xatırlayaraq, keçirdikləri xoş günləri təsəvvür etməkdə həzz duydular. Rüstəmbəy Musyanın Buçaçda tökdüyü göz yaşlarını yad edib, istehza ilə güldü. Musya qıpqırmızı kəsilib nazlana-nazlana:

– Nə edəydim? – dedi. – Hamı qaçır, göydən aeroplanlar bomba tökürdü; alman bizi əsir apara bilərdi...

– Nə olardı? – deyə Rüstəmbəy onun sözlərini kəsdi, – gözəl bir almanla evlənib məsud olardınız.

– Oy, evlənməzdim! Almanla xoşbəxt ola bilmərəm... Mən cənubluları, qaraqaş, qaragözlü cənubluları çox sevirəm.

Rüstəmbəy Musyanın bu işarəsini qulaq ardına vurub, başını aşağı saldı və masa örtüsünün kənarını bükməyə başladı.

## 8

Saat on ikiyə yaxınlaşırdı. Musya daranıb, yatmaq tədarükündə idi. Rüstəmbəy də salonda yatmağına müsaidə olmaq üçün ev xanımının yanına getdi. Xanım razı oldu və maraq edərək Rüstəmbəyi söhbətə tutdu:

– Nişanlısınızmı? – deyə sordu.

– Yox, tanışdır. Nə üçünsə gəlmiş, bir neçə gündən sonra gedəcək.

Xanım hiyləgər bir təbəssümlə:

– Sizə çox yaxın görünür, – dedi, – bəlkə də sizi sevir. Hər halda ümidlə gəldiyini zənn edirəm... Bilirsiniz, gözəl qızdır. Çox tərbiyəli və nəzakətlidir... Mən sizin yerinizə olsaydım, fürsəti qaçırmazdım.

– Aman, bu zamanmı?

Xanım bir az da mülayim səslə:

– Bilirsiniz, siz gəncsiniz, həyatı bilmirsiniz, gələn baxtdan qaçmazlar; çünki fürsət nadir qonaqdır. Bir daha gəlməyə bilər.

Rüstəmbəy xudpəsənd bir halda:

– Hələ gəncik, yenə gələr.

– Bağışlayın, neçə yaşınız var... Bağışlayın, dostluqda soruşuram.

– İyirmi doqquz.

– O, evlənmənin tam vaxtıdır. Sonra gec olar...

– Olmaz! Olmaz!..

Xanım qəhqəhə ilə gülüb, əlavə etdi.

– Məndən sizə demək – fürsəti qaçırmayın! Qız sizə aşiqdir. Bu gün danışdırmışam. Rədd etsəniz, dəli olar...

Rüstəmbəy oynaq bir halda:

– Olmaz! Olmaz! – deyə ayrıldı. Qapısına yanaşıb taqqıldatdı:

– Olarmı? – dedi. Otaqdan:

– Bir az gözləyin, – səsi eşidildi.

Rüstəmbəy bir neçə dəqiqə koridorda gəzinməyə başladı. Bir az sonra Musyanın bakir səsi:

– Olar! – deyə havanı titrətdi.

Rüstəmbəy otağa girib, Musyanı yataqda gördü. Tavandakı lampa söndürülmüş, yalnız çarpayının yanındakı yanırdı. Ətirlənmiş yataq rayihə saçırdı. Musyanın qonur saçları ağ yastığa sərilərək, atəş saçan çöhrəsinə gözəl bir fon təşkil etmişdi. Rüstəmbəyə heyran-heyran baxan gözləri dənizdə dalğalanan günəş əksini xatırladırdı. Totuq qolu və incə əli ipək yorğana istinad edərək, pərəstişkar bir vəziyyətdə idi...

Rüstəmbəy qapıya söykənib qaldı; cəsarətlə bərabər idrakı da vücudunu tərk edib, bu gözəl yataq ətrafında uçuşan sirlərə qarışmışdı...

Bir neçə dəqiqəlik sükut otağı bürüdü. Lakin Musyanın göz yaşları sükutu titrətməyə başladı. Rüstəmbəy qeyri-şüuri bir halda irəliləyib, çarpayının kənarında oturdu:

– Musya! Musya, nə olub? – deyə sol əli ilə qızın başını əhatə etdi. Günəş əksini andıran gözlər ona dikilərək, həsrətini anlatmağa başladı... Rüstəmbəy onu özünə tərəf cəlb edib boynuna sarıldı.

– Sən mənimsən – deyə Musya inildədi və göz yaşları, səsini boğdu.

Musyanın sözləri, sanki Rüstəmbəydə ikinci bir şəxsiyyət oyatdı: əlini Musyanın gərdənindən çəkib oturdu. Bir dəqiqə əvvəl köksündə çırpınan bu istəkli vücud yenə sislərə bürünməyə başladı. Aralarındakı mənəvi məsafə sürətlə genişlənir və Rüstəmbəyi də uzaqlaşdırırdı. Musya yenə orta əsrdəki şevalye sarayından tamaşa edən xəyali bir qız kimi görünməyə başladı. Ortalıqda altı əsrlik bir sədd dikəlmişdi. Rüstəmbəy durub getmək istədi. Musya onun əllərinə sarılıb buraxmadı:

– Yenə nə oldu. Bilmirəm ki? – dedi və Rüstəmbəyin əlini götürüb hərarətlə öpdü. Sonra yalvarıcı səslə: – Rüstəmbəy, – dedi, – sizdə tühaflıqlar var, səbəblərini mənə anlatmazsınızmı? Məni sevmirsiniz, deyilmi? Anlat da.

Rüstəmbəy, şiddətli məhkəmə qarşısındakı cavaba aciz qalan bir cani kimi, əvvəl söz aradı, sonra titrək səslə:

– Musya, bilirsiniz, hissə qapılmaq nə böyük məsuliyyətdir...

Musya:

– Ah, Rüstəmbəy, – deyə onun sözlərini kəsdi, – bircə bilmirəm, nə üçün hər şeyi ağılla ölçürsünüz. Nə məsuliyyət?

– Hər bir insan məsuliyyət duymalıdır.

Musya əlini onun əlindən uzaqlaşdıraraq, darğın bir tonla:

– Siz məxsus mənimlə əylənirsiniz, – dedi və üzünü divara çevirdi.

Rüstəmbəy ayağa qalxdı:

– Gecəniz xeyrə qalsın! – dedi və qapıya doğru yönəldi. Musya Rüstəmbəyin sözlərini əvvəl ciddi sanmayaraq, cavab vermədi. Sonra Rüstəmbəyin qapını açıb çıxması izzəti-nəfsini yaraladı.

Qonşu salonda taxt şıqqıldadı, Rüstəmbəyin yatmağa hazırlanması bəlli idi. Musya hiddətindən yanındakı lampanı söndürüb, acı göz yaşları tökməyə davam etdi.

## 9

O biri gün bir-birinə qarşı soyuq bir vəziyyətdə idilər; lakin Musya yenə hörmət və nəzakətindən əl çəkmirdi. Sabah çayı bitdikdən sonra Rüstəmbəy Musyaya bir söz demədən otağı tərk etdi. Çoxdan

İmranın dükanına getməmişdi. Azərbaycandan gələnlərin İmranla əlaqəsi olduğu üçün orada həmişə yeni xəbərlər olurdu. Rüstəmbəyi də başlıca maraqlandıran o idi. Gəlməsi də isabət oldu: Xəlil məktub və bir çox da qəzet göndərmişdi. Rüstəmbəy mağazanın bir guşəsinə çəkilib, konverti tələsik açdı. Məktub rusca yazılmışdı. Oxudu:

"Əzizim!

Əvvəl yoldan başlamaq istəyirəm. Yollar olduqca çətin və zəhmətlidir. Bir kərə nizam deyilən şey qətiyyən yoxdur: qatar istədiyi yerdə durur, hər şey maşinistin kefinə bağlıdır. Adam adam başında, oturmaq üçün müəyyən yer yoxdur. Pərdələr çalınmış; şam yox, gecələr qaranlıqda otururuq. Vaqonların damları belə çiyni torbalı soldatlarla doludur. Bəzi stansiyalarda gəlib vaqonları axtaranlar da olur, etiraz edənləri döyürlər. Bir neçə yarılmış başın da şahidi oldum. Fərdi mühakimələr də az deyildir. Birisinin çamadanından beş tapança çıxdı: soldatlar çəkib vaqondan endirdilər – platformadaca ayaqlar altında canını təslim verdi... Xülasə, böyük bir anarxiya...

Bakı çox da dəyişilməmişdir, gördüyün və bildiyin adamlar. Əliyarbəy Milli Komitə başında əyləşib, fəaliyyətdən çox fəaliyyətsizlik göstərir. Nə özü çalışır, nə çalışanı qoyur. Gənclərə yol vermir. Zatən kimə verir ki?.. Yaşlı xadimlərimiz də onun əlindən zardırlar. Hər bir məclisdə özü sədarət edir. Ancaq bir məclisdə təsadüfən onu sədr seçməmişlər, acığından, deyirlər, gedib evdə bayılmış... Nə başağrısı, işlərimiz komediyadır, komediya!..

Gənclərin bir hissəsi "Müsavat"ın ətrafına toplanmışdır. Burada da cib məsələsi getdikcə meydan aldığı üçün "bunların da işi qullabidir". Son zaman pul qazanmaq asan olduğu üçün hər kəs tacirlik məşqindədir. Təsəvvür edirsənmi, Kiyevdə millətpərəstliyi ilə aramızda məşhur olan Şirin böyük sərvət sahibi olmuşdur. "Müsavat" sütunu sayılan bu adam Gəncə ərzaq komitəsinin şəkərini "daşbaş" eləməklə Tiflisdə özünə üçmərtəbəli ev almışdır. Təfsilata lüzum qalmır, zənn edirəm! Qumar və kef məclisləri həddən aşmışdır... Sədarət üstə baş yarılır...

Bakı burjuaziyasının qudurğan cəmiyyətindən zəhləm getdiyini bilirsən. Odur ki, çirkə batmamaq üçün cəmiyyətdən uzaq qaçaraq, "Hümmət"ə qoşuldum. Tanıdıqlarından Səlman, Mir Cəfər və Əhməd də bizimlə işləyirlər. İndi öz orqanımız da var (göndərirəm...).

Yaz görüm, fikrin nədir? Türkcə bildiyin üçün, buraya gəlsən, böyük hörmət qazanarsan... Vəlibəy zəngin bir rus qadını ilə evləndi, gözün aydın olsun! Pərviz heç bir işə qarışmır, yalnız ticarət işinə baxır. Yenə səliqəli geyimində davam edir. Çingiz arvadı ilə öz şəhərində imiş. Vəssalam!.. Bu da məktub!

Öpürəm səni, Xəlil."

Yazılandan sonra: "Vəhşi diviziya"dan gəlmə zabitlər bu günün qəhrəmanı sayılırlar. Bunların şərəfinə çəkilən ziyafətləri görsən də! Gəncədə cəbhədən çəkilən rus əsgərlərinin silahını almaq bir qəhrəmanlıq sayılır. Bu da gürcülərin oyunudur...".

Rüstəmbəy məktubu qatlayıb, qəzetlərlə bərabər evə qoşdu. Bütün günü çarpayının üzərinə uzanıb, qəzetlərin mütaliəsi ilə məşğul oldu.

## 10

Dul çariçanın Kiyevdəki sarayı həcz edilib inqilabi təşkilatlara verilmişdi. Bu cümlədən olaraq, "Müsəlman hərbi komitəsi" də burada yerləşmişdi. Rüstəmbəy Azərbaycan nümayəndəsi sifəti ilə bu komitəyə üzv alınmışdı. Komitə tatar və başqırd əsgərlərini təmsil edirdi. Cəbhə ilə sıxı əlaqədə bulunan kimi, arxa ictimai və inqilabi təşkilatlarla da rabitəsi vardı. Radanın xalqlar qurultayı çağırması komitə tərəfindən hüsn-rəğbətlə qarşılandı. Fəaliyyət bir qat daha artdı: əlaqədə bulunduğu müsəlman təşkilatlarına məktublar göndərilib, qurultaya hazırlanmaları tövsiyə olundu.

Rüstəmbəy hər sabah saraya gedir və saat ikiyə, üçə qədər orada çalışırdı. Müsəlmanların hüququnu müdafiə etmək üçün qüvvətli təşkilatlarda nümayəndələr bulundurmaq icab edirdi. Hələ rada Ukrayna hakimiyyətini tamamilə ələ ala bilməmişdi. Köhnə idarələrlə bərabər "Soldat və işçi nümayəndələri şurası" da ölkə işlərinə müdaxilə edirdi. Komitənin qərarına görə Rüstəmbəy şuraya vəkil göndərildi. Şura sarayın üst mərtəbəsində bir neçə otaq da məşğul edirdi.

Soldat və işçi vəkilləri ilə bərabər oturduqları ilk iclas Rüstəmbəyə bir az tühaf görünmüşdü. Bu qeyri-mədəni kimi görünən sadə geyimli adamlar bir dəqiqədə bir çox məsul məsələ həll etdilər.

Üzü qırxılmamış sallaq bığlı birisi:

– "Kiyevlyanin" qəzeti müdiri Şulkin həbs olunsun, – deyər-deməz, "Olunsun!" – deyə səslər eşidildi və bir dəqiqə qaib etmədən inqilaba qoşulmuş zabitlərdən birini qərarın icrası üçün göndərdilər.

Bu əsnada bir kömbə çörək gəldi. Hamı yerindən qalxıb, bir dəqiqədə çörəyi əlləri ilə parçaladılar və gəvələyə-gəvələyə iclası davam etdirdilər:

– Bu axşam Yeremi keşişin evində monarxistlərin müşavirəsi hazırlanır. Xəbər səhih mənbədən alınmışdır.

Orta yaşlı işçinin verdiyi xəbər dinlənildikdən sonra suallar verilir, məsələ öyrənilir və haman həbs edilmələri qərara alınır. Qərarın icrası üçün üzvlərdən birinə fövqəladə səlahiyyət verilir.

– Stansiyada bir neçə ağır və şübhəli qutular dayandırılmış. Tədqiq edib, sahibini aramalı...

– Prokurorun əzli...

– Xitabnamə nəşri...

Çörək yeyilib qurtaranacan iyirmiyə qədər cürbəcür məsələyə baxıldı. Əvvəllər şura üzvlərinin təkliflərini heyrətlə dinləyən Rüstəmbəy sonra bu inqilabi üsullara alışdı.

Ziyalılar mühitində böyüyən Rüstəmbəy inqilabdan doğan bu sərt, qaba, tühaf zarafatlı və söyüşcül adamlara alışmaq istəmədiyi halda, mühit onu yumşaltdı və alışdırdı. İnqilab sahəsinə atılanların əksəri ona səmimi və hüsni-niyyət sahibi kimi göründü.

11

Rüstəmbəy otağında Xəlilə məktub yazmaqla məşğuldu. Kiyevin övzaını bildirib, həftədə bir Azərbaycandakı vəziyyəti xəbər verməsini ondan rica edirdi. Məktubu yazıb bitirdi və təkrar oxuduqda qapı tıqqıldadı:

– Gəlin, – dedi.

Qapı açıldı, ev xanımı içəri girdi:

– Rahatsız edirəm, bağışlayın! – deyə üzr istədi.

Rüstəmbəy qalxıb yer göstərdi. Xanım cəsarətsiz səslə:

– Görürəm, məşğulsunuz, – dedi, – ancaq nə etməli, sizinlə danışmağı özümə bir vəzifə bilirəm... Daha doğrusu, ana vəzifəsi bilirəm... çünki Musyanı qızım kimi sevdim... Doğrudan da sevimli qızdır...

Rüstəmbəy gülərək onun sözlərini kəsdi:

– İnkar edilməz ki?..

–Yox! Mən ciddi deyirəm... Doğrusu, bu qıza yazığım gəlir. Bu sizi şiddətlə sevir. Gənclikdir, iradəsinə malik ola bilmir... Bizim hamımız gənc olmuşuq... Siz də o qədər laqeyd davranırsınız ki!.. Bağış-

layın, sizin şəxsi işinizə qarışa bilmərəm... ancaq siz də məni özünüzə ana hesab edin!..

Rüstəmbəy sakit və ciddi bir halda:

– Bağışlayın, – deyə xanımın sözlərinə xitam verdi, – Musya kimi sizə yad olan bir qızın halına qaldığınızdan dolayı sizə səmimi təşəkkürlər edirəm. Bu mədəni və insani bir vəzifədir; lakin mənim də çəkdiyim güclükləri bilmənizi təmənna edirəm... Mən ictimai bir adamam. Üzərimdə bir çox məsul vəzifələr var. Bu vəzifələri ödəmək üçün yalnız olmaq icab edir. Tək baş gördüyü işi iki baş görə bilməz!.. İştə, Musya ilə anlaşa bilmədiyimiz nöqtə burada!..

Rüstəmbəy susub, başını aşağı saldı. Xanım yenə də dillənmək istəyən adam kimi, sakit bir halda Rüstəmbəyin üzünə baxmaqda davam etdi. Nəhayət:

– Əminəm ki, Musyanın sizə maneliyi olmaz. Subayın başında min təhlükə var. Evlənsəniz, işləriniz bir qədər yüngülləşər...

Rüstəmbəy:

– Fikrimdə sabitəm. Musyaya qarşı deyəcək bir sözüm yoxdur. Biləks hörmətim var... Ancaq şəxsi hürriyyətimi saxlamaq istəyirəm...

Bu əsnada qapı tıqqıldadı, Musya bir dəstə güllə içəri girdi. Xanım ayağa qalxıb otağı tərk etdi. Musya da çiçəkləri vaza qoyub, şlyapasını çıxardı və parlaq sima ilə otaqdan çıxdı. Rüstəmbəy məktubu masadan götürüb komodun üzərinə atdı və pəncərənin önünə çəkildi.

Xanımın təklifi onu həyəcanlandırmışdısa da, tərəddüd nişanəsi görünmürdü; qərarında sabit qalacağını kəsdirmişdi.

Musya geri döndü. Üzündə dərin bir kədər görünürdü. Çarpayının kənarında oturub fikrə daldı. Bir də gözlərindən yaşlar tökülüb, yanağı aşağı axdı. Rüstəmbəy bunu görərək:

– O, Musya, – dedi, – bu zəfinizi göstərir!.. Xudbinlik eşqi öldürər. Malikiyyət olan yerdə eşq ola bilməz. Həqiqi eşq dostluqdan ibarətdir!

Musya titrək səslə:

– Kimsəyə malik olmaq istəmirəm. Buna əmin olmalısınız! Mənim həyatdan heç bir diləyim yoxdur. Ancaq bir şeyi bilmək istərdim: məni sevirsiniz, yoxsa yox?..

– ?!

– Bu gün evimizə dönürəm. Sizlə əlaqəmi tamamilə kəsirəm. Sizdən tək bir söz eşitmək istəyirəm... Ondan böyük təsəlli ola bilməz!

Rüstəmbəy Musyanın əllərini bağrına basıb və kilsə şamlarını andıran incə barmaqlarını ayrı-ayrı öpüb:

– Başqa bir cavaba acizəm... Məni unutmanızı rica edirəm, – dedi.

12

Sentyabrın səkkizində açılacaq xalqlar qurultayına vəkillər gəlmədə idi. Hərbi şura sentyabrın yeddisində Kiyevə gəlmiş müsəlman vəkillərinin iclasını çağırdı. On nəfər tatar vəkili gəldi. Bunların səkkizi krımlı, ikisi də kazanlı idi.

Tühaf burasıdır ki, Cabbar Kazan tatarı nümayəndəsi sifəti ilə məclisdə iştirak edirdi.

Rüstəmbəy hərbi şura adına olaraq xoş gəldin elədi:

– Yoldaşlar, sabah tarixi bir qurultayın açıldığı bir gün biz müsəlman vəkillərinin ümumi dili olmalıdır! – dedi və birliyin əhəmiyyətindən uzun-uzadı bəhs etdi. .

Rüstəmbəyin lətif söylənmiş nitqi Krım tatarlarına olduqca fəna təsir etdi. Onların gənc rəhbəri Seyid Məhəmməd söz alaraq, kinli bir sima ilə nitqə başladı:

– Əfəndilər, – dedi, – bizi buraya ittihadi-islam, yaxud Turan məfkurəsi niyyəti ilə çağırdığınızı bilsəydik, heç də gəlməzdik. Bu məruf panislamizm və panturanizm naminə olaraq, bizim zavallı tatar bucaqlara atılıb unudulmuşdur. İsmayılbəy Qasprinski "dildə, işdə, fikirdə birlik" – deyə mövhum fikirlər peşincə qoşmuş da, "qara" tatarı, onun tarix və ənənəsini, dil və mədəniyyətini unutmuşdur. Krım tatar gəncliyi qiyam edərək bu "panlar" səfsətəsinə xitam verdi. Biz yalnız Krımın dərdlərini anlatmağa gəldik. Kimsə ilə əlaqəmiz yox və olmağını da istəmirik.

Seyid Məhəmməd sözlərini bitirər-bitirməz qalpağını əlinə alıb otağı tərk etdi. Başqa Krım vəkilləri də eyni hərəkəti yapdılar.

Başda Rüstəmbəy olaraq, şura üzvləri bir müddət heyrətə dalıb qaldılar. Bir-birinin üzünə baxaraq, təəccüblərini ifadə etməyə söz belə tapa bilmədilər. Axırda kazanlılardan biri:

– Bilirsiniz, – dedi, – Krım xalqının içində milli bir hərəkət vücuda gəlmişdir. Demokratik prinsiplər irəli sürən bu hərəkət murzalara zadəganlara dəhşətlə əleyhdardır. İsmayılbəy Qasprinski murza olduğu üçün tatar gəncliyinin nifrətinə səbəb olmuşdur. Gənclik "Tərcüman"ı bağlayıb, əvəzində "Millət" adlı qəzet çıxarır. Bu qəzet Krım tatarı ehtiyacından başqa bir şeydən bəhs etmir. Dili də bambaşqadır.

Rüstəmbəy təhqir olunmuş bir səslə:

– Hər halda, – dedi, – bu qədər ifrata lüzum yoxdur. İki yüz minlik Krım xalqı nümayəndələri nəyə güvənərək bizə qarşı düşmən vəziyyət alırlar? Krım məsələsi müzakirə olunduqda bizim də səslərimizi qazanmaq icab etməzmi?

Uzun danışıqdan və gilayədən sonra məclisdəkilər krımlıların xətti-hərəkətini onların gənclik və təcrübəsizliklərinə isnad edərək, söhbəti kəsdilər. Sonra şura tərəfindən qurultaya üç vəkil göndərməyi qərara alıb, namizədlər ayırdılar. Rüstəmbəy də seçilənlər arasında idi.

13

Krım gənclərinin xətti-hərəkəti Rüstəmbəyi çox düşündürdü. Onda milli mətbuat sayəsində doğan Turan məfkurəsi yavaş-yavaş sarsılmağa başladı. Dil, adət, xarakter ayrılığı, bunları doğuran ictimai və iqtisadi şəraitin başqa-başqa olması Rüstəmbəylə mövhum Turan arasında bir sədd təşkil etməyə başladı. Həyatında rast gəldiyi türkiyəli, tatar və türküstanlıları xatırladı. Onların bir-birinə yabançı milli zövq və mədəniyyətə malik olduqlarına qane oldu.

Rüstəmbəy əvvəllər də Turan nəzəriyyəsinə tənqidi olaraq yanaşmışdı; lakin səthi də olsa, onun təsirinə qapılmışdı. Bu dəfə bu təsir də silinib getdi.

İndi Azərbaycan, onun xalqı, onun siyasi, ictimai və iqtisadi ehtiyac və tələbləri birinci sıraya keçmədə idi. Rüstəmbəyi artıq xəyal deyil, həqiqi aləm məşğul edirdi.

Bu barədə Rüstəmbəy bir məruzə belə hazırlamağı düşündü. Sonra vaz keçdi; çünki komitə üzvləri arasında Turan nəzəriyyəsi heç bir nüfuza malik deyildi. Bunların hamısı türkcə az savadlı və türk mətbuatından xəbərsizdi; Turan məfkurəsi də buradan doğurdu...

Rüstəmbəy qurultayı xatırlayaraq əməli işlərinə dönməyə başladı. Nitqə hazırlanmaq lazımdı. Azərbaycanın dərd və ehtiyaclarını anlatmalı idi. Düşündü. Plan yazdı. Xoşlamadı. Pozub yenisini yazdı. Sonra hərbi şura vəkili sifəti ilə çıxışda bulunacağını yad edərək, planı bir az da genişləndirmək və çar siyasətinin tarixi gedişini də təsvir etmək icab etdi.

Plan hazırdı. O, sevinc hissi duydu. Durub otağı dolaşdı. Saat birə işləyirdisə də, yuxusu yoxdu.

14

Xalqlar qurultayı Vladimir küçəsindəki Pedaqoji muzeydə olmalı idi. Rüstəmbəy sabah ertə ora girdikdə Rusiyanın hər tərəfindən gəlmiş vəkillərə rast gəldi. Qurultayda beloruslar, gürcülər, estonlar, yəhudilər, kazaklar, litvalılar, polyaklar, rumın, tatar, azərilər və ukraynalılar iştirak edirdilər. Bir xalqa mənsub olaraq, o xalqdakı dürlü siyasi cərəyanlar təmsil edilmişdi. Ona qədər vəkil göndərən xalqlar az deyildi.

Rüstəmbəy foyeni dolaşaraq, Vəlibəyə və Şirinə rast gəldi, irəliki gün axşam Bakıdan gəlmişlərmiş. Görüşüb öpüşdülər. Haman bir guşəyə çəkilib, səmimi olaraq danışmağa və dərdləşməyə başladılar. Gənc Azərbaycan vəkilləri vizitkada idilər. Şirin "Müsavat"ı, Vəlibəy də Milli komitəni təmsil edirdi. Şirin Rüstəmbəyin gözünə bir az şişman, bir az qürurlu göründü. Hər halda, həyatından və vəzifəsindən olduqca məmnundu. Vəlibəy isə irəliki kimi, mehriban və nəzakətliliyində sabit qalmışdı. Yenə zarafat edir, için-için gülür və studentlik günlərini ləzzətlə xatırlayırdı.

Şirin xudpəsənd bir tonla Rüstəmbəyə:

– Balam, – dedi, – burada niyə oturmusan? Gəl. Adama böyük ehtiyac var. İstəsən səni Gəncədə mətbuat işinə düzəldərəm. Qəzet çıxarmaq istəyirik, adamımız yoxdur.

Rüstəmbəy gülümsündü və özünə inanan bir halda:

– Görək, – dedi. – Hələ ki, buradayam.

Bu əsnada vəkillər zala dolmağa başladı. Türk nümayəndələri də getdilər.

Xitabət kürsüsü ətrafında yürüyüş gözə çarpırdı: biri gedir, biri gəlir; masanın üzərinə kağızlar qoyurlar. Qısaboylu, ağsaqqal bir qocanın qabağında hörmətlə dayanaraq, bir şeylər sorub məsləhətlər eləyirlər. Nəhayət, xalqlar qurultayı bu qocanın rəyasətində açılır. Qocanın rada sədri olduğunu Rüstəmbəy sonradan öyrəndi. Heyəti-rəyasət və cürbəcür komissiyalar seçkisi başlandı. Şirin bu sədarətə seçilib, xitabət kürsüsünün yanındakı səkiyə dəvət edildi.

Vəkillər kürsülərə yerləşmişdilər. Arxa tərəfdəki yerlər sameinlərə təxsis olunmuşdu. Ətraf həp şən çöhrələrlə parlayırdı. Əsrlərdən bəri əzilən və inləyən xalqların üzü, nəhayət, inqilabın verdiyi imkanlar sayəsində gülməyə başlamışdı.

Xalqlar nümayəndələri nitqlər söyləməyə davam edirdilər. Hər nitq mənsub olduğu xalqın istibdaddan çəkdiklərini, dərd və tələblərini müəssir bir dillə anladırdı. Ukraynalılar min altı yüz əlli dördüncü ildə Rusiya ilə bağladıqları ittifaq müahidəsinin ləğv edilməsini, gürcülər 1783 müahidəsinin pozulub Gürcüstanın əsarətə düşməsini, tatarlar istiqlaliyyətlərinin məhvini, xalqların sürgün edilməsini, zorla xristianlığa çevrilmələrini; yəhudilər heç bir haqqa malik olmayıb, istədikləri yerdə belə yaşaya bilmədiklərini söyləyərək, çar idarəsinə qarşı küfrlər yağdırırdılar. İnqilabdan doğan Kerenski hökuməti də hücumdan xilas ola bilmirdi, xalqlar muxtariyyətinə xor baxdığı üçün çar ilə bərabər söyülürdü.

Həyəcanlı dodaqlardan qopan hər bir nitq nalə və gizli göz yaşları saçırdı və hər bir vəkil də milli yaralarının sağalmasını Rusiyanın federativ şəkildə qurulmasında görürdü.

Krım vəkillərindən başı sırmalı, qalpaqlı bir qadının çıxışı sürəkli alqışlarla qarşılandı; əsarət zəncirini qıran bu qadın hamının rəğbətini qazandı... Azərilərdən hələ kimsə danışmamışdı. Xitabət kürsüsünə ilk çıxan Rüstəmbəy oldu.

Rüstəmbəy nitqinə uzun bir tarixi müqəddimə yapdı. İvan Qroznı zamanından bəri türk, tatar aləminə qarşı yürüdülən siyasəti açıq və aydın surətdə söyləyərək, çar və ortodoks kilsəsinin müsəlmanlara qarşı yapdığı rəzalət və zorbalıqları anlatdı. Dinin, dilin, ənənə və milli xüsusiyyətlərin çar hökuməti tərəfindən təqib olunduğunu bildirdi. Nəhayət, azərilərin bir çox hüquqdan məhrum olmalarını bəyan etdi. Axırda "milli hərəkatların böyük rəhbərləri olan ukraynalılara" təşəkkür edərək nitqinə xitam verdi. Gurultulu alqış arasında enib yerinə gəldi. Yanında oturan Vəlibəy onu xoş təbəssümlə qarşılayaraq, əlini sıxdı:

– Sağ ol! – dedi, – nərsən! Analar səni tək-tək doğar!

Rüstəmbəy cavabında ona tərəf əyilərək:

– Qoltuğumun altına qarpız vermə görək! – deyə onun qulağına pıçıldadı...

Bu əsnada tənəffüs elan edildi. Hər kəs qalxıb foyeyə çıxmağa başladı.

Vəlibəy Rüstəmbəyin qoluna girib, bufetə apardı. Bir az sonra, Şirin də onlara yanaşdı. Şirinin sədarətə keçməsi onun qürurunu bir qat

daha artırmışdı; eyni zamanda qüruruna bir qədər həsəd qarışan kimi idi. Rüstəmbəyin bugünkü müvəffəqiyyəti onun ruhunu bulandırmışdı. Odur ki, Vəlibəylə Rüstəmbəyin zarafatlaşaraq, səmimi gülüşmələri onun dodaqlarında yalnız sönük bir təbəssüm vücuda gətirə bilirdi.

16

Rüstəmbəy birdən ciddi bir səslə:

– Bircə Bakıda nə olduğunu təfsilatı ilə anlatmadınız. "Açıq söz"lə "Kaspi" oxuyuram. Doğrusu, gözə çarpacaq bir fəaliyyət görmürəm, – dedi.

Şirin bir az düşünərək avtoritetli bir səslə:

– Nə üçün elə deyirsən, – dedi, – çox iş görülür. Bir kərə heç bir təşkilata malik olmayan xalq müəyyən təşkilatlar ətrafında toplanır. Qafqaz müsəlman qurultayı, bütün Rusiya müsəlmanlarının qurultayı, Kazanda müsəlman hərbçilərinin qurultayı... Bunlarda iştirak etmək iş deyilmi?..

Rüstəmbəy ağzını burdu:

– Nə deyim! – dedi. – Ya fəaliyyətimiz mətbuatımıza sirayət etmir, ya da mətbuatımız da fəaliyyətimiz kimi sönükdür!..

Şirin yenə işə vaqif bir adam kimi:

– Daha nə istərsən? Türkcə gündəlik qəzetimiz var: "Açıq söz" bütün milli diləklərimizi bildirir; rusca da "İzvestiya komiteta bakinskix musulmanskix orqanizatsiy" yazır, "Kaspi"yə əlavə olaraq çıxır.

Rüstəmbəy qəti:

– "İzvestiya" heç! Daha bu ittihadi-islam məsələsi yenə də mi bitmədi? Öz dərdimiz azmış da, arnautların, ərəblərin, hindlilərin gününə ağlayırıq. Önümüzdə duran muxtariyyət məsələsi səthi də olsa işıqlandımı?..

– Az-çox!.. Nə etməli, qüvvəmiz yoxdur.

– Qüvvə yoxdur, gətirin, paytaxtlardan bir-iki rus jurnalisti, gətirdin də. Gürcülər və ermənilər etmirmi? Heç olmasa bir professor tapın, federasiyaya dair leksiya oxusun.

Şirin yenə düşündü, yaxasını düzəldərək:

– Tənqid asan şeydir! – dedi. – Gəl də gör nə mühitdə işləyirik.

Vəlibəy:

– Bilirsən, Rüstəmbəy, – deyə mülayim səslə söhbətə girişdi. – Sən bir tərəfdən haqlısan, işlərimiz lazımınca getmir. Ancaq səbəbləri unutmamalısan. Gürcülər neçə illik menşevik təşkilatına mən-

subdurlar; daşnaqsütyunun da iyirmi beş yaşı gərək olsun. Bu təşkilatlar xalqın içində dərin köklər salıblar. Sənin nəyin var? Heç nə! Ancaq bu gün siyasi təşkilat qurmaqla məşğulsan. Sonra erməniləri və gürcüləri əsgər aparırdılar, bizi aparmırdılar. Bax, bu gün bundan nə qədər çətinliklər doğur: hər kəs öz əsgərini çağırıb ana torpağında ordu düzəldir, sən avara qalmısan... Dərd çoxdur! Bilirsən, təməlimiz yoxdur, hər şeyi təməldən başlamalıyıq... Şirin Rüstəmbəyə yönələrək istehza ilə:

– Uzaqdan danışmaq asandır, niyə gəlib işə qoşulmursan? Yəqin, özünü çətinə vermək istəmirsən? Bu mədəni şəhərdə oturmağı hər kəs istər; şərt neft lampalı, bitli və kirli kəndlərdə işləməkdir...

Rüstəmbəy gülə-gülə:

– Şirin, sən də, zənn edirəm, özünü kəndə salmazsan. Gəncədə sənin istirahətin məndən yüz dəfə artıqdır.

Şirin qızardı:

– Elə zənn edərsən?! – deyə müsahibəyə xitam vermək məqsədi ilə aralanıb, bufetə getdi.

## 17

Sentyabrın on dördündə xalqlar qurultayı bitdi və vəkillər "Xalqlar şurası" adlı daimi bir təşkilat qurub dağıldı. Rüstəmbəy bu şuranın üzvü olaraq Kiyevdə qaldı.

Yenə Rüstəmbəy üçün adi bir həyat başlandı. Milli komitənin həftədə bir iclası olur, Ukrayna hökuməti və rada ilə qısa əlaqə başlanır və "Xalqlar şurası"nın orqanı olaraq "Svobodnı soyuz" adlı iki həftəlik bir məcmuə nəşr edilir. Rüstəmbəyin rəhbərliyi ilə Azərbaycan muxtariyyətinə aid məqalələr nəşr etməklə komitə bu məcmuədə iştirak edir.

Bu işlərə Rüstəmbəyin çox vaxtı getmir: çox olsa gündə bir saat. Yerdə qalan zaman həp mütaliə ilə məşğul olurdu. Müasir dövlətlərin quruluşunu, federasiya əsaslarını, milli məsələni, mədəniyyət tarixini... incədən-incəyə öyrənməyə çalışırdı. Lakin bəzən fəaliyyətinin lüzumundan şübhə edərək, tənhalıq dalğalarında boğulmağa başlayırdı. Dəruni böhran davam etdikcə Musyanın hüznlü çöhrəsini sisli üfüqlərdə görməyə başlayır. Musyanın cavabsız buraxılan məktublarına cavab yazmaq istəyir, yazır, xoşuna getmir, pozur; yenidən yaz-

mağa başlayır, təkrar pozur. Axırda bütün yazdıqlarını yakıb, tərəd-düddən aralana bilmirdi.

Günlərlə davam edən şübhə əzabı bir gün iman günəşinin önündə yox olub gedir, Rüstəmbəy yenidən istiqamət bularaq işə girişirdi.

Rüstəmbəyin tühaflıqlarına alışan Qulamrza bəzən ona deyirdi:

– Rüstəmbəy, sən yolu itirəndə biz səndən əvvəl itirərik. Ancaq yenə sənin milli sahədə bir iş görəcəyinə əminik.

Rüstəmbəy gülümsünərək:

– Mənim daxili hərəkətlərimə əhəmiyyət verməyin. İnsanda belə şeylər olur; çünki insan yaradılışı çox mürəkkəbdir.

Qulamrza:

– Rüstəmbəy, – deyirdi, – mənə belə gəlir ki, bütün tühaflıqlar şəxsi həyatın olmamasından irəli gəlir.

– Bəlkə də! Ancaq bizim bu günkü şəraitdə şəxsi həyatı olan ictimai həyatdan vaz keçməlidir. İkisi bir yerdə olmaz. Birinin də olub, digərinin olmaması böhran törədir. Deməli, zamanamızın şüurlu adamı üçün dəruni böhran müqəddər bir həqiqətdir.

Belə bir qənaətə malik olan Rüstəmbəy, təbiidir ki, məsud bir adam sanıla bilməzdi. Ən şən dəqiqələri belə kədər sisi ilə cilalanırdı.

## 18

Sayad bacı qurultayın gedişi ilə çox maraqlanırdı. Qəzetlərin xəbəri və Qulamrzanın verdiyi məlumatdan qane olmamışdı. Rüstəmbəyə otaqlarında rast gələr-gəlməz bir çox suallar verməyə başladı. Rüstəmbəy xalqlar qurultayının başlıca məqsədini populyar bir surətdə anladaraq:

– Müvəqqəti hökumət, – dedi, – geniş Rusiyanı idarə etməkdən acizdir. Rusiyada yaşayan xalqlar mərkəzdən ümidini kəsib, özləri öz haraylarına qalmaq istəyirlər: hər kəs öz evinin içini düzəltməyə çalışır. Qafqazda, Türküstanda, Baltik ölkələrində Ukrayna kimi hökumət və milli məclis düzələcək.

Sayad bacı ciddi səslə:

– Deməli, hər kəs öz-özünü idarə edəcək?

– Bəli!

– Bəs torpağı olmayan necə olacaq?

– Hə, dağınıq xalqları deyirsiniz?

– Hə!

– Rusiyada milli torpağa malik olmayanlar arasında yəhudilər birinci yer tutur. Bunların sionist firqəsi Fələstinin ərəblərdən alınıb yəhudilərə verilməsini tələb edir. Məsələni yəhudilər müzakirəyə qoymaq istədilər – keçmədi; çünki Fələstin məsələsi beynəlmiləl bir məsələdir, bu qurultayda həll oluna bilməzdi. Yerdə qalan yəhudi firqələri əqəliyyətin haqqının tanınması ilə bərabər mühüm bir məsələ irəli sürdülər. "Yəhudi millətinin gələcəyi torpağa bağlanmalıdır", – dedilər.

Sayad bacı məsələni dürüst anlaya bilmədi, düşündü və qızararaq:

– Necə yəni? – deyə sordu.

Rüstəmbəy sakit bir səslə:

– Yəhudilər də toplanıb, müəyyən bir torpağa köçmək istəyirlər. Milli müqəddəratın həllini ancaq bu şəkildə təsəvvür edirlər.

– Bu necə torpaqdır?

– Bunu söyləmədilər. Rusiyada torpaq çox – yəqin onlara da müəyyən bir vilayət ayırarlar.

Sayad bacının marağı bir qədər təskin edilmişdi. Qulamrza yoldaşına fəxrlə baxıb:

– Rüstəmbəy, – dedi, – Sayad siyasətlə çox maraqlanır. Axır vaxt coğrafiyanı şövqlə öyrənir. Gecə-gündüz Rusiya xəritəsindən əl çəkmir.

Rüstəmbəy:

– Çox gözəl! Çox gözəl! – deyə təsvib etdi. – Türk qadınları xam torpaqdır, bilgi üçün əlverişli bir zəminə malikdirlər. Nə etməli ki, çarşab altında çürüyürlər.

Sayad bacının sanki yarasına toxunuldu; köksünü ötürərək başını buladı. Qulamrza mətin bir səslə:

– İnqilab çarşaba da qələbə çalar!

Rüstəmbəy qeyzlə:

– Təbii! Təbii! – dedi. – Köhnə aləm başdan-başa sarsılacaq! Artıq hər addımda yenilik qoxusu duyulur!

Birdən Qulamrza tərəddüdlə:

– Qoysalar! – dedi.

Rüstəmbəy hiddətdən titrəyən səslə:

– Kim?

– İrtica!

– Heç zad olmaz! General Kornilov Kerenskidən hakimiyyəti tələb etdi – verdilərmi?.. Geriyə yol qalmamışdır!

Qulamrza yenə şübhə edər kimi:

– Kornilov bir olsa, dərd yarıdır. İndi hamısı Dona toplanırlar. Novoçerkasskda cənub-şərq federasiyası hökuməti belə düzəltmişlər. Kazak süngüsünə söykənərək yenə bir fitnə çıxaracaqlar.

Rüstəmbəy inandırıcı bir səslə:

– Səni əmin edirəm ki, heç bir şey olmaz! Bolşeviklər müvəffəqiyyət qazanar da, monarxistlər qazanmaz. Bilirsən nə üçün? Monarxiyanı hər kəs gördü. Xalqın canı boğazına yığılmışdır. Monarxiya yeni bir söz deyə biləcəkmi? – Yox!

Köhnə idarəni ehya etməyə çalışacaq. Torpağa susayan; kəndli, inqilab yolunda qan tökən işçi, milli muxtariyyət tələb edən xalqlar təkrar monarxiya zəncirini boğazına keçirərmi?.. Bundan başqa, qurultayda kazakların nümayəndəsini dinlədik; onlarda da muxtariyyət hərəkatı olduqca qüvvətli görünür...

Sayad bacı Rüstəmbəyin sözlərindən xoşlanaraq danışmaq istədi, bir də nədənsə kədərlənib susdu: "Nə üçün məni öz vaxtında oxutmamışlar, indi mən də hər şeyi oxuyub bilərdim", – deyə fikrindən keçirdi.

## 19

Rüstəmbəyin cəbhədən gətirdiyi pulların bir hissəsi bitməkdə idi, heç bir qazancı da yoxdu. Son ümidini İmrana tapşırdığına bağlamışdı. "Yüz manat alım da, görək sonra necə olur", – deyə İmranın yanına getdi. Rüstəmbəy Şirini orada gördü. Şirin mağazanın arxa tərəfinə keçir, çıxır, İmranla pıçıldaşır. İkisinin də Rüstəmbəydən çəkinərək gizli bir iş yapdıqları duyulur. İçəridən çəkic səsi gəlir – qutu çalınır.

Rüstəmbəy İmranın çox məşğul olmasını hiss edərək, məramını anlatmağa vaxt tapa bilmir. Nəhayət, mağaza xidmətçisi həyət darvazasının önünə bir fayton çağırdı, sonra təlisə tikilmiş üç qutu çıxarıb faytona yerləşdirdi. Şirin oturub getdi. Bir-iki gün sonra qutulardakının tüfənglə tapança olduğunu Rüstəmbəy təsadüfən xidmətçidən öyrəndi.

Qafqazda vəziyyətin get-gedə gərginləşməsi silah alış-verişinə böyük meydan vermişdi. Yolların çətinliyinə baxmayaraq, qaçaqçılar axın-axın gəlib, Kiyevdən silah daşımada idi.

– İndi artıq Rüstəmbəy İmranın mağazasında rast gəldiyi şübhəli adamların rolunu anlamağa başlayırdı. Bu əməliyyatda Qulunun da iş-

tirak etməsini Rüstəmbəy yenə sonralar duymuşdu. Ancaq Qulu olduqca usta davranırmış – həftədə bir dəfə İmrana telefonla: "On tüfəng göndər!" – deyirmiş. Vəssalam. Bir aydan sonra Qulunun qazancı klinikaya göndərilirmiş.

Rüstəmbəy Qulunun bu qədər sehrkar olduğuna heyrət edib dururdu. Bu adam özünü İmrana o qədər nüfuzlu tanıtmışdı ki, İmran onun hər bir əmrini haman yerinə yetirirdi. Halbuki əsil qüvvət Rüstəmbəydə idi; milli komitə sədri sifəti ilə idarələrdə sözü keçir, "Xalqlar şurası" vasitəsilə Ukrayna hökumətinə nüfuz edir, soldat və işçi şurasında təsiri az deyildi. Bunlara baxmayaraq, İmranın yanında Qulunun nüfuzu Rüstəmbəydən çoxdu.

Xalq işlərinə özünü hazırlayan Rüstəmbəy bu məsələ ilə maraqlandı. Düşünüb daşındı. Axırda tühaf nəticələrə gəldi: inqilabın bəxş etdiyi demokratik üsuldan bir az soyumağa başladı. O öz-özünə belə mülahizələr yürüdürdü: "Xalqın əksəri İmran kimi savadsız və az savadlı, zahirə aldanan adamlardan ibarətdir. Bu adamlar çox gördüyü, çox eşitdiyi, dürüst bələd olduğu şəxsiyyətin nüfuzuna düşə bilməzlər. Nüfuz idraka sığmayan və zahirdən hərəkət edən bir amildir. Bu amil daim mahiyyətini dumanlar içində saxlamalıdır; çünki aydın şeylərin xalqa nüfuzu olmur. Quran, yaxud İncil aydın və hər kəsin anladığı bir dildə olsaydı, adi məktəb kitabı qədər hörmətsiz olardı. Müqəddəs deyilən kitablar məzmun yoxsulluqlarını geniş kütlənin bilmədiyi ərəb, slav, latın, qədim israil və sanskrit dillərində gizləyir..."

Rüstəmbəycə Qulunun bu nüfuz və müvəffəqiyyəti onun klinikada gizlənərək az görünməsi, az danışması və ehtiyacsız yaşamasında idi.

Bunun məsələsi Rüstəmbəyi arabir məşğul edib və bəzən belə qorxudurdu; çünki zemlyaçestvoya əngəl törədən bir adam milli komitəyə də törədə bilərdi. Bu gün susmuş Qulu sabah kükrəyə bilərdi. Odur ki, komitə üzvlərinin yanında onun nüfuzunu qırmağa çalışırdı.

## 20

Rüstəmbəy masanın üzərində bir məktub gördü. Götürdü – Musyadandı. Açdı. Ətir qoxuyurdu. İçində qara bantla bağlanmış bir çəngə baş tükü qoyulmuşdu. Məktubun bir tərəfinə darçını ləkə düşmüşdü. Rüstəmbəy tühaf bir hissi-müqəddəmlə oxudu:

"Əzizim!

Son dəfə yazıram. İzzəti-nəfsim artıq bir daha qırılmayacaq; çünki... hər şeyə vida deməyi çoxdan qəsd etdim. Yetər! Həyatın acı kasasından iyrənərək içməkdənsə onu sındırmaq yaxşıdır. Bu kasanı eşq şərbəti ilə doldurmaq istədim – olmadı. Taleyin cilvəsi bunu qədərləndirməmiş imiş... Nə etməli? Boynumu əyməli? Yox! Ya haqq, ya heç! Güzəşt-fitrətimə sığmayan bir hərəkətdir... Bunları sizə yazdığımın səbəbini anlamıram. Sizin üçün fərqi varmı? Siz səadət sahəsinin bir köçərisisiniz...

Məktubumun sizə göndərilməsini ayrıca olaraq yazıram. Siz son sədamı eşidərkən mən həyatımı tərk etmiş olacağam. İndi çıxılmaz yollar rəhbəri – tapança məni gözləyir. Gedirəm. Məndə tühaf bir sevinc var. Yarımayanlar dənizinin qayıqçıları ruhumu əbədiyyətə təslim verərkən bir də sizi xatırlayacağam. Vida! Artıq məndən ayrılan soyuq dodaqlarımla səni son dəfə öpür və səadətlər diləyirəm. Son arzum məktubumu ürəyimdən daman qana tutaraq, susmaq və unudulmaqdır.

Vida!

Səni çocuqcasına sevən Musya".

Rüstəmbəy məktubu bitirib, kənardakı qan ləkəsini süzdü. Titrək əli ilə Musyanın telini qaldırıb qoxladı. Sanki məktubdan gənc, canlı və eşq atəşi ilə alovlanan bir sənəm çıxaraq onun qarşısında cilvələndi. "Səni, səni, ey qafil, məsud etmək istərəm!" – demək istədi. Otaq həyat dalğası ilə doldu. Coşdu, daşdı, fərəhlər və nəşələr saçdı, Rüstəmbəyin soyuq vücudunu qaplayaraq sarsdı. Onu da həyəcanlandırdı, coşdurdu. Bir də şən dalğalar axın-axın çəkilib otağı qəmlər dumanında tərk etdi. Rüstəmbəy varlığının ən aşağı qatlarına enərək, qaranlıq bir tənhalığa daldı.

Artıq ətrafındakılar onun gözlərindən itmiş, yalnız bir boşluq qalmışdı. Peşmançılıq oxları ona doğru yağmada idi.

## 21

Üç gün Rüstəmbəy otağından dışarı çıxmadı; ağır böhranlar keçirdi. Nə gecəni yatır, nə gündüzü rahatlıq tapa bilirdi – həp Musyanın faciəsini düşünürdü. Gənc bir həyatın sönməsinə səbəb olmaq onu əzablar içərisində boğur.

Hər gün onunla görüşən Qulamrza üç gündən bəri Rüstəmbəyi görməyərək şübhəyə düşdü. "Xəstələndimi?" deyə onun görüşünə

getdi. Qulamrza Rüstəmbəyi yataqda buldu: rəngi qaçmış, düşgün bir halda idi. Qulamrza xəstəliyi Rüstəmbəyin tühaflığına yozaraq:

– Bir şeyin yoxdur, keçər-gedər, – deyə ona təsəlli verdi.

Ümumi işlərdən danışdılar. Sonra Qulamrza dedi:

– Dünən bizə bir tatar doktoru gəlmişdi. Cəbhədə müsəlman əsgərlərindən təşkil edilmiş bir qol ordu varmış. Doktor qol ordu ərkani-hərbi tərəfindən nümayəndə sifəti ilə gəlmişdir.

Rüstəmbəy maraqsız bir halda:

– Nə deyir? Qol ordunun başında kim durmuşdur? Məqsədləri nədir?

Qulamrza:

– Qol ordu milli bir şeydir. "Müsəlman korpusu" adı daşıyır. Başında general Mametoviç durmuşdur. Bu adam

Litva tatarlarındandır...

– Məqsədləri nədir?

– Onu soruşmadım. Ancaq Kiyevdəki milli təşkilatlarla əlaqəyə girişmək istəyirlər. Doktor məlumat toplayır. General da gələcəkmiş.

Rüstəmbəy çox düşünməyərək:

– Yaxşı, gəlsin görək. Türkmən bölüyü kimi, əks-inqilaba çönməsin də.

Qulamrza bir şey söyləməyərək düşündü. Bir dəqiqə sonra Rüstəmbəydə maraq oyanan kimi oldu.

– Qulamrza, – dedi, – o doktoru buraya gətirə bilərsənmi? Ona bir-iki sual verəcəyəm... hər halda "Müsəlman korpusu" istifadə ediləcək bir qüvvədir. Ancaq çox ehtiyatlı olmalıdır. Bilirsən, generallara inanılmaz!

Qulamrza ayağa qalxaraq:

– İstəyirsən, telefon edim gəlsin; indi oteldə olar. Rüstəmbəy təkidlə:

– Elə! Elə! – dedi. Qulamrza çıxdı.

Yarım saat sonra alçaqboylu, pensneli və əsgəri libasda bir adam içəri girdi.

Qulamrza:

– Sədrimiz! – deyə onu Rüstəmbəyə təqdim etdi.

Həkim paltosunu çıxarıb oturdu və gəlməsinin səbəbini anlatdı. Rüstəmbəy əsgəri təşkilata böyük ehtiyac olduğunu söyləyərək, müsəlman korpusuna dair məlumatlar almağa çalışdı.

– Korpusun məqsədi nədir? – dedi.

Doktor bu suala hazır olmayan bir adam kimi, gözlüyünü düzəldərək:

– Bilirsiniz, – dedi, – indi hər bir millət öz əsgəri qüvvələrini toplayıb ayrı təşkilat yapır. Bizə da bu yolla getmək lazım gəlir.

– Mali cəhəti necə təmin edirsiniz?

Doktor saf bir dillə:

– Doğrusu, korpus fransızların puluna təşkil olunur... Bunun da, təbii, səbəbi var. Rus soldatı müharibə etmək istəmir; bolşevik təbliğatı sayəsində ordu pozulur və almana qarşı olan cəbhə tamamilə açılır. Müsəlman soldatı dindar olduğu üçün bolşevik təbliğatına qapılmır – deyə fransızlar cəbhədə sağlam bir əsgəri qüvvə hazırlamaq fikrindədirlər.

Rüstəmbəy gülümsənərək:

– Deməli, avam müsəlmanları atəşə soxmaq istəyirlər, – dedi.

Doktor Rüstəmbəyin qeydindən pərt olan kimi:

– Yox! Yox! – deyə qızardı, bir müddət söz tapa bilmədi, sonra: – Yox! Müvəqqəti hökumət də bu məsələyə zidd deyil; o da cəbhənin saxlanılmasını istəyir...

Rüstəmbəy bir sual da verdi:

– Korpus cəbhədə qalacaq, yoxsa yerini dəyişəcək? Bu dəfə həkim düşünərək:

– Onu dürüst bilmirəm. General gələcək, təfsilatını söylər. Mənim məqsədim buradakı milli təşkilatlarla tanış olmaqdır. Sabah cəbhəyə dönəcəyəm. Zənn edirəm, general iki həftə sonra burada olar.

– Ukrayna milli təşkilatları ilə görüşdünüzmü?

– Yox! Yalnız müsəlman təşkilatları ilə görüşdüm.

– Ərkani-hərbdə rus zabitləri də varmı?

– Var, azdır! Əksəriyyəti müsəlmandır. Yeni müsəlman olmuş da var.

Rüstəmbəy istehzalı təbəssümlə:

– Əcaib! – deyə Qulamrzanın üzünə baxdı. Həkim yenə qızardı.

## 22

Milli komitənin ilk növbəti iclasında Rüstəmbəy “Müsəlman korpusu” məsələsini müzakirəyə qoydu. Korpusa qarşı nə kimi xətti-hərəkət

yürüdüləcəyini təyin etmək istəyirdi. Lakin əldə lazımi məlumat olmadığı üçün məsələ ətraflı olaraq, aydınlaşa bilmədi. Korpus haqqında məlumat toplanması qərara alındı.

Bu məqsədlə Rüstəmbəy müsəlman hərbi şurasına gələnlərlə görüşdü, cəbhədən qayıdan bir çox zabitlərlə danışdı. Nəhayət, çarın sabiq İstanbul səfirlərindən birisinin korpusla əlaqədar olduğunu öyrəndi. Bu diplomat Sevastopolda yaşayır və arabir Kiyevə də gəlirmiş.

Bir gün təsadüfən sabiq məktəb yoldaşlarından birinin evində bu diplomata rast gəldi. Diplomat rus zadəganına mənsub bir ailənin köhnə dostu imiş. Rüstəmbəyin türk olduğunu duyar-duymaz onu nəzakətlə əhatə etdi:

– Sizlə görüşməm mənim üçün böyük bir həzzdir. Mən nəcib türk millətini çox sevirəm, – dedi. – Rus dövləti təşkilatında türk-tatarların böyük rolu olmuş. İndi, tarixi bu zamanda, bu rol bir qat daha artır... – Diplomatın bu məalda başladığı nitq hal-hazırkı siyasi vəziyyəti təmsil etməyə başladı. Diplomat çar siyasətini tənqid edərək, Rusiyada müsəlmanların qədri bilinməməsini irəli sürdü, federasiyadan bəhs etdi. Xülasə, inqilab şüarlarına bulaşmış bir liberal sifəti ilə Rüstəmbəyin rəğbətini qazanmağa çalışdı. Nəhayət, müsəlmanların daim Rusiyaya sadiq olduqlarını qeyd etdi.

Rüstəmbəy müsəlman korpusundan söz açdı:

– Cəbhədə bir "Müsəlman korpusu" əmələ gəlmiş, bundan xəbəriniz varmı? – deyə sordu.

Diplomat süni təbəssümlə monoklunu sağ gözünə qoyub dedi:

– Eşitdim. Əminəm ki, sadiq müsəlmanlar ana torpağını düşmənlərə qapdırmazlar.

Rüstəmbəy korpusa dair bir sıra sual verdisə də, diplomatdan aydın bir cavab ala bilmədi; diplomat: "bəlkə də!", "ola bilər!", "ehtimal" kimi kəlmələrlə bildiklərini gizləməyə çalışdı.

Korpus məsələsi Rüstəmbəy üçün bir müəmma olaraq qaldı. Komitə üzvləri də bu sahədə heç bir xəbər bilə bilmədilər. Axırda Ukrayna siyasilərindən birisi Rüstəmbəyi məsələyə vaqif etdi. "Müsəlman korpusu" fikrən əvvəl rus monarxistlərindən nəşət etmişmiş. Çar Rusiyasının ehyasını "sadiq" müsəlmanlardan gözləyirmişlər. Mametoviçin fikri hələlik Krıma keçib ordunu qüvvətləndirmək, sonra Qafqaz, Edil boyu və Türküstanla əlaqəyə girməkmiş.

Rüstəmbəy Xəlildən yeni bir məktub almışdı. Məktub Bakıdan bir aya gələ bilmişdi. Xəlil yazırdı:

"Əzizim Rüstəm!

Məktubunu aldım. Milli komitə təşkil etdiyinizi oxudum. Nə qədər haqlı olduğunu söyləmək hələlik əbəsdir, çünki buradan çoxdan çıxmısan – olanları bilmirsən. Gələrsən də, görərsən, sonra danışarıq. Bilirəm, indilik heç bir dəlil və sübut səni fikrindən daşındıra bilməz; lakin yenə buranın övzaını təsvir etməyi özümə borc bildim. "Müsavat"la bərabər milli üfüqdən "Rusiyada müsəlmanlıq" adlı yeni bir firqə doğdu. Bu firqə kin, küdurət və rəyasətpərvərlikdən əmələ gələn bir şeydir. "Müsavat"da rol oynaya bilməyəcəklərini əvvəlcədən kəsdirən bir sıra köhnə ziyalılar toplanıb "Rusiyada müsəlmanlığ"ı vücuda gətirdilər. Avamları aldatmaq üçün dini əldə oyuncaq edən bir firqənin də, "Müsavat" kimi xalq arasında heç bir nüfuzu yoxdur. Liderini tanıtsam, zənn edirəm, firqənin əsil siması meydana çıxar. Qarayarov famili, yəqin ki, məlumundur. Vaxtilə "Russkoye slovo" qəzetində bunun "fəaliyyəti" yazılmışdır. "Çar istibdadından" qaçaraq İstanbulda "İttihad və tərəqqi" qanadının altına sığınmış, siyasi bir vəzifə ilə İrana göndərilmiş, sonra Ərzurumdakı rus səfirinin vasitəsilə təkrar Qafqaza dönmüş bu adam bu gün "Rusiyada müsəlmanlıq" firqəsinə rəhbərlik edir. Məsələ bəlli oldumu? Çar casusu bu gün başqa bir rolla meydana çıxır.

"Rusiyada müsəlmanlığ"ın nüfuzlu üzvlərindən birisi də qoçu Şəmilbəydir. Bu adam yüzlərcə cinayət yapması ilə məşhurdur. Bu gün Şəmilbəy "vəhşi diviziya" zabitlərini başına toplayaraq, əsgəri qüvvə təşkili ilə məşğuldur.

Bir ay əvvəl iki realni məktəbin tələbəsi qız üstə Şəmilbəyin oğlunu öldürmüşdü. Zabitlər qatilləri tutub günün günorta çağı küçədə güllələdilər...

Artıq firqənin siması bəlli olmadımı?

Xülasə, buradakı bütün qovğalar cib və sədarət üstündədir. Bütün milli təşkilatlar bu iki amil yolunda çarpışırlar. Məslək böhranı hər yeri qaplamış. Burada baş verənləri görsən "milli" sözünə qarşı üsyan edərsən...

Nə deyim, milli komitəndən məyus olacaqsan. Bundan şübhə etmirəm, ancaq bir az tez məyus olman daha əlverişlidir.

Bu qədər! Səni öpürəm. Xəlil".

## 24

Sabah ertə Rüstəmbəy radaya doğru gedərkən küçədə Cabbara rast gəldi: yanında bir qız, əlində dəmir qutu, ötüb keçənləri dayandırıb pul toplayırdılar. Qollarındakı qırmızı sarğının üstündə hərbi şuranın möhürü vardı. Cabbar yanındakı qıza xoş gəlmək istər bir tərzdə gülümsünərək:

– Balam, – dedi, – əlini cibinə sal görək! Rüstəmbəy heyrətlə:

– Cabbar, bu nə işdir?

– Nə olacaq, sən hərbi şuranı tərk edib, milli komitə təşkil edirsən. Elə bilirsən, biz sənsiz işləyə bilməyəcəyik.

Rüstəmbəy soyuq gülüşlə:

– Mən bir şey demirəm, ancaq hərbi şurada artıq qüvvə qalmamışdır.

– Bax, burada səhvin var...

– Bəlkə... Pulu kimin faydasına toplayırsınız? Cabbar hırıldayaraq qızın üzünə baxdı, sonra ciddi bir sifət düzəldib dedi:

– Bizim cəbhədəki qəhrəmanların faydasına. Rüstəmbəy qutuya pul saldı. Cabbar məmnun bir halda:

– Bu axşam ziyafət verəcəyik, opera teatrının qarşısındakı restorana toplanacağıq. Sizə də dəvətnamə gön-dərilmişdir. Zənn edirik, məclisimizi şərəfyab edərsiniz.

Sözlərini bitirməmiş, Cabbar qəhqəhə ilə gülməyə başladı.

Radaya çatana qədər Rüstəmbəy bir neçə pul toplayan tatar gənclərinə də rast gəldi. Pul alıb, döşlərə dəyirmi kağızlar sancırdılar.

Rada binasında "Xalqlar şurasına" təxsis olunmuş otaqda bir neçə üzv vardı. Hamısı tələbə idi. Qulamrza da burada oturmuşdu. Rüstəmbəyi görcək, təzim edərək yer göstərdilər. Şura katibi mülayim bir səslə:

– Rüstəmbəy, – dedi, – sizi təbrik edirəm. "Svobodnı soyuz" məcmuəsinin ilk nömrəsi hazırdır.

Gənc katib Rüstəmbəyə bir nüsxə təqdim etdi. Rüstəmbəyin üzü parladı:

– Ah, nə səadət! – dedi. – İndi bir dəqiqə belə qaib etmədən milli mərkəzlərə göndərməlidir.

Katib itaətkar bir sima ilə:

– Sizə nə qədər lazımdır? – deyə sordu.

Rüstəmbəy düşünərək:

– Qulamrza, nə qədər götürək? – dedi. Qulamrza fikirli gözləri ilə Rüstəmbəyi süzüb:

– Bakıya üç yüz, – dedi. – Kazana, Orenburqa, Ufaya... Rüstəmbəy:

– Daşkəndə, Ağməscidə, Gəncəyə... – deyə Qulamrzanın sözlərini kəsdi.

Min nüsxə ayırıb göndərilməsi qərara alındı. Gürcü tələbələri öz paylarını ayırarkən Rüstəmbəy Qulamrzanı kənara çəkib dedi:

– Pul toplanır, gördünmü?

– Hə, Cabbarın kələyidir... Bizə də dəvətnamə göndəriblər. Bu axşam küçələri dolaşanlar kef edirlər.

Rüstəmbəy gülümsündü, nə isə düşünüb:

– Yaxşı, gedək, getməsək pis olar, – deyə katibə yanaşdı.

Məcmuənin ikinci nömrəsi üçün material toplanması müzakirə ediləcəkdi.

## 25

Axşam bütün yerli tatar ailəsinə mənsub gənclər restorana toplanmışdı. Rüstəmbəyin tanımadığı bir neçə zabit də vardı. Süfrə hazırdı; lakin nədənsə yeməyə oturulmurdu. Azərilər otağın bir guşəsində ayaq üstə duraraq deyib gülmədə idilər.

Səftər qaşlarını qaldıraraq:

– Bilirsiniz, – deyirdi, – tatarlar çox xamdırlar, Cabbarı bir kişi hesab edirlər.

Həsənoğlu istehza ilə:

– Bax, o gəlməmiş deyə, heç kəs cəsarət edib masaya yanaşmır.

Müslüm bığlarının uclarını yuxarı qaldıraraq:

– Sən zarafat elə. Kişi ianə heyəti sədridir, – deyə güldü.

Bu əsnada tatar qızlarından biri bunlara yanaşıb:

– Bəs Cabbar əfəndi necə oldu? – deyə nigaran bir halda soruşdu. Kimsə cavab vermədi. Rüstəmbəy Səftərə yönələrək:

– Səftər, – dedi, – sən onun evini tanıyırsan, zəhmət olmasa, ayaq qoy, gör necə oldu.

Səftər yenə qaşlarını qaldırıb:

– Mən deyirəm, kişinin hörməti var, inanmırsınız, – deyə pıçıldayıb yola düşdü.

Vaxtı boş keçirməmək üçün əsgər qiyafəli birisi qarmon çaldı, masanın ətrafında rəqs başlandı. Azərilər rəqsdə iştirak etmirdilər və hamısı Sayad bacının ətrafına toplanıb, ona gülməli şeylər anladırdılar.

Çox çəkmədi Səftər geri döndü və Cabbarın evdə olmadığını rəsmən elan etdi. Sonra paltosunu çıxarıb, azərilərə yanaşdı və yavaş səslə:

– Uşaqlar, – dedi, – siz öləsiniz, içəri girib qapını bağlayıb, işığı yanır. Qapını döydüm, açmadı. Yəqin qutulardan pul çıxarır...

Ətrafdan:

– Qutuları onun otağına yığıblar? – deyə səslər gəldi. Hər kəsin heyrətdən bəbəkləri böyüməyə başladı.

Səftər içindən gülə-gülə:

– Deyəsən, – deyə əlini uzatdı.

Onun əlinə vuraraq hərə Cabbarın şərəfinə bir söz fırlatdı.

– Malades!

– Lotudur!

– Külbaşlar qutuya yer tapmadılar?..

İmran istehzalı gülüşlə:

– Canım, – dedi, – kişinin babalını yumayın, "millət yolunda" yorulub yatıb.

– Masaya buyurun! – deyə qopan səs gizli pıqqıltılara xitam verdi.

## 26

Hər səhər ondan etibarən milli komitənin qəbul saatları başlayırdı. Qulamrzanın otağının yarısına pərdə çəkilib, idarə şəklinə salınmışdı.

O gün bütün komitə üzvləri oraya toplanıb, müsəlman korpusunun nümayəndəsini gözləyirdilər. Tam təyin olunan saatda içəri uzunboylu, qayət nəzakətli və xoşsima bir zabit girdi. Yüzbaşı rütbəsində olan bu gəncin döşündə darülfünun nişanı vardı.

Xoş bir əda ilə dabanlarını bir-birinə vuraraq təzim etdi və komitə üzvlərinin əllərini bir-bir sıxıb oturdu.

– Milli komitəni, – dedi, – ziyarət etmək mənim üçün böyük bir şərəfdir... General da sizi məmnuniyyətlə ziyarət edəcək. Müsəlmanlıq yolunda göstərdiyiniz fəaliyyəti eşidərək, general çox şad oldu. Zatən onun gördüyü iş də sizin daşıdığınız yüksək əmələ xidmət etməkdir.

Rüstəmbəy cavab olaraq:

– Yüzbaşı əfəndi, – dedi, – milli komitə üzvləri də ziyarətinizdən son dərəcə məmnundur. Müsəlman korpusunun federativ və demokratik cümhuriyyətə xidmət edəcəyinə inanmaq istərik.

Görüşün rəsmi cəhəti bitdikdən sonra, zabit islamiyyətə qarşı böyük məhəbbət bəslədiyini söyləyərək:

– Xristianlıq, – dedi, – mənəviyyatımı doyurmadı, islamiyyəti tədqiq edib qəbul etdim. Bu gün Fuadbəy adını iftixarla daşıyıram.

Zabitin müsəlmanlığa keçməsi xəbəri bəzi üzvlərə böyük təsir yapdı. Müslüm bığlarını tumarlayaraq, Fuadbəyi zövqlə süzdü. Zeynalın yeknəsəq siması parladı.

Yüzbaşı sözlərini bitirib:

– Müsaidə ediniz, – dedi, – generalı gətirməyə gedim. Vaxtınızı çox almayacağıq. İnşallah, (zabit bu sözün ərəbcəsini əzbərləmişdi) çox görüşəcəyik.

"Fuad" adı daşıyan bu zabit Baltik vilayəti almanlarındandı. Müharibənin ilk sənələrində Peterburqda xidmət edərmiş, "Astoriya" otelində yaşar və məşhur Klenmixel salonunun daimi ziyarətçilərindən imiş. Fuadbəy alman casus təşkilatları ilə əlaqədar olaraq, paytaxtın bütün siyasi məhafillərinə girər-çıxar və lazımi məlumatlar əldə edərmiş. Rasputinlə xüsusi bir dostluğu varmış və onu əyan qadınları məclislərinə təşyi edərmiş.

İnqilab olar-olmaz islamiyyəti qəbul edib, Peterburqdakı müsəlman komitəsi üzvlüyünə girir. Cəbhə pozulduqdan sonra mənsub olduğu casus təşkilatının təlimatına görə, müsəlman korpusuna göndərilir və Mametoviçin qılığına girib, yavəri olur.

## 27

Mametoviç ortaboylu, şişman qarınlı, çivi saqqallı adi bir generaldı. İlk görüşdə məhdud bir adam olduğu gözə çarpırdı. Fuadbəy hər kəsin rəğbətini qazandığı bir halda, general heç bir müsbət təsir bağışlamırdı. Milli hərəkatdan xəbərsiz olduğu üçün bütün ehtiyatlılığına baxmayaraq, çarlıq məfkurəsi daşıdığı bəlli olurdu. Aydın bir proqram yoxdu; gizli bir nöqtədən təlimat aldığı duyulurdu.

– Rüstəmbəy, – dedi, – korpus get-gedə qüvvətlənir, cənub-qərb cəbhəsindəki bütün müsəlman hissələrini korpusa doldurmaq fikrindəyik; lakin əsgər dindar da olsa, bolşevik təsirinə düşür. Leninin hakimiyyəti əldə etməsi işləri xarablaşdırdı. Rusiya və bütün Şərq

əməkçi müsəlmanlarına xitab olaraq göndərdiyi çağırış dərin təsirlər yapır. Müsəlmanlar avam olduqları üçün bolşevikliyə daha tez qapılırlar. Bu rəzalətin önünü almaq üçün müsəlman milli təşkilatlarının mənəvi yardımına möhtacıq...

– Generalın nitqi uzun sürdü, get-gedə qızışdı, nəhayət, şiddətli yəhudi əleyhdarı olduğunu büruzə verdi:

– Bir ovuc cuhud Rusiyanı alt-üst etdiyi halda, qırx milyonluq müsəlmanı biz təşkil edə bilmərikmi? – deyə nitqini qurtardı.

Rüstəmbəy bu irticapərvər generalı sinirlənərək dinləyib:

– Cənab general! – dedi. – Sözlərinizi diqqətlə dinlədim, ancaq, bağışlayın, məqsədi anlamadım.

General pərt oldu: “Cənab general” sözlərinə alışmamışdı, korpusda ona köhnə üsulla “zati-dövlətləri” – deyə müraciət edirdilər. Buna əlavə olaraq, məqsəd məsələsi də onu olduqca sarsıtdı. General saqqalını tumarladı, gözlüyünü düzəltdi və cavab olaraq bir söz tapa bilmədi. Qatlanmış dəsmalını açıb burnunu silərək:

– Rüstəmbəy, – dedi, – anarxiyanın, pozğunluğun önünü almaq məqsəd deyilmi? Şimaldan qaçıb gələnlərə rast gəlmirsinizmi? Camaat acından qırılır, güllələnənlərin sayı-hesabı yoxdur...

Rüstəmbəy gülümsündü:

– Nə olar? Birdən düzəlməz ki!..

Mametoviç artıq əsəbilənməsini gizləyə bilmirdi. Yavəri bunu duyaraq, mövzunu dəyişməyə çalışdı:

– Qafqazdan nə xəbər var? – deyə soruşdu və Rüstəmbəyin gec cavab verməsini duyub, sözlərinə davam etdi: – Bağdad cəbhəsindən gəlmiş bir nəfərə rast gəldim. Geri çəkilən rus ordusu yerli müsəlmanlara çox əziyyət verir: soldatlar keçdikləri yerləri yakıb, yıxıb, xaraba qoyurlar.

Müslüm hiddətlə:

– Şərqlilərə zülm etmək çar soldatlarının köhnə peşəsidir.

Söhbət tamamilə dəyişdi, həyəcanlar susub, məclis zahirən mehriban bir şəkil aldı.

## 28

İmranın gətirdiyi xəbər Rüstəmbəyə qəribə göründü – o, Cabbarın həbsini təsəvvür etməzdi.

– Yaxşı, Cabbar pulu haradan almışdı? Beş tüfəng azından üç min manat edər.

– Bu köpək oğlunun o gecə qutuları yarıb, banka bir çamadan yarım manatlıq bon gətirib, minliklərə dəyişdiyini görmüşlər. Bu pulları tüfəngə verib, çarpayının döşəyində gizləmiş imiş. Sonra gəlib tutublar.

Rüstəmbəy yenə:

– Özünü haraya aparmışlar?

– Heç yerə. Otağında həbs ediblər. Tüfəngləri Qafqaza milli məqsədlə göndərdiyini söyləmiş də, aparmamışlar. İndi səni istəyir; sən buraxdırmalısan.

İmran Rüstəmbəyi otağından çıxarıb, faytona oturtdu. Bir neçə dəqiqədən sonra Cabbarın mənzilində idilər. İlk nəzərə çarpan tüfəngli bir Ukrayna soldatı oldu; otağın baş tərəfində qarovul çəkirdi. Kanapedə iki zabit əyləşmişdi. Cabbar həyəcanlı bir halda ayaq üstə durub, ağzından məntiqsiz və lüzumsuz sözlər tökürdü. Döşündəki darülfünun nişanını göstərərək:

– Bu nişana and olsun, – deyirdi, – mən ömrümdə namussuz iş görməmişəm. Ac dolanıram, qəpik-quruş toplayıb, tüfəng alıb vətənimə göndərirəm... Bir qardaşım da var – bilsəniz nə oğlandır! Ah, onu necə sevirəm!..

Cabbarın gözləri yaşardı, kirli bir dəsmal çıxarıb gözlərini sildi. Bunu zabitlərə baxaraq nümayişkar bir şəkildə yapdı.

Rüstəmbəy salam verib, zabitlərlə görüşdü. Yan-yana oturdular. Cabbarın səfsətələrinə xitam vermək üçün amiranə bir səslə:

– Bəsdir, görək, – deyib, zabitlərə özünü nişan verdi və xalqlar şurası üzvü olduğuna dair vəsiqə göstərmək istədikdə zabitlər bir səslə:

– Lüzumu yoxdur, biz sizə radada çox rast gəlirik, – dedilər. – Ancaq vətəndaşınızın həbsindən dolayı üzr istəyirik. Bilirsiniz, bu günlər monarxistlər üçün tüfəng gətirildiyini eşitmişik. Stansiyada əlli bağlı silah tutuldu. Şəhərdə də bir çox tüfəng əldə edilmişdir... İştə vətəndaşınızın da həbsi xırda bir şübhədən baş vermişdir.

Rüstəmbəy:

– Bu tüfənglərin Qafqaza göndərilməsi üçün alındığına əmin ola bilərsiniz.

Zabitlərdən biri:

– Kafi, məsələ aydın oldu. Ancaq bu tüfəngləri burada qoya bilməyəcəyik; bilirsiniz, polis hələ bizim əlimizdə deyil, gəlib təkrar tutarlar. Sonra lazım olsa, biz sizə tüfəng verərik.

Zabit nəfərə tüfənglərin toplanmasını əmr etdi. Cabbar yenə bir şeylər söyləmək istədi, lakin Rüstəmbəyin işarəsini duyaraq ağzını açmağa cəsarət etmədi. Zabitlər qalxdılar, nəzakətlə əl verib otağı tərk etdilər. Nəfər də tüfəngləri çiyninə alıb yola düşdü.

Cabbar əsəbi bir halda otağı dolaşıb:

– Qardaş, sağ ol!.. Vallah, sağ ol! – deyə Rüstəmbəydən razılıq edirdi. Üzündə şadlıq deyil, pərakəndə hisslər izi dolaşırdı. Yanaqlarının quru və rəngsiz dərisi sürətlə səyriyirdi.

## 29

Zabitlərin tüfəng vəd etməsi bir gün sonra Quluya bəlli olmuşdu. Qulu Rüstəmbəyi tərəssüd altına alaraq atdığı hər addımı öyrənməyə çalışır, Cabbarın özünü əldə vasitə edərək Rüstəmbəyin izincə qoşdururdu.

Bir gün Rüstəmbəy İmranın mağazasında idi. Qulu hiddətli bir sima ilə içəri girib, Rüstəmbəyə yanaşdı:

– Mənim on tüfəngim gərək özümə çatsın, – deyə şəhadət barmağını Rüstəmbəyin döşünə dirədi.

Rüstəmbəy Qulunun qaba hərəkətindən incinərək, geri çəkildi.

– Nə tüfəng? – deyə onu sərt baxışla süzdü. Qulunun hirsindən dodaqları titrəyirdi:

– Mənim on tüfəngim tutulub, əvəzinə tüfəng almısınız. Bunu nə haqla edirsiniz?

Rüstəmbəy kəskin bir halda:

– Dəli olmusan... Yuxu görürsən, – deyə elə bir vəziyyət aldı ki, Qulu susub çəkildi.

İmran Quluya qarşı itaətkar olduğuna baxmayaraq:

– Həkim, – dedi, – yaxşı deyil. Eyibdir. Rüstəmbəy təkrar hiddətləndi:

– Eyib anlayır ki?! Deyir, klinikada oturub aləmi qırxaram... Utanmaz!

İmran qovğa ehtimalından çəkinərək, Rüstəmbəyin qoluna girdi və gülər üzlə çəkib arxadakı otağa apardı. Orada Quludan qorxar kimi, yavaş səslə:

– Paho! Belə də tamahkar adam olar! – deyə için-için güldü.

Rüstəmbəy yenə danışmaq istədi, İmran əlini onun ağzına tərəf uzadaraq:

– Mən ölüm, dinmə! – deyə ricada bulundu. Rüstəmbəy sakit oldu, İmran:

– Başına dönüm, bir az otur, bu saat gəlirəm, – deyib çıxdı.

Bir neçə dəqiqədən sonra təkrar döndü. Bu dəfə daha cəsarətli görünürdü. Qulu getmişdi.

– Bu sən öləsən, Rüstəmbəy, bu zalım oğlunun əlindən zara gəlmişəm. Bircə bu mağazaya şərik olması qalıb. Mən on ildir Kiyevdəyəm, ticarətdə hər cür adamlarla düşmüşəm. Tövbə, əgər belə adama rast gəlmişəmsə, hər nəyə əlimi atıram, deyir, gəl qazancını bölək... Kişi nə təhər olsa doktordur, sözünü yerə sala bilmirəm... O biri tərəfdən də çalınıb-çapılıram. Xülasə, bilmirəm başımı haraya götürüb qaçım.

İmran gülərək Rüstəmbəyin üzünə sual nəzəri ilə baxdı. Rüstəmbəy sakit səslə:

– Qurddur! Qurd!..

– Uzun işdir!..

Mağazaya müştəri gəlməsi söhbəti kəsdi; İmran otağı tərk etdi. Rüstəmbəy də küçəyə çıxdı.

Ətraf adi üzrə adamla dolu idi. Qaldırımların üzərində topa-topa duran alverçilər həp alış-verişlə məşğuldular. Brilyant və qızıl əldən ələ gecən ən mod əmtəə idi. Uzaqgörən adamlar get-gedə dəyərini qaib edən kağız pullarını qızıla və brilyanta verirdilər. Bununla bərabər Nikolay parası da Kerenski bonlarına nisbətən hələ dəyərli kimi görünürdü. Qaldırımda duran alverçilərin gündəlik həyatında Nikolay parası da az-çox rol oynamada idi.

Rüstəmbəy bu səyyar bursaçıların arasından keçərək: "Donda əksinqilab", – deyə bağıran qəzetçilərə rast gəldi. Qəzetçilərin səsinə kimsə etina etmirdi. Rüstəmbəy düşüncə içində yürüdü.

## 30

Rüstəmbəy milli komitənin iclasını açdı. Bütün üzvlər gəlmişdi. O dedi:

– Yoldaşlar, məsələlərimizin həllinə keçmədən əvvəl, sizi günün yenilikləri ilə tanış etmək istəyirəm. Şəhərə bir fransız missiyası gəl-

diyini bilirsiniz. Ətraf xalqların təşkilatları bu missiya ilə əlaqəyə girişmişlər. Ermənilər bunların köməyi ilə əsgəri təşkilat qururlar. Gürcülər də rahat durmur, zənnindəyəm. Biz də bu barədə xətti-hərəkətimizi təyin etməliyik. General Mametoviçlə görüşdük, lakin müsəlman korpusuna qarşı nə cür davranacağımız bəlli olmadı. Bakı ilə əlaqəmiz kəsilmişdir: qəzetlər vaxtında gəlmir. İki gün əvvəl teleqraf vasitəsilə danışmaq istədim, müvəffəq ola bilmədim; çünki Rostov cəhətində yol xarab olmuşdur. Qara dəniz xətti də işləmir. Bakıda olanları bilmirik. Adammı göndərəcəyik, ya başqa vasitə arayacağıq – bunları indidən kəsdirmək istəmirəm. Hər halda əlaqə lazımdır. Yaxında xalqlar şurasının geniş müşavirəsi olacaq. Yerlərdən vəkillər gələcək. Buna da hazırlanmalıyıq. Hərə bir nitq söyləməlidir...

– Bizmi? – deyə Müslüm Həsənoğlunun üzünə baxdı. Rüstəmbəy sözlərinə davam edirdi:

– Siz! Siz! Bilmirəm nə vaxta qədər cürətsizlikdə davam edib danışmayacaqsınız?

Həqqi qızararaq:

– Rüstəmbəy, – dedi, – böyük-böyük adamların qarşısında biz nə edəcəyik?

Rüstəmbəy gülümsünərək:

– Canım, hərə öz dərdini deyəndə, siz də özünüzünkünü anladarsınız. Bunda nə çətinlik var?

Hamı bir-birinin üzünə baxdı. Həsənoğlu:

– Çətin işdir, heç bir məclisdə çıxışda bulunmayan adam üçün birdən danışmaq gücdür.

Rüstəmbəy ehmal səslə:

– Xalq şurası, – dedi, – xırda bir şeydir. Burada yavaş-yavaş danışıb açılışın. Bu sizin üçün bir hazırlıq məktəbidir. Gec-tez öyrənməlisiniz, ya yox?

Bir-iki yerdən:

– Öyrənməliyik, – deyə cəsarətsiz səslər eşidildi. Rüstəmbəy nitqini bitirib, məsələlərin müzakirəsinə keçdi. Həmişəki kimi üzvlər yenə az danışıb həp Rüstəmbəyin rəyini təsdiqə çalışdılar. Müsəlman korpusunun əleyhinə qərar çıxarıldı. Korpusa qarşı geniş bir təbliğat yapılması qət olundu. Fransız missiyasına müraciət etmək lüzumsuz göründü. Bakıdan xəbər bilmək üçün Həqqinin oraya göndərilməsi qərarlaşdırıldı.

31

Xalqlar iclasının geniş müşavirəsi Ukrayna cümhuriyyətinin elanına isabət etdi. Axşam radanın təntənəli iclası oldu. Xalqlar vəkilləri heyəti-rəyasət oturan yerin arxasında yerləşmişdi. Rüstəmbəy də birinci sırada oturub, söylənilən atəşin nitqlərə qulaq asırdı. Yaxındakı gürcü vəkili cib dəftərindəki notlarına baxaraq təbrik nitqinə hazırlanırdı. Bir də dəftərini yumub cibinə qoydu.

– Rüstəmbəy, – dedi, – doğrusunu deyim, ukraynalılara qibtə edirəm. Bax, cümhuriyyət elan etdilər; orduları var, idarələri milliləşdirirlər.

Rüstəmbəy təsəlli verərək:

– Zərər yoxdur, bizdə də olar, – dedi. Gürcü başını tərpətdi:

– Hələ ki olmur. Şərait başqadır. Etnoqrafi qitələri ayırmalı, milli təzadlar təsviyə olmalı... Uzun məsələlər var, – deyə gürcü köksünü ötürdü. Sonra huşsuz bir halda, nitq söyləyən bir hərbini süzərək, əlini jiletinin cibinə soxdu.

Gürcünün nitqə qulaq asması halından duyulurdu. Fikrə dalaraq saatının altun zəncirini əlləşdirirdi.

– Azərilərin də halı məni az düşündürmür, – deyə Rüstəmbəyə pıçıldadı. – Türk xalqı bizim olaydı, görəydiniz; sizin ziyalılarınız bir qəpiyə dəyməzlər. Hamısı qərəzli, xudpəsənd, tənbəl hamıdan çox adını eşitdiyimiz Əliyarbəy deyilmi? Boş lovğalıqdan və rəyasətpərəstlikdən başqa ayrı bir məziyyəti varmı?.. Heyf o millətə!.. Bilirsiniz, sizin işiniz axsadıqda bizimki də axsayır.

Gürcü dərdlərini qırıq-qırıq söyləyərək, yerində rahatlıq tapa bilmirdi. Axırda ayaq üstə durub, vizitkasını düzəltdi və nitqləri alqışlarla qarşılayan camaata tamaşa etməyə başladı.

Saat on ikiyə yaxınlaşırdı. Nitqlər bitmişdi. Sədr qalxıb:

– Təbrik üçün Gürcüstan vəkili... yoldaşa qısa söz verilir, – deyib oturdu.

Alqış radanı titrətdi. Gürcü həyəcan içində xitabət kürsüsünə yanaşdı.

Nitqi bir saat davam etdi.

32

Ətraf millətlərin təşkilat qurmaları, bəzinin fransız missiyası ilə əlaqəyə girməsi Qulunu şübhələrə sövq edirdi. "Milli komitə də, yə-

qin, bir yerdən pullar alır", – deyə düşünür, əzab içində boğulurdu. Bu sirri bilmək üçün o hansı vasitələrə əl atmırdı? Milli komitənin gənc və təcrübəsiz üzvlərindən istifadə etmək üçün onları ayrı-ayrı qonaq aparır, danışdırır, onları Rüstəmbəyə qarşı təhrik etdirir..., nəticədə əlinə əməli bir şey gəlməməsindən rahatsızlığında davam edirdi. Bir gün Həqqini qəhvəxanaya apardı, doyunca yedirdikdən sonra dedi:

– Uzaqdan işlərinizə baxıram, doğrusunu deyim ki, işləriniz lazımınca getmir. Bu saat durmaq vaxtı deyil, hər yerə əl atmalıdır.

Həqqi:

– Əlimizdən gələni edirik, – dedi. – Təklifiniz varsa, söyləyin.

Qulu düşünərək:

– Axır, gülüm, burada nə deyim? Baxın görün, ermənilər necə işləyirlər. Onların vəkili avtomobildə gəzir, siz də piyada yortursunuz. Biz elə həmişə gərək geridə qalaq?

Həqqi cavab tapa bilmədi və bir az da Qulunun təsirinə qapıldı. Bunu duyan Qulu:

– Sözlərimi Zeynala, Həsənoğluna və Müslümə də söylə. Məsləhət lazım olsa, həmişə yanıma buyura bilərsiniz. Qapım sizə açıqdır. Bilirsiniz, cavanların xətrini çox istəyirəm.

Həqqi Qulunun fikirlərini təsvib edərək:

– Deyərəm, – dedi. – Bu millət işidir, hər kəsin əlindən nə gəlsə etməlidir.

Qulu:

– Təbii deyilmi? – deyə Həqqinin sözlərini təsdiq edirdi. – Vaxtım yoxsa da, millət yolu üçün tapılar; gündə iyirmi manat qazanmaram da, on manat qazanaram. Başqaları millətin yolunda varından-yoxundan çıxır, mən gündə on manat itirsəm, nə eyib edər?

Həqqinin Quluya dikilmiş gözləri sevinc və təşəkkür atəşi saçırdı. O dəqiqələr Qulunu ən pak və millətpərvər bir zat kimi təsəvvür edirdi. Qulu Həqqini "bişirəndən" sonra:

– Gülüm, – dedi, – burada yaşayan müsəlmanlar yığılmaq istəyir. Mənim otağımı istədilər, razı oldum: millət yoludur, nə eyib edər? Sizə də xəbər verəcəyəm, gəlin.

Görək camaatın dərdi nədir... Biz də onların dərdinə yanmasaq, kim yanacaq?

Həqqi:

– Əlbəttə! Əlbəttə! – deyə Qulunun sözlərini təsdiq etdi. – Vallah, məəttələm, sizin kimi adamlar niyə kənarda durur? Siz böyük fayda gətirə bilərsiniz.

Qulu xudpəsənd bir təbəssümlə:

– Yenə gec deyil. İşlərik. Ancaq yoldaşları dürüst başa sal.

33

Səhər ertə Qulamrza klinikada olacaq yığıncağı Rüstəmbəyə xəbər verdi. Rüstəmbəy düşünərək:

– Kimləri çağırmışlar? – deyə sordu. Qulamrza gülə-gülə:

– Səndən və məndən başqa hamını; Həqqi, Müslüm və Həsənoğlu da dəvət olunmuşlar.

Rüstəmbəy bir az əsəbi:

– Deməli, Qulu aramızda nifaq salmaq istəyir? – dedi. – Amma bacara bilməz. Əsil məsələ pul məsələsidir. O bizdə pul olduğunu zənn edir. İşin həqiqətini bilsə, bu intriqalara tənəzzül etməz... Hər halda hazırlanmalıyıq. Bu gün iclas çağır.

– Gedəcəyik?

– Təbii. Qorxmaq zamanı deyil!

– Axır çağırmayıblar.

– Onun zərəri yoxdur. Səninlə mənim gəlməm Qulunun bütün planlarını pozacaq.

Qulamrza için-için güldü. Bu əsnada otağa qıyıqgözlü, sarıbəniz bir zabit girdi.

– Olarmı? – deyə təzim etdi. Rüstəmbəy nəzakətlə:

– Buyurun, – dedi.

Zabit cəsarətsiz bir halda oturdu. Rüstəmbəy:

– Bağışlayın, – dedi, – tatara bənzəyirsiniz.

– Yox, türkmənəm.

– Çox gözəl, nərədən belə? Türkmən zabiti utanar kimi:

– Cəbhədən, – deyib başını aşağı saldı.

– Yəqin türkmən alayındansınız?

– Uvva*.

Rüstəmbəy gülümsündü:

---

* Bəli.

– Sizlərdən yaxşı xəbərlər gəlmir: inqilabı buraxıb da irticaya tərəf gedirsiniz.

Türkmən bu sözlərin mənasını anlamayan kimi suçlu-suçlu Rüstəmbəyin üzünə baxdı. Rüstəmbəy:

– Bəs alay indi haradadır?

Türkmən yarı rus, yarı türkməncə anlatdı:

– Gəlirdi, yolda bolşeviklərə rast gəldik. "Çininizi açın", – dedilər. Biz açmadıq. Atışma oldu, bir-iki yüz adamımız tələf oldu.

Rüstəmbəy başını tərpədərək:

– Ah! Açsaydınız, qiyamətmi qopardı?

Zabit günahkar bir adam kimi məsələnin izahına çalışdı; əsgəri şərəfdən, anddan bəhs etdi.

Bir çox suallardan sonra türkmənlərin general Kornilovla Dona keçdikləri bəlli oldu. Rüstəmbəy hiddətləndi:

– Canım, – dedi, – ruslar çardan əl çəkdi də, müsəlmanlar əl çəkmirlər.

– Sonra inqilabdan uzun-uzadı bəhs edərək, çarın müsəlmanlığa qarşı işlətdiyi zülmləri təsvir etdi. Nəhayət, qəti olaraq:

– Boş-boşuna qan tökdüyünüz bəsdir; adamlarınızı götürün, evinizə gedin. İndi sizə Türkmənistanda böyük ehtiyac var, – dedi.

Türkmən zabitindən sonra Rüstəmbəy bir neçə ziyarətçilər də qəbul edib, klinika məsələsinə döndü. Qulamrza ilə işi ətraflı müzakirə edib planlar qurdular. Zatən hər bir məsələni bir yerdə həll edib, komitədən keçirərdilər.

## 34

Üzvlər həmişəkindən bir az gec toplandılar. Həqqinin üzü tutqundu: qaşının biri əyilmişdi. Bu əyinti çox şeylər ifadə edirdi. Müslüm laübali bir tərzdə oturub, bığlarını bururdu. Bu da Rüstəmbəyin üzünə dik baxmağa cəsarət edə bilmirdi. Zeynalla Həsənoğlunda dəyişiklik görünmürdü.

Rüstəmbəy məclisdəki ruhi övzaı duydu, lakin aldırmadı. Əvvəl tamamilə məsələyə aid olmayan mövzulardan bəhs edib, sonra fransız missiyasından danışdı:

– Bizim üçün, – dedi, – hər bir təşkilatla əlaqəyə girmək mümkündür; lakin hər bir addımın bir məsuliyyəti var. Biz atdığımız addımdan

məsul olduğumuzu unutmamalıyıq. Önümüzdə yüksək bir məqsəd var isə, hüsni-niyyət sahibi olmalıyıq. Avantüristlər hər bir şeyə susayar; biz, zənn edirəm, bu məqsədi təqib etmirik...

Rüstəmbəy Qulunu nəzərdə tutaraq uzun-uzadı danışdı və nə kimi şəxsiyyətə malik olduğunu dəlil və isbatla göstərdi. Nəhayət, doğrudan-doğruya məsələyə keçdi.

– Yoldaşlar, – dedi, – sizin çalışmanız sayəsində komitəmiz bir neçə ayın müddətində bütün Rusiya müsəlmanları arasında böyük bir şöhrət qazanmışdır. Burada yandırdığımız federasiya çırağının işığını ən uzaq yerlərdən görürlər. Bu xırda otaqdakı komitənin ziyarətinə gələn hədsiz-hesabsız nümayəndələr fikrimin doğruluğunu isbat etmirmi? Bu gün bu parlayan çırağı söndürmək istəyirlər. Sərf olunan əməyi boşa çıxarmaq niyyətindədirlər. Buna razı olacaqsınızmı?..

Rüstəmbəyin nitqi sayəsində Müslüm yavaş-yavaş yığışdı, üzərindəki skeptik cizgilər ümid parlayışı ilə əvəz olunmağa başladı. Həqqi də dəyişildi: qaşları müvazinətini ehya edib, xoş bir əda belə aldı.

Həsənoğlu gülə-gülə:

– Əşi, nə deyirsən? Ölməmişik, atalarını yandırarıq, – deyə Zeynalın çiyninə vurdu.

Rüstəmbəy klinikadakı məclisə keçərək:

– Buradan bu saat Qulunun məclisinə gedirik. Bütün intriqaları kökündən kəsməliyik! Vəssalam! Biz basılmaq üçün deyil, qalib gəlmək üçün meydana çıxdıq...

Məclisə ruh yüksəkliyi yayıldı, hər kəs özündə bir mübarizə coşqunluğu duydu. Rüstəmbəy gülərək bir əli ilə Müslümün, o birisi ilə də Həqqinin kürəyinə vurub:

– Haydı, – dedi, – bu axşam sizdən qəhrəmanlıq gözləyirəm!

Tələbələr gülümsünərək, intizamlı bir əsgər kimi dik qalxdılar.

Klinikada qəribə bir cəmiyyət toplanmışdı: samovar təmir edən ləzgilər, meymun gəzdirən urmiyalılar, köhnə paltar alan tatarlar, baqqallar, dəllallar, ictimai işlərdən qaçan bir neçə həkim və tələbə isbati-vücud edirdilər. Cabbar da təbii burada idi. Verilən çay və çərəzlərin bitməsindən qonaqların çoxdan gəlmələri bəlli olurdu...

Komitə üzvlərinin yekvücud olaraq gəlmələri Qulunu şaşırtdı. Kinini gizlədə bilməyən əda ilə onlara yer göstərdi və ağızucu olaraq çay təklif etdi.

– İçmirik, sağ ol! – deyə hamı bir səslə cavab verdi. Məclisə sükut çökdü. Cabbarın yanında oturan Rüstəmbəy ona yönələrək:

– Cabbar, – dedi, – eşitdim, yer axtarırsan? Cabbarın:

– Hə! hə! – deyə gözlərinin bəbəkləri genəldi. – Varmı?

– Var! Xarici sekretarlığı yanında əqəliyyət dairəsi düzəlir. Ora səni baş katib namizədi göstərmişəm.

Cabbarın turş üzü şadlıqla parladı:

– Mən ölüm? – deyə yalvarar bir vəziyyət aldı. Cabbarın bu halından istifadə etmək istəyən Rüstəmbəy sözü dəyişdi:

– Ay Cabbar, – dedi, – bu nə oyundur?

Cabbar:

– Boş işdir. Qulu komitəyə girməyə yol axtarır, – deyə pıçıldadı.

Rüstəmbəy gülümsünərək, geri çəkildi. Qulu xüsusi söhbətlərə xitam vermək üçün milli bir nitq söylədi. Axırda məclisə sədr seçilməsini təklif etdi. Rüstəmbəy:

– Qulu ağsaqqaldır, biz onu təklif edirik.

Qulu Cabbarın namizədini irəli sürdüsə də, Cabbar boyun qaçırdı. Nəhayət, Qulu sədarətə əyləşdi. Yeni bir nitq başlandı, zamanın incəliyindən, hər bir millətin vəziyyətdən istifadə etməsindən, bizim də yatmamızdan bəhs etdi:

– Biz də çalışmalıyıq, buradakı komitənin fəaliyyətini bilməliyik, qüvvəti çatmırsa, ona kömək etməliyik... – dedi.

Ləzgilər mürgü döyür, tatarlar boşqabların dibindəki şirni qırıntılarını ağızlarına atır, urmiyalılar əsnəyir – kimsədən də səs çıxmırdı. Cabbar da sakit oturaraq həp yeni alacağı vəzifə ətrafında düşünürdü.

Qulu məclisin kəsalətini dağıtmaq üçün ən mod, ən milli ifadələrə müraciət etdisə də, məqsədinə çata bilmədi. Nəticədə mücadilə sahəsinin bir tərəfində Qulu, o biri tərəfində isə milli komitə qaldı. Buna baxmayaraq Rüstəmbəy söz alıb komitənin fəaliyyətinə dair məruzədə bulundu. Nəticədə təsvibedici sözlər və razılıq qazandı.

Məclis dağıldı. Cabbar bir az da vaxtdan əvvəl qaçmışdı. Belə bir nəticə gözləməyən Qulu məğlub bir təbəssümlə Rüstəmbəyə yanaşıb, onun qoluna girdi:

– Rüstəmbəy, – dedi, – ə, mən ölüm, bir yerdə işləyək. Axır, ayrılıq nəyə olsun ki?

Rüstəmbəy qolunu onun əlindən xilas edərək:

– Qulu, – dedi, – bunu əvvəldən kişicəsinə deməli idin. Bu yolla bizə yanaşmaq olmaz. Fikrini həmişə açıq söylə.

Qulu səsində bir az kin ifadə edərək:

– Axır siz də zemlyaçestvo xətti-hərəkəti ilə gedirsiniz. Belə olarmı?

Rüstəmbəy qəti:

– Düz yolu qoyub, əyri yolla getməkdən fayda çıxmaz. Komitə üzvləri ruhlarında qalibiyyət nəşəsi daşıyaraq, otağı tərk etdilər. Qulu onları mehriban bir halda təşyi edir və təkrar-təkrar:

– Mən ölüm, bir yerdə işləyək, – deyirdi.

## 35

Rüstəmbəy gecə saat üçə qədər qədim yunan dövləti təşkilatına dair bir kitabın mütaliəsi ilə məşğul olmuşdu. Buna baxmayaraq, adəti üzrə sabah saat yeddidə oyandı. Özündə bir ruh əzikliyi və bədbini hisslər duydu. Dünyanı sanki ələmlər bürümüş, çıxacaq yollar qalmamışdı. Zəhərli şübhələr ruhunu bulandırmağa başladı. Gözləri çarpayısının yanındakı kitab və qəzetlərə sataşdı; axşam onlara bəslədiyi həvəs indi tühafına gəldi. İçində yaşadığı tarixi hadisələr, siniflərin, zümrələrin və fərdlərin siyasi sahədə çarpışmaları ona qəribə göründü. O öz-özünə: "İnsan nə tühaf məxluqdur: sanki dünyada başqa işlər yoxmuş da, qanlı vuruşmalarda, mücadilə və çarpışmalarda istirahəti-qəlb arayırmış!.. Yox, bu doğru yol deyil; özünə tərəf dönməli, şəxsi səadət aramalıdır!.."

Rüstəmbəydə çoxdan bəri susmuş ikilik yenidən canlandı. Dəruni böhranlara qapılaraq, tənhalıq iztirabında alovlanmağa başladı. Bir də Musya bütün faciəli cazibəsi ilə xəyalını istila etdi.

Rüstəmbəy xəstə bir halla qalxıb, yanındakı zəngi basdı. Bir neçə dəqiqə sonra xidmətçi qız samovarı və o günkü qəzetləri gətirdi.

– Maşa, bir az xəstəyəm, çayı ver burada içim.

Dəruni ağırlıqdan xilas olmaq üçün qəzetləri gözdən keçirdi: Brest-Litovskdakı sülh müzakirəsi uzun sütunlar məşğul etmişdi. Bunları gözdən keçirdikdən sonra Kiyev hadisələrini oxudu: Ukrayna hökuməti Kiyevi tərk etmək istəməyən bolşevik əsgərlərini həbs etmişdi...

Rüstəmbəy qəzeti kənara qoyub, çay içməyə başladı. Saat on ikiyə yaxın Qulamrza gəlib Rüstəmbəyi yataqda gördü.

– Yəqin, dincəlirsən? – deyə sordu. Rüstəmbəy məyus bir halda:

– Bilmirəm, – dedi, – yorğunam. Qulamrza:

– Bu gün səni, – dedi, – radada gözlədim, gəlmədin; dedim, yəqin xəstələnmisən.

Rüstəmbəy cəld:

– Vacib bir işmi vardı?

– Brestdən adam gəlib, bizlərdən birinin oraya getməsi lazım gəlir.

– Nə üçün?

– Sədri-əzəm Tələt paşa burada türk təşkilatı olduğunu bilmiş, bizlə görüşmək istəmişdir.

Rüstəmbəy gülümsənərək fikrə daldı və birdən dedi:

– Sülh konfransında bizim işimiz varmı?.. Kimin səlahiyyəti ilə gedəcəyik?

Qulamrza dəyişilib:

– Sən məsləhət görmürsən? – deyə sordu. Rüstəmbəy sakit səslə:

– Məncə, lüzum yoxdur, – dedi və susdu. Bir az sonra:

– Brestdən vacib işimiz çoxdur. Ukrayna istiqlaliyyətə doğru yürüyür. İndi bizim təbəələrin himayəsini rəsmi bir orqana tapşırmalıdır.

Qulamrza Rüstəmbəyin fikrini anlamayaraq:

– Necə yəni? – deyə sordu.

– Səfarətxana təşkil etməli və səni də səfir sifəti ilə hökumətə tanıtmalı.

Qulamrza Rüstəmbəyin sözlərinə inanmayaraq qəhqəhə çəkib güldü:

– Canım, məni işə qoyma! – dedi.

Rüstəmbəy təkidlə:

– Çəkinəcək bir şey yoxdur; səfir ol, camaatı başına topla.

Qulamrzanı fikir götürdü.

36

Bir neçə gün sonra yerli qəzetlərdə qısa olaraq: "Xariciyyə sekretarı Azərbaycan səfirini qəbul etdi", – deyə yazılmışdı. Rüstəmbəy qəzeti büküb cibinə qoydu. İki gündən bəri yağan qar davam edirdi. Yel olmadığı üçün hava lətifdi. Rüstəmbəy nəşəli bir halda Kreşşatikə

doğru enirdi. Hər yerdə mağazaların rusca lövhələrini çıxarıb ukraynacasını asırdılar

Krımlı Əhməd əfəndi Rüstəmbəyə rast gəlib təzim etdi.

– İşlər fənadır, əfəndi, – deyə şikayətləndi. İrəliki gün bunun bir araba ununu həcz etmiş imişlər. Rüstəmbəy çörəkçini diqqətlə dinləyib dedi:

– Sabah komitəyə gəlin, kağız alın da, toxunmasınlar.

Rüstəmbəy məsələni Qulamrzaya bildirdi. Bütün tacirlər üçün kağızlar hazırlanıb paylandı. Sonra Qulamrza türk tələbələrinin maddi vəziyyətinin ağırlığından bəhs etdi.

– Axır vaxtlar işə də soyumuşlar, – dedi. – Çünki qarınları acdır.

Rüstəmbəy birdən səsini dəyişərək:

– Həsənoğlu gözümə görünmür, haradadır?

Qulamrza cürətsiz bir səslə:

– Burada yoxdur, – dedi və başını aşağı saldı.

Qulamrzanın vəziyyəti Rüstəmbəyi maraqlandırdı. Təkidlə:

– Doğrudan, haradadır?

Qulamrza qızararaq:

– Çox pulsuzlamışdı, saxarin alıb aparmışdır.

– Qafqazamı getmişdir?

– Zənn etməm. Don tərəf qarışıqdır, yolda qatarları soyurlar. Yəqin şimala getmişdir... Hər halda, bir yerdə satıb dönəcək.

Rüstəmbəy düşündü. Tələbənin qaçaqçılıq etməsi ona tühaf göründü. Dedi:

– Bir müsamirə düzəltməliyik. Zənn edirəm, on-on beş min toplanar.

Qulamrza Rüstəmbəyin fikrini təsvib edərək:

– İmranın bir yəhudi dostu var. Bu adam müsamirə düzəltməsi ilə məşhurdur. Xərcini də öhdələrinə götürürlər. Qazancı bölərik.

– Yaxşı. Sən danış, işə başlayaq.

Bu əsnada Müslüm gəlib çıxdı. İslanıb aşağıya doğru sallanmış bığlarını düzəldərək sobanın yanına keçdi.

– Qiyamətdir, – deyə əllərini qızdırmağa başladı. Rüstəmbəy ondan:

– Haradan belə? – deyə sordu.

– Radadan gəlirəm. İşlər xaraba bənzəyir: Ukraynaya qarşı bolşevik orduları hərəkət etmədə imiş. “Daxili işimizə qarışmayın”, – deyə verdikləri notadan bir şey çıxmır.

Rüstəmbəyi fikir götürdü. Qulamrza bir az sükutdan sonra:

– Yanı, dava olar? – deyə Rüstəmbəyin üzünə baxdı. Rüstəmbəy ciddi sima ilə:

– Davaya ehtiyac varmı? Bolşeviklər qarşıdakılarını içindən əridirlər. Bir də görəcəksən Ukrayna ordusu çökdü; çünki bolşeviklərin meydana atdığı şüarlara qarşı deyiləcək bir söz ola bilməz: aydın, gözəl! Yalnız dövləti ənənəyə malik, qatı milli hissi olan bir millət, zənnimcə, müqavimət göstərə bilər.

Müslüm əlini-əlinə sürtərək güldü:

– Siz öləsiniz, – dedi, – kişilər yaman adamdırlar! Əvvəl gözə görünməyib sonra bir də yerdən qaynayır, göydən yağır, aləm bolşevikə dönür.

Qulamrza da zarafata başlayıb:

– Yəqin, çin deyilən bunlardır, – dedi.

Müslüm:

– Cin də bunlardan qorxur!

Rüstəmbəy ciddi simasını dəyişməyərək:

– Bolşevikliyi doğuran şərait çoxdur, – deyə yerindən qalxdı.

## 37

Bolşevik-Ukrayna münasibəti gərginləşərək, kəskin bir şəkil almışdı. Yeni qurulmuş dövlət idarəsi yavaş-yavaş çözülür; ordu pozulub dağılmada idi. Terror başlamışdı: bolşevikliyə mənsub mühüm simalar oğurlanıb öldürülürdü... Nəhayət, gizli mücadilələr açıq bir şəkil aldı: iki tərəf də silaha sarılıb küçələrdə vuruşmağa başladı.

Rüstəmbəy iki gündü otağında oturub hadisələri pəncərəsindən seyr edirdi. Zahirən bir-birindən ayrılmayan, ikisi də əsgər, yaxud sivil geyimli adamlar biri digərini təqib edərək öldürür. Atışma səsindən qulaq tutulur. Evlərin içəri pilləkənlərinə toplanan kirəçilər min bir şayiə yayırdılar:

– Bolşeviklər hökumət binasını almışdır.

– Ukraynalılar məktəbi səngər edən yüzlərcə bolşevikləri qırmışlar.

– Ölüləri toplamaq üçün mütarikə olmuşdur...

Qapıdan başlarını dışarıya göstərməyə belə cəsarət etməyən bu adamlar bir saat sonra yeni xəbərlər söyləməyə başlayırdılar...

Rüstəmbəy darıxırdı. Oxumağa həvəsi qalmamışdı. Otaq ona zindan kəsilmişdi.

Axşama yaxın atışma bitdi. İki gündən bəri evlərdə qapanan xalq küçələrə səpildi. Rüstəmbəy də çıxdı. Şəhərdə bolşeviklərin sakin olunması duyuldu.

Rüstəmbəy haman Qulamrzanın yanına qoşdu. Bəzi küçələrdə səngərlər yapılmışdı. Xalq qaynaşmada idi. Əlləri vedrəli su arayanlar, çörək dalınca qoşanlar ötüb keçmədə idi. Ara-sıra Ukrayna əsgərləri tərəfindən həbs olunmuş işçilər gözə çarpırdı. Sərt və inad baxışları ilə ətrafdakıları süzərək, güllələnməyə gedirdilər...

Bunları seyr edən Rüstəmbəyin dərunində yenə şübhələr qaynaşmağa başladı. İnsan qanı tökülməsi onda ikrah hissi oyatdı. "Bu vəhşətlərə lüzum varmı?" – deyə düşündü və önündəki məfkurə zənn etdiyi parlaq ulduz sislərə batdı.

## 38

Komitə üzvləri bir yerə toplanaraq söhbətə məşğuldular. Nədənsə hamı nəşəli idi: ciddi danışıqdan çox zarafat meydan almada idi.

Müslüm:

– Görəsən, Mametoviç necə oldu? – deyə fırlatdı.

– Yəqin, bir xəlvətdə gizlənib məqam güdür.

Rüstəmbəy:

– Mametoviç zamanı deyil. Hadisələr min Mametoviç kimi zabitləri yuyub aparır.

Həqqi:

– Bizim müsamirə də Mametoviçin yanına getdi, – deyə qəhqəhə ilə güldü.

Qulamrza kibrit ucuna pambıq dolayıb, qulağını qurdalayaraq:

– Pir olmuş, – dedi, – xalq bir-birini qırır, sən də toy axtarırsan. Bu gün-sabah bolşeviklər gələcək, Qulu bizə elə bir "müsamirə" düzəldəcək ki, dadı qiyamətə qədər damağımızdan getməyəcək.

Qulamrzanın zarafatı Rüstəmbəyi ciddi olaraq məşğul etdi. Qulunun komitə üzvlərinə qarşı kin bəslədiyini nəzərə alaraq dedi:

– Doğrudan, uşaqlar, Qulu bizə xətər yetirəcək. Bunu bilməliyik. O ən kirli vasitələrdən belə istifadə edəcək...

Qulu məsələsi bir müddət yoldaşları məşğul etdi. Bir çox mülahizələr yürüdüldü. Nəhayət, məsələ yenə zarafatla bitdi.

Qulamrza:

– Ukraynalıların basıldığını duyar-duymaz, yığışıb Qulunun yanına gedərik, bir-iki də tüfəng peşkəş apararıq, – deyə qulağını qurdaladı.

Həqqi ayağını ayağının üstə mindirib:

– Mənim xətrimi istəyir, – dedi, – sizi barışdıraram.

– Barışan ilan deyil!..

Rüstəmbəy ciddi bir hal alaraq, zarafata xitam verdi:

– Yoldaşlar, – dedi, – cari məsələlərimiz qaldı. Qulamrza haman kağızı götürüb masanın yanında yerləşdi. Rüstəmbəy qeyd etdiyi məsələləri oxuyub:.

– Əlavəniz yoxdur ki? – deyə sordu. Həqqi zəif səslə:

– Şəhər mühasirə halı alır. Yabançı adamları şəhərdən çıxarırlar. Necə olacağımızı düşünməliyik. Daha bundan böyük məsələ ola bilərmi?

Rüstəmbəy sakit bir halda:

– Onu danışacağıq, – dedi və sonra əlavə olmadığını bilib:

– Yoldaşlar, – dedi, – siyasi vəziyyət olduqca incədir. Xarkov alınmış və orada Ukrayna bolşevik hökuməti qurulmuşdur. Görünür, bolşevik orduları Kiyevə doğru yürümədədir. Çarpışma olacaq. Milli hökumət buna hazırlanmalıdır; düzülən batareyaları görmüsünüz. Vəzifəmiz bu qarışıqlıqdan salamat qurtarmaqdır. Bu günün məsələsi şəhəri təmizləyən komitəyə nümayəndə göndərməkdir...

Qulamrza Rüstəmbəyin sözlərini kəsərək:

– Nümayəndənin vəzifəsi nə olacaq? – deyə sordu.

– Vəzifəsi səndə adları qeyd olunan qafqazlılara vəsiqə almaq. Bilirsən ki, əlində Ukrayna vəsiqəsi olmayanları tutub sürəcəklər.

Müzakirə edib, Rüstəmbəyi nümayəndə seçdilər. Sonra kiçik məsələlərin həlli ilə uğraşmağa başlandı.

## 39

Toplar nərildəyir, arabir mərmilər partlayaraq, ətrafı titrədirdi. Rüstəmbəy bu ölüm saçan gurultunu eşitməz olmuşdu. Neçə günlük işsizlikdən o yenə dəruni aləminə dalaraq böhran keçirmədə idi. Tən-

halıq hissi, ümidsizlik, acı şübhələr dumanlanaraq mənəvi üfüqlərdə dolaşmada idi. Varlığı aşağılara doğru sürükləyən bu duyğuya qarşı heç bir qüvvə təsəvvür edə bilmirdi.

Otağı sabahdan axşama qədər dolaşıb, yorulub oturur; kitablarını birər-birər açır, qapayıb nifrətlə atır; çarpayının üzərində uzanır, düşünməyə çalışır. Nəbzinin vurmasını duyur, sayır. Daima eyni ritm, eyni çarpıntı onda tühaf mülahizələr oyadır: "İştə həyat, iştə tarix, iştə əbədiyyət – daima eyni çarpıntı, təkərrür edək eyni ritm. Tarix-təkərrür dairəsində fırlanan əzəli və əbədi bir çarx; bu gün vaqe olan hadisələr təkrar-təkrar olmuş və təkrar-təkrar olacaq. İnsan, yeni deyə, bu hadisələrə qapılıb ölür, öldürür... Yox, bu hadisələr yeni deyil; insan aldanır..."

Rüstəmbəy mülahizələrinə davam edərək, bəşər tarixinin məntiqsizliyinə qarşı üsyan edib, nisyan boşluqlarında gizlənməyə çalışırdı. Sofi əbasına bürünərək, ana dənizə qovuşmaq istəyir... Lakin heç bir fəlsəfə onu qane edə bilmir. Böhran yenə haman böhran!..

Rüstəmbəy geyinib çıxdı. Küçələr boşdu; top nəriltisindən başqa bir şey eşidilmirdi. Daim laqeyd və təğyirsiz təbiət yenə öz işində idi – qar tökür, ağ geyinmiş ağaclar xortlamış ölüləri andırırdı. Hərdənbir havadan uçan mərmi ilan kimi mələyirdi. Bir az sonra patıltı qopur, şrapnel səpilirdi... Rüstəmbəyin dəruni acıları ölümlərə ölüm saçırdı. O heç bir təhlükədən çəkinməyərək, qəbiristan xiyabanlarını xatırladan küçələri dolaşa-dolaşa Qulamrza yaşayan evə doğru getdi.

## 40

Evin şüşələrinin sınıb qaldırımın üstə səpilməsi Rüstəmbəyi ayıltdı. Divarın ortasında mərmi böyük bir dəlik açmışdı. Rüstəmbəy pilləkənlə qalxıb, qapıları qapalı gördü: evi tərk etmişdilər. Geri döndü. Qonşu evləri yoxladı. Eyni halın şahidi oldu. Zirzəmilərdən birində gurultu duyulurdu. Aşağı endi. Adam-adama söykənərək, bir-iki xırda otağı doldurmuşdu. Rüstəmbəy başını otağa salıb zənlə baxdıqda:

– Rüstəmbəy! Rüstəmbəy! – deyə onu tanış səs qarşıladı.

Qulamrza və Sayad bacı yerlərindən qalxıb, ona doğru gəldilər. Sayad bacı görüşüb məsələni anlatdıqda:

– Canım, – dedi, – bu vurhavurda evdən çıxılarmı? Rüstəmbəyin dodaqlarında oynayan məsum təbəssüm bütün bədbini cizgiləri sildi:

– Darıxdım... Sizdən də çox nigarandım...

Sayad bacı mütəşəkkir bir sevinclə:

– Yaxşı ki, sizə heç bir şey olmayıb. Bilirsiniz, çox qorxuludur.

Rüstəmbəy çox düşünmədən:

– Bura narahatdır, bizə gedək, – dedi.

Qulamrza əlini-əlinə vurub güldü:

– Əşi, qəribə adamsan! Canım, yazığıq, xərc çəkib yenicə evlənmişik... – dedi və Sayadın boynunu qucaqladı.

Sayad bacı Qulamrzanın əlini özündən uzaqlaşdıraraq:

– Dinc dur bircə! – dedi. Sonra Rüstəmbəyə yönələrək: – Gəlin, bir az unumuz vardı, burada biş-düş maşınında çörək bişirib yeyirik. Gəlin, sizi də qonaq edək.

Rüstəmbəy adamları yararaq, keçib dar bir yerə sığındı.

Otaq tərəkəmə köçü halında idi: böyüklərin acıqlı səsi körpələrin mələşməsinə qarışmışdı; bir tərəfdə əski yuyulur, o tərəfdə qazan qaynayırdı. Kirli çocuqlar döşəmənin üzərinə səpilib, kimi yatır, kimi oynayırdı. Fəna qoxu ürək bulandırırdı.

41

Rüstəmbəyi geri buraxmadılar. İki gecə burada soyunmadan keçirdi. Üçüncü gecə atışma səsi kəsildi. Şəhərdə dəyişiklik olduğunu hər kəs duydu. Oradakı xidmətçi qızların sevincindən bolşeviklərin qələbə çalması sezilirdi.

O biri səhər küçədəki gediş-gəliş səsi hamını erkən ayıltdı. Çıxdılar.

– Bolşeviklər! Bolşeviklər! – deyə eşidilən səslərin bəzisində yas duyulur, bəzisi ümid və səadət doğururdu.

Rüstəmbəy Qulamrzanın qolunu sıxıb yavaş səslə:

– Durmaq yeri deyil. Evdəki kağızları yandırmaq lazımdır. Yəqin, Qulu fitnələrə başladı.

Bir dəqiqə qaib etməyib, Qulamrzanın otağına çıxdılar. Pəncərələrin şüşələri sınmışdı. Masanın qutusunu açıb, kağızları cəld gözdən keçirdilər. Bir dəqiqə sonra, komitənin protokolları, möhrü və bir çox vəsiqələr sobaya doldurulub yakıldı.

– İndi şüşələri təmir etmək lazımdır, – deyə Qulamrza un islatmağa başladı. Qəzetləri kəsib şüşələrə yapışdırdılar.

– Evi də istiləndirməli, – deyə Rüstəmbəy küncə toplanmış odunlara tərəf yönəldi. Sobanı yakdılar. Ancaq əllərini yumağa su tapmadılar – su yolları pozulmuşdu. Bu məsələni də Sayad bacı təsviyə etdi: enib həyətdən bir vedrə qar gətirdi. Bunu sobanın yanında əridib yuyundular.

Rüstəmbəy şəhərə çıxmalarını məsləhət gördü:

– Evdə oturmaqdan xata çıxar. Gedək, görək şəhərdə nə var. Köhnə pasportlarımızı yanımızda saxlamalıyıq, orada kim olduğumuz bəlli deyildir. Bir də indi axtarılan adamlar Ukrayna milli hərəkatına mənsub olanlardır. Bizlə işləri olmaz.

Sayad bacını evdə qoyub çıxdılar.

Şəhər başdan-başa silahlı adamlarla dolu idi. Neçə gündən bəri evlərdə bəst keçirən əhali də küçələrə səpilmişdi; lakin o şıq geyimlər, xəz tuluplar, lətif şlyapalar görünməz olmuşdu. Hər kəs özünü yoxsul qiyafəsinə salmağa çalışmışdı. Rüstəmbəyin həmişə küçələrdə rast gəldiyi zabitlər çinlərini açıb şapkalarına texnik nişanı yapışdırmışdılar.

Bolşeviklər şübhəli zənn etdikləri adamları durdurub vəsiqə tələb edirdilər. Rüstəmbəylə Qulamrzanı da bir neçə dəfə dayandırdılar.

42

– Qulamrza, sən evə get, gör nə var. Sonra krımlı Əhməd əfəndinin qəhvəxanasına gəl, məni gözlə. Mən də bir saatlığa evə dəyəcəyəm.

Qulamrza bir az düşündü və sonra:

– Nə var, Rüstəmbəy? Yoxsa bir şeydən ehtiyat edirsən?

– Ehtiyat ki... hər halda ehtiyat lazımdır. Vəziyyətimizi rəsmən aydınlaşdıranacan evə gəlməmizi məsləhət görmürəm.

Qulamrza məsələni qavramayan bir tərzdə:

– Ev qorxulumu?

– Qulu adres verə bilər, bu qarışıqlıqda batıb gedərik. Bu saat acıq və intiqam hissi gözləri pərdələmişdir.

Yoldaşlar ayrıldılar.

Rüstəmbəy evə gəlib, heç bir dəyişiklik görmədi. Yalnız ev xanımının rahatsız olduğunu duydu.

Birinci sırada kağızlarını arayıb, şübhəlilərini yandırdı. Sonra camaşırını dəyişib yuyundu. Bu əsnada qapı açılıb, içəri tüfəngli bir işçi ilə iki əsgər girdi.

– Silah varmı? – deyə axtarışa başladılar. Bu sahədə təcrübəsizliklərini göstərdilər.

Rüstəmbəy bunları ötürüb, üzünü qırxmağa yenicə oturmuşdu, ikinci bir dəstə içəri girdi. Rüstəmbəy qeyri-məmnun bir halda:

– Yoldaşlar, mandatınız varmı? – deyə sorduqda əsgərin biri acıqlı bir surətdə:

– Mandatımız budur! – deyə tüfəngin süngüsünü irəli uzatdı.

Rüstəmbəy səsinin tonunu dəyişərək:

– Qardaş, zarafat edirəm, axtara bilərsiniz, – dedi. Axtarış başlandı. Yenə əsgərlər eyni naşılığı göstərirdilər: başlıca olaraq silah arayırdılar; kitab və kağıza yaxın belə düşmürdülər.

Rüstəmbəy gözlərinin quyruğu ilə bunları süzərək, üzünü qırxmasında davam edirdi.

Əsgərlər oranı-buranı əlləşdirib qapıya doğru yönəldilər. Biri:

– Burada neçə otaq var?

– Dörd.

Əsgərlər bir-birinin üzünə baxıb nə düşündülərsə, o biri otaqları axtarmadan vaz keçib getdilər.

## 43

Rüstəmbəy cəld geyinib, otağın qapısını qapadı. Ev xanımı ilə görüşüb dedi:

– Mən gedirəm, işim var. Bir neçə gün gəlməyə bilərəm, rahatsız olmayın. Məni sorsalar, burada yoxdur – deyərsiniz.

Xanım maraqlanıb sual vermək istədi, lakin Rüstəmbəy cavabdan çəkinərək getdi.

Pilləkəndən enərkən, iki əsgər qiyafəliyə rast gəldi. Bunlar qapıların nömrəsinə baxırdılar. Rüstəmbəyi görcək:

– Yoldaş, on səkkizinci mənzil hansıdır?

– Yuxarıdadır.

– Orda Rüstəmbəy adlı birisi yaşayırmı?

Rüstəmbəy özünü itirməyərək:

– Yaşayır... Saqqallı bir adammı?

Əsgərlər düşünərək:

– Saqqallı olduğunu bilmirik, – dedilər və tənbəl addımlarla diklәndilәr.

Rüstәmbәy:

– Demәli, Qulu çalışmağa başlayıb, – deyә sürәtli addımlarla enmәyә başladı.

Rüstәmbәy Qulamrzanı Әhmәd әfәndinin mәnzilindә buldu. Әhmәd әfәndi rus qadını ilә qarşı-qarşıya oturub, qәhvә içmәdә idi. Rüstәmbәyin gәlmәsinә Әhmәd әfәndi heç dә әhәmiyyәt vermәdi. Burada adam yox imiş kimi, arvadı ilә danışır, qonaqlara qәhvә belә tәklif etmirdi. Qulamrza Rüstәmbәyi böyük otağın bir guşәsinә çәkib:

– Görürsәn, nә soyuq köpәk oğludur? – deyә şikayәtlәndi. – Biz lazım olanda necә әtrafımıza dolanırdı. Neçә dәfә ununu hәczdәn qurtardıq...

Rüstәmbәy mәyus bir halda:

– Onlardan keçib. İnsanın üzü dönük olar, demişlәr. Başımıza çarә qılmaq lazımdır, çünki bu gecә daldalanmağa yerimiz yoxdur.

Qulamrza düşündü. Uzun müddәt sakitlik keçdi. Arabir Әhmәd әfәndi gülür vә ya qәhvә fincanını şıqqıldadırdı. Rüstәmbәy bu zәngin krımlını süzәrәk:

– Bilirsәn, – dedi, – bu adamın özü dә bizi әlә verәr. Tacirlәrin dini, mәzhәbi olmaz.

Qulamrza acı bir qәhqәhә ilә güldü. Rüstәmbәy dә gülümsünüb dedi:

– Gәl şәhәr mühafizinin yanına gedәk. Nә olacaq-olsun; başqa çarәmiz yoxdur.

– Әşi tutar, güllәlәdәr. Dәli şeylәrdir.

– Heç bir şey olmaz. Gedәk.

– Gedәk, nә deyәk?

– Söz tapılar.

Rüstәmbәy Әhmәd әfәndiyә bir söz demәyәrәk, otağı tәrk etdi. Qulamrza da tәrәddüdlü addımlarla onu izlәdi.

Qonaqların otaqdan çıxması Әhmәd әfәndinin hal vә vәziyyәtindә heç bir dәyişiklik doğurmadı. Yenә әvvәlki kimi arvadına bir şeylәr anladıb, arabir qәhqәhә ilә gülürdü.

Mühafizin qəbul otağı adamla dolu idi. Əsgəri libaslılar girib-çıxır, bərkdən danışır, əmrlər verirdilər. Şəhərin cürbəcür təşkilatları tərəfindən göndərilmiş nümayəndələr orada-burada toplanıb yavaş səslə danışırdılar. Papiros tüstüsü havada lay-lay durmuşdu.

Rüstəmbəylə Qulamrza içəri girdikdə əvvəl nə edəcəklərini bilmədilər. Sonra ətrafı süzərək, küncdəki masanın arxasında oturmuş bir gəncə müraciət etdilər.

– Yoldaş, – dedilər, – mühafizi görmək olarmı? Gənc mehriban bir səslə:

– Bu gün mühafiz burada yoxdur. Nə vaxt gələcəyi bəlli deyil... Sabah gəlsəniz yaxşı olar.

Gəncin mülayim səsi Rüstəmbəyin həyəcanını təskin etdi. O buraya böyük qorxu ilə gəlmişdi...

Küçəyə çıxdılar. Hava olduqca soyuqdu. Duruxub düşündülər.

– Sabaha qədər harada qalacağıq? – deyə Rüstəmbəy soruşdu. – İmranın yanı qorxuludur.

Qulamrza cavab olaraq onun üzünə baxdı, bir şey söyləmədi.

Düşüncəli bir halda yola davam etdilər. Birdən Qulamrzanın dodaqları təbəssümlə parladı:

– Rüstəmbəy, – dedi, – Tapdığın yanına gedək.

– Tapdıq kimdir?

– Pah! Burada bir Tapdıq var. Qəribə adamdır. Neçə ildir buradadır. Peşəsi lotuluqdur. Üç ay əvvəl məni evinə qonaq aparmışdı. Özü də Podolda olur.

Rüstəmbəy heyrətlə:

– Balam, hardan-hara? Deməzmi, nə münasibətlə?

Qulamrza sevinclə Rüstəmbəyin qoluna girdi.

– Əşi, o elə adam deyil. Gör necə razı olacaq.

Rüstəmbəy istər-istəməz yola düşdü.

Tapdıq Podolun ən qarışıq və kirli bir küçəsində yaşayırdı. Alçaq qapını döydülər, uzunsaqqal, qara ləbbadəli bir yəhudi bunları qarşılayıb, fəna qoxulu bir koridora götürdü. Səsə sol tərəfdəki, üzərinə keçə çalınmış qapı açıldı, qara sifət, iri burunlu bir baş göründü.

Tapdıq:

– Buyurun, buyurun! – sözləri ilə qonaqları xırda, qaranlıq və rütubət qoxulu otağına aldı.

Pinti geyinmiş, üzünü tük basmış Tapdıq hər sözündən nəzakət yağdıraraq:

– Məni bağışlayın, mənə xəcalət verdiniz, – deyə kirli yatağının üstündə yer göstərdi.

Oturdular.

Rüstəmbəy otağı gözdən keçirdi. Divardan iplə asılmış rəfdə toz basmış süni çiçəklər qoyulmuşdu; divarlara cürbəcür şəkillər vurulmuşdu: burada çılpaq qadınlarla bərabər Səttar xanın şəkli də asılmışdı. Xırda pəncərənin pərdəsi darçını ləkələrlə dolu idi.

Tapdıq Rüstəmbəyin otağı seyr etməsini görərək:

– Qulamrza, daha sən məni tanıyırsan. Ancaq... yoldaşının yanında başıaşağı oldum.

Sözlərini qurtarıb, məhcub bir təbəssümlə Rüstəmbəyin üzünə baxdı:

– Bağışlayın, dərvişlikdir, – dedi. – Mənim atam Qafqazda bir kişidir. Dövlətli də olmasa, özünə görə varı var. Kağız yazır ki, gəl, getmirəm... Mən də belə dəliyəm.

Rüstəmbəy:

– Zərər yoxdur, – dedi. – İnsanların hərəsi bir cür dəlidir.

– Cahıllıqdır... Dalını düşünmürəm... Əh, beş gün dünya deyilmi? Harada xoş keçir, orada yaşa.

Qulamrza əlini boğazına uzadaraq:

– Tapdıq, – dedi, – mən ölüm, siçan davası satdığını bir nağıl elə.

Tapdıq cavab verməkdən çəkinib, gözlərini yerə dikmişdi.

Qulamrza gülə-gülə:

– Rüstəmbəy, bir gün Tapdığın pulu qurtarır. Ha düşünür, bir çarə tapa bilmir. Deyir, gəldim evə, çörəyin içini çıxarıb, ondan həblər qayırıb bazara apardım. "Siçan davası, siçan davası!" – deyə çığırır. Podol bir yerdir ki, camaat siçanın əlindən zardır. Tökülüb həbbin birini bir abbasıya göydə götürürlər.

Qulamrza nağıl etdikcə Tapdıq utanıb qızarırdı. Axırda durub koridora çıxdı.

Tapdığın olmamasından istifadə edərək, Qulamrza onun macəralarını Rüstəmbəyə anlatdı.

Rüstəmbəy zarafatla:

– Canım, – dedi, – məni haraya gətirdin? Gecə durar bizi öldürər.

– Yox. Hər kəsi dolandırar. Amma qonağa xəyanət eləməz. Bu xəspuşların qəribə xasiyyəti var: duz-çörəyə xəyanət etməzlər. İndi bax gör bizə nə hörmət edəcək. Ölümə göndərsək gedər.

Rüstəmbəy heyrətli gözləri ilə otağın təkrar seyrinə daldı:

– Qulamrza, – dedi, – xəspuş da olsa, məslək sahibinə bənzəyir. Bax, bunun da özünəməxsus bir hüsni-təvəccöhü var... Səttar xanın rəsmini görürsənmi? Düşünmüş də, şahın deyil, Səttar xanın rəsmini asmış.

Bu əsnada qapı açıldı. Tapdığın məhcub siması göründü.

## 45

Naharı ev sahiblərinin yemək otağında etdilər: quru balıqla kolbasa yedilər. Tapdıq ət tapmadığı üçün:

– Bağışlayın, – dedi, – sizin yanınızda xəcalətli oldum. Nə edim, başqa bir zaman gəlmədiniz. Bildir əlimə Məkkəyə gedən bir-iki tatar keçmişdi. Bilirsiniz, kefim necə kökdü. Ey! Nə vaxtlar vardı! Studentlər inqilab salıb aləmi dağıtdılar.

“Student” sözünü deyərkən Tapdıq qonaqlarının üzünə məna ilə baxıb, zarafat etdiyini duydurdu.

Yeməkdən sonra yenə Tapdığın otağına çəkildilər. Qulamrza düşüncəli idi:

– Tapdıq, – dedi, – Sayaddan nigaranam. Get, bir xəbər gətir.

Tapdıq əlini başına tərəf qaldırıb:

– Gözüm üstə! Kağız yazsan yaxşı olar, – deyib Qulamrzanın üzünə baxdı və fikrinin təsvib olunmasını duyaraq, haman taxtın altındakı taxta sandığı irəli çəkdi. – Kağız tapılar... məni bir o qədər də avam bilməyiniz.

Tapdıq bir dəstə yıpranmış kitabçaların arasından bir parça kirli və əzik kağız götürüb Qulamrzaya verdi:

– Konvertim yoxdur, bağışlayın, – dedi. – Kağız yazmağı sevmirəm. Alın, kitab da verim. Oxuyun, yoxsa darıxarsınız. Bildir kefim kök olanda, axşamlar bu kitabları oxurdum... Ey!.. Nə vaxtlar vardı!..

Tapdıq köksünü ötürərək, Nat Pinkertonun macəralarına dair bir-iki kitabça çıxardı:

– Qəribə nağıllardır. Çox idi, ev xanımına verdim, ondan da tanışları aparmışdır.. Yaxşı kitab olduğu üçün cibişdana saldılar getdi... Mən də istəmədim... Bilirsiniz, dilim gödəkdir; birdən bir il otaq kirayəsi vermirəm. Əl həmişə dolu olmur. Dədəmizdən pul qalmayıb, sənətimiz də ki, yoxdur...

Tapdıq Rüstəmbəyə alışaraq uzun-uzadı danışdı. Qulamrza da məktubu bitirib verdi. Rüstəmbəy:

– Tapdıq, – dedi, – bizim evdən də xəbər gətirərsənmi? Tapdıq müti bir əsgər kimi:

– Baş üstə! Gətirərəm... adres ver də.

Tapdıq lazımi məlumat aldıqdan sonra qırağı getmiş dəri papağını başına basıb, qızartdaq yapıncısını çiyninə salaraq:

– Bilirsiniz, bu yapıncının altında bu il İmrana nə, qədər tüfəng daşımışam. Arsenalda bir zabit var, yüzəcən tüfəng satmışdı. Bir dəfə bir çamadan naqan gətirdim. Zəhrimar nəfəsimi kəsdi... Xülasə, Allah yetirir... Görək yoldaşlardan nə qazanacağıq.

## 46

Tapdığın geri dönməsi bir neçə saat çəkdi. Tramvay işləmədiyi üçün uzun yolu piyada gedib gəlmişdi. Yapıncını yerə qoyar-qoymaz:

– Axtarıb itirən yoxdur. Salamatlıqdır. Hərənizə bir məktub gətirdim, – dedi. Rüstəmbəy ev xanımından və Qulamrza da Sayaddan gələn məktubları cəld oxuyub sakit oldular. Axtarış bir daha olmamışdı. Yalnız bir əsgər Rüstəmbəyi soruşub getmiş imiş.

Tapdıq istehza ilə gülərək:

– İndi, yoldaşlar, – dedi, – axşam düşüb. Balıq-çörəyimizi yeyək, siz yatmaqda olun, mən də qarovula gedim. Bizim ev komitəsinin sədri yaman adamdır, qarovula çıxmayanın atasını yandırır.

Qulamrza:

– Saat neçəyə qədər qarovul çəkəcəksən? – deyə sordu.

– Düz sabaha qədər. Evin qabağında o yana get, bu yana get...

Birdən şən və laübali Tapdıq məhcub bir hal aldı:

– Vallah, – dedi, – Rüstəmbəydən xəcalətli oldum. Pis vaxtda gəldiniz. Mən ölüm, ölkə düzəlsin, mənə əməlli-başlı bir qonaq gəlin.

– Əşi, zərər yoxdur. O qədər görüşəcəyik ki.

– Qorxuram bu kasıb Tapdığı yaddan çıxarasınız.

– Yox, çıxarmarıq.

– Vallah, ölümə göndərsəniz gedərəm. Mən sizin nökərinizəm, həmişə kiçiyinizəm; nə əmriniz olsa, buyurun.

– Qardaşsan.

– Balıq-çörəklə qardaşlıq olarmı? Mən sizə gərək ayrı cür qulluq edəydim...

Qonaqlar çox məmnun olduqlarını söyləyərək, Tapdığa təşəkkür etdilər.

Buna baxmayaraq, Tapdıq yenə məhcub bir tövrlə onları yemək masasına dəvət etdi.

Yeməkdə qoca yəhudi ilə arvadı da iştirak etdi. Masanın üzərinə solğun və şil-küt boşqablar, axsaq cəngəl-bıçaqlar düzülmüşdü. Quru balıq təmizlənib qoyulmuşdu. Qara çörəklə bərabər bir-iki də ağ bulka vardı. Samovar küncdə pıqqıldayırdı. Qadın təskinlik verərək:

– Tapdıq Makarıç çox məhcub olur. O, qonağı çox sevər. Ancaq ət tapa bilmədi. Deyirəm, Tapdıq Makarıç, zərər yoxdur, yoldaş Lenin inqilab düzəltdi, bərabərlik elan etdi. İndi hamı müsavidir. Bundan sonra məmləkət üçün hamı çalışacaq, işlər düzələcək. Bilirsiniz, çar zamanı yaşamaq necə çətindi? Ətrafdakı yəhudilərin bu şəhərdə yaşamağa haqları yoxdu. Bir dəfə həkimə bir xəstə gətirmişdilər. Üç gün bizdə gizli yaşadı. Axırda polis duyub – sürdü və bizi də yüz manat cərimə etdi. Xəstə yəhudi yolda ölmüşdü. Nə zülmlər olurdu! İndi yoldaş Lenin yəhudilərin insan haqqını qaytardı.

Tapdıq ev xanımının sözlərini təsdiq edərək:

– Yəhudilərin dükan açmağa da ixtiyarları yoxdu. Birisi mənim adıma açmışdı.

Tapdıq birdən Rüstəmbəyə yönələrək türkcə:

– Yəhudilərə "pis" deyirlər. Amma mən bunlardan pislik görmədim: özləri qazanan kimi, başqasını da qazandırırlar. Bizim müsəlmandakı paxıllıq, ayaqdan çəkmə bunlarda yoxdur. Bilirsən, bunlar bir-birinin əlindən necə tuturlar. Bizim müsəlman köpək oğlu adamı boğmaq istəyir. Vallah, vətənimdən bunun üçün baş götürüb gəlmişəm...

Bu əsnada qapı döyüldü. Qoca yəhudi qalxıb getdi.

– Qarovula gəlin, – deyə qapıdan səs eşidildi. Tapdıq yerindən:

– Gəlirəm! Gəlirəm! Bu saat!

Qadın Tapdığa çay tökdü və şirni qabını ona tərəf itələdi.

– Tapdıq Makarıç, iç, – dedi, – hava soyuqdur. Tapdıq çayı nəlbəkiyə töküb içdi və sonra küncdəki tüfəngi götürüb geyinməyə getdi. Qadın onun arxasınca:

– Tapdıq Makarıç, boynuna başlıq dola, şaxta bərkdir, donarsan, – dedi və söhbətə davam etdi.

## 47

O biri gün də mühafizi idarədə tapmadılar. Bir saat gözləmək icab etdi. Bir də:

– O, Rüstəmbəy! – deyə səs gəldi.

Rüstəmbəy ona tərəf yönələn əsgəri libaslıya baxaraq:

– Vanya, siz burada nə gəzirsiniz? – deyə ayağa qalxdı. Öpüşdülər.

Vanyanın Kiyev mühafizi olduğu meydana çıxdı. Vanya yoldaşını və Qulamrzanı otağına qəbul etdi.

– Canım, nə münasibətlə? Mən sizi Qafqazda bilirdim.

– Yollar xarabdır, getmək mümkün deyil. Vanya ciddi və mətanətli səslə:

– Yaxında açarıq. Don hövzəsi əlimizdədir. Yalnız Şimali Qafqaz xarabdır, ora da düzələr.

Kabinənin hər dəqiqə qapısı açılır, cürbəcür adamlar girib, sadə bir tərzdə danışır, raport söyləyir, kağız imzaladırdı. Vanya adi mehribanlığı ilə hər kəsi qarşılayır və eyni zamanda da Rüstəmbəylə zarafatlaşır və arabir cəbhə həyatını xatırladırdı.

Nəhayət, Rüstəmbəy qafqazlıları himayə məsələsini açdı:

– Bu kəskin mübarizə zamanı bizlərə də xətər yetməsindən qorxuruq, – dedi. – Vuruşma ilə şəhərə girən əsgər acıqmış, bir çox hadisələr baş vermiş və verməkdədir...

Vanya onun sözlərini kəsərək:

– Hərb əsnasında hadisələrin olması təbiidir, – dedi. – Düşmən bizə qarşı rəhm göstərdimi? Yüzdən yuxarı gizli meyit tapmışıq. Bunlar həp dəzgahdan ayrılıb zülmlə öldürülmüş işçilərdir... Mühasirədə az-

mı qırıldıq?.. Biz də sinif düşmənimizə qarşı amansızıq. Onları sağ buraxsaq, imkan bulub bizi təpələrlər...

Vanyanın mehriban üzü sərt bir şəkil almışdı. Gözləri kin saçırdı. Rüstəmbəy sakit dinləyirdi. Qulamrzanın canına qorxu çökmüş, gəldiyinə belə peşmandı.

Vanya bir-iki kağıza imza atıb sakit oldu. Rüstəmbəy təkrar məsələyə döndü. Vanya qəti:

– Kimsə sizlərə toxuna bilməz! – dedi. – Bu saat əmr verərəm.

Vanya dediyini haman həyata keçirdi; katibini çağırıb əmr yazmasını söylədi.

Rüstəmbəy və Qulamrza sakit oldular.

– Başqa işiniz də olsa, gəlib mənə deyərsiniz, – deyə Rüstəmbəyin üzünə baxdı. Rüstəmbəy ayağa qalxaraq:

– Sağ olun, – deyib çıxdı.

## 48

Milli komitə buraxılmış və üzvlərin hərəsi gündəlik çörəyini təmin etmək üçün bir yerə işə girmişdi. Bir-biri ilə görüşmək imkanı belə qalmamışdı. Rüstəmbəy fəaliyyətsizlikdən yenə dəruni aləmi ilə məşğul idi. Bir neçə ildən bəriki həyatını təhlil edərək, onun quruluşunda uyğunsuzluqlar görüb əsəbiləşirdi. Atdığı bütün addımlar ona yanlış görünürdü. Özünü uzun təhlil və tənqiddən sonra, ağlın səadət verici qabiliyyətinə inanmamağa başlayırdı. Ona belə gəlirdi ki, hiss ağıldan daha ötgün bir qüvvədir. “Ağıl, – deyirdi, – irəlini təyin etməyə qalxışan bir qüvvədir. İradə hürr olmadığı üçün ağıl daim qaranlıqda sürünür və ələləksər insanı çıxılmaz nöqtələrə sövq edir. Duyğu isə təbii bir axındır. Təbiət çağırışını əks etdirən bu qüvvə ruha sükut, yaşayışa müvazinət bəxş edir...”

Belə mühakimələrdən sonra Rüstəmbəy hissə qapılıb, orada boşluq və sərt bir acılıq duyur, əzab çəkirdi. Bu dəqiqələr Musyanın kölgəsi onun ətrafına fırlanaraq, dəruni müvazinətini pozurdu. Bəzən cəhənnəmi əzablar çəkir, ruhunun hər tərəfindən dəliklər açılıb içəri acılar və kədərlər axırdı. Tənhalıq hissi onu boğurdu.

Dərdini unutmaq üçün Rüstəmbəy evdən qaçır, saatlarca küçələri dolaşıb yorulur. Enerjisi söndükdən sonra böhranı təskin olurdu.

Bir gün yenə evdən qaçmış, şəhərin kənar küçələrindən uzaqlaşaraq, qəbiristana doğru gedirdi.

Ətraf qarla örtülmüşdüsə də, hava sakit və xoşdu. Sallaq budaqlı ağ qovaqlar qərib yolçuları andırırdı. Hər yer sakit və kədərlə dolu idi. Qəbiristan darvazasından keçdi. Ətrafı tənha məzarlarla əhatə olmuş xiyabanla yürüdü. Kimsə yoxdu. Ürək çarpıntısından başqa bir şey eşidilmirdi.

Sağa tərəf döndü. Qırx addımlıq bir məsafədə çiçəklər döşənmiş təzə bir qəbir üstə sadə kürklü bir qız çöküb ağlayırdı.

Rüstəmbəy yavıqlaşdı. Qızın həzin səsi onu düşüncədən ayırdı... Əvvəl gözlərinə inanmadı. Sonra;

– Olesya! Sizsiniz? – deyə cəsarətsiz addımlarla irəlilədi.

– Ölən kimdir?

– Anam! Anam! – deyə qız hönkürtü ilə ağladı. Olesya ilə bərabər qəbrin o biri tərəfindən də Musyanın kədərli siması canlanmağa başladı. Ölüm yatağında uzanan bu gənc qızın ürəyindən qara qanlar axırdı.

Rüstəmbəy diz çökərək əlləri ilə gözlərini qapadı. Sel kimi axıtdığı göz yaşları duyduğu günahları yüngülləşdirməyə başladı.

49

Rüstəmbəyin ağlaması Olesyaya qəribə görünmüşdü. Qəbiristandan dönərkən bu sirri bilməyə çalışdı:

– Rüstəmbəy, çoxdan sizə rast gəlmədim, harada idiniz? – deyə sordu.

– Burada.

Olesya bir müddət danışmadı və gözlərinin yaşı hələ qurumamış bu adamı dərin düşüncə ilə süzdü. Sonra cəbhə macəralarını xatırlayaraq:

– Rüstəmbəy, – dedi, – cəbhə yadınızdadırmı? Ah, nə laqeyd vaxtlarımız vardı! Musya necə oldu? Xəbəriniz varmı?

Rüstəmbəy başını aşağı saldı kirpiklərinin arasına toplanan odlu damlaları dəsmalı ilə silib dedi:

– Musyanın sonu çox fəci oldu: özünü öldürdü. Olesya:

– Ah, nə deyirsiniz! – deyə içini çəkdi. Biz yazışırdıq, sonra bir aralıq Moskvaya getdim, daha ondan xəbərim olmadı... Yazıq!

Olesya heyfsilənərək ağladı.

– Rüstəmbəy, yəqin eşq məsələsidir... O sizi sevirdi... Rüstəmbəy qəti səslə:

– Mən Musyanın bu qədər hissə qapılacağını zənn etməzdim...

Rüstəmbəy məsələni ətraflı olaraq Olesyaya anlatdı və vicdan əzabı çəkdiyini də əlavə etdi.

– Olesya, – dedi, – bu acı hadisədən sonra dəruni müvazinətim tamamilə pozulmuşdur... Günahımı əfv etdirəcək heç bir şey təsəvvür edə bilmirəm... Yalnız gedib qəbrini ziyarət etmədə təsəlli arayıram.

– Getməkmi istəyirsiniz?

– Bəli, gedəcəyəm. Bunu özümə borc bilirəm.

Yenə sükut düşdü. Olesya təkrar Rüstəmbəyi süzdü; solmuş üzündə dərin əzab izləri vardı. Olesya ona acıdı və onun kədərlərini dağıtmaq üçün:

– Rüstəmbəy, qulluq edirsinizmi? – deyə sordu.

– Etmirəm. Ancaq qayıdandan sonra etmək fikrindəyəm. Vanya da buradadır, kömək edər, zənnindəyəm.

Olesya:

– Görüşdünüzmü? – deyə sevindi.

– Görüşdük.

– Neçə aydır bir yerdə çalışırıq. Ancaq mən arabir Kiyevə gedib-gəlirdim. Siz də qayıdın, yenə köhnə cəmiyyətimizi burada ehya edək... – Olesya bir az duruxub köksünü ötürdü: – Ah, Musyaya bədbəxtlik üz verməsə idi də! – deyə əlavə etdi.

## 50

Rüstəmbəy hazırlandı və yol xərci almaq üçün İmranın yanına getdi.

İmran hər bir təsadüfə qarşı mağazanın dəyərli mallarını daşıtmış və qəfəsələri boş buraxmışdı. Rüstəmbəy məsələni anlamayaraq:

– Ay İmran, – dedi, – dükan gözümə birtəhər görünür. İmran süni kədərlə:

– Allah mərdimazarın evini yıxsın: hər nə oldu səninlə mənə oldu.

Rüstəmbəy yenə anlamadı:

– Nə oldu ki?

– Nə olacaq, dünən gəlib malları apardılar. Sən verən pulların üstünə iki o qədər də qoyub şokoladla biskvit almışdım. Hamısı getdi... Kaş verməyəydin – pulun düşmədi, məni avara qoydun!..

Rüstəmbəy sakit və bir az da pərişan durub İmrana tamaşa edir, məqsədini anlatmağa belə cəsarət etmirdi. Bu halda Həsənoğlu gəldi. Bu da Rüstəmbəyi az tanıyan adam kimi, rəsmi salamla iktifa edib, mağazanın arxasına keçdi...

Rüstəmbəy bu adamlarla özünün arasında dərin bir uçurum olduğunu ilk dəfə olaraq anlayıb, ağır düşüncələrlə mağazanı tərk etdi.

O, laqeyd addımlar ataraq gedir və gedəcəyi yeri də kəsdirə bilmirdi. Musya məsələsinə bir də insanların həqiqi mahiyyətinə bələd ola bilməməsi əlavə olaraq əzabını bir qat daha artırmışdı. İndi İmran və Həsənoğlu bir tacir olaraq, riyakar, yalançı, özgənin haqqını danan bir halda təsəvvür olunub, onda nifrətlər oyadırdı. İmran Rüstəmbəyə yox, onun mövqeyinə, ondan gələ biləcək faydaya hörmət edirmiş... Rüstəmbəy keçmişləri birər-birər xatırlayır, Həsənoğlunun saxarin alış-verişi eləməsini yadına salıb, yeni "kəşfiyyat" əldə edir... Milli komitə yəqin bir pərdə imiş, kim bilir, bu pərdə arxasında daha nə rəzalətlər olurmuş!.. Bu bir firma imiş... Firmanın başlıca məqsədi saxarin, tüfəng, tapança, millətin şərəf və namusunu satmaq imiş...

Rüstəmbəy düşünür və eyni zamanda da əzilmiş ilan kimi qıvrılaraq, ətrafına zəhər saçırdı. Bir də Musyanın şəfadar siması haradansa cilvələnib yüksəldi, gülümsədi və sonra Rüstəmbəyin ruhi boşluqlarına tikanlar səpib çəkildi.

Rüstəmbəy acısından uyuşub yerində qaldı. İndi artıq İmranın hərəkəti onu məşğul etmir, o yalnız Musyanın qəbrinə sarılaraq günahlarının əfv edilməsini düşünürdü; lakin düşüncələr, mühakimələr arasında yol xərci də amansız bir yer tutmuşdu. Bunu bulmaq irəli gələn məsələlərdən biri idi.

Bu sahədə Rüstəmbəy çox fikir yürütdü. Nəhayət, Tapdığı nəzərdə tutaraq sakit oldu.

## 51

Bir gün bir günortalıq yoldan sonra Rüstəmbəy kiçik şəhərin stansiyasında endi. Çamadanını saxlamağa vermədi, əlində sallayaraq stansiyanın arxa qapısından çıxdı. Kirşələr sıra ilə durub minik gözləyirdi. "Buyurun! Buyurun!" – səsləri eşitdi. Huşsuz bir halda birinə minib getdi. Burunlarından ağ buğ çıxaran atlar birmərtəbəli evin qarşısında durar-durmaz pəncərənin pərdəsi qalxıb, şüşənin arxasında sevimli və şən bir çöhrə cilvələndi:

– Musya! Musya! – deyə qopan səsə:

– Rüstəmbəy, – deyə cavab gəldi.

Qapı ildırım sürəti ilə açıldı. Çoxdan bir-birinin həsrətində olan iki gənc sarılışıb ağladılar.

Musyanın sevincinin həddi yoxdu. Rüstəmbəy də sevinir, lakin bu sevincdə acılıq duyurdu. Musyanın bərhəyat olduğunu uzaqdan bilib sükutla keçsə idi də... indi o gəlmiş, üzərinə məsuliyyət düşürdü.

Musya Rüstəmbəyi xırda, səliqə ilə döşənmiş otağa dəvət etdi. Bir dəqiqəliyə çəkildi, geyinib gəldi:

– Mənim ölümümə inandınızmı? – deyə qəhqəhə ilə güldü. Görürsünüz, qadınlar belə psixoloq olurlar. Sizdə tərəddüd olduğunu bilirdim. Hər bir tərəddüd ələləksər peşmanlıqla qurtarar. Bu peşmanlığı bir an əvvəl zühur etdirmək istədim. Təhlükə mətanət artırar... Doğrudurmu? – deyə Musya təkrar qəhqəhə çəkdi.

Rüstəmbəy həyat çeşməsindən doğaraq min bir rəng və ahəng vücuda gətirən incə köpüyü andıran bu gözəli süzüb sevinirdi. Eyni zamanda da bu sevincdə peşmanlıq ləkələri duyurdu.

Musya onun yeni tərəddüdünü bilməyərək:

– Yolu necə gəldiniz? – deyə sordu.

– Ayaq üstə gəldim... Adam əlindən yer yoxdu. Hər yerdə də oturmaq istəmirdim; çünki yatalaqdan qorxurdum.

Musya ciddi bir halda:

– İndi yollar çox qorxuludur, – dedi, bir az düşündü, sonra səmimi səslə, – bir daha getməyin, burada iş tapılar... Bizdə də yaşarsınız.

– Hələ bir şey demək çətindir... görək.

Musya ərklə:

– Yenə də mi “görək”? İndi mənim sözlərimə qulaq asmalısınız. Mən həyatı sizdən yaxşı görürəm.

– Səadət təsadüfdən ibarətdir. Təsadüfü daimi, yaldızlı, şən bir həqiqətə çevirməliyik. Bütün həyatımı, nəşələrimi, sevinclərimi həp sizə həsr edəcəyəm...

Musyanın səsi titrədi, qırıldı. Göz yaşlarını gizləmək üçün başını Rüstəmbəyin köksünə söykədi. Rüstəmbəy qumral dalğalarından ətir saçan bu sevimli başı cəsarətsiz dodaqları ilə öpüb zövqlə bərabər məsuliyyət acıları duydu.

52

Üç gün sonra Rüstəmbəy yola hazırlandı. Musyanın bütün israr və ricalarına baxmayaraq, bircə də olsa qəti və ümidverici söz söyləmədi. Musya və ailəsi onu stansiyaya təşyi etdilər. Hər kəs tühaf bir sükuta dalmışdı. Bu sükut qatar tərpənənə qədər pozulmadı. Ayrılarkən cəsarətsiz səslə:

– Yaxşı yol!.. Vaxtınız olsa, yazınız!

Rüstəmbəy:

– Yazaram, – deyə həyəcanını zorla susdurdu.

Qatar tərpəndi. Rüstəmbəy peşman çöhrə ilə baş əydi və ayrıldığına sevindi...

*Bakı, 1931/34*

# QIZLAR BULAĞI

*Şura Yazıçılarının Ümumittifaq*
*qurultayına*

Əhməd “Maarif işçisi” klubunda ibtidai cəmiyyətə dair məruzə edəcək idi... Bir çox kitablar oxuyub, notlar tutmuş, lakin topladığı materialı kafi görməmişdi. Mütəxəssislər aşağıdakı əsərlərin də gözdən keçirilməsini ona tövsiyə etmişdilər:

1. Ф. Э н г е л ь с. Происхождение семьи, частной собственности и государства.
2. К. К а у т с к и й. Евреи и раса.
3. Проф. Ф. Б и р к н е р. Расы и народности человечества.
4. Л. К р ж и в и ц к и й. Антропология.
5. Эд. Б. Т е й л о р. Антропология.
6. Акад. Б. А. Т у р а е в. Классический Восток.
7. Проф. И. И. М е щ а н и н о в. Халдоведение.
8. A v e s t a.
9. R i g v ‘ e d a
10. M a s p e r o G a s t o n. Nistoire ancienne des reurles de Orient.
11. R o b i n L. La rensee grecque.
12. A. L a r d e La formation du reurle grec.
13. C. N u a r t La Perse antique et la civilisation Iranienne.
14. D e l a p o r t e. La Mesorotamie (les civilisations babylonienne et assyrienne).
15. P l a t o n. Phedre le bauquet.
16. H e r o d o t e. Nistoire.
17. S t r a b o n. Geograrhie.
18. X e n o p h o n. Oeuvres comrletes.
19. O p p e r t. Les Medes.

Bunlardan başqa, ibtidai mədəniyyət tarixinə dair yazılan əsərlər, xalq ədəbiyyatı, adət tarixləri, bir çox şərq və qərb səyyahlarından istifadə etməli idi.

Əhməd ümumi kitabxana, Lenin kitabxanası, Sibir və Darülfünun kitabxanasını dolaşaraq mütaliəyə davam etmədə idi.

Bir gün mütaliə salonuna gətirdiyi kitablardan biri onun diqqətini cəlb etdi: "Yel ulusuna" mənsub Çopo adlı biri tərəfindən yazılmış və XIX əsrin ortasında Avropa dillərinə tərcümə olunmuş bir əsər idi.

Əhməd kitabı açıb, böyük maraqla oxumağa başladı.

## BİRİNCİ HİSSƏ

### 1

"Bu gün də son dərsdir", – deyə hər kəsdə bir sevinc vardı. Qəbilənin hər tərəfindən gələn gənclər axın-axın bağa toplandı. Kəbusey bizdən əvvəl oraya gəlmişdi. Bizim gecikməyimizə işarə olaraq adi istehzası ilə:

– Ərənlər, nərədəsiniz? – deyə sordu.

Müəllimin gülər simasına qarşı cəsarət edib cavab vermədi. Kəbusey bir ağac kötüyünün üstündə oturub, otun üzərinə yığılan kərpicləri göstərərək:

– Dərsinizi bu kərpiclərlə ikmal etməlisiniz, – dedi. – Xoruz qəbiləsinin bütün tarixi burada yazılmışdır. Bunu bilməlisiniz. Bu gördüyünüz güllü-çiçəkli qəbilə əvəzində burada boş bir çöl varmış. Burada qəbilə düzəldən, buranı abad edən midiyalı Cəməsb olmuşdur. Qəbilənin tarixi onun tərcümeyi-halından ibarətdir. Yazıları kərpiclərə özü həkk etmişdir. İndi Ceyniz oxur da, məzmununu bilərsiniz. Ancaq bunu əlavə etməliyəm ki, Cəməsb zərdüşti imiş. Lakin Zərdüştün bəzi qanunlarına etiraz etdiyi üçün vətənini tərk etmək məcburiyyətində qalmışdı.

Bu sözlərdən sonra Kəbusey yoldaşım Ceynizi çağırdı və kərpicləri oxumasını rica etdi. Ceyniz ən yaxşı tələbələrindən hesab olunurdu; mixi xətti də gözəlcə oxuyurdu. Zatən müəllimin yazdıqlarını da həmişə kərpicə bu həkk edərdi.

Ceyniz sıra ilə düzülmüş kərpiclərdən birincisini götürüb oxudu:

– "Ahura Mazda!* Sənə ən sadiq olan kimdir?

Ahura Mazda cavab verdi:

– Mənə ən sadiqlər yaxşı fikirli, yaxşı sözlü və yaxşı hərəkətlilərdir!

– Gözə görünən dünyanı yaradan, pak ol! Ahura Mazda, ən savab işlər nədir?

Ahura Mazda cavab verdi:

– Ən savab işlər susuz yerə su çıxarmaq, ağac əkmək körpü salmaq, zərərli həşəratı öldürməkdir.

* Zərdüştilərdə işıq allahı.

– Gözə görünən dünyanı yaradan, pak ol! Ahura Mazda, yer nə demiş?

Ahura Mazda cavab verdi:

– Yer demiş: məni əkən şad olar, əkməyən isə qəmgin olar. Buğda yerə səpiləndə divlər acıqlanar, buğda dit verəndə divlər hirslənər; buğda sünbül sallayanda divlər çatlar!

– Gözə görünən dünyanı yaradan, pak ol! Ahura Mazda, divlərə xidmət edən kimlərdir?

Ahura Mazda cavab verdi:

– Divlərə xidmət edən köçəbələrdir, – özləri əkməz, başqalarının da əkinini tapdalar.

– Gözə görünən dünyanı yaradan, pak ol! Ahura Mazda, torpağı, suyu, havanı, atəşi, bütün jenhaları* təqdis edərəm; çünki onlar sənindir! Gözə görünən dünyanı yaradan, pak ol! Ahura Mazda! Ən fərəhli yer haradır?

Ahura Mazda cavab verdi:

– Ən fərəhli yer insanın ev tikəcəyi yerdir! Ən fərəhli yer çox taxıl əkilən, çəmənliyi olan, bol meyvə ağacları bulunan yerdir! Ən fərəhli yer qadın, çoluq-çucuq, heyvan sürüsü və ilxısı olan yerdir!

– Gözə görünən dünyanı yaradan, pak ol! Ahura Mazda, ən əziz heyvan hansıdır?

Ahura Mazda cavab verdi:

– Ən əziz heyvan pəridardır**, çünki o, sabahın açılmasını xəbər verir. Ən əziz heyvan itdir, çünki sizi köçəbə turanlılardan saxlayır!

– Gözə görünən dünyanı yaradan, pak ol! Ahura Mazda, dünyaya dərd verən nədir?

Ahura Mazda cavab verdi:

– Dünyaya dərd verənlər Əhrimənin*** yaratdıqları divlər, andırlar, nəslər, çorlardır. Dünyanı kədərləndirən soyuq, xəstəlik, qaranlıq, köçəbəlikdir...

– Cismani aləmi yaradan, pak ol! Ahura Mazda, Müqəddəs Zərdüştü, işığı, suyu. atəşi, torpağı, havanı, barlı ağacı, jenhanı, yol ayrıcını, taxıl tarlasını, qüvvəti təqdis edərəm; çünki onlar sənindir. Gözə görünən dünyanı yaradan, pak ol!..”

---

* Qadın deməkdir, din, pərəstiş doğruluq və pakizəlik mənalarında qollanır.

** Pəridar-xoruz.

*** Əhrimən-qaranlıq allahıdır.

Burada Kəbusey Ceynizi dayandırdı:

– Övladlarım, – dedi. – Cəməsb bu fikirləri Zərdüştün “Avesta” adlı kitabından almışdır. Onun zərdüşti olduğunu söyləmişdim. Lakin “Avesta”nın bəzi fikirlərinə şərik olmadığı üçün onlardan bəhs etmir. Zərdüştilər yaradılışda ikilik olduğuna inanırlar. Cəməsb də buna tərəfdardır. Ancaq Cəməsb ağıl irmədiyi yerlərə girişmir. Dünyanı cismani bir xilqət deyə qəbul edir və xoşbəxt yaşamaq yolları arayır.

“Muğ”*, ya atırvanların** “Avesta”ya əlavə etdikləri bir çox təfsirdlərdən iyrənir, onlara heç də əhəmiyyət vermir. Vətənindən çıxmasının başlıca səbəbi də budur. Cəməsbin atırvanlara qarşı yazdığı etirazlardan vaz keçməliyik, – bunlar çox uzundur və həyatınızla əlaqədar deyil. Yazıların maraqlısı Cəməsbin tərcümeyi-halına dair yerlərdir. Burasını oxuyalım.

Kəbusey kərpicləri bir-bir gözdən keçirərək, bir hissəsini kənara qoydu, yerdə qalanını yoxlayıb, Ceynizə dedi:

– Buradan başla!

## 2

Ceyniz oxumağa başladı:

– Atam Muğandan gəlmiş bir atırvan idi. Çocuq ikən Muğan atəşgədəsində xidmətçiliyə başlamış və eyni zamanda bu atəşgədə yanında dərs oxumuş.

“Avesta” qiraətində məharət göstərdiyi üçün təhsilinin ikmalını baş möbid*** öz öhdəsinə götürmüşdü. Sonra dini ayinlər yapmasına icazə verilmişdi. Beş il bu vəzifədə davam etdikdən sonra, Suraqxana atəşgədəsinə baş möbid təyin olunur; Bilaxirə Cəzədəki**** Atırquşəsb məbədinin rəhbərliyinə təyin olunaraq yeddi il orada qalır. Bacısı ilə evlənir, bir oğlu və bir qızı da dünyaya gəlir. Cəzənin iqliminə alışmayıb, qızdırmağa başlayır. Həmədanın***** baş möbidi bu xəbəri eşidər-eşitməz bunu Həmədana dəvət edir.

Atam buraya gəldikdən bir il sonra mən dünyaya gəlmişəm.

---

* Muğ-cəmi Muğandır. Muğan səhrası bunların adı ilə bağlıdır.

** Od keşikçisi; azərban.

*** Baş möbid-baş ruhani.

**** Gəncənin qədim adı.

***** Midiyanın paytaxtı.

Ruhani vəzifəsi irsi olduğu üçün, mən də əvvəl atamın getdiyi yolu təqib etdim. Çocuq ikən atəşgədəyə girib, xidmətçiliyə başladım: atəşgahların külünü təmizlər, odun daşıyar və məbədi süpürərdim. Boş vaxtlarımı atamdan qiraət öyrənərdim. İlk əvvəl "Zend"* oxumağa başladım. Qiraətimi atam çox bəyənərdi. Palçıqdan yoğrulmuş yaş lövhələr üzərində yazı da həkk edərdim.

Yeddi yaşım tamam oldu. Sadiqlik ayini keçməli idim. Sabah tezdən mənə uzun ağ paltar geyindirib, atəşgədəyə apardılar. Məndən başqa atəşgədəyə bir neçə ağ geyimli çocuq da gətirmişdilər. Hamımızı bir yerə topladılar. Ön tərəfdə Şiz adlı bir atırvan olaraq məbədə girdik. Şiz uzunboğaz, arıq və tühaf bir adam idi. Addımlarını atarkən ətəklərindən yel qopardı.

Atəşgah qalanıb yanırdı. Möbid üzünün yarısını paitidana** ilə örtüb, durmuşdu. Bir tərəfində arvic dedikləri daşın üzərində ət, meyvə, plov, süd, atəş üçün təxsis olunmuş cürbəcür ətriyyat və odun, homa*** budağı, draona**** var idi. O biri tərəfdə mahuru***** üzərinə barəsm****** qoyulmuşdu. Yan tərəfdə cürbəcür qablar düzülmüşdü.

Atəşgaha yanaşdıq. Önümüzdə gələn atırvan bizi yarımdairə şəklində odun ətrafına düzdü. Hər kəs susaraq möbidə tamaşa edirdi. Möbid uca səslə: "Çox gözəl, çox yaxşı, əzəmətli, həşəmətli, parlaq xaliq olan Ahura Mazdanın şərəfinə", – deyə dua başladı. Dua uzun çəkdi. Dinləməkdən yorulduq. Möbid danışdıqca ağzının üzərindəki paitidana tərpənir, gülməyimizə səbəb olurdu. Rəhbərimiz Şiz göz ağardaraq bizi ciddi olmağa dəvət edirdi. Dua bitdi. Möbid mahurunun üstündən barəsmi götürdü və üzünə müqəddəs su çiləyib, ön tərəfinə qoydu. Yenə dua oxumağa başladı. Duanı qurtarıb arvicin üzərindəki əti, südü, meyvələri, atəş üçün təxsis olunan ətirləri və ağacları dualadı. Homanı və şirəsini də bu şeylərə qoşdu. Bunu da qurtardıqdan sonra paitidananı qaldırıb, ətin bir parçasını ağzına qoydu. Bütün atırvanları da dəvət etdi, yeməyə başladılar. Şiz bir quzu budu götürüb, dişinə çəkdi. Yemək zamanı kimsə çocuqları yada salmadı. Ağzımızın

---

* "Avesta"nın şərhi.

** İbadət zamanı üzün yarısını qapayan örtük...

*** Bitki

**** Məbəddə işlənən çörək

***** Aypara şəklində dayaq

****** Bağlı çubuq dəstəsi.

suyu axırdı. Çocuqlardan biri Şizin ətəyindən dartıb, ət istədi. Şiz acıqlanaraq, gəmirib qurtardığı sümüyün birini mənə, o birisini də ətəyindən dartan çocuğa uzatdı. Aldıq. Mən ətrafa göz gəzdirib, sümüyü atəşgahın altına atdım. Şiz bunu görüb, son dərəcə dilgir oldu. Ətdən sonra meyvəyə daraşdılar. Atırvanlar sürətlə yeyib, təkrar əllərini arvicə tərəf uzadırdılar. Şizin yanındakı çocuq yenə onun ətəyindən dartdı. Şiz onu itələyərək əlinə bir alma cecəsi verdi. Əlavə olaraq üzümə pis-pis baxmağa başladı. Mən də qaşlarımı çatdım. Rəhbərimizə o qədər darğın idim ki, ayinin qurtarmasını səbirsizliklə gözləyirdim.

Təəssüf ki, arvicin üzərindəkini yeyib qurtarmamış ayinə davam etmədilər. Nəhayət, yemək bitdi. Möbid paitidananı ağzının üzərinə salıb yenə duaya başladı. Homa ayini olmalı idi. Möbidin sağ tərəfindəki atırvan homanı doqquz deşikli süzgəcdən keçirib, şirəsini bir kasaya tökdü və atəşgahın önündə əyləşmiş möbidə verdi. Möbid ayağa qalxaraq, kasanı yuxarı qaldırdı və homanın şərəfinə dualar oxumağa başladı.

Ayin bitər-bitməz rəhbərimiz Şiz hərəmizin belinə kosti adlanan bir qayış bağladı: belimiz zərdüştiliyə bağlanırmış. Möbid uzun-uzadı nəsihətlər etdi və bizi ruhani rəhbərimiz olan Şizə tapşırdı. On beş yaşına qədər bu adam bizə rəhbərlik edərək sadiq zərdüştilər yetişdirəcəkmiş. Halbuki o, əllərini ac qurd kimi quzu buduna uzadandan bəri ürəyim ondan soyumuşdu.

3

Ay tutulan ili qışın son ayında anam öldü. Meyitini götürüb daxmaya* apardılar. Daxmanın dörd tərəfi uca hasar idi. Çocuqları içəri buraxmazdılar. Atırvanların arasından sivişib, içəri girdim və üst-üstə yığılmış sümüklərin (skeletlərin) arasında gizləndim. Divarların üzəri qartal və şahin kimi yırtıcı quşlarla dolu idi. Anamın meyitini gətirdilər və çılpaq olaraq bir daş səkinin üzərinə qoyub çəkildilər. Ətrafdan yüzlərcə quşlar tökülüb, meyiti didməyə başladılar. Tüklərini tüləmiş qocaman bir şahin anamın gözlərini diddikdə özümü saxlaya bilməyib qışqırdım. Daxmanın qapısı açıldı, bəkçi başını içəri salıb, qorxu ilə ətrafı süzdü və məni görüncə gözlərinə inanmadı.

---

* Qəbiristan deməkdir. Qədim zamanlar meyidi yerə qoyurdular, quşlar ətini diddikdən sonra sümükləri üst-üstə yığırdılar. Basdırmaq adət deyildi..

Əvvəl çəkildi və sonra bir atırvanla içəri girib, məni apardılar. Anamın halını xatırlayaraq ayıldım. Bir də başımın üzərində Şizi gördüm. Abdal və qorxunc gözləri məni hiddətlə seyr edirdi. Üzünə baxdığımı görər-görməz əlini atıb, qulağımdan yapışdı:

– Daxmaya çocuqların girməsi yasaq olduğunu bilmirsənmi? – deyə sordu.

Cavab belə vermədim.

Başıma bir-iki qapaz saldı; mən də ona bir dürtmə vurub, əlindən qurtarıb qaçdım.

O birisi gün atəşgədəyə getməyib, hey daxmanın ətrafına dolaşaraq ağladım. Axşam atam məni yanına çağırıb, yavaş səslə dedi:

– Oğul, ölüm Əhrimənin məhsuludur. Biz ölümə qarşı zəiflik göstərsək, divləri sevindirərik. Mətanətli ol. Divləri acıqlandırmaq üçün nəşəli görün. Ananın ruhu üç gün himayəsiz qalacaq, üç gündən sonra mühakimə edilərək günəşin himayəsinə veriləcək. Bu üç gündə divlər himayəsizlikdən istifadə edərək, yazığın ruhunu oğurlamağa çalışacaqlar. Divləri dəf etmək üçün qüsl yerində atəş yakmalısan. Onda divlər gəlməzlər, çünki işıqdan qorxurlar. Bunu etmək ağlamaqdan daha faydalıdır.

Bacım Jinduqtla birlikdə qüsl yerinə gedib, atəş yakdıq və sabaha qədər orada oturaraq, atəşi sönməyə qoymadıq.

Jinduqt kefsiz idi: anamızın ölümündən başqa bunun ayrı bir dərdi olduğu da görünürdü. Gözlərini alovlanan ocağa dikib, acı düşüncələrə dalmışdı. Hərdən bir burnunun tənələri qanadlanıb, gözlərindən yaş süzülürdü.

İkimiz bir ocağın qırağında daşın üstündə oturmuşduq. Yan tərəfdən bacıma tamaşa edərək öz dərdimi belə yaddan çıxarmışdım. Sanki yuxudan ayıldım. Jinduqtun kədərləri məndə maraq oyatmağa başladı. Birdən yavaş səslə:

– Jinduqt, – dedim, – ümumi dərdimizdən başqa, səndə ayrı bir dərd də olduğunu duyuram. Zərdüşt eşqinə, söylə görüm, nə olmuş?

Jinduqt başını qaldırıb, heyrətlə üzümə baxdı və yenə aşağı saldı. Bu dəfə daha da şiddətlə ağladı. Qalxıb gözlərinin yaşını qurutmağa çalışdım. Axırda başını çiynimə söykəyib susdu. Bir az keçmiş təkrar soruşdum:

– Jinduqt, – dedim, – səndən kiçik də olsam, yenə qardaşınam. Dərdini mən də bilməyib, kim biləcək?!

Jinduqt ah çəkərək köksünü ötürdü və tutqun səslə:

– Dərdim böyükdür, bəlkə də əlacsızdır! – dedi.

– Əlacsız dərd olarmı?

– Görürsən, olur.

Sözlərini qurtarıb, Jinduqt üzümə baxdı. Baxışından dərdini anladım:

– Atamız evlənəcəkmi? – deyə cəld soruşdum. Jinduqt cavab olaraq ağladı. Məni də düşüncəyə daldırdı. Zərdüşt qanununca kişinin bacısı və qızı ilə evlənməsi savab hesab olunurdu. Qanuna görə Jinduqt atamın arvadı olmalı idi...

Çox düşündüm. Əvvəl Zərdüşt ehkamları qalın bir səd kəsilərək fikrimi əhatə etdi; çıxacaq yol bula bilmədim. Hiddətləndim, qısqandım və on dörd yaşında bir çocuq olaraq, acizliyimi duyub, odlandım. Bir-birimizə sığınaraq sabaha qədər atəşin qarşısında oturduq. Xoruz banı bizi sükutdan ayıltdı, qalxıb evə getdik.

4

"Böyük qardaşım Eyzədəsb əyalət atəşgədələrinin birində möbid idi. Bir gün gəlib Həmədana çıxdı. Evlənmək məqsədi ilə gəldiyini sonra anladım. Bu da Jinduqtu nəzərdə tutmuş imiş. Jinduqt məsələni bilirdi. Qardaşım ona təklif etmiş və rədd cavab belə almışdı. Bunların hamısını Jinduqt mənə anlatdı və qəti olaraq dedi:

– Nə atama, nə qardaşıma ərə getməyəcəyəm – nə olur-olsun!

Mən cavab və məsləhətdən aciz qaldım. Qanunun qüdsiyyətinə inanır və çıxacaq yol bula bilmirdim. Jinduqt isə başqa cür düşünürdü – onun qanunla əlaqəsi az idi; ayinə belə gəlməzdi; qüdsiyyət və qeyri-qüdsiyyətin nə olduğunu anlamazdı. Bunu atam bilirdi və onu qanuna vaqif etmək üçün son vaxtlarda çox çalışırdı. – "Zend"in və "Avesta"nın ayrı-ayrı yerlərini oxuyur, şərh edirdi. Və qanuna tabe olmayanların zəlalətə düşdüklərini dəhşətli hekayələrlə isbat etmək istəyirdi. Bir gün Vendidatı* açdı, oxudu: "...Müqəddəs qanuna görə sadiqlərin ruhunun təsviyəsi üçün onlara yasdıqla təchiz olunmuş parlaq bir iqamətgahı kim verəcək?

– "Müqəddəs qanuna görə bunu sadiq kişilərə vücudu qüsurdan xali, gənc və bakirə bir nişanlı qız verəcək.

---

* "Avesta"nın bir fəslidir.

– Dünyanı yaradan, bu gənc qız kim olmalıdır?

Ahura Mazda cavab verdi:

– Bu qız kişinin qızı və ya bacısı olmalıdır; ləkəsiz adı, on beşdən yuxarı yaşı olmalı və qulaqlarına qədər cehizə batmalıdır. Bu qız qanuna sadiq kişiyə ərə verilir.

Müqəddəs qanuna görə, bu qız ruhunun yaxşılığı üçün sadiqlərə on dörd baş kiçik heyvan verir; on dörd gənc köpək böyüdür;

Axar su üzərində 14 körpü salır;

Bədənlərinə yara düşüb, pisləşmiş on yeddi it təmizləyir.

On yeddi sadiqə ət, çörək, şərbət və şərab paylayır...

Atam "Avesta"nı oxuduqca gözləri parlayır və arabir Jinduqta baxırdı. Eyzədəsb atamın ehtiraslı həyəcanından pərt olaraq, qısqanclığından yerində aram tapa bilmirdi.

Nəhayət, səbir kasası doldu və hiddətinə malik ola bilməyib dedi:

– Ata, qanunu bilirik, təkrar etməyə lüzum yoxdur. Lakin qanun yol versə də sən evlənməkdən vaz keçməlisən.

Qardaşımın sözləri bir ox olaraq atamın ürəyinə sancıldı. Haman bağırdı:

– Nə? Axırda müqəddəs qanunu təhqir etməyəmi qalxışdın? Sən belə möbid imişsən? Müqəddəs atəşgədəni beləmi idarə edirsən?.. Eyib olsun!..

Qardaşım atamıza qarşı hörməti unudaraq:

– Sənə eyib olsun! – dedi. – Qocalıqdan yerindən tərpənə bilmirsən, hələ evlənmək niyyətinə də düşürsən.

"Qocalıq" sözü atamı daha da odlandırdı, özündən çıxaraq:

– Sus, turani, murdar iskit, – deyə qardaşımı təhqir etdi.

Hirsdən ikisinin də gözləri pərdələnib, bir-birinə hücum etməyə başladılar. Eyzədəsb atamı vurub yıxdı, sonra da təpikləməyə başladı.

Jinduqtla kənarda durub, bu həngaməyə tamaşa edirdik. Nədənsə atamıza qarşı ürəyimizdə müştərək bir nifrət bəsləyirdik, o döyüldükcə nifrətimiz yavaşıyırdı.

Axırda Eyzədəsb qələbə çalaraq atamı tərk edib, Jinduqtun əlindən yapışdı:

– Müqəddəs qanuna görə sən mənimsən! – dedi.

İndiyə qədər Eyzədəsbin şücaətindən həzz duyan Jinduqt əlini qardaşımın əlində gördükdə diksindi, ikrah edərək ağladı. Mən də gözlərimin yaşlarını susdura bilməyib, Jinduqtu qucaqladım. Bir də qardaşımın yumruqları üzərimə töküldü. Eyzədəsb mənim də məra-

mım olduğundan şübhələnərək məni şiddətlə döyürdü. Mən də məsələni izah etmədən bunu vurmağa başladım...”

5

Kəbusey Ceynizi yenə dayandırdı:

– Yəqin yoruldun, – dedi, – dincəl!

Yoldaşlarımızda o qədər maraq var idi ki, kimsə yerindən qımıldanmadı. Görünür, əcdadın tarixini bilmək böyük bir ehtiyac təşkil edirdi. Övzaı Kəbusey duyaraq gülümsədi və mənə müraciət edib:

– Çopo, mabədini sən oxu, – dedi.

İrəliləyib, sıra ilə düzülmüş iki kərpici qaldıraraq oxudum:

“O gecədəki vəqədən sonra həyatımız alt-üst oldu. Bir neçə gün evə gəlməyib, məbəddə yatdım. Gündüzlər isə daxmanın ətrafına dolaşaraq, Jinduqtla bərabər ağlayırdıq. Bir dəfə də tülək şahinə rast gəldim, – hasarın üzərində oturub, dimdiyini daşa sürtürdü.

– Jinduqt, Jinduqt! – deyə quşu bacıma göstərdim, – bax, anamın gözlərini didən bu quşdur, – dedim.

İkimiz də daş götürüb quşa atdıq.

Bunu görən daxma bəkçisi ağac qapıb bizi qovdu.

Şəhərə dönərkən xaldeyalı bir qocaya rast gəldik. Qocanın uzun zərli paltarına yamaqlar salınmışdı; başı açıq və ağarmış saçları qıvrım idi. Saqqalının isə qıvrımları açılaraq, tükləri bir-birinə qarışmışdı: görünür, çoxdan dəllək yanına getməmişdi. Gözlərinə sürmə çəkmişdi. Kəmərinin yan tərəfindən bir quru qabaq asılmışdı. İçində su var idi. Falçı olduğunu bilərək ona yanaşdıq.

– Salam, qoca! – dedik.

– Sizə də salam! – dedi və əlini ağzına uzadıb, sonra gözlərinin üstünə qoydu.

– Falımıza baxarsanmı? – deyə sorduq.

– Baxaram, – dedi, – bir dirhəm versəniz, baxaram. Qoca əyri əsasını yerə salıb, üzünü qırışdıraraq çökdü, bir az vaysılandı:

– Belim ağrıyır, – dedi. – Babil nefti sürtürəm, o da fayda vermir, suziyanlı bir həkim yağ vermişdi, bu da qurtardı; heç olmasa o bir az ağrımı azaltmışdı...

Halını bildirdikdən sonra qoca cibindən bir-iki alabəzək muncuq çıxarıb, yerə atdı və onlara baxaraq cəld dedi:

– Utarid altında doğuldunuz, yenə o ulduzun himayəsindəsiniz. Taleyiniz hələ təyin olunmamışdırsa da, parlaq görünmür. Qan qarışacağı var. Fəlakət var. – Yol görünür. Məskən dəyişiləcək. Xeyirli bir quş rəhbər olacaq. Ənasiri-ərbəə ilə xitam bulacaq. Günəş doğacaq.

Qoca sözlərini qurtarıb, əsrarəngiz gözləri ilə bizi süzdü. Veriləcək sual çox idisə də, heç birimiz cəsarət edib bir söz belə sormadıq.

Qocanı tərk edib getdik.

Atəşgədənin yanından keçərkən Şizi gördük. Hiddətlə yanaşıb:

– Məbədə nə üçün gəlmirsən? – deyə sordu.

– Bir daha gəlməyəcəyəm! – dedim.

Sözlərimə inanmayan kimi bir zaman üzümə baxdı. Sonra qulağımdan tutub, məni darta-darta apardı.

Jinduqt ağlayaraq məbədin qapısında qaldı, onu içəri buraxmadılar. Şiz məni həyətə çəkib, yeddi inək axurunun yanındakı zindana saldı və qapını çəkib bağladı.

Burası tozlu bir yer idi. Pəncərəsi də yox idi. Ətrafa baxdım, qaranlıqda gözlərim heç bir şey seçmədi. Bir az sonra gözlərim qaranlığa alışmağa başladı. Küncdə köhnə bir xoruz qəfəsi vardı. Üzərində oturub qaldım. Vaqe olanları düşünmək istədim, bacara bilmədim. Tühaf bir vəziyyətdə idim. Dünya mənim üçün əzabdan başqa bir şey deyildi. Jinduqtla anam müstəsna edilərsə, ürəyimdə bütün yaradılışa qarşı dərin bir nifrətim vardı. Zərdüşt və Ahura Mazda da gözümdən düşməyə başlamışdı... Gecəni orada qorxu içində keçirdim. Divlərin qorxusundan çox ağladım. Nəhayət, yuxu qorxuya qələbə çaldı...

Susuz və ələfsiz bir səhraya toxum düşüb, ağac oldu, çiçəklədi, yarpaqladı, geniş kölgə saldı. Çeşmələr qaynayaraq sərin su ətrafa dolmağa başladı. Axar su kənarında süfrələr salıb, bütün gözləri yaşlı çocuqları oraya topladılar. Mən də orada idim. Jinduqtu aradım. Yox idi, kədərləndim. Birdən göydəki ağ bulud partladı, içindən yaldızlı paltarlı Jinduqt çıxdı və göyərçin kimi qanadlanıb uçarkən məni gördü. Sevincindən ağladı, göz yaşları yağış kimi tökülüb, səhranı islatdı. Səhra göyərib çiçək açdı. Hamımız yerimizdən qalxaraq bir səslə:

– Cismani dünyanı yaradan, pak ol! – deyə bağırdıq...

Səsimə ayıldım, qapının cırığından içəri işıq düşmüşdü. Qalxıb, gözlərimə inanmayaraq qapıya yanaşdım. Həyətdə bir gediş-gəliş vardı. Bir də Şiz göründü, atırvandan birisinə açar verib, bir şeylər söylədi. Atırvan qapıya doğru gəlib açdı və bir söz demədən məni dışarı buraxdı".

6

“Evə gedim, – deyə düşündüm. Ev gecələdiyim zindandan daha ağır görünürdü. Lakin Jinduqtu görmək arzusu məni evə sövq etdi. Getdim. Jinduqt qapının ağzında oturub, sağ əlini qəmli üzünə söykəmişdi. Məni görcək sevindisə də sevinci üzündəki kədər izlərinə qələbə çala bilmədi. Yanında oturdum.

– Yenə nə olmuş? – deyə sordum. Bir az düşündükdən sonra:

– Dünən axşam baş möbid atamı və Eyzədəsbi yanına çağırmışdı. Onları barışdırmışdır.

– Sonra?

– Sonra məni Eyzədəsbə vəd etmiş.

Sözlərini qurtarmamış Jinduqt ağladı.

– Sonra?

– Sonra nə olacaq – bu axşam qardaşıma arvad olmalıyam.

Bu işdə adətdən kənar bir şey yox idisə də, mənə olduqca ağır gəldi. Jinduqtun verdiyi xəbər məni nizə kimi deşib o tayıma keçdi. Düşüncəyə daldım. Lakin uzun düşüncələr çıxacaq yol göstərə bilmədi. Bircə fikrə gələ bildim – Eyzədəsb Jinduqtla əyalətə gedincəyə qədər daxma hasarının yanına qaçıb, anamın skeletinin qonşuluğunda yatmağı kəsdirdim.

Göz yaşları ilə ayrıldıq.

Sabah səsə ayıldım: daxmaya meyit gətirmişdilər. Atırvanlar arasında atamı və Eyzədəsbi də gördüm. Məni görcək hönkürtü ilə ağlaşdılar. Ürəyimə acı bir şeylər damdı. Zindandakı yuxumu xatırladım. Süst bir halda irəlilədim – cənazədə Jinduqtu gördüm. Alnının bir tərəfinə qan sağılmışdı. Qapalı gözlərində acı həsrət duyulurdu.

Qonşumuzdan sordum, qısa olaraq hadisəni anlatdı: gecə Eyzədəsbi yataqda qoyaraq çıxmış, gözləmişlər gəlməmiş. Səhər tezdən meyitini Semiramis* qələsinin altından tapmışlar: bürcə çıxıb, oradan özünü atmışdır...

Kənara çəkildim. Tozlu yollarla qoşaraq uzaqlaşdım.

Şəhər darvazasının ağzında bir aslan heykəli var idi. Bu, Həmədanın himayəçisidir. Bunun üzərində oturub, şəhərin saraylarına, atəşgədələrinə, qüllələrinə, bağ-bağçalarına son dəfə olaraq tamaşa etməyə

---

* Həmədan hökmdarlarından bir qadın.

başladım. Bu əsnada aslanın arxa tərəfində gözümə bir xoruz dəydi. Ağ və gözəl bir xoruz idi. Bu xoruzu tanıyıb heyrət etdim, Jinduqtun idi, üç gün əvvəl itmişdi.

Xoruza yanaşdım, heç də ürkməyərək qucağıma atıldı. Bağrıma basdım, bərabərcə yola düşdük...”

– Bəsdir! – deyə Kəbuseyin səsi gəldi. Kərpicləri tərk edib, kənara çəkildim. Kəbusey dedi:

– Təfsilatına lüzum görmürəm. Əcdadımız Midiyadan Urartu ölkəsinə gedir. Bunu tutub, qul deyə bazarda satırlar. Bir mülkədar alıb, onu evə gətirir. Mülkədarın gözəl bir qızı varmış. Cəməsblə qız bir-birini sevir. Məsələni mülkədar duyur, əvvəl rədd cavabı verir. Sonra qızının ah-zar etdiyini nəzərə alaraq Cəməsbə bir təklif edir: “Yeddi il doğru xidmət etsən, qızımı sənə verərəm”, – deyir. Cəməsb razı olur. Səmimi olaraq xidmətə başlayır. Dördüncü il mülkədar ölür, qızla Cəməsb evlənir. Bu əsnada Kapadosya Urartu ölkəsinə hücuma başlayır. Buna əlavə olaraq bir də daxildə iğtişaş baş verir. Yaşayış şəraiti fənalaşdığı üçün Cəməsb ailəsini və əqrəbalarını götürərək Aran ölkəsinə keçir. Və burada bu gördüyümüz qəbiləni bina edir. Cəməsbin qurduğu təşkilat axın-axın gələn qaçqınlara örnək olur. Yavaş-yavaş ətrafdakı qəbilələr meydana çıxır. Qəbiləmizin adı da Jinduqtun xoruzunun yadigarıdır.

İştə, son dərsimiz bu!

Bu qədər əmək sərf olunan qəbiləni sevməli və onun adət və qanunlarına hörmət etməlisiniz!

Həyatda xoşbəxt olun, müəlliminiz də sizə baxsın, fəxr etsin!

Yoldaşlarımız o qədər mütəəssir oldular ki, bir çoxları ağladı. Bir-bir yeriyib, müəllimin əlindən öpdük.

## 7

İkinci dərs yaşayış qanunları idi. Müəllim Xanburabinin yanına getdik. Qoca bizi göz yaşları ilə qarşıladı. Bizi görcək:

– Ayrılırıq, deyilmi? – dedi və təkrar ağladı. – Ayrılıq, iştə, həyatın əsası! Bundan mütəəssir olmamalı! Mənim göz yaşlarıma baxmayın – bu, qocalıq əlamətidir, – deyə gülümsədi.

Xanburabi gözlərini silib, mətanətli bir vəziyyətə düşərək dərsə başladı.

– Övladlarım, – dedi, – yaşayış qanunları çox sadədir – yaşamaq, tox və salamat yaşamaq, yaşayışın cəfasını azaldıb, səfasını çoxaltmaq. İştə, həyatın məqsədi bu sadəcə əməllərdən ibarətdir. Halbuki bu sadəcə tələbləri insan olduqca mürəkkəbləşdirmiş və qumlu səhralarda yol itirmiş kimi şaşıb qalmışdır. İnsan yaşayışı, heyvan yaşayışı, bitki yaşayışı... həp bir-birinin eynidir. Bir yarpağın budaqdan üzülüb düşməsi, bir çiçəyin solması bir heyvanın gəbərməsi, bir insanın ölümü eyni mənadır! Həyatdan məhrum olmaq əzəli və əbədidir. Ölən dirilməz, dirilən eyni cisim deyil, başqasıdır. Həyat baqidir, ancaq şəkillər dəyişilir. Bir ot solar, yerində başqası bitər adam ölər, digəri doğular...

Həyat daim diri və maddi bir qüvvədir. Maddə və həyat bir-birindən ayrılmaz; maddədən kənar həyat yoxdur.

Yaşamaq özü-özlüyündə bir məqsəddir. Yaşamaq yalnız yaşamaq üçündür. Başqa məqsəd təqib etməz.

Hər bir yaranan yaşamalıdır, lakin yaşamaq fərdi və xudbini deyil, ictimai olmalıdır. Fərd yaşarkən cəmiyyət içərisində yaşar və fərdi deyil, cəmiyyət faydasına çalışaraq yaşar. Çünki cəmiyyət ümumiyyət, fərd isə xüsusiyyət deməkdir. Cəmiyyət fərdlərdən qüvvətlidir... İnsanlar həyatın sadəcə məqsədini mürəkkəbləşdirir, dedim. Düz yolu buraxıb da, dolanbac yollar arayırlar. Bunu yapanlar adi insanlar deyil, ağıllılar, zəkalılardır. Piramidalar, dəbdəbəli saraylar, incə sənətlər yaradan misirlilər min bir qeyri-maddi şeylərə inanırlar. İnsanın yenidən eyni şəkildə dirilməsinə etiqad edirlər. Guya hər bir insanın bir də dublu* varmış... İsraillilər xəşin bir Yekovu təsəvvür edərək onu yaradılışın ağası zənn edirlər. Həyat müvəqqəti bir imtahandan ibarət imiş. Bundan sonra məhkəmə olub da həyatda görünən əməllərə əcr veriləcəkmiş... Arilər dünyanı iki qeyri-maddi qüvvələrin mübarizəsi məhsulu kimi anlayırlar... Babil ağlasığmaz əfsanələrlə özünü aldadır.

Hindli göylərdə altun arabalı qüvvələr görərək səadətini onlardan diləyir... İnsanlar acizlikdə çırpınaraq mövhum qüvvələrdən xarüqələr gözləyir. Halbuki beş hiss vasitəsilə duyulan və təyin edilən maddədən başqası qeyri-maddi, qeyri-mövcuddur. İnsan tam bir məxluqdur; onu yaşamağa sövq edən amillər varlığına bağlıdır. Yemək, içmək, yatmaq... kimi dəruni arzuları olan kimi, dəruni arzuları lazımınca yerinə yetirmək üçün zahirdən qüvvə alan arzuları da var. Yaxşı yemək

* Surəti, əkizi.

üçün yaxşı çalışmalı; yaxşı su içmək üçün yaxşı bulaq aramalı, ya fəna suyu durultmalı; ev üçün şücaət göstərməli... Xülasə, hər bir daxili ehtiyacı dəf etmək üçün zahirdə bir çox ehtiyaclar doğur. Çalışmaq, şücaət, hiylə, yazı, musiqi... dəruni ehtiyacların xidmətçiləridir.

Həqiqət belədir! Həqiqətin ötəki tərəfi boşdur, xəyaldır, yəni qeyri-mövcuddur. Həyat mövcudiyyət məhsuludur. Həyatın şəraiti mövcudiyyət törədir. Yaşayış yolunu da mövcudiyyət göstərir... Bu qədər!

Yox, mövcudiyyət müvəqqəti imiş, onun da əbədi bir inikası varmış... Bu kimi batil fikirlər gəlmələrin uydurmasıdır. Sami və Ellin dimağının xəstəliyindən doğan əfsanədir. Biz bu abadan qəbiləmizi vücuda gətirərkən, məsud yaşayışımızın təməl daşını atarkən "əbədi inikas" yardımımıza gəlmədi. Ondan "istifadə" etməyə heç də lüzum görmədik...

Xanburabi bu məalda söylədiyi nitqinin sonunda cəmiyyətə sadiq qalmamızı tövsiyə edib, bir-bir alnımızdan öpdü, biz də onun əlindən öpərək ayrıldıq.

8

O biri gün sabah erkən carçının zil səsi bizi yuxudan ayıltdı:

Caramana car!..
Gənclərə xəbər!
Həkimlər həkimi,
Xəstəlik düşməni,
Xaldeyalı Əmilmərduq.
Sizi çağırır:
Durun, durun,
Gənc oğlanlar!
Uyquya vida!
Sabaha salam!
Xaldeyalı Əmilmərduq
Sizi çağırır.
Caramana car!..

Yatağımdan qalxdım. Sevincimin hüdudu yox idi. Yavaş-yavaş yaxında olacaq şeyləri dərk etməyə başladım. "Xoruz" qəbiləsi adətincə gənclər həkim tərəfindən müayinə olunub, evlənə biləcəyinə

icazə verilir. Sonra “Qoç” qəbiləsinə nişanlı aramağa gedilir. Nə böyük məqsəd! Baharın rayihələri arasında gəncliyin də baharı başlayır.

Hər addımda məni izləyən anam da mənimlə bərabər sevinirdi. Otaqdan çıxarkən bir də məni qucaqladı. Üzümdən öpərək: “Oğul, xoşbəxt ol!” – dedi. Anamın başını oxşayıb, bağçaya qaçdım. Hər evdən şən bir gənc səsi eşidilirdi. Səsləşdik. Bir-birimizə qoşularaq, Mazda meydanına toplandıq. Bir də ağacların arxasından Əmilmərduqun şişman heykəli göründü. Bizə təzim etdi, cavab verib, ətrafına toplandıq. Zarafatlar, lətifələr başlandı. Əmilmərduq çox lətifəcil adam idi. Hər bir fikrini anlatdıqca bir misal söylərdi.

Gənclərin hamısı toplandıqdan sonra bizi sıra ilə düzüb tamaşa etdi. Hamımız sağlam vücudlu, qüvvətli, əzələli idik. Yalnız yoldaşlardan birisi qışda xəstəlik keçirdiyi üçün zəif idi. Əmilmərduq onu bizdən ayırıb, kənarda saxladı. Sonra bizi yortdurub, nəbzimizə baxdı. Hamımızın səhhətindən məmnun qaldı. Zəif arkadaşımız məyus bir halda durub, bizə tamaşa edirdi. Əmilmərduq ona yanaşdı: nəbzinə və dilinə baxdı:

– Bu bahar “Qoç” qəbiləsinə gedə bilməzsən. Səhhətin yerinə gələr də, gələn bahar gedərsən – dedi.

Zəif razı olmayaraq:

– Qaçım, ürəyimə baxın, – deyə həkimdən ricada bulundu. Əmilmərduq bir az duruxub:

– Haydı qaç! – dedi.

Zəif qaçıb təkrar həkimin yanına döndü. Rəngi üzündən götürülmüşdü; ürəyi şiddətlə çırpınırdı. Əmilmərduq:

– Oh! “Qoç” belə ürəyə qız verməz! – deyə qəhqəhə ilə güldü.

Zəif yenə razı qalmadı:

– Bir də qaçım, yenidən baxınız, – deyə israr etdi. Əmilmərduq bir misal söylədi:

– Persopolis* şəhərində məşhur bir dərzi var idi. Bu, paltar biçəndə maldan oğurlardı. Birisi bunu eşitdi. Mal alıb, dərzinin yanına getdi. Dərzi malı piştaxtanın üstünə qoyub açdı, qayçını götürdü və... birdən bir şərqi oxudu. Şərqi müştərinin çox xoşuna gəldi – heyrətdən başını itirdi. Bu əsnada dərzi malın bir parçasını kəsib, piştaxtanın altına saldı.

---

* Perserolis - Qədim Pars paytaxtı; İstəxr.

Müştəri dedi:

– Ay dərzi, bir şərqi də oxu.

Dərzi cavab verdi:

– Bir şərqi də oxusam, paltarlığın çatmaz. Hamımız güldük, zəif bizdən də çox güldü. Bir də qaçsa ürək qüvvəsi çatmayacağını duyaraq israrından vaz keçdi.

9

Həkimin müayinəsindən sonra Cəməsbin qəbrini ziyarət etmək adət idi. Musiqiçilər gəldi, hərə bir dəstə çiçək hazırladı. Yeməli şeylər, bir neçə bardaq şərab və bir torba da dən götürüb getdik. Jinduqtu yad etmək üçün Cəməsbin qəbrinin yanında bir çox ağ xoruzlar saxlanırdı. Ziyarətə gələnlər bunlara dən gətirərdilər.

Qəbir güllü bir bağçada idi. Sandıq şəklində bir daşdan ibarət olub, dörd tərəfinə Cəməsbin həyati vəqələrini təsvir edən qabartma lövhələr qayrılmışdı. Daşın üstündə bir xoruz rəsmi həkk olunmuşdu. Qəbrin ön tərəfində daimi atəş saxlanılırdı. Müəyyən gözətçilər gecə-gündüz atəşə nəzarət edirdilər.

Gələr-gəlməz gördüyümüz ilk iş xoruzları bəsləmək oldu. Sonra çiçəkləri qəbrin ətrafına düzüb, əl-ələ verdik və halqa təşkil edərək, oxuya-oxuya qəbrin ətrafına fırlanmağa başladıq:

Biz Cəməsbi yad etdik,
Xoruzları şad etdik.
Totem bizi anladı,
Qanad çaldı banladı.
Günəş kimi nur saçdı,
Cəməsbdən söz açdı.
Xatırladı Jinduqtu,
Quqqulu-qu-quqqulu-qu!
Semiramis qalası –
Gənc qızların bəlası,
Əsrar ocağıdır bu,
Quqqulu-qu-quqqulu-qu!

Biz Cəməsbi yad etdik
Xoruzları şad etdik,
Xoruzlar qanad açdı,

Aləmlərə nur saçdı.
Nurlara salam olsun!
Cəməsbə çox-çox salam!
Jinduqta salam olsun!
Gənclərə çox-çox salam!
Qəbilə abad olsun!
Atəşə çox-çox salam!
Quqqulu-qu-quqqulu-qu!.

Oyun qurtardıqdan sonra Cəməsbin qəbrinə təzim edərək kənara çəkildik. Böyük qoz ağacının altında oturub yeyib içməyə başladıq. Piyalələrə şərab töküldü. Yoldaşlardan birisi qalxıb, bir təklif etdi:

– Müəllimlərimizdən bir ricamız var, – dedi. – Şərab; haqqında mülahizələrini dinləmək istərdik.

Əmilmərduq:

– Hay! Hay! Mən də dinləmək istərdim, – deyə qəhqəhə ilə gülməyə başladı.

Kəbusey Xanburabinin üzünə baxıb, ayağa qalxdı.

– Övladlarım, – dedi, – qəbiləmizdə cürbəcür xalqlara mənsub və dürlü ölkələrdən gəlmə adamlar var. Bunların heç biri buraya gələndə şəraba yabançı olmamış. Görünür, ölkələrində xalqları arasında məqbul içkilərdən biridir. Şərabın harada və kimlər tərəfindən icad olunduğunu kimsə söyləməz. Şərabın adı ən qədim rəvayətlərdə söylənir. Zənnimcə şərab bəşəriyyət qədər qədimdir. Deməli, şərab insan üçün bir ehtiyacdır. Kef və nəşə aramaq insanın təbiətindədir. Ancaq... – burada mühüm bir "ancaq" var – kef və nəşə həyatın kiçik bir hissəsini tutmalıdır. Daimi kef insanı bıqdırar. Həmədan sarayındakı keflərə kef deyilməz. Bu pozğunluq və əyyaşlıqdan başqa bir şey deyildir. Kef əməyin süsü olmalıdır. Doğruçu nəşə yalnız əməkdən sonra ola bilər. Ancaq belə nəşə mahiyyət və həzz etibarilə həqiqi sayılar. Bu nöqteyi-nəzərcə şərab əziz bir yoldaş, dilbər bir sevgilidir. Yaşasın şərab!

– Quqqulu-qu, – deyə banlaşaraq piyalələri dodaqlarımıza yavıqlaşdırdıq.

Bir az keçmiş Xanburabi ayağa qalxdı:

– Övladlarım, – dedi, – insan yalnız beş hissə malik və məhdud ağıllı bir məxluqdur. Bunun çalışmaq iqtidarının da müəyyən dairəsi var. Yorular – dairənin dışarısına belə çıxa bilməz.

Ehtiyac ağırlığından xilas olub, dərin düşünmək imkanı bularsa, dünyaya gəldiyinin belə məqsədini bilə bilməz. Təbiət yaratdığı insanın zəfini bilir (zatən onu zəif və idraksız xəlq etməsəydi xaliqinə qarşı üsyan edərdi). Onu müəyyən məqsədə də sövq etmək üçün həzz duyğuları ilə təchiz etmiş: yemək həzzi, içmək həzzi, qadın və övlad həzzi... İnsan bədəvilikdən yüksəldikdə həzzlərinin sayı da artır. Şərab həzzi də insanın yüksəliş dövrlərinin birində meydana gəlmiş olacaq. Odur ki, şərab yüksəlmişlər üçün ehtiyac, yüksəlməmişlər üçün zəhərdir. Yaşasın şərab əhli!

– Quqqulu-qu! – deyə banlaşdıq.

Sıra Əmilmərduqa gəldi. Əvvəl bir az nazlandı. Danışmaq istəmədi. Sonra:

– Övladlarım, – dedi, – mən həkiməm; sənətim əzəliyyət qədər qaranlıqdır. Bütün bilgi və təcrübələrimə baxmayaraq, xəstənin mürəkkəb vücudu qarşısında daim acizliyimi duyuram. Şərab qarşısında da eyni acizlikdə bulunuram... (Ancaq-şərabmı xəstə, mənmi xəstə?) ...Piyalədə olduqca sakinliyinə heyrət edirsən, mədəyə töküldükdə hərəkət bambaşqa olur: insanı güldürür, ağladır, nəşə verir, qəmgin edir, cəsarətləndirir, ehtirasını artırır, gözlərini pərdələndirir... Xülasə, şərab mənim üçün bir sirdir. Sizə bir misal söyləyim. Bir xaldeyalı tərki-dünya əyyaş bir ellinə rast gəlib, ona nəsihət etməyə başlayır.

– Şərab içmə, məst olma, xaliq bizi ayıqlıq üçün yaratmışdır, – deyir.

Ellin gülür:

– Aldanma! – deyir, – xaliqin də mənim kimi məstdir. Zatən məst olmasaydı, sənintək axmağı yaratmazdı...

Hər kəs güldü və Əmilmərduqun şərəfinə içdi.

## 10

Qəbiləmizdə iki sonsuz qadın var idi. Hər bahar "Qoç" qəbiləsinə gedən gənclər adət üzrə bu qadınları ziyarət edərdilər.

Biz də adətə riayət etməli idik. Sonsuz qadınlara sovqat apardılar. Biz də dürlü-dürlü kətələr, şərablar, darçın, mixək və dəstə-dəstə çiçək götürüb getdik. İlk ziyarət etdiyimiz yaşlı bir qarı idi. Gəncliyində bir dəfə doğmuş, lakin çocuğu kretin olduğu üçün ağzına yasdıq qoyub öldürmüşdü. Anormal çocuq anası olmağı şərəfinə sığdırmamışdı.

Qarının bu hərəkəti, zatən, qəbilə adətinə müğayir deyildi. Kor, şikəst, əlil çocuqlar yaşamaq haqqından məhrumdurlar. Bu adət bizdə qədim zamandan bəri davam edib gəlmiş. Bu adətə qarşı bir neçə etirazlar edilmiş, bundan dolayı qəbilə məclisi məsələni təkrar-təkrar müzakirə edib, adətin olduğu kimi saxlanılmasına səs vermişdi. Ehtimal ki, bu adət irəlidə də ləğv olunmaz. Çünki gənclik də ona tərəfdardır. Çalışmaq qüdrəti olmayan, irəliki həyatı əzab içində keçəcək bir çocuğun büsbütün həyatdan məhrum olması əfzəl deyilmi?..

Məsələdən uzaq düşdük.

Sonsuz qarı gələcəyimizi bilərək yeni paltar geymişdi. Xoş bir təbəssümlə bizi qarşıladı.

Salam verdik. Salamı aldı. Əlindən öpdük. Alnımızdan öpdü. Əri işdə idi. Biz gələr-gəlməz bütün şeylərini dışarı çıxarıb, evi silib süpürdük. hər yeri təmizlədik. Sonra şeyləri silib, səliqə ilə yerlərinə düzdük. Gətirdiyimiz çiçəklərlə evi bəzədik. Masanın üstə süfrə salıb, yeməkləri və içkiləri qoyduq. Qarını başdan əyləşdirib, biz də sağ və sol tərəfində oturduq.

Ceyniz gənclərin vəkili sifəti ilə:

– Ana, buyur, – dedi, – oğulların adət üzrə "Qoç" qəbiləsinə gedirlər. Səndən halallıq almağa gəldilər.

Sonsuz qarı darçından bir az qırıb, ağzına qoydu:

– Oğullarım, – dedi, – sizdən çox razıyam. Əmdiyiniz süd halal olsun! Gedin, evlənin, xoşbəxt olun! "Xoruz"la "Qoç"un qan qardaşlığı baqi olsun! İyirmi ildən bəri "Qoç"a bir çox övlad göndərdim. Onlara da salam söyləyin. Xoruz dostları olsun!

Yeyib içdik və yeməkdən sonra qarı döşəyin üstündə uzandı, biz də ətrafında oturduq. Oğul kimi əllərini oxşayır, kimi başını sığallayırdı. Xəstəlikdən barmaqlarının bəndləri ağrayırmış, neft yağı sürtüb ovduq.

Ocağın üstə su asmışdıq. hazır olar-olmaz qarının başını yuyub, quruladıq. Dırnaqlarını tutduq.

– Ana, – dedim, – daha görməli nə iş var?

– Oğlum, odunum yarılmamışdır, – dedi.

Hamımız qalxıb, qarının odunlarını yarıb, ocağının yanına yığdıq.

Xülasə, bir oğul anaya nə edərsə edib, o biri qadının yanına getdik.

Bu qadın heç doğmamışdı. Yaşı iyirmi beş olardı. Qara qaşlı, uzun kirpikli, dolğun bir adam idi. Utanaraq qarşımıza çıxdı. "Ana" deyə sa-

lam verdikdə üzü tühaf bir şəkil aldı. Qaşları oynadı, kirpiklərinin dibləri yaşardı. Gənclərə qibtə etməsi duyuldu. Bunun da işlərini görüb, evini təmizlədik. Ayrılarkən: "Ana, bizi halal et" – dedikdə özünü saxlaya bilməyib, ağladı.

Adət üzrə sonsuz qadınların ərlərinə də kömək etməli idik. Yarım gün də tarlada çalışdıq.

11

Gənclər qəbiləni tərk edərkən özlərindən sonra bir yadigar buraxıb getməli idilər. Bizdən irəliki qafilələr arx açmışdı. Kəhriz çıxarmışdılar. Körpü tikmişdilər; qəbilənin sağ yamacındakı meşə də onların əlinin əməyi idi. Biz də düşünüb, bir bağ salmağı qərara aldıq. Qəbilədən min addımlıq məsafədə daşlıq və kolluq bir yer var idi. Bunları təmizləməyə başladıq. Bir neçə günlük əmək sayəsində yüz ağaclı bir bağ əmələ gətirdik. Qəbilə şurası nümayəndələri gəlib, bağı himayələrinə aldılar. O günü də "təbiətə pərəstiş" adətini icra etdik.

"Pərəstişə" bütün qəbilə toplanmışdı. Təbsi* içində bir qab su, bir az torpaq və odun parçaları gətirdilər. Hər kəs diz çökərək təbsiyə təzim etdi. Sonra şərqi söyləyərək torpağı götürüb, barlı ağac dibinə tökdülər; odunlar düz yerdə qalanıb, üzərinə çırpı yığıldı və od vuruldu. Suyu ətrafa səpələyib, əl-ələ verdik, halqalar təşkil olundu. Kişilər, arvadlar və çocuqlar ağız-ağıza verib tonqalın ətrafına fırlanaraq oxudular:

Atəşi, atəş, atəşə!
Gizli alovlu atəşə;
Sirli şəfalı atəşə,
Salamlar olsun atəşə!
Torpağa, suya, atəşə,
Havaya, suya, atəşə,
Qollu, budaqlı atəşə,
Salamlar olsun atəşə!
Quqqulu-qu, quqqulu-
qu. Qu, qu, qu!

Oyun qurtardıqdan sonra xalq ətəklərini çalaraq üç dəfə banlayıb, bağ-bağça və tarlaya yayıldı. Hərə yeddi dəfə yeddi zərərli cücü və

---

* Podnos

həşərat öldürməli idi. Bir kəpənəyi qovarkən Ceynizə rast gəldim. Həmişəki kimi şikayətləndi:

– Canım, – dedi, – bu adətlər bitməyəcəkmi? Sürü kimi bizi buradan oraya dartırlar. Artıq bıqdım.

Mən cavab vermədim. Susduğumun mənasını anlayaraq mülahizələrinə davam etdi. – Sənə nə var: hər şeydən həzz duyursan. Mənim içimi şübhə yeyir. Dərdimi kimsəyə aça bilmirəm. Vulkan olub məni titrədir. Gördüyümüz işlərin lüzumunu inkar etmirəm – ümumə fayda gətiririk. Ancaq... bunları başqa cür etmək olmazdımı?.. Dillən! Heç olmazsa, Ellin kahini kimi qarışıq da olsa bir söz söylə!

Mən güldüm.

– Nə söyləyim? – dedim. – Adət ağırdır, bilirəm. Ancaq bunsuz da olmur. Bildiyimiz xalqların yaşayışını Kəbusey bizə anlatdı. Onlarda adətən daha ağır şeylər var. Bizim adətlərimiz maddi aləmdən ayrılmadığı halda, onlarınkı tamamilə ayrılır. Onlar əsil həqiqəti maddiyyətdən xaric təsəvvür edirlər. Bu mövhum aləm beş hissin yoxlamasına meydan vermir. Bu yaxşıdırmı?

– Bu da yaxşı deyil. Görüb duymadığım şeylərə inana bilmirəm. Ancaq bizim hərəkətimizi də anlaya bilmirəm. Nədənsə gənc ağlım qane olmur.

– Səndə, görünür, bir inqilab doğulur.

– Elə, elə, ancaq müəyyən şəkil almamışdır.

– Olsun, baxalım. Lakin təcrübəsizliyin nəticəsi olaraq cəmiyyətə zərər gətirmə.

Ceyniz istehza ilə güldü:

– Tühafsan, Çopo, – dedi. – Sən durğun həyat aşiqisən. Deyirsən, aman, asayiş pozular. Qoca müəllimlərin təsiri səndə dərin köklər atmışdır. Bircə şeyi nəzərdən qaçırırsan. Tariximizi bilirsən, amma qəbilə həyatına keçməmizin əsil səbəblərini dərk edə bilmirsən. Cürət edib bu sözü deyirəm. Bağışla! Qəbilələrə Babil, Midiya, Kapadosya, Urartu, Pars, Xaldeya, Pont-Öksin* sahillərindən belə adamlar toplanmışdır. Səbəbi? – Bəlli: orada yaşamaq üsulu çəkilməz bir hala gəlmişdir. Saray istibdadı, müharibə, daxili iğtişaşlar, dərəbəylik, din naminə qan tökmələr, zorluların əmlak iştahası xalqı zara gətirmişdir.

---

* Qara dənizin qədim adı.

Həyat ağırlaşaraq zəifləri, əzilənləri, zəhmətinin barını yeyə bilməyənləri qaçmağa məcbur etmişdir. İnsanlar qaçarkən hər şeydən, səhhətindən belə, məhrum olur. Buna baxmayaraq, yenə insanlar qaçmış və nəticədə bugünkü xoşbəxt həyata nail olmuşlar...

– Çox gözəl! Daha nə istəyirsən? – deyə onun sözlərini kəsdim.

– Dünyada bir qanun var. Həyat köhnə üsulunda durduqca su kimi qoxuyur. Həyatımız artıq adət qoxusu verməyə başladı. Çarə lazımdır!

– Yaxşı, yaxşı! – deyə güldüm. – "Qoç"a gedək də, sonra. Yeddi Xoruz məbədini ziyarət etdikdən sonra "Xoruz"a vida edəcəyik. "Qoç" qəbiləsində qalacağımız üçün oranı düşünməliyik. Qoy "Quzğun" qəbiləsindən buraya evlənməyə gələn gənclər buranın qeydinə qalsınlar. Artıq biz xoruzlu deyilik...

12

Yeddi Xoruz məbədi yeddi daş sütunlu möhtəşəm bir bina idi. Sütunların yuxarısında xoruz başları qayrılmışdı. Məbədə yeddi pilləli iri daş pilləkənlə çıxılırdı. Hər pillədə əlvan geyimli, xoruzu qalpaqlı, uzun saqqallı bir qoca oturmuşdu. Bunlar bizi ney səsilə qarşıladılar. Məbədin əzəməti, qocaların qiyafəsi, neylərin yanıqlı səsi əsrarəngiz bir ahəng təşkil edirdi.

Gənclər hörmətkar bir nəzakətlə birinci pilləyə yanaşdılar. Birinci qoca neyi bir əlinə alaraq, haman dik qalxdı.

– Dur! – deyə əmr etdi. – Dur! Qoca ərənin hekayəsini dinlə!

Qocanın heybətli səsi gəncləri haman durdurdu. Dərin bir sükut bərpa oldu. Qoca başladı:

– Günəş var ikən, Ay var ikən, yeddi qardaş ulduz səyrişərək göylərin əzəmətini duydurarkən Midiya səltənəti yerə hakim idi. Onun ordusunun qüvvətindən Babil titrəyir, Elam və Suz amana gəlir, iskit Dərbənddən aşağı ayaq basa bilmirdi. Yeddi qülləli saray Həmədana süs verir, Keynəssarın yapdığı atəşgədə sönməz atəşi ilə aləmə nur saçırdı. Qoyun sürüsü, at ilxısı həddən aşmışdı. Ağaclar barlarının ağırlığından başlarını yerə əymişdi. Suvarılmamış səhra, körpü salınmamış çay, əkilməmiş yer qalmamışdı...

Qürur yavaş-yavaş sarayı qapladı. Zərdüşt ehkamları unudulmağa başladı. Hökmdarla təbəələr arasına sədlər çəkildi. Xalqın səsi eşidil-

məz oldu. Astiyaz* kefə daldı. Babil qızları, Ellin oğlanları saraya hakim kəsildi; pars şərabı beyinləri dumanlandırmağa başladı. Midiya əzəməti sarsıldı. Əhrimən qanadlarını aləmə sərdi.

Dəbdəbəmizə çoxdan bəri həsədlə tamaşa edən pars baş qaldırdı. Kürüşün** qılıncı Midiya səltənətinə xitam verdi. Assuriya, Lidiya, Elam və iskitləri titrədən ordu parslar tərəfindən ricətə sövq edildi... Atəşlər söndü, bağlar xarabalığa döndü, abadanlıq dağıldı, yer inlədi, göylər ağladı...

Lakin muğ mətanəti qırılmadı, atırvan ordusu pozulmadı və iman qülləsi baqi qalaraq, düşmənlərə qarşı için-için kin bəslədi...

Kəmbiz Xarizəm, Baqtriya, Kirman, Babil, Lidiya və Midiyadan topladığı əzəmətli bir ordu ilə Misir səfərinə çıxmışdı. Gizli kinlər üzə çıxmağa başladı, üsyan dalğası pars səltənətini qapladı, muğlar ayinlərində firona duada bulunmaqdan çəkinmədilər, çarələr arandı. Smerdis adlı bir muğ Həmədanı əldə edərək səltənətə oturdu. Atəşlər yenidən parladı, zərdüştilərin üzü gülməyə başladı...

Lakin günəşin altında heç bir şey baqi deyil! Smerdis hökmranlığı da uzun sürmədi. Pars sarayına əsas təşkil edən yeddi əsil ailə nümayəndələri muğlara boyun əyməyərək silaha sarılıb, Smerdisi devirdilər. Həyata vida deyən Kəmbizin taxtına namizəd aradılar. Pars adətincə at qüdsiyyətə malik idi; hökmdar intixabında da atın iştirakı və meyli təqdis olunardı. Smerdisi taxtdan düşürüb, muğları qırıb məhv edən yeddi üsyançı günəş doğmadan ata minib, şəhərdən kənara çıxdı. Günəş ilk şüasını atanda yeddilərdən biri olan Daranın atı kişnədi. Adət üzrə Dara hökmdar seçildi.

Ordu toplandı, üsyan yatırıldı, atəş ölkəsi alt-üst oldu. Keynəssar məbədi də yıxıldı.

Günəşin altında heç bir şey baqi deyil.

Dara Kəmbiz dövlətini ehya edərək əzəmət və dəbdəbə ilə yaşardı. İstəxrdə*** əmsalı dünyada görünməmiş bir saray yapdırmaq fikrinə düşmüşdü. Ellin adalarından Xarizəmə qədər imtidad edən ölkədəki məmurları və ustaları toplatmışdı. Lakin Dara istədiyi sarayı Keynəssardan başqa kimsənin tikə bilməyəcəyi meydana çıxmışdı.

---

* Midiyanın son hökmdarı.

** Pars səltənətini təsis edən.

*** Pars paytaxtı.

Keynəssar aranıldı, tapılmadı. Məmləkətə carçılar salındı, şəhər-şəhər, kənd-kənd gəzildi. Keynəssarı görən və yerini bilən olmadı.

Bir gün Dara ova gedir, bir ceyranı qovarkən gəlib bir sovməəyə çıxır. Keçi dərisi ilə örtünmüş, uzunsaqqal bir qocanın arxası üstə uzanaraq göyə tamaşa etdiyini görür. Dara bütün mabeynləri ilə buna yanaşır. Qoça bunları görmür kimi kirpiyini belə qırpmır. Bu əsnada sovməədə gizlənmiş ceyran Daranı görərək sıçrayıb qocaya sığınır.

Dara qocanın etinasızlığına və heyvanın ona sığınmasına heyrət edərək hiddətlə:

– Qoca, – deyir, – sən kimsən?

Qoca gözünün bir tərəfi ilə Daranı süzərək: – Mən?.. Dünyanın ən əzəmətli adamı!

Dünyada özündən başqa əzəmətli bir şəxs görməyən Dara bu yıxıq sovməədə keçi dərisinə bürünmüş qocaya baxaraq:

– Sənin əzəmətin nədədir? – deyə heyrət və istehza ilə soruşur.

– Ondadır ki, səndən qaçan mənə sığınır.

Dara gülür və qocada bir gizli qüvvə olduğunu duyub, ona bir neçə sual verir:

– Qoca, – deyir, – dünyada ən böyük arzu nədir?

– Arzusuzluq!

– Ən böyük həqiqət hankıdır?

– İnkar!

– Ən düzgün yol?

– Şübhə!

– Ən böyük həzz?

– Nisyan!

Bu cavablardan padşahın heyrət və marağı bir qat da artır. Birdən soruşur:

– Keynəssarı tanırsanmı?

– Tanıram.

Padşah sevinərək:

– Nərədədir?

– Məmləkətində, səltənətində.

– Onun məmləkəti haradır, təbəələri kimdir?

– Məmləkəti meşə, təbəəsi ceyranlar.

Dara qocanın Keynəssar olduğunu duyaraq atdan düşür. Vəzirlər və sərkərdələri də onu təqib edərək Keynəssarı əhatə edirlər. Qocaya əlvan xörəklər və ənamlar təqdim olunur. Lakin Keynəssar yerindən

belə qımıldanmayaraq göyə tamaşa etməkdə davam edir, Dara saray yapdırmaq meylində olduğunu söyləyib, Keynəssarın İstəxrə gəlməsini təklif edir:

– Sənə özün ağırı qızıl verərəm, bütün arzularını yerinə yetirərəm, – deyir.

Qoca başını tərpədir.

– Qızıl nədir – tanımıram; tanımaq belə istəmərəm. Arzu isə əzab qapısıdır, – deyir.

Dara qəzəbini saxlayaraq yeni vədlər verməyə başlayır. Lakin qoca heç birisinə boyun əymir. Əvvəlki vəziyyətdə qalaraq yanına sığınan ceyranı oxşamaqda davam edir. Nəhayət, Dara hiddətinə malik olmayıb acıqla sorur:

– Burada uzanmaqda fikrin nədir?

– Fikirsizlik!

Dara qeyzlə ata sıçrayır və:

– Cəllad! Bu divanənin qollarını bağla, atın üstə qoy, – deyir.

Cəllad Keynəssarın qollarını bağlarkən, qoca əyilərək ceyranın qulağına:

– Qaç! İnsandan uzaq olmaq salamatlıqdır, – deyir. Ceyran söz anlar kimi, sıçrayıb, meşədə qaib olur. Keynəssarı İstəxrə gətirirlər. Orada saray tikməsi yenidən ona təklif olunur. Yenə rədd edir. Bu dəfə padşahın əmrinə görə onu bürclərin üstünə qaldırıb, oradan aşağı atırlar.

Günəşin altında heç bir şey baqi deyil! Keynəssar ölmədi – bürcün altında duran bir dəstə atırvan onu havada tutub qaçırdılar.

Əmək və sənətlə yaratdığı məbədin xarab olmasını görüb, tərkidünya olan Keynəssar yenidən həyata doğru dönür. Bir dəstə muğla bərabər şimala tərəf çəkilərək "Xoruz" qəbiləsində sakin olur...

Günəşin altında heç bir şey baqi deyil!

Yalnız mətanət və mübarizə baqidir. İştə, bu möhtəşəm məbəd Keynəssarın mətanət və mübarizəsinin məhsuludur. Özü də yapdığı bu məbədin altında dəfn olunmuşdur...

Günəşin altında heç bir şey baqi deyil!

Yalnız mətanət və mübarizə baqidir!.."

Ərən hekayəsini bitirib oturdu. Yeddi ərən yenidən ney çalmağa başladı.

İkinci pilləyə ayaq basmaq istədik. Orada oturan ərən neyi ağzından çıxarıb dik qalxdı:

– Dur! Dur! Qoca ərənin hekayəsini dinlə! – deyə əmr etdi.

Hamımız birinci pillədə sıra ilə durduq.

Ərən başladı:

– Anu* göyü yaratmışdı;

Anlil** yeri yaratmışdı;

Ea*** suları yaratmışdı;

Sənnaşərib Babildə padşah idi.

Nərqaləddin adlı bir kişi Ninni adlı bir qıza elçi göndərib, onunla evlənmək istəyirdi. Ninni razı olur, ancaq qırx gün vaxt istəyirdi. Nərqaləddin çirkin, ancaq varlı idi. Ninni onun varlılığına sevinir, çirkinliyindən kədərlənirdi. Ninni evdə oturub, üç gün, üç gecə düşündü; axırda çıxacaq yol tapdı.

Babil qanununa görə, qız ərə getməzdən əvvəl bir əcnəbi ilə eşqbazlıq etmək haqqına malik idi. Ninni bundan istifadə etmək istədi.

Bir gün axşam çağı geyinib, İstər**** məbədinin yanına getdi. Eşq ilahəsi yolunda eşqbazlıq meylində olan qız və oğlanlar buraya toplanırdılar.

Ninni əlində bir pul tutaraq məbədin önündə gəzinməyə başladı. Orada bir çox əcnəbi oturmuşdu. Bunların arasında ucaboylu, irigözlü, buğdayısifət bir gənc vardı. Ninni onu görcək dayanıb qaldı – ayaqları irəli getmək istəmədi. Əlindəki pulu onun qucağına atıb, geri döndü: pul atmaq – "məni təqib et" demək idi.

Gənc yerindən sıçrayıb, Ninninin ardınca getdi. Gəncin mənzilinə gəldilər. Ninni soyunub gəncin yanına girdi. Gənc Ninninin bütün gözəlliklərinə malik oldu...

Suz şəhərindən ticarət üçün Babilə gələn bu gənc qırx gün orada qalıb, hər gün Ninni ilə bərabər eşq atəşi ilə oynamağa davam etdi.

Qırx birinci gün Ninni Nərqaləddinin evinə gəlin köçdü.

Bir il keçdi. Ninninin bir oğlu dünyaya gəldi... Bunlar yaşamaqda olsun sizə kimdən deyim – Sənnaşəribdən.

---

* Göy allahı

** Yer allahı.

*** Su allahı.

**** Eşq ilahəsi; Sürəyya ulduzuna müqabildir.

Babil padşahı Sənnaşərib bir axşam bir röya gördü. Sin* onun yuxusuna girib dedi: "Ey mənim vəkilim, sabah axşam təğyir-libas edib, Nərqaləddinin evinə qonaq gedərsən; gecə də orada yatarsan". Sənnaşərib yuxudan ayılıb, sabaha qədər yata bilmədi. Gündüzü səbirsizliklə keçirib, axşam paltarını dəyişdi və Nərqaləddinə qonaq getdi.

Ev sahibləri qonağa olan hörməti əsirgəmədilər – yemək verdilər, sonra da yataq düzəldib, onu yatırdılar. Nərqaləddinlə arvadı da uşağı yatağına qoyub uzandılar.

Sənnaşərib uyumayıb dünənki yuxusunun çin** olmasını gözləyirdi. Gecənin bir yarısı Ninni yataqdan qalxdı, geyinib getdi.

Sənnaşərib də onun arxasınca çıxdı. Ninni gedib Fərat kənarında balaca bir evin qapısını döydü. Qapıya ucaboylu, irigözlü bir gənc çıxdı. Gənc: "İndiyə qədər haradasan?" – deyə Ninniyə acıqlandı, sonra Ninnini içəri buraxıb, qapını örtdü. Sənnaşərib yeriyib, qapının arasından içəri tamaşa etməyə başladı. İçəridən deyişmə səsi gəlirdi; gənc deyirdi:

– Gec gəlməkdə, görünür, məni sevmirsən.

Ninni and içərək inandırmağa çalışırdı:

– Evə qonaq gəlmişdi, onun üçün ləngidim.

– Yox, inanmaram!

– Nə edim ki, inanasan?

– Eşqinin doğru olmasını isbat et.

– Nə ilə deyirsən, edim.

– Get oğlunun başını kəs, gətir, inanım.

Ninni haman evi tərk etdi. Sənnaşərib də onu təqib etdi.

Ninni evinə gəlib, oğlunun yorğanını yavaşca qaldırdı, bir bıçaqla başını kəsib, dəsmala qoyub çıxdı. Gəlib yenə Fərat kənarındakı evin qapısını döyüb, içəri girdi. Sənnaşərib cəld irəliləyib, qapının çatlağından içəri tamaşa etməyə başladı.

Ninni oğlunun qanlı başını gəncə göstərib, bucağa atdı. Sonra öpüşüb kefə başladılar.

Sənnaşərib sabah qırmızı geyib taxta çıxdı. Vəziri yanına çağırıb, gecə gördüklərini nağıl etdi. Sonra dedi:

– Dünyadan şərin kökünü kəsmək üçün bütün qadınlar Fərat çayına atılmalıdır. Söylə, hazır olsunlar!

---

* Ay allahı.

** Doğru

Vəzir düşünüb dedi:

– Padşah sağ olsun, izin ver bir hekayə söyləyim də, sonra əmr verək.

Padşah razı oldu. Vəzir başladı:

– Günlərin birində təmər şərbətçisinin dükanında oturmuşdum. Bir gənc süvari gəlib, dükanın qapısında durdu. Görünür, qərib idi. İçəri boylandı. Maraqlanıb dışarı çıxdım. Gənc mənə yönələrək: "Qardaş, – dedi, – kəfən alacağam, bilmirsən harada satırlar?" Ona qoşulub kəfən dükanına getdim. Gənc kəfən aldı və məndən razılıq edib, yola düşdü. Marağım daha da alovlandı. Bir at tutub, gəncin arxasınca getdim. Şəhərdən çıxdıq. Gənc dönüb, məni arxada gördükdə, atını dayandırdı. "Ay qardaş, – dedi, – kimsən, nəkarəsən, bilmirəm, mənim sirrimə əl aparma!" Mən: "Sən kimsən, nəkarəsən, bilmirəm, ancaq məndə bir maraq oyandırdın. İzin ver də sənə əlimdən gələn köməyi edim", – dedim.

Gənc çox tərəddüddən sonra razı oldu. Yola düşdük. Bir təpəyə yanaşdıqda atını mənə tapşırıb getdi: "Məni bir az gözlə", – dedi. Gözlədim. Bir saat gözlədim, gəlmədi, iki saat gözlədim, gəlmədi. Axırda atları yedəyimə alıb təpənin başına çıxdım. Bir də nə gördüm – təpənin arxasındakı dərədə vuruşurlar. Mənə atını tapşıran gənc sağa-sola qılınc vurur: bir sıra adamları vurub yıxmışdı. Mən köməyə gedənə qədər gənc ətrafdakıları qılıncdan keçirib döndü. Kənarda bir meyit var idi, götürdük. Gətirib kəfənlədik və qəbrə qoyduq. Bir az qəbirdən aralanmışdıq, bir də gənc dedi: – "Sən burada dur, bu saat qayıdıram". Getdi, mən də atları başına qoyub irəlilədim və bir günbəzin arxasına qısılıb, gözlərimlə gənci təqib etdim. Gənc gəlib qəbrə sərildi, doyunca ağladı. Sonra "Qanını aldım, düşmənlərini öldürdüm. Artıq ərindən vəfa görən qadına dünyada yaşamaq lazım deyil!" – deyə qəməsini çıxarıb, ürəyinə soxdu. Yıxılarkən başından papağı düşdü, uzun saçları çözülüb, töküldü.

Vəzir hekayəni bitirib susdu. Sənnaşəribin hiddəti yatmışdı. Bütün Babil qadınlarının Fərata atılması fikrindən daşınaraq, yalnız Ninnini suya atdırdı.

Ərən hekayəsini bitirən kimi yenə neylər çalınmağa başladı.

14

Üçüncü pillədə oturan ərən çox tühaf idi – xoruzi papağı əyilib, bir qulağını basıb sallamışdı. Neyi çalaraq coşur, oturduğu yerdə oyan-buyana sallanırdı. Ceyniz üzümə baxaraq gülümsədi.

Üçüncü pilləyə ayaq basmaq istədik. Ərən dik qalxaraq:

– Dur! Dur! – dedi. – Qoca ərənin hekayəsini dinlə. Bunun hər bir hərəkəti tühaf idisə də onu maraqla dinlədik.

Ərən hekayəsini başladı:

– "Samilər diyarında, qumlu səhrada ayaqyalın, başıaçıq bir kişi çıxaraq xalqı başına toplayıb, min bir nağıllar söyləyirdi. "Ey zəlalətdə qalan yazıqlar, yeri-göyü yaradan, axirət gününün sahibi Olan Yekovu tanımırsınızmı? Sizi odlarda yakar, sizi dünya işığından məhrum edər, evlərinizi alt-üst edib, balalarınızı səhralara salar... Mən onun nəbisiyəm. Sizi haqq yola dəvət etməyə gəldim. Gəlin, ətrafıma toplanın!..

Haqq yolu bulun!.."

Hər kəs nəbini dəhşətlə dinləyir, qorxudan tir-tir əsirdi.

Çox çəkmədən nəbinin şöhrəti bütün səhraya yayıldı – vahə xurmalıqlarında, karvan düşərgələrində həp nəbidən bəhs edilirdi.

Turi-Sinayə ticarətə gedən bir ellin nəbi haqqında söylənən sözləri eşidib, onu görmək istədi. Nəbinin yerini göstərdilər. Getdi. Nəbi xurma ağacının altında oturub, çəyirtkə yeyirdi.

Ellin salam verdi, nəbi çəyirtkə təklif etdi, ellin yeməyib dedi:

– Ya nəbi, şöhrətini eşidib, söhbətə gəldim.

– Xoş gəldin, otur! – dedi. – Uzaqdanmı səfərin?

– Atinadan gəlirəm.

– Orası nədir? Şəhərmi, kəndmi?

Ellin heyrətlə:

– Nəbi, Atinanı eşitmədinmi?.. Heyrət! Filosoflar və allahlar şəhərini bilmirsənmi?

"Allahlar" sözü nəbinin hiddətinə səbəb oldu: çəyirtkəni atıb:

– Yahu! Allahlar nə demək? Müşriklik zəlalətində boğulmaq yetməzmi?.. Bir olan, böyük olan əzəli və əbədi xaliqi tanı: onun haqq yoluna gəl! Fani dünyaya uyma! Hər bir şeydən əl götür də, xaliqin yolu ilə get... ondan ədalətli, ondan yüksək bir qüvvə yoxdur...

Ellin bir şey anlamadı:

– Nəbi, – dedi, – o xaliq dediyin nədir? Tərif etməzmisən?

– O böyük, əzəmətli, əzəli, əbədi, dünya və axirətin sahibidir.

Ellin yenə bir şey anlamadı:

– Başlanğıc, davam və intəha Zevsdən ibarətdir, – dedi. – Başqasına qail ola bilmərəm. Olimp dağından ildırım yağdıran Zevsdən böyük bir qüvvə olarmı?

Nəbi yenə hiddətləndi:

– Zevs kimdir? Yekovdan böyük, ondan əzəmətli xaliq ola bilməz. O təkdir, şəriki yoxdur. Ona şərik qərar verənlər mürtəddirlər.

Ellinlə nəbi arasında qovğa başlandı. Bütün karvandakılar buraya toplandı.

Həmədanlı bir tacir sakit səslə:

– Nəbi, – dedi, – yüksək və ədalətli bir qüvvəyə inanmaq, dünya gərdişini, onda olan hadisələri izah etməkdən aciz qalmaq deməkdir. Yaradılışa hakim ədalətli bir vəhdət, varsa, dünyadakı ədalətsizliyi nə ilə izah edərsən? Gözlülər arasında işığa möhtac korlar var; xoşbəxtlər arasında talesizlər var; bolluqla yaşayanlardan çox yoxsul, ağalardan çox qul, gözəllərdən çox çirkinliyindən utananlar var... Bu ədalətsizliyi kim törədir?.. Yox, nəbi, tutduğun yol düzgün deyil. Dünya hadisələrini vəhdət fikri ilə izah etmək olmaz! Yaradılışda ikilik var; bir qüvvə ədalətə çalışan kimi o biri də ədaləti pozur. Mazdanın işığı ilə bərabər Əhrimənin də qaranlığı var. Yaşayış bu iki qüvvənin mübarizəsindən ibarətdir. Nəticədə Mazda qələbə çalacaq, dünya işıqlar içində parlayacaq, insan əbədi səadətə nail olacaq!.. Həqiqət budur!
Misirli bir qoca söhbətə girişdi:

– Yekov kimdir? Zevs kimdir? Mazda nədir? Misir allahlarından başqası yalandır. Ölülər, elemanlar və günəş allahlarını inkar etmək olarmı? Soqaris, Oziris, Anubis, Neftus, Ra, Nu.. kainata hakim deyillərmi? Bu həqiqət Ra kimi aşkar və parlaqdır...

Babilli birisi misirlinin sözlərini kəsdi:

– Heç də doğru demirsən. Yalnız bizim Anu göylərə hakimdir. Bütün ulduzlar onun taxt və tacının ətrafına toplanaraq, aləmə nur saçır. Anlil yeri idarə edir. Ea isə suların himayəsi ilə məşğuldur. Bunlardan başqa Sin və onun iki övladı...

Bu əsnada şaqqırtı ilə qopan qəhqəhə babillinin sözlərinə xitam verdi. Hər kəs çönərək, qəhqəhədən bayılan Həbəşə tamaşa etməyə başladı. Burnu halqalı bu adam nizəsini yerə ataraq, qəhqəhəyə dalmışdı, arabir əllərini çırparaq:

– Allahın övladı varmış, – deyə sərzənişli sözlər fırladır və gülməsində davam edirdi.

Buradakıların hamısı, zatən, həbəşi vəhşi zənn edərək ondan başqa bir hərəkət də ummurdular. Həbəş də bunları anlamaz zənn edib, boş söhbətləri dinləməyi lüzumsuz gördü. Oxlarını toplayıb, nizəsini

götürdü və yenicə ovladığı aslan balasını sürüyə-sürüyə izdihamdan uzaqlaşdı.

Vahənin kənarında yoluq bir xurma ağacı var idi. Həbəşin ailəsi bunun altında yaşayırdı. Çocuqları onu görcək qarşısına çıxdılar və aslan balasından yapışıb, xurma ağacının dibinə apardılar. Döşləri sallaq fitəli bir qadın onun silahını alıb, ağacdan asdı. Kənarda palçıqdan yapılma bir büt var idi. Önündə bir çox heyvan sümükləri tökülmüşdü. Həbəş bıçaq götürüb aslanı soydu. Qadın ocaq qaladı və aslan ətini onun üstünə salmadan əvvəl həbəş bir yağlı tikə götürüb, bütün dodaqlarına sürtməyə başladı:

– Ya rəbbim, – deyirdi, – bu gün mənə ov yetirdin. Sənə min şükür! Payını al, ye, doy. Sabah da yetir, yenə payını verim!

Həbəş ibadətini bitirdikdən sonra ailəsini başına toplayıb bütünə minnətdar hisslər bəsləyərək nahara başladı".

Ərən hekayəsini qurtarıb oturdu. Yenə ney çalındı!.

## 15

– Bu ərənin hekayəsi də özü kimi tühafdır! – deyə Ceyniz qulağıma pıçıldadı. Bir də dördüncü ərənin:

– Dur! Dur! – deyə hayqırması eşidildi. Ərən hekayəsini başladı.

"– Halic* çayının qırağında Naramsin adında bir kişi Nada adlı arvadı ilə yaşayırdılar. Naramsin balıq ovlayıb, meşədən meyvə yığıb, evinə gətirir, qarınlarını doyurur, Allah və ilahələrinə dua edirlərdi. Onların yeganə dərdi övladları olmaması idi. Bir gün Halic kənarına bir qərib gəlib çıxdı. Naramsin qəribi evə qonaq gətirdi. Oturdular, yeyib-içdilər, sonra qonağın ayaqlarını yuyub yatırdılar.

Adət üzrə ev sahibinin arvadı qonağa hörmət edərək onunla yatmalı idi. Nada da adətə riayət edib, qəribin yatağına girdi...

Sabah qərib durub getdi. Ev sahibləri yenə yalnız həyatlarına davam etməyə başladılar.

Ay keçib, il dolandı. Nadanın bir çocuğu oldu. Evdə bir şənlik doğdu. Ər-arvadın sevincinin həddi yox idi. Lakin bu sevinc uzun sürmədi – günün birində çocuq iməkləyib, çaya düşüb boğuldu. Ər-arvad yasa batdı.

---

* Qızıl İrmaqın qədim adı.

Çocuq ölən günü Naramsinin damındakı göyərçin yuvasında yumurtadan bir göyərçin balası çıxdı. Naramsin bunu görüb sevinərək arvadına dedi:

– Nada, bax, çocuğumuzun ruhu yəqin bu göyərçin balasına keçmişdir. Başqa cür də ola bilməz ki... Məsum bir çocuğun ruhu yalnız günahsız bir quşa keçə bilər.

Qadın dindar idi və ruhların diri olaraq bir məxluqdan o birisinə keçməsinə inanırdı. Gedib göyərçin balasını gördükdən sonra dərdini unutdu.

Naramsin yenə əvvəlki kimi ova gedir və arvadı ilə bərabər göyərçin balasını bəsləyirdi. Göyərçin böyüdü və ər-arvada elə öyrəşdi ki, onlar yaşayan otaqda qalırdı.

Bir gün yunanların şərq səfəri başladı. Ordu yürüdü və Halic kənarı düşərgə oldu. Əsgər ətrafda əlinə düşəni yeməyə başladı. Çayda balıq, meşədə heyvan, quş və meyvə qalmadı. Naramsinin qapısını gündə bir adam kəsdirib, yemək istədi. Ailə var-yoxundan çıxdı.

Bir dəfə də ac əsgərlərdən birinin gözü evdəki göyərçinə sataşdı, onu tutub başını kəsmək istədi. Naramsinlə Nada əsgərin ayağına yıxılıb yalvardılar.

– Göyərçin bizim övladımızın ruhunu daşıyır, onu öldürmək bizi sonsuz buraxmaq deməkdir! – dedilərsə də əsgər qərarından dönmədi. Ər-arvadı ağlar qoyaraq, göyərçini apardı.

Ailə yenidən qəmə batdı.

Göyərçinin ruhunun kimə və nəyə keçməsi onlara bəlli deyildi, çünki ətrafda canlı bir şey qalmamışdı. Nada ümidsiz bir halda bütün günü çayın qırağında oturub, göyərçin deyə ağlayırdı. Nəhayət, dərdlərə dözə bilməyib, xəstələnib öldü.

Naramsin yalnız qaldı. Bir axşam çayın qırağında oturub düşüncələrə dalmışdı. Bir də bir bayquş gəlib, evin üstündə ulamağa başladı. Naramsin düşüncədən ayrılaraq, bayquşa baxdı və onun qəmgin səsində Nadanın nalələrini duydu. Ayağa qalxıb, evə yanaşdı:

– Gəl, gəl, – dedi, – tənha dərdlərimə şərik ol! Bayquş küsər kimi yerindən tərpənmədi. Naramsin qapını açdı:

– Gəl, gəl! Nadanın ruhunu daşıyan! Nadanın ruhunu daşıyan əziz quş, gəl! – dedi.

Bayquş bir də ulayıb qalxdı və gecənin qaranlığına qarışıb, yox oldu.

Naramsin uyumayıb, sabaha qədər oturdu. Dan yeri qızaranda evinə, çaya, meşəyə vida deyib, yola düşdü.

Üç gün sonra bu bir köçə rast gəldi. Bir neçə mal-qara, qadınlar və çoluq-çocuqdan ibarət bir köçün önündə başı çapılmış bir qoca gedirdi. Naramsin də köçə qoşulub getdi. Sərt simalı qoca Naramsinə etina etməyib, yoluna davam edir və bir gəlmə də olsa onunla danışmaq istəmirdi. Nəhayət, Naramsin qocanın nərəyə getdiyini soruşa bildi. Qoca acıqlı bir səslə:

– Dağlara, adam ayağı dəyməyən meşələrə köçürəm. Ellin əsgərləri oğlanlarımı öldürdülər, qızlarımın namusuna təcavüz etdilər, heyvanımı kəsib yedilər... Özüm də yaralandım... Bildinmi?.. İnsandan qaçıram!

Bir az sükutdan sonra qoca Naramsinin haraya getdiyi ilə maraqlandı. Bu da dərdini anladaraq:

– Ruhların köçəcəyi yeri, ruhlar yurdunu arayıram, – dedi.

Qoca Naramsinə tərs-tərs baxıb:

– Ruh nədir? – dedi. – Dəlimi oldun? Görürəm, sən də başıma bir dərd açacaqsan. Ayrı get, bəlanı bizdən uzaqlaşdır!

Naramsin danışmaq istəmədi, lakin qoca onu çomağın altına salıb, köçünü başqa tərəfə çöndərdi.

Naramsin ruhlar yurdu arayaraq yoluna davam etdi... Nəhayət, bu yurda nail oldu...

İştə, hekayədə adı zikr olunan Naramsin mənəm! Ruhlar yurdunu burada buldum. Fərd müvəqqəti, ruh isə əbədidir. Bu gördüyünüz abadan qəbilə də o ruhların məhsuludur. Fərdlər ölər, əməlləri onların ruhlarını əbədi olaraq yaşadar”.

Qoca Naramsin oturdu. Ney səsi başlandı.

## 16

Beşinci pilləyə çıxmadan oradakı ərən yenə dik qalxıb:

– Dur! – dedi. Bir sırada düzülüb, büt kəsildik.

Ucaboylu, xoşsəsli ərən hekayəsini başladı:

“– Firon diyarında Qamanla Mariqeri adlı iki qardaş var idi. Qaman böyük, Mariqeri isə kiçiyi idi. Qamanın İzza adında bir arvadı və iki çocuğu var idi. Bir gün Qaman işdən dönərkən böyük çocuğu qarşısına yüyürüb, dedi:

– Ata, əmim anamın üzündən öpdü.

Qaman hiddətindən titrədi və yetişən kimi qardaşını tutub boğmağa başladı. Mariqeri yalvardı, ağladı və məsələni izah etməyə çalışdı. Nəhayət, qardaşı onu buraxıb, kənara çəkildi. Mariqeri dedi:

– Qardaş, bu gün tarladan yorğun dönmüşdüm. İzza su gətirib, mənim ayaqlarımı yudu. Təşəkkür edərək onun alnından öpdüm. Bütün məsələ bundan ibarətdir. Günahım varsa keç!..

Qamanı bu sözlər qane etmədi – Mariqerini evindən qovdu.

Mariqeri baş götürüb şəhərə getdi. Ac idi. Şəhəri dolanıb yeməyə bir şey tapmadı. Məbədlərdən birinin həyətinə gedən izdihama qoşulub, içəri girdi. Həyətdə ocaq qalamışdılar. Qurban kəsiləcəyini duydu. Bir az keçmiş bir öküz gətirdilər. Məbəddən başı, saqqalı və bığı qırxıq bir ruhani çıxdı. Əynində kətan paltarı, ayaqlarında papirusdan məsti var idi. Ruhani yeriyib öküzü tədqiq etməyə başladı. Dərisində heç bir ləkə duymayıb, qurbanlığa layiq olduğunu bildirərək, buynuzlarına papirus qurdələsi doladı. Öküzü yıxıb kəsdilər.

Mariqeri qarnını doyurub, öküzün də başını götürüb çıxdı. Misirlilər qurban kəsilən heyvanın başını yeməzdilər, çünki etiqadlarınca, nəziri olanların bütün dərdi, bəlaları heyvanın başına keçərdi, Mariqeri başı aparıb, bir ellin tacirinə verdi və əvəzində bir pişik aldı. Heyvanların himayəsi vacib sayıldığı üçün onları himayə edənlərə nəzir verərdilər. Mariqeri pişiyi götürüb, izdihamlı bir yerdə durdu. Çox çəkmədi, bir kişi ilə bir çocuq ona yanaşdı. Kişi dəllək çağırıb çocuğun başının yarısını qırxdırdı, tükləri tərəziyə qoyub, Mariqeriyə tük ağırlığı qızıl verib getdi. Mariqeri pişiyin sayəsində axşama qədər bir çox qızıl toplayıb, həm özünü, həm də pişiyi doyurdu.

Hər gün Mariqeri pişiklə bərabər bazara çıxar və bir neçə çocuq sahibindən nəzir alardı. Bir gün bazara təntənəli bir araba gəldi. İçindən ipək geyimli bir qadınla bir çocuq, bir qul və bir kəniz endi. Qadın dəllək çağırıb, çocuğun başını bütün qırxdırıb Mariqeriyə iki tük ağırlığı qızıl verdi. Mariqeri heyrət etdi, çünki ona hələ iki tük ağırlığı qızıl verən olmamışdı.

O biri gün bir araba gəlib, Mariqerini fironun sarayına apardı: fironun çocuğunun nəziri qəbul olduğu üçün saray heyvanlarının himayəsi Mariqeriyə həvalə olundu.

Mariqerini hamama aparıb, ona uzun ipək paltar, papirus ayaqqabı və başına örtmək üçün zolaq, şaxlı ipəkdən ləçək verdilər. Sarayın bağçasında ayrıca otaq təxsis olundu. O gündən etibarən fironun dəvə,

zebr, zürafə, it, pişik, keçi, eşşək, aslan və müqəddəs timsahlarına nəzarət başladı. Fironun əmrinə görə ona baş çodar ləqəbi verildi.

Bir gün "Fironun arvadı heyvan bağçasını ziyarət edəcək" – deyə Mariqeriyə xəbər verildi. Mariqeri lazımi hazırlıqda bulundu – heyvanların hamısına ipək çullar çəkildi. Başları dəvə quşu lələkləri ilə bəzəndi. Bir də təşrifat müdiri başda olaraq qafilə bağçaya doğru yürüməyə başladı. Bir-birinin arxasına düzülərək on iki yaşlı qadın, ondan sonra fironun xanımı gəlirdi; hər tərəfdən ağ geyimli altı qız onun başına tovuz lələklərindən yapma şəmsiyyələr tutmuşdular. Arxa tərəfdən əlvan rəngli kənizlər, nədimlər və xədimlər düzülmüşdü. Xanım yürüdükcə cıqqasının ziqiymət qaşları min bir rəng çalırdı.

Mariqeri on iki dəfə əyilərək xanıma təzim etdi. Sonra qəssaba işarə olundu, xanımın ayaqlarının altında ləkəsiz bir öküz kəsildi.

Xanım bağçanı gəzib, heyvanları birər-birər ziyarət etdi, onları oxşayaraq hamısına da əli ilə yem verdi. Mariqeri xanımı təşyi edir və heyvanlara dair maraqlı sözlər söyləyirdi. Mariqerinin buğdayı sifəti, dolğun dodaqları, ağ dişləri, sürməli gözləri xanımın nəzərini özünə cəlb etdi. O, bağçada lüzumundan artıq qalıb, Mariqerinin söhbətinə daldı...

Ziyarət bitdi. Mariqeri xanımı bağça qapısına qədər təşyi edib döndükdə arxa tərəfdəki kənizlərdən birisinin ona bir lotos çiçəyi tulladığını gördü. Düzgün çöhrəli, qara və parlaq dərili bu zənci qızı o qədər cazibəli idi ki, Mariqeri gözlərini ondan ayırmaq istəmədi.

O andan etibarən eşq quşu zənci qızı ilə Mariqerinin ürəklərində yuva tikib yerləşmişdi. Axşamlar ay yaldızlı qanadını Nil çayının üzərinə gərərkən zənci qızı saray tayfasını yuxuya verib gəlir, ikisi də xurma kölgəliklərinə çəkilərək, sevgi şərbətindən içirdilər.

Fironun xanımı da Mariqerini unuda bilmirdi – bu da uyquya vida deyərək gecə sabaha qədər saray pəncərəsinə söykənib ağlayırdı. Fironun casuslarından çəkinərək, ayrılıq atəşində odlanırdı...

Bir gecə yarısı "nə olur-olsun!" – deyə xanım bağçaya enmək cəsarətində bulundu. Ətrafına baxa-baxa Mariqerinin evinə doğru yürüdü. Bir də... gözlərinə inanmadı: Mariqeri diz çökərək Sfinks heykəlinin üst səkisində oturan bir qızın ayaqlarını qucub, ibadətkar bir vəziyyət almışdı. Qız zənci qızı idi; titrək əlləri ilə Mariqerinin başına lotos yarpaqları tökürdü... Xanım nə yapacağını şaşırdı. Qısqanclıq əzabına tutularaq, geri döndü.

Artıq xanım üçün saray əyləncələri, qayıq seyri, rəsmi qəbullar, taxt-tac nəşəsi... mənalarını qeyb etmişdi. Yatağından çıxmayaraq saralıb solurdu. İntiqam hissi ona rahatlıq vermirdi. Yaşlı on iki qadını birər-birər çağırıb, gizli-gizli danışır, məsləhətlər soruşurdu...

Bir gün "Mariqeri sarayı murdarlamaq üçün heyvan bağçasına donuz buraxmış" – deyə şayiələr yayıldı. Firondan tutmuş son xədəməyə qədər hər kəs həyəcan içində idi. Mariqeri saraya çağırıldı, cəllad hazırlandı... Lakin Mariqeri tapılmadı: qaçmışdı.

Xanım məqsədinə vararaq, sakit oldu.

Misir qanununca, donuza əl vurmuş bir adam məbədə girmək haqqından belə məhrum edilirdi. Mariqeri bu qədər ağır töhmətdən qurtulamayacağını bilərək şəhəri tərk edib, uzaq təpədə minlərlə qullar tərəfindən yapılan piramidaya sığındı. Günəş çıxandan batana qədər ağır işdən inləyən qullar Mariqerini sevinclə qarşıladılar. Gecələr qumlar üzərinə sərilən çılpaq qullarla bir yerdə yataraq saray fitnələrindən, zülmündən, dəhşətlərindən söylədi.

Gündüzləri Mariqeri qullarla bərabər işləyirdi. Onun da bunlar kimi ağır daşlar daşımaqdan əlləri və umuzları yara olmuşdu; günəşin amansız istisi onu da yandırıb qurudurdu...

Piramidanın üzərindən düşüb əzilənlərin, ishaldan ölənlərin sayı yox idi... Cəld işləyə bilməyənləri çubuqla döyüb, qanına bulaşdırırdılar...

Bir gün xəstələnib işə çıxmayan bir qulu zorla gətirib, çubuq altına saldılar. Zavallı qul on beş çubuqdan sonra öldü. Bunun şahidi olan Mariqeri qulları təhrik edərək, işi tərk etdi. Minlərcə qul tökülüb, firon məmurlarını öldürdü. "Zülmün mənbəyi saraydır, saray!" – deyə səslər eşidildi. Yaralanmış qara vücudlardan ibarət dəhşətli bir axın saraya doğru axmağa başladı. Firon ordusu tüğyanı duyaraq, qoşub od yağdırdı. Yüzlərlə adam öldürüldükdən sonra qulları dağıtdılar. Bununla məsələ bitmədi: onlarca təkatlı saray arabası, Firon başda olaraq, vuruşma meydanına gəldi. "Üsyan başçıları əldə edilsin!" – deyə əmr verildi. Qullara işgəncələr verilərək təhrik edənlər soruldu. Nəhayət, Mariqeri ələ keçdi. Firon onu tanıyıb, saraya götürdü. O biri gün sarayın böyük salonunda təntənəli bir məclis düzəldi. Firon və arvadı taxtda əyləşdi. Mariqeri gətirilib mühakimə olundu. Sonra ölümə məhkum olmasını elan etdilər. Cəlladlardan birisi qabda zəhər gətirdi. Mariqeri zəhəri mətanətli bir təbəssümlə qarşıladı:

– Heyvanları himayə edərək, insanları heyvan şəklinə salan bir həyatı məmnuniyyətlə tərk edirəm! – deyib, zəhəri başına çəkdi.

Bu anda zənci qızı salonun ortasına sıçradı, qabda qalan zəhəri içib, Mariqeriyə sarıldı. İkisi də birlikdə döşəmənin üzərinə yıxıldı".

Ərən hekayəsini qurtarıb oturdu. Neylərin yanıqlı səsi hekayədən doğan təsiri bir qat daha dərinləşdirdi.

17

Altıncı pilləyə çıxmaq istədik, yenə ərən durub hekayəyə başladı:

– "Hind diyarında bir kənd varmış. Bu kəndin xalqı buğda əkib, ipək saxlamaqla həyatlarını təmin edərmişlər. Bir il buğda əkilir, yağış olmur, xalq gündə üç dəfə duaya çıxıb, qurbanlar kəsib, allahlardan yardım gözləyirmişlər. Göylər, sanki inad edərək, xalqın duasını eşitməz olur. Brahmaya* müraciət edirlər. Brahma hamını müsəllaya çağırır. Kişi, qadın çoluq-çocuq evləri tərk edərək tarlaya doğru çıxır və duaya başlayırlar.

– Aqni** İndira!*** Ritu!**** – sizi deyə gəldik. Parlaq və müəzzəm Aqni, bizi himayə et!

– İndira, ey mütləq padşah, yanımıza gəl, gəl də qurbanımızı qəbul et.

– Ritu, ey fəslin ümidi! Yardımını bizdən əsirgəmə!

– Göylərin yüksəkliyindən baxın, bizi nəzərdən salmayın!

– Pak işıqlı Aqni, müğənnilərin səsi, şairlərin qəsidəsi həp sənə doğru yüksəlir! Gəl də, soma***** piyaləsindən dad!

– İndira, səni çağırırıq! İkiatlı altun arabana min, Marutu****** da yanında oturt, gəl! Ey soma dostu, gəl də bizi şad et!

– Zəngin və qəvi İndira, tarlalarımızı himayə et, yağışını əsirgəmə!..

– Gəlin, gəlin, ey göylərin ağası, bizi xoşbəxt edin. Gəlin, qurbanımızı qəbul edin! Gəlin bal kimi somamızdan dadın!..

---

* Ruhani.

** Atəş allahı.

*** Fəza və yağış allahı.

**** Fəsil allahı.

***** İçgi.

****** Sabah yeli, nəsim.

Brahmanın duası da göylərə təsir etmir. Quraqlıq tarlaları xarab etmədə davam edir.

Dəfələrlə müsəllaya çıxılırsa da göydən yerə bir damla belə düşmür. Taxıl yanır, aclıq insanları fəlakətə sövq edir. Qış gəlmədən hərə bir tərəfə qaçmağa başlayır. Aclar önünə gələn kəndləri talayaraq, irəliləyir. Başqa yerlərin acları da bunlara qoşulub, böyük bir axın əmələ gətirir.

Artıq insanlar bir-birini yeməyə başlayır. Növbə ilə çocuqları kəsməyə dururlar. Bir dul qadının doqquz yaşında yeganə bir oğlu var imiş. Bir gün sonra kəsilmək növbətinin oğluna gəlməsini duyaraq, çarələr aramağa başlayır. Nəhayət, gecənin bir yarısı oğlunu bir ağac üzərinə mindirib, Qanq çayına atır:

– Oğlum, Qatama, – deyir, – ana üçün ən böyük dəhşət övladının kəsilməsini görməkdir. Get, səni Maruta tapşırıram. Başına bir iş də gəlsə, qoy məndən uzaqda gəlsin. Səni aclıq içində böyütdüm, südümü səndən əsirgəmədim!.. Parlaq Aqni də himayəsini səndən əsirgəməsin! Ananı unutma! Atandan yadigar olaraq, bir bazubənd qalmışdı, qoluna bağlamışam. Ananı könlün istədikdə qoxusunu ondan al!..

Çocuğun bağırtısı ananın seyhələrinə qarışdı. "Ana!" – deyə hayqıran körpəni su götürdü; qoca Qanqın kənarı göz yaşları ilə islandı...

İki gündən sonra çocuğun mindiyi ağac bir lilliyə çıxaraq dayandı. Suya gələn bir qoca bunu görərək, çocuğu açıb kənara çıxartdı. Burada qırx çılpaq kişi oturmuşdu. Çocuğu aralarına alıb yedirib-içirdilər. Sonra ona bir-bir sual verməyə başladılar:

– Dünyada ən böyük nədir? – deyə biri sordu.

Çocuq:

– Aqnidir, – dedi.

Qırxlar bir yerdə:

– Fəqir onu inkar edər, – dedilər. Bir ayrısı:

– İnsan üçün ən zəruri nədir? – deyə sordu. Çocuq:

– Yemək, su və hava! – deyə cavab verdi. Qırxlar yenə bir yerdə:

– Fəqir onu inkar edər, – dedilər.

– Dünyada ən böyük rəhbər kimdir?

– Brahma!

– Fəqir onu inkar edər!..

– İnsanlara kim hökm edər?

– Padşah.

– Fəqir onu inkar edər!..

Xülasə, çocuq mühitində böyük deyə eşitdiyi amilləri fəqirlər inkar etdilər. Nəhayət, fəqirlərdən biri ona:

– Bədənə kim hakimdir? – deyə bir sual da verdi. Çocuq çox düşünmədən:

– Baş, – dedi.

Fəqirlər başlarını bədənlərindən ayırıb, yerə atdılar. hər bir baş bir tərəfə düşərək:

– Fəqir onu inkar edər! – deyə bağırdı.

Çocuq bu mənzərədən dəhşətlənib ağladı. Başlar haman yerdən qalxaraq, bədənlərə qovuşdu. Fəqirlər çocuğun gözlərini silib, onu sakit etdilər.

Nahar vaxtı fəqirlər durub yanlarındakı meşəyə gedib, hərəsi oradan bir ilan gətirdi. İlanın bir qarış başından, bir qarış quyruğundan kəsib yedilər. Yeməyi bitirən kimi hərəsi uçub bir ağacın başına qondu. Çocuq yenə qorxub ağladı. Fəqirlər haman döndülər, onun gözlərini silib, yenə sakit etdilər...

Bu əsnada Ceyniz qolumu sıxaraq:

– Bu ərən də bizi xam ələ salmış: adam da uçarmı? – deyə qulağıma pıçıldadı. İstehzalı təbəssümumü güclə gizlədim. Ərən nağılına davam edirdi:

... Ay ötdü, il dolandı, çocuq fəqirlərin tühaf hərəkətlərinə alışdı. Fəqirlər də onu yapdıqları sehrin sirrinə vaqif etdilər...

Qatama bir neçə il burada qalıb, tam bir sehr ustası oldu.

Bir gün Qatama qolundakı bazubəndə baxaraq, anasını xatırladı. Dərdini fəqirlərə söyləyərək onları tərk etdi. Qanqın şimalına doğru yürüyərək hər yerdə sehr göstərib, yeməyini təmin edirdi. Nəhayət, gəlib bir kəndə çıxdı. Xalq fəqir gəlməsini duyaraq ətrafına toplandı. Qatama xalqa cürbəcür sehrlər göstərdi. Əvvəl başını çıxardıb yerə atdı. Sonra qolunun birini qoparıb, bir qadına uzatdı. Qadın Qatamanın qolundakı bazubəndi görcək qışqırıb bayıldı. Qatama qadına yaxınlaşıb, onu diqqətlə süzdü. Birdən:

– Ana! – deyə bağırdı.

Bir dəqiqə sonra ana və oğul bir-birinə sarılıb, sevinc yaşları axıtdılar.

18

Son pilləyə çıxmaq lazım idi. Ney səsi kəsilər-kəsilməz yeddinci ərən yerindən qalxıb:

– Dur! – dedi, durduq.

– Dur! Ərənlərin son hekayəsini dinlə! Ərən hekayəsini başladı.

– “Atinada zənginliyi ilə məşhur olmuş Nestor gümüş mədənlərini dolaşmağa başlamışdı. Son zamanlar məmləkətin varidatı məsələləri dövlət adamlarını çox məşğul etmədə idi; gümüş də ölkə gəlirləri arasında mühüm bir yer tuturdu. Nestor da təcrübəli bir tacir olduğu üçün məsələni anlamış və xüsusi mədənlərinə olan diqqətini bir qat daha artırmışdı. Lakin mədənlərin övzaından çox da məmnun deyildi: əvvələn, mədəndə işləyən qulların sayı az idi; ikinci, keyfiyyət etibarilə qulların gördükləri iş də əməli bir nəticəyə varmırdı. Hər yerdə tənbəllik və saxtalıq görünürdü.

Nestor qullarını qorxutmaq üçün dolaşdığı yerlərdə onların bir neçəsini döydürməyi adət etmişdi. Bu dəfə də çox adam döydürdü. Lakin indiyə qədər qullar arasında təsadüf etmədiyi bir simaya rast gəldi. Filip adlı birisi döyüldükcə Nestoru və eyni zamanda hökuməti söymək cəsarətində bulundu.

Nestor mədənləri ağır hisslərlə tərk etdi. Atinaya döndükdə qul bazarına gəldi. Dəllallar bazara çox qul gətirmişdilər. Bunların içində hər qisim adamlar var idi: iri gözlü, qıvrım saqqallı assurilər; çil sifətli, ətli burunlu israillilər; kübar, simalı midiyalılar, qıyqac gözlü iskitlər, zəncilər, əlvan geyimli Kapadosya, Lidiya və ada xalqları nəzəri cəlb edirdi. Satışa qoyulanlar arasında cürbəcür yaşlı qızlar da az deyildi. Çox müştəri olmadığı üçün Nestor qulların bu günkü qiymətlərini əlverişli bulub, iyirmi beş dənəsini aldı və çələklətdirib, çodarların birisi ilə mədənə göndərdi.

Nestor Misirdən gələcək bir gəmi haqqında məlumat almaq üçün sahilə enmək istədi, bir də o günü evində ziyafət olacağını xatırlayıb, geri döndü.

Nestor yeni tikdirdiyi evini süsləndirmək, əlavə olaraq, şöhrətini artırmaq üçün özünün ağ mərmərdən heykəlini yapdırırdı. Gündə bir saat məşhur heykəltəraş Alqamenin önündə poza almaq icab edirdi. Ziyafət vaxtına qədər bu vəzifəni də görə biləcəyini hesablayıb, Alqamenin evinə getdi. Ancaq hesabı düz çıxmadı, Alqamen onu bir az

artıq ləngitdi. Evə gəldikdə bütün qonaqlarını orada gördü. Üzr istəyib hinekeyə* keçdi və yemək verilməsini əmr etdi. Haman qullar xörəkləri müsafir otağına daşımağa başladılar.

Bəzi Atina filosof, şair və həkimləri burada idi. Ziyafət başlandı. Əlvan yeməklər bitdikdən sonra allahlara və milli qəhrəmanlara dua oxundu. Sonra qonaqların başına çiçək çələnglər taxılıb, içkiyə başlandı. İncə vazlarda şərablar gətirildi. İçəri əlində setar** gözəl bir qız girdi. Zərif paltarı bütün vücudunu əks etdirirdi. Bunu mütəaqib gözəl üzlü, qəvi əndamlı gənc bir oğlan da gəldi. Oğlanın əlində ney var idi. Çalğı və rəqs başlandı. Şərab nəşəsi musiqi ahənginə qarışaraq gənc çalğıçıların ətrafında cazibəli bir hayilə təşkil etdi; qonaqlar Erosdan*** ilham almağa başladılar. Anakreon məst bir halda yanındakı Fedrə:

– Dostum, – dedi, – fikrimdə yanılmıram, zənnindəyəm. Yaradılışda ən əzəli qüvvə eşqdir. Eros allahların ən qədimi, ən gənci və ən parlağıdır. Zevs haqqı, Zevsdən daha yüksəkdir.

Fedr gülümsədi:

– Bu doğru, – dedi, – lakin eşq nədir? Eşq ruhun zəruri və təbii xəstəliyi deyilmi?..

Diotim onun sözlərini kəsdi:

– Yox, Fedr, eşqə xəstəlik demək doğru olmaz. Çünki eşq ölməz, daima canlı bir qüvvədir. Lakin eşq iki qisimdir: biri göylərdə Afrodit**** qəlbində bəslənən, o biri isə yerdə avam arasında dolaşan eşqdir. Göy eşqi heç bir məqsəd təqib etməz, təmiz və yüksəkdir. Bu, bir cinsin eyni cinsə qarşı bəslədiyi hissdən ibarətdir: kişinin kişiyə, qadının qadına. Adi eşq, yəni avam eşqi, övlad törətməyin müqəddiməsidir. Birincisi öz-özlüyündə məqsəd bulan kimi, ikincisi isə məqsəd vasitəsidir.

Şair Alse:

– Diotim, – deyə sözə başladı, – eşq Afroditin ürəklərə qonaq gəlib, buraxdığı atəşdir. Yanaraq iki qəlbin alovunu bir-birinə qarışdırar. Eşq, iştə, ruh məbədlərində yanan daimi atəş!

Həkim Mimnern əlindəki piyaləni masanın üstünə qoyub dedi:

---

* Hərəm dairəsi.

** Musiqi aləti.

*** Eşq allahı.

**** Eşq ilahəsi.

– Diotimin eşq nəzəriyyəsi ilə heç də razı ola bilmərəm. Eşq eyni cinslərin deyil, başqa-başqa cinslərin zürriyyət törətmək məqsədi ilə bir-birinə isnişməyindən ibarətdir. İstər insan, istərsə heyvan və bitkilər arasında erkəyin dişiyə, dişinin erkəyə qarşı bəslədiyi arzu əvvəllər xəstə bir hal törədir. Məqsəd uzaqlaşarsa, bu xəstəlik bir az da dərinləşir. Nəhayət, cismi ehtiyac dəf olunduqdan sonra xəstəlik də yox olur. Bir cinsin eyni cinsə qarşı bəslədiyi ehtiras təbiətə qarşı üsyan etməkdən başqa bir şey deyildir!..

Məclisdəkilər tamamilə məst bir halda idi. Çalğıçılar qucaqlardan qucaqlara keçir, onların mədhində nitqlər, şeirlər söylənirdi. Ev sahibi Nestor da gah qızın, gah oğlanın qarşısında diz çökərək məntiqsiz, mənasız sözlər söyləyirdi.

Bir də qapı açılıb, içəri cındır paltarlı, kirli simalı bir adam girdi. Bunun gəlməsi kimsənin marağına mucib olmadı. Yalnız Nestor süst bir baxışla onu süzüb:

– Filip! – deyə bağırdı.

Filip yırtıcı kimi sıçradı. Yalnız sağ əlinin bir anda qalxıb enməsi göründü. Nestor yıxıldı. Ürəyindən fışıltı ilə axan qan ətrafını islatmağa başladı".

Ərən hekayəsini bitirən kimi yenə neylər çalındı.

## 19

Yeddi Xoruz məbədinə girdik. Rəngarəng pəncərələrdən içəri düşən işıq məbədin daxili gözəlliyini bir qat daha artırmışdı. Yuxarı başda duran ağ geyimli yeddi qız əlvan rəngli işıqlar arasında hind əfsanələrini andırırdı.

Mehraba yanaşıb durduq. Yeddi ərən də qızların ətrafına toplanıb, ney çalmağa başladı. Qadın, kişi – bütün qəbilə xalqı buraya toplandı. Ayinə hörmətən hər kəs susub, qızların oxumasına müntəzir idi. Qızlar gözəl bir səslə başladılar:

Eldən ayrı tutdum xoruz yolunu,
"Haqq bilib tutduğum yoldan ayrılmam!"
Xoruzların baqi etdim dölünü,
"Haqq bilib tutduğum yoldan ayrılmam!"

Yeddi ərən səsi haqqın səsidir,
Neylərin sədası aşiq dərsidir,
Məbədi güldürən gənc həvəsidir.
"Haqq bilib tutduğum yoldan ayrılmam!"

Alovlu atəşdən riza alayım.
Torpaq, hava əsrarına dalayım,
Su yolunda qönçə bir gül olayım,
"Haqq bilib tutduğum yoldan ayrılmam!"

Yurdumuz böyüyüb, çiçəklər açdı,
Əmək nurlarını aləmə saçdı,
Zalimlər əzilib, kənara qaçdı,
"Haqq bilib tutduğum yoldan ayrılmam!"

Biz yeddi qız haqqın şən çırağıyız.
Məbədlərə nur verən dildadəyiz.
Odlanıb, həzz duyan bir pərvanəyiz.
"Haqq bilib tutduğum yoldan ayrılmam"

Ayin bitər-bitməz əvvəl ərənlər, qızlar, müəllimlərimiz, sonra bütün qəbilə xalqı gənclərə yanaşıb, bizə səadətlər dilədilər. Bir çox çiçəklər, balaca xoruzlar da hədiyyə edənlər oldu. Ata və anamızın fərəhinin həddi yox idi.

Artıq bütün adət və ayinlər bitmişdi. Qəbilədəki son axşamımızı ailəmizdə keçirib, sabah tezdən "Qoç" qəbiləsinə yola düşməli idik. Anam əlindən gələn xörəkləri hazırlayıb, hamımız şad bir halda süfrənin ətrafına toplanmışdıq. Atam dedi:

– Çopo, sən sabah bizdən ayrılırsan. Ata-ana üçün ən böyük səadət övladının salamat və xoşbəxt olmasıdır. Get xoşbəxt ol, salamat səsin gəlsin! Ancaq həyat tühaf bir şeydir, bunu bil! O, çalışanların və bacaranların malıdır. Çalışmayanlar, acizlər, tənbəllər və acı təbiətlilər həyatda müvəffəq olmazlar. Bunu bil! Ailə həyatına gəldikdə, bu da tühaf bir şeydir. Bu çox ölçüb-biçməyə gəlməz – çıxmaq ilədir. Yaxşı zənn etdiyin fənaya dönə bilər; fəna görünən də yaxşı çıxa bilər. Hər halda Qızlar bulağında özünə həyat yoldaşı seçərkən zahiri gözəlliyə çox da uyma. Zahir müvəqqəti bir şeydir; bu gün var, sabah yox ola bilər. Dəruni gözəllik isə sabit və dəyişilməz bir qüvvədir.

Onu doğru təyin edib seçmək – səadət qapısını bulmaq deməkdir. Eşq qeyri-sabit bir amil və ələləksər coşmuş ehtiras uydurmasıdır. Eşqə bel bağlamaq ayıqlığa vida deməkdir. Eşq cazibəsinə çox da aldanma! Lakin var deyib, inansan, inamında davam et, şübhələrə meydan vermə. Eşq sönmüş də olsa onu alovlandırmağa çalış. Çünki insanın xəyalı olmazsa, həyat məhsulsuz bir səhraya dönər.

İnsan, iradəsinə malik olmaq qüvvəsindən məhrum bir xilqətdir. İradən mühit şəraitinə toxunub əzilərsə, məyus olma, cəmiyyətə sarıl da, şəraiti dəyişməyə çalış. Fərdi acizliyi yalnız cəmiyyət təsviyə edə bilər. Cəmiyyət faydasını həmişə öz fərdi faydandan üstün tut!..

Atamın bu məaldakı nəsihətlərini anam başını tərpətməklə təsdiq edirdi. Bacım isə yalnız gülümsəmə ilə iktifa edirdi.

Atam sözlərinə bir az fasilə verib, yenidən başladı:

– "Quzğun"dan bizim evə gələn gənci biz yola verəcəyik, zənnindəyəm. Çünki nə mən, nə anan gənclərin xüsusi həyatına qarışmaq niyyətində olmayacağıq. Sənin "Qoç"da övlad olacağın evi hələ bilmirəm. Ancaq rəftar adama bağlıdır. Sən istəsən qayınatan və qayınananın çəmini taparsan. Köhnələrin də rəyi ilə bir az hesablaşmaq lazımdır. Yoxsa ömrünüzü zəhərlərlər. Hərə bir təbiətə malikdir. Təbiətin yolunu tapmalıdır.

İnsan coşar, daşar, bu zaman ağıl yolunu şaşar. O əsnada müəyyən məsələ haqqındakı qərarından çəkin. Salamat yolu yalnız sakit ağıl göstərə bilər!..

Atamın nəsihətlərini dinləyib, doğrusu, dərk edə bilmirdim. Ürəyimə qapılaraq, həp sabahı düşünürdüm. Bütün fikir və xəyalım Qızlar bulağı ətrafında cövlan edirdi... Ah, nə gözəl dəqiqələr idi!

# İKİNCİ HİSSƏ

## 1

Günəş ilk şüasını Totem dağına atdıqda qəbiləmizi tərk etdik. On beş gənc idik. Qəbilə şurası mümməssili Cürceys və müəllimimiz Kəbusey də bizi təşyi edirdi. Örüşdən uzaqlaşaraq düz yola çıxdıq. Ətrafdakı meşələr çiçək içində idi. Baharın ılıq havası da rayihə saçırdı.

Təbii gözəlliyin qarşısında hər kəs susmuş, sanki ahəngi pozar deyə kimsə danışmağa cəsarət etmir.

Qoca Kəbusey bir şeylər düşünür, gülümsəyirdi.

– Yenə nədir, ərən? – deyə Cürceys sordu. – Görünür, yola qələbə çalmağa qocalıq imkan vermir.

– Elə! Elə, əzizim! – dedi. – Hər halda altmış il əvvəl bu yolu ilk dəfə tanıdıqda başqa bir sürətlə gedirdim.

– Ha-ha-ha!.. Mən belə, qırx il əvvəl başqa bir zövq, başqa bir nəşə duyurdum.

– Elə, elə! İndi artıq qocaldıq, qüruba doğru gedirik. Bir gün olacaq ki, üfüq bizi arxasında gizləyəcək... Tühaf bir gərdiş: gəldik, getdik; gəlib getmişlər və... gələcəklər... gedəcəklər. İştə, əzəliyyət və əbədiyyət!

Cürceys gülümsədi və hüznlü bir düşüncəyə dalan Kəbuseyi süzərək:

– Ərən, – dedi, – mən ictimai işlərə məşğul bir adamam. Mücərrəd məsələlərlə heç də uğraşmadım. Lakin sənin sözlərin məni düşündürür. Nədir bu həngamə? – deməzmisən?

– "Nədir" deyənlərə cavab gəlməmiş! Cürceys qane görünməyən bir sima ilə müəllimə baxdı.

İkisi də durdu. Kəbusey tövşüyərək:

– İdrakın o tayı dərin bir dənizdir, oraya gecən qərq olar, – dedi.

Sözlərindən maraqlanıb, qocaların ətrafına toplandıq. Müəllim bizi süzdü, birdən kədərli üzündə bir nəşə parladı:

– Cürceys, – dedi, – uzaqlar insanı üzər, yaxınlarla uğraşalım. İştə, gənclər aşır, daşır, coşur; min bir həvəs, min bir fərəh verir! Bir daha gənc olmaq üçün nələr verməzdim!

Gözlərini Kəbuseydən ayırmayan Cürceysin marağı bir az da artdı:

– Ərən, gəldiyimə peşmanam: həyatımda ictimai işlərdən başqa bir şey tanımaz, mücərrəd fikirlərlə uğraşmazdım. İndi malik olduğum

şəxsdən başqa məndə ayrı bir şəxs oyatdın. Onun suallarına cavab verməkdən acizəm.

– Oyananı uyut! Çəkilən hüdudu keçməyə insan müstəid deyil. Həyatımın qırx ilini fəlsəfə ilə uğraşdım, idrakın o tayına keçməyə qalxışdım... Qırx gözəl ili qaib etməkdən başqa bir şey əldə edə bilmədim. Yalnız bir həqiqət öyrəndim – azad yaşamaq, tox yaşamaq. İştə, o həqiqət! Bu iki amili də təmin edən əməkdir. Çalışmalı, yaşamalı, yaşatmalı!

2

Meşəlikdən çıxarkən ağ binalı qəbilənin yaşıllıqları gözümüzə çarpdı. Burada zahiri gözəllikdən başqa anlaşılmaz bir şeylər vardı. Sanki qəbilə havasında mənəvi bir qida var; nəfəs alarkən ciyərlərə həyat bəxş edirdi. Bu havadan məst oldum. Həyəcanım belə susdu. Yalnız ürəyim sınıq qopuz iniltisi duyurdu. Hər kəsdən ayrılaraq kənarda hüznümlə rəfaqət etdiyimi duyar kimi, Kəbusey mənə yanaşdı:

– Nə olmuş, oğlum? – deyə əlini umuzuma qoydu, gülümsəyərək məni süzdü, – əməl kasasına yavıqlaşırsan. Səadət şərbəti dodağına təmas edərək, varlığına başqa bir süs verəcək. Sakın, məst olma! Gəncliyin hər bir dəqiqəsini idrakla əhatə etməli. Səadət uçar bir ulduzdur. Şüur onun parlayışını artırır. Gəncliyi duymalı, hər addımını hiss etməli də, sonra həzzlərinə dalmalı.

Müəllimin nəşəli simasına baxarkən hisslərim oyandı; dərunimdə həyəcanlar duydum...

Qulağıma gələn səslər məni yuxudan ayıldan kimi oldu: qəbiləyə yaklaşan yolun üzərində bir alaqapı qurulmuşdu. Onun otağından asılan qoç başının burma buynuzları çiçəklərlə bəzənmişdi. Qəbilə mümməssili ağ geyimli, ağ saçlı, qadın ortada dayanaraq bizi gözləyirdi. Yanındakı gənc qız əlində üstüörtülü bir təbsi tutmuşdu. Arxa tərəfdə kişilər, qadınlar və çocuqlar durmuşlardı. Çocuqların əlində çiçək dəmətləri vardı.

Yaklaşdıq.

Xalq bizi, totemləri olan qoçun şərəfinə "mə-ə-ə!" deyə mələşərək qarşıladı və ayaqlarımızın altına çiçəklər atdı.

Biz də qəbiləmizin totemi xoruzun banlayışını andıran bir səslə onlara cavab verdik.

Ön tərəfdə duran Cürceys qadına yanaşaraq təzim etdi. İkisi də qarşı-qarşıya durdu. Orta yaşlı iki qadın təbsinin örtüsünü qaldırdı. Oradan yeddi ağ daş çıxardılar. Qarşı-qarşıya duran iki qəbilə mümənsillərinin sol əllərini qaldıraraq baş barmaqlarının şirin ətini cızdılar və çıxan qanı yaşıl bir yarpaq üzərində qarışdırıb yeddi daşa yaxdılar. Daşlar yolun ortasında basdırıldı.

Bu adət iki qəbilə arasında əmələ gələn qardaşlığa işarə idi.

Sağ tərəfdən yeddi ağsaqqal aralandı, yanaşaraq başımıza yeddi bürünc ulduzdan mütəşəkkil bir tac qoyub geri döndü.

Bu adət yeddi qardaş ulduzun himayəsinə girdiyimizin rümuzu imiş.

Sol tərəfdən yeddi ağbirçək qadın gəldi, hərəmizin köksünə mumdan qayrılmış yeddi nar taxaraq geri qayıtdı.

Nar eşqin rümuzu imiş. Yeddi nar yeddi qardaş ulduzun bir-birinə qarşı bəslədikləri əbədi eşqə işarə imiş.

Bu ayinlər bitdikdən sonra qoç buynuzlarından yapma zurnalar çalındı, qəbiləyə girdik.

3

Qəbilə məməssili olan qadının adı Şibra xatın imiş. Onun əmrinə görə bizə xidmət etmək üçün qəbilə gənclərindən on beş nəfər ayrılmış və yanımıza göndərilmişdi. Bizi, təxsis olunmuş otaqlardan alaraq ümumi hamama apardılar, yuyundurdular, yeni camaşır və ağ paltar geyindirib geri gətirdilər.

Evimizin bağçasında masalar düzülmüşdü. Yeməyə oturduq. Bizdən başqa Şibra xatın, müəllim Nimrad, idman müəllimi Buğatay, filosof İlyus, sənətkarlar nümayəndəsi Ahənəsb və həkim Köyhun da vardı. Yorğun olduğumuzdan ziyafətdə başqalarının iştirakını lazım görməmişlərdi.

Bir neçə növ yemək gəldi. Adətlərinə görə masanın başında oturan qəbilə şurası məməssili ağzına bir loğma qoymaqla ziyafəti açar və yalnız üç qisim yemək yeyildikdən sonra söhbətə başlanarmış.

Şibra xatın əlini yeməyə uzatdı, biz də başladıq. Cansıxıcı bir sükut vardı. Ağızların marçıltısından başqa bir şey eşidilmirdi. Üçüncü bişmiş yeyilər-yeyilməz Şibra xatın ayağa qalxdı:

– Əzizlərim, – dedi. – Xoş gəlmişsiniz. Həzrət qoçun ruhu yalnız siz doyduqdan sonra istirahət bula bildi. “Xoruz”la “Qoç”un qan qar-

daşlığı gözəl gənclərimizə səadət təmin etdiyi üçün onların şərəfinə badənuş olalım.

Saxsı küplərdən tökülən namez adlı içki başa çəkildi. Əvvəlcə onlar mələşdi, sonra biz banlaşdıq.

Bir az keçməmiş müəllim Nimrad Şibra xatının müsaidəsi ilə ayağa qalxdı. Orta yaşlı, uzun saçlı Nimrad geniş ətəyini umuzuna ataraq başladı:

– Yavrularım, bağban gül bəsləməkdən həzz duyan kimi, müəllim də yetişdirdiyi gənclərin həvəsi ilə yaşar. İldə bir dəfə buraya toplanaraq uzun illər zəhməti ilə əmələ gələn məhsulumuzu tərk edər, yenilərinin yetişdirilməsi ilə məşğul olarıq. Lakin bizləri hissiz, sinirsiz ədd etməyin! Əmələ gətirdiyimiz gəncləri həyat səhnəsinə buraxarkən ürəyimizin bir parçasını qoparan kimi oluruq. Bu daimi kədərə qarşı böyük bir təsəlli buluruq, qəlblərində yandırdığımız həqiqət çırağının əbədi olacağına inanar, iman edərik.

Qədəhlərinizi qaldırın, həqiqət çırağının sabit və baqiliyinə badənuş olalım.

Çox çəkmədən söz növbəti filosof İlyusa çatdı. İlyus uzun saqqallı, dolaşıq saçlı, ağır gövdəli bir qoca idi. Zorla yerindən qalxdı və yemək yediyi çöplərdən birini barmaqları arasında fırladaraq bir-iki dəfə bərkdən gözlərini qırpdı.

Filosofun çöplərinə gözü sataşan Ceyniz gülümsədi və qolumu sıxaraq:

– Bu hərifə bax, gör nə qədər gülüncdür, – deyə qulağıma pıçıldadı.

Mən gülməkdən özümü güclə saxladım. İlyus axırda gözlərini büsbütün yumdu və sözə başladı:

– Vətəndaşlar, – dedi. – Bu masanın arxasında oturduğum ilk gündən əlli beş bahar keçir. Bu nə deməkdir? – Təbiətin əlli beş dəfə ölüb dirilməsi deməkdir. İlin dəyişməsi qarşımızda yel vurarkən sönüb dirilən bir şamı andırdığı kimi, insan həyatı da əbədiyyət qarşısında belə bir şeydir. Biri sönər, o biri yanar. Fərdlər dəyişilir, lakin həyat baqi qalır...

İştə, bu gün keçmişə qarışmaq istəyən baharlarımızdan birini yeni həyata əlavə edirik. Yaşasın keçmişlə gələcəyin arasında əbədi bir körpü təşkil edən gənclik!

Qədəhlərinizi götürün, əbədi həyatın parlaqlığı şərəfinə içəlim!

Qədəhlər qaldırıldı, yenə yeməyə məşğul oldular.

Bir də Ahənəsb qalxdı:

– Əməkdaşlar, – dedi, – həyat zəhmətin məhsuludur. Zəhmət olmasa, dirilik də olmaz. Zəhmət, yalnız zəhmət əbədiyyəti təmin edər.

Bizi heyvanlardan ayıran, bizə zəka bəxş edən, idrakımızı inkişaf etdirən zəhmət deyilmi? Məişətimizi yüngülləşdirən, bizə maddi və mənəvi istirahət verən, biliyi öyrədən zəhmət deyilmi?

Zəhmətin şərəfinə içək və övladlarımızın da bu yolla getməsini təmənna edək!

4

Ahənəsb namezini içdi, oturdu. Bir müddət məclis sakit keçdi. Birdən ağacların arasında görünən tühaf bir sima hər kəsin nəzərini özünə cəlb etdi.

Qara və uzun saçlı, parlaq gözlü, ətəkləri umuzundan arxa tərəfə sallanaraq zövqlü qırışlar təşkil edən bu sima bizə doğru gəlirdi. Başındakı ulduzlu qalpağının yan tərəflərində qoç buynuzları vardı. Əlindəki üçsimli qopuzu çiçəklərlə bəzənmişdi. Masaya yanaşar-yanaşmaz parlaq gözlərini göylərə dikərək incə səslə oxudu. Qopuzun ilahi səsi ruhumuza əks edərək, bizdə həyəcanlı nəşələr doğurdu. Əvvəl istehza ilə ona baxan Ceyniz müztərib oldu. Mənə qısılaraq məst bir hal aldı.

İrticalən söylədiyi şeirdən şair olduğu meydana çıxdı,

– Bu kimdir? – deyə sorduqda:

– Şair Milnir, – cavabını verdilər.

Milnir şərqisini qurtardı və incə səsli qopuzla bir “xoş gəldi” havası çaldı.

Haman qədəhlər doldu. Hər kəs ehtiramla ayağa qalxdı: şairin şərəfinə içildi.

Milnir Şibra xatının sağ tərəfində oturdu. Ona ayrıca yemək gəldi. Əsəbi əlləri ilə cəld çöplərə yapışdı, sürətlə yeməyə başladı.

Təbəssümlü gözləri ilə şairi süzən Şibra onun qulağına bir şeylər pıçıldadı.

Şair səksəkəli bir quş kimi çırpındı, saçlarını titrətdi, ayağa qalxdı. hər tərəfdən üzlər ona tərəf çevrildi. Şairin mavi gözləri sakin dənizi andırırdı. Üzündə ilham şüaları parlayırdı. Sol əli ilə uzun saçlarını oxşayaraq sözə başladı:

– Ey sabahın pak şehləri ilə bəslənmiş qönçələr! Qəlbimizin ilk baharı, göylərimizin bakir tülui, yaldız günəşi, incə buludları – həp sizə mədyundurlar.

Siz əzəliyyətin coşqun dalğasından nəşə ilə qopan parlaq bir atəşiniz. Sizdə yanmaq, sizdə coşmaq – səadətindən bayqın səadətlərin amalıdır.

Ey qərib səyyarəmizi titrədən sədaların sədası! Ey baharın sakin sahilində yelkən fırladan yolçunun asi duası. Ey qanadlı nəşələrlə kainata əbədiyyət saçan gənclik!

Mən də, qopuzum da, şerim də, ilhamım da, fikrim də, nisyanım da... həp sizinlə mədyundurlar.

Gözlərindən yaşlar süzələnən şairin səsi tənha çinar yarpağı kimi titrədi, qırıldı.

Qədəhlər qalxdı:

– Yaşa şair! – deyə səslər qopdu.

Şair içdi və gənclərə qarşı bəslədiyi hisslərin baqiliyinə işarə olaraq, qədəhini qopuzunun üzərində sındırdı.

5

Ziyafətdən sonra evə döndük.

Yatmaq üçün iki adama bir otaq təxsis edilmişdi. Ceynizlə bir yerdə düşdük. Namezin təsirindən qurtarmadığımız üçün bir müddət uyuya bilmədik. Ceyniz təbiətən hər şeyi təhlil və tənqid edər və hamının çox məqbul gördüyü şeylərdən belə şübhə edərdi. Bu dəfə də adət və ayinlərimizdən bəhs açıldı, mən ənənələri təqdis edənlərdənəm. İnanmadığım bir adətə qarşı belə duakar bir vəziyyət alaram. Ceyniz isə istehza edər, özü inanmadığı bəs deyil, mənim də imanımı şübhə ilə zəhərlər. Bu günkü intibalarımı ona vəcdlə anladarkən Ceyniz adəti üzrə istehza ilə güldü:

– Mühafizəkarlıq həyata durğunluq verir, – dedi, – halbuki durğunluq həyata yakışmayan bir sifətdir.

– Bu doğru, – dedim; – ancaq mühafizəkarlığa riayət olunmazsa, əsrlərin təcrübəsindən istifadə edilməz. Ənənə cəmiyyətin rüknüdür.

– Ənənə olmasa cəmiyyət yaşamazmı?

– Yaşar, lakin sarsıntı ilə yaşar.

– Ənənə deyil, ağıl, daha doğrusu, kollektiv bir ağıl lazımdır.

– Zatən ənənə nəsillərdən intiqal etmiş kollektiv bir ağıl deyilmi?

– Xeyr! Tarixin tozlarına bulaşmış bir ağıl zəmanəmizə uyamaz. Cəmiyyətimizə canlı bir ağıl lazımdır.

– Canlı ağıl irsiyyət qanununa tabe deyilmi? Sənin təsəvvür etdiyin hər bir canlı ağlında əsrlərin izi var.

– Buna deyəcək sözüm yox, ancaq ağıl mühakimə qüvvəsindən məhrum olmadığı halda, ənənə bu mühakimələri tanımır. Əcdadın mənəviyyatına uydurulmuş bir ölçü bizə də tövsiyə olunur. Halbuki bizim mənəviyyatımız onlarınkından başqadır.

– Əcdadın mənəviyyat dairəsi dar olsa belə onun məzmunu bizə mane təşkil edəməz. Çünki keçmişin təcrübəsi hal-hazır üçün faydalıdır. Bizim ənənələrimizdə əsrlərin təcrübəsindən başqa bir də anlaşılmaz bir hüsn var. İstehza etsən belə mən bu hüsnün məftunuyam.

Sözlərimdən Çeynizin dodaqlarından şübhəli bir təbəssüm zühur etdi.

– Dostum, – dedi, – hər şeyi anlaram, ancaq hüsn deyə məftunu olduğun o şey mənə yabançıdır.

– Deməli, başqa-başqa fitrətə malik olduğumuzdan bir-birimizi anlaya bilməyəcəyik. Onun üçün uyumağı daha faydalı görürəm.

Ceyniz üzünü divara çevirərək gözlərini yumdu.

6

Gəldiyimizin üçüncü günü Qızlar bulağına getmək adət imiş. Sabahdan bizə bildirildi, hazırlaşdıq, verilən ağ paltarları geydik, hər kəs var qüvvəsi ilə özünə süs verməkdə idi. Yalnız Ceyniz həmişəki kimi tərəddüd içində görünürdü:

– Yenə nə var, dostum? – dedim. Cavabında ağzını büzdü.

– Ceyniz, – dedim, – hər bir şübhə və tərəddüdünü anlayıram. Lakin indiki halın mənə yabançıdır.

– Nədən?

– Çünki gəncdə gənclik təzahürü o qədər təbiidir ki, izaha yer qalmır.

– Hər şey izaha möhtacdır.

– Aydın söylə.

– Aydın?.. Erkək sürünün dişi sürüyə qatılmasından çox da xoşlanmam. Evlənmək şəxsi iş olduğundan şəxslərə həvalə olunmalı.

Nəşəmi Ceynizin şübhələri ilə zəhərləməmək üçün ondan ayrıldım və yemək zamanı belə başqası ilə oturdum.

Günəş qübbənin ortasından yatağına doğru enərkən bizə birər gümüş naçar* payladılar. Bəyəndiyimiz qızlara verəcəkmişik.

Naçar indiyə kimi heç kəsə açılmayan sirlərimizin rümuzu imiş. Yola düşdük.

Sarı dağın ətəyindəki yaşıl meşə altun üzərinə nəsb olunmuş firuzəni andırırdı. Göy otluğu bəzəyən çiçəklərin rayihəsi dimağa çökür, insanı məst edirdi.

Əlvan rəngli daşlardan çağlayan suların yanı ilə dağa dikləndik. Yol geniş bir meydançaya çıxdı. Sol tərəfdə sərt qayanın köksündən qopan çeşmənin əsrarəngiz təranələri vardı.

Ortalıqda əl-ələ tutuşaraq halqa təşkil edən ağ geyimli qızlar həzin-həzin oxuyurdular:

Gəldik çeşməyə,
Sudan içməyə,
Ağca qoçlara
Təzim etməyə...

Dəstəmizi çəkən Milnir bu mənzərədən coşmuş kimi saçlarını tərpətdi, qopuzunu köksünə basaraq oxumağa başladı:

Milnir – Bu dağların qızları var.
Biz – Naçar, naçar, naçar, naçar.
Milnir – Nəşələri, nazları var.
Biz – Naçar, naçar, naçar, naçar.
Milnir – Gül-çiçəkli yazları var.
Biz – Naçar, naçar, naçar, naçar.
Milnir – Şərqiləri, sazları var.
Biz – Naçar, naçar, naçar, naçar.

Səslərimiz sanki qızlara həyat bəxş etdi. Sayrışan ulduzlar kimi parladılar. Təbəssümlərindən busələr yağdı.

İlahi bir cəzblə qızları əhatə edərək halqalandıq. Qızlar fırlanmalarında davam etdikcə biz də onları təqib edirdik:

---

* Ürək şəkli

Biz – Qızlar, qaçar, güllər açar.
Qızlar – Naçar, naçar, naçar, naçar.
Biz – Oğlan qaçar, bəxtlər açar.
Qızlar – Naçar, naçar, naçar, naçar.
Biz – Qızlar qaçar, nəşə saçar.
Qızlar – Naçar, naçar, naçar, naçar.
Biz – Oğlan qaçar, əldə naçar.
Qızlar – Naçar, naçar, naçar, naçar.

Qəbilə xalqı ətrafı bürümüşdü. Biz şərqilər söyləyərək meydança-da qaçışdıqca, bunlar da arabir cürbəcür səslə:

Naz-naz-naz.
Tapılı-tapıl-taz.

– deyə əllərindəki ağ daşları bir-birinə vururdular. Bu adət gənclərin səadət ulduzlarının bir-birinə qovuşmasına yardım etmək demək imiş.

7

Rəqs əsnasında təsadüfən qarşımdakı qızlardan birinin saçına toxundum: məni vulkandan sıçrayan bir atəş kimi yakdı:

– Bağışla! – dedim.

– Bir şey deyil! – deyə döndü və üzünə yayılmış tüklərinin arasından bütün varlığıma hakim bir təbəssüm parladı.

Bir kasa namez içən kimi oldum: gənc vücudunun qoxusundan kefləndim. Dəfələrlə göz-gözə gəldik – ikimiz də sancıldıq qaldıq.

Nəhayət, qıçlarımdakı qüvvələr məni tərk etməyə başlayınca sıranı buraxdım.

Bulağın kənarında iri bir daş üzərində oturub, qızı gözlərimlə təqib edirdim. Şəffaf geyiminin altında parlaq cizgiləri, gözü qamaşdıran köksləri məndə gümüş naçarın təslimini tələb edirdi. Üzərində gözümün seyr etməsindən qıdıqlanırmış kimi cilvələnir, mənə təbəssümlər göndərirdi.

Bir də sıradan çıxdı. Haman yanındakı oğlan da halqanı tərk etdi. Ürəyim hərəkətindən əl çəkdi, vücuduma buzlar yamandı...

Bir də mənə doğru gəldiyini sezdim. Atəşli gözləri məni yenidən isitdi. Yerimdən qalxdım:

– Bağışla, ehtimal yoruldun. İstirahət elə, yerimi sönə verirəm, – dedim. Məmnun bir halda razılıq elədi, qoluna girərək, yerimdə oturtdum. Onun hərarətini duydum, vücudumu titrətdi, sanki mən bütün kainatı da özümlə titrətdim. Günəş belə bir an əvvəl üfüq yatağına dalan kimi oldu.

İlk dəfə olaraq onu diqqətlə süzdüm. Gənclik həyəcanından doğmuş bir pəri idi. Yanaqları qüruba süslər verər, dodaqları gülləri məhcub edər qədər gözəl idi. Vücudu yetişmiş dişilərə məxsus bir rayihə nəşr edir, köksü göylərə oxlar atırdı.

Varlığını qaib etmiş iradəmi çağırdım. Cəsarətsiz bir halda səsləndi. Ürəkləndim... Gümüş naçarı rəşələrimlə bərabər ona təslim etdim.

## 8

Sabah tezdən qəbiləni gəzəcəyimizi Cürceys bizə xəbər verdi. Çörəklə bir kasa süd yeyib, evdən çıxdıq.

Qəbilənin kənarındakı geniş bir meydanda qızlar və oğlanlar idmanla məşğul idilər. Həya yerlərindən başqa bədənləri tamamilə açıq idi. Yamacdakı iskəmlələrə yerləşdik. Buğatay əmr verdi, oyunlar başlandı. Əvvəl qaçışdılar, sonra ağır daşları qaldırdılar. Vücudu inkişaf etdirmək üçün bir çox hərəkət yapdılar və nəhayət, ox atma və at yarışı oldu. Hər bir oyunda birincilik qazananlara hədiyyələr verildi. Hədiyyə alınırkən Şibra xatın birincilərin alnından öpürdü.

Bu sağlam vücudlu, qəvi əzələli gəncləri seyr edən Milnir şövqlə:

– Bircə sağ tərəfdəki sarışın qıza baxın, – deyirdi. – Gözəllik nöqteyi-nəzərindən bu bir məfkurədir. Tənasübi tam. Bir yerdə qüsuru yoxdur. Üzü bir kərə xariqədir. Boynu, köksü, yancaqlarının xəfif cizgisi, bacaqları, xırda və zərif ayağı gözəlliyin nümunəsidir. Halbuki on üç yaşı ola-olmaya, hələ qızlar bulağından su içməmiş. İçsə bu gözəllik bir qat daha artacaq...

Çalğıçı Kavus onun sözünü kəsərək:

– Burası doğru, – dedi. – Lakin ruh və zövqü nə qədər gözəldir? Zövqsüz bir ruha malik isə, zahiri gözəlliyi heç deməkdir; çünki zahir batinin təzahüründən ibarət olmalı. Bu iki amil biri digərindən ayrılaraq mühakimə ediləməz. Cismani gözəlliyə bir ruhani hüsn də əlavə olunarsa, tam bir ahəng vücuda gələr.

İlyus istehzalı təbəssümlə:

– Ahəngi cisim, yoxsa ruh daha çox tamamlayır? – deyə sordu.

Kavus çox düşünməyərək:

– Əlbəttə, ruh! – dedi.

– Ruhu tam bir tərbiyəyə tabe etmək olarmı?

– Tam da olmasa, bir qədər olar.

– Bu yolda başlıca amili nədə görürsən?

– Musiqidə, çünki ruhu incəldən, ona insani hisslər təlqin etmədə musiqidən başqa bir amil görmürəm.

– Hər bir şəxs musiqini öyrənməyə müstəiddirmi?

– Aşağı-yuxarı hər bir şəxs öyrənə bilər. Ancaq biri ilhamla, digəri adi sənət kimi qəbul edər.

– Daşçı daş yonarkən, bənna divar hörərkən ruhunda bir ahəng doğarmı?

– Zənn etməm.

– Deməli, musiqi də belədir.

Yalnız ilhamla vücuda gələn musiqi ruhda ahəng doğura bilir. İlham təbiətin bəxş etdiyi bir imtiyazdır. İlhamlı insanlar mədən daşıyan torpağa bənzərlər.

Vergisizlər ruhu ahəng atəşindən uzaqdır... Deməli... musiqiyə verdiyin əhəmiyyət bir az mübaliğəlidir.

Bu əsnada Ahənəsb mübahisəyə qarışdı:

– Mən, – dedi, – musiqi ilə əlaqədar deyiləm. Ruhunda nə olduğunu anlamam. Əlimə toxunan və gözlərimə görünən şeylərdən başqasına belə inana bilmirəm. Ancaq dəmirçilikdə şahidi olduğum bəzi şeylər var. Ağır işdən sonra bədənim yorulursa da, özümdə bir nəşə duyuram. Halbuki işləmədiyim günlər mənə bir süstlük gəlir...

İlyus:

– İştə, iştə! – deyə onun sözünü kəsdi. – Kavus, – dedi, – Ahənəsbin sözlərində bir hikmət var. Ruhda ahəng doğuracaq bir qüvvə varsa, o da zəhmətdir, çünki zəhmət cismin inkişafı ilə ruha da sirayət edir. Zahir batinin deyil, biləks, batin zahirin təzahürüdür.

## 9

İdman bitər-bitməz söhbət kəsildi. Bizi əlillər evinə apardılar. Qəbilənin çalışmaq iqtidarından məhrum bütün ünsürləri burada idi. Qəbilə şurası bunların yeyəcək, geyəcək və bütün ehtiyaclarını təmin etmişdi.

Əlillər evində Nimradın məktəbinə getdik. İdmanda gördüyümüz uşaqların hamısı burada idi.

Nimrad öz məktəbi və təhsil üsulu haqqında izahat verdi:

– Əsas tərbiyə – həyatı olduğu kimi çocuqlara tanıtma, onun yüngülləşmə və gözəlləşməsi yolunda çalışmaqdır, – dedi. – Odur ki, çocuqlar işlərin hamısında iştirak edər və yeniliklər törətməyə təşviq olunarlar.

Kəbusey böyük bir maraqla Nimradı dinlədi və suallar verdi:

– Bir-birinə qarşı rəftarları necədir?

– İstər bir-birinə, istərsə qəbilə üzvlərinə qarşı böyük hörmətləri var.

– Tənbəllik edən varmı?

– Əsla! Çünki əvvələn, idman tənbəlliyi kökündən yox edər. Sonra ilin bütün fəslini açıq havada keçirən tələbələr təbiətin bütün sərtliyinə alışır və istirahət məfhumuna yabançı qalırlar.

Bir çox suallarla marağını dəf edən Kəbusey gənclərdən birini yanına çağırdı:

– Oğlum, – dedi, – düşmən qəbiləyə hücum edərsə, vəzifənə nə düşər?

– Cəmiyyətimiz yolunda şərəflə ölmək, – deyə gənc mətanətlə cavab verdi.

Kəbusey gəncin alnından öpdü.

10

– Nimraddan sonra Kavus dərsə başladı:

– Musiqi, – dedi, – zəhməti nəşələndirmək üçündür. Həyat çətinlikləri qarşısında musiqi insanda ruh yüksəkliyi və mübarizə hissi oyadarsa, böyük bir amil olduğunu isbat edər. İştə, musiqimizin məqsədi bu!

Kavus musiqi haqqında bəslədiyi fikirlərin doğruluğunu isbat etmək üçün çocuqlara bir neçə hava çaldırdı.

Doğrudan da ruhumuza mətanət saçıldı. İlyus belə məmnun qaldı.

Kavus ikinci bir əmr verdi. Gənclər musiqi alətlərini kənara buraxaraq əllərinə daş, taxta və dəmir parçaları aldılar.

Kavus yenə kiçik bir izahat verdi:

– Musiqi, – dedi, – təbiətdə gizli və ya gizli olmayan səslərdən ibarətdir. Musiqiçinin vəzifəsi bu səsləri kəşf edərək ahəngə salmaq-

dan ibarətdir. İştə, bu yoldakı təcrübələrimizdən biri! – deyə əlləri ilə işarə etdi.

Gənclər əllərindəki şeyləri bir-birinə vuraraq elə bir hava çaldılar ki, ümumun alqışına səbəb oldular. Kavusun nəşəli siması bir də ciddiləşdi.

– Musiqinin vəzifəsi bununla da bitmədi, – dedi.

Musiqi əməyə sürət və ləzzət verməklə də böyük rol oynayır.

Bizi əlli addımlıq bir məsafədə tikilən bir evin yanına apardılar. Divarları yeni tikilməyə başlamış bu binanın ətrafına daş tökülmüşdü. Bir çalada palçıq hazırlanmışdı. Kavusun əmri ilə gənclər binaya yaxınlaşaraq iki yerə bölündülər. Dəstənin biri daş, taxta və dəmir parçalarından ibarət olan şeyləri bir-birinə vuraraq tühaf bir hava çaldı, o birisi dəstə işə başladı: sürətlə daş və palçıq verildi, divar hörüldü.

İşləyənlər yorulduqca vəzifələr dəyişilirdi: yorulanlar çalır, o birilər işləyirdi.

Beləliklə az bir zamanda divarlar başa çatdı və kimsədə yorğunluq izi qalmadı.

Xəstəxanada da Kavusun musiqi üsullarından istifadə edilirmiş. Həkim Keyhun bizə anlatdı:

– Xəstəliyi tədavi etmək üçün vücudun mübarizə qüvvəsini artırmaq lazımdır. Təmiz hava, yemək və istirahət bu sahədə böyük rol oynayır. Lakin üçünün müştərək məhsulu ruh yüksəkliyinə bağlıdır. Ruhlara mətanət vermək üçün günün müəyyən vaxtları xəstələr üçün musiqi çalınır.

Xəstəxanadan sonra bağ, bağça və tarlaları gəzdik. Hər yerdə iməcilik gördük. "Qoç" qəbiləsində də bizimki kimi xüsusi mülkiyyət yoxdur. – Hər bir şey ümumun və müştərək zəhmətin məhsuludur: istər zəhmət, istərsə məhsulun bölünməsi qəbilə şurasının öhdəsindədir. Xəstəxana, çocuq yurdu, məktəb və əlillər evi kimi ümumi müəssisələr də şura tərəfindən idarə olunur.

## 11

Bu gün yeməyi Qızlar bulağında seçdiyimiz qızlarla bərabər yedik. Hər kəs öz naçarlısı ilə yan-yana oturmuşdu.

Mənimkinin adı Nuşa imiş. Qarşımızda oturanların arasında gözlərim Ceynizə sataşdı. Naçarlısı qayət şişman bir qız idi. Daima tərəd-

düd nəşəsizliyində çırpınan Ceynizi bu dəfə çox məmnun gördüm. Hər an naçarlısına ikramda bulunurdu.

Namezlər verildi, hər kəs naçarlısı ilə badənuş olub öpüşdü. Nuşanın dodaqlarında hərarətli qan çırpıntısı duydum. Öpdükdən sonra ona yandan baxdım. Gözlərini dikərək qıpqırmızı kəsilmişdi. Qara kirpikləri yuvasına sığınmış qərib quş qanadını andırırdı.

İkinci namezi rədd etdi:

– Başım dönür, – dedi, – onsuz da məstəm.

Baxdım, ciddən məst idi – yanaqları atəş saçır, gözləri xumarlanırdı.

Piyaləni qaldırdım, yavaş səslə – Sənin şərəfinə, – dedim, – xoşbəxt olaq, qəbilə sığırları kök, itləri iti dişli olsun!

– Olsun, – deyə gülümsündü.

İçdim, piyaləni sındırıb ayaqlarının altına atdım: “Sənə vəfasızlıq etsəm bu piyalə kimi parçalanım” demək idi.

Hərəkətimdən çox məmnun oldu.

Bir az sükutdan sonra:

– Qəbiləmiz xoşuna gəldimi? – deyə sordu.

– Gözəldir! Adətləriniz daha çox xoşuma gəldi.

– Sizdə belə adətlər yoxmu?

– Var. Təbii, sizinkilərə bənzəməyənləri də var.

– Birini anlat.

– Hansını söyləyim? – deyə fikrə getdim. Sonra yadıma düşdü: – Biz özümüzə “Qoç” qəbiləsində naçarlı arayan kimi “Quzğun” qəbiləsi gəncləri də bizə gələrlər... Bizdə Qızlar bulağı yoxdur. Qızlar oğlanlarla bir düzdə görüşür, güləşirlər. Hansı oğlan hansı qızı yıxarsa, sağ əlini başına çəkər: “Həyatının sonuna qədər mənə tabesən” – deməkdir.

Qız yerdən qalxar və oğlanın sağ qolundan öpər – “Qüvvətini təqdir edirəm” – deməkdir.

Sonra qız oğlana yeddi tapmaca söylər və tapmasını tələb edər. Oğlan tapmacaları şərh etmədə acizlik göstərməsə, qız sağ əlini oğlanın sağ əlinin üstünə qoyar:

– Sənə bağlanmaq istərəm – deyər.

– Sənə bağlanıram, – deyə cavab verilərsə, şura rəisi onların əllərini göy otla bağlar.

– Naçar verilməzmi?
– Yox.
– Bəs naçarlıya nə deyirlər?
– Otlu.

## 12

Yemək əsnasında Şibra xatın kefsiz kimi görünürdü.

Nimradla arabir yavaşdan danışır və gözlərini bir nöqtəyə dikərək fikrə dalırdı. Yeməkdən qalxdıqda Milnir və Ahənəsb də Şibra xatına yanaşdı. Söhbət münaqişə şəklinə girdi.

Sonra Kəbusey məsələni bizə anlatdı:

– Qəbilədə indiyə qədər görünməmiş bir iş baş vermiş, – dedi. – Nahura adlı bir qız qəbilə gənclərindən Murdadı sevdiyi üçün Qızlar bulağına gəlməmiş. Oğlandan sual olunduqda Nahuranı naçarlı intixab etdiyini söyləmiş. Qəbilə içərisində gənclərin bir-birilə evlənməsi adət olmadığı üçün Şibra xatın ağır bir vəziyyətdə qalmış.

Bu vəqə hər adamda başqa bir mühakimə doğurdu. Ceyniz:

– Qarşılıqlı arzu hər bir şeyin əsasıdır, – deyirdi. – İki könül bir-birini seçmişsə, qəbilənin bütün adət və ənənələri o könüllərə təslim olmalıdır.

Müəllimlər bu hərəkəti əxlaq üçün zərərli hesab edirdilər. Şair Milnir tərəddüd içində idi, fikrini aydın söyləyə bilmirdi:

– Qarşılıqlı eşq totem qədər müqəddəsdir, – deyirdi.

İlyus:

– Şair, eşq nədir? – deyə istehzalı təbəssümlə sordu.

– Eşq həzrət qoçun buynuzundan doğan bir nurdur. Eşq – varlıq çeşməsinin müsəlsəl axını, eşq – əbədiyyətin təməl daşı...

– Yetər, şair, mübaliğəyə varma! Eşq – iki ac şəhvətin bir-birinə qovuşmaq iştahasıdır!..

Şibra xatın çıxışı ilə mühakimə və mülahizələrə xitam verdi:

– Qəbilədaşlar! – dedi. – Hər halda qoç ənənəsi pozulmuş. Məsələnin həlli ümumi şuraya bağlıdır. Sabah şura çağırılsın da, müzakirə etsin.

Qəbilə gəncləri qəbilədaş sayıldıqlarından bir-birilə evlənə bilməzlər. Bu ənənə əskidən o qədər qüvvətli imiş ki, əksinə hərəkət edəni daşla öldürərlərmiş. Get-gedə bu cürm şiddətini qaib etmiş, ətraf qəbilələrdə belə bir ittifaq düşərsə, cürm işləyənləri qəbilədən kənara atarlar. Qəbilələrdən sürgün olanlar "Yel" adlı bir ulus təşkil etmişlər. Bu ulus tamamilə yeni bir qayda və qanuna tabe imiş.

Ümum şuranın açılmasını gözləyən xalq arasında bir çox mülahizələr yürüdüldüyünü eşitdim. Xalqda bir həyəcan vardı. Murdadla Nahuranı parça-parça etmək istəyənlər də çox idi. Nəhayət, Şibra xatın yüksək bir daş üzərində göründü. Rəngi qaçmışdı. Dəruni iztirabını zorla gizləyə bilirdi.

– Qəbilədaşlar! – deyə sözə başladıqda səsi titrədi. Məsələni xalqa anlatdı və cürmə qarşı nə kimi cəzanın veriləcəyini soruşdu.

– Parçalansın!

– Sürülsün!

– Bağışlansın! – deyə müxtəlif rəylər eşidildi. Ceyniz Şibra xatının müsaidəsi ilə sözə başladı.

– Qəbilədaşlar! – dedi. – Bir müsafir sifəti ilə burada danışmağı özümə borc bilirəm. Əvvələn, vaqe olmuş bir hərəkətə qarşı doğru bir mühakimə yürütmək üçün qanları coşdurmamalıdır. İkinci, cürmün doğrudan da cürm olduğunu isbat etmək üçün məsələni bir neçə həkəmə həvalə etmək lazımdır. Murdadla Nahura da çağırılsın, hərəkətlərinin səbəbləri öyrənilsin.

Ceynizin fikrini rədd edənlər tapıldısa da əksəriyyət bu təklifi təsvib etdi. Şibra xatının rəyasəti ilə beş kişilik bir heyət seçildi. İşə başladılar. Ceyniz də bu cümlədən idi.

Xalq Murdadla Nahuranın məhkəmə qarşısına çıxmasını sakitliklə qarşıladı.

Şibra xatının uzun bir nitqindən sonra Murdada söz verildi:

– Qəbilədaşlar! – Xalq dərin bir sükuta qərq oldu. – Yaradılış hissdən nəşət edər. Hiss heç bir ağıl və məntiqə tabe olmadan dünyanın davamına səbəb olmuş və olur. Nahura ilə mənim qarşılıqlı hissimiz də əzəliyyətdən doğan və əbədiyyətdə qurtarmayan böyük bir amilin kiçik bir zərrəsidir. Bu zərrəni söndürmək istəyirsiniz? – Qabil deyil, çünki zərrə bizə deyil, biz zərrəyə tabeyik. Əzəldən belə qərarlanmış.

Murdadın mülahizələri bir çoxlarını qane etmədi. İlyus ağzını əydi və yanındakı Nimrada:

– Bu nə səfsətə? – dedi. – Yaradılışın əzəmətli bir ağıldan doğduğuna şübhə etmək olurmu?

Nimrad:

– Olur, – deyə gülümsədi.

– Olamaz ki! Hiss məntiqin xarici deməkdir. halbuki kainat məntiqə tabedir. Hər axşam göydə eyni intizamla hərəkət edən səyyarələr bunu isbat etməzmi?

– Danışılmasın! – deyə Şibra xatının səsi eşidildi.

Nahura:

– Murdadın dediklərinə tamamilə şərikəm, – deyə qəti cavab verdi.

Həkəmlər məsələni öz aralarında müzakirə edib, hərəkətlərinin əxlaqa müğayir olduğundan dolayı qəbilədən sürülmələrini qət etdilər.

Qərarın ağır olmamasından sevinən gənclik mələşdi, xalqın yaşlı hissəsi isə söylənə-söylənə şuranı tərk etdi.

## 14

Murdadla Nahura sabah günəşi doğmadan qəbiləni tərk etdi. Bir çox gənc onları hörmətlə yola saldı. Xalqın əksəriyyəti arxalarınca qara daş və odlu kösöv atırdı. Həyəcan bir həftə davam etdi və yalnız bir həftədən sonra şəhadət rəsmi icra oluna bildi.

Bir gün bizi qəbilə kənarındakı böyük qoç heykəlinin ətrafına topladılar. Qoçu güllərlə bəzəmişdilər.

Naçarlılarımızla bərabər sıraya düzüldük. Şibra xatın “Qoç” nümayəndəsi sifəti ilə şəhadətləri qəbul və təsdiq edirdi. Bir neçə gəncdən sonra növbə bizə çatdı. Başımıza çələng qoydular. Əl-ələ verib, qoç qarşısında dizi üstə çökdürdülər.

Bu vəziyyətdə üç addım irəlilədik. Ayağa qalxaraq qoça baş əydik. Sonra şəhadət başlandı:

– Həzrət qoç! – deyə Şibra başladı, biz də təkrar etdik. – Nurların nuru, pakların pakı! Axar sular yardımı, köklü ağac qüvvəti, yaşıl otlar ümidi! Biz də gəldik, səni deyə gəldik! Sevdik, sevildik; günəş kimi parladıq sular kimi çağladıq. Təsvib et, yardıma yet!

Nelli, nelli, nilelli”
Nelli, nilel, nilelli
Şelli, şilel, şilelli...

Xalq bir ağızla:
Naz-naz-naz,
Tapılı-tapıl-taz...

– deyə əllərindəki daşları bir-birinə vurdu. Şibra xatın kökslərimizə çiçəklər taxaraq alnımızdan öpdü və şəhadət rəsminin bitdiyini söylədi.

15

Gəncləri bir evə apardılar. Ər-arvada ayrıca otaq təxsis edilmiş, hər bir müxəlləfatla təchiz olunmuşdu.

Bir həftə burada yedik, içdik, yatdıq. Sonra Şura rəisi yanına çağıraraq qəbilədaşlıq sifətilə bizə vəzifələr verdi. Ərli-arvadlı hərəmiz bir işə göndərildik. Bütün günü işləyib yalnız yemək zamanı, ümumi təamxanada görüşərdik.

“Xoruz” qəbiləsindən gələnlər “Qoç” qəbiləsi gənclərilə çox yaxın dost olmuşdular. Tühaf burasıdır ki, Ceyniz ikisinin də arasında böyük nüfuza malik idi. Onun mülahizələri artıq mənə belə yabançı deyildi.

Ceyniz nə deyirdi?

Ceyniz şəxsiyyətin azadlığı fikrini daşıyırdı: “İnsana əsarət zənciri kəsilən adət və ayinləri, axmaq ənənələri tərk etməli. Sağlam ağıla mütabiq bir həyat sürməli”, – deyirdi.

Ceynizin məntiqi və iman atəşi ilə dolu sözləri bizi anlaşılmaz iplərlə ona bağlamışdı.

Bir gün bir hadisə oldu. Ceynizin qəbilə ənənəsinə böyük bir təhlükə təşkil etdiyi meydana çıxdı. “Qoç” qəbiləsində ölüləri basdırmazlar, götürüb bir düzdə tərk edər, qurudarlar. Quş və heyvanlardan mühafizə etmək üçün gənclər növbə ilə meyitin yanında keşik çəkərlər. Meyitin fəna qoxusu, yırtıcıların hücumu gənclik üçün böyük bir fəlakətdir.

Bir həftə əvvəl qəbilədə bir qarı ölmüşdü. Düzə apardıq. Keşik çəkmək on nəfər gəncə həvalə olundu. Ceyniz də o cümlədən idi.

Ceynizin təhriki sayəsində gənclər keşikdən boyun qaçırdılar. Qəbilədə tüğyan baş verdi. Hər kəs yay-oxunu götürüb evləri tərk etdi. Gənclərə hücum yapılacaqmış. Biz də silahlandıq.

Lakin tüğyan İlyus tərəfindən təskin edildi. Məsələnin həlli qəbilə şurasına həvalə olundu.

Şura toplanmadan əvvəl Ceyniz gizli bir gənclər şurası çağırdı. Qəbilənin lüzumsuz adətləri incədən-incəyə təhlil və tənqid olunaraq, bir səslə adətlərin məhvinə qərar verildi.

Qərardan sonra:

– İcrası qabilmidir? – deyə bir sual verdim. Coşqun qanlara soyuq su tökülən kimi oldu. Hər kəs fikrə daldı. Gənclərdən biri:

– Arkadaşlar, – dedi, bizim mənəvi qüvvətimizdən onların maddi qüvvələri daha çoxdur. Qovğada məğlub olarıq, fikrimiz də qanlara qərq edilər.

– Köçəlim! Köçəlim! – deyə hər tərəfdən səslər eşidildi. Ceyniz də razı oldu. O gecə "Yel" ulusuna köçməyi qərarlaşdırdıq.

## 16

Axşama doğru Nuşa ilə evə dönərkən ikimiz də sükut içində idik. Arabir Nuşa məndən söz gözləyirmiş kimi üzümə diqqətlə baxır, düşünürdü. Bir söz söyləməyəcəyimi duyaraq yavaş səslə:

– Çopo, – dedi, – bu axşam ciddənmi köçürük?

– Təbii deyilmi?

Nuşa bir söz deməyə cəsarət etmədi. Yanaqları qızardı, yaşlı gözlərini yerə dikdi.

Evə yetişdik. Nuşa özünü yatağa atdı.

– Nə olmuş? – dedim.

Dinmədi.

– Bəlkə, sən getmək istəmirsən?

Başını qaldırıb, yaşılı gözlərini heyrətlə gözlərimə dikdi.

– Gəncliyin qərarı bu. Gərək gedək, – dedim.

– Bəs anam?

– Mənim anam nə oldu, o da elə.

– Sənin anan adətə görə...

– Sənin anan da adəti öldürmək yolunda fəda olunur. Nuşa yenə ağladı.

– Ağlamağa lüzum yoxdur. Fəna bir adət hər kəsi yuvasından məhrum edirdi. Bu bir daha olmasın deyə köçürük... Sənin ana ayrılığı yolunda tökdüyün göz yaşları irəliki nəsillərin səadət çiçəyini suvaracaq.

– Çopo, anamı görüm də sonra qaçaq.

– Gedərsən, sirrimiz açılar, bizə hücum edərlər. Nuşa israr etmək istədi. Mən qəti səslə:

– Ya ana eşqi, ya yoldaş eşqi! İkisindən biri olmalı. Nuşa susdu. Bu əsnada qapı yavaşca tıqqıldadı. Açdım. Ceyniz idi.

– Hər kəs hazır, – dedi. – Gecə qəbilə yuxuya dalarkən yola düşəcəyik.

– Gözəl! – dedim. Getdi.

Səfərdən əvvəl Nuşa evdən çıxdı, bir daha geri qayıtmadı. Aradım, tapa bilmədim. Ana məhəbbətini yoldaş məhəbbətinə tərcih etdiyi meydana çıxdı.

Əvvəlcə bu vəqədən mütəəssir, çox mütəəssir oldum; sonra ümumi səadəti şəxsi səadətdən üstün görərək təsəlli buldum.

Gecə yarısı əlli beş nəfər yola çıxdıq. Nuşa aramızda yox idi.

17

“Yel” meşəli dağlar arasında çayın kənarında salınmış bir ulusdur. Ağ evləri yeni olan kimi, sakinləri də gənclərdir. Qırx yaşından yuxarı adam yoxdur. Zatən buradakılar ətraf qəbilələrin mühafizəkar adətlərindən qaçmış gənclərdən ibarətdirlər.

Yellilər bizim köçməmizdən son dərəcə məmnun oldular. Hər bir ailə birər müsafir qəbul edərək bizləri yerləşdirdi.

Ulusu gəzdik, çox xoşladıq. Təsərrüfatları yeni idisə də, müntəzəm idi. Otlaqda gözəl ilxıları, ayrıca bir həyətdə ev quşları vardı. Tarla və bostanları hamımızı ödəyəcək qədər zəngin idi.

Burada da xüsusi mülkiyyət yox idi. Əmək iqtidarı olanların çalışması məcburi idi. Ulus şurasının əmri hər kəs üçün məcburi idi və əməklə, əmək məhsulunun paylanması da ona həvalə olunmuşdu.

Şura rəisi bizə izahat verdi:

– Arkadaşlar, – dedi, – bizdə heç bir adət yoxdur: Hər kəs nərədən və nə zaman kimlə istərsə evlənə bilər. Ulus şurası yalnız həyata faydalı şeylərlə məşğul olur. Hər kəsə istirahətli bir həyat təmin eləmək, ən böyük məfkurə hesab edilir.

İnsanın yalnız həyatı lüzumlu olduğu üçün meyiti yandırılır və ondan etibarən adı belə çəkilmir. Ulusa yenilik gətirmək üçün ildə bir neçə adam səyahətə çıxır və bir müddət gəzdikdən sonra geri dönür. Başqa xalqların həyatında gözəl işlər varsa haman biz də tətbiq edərik. Baxın, uzaq ölkələrin birindən palaz toxumaq öyrənmişlər. Biz də toxuyuruq. Dəmirçimiz arabalarımızın şəklin dəyişdirmişdir...

Yurduna böyük bir eşq bəsləyən rəisin sözləri bizə gözəl təsir bağışladı və o gündən etibarən ulusa ürəkdən bağlandıq.

İki gündən sonra bizim üçün tikiləcək evlərin yerlərini təyin etdik və bütün ulus işə başladı.

18

Dəstəmizin rəhbəri Mimrə adlı bir qız idi. Mimrə "Meymun" qəbiləsində bir usta yanında üç il bənna şagirdi olmuş. Bununla bərabər çalışan oğlanlar usta ünvanı almışlar da, nədənsə ona bu adı verməmişlər. Mimrə "Meymun" qəbiləsində ustalığa çatmayacağını duyaraq bir gecə ailəsindən xəlvət "Yel"ə qaçır. Burada şura rəisinə müraciət edərək sənəti sahəsində bir iş istəyir. Rəis nümunə üçün bir ev yapmasını ona tapşırmış və bizi də yardımçı göndərmişdi.

Təqribən on səkkiz-on doqquz yaşlarında olan bu qız son dərəcə ciddi və bəlkə bir az da sərt təbiətli idi. İlk gündən bizi ikiyə ayırdı. Bir neçə nəfəri dağa daş qırmağa göndərdi, o birilərini bünövrə qazmağa təyin etdi.

Bünövrə qazmadan əvvəl yeri ölçdü, cızıqları çəkdi və nərədən-nərəyə qədər qazacağımızı göstərdi. Biz də xəndək qazarkən Mimrə palçıq yoğururdu.

Günəş qübbənin ortasına gələr-gəlməz, bir şərqi səsi eşidildi. Haman hər kəs işi tərk edərək ümumi yeməkxanaya getdi.

Mimrə işdən aralanmadı. Palçıqdan bir şey qayırmaqda idi. İki hordan* sonra geri döndük. Mimrə böyük bir daşın üzərində yapdığı ikiotaqlı bir evi tamamlayırdı.

– Bu nədir? – deyə sordum.

– Yapacağımız evin çeşnisidir, – dedi. – Hər otağın boyu on addım və eni yeddi addım olacaq

---

* "Yel"lər vaxtı bölmək üçün açıq meydançada bir dairə cızıb, ortasına əmudi bir ağac dikmişdilər. Dairə on altı hissəyə bölünmüş; hər hissəyə "hor" deyirlər.

Əməkdaşlar maraqlandı və Mimrəyə müxtəlif suallar verməyə başladılar. İşi hələ başlamamaq məqsədi ilə biri söhbəti uzatmaq istədi. Mimrə hiddətlə:

– İş zamanı söhbət olmaz! – dedi və onun sözlərini kəsdi. Mimrənin sözləri haman bizi xəndəyə sövq etdi. İşə başladıq. Lakin yeməkdən sonra çalışmağa çox da həvəsimiz yox idi. Hamımızda bir süstlük vardı.

Bir də Mimrə başımızın üstünü kəsdi. Palçıqlı əllərini belinə qoyub tamaşa edər-etməz sanki bizə qüvvət gəldi, əmək şərqimiz haman dilimizin ucundan töküldü.

Hay, hay,
Huy, huy,
Hay, hay,
Huy, huy!..

Günəş yatağına enməmişdi ki, xəndəyi qurtardıq. Mimrə gəlib baxdı, xoşuna gəldi. Ağacı götürüb yenə yeni cizgilər çəkdi və o biri gün görəcəyimiz işləri təyin etdi.

19

Evi tikib qurtardıq, şura rəisi bir neçə şura üzvləri ilə bərabər gəlib evə baxdı, bəyəndilər. Evin cəbhəsindəki qabarma şəkillər və nəqşlər hər kəsin nəzərini özünə cəlb etdi.

Rəis Mimrədən razılıq etdi və dedi:

– Sənətinə əbədiyyət qazandırmaq üçün yanına bir neçə çocuq göndərəcəyəm. Onları öyrət.

Mimrənin sərt üzü parladı:

– Yaxşı, göndər, – dedi və simasını yenidən ciddiləşdirərək.

– Ancaq tənbəl olmasınlar, – deyə əlavə etdi.

– Tənbəl deyillər.

– Yaxşı, gəlsinlər.

Evə baxdıqdan sonra Mimrə daşın üzərindəki çeşnini göstərdi.

Rəis diqqətlə baxdı, düşündü; sonra üzvlərdən birinə müraciət edərək dedi:

– “Yel” get-gedə böyüyür. Bizə böyük bir yemək evi lazımdır. Bunun çeşnisini Mimrəyə tapşırmalı.

Üzvlər rəisin fikrinə şərik oldular. Öz aralarında bir az danışdılar, sonra Mimrəyə tərəf yönələrək:

– Ulusa bir yemək evi lazımdır. Onun çeşnisini yap, – dedilər.

– Neçə adamlıq olsun?

Rəis hesabladı, sonra üzvlərlə məsləhətləşib dedi:

– İki yüz adamlıq olsun.

Mimrə çox düşünmədən:

– Belə bir bina üçün ulusun içində əlverişli bir yer görmürəm, – dedi və əli ilə ulusun üst tərəfini göstərərək: – oralar dağlıqdır. Ulusun yuxarıya doğru genişlənməsinə imkan yoxdur. Ulusun gələcək mərkəzi çayın yuxarısında olmalıdır.

Ulus vəkilləri Mimrənin sözlərinə əhəmiyyət verərək çay yuxarı getdilər. Çayın dönəcəyində geniş bir düz var idi. Mimrə onu göstərərək:

– İştə, yemək evi bunun mərkəzində salınmalı. Şübhəsiz ki, buralar bir zaman evlərlə dolu olacaq, mərkəz təşkil edən yemək evi ətraf evlərdəkilər üçün bir qolaylıq olar.

Rəis Mimrənin mülahizələrini məmnuniyyətlə dinlədi:

– Şəxsən sənin fikrinə tamamilə şərikəm, – dedi. – Məsələni ulus şurasında müzakirəyə qoyaram, bir heyət gələr də bu yerə baxar, sonra qəti bir qərar çıxararıq.

## 20

Bir gün daş qırmaqdan dönərkən gözlərim yeni evlərdən birisinin həyətində işləyən Mimrəyə çarpdı. Böyük bir çeşni yapırdı.

İçəri girdim. Salamlaşdıq.

– Bu nədir? – deyə sordum.

– Şuramızın təsvib etdiyi məhəllənin çeşnisidir. Çayın yuxarısında sizə göstərdiyim yerdə belə bir məhəllə salınacaq – dedi. – Bu ortadakı yeməkxana; ətrafdakılar da cürbəcür evlərdir. Bu çocuq yurdu, o xəstəxana, o əlillər evi, bu məktəb...

Çeşni son dərəcə gözəl idi. Bu tikililər başa gəlsəydi, “Yel” qəbilələr arasında yüksək bir mövqe tutacaq idi. Məmnuniyyətimdən

Mimrənin çamurlu əllərini götürüb, yanaqlarıma sürtdüm. Üzünə qan səpildi, gülümsədi. Mənim bu hərəkətim oradakı şagirdlərin nəzərini cəlb etdi. Bunu görən kimi Mimrənin üzünə bir sərtlik gəldi, haman şagirdlər başlarını aşağı salaraq işlərinə davam etdilər.

Ruhumda dərin bir həzz daşıyaraq Mimrədən ayrıldım. Yolda Ceynizə rast gəldim. Bağçada çalışırdı. Mimrədən bəhs etdim.

– Bu qız ulusda birinci adam olacaq, – dedi.

– "Meymun" necə bunun qədrini bilməmiş? – deyə heyrət etdim.

– Mühafizəkarlıq "Meymun"u çürütmüş, yalnız "Meymun" deyil, bir çox qəbilələr adətlər bataqlığında çürüyür.

– Yeni məhəllə salınması təsvib olunmuş, deyirlər.

– Elədir. Ulusun böyüyəcəyi mühəqqəqdir. Onun üçün yeni evlər hazırlamaq icab edir.

– Tikilişin ümumi idarəsi kimə həvalə olunur?

– Mimrəyə. Şura Mimrəyə "baş usta" ünvanı verəcək və bu münasibətlə böyük bir ziyafət olacaq.

– Çox gözəl, çox gözəl! Bütün sənətkarlar təşviq olunmalıdır.

– Çopo, sonra bir təşəbbüsüm də var, yəqin bunu da təsvib edəcəksən. Bu yaxınlarda şuranın iclası olacaq. Bütün qəbilələrdəki qüvvətli adamların "Yel"ə yığılması məsələsini müzakirəyə qoyacağam. O cümlədən Kavus və İlyusun da ulusa cəlb olunmasını tələb edəcəyəm.

– Fikirlərini alqışlayıram, – dedim. Ceyniz gülə-gülə:

– Səndən də istifadə olunacaq, – dedi.

– Mən təbiətən mütəvazi adamam, çox yüksək xidmətlərdən xoşlanmam.

– Bizdə yüksək və yüksək olmayan adam yoxdur. İşin hər bir şəkli təqdir olunur, yalnız... mühafizəkarlığa qarşı oxlar yağdırırıq.

Ceyniz sözlərini qurtarmadan qəhqəhə çəkib güldü. Gülüşündə mənim keçmiş ənənəpərəstliyimə qarşı bir tənə duydum:

– Bütün keçmişimi "Qoç"da gömdüm gəldim, – dedim. Sözlərim Ceynizin xoşuna getdi.

– "Yel" ruhların xarab havasını təmizləyir. Burada bütün ruhlar büllur kimi təmizdir. Buranı qüvvətləndirib, o biri qəbilələri də duruldacağıq. Zatən bu yazdan başlayaraq hər qəbilədən ildə iyirmi-otuz nəfər mühafizəkarlıq düşməni gətirib, ulus idarəsi ilə aşna edəcəyik.

– Belə olursa qəbilələrin yeniləşməsinə heç bir maneə ola bilməz.

Qışı yeni evlərimizdə keçirdik. Ulus adətincə, günəşlə yatır, günəşlə qalxırdıq. Evimizin ziynət və müxəlləfatını tamamlayırdıq. Xalılar toxuduq, yataq yapdıq, palçıqdan qablar qayırıb kürələrdə bişirdik. Tam bir istirahət edərək bahara çıxdıq.

Yazın ilk ayında ulus şurasının qərarına görə səfərə çıxmam icab etdi.

İki aya qədər şimal tərəfdəki ölkələri gəzib dönməli idim.

Umuzumdakı torbaya bir günlük azuqə qoydum, əlimə bir uzun əsa alıb, yola düşdüm. İkinci axşam bir suyun kənarında qurulmuş çadırlara rast gəldim. Ətraf təpələrdə ilxı otlayır, xalq çadırların qarşısında çalıb oynayırdı. Yaxınlaşdıqda itlər hər tərəfdən üzərimə hücum etdi. Uzun geyimli və saçlarının uclarından gümüş parçaları sallanan qızlar yüyürüşərək itləri qovdular. İrəliləyib, ocağın üzərində asılan qazanın bir yanında oturdum. Qonaq olduğumu duyaraq, su gətirib ayaqlarımı yudular, yemək verdilər, sonra ağacın altında yatdım.

Sabah erkən çadırlar yığıldı, ilxı toplanıb yükləndi, yola düşdülər. Torbama bir az qurutla qovrulmuş düyü qoymuşdular. Yeyərək mən də öz yoluma davam etmək istədikdə gözlərimə ağacın altında oturmuş bir qoca sataşdı. Yanaşdım. Uzun ağ qaşlarının altında işıldayan xırda, yaşlı gözlər məni heyrətlə süzdü. Yanında bir neçə davar var idi. Beş addım o yanda tükünü tüləmiş qoca və çəlimsiz bir köpək yatmışdı. Qoca zorla nəfəs alırdı.

Öz-özümə "burada bir sirr var" deyə qocaya salam verib qarşısında durdum. Qansız dodaqları tərpəndisə də səs gəlmədi.

– Köç getdi, sən niyə burada qaldın? – deyə sordum.

– Köç qocaları tərk edər. Bu qədim bir adətdir. Bu köpəklə mən artıq işə yararsız olduğumuzdan bizi buraya atdılar.

– Övladların yoxdurmu?

– Var. Zatən onlar tərk etdi.

Bu sözləri zorla dodaqlarından uçuran qoca gözlərini yumub, başını ağaca söykədi. Üzünün qurumuş cizgilərində dərin bir faciə təcəssüm etdi. "Mən də qırx il əvvəl atamı bu ağacın altında qoyub keçmişdim" – cümləsi dodaqlarının son ifadəsi idi.

Başı yan tərəfə əyildi və bədənini də özü ilə çəkdi: son nəfəsini bir hıçqırıqla bəyan edərək söndü.

Yoluma davam etdim. Günəş göyün tam ortasında ikən üfüqdən toz qopması gözlərimə çarpdı. Bir çox qaraltıların yürüməsi ordunu xatırladırdı. Həyəcan məni bürüdü. Özüməmi, ya azad ulusumamı qarşı təsəvvür olunan təhlükə məni sarsıtdı. hər halda zəiflik göstərmək istəmədim. Yolumun davamında israr etdim.

Bir də nə gördüm!.. Günəşdən qaralmış, saç-saqqalları pəjmürdə, cır-cındır içində bir insan sürüsü. Bunların yeganə silahı əllərindəki əsadan ibarət idi; yerə döyərək yavaş-yavaş yürüyürdülər. Arıq vücudları təəssüf doğururdu. Məni görməyən kimi üzərimə gəlirdilər... Hamısının kor olduğunu dəhşətlə duydum.

Yoldan kənara çəkildim. Sel kimi arxası kəsilmədən axıb gələn bu zavallı insanlara tamaşa etməyə başladım. Önlərinə gələn xırda bir çayı sezərək çəyirtkə kimi kənarına sərildilər. Kimi su içir, kimi əl-üzünü yuyur, kimi də ayaqlarını suya salaraq uzun yolların yorğunluğundan qurtulmaq istəyirdi.

Yaxın gəldim. Birisini danışdırdım. Ot qoparıb yediyindən ac olduğu görünürdü. Ona bir az qovrulmuş düyü verdim. Məmnuniyyətdən əllərimi arayaraq öpmək istədi, qoymadım.

– Nərədən gəlirsiniz? Niyə hamınız korsunuz? – deyə iztirabla sordum.

Kor mənə ağıla sığmayan şeylər anlatdı:

– Biz, – dedi, – iskitlərin əsirləriyik. Müharibədə ələ keçirdikləri kişiləri kor edər və qadınları hərəmə alarlar. İllərdən bəri vəzifəmiz inəklərə baxmaq, onları sağıb iskit ailəsini bəsləməkdən ibarətdir. İskitlər hücum edəcəkləri xalqlar arasına çaxnaşıq salmaq üçün hücumdan əvvəl oraya korları göndərərlər. Səfərimizin məqsədi faciəmizlə başqalarını aşılamaqdır... Biz gedirik, arxamızca da iskitlər gəlir. Göyün ulduzunun sayı var, onların sayı yoxdur...

Susdum... Korun məqsədi artıq məni aşılamışdı. Ulusumun müqəddəratı mənə olduqca qorxulu bir vəziyyətdə görünürdü.

Haman durdum; geri döndüm.

İki gün sonra ulusun küçələrində carçı qoşaraq dəhşətli səslə bağırırdı:

Hey, ulusdaşlar!
Gəlin! Gəlin!
Təhlükə var:

Göyün ulduzunun sayı var,
İskitlərin sayı yoxdur.
Gəlin! Gəlin!
Təhlükə var!

Qız, gəlin, ahıl-cahıl – hamısı axın-axın gəldi, toplandı.

Hər kəs həyəcan içində, mən də həyəcan içində, çıxdım, anlatdım:

– Silaha sarılın, silaha! Yardıma çağırın, yardıma!.. O gün on üç ətraf qəbilənin küçələrində carçılar qoşaraq:

Gəlin! Gəlin!
Təhlükə var!
Göyün ulduzunun sayı var,
İskitlərin sayı yoxdur.
Gəlin, gəlin!
Təhlükə var!

– deyə bağırırdılar.

Toplandılar. Məsləhətləşdilər. Bütün qüvvələrin bir yerə toplanmasını qərara aldılar. Bu qərarın icrası üçün fövqəladə bir heyət seçildi. Gənclər tərəfindən də Ceyniz buraya daxil edildi.

## 24

Günəş yatağına doğru enərkən Ceyniz yanıma gəldi. Oturduq.

– Nə var, Çopo? – dedi.

– Son görüşümüzdən sonra bir hadisə olmamış.

– Bilirsən, məsləhətə gəldim. Korların istiqamətini dəyişmək üçün adamlar göndərildi. Onları başqa səmtə çevirəcəklər...

– Bu gözəl işdir – aramıza yayılsalar ruh düşgünlüyü vücuda gələr.

– Sonra... Buğatay bütün qüvvələrə sərkərdə təyin olundu.

– Bu da gözəl. Buğatay cəsur, nüfuzlu və təşkilatçı adamdır...

– Silah tədarükü Ahənəsbə həvalə olundu. Qəbilələrin bütün sənətkarları səfərbərlik halına gətirilir.

– Ərzaq məsələsi necə?

– O məsələ də müzakirə olundu. “Quzğun” qəbiləsi bir namizəd göstərdi, qəbul etdik.

– Bir də hər kəsin vəzifəsi əvvəlcədən bəlli olmalı.

– Şübhəsiz olacaq... İndi, Çopo, bir iş var. İskitlərin nə olduğunu öyrənməliyik. Adət və ayinlərini, müqəddəsatlarını, maddi qüvvət və qüdrətlərini bilməliyik. Düşmən ətraflı öyrənilərsə, qələbə yolları asanlaşar. Sənə təfsilatını söyləməyə lüzum yoxdur. Qəbilələrin azadlığı və mədəniyyətimizin bəqası yolunda üzərinə yeni bir vəzifə düşür.

– Hazıram!

– İskitlərin içinə getməlisən.

– Hazıram!

– Heyət sənə tam bir səlahiyyət verir. Düşmənə qarşı edəcək bütün hərəkətində sərbəstsən. Qarşımızda olan təhlükəni aradan qaldırmaq üçün nə lazım isə əsirgəməzsən...

– Hazıram!

– Yalnız vaxtı keçirməməli. Mümkün isə bu gün yola çıx.

– Vaxtı keçirməmək üçün bir at lazım.

– Təbii, on dəqiqədən sonra at burada hazır olar.

– Mən də durmadan minib gedərəm.

## 25

Yolda bir bulaq başına endim. Bir həftəlik səfərdən sonra bir-iki gün burada dincəlmək fikrində idim.

Ətrafda quş çox idi. Atı bir ağaca bağlayıb ova çıxdım. Kolların arasından qulağıma bir şaqqıltı gəldi, haman, oxu yaya basıb hazırlandım. Diqqətlə qulaq verdim. Zəki və elastik bir heyvan yürüşünə bənzəyirdi.

– Aslanmı? – deyə düşündüm. Qəvi bir yırtıcı ilə qarşı-qarşıya gəlmək ehtimalı qanıma qor doldurdu. Bir dəqiqədə sanki “insan” deyilən bir pərdə var imiş də üzərimdən qaldırıldı, varlığım ibtidai çılpaqlıqla meydana çıxaraq qana susadı. Bir də... incə bir qadın şərqisi vəhşətə qələbə çaldı. Əlimdən oxum düşdü, yaşıllıqlar arasından orta boylu, günəşdən yanmış bir çöhrə göründü. Başındakı sərnic suya getdiyini göstərirdi.

İrəlilədim. Məni görərkən qız ürkdü. Kənara sıçrayaraq bir neçə addım atdıqdan sonra durdu. “Kimdir? Haradan gəlir?” deyə işarə ilə anlatdım. Gülümsədi. Meşəlik yamacı göstərdi.

– Oraya gedək! – dedi.

Sözümə cavab olaraq başındakı qabı göstərdi.

Fikrini anladım: bir yerdə bulağa enərək sərnici su ilə doldurduq. Ata mindim və sərnici də yəhərin qaşına qoydum; yola düşdük.

Yamacın arasında böyük bir düşərgəyə rast gəldim. Atlar kişnəyir, inəklər böyürür, qoyunlar mələşirdi. Ətrafda qarınca kimi qaynaşan insanlar içində bir kişiyə rast gəlmədiyim üçün heyrətləndim.

Bir çadıra yanaşdıqda qız sərnici istədi. Verdim.

Bir neçə dəqiqədən sonra mənim buraya gəlməm böyük bir hadisə təşkil etdi: ətrafıma yüzlərcə qadın toplandı. Sərt çöhrəli, şişkin əzələli bu qadınlar dişidən daha çox erkəyə bənzəyirlərdi.

Bir də izdihamın arxasından bir səs eşidildi; haman, qadınlar yana çəkildi; yaşlı və gözü kor bir qadın irəliləyib, atımın cilovundan yapışdı. Bəzi sözlər söylədi, anlamadım. Atı çəkərək apardı.

## 26

Qadın məni gözəl bir çadırın qarşısında tərk edib, içəri girdi. Qapıda qarovul çəkən iki qız əllərindəki nizələri yerə vuraraq bəzi sözlər dedilər. İstehza etdikləri bəlli idi. Biri dilini çıxarıb, qıpqırmızı kəsildi.

Bu əsnada içəridən uca boylu çirkin bir qadın çıxdı. Bu qadını on nəfərə qədər qız təşyi edirdi. Təzimkar bir təbəssümlə mənə baxdı və çadırın qarşısındakı taxta əyləşdi. Dəvətinə hörmət edərək atdan endim və göstərdiyi yerdə oturdum. Yanındakı qadınlar sıra ilə mənə yanaşaraq bəzi sözlər söylədilər, anlamadım.

Sonuncu qadının dili bizimkinə yaxın olduğundan anlaşdıq.

Burası həməzənlər düşərgahı imiş.

– Bunların kişiləri yoxdurmu? – deyə sual verdim. Qadın:

– Yox, – dedi, – bizlər kişiləri içimizə buraxmarıq. Mən qulaqlarıma inanmayan kimi:

– Ərə getmək yoxmu? – dedim.

Qadın gülümsədi və bir az duruxdu. Sanki cavab verməkdən aciz idi. Nəhayət, izaha başladı:

– Bizim qadınlar yalnız müharibə meydanında məğlub edildikləri kişilərlə görüşürlər. Bu görüş daimi olmaz. Müəyyən zamandan sonra kişiləri tərk edərək yenə ayrıca həyat sürərik.

– Zürriyyət olmazmı?

– Olur.

– ?!.

– Heyrət etmə, qız övladları saxlayıb, oğlanları aramızdan çıxardarıq...

Çirkin qadın bunların sərkərdəsi imiş. Adı Alpaqay idi. Alpaqay səfərimdən maraqlandı.

– Haraya gedirsən? – dedi.

– Səyyaham. Dünyanı və insanları görmək istəyirəm, Alpaqay başını tərpətdi:

– Bilirəm, – dedi, – sənin kimi bir səyyah bir dəfə də mənə müsafir olmuşdu. Adı Anastasiz idi. Çayların başlandığı və töküldüyü yerləri öyrənər, dağları və şəhərləri xəbər alardı... Dəniz kənarında bir ölkə var imiş, orada yaşarmış.

Bu söhbətdən sonra Alpaqay neçə vuruşmada olduğumu soruşdu.

– Heç bir! – dedikdə, heyrət etdi. Ətrafında ayaq üstə duran qızları süzdü və sonra:

– Ölümdən qorxursanmı? – deyə soruşdu və gülümsədi.

– Yox, biz oturağıq. Alpaqay yenə gülümsədi:

– Oturaqları çox gördüm. Bataqlığa sancılmış ox kimi bir yerdə çürüyüb qalırlar. Yatağana belə yapışsalar, öz əllərini kəsərlər.

Başqa-başqa zehniyyət sahibləri olduğumuz üçün münaqişəni lüzumsuz gördüm.

## 27

Gecənin yarısı vücuduma toxunan soyuq əllər məni yuxudan oyatdı. Gözlərimi açar-açmaz yanımda cilvələnən bir qız gördüm. Diqqətlə süzdüm. Gündüz mənə dil göstərən qız olduğunu duydum. Ayazdan vücudu buz kəsilmişdi. Bağrıma basdıqca hərarətdən əriyən qar kimi varlığıma nüfuz edirdi...

Çox çəkmədən qulağıma bir şıqqıltı gəldi. Qaranlıqdan bir işıq doğan kimi oldu. Uca boylu, dolğun vücudlu qəhrəman bir qadın yanaşaraq başımın üzərində çökdü. Əndamının rayihəsi qanımı coşdurdu. Tək olmadığımı anlar-anlamaz qarovulçunun saçından yapışdı. Qarovulçu hiddətlə sıçradı. Lakin qarşısındakı qadını tanıdıqda utandı; önündə diz çökdü.

Qadın ona bir neçə sərt söz söylədi və nəhayət, bir yumruq ilişdirdi. Qarovulçu qalxdı və yaydan buraxılan ox kimi qaranlıqda qaib oldu.

İki qadının qovğası erkəyə malik olmaq üçün imiş, zənn etmişdim. Halbuki uca boylu qadının da getməyə hazırlanması təsəvvürümün boşluğunu isbat edirdi.

Vücudumda yandırılan alov söndürülmək istəyirdi.

Qalxdım, qaranlığa qarışmaq istəyən qadını arxadan qucaqladım. İlan kimi qıvrılıb, qollarımın arasından çıxdı. Sonra dəmir pəncəsi havada oynadı və umuzuma dəyən yumruqdan yerə sərildim. Özümə gəldikdən sonra həqarətin ağırlığını duymağa başladım; həməzənlər məğlub etdikləri kişilərdən nifrət edərmişlər.

Çox düşünmədən atımı yəhərləyib, yola düşdüm.

28

O biri gün rast gəldiyim korlar qafiləsindən birinin yanında qaldım. Uzun-uzadı söhbətdən sonra iskitlər haqqında bir çox məlumat topladım. Bu barədə təfsilatını sordum, Bir kor anlatdı:

– Bütün ruhani ayinlər qamlar* tərəfindən yapılar. Qamların üzərində kəllə şəkilləri çəkilmiş dəfləri var. Bu dəfləri çalaraq dönərlər və cəzb olarlar. Haləti-cəzbdə allahlarla görüşər, ilham alarlar və aləmi-qeybin sirlərinə vaqif olarlar.

Cəzbdən sonra hər kəs qama yanaşar və "haqqımda nə qədərlənmiş" – deyə soruşar. Qamın arxası kəsilmədən verdiyi cavablar kimini şad, kimini isə kədər içində buraxar. Qamın nüfuzu xaqanınkından daha böyükdür...Korun hekayəsi məni məmnun etdi. İndi qamın özünü görmək və hərəkətlərini öyrənmək başlıca məqsədlərimdən biri oldu.

Atı minib, yola düşdüm. Bir neçə gündən sonra iskit nəfərlərinə rast gəlməyə başladım. Bunlar atlarını ota buraxmışdılar. Uzanmış bir nəfərə yanaşdım. Üzündə əzab nişanələri var idi. İşarə ilə sorduqda ayağını göstərdi: yarası var imiş. Haman durduğum yerdə fırlandım və sonra əllərimi göyə götürərək dua edər bir vəziyyət aldım. Baxdım, nəfərin üzündə ümid parlamağa başladı.

"Dua"dan sonra nəfərin yarasını açdım qurtlamışdı. Təmizlədim, duzlu su ilə yuyub bağladım. Nəfər (rahatlanan) kimi oldu.

---

* Şamanlar

Bir az sonra bizə bir ayrı nəfər də yanaşdı. Yaralı ona bir şeylər anlatdı. Nəfər əlini ayağıma sürtərək öpdü və təzimkar bir vəziyyət aldı.

"Məqsədimə çatdım", – deyə düşündüm.

Az çəkmədən ətrafımda görünən on-on beş nəfər buraya toplandı; hamısı əllərini ayaqlarıma çəkərək öpdü.

Yaralı yenə bir şeylər söylədi. Ocaq qaladılar. Bir nəfər bir neçə bağırsaq qurusu gətirdi. Bizlə atların budlarını deşərək, içlərinə qan buraxdılar və ağzını otla bağlayıb, odun üzərinə döşədilər. Bişər-bişməz bölüşdülər; biri də mənə düşdü.

İskitlərin səfər yeməyi bundan ibarət imiş.

29

Üç gün bu nəfərlə qaldıq. Açıq havada yatar, qalxardıq. Bu üç gündə nəfərin yarasını müalicə etdim. Yaxşılaşdı. Nəfərlərin arasında böyük nüfuza malik oldum. Yavaş-yavaş baş düşərgənin yerini öyrəndim və oraya getməyi arzuladım.

Nəfərlər məni apardılar.

Yolla gedərkən atların cilovlarından asılmış quru dərilər nəzərimi cəlb etdi. Soruşdum:

– Öldürdüyümüz düşmənlərin üzünün dərisidir, – deyə iftixarla söylədilər.

Saydım. Yaralının yüz iyirmi bir adam öldürdüyü məlum oldu. O biriləri də öldürmüşlərdi.

Onlar öldürdüklərinin qol sümüklərini də nizələrinin saplarına nəsb etmişdilər.

Yarım gün atları ota buraxılmış əsgər içindən keçdik. Axırda gözlərimiz bir təpədə qurulmuş bir neçə gözəl çadıra sataşdı.

– Xaqan oradadır, – deyə yaralı barmağı ilə işarə etdi.

Biz də təpələrin ətəyində bir çeşmənin yanında düşüb qaldıq.

Yaralı məni tərk edir, təkrar geri dönürdü və hər gəldikdə özü ilə bir neçə yeni adam gətirirdi. Bunlar ətrafıma toplanıb, mənə heyrətlə tamaşa edir, öz aralarında danışırdılar. Bunların marağını artırmaq üçün arabir göyə baxaraq "dua"lar oxuyurdum.

O gün yanıma bir neçə xəstə gətirdilər. "Dua"ladım və kökslərinə bir ot yapışdırıb yola saldım. Nəfərlər otu tilsim zənn edərək ona toxunmaqdan qorxurdular.

Get-gedə yanıma gələn xəstələrin sayı artdı və “tədavi”dən əvvəl “ayin” yapmağa başladım.

Fırlanmam məni iskitlərə qam sifəti ilə tanıtdırdı və nüfuzum gündən-günə artdı.

Bir axşam xalq arasında dolaşarkən dairə təşkil edən bir izdihama rast gəldim. Yanaşdım. Paltarı qızıl və gümüş pullarla bəzəkli bir qam dairənin ortasında fırlanmada idi. Bir neçə dəqiqədən sonra qam cəzb oldu, ağzından köpük daşlandı.

Ayılar-ayılmaz hər kəs:

– Qədərimdə nələr var? – deyə suallar yağdırdı.

Qam cavab verərək mənə yönəldi və xitab etmək istərkən, haman, yerimdə fırlandım.

O qədər sürətlə fırlandım ki, başım gicəldi, yıxıldım.

Ayıldıqda gözlərim qarşımda duran qama çarpdı. Həyəcanından rəngi qaçmışdı, vücudu titrəyirdi.

– Qədərimdə nə var? – deyə dili dolaşdı.

– Sabah öləcəksən! – dedim, qam bayıldı. Ətrafımı xalq bürüdü:

– Qədərimdə nə var? – deyə edilən suallara ağzıma gələn cavabları verdim.

Xalq mənə paltar, gümüş və qızıl pullar bağışladı. Bu qam baş qam imiş. Bunun bayılması nüfuzumu aləmə yaydı.

## 30

Baş qamın qədəri haqqında söylədiyim peyğəmbəri sözlər doğrulaşdı. Qamın xaqan tərəfindən boğdurulduğunu eşitdim. Məni saraya çağırmaq üçün gələn təşrifat nəfəri anlatdı.

– Səbəb? – deyə sordum.

– On beş gün əvvəl, – dedi, – xaqanın oğlu çayda çimib xəstələnmişdi. Xəstələndikdən dolayı cənuba doğru təsəvvür olunan səfər dayandırılmışdı. Xəstəlik baş qamın ruhani ayini ilə tədavi olunar. Qam çağırıldı, sarayda qürənanın yanında fırlandı, cəzb oldu və bir həftə sonra şahzadənin şəfa bulacağını elan etdi. Dünən həftə tamam oldu, şahzadənin səhhəti yaxşılaşmaqdan daha da fənalaşdı. Sarayda bir anlaşılmazlıq yarandı. Cürbəcür şayiələr (yayıldı). “Xaqanın ikinci qadını Runca öz oğlunu vəliəhd etdirmək üçün qama bəd dualar etdirmiş” – dedilər. Nəticədə baş xatın oğlunun intiqamını almaq üçün qamın öldürülməsini tələb etmiş...

Hakimiyyət ətrafında bir çox həngamələr olduğunu ilk dəfə olaraq duydum və istifadə etmək yollarını düşünərək saraya getdim.

Yolda qarşıma çıxan nəfərlər ayağıma əllərini sürtərək öpürdülər. Artıq düşərgədə hər kəs məni tanıyır və "qüdsiyyətimə" inanırdı. Bu qədər tez yüksəldiyimə heyrət etdim.

Təşrifatçı nəfərlə bir çadıra gəldik. Üzü çapıq bir adam məni hörmətlə qəbul etdi və baş qam təyin olunduğumu söylədi.

Mənə ulduzlu bir paltar, qumrovlu bir dəf verdilər. Buradaca kiçik bir ayin yaparaq şeyləri qəbul etdim. Bir neçə qam şagirdi zurna çaldı, geyindim. Hazır olan kimi hər tərəfdən mənə təzim olundu. Çapıq adam bir sözlər söyləyərək başıma arxası at quyruqlu bir qalpaq qoydu.

Zurnaçılar məni xəstənin çadırına təşyi etdilər.

Altun dəstəkli, incə tikişlərlə işlənmiş qapıdan içəri girdim. Xəstə çadırın baş tərəfində hündür bir taxtda yatmışdı. Hər tərəfdə doqquz gənc qız diz çöküb, saçlarını əllərində tutmuşdu. Çadırda dərin bir sükut idi. Baş xatın xəstənin yanında idi. Məni görən kimi duakar bir sima ilə yerindən qalxdı, əlimdən öpdü. Xəstəyə yanaşdım. Böht içində idi. Əlimi alnına qoydum. Hərarəti çox idi. Geri çəkildim. Ətrafındakılar kənara durub mənə meydan verdilər. Fırlandım. Özümü qaib edincəyə qədər dəfə yumruqlar vurdum... Axırda nə olduğu xatirimdə deyil.

Bir də ayıldım. Baş xatın irəlilədi.

– Oğlumun qədərində nə var? – deyə həyəcanla sordu. Susdum. Gözlərimdən yaş süzüldü. Ağlayacağımı heç də təsəvvür etməzdim. Baş xatın taxtına yıxıldı. Gözləri yaşlı qızlar hər tərəfdən ona tərəf qoşdular.

## 31

O biri gün şahzadənin dəfn mərasimini keçirdik. Qullar iyirmi addım uzunu və iyirmi addım enliyində iki adam boyu bir yer qazdılar. Dibinə söyüd yarpaqları döşəndi. Şahzadənin çadırı bütün müxəlləfatı ilə buraya yerləşdirildi. Meyiti geyindirib, silahlarla bərabər yatağına uzatdılar, çadıra gətirdilər. İrəliki gün diz çökən on səkkiz qız Alpatay adlı çopur bir cəllad tərəfindən bir-bir boğulub öldürülmüşdü. Bunları da şahzadənin ətrafına düzdülər. Şahzadənin atı boğulub, çadırın qapısına bağlandı.

Qəbir torpaqla örtülmədən əvvəl xaqan, onun hərəmi və dayə gəldi. Xaqan sadəcə geyinmişdi. Yalnız qurşağındakı dəstəsinə almaz və ləllər nəsb olunmuş altun yatağanı nəzəri cəlb edirdi. Arxasında əllə-

ri təbərli doqquz nəfər var idi. Baş xatının balağına hər tərəfdən doqquz qız yapışmışdı. Baş xatın əllərini gözlərinin üzərinə qoyaraq hönkürürdü. Arxadan başqa xatınlar, ricallar və sərkərdələr gəlirdilər.

Çadırın qapısına yanaşdıqda baş xatın dönərək Runca xatına hiddətlə:

– Gəlmə, həyasız! – dedi, – mənim qanlım sənsən!

Qadınlar cəsarətsiz bir halda yerlərində donub qaldılar.

Baş xatının bu hərəkəti bəzi sərkərdələrin arasında xoşnudsuzluq doğurdu. Çünki Runca xatının oğlu vəliəhd olacağı üçün hər kəs istiqbalını onun hüsni-təvəccöhünü qazanmaqda görürdü.

Vida mərasimi bitdikdən sonra qəbrin üzərinə ağaclar döşəndi, hər bir əsgər əlində bir az torpaq gətirib tökdü: qəbrin üzərində yüksək bir qurğan yapıldı. Qurğanın ətrafına haça ağaclar basdırıldı. Qənimət alınmış at1ardan əllisi və korlardan əlli nəfəri boğulub gətirilmişdi. Atların boyunlarını və arxalarını haçalara qoyaraq, üzərinə də əsir meyitlərini uzatdılar. Sonra qırx süvari qurğanın ətrafına dönərək, mərsiyə söylədi.

32

Üç gün sonra xaqanın hüzuruna qəbul olundum. Taxtında oturmuşdu. Ətrafında bir çox gözəl qız və oğlanlar durmuşdu. Xaqan mənə yer göstərdi, oturdum. Bir də işarə elədi; hər kəs çadırı tərk etdi. Yalnız ikimiz qaldıq. Xaqan çox dəyişilmişdi. Zəif səslə:

– Yaxşımısan? – deyə sordu.

– Mərrixin sayəsində.

– Kədərimə dözə bilmirəm, – dedi, susdu və bir az sonra: – Kədərimi susdurmaq üçün qanlı bir səfər təsəvvüründəyəm. Qədər nə söyləyir?

Düşündüm:

– Qədər qaranlıqdır, – dedim.

Xaqan sözlərimdən bir az hiddətləndisə də, sonra sakit olaraq maraqla:

– Necə? – dedi.

– Üç gündür qədərin sirlərini açmaqla məşğulam. Hələ səfərdən əvvəl bir çox bəlalar görünür. Bəzi sərkərdələrin xaqana qarşı xəyanətləri aşkar olur...

Xaqan hiddətindən üç dəfə qalxıb oturdu:

– Bilirəm, bilirəm, bilirəm! – deyə incə, sallaq bığını gəmirdi, – bu xəyanətlərin başı Quzataydır.

– Bir deyil, bir neçəsi olmalı, – dedim.

– Bilirəm. Ancaq Alpatayın qollarında qüvvət tükənincəyə qədər adam boğduracağam da, fəsadın kökünü kəsdirəcəyəm... Qədərdə daha nə var?

– Xaqanın səlaməti üçün görüləcək birinci iş fəsadın qaldırılmasıdır. Hələ sonraları xəbər verməkdən acizəm.

Xaqan düşündü, birdən dedi:

– Get, ancaq məni tərəddüddən qurtar!

– Xaqanın səlaməti üçün nə lazımsa edəcəyimə əmin ola bilərsən. Ancaq... Səfərdə fəlakət görürəm.

– Get, məsələ aydın oldu. Xaqana təzim edərək çıxdım.

## 33

Yarım saat sonra gizli olaraq Runca xatınla görüşdüm. Gəldiyimdən çox məmnun olaraq qədərini soruşdu. Verəcəyim cavabı ətraflı düşünərək:

– Sirr açılsa, qədər səndən üz döndərər, – dedim.

– Sirri açsam, oğlumun qəbri qazılsın! – deyə and içdi.

– Qədər sizin tərəfinizdədir. Ancaq... tədbir görülməzsə, vəliəhdin həyatı təhlükəli olacaq.

Runca xatın diksindi:

– Aman, yol göstər! – deyə əlini ayağıma sürtüb öpdü.

– Yol hazır, bu gün Quzatayla bərabər buradan ordunu bizə sadiq olan bir hissəsinə qaçın.

– Xaqanmı hiddətlənmiş?

– Elə! Quzatay ordu toplasın, yoxsa... həyatınız təhlükədədir.

– Bu işlər bütün baş xatının hikkəsindən irəli gəlir. Yəqin xaqanı da təhrik edən odur.

– Hər halda, tələsməlisiniz.

Runca xatının rəngi üzündən götürülmüşdü. Yerindən dəli kimi qalxdı, əvvəl nə edəcəyini bilmədi, sonra əlacsız bir halda üzünü mənə çevirdi.

Cavab olaraq:

– Quzatayı çağırtdır, – dedim.

On dəqiqə keçməmiş Quzatay hazır oldu.

Görüşdük. Çəlimsiz bir adam idi. Qanlı gözlərindən vəhşət yağırdı. Əynindəki paltar insan dərisindən yapılmışdı.

Buna rəğmən qamlardan çox qorxduğunu hərəkətlərindən duydum.

– Qədərlərimizin açarı səndə, – dedi və dodaqlarında hörmətkar bir təbəssüm oynadı.

– Qədər sizin tərəfdədir, – dedim.

Sevindi. Yolumda hər bir xidmətə hazır olduğunu bildirdi.

Məsələni anlatdım. Təkidən söylədim ki, onun nicatı ordu toplayıb, xaqanın hücumundan özünü müdafiə etməsindədir.

Razı oldu.

– Mərrix məbədinə qan lazımdır, – dedim. – Dəqiqəni qaib etsən, məhv olacaqsan.

Coşqun bir halda yerindən qalxdı. Qanlı gözləri bir az da qızarmışdı. Məndən razılıq elədilər. Çıxdım.

## 34

Xaqanın şiddətli əmrinə rəğmən Quzatay tapılmadı. Bir də ordunun qüvvətli bir hissəsini götürərək qarşı dağın arxasına çəkilməsi xəbəri ildırım qüvvəsi ilə yayılmağa başladı. Runca xatının oğlu ilə bərabər yox olması da min bir şayiəyə səbəb oldu.

Təcili surətdə saraya çağırıldım. Xaqanın qəzəbi hədsizdi. Çadırda gəzinərək:

– Qədər doğru imiş, – dedi. – İndi çarəsini göstər!

Əlimi üzümə dayaq verərək fikrə daldım. Bir neçə dəqiqə cavab vermədim. Halımdan mütəəssir olaraq xaqan da sakit oldu, taxtına əyləşərək sükuti-qəlblə cavabımı gözlədi.

– Hücumdan başqa çarə yoxdur, – dedim. – Bu gün qüvvət toplanmazsa sabah ətrafında baş xatınla məndən başqa kimsəni görməyəcəksən!

Xaqan haman, sərkərdələri yanına çağırdı və ordunu tezliklə hazırlamalarını əmr etdi.

Bir dəqiqədə carçılar ata minərək xalqın arasına yayıldı.

Eyni zamanda məşvərətə oturuldu. Nəticədə sabah tezdən üç tərəfdən hücum etməyi qərarlaşdırdılar.

35

Sübh günəşinin qızartısı göyə səpilərkən Mərrix məbədinə getdim. Məbəd taxta qüllədən ibarət idi. Yuxarısında kiçik bir meydança var idi.

Ətrafı süvari bürümüşdü, atların cilovlarından sallanan insan dərisinin sayı yox idi. Nizə və təbərlərin saplarındakı düşmən sümükləri vəhşət verirdi. Öndə duran xaqan qəzəbindən tez-tez atının cilovunu dartır və insan üzlərindən qoparılan minlərcə dərilər titrərkən gizli bir inilti qoparan kimi olurdu.

Bir də korlardan birini bağırdaraq gətirdilər. Alpatay yaxasından yapışdı, qəməsini əsirin boğazına elə bir sürətlə soxdu ki, əli belə görünmədi. Qan fışqırdı.

Xaqanın qılıncı gətirildi, əsir qanı ilə boyanıb, Mərrix qülləsi üzərindəki meydançaya qoyuldu.

Mərrixin tələb etdiyi ilk qan təslim verildi.

Sonra atdan endilər və qüllənin ətrafına düzülən bişmişlərdən yedilər. İçki paylandı, hər kəs düşmən kəlləsindən yapılmış qədəhləri başına çəkdi.

Xaqanın qarşısındakı kəllənin ətrafına altun nəsb olunmuşdu. Bu kəllə böyük bir sərkərdə başı imiş.

Xaqan kəlləni əlinə aldı, içindəki son qətrələri içdikdən sonra kəlləyə baxaraq dedi:

– Artıq sənə qarşı intiqamım qalmadı. Məndə yeni bir intiqam alovlandı. Quzatayın kəlləsi dodağıma təmas etməzsə, alovum sönməz.

Xaqan kəlləni qeyzlə yerə atdı. Bu halda bütün süvarilər ata sıçradı və hər kəs bir ox çıxarıb, ucunu məbədə tərəf tutdu.

– Ur! – deyən xaqanın heybətli səsi havanı titrətdi. Oxlar iki bölünüb yerə atıldı.

Oxları sındırmaq yəmin etmək deməkdir: hər kəs özünü xaqanın yolunda qurban edəcəyinə and içirdi. Dəfimə bir yumruq vurdum. Ətraf susdu. Bir dəqiqə gözləyərək dəfə təkrar-təkrar vurdum.

– Mərrix bizimlədir! – deyə bağırdım, yerimdə fırlanıb bayıldım.

36

Özümə gəldikdə ətrafımda bir gəncdən başqa kimsəni görmədim. Sel kimi axan ordu üfüqləri tozlara qərq etmişdi.

Gənc mənə yanaşdı və yavaş səslə:

– Xaqanın böyük qızı Ərdica səni görmək istəyir. Getdim. Sarayın arxa tərəfindəki saklı bir tarlada buğdayı sifətli, qıyqacı gözlü, ağzı-burnu xırda bir qıza rast gəldim. Başında ağ çalması, döşündə gərdənbəndi vardı. Dolğun köksü altun pullar arasından baş vermişdi. Yel vurduqca incə ipək paltarı vücuduna yapışaraq qarnının üzərindəki zərif çökək qığılcım saçırdı. Totuq yancaqları asilik əməlində çırpınırdı.

Mənə yanaşmasını duydum. Nəfəsinin hərarəti üzümü qıdıqladı:

– Saraya ilk dəfə gələndən bəri gecələrimin dadlı yuxusunu da özünlə apardın...

Qızın səsi titrədi, susdu.

Baxdım. Sallanmış iri kirpikləri yaş saçırdı.

Belini qucdum. Bütün vücudu bağrıma sığındı. Qərib quşları andıran məmələri köksümdə çırpınırdı.

Dodaqlarım dodaqlarını aradı və şehli nəşələrlə atəşini söndürməyə başladı.

Aralandım, getmək istədim. Önümdə diz çökdü, ayaqlarımı qucaqlayıb öpdü:

– Getmə! – dedi.

– Vuruşma var. Xaqanın müqəddəratı həll olunan bir vaxt durmağa haqlı deyiləm.

– Haqlısan! Ancaq müqəddəratı təyin edən müharibə deyil, eşqdir. Xaqan sarayını, tacı, taxtı tərk etməyə hazıram da... eşqi yox.

Dərunimdə təbiət bütün çılpaqlığı ilə canlandı. Ərdicanın vücudundan nəşət edən rayihə məni kişnətdi. Bir dəqiqədə onu qucub, təbiətin köksünə atdım və əbədiyyətin səsinə qarışaraq qeyb oldum.

## 37

Şiddətli vuruşma davam edirdi. Quzatay ordusundan ələ keçən ilk əsiri xaqanın yanına gətirdilər. Xaqan onun köksünə bir qılınc vurdu. Fışqıran qanın altına ovcunu tutub nəşə ilə içdi. Xaqanı təqibən sərkərdələr də qandan içdilər. Sonra əsirin üzünün dərisini soyaraq xaqanın atının cilovundan asdılar.

Axşama doğru oxun qurtarmasını xaqana xəbər verdilər. Hiddətləndi. Atılmış düşmən oxunun toplanıb yenidən qollanmasına əmr verildi. Bunun üçün ayrıca bir dəstə vücuda gətirildi. Eyni zamanda çevirmə hərəkəti yapılması əmr olundu.

Bu əsnada arxa tərəfdən oxların yağış kimi yağmasını duyduq. Xaqan bir hücum dəstəsini də arxaya göndərdi.

Ön tərəfdə hərəkət edən sərkərdələrdən ən mahiri Okabay idi. Minlərlə əsir alması və düşmənə qüvvətli zərbə vurması xəbəri xaqana bildirildi, xaqanın qorxunc siması bir az parladı. Atının boynundan bir dəstə dəri qopararaq ona hədiyyə göndərdi.

Lakin arxamızdan bizə doğru irəliləyən düşmənin oxları xaqanın nəşəsini pozdu. Oxlar artıq xaqanın çadırlarını belə təhdid edirdi.

Nə edəcəyini kəsdirə bilməyən xaqan bizi məşvərətə çağırdı. Hərə bir fikir söylədi, mən isə şimala çəkilməmizi tövsiyə etdim.

Xaqan hər kəsi dinlədikdən sonra mənim rəyimi təsvib etdi.

Çəkilmədən əvvəl xaqana:

– Səninlə gizli bir söhbətim var, – dedim. Tənha bir çadıra çəkildik.

– Nə var? Qədərdə bir fənalıqmı var? – deyə iztirabla soruşdu.

– Yox, – deyə xaqanı sakit etdim.

– Söylə, – dedi.

– Axır başı, dedim, – qələbə sənin tərəfindədir. Lakin... bundan əvvəl bəzi çətinliklər görünür...

Xaqan qalxıb təkrar oturdu. Sözlərimə davam etdim:

– Quzatayın xəyanətini vaxtilə sənə xəbər verən kimi indi birini də xəbər verəcəyəm. – Xaqan heyrətlə üzümə baxdı. – Okabaydan da arxayın deyiləm, bunun bütün səyi sənin taxtını ələ keçirmək üçündür...

Xaqan bığlarını ağzına doldurdu, qəzəblə çeynəməyə başladı.

– Çarə?

– Hələlik ehtiyatla davranmaqdan başqa bir çarə yoxdur; qüvvətimiz də kafi deyil, zatən ox da yoxdur. Bu işlərin içindən müvəffəqiyyətlə çıxmaq üçün yeni bir orduya ehtiyac var.

– Yeni ordunu haradan ala bilərik ki?..

– Bu məsələni mənə həvalə et də, mən çarəsini arayım:

– Necə arayacaqsan?

– Cənubda cəngavər xalqlar var, məni göndər də, ordu toplayım.

Xaqan düşündü. Şübhə edər kimi üzümə diqqətlə baxdı. Bir cavab vermədi. Sonra birdən:

– Get! – dedi.

## 38

O gecə Okabayla görüşdüm. Qoluna dəyən bir oxdan müztərib olaraq yerə sərilmiş otun üstə uzanmışdı..

– Nə xəbər, qam? – deyə soruşdu.

– Qədər tərəfindədir, – deyə onu sevindirdim.

– Xaqandan yeni bir əmrmi var?

– Əmr yoxdur, – dedim, susdum.

Susmağım Okabayda şübhə doğurdu. Maraqla üzümə baxdı, mən yenə dinmədim və gülümsəyərək onu süzdüm.

– Qam! – dedi, – mənə ölüm xəbəri gətirdin?

– Yox, Okabay, ölüm hələ səndən uzaqdır.

– Bəs nə var, söylə! Sənin bu gəlməndə bir sirr var.

– Sirr yoxdur, qam sirr saxlamaz, bildiyini bəyan edər.

– Söylə! Bir şeylər duyuram.

– Sənin müvəffəqiyyətlərindən başqa bir şey yoxdur.

– Müvəffəqiyyətim baqidirmi?

– Baqi ola bilir. Lakin...

– Söylə.

– ...Müvəffəqiyyətin başqalarının müvəffəqiyyətinə sədd kimi görünür.

– "Başqalar" kimə deyirsən, xaqanamı?

– Elə... işlər xaqanı bir az düşündürür. Ordu arasında artan nüfuzunu xaqan taxta qarşı bir təhlükə kimi tərəqqi edir... Bir çoxları indidən sənə xaqan ləqəbini belə vermiş.

Okabayı bu xəbərlər oxşadı, yarasının ağrısı belə unudulan kimi oldu. Bir az düşündükdən sonra:

– Başqa cəbhələrdən nələr eşidilir?

Xaqanın şimala çəkilmək məcburiyyətində bulunduğunu söylədim. Okabay fikrə getdi. Sonra dedi:

– Qarşımda böyük bir qüvvə görmürəm; yəqin düşmən bütün qüvvələrini o tərəfə vermiş. Hər halda sabah açılmasa vəziyyət aydınlaşmayacaq.

Bu sözlərdən sonra Okabay təkrar fikrə getdi. Birdən üzündə bir ümid parladı:

– Xaqanın əndişəsi nə qədər əsaslıdır? – deyə maraqla sordu.

– Bütün ordunun sənə tapındığını görən adam əndişədə olmazmı?

– Mənə qarşı, deməli, yaxşı fikirlər bəsləmir.

– Təbii.

– Nə edə bilər?

– Hiylə ilə çağırtdırıb öldürər.

– Onu edə bilməzsə?

– Üzərinə ordu göndərər.

– Mənim ordum qədər qüvvətli ordusu varmı?
– İndi yoxsa da bir ay sonra olacaq.
– Haradan alacaq ki?..
– Şimal xalqları arasından ordu toplamaq niyyətindədir.
Son sözlərim Okabayı düşündürdü. Bir az sonra:
– Sən niyə xaqanla getmədin? – deyə sordu.
– Doğrusu... – düşünərək dedim, – bundan sonra qədər məni sənə bağlayır... Xaqanın ulduzu batmadadır.
Okabay sevincini gizləyə bilmədi. Durdu, oturdu:
– İndi nə etməliyik? – dedi. Çox fikir etmədən:
– Birinci, – dedim, – sabah erkən xaqana hücum; ikinci, ordunu bir ələ alaraq Quzatayı bitirməlidir.
Planım Okabaya xoş gəldi. Lakin bir az tərəddüd içində idi.
Birdən:
– Mən xaqana hücum edərkən arxadan Quzatay məni vurmaz ki?.
– Arxa hücumundan səni təmin edərəm.
– Hankı vasitə ilə?
– Vasitələri qədər göstərəcək. Ancaq... Quzatay ordusuna keçməliyəm.
Sözlərim Okabayı fikrə daldırdı. Məndən şübhələnən kimi oldu.
– Orada nə edəcəksən ki?.. – deyə şübhə ilə üzümə baxdı..
– Quzatayı səninlə ittifaqa dəvət edəcəyəm. – Sonra?
– Xaqanı məhv etdikdən sonra Quzatayı hiylə ilə öldürmək asandır.
– Tətbiqi qabil isə fikrin gözəldir.
– Qabildir!

## 39

O biri gün Quzatayın qərargahında idim. Runca xatınla görüşdüm. Quzatayın axşam qızlarla kef edərkən fücətən öldüyünü və ordunun başsız qaldığını söylədi.

Runca xatın sözlərini qurtarmamış alt dodağı əsdi və kirpiklərinin dibləri islandı.

Bu xəbər mənim üçün də əlverişli deyildi. Çünki sərkərdəsiz iskit qoyun sürüsü kimidir. Okabay bir gündə bunları təslim alar, qüvvətini artıra bilərdi. Halbuki bir sərkərdə olsaydı, müharibə olacaq və iki tərəf də qüvvətdən düşəcək idi.

Öz-özümə bu mülahizələri yürüdərək Runca xatına:

– Sənə sadiq olan sərkərdələrdən birini ordunun başına qoymalısan, – dedim.

– Ümum arasında tam nüfuzlu bir adam yoxdur, – deyə cavab verdi.

– Onda, vəliəhdi xaqan elan etməli.

Bu fikir Runca xatının ağlına batdısa da, təsvib etməkdə tərəddüd göstərdi. Bu tərəddüd məni hiddətləndirdi:

– Durmaq zamanı deyil! – dedim. – Qarşında Okabay kimi nüfuzlu bir sərkərdə var. Sabah Quzatayın ölüm xəbərini ordu bilərsə, hamısı Okabayın ətrafına toplanar. İskitin təbiətən başıpozuqluğunu bilirsən. Bunları yalnız igid bir sərkərdə intizama sala bilər. Əgər nüfuzlu bir sərkərdə yox isə bir xaqan olmalı.

Runca xatın mülahizələrimi haqlı buldu, lakin:

– Bununla da məsələ həll olunmur, – dedi.

– Niyə? !

– Çünki oğlum gəncdir, həlim təbiətlidir, həyatında bir düşmən başı belə kəsməmiş. Belə bir adamın əsgər arasında nüfuzu olarmı? Halbuki orduda atının cilovundan yüzlərcə dəri sallananlar var.

– Yaxşı, bunlardan bir sərkərdə seçmək mümkün deyilmi?

– Xeyir, çünki sərkərdə seçilməz, hünərləri ilə şöhrət bularaq özözünə ordu başına çıxar. Quzatayın yerində oturacaq bir adamım yoxdur.

Runca xatına bir çox işimə gələn təkliflər etdim; qəbulunda acizlik göstərdi. Qadının cəsarətsizliyi həyəcanıma səbəb oldu. Axırda mülahizələr yürütməkdən vaz keçərək sükuta daldım.

Ağlım çıxılmaz bir nöqtəyə girdi. Uzun müddətdən sonra yeni bir fikir ona yol göstərdi.

– Okabayla, – dedim, – müttəfiq olsaq və xaqana qarşı bərabərcə hərəkət etsək, necə olar?

Runca xatının üzü güldü, dedi:

– Mümkün olsa, gözəl olar.

– Mümkündür! – dedim. – Səlahiyyət ver, görüşüm. Runca xatın razı oldu.

O günü Okabayın yanına döndüm.

## 40

Göndərilən araba Runca xatını bütün qürənası ilə bərabər Okabayın qərargahına gətirdi. İki ordu birləşdi. Okabay yeni sərkərdələr tə-

yin etdi. Silah hazırlığı üçün ustalar ayrıldı və onlara bir çox şagirdlər verildi. İrəlidə olacaq müharibə üçün böyük tədarüklər görülməyə başlandı.

Bir gün Runca xatının oğluna qərargahda ox dəyib öldüyünü söylədilər.

Vəliəhd xüsusi bir təntənə ilə dəfn olundu və doqquz bakirə qız boğulub qəbrinə qoyuldu.

Bu hadisədən Okabay qəmgin olan kimi göründüsə də, saray əhli arasında cinayətin Okabay tərəfindən yapılmasını açıqdan-açığa söyləyirdilər. Məsələ məni maraqlandırdı.

Bir axşam sarayın bütün sirlərinə vaqif olan hərəm ağası ilə görüşdüm. Qoca qadın simalı, zil səsli hərəm ağası mənə maraqlı sözlər söylədi:

– Bir məmləkət istila olunarkən, – dedi, – əsir götürülmüş qızlar xaqan və sərkərdələr arasında bölünər. Müvəffəqiyyətli müharibələr nəticəsində Okabayın hərəmində minə qədər qız toplanmış, hər gecə bir bakirə tələb olunar, təqdim edərəm. Okabay eyni qıza ikinci dəfə rast gəlmək istəməz. Adəti belədir. Dünyaya gələn çocuqlarından maraqlanmaz və mövcudiyyətindən belə xəbəri olmur.

Son zaman Okabay dəyişilən kimi olmuş. Bir həftə əvvəl bütün hərəmi gəzərək bir nəfər qız seçdi, çadırına apardı, indiyə qədər yanında saxlayır və "baş xatın" adlandırır. Övlada həvəsi olmayan Okabay "baş xatın"dan... övlad gözləyir.

Okabayın bu hərəkətini xaqanlıq eşqinə düşməsi ilə mərbut görürlər... Runca xatının oğlunun ölməsi də maneədən xilas olmaq deməkdir.

Hərəm ağasının sözləri məni əndişəyə saldı; xaqanın yerində Okabay kimi qüvvətli bir simanın əyləşməsi cənub mədəniyyəti üçün daha təhlükəli ola bilərdi. Quzatayın ölməsi bütün məramlarımı pozdu. Məqsədim qüvvətli sərkərdələri vuruşduraraq iskitləri qüvvədən salmaq idi. Halbuki indi qüvvət pozulmadan yenə bir ələ toplanırdı.

41

Gecə sabaha qədər yata bilməyib, daim bu məsələni fikrimdən keçirdim; həllindən aciz qaldım. Məsələni anlaşdıracaq yeganə amil hələlik xaqanla Okabayın vuruşmasından ibarət idi.

Hazırlıq qurtardı. Şimala tərəf çəkilən xaqan təqib olunmağa başladı. Üç gün sonra dağ keçidlərinin birisində xaqanın əsil qüvvəsinə

rast gəlindi. Böyük bir vuruşma oldu. Okabay ordusunun bir hissəsi xaqan tərəfə keçdi. Bundan dolayı qəzəbə gələn Okabay, ordusundan minlərcə adam kor edib, xaqan tərəfə göndərdi və bir axşam mükəmməl hazırlıqdan sonra özü ön tərəfdə olmaq üzrə hücuma keçdi. Sabaha qədər davam edən qanlı vuruşmadan sonra xaqan ordusuna çaxnaşıq düşdü, hərə bir tərəfə qaçmağa başladı.

Sabah xaqanın öldürülməsi xəbəri orduya yayıldı və bir-iki saat sonra bütün ailəsi və hərəmi dəbdəbəli bir surətdə Okabaya təslim edildi.

Xaqanın üzünün dərisi Okabayın cilovundan asıldı və kəlləsindən kasa yapılıb içində şərab içildi. Hədsiz düşmən başları əllərdə oynadı.

## 42

İgid sərkərdələr toya* yığılaraq Okabayı xaqan intixab etdilər.

Böyük bir ziyafət verildi, sonra cıdıra çıxdılar.

Üç günlük bir kefdən sonra xaqan ordu ilə məşğul olmağa başladı. Ordu öz qüvvətini qaib etmişdi. Vuruşmadan qurtaranları da ishal və qızdırma tələf etmədə idi. Bir gün xaqan məni yanına çağırdı.

– Qam, – dedi, – sənin bütün təsəvvürlərin doğru oldu. Qədərin açarı səndədir. İndi gələcəyin nə halda olacağını anlat.

– Şimal yolunu parlaq, cənub yolunu qaranlıq görürəm, – dedim.

Okabay cavab vermədi. Sükut bir müddət davam etdi. Sonra:

– Şimal – tanıdığımız şimaldır, – dedi. Okabayın cənuba səfər etmək meylində olduğu sözlərindən anlaşıldı.

– Şimalda davam edən uzun qış, – dedi, – ilxımızı ac buraxır, nəfərlər də yeməyə bir şey tapmır. Cənubda isə hər şey var.

– Cənub havasına alışmayan nəfərlər qızdırmadan və ishaldan ölürlər; gündə yüzə qədər adamımız dəfn olunur. Bir az da cənuba ensək, bizdən iz belə qalmaz.

Xaqanın sözlərimə inandığını duyurdum. Digər tərəfdən də insan və heyvanların mədə ehtiyacı cənub yollarını göstərirdi. Odur ki, çox düşünməyərək:

– Qış düşmədən isti yerlərə getməliyik, – dedi. Söhbətimiz bununla qurtardı, ayrıldıq.

Ondan sonra uzun müddət görüşmədik – gözündən düşən kimi olmuşdum.

---

* Qurultaya

Köhnə xaqanla yenisinin hərəmləri birləşdikdən sonra hərəm ağasının işi çoxalmışdı, görüşə bilmirdik.

Bir axşam yanıma gəldi; ay işığında çadırın önündə uzanmışdım. O da uzandı, nəşəsiz olduğu sezilirdi.

– Nə var? – dedim.

– Heç, nə olacaq!.. Dünya mənim üçün acılıqdan başqa bir şey deyil. Mən arzusu gözündə qalan bir tamaşaçı!..

Hərəm ağasının kədərli sözlərinin hankı mənbədən gəldiyini anlaya bilmədim. Sual nəzəri ilə onu süzdüm. Sanki dəruni atəşini bir az da alovlandırdım:

– Qılçalardan məhrum olmuş bir adam təsəvvür et, – dedi. – Yürümək arzusu var, yürüyə bilmir. Mən də elə... Xədimləri hissdən məhrum zənn edirlər. Bilsən, ürəyimdə nə böyük eşq atəşi var... Qam, məni dilləndirmə, əzablarımın hüdudu yoxdur!..

Hərəm ağası yerində ilan kimi qıvrıldı, gözlərindən yaş axdı.

– İnsan həşəratın ən zərərlisidir: ilan çalar, adam ölər qurtarar, insan insanı elə bir hala salar ki, ömrünün sonuna qədər əzab içində çırpınar.

– Ağa, – dedim, – indiyə qədər səndən belə şikayətlər eşitmədim. İndi, yəqin bir səbəb var.

Hərəm ağası ah çəkərək:

– Qam, – dedi, – səbəbsiz deyil. Lakin... məni söylətmə, yaralarım təzələnər.

– Hər yaranın bir davası var. Qamdan gizli bir şey yoxdur. Eşqin var, görürəm. Anlat.

– Anlatmaqdan nə çıxar? Dərdlərim dərmansızdır...

Hərəm ağası uzun-uzadı danışdı, ağladı, ancaq səbəbin kim olduğunu açıb söyləmək istəmədi. Axırda israrım sayəsində köhnə xaqanın hərəmindən gəlmiş bir gözəl haqqında bəhs etdi:

– Bir gün nahardan sonra Okabay təzə hərəmi gəzməyə gəldi. Min nəfərdən artıq qızın içində nəzərini birisi cəlb etdi. Okabay dayandı və qeyri-şüuri bir halda əlini qızın çənəsinə uzatmaq istədi, qız buraxmadı. Okabay qəzəbindən qızardısa da, müqavimətdən duyduğu həzz qəzəbini eşqə çevirdi.

Axşam qız tələb olundu. Çimmək üçün su və təzə paltar hazırlatdım. Qız təklifimi rədd etdi. İsrar etdim, olmadı. Xaqanın təkrar tələ-

binə rəğmən qız getmədi. Məsələni cəlladın bıçağı həll edəcək, zənn etdim...

Nəhayət, xaqanın qəzəbi mərhəmətə çevrildi və əlavə olaraq qıza bir dəstə gül və bir çox altun zinətlər göndərildi.

Qız bunları da qəbul etmədi...

44

Hərəm ağası bir müddət susdu. Dilinin altına bir az nas atıb, ay və ulduzları seyr etməyə başladı. Sonra nası tüpürdü və sözlərinə davam etdi:

– Otuz ilin müddətində minlərcə qızlar idarə etmişdim, beləsinə rast gəlməmişdim. O gündən bəri qızın siması məni təqib etmədədir. Haraya getsəm, qam, daim önümdədir... Bax, indi ayı seyr edərkən həp onu görürəm... Ulduzların arxasında gizlənir, arabir görsənir, təkrar gizlənir, mənimlə oynayır. Sanki mənə gülür... Nədən? – Bilməm!..

Hər sabah xidmətçi qızlarla çaya çimməyə gedər, mən də onları təşyi edərəm. Soyunar, çimər, min nazla geyinər..

Ürəyim çırpınmadan əl çəkər, nəfəsim tutular, üzərində oturduğum daş kimi, kainatın həyəcanına qarşı laqeyd bir vəziyyət alaram... Ah, qam, dillətmə, biz insanların ən aciziyik...

– Ağa, acizlərin də yaşamaq ixtiyarı var, – dedim.

– Həqiqətdə isə?

– Yalnız zorlular yaşar. Bunun səbəbi də bizim özümüzük.

– Biz nə edə bilərik?

– Zülmə qarşı üsyan edərik!

– Sənin üsyanından bəlkə bir şey çıxsın. Mənimkindən?..

– Bir şey çıxmazmı, deyirsən?

– Xeyr, çünki dərdlərimin dərmanı göylərdir. Adi bir xədimin, axtalanmış bir insanın üsyanı həyatın gərdişini dəyişərmi?

– Məsələni göylərdə aramamalı. İnsanın dərdi yerdə olan kimi, dərmanı da yerdədir. İnsanın müqəddəratı öz əlindədir. Nə cür istəsə, elə yaşar. Yalnız dərdlilər birləşməli və hər bir fədakarlığa hazır olmalı.

– Qam, sözlərin çox haqlıdır. Bu fikirlər bəzən mənim də ağlıma gəlir. Özgələrin dərdini gördükdə öz dərdimi də unuduram. Nə üçün insanın biri dünyanın bütün nemətlərindən bol-bol istifadə etsin də, o biri hər şeydən məhrum olsun, – deyə düşünürəm...

Hərəm həyatından maraqlanaraq söhbəti o tərəfə çevirmək üçün soruşdum:

– Ağa, hərəmdə kədərlilər varmı?

– Ah, qam, hərəm kədərin mənbəyidir. Yalnız ildə bir, iki ildə bir eşq yatağına atıla bilən gənc qızlarda kədər olmazmı?.. Mən sabaha qədər əzabımdan yatağımda qıvrılan kimi, hərəmdə də yüzlərcə qızlar sabaha qədər uyumur: talesizlik əzabında çırpınırlar.

– Bu talesizliyin səbəbi kimdir?

Hərəm ağası o tərəf-bu tərəfə baxaraq, sözlərini çeynədi və cavab verə bilmədi.

– Bir adamdır, – dedim.

Hərəm ağası başını tərpətdi.

– Bəs bu müharibələrdə minlərcə adamların ölümünə səbəb kimdir?

Hərəm ağası başını tərpətdi. Mən yenə davam etdim:

– İshaldan və qızdırmadan tələf olunanların səbəbi kimdir?

– Xaqan! – deyə hərəm ağası cürətləndi.

– Deməli, ya minlərcə adamın səadəti, ya xaqan.

– Məsələ yalnız xaqanda deyil ki... – Okabay olmazsa o birisi olar.

– Xaqanlıqdan əl götürməli.

– Sonrası?

– Sonrası xalqın özü, ümumi zəhmət, ümumi məhsul.

## 45

Mülahizələrim hərəm ağasının qarşısında yeni üfüqlər açırdı, mənimlə tez-tez görüşür, fikirlərimlə aşna olaraq, yeni intibalarla aralanırdı.

Yavaş-yavaş fikirlərimizi hərəm qadınları və qullar arasında yaymağa çalışdıq. Xaqanlıq quruluşunun daimi əzabına uğrayan bu zümrələr fikrimizə tamamilə şərik olur və çıxış yolu göstərilməsini tələb edirdilər.

Qızdırma və ishaldan tələf olan orduda da fikirlərimizə böyük bir meydan açılırdı. Bu əlverişli vəziyyətdən də lazımınca istifadə etməyə başladılar. Övladları müharibələrdə qırılmış qoca bir əsgər əldə edildi.

Hərəm ağası vasitəsilə bu adam hazırlandı. Fikirlərimizi tamamilə mənimsədikdən sonra orduya buraxıldı. Bütün xəstəliklərə qarşı yeganə əlac xaqan və sərkərdə qanı olduğuna dair şayiələr yaydıq. Bu şayiə avam arasında olduqca böyük təsir buraxdı.

Üsyan üçün zəmin hazır idi. Fürsəti qaçırmamaq üçün bir axşam hərəm ağası ilə oturub tövcü tökməyə başladıq.

Hərəm ağası:

– Xaqanın öldürülməsini mən üzərimə alıram, – dedi.

– Şəxsən özünmü, başqasının vasitəsiləmi?

– Başqasının vasitəsilə.

– O adamı görmək istərdim. Hərəm ağası bir az düşündü:

– Yaxşı, – dedi, – istərsən sabah axşam buraya gəlsin.

– Gecə yarısı gəlsə yaxşı olar.

– Gələr.

– Sərkərdələrə qarşı tədbirlərin varmı?

– Var.

– Nə kimi?

– Qoça əsgərin adamları var. Onlar tərəfdarları ilə bərabər hücuma hazırdırlar. Yalnız vaxt təyin etməli...

– Vaxt asandır. Ancaq saray müvəffəqiyyətini təmin edən bir adam olsa, başqa tərəflərdə işlər öz-özünə düzələr.

– Saray tərəfdən əmin ol!

Hərəm ağasının qəti sözləri məni arxayın etdisə də, müəyyən plan cızılmasını irəli sürdüm.

– Nə ilə öldürüləcək? – deyə hərəm ağasına sual verdim.

– Yatağanla, – dedi.

– Öldürə bilməzsə... sirlərimiz açılar, biz də məhv olarıq.

Hərəm ağasında bir tərəddüd göründü; şübhəmin yerli olduğunu duydu.

– Elə olduqda başqa bir çarə görməli.

– Başqa çarə mümkünmü?

– Çarə çoxdur, ancaq biri mümkündür – zəhər.

– Bu yaxşı fikirdir! – dedim. – Əvvəl xaqanın qımızına zəhər qatmalı. Zəhərin təsiri az olsa – öldürməli!

Hərəm ağası fikrimi təsvib etdi.

## 46

Axşam hərəm ağası birisi ilə alaçığıma girdi. Ocağın qırağında uzanmışdım. Mürgülü gözlərim əvvəl bir şey dərk etmədi, sonra:

– Mərrixin mərhəməti, – deyə salam verən hərəm ağasının səsi məni ayıltdı.

– Sənə də! – deyə salamını aldım.

Qalxıb, başımın altına qoyduğum yəhərə söykəndim.

Qonaqlar oturdular. Yeni adam məni diqqətlə süzdükdə marağıma mucib oldu. Ötəri baxışla adi kişi libasında olan bu adamın Ərdicə olduğunu bildim. Gözlərimiz qarşı-qarşıya gəldikdə qığılcımlar parlayan kimi oldu, Ərdica qızararaq uzun kirpiklərini yerə dikdi.

– Ağa, – dedim, – tapşırığı yerinə yetirəcək adam bu gəncdirmi?

– Budur! – deyə hərəm ağası cavab verdi və diqqətlə üzümə baxdı. Mənalı baxışına cavab olaraq:

– Yaxşı! – dedim.

– Söhbətimizin davamına ehtiyac varmı?

– Var! Təfsilatını danışıb, vaxt təyin etməliyik.

– Xaqan oyanarsa?

– Nə olacaq ki?..

– Onun bəzən gecə yarısı oyanıb, məni yanına çağırmaq adəti var. Mənzilimdə olmasam şübhə doğar. Məni aradar, sonra...

– Sən gedə bilərsən!

– Bəs gənc?

– Gənc bir az qalsın.

Hərəm ağası duruxdu, razı olmayan kimi göründü; lakin bir şey demədən getdi.

Ərdica üzümə baxdı, rəngi qaçdı və burnunun tənələri tərpənməyə başladı. Bir-iki dəfə öskürdü. Həyəcanını duyaraq dedim:

– Ərdica, sən dəmi Okabayın hərəmindəsən?

– Elə, Mərrixin təqdiri bu imiş.

Qısqanclıq köksümü titrətdi. Sərzənişlə:

– Şübhəsiz ki, Okabayın ən çox sevdiklərindənsən? – dedim.

Ərdica sözlərimə cavab vermədi. Başını aşağı saldı və ocaqdan bir yanar talaşa götürüb, əlində oynatdı. Bir də göz yaşlarının solğun yanaqlarından aşağıya doğru axdığını gördüm.

Onu özümə tərəf cəlb etdim, öpmək istədim, buraxmadı.

– Yaralıyam, – dedi, – mənə toxunma. Hörmətlə geri çəkildim.

– Mərrixin sənə qarşı yapdıqlarını bilirəm, – dedim.

– Təfsilatını bilə bilməzsən... Ulu xaqan nəslindən dünyada yeganə nişan olaraq qalacağımı əvvəldən bilsəydim, beşiyimdə boğulardım.

– Həyat fikir eləməyə dəyməz! – deyə təsəlli vermək istədim.

– Biləks, – dedi, – fikir lazımdır. Məni bu axşam buraya gətirən də o fikirdir. İntiqam hissi ilə dolu köksümü düşmən qafasında partlatmaq istəyirəm.

– Bu intiqam hissi məndə də var. Lakin coşqun qanımızı soyutduqdan sonra intiqam almalıyıq, yoxsa...

– Onlar düşünülmüş... Bu əsnada hərəm ağası içəri girdi. Bizi sakit bir halda danışan gördükdə həyəcanı susdu. Oturdu:

– Vaxt məlum oldumu? – dedi.

– Vaxt məlumdur! – deyə Ərdica cavab verdi.

Hərəm ağası heyrətlə:

– Bir həftə sonramı?

– Elə.

– Nədən bir həftə sonra? – deyə sordum. Hərəm ağası:

– Hərəmdə bir qız var, – dedi, – onu xaqan ələ gətirə bilmir. İndi "ya cəllad, ya yataq" deyə bir həftə möhlət vermiş. O qız... bu gəncin nişanlısıdır.

– Çox gözəl, – dedim. – Ancaq yatağan iş görə bilməzsə?

– Əvvəl zəhər veriləcək! – deyə hərəm ağası cavab verdi. Ərdica bu fikrə razı olmayan kimi:

– Zəhər vermək xainlikdir, – dedi. – Açıqdan-açığa yatağanla vurmalı.

– Okabay qüvvətli olarsa?

– Olmaz! İntiqam hissi hər şeydən qüvvətlidir! – deyə Ərdica qeyzlə cavab verdi.

## 47

Birinci xoruz banında Okabayın öldürülməsini hərəm ağası mənə xəbər verdi. Eyni zamanda orduya adamlar göndərildi. Orduda çarpışmalar olduğu bildirildi. Bəzi sərkərdələrin, tərəfdarları ilə bərabər müqavimət göstərdikləri meydana çıxdı. Yeni bir sərkərdə ordunu başına toplar deyə əndişəyə düşdüm. Haman, saraya getdim. Okabay qan içində yıxılmışdı. Meyitini bir xəndəyə atdırıb, torpaqla basdırtdım. Çığırtı salan baş xatını da boğub ortadan qaldırdılar, beləliklə sarayda sakitlik əmələ gəldi.

Bu əsnada Ərdicanı xatırladım. Hərəm ağasından soruşduqda, işarə ilə öz çadırını göstərdi.

Yanına getdim.

Dodaqlarına və burnunun ucuna qan bulaşmışdı. Umuzlarına tökülən dağınıq saçları, dodaqlarındakı qan izi ilə bərabər yırtıcı aslanı andırdı. Məni görcək boynuma sarıldı.

Yanaqlarımda odlu damğalar duydum.

Aralandıq.

– Atanın yerində oturmağa layiq olduğunu isbat etdin! – dedim.

– Taxta deyil, eşqinə layiq olmaq istərdim.

Cavab olaraq bütün qüvvətimlə Ərdicanı bağrıma basdım..

İşin gedişi başqa şeylər tələb etdiyi üçün dərhal çıxaraq, sarayın nüfuzlu adamlarını başqa bir çadıra dəvət etdim.

– Qədərin, – dedim, – sınağı bitdi. Okabay yapdığı xəyanəti əvəzində cəzasına çatdı. Qartal yuvası yenə qartal yavrusuna nəsib oldu. İndi beyət hər kəsin borcu və baş vəzifəsidir...

Hamı sözlərimi kəsərək yerindən qalxdı, ayaqlarıma əl sürtərək öpdü. Davam etdim:

– Okabay kimi bir çoxları da ordu arasında tüğyana səbəb olurlar. Xainlərin cəzası bu saat verilməlidir...

Hər kəs "ur!" – deyə bağırdı. Əllərimizdə məşəl, orduya yayıldıq.

Ur, ur, ur!
Xaqan qızı Ərdica
Xaqan taxtına oturmaq
İstəyir.
Toy toplansın,
Töycü töksün.
Azğın sərkərdələrin
Payını versin.
Ey, caramana car,
İskitə xəbər!..

– deyə hayqırdıq.

Fırtına yatdı, ordu sakit oldu. Müqavimət göstərən sərkərdələr əldə edilib haman boğduruldu.

İkinci xoruz banına qədər bu işləri görüb, Ərdicanın yanına qayıtdım.

## 48

Ərdicanın cülusu bir o qədər də təntənəli keçmədi: xalq yorulmuşdu. Saraya qarşı bir soyuqluq vücuda gəlmişdi.

O günü hərəmlər açıldı və yüzlərcə qız xalqa qarışdı. “Hər bir qız könlü istədiyi oğlanla evlənə bilər” – deyə elan edildi.

Ordu təşkilatında bəzi dəyişikliklər lazım idi. Haman tətbiq olundu: ayrı-ayrı dəstə və bölüklər qaldırıldı; cəngavərlik qabiliyyəti olanların hamısı tutulub, gizlicə tələf olundu. Xalq arasında müharibənin lüzumsuzluğu haqqında fikirlər nəşr edildi.

Qam paltarını geyib, ordunun arasına düşdüm; hər yerdə ayin yapdıqdan sonra sülhpərvər həyatın gözəlliyindən və vuruşmaların dəhşətindən bəhs etdim.

Bir gün ordu vəkillərindən ibarət bir dəstə ağsaqqal yanıma gəldi.

– Qədərimizdə nə var? – deyə sordu.

Bunlara tam bir nüfuz bağışlamaq üçün yanlarında ayin yapdım. Dəfə vuraraq fırlandım, cəzb oldum.

Ayıldıqda:

– Sığırlarınız, – dedim, – kök, atlarınız qoşar olsun! Çağalarınız ağlamasın! Qədər sizinlədir. Önünüzdə sulu, meşəli torpaq görünür. Otlağı çoxdur. Oturub, qadınınız, çocuğunuz, sığırlarınızla rahat yaşarsınız.

Ağsaqqallar məmnun oldular. Sonra birisi torpağın harada olduğunu sordu.

– Bir neçə gündən sonra, – dedim, – qədər göstərən tərəfə gedəcəyik. Hazır olun!

## 49

Ərdica cənub səfərini lazımınca təsəvvür edə bilmirdi. Sarayda hökmran olan irsi bir zehniyyət hər bir səfəri hərb şəklində tələqqi etdiyi kimi, Ərdica da bu cür düşünürdü:

– Ordu pozuq, – deyirdi, – sərkərdə yox, əsgərin ruhu düşgün – belə səfərdən bir nəticə əldə etmək olarmı?

– Dünyada ən böyük nəticə müharibəsiz həyatdan ibarətdir. Yalnız sülh və zəhmət bizə istirahət təmin edə bilər. Bu iki neməti əldə etmək üçün torpağa oturmalıyıq...

Ərdica məni diqqətlə dinləyir, bəzən fikirlərimi anlayaraq düşünür və izahını tələb edirdi.

Çox vaxt oturaq zehniyyəti ilə köçəri zehniyyəti bir-birilə toqquşaraq ortalıqda anlaşılmazlıq vücuda gəlirdi. Lakin hər dəfə Ərdica güzəştə gedirdi. Mənə ürəyində bəslədiyi hisslər onu mənə elə bağla-

mışdı ki, mənim fikrim, mənim zehnim, mənim iradəm onunku olmuşdu.

Buna görə sərbəst olaraq fikirlərimin tətbiqinə çalışır və səfər hazırlıqları görürdüm.

Bir gün atı minib, düşərgəni başdan-başa gəzdim, hər yerdə hörmət gördüm. İskit arasında böyük nüfuza malik olduğumu duyaraq, özümü baş sərkərdə elan etdim. Bunu mütəaqib – sabah tezdən köçdür, – deyə xalq arasına carçılar göndərdim.

"Yel" ulusundan iki günlük bir məsafədə torpağa oturduq. Bura meşəyə bürünmüş dağ ətəyi idi. Bol suyu və əkin yeri var idi. Alaçıqlar quruldu, hər kəs yerləşdi. İlxı otlağa buraxıldı. Nizam və asayiş təmin etmək üçün hər qırx alaçığa bir ağsaqqal şurası seçildi. Şura qərarının icrası üçün min nəfərlik bir süvari alayı təşkil edilərək hərəm ağası idarəsinə verildi. Bütün silahlar toplanaraq saklı bir yerdə gizlədildi.

Yaza qədər burada qalacağımız hər kəsə bildirildi. Silahlarını tərk etmək istəməyən əlliyə qədər adam haman tutulub qətl olundu.

Beləcə daxili təşkilatı qurtarıb, asayiş təmin etdikdən sonra hər bir ağsaqqal şurasından bir vəkil götürüb, Ərdica ilə bərabər "Yel" ulusuna yola düşdük.

Yellilər bizi böyük bir təntənə ilə qarşıladılar. Mənim salamat qayıtdığım hər kəsi sevindirdi.

İkinci gün fövqəladə heyətdə məruzədə bulundum, bütün yapdıqlarımı təfsilatı ilə söylədim və "ölüm saçan böyük bir ordunu sülhpərvər bir hala salaraq torpağa oturtdum. Bununla, bir tərəfdən böyük bir insan kütləsini faydalı bir sahəyə, sövq etdim və dikər tərəfdən də qəbilələr ittifaqını təhlükədən qurtardım" – deyə məruzəmə xitam verdim.

Heyət üzvləri ayağa qalxaraq məni bağırlarına basdılar.

Sonra mənim təklifimə görə iskit məsələsi ətraflı surətdə müzakirə edildi. Onları yeni quruluşa öyrətmək üçün bir çox qərarlar çıxdı. İskitləri bir neçə qəbiləyə bölmək və aralarında qəbilələr ittifaqına mənsub adamlardan mütəşəkkil silahlı qüvvələr saxlamaq məsləhət görüldü. İskit gənclərinin tərbiyə olunmasının böyük əhəmiyyəti ayrıca qeyd olundu.

İskitləri cənuba atan şəraitin daimi olduğunu nəzərə alaraq dedim:

– Yeni qüvvələrin şimaldan cənuba doğru axması hər an gözlənilə bilir. Bunun önünü almaq üçün hər bir qəbiləli hərbə hazır bulunma-

lıdır. İskitlər cəngavər olduqlarından, onların hərb üsullarını öyrənib, silahlarını qollanmalıdır. Silah tədarükü üçün iskit ustalarını gətirərək “Yel”də silah hazırlamalıdır.

Bu təklifim də qəbul olundu.

50

Ərdica “Yel” ulusunun quruluşundan son dərəcə məmnun qalmışdı. Başqa qəbilələri də gəzmək arzusunda idi. O deyirdi ki:

– Sizdə hər kəs ümum üçün yaşayır və səadətini də ümumun səadətində görür. Xüsusi əmlak olmadığı üçün həsəd və şöhrət də yoxdur. Bilxassə müharibə tərəfdarı olmadığınız hər şeydən gözəldir... Bilsən, Çopo, hərbdən nə qədər bıqdım. Bütün ruhum laşə qoxuyur.

– Hərbə ehtiyac yoxdur, – dedim. – Çalışan üçün toxluq var. Hər kəs yaşamağa haqlıdır. Həqiqi və məsud yaşayışı da yalnız sülh təmin edə bilər.

– Sülh sözü Ərdicanı daima gülümsədir. Sülh məfhumu iskit zehniyyətinə yerləşən şey deyil, biz yıxar, yakar və dağıdarıq. Hərb bizim üçün qədərlənmişdir.

– Ərdica, – dedim, – bir dəfə də olsa istirahət duyan bir adam müharibə arzusuna düşməz. İskitlər istirahət görmədikləri üçün cəngavərdirlər.

Bir də köçəri həyat nəticə etibarilə müharibə ilə qurtarar. Biz oturaq olduğumuz üçün hərb tərəfdarı deyilik.

– Deməli, bizi sülh həyatına həsrət qoyan amillərdən biri də köçərilikdir.

– Təbii! Sülhün həzzlərini duymaq üçün torpağa oturmalıdır.

– Sonra?

– Sonra nə olacaq ki? Zatən dünyaya gəlməkdən məqsəd istirahətli bir həyat sürmək deyilmi?

– Elə, elə, Çopo! Sözlərin fikrimin pasını təmizləyir.

51

Qapı açıldı. Ceyniz içəri girdi, gəldiyindən məmnun oldum. Hələ təklikdə görüşməmişdik.

– Çopo, səni fikirli görürəm, – dedi. – Yəqin Nuşanın dərdi səni darıxdırır.

– Yox. Nuşanın dərdi unuduldu. İndi ürəyim başqa sənəmə tapınır.

– Duydum... – Ərdica.

Gülümsədim. Bir şey söyləmədim. Ceynizin üzünə baxdım.

Mənalı baxışıma cavab olaraq:

– Gözəl, çox gözəl! – dedi. – Ərdicanın vasitəsilə bütün iskitlərə nüfuz edərsən. Bunun bizim üçün böyük əhəmiyyəti var. Şimaldan yeni bir axın gələrsə, iskitləri sipər edərik.

– Bunu düşünmüşəm. Əgər fövqəladə səlahiyyət verilərsə, irəlidə qəbilələrə böləcəyim iskitləri şimal cəhətlərdə yerləşdirəcəyəm.

– Bu çox gözəl fikirdir. Lakin sərkərdələri bizimkilərdən təyin etməli.

– Təbii!.. Buğatay necədir? Fəaliyyət göstərə bildimi?

– Böyük fəaliyyət göstərdi. Qüvvətli bir ordu təşkil etmişdir. Çocuqlardan qocalara qədər hamı əlində silah düşmənə qarşı durmağa qadirdir.

– Qonaqlar qəbilələri gəzdikdən sonra səfərbərlik elan edib rəsmkeçid yapmalı, Ərdicanın və ağsaqqalların qarşısında bütün qüvvələrimizi nümayiş etdirməliyik. Nümayiş iskit arasında böyük təsir bağışlar.

– Bunu yaparıq.

– “Qoç”la rabitəniz qüvvətlidirmi?

– Qüvvətlidir. İskit təhlükəsi bütün qəbilələri vahid bir şəklə saldı. “Yel”dən yeni-yeni fikirlər doğduğu üçün ulusumuz bir məbəd şəkli almış, bütün qəbilələrin gəncləri ulusa gələrək quruluşumuz və təsərrüfatımızla aşina olmağı özlərinə borc bilirlər.

– Deməli, yenilik bütün qəbilələri qaplamadadır.

– Elədir. Səndən sonra ulusumuzda bir çox gənclər də yerləşdi. Aralarında qiymətli bir gənc var. Quzğunludur.

Heykəl yapmaqda mahirdir. Heyətin qərarına görə bu gənc bütün təsərrüfat işlərindən xilas edilmişdir və yalnız öz sənəti ilə məşğul olacaq. Ulus küçələrini və bağçalarını heykəllərlə bəzəyəcəkdir.

– Yanına şagirdlər verin, öyrətsin. Bu sənət lazımdır.

– Ulus şurasına söylərəm çocuq göndərsin.

Ceyniz bir-iki hor söhbət eləyib, ayağa durdu. Gedərkən birdən dedi:

– Nuşa bir qız doğmuş, eşitdinmi?

– Yox, – deyə heyrət etdim. – Nə vaxt?

– Bir ay olar.

– Adı nədir?

– Nici.

Tühaf bir atalıq hissi vücuduma yayıldı.

Ulusumuzun təşkilatı ilə ətraflı surətdə tanış olduqdan sonra, qonaqlara bütün qəbilələri göstərmək qərarlaşdırılmışdı. Birinci sırada "Qoç" qəbiləsi ziyarət edilməli idi. Ərdicaya xəbər verdim.

– Ulus o qədər xoşuma gəldi ki... – dedi, – buradan heç bir yerə getmək istəmirəm.

"Qoç" qəbiləsini təsvir etdim. Qızlar bulağını və şair Milnirin şeirlərini anlatdım. Ərdicada böyük maraq oyandı.

– İlk dəfə səninlə Qızlar bulağında görüşsəydik də, – deyə nisgilləndi. – Biz qan içində doğulduq, ömrümüzün gözəl çağları da qan içində keçdi.

Ata minərkən üzündə başqa bir həvəs göründü. Yola düşdük, hər bir təpəyə çıxarkən:

– "Qoç" arxadadırmı? – deyə maraqla sorurdu.

– Yox, hələ bir-iki təpə də aşacağıq – dedikdə qeyri-məmnun bir halda susurdu.

Bir də qəbilənin ağ evləri göründü. Ərdica üzəngiyə istinad edərək, ayağa qalxdı və böyük bir maraqla tamaşaya daldı.

– Qızlar bulağı ha tərəfdədir? – deyə dəfələrlə sual verdi.

– Sağ tərəfə, dağın ətəyində.

– Görünəcəkmi?

– Yox, meşə arasındadır.

"Qoç"a əvvəlcədən xəbər verilmişdi. Başda Şibra xatın olaraq bütün xalq istiqbala çıxmışdı.

Xalqı buraya toplayan başlıca amil maraq məsələsi idi. Qiyafə və fitrət etibarilə bizlərə heç də bənzəməyən iskitləri görmək arzusu hər kəsdə hökmran idi.

Bilxassə, Ərdica hər kəsin heyrətinə mucib oldu. Atın üzərində elə şahanə bir qürurla oturmuşdu ki, qüruru gözəlliyini bir qat daha artırmışdı. Ərdicanın özündə də maraq az deyildi. Şibra xatını diqqətlə süzərkən parlaq gözləri qıyqac yuvalarına sığmırdı. Mənə yönələrək Şibranın kim olduğunu sordu.

Anlatdım. Dodaqlarında heyrət canlandı.

Bu əsnada Milnir irəlilədi və qopuzunu bağrına basaraq "xoş gəldi" havası çaldı.

Milniri Ərdicaya nişan verdim.

– Bu da qammı? – dedi.

– Qam deyil, şairdir.

Ərdica şairin nə olduğunu anlaya bilmədi. Zorla anlatdım...

Şibra xatın bəzi ayinlər yapdırdı. Bunlar da müsafirlərin xoşuna gəldi.

Ayinlər bitdikdən sonra atlardan endik. Qonaq evinə qədər piyada getdik. Xalq da bizi təşyi etdi.

Bir həftə "Qoç" qəbiləsində müsafir olduq. "Xoruz" qəbiləsinə getmədən əvvəl Ərdica Qızlar bulağını görmək istədi. Hava soyuq olduğu üçün Şibra xatının səlahiyyəti ilə Qızlar bulağında böyük bir nümayiş yapıldı. Mənə uyqu kimi gələn naçarlı intixabı gözlərimin önündə yenidən canlandı.

Axşama üç hor qalmış getdik. Xalq tamamilə orada idi.

Qızlar rəqsə başlamışdı. Xalqın ön tərəfində biz də tamaşaya düzüldük.

Yenə Milnir əlində qopuz meydana çıxdı və gözəl səslə oxudu.

Mi l n i r:
Bu dağların qarları var.

Q ı z l a r:
Naçar, naçar, naçar, naçar.

Mi l n i r:
İrəlidə barları var.

Q ı z l a r:
Naçar, naçar, naçar, naçar.

M i l n i r:
Sevgiləri, yarları var.

Q ı z l a r:
Naçar, naçar, naçar, naçar.

M i l n i r:
Heyvaları, narları var.

Qız l a r:
Naçar, naçar, naçar, naçar.

X a l q:

Gələr, bitər də dəmləri,
İtər, bitər də qəmləri.

Bu əsnada yanımda duran Ərdica qışqırtı ilə yerə sərildi. Buğlanaraq vücudundan axan qan qarlı torpağı al boyadı...

Bir anda sükuta dalan xalqın içindən:

– Nuşa! Nuşa! – deyə səslər eşidildi.

Çaxnaşıq düşdü.

Bu əsnada Nuşanın solğun çöhrəsi ətrafına yayılan xalq arasında gözlərimə çarpdı.

Susuz qalmış çocuq kimi qanlı bıçağı əmdi və ətrafdan sövq olunan əllər ona yetmədən bıçağı sol köksünə soxdu.

* * *

İskitləri qəbilələrə bölərək, şimal cəhətlərdə yerləşdirdiyimdən üç il keçir. Özüm "Ərdica" adlanan qəbilədə yaşayıram (Ərdicanın qurğanı da buradadır). Hərəm ağası ilə bir evdə qalırıq. İkimiz də mənən tənha və taleyi bir-birinə bənzəyən adamlarıq. Mənim də onun kimi şəxsi həyatım ölmüş. Qəlblərimizin çırpıntıları bu gün cismən aramızda yaşamayan bir simada toplanaraq həzin bir ahəng vücuda gətirir.

İştə, uzaqlarda inikas edən bu ahəng hərəm ağası ilə məni bir can bir cəsədə bağlayan kimi olmuş.

Artıq bizim üçün qadın eşqi yoxdur – deyə bir-birimizə söz vermişik.

Sözümüz baqidir.

Ümum qəbilə xalqı səhər tezdən işə çıxar: kimi ilxıya, kimi bağ-bağçaya gedər. Daimi vəzifə yoxdur, vəzifələr dəyişilir. Dünən hərəm ağası ilə tarlada çalışdıq, bu gün isə ilxıda idik. Mal-qara otlarkən bir təpədə oturub, yeni binalı gənc qəbiləmizi seyr edirdik. Hərəm ağası mənə fərəhlə dedi:

– Çopo, əvvəl mən də başqaları kimi qəbilə həyatına zidd idim. Səfəri yaşayış, macəralar, saray təntənəsi hələ beynimi istila etmədə idi. İlk zəhmət mənə yeni bir zehniyyət bağışladı. İndi keçmişin xəstə irsindən tamamilə xilas olmuş bir adamam, səadətimin hüdudu yoxdur.

– Bu səadətin başlıca səbəbi mən olduğumdan özümü məsud zənn etməkdə haqlıyam, – dedim.

Bu söhbəti xatırlarkən "səadət nədir" – deyə öz-özümə sual verdim.

Səadət şəxsi "mən"dən, şəxsi təmayüldən, şəxsi arzudan əl çəkərək ümumi "mən"liyə, ümumi təmayülə və ümumi arzuya xidmət etmək deməkdir.

Biz bunu yapdıq. Və qəbilənin hər bir fərdi bu yolu təqib etmədədir.

* * *

Əhməd kitabı yumdu. Lakin fikir və xəyalı kitabdan ayrılmaq istəmədi. Çopo, Nuşa, Ceyniz, şair Milnir, xaqan və Ərdica ətrafına toplanaraq bütün macəraları ilə onu əhatə etmişdilər.

Əhməd özünü "Yel" ulusdaşı ədd edərək "Türk mədəniyyəti sarayı"nı tərk etdi. Geniş qaldırımdan "Kommunist" küçəsinin ortasına keçər-keçməz birdən sürətlə gələn tramvayın zəngi çalındı. Avtomobillərin parlaq işıqları gözlərinə çarpdı.

Əsri şəhərin gurultusu, radio, elektrik işığı və izdiham onu ayıltdı. Həqiqi aləmin əzəmət və dəbdəbəsi bütün qüvvəti ilə önündə canlandı.

Bu aləm qarşısında "Qızlar bulağı" ekranda göstərilən bir şəkil kimi sönüb getdi.

# İKİ OD ARASINDA

## BİRİNCİ HİSSƏ*

"İbrahim xan... hüzuruna yaxın, qulluğunun nədimi, baş katibi və dövlətinin möhkəm bir sütunu olan qazaxlı Molla Pənah Vaqifi yanına çağırdı. Vaqif kamal, ədəb və elm sahibi bir sima idi. Əgər Çinin fəsahət səhrasının ahusu, onun səlis təbinin sünbülüstanında pərvəriş tapan qəzəllərin maralı ilə bərabərlik iddiası etsə, tamamilə səhvdir. Əgər bəlağət bədəxşanının ləli, onun sinəsinin xəzinəsində toplanmış parlaq beytlər və çox az tapılan qiymətli mirvarilər qarşısında xəcalətindən qızarsa, tamamilə düzgündür".

*Mirzə Adıgözəl*

***

"Birincisi, Vaqif təxəllüslü mərhum Axund Molla Pənahdır ki, tədbirli və kamallı məşhur vəzir idi və İranda, Rumda olduqca şöhrət tapmışdır. Onun türkcə yazdığı aşiqanə şeirləri indi də dillərdə əzbərdir".

*Mirzə Camal*

***

"Hər oxuyan Molla Pənah olmaz"

*Məsəl*

### I

Dan yeri sökülürdü. Bağrıqanın** arxasından başlayaraq göyün üzünə tutqun şəfəq çəkilmişdi. Havada xəfif bir sazaq var idisə də yazın ağacları oyadan ilk yeli bu sazağa bir xoşluq verirdi. Ətrafda xoruzlar banlaşır; bazardan yuxusuz darğa şagirdlərinin kal səsləri səhərin sükutunu pozaraq kədər saçırdı.

Bir şaqqıltı eşidildi: sarayın darvazası açıldı, orada qaraltılar səyrişdi, cəsarətsiz qırıq səslər gəldi. Çox çəkmədi ki, bir neçə adam içəridən dışarıya doğru səpildi, arxadan atlılar görünməyə başladı. Ci-

---

* "İki od arasında" romanının bu nəşrində 1968, 1976, 1986, 2002-ci il nəşrləri əsərin əlyazması ilə tutuşdurulmuş, ideoloji-siyasi mülahizələrə görə əvvəlki nəşrlərdə yol verilmiş "təmizləmələr", dəyişmələr aradan qaldırılmış və ixtisarlar bərpa edilmişdir (*Red.*).

** Şuşanın sağ cəhətindəki dağ.

lovdarlar atların başından yapışıb, aramla yürüyür, nökərlər, zinpuşçular, məaflar* onları izləyirdilər. Qafilə bir az irəliləyib sağ tərəfə, qala qapısına doğru döndü. Bir-iki nökər yüyürərək şəhər qapısı keşikçilərinə xəbərə getdi. Dəmir qapıların sanballı qıfılları zırınqıltı ilə açıldı, ağır mandallar cəftələrdən çıxarıldı, bir dəqiqədə qapılar taybatay açıldı, qaranlıq tağlara gün çıxandan qızartdaq şəfəqlər düşdü. Qapının səkilərində bir sıra keşikçi durub, əllərini döşlərinə qoyaraq intizarla qafiləni gözləyirdi. Bunların içərisində yapıncılı ləzgi və qumuq, Cavanşir elinə mənsub sallaq bığlı, qolsuz kürklü atıcılar var idi. Qılınc və xəncərlərin gümüş qəbzələri, tüfənglərin bəndləri sönük parıltı saçırdı.

Qafilə yanaşdı. Keşikçilər artıq ikiqat olmuşdular, gözləri yerdən başqa heç bir şey görmürdü. Öncə gələn atın üstündə ağır gövdəli, ağ çadralı bir xanım oturmuşdu. Bu, İbrahim xanın arvadlarından Şahnisə xanım idi. Dan yerinin şəfəqi xanımın üzünə düşən kimi gözlərini qıydı, üzünü qırışdıraraq:

– Uşaqlar, necəsiniz? Yaxşısınızmı? – dedi.

– Sağ olun! Sağ olun, xanım! Üstümüzdən əskik olmayasınız! – deyə cürbəcür səslər eşidildi.

Qafilə qala qapısını çoxdan tərk etmişdi, lakin hələ də ikiqat qalmış keşikçilər razılıq etməkdə idilər.

Yavaş-yavaş işıqlanırdı. Göydə bir bulud parçası belə yox idi; şərq tərəf kəsilmiş qarpız kimi qızarırdı. İndiyə qədər davam edən sükutu Şahnisə xanım pozdu; sol tərəfində atda gedən qızı Kiçikbəyimə dönərək:

– Ay qara qız, – dedi, – deyəsən yorğunsan, bənizin qaçıb... Axşam sənə dedim ki, az oyna, az atıl-düş. Qulaq asmadın.

Kiçikbəyim albalı rəngli dodaqlarını xoş bir əda ilə büzdü, qaşlarını süzərək:

– Ay ana, ildə bir gecə çillə çıxır, onu da deyə-gülə keçirməyəsən, doyunca oynamayasan... Heç olarmı? – dedi, sanki gecə sabaha qədər xoş keçirdiyi vaxtı xatırlayıb nəşələndi və qəhqəhə çəkib, ürəkdən güldü. Bəyimin gülüşü arxadan gələn qədimi** Babanı da mürgüdən ayıltdı; qırışıq üzü açıldı, topa saqqalını tərpədə-tərpədə:

---

* Vergidən azad edilmiş nökərlər.

** Qədimi-hər cür vergidən azad edilmiş nökərə deyərdilər.

– Xanım, təsəddüqün* olum; cavanlıqdır. Qoy əylənsin! Bəyimin bu saat qızlar bulağından su içən vaxtıdır... – dedi, susdu və sanki başında dalğalanan xatirələr onun sözlərini qırıb tökdü. Şahnisə xanım yarı çevrilərək dodaqlarında imalı bir təbəssüm oynatdı:

– Ay Qədimi, – dedi – deyəsən cahıllığın yadına düşdü. Qorxma, çox qoca deyilsən, gecəki oyunundan gördüm; hələ süzə bilərsən.

– Xanım, başına dönüm, nə deyirsən, sən mənim nə vaxtımı gördün... Məni rəhmətlik Pənah xanın zamanında at belində görəydin... Qırğı kimi idim.

Baba bir ah çəkib atın üstündən dikəldi, şallağı ilə sağ tərəfdə görünən topxananı göstərdi:

– Bax, başına dönüm xanım, iyirmi il olar, Fətəli xan Əfşar o döşdən tutmuş bu Şüşü dərələrini qoşunu ilə doldurmuşdu, bax, ağzı yuxarı Qalaya tərəf daraşmışdılar. Pənah xan rəhmətlik toplara od qoydurdu, yer, göy lərzəyə düşdü... Bu indi keçdiyimiz Gəncə qapısı açıldı. Atları götürtdük... Dərələrdən sel kimi, təpələrdən yel kimi axıb töküldük... Fətəli xan o gedən oldu, getdi.

Babanın hələ də şallağı havadan asılı qalmışdı. Sanki yenə də bəzi şeylər söyləmək istəyirdi. Çal qaşları altından baxan xırda gözləri atəş saçırdı.

Şahnisə xanım onu sancmaq məqsədilə yenə gülümsünərək:

– Axırı nə oldu, a Qədimi? – dedi. – yenə sizi aldatdı, İbrahim xanı da zaval apardı.

Baba əlini havadan salıb, qeyzlə xəncərinin dəstəsindən yapışdı, dili dolaşa-dolaşa dedi:

– Xanım nə buyurursan... Qasid yolladı... Şirin dilini işə saldı... Qızını İbrahim xana vermək istədi... Amana gəldi... Biz də İbrahim xanın dalına düşüb, Xocalı düzünə barışığa getdik... Qoyunlar kəsilib, qazanlar asılmışdı... Nə bilək ki, ilqarından dönəcək, bizi də İrana zaval aparacaq...

Kiçik bəyim lağ ilə:

– Ay lələ, – dedi, – bəsdir, xoruzlanma, daldan atılan daş topuğa dəyər .

Baba qollarını ata-ata yenə danışmaq istədi, lakin öskürək onu boğdu. Bir daha danışa bilmədi.

---

* Təsəddüq-sədəqə, qurban.

Şahnisə xanım Qədiminin öskürəyinin səbəbini duyub, ona çubuq çəkməyə rüsxət verdi.

– Baba üzürxahlıq etdi:

– Xanım, başına dönüm, bihörmətlik olar, xəcalət çəkərəm.

Kiçikbəyim anasının əvəzinə:

– Zərər yoxdur, lələ, çək! Çubuğu doldur, – dedi.

Baba bir-iki dəfə üzr istəyib, tənbəki kisəsini çıxardı. Gümüş zəncirli çubuğu doldurdu. Qovu çaxmaq daşı ilə alışdırıb, çubuğu yandırdı. Tüstünün iyi xan ailəsinə əziyyət verməsin deyə baba atını yavaşıtdı və əlli addımlıq bir məsafədən qafiləni izləməyə başladı.

Dan yeri parlayırdısa da günəş hələ Bağrıqanın arxasından çıxmamışdı. Xoş bir yel insanı oxşayır, köksünə sirli bir fərəh doldururdu. Yol getdikcə yalçın qayalardan Daşaltı çayına qədər ilan kimi qıvrılaraq enirdi. Atlar addım-addım yürüyür, tez-tez ayaqları sürüşürdü. Cilovdarlar atların yüyənindən bərk yapışıb arabir onlara acıqlanırdılar. Kənizlər atdan düşüb Şahnisə xanımın qılçalarından yapışmışdılar. Kiçikbəyim də atı cilovdara verib, Məmməd bəylə öndə yürüyür və kəsmə yollarla qayalardan sürüşərək aşağıya enirdi.

Məmməd bəy on iki-on üç yaşında ala gözlü, qumral saçlı, geniş kökslü, şümal bir oğlandı. İbrahim xanın qardaşı Mehralı bəyin oğlu idi. İbrahim xan İrana zaval aparıldıqda Pənah xan qoşun çəkib Fətəli xanın dalınca getmişdi. İran dövlətinin vəkili Kərim xan Zənd Pənah xan ilə birləşib Fətəli xanı basmış və İbrahim xanı əsarətdən qurtarmışdı. O aralıq Kərim xan fərman göndərib Mehralı bəyi Qarabağ xanı təyin etmişdi. Pənah xanı isə təcrübəli müşavir adı ilə Şiraza zaval aparmışdı.

Əsarətdən qurtaran İbrahim xan Qarabağa dönür və qardaşı Mehralı bəylə arasında səltənət davası düşür. İbrahim xan qaynı Avar xanın köməyi ilə qardaşını Şuşadan çıxarıb Qarabağ xanı olmuşdu. Mehralı bəy isə qaçıb Quba xanına sığınmışdı. Oğlu Məmməd bəy atasının sarayında tərbiyə alıb böyüyürdü. İgid, kəskin təbiətli bir gənc idi. Kiçikbəyim ondan beş-altı yaş böyük də olsa, bir-biri ilə yoldaşcasına keçinir və igidlik meydanında bir-birindən geri qalmırdılar. Kiçikbəyim ana tərəfdən Şahsevənli Bədir xanın nəvəsi olduğu üçün, ana elinin bir çox xassələrini daşıyırdı: at minib cıdıra çıxmaq, tüfəng atmaq, qılınc oynatmaq onun üçün təbii bir ehtiyac kimi idi. Günün müəyyən hissəsini şəhərin ətrafını dolaşardı və həmişə də zavallı

Şahnisə xanımı və lələsi Babanı özü ilə getməyə məcbur edərdi. Bu günkü bu seyr də onun nazı üçün yapılırdı: novruz münasibətilə axar su üstündən atılıb, çilləsini kəsdirəcəkdi.

Çayın şırıltısı get-gedə daha aydın eşidilmədə idi. Nəhayət, iri qayaların və kolların arasından çayın özü də görünməyə başladı. İki dağın arasından çıxıb, yuvarlaq daşlara toxunaraq gurultu və nərilti ilə axırdı. Suyu hələ az idi. Dağlarda qar əriyəndə və yaz yağışları başlayanda bu dayaz çay ağzı köpüklü bir əjdahaya dönüb, bütün ətrafını xəşin pəncələrilə qaplayır, qayaları qoparır, iri ağacları kökündən çıxarır və igid tüfəngini oynadan kimi pəncəsində oynadır. Ah, bu çay coşarkən nə qanlar eləməmişdi! İndi qış onu gücdən salmışdı, nəriltisi belə cansız və ruhsuzdu.

Atlılar hələ dolamaları enməmiş Məmməd bəylə Kiçikbəyim çaya çatmışdılar. Beş-altı evlik erməni kəndinin içindən keçib, daş körpünün üstünə çıxdılar. Qarşıda sağ tərəfdə göylərə yüksəlmiş çılpaq qayanın başına günəş zəfəran rəngi çəkmişdi.

Sol tərəfdəki qayanın arxasında meşə incə cizgilərlə yüksəlirdi. Uzaqlarda ağ çalmalı Kirs dağı əzəmətlə yuxuya qalmışdı.

Atlılar körpüyə çatar-çatmaz hamı atdan endi, yavaş-yavaş sol tərəfdəki Qotursuya yanaşmağa başladılar. Qayanı yarmış Qotursu üç-dörd metrlik bir hündürlükdən əlvan boyalı çınqılların içinə tökülür, gümüş zəncir kimi qıvrılaraq axıb gedirdi. Kiçikbəyim suyun kənarına gəldi: “Ağırlığım, uğurluğum tökülsün!” – deyə bir neçə dəfə suyun üstündən o yan-bu yana atladı. Sonra yosunlu qayaya söykənmiş Məmməd bəyə yönələrək:

– İgid, bəs sən niyə durmusan? – deyə ərklə onun çuxasının qolundan dartdı. Məmməd bəy töyşüyərək körpüdən dik enən Şahnisə xanıma işarə edərək yerindən tərpənmədi: əvvəl yaşlılar, sonra cavanlar atlanmalı idi. Qollarından kəniz və qaravaşlar yapışmış xanım gəlib Qotursuyun yanındakı tut bağının hasarının üstündə oturdu.

– Ağgünlü olmuş, – dedi, – məni bu yaşımda gör gətirib haralara çıxarırsan; lap canım ağzımdan çıxır.

– Ay ana, evdə oturub lətlənməkdənsə bu yaxşıdır: Palaza bürün, el ilə sürün: bir azdan sonra şəhərin bütün qız-gəlinləri, ahıl- cahılları burada olacaq.

Şahnisə xanım qızının qarayanızı çöhrəsində dolaşan fərəh və nəşəni fəxr ilə seyr edərək:

– Bəxtəvər başına! – deyə gülümsədi və nökərlərə:

– Ay uşaq, cəld bir ocaq qayırın, bir qəhvə içək, – dedi.

Nökərlər hasarı keçib, bağın aşağı tərəfində ocaq tədarükünə düşdülər; kənizlər tut ağacının altında süfrə salmağa başladılar.

Şahnisə xanım bir az dincəlib durdu, bulaq başında əl-üzünü yudu və: "Ağırlığım, uğurluğum tökülsün! " – deyə axar su üzərindən Kiçikbəyimin köməkliyilə atlandı. Kiçikbəyim Məmməd bəyin qolundan tutub, onu da suyun yanına gətirdi, qəhqəhə çəkib onu itələdi, sudan atlatdı. Zarafatlar başladı, bir-birini suya doğru itələyib, əyləndirdilər. Nəhayət, Kiçikbəyimin məxmər başmağı suya düşdü. Məmməd bəy suyu süzələnən başmağı yuxarı qaldırdı və istehza ilə:

– Ay bəyim, ha istəyirsən oğlan olasan, ola bilmirsən. Oğlan olmaq sənin hünərin deyil, – dedi.

Kiçikbəyim ağlamsınaraq, başmağı onun əlindən alıb hasarın üstündə oturdu.

Tut ağacının altında zərif kaşan xalçaları salınmış, məxmər döşəkçələr, ipək püştələr*, mütəkkələr düzülmüşdü. Qaravaşlar əlləri döşlərində səf çəkib, xanımları gözləyirdilər. Şahnisə xanım isə suyun kənarında oturub çilləsini kəsdirirdi. Kiçikbəyim üçün Gülablı kəndindən gətirilmiş və o zamandan bəri sarayda qalmış dayə, xanımın qarşısında çömbəlib, onun baş barmaqlarını ağ ipliklə çatdı, sonra dedi:

– Həzrəti Süleyman eşqinə, cin qızı Mərcan hökmünə, bəni adəmdən, bəni heyvandan, cindən, şeytandan, axar sudan, köklü ağacdan, dibli qayadan, yeddi yolun ayrıcından... hər kəsin çilləsinə düşübsən, çilləni kəsdim!

Bu sözlərdən sonra qayçı ilə ipliyi kəsdi. Əlavə olaraq xanımın barmaqlarını iki dəfə də çatdı, eyni sözləri oxuyub kəsdi və sonra kəsilmiş iplikləri bir əli ilə qaldırıb xanımın başının üstündə tutdu və o biri əli ilə bürüncdən qayrılmış, üzərində dualar həkk olunmuş "qırx açar camı" ilə bulaqdan bir az su götürüb iplik qırıntılarının üstündən axıtdı. Su xanımın başından aşağı süzələnərək onu bütün dərdlərini yuyub apardı. Dayə Kiçikbəyimin də çilləsini kəsdi, ona xoşbəxtlik dilədi, sonra südü ilə bəsləmiş olduğu bəyimin incə əllərini dodaqlarına basıb öpdükdə gözləri yaşardı...

---

* Püştələr-yastıqlar

Günəşin zəfəranı işığı yavaş-yavaş qayanın yuxarılarından aşağa enir və endikcə də əvvəlki rəngini itirirdi. İndi çayın və çaydan dəyirmanlara ayrılan arxların kənarları əlvan geyimli qız-gəlinlərlə dolmuşdu. Xalq köhnə ildən qalma dərd və qəmlərini suya tökərək, axar su üstündən atlanır, çilləsini kəsdirirdi. Gülüşlər, seyhələr dağlara düşərək əks-səda doğururdu.

2

Pəncərənin xırda, rəngbərəng şüşələrindən içəri düşən şüalar yerə döşənmiş xalıların boyalarına ayrıca bir süs vermişdi. Bəzi naxışlar alovlanan kimi olaraq yaldızlı* qəzəhlərlə** pəncərəyə doğru uçuşurdu. Pəncərənin içində ipək döşək üstə uzun papaq, zoğalı çuxa, yaşıl şalvar geymiş, şal qurşaqlı bir kişi oturub, bir qanadı qaldırılmış pəncərədən uzaq mənzərəni – Dabtələbi, başı qarlı Murov dağını seyr edirdi. Onun qara boyalı bığlarının ətrafındakı dərin cizgilər gah füsunkar mənzərə qarşısında xəfiflənir, gah da dərinləşərək ağır qayğılar ifadə edirdi. Bu, xanın vəziri və dövlətin müşaviri Molla Pənah Vaqif idi. O qarşısındakı mina güldan içindəki novruzgülü və bənövşələri götürüb qoxladı və güldanı huşsuz bir halda pəncərə taxtasının üstünə qoydu.

Bu əsnada qələmkar pərdəli qapı açıldı. Vaqifin oğlu Qasım ağa içəri girdi. Bığ yeri yeni tərləyən bu gənc naxışlı corabları ilə xalının üzəri ilə səssizcə yürüyərək atasına yanaşdı və dizi üstə çöküb əlini öpdü:

– Ağa, bayramın mübarək olsun! – dedi və sevinclə atasının üzünə baxa qaldı.

– Səninkilə bərabər, oğul! Neçə belə-belə bayramlar görəsən! Böyük oğlan olasan!

Ortalığa dərin bir sükut çökdü. Nə ata bir söz söylədi, nə oğul. Vaqif üzünü yenə Murov dağına tərəf çevirib əqiq üzüklü barmaqları ilə pəncərənin taxtasını çalaraq nədənsə Qasım ağanın anasının vaxtsız sönməsini yanıqlı xatırladı. Yenə üzünün cizgiləri dərinləşdi və gözündən bir damla yaş qopub yanağı aşağı yuvarlandı. Sanki əvvəl onun özü bunun fərqinə varmadı, mənzərəyə dalıb qaldı. Lakin bir az sonra üzünü yenə oğluna çevirdikdə onun nəşəli üzünə kədər kölgəsi çök-

---

* Yaldızlı-qızılı və ya gümüşü, parlaq.

** Qəzəh-qövsü-qüzey (göy qurşağı).

düyünü duyub, ayılan kimi oldu. Əlini atıb döşəkçənin altından iri güllü bir dəsmal çıxarıb gözünü sildi:

– Bayramdır, get gəz! – deyə oğlunun getməsinə izin verdi. Qasım ağa qalxıb qapıya çatmamış qələmkar pərdə qaldırıldı, içəri orta boylu, dolğun vücudlu gözəl bir qadın girdi. Kəlağayının altından çıxmış qara tellərin ucları ağ buxaqda ilan kimi qıvrılmışdı. Darayı köynəkdən baş vermiş döşləri nümayişkar bir vəziyyət almışdı. Zərbaft nimtənənin düymələri sezilməz bir sarsıntı içində idi – qadının dərin bir iztirab keçirdiyi duyulurdu.

Vaqifin sınaqlı gözləri arvadına rast gələrək parladı, ona qarşı bəslədiyi və bəzən tərəddüd dolanbaclarına dalan eşqi yenidən canlandı. Şux və ehtiraslı bir təbəssümlə:

– Qızxanım, bayramın mübarək olsun! – dedi və onu oynaq baxışılə başdan-ayağa oxşadı.

Qızxanımın bayram fərəhi ifadə edən çöhrəsi sanki ərinin iltifatından ürkərək dəyişildi. Sərzənişli bir cizgi onun incə dodaqlarına bir ikrah cilası verdi. Vaqif bütün incəliklərinə qədər bələd olduğu bu çöhrədəki dəyişikliyi sezdi. Qorxduğu olmuşdu: onun bayram nəşəsinə artıq zəhər qarışmışdı. Qəlbi kədər dalğasına atılaraq bütün vücudunu sarsıtdı. Qeyri-ixtiyari olaraq əlini pəncərəyə tərəf hərləyəndə, güldana toxunub saldı. Güldan sındı. Qızxanım bu mina güldanın sınmasından mütəəssir olaraq öz-özünə düşündü: "Qəlb ki, var, o da bu güldan kimi bir şeydir: sındımı bir daha düzəlməz".

Bu əsnada içəri qoca bir nökər girdi:

– Ağa, Mirzə Əliməmməd ağa təşrif gətiribdir, – dedi:

– Buyursun! Buyursun!

İndiyə qədər ayaq üstə qalan Qızxanım cəld çönüb ikinci qapıdan çıxdı. Nökər də artırma qapısını açıb:

– Buyurun! – deyə divara qısılaraq qonağa yol göstərdi. Mirzə Əliməmməd içəri girdi. Bu – uca boylu, saqqalının bəzi yerlərinə dən düşmüş, qara qaşlı, qara gözlü bir kişi idi. Hər bir hərəkəti cəld idi. Əlini cəld döşünə qoyub, salam verdi və eyni cəldliklə də yürüyüb yerindən qalxmaq istəyən Vaqifin yanına gəldi, dizi üstə çökdü:

– Məni xəcil və şərmsar etmə! – dedi və Vaqifin iki əlini də ovuclarının içinə alıb bərk-bərk sıxdı: – Eydi-şərifiniz mübarək olsun, inşallah! Neçə belə bayramlar görək, kefimiz kök, damağımız çağ olsun!

– Səninlə belə!.. Xəcil niyə olursan? Məsələ rütbədə deyil, övladi – peyğəmbərə hörmət etmək hər bir müsəlmana borcdur... Burada nə üçün oturdun? Dur ağzımızı şirin eləyək.

İkisi də qalxıb kallayının yuxarı başındakı bayram süfrəsinin qırağında döşəkçə üstündə əyləşdilər. Qələmkar süfrənin üstünə lacivərdi saxsı boşqablarda noğul, qəzəngülü, zilbiyə, paxlava, şəkərçörəyi, qorabiya, açıq narınc rəngli Mazandaran nabatı və quru yemişlər qoyulmuşdu. Süfrənin ortasına bir neçə boşqab səməni otu düzülmüşdü. Kənarlarındakı lacivərdi mətrəblərdə* də şərbət vardı.

Vaqif əlini noğula uzadıb, özünəməxsus zarafatyana təbəssümlə:

– Seyyida, cəddinə yesir olum, ağzını şirin elə! "Bərgi səbzist təhfeyi dərviş**..." – dedi.

Mirzə Əliməmməd üstünə mixək sancılmış bir qorabiya götürüb kəsdi, bir parçasını ağzına qoydu:

– Sənin kimi dərviş olmağa hər kəs xahişmənddir.

– Ah, gözüm nuri, dərvişin də dərdi olur – bax, novruz səhəri güldanım düşüb sındı. Bu nəhs bir şey deyilmi?

Vaqifin üzündəki zarafat izləri itib getdi.

– Şairül-şüəra, qab sınması el arasında qada-balanın izalə olması deyə təfsir olunur. Bir də ki, hələ il təhvil olmamışdır, dəstəyə*** bir saat qalanda olacaq. Güldanın sınması köhnə ilə təəlluqdur.

– Kaş sən deyən olsun. Ancaq ürəyə pis gəlir: Milçək murdar deyil, qəlb bulandırır .

Bayaq mirzə Əliməmmədi içəri buraxıb çıxan nökər üstü incə naxışlı bürünc sinidə iki fincan qəhvə gətirdi və eyni zamanda Xanməmməd ağanın gəlməsini xəbər verdi. Vaqif:

– Buyursun! – deyə dodaqlarında bir istehzalı təbəssüm oyatdı. Mirzə Əliməmməd isə pərt-pərt qapıya baxaraq doğma qardaşının gəlməsindən heç də məmnun qalmadı. Xanməmməd gəldi, bayramlaşıb oturdu. Yaşıl çuxasının qollarını çiyninə atıb, iri, üstü tüklü burnunu çəkdi və heç bir təklif olmadan süfrədən bir həlviyə götürüb, ağzına qoydu. Ordlarının ikisi də şişik bir halda şəhərin yeni xəbərlərini nağıl eləməyə başladı:

---

* Mətrət-içinə ağartı və ya şərbət tökülən böyük saxsı qab.

** Dərvişin töhfəsi quru meyvələr

*** Günortaya

– Xan Qurdlar məhəlləsindən keçirmiş... Xəzinə qayasından qayıdırmış, o nədi, təzə burca baş çəkməyə gedirmiş...

Vaqif gülərək onun sözlərini kəsdi:

– Ya gedirmiş, ya qayıdırmış!..

Xanməmməd cəld:

– Qayıdırmış! – dedi və ağzından həlviyə sıçratdı. Qayıdırmış! – Kələntər Ağası bəy də yanında imiş. Xülasə, sövdəgər Hacı Kərimin çəpərinin yanından keçəndə gözü həyətdə Hacının qızına sataşır. Deyirlər, çox xoşuna gəlib. Qız da pis deyil: on beş-on altısındadır...

Vaqif zarafatla:

– Deməli, toyda süzürük! – dedi.

– Niyə süzmürük, axund, ölməyəcəyik...

Mirzə Əliməmməd qardaşının söhbətini utanaraq dinləyir, gözlərini yerdən qaldırmırdı. Vaqif isə nəşələnib zarafatında davam edirdi:

– Ay Xanməmməd daaş*, bir de görüm sənin dostun Səfərdən nə xəbər var?

Səfər Qarabağın məşhur qaçaqlarından idi. Əsli Zarıslı** elindən olub, yüzbaşını öldürdükdən sonra dağlara qaçıb yolkəsənlik edirdi. Bir il əvvəl Xanməmməd kəndlərin birindən malcəhət*** yığıb qayıdarkən Səfərə rast gəlir. Səfər onu tutub nökərləri ilə bərabər ağaca bağlayır, eşşəklərə yüklənmiş malcəhəti də alıb gedir. Neçə gün meşədə ac-susuz qalan Xanməmməd təsadüfən tapılır və yarımcan halda Qalaya**** gətirilir.

– Siz elə mənə gülün ki, mən qorxağam. Tuğ yolunda Ərdəbildən gəlib Tiflisə gedən karvanı da çapıb talayıb... Çox vahiməli adamdır. Yadıma düşəndə bədənim əsir.

Vaqif ciddiləşdi və əndişə ilə soruşdu:

– Bu adam nə yerdədir?

– Axund, lap cavandır, iyirmi-iyirmi iki yaşında olar. Amma, zalım cınaqlı şeydir. Çığırdımı-adamın kələfi dolaşır...

Vaqif qəhqəhə çəkib güldü:

– Dil dönər, düzünü söylər! – dedi və nəzəri Xanməmməddən süzülərək Mirzə Əliməmmədin üzünə düşdü: Mirzə dodaqlarının ucla-

---

* Daaş-dadaş

** Şuşa yaxınlığında kənd

*** Məhsulun onda biri-xana çatan vergi

**** Şuşaya

rında doğmaq istəyən təbəssümü boğub, pərt bir halda sözü dəyişmək istədi:

– Axund, xanın hüzuruna getmək çağı deyilmi? – deyə sordu. Vaqif əlini atıb, qoltuq cibindən qara qaytanlı mina saatını çıxardıb, baxdı və sonra:

– Lələ! Lələ! – deyə çağırdı. – Getməliyik! – dedi.

Qoca nökər içəri girdi:

– Ağa, nə əmrin var?

– Cilovdara deyinən, atları çəksin!

– Baş üstə ağa!

Nökər getdi və bir-iki dəqiqədən sonra atların hazır olduğunu xəbər verdi. Qalxdılar. Vaqif çuxasının qollarını çəkib biləyinin üstündə düymələdi. Çıxdılar. Başmaqları artırmada qapının ağzında cərgə ilə cütlənmişdi. Geyib, daş pilləkənlə həyətə endilər. İri tut ağacının altında iki gümüş sinəbəndli, gözəl yəhər – əsbablı at yedəkdə durmuşdu. Cilovdarlar əvvəl Mirzə Əliməmməd ağanın, sonra da Vaqifin atını irəli çəkdilər. Xanməmmədin atı yox idi. O onlardan əvvəl yola düşdü.

Vaqiflə Mirzə Əliməmmədi iki cilovdar və iki də çiyinlərində zinpuş tutmuş nökər təşyi edirdi.

3

Vaqiflə Mirzə Əliməmməd sarayın geniş kallayısına* girdikdə orada böyük izdiham gördülər. Şəhərin bütün əyan, əşrəf və əsnafı burada idi. Yuxarı başda üzərində rəngin şüşələrdən naxışlar yapılmış pəncərənin qapısındakı qiymətli xalılar döşənmiş taxtın üstündə Qarabağ hökmdarı İbrahimxəlil xan əyləşmişdi. Ətrafını dəbdəbə ilə geyinmiş ağalar, bəylər, əyan və əşraf bürümüşdü. Xanın qayınatası Məlik Şahnəzər, Kələntər Ağası bəy, erməni keşişi Ohan, ağ sarıqlı şəhər qazısı və yaşıl əmmaməli bir-iki seyid də burada oturmuşdu. Kallayının aşağı hissəsi tacir və əsnaf ilə dolmuşdu: bunlar divar boyu döşənmiş ipək döşəkçələr üstə dizi üstə ədəblə oturmuş və bir kəlmə belə danışmırdılar.

Vaqif ilə Mirzə Əliməmməd ağanı görcək bütün məclisdəkilər dik ayağa qalxdılar. Müstəsna olaraq xan ilə vəliəhdi-səltənəti olan böyük

---

* Binanın içəri tərəfindəki dib otaq

oğlu Məmmədhəsən ağa ayağa durmadılar, lakin yeni gələnlərin yuxarı buyurmalarını əllərilə işarə etdilər. Vaqif ilə Mirzə Əliməmməd xalqa təzim edə-edə yuxarı başa keçib, göstərilən yerdə əyləşdilər: Vaqif xanın sol tərəfində Mirzə Əliməmməd isə sağda, Ohan keşişin yanında yerləşdi. İbrahim xan Çingiz xanın nəvəsi Hülakü xan nəslindən olduğuna fəxr edərək sarayında da Çingiz ənənələrini yaşatmağa çalışardı. Bu ənənələrdən biri də sayğılı adamların xanın sol tərəfində oturmaları idi. Vaqifin də sol yanda əyləşdirilməsi onun sarayda qazanmış olduğu mövqeyi və hörməti göstərirdi. Yeni gələnlər oturan kimi təkrar xana, ətrafdakılara və sonra camaata baş əyərək təzim etdilər, cavab olaraq uzun papaqlar nizam ilə əyilib qalxdı.

Xan bayram münasibətilə Ləmbəran qumaşından tikilmiş ağ çuxa, ağ arxalıq geymiş və başına da ağ dəri papaq qoymuşdu. Çiyninə içi samur xəzli tirmə xirqə* salmışdı. Şal qurşağından altun qəməsinin qiymətli daşlarla bəzənmiş qəbzəsi görünürdü.

Yeni qonaqlar oturan kimi pişxidmət hazır oldu, bir dizini yerə qoyub çini fincanlardakı qəhvəni altun sinidən götürüb qonaqların önünə qoydu.

Vaqif ətirli Yəmən qəhvəsini içərək kallayını seyr edirdi. Otağı başdan-başa tutmuş, sumağı yerli, incə haşiyəli xalının ortasına ətrafı zəncirəli tirmə süfrə salınmış, üstünə qızıl və gümüş qablarda şirni, çərəz və şərbətlər düzülmüşdü; ara-sıra səməni otu, zərif güldanlarda bənövşə və novruz gülü, arandan göndərilmiş alça və şəftəli çiçəkləri qoyulmuşdu. Tam süfrənin üzərindən xas boya və zərlə işlənmiş tavandan büllurlarla parlayan bir çilçıraq asılmış, qəndillərinə sarı şamlar düzülmüşdü. Aşağı və yuxarı başda eyni şəkildə, yalnız bir az kiçik iki qəndil daha asılmışdı. Yan divarlardan birisində çargül** rəngin pəncərələr arasında zərli çərçivəli güzgülər vurulmuşdu; o birisində zərif naxışlı, əlvan qabartmalı taxçalar var idi. Taxçaların birində yaldızlı mələkə heykəlli bir firəng saatı, o birilərində sədəf işləməli incə mücrülər, yəhər-əsbablar, çini kasa və boşqablar və əlvan cildli qiymətli kitablar qoyulmuşdu. Taxtın arxası Kəşmir şalları, İran xalıları altun və gümüşə tutulmuş silahlar: qalxan, qılınc, qəmə, zireh, dəbilqə, tüfəng və təklülələrlə bəzənmişdi. İran şahlarından, ətraf xanlıqlardan göndərilmiş bütün hədiyyələr buraya nəsb olunmuşdu.

* Üstdən çiyinə salınan bürüncək
** Dördkünc

Xanlığın sülh və rifah içində yaşadığı bir zaman idi. Nadirin qanlı keşməkeşindən sonra Kərim xan Zənd İranda asayişi bərpa etmişdi, hələlik oradan heç bir təhlükə gözlənmirdi. Nadirin Xorasana sürdürdüyü və İbrahim xanın mənsub olduğu Cavanşir, Otuz iki, Bəhmənli elləri çoxdan qayıdıb, Qarabağ torpağına, Kür ilə Araz arasındakı doğma yurdlarında yerləşmiş, əkin-biçini, maldarlıqla məşğul idilər. Gürcüstan valisi İrakli* ilə dostluq davam edir; İrakli Qazax və İrəvanı idarə edirdi, İbrahim xanın isə hökmü Dağıstandan ta Təbrizə qədər yeriyirdi. Yalnız Quba hökmdarı Fətəli xan ona boyun əymək istəmir, Azərbaycanın şərq hissəsini – Bakını, Talışı öz nüfuzunda saxlayaraq, Qarabağa qarşı daimi bir düşmənçilik bəsləyirdi. Lakin Fətəli xan təhlükəsi İbrahim xan üçün əhəmiyyətli bir şey deyildi. Şişə qalası kimi ələ keçirilməsi qabil olmayan, uca barılar və bürclərlə əhatə olunan bir şəhərin hökmdarı Fətəli xandan qorxardımı? Bir işarəsi ilə Qaradağ, Xoy, Naxçıvan, Şəki xanları köməyinə qoşulur; qaynı Ömər xan Avarıstandan on beş min igidlə tərpənir...

Siyasi vəziyyətin beylə əlverişli olması ipək püştələrə söykənmiş xanın dolğun, sərt və məğrur çöhrəsində ifadə olunmuşdu. O, qəlyanın kəhrəba neypuşunu dodaqlarından ayırmayaraq nəşə ilə çəkir və bayram məclisini fərəhlə seyr edirdi. Bu əsnada Xanməmməd içəri girdi. Salam verib aşağı tərəfdə özünə yer axtardı. Hacılardan birisi onu bir az yuxarıya öz yanına çağırdı. Xanməmməd keçib oturdu. Qəhvə gətirən pişxidmətdən bir paxlava istədi, o da boşqabı götürüb ona təqdim etdi. Bu mənzərəni seyr edən Mirzə Əliməmməd yenə sıxıldı, başını aşağıya saldı. Xan gülümsəyərək Vaqifə müraciət etdi:

– Xanməmməd nə aləmdədir? Rəncidəxatir olduğumu bilir deyə gözümə görükməyir.

Vaqif mülayim səslə:

– İltifatına müntəzirdir, – dedi.

Xan çox düşünməyərək:

– Qala darğasınaköməkçi versək, karı aşarmı? – dedi.

– Ömrünüzə duagü olar... Əhli-əyalı çox, özü də, bizim tərəkəmə demişkən, bir az soysuzdur.

– Bivecdir, əlindən zəvzəklikdən başqa bir iş gəlməz... Elə burdan ora, ordan bura xəbər daşıyır.

---

* II İrakli

Vaqif heyfsiləndi:

– Bilsəniz, Mirzə Əliməmməd onun ucundan nə qədər xəcalət çəkib, pəjmürdədil olur.

Mirzə Əliməmmədin adı gəldikdə xan hörmətlə başını tərpətdi:

– Bir atanın böylə də zürriyyəti olur, elə də – dedi və neypuşu dodaqlarına aldı.

– Sürü axsaqsız olmaz, – atalar doğru buyurmuş.

Xan Vaqifin sözlərini təsdiq edərək yenə başını tərpətdi, görünür bir söz demək istəyirdi. Lakin qazının saata baxdığını görüb susdu. Qazı il təhvinlə beş dəqiqə qaldığını elan etdi. Hər kəs şən bir çöhrə taqınmağa çalışdı. Xalq adətincə, yeni il hansı bir əhvali-ruhiyyə ilə qarşılansa idi, eyni əhvali-ruhiyyə ilin sonuna qədər davam edərdi. Odur ki, üzlər gülümsəyir, qəmi-dərdi unutmağa çalışırdılar, gözlər süfrəyə, bolluğa və gül-çiçəyə dikilirdi. Xan üçün incə oymalı səndəl üstündə ceyran dərisində yazılmış qədim bir quran qoyulmuşdu; xan və ətrafındakılar yeni ili ayəyə baxaraq qarşılamaq istəyirdilər. Bir-iki dəqiqə davam edən dərin sükutu top atəşləri pozdu: il dəyişilirdi. Hamı yerindən qalxdı, sıra ilə xana və əyanlara yaxınlaşıb təbrik etdi.

## 4

Günortadan sonra şəhərin bütün əhalisi Cıdır düzünə tərəf axışmağa başladı. Rəngbərəng geyinmiş qadınlar, çocuqlar; barmaqları xınalı, saqqalları səliqə ilə vurulmuş kişilər, birçəkləri və kəkilləri daranıb, düzənmiş gənclər bir-birinə qarışmışdı. Ağaların zoğalı, tacirlərin və əsnafın abı, yaşıl və qara çuxaları qəribə bir mənzərə təşkil edirdi. Bu bayram qiyafələrinə bir də cahılların xaşmaş şalvarlarının xışıltısı, sazların dınqıltısı əlavə edilərsə, mənzərə daha aydın olar. Hələ atlıların sayı-hesabı yox idi. Şöhrəti aləmə yayılmış Qarabağ atları, bayram gününün sınaq günü olduğunu bilirmiş kimi, başlarını yan tutaraq səyirdir, xınalı yallarını günəşdə cilalayırdılar. Qalanın bütün dilavərləri: türk el və uluslarının igid oğulları, qumuq və Avarıstan qoçaqları Cıdır düzünə qoşurdu. Şəhərə hakim bu geniş döş qarışqa yuvası kimi qaynaşırdı.

Sazlar, söhbətlər, nəşəli gülüşlər, – həzin bayatılar, yanıqlı şikəstələr bir-birinə qarışaraq, xoş bir tərənə vücuda gətirir; atların kişnəməsi isə bu tərənəyə mətin bir mərdlik qılığı verirdi.

Birdən geniş düzün üzərindən dalğalanaraq bir şaşıltı keçdi – minlərcə adam gözlərini təpədə qurulmuş çadırlara tikərək sükuta daldı. Dəbdəbəli bir qafilə çadırlara doğru yürüyürdü. Sıra ilə gedən atlıların önlərində və yan tərəflərində piyadə pişxidmətlər və nökərlər yürüyürdü. Ön atdakı İbrahim xan idi. Solunda Vaqif, sağında Məmmədhəsən ağa gedirdi. Arxadan isə Kələntər Ağası bəy, ağalar, bəylər, bəzi erməni məlikləri. Mirzələr atlarını yavaş-yavaş sürürdülər. Qafilənin arxa cihətini zınqırovlu qatırlar tutmuşdu. Bunlara su tuluqları, qılaflı səfər qəlyanları, asma manqal, cürbəcür sursat yüklənmişdi. Qafilə çadırdan bir az kənarda dayandı; hamı atlardan düşüb çadırlara yerləşdi. Saray xanımları əvvəldən gəlib yan çadırlarda oturmuşdular. Xalq meydanı çevrələyib gözləyirdi. Şeypur çalındı, cıdır başlandı.

Kiçikbəyim ağa anasının yanında oturub, böyük bir həyəcanla cıdıra tamaşa edirdi. Qoşa gələn atların biri irəli keçdimi, Kiçikbəyimin rəngi qaçır, yerində rahatlıq tapa bilmirdi. Bəzən arxada qalan atlıya acıqlanaraq, qeyri-şüuri bir halda əlini qaldırıb çadırın yaldızlı sütununa çırpırdı. Budur, incə belli bir qumuq yalın xəncərini ağzında tutaraq gəlir, çapa-çapa tüfəngi başından aşırır, atır və yenidən çiynindən asıb, xəncəri qınına qoyur. Kiçikbəyimin buğdayı üzü pörtür, nəşə ilə əllərini ovuşdurur... Otuz iki ulusundan bir gənc altındakı kəhəri yel kimi uçurur, sanki çadırlardan ilham alaraq, havaya bir pənəvat* atıb onu güllə ilə vurur...

Kiçikbəyim qanadları bağlanmış quş kimi çırpınır, dərin bir həsrətlə anasının üzünə baxıb:

– Anacan, – deyir: – mən də cıdıra çıxmaq istəyirəm...

– Aman, qızım! Adama nə deyərlər!

Kiçikbəyim yalvarıcı gözlərlə anasının üzünə baxmaqda davam edərək:

– Nə deyəcəklər, at üstə böyüməmişikmi?.. Alnımın çapığı hələ də durur... – deyə şux bir əda ilə sol gözünün üstündəki incə çapığı anasına göstərdi və dəlilin qəribəliyi özünə də xoş gəlib, gülməyə başladı.

Şahnisə xanım qızının üzünə qüsurdan çox yaraşıq verən bu çapığı bir ana fərəhi ilə süzdü, bir söz demədi, yalnız qaşları yuxarı qalxdı – bu narazılıq əlaməti idi, Kiçikbəyim bilirdi.

---

* Pənah xanın kəsdirdiyi pul

Bu əsnada çadırın arxasından bir at kişnəməsi eşidildi. Kiçikbəyim ağlamsınaraq:

– Görürsən, atım darıxıb, kişnəyir... Yazıq deyilmi? – deyib başı ilə anasının köksünə sığındı.

Şahnisə xanım gülümsündü və qızının başını oxşayaraq sordu:

– Ay qız, bir bax gör o gələn bizim Məmməd deyilmi?

Kiçikbəyim həmən çevrilib dikəldi.

Doğrudan da Məmməd bəy səmənd bir at belində toz qopararaq çapırdı; çuxasının arxada yellənən qolları cırcırama qanadlarını andırırdı. Cibindən pul çıxarıb, atın qulaqlarının üstündən irəli atdı, çapa-çapa atdan enib pulu yerdən qaldırdı və təkrar atı minib yoluna davam etdi.

Kiçikbəyimin əvvəl rəngi üzündən götürüldü, sonra qıpqırmızı oldu. Məmməd bəyin düzü başa çatdığını gördükdə dərindən bir nəfəs aldı. Özünü bir az toxdadıb:

– Lələ! Lələ! – deyə çağırdı.

Çadırın yanında durmuş qədimi Baba o saat hazır oldu:

– Bəyim, mənə görə nə qulluğun var, başına dönüm?

Bəyim cəsur bir səslə:

– Lələ, nə durmusan, atım orda kişnəyir? Bu saat min çıx cıdıra! – dedi.

Baba Şahnisə xanımın üzünə baxaraq gülümsədi. Şahnisə xanım gülərək:

– Çıx deyir, çıx! Yenə bu qızın dəliliyi tutub, – dedi.

Baba baş əyib getdi.

Bir az keçməmiş Baba at üstə gəlib çaparaq keçdi və keçərkən çaxmaq daşı ilə qovu odlayıb çubuğunu alışdırdı.

Çadırlardan gülüşlər qopdu. Kiçikbəyim nəşə ilə anasının qolundan yapışıb dedi:

– Görürsən, qoçaq lələ arzumu gözümdə qoymadı.

## 5

Vaqif Qazağın Saatlı elindən idi. On səkkizinci əsrin əvvəllərində Qıraq Salahlı kəndində anadan olmuşdu. Atası qazaxlılar kimi əkin və heyvandarlıqla məşğul idi, lakin uzun illərdən bəri davam edən Osmanlı-İran müharibələri bu elin asayişini pozur, bütün əli silah tutanları sürükləyib götürürdü. Əvvəl Qazax Şəmsəddinlə bərabər Gəncə xanlığına daxil idi, sonra Gəncədə hökmdarlıq edən Ziyad uşaqları Na-

dirin iş başına gəlməsinə meyl göstərmədikləri üçün, Nadir Qazağı Gəncədən ayırıb Gürcüstan valiliyinə ilhaq etdi. Nadir şahın bütün səfərlərində Gürcüstan valisi İraklı ilə bərabər qazaxlılar da iştirak etmiş və böyük igidlik göstərmişdilər. Lakin bu igidlik ağır qiymətə başa gəlirdi; xalq qırılır, ana yurdu viran qalırdı. Gürcüstana və Azərbaycana axın edən osmanlılar da bu torpaqları dəfələrlə tapdayıb keçmişdilər. Təbiidir ki, xalq bu həyatdan təngə gəlmiş, çıxacaq yolu arayırdı. Qarabağ xanlığının təşkili və Şişənin 1754-də təsisi qazaxlılara bir ümid verdi. Böyük yollardan kənar dağ başında salınmış bir qala sayəsində sülhlə keçinmək istəyirdilər. Qazaxlıların Qarabağa köçməsi bu səbəblərdən irəli gəlirdi. Vaqif də Saatlı elinə mənsub olan on yeddi ailə ilə bərabər Şişəyə köçüb şəhərin Saatlı məhəlləsində yerləşmişdi.

Vaqif Şişəyə gələndə 29-30 yaşlarında idi. Təhsilini öz kəndində bitirmiş, türk və farscanı mükəmməl bilir və zamanının elmlərinə vaqif idi. Gələr-gəlməz, Saatlı məhəlləsində bir məktəb açıb dərs verməklə həyatını keçirməyə başlamışdı. Dərs mənən Vaqifi təmin etmirdi; bu sənət ona azlıq edirdi. Onda qüvvətli bir inam vardı, həm də inad idi; onun iti gözləri mühitinin hər üzünü görür, əyər-əksiklərini seçirdi. O bu mühitə nüfuz etmək, onu öz rəyinə tabe etmək istəyirdi. Lakin o zaman hələ Vaqif yalnız bir molla olaraq tanınır, bu tanınmaq da öz məhəlləsi dairəsindən kənara çıxmayırdı. Yalnız arabir gözəlləri oxşayan şeirləri şəhəri dolaşır, maraqlılar bu sözləri öz bəyazlarına yazırdılar. Buna baxmayaraq o, heç kəsi tanımayır nə tanımaq belə istəməyirdi. Öz yoxsul daxmasında oturub, mətin bir iradə ilə irəliyə baxır, heç bir ənənə ilə hesablaşmaq istəmirdi. O, doğuluş etibarilə sünni idi, lakin etiqad etibarilə qəttal sünnilərdən deyildi. O, şiə mühitində yaşayırdı. Lakin şiəliyin ikiüzlülüyü onun riyasız təbiətinə uymazdı. O, yalnız vəhdətə inanır, vəhdətin belə məntiqsizliyini sezirdi.

Bir gün bir hadisə baş verdi. Bu hadisə Vaqifin gözə çarpmasına səbəb oldu. Bir çobanın istəkli bir köpəyi var imiş. Çoban itinə göz dəyməsin deyə, bir dua yazdırmaq fikrinə düşür. O, avam tərəkəmə olduğu üçün bu hərəkətin caiz olmadığından xəbərsiz idi. Çoban özü ilə bir-iki qoyun götürüb şəhərə gəlir. Dərdini rast gələn bir şəhərliyə anladır; şəhərli bu adamın xam olduğunu duyub, onu ələ salmağa başlayır. Şəhərdə avam çöllünü ələ salmaq qayda olduğu üçün bu şəhərli çobanı meydandakı qəssabın yanına göndərir. Qəssab məsələni anlayır, çobanı Şeytanbazara, bir qənnadının yanına yollayır. Yazıq çoban bazarı dörd dolandıqdan sonra lotunun birisi ona Vaqifi nişan

verir. Vaqif istehzanı anlayırsa da, özünü sındırmır; o saat götürüb bu misraları yazır:

Gözüm düşdü ətinə,
Dua yazdım itinə,
Bu sirri kim açsa,
Bu çobanın...

Abı və cod bir kağızda yazılmış bu "duanı" Vaqif qatlayıb çobana verir, deyir:

– Əskiyə tik, bir göz muncuğu ilə bərabər as itin boynundan. Çoban gedir. Günlərin bir günü İbrahim xan ova çıxmış imiş. Ovda yorulub bir obada düşərgə salır. Bir ağacın kölgəsində yemək yeyərkən ətrafa toplaşan itlərdən birinin boynundakı duanın fərqinə varır. Kəndlinin belə xilafşər* iş tutduğuna heyrət edərək, duanı itin boynundan açdırıb oxuyur. Xan bir tərəfdən qəzəbə gəlir, o biri tərəfdən də için-için gülür.

Şəhərə gələr-gəlməz eşik ağası Şahməmmədi hüzuruna çağırıb, dua yazanı tapmasını əmr edir. Şahməmməd çobanı Qalaya gətirdir, çoban da Vaqifi ələ verir. Xan divan otağına gəlir, qırmızı geymiş cəlladlar düzülür, Vaqifi gətirirlər.

İbrahim xanın qızı Sənəm xanım şeir maraqlısı olduğundan Vaqifin hər bir şerini bayazına köçürürmüş. İndiyə qədər görmədiyi bu şairin gətirildiyini eşidər-eşitməz gəlib divanxana pəncərəsinin arxasından ona tamaşa edir. Arıq, lakin sağlam çöhrəli, qara xətli, parlaq və cəsur gözlü bir oğlanın divan qabağında qürurla durduğunu görür. Qara çuxalı, butalı çitdən arxalıq geymiş bu gənc sağ əlini qurşağına salıb mətin bir səslə xanın suallarına cavab verirdi. İndiyə qədər yalnız şeirlərinə məftun olan Sənəm xanım bu dəfə şairin özünə: zəkasına, hazırcavablığına, xoş simasına və məzəli danışığına da məftun olur.

Vaqif xanın qəzəbli sözlərini dinlədikdən sonra xoş bir səslə başladı:

Yüz iyirmi dörd min peyğəmbər keçdi,
Dünyadan kim getdi dərdi-vərəmsiz,
Hanı Nuşirəvan, təxti Süleyman?
Dövran belə keçdi, Cəmşidi, sənsiz.

---

* Xilaf – ziddiyyət

Çox güvənmə qızılım var, pulum var,
Puç dünyada ulusum var, elim var.
Heç demirsən, ayrılıq var, ölüm var.
Neçə min söhbətlər qılıblar sənsiz,

Mətlubum istərəm şahi-heydərdən,
Sahibi-Zülfüqar, şahi-Qənbərdən,
Biçarə Vaqifi salma nəzərdən,
Qul xətasız olmaz, ağa kərəmsiz!

Diqqətlə şeri dinləyən Sənəm xanım həyəcanla gah şairə, gah da atasının üzünə baxırdı: xanın qəzəbli yavaş-yavaş açılışır, nəhayət, həlimləşməyə başladı. Sənəm xanımın da iztirabları kəskinliyini itirib onu ağır bir qayğıdan qurtardı. Dərin bir sükutdan sonra, xan əli ilə işarə etdi, Vaqifi buraxdılar. Vaqif azad oldu, lakin... Sənəm xanımın qəlbini əsir edib apardı. Artıq bu qəlb gecə-gündüz Vaqifin ətrafında çırpınırdı. Xan qızı bütün günü sarayın küləfirəngisinə çəkilir, pəncərədə oturub, saraydan məscidə gedən düz küçəni, rastabazarı, qərb tərəfdə itib-batmış Saatlı məhəlləsini seyr edir, Vaqifin hər bir misrasından doğan atəşi göz yaşları ilə söndürməyə çalışırdı...

Bir gün Vaqif çubuqdan hörülüb, üzərinə suvaq çəkilmiş daxmasının güllü-çiçəkli baxçasında dolaşarkən, tikan çəpərin arxasından keçən başı xonçalı bir uşaq ondan soruşdu:

– Əmican, molla Pənah Vaqifin evi hansıdır?

Vaqif heyrətlə çəpərə yanaşdı:

– Buradır, necə? – dedi.

Uşaq gülümsədi, bir söz deməyərək, qapını açıb həyətə girdi. Uşaq xonçanı verib, məsələni yavaşca anlatdı. Vaqifin qoca anası sevinə-sevinə xonçanı otağa apardı, oğlunu da oraya çağırıb dedi:

– Ay oğul, xan qızı Sənəm xanım sənə sovqat göndərib.

Vaqif gümüş nimçənin ipək örtüyünü qaldırdı: qızıl nəlbəkidə bir cüt qırmızı şaftalı göndərilmişdi.

Şairin sevinci evlə bir oldu. Anası da həm sevinir, həm nisgillənirdi:

– Ay oğul, – deyirdi, – xan qızından xəcalət olacayıq: xonça boş qaytarılmaz, nə göndərək ki, ona layiq olsun... – qadını fikir götürdü: – çoxdan bir cüt corab toxumuşam, yoxsa onu qoyaq?

Vaqif də düşüncəyə dalmışdı. O da çıxılmaz bir vəziyyətdə idi.

Qarı yenə təkliflərində davam edirdi:

– Bir daraq qabı tikmişəm, şaldandır... Sandıqda bir ətrim də var, rəhmətlik atan Şirazdan gətirmişdi... Bir dabandaşımız da var, üstü də gümüşdür... öz cehizimdir, rəhmətlik baban Təbrizdən göndərmişdi... Gümanım gələn bunlardır...

Vaqif bir söz deməyərək, otaqdan çıxdı. Armud ağacının altında bir palaz və üstündən də bir döşəkçə salınmışdı. Vaqif boş vaxtlarını burada oturub şeir yazardı. Qələmdanı və kağızı da həmişə döşəkçənin altında olardı. Cəld gəlib oturdu, hazırlandı və bir dizini qaldırıb kağızı üstünə qoydu. Qamış qələm davatın lığasına dəyib, mavi kağızın üzərinə çəpəki misralar tökürdü. Şeir hazır idi. Büküb şaftalı nəlbəkisinə qoydu və uşağı yola saldı.

Sənəm xanım uşağın gəlməsini səbirsizliklə gözləyirdi, nəhayət uşaq qayıtdı və Vaqifin məktub yazıb, nəlbəkiyə qoyduğunu xan qızına söylədi. Sənəm xanım cəld xonçanı açdı, nəlbəkini çıxardı, örtüyü çırpdı – şairin məktubu yox idi. Xanım hirsləndi, nökəri söyüb geri göndərdi: "Get tap" – dedi. Hər yer arandı, yola, saray həyətinə baxıldı-məktub tapılmadı. Bu əsnada pişxidmətlərdən biri məktubu pilləkəndən tapıb xana vermiş, xan da qəzəblə oxuyurdu:

Çox-çox əcəb qılıb Xosrovu şahım,
Bir cüt bizə ləbi – şirin göndərmiş,
Gözəllər bağında meyvə bəslənib,
Onun bizə xoş nübarın göndərmiş.

Məndən salam olsun, yetir Yəmənə,
Sinəsi büllurə sədr cəhanə,
Sanasan xoş gəldi nə qədər mənə;
Yer üzünün simu-zərin göndərmiş.

Yarəb ola o canana kim demiş:
Filanı xəstədir, meyvə diləmiş.
O ki, bizə yemiş ənam eyləmiş,
Vaqif ona peşkəş sərin* göndərmiş.

Xan "Vaqif" sözünə rast gələr-gəlməz hirsindən titrəməyə başladı, əlini atıb, bığlarını ağzına saldı, çeynədi. Bu yaxşı əlamət deyildi. Belə hallarda mütləq qan tökülməli idi. Xanın böyük arvadı Bikə ağa

* Sər – baş

bunu görüb him elədi, xanın başqa arvadları və uşaqlar otağı tərk etdi. Bikə ağa ərinin qəzəblə cırıb yerə tökdüyü kağız parçalarını ehmalca götürdü, düzüşdürüb oxudu. Zahirən acıqlı bir çöhrə takındısa da, həqiqətdə çox sevindi. Çünki Sənəm yetişmişdi, istəyəni də yox idi. Evdə qalması da yetişməkdə olan başqa qızlara mane olurdu. Yaxşı təklif olsaydı ilk əvvəl ərə verilmək haqqı onun idi, çünki o zamanlar: "Filankəs filan xanla qohum olmaq istəyir", – deyə elçi göndərilər və qız deyil, xan nəzərdə tutulardı. Xan da saraya mənsub qızların ən böyüyünü təklif edərdi. Bikə xanım bir yetişmiş qız anası olaraq bu adət və qaydanı nəzərdə tutaraq xanın qəzəbini soyutmağa və qəlbinə yol axtarmağa çalışdı. Sovqat göndərib, məktub almağın qəbihliyini qeyd edib cavanların "beyni qan" olduğunu da ehmalca söylədi və sonra yavaş səslə:

– Atalar demişkən: Qızı özbaşına qoysan, zurnaçıya da ərə gedər, – dedi və tərəddüddən sonra: – Ancaq bu Vaqif deyilən görünür, ağlı başında cavandır. Özü də savadlıdır. Xətti də yaxşıdır... Bişkindir...

Xan bir az sakitləşdi:

– Xətti başına dəysin! Xətti var deyibən adam başından böyük qələt elər?

Xanım bu dəfə daha cürətləndi:

– Xan, niyə heylə deyirsən? Elmi olandan sonra sənə də lazım olar. Yaxşı mirzə azmı lazımdır... Bir də ki, qız ağacı – qoz ağacı, hər yetən bir daş atar . Yazıb-yazıb, uzaqdan ha yazsın, yel qayadan nə aparar? Cavanlardan ağıl umularmı? Onların bu saat odlu çağlarıdır...

Xan dərin bir düşüncəyə dalmışdı. Yeddi-səkkiz arvadının içində ən çox hörmət etdiyi Bikə xanımın sözləri deyəsən onun ağlına batırdı. Bikə xanım gözlərini onun üzündən çəkməyərək, yavaş-yavaş mülahizələrini ərinin fikrinə yeridirdi:

– Yəni bu tanıdığımız xanların hamısının dədə-babası xan olmuşdu? Nadir şah çobanın biri deyildimi? Çingiz övladı var ki, əsir olur, zaval gedir, nökər var ki, igidlik göstərib, ağasının taxtında oturur... Başda ağıl olsun, ortalığa çıxmağa ləyaqət olsun, yerdə qalanı düzələr...

Xan arvadının sözlərini kəsib, aciz bir səslə soruşdu:

– Yəni deyirsən Sənəmi Vaqifə verək?

Bikə xanım əsl fikrini gizləyərək:

– Məsləhət özüyündür, – dedi: – ancaq ona bir mirzəlik versən, bir kağız yazdırsan, yəni kimdən geri qalar ki?..

Xan arvadının sözlərinin haqlı olduğunu anladı, lakin qəti bir cavab verməyib, yenə fikrə getdi. Vaqifin divanxanadakı cavablarını xatırladı, onun xoşrəftar, mülayim, yerində güzəştə getməsini yad edib, Vaqifə qarşı kin deyil, bir maraq bəsləməyə başladı. Nəhayət, hələ məsələni gizli saxlayaraq, Vaqifi çağırdıb, onu özünə mirzə təyin etdi. Az bir zamanda Vaqif dövlət işlərində böyük məharət göstərib, bütün sarayda hörmət qazandı və xanın ən yaxın bir dostu oldu. Bu əsnada Sənəm xanım qızlar otağında deyib-gülərkən birdən-birə ürək ağrısına tutularaq, bir neçə dəqiqənin içində uzanıb vəfat etdi. Vaqifin coşqun eşqilə qovuşa bilmədisə də, eşqilə ona yeni bir həyat qapısı açdı. Vaqifin daim üsyan edib çırpınan qəlbi yaralı qaldı.

6

Qayda üzrə cıdırdan sonra bayram bitər və saraydan dövlət adamlarına, sərkərdələrə və başqa mötəbər zatlara xələt-barat gedərdi. İbrahim xandan başqa vəlihədi Məmmədhəsən ağa da bəzi adamlara peşkəşlər göndərərdi, o cümlədən Vaqtf də təltif olunardı.

Bayramın ikinci günü adət üzrə vəliəhdi ziyarət edərdilər. Vaqif yenə mirzə Əliməmmədlə atlanıb yola düşdü. Dar bir küçə ilə meydana endilər, bazar bağlı idi, lakin rəngbərəng geyinmiş xalq qaynaşırdı. Orda-burda Şirniçilər şirni satır, səlləbiçilər yenicə qalaylanmış iri çaydanlarını sallayaraq: “Səlləbi – sinə məlhəmi!” – deyə bağırır, qırmızı fitənin üstündən bellərinə bağlanmış yarı dairəvi qutudakı fincanları cınqıldadırdılar. Bir tərəfdə dərvişlər mərəkə qurub, qəsidə oxuyur, bir az o yanda ovsunçu torbadan cürbəcür ilanlar çıxarıb boynuna, biləklərinə, belinə dolayırdı; yaşıl qədəkdən uzun arxalıq geymiş, başına on iki imam eşqinə on iki qırmızı sarıqlı sərpuş qoymuş bir sehrkar ocaqda qızmış ərsini dilinin üstünə basırdı.

Vaqif gülümsünərək izdihamı yarıb, yavaş-yavaş atı sürürdü. Hamı ona salam verir, bayramını təbrik edirdi. Vaqif də xınalı barmaqlarını dodağına, sonra alnına apararaq, salamlara cavab verirdi.

Meydandan çıxıb rastabazar aşağı enməyə başladılar. Çuxur məhəllənin girəcəyində erməni kilsəsinin qarşısında Ohan keşişə rast gəldilər. Vaqif və mirzə Əliməmməd atlarını saxlayıb Ohan ilə görüşdülər.

Vaqif zarafatyana yumşaq və dadlı bir səslə:

– Mirzə Ohan, qocalmısan deyə, yenə İsanın ətəyindən əl çəkmirsən, – dedi.

Ohan çal saqqalını tərpədərək:

– İsanın ətəyində kəramət olsaydı, əvvəl özünü dardan qurtarardı, – dedi.

Gülüşdülər. Vaqifin gözləri daşdan tikilmiş xırda kilsəyə sataşdı: qiyafə etibarilə türklərdən heç də seçilməyən ermənilər başmaqlarını qapının ağzında çıxarıb, kilsəyə girirdilər. Kilsə damının sağ tərəfində durmuş uzun ləbbədali jamhar* öz dilində oxuyub, erməni xalqını ibadətə çağırırdı. Ağ çadralı, qırmızı şalvarlı erməni arvadları ayrı bir qapıdan kilsənin qadınlara məxsus eyvanına girirdilər. Qapıya gedən yolun o tayı, bu tayı dilənçilər və kor-şil ilə dolu idi.

Vaqif:

– Yəqin Məmmədhəsən ağanın qulluğuna təşrif gətirəcəksən?!- deyə atı tərpətdi.

– İnşallah! İnşallah! – deyə Ohan itaətkar bir gülümsəmə ilə atlıları yola saldı.

Məmmədhəsən ağanın imarəti qaya başında, Topxana və Bağrıqana baxan gözəl bir yerdə idi. Qala barısı və bürclər buradan keçib qibləyə doğru – Şahnişinə və Xəznə qayasına tərəf uzanırdı. Çoxotaqlı, geniş artırmalı, rəngin pəncərəli, ikimərtəbə imarət daşdan tikilmişdi. Darvazanın tağında bişmiş, iri kərpiclərdən naxışlar qayrılmışdı. İmarətin sol tərəfində tövlələr, anbarlar, mərəklər tikilmişdi. Darvazadan artırma pilləkəninə gedən daş döşəməli yolun üstü tənək çardağı ilə örtülmüşdü. Qonaqları nökərlər qarşılayıb içəri dəvət etdilər. Musiqi səsi eşidilirdi. Kallayıda Məmmədhəsən ağadan, bir dəstə də musiqiçidən və xanəndədən başqa kimsə yox idi. Məmmədhəsən ağa qonaqlarla görüşüb, Vaqifə sol tərəfində, Mirzə Əliməmməd ağaya da sağ tərəfində yer göstərdi, oturdular. Məmmədhəsən ağanın solğun çöhrəsində bir süstlük vardı, gözlərinin üstü də bir az şişkin idi. Sill** xəstəliyi olduğu üçün saray həkimi ona çubi-çini*** verir və bu davanı içəcəyi qırx günün müddətində ruhunu yüksəltmək üçün yanında musiqi çaldırırdı.

---

* Kirik rütbəli ruhani

** Vərəm

*** Xına ilə düzəlmiş xüsusi dərman

Qonaqlar içəri girəndə Məmmədhəsən ağa işarə ilə musiqini dayandırdı. Vaqif məsələni anlayıb dedi:

– Ağa, süfrəniz açıq, iltifat və səxavətiniz aləmə bəllidir, dostdan heç bir şey əsirgəməzsiniz, amma zövqü... görünür, tək almaq istəyirsiniz...

Məmmədhəsən ağa gülümsədi:

– Dedim, baş ağrısı olmasın.

Vaqif:

– Əflatun musiqini ruha qida demişdir*...

Musiqi dəstəsi çalğıya başladı. Vaqifin duyğuları dalğalanıb, məhzun və eyni zamanda nəşədən aşıb-daşan çöhrəsində ifadə olunmağa başladı. İncə qaşları qalxır. Gözləri süzülərək doyulmaz həyat həsrətləri saçırdı. Bu dəqiqələr o, nədənsə, şərq nağıllarındakı füsunkar şamı xatırladı. Könüldə dolaşan arzuları əmələ gətirmək üçün şamı yandırırsan, istədiyin o saat hasil olur. İndi o şam burada olaydı, sönük işığında cilvələnən sonaları, dadlı-ədalı dilbərləri seyr edəydi... Bakir xəndələr simlərin nalələrinə qarışaraq, yaralı qəlbdə əks-sədalar doğurur, ağ gərdənlərə sancılmış bənövşələr rayihəsilə damağı oxşayırdı. Musiqi və qadın meysiz, badəsiz də insan məst edir...

Qonaqlar gəlməyə başlamışdı. Ağalar və bəylərdən başqa Şahməmməd və Xanməmməd də burada idi. Əliməmməd, Şahməmməd və Xanməmmədin doğma qardaşlar olmasına baxmayaraq, aralarında gərginlik vardı. Xanməmmədin sevilməməsi aydın idi – bu adam dəfələrlə Əliməmmədin vasitəsilə işə qoyulmuş, bacarmamışdı. Qorxaqlığı və səhlənkarlığı ilə xanın qəzəbini qazanmışdı. Şahməmməd isə, biləks, cəsur, əmrə tabe, xanın bütün qəzəblərini söndürəcək hərəkətlərə hazır olan bir adam idi. Lakin onda ifadəsi qəbul olmayan bir şey var idi ki, bu da onu sevdirmirdi: zahiri çox çirkin idi, iri çopur burnu, yoluq qaşları, xırda, sönük gözləri vardı. Səsində bir bayquş vaqqıltısı duyulurdu: danışdımı, adamı qorxu hissi qaplayırdı. Bu qorxu hər kəsə aid idi. Ölkənin aşağıdan yuxarıya heç bir təbəqə və sinfi xanın qəzəbindən yaxa qurtara bilməzdi. Bu qəzəb də Şahməmmədin vasitəsilə icra olunardı.

---

* Əlyazmasının bu yerində Vaqifin adının qabağında ərəb əlifbası ilə "şer" sözü yazılmışdır. Görünür, Vaqif Məmmədhəsən ağaya şerlə cavab verməli və yaxud cavab verdikdən sonra bir şer də deməli imiş. Lakin müəllif nəzərdə tutduğu həmin şeri mətnə salmamışdır.

Bir az sonra Ohan keşiş də gəlib çıxdı. Əvvəl yuxarı başla salamlaşıb, sonra üzünü məclisə çevirdi; aşağıdan hamı ilə bir-bir salamlaşarkən gözləri Şahməmmədə rast gəldi, rəngi qaçdı. Onunla üç dəfə salamlaşıb, yerində tikan üstə oturan kimi oturdu.

7

Günorta azanında qonaqlar dağıldı. Məmmədhəsən ağa Vaqifi, Mirzə Əliməmmədi və Ohan keşişi nahara saxladı. Yemək otağına keçdilər. Otağın ortasında xalının üstünə qələmkar süfrə və ətrafına ipək döşəkçələr salınmışdı. Qonaqlar oturar-oturmaz, pişxidmət aftafa-ləyən ilə hazır oldu. Əllər yuyuldu və pişxidmətin qolunun üstündəki dəsmalla silindi. O biri pişxidmətlər məcməyiləri gətirib, süfrəyə düzdülər. Hər adama bir məcməyi verildi və hər məcməyidə də bir boşqab boyanalı plov, üstündə quzu soyutması, yanında da sarımsaqlı qatıq və bağır-beyin vardı. Şirli, tünd göy rəngli bardaqlarda içinə reyhan toxumu salınmış şərbətlər qoyuldu. Başda oturan Məmmədhəsən ağa məcməyinin kənarına sərilmiş ağ, incə lavaşdan bir az kəsib qonaqlara baxdı və: "Bismillah!" – deyib yeməyə başladılar. Bir müddət sükut keçdi. Görünür, qonaqlar yeməkdən çox məmnun qalmışdılar, yalnız boşqablar yarıya yetdikdə Vaqif barmaqlarındakı düyüləri bir yerə toplayaraq:

– Doğrudan da, – dedi, – hər fəslin öz yeməyi; ilin bu vaxtında boyanalı plov çox turfəndə və ləziz bir təamdır. Bizlərdə boyana hələ indi dit verir.

Məmmədhəsən ağa:

– Boyananı Ağdamdan göndərmişlərdi, amma heyf ki, yarısı yanmışdı, – dedi.

Ohan keşiş:

– Hələ körpədir, onun üçün yanmışdır, – deyə əlavə etdi.

Yenə yeməyə girişdilər, arabir başlanıb kəsilən qırıq danışıqlar istisna edilirsə, nahar axıra qədər sükutla keçdi. Nəhayət, qapının ağzında əllərini döşlərinə qoyub, intizarda duran nökərlərə işarə olundu. Süfrə yığışdırıldı. Yenə aftafa-ləyən gəldi, isti su və sabunla əllər, ağızlar yuyulub silindi.

Qəlyan gətirdilər. Hamıya qəhvə, yalnız Məmmədhəsən ağaya darçın çayı gəldi: soyuqluq verən düyünün vücuda gətirdiyi nəfqi darçın yox edirdi.

Qəlyan çəkmə uzun sürdü və söhbət get-gedə qızışdı. Haradansa bir neçə il əvvəl Londondan gəlib Qarabağa çıxmış Yusif Əmin adlı bir erməni yada düşdü.

Vaqif təəssüflə:

– Heyf ki, onu görə bilmədim, deyirlər dilavər adam imiş, – dedi.

Mirzə Əliməmməd mütəvaze bir ifadə ilə sözə qarışdı:

– Dilavər idi, ancaq bəndənizin fikrincə bir illəti vardı. Hər sözü tüğyan idi. Xan onun barəsində çox mərdlik göstərdi. Günahlarını cahıllığına bağışladı.

Ohan keşiş Mirzə Əliməmmədin sözlərini təsvib edərək:

– Xan çox böyük bir nəcabət göstərdi, – dedi. – Yusif Əmin, bilirsiniz, həmədanlı idi, gedib Londonda oxumuşdu, sonra Fitilburgə* gəlir, mərdimazar əlinə keçir, öyrədib, yolundan edirlər. Deyirlər: get, erməniləri yığ, danış, de ki, müsəlmanları qırsınlar, qorxmasınlar. Biz köməyə gələcəyik. O da gəldi. Dağıstanda, Tiflisdə və buralarda bir az dolandı, erməni tacirlərindən pul yığmaq istədi. Üç kilsəyə getdi, bizim başsız patriarxdan xeyir-dua aldı... axırda gördü bir şey çıxmayacaq, itilib getdi Hindistana...

Mirzə Əliməmməd yenə mülayim səslə başladı:

– Yusif Əminin buraya şeytanət toxumu salmağa gəldiyini bilirdik. İrakli xanın da yanına getmişdi, üz göstərməmişdi. Xan bu məsələni mənə həvalə etmişdi. Özü ilə görüşdüm. Dedim, cəmi Azərbaycan xanlıqlarında ermənilərin sayı on min ev ola-olmaya. Bu bir ovuc xalqdan padşahlıq çıxmaz. Özləri də alverçi və əkinçi tayfadır. Tərəkəmə kimi at belində qılınc oynada bilməz... Yenə öz dediyini dedi. Deyirdi, mənim dalımda ingilis padşahı durub, toplarının zərbindən yer zəlzələ edir... Xülasə, yerindən oynatmışdılar...

Ohan əsəbi bir halda:

– Bu başsızlar bunu başa düşmürlər ki, ingilis və ya rus padşahının xətrinə Nuh zamanından bir yerdə yaşadığımız gor qonşumuzla pislik edə bilmərik. O padşahların kefinə yetişib, bura gəlincə bizi burda qırıblar: qurunun oduna yaş da yanır...

Ohan keşişin hirsindən dodaqları titrəyirdi. O susdu, lakin erməni rəhbərlərinin cinayətkar hərəkətlərini xatırladıqca odlanırdı. Ohan burunotusunu çəkib, bir az sakit olduqdan sonra erməni xalqına rəhbərlik etməyə qalxışanların tarixçəsini anlatdı. Bu tarixçə çox qanlı və ol-

---

* Peterburq

duqca məntiqsiz bir şey idi. Hələ XVII əsrin sonlarında "Oriy" adlı birisi macəra və zənginlik arxasınca qoşaraq özünü Avropaya salmış, uzun illər İtaliyanı, Fransanı, Almaniyanı dolaşıb, cilddən-cildə girmişdi. XIV Luiyə xidmət edən kimi, Pfals qurfürstünə də yaxınlaşa bilmişdi; çeviklik və yaltaqlığı ilə bir müddətdə Vyana sarayına yaramışdı, rəcallara erməni üsyanı vədə verib, Karlovits sülh müahidəsini Vyananının faydasına olaraq çevirmək üçün rəsmi bir vəzifə ilə İstanbula belə getmişdi. Eyni zamanda Oriy Avropa ordularına sursat satıb, zəngin olmaq məqsədini də unutmamışdı. Macəra düşgünü Oriyə bu fəaliyyət az görünür. Bu dəfə o özünü Moskvaya birinci Petronun yanına verir. Böyük bir plan təqdim edir, qurfürstüna Şərqə gedib erməniləri qurtaracaq qoşununa yol istəyir. Buna razılıq göstərilməyir. Yenə erməni üsyanı vəd edilir; casusluq, bələdçilik kimi işlərə hazır olduğunu bildirir. Bu səfər ona Vartapet Minas adlı bir erməni ruhanisi də yoldaş çıxmışdı. Petronun İran səfəri, Astrabad sahilində bir şəhər salmaq və Hindistana əl uzatmaq fikri vardı. Bu fikir onu çoxdan məşğul edir, lakin Osmanlı və İsveç dövlətləri ilə davam edən müharibə buna mane olurdu. Hər halda Oriy kimi Şərq dillərinə vaqif olan bir adamdan istifadə etmək Petronun cahangirliyinə əlverişli idi. Oriy bu vəziyyətdən lazımınca faydalandı: əvvəla, özünə miralaylıq rütbəsi verilməsini rica etdi; sonra İrana bir rəsmi heyət göndərilməsinə müvəffəq oldu. Petro şah Hüseynə bir məktub göndərib, İranda yaşayan ermənilərin vəziyyətinin yaxşılaşdırılmasını rica etdi. Bu, bəhanə idi. Əsl məsələ İranı öyrənmək, onun maddi və mənəvi qüvvələrini bilmək, əsgərinin, qalalarının, yollarının vəziyyətinə bələd olmaq idi. Deməli, erməni xalqı bir sıra macəraçıların vasitəsilə atəşə soxulur, ortalıqda böyük imperialistlər məqsədlərinə çatırdılar.

Oriy heyəti Əjdərxan vasitəsilə İrana getdi, dönərkən Üçkilsəyə baş vurdu, erməni ruhanilərinə və məliklərinə dünyalarca vədə verib döndü. Petronu maraqlandıran məlumatlar alınmışdır, artıq İran səfərinə çıxmaq olardı. Petro bu səfəri yapdı və aldadılmış ermənilər də qonşuları ilə düşmənçilik edib, tamamilə çara bel bağladıqları yerdə, Petro İranı və Qafqazı tərk edib çəkildi. Təbiidir ki, ermənilərin halı xarablaşdı, onlara qarşı böyük bir düşmənçilik vücuda gəldi...

Uzaqdakıların xatirəsi üçün qonşularla düşmənçilik etmək təcrübəsi erməni xalqına baha oturmuşdu. Bunu Ohan gözəlcə bilir və heç vaxt xatirindən çıxarmayırdı. Hər dəfə erməni məsələsi danışılanda onun hirsindən dodaqları əsirdi.

Ohan təkrar burun otusunu çəkib, bir az sakit oldu:

– Pənah xan ruslarla əlaqəyə girişən ermənilәri qırdırdı, kəllələrindən minarə tikdirdi, yenə bu məlunlar ayılmadı!

Mirzə Əliməmməd:

– Bizim xan müdara ilə dolanmaq istəyir. Yusif Əminin bizə yağı olduğunu bilirdik. Amma o, Qalaya gəldi, xan ilə görüşdü. Dedilər: xan onu öldürəcək. Amma... öldürmədi: Qonağa zaval yoxdur, – dedi. Özünə də bir at bağışladı...

– Onları duz-çörək tutsun! – deyə Ohanın yenə dodaqları titrəməyə başladı.

8

Xanlıq zamanı Şişədə su qıtlığı hiss olunurdu. Şəhərdə bir neçə şirin sulu quyu vardı ki, buna da keşikçi qoyulmuşdu, növbə ilə xalqa su paylanardı. Bu yalnız bişmişə və içməyə sərf olunardı, paltar yumaq üçün ətrafdakı Xəlfəli və Daşaltı çaylarına gedərdilər. Şirin quyulardan başqa ikinci su mənbəyi Çuxur məhəllədəki Mehralıbəy bulağı idi, ancaq bu bulağın suyu şor idi.

Günlərin bir günü Şişə ailələrindən biri Xəlfəli çayının qırağına düşüb, paltar yumaq tədarükündə idi. Bu ailəyə mənsub on altı-on yeddi yaşlarında bir qız çay aşağı enərək meşənin ətəklərində çırpı yığırdı. Bir də qız çay qırağı ilə gələn qarayanız, yaraşıqlı bir atlıya rast gəldi. Atlı ona yaxınlaşıb atını saxladı və əlinin arxası ilə nazik bığlarına toxunaraq:

– Haralısan ay gözəl? – deyə soruşdu.

Qız qıpqırmızı kəsilib yerində donub qaldı. Gözlərini yuxarı qaldırmağa cürət etməyib, oğlanın üzəngiyə söykənmiş tozlu başmağına və qıvraq sarınmış qara dolağına tamaşa edirdi.

– Kimlərdənsən?

Qız zorla eşidilən bir səslə:

– Şərbaf Kazımın qızıyam, – dedi.

Oğlan qıza müştəri gözüylə baxdı: çarqatın* altından süzülən qara telləri gül yaprağı kimi qızaran yanağına dağılmışdı; çırpı tutan əlləri yuvarlaq köksünə sığınaraq, qərib quş kimi hürkmüşdü... Qara dolaqlı oğlan atını sürüb ailəyə yanaşdı, salam verdi, salam aldı:

---

* Böyük baş yaylığı

– Allah qonağı istəmirsiniz?

Otun üstündə bardaş qurub oturmuş Kazım kişi yerindən qalxaraq:

– Allaha da qurban olum, qonağına da! – dedi və atın başından yapışdı.

Oğlan atdan düşdü, yüyənin gəmini atın ağzından çıxarıb, tapqırını boşaltdı, otlamağa buraxdı. Sonra gəlib süfrənin qırağında oturdu. Yaşmaqlı arvad qalxıb yemək gətirdi. Oğlan yeyib yavaş-yavaş danışırdı. Sözarası:

– Qalada nə var, nə yox? – deyə soruşdu.

– Sağlığın, təzə bir şey yoxdur. Hər yerdə qaçaq Səfərin sözü danışılır.

– Nə danışırlar?

– İgidliyindən, qoçaqlığından, insaflılığından. Şəhərdə bir yetimin malını əmisi vermirmiş, bunu eşidir, adam yollayıb hədələyir. O günü yetimin malı özünə çatdı.

Oğlan yeyə-yeyə qulaq asır, qəlbində xoşhallanır, sevinirdi. Kazım darayı boyağından sonra əlində qalmış qırmızı rəngə baxa-baxa sözündə davam edirdi:

– Deyirlər, bir kənddə əmr-məruf* bir qocanı orucunu yediyinə görə döydürür. Qoca and içir ki, azarlıyam, mənə oruc düşməz, əmr-məruf qulaq vermir. Qocanın çubuq altdaca canı çıxır. Xəbər Səfərə yetişir, gəlir. Kənddə divan qurur. Əmr-mərufu elə qocanınca qəbrinin üstündə asdırır...

Oğlan altdan-altdan Kazıma baxır: Kazımın gözləri parlayır, üzündə bir fəxr duyğusu ifadə olunur.

Oğlan yeməyini bitirib, deyir:

– Ay dayı, Allah çörəyini bol eləsin, süfrən həmişə açıq olsun!

– Bağışla, yaxşı qulluq eləyə bilmədik, – dərvişin tapdığından.

– Çox razıyam, sağ olun, Allah bu uşaqları sənə başatan versin!.. Ay dayı, bilirsən... mən Səfərin adamıyam. O səni tanıyır... Özü də sənnən qohum olmaq istəyir.

Kazım yerində qurcandı, diqqətlə oğlana baxdı, utancaq bir təbəssüm üzünə yayıldı.

– Açıq danışaq, ay dayı, qızını Səfərə verərsənmi? Mən sənin yanına elçiliyə gəlmişəm.

---

* Şəriətin tətbiqinə baxan məmur.

Kazım yenə yerində qurcandı, arvadının üzünə baxdı, arvad bir az da yaşmandı.

– Nə deyirəm, mən ondan yaxşısını ki, tapmayacağam, ancaq... axı o, qaçaqdır... Ev-eşiyi... – Kazımın dili dolaşdı. Oğlan onun fikrini anladı:

– Bilirəm nə demək istəyirsən; oğlanın evi-eşiyi olmalıdır... Qorxma, qorxma, bunların hamısı düzələr...

Bununla söhbət bitdi. Oğlan atın belinə atılıb, meşədə yox oldu.

Bir axşam yağmurlu bir havada qapı döyüldü. Kazım çıxdı. İldırım çaxır, göy nərə vururdu.

– Kimsən?

– Allah qonağı.

Kazım qapını açdı, qonağı evə gətirdi. Qara neft çırağının işığında oğlanı tanıdı. Görüşdülər. Onu elçi sifətilə qəbul edib. Çox hörmət etdilər.

Kazım cəsarətsiz bir səslə:

– Yaxşı, ay igid, – dedi, – Mənim sözüm yoxdur, amma qızın anası bir az nəm-nüm eləyir... yəni onun da ərki var: əmək qoyub qız böyüdüb...

– Vermək istəmir?

– Yox, bir şey demir... Ancaq... deyir ki, Səfər qaçaqlığın varağasını büksün... kasıblığa qurşansın...

Oğlan Kazımın sözlərini dinləyib, düşündü. Evlənmək məhək daşı imiş: insanın nə olduğu evlənmək istəyəndə bilinərmiş. Evlənən kəsbkar, başı aşağı olmalı imiş. Ən böyük igidlik külfəti dosta-düşmənə möhtac qoymamaq imiş. Kişiyə söysələr də, gərək qulaq ardına vursun... Oğlana Kazımın sözləri, mülahizə və fikirləri tamamilə yabançı gəlirdi. Bu yeni zehniyyət şəhər zehniyyəti idi. Oturaq həyatdan, istirahət arzusundan irəli gəlirdi... Oğlan çox götür-qoy elədi. Düşündü, daşındı, incindi, gördü geri dönməyə çarə yoxdur.

– Ay dayı, – dedi. – Səfər nə desəniz, onu eləməyə hazırdır. Ancaq... Neçə adam öldürmüş bir qaçaq üzə çıxa bilərmi? Xan nə deyər?..

Kazım bir az fikrə gedib dedi:

– O söz versə, dinc dursa... üzə çıxmaq asandır...

* * *

Bir ildən bəri meydana çıxmış qaçaq Səfərin adı günü-gündən şöhrət tapmaqda idi. Onu Araz ilə Kür arasında tanımayan yox idi: kənddə hansı bir evə gəlsə, çörəklənib yola salınır, koxaların və məliklərin hədəsinə baxmayaraq, onu kimsə xanın əlinə vermək istəmirdi. Xalq qaçaq Səfərə şərqilər qoşmuşdu, onu igid, mərd ədalətli deyə tərənnüm edirdi. Bu məsələ dəfələrlə sarayda danışılmış, tədbirlər görülmüş, dalınca atlılar göndərirmiş, nəticədə heç bir şey çıxmamışdı. Səfər də papağını dik qoyub, aranı-dağı dolaşırdı.

Səfərin özü Qılınclar oymağından olub çocuqluğunu kənddə keçirmişdi. Qışı aranda, xan torpağında keçirər, yayı isə dağa köçərdilər. Atası Qarabağ xanının Naxçıvan civarında olan bir vuruşmasında öldürülmüş, Səfər yetim qalmışdı. Kiçik bir topraqları vardı, bunun məhsulu, malcəhət, toypulu və başqa töycüləri verdikdən sonra, özlərini zorla görürdü. Səfərin atası öləndən sonra iş bir az da çətinə düşdü. Lakin yetimin çocuqluğunu oymaq nəzərə alaraq hər il iməcilik edib, onun əkininə və biçininə kömək edərdi. Nəhayət, Səfər min zəhmətlə böyüyüb həddi-buluğa yetişdi və öz təsərrüfatını özü idarə etməyə başladı. Geniş ürəkli, ucaboylu, qarayanız bir oğlandı. Cıdırlarda at səyirdən, gözəl ox atan, qılınc vuran bir gənc olmuşdu. Adı ellər arasında yayılmada idi. Qızlar, gəlinlər onu görəndə için-için yanar, dilavərlər hörmət edər, qocalar isə igid və mərdliyi üçün onu çox sevərdilər.

Bir gün biçin vaxtı xanın sərkarı* kəndliləri topladı – elliynən xanın taxılını biçib, çuvallara yığmalı idilər. Səfər də unudulmadı. Biçin qurtardı, dərzlər xırmana daşındı, döyməyə başladılar. Yüzbaşı dolaşıb, işləyənlərdən göz olurdu və axşamçağı işdən sonra isə dolmamış çuvallardakı buğdanı oğurlamasınlar deyə, buğdanın üstünə barmağı ilə bir xaç çəkib, gedərdi. Bir səhər küləkli gecədən sonra yüzbaşı yarımçıq çuvalları yoxlayıb, bir neçəsində xaçın pozulduğunu gördü:

– Buğdanı kim oğurlayıb? – deyə gözləri hədəqəsində oynamağa başladı. Kimsədən səs çıxmadı. Yüzbaşı bir də bağırdı, sonra bir-iki adamın qolundan qaba bir surətdə dartıb:

– Tanrı haqqı, gönünüzü soyduraram! – deyə təkrar bağırdı.

---

* Xan təsərrüfatına baxan məmur.

Qolundan dartılanın biri də Səfər idi. İgidliyinə yaraşmayan bu hərəkətdən son dərəcə acıqlanıb:

– Yüzbaşı, – dedi, – sənin buğdana qalmamışıq. Bir az özünü yığışdır.

Yüzbaşı gözləmədiyi bu cavabdan daha da acıqlandı:

– Sən xanın üzünə ağ olursan? Ağ olursan? – deyə nökəri çağırdı və Səfəri söyüd ağacına bağlayıb döydürmək istədi.

Səfər nökərlərin əlindən dartınıb:

– Yüyrək at özünə qamçı vurdurmaz! – dedi və dəryazı qapıb, yüzbaşıya cumdu. Səs-küy qopdu. Yüzbaşı yerə yıxılmışdı, boynundan qan fışqırırdı. Səfər də bir at belində toz qopara-qopara dərəyə tərəf qoşurdu.

O gündən bu günə Səfər qaçaq olub, dağ və meşələrə düşmüşdü. Özü də yüzbaşılara, sərkarlara, əmr-məruflara düşmən kəsilmiş, fəqir-füqara iləsə çox yaxşı rəftar edərdi. Ellərdə, oba və uluslarda göründükdə onun yanına şikayətçilər gələrdi, o saat ağsaqqalları toplayıb, məsələni yoxlar – haqlının haqqını, haqsıza da cəza verərdi.

## 9

Kazım Vaqifin məktəb yoldaşı idi. Nadir şah zamanı müharibəyə sürüklənib, bir-iki dəfə də yaralanmışdı, karxanası dağıldığı üçün kəsbi kəsilmiş, nəhayət, Pənah xanın oğlu Mehralı bəy Şişə qalasının abadanlığı ilə məşğul olan zaman Qazax mahalından köçüb, Şişədə yerləşmişdi. Əvvəl təbrizli bir şərbafın yanında usta sifətilə işləmişdi. Sonra İrandakı qarışıqlıq nəticəsi olaraq karvan yolu kəsilib, mal qıtlığı duyulduqda, Şişə şərbaflarının əmtəəsinə tələb artmağa başlamışdı. Bu əsnada Kazım pul toplayıb xüsusi bir karxana açmış və iki otaqlıq ev tikdirib, əvvəl yaşadığı qara damı tərk etmişdi.

Vaqif öz yerliləri ilə əlaqəsini kəsməyirdi. Həm gedib-gələr, həm də dərdlərinə qalardı. Odur ki, Kazım da Səfər məsələsi üçün Vaqifin yanına getdi. Lələ xəbər verən kimi Vaqif onu içəri çağırdı. Kazım başmaqlarını artırmada çıxarıb, çəkinə-çəkinə içəri girdi. Vaqif pəncərənin içində oturub, şeir yazırdı. Kazımı görər-görməz, qələmi qələmdana qoydu və mehriban səslə:

– Baho, xoş gördük, həmşəhri! – deyə ona pəncərənin içində yer göstərdi. Kazım əllərini təkrar döşünə qoyub. Baş əydi, sonra dizi üstə döşəkçənin üstündə oturdu.

Vaqif mehriban bir nəzərlə onu süzərək:

– Səndən nə əcəb?.. – dedi və cavab gözlər bir vəziyyətdə ona baxmaqda davam etdi.

– Əskik olmayasan, axund! Doğrusu, bir işə düşmüşəm...

Vaqif:

– Nə iş? – deyə cəld soruşdu.

– Qız məsələsidir... Deyərlər: Ölmədik, kordan harayçı gəldi, Qaçaq Səfər bizim qıza elçi düşüb...

Vaqif heyrətlə:

– Qaçaq Səfər? – deyə sordu: – Hardan hara?

– Axund heç özüm də bilmirəm. Elçi göndərib, istəyir; verim, necə verim; verməsəm də başıma bəla açacaq... Eşşəyə minmək bir ayıb, eşşəkdən düşmək də iki ayıb.

– Yaxşı, bəs o bunu bilmir ki, yurdu – yuvası olmayan bir adama arvad yaraşmaz?

– Elə dərd də orasındadır: öküzün inildəməkdən qarnı quruldar. Ayıblı ayıbını bilsəydi, heç dünyada ayıb olardımı?

Vaqif düşüncəyə daldı, bir az sonra:

– Yaxşı, mənim köməyim nədən ibarət olmalıdır? – deyə sordu.

– Deyirmiş xan məni balalarının başına çevirsin, günahımdan keçsin, üzə çıxıb kəsbə qurşanım.

Vaqif yenə düşündü:

– Tutalım çıxdı, dələduzluğundan əl götürəcəkmi? Axı, xanla xanlıq edir: divan qurur, asır, kəsir.

– And içirmiş, xanın sadiq nökəri olmaq istəyirmiş.

Vaqif düşüncəli gözlərini barmağındakı əqiq üzüyə dikərək:

– Burada bircə əlac var, – dedi. Və sağ əlinin çeçələ barmağındakı üzüyü hərlədi: – bircə əlac. Tehran bəylərbəyisi elçi göndərib, xan qızı Kiçikbəyimi özünə istəyir. Xan razıdır, yaxında toy olub köçürüləcək. Kiçikbəyimə ərz etməli, o da atasının qulluğunda xahişmənd olsun. Ayrılıq zamanı xanın ürəyi yumşalacaq, hər nə istəsə, yerinə yetirər. Ya da ki, Şahnisə xanımdan təvəqqə etmək lazımdır. Bu daha məqbul görünər. Elə bu gün Şahnisə xanımın qulluğuna gedəcəyəm: bu xeyir iş üçün məni məşvərətə çağırmışdır. Bu gün qulağına eşitdirərəm, görək nə deyir.

Başını bir tərəfə əyib Vaqifi diqqətlə dinləyən Kazım razılıq elədi:
– Başına dönüm, axund, məni dardan qurtararsan. Amma elə olmasın ki, xanın qəzəbinə tuş gəlim. Bilirsən, ilan vuran ala çatıdan qorxar, də-

fələrlə tökülüb-dağılmışam. İndi Allahın mərhəməti və xanın sayəsində təzə-təzə uyuşub balalarımın ruzusunu çıxarıram. Bilmirəm, qismət bu Səfəri hardan gətirib çıxartdı. Deyir: Keçi can qeydindədir, qəssab da piy axtarır.

Vaqif:

– Keçi niyə can qeydindədir? – deyə güldü.

Kazım əllərini ovaraq dedi:

– Axund, bilirsən ki, dilə düşməkdən qorxuram. Bu zamanada dilə düşmək başa bəla açar.

Ən yaxşısı:

Dər rah çinan rov ke qiyamət nə konənd,
Ba xəlq çinan zi ke məlamət nə konənd,
Be məscid əgər rəvi, çinan rov ke tora,
Dər piş nə xanənd, imamət nə konənd...*

Vaqif Kazımın ehtiyatkarlığına və mütəvazeliyinə** heyrət edərək, ürəkdən güldü, sonra onu arxayın edib, yola saldı.

* * *

Şahnisə xanımın Dovtələb və Xəlfəli meşəsinə baxan bir otağı vardı. Divarları və tavanı naxışlı idi. Pəncərənin iç divarlarına "Leyli və Məcnun", "Fərhad və Şirin" dastanlarının ayrı-ayrı vaqiələri təsvir olunmuşdu. Şahnisə xanımın döşəkçəsinin üstündə Fərhad külüng ilə dağı yarırdı.

Vaqif içəri girəndə Şahnisə xanımı öz yerində gördü: qaravaşlardan birisi dizi üstə durub, qurama boxçanın bir ucundan tutub nə isə xanıma göstərirdi. Xanım Vaqifi görən kimi qaravaşa işarə etdi, o da boxçanı götürüb çıxdı. Vaqifin salamına cavab olaraq Şahnisə xanım gileyli bir səslə:

Aşiq ( Şahnisə xanım Vaqifi zarafatla "aşiq" deyə çağırardı ) gərək çağıram ki, gələsən? Axı Kiçikbəyim – mənim qızım, sənin də şagirdindir. Usta şagirdinin beləmi qeydinə qalar?.. Buyur, əyləş!

---

* Yol ilə get ki, sənə etiraz eyləməsinlər.
Xalq ilə elə rəftar eylə ki, səni tənələməsinlər.
Əgər məscidə gedirsənsə, elə get ki, səni
Qabağa salmasınlar, səni imam (böyük) etməsinlər.

Bu rübainin sətri tərcüməsi professor Əkrəm Cəfərindir (*Red.*).

** Mütavaze – təvazölü, təvazökar

Vaqif xanımın qarşısındakı döşəkçədə əyləşdi.

– Haqqın var, Şahnisə xanım! – dedi. – Ancaq baş qarışıqlığı da mənzuri alinizdir. Gəncədə Məmməd xan tüğyan eləyib, Fətəli xan yenə bir-iki kəndimizi dağıdıb... Xülasə, gecə-gündüz bu xanların bir-biri ilə öcəşməsindən başımız ayazımır... – Bu əsnada Vaqifin nəzəri Şahnisə xanımın başının üstündəki Fərhada düşdü. Vaqif buna işarə olaraq, – Bax, o sənin oturduğun döşəkçədə mən oturmalı idim, – dedi.

Xanım məsələni anlamayaraq:

– Necə? – deyə, düşüncə içində qaldı.

– Çünki Fərhadın külüngü başımızdan əskik olmaz.

Xanım arxaya, Fərhadın rəsminə baxıb güldü;

– Aşiq yenə bir söz tapıb düzəltdi, – dedi. – Sən elə bilirsən qız anasının halı sizinkindən yaxşıdır? Tanrı haqqı yox! Bax, Kiçikbəyim kimi bir gülü götürüb Tehrana atıram. Qürbətdə qızım necə olacaq, başına nələr gələcək... Kim bilir?

Şahnisə xanım doluxsundu.

Vaqif təsəlli verdi:

– Bu olmadı, xanım! Sən Şahsevən dilavərlərindənsən, at belində böyümüş, döyüşlərdə bərkimiş, kişi kimi bir arvadsan...

Şahnisə xanım göz yaşlarını gülgəz dəsmalla silərək:

– Yox, axund. Bizim dərdimiz yerə-göyə sığmaz, – dedi. – Kaş əli qabarlı bir rəiyyət olaydım, balalarım gözümün önündə olaydı. Tehrana qız vermək əzrailə can vermək kimi bir şeydir; getdimi, bir də üzünü görməyəcəyəm... Kürəkənimi görməmişəm, kim bilir heç görəcəyəmmi? – Xanım təkrar doluxsundu və gözlərini silə-silə dedi: – Neylirəm qızıl teşti ki, içinə qan qusum?!.

Bu əsnada Kiçikbəyim içəri girdi və Vaqifi görüb, utanaraq özünü itirdi. Qıpqırmızı kəsilib, salam verdi və geri döndükdə Vaqif:

– Qara qız! Hara? – deyə onu çağırdı.

Kiçikbəyim yerə baxa-baxa Vaqifə yanaşdı. Gülab qoxusu şairi nəşələndirdi. Xoş bir təbəssümlə şagirdini süzdü: cıqqa telləri ağ cunadan çıxıb gərdəninə toplanmışdı; süzülüb sallanan kalağayı incə vücudunun bir tərəfini tutmuş, çəhrayı çəpkəninin ancaq bir qolu görünürdü; yaxası açıq köynəkdən mərmər sinəsi baş vermişdi; geniş şalvarının ayağına inci düzülmüşdü; məxmər başmaqlarının da üstü inciyə tutulmuşdu.

Əlini Vaqifə verdikdə kəhraba qolbağısı sürüşüb şairin bilənginə toxundu. Vaqif Kiçikbəyimin əlini əlindən buraxmayaraq:

– Böyük qız olandan bəri daha mürşüdü yaddan çıxardın! – dedi.

Kiçikbəyim qızarıb gülümsənərək:

– Yaddan çıxmamısınız! – dedi.

Şahnisə xanım da gülümsədi:

– Heç bir gəraylın varmı ki, bəyazına yazmasın! Hər gün səsi bağı ağzına alır. Elə sənin sözlərini oxuyur.

Kiçikbəyim utanıb, daha da qızardı və əlini Vaqifin əlindən qoparıb, qapıya doğru qaçdı; arxasına düzülmüş ucu əşrəfili qara saçları yelləndi.

Şahnisə xanım fəxr ilə qızının arxasınca baxdı;

– Dağ keçisidir! Dağ keçisi! – deyə gülümsədi.

* * *

Vaqif gələndə hava qaralmışdı. İndi göy birdən gurladı, şimşək çaxıb, əyri-üyrü parlaq xətlərlə buludu qılınc kimi kəsdi, gurultudan dağlar titrədi. Şahnisə xanım kəlmeyi-şəhadət deyə-deyə qaravaşı çağırdı. Qaravaş həmən hazır oldu, pəncərənin millərini çıxarıb, aşağı endirdi. Otaq daha da qaranlıq oldu. Artıq yağış başlamışdı, qorxunc bir gurultu ilə pəncərəni qamçılayır, suyu içəri sıçradırdı. Qaravaş şam yandırıb gətirdi. Bir də göy hiddətlə gurladı, xanım yerindən dik atılaraq:

– La ilahə illallah!.. – dedi və qorxa-qorxa pəncərəyə baxdı.

Bir-iki dəqiqə davam edən yağışdan sonra göy açılmağa başladı. Günəş ağ bulud parçaları arasından göründü. Şamdan götürülüb, pəncərələr yenidən qaldırıldı, yaz havası ilə bərabər bülbüllərin cəhcəhi də içəri dolmağa başladı. Şahnisə xanım fərəhli bir üzlə dışarıdakı çinarların təzə, açıq yaşıl, işıldar yarpaqlarına baxdı:

– Tanrının qüdrətinə şükür! Bayaqkı tufana, indiki gözəlliyə bax!

Vaqif şən və məğrur bir tövr ilə başını tərpədib, xanımın sözlərini təsdiq etdi.

Nəhayət, məsələyə keçdilər. Xanım Tehran bəylərbəyisinə qız vermək haqqında Vaqifin fikrini bilmək istədi:

– Axı, ürəyim qızmır, – dedi: – yad ölkə, uzaq yer...

Vaqif mülayim səslə:

– Xan mənimlə məsləhətləşdi, dediklərinə şərik oldum. Bilirsən, bir qız bir oğlanındır... Qismət, görünür, belədir. Qızı hər adama ver-

mək olmaz. Tehran uzaqda olsa, yenə Tehrandır... O ki qaldı ayrılığa, onun da çarəsi var: bir-iki aydan sonra gedərsən yanına, bir neçə ay qalarsan. Sonra o da gəzməyə gələr... Getdiyi adam əsil olsun, yerdə qalanı asandır.

Şahnisə xanım düşünərək dinləyir, bir söz demirdi. Bilirdi ki, işin içində bir siyasət də vardır: Kərim xan Zənd ilə dost keçinmək lazımdır; ya qohum olmalı, ya zaval verməli. Pənah xan Şirazda öldükdən sonra Qarabağın orada zavalı qalmamışdı. Ortalıqda etibar olmaq üçün Kiçikbəyimin Tehrana gəlin köçməsi lazım idi. Bəylərbəyinin elçilərinə rədd cavabı vermək xanlıqla şahənşahlıq arasında soyuqluq və etimadsızlıq doğura bilərdi... Lakin qadın qəlbi bunlarla razılaşa bilmirdi.

Şahnisə xanım çıxılmaz bir vəziyyətdə qalıb, nə "hə", nə "yox" deyir, istər-istəməz axına qoşularaq tabe olurdu:

– Yaxşı, təkmi göndərək, yoxsa xanzadələrdən birini qoşaq? Nə məsləhət görürsən?

Vaqif düşündü:

– Məncə, – dedi, – xanzadə qoşmaq lazım deyil. Kim bilir, nə ola bilər. Sabah Kərim xan başını yerə qoydu, yenə ölkə qarışacaq, hər şəhərdə bir xan baş qaldıracaq. Xanzadəni Tehrandan zaval apara bilərlər. Onda gərək İrandan nə əmr gəlsə, boyun əyək... xanlığa faydalı, ya qeyri faydalı.

Şahnisə xanım qorxulu sifətlə:

– Bəs qız? – dedi.

– Qıza zaval yoxdur. Ondan arxayın ol!..

Söhbət uzandı. Kəbin, toy, cehiz kimi bir çox məsələlər müzakirə olunub qurtardı. Sonra Vaqif savab işlər haqqında söhbət açdı. Bir neçə qul və qaravaşın azad olunmasını təklif etdi. Qoy getsinlər, Kiçikbəyimə dua etsinlər, – dedi. Nəhayət, Səfər məsələsi ortaya çıxdı:

– Kazımın qızı Telli yazıq bir uşaqdır. O da xoşbəxt olsa, Kiçikbəyimə dua edər. Xandan təvəqqə elə, Kiçikbəyim köçmədən əvvəl Səfərə rüsxət versin, üzə çıxsın: yoldan çıxmaq ayıb deyil, yola gəlməmək ayıbdır.

Şahnisə xanım Kiçikbəyimi o qədər sevirdi ki, Vaqifin bütün təkliflərini qəbul etdi.

## 10

Sarayda toy hazırlığı gedirdi; biçilir, tikilir, kəndlərdən toy payı yığılır, gələcək qonaqların siyahısı tutulurdu. Kiçikbəyim isə özünə yer belə tapa bilmir, dərdlənib sarayı dolaşır, bağı qarış-qarış gəzir, kədərli bayatılar söyləyirdi. Qarabağın gözəl dağlarını, soyuq bulaqlarını, şən meşələrini xatırlayıb odlanırdı. Bunları bir də görəcəkdimi? At belində azad bir çocuq kimi, dərdsiz, qayğısız bir halda yenə istədiyi yerləri dolaşacaqdımı?.. Məhbəs kimi qalın divarlarla hasarlanmış Tehran sarayını gözlərinin qabağına gətirir: əndərun, birun, qısqanc xədimlər, sərt qızlar ağası... Qürbət... Kiçikbəyimin ürəyi sıxılır... nə edə bilər ki, qismət bu imiş! O qismətin yenilməzliyinə inanırdı... Taleyə boyun əyməkdən başqa çarə yox idi...

Kiçikbəyim düşünür, düşündükcə də öz düşüncələrinin çıxılmazlığında dolaşıb qalırdı. Birdən ona bir mətanət gəldi, Ləleni çağırıb dedi:

– Lələcan, atları hazırlat, Məmməd bəyi də çağırtdır. Seyrə çıxacağam.

– Baş üstə, Bəyim!

Baba lələ baş əyib getdi. Belə ittifaqlarda lələ heç vaxt bəyimə söz qaytarmaz, sual belə verməzdi. Lakin Kiçikbəyimin əmrini Şahnisə xanıma söylər və onunla məsləhətləşərdi. Bu dəfə də məsələni Şahnisəyə anlatdı. Şahnisə xanım razı qalmadısa da, əngəl törətmək istəmədi:

– Qoy gəzsin. Ayrılıq ağır dərddir...

* * *

Atlılar şəhərin Xəlfəli qapısından çıxdılar: öndə Kiçikbəyimlə Məmməd bəy, arxada da Baba lələ, Güllü dayə və bir neçə silahlı nökər gedirdi. Diki çıxıb, döşə çatdılar. Çılpaq dağlıqlar arasından uzaqda, çayın o tayındakı meşə və mavi pəlmələrdə süslənən dağlar göründü; oradan sərin meh gəldi. İstidən pörtmüş Bəyim fərəhlə:

Məmməd, – dedi, – atı tərpət görüm!

Atlar götürüldü. Dumanlanan toz gəncləri qafilədən gizlətdi. Yolun ortasına bir nal qırığı düşmüşdü, Kiçikbəyim uzaqdan bunu gördü, çapa-çapa ona yaxınlaşdıqda, alıcı quş sürətilə enib nalı qaldırdı və təkrar yəhərə oturdu. Bunu görən Məmməd bəy yəhərdə ayaq üstə qalxıb, havaya bir güllə atdı. Kiçikbəyim yandan bu igid gənci süzərək çaşqın bir halda atını ona yanaşdırdı. Məmməd bəyin yanaqları qı-

zarmış, tər alnında tumurcuqlanmışdı... Kiçikbəyimin qolu yenə eyni alıcı quş sürətilə Məmməd bəyin boynuna dolandı. Körpə dodaqlarından üç dəfə həsrətlə öpüb aralandı...

İndi atları yavaş-yavaş sürüb, yan-yana gedirdilər. Heç birisi bir söz belə danışmırdı. Kiçikbəyim onu yenə yandan süzürdü: Məmməd bəyin ala gözü atın yalına dikilərək, sirli bir bəxtiyarlıq ifadə edirdi.

Arxadakı atlılar əlli addımlıq bir məsafəyə çatmışdılar. Baba lələ şirin bir söhbət açmışdı, əllərini ölçərək nə isə nağıl edirdi.

Kiçikbəyim çevrilib geriyə bir nəzər fırlatdıqdan sonra:

– Məmməd, – dedi – iki gündən sonra əmi qızından ayrılırsan, – xiffətimi eyləyəcəksənmi?

Məmməd bəy dinmədi, üzünü çevirib, Bəyimin gözlərinə baxdı və yenə utanaraq, başını aşağı saldı: kirpiklərinin arasında iri bir damla parladı. Bunu görən bəyim atına bir şallaq çəkib səyirtdi. Məmməd bəy atının yürüşünü dəyişməyərək, arxadan Kiçikbəyimi seyr edirdi: qanadlanan kəlağayı qara saçlarla bir yerdə yellənir, Bəyimi göylərdə uçan bir mələyə bənzədirdi. Bu mənzərə Məmməd bəyi oxşayır, sevindirir və eyni zamanda da ürəyində indiyə qədər duymadığı tutqun və dadlı bir kədər oyadırdı.

Bəyim yalı aşıb, gözdən itmişdi, yalnız yanıqlı bayatısı eşidilirdi.

Bu dağlar olmayaydı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı...

Qafilə Məmməd bəyə çatıb bir yerdə yamac aşağı çaya doğru enirdilər. Sol tərəfdə uca divar kimi göylərə çəkilmiş Xəznə qayası, sağda həzin şırıltılı çay, o tayda da istidən süstləşmiş meşə bürküyə bürünmüşdü. Atların ayaqlarının altından çəyirtkələr atılır, cırcıramaların səsi getdikcə artır, kəklikotu qoxusu insanı məst edirdi. Atlılar qayadan uçub tökülmüş daşların arasından yavaş-yavaş keçir, keçmiş əyyamdan, vuruşmalardan, igidlikdən danışırdılar. Kiçikbəyim isə uzaqda çayı keçir, arabir durub atı suvarırdı.

Bəyim hamıdan əvvəl meşədəki bulağın yanında atdan düşdü. Atın cilovunu qabaq ayağına bağlayıb, otlamağa buraxdı. Sonra çınqılların arasından qaynayan çeşmədə əl-üzünü yuyub, qafiləni qarşılamağa çıxdı. Hamı gəlib atdan töküldü.

Bəyim dərdli kimi görünürdü:

– Mən pirə gedirəm, – dedi, – siz məni gözləyin.

Ağacların arası ilə cığırla yuxarı dikləndi. Günəş xoş rütubətli meşəyə altun ləkələr yaymışdı. Kiçikbəyim fındıq və yemişan kollarını əyərək otlaq bir talaya çıxdı. Bir tərəfi quzulayıb, ot saçaqları sallanan bir təpədə iri, qol-qanadı qurumuş bir ağac vardı. Kovuşuna üst-üstə bir neçə daş qoyulmuşdu, budaqlarına cürbəcür cındırlar bağlanmışdı. Bir şaxdan xırdaca beşik asılmış, o birisinə balaca yay-ox nəsb olunmuşdu. Ətrafda ocaq yerləri görünürdü; ora-bura qoyun sümükləri tökülmüşdü. Bu – pir idi. Diləkləri olan bura gələr, diləyini pirə xatırlatmaq üçün ağacın budaqlarını əlvan cındırlar, rəngbərəng saplarla bəzərdilər; sonsuz arvadlar beşik asar, igid oğul anası olmaq istəyənlər budağa yay-ox bağlayıb gedərdilər; xəstələr bir həftəlik sursatları ilə bərabər buraya gətirilib, ağacın altında yatar, pirdən şəfa diləyərdilər...

Kiçikbəyim ağacı seyr edir, lakin heç bir şey diləmək istəmirdi. Nə diləyə bilərdi? Qismət qara qanadlarını gərib onun həyat yolunu kəsmişdi. Pirə yanaşmadan dönüb getdi, yenə sızıltılı səsi meşələrə, dağlara düşdü:

Aşiq diyarbədiyar,
Xalın diyarbədiyar.
Qoydun kamana məni,
Atdın, diyarbədiyar...

Məmməd bəy Kiçikbəyimin səsini eşidən kimi kədərli, dadlı duyğu yenidən onun qəlbini doldurmağa başladı. Qalxdı, utanıb qızararaq səs gələn tərəfə getdi. Bəyim xırda bir bulağın yanında oturmuşdu. Əlindəki budağın yarpaqlarını qırır, didik-didik edib suya atırdı. Kolların şaqqıltısını eşidib çöndü. Məmməd bəy göründü. Baxışları qarşı-qarşıya gəldikdə, Məmməd bəy gözlərini aşağı dikib durdu, yanaqları qıpqırmızı oldu. Üzərində Kiçikbəyimin nəzərini duyaraq, xoşhallanır, eyni zamanda da, nədənsə, bir fənalıq hissi onu incidirdi.

– Məmməd, bura gəl! Sənə söz tapşıracağam, – Kiçikbəyim onu səslədi.

Məmməd bəy itaətkar bir halda gəlib Kiçikbəyimin yanında durdu; yenə əlini xəncərinin dəstəsinə qoyub, yerə baxırdı.

– Otur!

Məmməd bəy oturdu.

– Sən əmi qızını belə istəyirmişsən?

Məmməd bəy dinmədi, o özünü tamamilə itirmişdi. Bəyim ona sarıldı: ehtiraslı busələr gəncin dodaqlarını, yanaqlarını, gözlərini, alnını, saçını dolaşmağa başladı...

Məmməd bəy ayılarkən yanındakı Bəyimi göz yaşları axıdan gördü. Şaşdı. Ona həm acıyır, həm də bu göz yaşlarına qarşı nə cür davranacağını bilməyirdi.

Kiçikbəyim doyunca ağlayıb kiridi. İncə, ipək dəsmalı ilə gözlərinin yaşını silib, yaş dəsmalı Məmməd bəyə uzatdı:

– Al, bunu saxla, mən yadına düşəndə onu bağrına basıb mənim iyimi alarsan... İndi dur get, mən də üzümü yuyub gəlirəm.

Məmməd bəy haman ayağa durdu və getmək istədikdə Bəyim onu dayandırdı:

– Bax, heç kəsə bir şey demə ha!

Kiçikbəyim onu bir də süzdü və yanağını ona göstərərək dedi:

– Gəl burdan öp, sonra get!

Məmməd bəy cəsarətsiz bir halda əyildi, Bəyim onun başını irəli çəkdi: cürətsiz bir busə Bəyimin yanağını oxşadı.

Məmməd bəy kolların arasında yox olar-olmaz Kiçikbəyim əlini qulağına qoyub, kədər saçan, incə qız səsi ilə oxudu:

Mən aşiqəm, bir əl gəz,
Doğra bağrım, bir əl gəz.
Könülsüz xan olunca,
Sevgilinlə dolan gəz!..

## 11

Kiçikbəyimin toyu münasibətilə Səfərin bağışlanılması xana ərz olundu. Xan düşündü. Səfəri bağışlamaq əfkarı-ümumiyyə qarşısında acizlik göstərmək demək idi, bağışlamamaq da Şahnisə xanımın və Kiçikbəyimin sözünü yerə salmaq idi. Bu iki yolun ikisi də əlverişli olmadığı üçün, xan üçüncü bir vasitəyə müraciət etdi. Bu vasitə də həm Səfəri bağışlamaq, həm də qorxulu bir səfərə göndərərək, ondan xilas olmaq ehtimalı vardı.

O zaman Quba xanı Fətəlinin bir cüt məşhur atı vardı: birinin adı Qəmər, o birininki Şahbaz idi. Fətəli xan bu atlarla fəxr edər və onları bütün Qarabağ atlarına dəyişməz deyə İbrahim xana sataşardı. İbra-

him xan onsuz da Fətəli xanla düşmən idi, lakin bu at məsələsi İbrahim xana köhnə düşmənçilikdən daha böyük bir dağ olmuşdu. İndi İbrahim xanın əlinə girəvə düşdü: o Səfər vasitəsilə Qəmərlə Şahbazı oğurlatmaq istədi. Səfər bu təklifi müvəffəqiyyətlə yerinə yetirə bilsəydi, xan onu bağışlamağa və məaf etməyə belə hazır idi.

Xanın rəyi Vaqif vasitəsilə Kazım kişiyə bildirildi. Kazım kişi düşündü və öz-özünə: "Dəryada balıq sevdasıdır", – deyə məyus oldu. Lakin bu məyusluğunu kimsəyə bildirmədi. "Qismət necəsə, öylə də olacaq! " – deyib, sakit oldu.

Cümə günü idi. Kazım kişi istirahət günündən istifadə edərək, həyətdəki göy və çiçək ləklərinin alağını edirdi. Birdən həyət qapısı açıldı, həmən qara dolaqlı cavan içəri girdi. Bu adam bu dəfə olduqca gözəl geyinmişdi, hələ xaşmaş şalvarının xışıltısı ətrafı bürümüşdü. Görünür, dünəndən bu ziyarətə hazırlanırmış, çünki, xaşmaş şalvar bütün gecəni quyuya sallanmış olmasaydı, bu qədər xışıldamazdı.

Kazım kişi sevinərək onu qarşıladı. Tut ağacının altına palaz salındı, Səfərin elçisi oturdu. Qonaq gülərək:

– Hə, təzə, nə var? Eşitdim, xan zindanxanadan dustaqlar azad edib?!

Kazım məyusluğunu bildirmədi:

– Səfəri də bağışlayıb, xəbər verərsən.

Oğlanın üzü güldü.

– Ancaq... xanın Səfərə bir işi düşüb.

– Nə iş? – deyə oğlan ciddiləşdi.

– Quba xanının iki ayğırı var, onları gərək gətirsin.

Kazım məsələni ətraflı anladıb, susdu və oğrun-oğrun oğlana baxmağa başladı. Oğlan çox düşünmədən:

– O nədir ki! Kaş xanın belə qulluğu çox ola, – dedi. – Bu Səfərin əlində bir şey deyil. Gedər də, gətirər də.

Kazımın gözləri bir az böyüdü:

– Yəni gedər. Deyirsən?.. Gətirə bilər?

– Canın da alar.

Kazım qonağı ilə şirin danışarkən, qızı Telli şişə əvəzinə yağlı kağız yapışdırılmış pəncərəyə yanaşıb, qonağı seyr etdi. Qəlbinin dərinliyindən: "Kaş bu mənim nişanlım olaydı!" – deyə gəlib qulağına çatan dəruni səsdən titrədi. Yanaqlarının od tutub yanmasını duyaraq çəkilib, pəncərənin divarına söykəndi. Bu əsnada bacılığı Gülnaz içəri

girdi. Bu, qonşuluqda yaşayan erməni Allahqulunun qızı idi. Gülnaz Tellini bu halda gördükdə heyrət etdi:

– Tellican, nə olub? – deyə təlaşla soruşdu. Onu çəkib, pəncərənin içində oturtdu. – Ay qız nə var?

Telli gülümsünərək Gülnazın qulağına nə isə pıçıldadı. Gülnaz şəhadət barmağını yumaraq dodağına qoydu:

– Belə de! – deyə, pəncərədən həyətə baxdı.

Qara dolaqlı oğlan ədəblə dizi üstə oturub, qəhvə içirdi. Əyri qoyulmuş çal papağının altından çıxan birçəkləri şəvə kimi işıldayırdı. İncə bığlarının ucları bir az burulmuşdu.

Gülnaz üzünü Telliyə çevirdi:

– Ay qız, belə nişanlısı olanın dərdi olar? Vallah, məzhəb haqqı, qəşəng oğlandı.

Telli bu sözlərdən xoşhallanır, pəncərədən təkrar-təkrar oğlanı seyr edirdi. Bir az keçmiş oğlan nə danışdısa, Kazım kişi başı ilə təsdiq etdi. Yenə danışdılar, sonra oğlan ayağa durdu, xudahafizləşib getdi. Həyət qapısı örtüləndə sanki günəş batdı. Tellinin sevinci yox olub getdi. Gülnaz məsələni anladı, Tellinin çənəsini əlləyərək:

– Ay qız, kefini xarab eləmə: yenə gələr, yenə görərsən, – dedi.

Telli gülümsündü, lakin bu gülümsəmədə bir həsrət kədəri duyulurdu.

Bu əsnada küçədən bir çığırışma səsi gəldi. Hamı küçə qapısına yüyürdü. Məhəllədə yaşayan kumuk qoşunu arasında dava olmuşdu. Əlləri xəncərli və qılınclı kumuklar iki tirə olub, bir-birinə soxulmaq istəyirdilər. Bir adam da yerə yıxılıb, qan içində çabalayırdı. Telli bu kumuk davasını çox görmüşdü və bilirdi ki, dalaşanlar arasına bir qadın girib, yaylığını ortalığa atsa, kişilər qadın örtüsündən həya edib, adət və ənənəyə görə davamı kəsərdilər. Telli özünü itirməyib, cəld yüyürdü və əlliyə qədər bir-birinə hücuma hazır olan kumukların arasına soxulub, başının güllü yaylığını yerə atdı. Bir dəqiqədə bir-birinin qanına susamış iki tərəf də geri çəkildi; xəncərlər və qılınclar qınına qoyuldu.

## 12

Tehran bəylərbəyisi mirzə Məmməd xan Qarabağa vəkil olaraq öz doğma qardaşını göndərmişdi. Vəkilə tapşırılmışdı ki, xeyir iş Kiçikbəyimin könlü istədiyi kimi edilsin və heç bir şey ondan əsirgənməsin.

Vəkil də bütün tələbləri ödəyir, kisə-kisə əşrəfi xərcləyirdi. Əqd-nigah mərasimi olduqca təntənəli keçdi, bütün Şişə ruhanilərinə bol xələt verildi, on min əşrəfi və bir batman da pərvanə qanadı* kəbin kəsildi. Pərvanə qanadını kəbin kağızına salmaq izdivacın möhkəm olması məqsədilə edildi. Çünki ərə gedib boşanmaq böyük qəbahət sayılardı. Əqd-nigahın sabahı günü erkən gün çıxmadan, cehiz yazılma oldu. İbrahim xan da qızına verdiyi cehizlə Tehranın səxavətinə üstün gəldi. Xanın rəsmi qəbul kallayısının bir tərəfi cehizlə dolmuşdu. Baba lələ bunları bir-bir götürür, kallayıya toplanmış əyan, əşrəf və əsnafa göstərir, məhəllə mollası da mütəkkə kimi lülələnmiş, ətrafı zərli nəqşlərlə təzyin olunmuş bir neçə arşınlıq tirmə kağızına qeyd edirdi. Şeylərin siyahıya alınması bir neçə saat çəkdi; burada ev mükəlləfatına dair heç bir şey unudulmamışdı; saat qabından, daban daşından tutmuş xalı, gəbə, qab-qacaq, cins Qarabağ atları, əlvan çamaşır, qiymətli paltarlar və xəzlərə qədər, hər şey vardı. Daş-qaş, cəvahirat, altun, qadın ziynətləri, sədəflə işlənmiş bir mücrüdə idi. Ziynətlərin çoxusu Şişə zərgərləri tərəfindən qayrılmışdı. Cehizin bir qismi toy payı olaraq, kəndlərdən göndərilmişdi: top-top ləmbəran qumaşı, Ağcabədi ipəyi, Gülablı cecimləri bu cümlədən idi. Ömər xan Avarıstandan gözəl silahlar: xəncər, qılınc və gümüşə tutulmuş yəhər-əsvab göndərmişdi. Cehiz kağızı bitdikdən sonra bir çox şahid möhürlərini kağızın aşağısına və ətrafına basdı.

Kişilər məsələnin rəsmi tərəfini yoluna qoyarkən, qadınlar da toya hazırlanırdılar. Kiçikbəyimi tay-tuşu ilə bərabər gəlin hamamına apardılar, sonra qaşalma və xınaqoyma oldu. Nəhayət, xoş bir saatda toy başlandı. Toy, təbii idi ki, yalnız qadınlar üçün idi; Kişi toyu Tehranda, bəy olan yerdə olmalı idi.

Axşamçağı Gülablı və Abdal zurnaçıları sarayın artırmasında çalmağa başladılar. Sarayın həyəti adamla dolu idi. Bunların əksəri ya saraya mənsub, ya da toya gəlmiş xanımların nökərləri idi. Bir tərəfdə əlliyə qədər quşçu durub, qollarında gözləri tikili qızıl quşlar tutmuşdular: xam quşları səs-küyə alışdırdılar.

Nökərlər əl-ələ tutuşub yallı getdilər. Yallının başçısı Baba lələ idi. Get-gedə zurnanın səsinə kənardan da adam toplanmağa başladı. Yallı bitər-bitməz artırmadan bir-iki ovuc pul atdılar. Həyətdəkilər bir-birini əzişdirərək pulu qarpışdırdılar.

---

*Pərvanə qanadı şəklində qayırılan qızıl bəzək.

Günəş batana qədər bu əyləncələr davam etdi. Bundan sonra əsl toy məclisi qəbul kallayısında başladı. Yuxarı başda xanın öz ailəsinə mənsub əlliyə qədər xanım və qız əyləşmişdi, yan divarlar boyu isə əyan, əşrəf və əsnaf arvad və qızları oturmuşdular. Yüzlərcə şamlar yanırdı. Sazəndələr tamam-dəstgah çalır, xanəndələr oxuyurdu. Həzin hava kimisini kədərləndirir, kimisini coşdururdu. Başdan-ayağa ağ geyinmiş Kiçikbəyim tay-tuş qızlarla oturub, dərin bir sükuta dalmışdı, ancaq bəzən xanəndənin həssas sözləri onu sarsıdırdı; o, köksünü ötürərək, incə dəsmalı ilə gözlərini silirdi. Yoldaşları ona təsəlli verirdisə də, bu təsəllilər onun kimsəyə bəlli olmayan dərdi qarşısında heç mənziləsində idi.

Sonra də aşıq məclisi başlandı. Gülablı və Abdal aşıqları sədəfə tutulmuş sazlarını dınqıldadaraq qoşa-qoşa kallayının bu başından o başına gedir: gah durub bayatı deyir, gah süzürdülər. Aşıqların el sinəsindən qopan sevgi, həsrət, ayrılıq kimi hissləri, oxşayan sözləri hər kəsi coşdurur, bütün varlığını sarsıdırdı. Kiçikbəyim daha da kədərlənirdi. Onun qəlbində qəribə duyğular oyandı. Musiqi ona böyük olmaq, qəvi olmaq arzusu bağışlayırdı. Eyni zamanda başqa bir duyğu dalğalanaraq bu qəviliyi qırır, yerində acı, sönük bir kölgə qalırdı. Belə dəqiqələrdə Bəyim qalxıb oturduğu vəziyyəti dəyişir və köks ötürürdü.

Oyunlar Bəyimi qismən bu kədərli vəziyyətdən qurtardı; oynaq “Uzundərə”, “Rəng”, “İnnabı”, “Tərəkəmə”, “Ağabala rizayisi” kimi havalar məclisə bir nəşə gətirdi. Qarabağ gözəlləri oyuna girişdilər. Üstünə inci düzülmüş məxmər başmaqlar zərif xalıların üstündə quş kimi səkməyə başladı. Süzülən qara gözlər, incə hərəkətli ağ biləklər, nazlı barmaqlar hər kəsin nəzərini özünə cəlb etmədə idi. Bu nəfis rəqslərdə nə qədər gözəllik, nə qədər bakir hiss ifadələri vardı. Bir qız rəqsi bitirdikdə, o birisi onu əvəz edirdi, biri-birindən gözəl, biri-birindən cazibəli idi; hərəsinin də başqa bir əda, başqa bir oynayışı vardı. Kiçikbəyim artıq yerində sakit dura bilməyirdi; nəşə onu qaplamış, məclisin ortasına çəkirdi. Birdən onun qəlbindən xəbər verən bir səs:

– Gəlin oynasın! Gəlin oynasın! – deyə eşidildi. Səsə başqa səslər də qoşuldu. Ortalıqda oynayan iki qız süzə-süzə Kiçikbəyimin qarşısına gəldi, incə əllərinin, yaraşıqlı başlarının xoş hərəkətləri ilə Kiçikbəyimi oyuna dəvət edirdilər. Bəyim durdu. Bütün məclis susdu. Hamının gözü gəlinə dikilib qaldı. Titrək əli ilə gərdəninə sığınmış tellərinə toxundu; buğdayı rəngi qızarmışdı; hər addımında həyəcanı duyulurdu. Oyuna girdi: At belində çevik olan Bəyim, burada da eyni çevikliyi göstərdi; hər hərəkəti zərif və incə idi.

Gəlinin rəqsi ilə oyun məclisi bitdi, nədimlər məclisi başladı. Məclisin hər başında bir nədim oturub güvəng oyunu başladı. Bu adi və incə bir rəqs idi, yalnız ayaqlar iştirak etməyirdi, oturaraq qollar və çiyinlər hərəkətə gətirilirdi.

Güvəng bitər-bitməz, musiqi susdu, mənzum deyişmələr başladı. Nədimlər bir-birini sındırmağa çalışırdılar. Bu deyişmələr hazırcavablığın, zərifliyin yüksək nümunələri idi. Sonra növbə abdallı Nəcəfə gəldi. Bunun özünə məxsus oyunları var idi. Nəcəf başına əmmamə qoyub, molla qiyafəsi geyinmişdi. Əsnaf paltarı geymiş şagirdi ona yanaşıb, baş əydi və ondan bir dini məsələ xəbər aldı:

– Axund, bir məsələ ariz olub: bir küp bal, bir küp də yağ yan-yana qoyulmuşdu; iki küpün arasında bir ölü siçan tapılıb. İndi iki küp arasında şəkk etmişik – bilmirik siçan yağa düşüb ölüb, ya bala düşüb ölüb. Çünki bala düşmüşsə, bal çölə tökülməlidir. Yağa düşmüşsə, yağ. Şərən nə etməliyik?

Nəcəf loğa-loğa öskürüb dedi:

– Mötəbər bir risalədə belə buyurmuşlar: iki küp arasında şəkk vaqe olsa, əsbabi-səbəb olan o xəbis kəsəyəni gərək götürüb, dodaqlarına tərəf çəkəsən və quyruğunun altını sümürəsən, bal dadı gəldi – bala düşüb, yağ dadı gəldi – demək yağa düşüb. Vəssalam, məsələ vazehdir.

Camaat güldü. Kiçikbəyim uğunub getdi.

Şagird Nəcəfə ikinci bir sual verdi:

– Axund, – dedi, – dara düşmüşdüm, nəzir elədim ki, dardan qurtarım, ac, lüt bir zənən xeylağına beş əşrəfi nəzir verim. Səndən etibarlı kim ola bilər ki, al bu əşrəfiləri bir lüt zənən xeylağına ver.

Nəcəf qızılları alıb, şagirdini buraxdı. Sonra əbasının altından bir dişi meymun çıxardı. Meymuna bir tuman, bir də gödəkcə geydirmişdi. Nəcəf meymunun paltarını soyundurub dedi:

– Ey tanrının tumançaq heyvanı. Səhərdən yeməmisən, qarnın acdır, özün də zənən xeylağı, al bu əşrəfiləri, sənə nəzir deyiblər.

Yenə xalq qəhqəhə ilə gülür, Nəcəf isə yeni təqlidlər çıxarmağa hazırlaşırdı.

## 13

Divanxana meydanından tutmuş xan sarayına qədər uzanan geniş sahə camaatla dolu idi. Sarayın darvazası qarşısında nökərlər tərəfindən qorunan yarım dairədə əlvan çullu, başları rəngin qotazlar, göz

muncuqları və balıqqulaqları ilə bəzənmiş, boynu zınqırovlu dəvələr durmuşdu. Dörd-beş dəvənin üstündə Kəşmir şalına tutulmuş kəcavə vardı. Arxadakı dəvələrə məfrəşə qablanmış cehizlər yüklənirdi. Hər dəvənin örkəni şişpapaq, beli qəməli bir sarbanın əlində idi. Ətrafa toplaşan camaat bir-birini basaraq, dəvələri, bilxassə yüklənən cehizləri daha yaxından görməyə can atırdı. Atlı dilavərlər, atlarını səyirdərək arabir saraya doğru axan camaatı qamçılayıb geri qaytarırdı. Ətraf evlərin damları, artırmaları, küçə qapıları qadın, qız və uşaqla dolmuşdu. Saray divarının dibində başqa qadınlarla bir yerdə Telli ilə Gülnaz da durmuşdu. Bunların ikisi də çit çadra örtmüş və dodaqlarına qədər yaşmanmışdılar.

Telli dirsəyi ilə bacılığının qoluna toxunub dedi:

– Ay qız, Gülnaz, deyirəm, xoş halına Kiçikbəyim ağanın! Görəsən onun da dərdi var?!

Gülnaz çiynini atdı:

– Kim bilir, dərdsiz də adam olar?

Qadınların bir-birini itələyib, saray darvazasına tərəf irəliləməsi bunların sözlərini yarımçıq kəsdi. Qadın dalğası bunları da sürükləyib, sarayın həyətinə saldı. Yanları çocuqlu və çocuqsuz qadınlar daş pilləkəndən artırmaya çıxırdılar. Telli ilə Gülnaz da çıxdılar. Kallayının qapısına toplanmış qadınları güclə aralayıb içəri girdilər. Yuxarı başdakı xanımlar arasında ağ geyimli, ağ duvaqlı, incə vücudlu Kiçikbəyim gözə çarpırdı. Hər tərəfində ağ duvaqlı bir yengə durmuşdu. Anası ona nə isə söyləyir, ikisi də ağlayırdı. Kiçikbəyimin gözləri büsbütün qızarmışdı, solğun çöhrəsi sınıxmış və dərin bir kədər saçırdı; alnının çapığı indi daha da çox gözə çarpırdı. Xanımlar bir-bir ona yanaşır, xeyir-dua verir, kimi əlindən, kimi üzündən öpürdü. Yetişmiş qızlar yanaşır: “Bəxtəvər olasan!” – deyib, əllərində tutduqları yaşıl saplı iynəni onun duvağına batırır, sonra yaxalarına sancırdılar: – “Mənim də baxtım açılsın “ – demək idi. Kiçikbəyim bu el adətinə riayət edərək bir söz demirdisə də, ürəyində: “Ərə getmək bəxtəvərlikdirmi?” – deyə düşünür və köksünü ötürürdü.

Nəhayət, sazəndələr çalmağa başladı. Xanəndə oynaq səsi ilə oxudu:

Sizdə də badam,
Bizdə də badam,
Yengəyə qadam,
Dursun, oynasın!

Sizdə də kürək,
Biz də kürək,
Yengəyə ürək,
Dursun, oynasın!..

Yengələr tez-tez duvaqlarını arxalarına ataraq oynamağa başladılar. Məclisə bir şənlik gəldi. Yengələrdən sonra Baba lələ və dayə Gülgəz dəsmallarını sallayaraq, “ Ağabala rizayisi “ oynadılar. Sonra ikisi də Kiçikbəyimin yanına gedib, ayaqlarına yıxıldılar. Lələ ilə dayənin hönkürtü ilə ağlamalarını görən Kiçikbəyim də özünü ağlamadan saxlaya bilmədi. Şahnisə xanım da onlara qoşuldu...

Tam dəstəyə yeddi saat qalmış dışarıdan bir təbil səsi eşidildi, bu karvan hazırdır demək idi. Qaravaşlar qadınları kallayıdan çıxarmağa başladı. Kallayı kənar adamdan boşaldılandan sonra, qonşu otaqlardan birisinin qapısı açıldı, İbrahim xan, Vaqif, Məmmədhəsən ağa, Ohan keşiş, Məlikşahnəzərin gənc oğlu Cəmşid, xanzadələr, o cümlədən Məmməd bəy içəri girdilər. Xan qızı ilə görüşüb, öpüşdü. Vaqif Kiçikbəyimin alnından öpdü, o birilər də görüşüb kənara çəkildilər. Gəlinin və yengələrin duvaqları aşağı salındı; üzlərinə duvağın üstündən cığcığa taxılmışdı. Bəylərbəyinin qardaşı gəlinə yanaşıb papağını çıxarıb, onun başına qoydu, öz kəməri ilə gəlinin belini toqqalayıb dedi:

Qızım səni qız istərəm,
Qaş-gözünü düz istərəm,
Yeddi oğlan anası ol,
Bircə dənə qız istərəm.

Bel bağlamanın icrasından sonra Kiçikbəyimin bir qoluna İbrahim xan, o birinə Vaqif girib kallayının ortasına gətirdilər. Dörd-beş qul-qaravaş gətirib Kiçikbəyimin başına dolandırdılar, sonra onların üzlərini qapıya tərəf çevirib, kim isə:

– Azadsınız! – deyə bağırdı.

Saraya alışmış qul-qaravaş getmək istəməyərək hönkürüşdülər. Bu adətin icrasından sonra İbrahim xanla Vaqif Kiçikbəyimi qapıya doğru apardılar. Zurnaçılar qabağa düşüb, “Gəlin atlandı” havası çalırdılar. Qapının girəcəyinə üzüqoylu bir boşqab qoyulmuşdu. Gəlin bunun üstünə çıxıb sındırmalı və həyatda üz verə biləcək bütün dərd-bəlaya qalib gəlməli idi. Kiçikbəyim boşqabı sındırıb keçdi.

Gəlinin artırmada görünməsi ətrafa toplanan əhali içində bir həyəcan doğurdu. İzdihamın üzərindən bir şışıltı dalğası keçib sakit oldu...

Kəcavəli dəvələr irəli çəkilib xıxırdılmışdı. Kiçikbəyimi kəcavənin bir gözünə, yengənin birini də o biri gözünə mindirdilər. Gedəcək başqa adamlar da ikinci yengə ilə o biri kəcavələrə yerləşdilər. Dəvələr qalxdı, kədərli zınqırov səsləri ətrafa yayıldı. Kiçikbəyim duvağını qaldırıb son dəfə olaraq doğma yurduna, yaxın adamlarına bir nəzər saldı. Hər şey sanki təbii idi. Yalnız Məmməd bəyin pəjmürdə durması bir xəncər olub onun qəlbinə sancıldı.

14

Kiçikbəyim köçdükdən sonra sanki Şişə yenə adi həyat yolu ilə gedir və onun asayişini pozacaq heç bir hadisə görünmürdü. Lakin bir neçə gün sonra küçələrdə vurulan təbil və çalınan şeypur yenə təzə bir hadisə baş verdiyini xalqa bildirdi. Hər kəs küçə qapısına toplanıb, qoşunun keçməsini seyr edirdi. Kazımın ailəsi də qapıya çıxmışdı. Telli ilə Gülnaz yaşmanaraq, ləzgi və kumukların atlanmasına, şeylərinin ata, qatıra, eşşəyə yüklənməyinə tamaşa edirdilər. Qoşun içində hər sinndə adam vardı.

Gülnaz Tellinin qulağına pıçıltı ilə:

– Ay qız, – dedi, – bircə o çalbığ kişiyə bax, yəqin yanındakı uşaq da oğludur.

– Oğludur, mən tanıyıram, görmürsən, necə oxşayır?!

Kazım da Gülnazın atası Allahqulu ilə işi tərk edib küçəyə çıxmışdılar. Kazım gülərək dedi:

– Ay Allahqulu, yaxşı ki, yaxamızı bu vurhavurdan qurtardıq. Yoxsa, indi gedirdik.

Allahqulu istehza ilə:

– Nə bilirsən, qurtarmısan? – dedi. – Gəncə xanının qoşunu çox olsaydı, indi bizi də aparmışdılar.

– Axı, Gəncə xanı Məmməd xan tək deyil ki! Onun hünəri nədir İbrahim xanın itaətindən çıxa! Bir qurd yolla keçirdi, gördü dağın başında bir quzu durub. Quzu qurdu görəcəyin ona söyməyə başladı. Qurd quzuya baxdı, baxdı, sonra dedi: "Ay quzu, bu cürət sənin deyil, o dalını dayadığın dağındır". İndi, usta Allahqulu, Məmməd xan da belədir, dalında Quba xanı Fətəli durmuşdur. Fətəli durmasaydı, bu

qələti eləməzdi. Məmməd xan bir daşdı, onu İbrahim xanın ayağının altına itələyib salan var...

Qoşun dəstə-dəstə, pərakəndə bir halda gəlib keçirdi. Kiminin piltəli, kiminin çaxmaqlı tüfəngi vardı. Bir çoxları qədim geyimdə: qalxan, qılınclı və zirehli idi. Nizə, toppuz, mızraq və dəbilqələr günəşdə parıldayırdı. Zəmburək* bir neçə dəvə keçdi...

Allahqulu başını ehtiyatla tərpədə-tərpədə, yavaşca:

– Ay usta Kazım, – dedi, – öz aramızdır, bu xanlar il uzunu bir-biri ilə dava eləyirlər, kasıb-kusub əldən gedir.

Davaların hər üzünü görmüş Kazım istehzalı bir təbəssümlə:

– Usta, bunlar yal davasıdır. Molla Nəsrəddin yatmışdı, gördü artırmada səs-küy qopdu. Molla yorğanına bürünüb artırmaya çıxan kimi səs-küy kəsildi. Qayıtdı gəldi. Yorğanı yox idi. Arvadı soruşdu ki, a molla, o nə səs-küy idi? Dedi: arvad, bütün səs-küy mənim yorğanımın başında imiş: aldılar, dincəldilər... İndi, usta, dünyanın qilü-qalı yorğan üstədir. İndiyə qədər Gəncə İrakli xan ilə İbrahim xana bac verirdi. İndi Məmməd xan şabalıda dönüb, yağ vermir...

Qoşun keçib getdi, arxasınca da bir sürü uşaq və gözü yaşlı qadın toz qopararaq yürüyürdü.

Kazım ilə Allahqulu karxananın həyətinə girdilər. Orda-burda şəlitlərə əlvan rəngli darayılar sərilib, qurudulurdu. Darayıların aşağılarından damcılayan rəngli sudan gölməçələr əmələ gəlmişdi. Bir tərəfdə toyuq-xoruz tozda eşələnirdi. Darvazaya yaxın bir gavalı ağacı vardı. Ustalar əllərini yuyub gavalı ağacının altına salınmış həsirin üstündə əyləşdilər. Hava isti idi. Səhər küləyi belə əsməyirdi. Göydə üzən ağ bir bulud parçası gümüş kimi parlayırdı.

Kazım buluda baxıb, tənbəl bir səslə:

– Yaman quraqlıq keçir, – dedi. – Belə olsa taxıl yanıb korlanacaq. Allah rəhm eləsin!

– Mollalar Daşoxunana gedib, daşa dua oxuyub bir suya salseydilər... Yadımdadır, bir dəfə getmişdilər. Elə yağış yağdı ki, islanmış cücə kimi qayıtdılar.

Şagirdlərdən biri sinidə iki sac əppəyi, bir az motal pendiri, iki fincan da quluncan çayı gətirdi, ustaların yanına qoydu. "Bismillah" çəkib, yeməyə başladılar. Lığırsa** çörəyi iştahsız çeynəyərək arabir

---

* Zəmburək – dəvə belinə bağlanan kiçıik çaplı top

** İçi yaxşı bişməmiş çörək

danışır, qırıq-qırıq fikirlər və mülahizələr yürüdürdülər. Bir az əmtəələrini satdıqları tacirin bədxahlığından danışdılar, sonra ticarətin dayandığından bir az şikayətləndilər. Axırda yenə dava məsələsinə keçdilər. Allahqulu yenə yavaş səslə:

– Axı, alış-veriş başına nə kül töksün, mal gərək su kimi axsın ki, qazanc olsun. Karvan gedir, yolda qaçaq-quldur qabağını kəsir; hansı xanın mülkündən keçir, torpaqbasdı alırlar... Alış-verişçiyə tobalatma verirlər. Bax, bizim ermənilər urus torpağına qaçmışlar. O günü birisi Qızlar şəhərindən gəlmişdi, deyir, hamısı dövlətli olub gediblər. Çaxırçılar var ki, qızılı kürəklə kürəyirlər... Burda heç belə iş olarmı, o saat tutub əlindən alarlar...

Allahqulunun qaşları yuxarı qalxmışdı, üzündə dərin bir narazılıq ifadəsi vardı.

Kazım böyük bir etiqadla:

– Ay Allahqulu, – dedi, – dünya malından çox danışırsan, neynirsən, goruna aparmayacaqsan ki... Sərmayeyi tu dər in cahan yek kəfən əst – ura ki, güman nist, bəri ya nə bəri*. Ay usta dövlətin də dövlət dərdi var, dünyada dərdsiz insan yoxdur! Azacıq aşım, ağrımaz başım – hamısından yaxşıdır: beş gün dünyanı birtəhər yola ver, get... Bizim şair yaxşı deyib:

Dər hər kəsi ke, nim nanı darəd,
Əz bəhre nişəst asetani darəd,
Nə xademe kəs bovəd, nə məxdume kəsi-
Gu şad bezi ke, xoş cihani darəd.**

Kazım fəlsəfəsinə məftun olduğu bu şeri Allahquluya tərcümə elədi, çox doğru olduğunu nə qədər iddia etdisə də, Allahqulunu qane edə bilmədi. Çünki Allahqulunun özünün müəyyən həyat planı vardı: o, bir gün imkan tapıb, dövlət, mal sahibi olacağına inanırdı. Bilirdi ki,

---

* Sənin bu dünyada qazandığın bircə kəfəndir ki, onu da aparıb-aparmayacağına güman yoxdur.

** Dünyada kimin ki, bir çörək parası var,
Bir də oturub durması üçün bir daxması var,
Heç kimsəyə o, demə, nə quldur, nə ağa
Gülsün, yaşasın, desin ki, xoş dünyası var.

Xəyyamın bu rübasini prof. Əkrəm Cəfər tərcümə etmişdir (*Red.*).

onun ibtidai halda, min əziyyətlə vücuda gətirdiyi əmtəəni rus torpağında maşın qayırır, özü də onunkundan ucuz, onunkundan qat-qat da yaxşı olur. Belə bir maşın malını gətirib, buralarda satmaq, əvəzində bura mətaını rus torpağına aparmaq Allahqulunun başlıca arzularından biri idi.

Bu əsnada Şişənin Gəncə qapısından çıxan qoşun yavaş-yavaş uzanaraq dağlıq yolları və dərələri doldururdu. Qoşunun önündə İbrahim xan, sol tərəfində Vaqif və ətraflarında xanzadələrin bəzisi və sərkərdələr gedirdi. Çoxdan səfərə çıxmamış atlar yüyəni gəmirirdilər.

15

Səfər xanın qərarını bilər-bilməz yola düşdü. Qarabağ hüdudu sayılan Kür çayını keçib Şirvan torpağında bir kənddə gecələdi. Orada təsadüfən Fətəli xanın zülmündən qaçmış bir kəndliyə rast gəldi. Onunla dostlaşdı və Quba xanlığı sərhədinə qədər ona bələdçilik eləməsini rica etdi. Kəndli razı oldu, atları minib yola düşdülər. Yolda gecələdikləri yerlərdə yeni-yeni adamlara rast gəlib xəbər tutdular. Nəhayət, gəlib hüduda yetişdilər. Kəndli irəlidəki yolları və kəndləri soraq verib qayıtdı. Səfər isə yaxın bir obada düşüb qaldı. O burada xan ilxısının dağa aparıldığını öyrəndi. Dürüst məlumat topladıqdan sonra yenə yoluna davam etdi. Nəhayət, bir axşam çağı gəlib Miraxurun düşərgəsinə çıxdı.

– Allah qonağı istərsənmi? – dedi.

– Allaha da qurban olum, qonağına da! – deyə Səfəri qonaq qəbul etdilər.

Adət üzrə qaravaş gəlib, qonağın ayaqlarını yudu, alaçığın qarşısında altına döşək saldı, qatıq-çörək gəldi. Miraxur da onun yanında oturub söhbətə başladı. Toran yavaş-yavaş qovuşur, qürubun sumağı boyaları tutqun pəlmələrə bürünürdü. Ətrafa çökən sükutu yalnız çayın xülyapərvər şırıltısı pozurdu. Yuxu da qaranlıq kimi seçilməz bir hərəkətlə gözlərə çökür, onların işığını söndürməyə çalışırdı. Yataqlar düzüldü, hər kəs başını yastığa, mütəkkəyə söykəyib yatdı. Miraxur da alaçığa, arvadının yanına çəkildi. Gecə qaranlığa doğru qoşur, göydən sallanan minlərcə qəndillər sanki ona yol göstərirdi. Hər kəs yatmış, yalnız Səfərin gözlərinə yuxu getmirdi: Qəmər ilə Şahbazın fikri ona rahatlıq vermirdi. Arxası üstə uzanıb, ulduzlara baxır, ona elə gəlirdi

ki, oradan Qəmərlə Şahbazın gözləri parlayırdı. Bəzən bu gözlər arasında Tellinin də üzüm giləsi kimi qara gözləri utancaq bir halda ona baxır, həsrətində olduğunu duydurmaq istəyirdi. Səfər yerində qurcuxur, sonra yenə gözlərini ulduzlara dikərək, qəlbinin nalələrini, fəryadlarını dinləməyə başlayırdı.

Bu əsnada ehmal ayaq səsi gəldi. Xəyala dalmış Səfər bu səsə əhəmiyyət vermədi – bayğın gözləri sayrışan ulduzlar arasında dolaşırdı. Lakin yaxınlaşan tappıltı onun qulaqlarını ayıltdı – kim isə alaçığa yaxınlaşırdı. Səfər gözünün ucu ilə qaranlığı seyr etdi. Bir adam gəlib, alaçığın yanında dayandı, ətrafa diqqətlə baxıb əyildi, yerdə nə isə axtarıb, özünə tərəf çəkməyə başladı. İçəridən boğunuq bir səs gəldi, acı bir fəryad duyuldu. Səfər cəld əlini mütəkkənin altına uzadıb, xəncərini götürdü və yatağından qaplan kimi sıçradı, onun bağırtısı ildırım kimi şaqqıldadı. Alaçığın yanındakı adam toz kimi sovrularaq qaranlıqda itdi. Səfər onu təqib eləmədi, qulağını alaçığın çətənlərinə söykəyib dinlədi. İçəridən hirsli səslər eşidilirdi. Miraxurun boğunuq səsi yavaş-yavaş aydınlaşırdı: o, arvadını hədələyir, məzəmmət edirdi. İncə, qumrov kimi cingildəyən qadın səsi isə ona hücum edir, töhmətləndirirdi...

Səfər gəlib yatağına uzandı. Bir-iki dəqiqədən sonra Miraxur içəridən çıxıb gəldi, mütəkkəsinə söykənmiş Səfərə tərəf əyilərək yavaşca:

– Qonaq, gördün? – dedi. – Tikəm osanata düşdü. Yuxuda boğazıma kəmsik salıb, məni boğmaq istəyirdilər. Yaxşı ki, sən oyaq imişsən.

Miraxur hirsindən sözünə davam edə bilmədi, Səfərin qolundan yapışıb, onu alaçıqdan kənar bir təpəyə apardı. Oturdular. Miraxur çubuğunu yandırıb, dərdini açdı. Onun gənc arvadının oynaşı varmış. Duyurmuş, tuta bilmirmiş. Bir dəfə arvadını öldürmək istəmiş, arvad and-aman eləyib, onu şübhədən daşındırmışdı. Nəhayət, Miraxuru öldürmək xəyalına düşürlər.

– Qonaq! – Miraxur dedi. – Tanrı səni arvadın məkrindən uzaq eləsin! “Əyri dostdan, dost olmaz – əyridir bir damarı”... Arvadın bir damarı həmişə əyridir!..

Miraxur özünü toxdatmaq üçün çubuğa bir qullab vurdu. Üfüqə toplanan qara buludlara baxdı, köksünü ötürdü. Səfər donub qalmışdı. Miraxur sözünə davam etdi:

– Sən mənim canımı qurtardın, ay qonaq, indi de görüm, sən kimsən, nəkarəsən? Biz beş qardaşdıq, dördümüz davalarda tələf olduq. İndi bircə mən qalmışam, sən mənim dünya-axirət qardaşım ol. De görüm, sənin dərdin nədir? Varımı, canımı səndən əsirgəməyəcəyəm!

Səfər Miraxurun səsində bir səmimiyyət və mərdlik duyub, dərdini açdı. Başına gələnləri bir-bir söyləyib, axır məqsədini də gizlətmədi. Miraxur bir müddət susdu, sonra heyfsilənən bir səslə:

– Bunların hamısı yaxşıdır, – dedi. – Ancaq... Heyf ki, sən də arvad felinə düşübsən... Gəl bu daşı ətəyindən tök! Axırı yoxdur. Atları səndən əsirgəmirəm, minək gedək... Arazı o taya keçək, Kərbəla torpağına dəxil düşək, ömrümüzü dua-niyazla keçirib, cifeyi-dünyaya aldanmayaq...

Səfər dinmədi. Üfüqdə kənarları qızaran qara buludlara tamaşa edərək orada məsum baxışlı Tellinin al yanağını, dağınıq qara tellərini gördü. Ürəyi kədərlə doldu.

Miraxur bir az hiddətli, bir az da mehriban və minnətdar bir səslə:

– Qonaq, – dedi, – ürəyinə pis fikir gəlməsin: atlar da, canım da sənin kimi mərd oğlana qurbandır. Ancaq sənə yazığım gəlir, cavansan, elə olmasın ki, mənim kimi ağsaqqal vaxtında boynuna araclıq gəlsin.

Səfər dinməyirdi. Tellinin yanaqları dan yerinin qızartısından parlaq idi. Onun gözləri sönməkdə olan ulduzlara işıq verirdi.

Miraxur hirsli bir hərəkətlə qalxıb getdi. Çox çəkmədi, Qəmərlə Şahbaz yəhər-əsvablanıb gətirildi.

– Qonaq, – dedi, – durmaq vaxtı deyil, min gedək!

Cəld minib yola düşdülər. Yaxındakı çayı keçib bir söyüdlükdə dayandılar. Miraxur dedi:

– Tüfəngim yadımdan çıxdı. Sən burada dur, bu saat gedim, gətirim.

Miraxur öz atını da Səfərin yedəyinə verib getdi. Onun dönməsi təqribən on dəqiqə çəkdi. Səfər Qəmərin dalğalı yalını tumarlayaraq, atın alaqaranlıqda Dəməşq qılıncı kimi yarımdairə təşkil edən boynuna, qürurla dönən başına tamaşa edərək, heyran qalmışdı. O indi özünü yeri zəlzələyə gətirən Qızıl öküz belində hiss edirdi: Qəmər ona nəşəli və yenilməz bir qüdrət vermişdi.

Yüyürən ayaqların tappıltısı onun nəzərini cəlb etdi: Miraxur böyürdən çıxıb, qeyzlə yerə bir şey yuvarlatdı:

– Vəfasız arvadın aqibəti belə olar! – dedi, atın belinə atıldı. – Sür!

Qəmər yerə atılan şeyə baxıb ürkür, fınxırırdı. Səfər də diqqətlə ora baxdı: otun arasına pərakəndə saçlı bir qadın başı düşmüşdü.

16

Səfərlə Miraxur Kürün qırağına qədər bir yerdə getdilər, orada halallaşıb ayrıldılar: Səfər Şişəyə tərəf, Miraxur isə Araza doğru getdi. Yolda Səfər təsadüfən Gəncədən zəfərlə dönən İbrahim xan qoşununa rast gəldi. Gözləri çıxarılmış Məmməd xanı üzüqoylu eşşəyə sarınmış bir halda gətirirdilər: ailəsi və qardaşı Rəhim bəy də burada idi. Yüklü ulaqlar, qatırlar, atlar ağır-ağır yürüyürdü. Gəncəni və bütün kəndlərini talayıb gətirirdilər.

Səfərin altındakı at hamının nəzərini cəlb etdi. Hələ qoşun gedən yola çatmamış pişxidmətlər göndərilib, atın kimin olduğunu soruşdular. Bir dəqiqədə Səfərin adı ağızlarda dolaşdı, minlərcə göz ona dikildi. Səfəri xanın yanına gətirdilər. O, atdan düşüb baş endirdi:

– Mən buyurulanı elədim, indi ixtiyar xanındır! – dedi və başını qaldırmadı.

Vaqif əndişəli bir nəzərlə xana baxırdı; xanın qəzəb dolaşan üzündə mərhəmət görünməsi Vaqifi sevindirdi.

Xan amiranə bir səslə:

– Olmuşları igidliyinə bağışladım! – dedi, gülümsünərək Vaqifin üzünə baxdı. Orada təsvib ifadəsi görərək, daha da mərhəmətli bir səslə: – Qəməri min, muğayat ol, onu sənə tapşırıram.

Səfər atın yedəyindən tutub xan və məiyyətindən uzaqlaşdı; sərkərdələri də irəli buraxıb, sonra ata mindi. İndi o, özünü dünyanın ən xoşbəxt adamı hesab edirdi: bağışlanmışdı, özü də Qəmərin belində Şişəyə, Tellinin yanına gedirdi. Yenə sevgi dalğası onu qapladı – onun yalnız qanadı yox idi. Lakin tükənməz yol bitməyirdi, dəqiqələr illər kimi uzanıb gedir, həsrət atəşi aranın yay günəşindən də dəhşətli idi, lakin həsrət sərab kimi aldadıcı da olsa, intəhasız deyil, – saatlar ağır da olsa, yenə gəlib keçirdi.

Yandırıcı günəş qüruba doğru gedirdi. Nəhayət, dağların sərin küləyi əsməyə başladı, artıq şəhərə bir-iki dolama qalırdı.

Çaparlar əvvəlcədən xanın gəlməsini şəhərə xəbər vermişdilər. Camaat – arvadlı-kişili, qala qapısının girəcəyindəki yamacları tutmuşdu. Bizim dostlarımız Kazım, Allahqulu, Gülnaz və Telli də orada

idi. Şuşu dərəsindən toz qopdu, bir-iki çapar da at çatladaraq xəbərə gəldi. Xalq dalğalandı, yerləri çökək olanlar ayaq üstə qalxmaq istədilər. Həyəcanlı səslər: "Otursanız!" – deyə onları oturmağa məcbur etdi.

Gülnaz cəld:

– Ay qız, – dedi, – Telli, başını belə tutsan, mən heç bir şey görə bilməyəcəyəm.

Telli gülə-gülə:

– Zarafat eləmirsən ki? – dedi, Gülnazın çənəsini əllədi.

Zarafata başlayan Telli başını əyib Gülnazın ağzını yamsılayırdı. Gülnaz isə onun başının üstündən aşağıya, qəbiristanlığa tərəf baxırdı. Birdən ansızın bir qışqırtı ilə:

– Gəlirlər, vallah gəlirlər! – dedi.

Telli cəld çevrildi. Xan məiyyəti ilə yamacı çıxırdı. Sükut ətrafı qapladı. Hamının diqqəti oraya cəlb olundu. Qoşun da görünməyə başladı.

Artıq xan məiyyəti ilə bizim qızların qarşısından keçirdi: üz-gözlərinə toz qonmuşdu, günəşdən sifətləri qaralmışdı. Vaqif çevrilib, qadınlar oturan yamaca nəzər saldı, onun gözü Telliyə sataşıb dayandı. Telli qızararaq başını aşağı saldı. Xanla məiyyəti qala qapısından içəri girib yox olduqdan sonra Telli təkrar tamaşaya daldı.

Bir də onun gözləri bir nöqtəyə dikilib qaldı; qan üzünə vurdu. Taqətsiz qolu ilə Gülnaza toxunub:

– Ay qız! Ay qız! – dedi. – Bax o bizə gələn oğlan da buradadır. Nə qəşəng atı da var!..

Qəmərin gözəlliyi ağızdan-ağıza keçib, bütün xalqı dolaşdı, sorğu-suallar başladı. Nəhayət, süvarinin də kim olduğu meydana çıxıb ətrafa yayıldı.

Telli qulağına inanmırdı;

– Ay qız, Gülnaz! O hardan oldu Səfər. O, Səfərin adamıdır, Səfər deyil!

– Nə deyirsən ay qız, camaatın elə hamısı yalançıdır. Qaçaq Səfər sizə gəlib deməyəcəkdi ki, mən Səfərəm...

Telli gözlərini Səfərdən çəkmir və Səfərlə Qala qapısının arasındakı məsafənin yaxınlığına heyfsilənirdi... Qəmərin nallarından qopan səslər Qala qapısının tağına düşüb, cingildədi... Telli arxadan gələn əsirlər qafiləsini, əlvan geyimli əsgərləri, nizə başlarındakı qaralmış

insan başlarını... görməkdən aciz idi. Onun fikri, qara gözləri və çırpınan qəlbi ancaq Səfərin yanında idi.

17

Gəncə səfəri İbrahim xanın nüfuzunu Azərbaycan xanlıqları arasında bir qat daha artırdı. Sarayda böyük şadyanalıq oldu. Xələt-barat paylandı. Şəhər çıraqban olub, toplar atıldı. Lakin bu nəşəni İranı otuz ildən bəri vəkil adı ilə idarə edən Kərim xan Zəndin ölüm xəbəri pozdu. Sarayı yenə əndişələr qapladı. İbrahim xan bu xəbəri alar-almaz Vaqifi yanına çağırdı. Sarayın otaqlarından birinə qapandılar. Burada Şərqdə törəyən övza təfsilatı ilə müzakirə olundu. Vaqif özünəməxsus soyuqqanlılıqla dedi:

– İran hər iyirmi-iyirmi beş ildə bir hərc-mərclik keçirir. Deməli, Nadir şahın zühurundan əvvəlki vəziyyət təkrar başlayır. Hər şəhərdən bir xan baş qaldıracaq, müsəlman qanı su yerinə axacaq...

Xan təlaş ilə:

– Bunun sonu yəqin bizə də pis olacaq? – dedi və diqqətlə Vaqifin üzünə baxdı.

Vaqif yüsur təsbehini aramla çevirərək:

– Labüddən, – dedi, – o xərabənin keşməkeşi nə vaxt bizi yaralamamışdı ki? Nadir ölkədə sağ yer qoymadı – hər yer xərabəyə döndü. Qarabağ və Şirvan əhalisini sürüb Xorasana aparmadımı? Nə qədər adam tələf oldu...

Araya sükut çökdü. İkisi də yaxın keçmişdəki acı hadisələrin xatirəsinə daldı...Vuruşmalar, qan, yanğın. Aclıq, vəba... Fəlakətin həddi-hüdudu yox idi...

İbrahim xan qalxıb, təkrar bardaş qurdu, ipək püştəni sol dirsəyinin altına çəkib söykəndi:

– Cəhənnəm! – dedi, – heç olmasa nə oyunları var, Arazın o tayında çıxaraydılar, xətəri bizə toxunmayaydı!

– Heç ola bilərmi? Bizdən itaət etmək tələb olunacaq; etsək bir dərd, etməsək iki dərd.

Xan yenə iztirabını ifadə edən bəzi hərəkətlər yapır, qəlyanı çəkib, neypuşun ucunu saqqalına dayayaraq, Vaqifin üzünə baxırdı. Vaqif gülümsünərək:

– Hələ ehtiyata lüzum yoxdur, – dedi. – Övzayə görə hərəkət edərik. Hələlik Tehran ilə qohumluğumuz var, bəylərbəyi ilə irsal-mərsulu* artırarıq, əhvalatdan baxəbər olub tədbir tökərik.

Vaqifin sakit danışığı xana da sirayət etdi; o, bir az düşünüb, mətin səslə dedi:

– Vəkilin məsləhət və təsiri-bipayani sayəsində Fətəli xan bir az həya edirdi, indi qorxuram o da tüğyan eləyə.

Vaqif üzündə ikrah ifadəsi göstərərək dedi:

– Fətəli xan cibindən başqasını tanımaz. O kim çox əşrəfi versə, onun havasını çalır. Dörd il bundan qabaq rus qoşununu Dərbəndə çağırmadımı? Tabasaran və Qazıqumuq mahallarını ruslarla bir yerdə yəğma etmədimi? Bu məlun dini-mübini islamın yağısıdır. Hədis var ki, Dərbəndə kafir qədəm qoysa, islamın beli qırılar. Bu məlun islamın belini öz əli ilə qırdı.

– Bir qıran, bir də qırmazmı?

Vaqif bir az acıqlı:

– Fətəli xandan beş vaxt namazdan başqa nə desən çıxar, – dedi. – Amma güman etmirəm ki, rus qoşunu əlan gələ bilsin. Gəlmişdi, dayanmadı. Deməli, bir əngəl var ki, dayanmadı. Osmanlı dövləti ilə Yekaterina arasında sülhnamə var, yəqin rusun buralara gəlməyə haqqı yoxdur. Olsaydı, güman edirəm, Dərbənd kimi bir qaladan top-topxanasını çəkməzdi...

Xan ilə Vaqif uzun-uzadı fikir yürüdüb, bəzi tədbirlər görülməsini lazım bildilər: Məmmədhəsən ağa ilə Mirzə Əliməmmədi Araz qırağına göndərib, xan ilə Vaqifin də Kür qırağına getməsi, qoşun və sursat tədarükü görülməsi qərara alındı.

Xan asudə nəfəs alaraq, mina qəlyanaltıda suyu nəşə ilə guruldadaraq, yenə Vaqifə baxdı, çöhrəsində minnətdarlıq ifadəsi vardı. Pişxidməti çağırdı, o dəqiqə hazır oldu:

– Qəlyanı apar!

Pişxidmət ehtiyatla qəlyanı götürüb apardı. Aralı qalmış qapıda Şahnisə xanım göründü:

– Yenə, ay aşiq, xanla nə baş-başa vermisiniz? – dedi, içəri girdi.

Vaqif qalxıb, yerini xanıma verdi. Şahnisə xanım töyşüyərək oturdu:

---

* Məktublaşmanı

– Kərim xana, deyəsən, təziyə saxlamaq istəyirsiniz, – deyə rişxəndlə güldü və sonra tutularaq əndişə ilə soruşdu: – Axund, bəylərbəyinə bir şey olmaz ki?

Vaqif ciddi sima ilə:

– Bəylərbəyi təxt-səltənət sevdasına düşməzsə, nə olacaq ki, – dedi.

Şahnisə xanım ah çəkdi və çəpgəninin pərək düzülmüş qolunu oynadaraq:

– Nə bilim, görünür, tanrının qisməti belə imiş, – dedi və doluxsundu.

İbrahim xan açıq pəncərədən dışarı, şəhərin günbatan tərəfini seyr edib, nə isə düşünürdü. Köçərli məhəlləsinin çubuqdan hörmə evləri, bacalarından tüstü fısqıran qara damlar, təzək qurudan arvadlar, nişanə qoyub ox atan çocuqlar, ağaclarının altında mil oynadan qısa şalvarlı bir neçə gənc bir-bir onun gözünə ilişib keçdi. Sağ tərəfdə yastı bürcün yanında Cavanşir və Otuz iki elinə mənsub əsgərlərin top ətrafına yığılıb məşq etmələri onun diqqətini cəlb etdi: sərt üzü bir az nəşələndi. Yuxarıda kol-koslu qayalıqlar, bunların da üstündə qara buludlar oynaşan qaşqabaqlı göy görünürdü... Xan bu mənzərədən düşüncə ilə ayrılaraq:

– Axund, – dedi, – İrakli xana xəbər verməli, hazır olsun. Bir kağız yazarsan!

– Baş üstə, xan, axşam yazıb hazırlaram. Qasid nə vaxt gedəcək?

Xan cəld dedi:

– Elə günü sabah! Durmaq vaxtı deyil... Nə deyirsən de, amma Fətəli xandan gözüm su içmir. – Xan düşünüb əlavə etdi: – Bir kağız da Ömər xana yaz, qoy hazır olsun.

Vaqif yenə itaətkar bir halda:

– Baş üstə! – deyib, xanın üzünə baxdı və bir şeylər daha dinləyərək kimi, müntəzir bir vəziyyət aldı.

## 18

Vaqif saqqalının xınasını yuyub qurulandı. Evə çağırılmış dəllək onu gözləyirdi. Oturdub üzü oyma naxışlı güzgünü təqdim etdi. Vaqif güzgüyə baxaraq:

– Başla görək, – dedi, – usta, getməli yerim var.

Dəllək qırmızı fitəni Vaqifin döşünə çəkib, uclarını çiynindən aşırdı, başını su ilə islatmağa başladı. Dəlləklər boşboğaz olan kimi bu

dəllək də zəvzək idi, lakin söz torbasını açmağa bir bəhanə arayırdı. Xına məsələsi bir başlanğıc oldu.

– Axund, xına çox bahalanıb, buna xan niyə bir tədbir görmür? – dedi və Vaqifin başını islada-islada əyilib onun üzünə baxdı. Vaqif dinmədi. Dəllək cavab almadıqda bir az güzəştə getməli oldu:

– Amma, – dedi, – adam öləcəkdir, gərək düzünü deyəsən, bahadırsa da, əla xınadır. İnsanı sikkəyə mindirir.

Vaqif yenə dinmədi. Dəllək kisəbəndindən enli ülgücünü çıxarıb qırxırdı. Bir-iki yerdə əli büdrəyib kəsdi, fitənin ucu ilə qanı sildikdə Vaqifin əti çimçəşdi. Lakin yenə dinmədi. Dəllək qana da bir misal çəkdi:

– Kəsilən yerdən qan çıxar – deyərlər. Atalar yaxşı deyib...

Vaqif dəlləyin bütün həkimanə kəlamlarına səbir edib axıradək bir kəlmə belə cavab vermədi. Dəllək başını qırxıb qurtardı, saqqalını və bığını düzəltdi, sonra fitəni götürüb artırmadan çırpmağa getdikdə, yenə də bir-iki misal çəkmək istədi. Lakin Vaqif ayağa durdu, kisəsindən bir neçə bisti* çıxarıb dəlləyə verdi və:

– Usta, – dedi, – xına bahalanıb, bilirəm, əlalığı da bəlli; kəsilən yerdən də qan çıxar, bu da yerində deyilmişdir. Ancaq bir deyilmiş şey də var, onu unutdun:

Qolunda var gücün, usta,
Qanım olsun töycün, usta.
Başımı qırxdığın yerdə,
Sınaydı ülgücün, usta!

Vaqif sözünü bitirib, qonşu otağa keçdi. Qızxanım balaca güzgünü pəncərəyə qoyub tellərini düzəldirdi. Gülab qoxusu otaq ilə bir olmuşdu. Pəncərənin rəngli şüşələrindən düşən işıq onun yanaqlarında min bir rəngə çalırdı. Qara gözləri öz əksindən ilham alaraq fərəhlə dolmuşdu. Ağ biləklərə kəhrəba qolbaq necə də yaraşırdı.

Vaqif cecim pərdənin dalında durub, işvə və nazla səmada dolaşan bir mələkəyə baxırmış kimi onu seyr edirdi. Qızxanımı güzgüyə, pəncərəyə, işığa və bütün cahana qarşı qısqanmağa başladı. O, bir dəqiqə daha dayandı. Ona yasaq olunmuş bu gözəlliyin ahənginə uymağa ça-

* İyirmi qəpik dəyərində sikkə

lışdı. Lakin özünü aldada bilmədi: acı bir kədər varlığının dərinliyində qaynayaraq, bütün vücudunu sarsıtdı. Qapını bərk örtüb, laqeyd bir halda içəri girdi. Qapının səsindən Qızxanım diksindi, ürkmüş ceyran kimi qanrılıb yana baxdı: başı araqçınlı, uzun arxalıqlı Vaqif nə isə arayırdı. Vaqif gözünün ucu ilə ona baxırdı: artıq bu Qızxanım bir dəqiqə əvvəl tellərinə sığal verən Qızxanım deyildi. Çöhrəsinin o mələkə ifadəsi əvəzində indi başqa bir ifadə vardı; bu ifadə şair qəlbinə yağı kəsilmişdi.

Vaqif ehmalca:

– Qızxanım, mənim çuxamı ver! – dedi, səsi qırıldı.

Qızxanım da sərzənişli bir səslə:

– Çuxanı neynirsən, yenə haradı səfər? – dedi.

– İşim var. Mirzə Əliməmmədi görəcəyəm.

– Sənin elə həmişə işin var... Kefindən düşmürsən...

Vaqif işarəni anladı, pərtliyi bir qat daha artdı:

– Ay Qızxanım, – dedi, – sən tanrı, onsuz da pərişan qəlbimi bir də sən qarışdırma! Çuxa istədim, dava demədim ki. Sən duvaqqapmaya gedirsən, mən ki, bir şey demirəm; sən də mənim işlərimə qarışma. Səndən xoş rəftardan başqa bir söz tələb etmirəm.

Qızxanım fırıldayıb yerindən qalxdı, taxçadakı ipək boxçanı açıb zoğalı çuxanı çıxartdı.

Vaqif geyinib otaqdan çıxdı və yenə gözucu arvadını süzdü: qara, ahu gözlərdə odlu yaşlar parlayırdı.

* * *

Telliyə üç gün əvvəl toy olmuşdu, bu gün duvaqqapması idi.

Qızxanım gələndə Telli bacılıqları ilə gərdək dalında idi. Gərdəyin də bəri tərəfində qadın qonaqları oturmuşdular. Qızxanımı hörmətlə yuxarı başa keçirdilər. Oturdu. Üzündə hələ də bir pərişanlıq vardı.

Qonaqlar yavaş-yavaş gəlib yığıldılar. Məşşatə Tellinin anası ilə nə isə danışdı, sonra çıxdı. Bir az sonra əlində bir piy şam içəri girdi. Şamı bir nəlbəkidə otağın ortasına qoydu, yandırdı, sonra üzərinə üzüqoylu bir teşt çevirdi. Teştin üstünə xalça salındı, döşəklər və püştələr qoyulub, gözəl bir taxt qayrıldı, üzərinə ipək süzəni salındı. Gəlini gərdəyin dalından çıxardılar, bir qoluna məşşatə, o birinə də Gülnaz girmişdi. Başına incə bir duvaq salınmışdı. Gətirib yenicə qayrılmış

taxtın üstündə oturtdular. Məşşatə bir sini noğul gətirdi: "Oğullu, qızlı olsun!" – dedi və noğulu gəlinin başından tökdü. Qonaqların hamısı tökülüşüb, noğulları qarpışdılar[*]. Sonra gəlinin qohumlarından bir uşaq, əlində oxlov, irəliləyib, gəlinin duvağını oxlovla cəld qaldırdı və götürüb, otaqdan qaçdı. Bir dəstə uşaq duvağı izləyərək həyətə səpildi. Duvağı aparıb barlı bir ağacın budağına atdılar. Bu adət Tellinin yeni ailə ocağı təşkil etdiyinə işarə və bu ailənin barlı – oğullu, qızlı və bərəkətli bir həyat keçirməsini diləmək demək idi...

* * *

Qızxanım cürləri ilə duvaqqapmada şirin söhbətə məşğul ikən, Vaqif də Mədinənin vüsalına qovuşurdu. Mədinə sərkərdələrdən birinin arvadı idi. Bu sərkərdə İbrahim xanın İran səfərində öldürülmüşdü, Mədinə isə ayrı bir ərə getmək istəməyib, dul oturmuşdu, xırda bir mülkünün gəliri ilə dolanırdı. Çocuğu olmadığı üçün bütün fikir-zikrini özünə vermişdi, həmişə səliqə ilə geyinər, xoş həyat keçirərdi. Otuz-otuz beş yaşına baxmayaraq, daim gənc və nəşəli idi. Onun mehribanlığı, zarafatı, qonaqsevərliyi, hazırcavablığı Vaqifi məftun edərdi. Siması da şair qəlbini məst edəcək qədər gözəl idi. Dolğun, qırmızı dodaqları, sədəf dişləri, qısa və düz qaşları, qonur, müdrik gözləri, ağ, bədirlənmiş üzü olduqca xoş və cazibəli idi. Bunların hamısına da sözlə ifadə olunmaz bir duzluluq və yaxışaqlıq əlavə olunarsa, Vaqifin uğrun vüsallarının mənası aydın olar.

Mədinə həmişəki kimi Vaqifi Topxanaya baxan bəzəkli pəncərənin içində oturtdu. Vaqif gülərüzlü Mədinəyə həsrətlə baxaraq:

Yenə məni yanar-yanar odlara
Dağılmış ayrılıq saldı, sevdiyim...

– dedi, gözlərindən od parladı. Pəncərənin Mədinəyə tərəf açıq tayından sarı-yaşıla, qırmızıya bürünmüş Topxana meşəsinə baxdı. Mavi pəlməyə dalmış meşə tüstü arasından alovlanan kimi görünürdü. Nəşəli bir kədər Vaqifin üzünə yayılmağa başladı:

– Mədinə, – dedi, – bilsən bu rəngin payız meşəsi məndə nə qədər dərd oyadır, hər şey sönür və sönərək təbiətinin parlaq bir təzahürünü nümayiş etdirir, son dəfə bütün aləmə göstərir. İnsan təbiətinin də son təzahürü sevgidir... Gəl, gözəlim, dəm qənimətəst![**]

---

[*] Noğulları hər kəs yesəydi, bu xeyir iş onun da başına gələrdi

[**] Yəni: vaxt qənimətdir

Vaqifin şirin söhbətlərindən həzz alan Mədinə qıvrım tellər arasında cilvələnən ağ gərdənini bir az çiyninə tərəf meyllləndirib, dinləyir, bal dodaqlarına yaxılmış qaymaq təbəssümü ilə şairə ilham verirdi:

– Nə üçün son təzahürü? – deyə xoş bir əda ilə soruşdu.

Vaqif özünü itirdi. Meşədən ayrılıb, Mədinəni süzməyə başladı. Kaşan məxmərindən yapılma püştəyə qürurla söykənmiş Mədinə saray gözəllərini lal edəcək bir hüsnlə Vaqifə baxır, kirpiklərinin ucları ilə onun qəlbini hər an, hər dəqiqə yaralayırdı.

– Mədinə, – dedi və gülümsədi, – son təzahür daha coşqun, daha atəşin olur. Zənn etmə ki, gəncliyin təravətini unutmuşam. Yox! Gəncliklə bahar unudulmaz! Lakin insan təbiətinin son təzahürü payız kimi barlı, idraklı və eyni zamanda da kədərlidir. Bu rəngin, dəbdəbənin arxası ağ saçlı qışdır, amansız əcəldir...

Mədinə qəhqəhə çəkərək şairin sözlərini kəsdi:

– Amandır, nəhs danışma!, – dedi, – sən burda, Mədinə burda, ömür burda!..

Vaqif yenə coşdu, lakin yenə Mədinənin sözlərinin qarşısında çaşıb qaldı. Söz arar kimi ətrafa baxındı. Mədinə isə xırda, şümşad əllərini bir-birinə vuraraq qəhqəhə çəkirdi.

Vaqif də gülümsəyib dedi:

– Söz ki, var, deyir, bülbül kimi bir candır; ürküdərsən ötməz.

Mədinə darğın bir səslə:

– Mən, – dedi, – nəyəm ki, sənin nitq bülbülün məndən ürkür?

– Sən şıltaq bir pərisən, şair baxçasını dolaşar, ahəngini pozarsan.

– Yalnız pozarammı?

Vaqif Mədinənin ədasından həzz alaraq:

– Yox, – dedi, – sən o bağçaya arabir pərişan ahəng, şəkərli bir kədər də gətirərsən. Şairə də bu lazımdır: sızıltılı bir ney, qan saçan bir qəlb, səmalarda dolaşan bir sevgi pərisi...

– Bu səni bəxtiyar edirmi?

– Bəxtiyarlıq nə deməkdir? – Xoş bir dəqiqə, təmənnasız bir təbəssüm, yeniyetmə bir gəncin eşq duyğusu.

Mədinə heyrətlə Vaqifi dinləyir, lakin xoşnudsuzluq göstərirdi:

– Şair, – dedi, – bu söylədiklərin həqiqətə bənzəməyir: xanlığın müşaviri, dövlətin rüknü olan bir adamdan bu sözləri eşitmək...

Vaqif ciddi bir sima ilə onun sözlərini kəsdi:

– Mədinə, – dedi, – dövlət işləri cəmisi bir vəzifədir. Qəlb isə bunlardan kənar bir aləmdir. Onun da özünün tələbləri var: sevgisi var – adi sevgi deyil; şöhrəti var – adi şöhrət deyil; zövqi var və bu zövq də onun mahiyyətini təşkil edir.

Mədinə yenə ima ilə gülümsədi:

– Vəzifə kimin üçündür, qəlb kimindir?

– Vəzifə dövlətin, ailənin, arvadın, uşağın, qəlb isə yarındır.

Mədinə məmnun bir təbəssümlə gülümsəyib, zarafatla dedi:

– Kişilərə inanılırmı? Qəlbləri bir şərbət piyaləsi kimi əl-əl gəzir, heç kəs də doyunca içməyir.

Vaqif cəzb olmuş kimi:

– Mədinə, doyunca nə deməkdir? – dedi. – Hər şey doyumluq olsa, zövq olurmu, həsrət olurmu, şeir olurmu?

Mədinə yenə qəhqəhə çəkdi:

– Şair, – dedi, – kənddən mənə alma, armud göndərmişdilər: sənin payını saxlamışam. Belə görürəm ki, bunların heç biri sənə lazım deyil: doyarsan, həsrətin, zövqün ölər.

Mədinənin zarafatı Vaqifin çox xoşuna gəldi, uğunub getdi:

– Yox, çərəzdən keçmək olmaz? – dedi və qalxıb otaqdan çıxan Mədinənin arxasınca sirli bir baxışla baxdı.

Al yaşıla bürünmüş Mədinə əlvan xalılar, pərdələr, rəflərdəki alabəzək qablar arasında sabah yelindən titrəyən çöl laləsini andırırdı.

## 19

Vaqifin İbrahim xanla məşvərət zamanı dediyi sözlər doğrulmaqda idi. Kərim xan Zəndin ölümündən sonra İranın hər tərəfindən dikələn xanlar taxt-səltənət üstə qan tökməyə başlamışdılar. Bunların içində ən qüvvətliləri Cəlayir türklərinə mənsub Qacar xanları idi. Qacarlar bütün türk ellərində sərkərdələri Qacar xanın adı ilə şöhrətlənib, əsrlərdən bəri Gəncə və İrəvan xanlıqları torpağında yaşardılar. Birinci şah Abbas Gəncə civarından otuz min Qacar ailəsi götürüb, Astrabad və Xorasana köçmüşdü. Bu Qacarların sərkərdələri ötədən bəri İran səltənətinə bir neçə dəfə əl atmışdı, lakin müvəffəq olmamışdılar. Hələ Nadir öləndən sonra Məmmədhəsən xan Qacar uzun zaman Kərim xan Zənd ilə vuruşmuş, məqsədinə çatmadan ölmüşdü. Kiçik ikən Adil şah Əfşar tərəfindən axtalanmış Ağa Məmməd də

onun oğlu idi; qardaşı Hüseynqulu xanla bərabər Kərim xan tərəfindən zaval olaraq Şiraza aparılmışdı. Kərim xan Zənd ölər-ölməz Ağa Məmməd xan Şirazdan qaçıb Astrabad, Mazandaran və Gilanı əldə edib, baş qaldırmış başqa xanlarla mübarizəyə başladı. Ağa Məmmədin Astrabada gəlməsi Yekaterinanın xoşuna getmədi, çünki Yekaterina birinci Petronun vəsiyyətinə əməl edərək Astrabad körfəzindəki Əşrəf kəndində liman tikdirib, Hind-Avropa ticarətinin istiqamətini Şimala çevirmək istəyirdi, salınmamış şəhərin adını da əvvəldən Melissopol* qoymuşdu. Ağa Məmməd xan Rusiya ilə anlaşmaq məqsədi ilə Peterburqa səfir belə göndərdi. Lakin rusların Astrabad iddiasını rədd etdiyi üçün, səfiri qəbul olunmadı. Rusiya iddiasında davam edirdi: Murtuzaqulu xanı Gilan xanı Hidayətə kömək verib, Ağaməmməd xana qarşı sövq edirdi.

Həhayət, Rusiya tələbini yerinə yetirmək məqsədilə qraf Voynoviçin komandanlığında Astarbad körfəzinə bir donanma göndərdi. Ağaməmmədin göstərişinə görə donanma gözəl qarşılandı, komanda və tayfaya qarşı xoş rəftar göstərilib, etimadlarını qazandıqdan sonra bir gün hamısını sahilə qonaq çağırıb əsir etdilər. Bir müddət ayaqlarında gündə zindanda yatdıqdan sonra Ağaməmməd "xəbər tutdu", onları buraxdırıb, hörmətlə yanına çağırtdırdı: "İran torpağında bir addım yer belə sizə verilməyəcək, bunu qəbul etsəniz, sizi azad edərəm" – deyə şərt qoydu. Qraf Voynoviç istər-istəməz razı olmağa məcbur idi. Buraxılan kimi donanmasına minib İran sahilindən uzaqlaşdı...

Bu fövqəladə vəziyyətə dair sarayda bir iclas çağırıldı. İbrahim xan bütün ağaları və bəyləri yığmışdı. Mirzə Əliməmməd ağa öz gizli vəkilləri vasitəsilə aldığı xəbərləri söylədi və bu xəbərlərə bir dənə də olsa, şəxsi mülahizə əlavə etmədi. Məclis dərin bir sükutda idi; kimi təsbeh çevirir, kimi qəlyan çəkirdi. Mirzə Əliməmməd məruzəsini bitirmişdi, lakin kimsə danışmağa cəsarət etmədi. Xan ətrafındakılara göz gəzdirib, arabir:

– Ağalar, bəylər, – deyirdi: – deyin görək, fikriniz nədir? Qopan zəlzələni duymursunuzmu?..

Kimsədən cavab çıxmırdı. Vaqif xandan müsaidə alıb, sözə başladı:

– Xan sağ olsun, – dedi. – Mirzə Əliməmməd ağanın verdiyi xəbərləri eşitmişdim. Məncə hələ təlaşa düşmək lazım deyil. Hələlik xoş

* Arı şəhəri

rəftardan başqa əlacımız yoxdur. Fətəli xan kimi açıqdan-açığa rus tərəfinə keçib, Ağaməmməd xanla düşmənçilik etmək qorxulu yoldur. Çünki Arazı aşıb əllərimizi talan edə bilərlər. Ağaməmməd bizə müraciət edib itaət tələb etsə, məsələni təkrar müzakirə edərik, hələlik hazır durmalı və məqam güdməliyik. Başqa çarəmiz yoxdur. Bilirsiniz ki, iki od arasındayıq.

Vaqifin fikirləri hər kəsin üzündə təsvib ifadəsi doğurdu, başların əyilməsi ilə hamının bu fikrə şərik olması meydana çıxdı. İbrahim xan yenə ağalara və bəylərə müraciət edərək:

– Nə dərdiniz var, deyin, daha ürəyinizdə bir şey qalmasın, dedi.

Məmmədhəsən ağa gülümsünərək dedi:

– Daha Axund Molla Pənah kimi cahandidə bir adamın sözündən sonra nə deyəcəyik! Hələ ki, Ağaməmməd xanın başı qarışıqdı; Şirazın və İsfahanın üstünə gedərkən, bəlkə də Murtuzqulu xan rusların köməyilə Astrabadı tutacaq. Hələ ki, bir şey məlum deyil.

Yenə məclisi sükut bürüdü. Məmmədhəsən ağanın öskürəyi sükutu pozdu, o, dəsmalı ilə ağrını silib sakit olandan sonra: – Başqa nə xəbər var? – deyə soruşdu.

Vaqif xanın müsaidəsilə cavab verdi:

– İravan xanı Ərzurum və Qars paşalarına müraciət edib. İraklidən üzülüşmək istəyir. Paşalar da bizə məktub yazıb, Açıqbaşa* kömək etməmizi rəva görməyiblər. Biz də bir elə kağız yazdıq ki, nə hə çıxdı, nə yox. – Vaqif gülümsündü, məclisdəkilər də Vaqifin hərəkətindən xoşlandılar. – Paşalar buradakı işlərdən baxəbər deyillər – işin bu vaxtında İrakli xanla olan dostluğumuza xələl vura biləcək heç bir hərəkətə yol verilə bilməz. İravan xanı istəyir ki, İrakli xana ildə verdiyi altı min tüməndən boyun qaçırsın: keçi can hayındadır, qəssab da piy axtarır, – Vaqif güldü, xan da gülərək başını tərpətdi.

Bu əsnada qapı ehmal açıldı, içəri 17-18 yaşlarında qırmızıyanaq, burnunun dəlikləri geniş bir gənc girdi. Bu yeni mirzəliyə keçmiş Camal** idi. Mirzə Camal əllərini bürmət*** arxalığının döşünə qoyub, salam verdi və ibarətlə:

---

* İrakliyə

** Burada məşhur "Qarabağ tarixi" adlı əsərin müəllifi Mirzə Camal nəzərdə tutulur. O, bir müddət Pənah xanın və onun oğlu İbrahim xanın yanında mirzəlik etmiş, Vaqif öldürüldükdən sonra isə vəzirlik vəzifəsinə təyin edilmiş və 1822-ci ilə qədər (Mehdiqulu xanın vaxtında) bu vəzifəni daşımışdır.

*** İsfahan çiti

– Təsəddüqün olum, xan, – dedi, – Bakı xanı Hacı Məlikməmməd xan hüzuri-əlahəzrətlərinizə yetişmək arzusundadır.

Xan Mirzə Camala tərs-tərs baxdı. Camalın yanaqları daha da qızarmağa başladı.

– Hacı Məlikməmməd xan? – deyə xanın gözlərində qəzəb şimşəkləri oynamağa başladı. – Fətəlinin yeznəsi?..

Hamı bir-birinin üzünə baxdı. Məclisə bir qorxu çökdü. Vaqif xana tərəf əyilib, ehmal bir ifadə ilə nə isə pıçıldadı. Xanın sifəti dəyişildi:

– Şahməmmədin evinə aparılsın! Hələ görüşməyə vaxtım yoxdur... Sabah!.

Mirzə Camal alnının tərini axıda-axıda baş endirib, otaqdan dalı-dalı çıxdı.

* * *

Qışın ikinci ayı idi. Yarım arşın qar yağmışdı. Hacı Məlikməmmədi o biri gün qarın içi ilə piyada olaraq xanın sarayına apardılar. Bir saat soyuq eyvanda gözlətdikdən sonra İbrahim xan onu çağırtdırdı. Məlikməmməd xan içəri girdikdə otaqda İbrahim xanla Vaqifdən başqa kimsə yox idi. Bir-birlərinə ilk dəfə rast gələn bu adamlar əvvəl dinməz baxışdılar; bu baxışda qarışıq ifadələr var idi. Get-gedə Hacı Məlikməmməd xanın həlim sifəti, itaətli duruşu xana və Vaqifə xoş təsir buraxmamış olmadı. Lakin xan yenə hiddətlə qonağı süzür, Vaqif isə zahirdə xan ilə qəzəb şəriki kimi görünsə də, ürəkdən Bakı xanına acıyır, onun mərhəmətli və kimsəyə pislik etmək fikrində olmayan baxışından mütəəssir olurdu.

İbrahim xan qonağa əyləşməsini təklif etməyərək, həyəcanından tutulmuş səslə;

– Nə əcəb? – dedi.

Bakı xanı soyuqdan qızarmış əli ilə samur kürkünün yaxasını düzəldərək:

– Yaşımın çoxu gedib, azı qalıb, – dedi. – Ömrümdə məndən kimsə bir milçək qanadından inciyən qədər də inciməmişdir... Ancaq, dedim, gedim, öz müsəlmanlıq borcumu yerinə yetirim... Çünki haqq yerə gedəcəyəm. Bu aralığa düşən nizain* dəfinə çalışım... Quba xanı

* Narazılıq, düşmənçilik

və Alimərtəbə Qarabağ hökmdarı arasında baş vermiş xüsamətin bica... ümməti-islama yaraşmayan bir iş olduğunu...

İbrahim xanın dodaqları əsməyə başladı, onun sözünü yarımçıq kəsdi:

– Səndən kim təvəqqə eləmişi? Qənd başımı göndərmişdik?

Xanın səsindən otaq cingildədi. Vaqifə elə gəldi ki, indicə Şahməmməd çağırılacaq. Bakı xanını ac qızılquşlara yedirəcəklər. Lakin Məlikməmməd xanın:

– İltifat buyur!.. Kərəm et! – deməsi İbrahim xanı yumşaltdı. Bir-iki dəfə hirsindən öskürdü. Sonra boğuq səslə:

– Bilirsən xan! – dedi və "xan" sözündə bir istehza duyuldu. – Fətəli düzəlməz! O elə qancıqdır ki, ona belə bağlanmaz. Mənim qardaşım Mehralı mənə düşmən olduğu halda Fətəli onu çəkib çörəkləyir; Şirvan xanını taxtından eləyir; yeni Şamaxını dağıtdırıb, əhalisini Köhnə Şamaxıya yığır, camaatı əldən salır; namusunu urusa satır, min fisqü-fücür törədir... Hansını deyim? Hidayət xana qoşun verib Gilana göndərir... Bunlar urusa yarınmaq üçün deyilmi? Gündə bir Kürü keçib bizim xas mülkümüzü dağıtdırır... Belə bir qancığa inanmaq olarmı? İndi də sənin kimi bir eşşəyi mənim yanıma yollayır ki, mənə kələk gələsən!.. Rədd ol! Haramzada!

İbrahim xanın səsi yenə sarayda gurladı, səsə Şahməmməd gəlib çıxdı.

İbrahim xan ağzından tüpürcək dağıdaraq:

– Şahməmməd! – dedi. – Bu haramzadanı saldır zindana!

Məlikməmməd xanın rəngi qaçdı, nə isə demək istədi, imkan vermədilər: pişxidmətlər onu dartışdıra-dartışdıra götürüb apardılar.

## 20

Dumanlı bir gündə səhər ertə saray qulamlarından biri Kazımın həyətinə girib, artırmada hana toxuyan Telli ilə Gülnaza yanaşdı.

– Burda Səfər deyilən kimdir? – dedi. – Onu imarətə çağırırlar.

İmarət adı gəldikdə Tellinin rəngi qaçdı, dili tutula-tutula:

– Neynirlər? – dedi.

Qulam kənarı dərili, sırınmış, konusvarı çit papağını arxadan qaldırıb, başını qaşıyaraq cavab verdi:

– Lazımdır, hardadır?

Telli yenə israrla:
– Axı, neynirsən? – dedi.
– Əşi imarətə çağırılar... Demək, lazımdır...
Qulam başını qaşıyır və mat-mat baxırdı. Bir də papağı başından düşdü, hörülmüş kəkili papağın içindən qopub üzünün bir tərəfini tutdu. Gülnaz gülümsədi, Telli isə sifətindəki əndişə ifadəsini dəyişməyərək ayağa qalxdı, çit şalvarına ilişmiş qırxıntını çırpıb həyətdən çıxdı. Karxananın başında boş bir yer vardı, Səfər burda özünə ev tikirdi: dörd dirək basdırıb, aralarını çubuqla hörüb, divar qayırırdı. Tellinin təlaşı onu heyrətə gətirdi:
– Da niyə qorxursan? – dedi. – Çağırıblar, gedərəm. Yəqin yenə bir yana göndərəcəklər.
Səfər gödəkçəsini çiyninə atıb, qulamla bir yerdə getdi. Bazarı keçərkən böyük bir izdihama rast gəldidər. Darğa birisini, daş-tərəzisi düz olmadığı üçün falaqqaya saldırıb, palçığın içində döydürürdü. Ayaqlarına otuz çubuq vurduqdan sonra kişinin ürəyi getdi. Qulam yenə başını qaşıya-qaşıya bu mənzərəyə baxır, üzünün laqeyd ifadəsində heç bir dəyişiklik görünmürdü. Səfər isə üzünü qırışdırıb, hirsindən dodaqlarını gəmirirdi. Dayanmadılar. Rastabazarla gedərək o tay-bu taydakı bəzzazlarla, nüsxəbəndlərə, baqqal və əttar dükanlarına tamaşa edirdilər. Divanxanaya çatdılar. Dəmir şişlərə keçirilmiş bir neçə müqəssir divanxana divarına söykədilmişdi. Bunların biri hələ ölməmişdi. Uşaqlar uzaqdan ona daş atır, o da əzabla çəkişən üzünü yan tutaraq:
– Daş..a.. atma... gözümə dəyər, – deyə inildəyirdi.
Səfər bu acı mənzərəni görən kimi hirsləndi:
– Ay nainsaf uşağı! – deyə uşaqları daşla qovdu...
Qulam Səfəri pişxidmətlərin otağına gətirib özü getdi. 7-8 nökər yerə salınmış kilimin üstündə oturub, şirin söhbətdə idilər. Baba lələ də burada idi. Çubuğu damağında olaraq yuxarı başda bardaş qurub oturmuşdu. Nökərlərdən biri dünən bazarda gördüyü bir əhvalatı nağıl edirdi:
– ...Mən nə bilim ki, bu köpək oğlu kişinin qatığını içmişmiş. Darğa soruşdu ki, a gədə, bu kişinin qatığını sən içdin? Dedi: “Yox!”” “ Dedi: “Düzünü de! Axı, kişi yalan deməz, kasası da boşdur. Qatıq yerə tökülməyib, yer udmayıb, göyə uçmayıb”. – Dedi. Toyuq bir ayaq-

lı idi ki, bir ayaqlı idi. Darğa bıçağını çıxarıb gədənin qarnına soxdu... qatıq pırtlayıb çıxdı. Darğa dedi: "Köpək oğlu, deyirsən qatığı içməmişəm? Bəs bu nədir?! "

Nökərlər gülüşdülər. Baba lələ uğunub getdi. Bu əsnada qapı açılıb, içəri bir dağlı türk girdi; uca boylu, qara qıvrım saqqallı, ağ dişli adam idi. Üzünü yuxarı başa çevirərək soruşdu:

– Ay qardaş, burda xan deyilən hansınızsınız, şikayətim var.

Nökərlərdən biri istehza ilə Baba lələni göstərdi:

– Ay qardaş, bax, xan o başda oturandır, nə ərzin var?

Dağlı elə bunu gözləyirmiş kimi baş endirib dedi:

– Ay xan, bizi balalarının başına çevir, belə zülm olmaz: buyurmusan ildə bir ay oruc tutulsun, gündə beş vaxt da namaz qılınsın. Üç yüz evli Pecəniz kəndinə də bir ay oruc, beş vaxt namaz, otuz beş evli Vaqazinə də. Axır bu zülmü Allah götürməz!

Nökərlər yenə qəhqəhə ilə gülüşdülər. Səfər də özünü gülməkdən saxlaya bilmədi. Nökərlər yenidən dağlını lağa qoymağa başladıqda, bayaqkı qulam gəlib Səfəri çağırdı. Bir yerdə Mirzə Əliməmməd ağanın otağına getdilər. Pəncərəsi artırmaya açılan bu balaca otaq birinci mərtəbədə idi; xalçalarla döşənmiş, taxçalarında kitab və dəftərlər vardı. Mirzə Əliməmməd yuxarı başda oturub, nə isə dizinin üstə yazırdı. Səfər salam verdikdə salamı alıb:

– Otur, – dedi və qələmi qələmdana qoyaraq, Səfəri düşüncəli nəzərlə süzdü.

Səfər oturmağa cəsarət etmədi. Mirzə Əliməmməd təkrar:

– Otursana! – dedi və Səfərə divarın yanında yer göstərdi.

Səfər dizi üstə oturdu. Mirzə Əliməmməd:

– Sən Qubaya bələdsən, getmişdin, – dedi. – İndi sənə xanın yenə buyruğu var... Fətəli xan Şamaxıya qoşun yığır. İstəyir yenə bir fitnə düzəltsin. Gedərsən, ordan, burdan xəbər yığarsan. Görək qoşun nə qədərdir, havaxt tərpənəcək, hara gedəcək... Bildinmi? Pul verərəm, bir az mal alarsan, ora çərçi sifəti ilə gedərsən, sata-sata camaata qarışıb, əhval tutarsan. Bildinmi? Qırğı kimi gedib, qırğı kimi də gələrsən, qoçağım. Vacib işdir.

Mirzə Əliməmməd ağa Səfərə təfsilatlı məlumat verib yola saldı. Səfər üçün çərçi malı və at hazırlandı. O biri gün erkən yola düşdü. Gözləri yaşlı Telli həyət qapısını açıb, onun arxasınca bir tas su atdı – salamat gedib gələsən – demək idi.

21

Məmməd bəy artıq bığ yeri tərləyən bir gənc olmuşdu. Xüsusi molladan aldığı dərs nəticəsində türkcəyə və farscaya malik olub, bununla iktifa etmişdi. O zamanın təhsili zatən bundan ibarət idi: çərəkədən sonra ərəbcə quran oxuyardılar, sonra fars klassikləri keçilərdi, türkcə məktəblərdə keçilməyirdisə də, Yaxın Şərqdə beynəlxalq bir danışıq dili olduğu üçün bunu hər kəs bilərdi. Türk dili zəngin xalq ədəbiyyatı, hazırcavab məsəl, misal, atalar sözləri, füsunkar nağılları, yaxıcı eşq mahnıları və şeirləri ilə rəsmi dairələrin farscasına üstün gələrdi. Savadlı gənclərin bəyazı olardı, bu bəyazlara türk şeirlərinin nəfis parçaları köçürülür, əzbərlənirdi. Vaqifin şeirləri birinci sırada durardı.

Məmməd bəy də vaxtını o zamanın şəhər gəncləri kimi, şerə, ova, igidliyə və idmana sərf edərdi. Vaqifin oğlu Qasım ağa da Məmməd bəyin cürlərindən biri idi.

Yaz düşmüşdü. Küçələrin buzu əriyib, sel olaraq şırıltı ilə axırdı. Dağların başında bulud qaynaşmağına baxmayaraq, hava isti idi. Beş-altı ay davam edən darıxdırıcı qışdan sonra hər kəs bir sevinc hiss edərək, artırmalarda, küçələrdə özlərini günəşə verirdi. Arvadlar yun daraqlarını daxmalardan havaya çıxarmışdılar.

Miyandar* da adam göndərib gəncləri zorxanaya çağırmışdı: idman fəsli başlayırdı. Məmməd bəy Qasım ağa ilə gəldikdə, bir çox gəncləri orada gördü. Zorxana geniş bir dairə ətrafına taxta səkilər yapılmış, üstü taxtapuşla örtülü bir binadan ibarət idi. İdmançılar taxta səkilərdə paltarlarını soyunub, qısa meşin şalvar geyirdilər. Üç xınalı saqqal kişidən ibarət bir musiqi dəstəsi tar və kamançalarını kökləyirdi. Uca boylu, şişkin əzələli, geniş kökslü miyandar hər kəsdən əvvəl aşağı dairəyə enib, əlində ucu qumrovlu bir ox tutaraq gəzinirdi. Yuxarıdan düşən işıq onun qırxıq başını işıldadırdı. Gənclər yavaş-yavaş səkilərdən enib gəlirdilər. Bir də miyandarın nərəsi eşidildi, qumrov cingildədi. O saat musiqi başladı. Miyandarın oxunun işarəsi ilə gənclər iki dəstə olub, iki-iki onun sağına və soluna düzüldülər. Ortalığa bir çox ağac millər düzülmüşdü. Miyandarın oxunun qumrovuna riayət edərək, gənclər bir-bir vərdənəyə bənzəyən, yalnız bir tərəfi nazik

* Zorxanada idman işlərinə rəhbərlik edən

olan millərdən yapışıb, oynatmağa başladılar. İlk məşq kiçik vəznli millərlə başlar, get-gedə mururla ağır vəznli millərə keçərdilər. Məmməd bəyə bu yüngül mil çocuq əyləncəsi kimi göründü. Bunu görən miyandar sərt sima ilə oxunu tərpətdi, qumrov cingildədi; Məmməd bəy o saat nizama tabe oldu.

Miyandar bu millərdən bir az ağırlarına keçilməsini əmr etdi. Millər dəyişildi, yenidən hərəkət başlandı. Qoşa-qoşa dairəni dolaşır, durur, dincəlir, təkrar mil oynadırdılar.

Mil oyunu bitdi. Güləşməyə hazırlandılar: gənclər bir-birinin bədənlərini piyləməyə başladı. Yenə qumrov səsi eşidildi. Gənclər dairə boyu düzüldü; musiqi oynaq bir hava çaldı.

Miyandarın işarəsi ilə Məmməd bəylə Qasım ağa dairənin ortasına küləşə çıxdılar. Əvvəl rəcəz oxuya-oxuya dairədə yavaş addımla bir-birinin arxasında dolaşır, səkiləri doldurmuş camaat qarşısında igidlik göstərmək eşqilə coşurdular. Musiqi də oynaq ritmlərlə onları qalibiyyətə çağırırdı. Məmməd bəy bir-iki dəfə dairəni dolaşdıqdan sonra nərə vuraraq ortaya gəldi, ona yanaşan Qasım ağanın yuxarı qaldırılmış sağ əlinin ovcuna ovcu ilə bərk vurub çəkildi. Yenə dolaşmağa başladılar, rəcəzdən və musiqidən bir az da coşdular. Yenə bir-birinə yanaşdılar, bu dəfə başlarını qanırıb, peysərlərini bir-birinə sürtüb ayrıldılar. Rəcəz nərəsi daha da ucaldı. Sonra hoppana-hoppana bir-birinə yaxınlaşıb, qurşaq tutdular. Dartındılar, əllər piyli bellərdən sürüşdü. Başqa cür tutuşdular. Heç biri üstün gələ bilmədi. Qasım ağa fürsət tapıb, yan tərəfdən soxuldu. Məmməd bəyi qaldırıb arxası üstə yerə atdı. Atılanda dörd ayağı üstə düşən pişik kimi, Məmməd bəy də əlləri və ayaqlarını yerə dayaq verərək, havada yarımdairə təşkil etmiş bir halda qaldı. Qasım ağa nə qədər çalışdısa da, onun bu vəziyyətini dəyişə bilmədi. Nəhayət, belinin üstünə minmək istədi, bu əsnada Məmməd bəy çevik bir hərəkətlə çönüb, bir əli ilə ayağından, o biri ilə boğazından yapışıb onu yerə yıxdı. Çabalayan Qasım ağanı boğmaq istərkən, Miyandarın qumrov səsi eşidildi: tökülüb onları aralaşdırdılar.

Piyli bədənlərinə toz-torpaq yapışmış, tövşüyən bu iki gənc qarşı-qarşıya durub, hələ də bir-birini kinli bir nəzərlə süzürdü. Miyandarın qumrovu bunları bu vəziyyətdən qurtardı: irəliləyib qucaqlaşdılar, öpüşdülər. Zorxananın bu adətindən sonra artıq ürəklərdə heç bir kin qala bilməzdi. Barışıb ayrıldılar, meydana başqa güləşənlər girdi.

Bir-iki saat zorxanada keçirdikdən sonra Məmməd bəy cürlərini başına toplayıb, küçəyə çıxdı:

– Uşaqlar, – dedi, – gəlin bu axşam çapqına gedək!

Gənclər:

– Gedək, gedək! – deyə bağırışdılar.

Biri etiraz etdi:

– Heç indi çapqın vaxtıdımı? – dedi. – Bu saat çaylar daşıb qan-qan deyir.

Məmməd bəy istehza ilə:

– Kiri! – dedi. – İgidə yaraşmayan söz danışırsan. İgid də daşqından qorxarmı? Mən bu axşam yola düşürəm, bir-iki də nökər götürəcəyəm. Arvad deyiləm ki, evdə oturam.

– Mən də gedirəm!.. Mən də! – deyə səslər eşidildi.

Məmməd bəy uzun ağ papağını gözünün üstə itələyib, nəşə ilə:

– Bax ləng olmayın! – dedi. – Axşam azanından bir az keçmiş qala qapısından bir az aşağıda gözləyəcəyəm, qəbiristanlıqdan bir az yuxarıda... Amma bax, hara getdiyimizi evdə heç kəsə deməyin...Gedərik, bizim Kəhrizli kəndinə, orada bir neçə gün qonaq qallıq; qoyun kəsdirib Pirsaqqız ağacının altında bir yaxşı kabab yeyərik, sonra Kürü keçib, gedərik Şirvan torpağına. Çalarıq, çaparıq, igidlik göstərrik... Qoy bilsinlər ki, analar necə oğullar doğub.

Məmməd bəyin sözləri gənclərin ürəyindən idi. Hər kəs qılınc oynatmaq, qoçaqlıq göstərmək istəyirdi.

Axşam buludlar arasında batıb-çıxan ay işığında on altı atlı Kəhrat* yolu ilə arana doğru enməyə başladı.

Səfərin Şirvana gedib-gəlməsi 15 gün çəkmişdi. Sürətin səbəbi onun çaparaq getməsi idi: atı yorulan yerdə türk kəndi isə yüzbaşı, erməni kəndi isə məlik onun atını dəyişir, təzəsini verib yola salırdı. Xanın buyruğu belə idi. Səfər Şişəyə gələr-gəlməz atını bir baş saraya sürüb, Mirzə Əliməmmədlə görüşdü. Əliməmməd ağa başqa işlərini kənara qoyub, Səfərlə danışığa başladı:

– Hə qoçağım, de görüm nə var?

– Nə olacaq, ağa. Şamaxı tərəfdə şirin qoşun yığılır. Atlı əlindən yollardan keçmək olmur. Da kənddə-kəsəkdə başı papaqlı qalmayıb, hamısını yığıblar. Mən Şamaxıya gələn günü Tarqi Şamxallı səkkiz

---

* Şuşa şəhərinin şimal-şərq tərəfindəki qədim torpaq yola "Kəhrat" yolu deyirlər.

min ləzgi ora gəldi. Ağa, nə oğlanlar var, at belində Şahbaz kimi otururlar!

– Yaxşı, indi ki, bu qədər qoşun yığılıb, bəs niyə tərpənmirlər?

– Ağa, dedilər, sursatları təndürüst deyil. Şirvan xanını göndərmişdilər, kəndlərdən sursat cəmləyirdi. Camaat verməməzlik eləyirdi. Bir kənddə camaat ağlaşa-ağlaşa yüzbaşının ayağına yıxılıb: "Bəs toxumluğu aparırsınız biz başı daşı nə əkək? " – deyirdi. Yüzbaşı on-on beş adamı divara hördürüb, başlarını kələ qoşdurub, dartıb bədənlərindən ayırtdırdı... Öz gözümlə gördüm!..

Səfərin görmüş olduğu dəhşəti xatırlayaraq əti çimçəşdi, özündən asılı olmayaraq dili dolaşıb, dayandı.

Mirzə Əliməmməd ağa heyrətlə:

– Sən də qorxdun? – dedi.

Səfər çəkinib, qızararaq:

– Yox, ağa, – dedi, – heç qorxarammı?.. Ancaq Allah bəndələrinə belə zülm olanda, nədənsə adamın ürəyi dözmür.

Mirzə Əliməmməd qalın qaşlarının altından Səfərə baxıb dedi:

– Fətəli xana rast gəlmədin ki?

– Dedilər, Dərbənddədir. Gəmi Əjdərxandan* top-topxana gətirmiş imiş, onu almağa gedib. Dedilər Salyan vətəgələrindən ruslara balıq satıb, əvəzində yaraq alıb.

Əliməmməd ağa dərin düşüncəyə daldı. Sonra ayılaraq yenə Səfərə bir neçə sual verib: – Mürəxxəssən! – dedi.

Mirzə Əliməmməd ağa yuxarıya, xanın yanına çıxdı. Vaqif və Məmmədhəsən ağa də orada idi. Əliməmməd ağa Səfərin gəlməsini və gətirdiyi xəbərləri bildirdi. Xan böyük bir qəzəblə dinləyib:

– Qancıq, qancıq! – deyərək dodaqları titrədi.

Vaqif onu sakit etmək üçün:

– İndi İrakli xanın qoşunu Gəncədən ötmüş olar, – dedi. – Bizim Kür qırağındakı qoşunun sayını gərək artıraq. Məmmədqulu ağanı da top-topxana ilə ora göndərək. On min biz qoyarıq, beş min də Açıqbaşdan gəlsə, Fətəlini Kürü keçməyə qoymarıq...

Xan bir az sakit:

– Qancıq on beş min qoşun çıxarda bilərmi? – dedi və sual nəzərilə əvvəl Vaqifə, sonra Əliməmməd ağaya baxdı.

---

* Əjdərxan – Həştərxanın keçmiş adıdır.

Vaqif gülümsünərək:

– Qurbanın olum xan, – dedi. – Fətəlinin ümidinə qalsa, çıxara bilməz. Onu yerindən oynadan var. Bu işlər hamısı rus işidir. Bu dilsiz-ağızsız Hacı Məlikməhəmməd xanı bura kim göndərmişdi? Bu da rusların mərifəti ilə olmuşdu. Bizi oda soxmaq istəyirlər, istəyirlər ki, elimizə, ulusumuza Ağaməmməd xan od qoyub, odlasın!..

Xan diqqətlə Vaqifi dinləyib, qəlyanın neypuşunu saqqalına söykədi:

– Yaxşı, məsləhətimiz nə yerdə qalır?

Vaqif eyni sakitliklə:

– Məsləhətimiz elə əvvəlki məsləhətdi, – dedi. – Ancaq Hacı Məlikməhəmməd xanı zindana saldırdığımız Fətəliyə, görünür, ağır gəlib. Elçiyə zaval yoxdur, – deyərlər.

Vaqif sözlərini bitirmədi. Ancaq xanın inadlığını qamçılamağa bu da kifayət idi.

İbrahim xan səhvini duydusa da, üzə vurmadı, öz-özünə: “İndi buraxdırsam, Fətəli qancıq deyəcək ki, İbrahim xan məndən qorxdu... Bütün qoşunu yığıb, özüm getməliyəm. Xanın birdən dodaqlarında acı bir təbəssüm oynadı:

– Özüm gedəcəyəm! O köpəyin atasını qəbirdən çıxartdıraram, məni tanıyar!

O biri gün şəhərin hər məhəlləsində şeypur çalınıb, dəf vuruldu. Qoşun tərpəndi. Bütün yüzbaşılara və məliklərə çaparlar vasitəsilə xəbər göndərildi, atlı çıxarmaları və sursat yığmaları əmr olundu. Araz ilə Kür arası dalğalanaraq Şirvan tərəfə axdı. İki xanın mənəmliyi üçün minlərlə adam əkindən-biçindən əl götürüb, ölüm səfərinə çıxdı.

İrakli xan oğlu Georginin sərkərdəliyində beş min əsgər göndərmişdi, bunun çoxu Qazax və Şəmsəddin türkləri idi. İbrahim xanın qoşunu ilə birləşib, sərhəd boyu yayılıb Fətəli xanın qoşununu gözlədilər. Səfəri bələdçi aparmışdılar. Səfər axşam Kürü o taya keçib, səhər tezdən Şamxalın üç min ləzgi ilə irəliləməsini xəbər gətirdi. Qasidlər qoşuna xəbər verdi, hər kəs hazır oldu. Sazaqlı bir sabah idi, az-az qar yağır, yel adamı kəsirdi. Qamış və kolluqlar arasından qıllı papaqlar görünməyə başladı. İbrahim xanın qoşunu pusquda idi, tüfəng atmaq əmr olunmamışdı. Şamxal qoşunu ilə Kürün kənarına yaxınlaşdı. Ətrafı seyr edərək çayı keçməyə başladılar. Yenicə bəri tərəfə keçmişdilər, tüfənglər açıldı. Ləzgilər çaşıb qaldılar. Yıxılan atlar və adamlar

bir-birinə qarışdı. Səsə o biri tərəfdən yeni qüvvələr gəlməyə başladı. Gürcüstan və Qarabağ qoşunu pusqudan sıçrayıb, hücuma keçdi. Qılınclar havada ildırım kimi parlayıb, qaçan düşməni biçirdi. Toplar atəş açdı, tüstü duman kimi ətrafı bürüdü. İbrahim xan qılıncını tovlayaraq, Kürü keçdi. Minlərcə atlı onu izləyərək, o taya keçib, bir-birinə qarışıb qaçan müttəfiqləri qovmağa başladılar. Vaqif də İbrahim xanın dalınca atını çapır, orda-burda tökülüb, qanına bələnmiş insan meyitlərini seyr edərək, qəlbində sancı duyurdu.

## 22

Məmməd bəyin dəstəsi gəlib Kəhrizliyə çıxdı. Yazın gözəl çağı idi: yer yamyaşıl, bənövşə açmış, ağ və çəhrayı çiçəklər ağacları bəzəkli gəlinə döndərmişdi. Minlərcə arı sanki günəşin yıldızlı tellərinə toxunub, ecazkar ahənglər doğururdu. Yer şən, göy şən, yalnız o gözəlliklər içində yaşayan insanlar şad deyildi. Kişilər il uzunu davada; kimi ölmüş, kimi şikəst olmuş; arvadlar ağır işlərdə; yüzbaşı da qapını kəsib deyirdi: “Töycümü ver!”.

Odur ki, Məmməd bəyi kəndlilər zahiri şadlıqla qarşıladılar, ürəklərində isə: “Allaha pənah, hələ ki, bu şəhərdən gələnlərdən heç bir xeyir iş baş verməyib”, – deyib, qədərə bel bağlamağa başladılar. Yüzbaşı Məmməd bəyin gəlməsini eşidib, sevinərək özünü ağalıq evə yetirdi və əlini piy basmış döşünə qoyub, zorla əyilərək təzim etdi:

– Ağa, qurbanın olum, – dedi, – sən çox xoş gəlmisən! Qonaqlarının da gözüm üstə yerləri var.

Bir dəqiqədə iki mərtəbə evin artırması döşəndi, ağalar bağdan axan kəhrizdə yuyunub, gəlib əyləşdilər. Atların hərəsi bir həyətə çəkili, yüzbaşı da kəndə adam salıb, toypayı yığdırmağa başladı.

Məmməd bəy ağ çiçəklərə bürünmüş bağları fəxrlə göstərib:

– Hə uşaqlar, – dedi, – mülkümüz xoşunuza gəlirmi?

Yoldaşları:

– Necə gəlməz! Necə gəlməz! Lap cənnətdir! – deyə səsləndilər.

Məmməd bəy ala gözlərini qıyaraq:

– Hələ durun, görün sizə nə keflər verəcəyəm! – dedi, ağzını marçıldatdı...

Nökərlər bağda ocaq qalayıb, təlaşla üfləyir, gözlərinin yaşını cırıq arxalıqlarının ətəyi ilə silirdilər. Bir tərəfdə kəsilmiş quzunun də-

risi soyulur; kəhrizdə göy-göyərti yuyulurdu. Yaşmaqlı bir arvad gətirib süfrə saldı. Sac çörəyi və yuxa gətirdilər. Pendir, şor, qatıq gəldi.

Məmməd bəy:

– Uşaqlar, bismillah! – dedi, əlini süfrəyə uzatdı. Süfrənin başına çevrələnən qonaqlar yeməyə başladılar.

Artırmanın qabağında binagüzarlıq edən yüzbaşı hərdən ağasına dadlı bir təbəssümlə müraciət edir:

– Ağa, qurban olum, qarnınızı şor-çörəklə doldurmayın, saciçi bu saat hazır olar! – deyirdi.

Doğrudan da mis sac ocağın üstə qoyulmuşdu və nökərlər də quzunu doğrayıb, sacın içinə atırdılar. Cızıltı səsi, xoş ət qoxusu yoldan gəlmiş qonaqlara ləzzət verirdi. Çox çəkmədən saciçi hazır oldu, üstünə qatıq töküb qonaqlara göndərdilər. Bardağı da kəhrizdən doldurub gətirdilər.

Bir az sonra artırmanın qabağı cır-cındırlı kənd uşaqları ilə doldu: ağalara həsrətlə tamaşa edib dururdular. Yüzbaşı onlara acıqlanıb qovdu. Məmməd bəy başını tərpətdi:

– Dəymə, qoy dursunlar! – dedi və onlara bir-iki sümük atdı.

Uşaqlar torpaqdan sümüyü qaldırmaqda bir-birinə aman vermir, süpürləşib yerə yıxılırdılar. Məmməd bəy bu mənzərədən həzz alaraq uğunur və təkrar-təkrar sümük atırdı.

Nahardan sonra yüzbaşı bir neçə çirkli mütəkkə tapıb gətirdi. Qonaqlar artırmada sərilib yatdılar.

Ağanın gəlməsi yüzbaşı üçün bir bəhanə oldu: onun adamları hələ də ev-ev gəzib, toypayı yığırdılar. Orda-burda tutulan toyuqların qaqqıltısı, kəndli arvadların qarğışı və nifrini kəndlə bir olmuşdu.

Qonaqlar oyananda hələ günəş batmamışdı. Qalxıb yenə kəhrizin qırağında endilər, doyunca su içib, kəndi gəzmək istədilər.

Məmməd bəy göz vuraraq:

– Baxaq görək, gözə dəyən bir şey varmı? – dedi.

Getdilər. Qara damlar adda-budda salınmışdı, arxalarında təzək qalaqlanmışdı. Orda-burda solğun paltarlı qocalar və arvadlar gözə çarpırdı. Bir dəstə onların dalınca düşüb gedir, getdikcə sayları artırdı. Bağlar arasında qulaqları və burunları kəsilmiş bir neçə adama rast gəldilər.

Kənddən çıxdılar. Bir dəstə uşaq çiyni səhəng qız kəhriz başına suya gedirdi. Bunların birisi çalmasını yan qoyaraq o biri qızlara nə isə

nağıl edirdi. Söyləyə-söyləyə yan baxarkən gözləri bəyə sataşdı. Yanaqları od kimi qızardı. Bu əfi baxış Məmməd bəyi çaldı. O, qızların arxasınca asta-asta gedib, arxadan ucları gümüş pullu uzun saçlarına, incə belinə və günəşdən yanmış dolğun və çılpaq baldırlarına tamaşa edirdi. Qızlar izləndiklərini görüb kirimişdilər. Kəhriz başına çatdılar, qızlar əyilib, səhəng doldurdular. Məmməd bəy kənardan durub, qızı süzür. Birdən o, həyəcanlı səslə:

– Ay qız, adın nədir? – dedi.

Qız yerə baxıb dinmir, arabir gözlərini yuxarı qaldırıb, Məmməd bəyə baxır və gözlərinə rast gəldikdə, məğlub olub çəkinirdi.

– Adın nədir? – deyə bir də soruşdu.

Qız ürkmüş bir baxışla Məmməd bəyə baxıb:

– Ayişədir! – dedi və sanki səsi qırıldı, qazardı, boğulan kimi oldu.

– Kimin qızısan?

– Dəyirmançı Osmanın.

Məmməd bəy ansızın:

– Mənə gələrsənmi, səni alım? – dedi və vüqarla əlini xəncərinin qəbzəsiniə qoyub, cavab intizarında yanmağa başladı.

Qızlar bir-birinə dəydi. Ayişə isə qıpqırmızı kəsilib gülümsünərək, səhəngini çiyninə atıb kəhrizdən uzaqlaşdı.

Qızlar sürətli addımlarla kəndə doğru qoşur, Məmməd bəy də ağaca söykənib, həsrətlə onları süzür, köksünü ötürürdü.

– Uşaqlar, – dedi: – Zalım qızı imanımı qaçırtdı!

Yüzbaşı ixlaskar bir təzimlə:

– Ağa, – dedi, – imanını niyə qaçırır, qız nədir ki, ondan ötrü köksünü ötürürsən? – Ağ dolaqlım sağ olsun, qoy tapılmayan qız olsun!. O qızların hansını istəsən, qulluğunda hazırdır.

Məmməd bəy ağır addımlarla kəndə dönürdü. Yüzbaşı onun başına pərvanə tək dolanaraq:

– Ağa, – dedi, – istəyirsən gedim elçilik edim. Atası bir az tərs adamdır, verməsə, elə bu gecə götürüb qaçarıq.

Məmməd bəy dinmədi, düşüncə içində gəlib körpünün qulağında oturdu. Yoldaşları da dizlərini qucaqlayıb, suyun kənarında düzüldülər. Kimsə danışmırdı, sanki Məmməd bəyin kədəri hər kəsi zəhərləmişdi. Yalnız yüzbaşı bir xidmət göstərmək istəyir; əllərini tez-tez döşünə ataraq, üzündə yaltaq bir ifadə göstərirdi.

– Ağa, – dedi, – sən ildə-əyyamda bir dəfə bura təşrif gətirirsən, onda da burdan bikef qayıdırsan – bu olmaz. İzn ver, bu saat atası ilə danışım.

Məmməd bəy onun üzünə dolğun bir nəzərlə baxdı. Yüzbaşı bu nəzərdən nə duydusa, əlləri döşündə yanı-yanı çəkilib getdi.

Ayişənin atası evdə yox idi. Yüzbaşı iri addımlarla dəyirmana tərəf getdi. Dəyirmana gedən arxın qırağında, iri bir söyüd ağacının altında çalsaqqal bir kişi oturmuşdu, ayaqlarını yenicə yuyub dincəlirdi. Yüzbaşı ona yanaşanda o vəziyyətini çox da dəyişməyib, bir balaca üzünün qırışığını açaraq salama cavab verdi, sonra:

– Buyur, otur, – dedi.

Yüzbaşı oturub, həmişəkindən daha mehriban bir rəftarla dilləndi:

– Dedim, görüm nə qayırırsan?..

– Nə olacaq ki... Eşitdim, ağa gəlib. Toy payına gəlmişdilər, yarım çuval un verdim. – Dəyirmançı yırtıq şalvarını yuxarı çəkib, dizini altına qatladı və yandan yüzbaşıya, onun dolğun, qırmızı üzünə, iri gövdəsinə tamaşa edərək: – Varımı-yoxumu apardılar, bilirsən ki, əkinim yox, biçinim yox, – şahadla dolanıram; yeyənim də yeddi başdır, – dedi.

Yüzbaşı gülərək onun sözlərini kəsdi:

– Xeyir xəbər var – indi daha dərdin yoxdur!

Dəyirmançı yaxşılıq gözləməyən gözlərilə yüzbaşının üzünə baxdı:

– Xeyir xəbər nə ola bilər ki? – dedi, laqeyd bir halda cavab gözlədi.

– Ağa məni... sənin yanına elçiliyə göndərib: bir az əvvəl Ayişəni kəhriz başında görüb.

Dəyirmançı hirsini gizlədə bilmədi:

– Ay yüzbaşı, – dedi, – ağa mənim tayım, bərabərim ola bilməz!.. Yox, bu iş ürəyimə yatmadı. – Sonra diqqətlə yüzbaşının gözlərinə baxıb, qəti bir səslə: – Yox, bir-birimizə tay deyilik! – deyib, susdu.

Yüzbaşı şirin dilini işə saldı, Ayişənin xoşbəxt olacağını, ağalıq evə köçəcəyini söylədisə də, kişi razı olmadı. Yüzbaşı təkrar-təkrar onu inandırmağa çalışdı:

– Sən də məaf olarsan, – dedi. – Heç bir vergi verməzsən, külfətin də rahat yaşar.

Dəyirmançı onun sözlərini kəsdi və sağ əli ilə yüzbaşının çiyninə vurub, dedi:

– Bilirsən, qardaşoğlu, beş qızım var, tanrı mənə oğul züriyyəti məsləhət görməyib. Mən istəyirəm ki, Ayişəni bir oğlana verim, gə-

lib bu dəyirmana yiyəlik eləsin, mən də başımı yerə qoyanda arxayın olum, bilim ki, yerimdə oğul qoyub gedirəm, balalarımdan muğayat olacaq... Ağa mənə boyunduruq yoldaşı ola bilməz!.. Bildin? Sözün düzü yaxşı şeydir!..

Yüzbaşı nə qədər anlatdı, dəyirmançı yola gəlmədi ki, gəlmədi. Yüzbaşı onun tərsliyini əvvəlcədən də bilirdi, indi də öz-özünə: "Sünnidir, tərs damarına düşdü, bitdi", – deyib, işin ehmallıqla olacağından əl üzdü.

Dəyirmançı Osman Mehralı bəy zamanı Şirvana edilən bir çapqında əsir gətirilib, on-on beş daxmalı bu kənddə ilk bina qoyanlardan idi. Təbiət etibarilə təqiyyə və hiyleyi-şəri ilə tərbiyələnmiş şiə qonşularına heç də bənzəmirdi: qəti, doğru, sözündə bir, hərəkətində sabit bir adam idi. Xalq arasında ona inad Osman deyərdilər. Yüzbaşı bunların hamısını bilirdi. Odur ki, ümidsiz bir halda gəlib, Məmməd bəyin dəstəsinə qoşuldu, lakin yenə ümid verərək, onu ovundurdu.

Məsələ üç gün uzandı. Yüzbaşı Məmməd bəyi təskin etmək üçün onu yaxındakı meşəyə ova apardı, əyləndirib, başını qarışdırmağa çalışdı və eyni zamanda da kəndin ağsaqqallarını Osmana minnətçi saldı. Osman dediyindən dönmədi. Axırda Ayişəni kəhriz başından götürüb qaçmaqdan başqa çarə qalmadı.

### 23

Fətəli xan Kür qırağındakı məğlubiyyətdən sonra yenə osanmadı: Hacı Məlik Məmməd xanı İbrahim xandan tələb edir və yenidən qoşun toplayırdı. 1780-ci ilin avqust ayında Fətəli xan on bir min qoşunla yenə Kürə tərəf hərəkət etdi. Lakin ləzgilər maaşlarını vaxtında almadıqları üçün yolda dağılıb evlərinə getdilər.

Payızın son ayında yenə Qubadan əndişəli xəbərlər gəlmədə idi. Mirzə Əliməmməd ağa Qubaya 7-8 min əsgər toplandığını Səfərin vasitəsilə öyrəndi. Məsələni Vaqif bilib İbrahim xana söylədi. Xan yenə inadında davam etmək istədikdə Vaqif mülayim səslə başladı:

– Xan, – dedi, – mənim sənə olan sədaqətimi bilirsən. Bilirsən də ki, aciz məsləhətlərimlə həmişə xanlığın şən və şövkətinə çalışmışam. Dünya görmüş adamlar, məmləkət gərdişindən baxəbər şəxslər belə bir qayda qoymuşlar: "Ba dustan mürüvvət, ba dümənan müdara"*. Cahandidə və karazümüxdə kəslərin məsləhətindən çıxan hökmdarlar

* Dosta mürüvvət et, düşməni yola ver.

xeyir aparmamışlar. Biz Fətəli xanla müdara ilə dolana bilərdik. Bu qədər qoşunkəşlik həm xanın xəzinəsinə ziyandır, həm də el və ulusa. Başqa cür rəftar etsək, yaxşı olmazmı?

Xan hiddətindən dodaqlarını gəmirir, hirsindən gözləri qan çanağına dönürdüsə də, Vaqifin dediklərinə qarşı bir söz tapa bilmirdi:

– Yaxşı nə edək? – deyə titrək səslə soruşdu.

Vaqif bir az da mülayim və mehriban səslə dedi:

– Əvvəlcə də qulluğuna ərz etmişdim. Hacı Məlik Məmməd xanı zindanda saxlamaqdan heç bir mənfəətimiz yoxdur. Buraxaq, amma şərt qoyaq.

– Nə şərt? – deyə xan onun sözlərini kəsdi.

– Deyək, Fətəli dinc durmasa, Ağaməmməd xanla birləşib, onun torpağını at torbasında daşıdacağıq.

– Fətəli inanarmı?

– İnandırrıq. Ortalığa bir qohumluq məsələsi də atarıq, nə eybi var, qoy Fətəli xanın bacılarından birisi xanın hərəm dairəsinə daxil olsun.

Xanı qəzəbi bir az yatan kimi oldu. O, düşündü və üzünün sərt cizgilərində bir ehtiras alovu da sezildi. Birdən xan qalın qaşlarını oynadaraq, nə isə düşündü və üzü yenə vahimə ifadəsilə doldu:

– Bəs Gəncə Məmmədə nə deyirsən? – deyə istehza ilə gözləri çıxarılmış Məmməd xana işarə etdi.

Vaqif cəld:

– Məmməd cəzasına çatmışdır, – dedi. – Xanın üzünə ağ olan əcrini çəkməlidir. Ancaq... əhli-əyalı xanımıza qarşı heç bir qəbeh hərəkətdə olmamışdır. Əlsiz-ayaqsız zənən xeylağı və səqirələrə xan həmişə imdad göstərmişdir. Odur ki, tanrı da həmişə xanın başından var-dövlət yağdırmış və qılıncını kəskin etmişdir. Əhli-əyalı üsrət çəkir, gözləri hatəmtayı qədər səxi xanımızın əlindədir.

Xan büsbütün yumşaldı:

– Məsləhət necədir, Şahməmmədə buyur, eləsin! – dedi və birdən gülərək nə düşündüsə topa saqqalını tumarlamağa başladı.

* * *

O günü Hacı Məlik Məmməd xanı zindandan çıxardılar. İki ildən bəri dəllək və hamam görməmiş yazıq Bakı xanı yaman halda idi: saçı-saqqalı uzanıb, cırıq-cındırlı gövdəsini tutmuşdu; bütün bədəni həşərat yuvası olmuşdu. Vaqif onu hamama göndərtdi, başını qırxdırıb, saqqalını vurdurdu və bir dəstə isti paltar bağışladı.

Qışın sərt bir zamanı idi. Qar və çovğun yolları basmışdı. Ağdamla Şişə arasında gediş-gəliş kəsilmişdi. Bu il çox adam yolda ya donub ölmüş, ya da qar basmış uçurumlara düşüb yox olmuşdu. Buna görə Vaqif Bakı xanını evinə qonaq gətirib, hava açılana qədər saxladı. Bu mömin və mülayim kişidən bir dəri, bir də sümük qalmışdı. Bütün çəkdiyi əzablara baxmayaraq, yenə təvəkküldə təsəlli tapırdı.

– Ağa, – dedi, – bütün bu qəzavü-qədər alnımıza yazılmış imiş. Qismətdən artıq yemək olmaz. Hər şey Allah yanındadır...

Vaqif bu mömin kişinin sözlərini xoş bir təbəssümlə dinləyərək:

– Xan, insan faili-muxtardır, – dedi. – Allah insana ağıl verib, idrak verib, sən bunlara qulaq asmayandan sonra Allah neyləsin?

Hacı Məlikməmməd xan Vaqiflə razılaşmadı:

– Heç bir şey Allahsız deyil. Beylə də gərək olaydi. Müluki-islam Allahdan üz döndərib, Allah talaya səza olmayan zülmlər törədir. Bu zülmlərin cəzasını elə bu dünyada çəkirik. Özün alimsən, ülum və təvarixə vaqifsən, bilirsən ki, bir quş tükünü vaxtsız tüləmişdi, çılpaq idi. Allah tala əmr buyurdu – o il qış düşmədi, qar yağmadı. Xəllaqi-aləmin qüdrətindən hava yay kimi isti oldu, ta ki, aciz quşcuğaz tük gətirdi. Bu rəhmdil tanrının yer üzündə şəriətini güdən zillüllahlar bunun yüzdə birini edirlərmi?

Abadiye meyxanə, zi viraniye-mast,
Cəmiyyət küfr əz pərişaniye-mast,
İslam bə zate-xud nə darəd eybi
Hər eyb ki, həst dər müsəlmaniye-mast*
Kafirliyin cəmiyyəti bizim pərişanlığımızdandır.

– Yox, axund, cifeyi-dünyaya aldanıb, boğazımıza qədər günaha batmışıq... Zindanda nəzir eləmişəm, Bakıya çatan kimi təxti-səltənət varağasını büküb, Məkkəyi-mükərrəməyə ziyarətə gedib, ali-əbayə dəxil düşəcəyəm.

Xan sözlərini bitirib, təsbeh çevirməsində davam edirdi. Vaqif isə xoş və hörmətkar bir təbəssümlə bu saf qəlbli qocanı seyr edir və onun söylədiklərini düşünürdü.

Üç gündən sonra hava açıldı. Hacı Məlikməhəmməd xana at verildi və yanına da iki nökər qoşulub, yola salındı. Onun buraxılması, doğrudan da, Fətəli xanın Qarabağa səfərinə mane oldu. Fətəli xan kinində israr edirdisə də, Şamxal ilə Şirvan xanı boş yerə qan tökməyə razı olmurdular.

---

* Meyxanənin abadlığı bizim viranlığımızdandır.

Ayaz bir axşam idi. Gündüz yağan qar toxtamış, ay aləmə sədəf saçırdı. Vaqifin evdə oturmağa qərarı gəlmədi. Buxarının o biri tərəfində oturub, corab toxuyan Qızxanıma yönələrək:

– Ay Qızxanım, yığış bir xangilə gedək, – dedi.

Qızxanım cavab vermədisə də, corabın millərini çıxarmadan büküb, ayağa durdu və o biri otağa keçdi. Lələ Vaqifin paltarını və papağını gətirdi.

On beş dəqiqə sonra hazır oldular. Qızxanım kənarı xəzli məxmər katıbı geyinmişdi, ayaqlarına da yarımcorab geyib, dizlərində bağlamışdı. Başında yun qumaşdan çalması vardı. Vaqif də samur kürkünü geyib, yola düşdülər. Ay işığına baxmayaraq, iki əli fanuslu nökər qabaqca, ikisi də arxadan gəlirdi. Fanusların qalaylanmış mis dairələri ay işığında parlayırdı, boru şəklində bir arşın sallanan qat-qat ağ qumaşı isə yenicə nişastalanıb, mumlanmışdı. Aşağı mis dairədə yanan şamın şöləsi aydın görünməyirdisə də mumlu qumaşdan keçib, yolu işıqlandırır və qonaq gedən qafiləyə ayrıca bir dəbdəbə bağışlayırdı.

Saraya gəldikdə Qızxanım xanımlar dairəsinə, Vaqif isə xanın qış otağına keçdi. Buxarı çırthaçırtla yanır, işığı divarların tutqun rəngli nəqşlərinə, əlvan pərdələrə və xalılara düşürdü. Buxarının iki tərəfindəki taxçalara qoyulmuş şamdanlarda şamlar şölə çəkərək yanırdı. İbrahim xan ipək püştələrə söykənərək Kələntər Ağası bəylə fincan oyunu oynayırdı. Gənc bir pişxidmət də kənarda ayaq üstə durub, əmrə hazır bir vəziyyət almışdı. Fincan oyunu çox da mürəkkəb bir şey deyildi: qalaylı bir məcməyiyə üzüqoylu on iki princ fincan düzülür, fincanlardan birinin altında bir üzük gilzlədilirdi. Oyunun müvəffəqiyyəti üzüklü fincanı tapmaqda idi. Vaqif içəri girdikdə pişxidmət fincanları yenicə düzüb gətirmişdi; əl xanda idi, düşünüb fincanların birini qaldırmaq istəyirdi ki, Vaqifin gəlməsini görüb, qəhqəhə ilə:

– Axund, özünü yerində yetirmisən, – dedi. – Kələntəri xoruza yükləmişəm. Eyzən gül vururam*.

Vaqifə yer göstərdilər, buxarının qırağında oturdu. Xan ona müzəffər bir nəzərlə baxıb, təkrar öyünməyə başladı:

– Kələntər elə bilir ki, mən buna Əliməmmədəm, gözümü açmağa qoymayacaq. Bir bax, bu da biri! – deyə xan məcməyinin kənarına

* "Gül vurmaq", ilk əldə üzüyü tapmaq deməkdir.

düzülüb, dairə təşkil edən fincanlardan birini qaldırdı. Üzük orada deyildi.

Ağası bəy gülümsündü. Xan pərt olub, qarşı tərəfdən yenə bir fincan qaldırdı, yenə üzük çıxmadı. Hiddəti bir az da artdı. Ağası bəy xanın çənəsinin əsməsinin fərqinə varıb, sükuta daldı. Xan əlini qeyzlə havada fırladıb, üçüncü bir fincana uzatdıqa Kələntərin rəngi qaçdı; o, üzüyün bu dəfə çıxmasını bütün səmimiyyətilə istəyirdi. Lakin üzük tərsə düşüb, yenə çıxmadı. Xan üçüncü fincanı məcməyinin ortasına çırpıb pişxidmətinə tərəf çöndü:

– Gəl, bunu yığışdır! – dedi, səsindən ətrafa vahimə çökdü.

Vaqif xanın qəzəbini yumşaltmaq üçün tamamilə məsələyə dəxli olmayan bir söhbətə başladı:

– Xan, – dedi – bu gün əlimə qəribə bir kitab düşüb, bu ölkənin tamam qədim əhvalat və qəziyyələri yazılmışdır. Bilirsən ki, təvarixin müştaqiyəm.

Xan maraqlanan kimi oldu: hirsi o saat yatdı. Vaqif xanda olan dəyişikliyi sezərək, sözlərinin arasını kəsmədən nağıl eləməyə başladı:

– Hələ hicrəti-xatəmələnbiyadan* min il qabaq bizim bu Qarabağda zərdüştilər yaşarmış. Turan elləri Dərbənddən, səddi-İskəndərdən keçib, buraları yəğma edərmişlər. "Şahnamə"də rəvayət olunan İran-Turan davası bizim Kür ilə Araz arasında vaqe olmuşdur... Bizim bu ölkənin başından çox qəribə qəziyyələr gəlib keçmişdir.

Ağası bəy asudə nəfəs alaraq özünü düzəltdi, quru, lakin möhkəm döşünü irəli verərək söhbətə qarışdı:

– Rəhmətlik Pənah xan Əfşar Fətəli xanın üstünə gedəndə, məlumi alinizdir ki, mən yaralanıb bir neçə vaxt Ərdəbildə yatdım. Bəylərbəyi məni bir dərviş zaviyəsinə tapşırmışdı. Orada pustnişin bir qoca şeyx var idi. Gecə-gündüz ibadətlə məşğul idi. Özü də həkimi-haziq idi: yaramı da yaxşı eliyən o oldu. İbadətdən sonra yanıma gəlib döşəyimin yanında oturardı. O da bu qəziyyələri mənə demişdi. Onun dediyinə görə Aran böyük bir ölkə imiş, məqərrər-səltənəti** də Gəncədə imiş. Amma Allah bu gözəl ölkəyə ilanı qənim yaratmış imiş: gürzələr, əfilər bu yerdə qaynaşırmış...

İbrahim xan tamamilə sakit olub, maraqla soruşdu:

---

* Məhəmmədin Məkkədən Mədinəyə köçməsindən

** Mərkəz şəhəri

– Bəs bu ermənilər harada imiş?

Vaqif sakit səslə:

– Ermənilər buralara çox sonralar gəlmişlər; bunlar Çingiz və Teymurləngin zülmündən qaçıb, bu dağlara sığınmışlar. Görmürsənmi, erməni yaşayan yerlərə "sığınaq" deyirlər... ermənilər başı bəlalı tayfa olublar.

Söhbət qızışdı. Vaqif Şərq tarixinə dair xanın indiyə qədər eşitmədiyi bir çox şeylər nağıl elədi. Sonra lətifələr başlandı, başdan keçən macəralar və vəqələr söyləndi. Vaqif Qarabağa təzə köçən vaxtı Xanməmmədlə gəzməyə getdiyini anlatdı:

– Cavan vaxtımızdı, – dedi, – adama bir pənavat qoyub, Topxanaya gəzməyə getmək istədik. Curlar yığıldı. Xanməmmədin pulu olmadı. Dedik, heç olmasa, get evdən bir az yağ, bir neçə də yumurta gətir. Xanməmməd gedib ləng oldu. Gözlədik gəlmədi. Məni dalınca yolladılar. Getdim, gördüm anası bunu təndirin yanında oturdub, özü çörək yapır, bu da çörəkləri şişə keçirib, çiy yerlərini təndirdə qızardır. Gəzməyə getdiymizi də anası bilmirdi. Xəlvətcə çıxıb getmək istəyirdi. Xülasə, kənardan durub, Xanməmmədə baxırdım, bir də gördüm ki, qurşağından yax axıb, arxalığı aşağı süzələndi. Arvad bunu görcək:

– Gör yağı oğurlayıb, harasında gizlədib! – deyə Xanməmmədin başına bir cüt qapaz saldı. Xanməmmədin saqqalı aşağı yumurta axıb tökülməyə başladı. Demə, yumurtaları da anasından xəlvət götürüb, papağının altına yığmış imiş...

Xan uğunub getdi. Kələntərin gülməkdən gözləri yaşardı. Lətifələrin şirin yerində pişxidmət məcməyidə alma, armud, nar, heyva və əzgil gətirib, qonaqların qabağına qoydu. Bunların hamısı bağbaşı olaraq kəndlərdən göndərilmişdi.

## İKİNCİ HİSSƏ

### 1

Şimaldan gələn xəbərlər saray mühafillərində böyük əndişələrə səbəb olurdu. Tiflisdən Mirzə Əliməmməd ağaya yazıldığına görə, şimali Qafqazdakı Qızlar qalası tərəfə rus qoşunu toplanırmış, İraklinin yanına bir rus gəlib, nə isə danışırmış...

Fətəli xan da köhnə kininə davam edərək, Kürü tez-tez keçir, Qarabağ kəndlərini dağıdır və xalqı Qubaya əsir aparırdı. İranda əvvəlki kimi yenə xanların bir-birilə çarpışması davam edir və bəzən Arazın bəri tərəfinin də asayişini pozurdu. İbrahim xan bir tərəfdən Şişəni bərkidir, o biri tərəfdən də Kür və Araz qırağında qoşun saxlamaq məcburiyyətində qalırdı. Daxildə də işlər yolunda deyildi: erməni məlikləri və keşişləri rus sarayı ilə olan əlaqələrində davam edirdi və Qarabağın hərbi əhəmiyyəti olan bütün əhvallarını ruslara bildirirdilər. Rusların nəzərini cəlb etmək üçün onlara imkan dairəsinə sığmayan vədlər verirdilər: böyük ordu və sursat təklif edirdilər, ölkədə mövcud olmayan gümüş mədənlərindən bəhs edirdilər...

Xan qaynı Cümşüdü yanına çağırtdırdı. Cümşüd qorxu içində gəldi. Xan Ağası bəylə oturub, düşüncəyə dalmışdı. Cümşüd salam verdi. Xan onun salamını almadı. Bir az ayaq üstə qaldıqdan sonra xan onu qəzəblə süzüb: – Otur! – dedi və həyəcanla danışmağa başladı:

– Balam, sən erməni, mən müsəlman – heç məndən əziyyət görmüsən?

Cümşüd itaətli bir halda:

– Allah eləməsin, xan, – dedi, həmişə hörmət görmüşük!

– Bacın neçə ildir ki, mənim əyalımdır, məndən güldən ağır bir şey eşidib?

– Allah eləməsin!

– Atan məndən, ya rəhmətlik atamdan heç incimişdi?

– Allah rəhmət eləsin, nə rəhmətlik Pənah xandan, nə də səndən bir tikə də inciməyib.

– Yaxşı, bəs bu məliklər məndən nə istəyir? Deyirlər ki, Dızaq məliyi İsa ruslara bel bağlayıb, alt-üst danışır. Bilmir ki, bir İsanı, on İsanı, yüz İsanı, – burada xanın səsi yüksəldi, – yox eləmək mənim əlimdə bir qurtum su içmək kimi bir şeydir!..

Cümşüd yavaş səslə:
– Əlbəttə ki, xan!.. – dedi. – Bilirsən ki, bu başı batmış dörd məlik mənim atamla da düşmənçilik edib. Qudurğanlıq edirlər.
Xan yenə hiddətləndi:
– Qudurğanın boynunu sındırarlar! – dedi. Rəhmətlik atam o qudurğanların kəllələrindən Xaçında minarə tikdirdi, yenə ağıllanmadılar? – Xan bir ağız dayanıb, neypuşun ucunu yanıqla dodaqlarına söykədi və bir iki dəfə çəkib, sakit oldu. Ehmal bir səslə sözünə davam etdi:
– Biz dedik, müdarə ilə dolanaq, sənin bacını aldım ki, aralıqda qohumluq da olsun. Daha üzdə bir, dalda da ayrı cür olmaq demədik. Adam yorğanına görə ayaq uzadar, cəmi Qarabağ xanlığında 6 min evsiniz, bir dəfə göz eləsəm, sizin toxumunuzu yer üzündən kəsərlər. Amma mən pislik eləmək istəmirəm. Deyərlər: "Papağın keçi dərisindən, xəbərin yoxdur gerisindən". Adam gərək gerisini düşünsün. Petro padşah sizə nələr vəd eləmişdi, nə oldu? Köməyə gələrəm deyə, "dəliyə yel, əlinə bel" verdi, sizi müsəlmanların canına salmaq istədi. O qonaq idi – gəldi, getdi, ortalıqda qırılan siz oldunuz. Bu, yaddan çıxdı?
Xan susub, qəlyan çəkməyə davam etdi. Birdən neypuşu ağzından çıxartdı, əli titrəməyə başladı, çənəsi əsdi:
– Ağası! – deyə kələntərə müraciət etdi: – Bu saat Dızağa üç yüz atlı göndər o köpək oğlu İsanı tutub assınlar, evini, mülkünü dağıtsınlar! Daşı daş üstə qoymasınlar! Mən onu Dızaq sığnağına yüzbaşı tikdim, daha başıma bəla demədim.
Ağası bəy dik qalxdı:
– Baş üstə! – deyib, yanı-yanı çıxdı.
Cümşüdün rəngi üzündən götürülmüşdü: xan ilə yalqız başına bir otaqda qalmaq ən böyük bir əzab idi. Yaxşı ki, xan ansızın:
– Gedə bilərsən! – dedi və Cümşüd ayağa qalxıb, getdikdə xan bir az mülayim bir səslə: – Get, ermənilərə söylə ki, ağıllarını başlarına yığsınlar!
Cümşüd ancaq artırmaya çıxdıqda dərin və asudə nəfəs ala bildi.
Otaqda tək qalan xan bir neçə dəfə qalxıb-oturdu: bardaş qurdu, rahat olmayıb, dizi üstə əyləşdi, təkrar döşəkçəni düzəldib, bardaş qurdu. Bu əsnada qapının yanında dik durub qalmış pişxidmət öskürdü: xan cəld çönüb, onu heyrətlə süzdü:

– Nə öskürək vaxtıdı bu? – deyə qışqırdı. – Get Şahməmmədi bura çağır!

"Şahməmməd" adı eşidəndə pişxidmətin rəngi saraldı. Gözlərinin yaşını axıdaraq səcdəyə düşdü:

– Atam, anam sənə qurban, xan! – dedi. – Məni əziz balalarının başına çevir. Biədəblik elədim, öskürdüm!

Xan xalı üzərində üzüqoylu düşmüş nökərinə baxıb, bir şey anlamadı. Nökər yalvarıb, ağlamasında davam edirdi. Birdən xan qəhqəhə ilə gülərək:

– Dur, axmaq! Şahməmmədi ayrı iş üçün çağırıram! – dedi.

Pişxidmət başını qaldırıb, şübhəli gözlərlə xana baxdı və qəribə bir təşəkkür ifadəsilə:

– Belə sənə qurban olum, ay xan! – deyib otaqdan çıxdı.

Bir az sonra Şahməmməd içəri girdi. Bu bədheybət adam xanın gözünə sataşdıqda, sanki xan ona qarşı bir ikrah duydu, üzünü turşudaraq:

– Bu nədi? – dedi. – Eşitdim, qardaşın yenə təzə bir igidlik göstərib?!

Şahməmməd məsələni bilirdi, başını aşağı dikib, xəcalətindən tərlədi, Vaqifin içəri girməsi onu bu ağır vəziyyətdən qurtardı. Vaqif oturub, məsələni duyar-duymaz:

– Xanməmmədmi? – dedi. Dostum da olsa, bir az qorxaqdır!

Xan sərt bir səslə dedi:

– Çağırtdır, gəlsin görüm!

Şahməmməd baş əyib getdi.

Xanın yenə üzü sərtləşməyə başladı.

– Axund – dedi, – görürsən, ermənilər yenə tüğyan edib. Elə deyirsən, müdara ilə dolan. Bu da müdara! Badaralı Gapı Ballıca yolunu kəsib, gəlib-gedənə sataşır. Dığanın biri də qaçaqlıq eşqinə düşüb, üstümüzə ayaq alıb.

Vaqif düşüncəli:

– Bunlar hamısı məliklərin işidir, – dedi, – xalqı qızışdırıb, avara qoyurlar. Elə bilirlər ki, rus gəlib, bunları xan edəcək.

Xan Dızaq sığnağına atlı göndərdiyini söylədi. Vaqif heyfsilənən kimi oldu və dedi:

– Nə etməli – ayrı əlac qalmayır. Bunlar dinc otursaydılar, elə vətənləri Loristanda qalardılar, daha qaçıb Qarabağa gəlməzdilər.

Ortalığa bir sükut çökdü. Bu əsnada qapı bərk açıldı, içəri altı-yeddi yaşlı, ağ sifətli, ala gözlü gözəl bir qız uşağı girdi. Gizlənirmiş kimi yürüyüb, xanın qucağına sığındı.

Qapının arasından eşidilən qadın pıçıltısı divarın yanında dik durmuş pişxidməti yerindən dəbərtdi: o, qızı götürüb aparmaq məqsədilə irəli yeridi.

Mehriban gözlərlə uşağa tamaşa edən Vaqif:

– Qoy dursun! – dedi və əllərilə uşağa işarə edərək:

– Ağabəyim ağa, gəl əmiyə! – deyə çağırdı.

Uşaq xoş bir təbəssümlə Vaqifə baxır və körpə əlilə atasının boynunu oxşayırdı. Xan qızının qumral telli başından öpüb:

– Əmisi, – dedi, – bax, qızım da sənin kimi şeir bilir.

Ağabəyim ağa utanaraq daha da atasına sığındı. Vaqif mehriban və oxşayıcı bir səslə:

– Bəyim bir oxusun, görüm! – dedi. – Yox, deyəsən, bilmir.

Uşaq zənn ilə Vaqifə baxıb:

– Xeyir, bilirəm! – dedi.

Xan:

– Oxu! – deyə qızın qulağına pıçıldadı. Uşaq çəkinərək qalxdı və pəncərənin şəbəkəsinə baxaraq xoş və cəsur bir səslə oxudu:

Əlimi bıçaq kəsibdir,
Dəstə bıçaq kəsibdir,
Yağ gətirin yağlayım.
Dəsmal gətirin bağlayım.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda,
Şirvan yolu buz bağlar
Dəstə-dəstə gül bağlar,
O gülləri üzəydim,
Tellərimə düzəydim,
Qardaşımın toyunda,
Sındıra-sındıra süzəydim.

Uşaqlara məxsus bu gözəl xalq şeri, bir də onun gözəl bir uşaq tərəfindən oxunması Vaqifi heyran qoydu.

– Ay afərin! Ay afərin! – deyə uşağı yanına çağırdı. Lakin Ağabəyim şən addımlarla atılaraq otaqdan çıxdı. Uşağın gəlib-getməsi hərədə bir fərəh oyatdı. Xan belə bütün qəzəbini unudub, ata eşqilə qızından nağıl eləməyə başladı:

– Axund, çox zehinli uşaqdır, – dedi. – Çərəkəni qurtarıb, indi quran oxuyur. Hər nə görür, soruşub kökünə çatmaq istəyir. Nə qədər tapmaca bilir.

Vaqif fərəhlə:

– Diribaş uşaqdır! – dedi. – Mən görməyəndən bəri, maşallah, yekə qız olub.

Baba lələnin içəri girməsi Vaqifin sözlərini kəsdi. Xanməmmədin gəldiyini ərz etdi. Xan əvvəlcə gülümsündü, sonra ciddi bir sifət alıb:

– Gəlsin! – dedi.

Xanməmməd üstü tüklü burnunu çəkə-çəkə içəri girdi, papağının gülləri nəmişlənmişdi, görünür hava çiskin idi.

Xan qəzəblə soruşdu:

– Deyirlər, qaçaq Gapıdan qorxub, Allahı-peyğəmbəri danmısan?!

Xanməmməd başını aşağı salıb dinməyirdi. Vaqif sezilməz istehza ilə baxırdı.

Xan qəti:

– Düzünü de görüm, necə oldu? – dedi. – Bax, birini altdan-üstdən desən, başın cəllad əlindədir!

Cəllad sözündən Xanməmmədin əti çimçəşdi, rəngi saraldı:

– Düzünü deyim... Neyləyim... İş insan başına gələr... Xan sağ olsun, Ballıca çayından keçib gəlirdim. Bir də meşəlikdən bir səs eşidib bərk... qorxdum. Durdum. Görəm qaçaq Gapı. Dedi: “A köpək oğlu müsəlman, deyinən Məhəmməd peyğəmbər yalançı idi, İsa doğruçu”. Xan sağ olsun, baxdım gördüm, deməsəm, bu məni vuracaq... Yer də pis yer idi, o meşədə, mən düz yerdə... Can da şirin şeydir... Əlacım kəsildi, dedim. Dedi: “Deyinən Allah da bir şey deyil, asdos* yaxşıdır”. İstədim bir nəfəs alıb fikirləşim, gördüm köpək oğlunun ermənisi məni vuracaq, balalarım yetim qalacaq...

Xan qəzəbləndi:

– Demək, aftafa görməmiş bir dığadan qorxub, Allahı da dandın?

Xanməmməd bir az cəsarətlə:

– Ay xan, – dedi, – vallah, yer çox pis yer idi, sən olsaydın, elə Gapının özünə də “Allah” deyərdin!

Xan şaqqıltı ilə gülməyə başladı. Vaqifin də barmağını kəsəydin özündən xəbəri olmazdı.

---

* Ermənicə Allah deməkdir.

2

İbrahim xan Məmməd bəyi yanına çağırıb dedi:

– Oğlum, igidliklərini eşidib, fəxr eləyirəm. Ancaq sən Kürü aşıb, Şirvan torpağını dağıdanda, qancıq Fətəli də acığa düşür, o da bizim kənd-kəsəyi çalıb-çapır. Əgər igidlik axtarırsansa, nökərləri yığ, get qaçaq Gapının dalınca. Eşitdinmi?

– Eşitdinmi, əmi!

– Əvvəl başdan Badara məliyini asdırarsan! Sonra yer deşiyindən də olsa, Gapını tapıb, cəzasına yetirərsən. Mən Naxçıvana gedirəm. Qoduq Kəlbəli qudurub, məni tanımaq istəmir. Onun burnunu ovmaq lazımdır. Gapını tələf etdikdən sonra Xudafərin körpüsünə çıxarsan, bir yerdə Naxçıvana gedərik.

Məmməd bəy elə həmin günü yola düşdü. İbrahim xan da qoşunun əgər-əskiyini düzəldib, iki gündən sonra Naxçıvan səfərinə çıxdı. Yerində qoyduğu Kələntər Ağası bəyə asayişi təmin etmək üçün böyük səlahiyyət verdi.

İbrahim xan Xudafərin körpüsünə çatdıqda Məmməd bəyi orada gördü: Gapının nizə ucuna keçirilmiş başı xana təqdim olundu. Xan Məmməd bəyə və nökərlərinə xələt verdi, yola düşdülər.

İravan xanlığı Gürcüstana tabe olaraq İrakli xana bac verdiyi kimi, Naxçıvan da Qarabağ xanına tabe olmalı idi. Lakin Kəlbəli xan Rusiya tərəfdarı olan Xoy xanı Cəfərqulunun təsirinə düşərək, İbrahim xanı tanımaq istəmirdi. İbrahim xan bunu şərəfinə sığdıra bilməyib, Kəlbəliyə cəza verməyə tələsirdi.

Hava olduqca isti idi. Qoşun pərakəndə bir halda çılpaq çöllərlə gedir, yerdən qopardığı toz aləmi bürüyürdü.

Nəhayət, gəlib Naxçıvan civarına çıxdılar. Adda-budda salınmış bağlar, qovun-qarpız bostanları, pambıq tarlaları başlandı.

Qoşunu görən kəndlilər qaçır, ətrafa çaxnaşma düşürdü. Birdən uzaqdakı bir bağın arxasından toz qopdu. Bu – Kəngərli süvariləri idi ki, türk elləri arasında igidlikləri ilə məşhur idilər. Məmməd bəyin dəstəsi çaparaq atları qarşıladı. Qılınclar parlayır, qışqırtılar, nərələr havanı titrədirdi. Məmməd bəyin ilk zərbəsindən uzun bığlı, sallaq birçəkli bir sərkərdənin başı qələm kimi atıldı. Onun yerinə atılan bir ayrısının çiyninə qılınc işlədikdə, atdan yerə yıxıldı. Səfər də bir tərəfdən soxulub, sağa-sola qılınc çalırdı. Kəngərlilər sınıb geri döndülər. Məmməd bəyin dəstəsi onları qıra-qıra təqib etməyə başladı.

Naxçıvan qalası mühasirə olundu. İki mis top şəhərə qumbara yağdırır, nökərlər də xəndək ata-ata qala divarlarına yaxınlaşır, nərdivanlar qoyub, bürclərə çıxmağa hazırlaşırdılar. Bu əsnada çapar Qaradağ xanı Mustafanın Qarabağa hücum etdiyini xəbər gətirdi. İbrahim xan çadırda oturmuşdu, bu xəbər onu sarsıtdı. Çünki Mustafa xanı bir dəfə əsir almış, özünə tabe etmişdi və bir dəfə də ona qoşun verib Təbrizin üstünə göndərmişdi.

Düşünmək yeri deyildi: İbrahim xan əmr verdi, şeypur çalındı; qoşun sürətlə toplanıb, geri çəkilməyə başladı. Bu əsnada Kəlbəli xanın köməyinə gəlmiş xoylu Cəfərqulu xan və balbaslı Məmmədşərif soltanın atlıları arxadan çıxdı. İbrahim xan əmr verdi, zəmbərək toplu dəvələr xıxırdıldı, zəmbərəklərdən atəş açıldı. Düşmən sıralarından bir neçə adam atlardan töküldülərsə də, həmlənin önü alına bilmədi: İbrahim xanın da süvariləri irəlilədi. Tüfənglər açılır, qılınclar endirilirdi. Qarabağ qoşunu düşərgəyə tərəf sıxışdırıldığı zaman Məmməd bəy Məmmədşərif soltanı vurub atdan saldı. Səfər də bir ayrı sərkərdəni öldürdükdə düşmən qoşununu sınmağa başladı. Axşam çağı Kəlbəli xanla Cəfərqulu xan geri çəkilmək məcburiyyətində qaldılar.

Meyitlər və yaralılar ətrafa sərilmişdi. Sağ qalanlar ələ keçən qənimətləri ulaqlara yükləyirdilər.

Axşamın sərinliyindən istifadə edərək, İbrahim xan da geri çəkildi. Yolda Məmməd bəy Səfərə dedi:

– Səfər, qoşun ayağı ilə getsək, gec olacaq: Mustafa xan kəndləri çalıb-çapıb, qaçacaq. Gəl, çaparaq gedək.

Məmməd bəy xan ilə məsləhətləşib bir dəstə nökərlə irəli getdi. O biri gün axşam çağı Arazın qırağında Qarabağ kəndlərini talayıb, geri dönən Mustafa xana rast gəldilər. Bir təpənin arxasilə sürünüb, ansızın olaraq hücuma keçdilər. Məmməd bəyin ilk zərbəsi Səfiqulu bəy adlı bir sərkərdəni atdan saldı. Məmməd bəyə yandan soxulan Məmmədvəli soltan da yaralanıb çəkildi. Mustafa xan vəziyyəti belə görcək özünü çaparaq Araza vurub keçdi. Səfər yerdə qalan qaradağlıları budayırdı. Birisi ona bir qılınc endirdi. Səfər cəld çəkildisə də, qolundan yaralandı. Artıq qələbə qarabağlılar tərəfdə idi. Qaradağlıların sağ qalanı özlərini çaya atıb, yaxalarını qurtarmağa can atırdılar. Yerdə on-on beş meyit və yaralı qalmışdı. Yeddi-səkkiz at yükü də kəndlərdən qarət olmuş şey buraxılmışdı. Məmməd bəy, vuruşmadın başı açılan kim Mustafa xanın buraxıb, getdiyi karvana doğru gəldi. Burada bir dəstə qolu bağlı əsir vardı: əksəri gənc oğlanlar və qızlar

idi. Yorğun sifətli əsirlər Məmməd bəyə baxır, heç bir şey deməyirdilər: qorxularından hələ özlərinə gəlməmişdilər. Bunların içində buğdayı sifət, qonur gözlü, uzun bir qız vardı: süzgün baxışı ilə Məmməd bəyi süzür, sanki ona qarşı minnətdar olduğunu bildirirdi. Məmməd bəy yanaşıb onun qollarını açdı və soruşdu:

– Adın nədir? – dedi.

– Hürü! – deyə yavaş bir səs eşidildi.

Məmməd bəy mülayim bir səslə:

– Dur get, çayda əl-üzünü yu! – dedi, sonra nökərlərə əmr verdi:

– A gədələr, əsirlərin qollarını açın, aclıqları varsa, yemək verin!

Nökərlər nəşələnərək əsirlərin qollarını açır, yaralı qolu boynundan asılmış Səfər isə bir daşın üstə oturub, orda-burda qanına bələşib, zarıldayan yaralıları və meyitləri seyr edir, nə isə acı-acı düşünürdü.

3

Neçə ilə davam edən Rus-Osmanlı müharibəsi Küçük Qaynarça müahidəsilə[*] nəticələnmiş, Rusiya Krımı ələ keçirib, Qara dəniz sahilinə çıxmışdı. Bununla Yekaterinanın Şərq proqramı hələ bitməmişdi. Küçük Qaynarçadan sonra bir neçə il hazırlanıb, Qafqaz səfərinə başlayırdı. Şərq işlərini Potyomkin Tavriçeskiyə[**] tapşırmış, o da Qafqaz xəttinə əmisi oğlu general poruçik P.Potyomkini təyin etmişdi. General-poruçikin ilk vəzifəsi gürcü və ermənilərlə əlaqəyə girmək idi.

Bu məsələ bəzi erməni təbəqələrində, xüsusilə məliklər və keşişlər arasında yeni bir ümid – xanların zülmündən qurtarmaq ümidi canlandırdı. Məliklər İran padşahları tərəfindən erməni sığnaqlarına təyin olunmuş yüzbaşılar idi. Bu yüzbaşılar İranda tez-tez baş verən qarışıqlıqdan istifadə edərək məliklik rütbəsinə irsi bir ünvan kimi baxmağa və kəndlini bir rəiyyət kimi istismar etməyə alışmışdılar. Odur ki, bir məliyi çıxarıb, yerinə bir ayrısını qoymaq, köhnə məliyi çörəkdən saldığı üçün, qilü-qal qoparır, milli məsələ meydana çıxır, müsəlman-erməni düşmənçiliyi körüklənməyə başlayırdı. Çar imperializminin Şərq siya-

---

[*] Burada 1768-1774-cü illər arasındakı Rusiya-Türkiyə müharibəsi və 1774-cü ildə Dunay çayının sağ sahilindəki (indiki Bolqarıstan ərazisində) Küçük Qaynarça adlı kənddə bağlanmış sülh müahidəsi nəzərdə tutulur.

[**] Qriqori Aleksandroviç Potyomkin (1739-1791) – II Yekaterinanın zamanında yaşamış rus dövlət xadimi.

səti də bu haldan bol-bol istifadə edir, məliklər və keşişlər vasitəsilə əməkçi erməni xalqını əlində vasitə edirdi. I Pyotrun Qafqaza gəlib getməsi Oriy və Vartapet Minasın vasitəsilə erməni xalqına böyük ümidlər verib, müsəlmanların üstünə qaldırması və nəticədə ermənilərin boş-boşuna qırılması bəzi ermənilərə məsələyə ehtiyatla yanaşmaq duyğusu vermişdi. Çarların "xristianlıq mərhəmətinə" inanmayanlardan biri də Ohan keşişi idi.

Ohan erməni sığnaqlarını gəzər, nəsihət elər və xalqı məliklərin fitnəsindən saqındırardı.

Bu dəfə də o sığnaqlardan yenicə dönüb, Vaqifin yanına getdi. Baharın ilk çağı idi. Vaqif bağçasında dolaşıb, bənövşə yığırdı. Ohanı görcək:

– Ba! Xoş gördük, a Mirzə Ohan! – deyə qarşıladı və əlindəki bənövşə dəstəsini ona verərək: – Gül bə dəste gül başəd*, – deyə əlavə etdi.

Ohan gülərək bənövşəni aldı, dəlikləri burunotundan göyərmiş burnuna yaxınlaşdırdı:

– Tanrı nə qəşəng şeylər yaratmış! – dedi.

Vaqif zarafatla cavab verdi:

– Qəşəng şey çoxdur, sənnən mənə yoxdur: bu axundluqla keşişliyi boynumuza qoyub, dünyanı bizə haram eləyiblər.

– Harama-halala baxan kimdir ki?

Vaqif əyilib, yeni bənövşə dərərək:

– Sənə nə var, Mirzə Ohan, – dedi, – yenicə evlənmisən, kefin kök, damağın çağ! Mənimki bir dənədir, o da ömrümü göy əskiyə düyüb.

Ohan keşiş ah çəkdi:

– Eyy! Axund, – dedi. – Adama uzaqdan döyüş asan gəlir. Köhnə arvad təzəsini yola vermir. Hər gecə evdə davadır...

Vaqif uğunub getdi, sonra yenə zarafatla dedi:

– Sən də gecə yatanda ikisinin ortasında yat.

Keşiş şaqqıltı ilə güldü:

– Axund, – dedi, – onu da eləmişəm, olmur: o deyir üzünü mənə çevir, bu deyir üzünü mənə çevir. Ortalıqda avara olub qalıram.

Müsahiblər doyunca gülüb, yavaş-yavaş bağçadan çıxdılar. Artırmanın günəşli bir guşəsinə palaz salınıb döşəkçələr və püştələr düzül-

---

* Gül gülə yaraşır

müşdü. Vaqif Ohanla gəlib, döşəkçələrin üstündə oturdular. Ohan zarafatı buraxıb, ciddi və bir az da həyəcanlı səslə:

– Axund, – dedi, – sənin yanına məsləhətə gəldim, yenə bizim bu məliklər sarsaq bir iş başlayıb, Allah axırını xeyr eləsin...

Vaqif maraqla parlayan gözlərini Ohana dikib, diqqətlə dinləməyə başladı.

Ohan sözünə davam edirdi:

– Urus padşahına bir ərizə yazıblar ki, xan bizi belə eləyir, elə eləyir. Qol çəkib göndəriblər.

Vaqif acılıq ifadə edən bir səslə:

– Urusdan nə istəyirlər? – deyə soruşdu.

– Nə istəyəcəklər, istəyirlər ki, urus bura gəlib, bir erməni padşahlığını qursun. Mən, axund, bir şeydən qorxuram: urus yenə öyrədəcək ki, müsəlmanları qırın, gəlirəm... – Ohan susdu, həyəcanından danışa bilmirdi. – Axırda bu yazıq camaat qırılacaq. Vartapet Minasın qəbri odnan dolsun!

Vaqif düşüncəli gözlərilə günəşin qarşısını kəsib, çəkilən ağ buludlara tamaşa edərək susurdu. Ətrafdakı ağaclar ağ çiçək içində idi, yazın rütubətli havasına xoş bir rayihə qarışmışdı. Vaqifin gözləri bu gözəlliklər içində dolaşıb, nəhayət, Ohan keşişə çevrildi:

– Məsələni xana açmaq lazımdır! – dedi. – Camaat qırılınca qoy beş məlik, beş də tüğyan etmiş keşiş ölsün. Bu məsləhətdir! – Dedi və Ohanı qətiyyətlə süzdü.

Həmən durub, xanın yanına getdilər. Xan məsələni bilib, çox hiddətləndi. Sığnaqlara qoşun göndərib, asıb, kəsmək əmri vermək istədi. Vaqif özünə məxsus qılıqla xanı sakit etdi. Ohandan məsələni təfsilatı ilə öyrənib, onu buraxdılar, sonra otaqda baş-başa verib, məsləhətləşməyə başladılar. Vaqif inandırıcı bir səslə dedi:

– Erməniləri qırsaq, urusun, əlinə bəhanə düşər, gəlib səni taxtdan salar, buraları da ermənilərə verər. Məsləhətlə iş görmək lazımdır. Onlar yazır, biz də yazaq, nə ki var bildirək. Görsün ki, haqq da, zor da bizim tərəfdədir. Urusun məqsədi İranın qabağına bir qüvvət çıxarmaqdır. Səni də Fətəli xan kimi ələ almaq istər... Urus bilmir ki, bir ovuc erməanidən kar çıxmaz? Erməni məliklərini və keşişlərini birə kimi canımıza salıb, bizi zara gətirir ki, öz tərəfinə çəksin... Mənim məsləhətim belədir: bir yaxşı kağız yazım, sənin xan övladı olub, iyirmi ildən bəri Qarabağ torpağında hökm sürdüyünü, nüfuzunu, gücünü bildirim, özü də... – Vaqif bir az duruxdu, sonra davam etdi: – Urus hi-

mayəsinə girməyə və bac da verməyə amadə olduğunu deyim. Bu kağız sabah hazır olar. Musa Soltana verərik aparıb, urus yaranalına verər, dilcavabı nə lazımsa deyib qayıdar. Vəssalam. Musa Soltan vüqarlı və qılıqlı bir adamdır, bu işi bacarar. Urusu erməni fitnəsindən uzaqlaşdırıb, işimizi görərik.

Xan Vaqifin təklifinə razı oldu.

– Otur yaz! – dedi və Musa Soltanın da namizədliyini qəbul etdi.

Vaqif xanın tamamilə sakit olduğunu görüb:

– Xan, – dedi – erməni sarsaqlarına da bir balaca qulaqburması lazımdır – məlik Abonu tutdur, zindana saldır. İşlərbaşı odur. Ayrı tənbeh lazım deyil!

Vaqif saraydakı rəsmi otağına çəkilib, Yekaterinaya məktub yazmağa başladı. Bu o məktub idi ki, Peterburq sarayının Qarabağa qarşı tərtib etdiyi planı tamamilə dəyişdi. Ermənilərin 1783 ilin mart ayında Peterburqa çatmış ərizəsinin üstünə knyaz Potyomkin-Tavriçeski: "İbrahim xanı taxtdan salıb, Qarabağda erməni əyaləti düzəltməli", – deyə yazmışdı. Vaqif yazan məktub eyni ilin aprel ayında Peterburqa yetişib, Potyomkini əvvəlki qərarından daşındırdı: "İbrahim xanın bizə qarşı bəslədiyi sədaqət rus çariçası üçün ən gözəl bir bacdır", – deyə Qarabağ hökmdarına sifariş elədi.

4

1783-cü ilin iyun ayında Rusiya ilə Gürcüstan arasında bir müahidənamə bağlanıb, Gürcüstanın Rusiya himayəsinə keçməsi xəbəri bütün Azərbaycan xanlarına çatan kimi, İbrahim xana da yetişdi. Bu xəbərə görə Gürcüstan xanı müstəqil olaraq yerində qalır, səltənət haqqı İraklidən sonra övladlarına keçirdi. Gürcüstan özü pul da kəsə bilərdi. Tiflisə göndəriləcək iki tabor rus qoşunu ölkəni hər bir ehtimala qarşı müdafiə edəcəkdi.

İbrahim xan bütün dövlət adamlarını, ağaları və bəyləri müşavirəyə çağırdı. Məsələ ətraflı müzakirə edildi. Kimi İrandan, kimi Osmanlıdan kömək istənilməsini irəli sürdü. Vəliəhd Məmmədhəsən ağa söz istəyib, yavaş səslə:

– Uruslarla anlaşmaq lazımdır, – dedi, – vəqta ki, özləri də buna müştaqdır: Apraqsun adlı birisini bura göndərdikləri mənzurinizdədir, – dedi, – böyük məmləkətdir, nizamlı qoşunu var.

Məmmədhəsən ağanın təklifi münaqişələr doğurdu. Ağalardan birisi təəssüblü bir səslə dedi:

– İslam məmləkətinə kafiri buraxmaq olarmı? Qurani-kərimi ayaq altınamı salmaq istəyirsiniz? Yox, Allah mənə o günü göstərməsin! – deyə küskün bir hal aldı.

Xan həyəcanlandı və özünü ələ alaraq:

– Kim deyir ki, xanlığı urusa verək? – dedi. – Mən diri ola-ola bu işə razılıq verərəmmi?

Xanın səsi tutuldu, rəngi qaçdı, sonra qəlyan çəkib, sakit oldu. Xanın vəziyyəti məclisi də kiriməyə məcbur etdi. Dərin sükutu Vaqifin yumşaq, lakin etimad verici səsi pozdu:

– Xan sağ olsun! – dedi. – Acizin fikrincə, kəmhövsələlik göstərmək olmaz, qapını düşmən kəsməyib ki! Atalar demişkən, itlə yoldaşlıq elə, ağacı əldən qoyma! Biz də həmişəki kimi, əvvəl yaxşı ağac hazırlamalıyıq. Xan üç min ləzgi saxlayır, dörd min də öz qoşunumuz var. Ömər xana yazıb, on min də ləzgi istəməliyik. Xanın binihayə xəzinəsi və sursat anbarları böyük bir qoşunun öhdəsindən gələ bilər. Sonra Tiflisə elçilər göndərmək lazımdır: valini təbrik etmək bəhanəsilə, övzan öyrənsinlər: urus böyüyü ilə görüşüb, bir ağzını yoxlasınlar. – Burada Vaqif susub, ətrafdakıları gözdən keçirdi: hamı böyük bir diqqət və etimadla Vaqifi dinləyirdi. Vaqif bu vəziyyətdən istifadə edərək son fikrini söylədi: – Nə eybi var, qoy elçilərimiz bizim də urus himayəsinə girmək arzumuzu urus böyüyünə eşitdirsin. Bu sözü deməklə himayəyə ki, girmədik.

Vaqifin son fikri məclisdəkilərin bəzisini həyəcana gətirdi: etirazlar başlandı. Yenə dinin pozulması, kafirin zəfər tapması, ermənilərin üstümüzə ayaq alacağı kimi məsələlər meydana çıxdı. Vaqif münaqişələri sonuna qədər dinləyib, gülümsünərək bir məsəl çəkdi:

– Günlərin bir günü – dedi, – bir padşah car çəkdirib, dedi ki, kim mənim eşşəyimə dil öyrətsə, ona bir kisə qızıl verrəm: öyrədə bilməsə başı cəllad əlindədir. Bir qoca kasıb kişi padşahın yanına gedib: “Mən öyrədərəm”, – dedi. Qızılları aldı, üç ay da möhlət istədi. Evə qayıdanda arvad kişinin üzünü danlamağa başladı: “A kişi, – dedi, – eşşək də dil öyrənərmi, üç ay gəlib keçəcək, padşah sənin başını vurduracaq, mən də ortalıqda qalacağam”. Kişi güldü: “Ay arvad, – dedi, – hələ üç ay möhlətim var, bu üç ayda ya padşah ölər, ya eşşək ölər, ya da ki mən”. İndi, ağalar, himayə deməklə himayəyə girmədik. Vaxt var, imkan var, baxarıq, məsləhətimiz nədir, onu elərik.

Vaqifin fikri və lətifəsi hamının xoşuna gəldi. Xanın da kefi duruldu.: gülümsünərək neypuşu ağzından buraxmır və qəlyanın şüşəsində

çəkilmiş qız rəsmilərinə baxıb düşünürdü. Birdən düşüncədən ayrılıb, məclisi gözdən keçirdi. Hamı gözünü onun ağzına dikmişdi. Xan bir qərara gəlmək lazım olduğunu duydu:

– Deməli, belədir, – dedi. – Axund Molla Pənahın özü Tiflisə getməlidir. Ona bəylərdən də qoşaram. Yazı-pozusunu da Mirzə Camal elər, yaxşı xətti var. Axunda küllü ixtiyar verirəm. Məsləhət necə isə, elə də elər: özü arif və aqil bir adamdır.

Xanın təklifini məclis sükut ilə təsvib etdi.

5

Payızın gözəl çağı idi. Ağaclar çiçək dəstəsi kimi sarı və qırmızı çalırdı. Yağış mövsümü hələ başlamamışdı. İstilər çəkilmişdi, lakin xoş bir ılıqlıq hələ havanı dolaşırdı. Əydəmli günəş uzun kölgələr salır, əlvan rəngli xəzəl xiyabanları bürüyüb, ayaq altında həzin xışıltı doğururdu.

Ağabəyim bütün günü dayəsi Nazlı ilə saray bağını dolaşır, rəngli xəzəllərdən çələng toxuyur, dayəsinə min bir sual verirdi. Dayə də bütün sevgisini gözəl çocuğun ətrafına toplayıb, onunla bir yoldaş kimi rəftar edir və hər bir sualına öz biliyincə cavab verirdi. Nazlı savadlı deyildi, o şəhərdə kök salmış islam və İran mədəniyyətindən xəbərsiz idi. Lakin o öz doğma el və ulusunun əsrlərdən qalma nağıllarını, əfsanə və dastanlarını bilirdi: türk əsatiri onun üçün təkzib olunmaz bir həqiqət kimi yığılıb, sinə dəftərində zəbt olunmuşdu. İştə, bu sinə dəftəri hər gün açılar, onun tükənməz səhifələri Ağabəyimin qarşısında varaqlanardı. Bu dəftər bütün təbii ərizələri izah edirdi: hərdən əjdaha aya dırmaşıb, onu boğmaq istəyir, bu əjdahanı qorxutmaq üçün camaat ona güllə atır, mis qab çalıb, səs salır ki, qaçsın – bu aytutulma idi. Hava bulud olanda göydəki mələklərdən biri altun atına minib, onu odlu qamçısı ilə vuraraq çapdıqda göy guruldayır, odlu qamçı havada oynayır. Quşların da qəziyyələri bu dəftərdə yazılmışdı: hüd-hüd* qız imiş, çayda çimirmiş, başını daradığı yerdə birdən qayınatası böyürdən çıxır. Qız utanıb, üzünü göyə tutur, deyir: "Ey tanrı, məni quş elə həyam özümdə qalsın". Ulu tanrı onu quş edir – görürsən, darağı da başında durur.

* Şanapipik

İşdə, Ağabəyimi sabahdan axşama qədər əyləndirən parlaq əfsanələr. Bu əfsanələrdən sonra molla bacının anlaşılmaz çərəkəsi və Quranı çocuğa olduqca ağır görünürdü. Əlacı nə idi, oxuyub əzbərləyirdi.

Bu gün dərs olmamışdı. Molla bacı xəstə imiş. Odur ki, Ağabəyim səhərdən dayəsindən ayrılmamışdı. Nahara gedib, nahardan sonra təkrar bağa çıxmışdı. Artıq günəş batır, qüruba qan səpilmişdi. Nazlı Ağabəyim ağanın əlindən tutub dedi:

– Daha toran qovuşur, evə gedək.

Ağabəyim yamaca, saraya doğru çıxan cığırla huşsuz addımlarla yürüyür, göyün üzünə səpilmiş qızartdaq bulud parçalarına tamaşa edirdi. Birdən onun üzü bir sual ifadəsi aldı:

– Dayə, – dedi, – göy niyə qırmızı olur?

Dayə çönüb, dərdli-dərdli göyə baxdı, sonra köksünü ötürərək:

– Bəyim, – dedi, – bir padşah varmış, bu padşahın gözünün ağı-qarası bircə oğlu varmış. Bir gün padşah ikinci bir arvad alır. Günülər bir-biri ilə yola getmirlər. Təzə arvad günüsünü hər gün ərinə çuğullarmış, o da ona sitəm eləyirmiş. Bir gün təzə arvad bir oyun da düzəldir: padşahın oğluna böhtan calaşdırır. Padşah qəzəbə gəlib, cəlladı çağırdır, öz oğlunun başını kəsdirir. Oğlunun yazıq anası ovuclarını oğlunun qanına tutub, göyün üzünə atır, deyir: “Tanrı bu nahaq qanı yerdə qoymasın!” Qan göyün üzünə səpilib, qalır... Qiyamət günü mizan-tərəzi qurulacaq, padşahı tanrı hüzuruna gətirəcəklər, əcri verildikdə göyün üzündən o nahaq qan çəkilib gedəcək.

Dayənin hekayəsini maraqla dinləyən Ağabəyim susub, qalmışdı. Arabir göyün qızartısına baxır, körpə sifətində kədər ifadəsi əks edirdi.

Evə gələnə qədər Ağabəyim başı kəsilmiş oğlanı unuda bilmədi. Otağa girərkən təkrar dayənin qulağına:

– Dayə, o oğlan bir də dirilməyəcək? – deyə pıçıldadı.

Dayə cavab verdi:

– Yox! Ölən dirilməz ki!

– İndi onu yerə basdırıblar?

Dayə gülümsünərək dedi:

– Hə, torpağın altındadır.

Ağabəyimin anası Tutubəyim ağa pəncərənin ağzında oturub qəlyan çəkirdi. Qızının dayə ilə pıçıldaşdığını görüb:

– Yenə o çoxbilmiş qız nə soruşur? – deyə gülümsündü.

– Deyir göy niyə qırmızıdır?

Tutubəyim ağa ala gözlərini süzərək:

– Göyün qırmızısını neynirsən, a əllamə! – deyə qəhqəhə çəkib güldü.

Ağabəyim qızarıb, anasına tərəf qaçdı, anası onu qucaqlayıb öpməyə başladı. Sonra dayəyə yönəlib dedi:

– Dayə, yeməyini hazırla, qızım yorulub, yatmaq istəyir.

Dayə divardakı xırda dolabın oyma naxışlı qapısını açdı: qatıq, riçal və təndir çörəyi çıxartdı. Xalının üstünə süfrə salındı, yeməklər düzüldü. Dayə Ağabəyimi yedirməyə başladı.

Ağabəyim həvəssiz yeyir və bir-birinin arxasınca dayəyə suallar verirdi. Əvvəlcə qatığın və riçalın necə qayrıldığını soruşdu. Çörəyin bişirildiyini bilirdi, ancaq buğdanın bitməsini və dəyirmanda üyüdülməsini bilmirdi. Dayə bunları anlatdı.

Tutubəyim ağa qəlyan çəkib, böyük qızı Tububəyimlə danışır və onu inandırmaq üçün tez-tez atası Şahverdi xanın goruna and içirdi. Tutubəyim gəncəli olduğu üçün danışığında Qarabağda anlaşılmayan bəzi sözlər işlədir və Tububəyimin rişxəndinə səbəb olurdu:

Tububəyim məxsus:

– Ana, yer höyüşdür![*] – deyə qəhqəhə çəkdi.

– Anası da istehza üçün:

– Dağ qəlbidir[**] – dedi, qarabağlı qızına sataşdı.

Ağabəyim bu zarafatları eşidən kimi süfrədən qalxdı:

– Yer höyüşdür! Yer höyüşdür! – deyə-deyə otaqda qaçmağa başladı.

Hamı gülüşdü, sonra Tutubəyim ağa ciddi səslə:

– Nazlı, – dedi, – qızın atılıb-düşdüyü bəsdir, yuyundur, yatağına qoy. Sonra yuxusu başına vurar.

İbrahim xanın hər arvadına iki otaq təxsis olunmuşdu. Bu otaqların biri uşaqlar üçün idi. Dayə Ağabəyimi o biri otağa aparıb, pəncərənin qabağındakı taxtda uzandırdı.

Ay Bağrıqan dağının üzərindən yetişmiş alma kimi sallanmışdı. Hava olduqca xoş idi. Bağdan aşağıda, bürclərin altından saz səsi gəlir, kim isə yanıqlı şikəstə deyirdi. Sol tərəfdə, dərənin üstündəki ya-

---

[*] Hörüş-yaş deməkdir.

[**] Qəlbi yüksək deməkdir.

macdan da kim isə bu səsə cavab verirdi. Bayatıların gözəlliyi gecənin gözəlliyinə qarışaraq Nazlının qəlbini dalğalandırmışdı: o qarşıdakı sirli kainatı xumarlanmış gözlərilə süzür, nəğməni dinləyirdi. Sanki onun özü də yavaş-yavaş əriyib, bu nəğmələrə qarışır, yox olurdu. Lakin Ağabəyim onun xumarlanan gözlərini körpə və xoş bir istilik saçan əllərilə açır:

– Nağıl de, nağıl de, yatma! – deyə inadla təkrar edirdi.

Nazlı gözlərini ovuşdurdu, sonra dirsəklərilə Ağabəyimin yatağına söykənərək başladı:

– Biri varmış, biri yoxmuş, tanrı varmış, bəndəsi çox imiş, bu bəndələrin də içində Oğuz xan adında igid bir kişi varmış. Onun atının nalı yerə dəyəndə yer titrərmiş, kişnəyəndə göy guruldarmış. Oğuz belə Oğuz xan imiş. Günlərin bir günü Oğuz xan qoşunu ilə gəlib, Dəmirqapıya* çıxır. Oranın padşahı qapının dalından deyir: "Qoç başı, qoyun başı?" Oğuz xan: "Qoç başı!" – deyib bağırır, padşahın qorxusundan ürəyi gedir. Vəzir-vəkil tökülüb, padşahı ayıldırlar, deyirlər: "Padşah sağ olsun, sənə nə oldu? Padşah deyir: "Vəzirlərim, vəkillərim, bu Dəmirqapıya çox padşahlar gəlib, hamısından soruşmuşam: "Qoç başı, qoyun başı?" deyib: "Qoyun başı!" O saat başları Dəmirqapıya dəyib, sınıb, yerə düşüb. İndi bu: "Qoç başı" – deyir, bağırtısından da qapı titrəyir. "Bu adamda xata var". Vəzir-vəkil məsləhət-məşvərət edib, qapını açıblar. Oğuz xan keçib içəri.

Bəyim, sənə kimdən deyim – Oğuz xanın qızı Gültəkindən. Bu bir nazənin sənəm imiş ki, gündüz gün kimi, gecə ay kimi aləmə işıq salırmış. Özü də igid bir qız imiş, qız qoşununun sərkərdəsi imiş. Oğuz xan bir gün öz qızı ilə gəlib, Arana çıxır. Qoşununa deyir: "Qızlar, bura düzdür, heç yer görünməyir, mən istərdim burada bir təpə olsun, onun başından bütün İran-Turan elləri görünsün. Əsgərlər Oğuz xana baş əyib, gedir, hərə bir ovuc torpaq gətirib, tökür, düzdə böyük bir təpə əmələ gəlir. Oğuz xan qızı Gültəkinlə təpənin üstünə çıxıb, dünyaya tamaşa etməyə başlayır.

İran padşahı bu zaman imarətində oturmuş imiş, bir də görür Aran torpağından bir gün doğdu, gözləri qamaşmağa başladı. Padşah vəzir-vəkildən əhvalatı soruşur, deyirlər: "O gün deyil, Oğuz xanın qızı Gültəkindir: gündüz gün kimi, gecə ay kimi aləmə işıq salır".

---

* Dərbənd

Padşah barmağını dişləyir, deyir: “O qızı gərək mən alam”. Qoşununun hamısını yığıb gəlir Arana. Oğuz xan görür təpənin ətəyindəki elçi daşını bir adam döyür. Nökərini yollayır ki, bilsin kimdir. Deyirlər İran padşahı Gültəkinə elçi gəlib. Gültəkin bunu eşitcək qız qoşununu başına yığıb, İran şahının qabağına çıxır, deyir: “Mənə elçi gələn kimdir?” İran padşahı qoşunu ilə qabağa çıxır. Gültəkin deyir: “Mən indiyə qədər dava meydanında yenilməmişəm, hansı igidə yenilsəm, mən onunam. Bu meydan, bu qılınc, buyur!”.

Gültəkinlə İran padşahı arasında böyük bir döyüş olur. Gültəkin İran padşahını basır, qova-qova aparıb, Arazın o tayına tökür. Gültəkin yorunuq, arınıq qan tərin içində geri qayıdır. Axtarır, axtarır Oğuz xan oturan təpəni tapa bilmir. Axırda gəlib Bağrıqanın təpəsinə çıxıb oturur. Saçlarını açıb, dağ aşağı tökür, atasını yadına salıb ağlayır. Gültəkinin göz yaşları töküldüyü yerdə bənövşə bitir. O zamandan o dağın adı Bağrıqan qalmışdır, çünki orada ata dərdi çəkən Gültəkinin bağrı qana dönüb. Bənövşələr də həmişə başlarını aşağı dikirlər ki, gözləri Bağrıqana sataşıb, Gültəkinin dərdini yadlarına salmasınlar... Onlar yedilər, yerə keçdilər, sən də ye, dövrə keç.

Nazlı nağılını bitirib, Ağabəyimin üzünə baxdı: çocuq totuq əlini yanağına söykəyib, çoxdan uyumuşdu.

6

Vaqifin başçılığı ilə Tiflisə göndərilmiş Qarabağ heyəti yolda qarborana düşərək böyük əziyyət çəkmişdi. Tiflisə çatar-çatmaz İrakli xanın mehmandarı onları zadəganlardan birinin evinə aparıb rahatladı. İstər minmiş olduqları atları, istərsə özləri əldən düşmüşdülər. Vaqifin ilk fikri tərifini çox eşitdiyi Tiflis hamamını ziyarət etmək idi. Mirzə Camal özünəməxsus sakitliklə:

– Axund, – dedi, – yoldan sonra bu qarlı havada hamama buyurulsa, haşa sizdən, zatilcəm* peyda olar.

Vaqif qırmızı yanaqlı, safdil bu gəncə ata məhəbbəti ifadə edən gözlərilə baxıb dedi:

– Oğlum, mən dağlarda böyümüş qazağam: soyuq, şaxta mənə kar eləməz. Su yolun yorğunluğunu canımızdan çıxardar, sonra bir-iki gün evdə oturub dincələrik.

---

* Sətəlcəm

Mehmandar təzə atlar hazırlatmışdı, Vaqif samur kürkünü geyib, yola düşdü, qoltuğu qələmkar boğçalı nökəri də onu təşyi etdi.

Qışın ilk ayı idi. Tiflisi qar basmışdı. Buna baxmayaraq, rus qoşunu gəlib çıxmış və Tiflisə böyük fərəh vermişdi. Əhali artıq İran boyunduruğundan və ləzgi hücumundan qurtarmış kimi görünürdü. Vaqif Tiflisin övzaini ilk əvvəl hamamda cansürtən Ocaqquludan öyrəndi. Ocaqqulu Vaqifi daş səkidə uzandırmışdı, sabun kisəni üfüləyərək onu ağ köpük içində gizlətmiş və iki əlini köpüyün içində uzadıb bədənini seğəlləyirdi.

Vaqif bu əməliyyatdan xoşlanıb, məst kimi də olsa, yenə Ocaqquluya bəzi suallar verirdi:

– Tiflisin əhvalı necədir, həmşəhri? – deyə soruşdu.

Ocaqqulu şərq hadisələrinin içində böyümüş və bu hadisələrdən müəyyən dərs almış olduğu üçün Vaqifi ehtiyatla süzdü və özü də ona suallar verməyə başladı:

– Ağa, bağışla, gəlmə adama oxşayırsan.

– Bəli, buralı deyiləm.

Ocaqqulu çoxmənalı üzünü Vaqifə tutaraq:

– Ağa, – dedi, – Tiflis pis deyil, inşallah, daha da yaxşı olar. Bir az qıtlıq çəkirik, İrandan karvan axır vaxtlar gəlmir. Qarı da ki, görürsən.

Cansürtən sözlərini bitirib, qəribə gülümsəmə ilə Vaqifi süzdü. Bu baxışda çox mülahizələr ifadə olunurdu: onu yalnız şərqdə yaşayan dünyagörmüş adamlar şərh edə bilərdi. Ocaqqulunun məramını sadə dilə çevirsək belə çıxırdı: “Tiflisdə həyat olduqca ağırdır, əhali zəruri şeylərdən belə məhrumdur, çünki İrandakı və Azərbaycandakı təxt-səltənət davası kasıbların həyatına zəhər qatır. Bəlkə irəlidə yaşayış yaxşılaşa, bu da ki, şübhəlidir.” O ki, qaldı, Ocaqqulunun “Qarı da ki, görürsən” – cümləsinə, bunun məsələyə dəxli yox idi: istibdad idarəsində yaşayan adamlar böylə cümlələri çox işlədər, buna “giriş yolu” deyərlər.

Vaqif məsələni anladı gülümsünərək:

– Haralısan? – dedi.

Ocaqqulu yenə eyni ifadə ilə:

– Təbriz uşağıyam... – dedi. – Buraya bərayi-ziyarət gəldim, yenə vətənimə qayıdacağam, əhl-əyalım ordadır.

Vaqif yenə məsələni anladı. Ocaqqulu boş müharibələrə sürüklənməsin deyə, başını götürüb, qaçmağa, arvad-uşağını tərk etməyə məcbur olmuşdu.

Ocaqqulu Vaqifi kisələyib, yuyundurdu və arxasına qətfə salıb, içəridən yola salarkən:

Ağa, görünür, xeyir iş üçün gəlmisən, bu havada səfərə xeyir iş üçün çıxarlar, – dedi və çox mənalı təbəssümü yenə üzünə yayıldı.

– Yaxşı olar, inşallah! Yaxşı olar! – deyə ima ilə əlavə etdi.

Vaqif hamamdan sonra iki gün evdən çölə çıxmayıb, bir şeir Tiflisin və valinin mədhinə, bir ayrısını da vəliəhd Əlyuna ithaf olaraq yazdı, üzü köçürülmək üçün özü ilə gətirdiyi xəttata verdi. Şəhəri gəzməyə çıxmış Mirzə Camal Ömər xanın və Fətəli xanın da nümayəndələrinin Tiflisə gəlməsini xəbər verdi. Bu məsələ Vaqifi düşündürdü: o, Ömər xanın nümayəndəsilə görüşmək arzusunda olsa da, ehtiyat edirdi: bu görüş yanlış təfəhhümlər doğura bilərdi: Fətəli xanın adamlarına bir dəstavüz lazım idi. Bu mülahizələri nəzərdə tutaraq Vaqif İrakli xanı rəsmən təbrik edənə qədər kimsə ilə görüşmək istəmədi. Lakin, görünür, Vaqif ilə görüşməyə can atanlar var imiş. Vaqifin gəldiyinin üçüncü günü nökər bir qoltuqçunun onunla görüşmək istədiyini xəbər verdi. Vaqif:

– Nəçidir, kimdir? – deyə maraq etdi.

– Ağa, qoltuqçudur, ipək mal gətirib.

Vaqif ehtiyat etdisə də, razılıq verdi. İçəri gürcü qiyafəli, hamar saqqallı bir adam girdi.

– Müsaidə buyurulurmu, əfəndim həzrətləri? – dedikdə Vaqif bu adamın Rum diyarından olduğunu duydu.

– Buyur! Buyur! – deyə buxarının yanında yer göstərdi. Sonra işarə edər-etməz içəridəkilər o biri otağa keçdilər.

Qoltuqçu malları açıb tökdü-gözəl firəng və İstanbul qumaşları şairi heyran qoydu. Qoltuqçu malları göstərərək əsil məqsədini mülayim bir dillə anlatmağa başladı. Bu adamın Axalsıq paşası Süleymanın nümayəndəsi olduğu meydana çıxdı: Tiflisə gizli olaraq Azərbaycan xanlarının vəkillərilə görüşməyə gəlmiş və sirr açılmasın deyə qoltuqçu cildinə girmiş imiş. Məsələ rusların Terek çayına körpü salıb, dağlardan yollar açıb, Tiflisə gəlməsilə mərbut idi.

– Qardaşım, bu yollar yalnız əsgər deyil, ağır toplar və cəbbəxana daşımaq üçün yapılmış. Bu gün Tiflis, yarın Qarabağ, o biri gün isə İran və dövləti Osmaniyə torpaqları yəğma olunacaq – gavur xəncəri islamın bağrına soxulacaq...

Süleyman paşanın müməssili rusların əleyhinə uzun-uzadı danışdı və bütün xanlıqları ittihada və müqavimətə dəvət etdi.

Vaqif sakit bir halda mümәssili dinlәyir vә arabir buxarını maşa ilә qurdalayırdı:

– Osmanlı dövlәti-müәzzәmәsi ilә Rusiyanın әlaqәsi necәdir? – deyә soruşdu.

Mümәssil gözlәrini parladaraq hәyәcanla:

– Əfәndim, – dedi, – sәkkiz il әvvәl yapılmış Küçük Qaynarça müahidәsi mövcibincә Mosqovla hal sülhdә olduğumuz mәlumi-alinizdir. Bu, altı illik şiddәtli müharibәnin bir sәnәdi olaraq bizi hala bәzi tәşәbbüsatdan mәhrum qoyur. Mәsәlә böylә davam etsә, әlbәttә...

Bu әsnada qapı açıldı, nökәr mehmandarın gәlmәsini xәbәr verdi. Vaqif vәziyyәtini dәyişmәyәrәk:

– Buyursun! – dedi vә qumaşın bir topunu qucağına alıb, mümәssilә:

– Bunu bәyәndim, o birilәri dә aç baxım.

Mehmandar içәri girdikdә Vaqifi qumaşlarla mәşğul gördü, o qәdәr sövdәyә dalmışdı ki, mehmandarın içәridә olduğunu belә sanki duymayırdı. Birdәn parçalardan ayrılıb:

– Bağışla, oğlum! – dedi. – Buyur әylәş!

Mehmandar nәzakәtlә dedi:

– Ayın iyirmi ikisindә, sabah yox, o biri gün, rәsmi ziyarәt olacaq, onu xәbәr vermәyә gәldim. O günü padşah tәşrifinizi gözlәyәcәk...

Vaqif cәld:

– Çox gözәl, oğlum! – dedi.

Bu әsnada küçәdәn musiqi sәsi eşidildi. Vaqif pәncәrәyә yanaşdı: zirehli süvarilәr vә gürcü tavatları musiqi dәstәsilә küçәlәri gәzib, bayram olacağını elan edirdilәr.

Yanvarın 22-dә sәhәr tezdәn 101 topdan açılan atәş bayramın başlanmasını Tiflis әhalisinә bildirdi. Rәsmi keçid çar nümayәndәsi polkovnik Burnaşov yaşadığı evdәn başlayıb, İrakli xanın sarayına getmәli idi. Vaqif heyәtilә bәrabәr oraya getdi, ancaq keçidә rәsmәn qoşulmadı, kәnarda durub, seyrә başladı. Küçәnin iki tәrәfi dә silahlı tiflislilәrlә tutulmuşdu: orta boş idi. Qafilә tәrpәndi. Öndә pişdarlar, onun arxasınca gürcü süvarilәri, onlardan sonra da iki rus tağımı yürüyürdü. Bunları mütәaqib baş tәşrifatçı vә İraklinin baş katibi rәhbәrliyindә 24 süvari zadәgan keçib getdi. Sonra bir atlı rus zabiti, arxasınca da piyada yeriyәn kiçik rus zabitlәri göründü: әllәrindә rus çariçasının İrakliyә göndәrdiyi hәdiyyәlәri tutmuşdular. Bu hәdiyyәlәr bayraq, qılınc, xirqә, toppuz, tac vә fәrmandan ibarәt idi. Hәdiyyә-

lərin hər iki tərəfində gürcü zadəganları gedirdi. Sonra bir rus zabiti gəldi, qafilə iki yeger alayı tağımı və gürcü süvarilərilə bitdi.

Vaqif atını çevirib, yan küçələrlə saraya doğru sürdü. Qar dizə çıxırdı, yollar da eniş-yoxuş idi. Sarayın önündə qafiləni rus qoşununun musiqi dəstəsi və gürcü zurnaçıları qarşıladı. Qafilə saray darvazasından içəri girdikdən sonra Vaqifin heyəti daxil oldu. Mehmandar göstərdiyi yerdə Vaqif və adamları atdan düşdülər. Vaqif cilovdarları, zinpuşçuları və özü ilə götürdüyü Səfəri atların yanında qoyub, özü isə bəylər və Mirzə Camalla pilləkəndən artırmaya çıxdı. Təşrifatçı onları hörmətlə qarşılayıb, qəbul kallayısına apardı. Bütün rus zabitləri, gürcü tavatları bu qiymətli xalılarla döşənmiş otaqda idi. Yuxarı başda taxt qoyulmuşdu. İrakli xan taxtın önündə durmuş, ətrafını xanzadələr, baş keşişlər, vəzirləri, əyanları bürümüşdü.

Vaqif göstərilən yerdə oturub, mərasimi böyük maraqla seyr edirdi. Rus zabitlərindən biri irəli yeriyib, İrakli xanı Rusiya himayəsinə girməsi münasibətilə təbrik etdi və sonra Peterburqdan göndərilmiş hədiyyələri bir-bir kiçik zabitlərdən alıb, İrakliyə verdi. Nəhayət gümüş və qızılla işlənmiş cildə qoyulmuş fərmanı təqdim etdi.

İrakli xan hədiyyələri ayaq üstə qəbul edir və ətrafdakılara verirdi, yalnız tac və toppuzu öz yanında məxmər yastıqlar üstündə saxlatdı. Çariçanın fərmanı təqdim edilən kimi, dışarıdan 101 top atəşi eşidildi. Bu bitdikdən sonra İrakli xan yeddi oğlunu və iki oğlan nəvəsini taxtın pillələrində qoyub, özü taxta çıxdı və oradan hədiyyələri təqdim etmiş rus zabitinə təşəkkür izhar etdi.

Bununla mərasim bitdi, Rusiya nümayəndələri bir-bir irəli gəlib, İrakli xanın əlini sıxır və təbrik edirdi. Gürcü tavatları və məmurlar hökmdarın əlini öpürdü, bəzisi həyəcanından ağlayırdı. Sıra Vaqifə gəldi, vüqarla irəliləyib, İrakli xanla əl-ələ tutuşdu, və bir az əyilərək:

– Əcdadınızın taxtında payi-qədim olasınız! – dedi. – Qarabağ hökmdarı fəxrimiz İbrahim Xəlil xan ali-həzrətlə iyirmi ildən bəri dost və ittifaq minvalilə keçinmişlər. İnşallah, irəlidə də sədaqət və vəfadarlığımızda paydar olarıq.

İrakli qaşlarının altından Vaqifi süzərək türkcə dedi:

– Şəkk eləmirəm! Dostum İbrahim Xəlil xana məndən çox-çox salam yetirin.

Vaqif danışarkən onun nitqini tərcüman taxtın yanında durmuş polkovnik Burnaşova tərcümə edir, o da Vaqifi diqqətlə süzərək başını tərpədirdi.

Mərasimdən sonra qonaqlar yemək otağına çağırıldılar. Gürcü zadəganlarından biri tulumbaşı* seçildi, dəbdəbəli ziyafət başlandı. Tulumbaşının təklifinə riayət edərək çaxırlar buynuz qədəhlərə töküldü. Çariça Yekaterinanın şərəfinə nitq söylənib, ayaq üstə içildi: dışarıda yenə də 101 top atəşi açıldı. İkinci qədəhi "zati-nəcabətləri" (müahidəyə görə Gürcüstan padşahı bu ünvanı daşıyırdı) İraklinin sağlığına qaldırdılar, 51 top atəşi gurultusunda qədəhlər başa çəkildi...

Rəsmi qədəhlərdən sonra Vaqifə sözə verildi. Vaqif ayağa qalxdıqda, tərcüman Burnaşova tərəf əyilib, Vaqifin sözlərini ona tərcümə etməyə hazırlaşdı. Qarabağ vəziri özünəməxsus vüqar və soyuqqanlılıqla lülələnib şal qurşağına qoyulmuş tirmə kağızı çıxarıb açdı və gözəl bir səslə oxudu:

Vəh bu bağın nə əcəb sərv dilarələri var,
Hər tərəf tazə-açılmış güli-rənaləri var.
Açılıb tazə-tərü laleyi-hümraləri var,
Yəni Tiflisin əcəb dilbəri-zibaləri var,
Ey könül, seyr elə kim, türfə tamaşaləri var...

– deyə başlanan bu şeiri əksəri türkcə bilən gürcülər böyük bir həvəslə dinlədilər. Lakin şerin sonu cürbəcür tələqqilərə səbəb oldu:

Vaqifa, səndə ki, yoxdur bilirəm, zöhd-riya,
Şərt ixlas gərək eyliyəsən şimda əda,
Eylə bu valiyə, oğlanlarına xeyri-dua:
Saxlasın onları öz hifz pənahında xuda!
Hasil etsin nə qədər dildə təmənnaləri var!

Bu parçadakı "vali" sözü ən əvvəl İrakliyə xoş gəlmədi, çünki indi artıq İrakli İranın dörd valisindən biri deyil, Rusiya himayəsinə girmiş müstəqil bir padşah idi. Burnaşov da məmnun qalmadı: Rusiya qoşununun dəbdəbə ilə Tiflisə girməsi, çariça Yekaterinanın dünyaya səs salmış əzəməti kiçik Qarabağ xanlığının rəsmi mümessilinin nəzərini belə cəlb etməmişdi. Burnaşov ilk dəfə olaraq şərq diplomatına, onun ehtiyatkarlığına rast gəlirdi. Təbii idi ki, Vaqif "vali" yerinə "padşah" desəydi, bu sözlə İrana qarşı olan əlaqəni pozmuş olardı: bu da ki, hələlik, Qarabağ xanlığının faydasına toxunurdu.

---

* Tulumbaşı – tamada

O biri gün Vaqif kilsəyə gedib, İraklinin Rusiya ilə bağlanmış müahidəyə sadiq qalacağına dair içdiyi and mərasimində iştirak etdi.

Vaqif Tiflisdə iki həftəyədək qaldı. O, İrakli xanla bir daha görüşmədi, çünki müahidə mücəbincə Gürcüstan padşahı yalnız polkovnik Burnaşovun vasitəsilə rabitəyə girişə bilərdi və Rusiya müməssilinin məsləhəti olmadan heç bir addım ata bilməzdi. İraklinin bu vəziyyətindən məmnun qalmayan Vaqif rəsmi aləmi buraxıb, Tiflisin tamaşasına dalmışdı. O indi yalnız bir şair, bir həssas gözəllər aşiqi idi. Kilsədəki and mərasimindən daha çox oradakı bir gürcü dilbərinə vurulub qalmışdı. Bu dilbərə qarşı bəslədiyi coşğunluğu o günü bəyazına qeyd elədi:

Şanə vəş seyqəl verib zülfi-bənövşə nisbətə,
Pərdə mütləq tutmayıb simavü-sədrü surətə,
Qıl tamaşa gərdənə! Seyr eylə qəddü-qamətə!
Qaş, göz, qəmzə, məazallah, dönübdür afətə!
Etməyə din mülkünü yəğma kəlisadən çıxar!

Vaqifəm, ta ki, gözüm onun sataşdı qaşına,
İstədi mehrabü-mənbərdən xəyalim daşına!
İndi bildim ki, nə gəlmiş Şeyx Sənan başına,
Ya budur ki, Tiflisi qərq eylərəm göz yaşına,
Ol sənəm vəsli mənimçün ya kəlisadən çıxar!..

Vaqif Tiflis gözəllərinin nəşəsilə odlanıb, şeir səmalarında süzərkən, mehmandar gətirdiyi xəbərlə onu yenə yerə kəşməkəş aləminə qaytardı. İrakli xan Qarabağ elçisininin polkovnik Burnaşovla görüşməsini tövsiyə edirdi. Vaqif İraklinin təklifini məmuniyyətlə qəbul etdi, gün və saat təyin olundu.

Vaqif Qarabağ xanlığının qüvvətini nümayiş etdirmək üçün ayrıca bir dəbdəbə ilə Buranşovun yanına getdi: gümüş yəhər-əsvablı atını mindi, iki cilovdar atın başını çəkir, iki zinpuşçu arxadan yürüyür, silahlı nökərlər də gözəl Qarabağ atlarını səyirdərək onları təşyi edirdi. Səfər də atını qabaqca sürüb, yol verilmək üçün xəbərdarlıq edirdi. Vaqif bəylərin getməsini məsləhət görmədi, özü ilə yalnız heyətin katibi Mirzə Camalı götürdü.

Vaqif Burnaşov yaşayan evin artırmasında isti kürkünü soyundu, nökərlərdən birisi onun çiyninə zoğalı çuxasının üstündən bir samur

xəzli ipək xirqə saldı, bu qiyafədə içəri girdi. Burnaşov masasının yanında ayaq üstə durmuşdu, onun dizinə qədər çəkilmiş corabları, incə ayaqqabıları, baftalı qaftanı, həmayili, döşündəki xaç və ildızlar, nəhayət, üstünə kirşan səpilmiş xırda saçlı parik və qırxıq üzü Vaqifə tanış da olsa, onu təkrar maraqlandırdı.

Masanın arxasına vurulmuş qiymətli xalçanın üstündən Yekaterinanın iri rəsmi asılmışdı. Vaqif rus çariçasının şəklini ilk dəfə görürdü, o bu şəklə ötəri olaraq baxdı və nəzərini Burnaşova çevirdikdə bu iki simanın arasında bir oxşayış duydu: girdəsifət, ala gözlü Burnaşov da qadına, xüsusilə Yekaterinaya bənzəyirdi.

Nədənsə Vaqif sezilməz bir təbəssümlə: "Mal yiyəsinə oxşamalıdır", – türk məsəlini xatırladı.

Burnaşov ona yaxınlaşan Vaqifə nəzakətlə əl verib, masasının qabağındakı yumşaq sandalyada ona və katibinə yer göstərdi. Oturdular. Tərcüman da gəlib oturdu. Nəzakət qəbilindən olaraq bir sıra rəsmi sözlərdən sonra, Burnaşov Yekaterinanın ədalət və mərhəmətindən, Tiflisə qoşun göndərməkdə heç bir istila fikrində olmadığından, yalnız əhalinin asayiş və bəxtiyarlığını güdməsindən bəhs edib, əsil məsələyə keçdi:

– Biz möhtərəm hökmdarınız İbrahim Xəlil xanla da dost olmaq niyyətindəyik. Mərhəmətli çariça sizə də himayəedici əlini uzatmaq istəyir. Xan yalnız bizim himayəmizdə öz taxtında baqi qala bilər.

Vaqif bu sözləri dinləyir və şərqlilərə məxsus şübhə ilə Burnaşovun incə dodaqlarına və ağ dişlərinə tamaşa edirdi. Burnaşov sözlərini bitirər-bitirməz Vaqif başladı: Qarabağ xanının Çingiz nəslinə və Ərğun sülaləsinə mənsubiyyətini, Şişə kimi Şərqin açarı sayılan möhkəm bir qalaya malik olduğunu, qüvvət və qüdrətini, Təbrizə qədər hökmü yeridiyini birər-birər söyləyib:

– Əlahəzrət çariça ilə də, – dedi, – dost keçinməyə müştaq və amadəyik. Lakin...

Burada Vaqif bir az dayanıb, ciddi bir baxışla Buranşovu süzdü və sonra İraklinin bağladığı müahidəyə işarə edərək, eyni şəraiti İbrahim Xəlil xanın da məqbul tutacağını sezdirdi.

Burnaşov gülümsədi. Bu gülümsəmədə çar nümayəndəsinin bu şəraitə razı olmadığı aşkar göründü. Vaqif məsələni anladı, lakin özünü ona qoymadı: İran hadisələrinə keçdi. İbrahim xanın İran taxtını əlinə alması kimi edilən təklifləri söylədi.

Burnaşovun siması yavaş-yavaş sərtləşib, təkrar açıldı:

– Siz, – dedi, – əlahəzrət çariçanın alicənablığına, mərhəmətinə inanmalısınız. Sizin üçün bu mərhəmət böyük bir nemət ola bilər.

Vaqifin də üzü bir az sərtləşdi:

– Mərhəmət böyük nemətdir, – dedi, – doğru buyurursunuz, lakin məmləkətlər arasındakı rəftar və əlaqənin də qaydaları var.

Burnaşov yenə etimad və mərhəmət məsələsini meydana atdı, çariçanın Krım xanına qarşı göstərdiyi "ədaləti" dəlil gətirdisə də, Vaqifi qane edə bilmədi. Vaqif İrakli ilə bağlanan müahidəni nəzərdə tutaraq işarələr elədi, bu fikirlərin öz şəxsi fikirləri olub, İbrahim Xəlil xanın hələ guya nə rəydə olduğunu bilmədiyini irəli sürərək, Burnaşovun ağzını aradı. Axırda Burnaşovun xaçpərəst Gürcüstanına və müsəlman Qarabağına başqa bir nəzərlə baxdığını duyub, dilxor oldu. İndi Vaqif bir daha eyni söhbətə qayıtmaq istəmir, Burnaşovun çariçanın mərhəmətinə həsr olunmuş söhbətini daxili bir kinlə dinləyib susurdu. Nəhayət, Vaqif, Burnaşovun inadına cavab olaraq, tamamilə məsələyə dəxli olmayan söhbətlərə keçib, çar nümayəndəsini dilxor etdi.

## 7

Vaqif Şişəyə gələr-gəlməz İbrahim xanın yanına gedib, Tiflisdə gördüklərini və eşitdiklərini nağıl elədi. Rusların gürcülərə qarşı olan rəftarı və Qarabağın şərtsiz və müahidəsiz olaraq Rusiya təbəəliyinə girməsi təklifi xanı odladı. Onun həmişəki kimi yalnız çənəsi deyil, bütün vücudu qəzəbdən titrədi.

– Yaxşı, – dedi, – bəs sən mənim qüvvətimi, Qalanın möhkəmliyini demədin?

Vaqif sakit səslə cavab verdi:

– Xan, hamısını söylədim... Hamısını dedim, başa saldım...

– Bəs nə oldu?

– Elə öz dediyini dedi.

Xan dinmədi, lakin əsəbləri içərisini söküb dağıdırdı. Maşa ilə buxarını qurdalayır, düşünürdü. Vaqif xanı sakit eləmək üçün:

– Xan, – dedi, – it itin ayağını basmaz, deyərlər. İrakli xaçpərəst, urus xaçpərəst. Bizə qarşı kinləri var. Bir də ki, urusların ayaqları yer alıb: osmanlıları basdılar, Krımı aldılar. Bu qalibiyyət urusları qudur-

dub. Özlərinin də ki, nizamlı qoşunları, top-topxanaları, dəstgahları yerindədir.

Xan dinmir, yenə titrək əllərilə ocağı qarışdırırdı. Birdən ayılan kimi oldu:

– Əliməmmədin dalınca adam göndərmişəm, gəlsin görək məsləhətimiz nədir, – dedi.

Vaqif nikbin bir səslə:

– Xan, – dedi, – urusları yumşaltmaq üçün vasitə çoxdur: hələlik qalanı bərkitmək, təzə toplar almaq, cəbbəxanamızı, sursatımızı artırmaq lazımdır. Hazırlıq gördüyümüzü, şübhəsiz, ermənilər Tiflisə xəbər aparacaqlar. Görək nə olur. – Vaqif bir az susdu sonra ehtiyatla əlavə etdi: – Fətəli xan Allah deyəndən desə, nə var ki...

Xan Fətəli xan sözündən təkrar qəzəbləndi:

– O qancığın sözünü danışma! – dedi. – Onun ipinin üstünə odun yığılarmı? O kafirdən də pisdir!

Qapı açıldı, mirzə Əliməmməd ağa içəri girdi. Soyuqdan burnu qızarmışdı, kirpikləri qırov bağlanmışdı. Salam verib oturdu. Qızarmış əllərini bir-birinə çəkinərək sürtür və düşüncəli bir halda şişələri torlanmış rəngin pəncərəyə baxırdı.

Xan maşanı yerə qoyub, üzünü sağ tərəfində oturmuş Mirzə Əliməmməd ağaya çevirdi:

– Təzə nə var? – dedi.

Mirzə Əliməmməd ağa itaətkar bir vəziyyət alaraq, əllərini dizlərinin üstünə qoydu:

– O günkü xəbərdən başqa, təzə bir şey yoxdur: uruslar Ağaməmməd xana külli hədiyyələr və xələtlər göndərmişlər. Əvvəl tanımaq istəmirdilər, indi nə olubsa qılıqlanırlar. Əlimurad xan İsfahanda möhkəm oturub, Ağaməmməd xanı tanımaq istəməyir. Başbuğ Sadıq xanı müzməhəll edib, 18 oğlu ilə bərabər həlak ediblər. Tacirlərin gətirdiyi xəbərə görə, Firəngistan İsfahana elçi göndərib, danışıq aparır.

Vaqif bu söhbətləri dinləyib, təsbeh çevirir və düşünürdü. Mirzə Əliməmməd sözünü bitirdikdən sonra xan Vaqifin üzünə baxdı, bu işarə idi: Vaqifdən məsləhət soruşurdu. Vaqif dikəldi, gözləri dirçələrək od parlatmağa başladı:

– Xan, – dedi, – bu xəbərlər onu göstərir ki, hələ İrandan bizə azar yoxdur – it-itlə dalaşar, yolçunun işi uvanda düşər: məsələ urus məsələsidir. Erməni melikləri və keşişləri burda olanların üstünə beşini

də artırıb, urusa yazırlar "bağ belə, bostan belə" deyirlər, uruslar da inanır. Urus ilə olan məsələni yoluna qoymaq lazımdır. Qüvvətə qalsa, biz bacarmayacağıq, bir tərəfdən özü, o bir tərəfdən də Fətəli xan... – Vaqif duruxdu, nədənsə, buxarının kənarına düşmüş bir kösövü maşa ilə götürüb, alovun içinə atdı və sözlərinə davam etdi: – Tədbir işlətməliyik... İrakli bizdən çıxıb, urusun olub, özündən başqası yadına düşmür. Burnunu ovmaq üçün Gəncəni və İrəvanı onun əlindən çıxarmalıyıq. Süleyman paşa ilə əlaqəyə girmək lazımdır. Ömər xan hücuma hazırlanmalıdır. Xanlığı əlindən alınmış Ağası xana kömək verməliyik Şamaxı xanı Məmmədhəsənin üstünə getsin; bilirsən ki, Fətəli xanın qızı Məmmədhəsənin oğlundadır, qohumluq vasitəsilə Fətəli xan Şirvanı idarə edir. Şəki xanı Hacı Əbdilqədir də dinc durmayır, o da Fətəli xanla əlbirdir. Buna qarşı da bir çarə tapmalı... Bu tədbirlər görülməsə, başımızı salamat saxlaya bilməyəcəyik.

Xan düşgün bir səslə:

– Əbdilqədir... Əbdilqədir... – deyə başını tərpətdi və yanıqlı dedi: – Kimə inanasan ki! Duz-çörək xətiri qalmayıb ki?! Bu Əbdilqədir qoduq Məkkə ziyarətindən qayıdıb, Kürün qırağına, Dardoqqaza sığınmışdı. Bilmirdi başını hara dürtsün. Qumuq xanı Məmməd gəlib qardaşı Ağakişi xanı öldürüb, Şəki xanlığına yiyələnmişdi. Qardaşı oğlu Hüseyn xan Ağası xandan kömək aldı. Məmməd xanı qovub, Şəkidə xan oldu. Bu Əbdilqədir qoduq yanıma adam yolladı, yalvardı. Yazığım gəldi... Həm də, dedim, Fətəliyə yağı olar. Kömək göndərdim, Şəkiyə hücum edib, qardaşı oğlu Hüseyn xanı boğdurub, yerində oturdu... Bunun əvəzində indi mənə yağı olub... Eh, ay axund, insanın üzü dönük olurmuş!

Vaqif gülümsündü:

– Xan, – dedi, – dünyanın həmişə işləri belə olmuş, belə də olacaq! Zor və hiylə! – gərdişi-dövranın bünövrəsi zor və hiylədə yoğrulmuşdur. İnsafa sığmasa da, belədir! Hacı Əbdülqədirin öhdəsindən yenə yazıq Hüseyn xan Müştağın oğlu Məmmədhəsən xan gələ bilər. O vaxtdan bəri burada boş bekar gəzir. Sabah əmr elə, getsin Car tərəfdə qoşun tədarükünə düşsün.

Vaqifin təklifi xanın xoşuna gəldi. Hacı Əbdilqədir xan Dardoqqazda qoşun toplarkən Şəki hökmdarı Hüseyn xan Müştaq oğlu Məmmədhəsən xanı Əbdilqədirin yanına göndərib, barışıq təklif etmişdi, o da qardaşı nəvəsi olan Məmmədhəsən xanı tutub, qolubağlı olaraq Şişəyə göndərmişdi ki, İbrahim xan onu tələf etsin. O vaxt Vaqifin məs-

ləhətilə Məmmədhəsən xan öldürülmədi və Əbdilqədir xanı razı buraxmaq üçün Məmmədhəsən xanın köynəyi qana bulaşdırılıb, ona göndərilmişdi. İndi Vaqif vaxtilə sağ qalmasına səbəb olduğu Məmmədhəsən xandan istifadə etmək istəyirdi.

Müşavirə qürubdan bir-iki saat keçənə qədər davam etdi, Vaqif ilə Mirzə Əliməmməd xandan ayrıldılar. Xan buxarının kənarında tək qalaraq, yenə maşanı əlinə alıb, ocağı qurdalamağa başladı. Qaravaş yavaş addımlarla ona yanaşıb:

– Xan sağ olsun, hansı otaqda süfrə salım? – deyə intizarla dayandı.

Saray adətincə xan hansı arvadının yanında şam eləsəydi, orada da gecələrdi. Odur ki, qaravaş hər axşam xanın rəyini bilməli idi. Xan qaravaşa bir neçə saniyə cavab vermədi, sonra titrək səslə:

– Çörəyimi burada yeyəcəyəm, – dedi. – Nökərə de, buxarıya odun atsın!

Qaravaş təzim etdi:

– Baş üstə, – deyib çıxdı.

Şamdan sonra xan yenə özünü çırthaçırtla yanan buxarının yanına verib oturdu. Əvvəl yeməyin təsiri olmalıdır ki, bir az sakitləşmişdi, sonra get-gedə yenə əsəbiləşdi. Vaqifin Tiflisdən gətirdiyi xəbəri təkrar-təkrar xatirindən keçirib od tutub yandı:

"Mən dəfələrlə kömək verib, dardan qurtardığım İrakliyə tac gəlsin, peşkəşlər gəlsin... Mənə də şərtsiz-şürurtsuz təbəəlik təklif olunsun?! Mən bu günə qalmışam? Mən Pənah xanın oğlu, Ərğun xan övladı?.. Bütün Azərbaycan xanları mənim məsləhətimlə iş görsün, mən kafirə boyun əyim, qul olum? Fətəli qancıq, elə düşmənçilik! Qalsın sənnən mənimki... Əbdilqədir qoduq da ayaq qaldırır. Bunlar hamısı o dönük İraklinin işidir. Yedin İrəvandan və Gəncədən gələn tümənləri!.. Bu odun nə yaxşı yanır... Dəmirqaranın yaxşı közü olur. Bu yemişan da elə tüstü verir – nə istisi var, nə odu. Ah neyləyim, əlimdə imkan ola, Qurbanın külünü göyə sovuraram. Şəkinin yerində arpa əkdirərəm. Şam da tez əriyir... görəsən, piyi nədən qayırırlar? Çoxdan başlar yerindən oynamayıb. A köpək uşağı məliklər!.."

Saatlarla davam edən qarışıq fikirlər İbrahim xanı məşğul etdi, əsəbiləşdi, yuxusu tamamilə qaçdı. Nəhayət, onun ağırlaşmış başına bir yüngüllük gəldi, sanki çıxılmaz yolda bir işıq görünüb onu çətinlikdən qurtardı. Xan Vaqifin tədbirlərini yadına salıb sakit oldu. Birdən əsəbi bir gülüş onun vahiməli çöhrəsinə bir həlimlik saçdı. Bu, saatlarca çəkdiyi üzüntü ona yersiz və gülünc göründü. Xan ayağa qal-

xıb, əsnədi, ona bir gərnəşmə gəldi. Qəribə bir titrəyiş bütün vücudunu qaplayıb keçdi. Şamdana baxdı, şamın son şöləsi alovlanaraq cızıltı qoparmışdı. O biri şamdandan bir şam götürüb, yandırdı və cızıldayan şamın üzərinə basdı. Tamamilə sakit idi. Şamdanı götürüb, otaqdan çıxdı. Bir də çöndü, divarın dibində dik durmuş pişxidməti süzdü:

– Şamları keçir, get yat! – deyib hərəm dairəsinə keçdi.

Məmmədhəsən ağanın anası xor-xor xoruldayırdı. Xan keçdi. Qaradağlı Şahnisə xanım üzünü divara çevirmişdi, yuxuda idi. O biri otaq Məlik Şahnəzərin qızı Hürzadın idi. Ondan sonrakında Şahverdi xanın qızı Xurşud bəyim yatırdı... Xan bu yaşlı arvadlarının yanlarında qalmazdı. İndi də diqqət verməyib keçdi. Üngütlü Allahyar bəyin qızının yorğanı düşmüşdü. Xan düzəldib, yenə keçdi. Getdikcə şam əriyib, barmaqlarında donurdu. Gəncəli Cavad xanın bacısı Tutubəyim ağ biləklərini başının altına qoyub, sakit yatmışdı. Xan ayaq saxlayıb, ehtiraslı baxışla onu süzdü. İşıq Tutu bəyimin üzünə düşdükdə, gözlərini açdı. Şüursuz bir baxışla xana tərəf çevrildi, gərnəşərək gülümsədi.

– Ay xan, indiyətən hələ yatmamısan? – deyə başını qaldırdı. İri hörüyü ilan kimi, ağ yastığın üstündə qıvrıldı. – Gəl görüm, yəqin üşümüsən.

Xan Tutu bəyimin yan tərəfində oturdu. Tutu bəyim şamdanı aldı, xalının üstünə qoyub, xanın soyuq əllərini dolğun döşlərinə basdı. Xan xoş bir hərarət duyaraq nəşələndi.

Tutu bəyim oxşayıcı şirin səsilə:

– Niyə yatmamısan? – deyə sorduqda, xanın yaralarını təzələdi.

Yenə Tiflis, Quba, Şəki bir-birinə qarışaraq, bütün ağırlığı ilə onun üzərinə töküldü. Xan cavab vermədən əllərini arvadının atəşin sinəsindən ayırıb, dik qalxdı. Yenə şam əlində olaraq hərəm dairəsini dolaşmağa başladı... Avar xanı Ömərin bacısı Bikə ağa büzüşüb, yatağın ortasında qalmışdı... Sonra naxçıvanlı Ruğaşın, tağlı Sonanın, Dızaq məliyinin qızı Xatayın, Bəhmənli Xədicənin, Sarıcalı Mürəssa xanımın və başqalarının otaqlarından keçib, son otağa çatdı. Hər yeri xalı, xalça, cecim və ipəklə bəzənmiş bu otaq Şişə sövdəgəri Hacı Kərimin qızı Anaxanıma təxsis olunmuşdu. Anaxanım İbrahim xanın ən yeni arvadı idi. On altı-on yeddi yaşlarında, ətli-canlı bir qız idi. Xan otağa girdikdə gülab iyi onu məst elədi. Titrək əli ilə şamdanı yuxarı qaldırıb, ipək yorğan altında uzanmış Anaxanımı seyr etdi: yorğanın bir tərəfi sürüşüb xalının üstünə düşmüşdü, qızın dışarı çıxmış sol dö-

şü qar kimi ağarırdı: qara kirpiklər dairələnərək xəfif kölgə salmışdı: totuq yanaqlar dan yeri kimi parıl-parıl yanırdı...

Xan əlini belinə atıb, titrək barmaqlarilə şal qurşağını açmağa başladı...

8

Xan səhər tezdən oyandı. Anaxanım gecə onun yuxuda ağır iniltisini dəfələrlə eşitmişdi: Burnaşov xanın yuxusuna əjdaha sifətində girib, onunla boğuşmuş, neçə yerindən yaralamışdı. Bu yaraların ağrısı hələ də canından çıxmamışdı. İçərisində sanki bir şey üzülmüşdü, bütün ətrafında gördükləri ona toxunub qıcıqlayırdı.

Xan divan otağına gəlib, orada təkbaşına oturdu. Bu yaxşı əlamət deyildi: xanın qəzəblənməsini bütün saray eşidib, titrətməyə düşdü. Təlxəklərin dalınca adam göndərildi, məşhur Lotuoğlu çağırıldı, həmişə xanın kefini o açardı. Şəhərin bütün məzəli adamları buraya toplanıldı. Məclis tamam olduqdan sonra Lotuoğlu məclisin ortasına çıxıb durdu. Hamının gözü onda idi. Birdən bir ədəbsizlik elədi, sonra xana baxaraq:

– Səsi çıxmır, barıtı nəm çəkib, – deyə güldü. Məclis də xanın kefini açmaq üçün qaqqanaq çəkdi. Xanın üzündəki qırışların biri də açılmadı.

Lotuoğlu təlxəklərdən birilə saqqaldan fincan oynayıb, gül vurdu:

– Uddum! – deyə qışqırdı.

Müarizi:

– Hələ udmamısan, saqqalım yerindədir, – deyə otaqdan qaçır, Lotuoğlu da onu qovurdu. Ortalıqda dombalaq vurub, camaatı güldürürdülərsə də, xana təsir etmirdi. Nəhayət, Lotuoğlu müarizini yerə yıxıb, çığırda-çığırda saqqalını qırxıb, qurşağından asdığı dəsmala yığdı.

Bunların heç biri İbrahim xana təsir etməyirdi: tez-tez yanında duran Şahməmmədə əmrlər verir, şəhərdə dikbaşlıq edən adamları zindana atdırırdı. Sarayı bürüyən vahimə şəhəri də bürüməyə başlamışdı: adamları şişə çəkəcəklər, qurşunu əridib boğazına, dağlayıb başına tökəcəklərdi: qızılquşlara bu gün yem verilməsin deyə buyurulmuşdu, onlar diri insan ətilə doyrulacaqdı... Təlxəklər xan qəzəbinin önünü almağa var qüvvələrini sərf edirdilərsə də, bir nəticə çıxmayırdı. Lotuoğlu bir kələk də düşündü: qürurla keçib, yuxarı başda xanla yanyana oturub, qaşqabağını tökdü.

Təlxəklərdən birini yanına çağırıb:

– Qəzəbim tutub, kefimi açmasanız hamınızı yumurtladacağam, – deyə İbrahim xanın təqlidini çıxarmağa başladı.

Təlxəklər bütün kələklərini meydana qoydular: it kimi hürüşdülər, çaqqal kimi ulaşdılar, banladılar, anqırdılar, kişnədilər... Xanın halına təfavüt eləmədi. Lotuoğlu qəzəbli səslə:

Qəzəbim gül vurur, bu saat yumurtlayın! – deyə qışqırdı.

İyirmi-otuz təlxək orda-burda çömbəlib, qaqqanaq vura-vura “yumurtlamağa” başladılar. Arada bir ədəbsizlik edib:

– Hələ harasıdır, gör sonrası nədir! – deyə hırıldaşdılar.

Xan yenə əvvəlki vəziyyətdə oturub, gözlərindən ildırım şığıyırdı. Bu əsnadə Xanməmməd gəlib, çıxdı. Oturar-oturmaz, əllərini ölçərək qonşusuna bir şeylər nağıl eləməyə başladı. Xanın qəzəbli gözləri onda idi. Birdən:

– Xanməmməd, nə nağıl eləyirsən? – deyə qışqırdı.

Özlərini xan məclisində sərbəst aparan təlxəklər belə qorxularından qınlarına girdilər.

Xanməmməd cürətsiz bir səslə:

– Xan sağ olsun, – dedi, bir yuxu görmüşəm, onu nağıl eləyirəm.

– Nə yuxu? Bərkdən de, mən də eşidim.

Xanın təklifi məclisə bir təsəlli oldu. Çünki Xanməmməd dəfələrlə xanın qəzəbini söndürmüş bir adam idi. Bu dəfə də nağıl eləyib, xanı güldürəcəyinə ümid edirdi.

– Xan sağ olsun, – dedi, – bu gecə yuxuda gördüm ki, guya sən məni divanxana qabağında asdırdın. Mehralı bəy bulağında yudurtdun. Datələbin altında da basdırtdın.

Xan çönüb Şahməmmədə baxdı, Şahməmməd həmən təzim edib, ona yanaşdı:

Şahməmməd, cəllada tapşır, sənin bu axmaq qardaşını divanxana qabağında assın, Mehralı bulağında yusun, Datələbin altında da basdırsın.

Şahməmmədin divan otağından dışarı çıxıb, içəri girməsi bir dəqiqə çəkdi: qırmızı geyimli cəlladlar gəlib Xanməmmədi apardılar...

* * *

Vaqifin yol yorğunluğu hələ canından çıxmamışdı, keçdiyi dağların şaxtasından zökəm də olmuşdu. Onun üçün hələ yatağında uzanıb,

Füzulinin mütaliəsilə məşğul idi. Füzulini dəfələrlə oxumuşdu, yenə istirahət zamanı onu əlindən yerə qoymazdı. Qoca lələ ayağının ucunda içəri girib:

– Ağa, səni görmək istəyirlər, – dedi.

– Kimdir?

Lələ ürkək səslə cavab verdi:

– Ağa, deyəsən, xanın yenə qəzəbi tutub...

Vaqif məsələni o saat anladı, cəld geyinərək:

– Çağır kallayıya gəlsinlər, çöl şaxtadır! – deyə lələyə tərəf yönəldi.

Lələ yavaş səslə:

– Ağa, kallayı tutmaz, camaat tamam tökülüb gəlib, – deyə kənara çəkildi.

Vaqif artırmaya çıxıb, gördü ki, həyət, pilləkən, artırma – hər yer adamla doludur. Bir çox qucağı uşaqlı arvad özündən gedib, qarın üstünə sərilmişdi. Vaqif bu mənzərələrə alışıq idisə, ürəyi sancdı. Lakin zahiri soyuqqanlılığını saxlayaraq, ricaya gələnlərin bir-ikisini içəri çağırdı. Dərdlərini dinlədi: adamları zindana atılmışdı. Vaqif sakitcə:

– İş belədir – deyib, bir az iztirabını toxtatdı: bir otuz-qırx adam ağ kəfən geyib, əli gordalı sarayın həyətinə gələrsiniz, mən sizə indi bir-iki zikr verəcəyəm, onu oxuyub, başınızı gorda ilə yararsınız. Sonrası ilə sizin işiniz yoxdur, bu saat özüm saraya gedəcəyəm.

Vaqif bu göstərişi verdikdən sonra pəncərənin içindəki döşəkçənin üstünə çəkildi, bir parça kağız götürüb yazdı. Sonra kağızı büküb verdi:

– Bax başınızı yararkən bunu oxuyarsınız. Di gedin, dediyimi tez eləyin, mən də gəlirəm.

Vaqif divanxana qabağından keçib, saraya gedərkən yazıq Xanməmmədi dar ağacından asılı gördü. Qarlı külək onun meyitini havada tərpədirdi. Ətrafa böyük bir izdiham toplanıb, cəlladların ocaq qalayıb, adam çəkmək üçün şiş hazırladıqlarına tamaşa edirdi.

Vaqif saraya daxil olduqda İbrahim xanın qəzəbi hələ soyumamışdı: darğa, mizandar, əmr-bə-məruf hüzura çağırılıb, onlardan cəzalanmaq üçün adam tələb olunurdu. Şahməmməd İbrahim xanın buyruqları altında şaşıb qalmışdı; daşqəlbli də olsa, qardaşı Xanməmmədin asılması onu sarsıtmışdı.

Vaqif salam verib, yuxarı başa keçdi. Salama cavab olaraq xanın yalnız dodaqları tərpəndi, səs eşidilmədi. Vaqif bir kəlmə belə danış-

mayıb, məclisdəki təlxəklərin şit hərəkətlərinə acı bir istehza ilə tamaşa edirdi. Birdən açılıb-örtülən qapıdan zikr səsi eşidilməyə başladı:

Kərbəlada olmadıq,
Şümri-sənani öldürək.
Parə-parə eyləyək,
Evladi-Heydər qanlısın.
Ku Hüseynimə
Va Hüseynimə

Xana xəbər gəldi. Xan heyrətlə Vaqifin üzünə baxdı, Vaqif də üzündə eyni ifadəni göstərməyə çalışdı. Xan artırmaya adam qaçırtdı, heç kəs bu əhvalatdan baş aça bilmədi. Coşqun zikr səsi aydın eşidilir, ürəyə vahimə salırdı:

Ey yezid, bihəya!
Ruzi-əza va həsrəta!
Nuri çeşmi- Müstəfa
Əlbəttə, istər qanlısan!
Ku Hüseynimə!
Va Hüseynimə!

Vaqif xanın tamamilə dəyişdiyini görərək:

– Xan, zəhmət çəkin, görək nədir, – dedi.

Durub artırmaya çıxdılar. Ağ kəfənli adamlar zikr deyib, başlarını gorda ilə yarırdılar. Qana bulaşmış kəfənlərə baxanda adamı dəhşət bürüyürdü. Xanı görcək səslər daha da ucaldı:

Ol dəmdə Fatimə
Gələcək qiyamətə,
Əldə səri-Hüseyn.
Guya Hüseyn ölüb,
Matəm sədası var
Ey vay! Bə dəşti- Kərbəla!
Ku Hüseynimə! Va Hüseynimə!

Qan süzülən dodaqlardan qopan bu coşqun zikr xanı iliyinə qədər sarsıtdı, titrək səslə Vaqifə yönəldi:

– Axund, sən oxumuş adamsan, bu nədir? – dedi.

Vaqif dəsmalını gözlərinə basıb, ağlar bir səslə:

– Xan sağ olsun, – dedi, – Kərbəlada şəhid olmuş imam Hüseynin yolunda... – Vaqifin səsi qırıldı. Xan hövlnak soruşdu:

– Nə xahişləri var?

– Xan bugünkü dustaqların taxsırından keçməni istəyirlər... Xan, imam Hüseyn eşqindən keçmək olmaz!..

Dindar xanın göz yaşları saqqalı aşağı axırdı:

– Axund, – dedi nə bilirsən elə, günaha batmayım!

Vaqif başını artırma sürahisindən aşağı sallayıb, sevinc sezən bir səslə:

– Ay camaat, – dedi, – xan bugünkü dustaqların taxsırını imam Hüseynə bağışlayır. Gedin, xanın ömrünə dua eləyin!

– Sağ olsun! Ömrü uzun olsun! – deyə eşidilən səslər həyətlə bir oldu.

## 9

Vaqif yenə əlini atıb, fincanı qaldırdıqda üzük altından çıxdı:

– Mirzə Əliməmməd, dedi, – yenə gül vurdum! Hələ ki işlər yaxşıdır.

Lələ məcməyini qaldırıb, yenidən fincanları düzməyə apardı. Havanın titrəməsindən şamın şöləsi piyi yalamağa başladı. Mirzə Əliməmməd:

– Elə məmləkət işlərində də gül vurmusan, – dedi.

– Necə? – deyə Vaqif Mirzə Əliməmməd ağanın üzünə baxdı.

Mirzə Əliməmməd ciddi bir səslə:

– Axund, – dedi, – doğru ərz eləyirəm. Sənin bütün tədbirlərin yerini alır. Hüseyn bəy qoşun yığıb, İraklinin nayibini Gəncədən qovub. İrakli, deyirlər, bərk əl-ayaqdadır. Burnaşovdan qoşun istəyib. Qoşun da sursat istəyir. İraklinin nə sursatı var, nə pulu. İravan xanı da ki, bac vermək istəməyir.

Məcməyi yenidən qoyulmuşdu. Vaqif gülərək Mirzə Əliməmmədin üzünə baxdı:

– Nə verərsən, yenə gül vurum?! – dedi.

– Nə istərsən!

Vaqif əlini atdığı ilə üzüyü çıxartdığı bir oldu.

Mirzə Əliməmməd heyrətlə:

– Bu ağ oldu, – dedi.

Vaqif zarafatla:

– Yəni İraklinin hərəkətindən də ağ oldu? Deyir öz işimi düzəldərəm, sizi də gözdən salaram. Bu da iyirmi illik dostluğun nəticəsi! İb-

rahim xan ona nə köməklər eləmədi?! İndi deyir, Qalanın qapısını aç, uruslar girsin, erməni məliklərini başınıza ağa tiksin...

Mirzə Əliməmməd əlini buxarıda qızdıraraq:

– Bu onun xam xəyalıdır! – dedi.

Vaqif də fincan oyunundan çəkilib, buxarının qabağına salınmış süfrədən bir iki tut qurusu götürüb ağzına atdı, sonra qızınaraq:

– Görək, – dedi, – Musa Soltan nə xəbər gətirəcək. Rusiyaya birinci dəfə kağız aparanda yaxşı xəbər gətirmişdi.

– Bu dəfə də gətirər.

– Nə deyim, – deyə Vaqif düşündü: – Bizim şərtləri qəbul edərlərmi? Yazdım: himayəyə hazırıq, ancaq xan yerində qalacaq, daxili işlərimizə qarışılmayacaq, Qarabağ torpağının da dəci pozulmayacaq.

Mirzə Əliməmməd:

– Şərtlərimizi qəbul etməsələr, – dedi, – nə itiririk?

– Heç nə! Biz məsələni uzatmalıyıq, görək bu işlərin axırı necə olur. Urusların gəlməsi bütün İran və Osmanlı məmləkətini vəlvələyə salmışdır. Görmürsən, Süleyman Paşa nə yazır, deyir: "Urusun Tiflisə gəlməsi bir oddur ki, sizi də, bizi də yandıracaq"...

Vaqif sözlərini kəsib, güldü. Mirzə Əliməmməd heyrətlə ona baxaraq dedi:

– Deyəsən, yadına nə isə düşdü.

Vaqif zarafatlı gülüşündə davam edərək:

– A kişi, nə vaxt bir yerə gəldikmi, elə bu can sıxan söhbətlərdən əl çəkmirik.

Vaqif burada bir az dayanıb, dərin bir təvəkküllə sözünə davam etdi: – Mirzə Əliməmməd, mənə elə gəlir ki, "cəhd çarıq yırtar" – doğru məsələdir. Bizim səyimizin mənası var, amma təsəvvür olunan qədər yox. Gərdişi-zəmanənin çay axını kimi bir axını var, bu axını dəyişsən də, axın axınlığını göstərəcək. Mən-sən, o-bu axının qarşısında heç mənziləsindədir. Azərbaycan xanları bir-birilə vuruşur, rəyasət üçün ata oğlunu, qardaş qardaşı öldürür, bir-birinin gözlərini çıxarır, elimiz, ulusumuz xanların kefi üçün qırılıb gedir: xanımanlar yanıb kül olur... Bu fəlakətə qarşı ürəyimiz çatlasa da, qabağını almaqdan acizik! Bunun üçün özümüzü üzməməli, qəlbdəki yaranın sızıltısını unutmaq üçün bir az da əylənməliyik. Deyirəm, nökəri göndərim şərbaf Kazım gəlsin, onda qəribə söhbətlər olur, bir az desin, vaxtı xoş keçirək.

Lələ çağırıldı, nökərlərdən biri fanıs götürüb, Kazımın dalınca getdi.

Kazımı yataqdan durquzub gətirmişdilər. Qapıdan girər-girməz:

– Xeyr ola? – deyə güldü.

– Xeyr olmamış nə var, buyur əyləş!

Kazım oturdu. Süfrədəki tut qurusuna, qoz ləpəsinə baxıb, gülümsədi.

Vaqif:

– Buyur, ye! – dedi.

Kazım rişxəndlə:

– Naxçıvan yemişi olanda biz yaddan çıxırıq. Qoz ləpəsi olanda məni çağırırsan, bilirsən ki, dişim yoxdur.

Vaqif etiraz eləmək isətədi, Kazım onun sözlərini kəsib, bir misal söylədi:

– Bir gün, – dedi, – Molla Nəsrəddin yatıb yuxuda gördü ki, pul paylayırlar, hamıya ağ pul verdilər, buna qara pul. Molla acıqlanıb qışqırtı saldı. Öz səsinə yuxudan ayıldı. Ovcuna baxdı, gördü ovcu boşdur. Gözlərini yumdu dedi: "Zərər yoxdur, qara pul da olsa olar, verin gəlsin". İndi, axund, elə qoz ləpəsinə də razıyam, verin gəlsin.

Vaqiflə Mirzə Əliməmməd uğunub, getdilər. Kazım da boşqabdan bir qoz ləpəsi götürüb, ağzına atdı.

Vaqif gülgəz dəsmalı ilə gözlərinin yaşını silərək, Kazıma baxır, ondan yeni bir lətifə eşitmək istəyirdi. Kazım isə qoz ləpəsini bu əngindən o biriənginə aparıb, onu əzməyə çalışırdı.

Vaqif istehza ilə:

– A Kazım dadaş, deyəsən, dəyirmanın kardan düşüb? – dedi.

Kazım:

– Dəyirman başına nə kül töksün, – dedi, – arpa cadı üyütməkdən haldan düşüb. O qədər arpa çörəyi yemişəm ki, küçədə eşşəklərə: "Toqquş!" – deyilib, dayandırıldıqda, mən də dayanıram.

Bu sözün də kəskinliyi Vaqifə xoş gəldi; zarafatla:

– Kazım, – dedi, – sənə söz çatdırıla bilməz. Nahaq yerə xanın kefi tutulanda imarətə gəlmirsən. Bilirsən, bol xələt-barat alarsan.

Kazım mütəvazi bir halda başını aşağı salıb, əllərini ovuşdurdu:

– Axund, başına dönüm, kasıb adamıq, imarətdə nə işimiz var! Bəs eşitməmisən ki, xan ilə bostan əkənin tağı çiynində bitər?

Mirzə Əliməmməd ağa çox ehtiyatlı bir dövlət adamı olduğu üçün Kazımın bəzi işarələrindən xoşlanmadı. Sözü dəyişmək üçün, buxarının sönməsini əlində bir bəhanə etdi.

– Axund, atəş deyəsən, bizə vəfasızlıq göstərmək istəyir, – deyə buxarını göstərdi.

– Hər şeyin çarəsi var! – deyə Vaqif lələni çağırıb, buxarını təzədən qalatdırdı və şamdanın da şamını təzələtdirdi. Sonra lələyə çönərək dedi: – Lələ, uşaqlara de, bir yaxşı halva çalsınlar, gecə uzundur, oturacağıq.

Kazım gülümsünərək, həyatında baş vermiş bir hadisəni xatırlayıb başladı:

– Halva dedin, yadıma bir əhvalat düşdü. İrandayam, cavan vaxtımda, dava eləyirəm. Əhərin yanında məni əsir apardılar. Xülasə gəldik çıxdıq Əhərə. Məni bir xana satdılar, ona nökər oldum. Məlum oldu ki, bu xanın özü Cavanşir elindəndir...

Vaqif onun sözlərini kəsərək:

– Deməli, qohum çıxdınız, – deyə güldü.

– Hə, qohum çıxdıq. Özü də mənim kimi: "azacıq aşım, ağrımaz başım" – deyənlərdən idi. Bir balaca mülkü vardı, ondan dolanardı. Dava-şava ilə işi yox idi. Bütün varını-yoxunu məzəli adamlara yedirərdi. Nökərin də məzəlisini sevərdi. Bir gün bu, pilləkənlə eyvana çıxar, mən də bunun dalınca. Pilləkənin ortasında bunun budundan bir çimdik götürdüm. Acıqlı dönüb, üzümə baxanda dedim: "Xan, bağışla elə bildim, xanımındır". Bunu eşidər-eşitməz qaqqanaq çəkib, güldü. Dedi: "Bax, indi xoşuma gəldin. Haralısan?" Dedim: "Qarabağlı" Dedi: "Ora niyə Qarabağ deyirlər". Dedim: "Çünki hər şeyimiz qara bağlıdır, bir kəs ilə haqq-hesabımız da olanda, qarın üstünə yazırıq, möhkəm qalsın". Xan yenə güldü, dedi: "Sənin bu günkü təqsirini da qara yazdım. Get! "Pilləkənin aşağısına enib, dayandım. Dedim: "A xan, başa düşmədim, mənim təqsirimi qara yazdın, yoxsa qarın üstünə yazdın?" Xan yenə güldü, amma gülüşü xoşuma gəlmədi. Qorxdum. Dedim, xandı, onun tərsi, avandı olmaz, acığı tutub, başımı vurdurar. Birdən bağırdı: "İtil burdan! Sənin halvanı çaldırram", – deyib, üstümə şığıdı. Dedim: "Xan, çoxdan itilərdim, amma darvaza bağlıdır". Xanın kefi təzədən açıldı, gülə-gülə dedi: "Ay gədə, sən çox hələm-qələm adama oxşayırsan. Məndən nə istəyirsən de verim, təki çıx get. Məni xatadan sav! Dedim: "Məni azad elə, özümü də Arazdan keçirtdir, öz yurduma qayıdım. Xan düşündü. Sonra razı oldu. Cibimə də pul qoyub, məni yola saldı.

Vaqif gülərək dedi:

– Deməli, məzəliliyin xoşuna gəlməyib.

– Yox, xan çox arvad qoruyan adam idi. Görünür, mənim zarafatımdan həslədi. Mən də qəsdən elədim ki, məni azad eləsin.

Halva gəldi, yanında da Dızaq buğdasının yuxası. Zəfəranın iyi damağa çökürdü. Kazım dörd gözlə halvaya baxıb dedi:

– Bax ölüyə dəysə dirilər – buna demişlər.

Vaqif su səpilib, yumşaldılmış yuxanı kəsib, arasına halva qoya-qoya:

– Görüm, – dedi, – halvadan sonra nələr nağıl eləyəcəksən. Zəfəran axı güldürən olar.

Kazım halvadan iri tikələr vurub ötürür, gözlərinə işıq gəlirdi. Ağzını mırçıldada-mırçıldada dedi:

– Axund, "adam güldürən" dedin, yadıma bir əhvalat düşdü. Ərdəbildəyəm. Payızın palçıqlı günüdür. Bisti üzünə də həsrətəm. Küçədə alçaq boylu, çəp gözlü birisinə rast gəldim. Dedim: "Bu məhəllənin adı nəmənədir?" Elə bunu dediyimi gördüm... Mənə cumdu-nə cumdu! Papağım başımdan düşüb, başdan ayağa palçıq oldu. Demə bu adama "Bu məhəllənin adı nəmənədir?" – deyəndə acığı tutarmış. Mən doğrudan soruşardım, bu zarafat hesab edib. Xülasə, papağımı başıma qoyub, gedirəm, gördüm, bir həyətə adamlar girib-çıxır. Birisindən soruşdum ki, burada nə var, dedi ki, adam ölüb. Dedim elə yaxşı oldu: gedim həm başsağlığı verərəm, həm də ehsan plovundan yeyib, qarnımı doyuraram. İçəri girib, oturdum. Bir də baxıram, məclisdən durub gedənlər yanıma gəlib, mənə başsağlığı verirlər. Lap məəttəl qaldım. Dedim, ya bu şəhərin əhli dəli olub, ya mən... Demə, bu şəhərdə adamı ölənin papağına palçıq sürtərmişlər ki, təziyədar olduğu bilinsin. Papağım palçıqlı imiş deyə məni təziyədar biliblər... Sonra o qədər gülmüşəm ki...

Söhbət gecənin yarısına çəkdi və gecənin yarısına kimi də Vaqif Kazımı söylədib, güldü.

## 10

Baharın sevimli günəşi günorta yerinə gəlmişdi. Lakin günəşdə etibar görünməyirdi: yerdən buğ qalxır, dağların başı dumanlanır və üfüqlər bulaşmağa başlayırdı. Bir az sonra hardansa göyü qara buludlar qapamağa başladı, günəş qeyb oldu, hava qaraldı. Uzaqdan gurul-

dayaraq gələn şimşəklər şəhərin üstündə şaqqıldayıb, hara isə düşdü. Sanki göy də şüşə pəncərə kimi onun arxasınca qırılıb, çilik-çilik oldu. Taxtapuşlara və damlara tökülən dolunun nəriltisindən şəhərə bir vahimə çökdü.

Safdil Telli dolunun önünü almaq üçün sacayağını ayaqları yuxarı, qazanı üzüqoylu çevirib, hananın üstündə oturdu və ilmə vuran Gülnazı təlaşla çağırdı:

– Ay Gülnaz, sən də hana toxumağa vaxt tapdın, – dedi. – Sən anayın ilkisən, gəl yeddi dolu götür, dişlə, dolu yaralanıb kəsilsin.

Gülnaz gülərək yerindən cəld qalxdı, iplərin boyalarına bulaşmış barmaqları ilə artırmaya atılmış dolulardan götürdü, dişləyib, atmağa başladı.

Dolu şiddətlə tökür, ağacların yarpaqlarını, çağala meyvələrini vurub, yerə salırdı.

Tellinin anası tez-tez kəlmeyi-şəhadət deyib, təsbeh çəkir və deyirdi:

– Tanrının qüdrətinə şükür, ağaclarda meyvə qalmadı, görəsən yenə harda nahaq qan olur ki, bəlasını çəkirik.

Göy bir də şaqqıldadı, arxasınca eşidilən qurultu dalğalanaraq uzaqlaşdı. Buludlar seyrəkləşib yayılır, günəşin xoş təbəssümü yenə aləmə zərlər səpməyə başladı. Telli ilə Gülnaz hananı buraxıb həyətə çıxdılar: ağacların altında dolu təll atılmışdı. Didik-didik olmuş yarpaqlar və firuzə rəngli alçalar yerə səpilmişdi. Qızlar əyilib, alçaları yığarkən darvaza açılıb, Səfər içəri girdi. Üzündə həyəcan izləri vardı:

– Telli, – dedi, – mən gedirəm. Al açarı evdən muğayat ol!

Telli onun ansızın səfərlərinə alışıq da olsa, yenə hər dəfə dərdlənir və qorxuya düşürdü. O indi yalnız:

– Hara? – deyə bildi və üz döndərib darvazaya tərəf gedən Səfərin arxasınca qoşdu.

Səfər həyətdən çıxıb, qapıya bağladığı atının belinə sıçradı, son sözü isə bu oldu:

– Quba xanı ilə Şəki xanı çoxlu qoşunla Kürü keçibdir...

Səfərin atı nallarından palçıq qopararaq çapıb getdi. Telli də gözlərinin yaşlarını əlinin dalı ilə silə-silə evə döndü. Kazım işdən xəbər tutub, qonşudakı karxanasından çıxıb gəldi. Bütün ailə Tellinin başına toplandı. Telli üzünü hanaya tərəf çevirib, atasından utanaraq səssizcə ağlayır, Gülnaz ona təsəlli verirdi. Tellinin anası əllərini qoltuğuna qoyub, hanaya söykənmişdi, üzündə çıxılmaz dərd ifadəsi vardı. Kazım

kişi artırmanın kənarında oturub, ayaqlarını yerə sallamışdı, çustunun ucu ilə təpimiş palçığı əzərək:

– Tanrının səbrinə qurban olum!.. – deyib, hiddətlə göyə baxdı. Bu xanların boğuşması qurtarmır ki, biz də bir gözümüzü açaq, dünyanın işığına baxaq. Demək, bu il də taxıl olmayacaq, arpa çörəyinə də həsrət qalacağıq. Gündə bir gəlirlər tərəkəməni talayırlar, əkindən, biçindən avara olur. Əh! Tanrının bir ucuz ölümü də yoxdur ki, ölək qurtaraq.

Gülnazın da anası gəlib çıxdı. Ağ çadrasının ucu ilə yaşmanaraq

– Ay Kazım, – dedi, – bizim kişidən də heç xəbər-ətər yoxdu axı.

Kazım ərkli bir hiddətlə:

– Ay rəhmətliyin qızı, – dedi, – bizim dərdimiz elədir ki, Səfər getməyə bilməz, bilirsən ki, xanın buyruğundan çıxmaq olmaz. Başına da, Allah eləməmiş, bir iş gəlsə, Telli bədbəxt olacaq. – Tellinin çiyinləri əsib, hıçqırığı eşidildi. Kazım bir az da pərtləşərək sözünə davam etdi: – Sənin dərdin isə kəllə-mayallaq dərddir: kişin oturduğu yerdə özünü işə saldı, dedi: "Tiflisə gedib, mal gətirib, dövlət qazanacağam". Sözümə qulaq vermədi. Ey, ay Pərizad, xatirinə dəyməsin, sənin ərin çox acgöz adamdır. Erməninin də tərsi lap tərs olur.

İllərdən bəri yan-yana yaşayan, bir adət və qaydalı, yalnız dinləri başqa olan bu iki ailə baş-başa verib, bir-birinin dərdinə ağlayardı. İkisi də ən əvvəl Kürü keçən qoşunun nə bəlalar törədəcəyini əvvəlcədən bilir və dəhşətli nəticəsini eyni dərəcədə duyurdu.

Bu əsnada İbrahim xan məiyyətilə bərabər Əsgərana göndərmiş olduğu qoşunu yoxlamaq üçün qala qapısından çıxırdı. Onu təşyi edən Kələntər Ağası bəy atını xan ilə yanaşı sürür və xanın tapşırıqlarına cavab olaraq:

Arxayın ol, xan! Lap arxayın ol! – deyirdi.

Qəbiristanlığın girəcəyində Ağası bəy əlini döşünə qoyub, xana və məiyyətinə təzim edib, döndü.

Xan məiyyəti ilə gedirdi, hamı sükut içində idi. Vaqif yağışdan sonra təmizlənib, işıldayan otlara və çiçəklərə baxır, zövqlənirdi, lakin ətrafda dumanlanan hadisələr onun zövqünü qara bağrına basaraq boğurdu. Get-gedə qaçqınların ağzı açılmağa başladı: ellər, uluslar əkini buraxıb, canlarını qurtarmaq üçün dağ yuxarı qaçırdı. Qoyun-quzunun mələşməsi, atların kişnəşməsi, çocuqların ağlaşması bir-birinə qarışmışdı. El baş alıb gəlirdi. Vaqif bu mənzərəyə baxıb, düşünür, silinməz acılıqlar duyurdu. İbrahim xanın sərt baxışında intiqam alovu yanırdı:

– Bu adam işin irəlisini-gerisini düşünmür? – deyə Vaqifə müraciət etdi.

İşarə Fətəli xana idi. Vaqif ikrahedici bir sifətlə:

– Xan – dedi, – bu adam urus yasavuludur: ağa deyir sür dərəyə – sür dərəyə!

Urusdan kisə-kisə əşrəfi alır: gərək bir canfəşanlıq göstərsin, ya yox?! Bunlar hamısı bizi yumşaldıb, boyunduruğa keçirmək üçündür.

Xan hiddətli səslə:

– Dünya dağılsa da, mən o boyunduruğu qəbul etməyəcəyəm. Ermənі məlikləri mənə ağalıq edə bilməz! Valiyə edilən hörmətdən mənə də olarsa, razıyam...

Rus torpağına məktub aparıb, qayıtmış Musa Soltan da burada idi. Dolğun vücudu ilə ata yastanıb, söhbətə qulaq verirdi. Uzun bığını düzəldib dedi:

Heç dediklərindən dönürlər ki?! Mən urusları bir qanan adam bilirdim, amma elə tutduqları yerdən istəyirlər. Siz bizə inanın, padşahın mərhəməti böyükdür, – deyirlər...

Xan hiddətlə onun sözlərini kəsdi:

– Tanrı onları da vursun, mərhəmətlərini də! Onların mərhəməti daha bundan artıq olmayacaq ki, – deyə xan yamacla dırmanan qaçqınları göstərdi. – Fətəli qancığı yelləyib, mənim üstümə göndərir... Ölsələr də boyun əyməyəcəyəm, mənə də İbrahim Xəlil xan deyərlər!

Məmməd bəyin dəstəsi arxadan gəlirdi. Məmməd bəy xanın atı aramla sürməsindən razı deyildi. Onun atı cilovu gəmirirdi, başını buraxmaq lazım idi, amma xandan qabağa keçə bilmir. Nəhayət, cürətlənib, xana yanaşdı:

– Əmi, izin ver biz qabaqca gedək, – dedi, ala gözlərini xanın üzünə dikdi.

– Get!.. Bir bil gör o qancığın başında nə qədər adam var. Dağlardan adam yolla, daldan soxulub, qırsınlar.

Məmməd bəy:

– Baş üstə! – deyib, qızıl kürəni tərpətdi. Otuz-qırx nökəri də atları səyirtdilər.

İbrahim xan qoşununun böyük bir hissəsini Əsgərənda yerləşdirmişdi. Fətəli xanın qüvvətini bilmədən qoşunu aran düzünə çıxarmaq məsləhət görülməmişdi. Ancaq xəbər bilmək üçün ayrı-ayrı dəstələr irəli göndərilmişdi. Məmməd bəy Əsgəranı keçib, sürətini azaltmaq məcburiyyətində qaldı, çünki yollar arandan axıb gələn ellərlə dolu

idi. Qaraağacıya çatanda bir qoca kişi onu saxlayıb, atının ayağına yıxıldı.

– Amandı, ağa! Qız!.. İki qızımı apardılar!..

Məmməd bəy:

– Haradan...Haradadılar? – deyə təlaşla soruşdu.

– Bərdə... Bərdəni yandırdılar.

Məmməd bəy sürüb, getdi. Fikri özünü Kəhrizliyə yetirib, arvadları Ayişə və Hürünü dağa yola salmaq idi. Ağdamda onlara rast gəldi: yüzbaşı bütün Kəhrizli elini yığıb gəlirdi. Məmməd bəy onları Qaraağacıya qədər təşyi edib, geri döndü.

İndi atlılar toz qopararaq Bərdəyə tərəf çapırdılar. Kəndlər, yataqlar, qışlaqlar başına buraxılmışdı: heç yerdə adama rast gəlinməyirdi. Əkinlər yarımçıq qalmışdı. Qərvəndə yaxın bir yerdə Fətəli xanın pişdarlarına rast gəldilər: əlliyə qədər atlı yavaş-yavaş gəlirdi. Arxadakı dəvədə bir zəmbərək topu da vardı. Məmməd bəyin dəstəsi dərəyə çönüb, atdan endi. Nar kollarının arasında gizləndilər. Düşmən pişdarı yaxınlaşırdı, danışıqları belə aydın eşidilirdi. Gəlib, yanlarından keçəndə kolların arasından güllər açıldı. Birinci güllə zəmbərəkçini aşırıb, dəvədən saldı. Atlıların arasına çaxnaşıq düşüb, hərəsi bir tərəfə qaçdı.

Məmməd bəy tüfəngi çiyninə aşırıb, öz adamlarına:

– Atlanın görək! – deyib, atın belinə sıçradı. Qılıncları sıyırıb, düşmənlərə soxuldular. Məmməd bəy təpədə birisinə çatıb, arxadan qılıncı boynuna endirdi. Qan fışqırtı ilə atın yəhər-əvabına səpildi. Atlı köklü ağac kimi endirildi, lakin sol ayağı üzəngiyə ilişib, qaldığından, at onu yer ilə sürükləyərək apardı. Yerdə qalan düşmənləri də Məmməd bəyin nökərləri, izləyib qılıncdan keçirirdi.

Uzaqdan böyük toz qopmuşdu. Məmməd bəy təpəyə çıxıb, əlini gözlərinin üstünə qoyub, diqqətlə baxdı:

– Uşaqlar, çoxlu qoşun gəlir, görürsünüzmü? Bax, deyəsən qabaqdakı da Fətəli xanın özüdür... Daha durmaq yeri deyil, keçək dağ ətəklərinə, adam yığaq, daldan soxulaq, görək nə olur...

İbrahim xan məiyyətilə Əsgərana çatıb, orada dayandı. Qasidlərin gətirdiyi xəbərə görə Fətəli xanla Hacı Əbdilqədir xanın qoşunu on minə qədər idi. Dörd də mis topları var idi. İbrahim xanın çadırında bir müşavirə olub, məsələ müzakirə edildi. Əvvəlki tədbirdən çəkinməmək qərara alındı – bütün aranı Fətəli xana buraxıb, gücü Dağıstan tərəfə vermək qət olunmuşdu. Oraya göndərilmiş Şəki xanının oğlu Məmmədhəsən xana böyük ümid bağlanırdı. Məmmədhəsən xan

Ömər xanın vasitəsilə qüvvət toplayıb, Fətəli xanın cənuba enməsindən istifadə etməli idi.

Ağdam tərəfdən çıxan tüstü artıq Fətəli xanın ora çatmadığını göstərirdi. İbrahim xan ata minib, qoşunu və səngərləri yoxlayır, Fətəli xanın gəlməsini gözləyirdi. Lakin günlər keçir, düşməndən bir əsər görünməyirdi. Gecə Ağdama atlılar göndərildi, gətirdikləri xəbərdən məlum oldu ki, Fətəli xan kənd-kəsəyi yandıra-yandıra Araza tərəf gedir.

## 11

Səfərin buduna güllə dəymişdi, evində yatırdı. Telli və Gülnaz onun yatağının dibini kəsib, oturmuşdular. Cərrah Səfərin yarasının piltəsini yenicə dəyişmişdi. Səfər bir az rahat olub, mütəkkəyə söykənərək yatağında oturmuşdu. O zarafatla Gülnaza tərəf yönəldi:

– A Gülnaz, – dedi, – hananı kəsdiniz?

Gülnaz qızararaq:

– Yox, Səfər qardaş, hələ kəsməmişik, iki-üç günə kəsəcəyik.

Səfər gülümsədi:

– Telli ilə yaxşı qazanc yolu tapmısınız. Telli məndən gizləyən kimi, sən də pulu atandan gizləyirsənmi?

Gülnaz Tellinin üzünə baxıb gülümsədi:

– Niyə ki? – dedi.

Pərizadın içəri girməsi zarafatı kəsdi. Salam verdi, sonra Səfərin halını xəbər aldı:

– Necəsən, ay Səfər qardaş? – dedi.

Səfər onun cavabında:

– Yaram axşam məni çox incitdi, – dedi, – indi dincəlib, sağ ol.

Pərizad Tellinin qulağına nə isə pıçıldadı; görünür, borc istəyirdi. Telli məmnun bir çöhrə ilə:

– Ay Pərizad xala, – dedi, – bir azdan sonra gün günorta yerinə gələcək, yetirməzsən, uşaqlar səni əldən salar. Yeri onları da yığ gətir, bir yerdə yeyək, bozbaş asmışam. Səfər də darıxır, danışarıq, onun da kefi açılar.

Pərizad bir az tərəddüd göstərdisə də, axırda razı oldu. Əyilib, Tellinin qulağına pıçıldadı:

– Onda bir parça çörək ver, uşaqları hələ kiridim, sonra gələrik.

Telli durub, təhnədən bir təndir çörəyi çıxartdı, Pərizada verib, yola saldı.

Günorta əzanı verilməyə başladıqda, Tellinin süfrəsi salınmışdı, çörəklə bərabər vəzəri və açıqca da qoyulmuşdu. Pərizad iki körpəsi ilə gəlib çıxdı. Oturub yeməyə başladılar. Bozbaşın suyuna çörək doğrayıb yemişdilər, ətinə keçmək istəyirdilər ki, qapıdan cırın-cındırın içində, saqqal-bığ basmış bir adam girdi. Hər kəs onu heyrətlə qarşılayıb sonra birdən:

– Allahqulu! – deyə içini çəkdi.

Pərizadın əri idi: neçə aydan bəri itib-batmışdı. Allahqulu uşaqlarını bağrına basıb ağladı. Sevinc yaşlarından sonra Allahqulunu həyətə aparıb, əl-üzünü yudurdub gətirdilər. İndi hamı süfrə başında oturub, şad bir halda yemək yeyirdi. Kazım kişi də arvadı ilə gəlib, çıxdı. O, Allahqulunu görcək:

– Ay bildir gedən bildirçin, hanı sənin bir qılçın? – dedi və görüşdülər. – Aşna, bir dəri bir sümük olmusan ki, deməli, qır satıb, qazanc eləyəcəkdin, dağarcığı da bada verdin.

Kazım qəhqəhə çəkib ürəkdən gülür, Allahqulu da çörəklə mətrətin dibini siyirib, ağzına apara-apara:

– Məzhəb haqqı, doğru deyirsən, elə də oldu! – dedi.

Telli ilə Gülnaz süfrəni yığışdırıb, piyalələrdə quluncan çayı verdilər.

Hava isti idi. Açıq pəncərədən gələn hava dar otağa təsir etməyirdi: hamı tər tökürdü. Səfər davalardan baş açıb, hələ artırmasını qayırda bilməmişdi, həyətdə də əkdiyi ağaclar körpə idi, kölgəlikləri yox idi. Qonaqlar Səfərin xatirəsi üçün bu dar, çubuq otağa tıxanıb, qalmışdılar. Kazım pəncərə taxtasına dirsəklənib, özünəməxsus zarafatla:

– Ay Allahqulu, – dedi, – gətirdiyin sovqat özünün olsun, de görək, bəs indiyəcən harada idin?

Allahqulu başına gələnlərdən xəcalət çəkən kimi:

– Əşi, gedib Tiflisə çıxdım, – dedi, – gedəndə pis olmadı. Bir iki də xalça və ayın-oyun aparmışdım, uruslara satdım. Gördüm işlərim yaxşı gedir, ətrafdan arpa-saman alıb, gətirdim, yaxşı pul qazandım. Fikrim vardı Tiflisdə bir ev alım, gəlim arvad-uşağı da ora aparım.

Ev də aldım. Əlimdəki pullara da bir az şey-mey alıb, bir karvana qoşuldum... Di nə eliyəsən ki, yolu mərdimazar ləzgilər kəsdilər...

Allahqulu piyaləni dodaqlarına yapışdırıb, bir qurtum aldı, həyəcan keçirən bir adam kimi, bir az düşünüb, sözlərinə davam etdi:

– Köpək uşaqları yaman şeylər imişlər: karvanı gülləyə basıb, qırdıqlarını qırıb, qırmadıqlarının da qollarını bağlayıb, qabaqlarına qatdılar. Karvanı da apardılar. Gəlib bir yerə çatdıq, alış-verişçilər həndəvərimizi aldı. Bizi bir tacir satın alıb apardı. Hamımızı bir daxmaya doldurub, qabağımıza da bir parça çörəklə su qoydular. O biri gün bizə atlılar qoşub, hara isə apardılar. İki gün yol getdik. Bir də bir dəstə köçəri qabağımızı kəsdi, atışma düşdü. Gördük ara qarışıb, məzhəb itib, bir-birimizin qolunu açıb, "tu qara dabanımıza" deyib əkildik. Sonra bildim ki, bizi Rum torpağına aparırmışlar. Məxləs, bir neçə gün dağı-daşı ac-susuz dolanıb, bir düzə çıxdım. Gördüm köç gedir, dedim nə olur-olsun onların yanına gedəcəyəm. Getdim, demə bunlar da Qazaxdan Qarabağa köçürlər. Allah onlara kömək eləsin, onların kölgəsində gəlib çıxdım...

Kazım dinləyərək başını bulayırdı:

– Tanrı axırını xeyr eləsin, – dedi, – dünyanın növrağı dönüb. – Kazım duruxdu və istehza ilə: – Bəs urus böyükləri bu işlərə nə deyir? Axı topu-topxanası, zoru, var.

Allahqulu məyus bir halda:

– Əh, Allah kəssin onların işini! Bir az qoşun gətiriblər, o da Tiflisdən çölə çıxmaq istəmir. Bir tərəfdən ləzgilər, o biri tərəfdən də Süleyman paşanın adamları Açıqbaşı dağıdırlar. İt yiyəsini tanımır. Mən ordan çıxanda, dedilər ki, Ömər xan on beş min qoşunla Alazan çayını keçib. Tiflis camaatı qorxusundan tir-tir əsirdi. Valinin işi həmişə Qazax-Şəmşəddin elindən aşırdı. İndi onlar da qoşuna adam vermir, çox bərkə düşəndə, köçüb buralara gəlirlər... Məxləs, usta Kazım, dünya yaman qarışıb, tanrıya pənah!

Allahqulu piyalədəki quluncan çayını başına çəkib, yanıqlı bir halda piyaləni Telliyə uzatdı:

– Qızım, birisini də ver, ağ günlü olasan! – dedi.

Allahqulunun sanki hələ ürəyi boşalmamışdı, Tiflisdə eşitdiyi və gördüyü şeyləri söyləmək ehtiyacı ona rahatlıq verməyirdi.

Telli gətirən isti piyaləni alıb, pəncərənin taxtasına qoydu və alnının tərini cırıq qolunun ucu ilə silib, davam etdi:

– Hər yerdən betər Dağıstandır, – dedi. – Oradan bir erməni qaçıb gəlmişdi, deyirdi ki, Şeyx Mənsur adında birisi çıxıb cahad eləyib, böyük qoşunla urusun üstünə yeriyib. Özü çoban imiş, amma indi camaat başına and içir. Usta Kazım, məxləs, səndən ağıllı adam yox imiş, məzhəb haqqı doğru deyirəm... Neçə dəfə ölümdən qurtarmışam...

Kazım müzəffər bir gülüşlə:

– Bəs necə bildin bu qara lələşini, mən "azacıq aşım, ağrımaz başım" – deyəndə gülürdün. Bilirsən, at təpiyinə at dözər. Bu saat başını salamat saxlamaq istəyirsənsə, başını aşağı sal, kasıbkarlığına qurşan, bu tifilləri saxla. Vəssalam! Mən dünya görmüş adamam: yetim qızsan, büzül yat!

Söhbət qızışdı. Səfər də başına gələnləri nağıl elədi. Sonra ailədən, məişətdən danışdılar. Allahqulu, külfətinə yaxşı baxdıqları üçün Kazımdan və Səfərdən razılıq elədi:

– Məzhəb haqqı, – dedi, – külfətdən nigarançılığım yox idi, bilirdim ki, duz-çörək yemişik, gor qonşusuyuq.

Kazım məhcub bir halda:

– O nə sözdür, – dedi, – heç Gülnazı Tellidən seçərəmmi?

Pərizad razı baxışla Kazımı və arvadını süzür və minnətdar bir halda gözləri yaşarırdı.

Birdən Kazım mərd bir səslə:

– Allahqulu, – dedi, – indi yaxşı dur, üst-başını dəyiş, adam içinə çıxacaqsan.

– Var ki, dəyişəsən. Mərdimazar ləzgilər...

– Yoxdu, mənimkini gey. Tərpən, ayrılığımız ki yoxdur.

Kazım arvadına yönələrək, qara çuxa və arxalığını, göy şalvarını Allahquluya verməsini tapşırdı.

## 12

Fətəli xanın Aranı talayıb, geri çəkilməsi həftələr çəkdi. Bu zaman İbrahim xan da Fətəli xanın geri qayıtdıqda Şişəyə hücum edəcəyi ehtimalına qarşı qoşunu ilə bərabər Əsgəranda oturub qalırdı. Vaqif də xanın hüzurunda olmaq məcburiyyətində idi, lakin bu məcburiyyət onu üzüb bitirirdi. Hər saat, hər dəqiqə ruhu bədənindən ayrılıb, şəhərə doğru uçurdu.

Gözəl bir gün idi. Xəfif yel yamacları xalı kimi bəzəmiş çiçəklərə toxunur, saf havanı rayihə ilə doldururdu. Vaqif çadırdan çıxıb, yaşıl fərşlər üzəri ilə gedirdi. Onun daim gənc, parlaq və zərif təbəssümlə çevrələnmiş gözlərinə indi kədər pəlməsi çökmüşdü. Getdikcə günəş qüruba doğru enir, üfüqün narıncı boyaları qırmızıya çalır, uzaq meşələrin mavi pərdələri tündləşir, göydən yerə sirli bir hədiyyə enəcək

kimi, hər şey kainatın əlvan boyalarına dolaraq susurdu. Vaqif ayaq saxlayıb, axşamın dəbdəbəsini seyr etməyə başladı. İki dağın arasına sərilmiş Qarqar çayı əsrarəngiz şırıltısı ilə ona sanki: “Dünyada yalnız bircə dəfə yaşanılır”, – deyə anlaşılmaz kədərlər təlqin etdi. Başını sağ tərəfə çevirdi: mavi kölgələrə bürünmüş minlərcə çiçəklər ona dərdli məxluq kimi göründü. Sanki ağ geyimli məsum qızlar diz çökərək ətrafdakı əzəmətə tapınırdı.

Uzaqdan sanki həzin bir səs gəldi, kim isə ağlayırdı: sönük saz simləri nalə edirdi. Həsrət və ayrılıq hissi bütün dəhşətilə şairin qəlbini qapladı. Dəruni iztirabını susdurmaq üçün geri dönmək istədi, bir də nökərini arxada durmuş gördü. Heyrətlə diksinib:

– Əyə, sən burda nə gəzirsən? – deyə sordu.

– Ağa, gördüm çox uzaq gedirsən, ehtiyat elədim... dalınca gəldim.

Vaqif gülümsədi, lakin bu gülümsəmə həsrət acısı ilə dolu idi:

– Get, çadırdan mənim o xırda cecim heybəmi gətir! – dedi.

Nökər bir dəqiqədə qoşub, heybəni gətirdi. Vaqif bir daşın üstünə oturub, onu gözləyirdi. Heybəni aldı:

– Di sən get! – deyə nökəri yola saldı, heybədən qələmdan və kağız çıxarıb, yazmağa başladı. Bütün onu həyəcanlandıran hisslər qələmdən süzülərək kağızın üstünə səpildi:

Al geyinib, çıxsan gülşən seyrinə,
Yığılır başına güllər dolanır;
Məhtabi-hüsnünə bəndə fərmandır,
Qulluğunda aylar, illər dolanır.

Görməmişəm sən tək bir mələkzada,
Dərdini çəkərəm həddən ziyada:
Kirpiklərin ucu düşəndə yada
Bağrımın başında millər dolanır.

Mən bir Fərhad, sən bir Şirin dəhansan,
Dərdin zahir, amma özün nihansan,
Gözəllik babında şahi-cahansan,
Qulluğunda daim ellər dolanır.

Ləblərin bağrımı pürxun eyləmiş,
Axıtmış göz yaşım Ceyhun eyləmiş,
Həsrətin Vaqifi məcnun eyləmiş,
Onun üçün gəzər, çöllər dolanır.

Artıq gecənin boz qanadları ətrafa gərilmişdi. Vaqif kağızdan ayrıldıqda, al geyimli Mədinə ona görünən kimi oldu, şairin gözlərindən iki odlu damcı qopub, kağızın üstünə yayıldı.

Vaqif bu şerə bir məktub da əlavə edib möhürlədi. Heybəsi əlində çadıra doğru düşüncə içində gələn Vaqifi uzaqdan görən nökər yüyürə-yüyürə gəlib, heybəni ağasının əlindən aldı. Vaqif dayanıb dedi:

– Atı min, bu kağızı bu saat apar Qalaya, Mədinə xanıma ver, tezcə dön!

Nökər bir neçə dəfə də belə məktublar aparmışdı:

– Baş üstə! – deyib getdi.

Vaqif yataqda uzanmışdı, amma gözlərinə yuxu gəlmirdi. Çadırın qapısından gecikmiş ayı seyr edir, onun da əfsanəvi bir eşqi olduğunu xatırlayırdı. Ay da əsrlərdən bəri məftunu olduğu məşuqəsi günəşin arxasınca qoşur, onun həsrətində çırpınırdı. O da Vaqif kimi eşq yorğunu olaraq, təpələr arxasından sönük çöhrəsi ilə aləmə tamaşa edir, sevgi üzüntülərinin sirrinə vaqif ola bilmirdi. Saatlar deyil, illər dolanırdı, ömürdən-gündən gedir, çapar gəlib çıxmırdı. Vaqif durub yatağının içində oturdu. Qulağı səsdə idi. Durub çadırdan çıxdı. Həsrəti həsrətə qovuşduran yollar ay işığında ağarırdı. Uzaqdan, deyəsən, toz qopurdu. Bu toz şairin qəlbini sevinc ilə doldururdu. O özünü saxlaya bilməyib, yola doğru endi. Çapar səadət müjdəçisi kimi qoşurdu. Nəhayət, Mədinənin məktubu Vaqifə çatdı. Tez qayıdıb, titrək əlləri ilə şamı yandırıb oxudu: yalnız bircə bayatı yazılmışdı:

Ahular mələr gələr,
Dağları dələr gələr.
Yar yarı istəsə,
Gecəni yarar gələr!

Vaqifin qolları yanına düşdü. Çox düşünmədən, qapıda gözləyən çapara:

– Atını dəyiş, mənim də atımı yəhərlə, Qalaya gedəcəyəm, – deyib, geyinməyə başladı.

13

Fətəli xan Qubaya dönmüş, ellər də çoxdan xaraba qalmış qışlaqlarına enmişdilər.

Məmməd bəy Kəhrizli mülkünə gəlib, bir neçə gün idi arvadları Hürü ilə Ayişənin yanında idi. Bir gün meşədə ovda ikən çapar gəlib onu tapdı:

– Ağa, – dedi, – Ağdamdan adam gəlib, səni oraya çağırırlar.

Məmməd bəy dəyişildi, ala gözləri düşüncəyə daldı:

– Kim çağırır?, – dedi. – Nə olub ki?

Çapar tutuldu, görünür, söyləmək istəmirdi. Məmməd bəy qəzəbləndi:

– De görüm, nə olub, köpək oğlu!

Çapar titrək səslə:

– Ağa, – dedi, – ürəyini xarab eləmək istəmirəm...

Məmməd bəy daha da hirsləndi:

– Məni əl salmısan? – dedi, gözləri hədəqədən çıxmağa başladı.

Çapar məsələni açmağa məcbur idi:

– Ağa, – dedi, – Mehralı bəyin meyitini gətiriblər.

Məmməd bəy atasının ölümünü eşidər-eşitməz donub qaldı. Mehralı bəy neçə il idi Fətəli xanın yanında idi.

Məmməd bəy huşsuz bir halda:

– Ədə, atam ölüb, yoxsa öldürüblər? – deyə sordu.

– Ağa, Bakıdan qayıdırmış, yolda kor Ağası xanın oğlu Əhməd bəyə rast gəlib. Əhməd bəylə rəhmətlik Mehralı bəyin arasında dava olub, öldürülüblər.

Məmməd bəy nökərlərini götürüb Ağdama çapdı. Mehralı bəyin tabutunu xanlıq imarətin bağına qoymuşdular.

İbrahim xan da məiyyəti ilə burada idi. Xan Məmməd bəyi görcək hönkürtü ilə onu bağrına basdı:

– Məmməd, belimiz sındı! Görürsən Ağası qancıq duz-çörəyimi itirib, necə namərdlik elədi!?

Xan dəsmalı ilə göz yaşlarını silərək: – Ananın südü sənə haram olsun, atayın qanını yerdə qoysan! – deyib, meyit namazına durdu.

Mehralı bəyi imarətin həyətində, atası Pənah xanın yanında basdırdılar. Dəfn mərasimindən sonra qurulmuş iri mağarda xeyrat verildi. Quba xanı Fətəlinin meyiti təşyi etmək üçün göndərdiyi adamlar da burada idi. İbrahim xan köhnə düşmənçiliyi unudub, qardaşının cənazəsinə hörmət göstərən bu adamlara böyük iltifat bəsləməyə başlamışdı. O günü Məmməd bəyin sərkərdəliyində qoşun hazırlanıb, Şirvan xanı Ağasıdan qisas almaq üçün Fətəli xanın köməyinə göndə-

rildi. Vaqif bu təşəbbüsə qarşı bir söz belə deyə bilmədi, çünki İbrahim xan qəzəblənmişdi, ağılumulmaz bir halda idi. Vaqif ürəyini deşən dərdlərini mirzə Əliməmmədə açdı. Axşamçağı imarət bağını gəzərkən istehza ilə:

– A seyid, cəddinə qurban olum, bugünkü işlərdən ağlın nə kəsdi? – deyə sordu.

Mirzə Əliməmməd zoğalı çuxasının qolunu çiynindən arxaya atıb, ehtiyatla:

– Axund, – dedi, – qardaş qanıdır... düşmən də olsa, qardaşdır.

Vaqif gülümsədi:

– Yaxşı, a mirzə, – "mirzə" sözünü Vaqif istehza ilə dedi: – Fətəli xanı yıxıb, rahat olmaq üçün Məmmədhəsən xanı Cara göndərdik, qoşun yığdı, Hacı Əbdilqədiri öldürüb, Şəkini aldı; Ağası xana kömək elədik, yenə Şirvana yiyələndi. İndi Şəkidən və Şirvandan gələn qoşun Fətəli xanı boğduğu bir zaman biz dönüb, Fətəlinin hiyləsinə allanırıq... – Vaqif mirzə Əliməmmədi bir az da diqqətlə süzüb, gülümsədi: – Fətəli xan bizim köməyimizlə Ağası xanı və Məmmədhəsən xanı basar, sonra da... dönər bizə tərəf.

Vaqif sözlərini bitirib, istehza ilə qəhqəhə çəkdi. Mirzə Əliməmməd bir söz belə demədi.

Bu əsnada xan onları çağırtdırdı. Mağarın baş tərəfində əyləşmişdi, sakit idi, görünür, yeməkdən sonra yatıb dincəlmişdi. Mağarın ortasına tirmə süzəni salınıb, üstünə 32 cüz qoyulmuşdu. Ətraf bəy, yüzbaşı və məliklər burada idi, təziyəyə gəlmişdilər. Vaqif ilə mirzə Əliməmməd içəri girdikdə molla: "Allahın min qərətil fatihə!" – deyib, oxuduğu cüzə daldı. Vaqif ilə Mirzə Əliməmməd yuxarı başda əyləşib, fatihə oxumağa başladılar...

## 14

1786-cı ilin baharı idi. Leysan yağışları iki gün idi ki, ara vermişdi. Sarayın Əsgərana baxan bürcü döşənib, qonaqlar oturmuşdu. Şəhərin bütün əyan və əşrəfı burada idi. Bu ziyafət yenicə Şişəyə gəlmiş Avar xanı Ömərin şərəfinə düzəlmişdi. Ömər xan Gürcüstanı talayıb, Vaxanq qalasından əsir götürdüyü Abaşidzenin iki qızının birini özünə, Yelena adlı o birisini də bir çox hədiyyələrlə bərabər İbrahim xana peşkəş gətirmişdi. İbrahim xan Yelenanın gözəlliyinə heyran qalaraq,

onun adını "Cavahir" qoyub, hərəm tacının görkəmli bir yerinə nəsb eləmişdi. Cavahir xanımdan aldığı həzz xanın çöhrəsində həkk olunmuş daimi qəzəb izlərini silib götürmüş, onu xoşrəftar, mülayim bir süfrə sahibinə çevirmişdi: hər kəs məmnuniyyətlə ikram edirdi. Xanın bütün diqqəti yuxarı başda əyləşmiş qartal burunlu, şahbaz baxışlı, çevik hərəkətli və şumal boy-buxunlu Ömər xanda idi. Ömər xan böyük bir iştəha ilə plovu yeyir və Gürcüstan səfərini məxrəcdən gəlmə bir Dağıstanlıya məxsus tələffüzlə türkcə söyləyirdi:

– Süleyman paşanın məktubunu oxuyub, çox pis oldum. Kişi haqlı idi. Urusların Qızlar tərəfində bizim müsəlmanları qırıb, yerinə urus gətirdikləri çoxdan mənim ürəyimi yandırırdı. Axırda ki Şeyx Mənsur xüruc elədi, bütün Çeçen və Qabarda ayağa qalxdı. Daha durmaq yeri deyil idi. Camaatı yığıb, getdim... – Ömər xan tikəsini ağzına qoyub fəxr ilə İbrahim xanın üzünə baxdı. Xanın gülər gözləri Ömər xanın gözlərinə dikilmişdi. Vaqifin də qulağı onda idi. Ömər xan tikəsini çeynəyib uddu:

– Vallahüləzim, qardaş, sənin Gəncəyə qoşunla gəldiyini eşidib ağladım. "Himmətil rəçal, təqlal cihal" demişlər. Xülasə, Sığnağı, Gümüşxananı qılıncdan keçirdim. Qış düşdü, Axısqaya keçdim. Süleyman paşa bizə çox hörmət elədi. Yazı qayıtdım, Abaşidzenin Vaxanq qalasını da dağıtdıq... İndi İraklinin damağı aşağı idi: urusu çağırmağına peşman olmuşdu. Süleyman paşaya və mənə kağız yazıb, barışmaq istədi. Qızıl da göndərmişdi, urus böyüyü mənə bir qızıl tütün qutusu da peşkəş yolladı. Yazdıq ki, urus Tiflisdən çıxmasa, barışmayacağıq...

Ömər xan sözünü bitirərək qabdan bir qazmaq götürüb, sağlam dişlərilə xırtıldatmağa başladı.

Vaqif ciddi bir səslə soruşdu:

– Urus nə deyir, çıxır, çıxmayır?

Ömər xan cəld:

– Ağam, arxayın ol, gedəcək, – dedi, – Şeyx Mənsur Terek yolunu kəssə, urus Tiflisdə öldü... Şeyx Mənsur imam sayılır, bütün Dağıstanı ölümə aparsa, gedər.

İbrahim xan qürurla:

– İrakli elə bilirdi, urusa daldalanıb, bizi özünə rəiyyət edəcək. Sevdası tutmadı. İravan da əlindən çıxdı. İndi oralarda da işlər başqa cürdür. Xoylu Əhməd xana Osmanlı padşahı sərəskərlik verib, mən də Əhməd xana qoşun göndərdim, Təbrizi alıb, Hidayət xanı əsir elədi...

Məclis sakit olub, məmnun bir halda yeməyə dalmış, ağız marçıltısından başqa bir şey eşidilmirdi. Vaqif plovu bitirib, dovğaya keçmişdi. Bir iki qaşıq alıb, gülərək:

– Mənim qazaxlılarım da köçüb, gəlirlər, – dedi. – Əhməd ağa min beş yüz ailə ilə tərpənib, gəlmək istəyir.

Ömər xan təsdiq etdi.

Qazax, Şəmşəddin İraklinin sağ əlidir. Onlar getsə, heç İraklinin qoşunu olmaz. Qazaxlılar çox igid tayfadır, mən bunları bu dəfə gördüm. Oddurlar...

Nahar bitə-bitdə lələsi şair Vidadinin gəlməsini Vaqifə xəbər verdi. Vaqif xandan izin alıb, tələsik evə gəldi. Dostu Vidadini pəncərənin içində oğlu Qasım ağa ilə söhbətdə gördükdə, onu ayağa qalxmağa qoymayıb, özü irəlilədi, öpüşüb-görüşdülər.

Vaqif soruşdu:

– Hələ de görüm, toxsan, acsan?

Vidadi mütəvazi bir halda:

– İltifatın artıq olsun, xörək verdilər, yedim, – dedi.

Vaqif oğlu Qasım ağaya yönələrək:

– Bizə qəhvə bişirt! – dedi. – Sonra Vidadi ilə qarşı-qarşıya oturub, çoxdan bəri həsrətində olduğu dostu ilə şirin söhbətə başladı.

Vidadi ortaboylu, çalsaqqal, arıqvücudlu və nurani sifət bir kişi idi: çox dindar və dünyadan əl üzmüş bir adam idi. Yeddi-səkkiz yaş Vaqifdən böyük, təbiətcə şən və nəşəli Vaqifin əksi olmağına baxmayaraq, aralarında bir dostluq var idi. Daima bir-birilə yazışar və biri digərinə öz şerini göndərərdi.

Vaqif dərin bir sevgi saçan gözləri ilə dostunu oxşayaraq:

– Yaxşı, – dedi, – nə əcəb? Bilirsən ki, səni çoxdan gözləyirdim.

Vidadi əllərini ovxalayaraq:

– Köçdüm, mən də köçdüm, – dedi. – Qazaxda yaşamaq çətin olub, dedim, gedim bir Qarabağa bələd olum, sonra, mümkün olsa, arvad-uşağı da yığışdırım.

– Yaxşı eləmisən, mənim kimi əvvəl cavanşir, sonra da "qızılbaş" olarsan! Ha-ha-ha!..

Vaqif şaqqıldayıb, istehza ilə güldü.

Vidadi yumşaq gülümsəmə ilə dostunu süzüb:

– Pənah, – dedi, – neçə vaxtdır, səni görmürəm: nə qocalmısan, nə nəşədən düşmüsən.

Vaqif təkidlə.

– Ay Molla Vəli, – dedi, – bu, insanın özündən asılıdır: insan gərək üzdən getsin, çox dərinə əl aparmasın. İnsana bir yaşayış bağışlanmışdır, doyunca yaşamaq lazımdır. “Öl!” – deyəndə də öləcəyik. Amma bu dar dünyanı gərək elə keçirəsən ki, öləndə arxaya baxıb, həsrət çəkməyəsən! Hikmət bundadır.

Vidadi bu fikrə qane olmurdu:

– Bu sən deyənlər insanın özündən asılı olmasa?

– Necə yənı olmasa? İnsan faili-muxtardır. Hər şeyi özünə tabe etməlidir.

Vidadi Vaqiflə heç razılaşmayaraq dedi:

– Ölkədəki bu davaları, nahaq qanları, başkəsmə, gözçıxmaları görüb də, rahat olmaq olarmı? İnsanlara qarşı olan məhəbbət insanın ürəyini yandırır. Yazıq Müştaq Hüseyn xanı Hacı Əbdilqadir niyə boğdurdu? Bu səxavət, lütf və kərəm sahibinin günahı nə idi? Axırda Müştağın oğlu Məmmədhəsən xan da atasının qisasını aldı – Hacı Əbdilqadiri öldürdü. Haqqı idi, çatdı, ancaq yeddi oğlunun günahı nə idi? Bu zülmləri görən şad ola bilərmi?

Vaqif ciddi bir səslə:

– Şad olmasan nə çıxacaq ki? – dedi. – Atalar demişkən: Tökülən dolmaz! Ömür əzabla nəşədən yoğrulmuş tikanlı bir güldür: bunun tikanı olmasa, gülü də lətifliyindən məhrum olar. Ömrün nəşəsindən sevinən kimi, əzabını da toy-bayram sanmalısan!

Vidadi gülümsündü, lakin gülümsünməsində əzab ifadəsi duyuldu; o öz şerinin çox sevdiyi məruf parçasını pərişan bir səslə oxudu:

Yüz mövsimi-xoş xürrəm olub, illər açılsa,
Yüz lalə bitib, süsənü-sünbüllər açılsa,
Yüz baği-cahan tazələnib, güllər açılsa,
Könlüm ki, açılmaz neçə müşküllər açılsa!

Lələ qəhvə gətirib getdi. Vaqif fincanı qaldırıb qoxladı:

– Molla Vəli, – dedi, – bax bu qəhvənin qoxusunda duyduğum bu bir ləhzəlik ləzzət dünyanın bütün əzabını unutdurur. Məncə, bütün dünya yerində qurulmuş və gözəl qurulmuşdur. Bu bizi hər dəqiqə dişləyib incidən milçək belə mənə mələk donunda görünür, o uçub gedəndə istəyirəm deyim:

Gedən getmə, bir bəri bax, ay gedən!
Gözüm doymaz səntək gözəl kimsədən:
Gah yaxadan şölə verər ağ bədən,
Gah odur ki, nazik əllər görünür...

Vidadi bu dəfə bütün səmimiyyəti ilə güldü, təsbehini əlinə toplayaraq:

– Yox əzizim, – dedi, – mən heç yanılmamışam, sən doğrudan da cavan imişsən: milçəyin də yaxasından şölə verən ağ bədən görürsən.

Vaqif qəhvədən ayrılıb, qəhqəhə ilə güldü.

15

Vidadi hələ Şişədə Vaqifə qonaq idi. Vaqif saraydan döndükdən sonra bir yerdə pəncərənin içində oturub, şirin söhbətlə məşğul olurdular. Bir birinə yeni yazdıqları şeirləri oxuyur, şəhərin və qonşu ölkələrin yeniliklərini danışırdılar. Vaqif zarafatında davam edir, dostunu da gülməyə vadar edirdi.

– Bizdə hər gün bir təzə xəbər var: ya toydur, ya vay, ortası yoxdur. Ömər xan gəldi, gətirdiyi gürcü gözəlini xana bağışlayıb, əvəzində xanın bacısını alıb apardı. İbrahim xan qardaşı Mehralı bəyin dul arvadına evlənmək istədi, tutmadı...

Vidadi kədərli bir səslə Vaqifin sözlərini kəsdi:

– Doğrudan, a Pənah, deyir Məmməd bəy anasını xana ərə getməmək üçün öldürüb, bu nə işdir?

Vaqif təəssüflə:

– Elədir, – dedi. – Yazıq arvad döşünü çəpkənin yaxasından çıxarıb, deyib: “Oğul, səni südüm tutar, xənçəri qoy yerinə!” Məmməd bəyin gözünü qan tutmuş imiş, xənçəri binəvanın ürəyinin başına soxub, gedib...

Vidadi köks ötürərək:

– Yaman zəmanədə yaşayırıq, – dedi, – ataya-anaya hörmət qalmamışdır: çörək-duz ayaq altda tapdalanır.

Bu faciəli xəbər dostları fikrə daldırdı. Bir az sonra Vidadi üzündə ikrah cizgiləri :

– Bəs İbrahim Xəlil xan bu işə nə deyir? – dedi.

– İbrahim xan nə deyə bilər ki, onsuz da dərd-səri çoxdur. Məmməd bəy də od kimi bir şeydir, dəstəsini götürüb, o gedəndir ki, gedib,

heç "gördüm" deyən də yoxdur. Çox elərsən, gedər Ağaməmməd xana qoşular, o daha pis olar, çünki ölkəyə yaxşı bələddir, tərəfdarı da çoxdur.

Vidadi İran işləri ilə maraqlandı:

– A Pənah, – dedi, – İrandan nə xəbər var? Elə vuruşmadır, deyilmi? Müsəlman qanı tökülür...

Vidadi son cümləsini böyük bir iztirabla deyə bildi. Vaqif də eyni iztirabı duyaraq:

– Tökülür, Molla Vəli, həm də boş-boşuna tökülür. Əlimurad xan istisğa illətindən öldü, yerinə Lütfəli xan çıxdı. İsfahan tərəfdə keşməkeşdir. Ağaməmməd xan da Tehranda, öz Qacar elinin yaxınlığındadır. Qardaşı Cəfərqulu xanı basıb, Astrabaddan qaçırtdı. İndi Quba xanı Fətəlinin yanındadır, urusun qanadının altına girmək istəyir. Deyirlər, İsfahana İngilis çoxlu top-topxana göndərib... Xülasə, Molla Nəsrəddin demişkən, ölkə qarış-bulaşır.

Vidadi heyrətlə dinləyib, dedi:

– A Pənah, insan yanı axırda ölməyəcək? Bu beş gün dünyanın cahu-cəlalı üçün bu qədər baş ağrısı çəkməyə dəyərmi? Şah da, gəda da ölüb, torpağa qoyulacaq. Axırı ki, ölümdür, bu fani dünyanı zöhd və təqva ilə keçirmək daha yaxşı olmazdımı?

Vaqif dostunun bu tərk-dünyalığına cavab olaraq gülümsədi, Vidadi məsələni anlayıb, cəld:

– Bilirəm, – dedi, – zöhd və təqva işinə gəlmir. Bir az da qocalarsan, ölüm qorxusu canına çökər, onda məsələnə Vaqif olarsan. Hələ Vaqif deyilsən, fəna dünyaya bel bağlayan Pənah oğlansan.

Vaqif güldü:

– Ay molla Vəli, – dedi, – axı ölümü də tanrı yaradıb, eşqi də, nəşəni də, gözəli də. Tanrı axirətdə mənə deməzmi, "Ay yassar, sənə ürək verdim – sevmədin, dodaq verdim – öpmədin, göz verdim – o yaşılbaş sonalara doyunca tamaşa etmədin?" Onda mən tanrıya nə cavab verərəm?

Vidadi güldü:

– Vallah, Pənah, toy-bayramsan! – dedi. – Sənnən danışanda adamın ürəyi açılır.

Vaqif birdən sözü dəyişdi:

– Mən evdə olmayanda darıxmırsan ki? – deyə sordu. – Bəyazlarımı mütaliə etmədinmi?

– Yox, darıxmıram, deyə Vidadi cavab verdi. – Bəyazlarını oxuyuram. Yaxşıca səliqəli adamsan: həm öz şeirlərini, həm də başqalarınınkını yığıb saxlayırsan. Yazıq Məmmədhüseyn xan Müştağın sənə yazdıqlarını gördüm, yaralarım təzələndi.

Vaqif təəssüflə:

– Elə ziqiymət adam idi, – dedi, – heyf oldu getdi. Nə səxi və ali tinət idi! Bir tüfəng ilə kürk istədim. Nə xoşrəftar bir əda ilə göndərmişdi! – Vaqif dayandı, bu dəfə üzündə dərin bir ələm ifadəsi vardı. – Molla Vəli, – dedi, – sən məni zahirən zarafat və şətarət içində görürsən, bunlar hamısı “əz bidəmağidir”: qərinəmizdə yaşayan bütün şairlərimiz kimi, mənim də dərdim tüğyan edən vaxtlarım olur.

Vidadinin dərdi açıldı:

– Pənah, – dedi, – indi mən deyənə gəlirsən. Bu labüddür, hələ yaşa dolduqca, daha da pərişan olacaqsan. Dünya dəyişilmiş: əhd, vəfa, sədaqət, doğruluq qalmamışdır. Ağa Məsih Şirvani gözəl buyurmuşdur:

Olubdur qəlb xain, həq bilir bir pak tinət yox,
Düşəndə satmayan dinarə dinin heç millət yox,
Zükur əqsaminin təbində əsla doğru beyət yox,
Ünas əhlində bir zərrə hicabi-şərmi ismət yox,
Təriqət, adəmiyyət yolda, nə ərkanda qalmışdır.

– Təriqət, adəmiyyət olsa, bu həngamələr olarmı? Nişat Şirvani gör nə yazır:

...Bir dəmdə evim tikdim və yıxdım yola düşdüm,
Yüz görmədim əz bəs ki, Nişat, əhl vətəndən,
Bu vəhclədir kim, baş alıb, hər elə düşdüm...

– A Pənah, mənim də dərdim Nişatın dərdindən deyilmi? Yurdum, yuvam var idi, gündə biri at çapıb, gəlir, çalır, talayır. Ölən ölür, qaçan qaçır, əlsiz-ayaqsız da acından ölür: “Rəiyyətlər qılır dəstgah hər beş gündə bir şahi”.

Vaqif yerindən qalxıb, otağı dolaşmağa başladı:

– Molla Vəli, – dedi, – heç öz yerlimiz Əbdülrəhman ağa “Şair” təxəllüsü demirsən, İrakli xan kişinin gözlərini çıxartdırdı, işıqlı dünyaya həsrət qoydu. Yazısının hər sətri qan saçır.

Molla Vəli də ayağa qalxdı:

– Bəsdir, Pənah, müsibət dəftərin yum, qəlbim partlayır... – Duruxub, düşünərək: – Axşamçağıdır, hava sərinləyib, çıxaq başmaq seyrinə, – dedi.

Vaqif razı oldu, atları minib getdilər. Qala qapısından çıxıb, Datələbə tərəf sürdülər. Ətrafda səf çəkən dağlar, meşəli yamaclar, dərələr, qucağında səslənən çay gözəl bir ahəng təşkil edərək, insanı oxşayırdı: sərin və yüngül hava iztirablı qəlblərə səpilərək onları sakit edirdi. İki qocaman şair atlarını yan-yana sürərək təbiət əzəmətinin, onun füsunkar təranəsinin qarşısında bir söz belə deməyə qıymırdılar.

## 16

İbrahim xan Ömər xanla ittifaq bağlayıb, Fətəli xanın hücumundan Qarabağı təmin etdikdən sonra Naxçıvan səfərinə çıxmışdı. Naxçıvanı alıb, Şişəyə dönər-dönməz adəti üzrə dövlət adamlarını yanına çağırdı. Məmmədhəsən ağa, Vaqif, Mirzə Əliməmməd, Ağası bəy və başqa ağalar, bəylər və sərkərdələr toplandı.

Xanın yay günəşindən rəngi qaralmışdı, qoca da olsa yanaqları tünd qırmızı çalırdı. Qəlyanın neypuşunu əlindən buraxmayaraq, hamının halını xəbər aldı. Sakit və məmnun idi. Üzünü məclisə çevirərək:

– Təzə nə var? – dedi. Kimsədən cavab çıxmadı.

Xanın inadlı gözləri məclisi təkrar dolandı, Ağası bəyin üzündə dayandı. Kələntər cəld:

– Xan sağ olsun, – dedi, – Qalanın övzai qoyub getdiyiniz kimidir, ancaq qoşundan bir nəfər tüfəngi ilə bərabər qaçmaq fikrinə düşmək istəmişdi, dəstgir oldu və Xəznə qayasından başıaşağı salındı.

Xanın məmnun baxışı Kələntər Ağası bəydən keçib, Mirzə Əliməmmədin üzündə dayandı. Mirzə Əliməmməd diksindi, lülələyib qurşağına qoyduğu kağızı cəld çıxarıb, qeydlərinə baxaraq ərz elədi:

– Qazaxlı Əhməd ağanın min beş yüz evlə bərabər Qarabağa köçməsi İrakli xana çox güvara gəlmiş, urus qoşunu ilə Gəncə civarinə hücumavər olub, bizdən məzkur qazax ellərinin geri göndərilməsi iddiasındadır. Bu vəqə xanlıqda olan bəzi erməni məliklərini, o cümlədən məlik Abonu, məlik Məcnunu və Qandzasar mahrasasını cümbuşə gətiribdir, tüğyan bidətinə qədəm qoymuşlar. Tiflisə adam göndərib, urusların Qarabağ torpağına hücum etmələri təmənnasında olmuşlar. Baqi, xanın sağlığına duagu varam.

Xanın Naxçıvan zəfəri nəticəsi olaraq sakit çöhrəsi, ansızın qopan bir küləkdən dalğalanan meşə kimi səyrildi, qırışdı, bığlarını ağzına doldurub, hirsindən çeynəməyə başladı.

– Axı mən Abonu niyə zindandan buraxdım ki! – deyə – nərildədi. – Deyirəm, qoyun bu şərir köpək uşağını bir dibli qırım, qurtarım, hərəniz bir söz deyirsiniz!

Xanın çənəsi əsməyə başladı. Məclisə dərin bir sükut çökdü. Heç kəs cürət edib, başını yerdən qaldırmayırdı. Birdən xan neypuşu əlindən yerə atdı:

– Ağası bəy, – dedi, – dur!

Ağası bəy cəld ayağa qalxdı. Əllərini döşünə qoyub, bığlarını çeynəyən xanın buyruğuna müntəzir idi.

Xan titrək səslə:

– Beş yüz atlı götürüb, bu saat sığnaqlara sürərsən, daşı-daş üstə qoymazsan, – dedi. – O qancıq Abonu, Məcnunu və mahrasanı da cəlləkləyib gətirərsən!

Ağası xan:

– Baş üstə! – deyib cəld çıxdı.

Xan bir az sakit olub, bığlarını düzəltdi və neypuşu götürərək:

– Siz də mürəxxəssiniz! – deyə müşavirəyə xitam verdi.

Hava xoş olduğu üçün Vaqiflə mirzə Əliməmməd saraydan çıxıb, piyada getmək istədilər. Cilovdarlar atları arxadan yedəklə sürür, bu iki asudə nəfəs almağa çox ehtiyac duyan rəcal da söhbət edə-edə divanxana qabağından keçib, Saatlı məhəlləsinə tərəf gedirdilər. Mamayı məscidinə çata-çatda Ohan keşişə rast gəldilər. Salamlaşdıqdan sonra Vaqif zarafata başladı:

– Ay mirzə Ohan, deyərlər: “Keçinin buynuzu gicişəndə başını çobanın dəyənəyinə sürtər”... Məliklər, deyəsən, dinc dura bilmirlər.

Ohan məsələni bilirdi:

– Axund, – dedi. – “Ta pərişan nə şəvəd, kar və saman nə rəsəd!” Qoy əcirlərini çəksinlər!

Ohan sözünü bitirib düşüncəyə daldı, üzü dərdləndi, sonra Vaqifi süzüb dedi:

– Barı yazıq camaata bir şey olmayaydı.

Vaqif cavab olaraq eyni kədərli bir baxışla Ohanın gözlərinə baxdı, bir söz demədi. Sanki ikisi də: “Qurunun oduna yaş da yanar”, – deyə təəssüf edirdi.

İki həftə sonra Ağası bəy sığnaq səfərindən döndü. Qandzasar mahrasasının evi axtarılıb, knyaz Potyomkinin məktubları tapılmışdı. Xəyanətinin üstü açıldığını görən mahrasasının qorxudan ürəyi çatlayıb ölmüşdü. Abo ilə Məcnun isə Ağası bəyin gəlməsini eşidər-eşitməz rus qoşununa bel bağlayaraq, Gəncə tərəfə qaçmışdılar.

17

Ağabəyim ağa artıq böyüyüb 14-15 yaşına dolmuşdu. Ağ, bakir bir zanbaq kimi uzanıb, rayihə saçırdı. Onun gözəllik sədası bütün Azərbaycan xanlıqlarına yayılıb, aşıqların dilində və şairlərin şerində əzbər olmuşdu. Bəyimin nə qədər həsrətini çəkənlər vardı: Xanzadələr və bəylər, at səyirdən, qılınc vuran dilavərlər onun yolunda ölməyi bir şan və şövkət sanırdılar. Lakin İbrahim Xəlil xan bu Qarabağ incisinin qiymətini bilir, heç bir adlı-sanlı elçiyə meyl göstərmir, qız da saray bağında, gül-çiçək arasında, bir qönçə kimi, fərəhlə açırdı. Yenə dayəsi Nazlı ona nağıllar, əfsanələr və dastanlar söyləyirdi. Ağabəyimə bütün kainat qır at minmiş Koroğlu kimi igid, Məcnun kimi çılğın və Fərhad kimi inadlı sevgi yolçusu sifətində görünürdü. Ona elə gəlirdi, bir gün bu qalın saray hasarlarından bir igid atını sıçradıb keçəcək, onu qüvvətli bağrına basıb aparacaq. Və həmişə də bu igid onun xəyalını dolaşarkən Ağabəyim ağanın rəngi qaçır, incə vücudu titrəməyə başlayırdı.

Ağabəyim ağanın əfsanə və nağıllarla bərabər şerə də böyük həvəsi vardı – o bütün türk şairlərini oxumuş, xoşuna gələn gözəl parçaları bəyazına köçürüb əzbərləmişdi. Bu şairlərin içində ən sevdiyi Füzuli ilə Vaqif idi. O Vaqifi görmüşdü, lakin onun məclisində olmaq, onunla danışmaq hələ qıza müyəssər olmamışdı. Ağabəyim ağa hər dəfə anasına dedikdə, anası:

– Ay qız, sən bir tikə uşaqsan, yekə kişi ilə nə danışacaqsan ki? – deyə qızının cürətinə heyrət edərdi.

Nəhayət, bir gün Tutubəyim ağa Vaqifi otağına çağırtdırdı. Vaqif gəldi. Tutubəyim yaşmanaraq:

– Axund, – dedi, – sənin heç xəbərin yoxdur – burada bir şagirdin var. Neçə vaxtdır məni əldən salır ki, bir Molla Pənah axundu bizə qonaq çağır.

Vaqif gülümsünərək nərmin əllərini incə belində çarpazlamış Ağabəyimə baxdı: səf çəkmiş uzun kirpiklər yerə baxan gözlərini gizləmişdi, utandığından yanaqları yanırdı; qumral telləri səliqə ilə burulub, ağ buxağının altında cıqqalanmışdı. Al çəpkəninin yaxasından görünən sinəsi çağlayan köpük kimi qabarmışdı.

Vaqif fərəhlə:

– Ay afərin! Ay afərin, qızım! – deyə Ağabəyimə əl uzatdı.

Ağabəyim diksinmiş bir quşcuğaz kimi başını cəld qaldırıb, Vaqifin üzünə baxdı və barmaqlarının ucları soyumuş əli ilə şairin əlindən yapışdı. Vaqif ilk dəfə olaraq bu gənc qızın ala gözlərinin və sol yanağındakı incə xalın cazibəsini duyaraq özünü itirdi. Vaqif çox gözəllər görmüşdü, çox sonalar tərənnüm etmişdi, lakin belə bir sənəmə rast gəlməmişdi. Ağabəyimin dodaqları yaqutun rəngini soldurar, dişləri dürdanələri məhcub edərdi.

Tutubəyim ağa Vaqifə pəncərənin içində yer göstərdi, qarşı-qarşıya oturdular. Ağabəyim ağa ayaq üstə durmuşdu.

Vaqif:

– Niyə əyləşmirsən, qızım? – dedi.

Tutubəyim ağa:

– Di get bəyazını gətir, axund baxsın, – deyə çönüb gedən qızına fərəhlə baxdı.

Vaqif də Ağabəyimin, aşağısına inci və mərcan düzülmüş, ipək şalvarını, məxmər başmaqlarını, xoş yürüşünü zövq duyaraq seyr etdi.

Tutubəyim:

– Axund, – dedi, – gecələr oturub, şeir yazır... Çox həvəsi var.

Vaqif Tutubəyimin sözlərinə cavab olaraq:

– Bəyim, şeir yazan vaxtıdır... Bir cahıl, bir də mənim kimi ahıl yaxşı yazar, – deyə qəhqəhə çəkdi.

– O niyə, axund? – deyə Tutubəyim də güldü.

– Qayda elədir – günəşin çıxışı ilə batışı gözəl olur, günorta yerində olanda, ona heç baxan da olmur.

Tutubəyimin ala gözləri xoş bir əda ilə süzüldü:

– Axund, bu mənə toxunur! – dedi və gileyli-gileyli Vaqifi süzməyə başladı.

Vaqif baltanı daşa vurduğunu anlayıb, cəld təshihinə qoşdu:

– Bəyim, bunun sənə dəxli yoxdur: sən elə bir ulduzsan ki, sayrışın həmişə aşiq yuxusuna haram qatır.

Bu əsnada Ağabəyim ağa yaşıl meşinə tutulmuş, gözəl şirazəli bəyazı ilə içəri girdi.

Vaqif:

– Əyləş görüm, qızım! – deyə Ağabəyimə yanında yer göstərdi.

Ağabəyim bəyazı Vaqifə verib, anasının yanında dizi üstə oturdu. Şair gözlüyünü taxıb, bəyazı vərəqlədi: bütün Azərbaycanın müasir şairləri: Vaqif, Vidadi, Müştaq, Nəbi, Raci, Rafe, Müştəri, Ağa Məsih, Nişat, Arif, Aciz, Aşıq Əli, Əbdülrəhman ağa Şair və başqalarının gözəl parçaları buraya köçürülmüşdü. Vaqif Təbrizli Qövsinin bir parçasını göstərib:

– Bəyim, – dedi, – bunu oxu görüm.

Ağabəyim qızararaq gənclik ahəngilə təranə saçan bir səslə oxudu:

Hərçənd gül lətif olar – rüxsarin özgədir,<br>
Nərgiz nə olsa – çeşm füsunkarın özgədir!<br>
Bir qönçəyə yaman dемərəm-nüktə tutmaram,<br>
Söz bundadır ki, ləl-gövhərbarin özgədir...

Tutubəyim ağa Vaqifin atəşlənən gözlərinə yandan tamaşa edib, gülümsəyirdi. Ağabəyim şeri bitirər-bitirməz şair coşdu.

– Ay afərin! Mərhaba! – deyə onu böyük bir fərəhlə təkrar-təkrar süzdü.

Tutubəyim ağa qızını sağ əlilə sararaq:

– Axund, özü də yazır, – dedi, sonra qızına yönəldi: – Qızım, bir özüyünkülərdən də oxu, axund qulaq assın.

Ağabəyim utanaraq, qıpqırmızı kəsildi, anası və Vaqif nə qədər israr etdilərsə də, oxumaq istəmədi.

Ağabəyim ağanın Vaqif ilə görüşməsi ona bir qürur vermişdi. İndi o özünü tamamilə böyük bir qız, şair məclisində oturub-duran bir adam hesab edirdi. O, gecələr şamın işığında oturub, yazdığı şeirləri toplayır, bir gün onları Vaqifə göndərəcəyini düşünürdü. Lakin ansızın bir təsadüf onun düşüncə kasasını əndərdi, sakit və fərəhli həyatına zəhər qarışdırdı.

Bir sabah ertə bağda Nazlı ilə gəzərkən saray bürcündə genişsinəli, alagözlü, qumralsaçlı, qəşəng bir oğlan gördü. Əynindəki zirehi və başındakı dəbilqəsi günəşdən parıl-parıl parıldayırdı.

– “Bu odur, Koroğludur!” – deyə düşündü və ilk dəfə olaraq qönçə bağrına xar girdiyinin dadlı acısını duydu.

Ağabəyim Nazlının qolundan dartaraq:

– Dayə! Dayə! – dedi. – O kimdir? O igid hardan gəldi?

Nazlı bürcə baxıb heyrətlə:

– Bəyim, tanımırsanmı? – dedi. – Əmin oğlu Məmməd bəydir.

Ağabəyim çəkilib, ağacların arxasında daldalandı:

– Dayə – dedi, – mən görəndə xırda idi. İndi lap dəyişilib.

– Bəs nə! Anasını öldürəndən bəri xanın gözünə görünə bilmirdi. Bakıya gedib atasının qanlıları Ağası xanı, oğlu Əhməd bəyi öldürdükdən sonra xan təqsirindən keçdi. İndi üzə çıxır.

Ağabəyim ağa əyilib yarpaqların arasından bir də Məmməd bəyə baxdı, onun ala, sərt gözləri bir xəncərə dönüb, qızın gənc qəlbini yaraladı.

İndi Ağabəyim ağa ağacların daldasından çıxıb, gözlərini bürcdən ayırmırdı. Qəlbindəki çocuqluq fərəhi artıq sönmüş, yerinə anlaşılmaz həsrət qayğısı dolmuşdu.

## 18

Mirzə Əliməmmədlə Səfər Qubaya çatar-çatmaz atlarını düz Fətəli xanın imarətinə sürdülər. Həyət cürbəcür qiyafəli nökərlərlə dolu idi: türklərlə bərabər, ləzgilər, avarlar və başqa Dağıstan xalqlarına mənsub adamlar da çox idi. Qarabağdan qaçıb, gəlmiş adamların xanı görmək istəmələri haman eşikağasına bildirildi. Mirzə Əliməmməd pəncərəsi böyük bağa açılan bir otağa çağırıldı. Pəncərənin içində lopabığlı, uzun xəncərli, yan qoyulmuş yekəpapaqlı bir kişi oturub, çubuq çəkirdi. Mirzə Əliməmməd baş əyib, salam verdi. Eşikağası aldığı vəziyyəti dəyişməyərək salama cavab verib, yer göstərdi:

– Eşitdim, – dedi, – İbrahim xanın əlindən qaçmısan?

– Bəli, ağa çakərinizi gözlərimdən məhrum etmək istəyirdi, tanrının mərhəmətinə şükür, qaçıb, rəhmdil Fətəli xanın mülkünə iltica etdim.

Eşikağası məmnun bir halda gülümsədi:

– Xoş gəlmisən! Çox xoş gəlmisən! – deyib düşündü və bir azdan sonra əlavə etdi: – Heç variyyətindən-zaddan gətirə bildinmi? Yoxsa...

Əliməmməd ağa cəld əlini cibinə atıb, bir kisə çıxardı:

– Elə bu yüz əşrəfini gətirə bildim, – dedi, – sən də mənim pərəstkarım, sənə peşkəşdir. Yuxarıda Allah, yerdə sən – halal xoşun olsun!

Eşikağası kisəni cəld qapıb, cibinə soxdu, nəşələnərək:

– Xoş gəlmisən! Gözümüz üstə yerin var! – deyə gülümsədi. – Nə qədər burdasan dövlətindən bir parça çörəyimiz var, yeyərik.

Mirzə Əliməmməd təzim edərək:

– İltifatın artıq olsun! – dedi.

– Bu saat səni xanın da hüzuruna aparram. Hələ hərəm dairəsindədir. Şəkidən bacısı Hürü Peykər xanım gəlib, onnan danışır. Yəqin Məmmədhəsən xanı tanıyırsan – bir zaman Qarabağa zaval göndərilmişdi. Fətəli xanın bacısı axı onda ərdədir.

Mirzə Əliməmməd:

– Tanıram, o da duz-çörək itirəndir, – dedi, – canqutaylılarla bir yerdə Ağsuya Fətəli xanın üstünə yerimişdi.

Eşikağası cəld onun sözünü kəsdi:

– Başından böyük qələt eləmişdi, cəzasını çəkdi. Yox, indi işlər başqa cürdür. İndi Hürü Peykər xanımı xanın yanına minnətçi salıb. – Eşikağası susdu, sifətinə bir qürur gəldi: – Fətəli xanın büsatı, maşallah, özgədir: bu il Ərdəbili aldı, bütün Şahsevən xanları ona tabe oldu. Hökmü, maşallah, Dərbənddən Təbrizə qədər yeriyir. Ömər xan kimi bir dilavər ona qılıq eləyir, amma axmaq Məmmədhəsən dirsək göstərir.

Xanın qulluğuna çatmaq uzandı, söhbət də qurtaran kimi oldu. Eşikağası tələsməyərək təkrar çubuğunu doldurdu, pişxidmət od qoydu, sonra:

– Şikayətçilər var, – deyə ərz etdi.

Eşikağası yenə vəziyyətini dəyişməyərək:

– Nə təhər şeydilər? – dedi.

– Ağa, irili-xırdalıdır!

Eşikağası gülümsədi:

– Onu demirəm... Xülasə çağır gəlsin.

İçəri uzun saqqal, iri burunlu bir kişi girdi, torpağa düşdü, təzim edib, dərdini anlatdı: yüzbaşı ondan ilin bu vaxtında bağbaşı istəyirmiş.

– Ağa, bağbaşı payızda yığılar, indi qışın axır ayıdır. Belə iş olarmı?

Eşikağası sakit:

– Olar, – dedi, – get, yaşı yoxsa, qurusundan ver. İldə neçə xalvar alma-armudun olur, heç üzünü görmərik.

Kişi nə isə demək istədi, lakin pişxidmət onun qolundan dartıb apardı. İçəri bir arvad girdi, ərinin onun talağını verməməsindən şikayət elədi.

Eşikağası:

– Get, – dedi, – qazıdan yarlıq al gətir. Hələ bunu bilmirsən?

Bu əsnada pişxidmət gəldi və tələsik dedi:

– Ağa, xan səni qulluğuna çağırır.

Eşikağası əllərini yerə dəstək verib, qalxdı, arxalığını, çuxasını düzəltdi, yana sürüşmüş xəncərini şişman qarnının üstünə çəkib çıxdı.

Onun geri qayıtması bir neçə dəqiqə çəkdi, gəlib Mirzə Əliməmmədi apardı. Gözəl döşəli, nəqşkar kallayıya girdilər. Yuxarı başda cüssəli, topasaqqal, qorxunc sifətli, təqribən əlli yaşında bir adam oturmuşdu. Bu, Fətəli xan idi. Mirzə Əliməmməd ağanın salamını alıb, ona yer göstərdi, halını xəbər aldı.

– İbrahim Şişə qalasına bel bağlayıb, qudurğanlıq eləyir, – dedi. – Hamı mənim məsləhətimlə durub-oturduğu halda, o mənə boyun əymək istəmir. Urus qoşunu Tiflisdən çıxıb, getdikdən sonra, ayağı bir az da yer aldı. Da demir ki, urus getdi, amma yenə gələr, indi başı Osmanlı davasına qarışıqdır. Biz urusun ətəyindən əlimizi üzə bilmərik.

Fətəli xan bir çox hədə-qədəqədən sonra:

– Qaçmağının səbəbi nə oldu? – dedi.

– Xan, Qarabağa ikinci dəfə qoşunkeşiniz olan zaman İbrahim xana dedim ki, Fətəli xana pislik eləmə, tədbirli, kar azumuxtar bir hökmdardır. Bunu dediyimə peşman oldum, məni zindana saldırdı, gözlərimdən məhrum etmək istədi. Tanrının məsləhətinə şükür, qaçıb, yaxamı onun zülmündən qurtardım.

O gündən etibarən mirzə Əliməmməd Fətəli xanın etimadını qazanıb, məiyyətinə daxil oldu. Quba xanı fikrini heç kəsdən gizləməyib, açıqdan-açığa hərəkət etdiyini Mirzə Əliməmmədə söylədi. Fətəli xanın məqsədi Rusiyaya isnad edərək bütün Azərbaycan və İran işlərinə müdaxilə etmək idi. Məsələ İrakli xana yazılmış, o da müşavirəyə çağırılmışdı. İbrahim xanı sıxışdırmaq yaxın tədbirlərdən biri idi.

Mirzə Əliməmməd işə vaqif olub, təfsilatı ilə məlumat topladıqdan sonra İbrahim xana uzun bir məktub yazıb, evzai bildirdi. Məktubu Səfər Qubadan çıxarıb, yaxın kəndlərdən birində gizli saxlanılan Qarabağ çaparına verib dönməli idi ki, Səfərin yox olması gözə çarpmasın.

Mirzə Əliməmməd eşikağasının evində qalır və şübhə doğurmamaq üçün ondan bir dəqiqə belə ayrılmırdı. İş olmayan vaxtı Şahdağına dağ kələsi ovuna gedir, şəhəri və ətrafını dolaşırdılar. Havalar xoş keçirdi, yazın yaxınlaşması artıq duyulurdu. Bəzi yerdə ağaclar çiçəkləmiş, bənövşə açmışdı.

Bir gün eşikağası mirzə Əliməmmədə dedi:

– Məmmədhəsən xan Şəkidən xana qonaq gəlib. – Burada eşikağası qürurla göz vurub, gülümsədi, – mənim işim olacaq. Oğlumu sənə bələdçi verirəm, gedin gəzin.

Mirzə Əliməmməd 20-25 yaşındakı bu oğlanla çaya baxan təpədəki xan bağına tərəf getdilər. Küçələr silahlı adamla dolu idi, əksər silah rus silahı idi. Bir yerdə bir qaçışma düşdü. İki qubalının sözü tərs gəlib söyüşdülər, bu əsnada yolun ortasına bir xalça salındı, söyüşənlərin hərəsi xalçanın bir başında dizi üstə çöküb xəncəri sıyırdı. Camaat sakit durub, tamaşa edirdi. Yalnız bir ağsaqqal qaydaya baxırdı – bu həkəm imiş. Birinci zərbəni sağ tərəfdəki endirdi və müarizinin yarı qopub, çiyninə tərəf əyilmiş başını gördükdə istehza ilə:

– Hə, elə canın bu imiş? – deyə güldü.

Yaralanan sol əli ilə başını qaldırıb, yerinə oturtdu və xəncəri müarizinin qarnına soxdu, piy pırtladı. İkinci zərbə boynu kəsiyin işini bitirdi. Tökülüb qana bulaşmış meyitləri apardılar. Camaat da, heç bir şey olmamış kimi dağılıb getdi.

Mirzə Əliməmməd həyatında ilk dəfə təsadüf etdiyi bu hadisəyə heyrət etdi. Oğlana müraciət edərək:

– Bəs niyə camaat bunları aralamadı. Barışsaydılar, yaxşı olmazdımı? – dedi.

– Bu bizdə bir adətdir, barışmazlar. Hər gün olan işdir.

Xan bağında ot göyərməyə başlamışdı. Bənövşə yığa-yığa təpənin qırağına gəldilər: çınqıllığı ilə geniş bir sahə tutan çayın suyu hələ az idi; qıvrılaraq yatağın ortasından axırdı. O tayda yəhudi məhəlləsinin hisli-paslı daxmaları görünürdü.

Bir həftə sonra Mirzə Əliməmməd Fətəli xanla bərabər Şəkiyə, Məmmədhəsən xana qonaq getdilər: Şəki xanı Fətəli xanın qüvvətini duyub, ona tabe olmuşdu. Hüseyn xan Müştağın binası olan gözəl imarətdə bir neçə gün qonaqlıq oldu: Fətəli xanı razı buraxmaq üçün əldən gələni əsirgəmədi. Mirzə Əliməmmədi olduqca maraqlandıran əyləncələr düzəlmişdi: Şəkinin məşhur on iki pəhləvanının güləşmə-

si, Şirvan rəqqasələrinin oyunu, sazəndələrin gözəl çalğısı ayrı bir tamaşa idi. Nəhayət, "Qızlar bulağı" deyilən ətraf dağlara ova getdilər.

Bütün bu ziyafət və əyləncələrdən sonra Fətəli xan qoşunu ilə Kürə tərəf tərpəndi. Kürün kənarında çadırlar quruldu, Gəncə hökmdarı Cavad xan da məiyyəti ilə orada idi, Fətəli xanı istiqbala çıxmışdı və özü ilə bir çox hədiyyə gətirmişdi. Şeypur çalındı, qoşun düzüldü. Cavad xan hədiyyələr və üstünə ipək örtük salınmış bir təbsi ilə Fətəli xanın hüzuruna gəldi. Bütün məiyyəti ilə diz çöküb, təbsini Fətəli xana təqdim etdi. Xan qürurla örtüyü qaldırdı – Gəncə qalasının gümüş açarlarına tamaşa edib, eşikağasına işarə etdi, təbsini aldı, sonra Cavad xana yanında yer göstərdi.

– Kefin kök, damağın çağdırmı? – deyə Gəncə xanının halını xəbər aldı.

– Ali həzrətin sayəsində.

– Tanrının sayəsində, – dedi, düşündü, gözünü qıyaraq: – urus çəkildi, işlər müşkülləşdi, indi ölkənin nizamına nəzarət qılmaq bizə düşür. İrakli xana kağız yazmışam, yəqin yoldadır. Məsləhətləşməliyik.

Cavad xan əlini döşündən çəkməyərək baş əyir, Fətəli xanın dediklərini təsvib edirdi. Quba və Dərbənd xanının vahiməsi onu elə sarsıtmışdı ki, onun dedikləri qulağına çatmadığı halda yenə baş əyib, "Bəli! Bəli!" – deməsində davam edirdi.

Cavad xan qoyunlar kəsdirib, Fətəli xana, məiyyətinə və qoşununa böyük bir qonaqlıq düzəldib, yola çıxdılar. Şəmkir çayının qırağında İrakli xan çadır qurdurub Fətəli xanı gözləyirdi, uzaqdan Quba xanı görükər-görükməz gürcü topları atəş açdı, sonra zurnaçı dəstələri çala-çala qabağa çıxıb, Fətəli xanı İraklinin çadırına gətirdilər.

İrakli xanın özü çadırından əlli addımlıq bir məsafədə Fətəli xanı qarşılayıb görüşdü. Mirzə Əliməmməd İraklini ilk dəfə görürdü – bu çal saqqal, beli bir az əydəmli, göyçəksifət hökmdar ona məyus kimi göründü, danışarkən altdan yuxarı baxan gözlərində zamanın keşməkeşləri əks edirdi. Ölkəsindəki qarışıqlıq, urusların çəkilməsi, ailəsindəki niza, hələ diri ikən təxti ətrafında qopan çəkişmələr İraklini vaxtından əvvəl qocaltmışdı.

İrakli xan Fətəli xanla çadırda qalıb, qapıya qaravul qoyuldu.

Bu iki hökmdarın baş-başa verib, danışıq aparmaları iki saat çəkdi. Lakin sirr örtülü qalmadı, o günü axşam Mirzə Əliməmmədlə bir

çadırda yatan eşikağası hamısını Qarabağ rəcalına bildirdi. Əsas məsələ İbrahim xanın inadlığı imiş: böyük qüvvətlə Şişəyə hücum etmək müzakirə edilmiş və Qazax-Şəmsəddinin də iştirakını təmin etmək üçün bu iki mahal Cavad xana qaytarılırdı.

Mirzə Əliməmməd o biri gün bu əhvalatın hamısını yazıb, Səfər vasitəsilə İbrahim xana göndərdi. Lakin üçüncü gün baş verən bir hadisə müşavirəni yarımçıq qoydu – Fətəli xan ansızın xəstələnib, Qubaya yola düşdü. Xanın xəstələnməsi qoşuna yayılıb, bir ruh düşkünlüyü vücuda gətirdi. Ara qarışdı, eşikağası başını itirib, artıq qonağı ilə maraqlanmamağa başlamışdı. Bu çaxnaşıqdan istifadə edən Mirzə Əliməmməd axşam yoldan çönüb, Səfərlə Qarabağa qayıtdı.

## 19

Mirzə Əliməmməd ağanın Qarabağa çatmasından bir az sonra Fətəli xanın ölüm xəbəri Şişəyə yetişib, sarayda böyük sevinc doğurdu.

İbrahim xan qonaqlıq edib şəhərin bütün adlı-sanlı adamlarını çağırmışdı. Qonaqlıq günortadan başlamış gecə yarısına qədər davam etdi. İbrahim xanın sevinci bəlli idi – ən böyük düşmənindən xilas olmuşdu. Bu əsnada Ağabəyim ağa da sevinirdi, lakin onu sevindirən başqa məsələ idi: o günü Məmməd bəyi görmək ehtimalı onu sabahdan ümidlə yaşadırdı. Bəyim ən gözəl paltarlarını geyinmiş, tellərinin uclarına bənövşələr düzmüş, bütün günü güzgü qarşısında cilvələnərək Məmməd bəyin həsrətini çəkmişdi. Lakin Məmməd bəy gəlib çıxmamışdı.

Günəş yavaş-yavaş batır, yer üzünə qara cuna çəkilirdi. Aşiq qəlbinə şübhə və kədər duyğuları dammağa başlayırdı. Ağabəyim ağa ağaca söykənib, gözlərini Əsgərana baxan bürcə dikmişdi. Bürc yavaş-yavaş qara kölgələrə dalır, əzəmət və qürurla sanki bir yoxluğa doğru süzülürdü.

Nazlı bəyimə heyrətlə baxıb, onun halından baş açmırdı:

– Bəyim, – dedi, – şər vaxtıdır, bikef durma, pis olar.

Bəyim eşitmirmiş kimi susur, intizar vadilərində dolaşırdı.

Nazlı ona yanaşdı, incə belini qucub, onu oxşadı:

– Axı nə olub, niyə bikefsən? – deyə soruşdu.

Bəyim fikirdən ayılıb, gülər üzlə dayəsinə baxdı, lakin dərin bir dərdi olduğu Nazlıya da aydın oldu. Onun qoluna girib, yavaş-yavaş

artırmaya gətirdi. Sürahıya söykənib, sayrışan ulduzlara tamaşa etməyə başladılar. Ağabəyim ağa yenə susqun və düşüncəli idi.

Birdən sarayın o biri başındakı həyətə iki atlı girdi. Öndəkinin dəbilqə və zirehi məşəllərin işığında parlayıb söndü: atdan cəld enib, artırmaya çıxdı. Ağabəyim dikəlib, nəşə içində baxdı. "Bir qara torpaq olub, ayaqlarının altına səpileydim!" – deyə həsrətlə düşündü. Lakin Məmməd bəyin qonaq otağına girib, gözdən itməsi onu yenə qəmlərə batırdı. İndi, kim bilir, Məmməd bəy ziyafətdən nə vaxt çıxacaqdı. Onu təkrar görmək imkanı olacaqdımı?.. Heç olmasa, uçar bir ulduz kimi yenə parlayıb keçəydi... Ah quşlar, nə bəxtiyarsınız! Qanadınız var, istədiyiniz budağa qona bilirsiniz, asudəsiniz.. Ürəkdən ürəyə yol olaydı, qəlbimin dərd dəftərini açaydım, oxuyaydım, mən yanan oda o da yanaydı... Göz yaşlarım bir inci olaydı, telimdən sap qayırıb, düzəydim, al yarım, yaxşı saxla deyəydim...

Sarayın o biri başından gələn səslər Ağabəyim ağanı düşüncədən ayıltdı: bir adam ata sıçradı, yenə dəbilqə və zireh işıqda parladı:

– Yox, üç gündən sonra qayıdacağam. Gərək yolda Kəhrizliyə də dəyəm! – deyə bir səs eşidildi, atlılar çaparaq getdilər.

"Odur!" – deyə Bəyimin sevinən qəlbi təkrar sancdı. Çönüb, otağına getdi. Yanan şamlar otağa matəm süsü vermişdi. Bəyim özünü ipək döşəkçənin üstünə salıb, qələmi əlinə aldı:

Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim ömrüm necə gəldi, necə getdi...

Bəyim doluxsundu, qələm əlində titrədi, gözlərindən yaşlar axıb, yazdığı misraların üstünə səpildi.

Nazlı onun yanını o saat kəsdi:

– Ay bəyim, axı dərdin nədir? Bir mənə desənə! – deyə ona təsəlli vermək istədi, ipək dəsmalla onun gözəl gözlərini sildi, soyuq əllərini əlinə alıb, oxşamağa başladı. Bəyim göz yaşlarından utanan kimi dayəsinin üzünə baxıb gülümsədi.

– Ay dayə, – dedi, – nə yaxşı vaxtlar var idi, sən mənə gecələr şirin nağıllar deyərdin, qulaq asırdım...heç dərd-qəm bilməzdim...

Ağabəyim ağa yenə doluxsundu. Nazlı mehriban bir səslə:

– Axı, Bəyim, – dedi, – başına dolanım, indi nə olub ki? Tanrıya min şükür, gün kimi şəfəq verirsən, sədan aləmi götürüb.

Bəyim bütün qəlbi ilə ona bağlanan bu saf qadını süzdü:

– Dayə, – dedi, – bir nağıl de qulaq asım... Amma öz başına gələn iş olsun.

– Nə deyim, qurbanın olum, mən yazığın başına nə gəlib ki?

Ağabəyim ağa gülümsədi:

De görüm, sən necə böyüdün, necə ərə getdin?

Nazlı dodaqlarını büzərək:

– Necə gedəcəkdim ki, – dedi. – Hamı necə, mən də eylə...Qız idim, hər axşam çağı bulaq başına suya gedərdim. Bir gün gedərkən bir çobana rast gəldim: təpədə oturub, tütək çalırdı. Gördüm elə gözü məndədir... Daha mən fikir vermədim, gəlib evə, işləri sahmana salıb, başımı atdım yerə. Ondan sonra elə hər axşam bu çoban gəlib, bizim çəpərin altında çalardı. Amma başı batmış da qəşəng çalardı. Elə mən yatanacan tütəyin səsi qulağımdan kəsilməzdi. Öz-özümə deyərdim ki, eh, bu çobanlar da nə arsız olurmuş, necə də ərinmir-gecəni bu çəpərin altında yarılayır...

– Ah dayə! Nə xoşbəxtmişsən! – deyə bəyim onun sözlərini kəsdi. – Kaş mən sənin yerinə oleydim.

– İraq canına, başına dönüm, nə olmuşdur ki? Bir arsız çobandan ötərimi? Mənim yerimə olub, nə olacaqdın ki?

– Sənin yerinə olseydim, o çəpərə qısılıb, səhəri göz yaşları ilə açardım!

Nazlı:

– Bıy daha nə qalmışdı! – deyə Bəyimi heyrətlə süzdü.

Ağabəyim ağa yenə gülümsəyərək:

– Sonrası necə oldu? – dedi.

– Sonrası necə olacaq – bir gün elçilər gəldi, məni bəyəndilər... Toy oldu... Görəm bu çoban.

– Dayə, sevindinmi?.. Ağladınmı?

– Qadan alım, daha niyə sevinəcəkdim ki! Qismətim idi, gəlib çıxmışdı. Ağlamaq da ki, qaydadır: qız ata-anasından ayrılanda ağlar.

Ağabəyim ağa yanıqlı dayənin sözlərini kəsib dedi:

– Kiri, ay dayə, baxtıyın qədrini bilməmisən, dünyaya gözüyumulu gəlib, gözüyumulu da gedəcəksən!..

## ÜÇÜNCÜ HİSSƏ

### 1

Allahqulu Kazımın daxmasına girdikdə Kazımı körpə uşaqları ilə bərabər kürsüdə gördü. Kürsü gödək qılçalı bir masa idi, bunu otağın ortasındakı ocağın üstə qoyar, ətrafına mütəkkə yığar və üstünə yorğan salardılar. Kazım mütəkkələrə söykənib yorğanı döşünə çəkmişdi; yalnız başı görünürdü. Telli və Gülnaz kənarda oturub yun darayır, Kazımın arvadı Ballı isə cəhrə əyirirdi. Alçaq pəncərəni qar basmışdı. Allahqulu əllərini ağzına qoyub, hoxura-hoxura qarlı başmaqlarını qapının ağzında çıxardı, salam verdi və kürsüyə girdi. Kürsü hamam kimi idi, Allahqulu ayaqlarını ocağın qırağına uzadıb, əllərini də qızdırmağa başladı.

– Yaman ayazdır, daş çatlayır, – dedi.

Kazım dərdli-dərdli:

– Daş da çatlar, adamın ürəyi də çatlar. Havaxta kimi belə işsiz oturacayıq! Xarabada pambığın, ipəyin hesabı yox idi, indi tapılmaz oldu.

Allahqulu sərzənişlə:

– Qoyurlar ki, – dedi, – əkin əkən, barama becərən işini görsün? Aranda dirrik qalmayıb, heç kəsin sabaha diri çıxmasına gümanı yoxdur. – Allahqulu bir az düşünüb, qeyzlə: – Urus da gəlmədi ki, canımız qurtareydi!

Kazım gülümsündü:

– Bir gün, – dedi, – Molla Nəsrəddin kəndə səs saldı ki, dağın o tayında adama bir çuval qarpız verirlər. Xalq çuvalı alıb, ayaq aldı. Molla dağa tərəf qaçan camaata baxıb: "Bəlkə elə doğrudan da qarpız verirlər" – deyib, özü də bir çuval götürüb qaçdı. İndi, ay Allahqulu, sən də çuval götürüb getmişdin, amma qarpızını görmədik.

Allahqulu gülərək:

– Mənim qarpızım çürük çıxdı, – dedi, kürsünün üstünə tökülmüş qorğadan götürüb, ağzına atdı və əlini cəld kürsünün altına soxdu. Bu əsnada Kazımın böyük oğlu gəldi, o, məktəbdən çeşdə* buraxılmışdı, küncdəki təknədən bir parça çörək qapıb, kürsüyə girdi.

---

* Günorta tənəffüsünə

– Ay ata, – dedi, – mollam aylıq istəyir, deyir ki, iki aydır verməmişsiniz...

Kazım bir az acıqlı:

– Sənin də mollan, – dedi, – lap zəhləmi tökdü, bilir ki, yoxumdur.

Kazımın oğlu yavan çörəyi gəvələyərək qaş-qabağını salladı:

– İndi mən yoldaşlarımın yanında necə deyim, yoxumuzdur.

Allahqulu maraqla:

– Neçə verəcəyiniz var? – dedi.

Kazım hiddətlə:

– Əşşi, beş bisti.

– Daha ondan ötəri oğlanı niyə yoldaşlarının yanında sındırırsan, – deyə Allahqulu qurcuxaraq darayı kisəsini çıxardı. Kürsünün üstündə diyirlənən bistilər məktəblinin kefini açdı: o, atasının üzünə baxaraq bistiləri ovcunun içinə toplayıb kürsüdən çıxdı.

Kazım:

– Hara? Günorta azanı hələ indicə verilib qurtardı, – deyə oğlunu səslədisə də, oğlan başlığını qulaqlarına çəkib getdi.

Allahqulu başını tərpədərək:

– Ey cavanlıq! – dedi. – Nə soyuq bilir, nə rahatlıq bilir!

Kazım qəhqəhə çəkib güldü:

– Bir gün Molla Nəsrəddin arx keçirdi. Atılanda düşdü arxın içinə. Camaat güldü. Molla özünü öyərək: "Ey, bilsəydiniz cavanlığımda necə qoçaq idim; indi qocalmışam". Molla xəlvətə çıxanda öz-özünə yavaşca dedi: "Öyünüb eləmə, heç cavanlığında da bir zibil deyildin"... İndi, ay Allahqulu, vallah, cavanlığımız da bir şey deyildi.

Gülüşdülər. Qadınlar və çocuqlar da bunlara qoşuldular.

Kazım arvadına müraciət edərək istehza ilə:

– Ay Ballı xanım, – dedi, – tez ol plovun dəmini al, çək yeyək. Turac çığırtmasını da bir az sulu elə... Tez ol-acıq.

Ballı:

– Baş üstə! – dedi, yerindən qalxıb, çırpındı, sonra sinidə bir az çörək, bir az da quru pendir gətirib, kürsünün üstə qoydu. Allahqulu Kazımın zarafat və istehzasına o qədər öyrənmişdi ki, plov əvəzinə pendir-çörək verilməsinə heç də heyrət etmədi.

Günəş göründü. Pəncərənin yağlanmış kağızlarından içəri bulanıq işıq süzülməyə başladı. Kazımın kefi daha da duruldu:

– Sağ olsun, usta tanrı! Yenə mərhəmətini bizdən əsirgəmir.

Allahqulu istehza il dedi:
– Qorxmursan hava açıla, şah gələ?
– Eh, cəhənnəmə ki!.. Budu şah gəldi, odu şah gəldi, daha qulağımız dolubdur. Gəlir gəlsin. "Mus-mus" deyincə bir dibli "Mustafa" deyilsin qurtarsın... – Kazım get-gedə hiddətlənirdi, qəti olaraq: – Ya o yanlıq olsun, ya bu yanlıq! Vəssalam! – deyib sözünü bitirdi.

Allahqulu ağzındakı çörəyi çeynəyib, Kazımın başının üstündən rəfə baxırdı. Lakin oraya düzülmüş lacivərdi qabları görmürdü, onun fikri tamamilə irəlidə ola biləcək hadisələr ətrafında dolaşırdı.

– Yaxşı, – dedi, – axı əvvəl araları yaxşı idi: şah, dedilər, İbrahim xana xələt- barat da göndərmişdi. Bəs necə oldu?

Kazım hiddətli:
– Allah şahın da evini yıxsın, xanın da! – dedi. – Nə o Allah deyəndən deyir, nə bu. Şah xələt-barat göndərdi, məmləkət adətincə zaval istədi, İbrahim xan da Əbdilsəməd bəyi Tehrana zaval göndərdi. Elə bilirsən bunnan iş qurtarır? Daldan gərək peydərpey qoşun verəsən, sursat göndərəsən. Nədi – İsfahanda davadır, Xorasanda davadır. Başlarına dəysin davaları, kasıb-kusub əldən getdi!

Ballı sözə qarışdı:
– Ay kişi, az deyinsənə, göydən nə yağıb, yer onu qəbul edib. Yazıya pozu yoxdu.

Kazım da qədərə inanan olduğu üçün arvadın sözləri ona bir az təsəlli verdi. Lakin yazının niyə elə yazıldığına dair onda zəif bir sual duyğusu oyandı, onu sarsıdıb yox oldu.

Səfərin gəlməsi söhbətin mövzusunu tamamilə dəyişdi. Kazım belə ona qarşı ehtiyatla davranırdı. Səfər salam verib, kürsüyə girdi və qorğa götürüb, sağlam dişləri ilə xırtıldatmağa başladı.

Allahqulu hörmət və bir az da qorxu ilə:
– Oğlum, necəsən? – deyə onun halını xəbər aldı.
– Yaxşıyam, sağ ol! Ancaq şaxta olanda yaram qövr eləyir.
– Hansı? Qılçındakı?
– Hə. Zəhrimar incidir.
– Bəs cərrah nə deyir?
– Məlhəm vermişdi, bağlayıram.

Kazım təcrübəli bir adam ədası ilə dedi:
– Yaranın ağzını yaxşı eləyirlər, içi qalır. Ola bilər ki, ətin içində sümük qırığı da qalsın. Onun üçün hov eləyir...

Səfər cavab vermədi. Qorğanı ləzzətlə çeynəyir və nə isə düşünürdü:

– Əşi, yaz gəlsəydi, bir atı minib, çöllərə çıxardıq, – dedi və nəşə ilə gülümsədi. – Evdə oturmaqdan çürüdük getdik.

Allahqulu ehtiyatla dedi:

– Hələ cavansan, at belində gəzən vaxtındır.

– Nə qayırım, kənddə idim, əkinim-biçinim vardı. İndi hər şeydən avarayam.

– Bəs mal-qaran necə oldu?

– Elə o vaxtdan dağıldı getdi. Bu indiki inəyi Ağdamdan gətirmişəm. Kənddə böyümüş adamıq, ağartısız dolanmaq olmur. – Səfər bir az düşündü, sonra daha da nəşələnərək:

– Qoy yer göyərsin, bir iki də quzu alıb, həyətə buraxacağam. Payızda toğlu olar, kəsib qovurarıq, qışa qalar, – dedi.

Allahqulu da nəşələndi:

– Bildir mənim əməyim hədərə getdi: saxladım, böyütdüm, axırda Xəznə qayasından uçub öldü.

Kazım gülərək zarafata başladı:

– Xəznə qayasından bu qədər adam atırlar, qoy bir də bir toğlu atılsın. Deməli, Allahqulu, sizin evdən bir qurban gedəcəkmiş, yaxşı ki, toğlu dərd-bəlanı aparıb.

Allahqulunun bu zarafatdan əti çimçəşdi, özünü itirdi və cavab verməyə belə söz tapmadı. Kazım məsələni anlayıb, daha da istehzasını artırdı:

– Hə, tüstülədin, deyəsən! – dedi.

Səfər mərd bir səslə:

– Niyə tüstüləsin ki, – dedi, – mən ölməmişəm ki!

Səfərin sözləri Allahquluya ürək-dirək verdi, o özünü toplayıb:

– Sağ olsun Səfər! Vallah ki! – deyə bildi.

## 2

Vaqif buxarının yanında oturub, Gülüstanda yaşayan Vidadiyə məktub yazırdı. Zövq, nəşə və lətifəçiliyi yüksək dərəcələrə çıxmışdı. Dəmirqara odunu şirin-şirin yanır, istisi və çartıltısı şairə min bir ilham bağışlayırdı. Pəncərənin rəngin şüşələrindən düşən işıq tutqun idi. Xalıların, cecimlərin, ipək püştə və döşəkçələrin boyaları bir-bi-

rinə qarışaraq pəlmələnmişdi. Vaqif bunların fərqinə varmayaraq, buxarının alovlarında cilvələnən şeir pərisi ilə əylənir, onu qaplamış bir ahəngə qoşulmuşdu.

Müəzzinin gözəl səsi onu şeir pərisindən ayırdı: qələmi yerə qoyub saatına baxdı, əqrəblər düz dəstənin üstündə idi. Qapı açılıb, lələ girdi, gülümsünərək ağasının üzünə baxdı. Vaqif məsələni anladı:

– Versin görək! – dedi, kağız və qələmdanını yığışdırıb, döşəkçəsinin altına qoydu.

Süfrə salındı. Nahar tam günorta əzanı zamanı olardı. Buğlanan xörəklər süfrəyə daşındı. Qasım ağa gəlib oturdu. Nəhayət, Qızxanım zühura çıxdı. O, məhərrəm münasibətilə qara don geymişdi. Ağ bədirlənmiş sifətə, qara iri gözlərə bu qara paltar nə qədər yaraşmışdı. Vaqif onu çoxdan görməyən adam kimi süzdü, için-için yandı. Lakin ehtiyatsız bir söz deməsin deyə, dinmədi. Gümüş biləklər xörək çəkərkən kəhrəba qolbağı şaqqıldayır, yanaqlar güzgü kimi öz-özünü əks etdirərək parlayır, qızarırdı. Bayaq atəşdə cilvələnən pərilər, indi bu solmaz yanaqların, tanrıdan şuxluq bağışlanmış bu ceyran gözlərinin ətrafına toplanırdı.

Xörək yeyilirdi. Kimsədən səs çıxmayırdı. Vaqifin oğrun gözləri Qızxanımın çöhrəsini dolaşır, şair nəşəsinə qida verirdi. Xanımın dodaqları yağlanmış, şeh düşmüş gülə bənzəyirdi.

Vaqif özünü saxlaya bilmədi, lakin qaş qayırmaq istərkən, gözü də vurub tökdü:

– Ömrün uzun olsun, Qızxanım, gözəlcə xörəkdir! – dedi, arvadının üzünə baxdı.

Kaş heç baxmayaydı, qadın o saat dəyişildi, gözəl dodaqları büzüldü, qaşlar qalxdı, üzündə bir xoşnudsuzluq ifadəsi duyuldu.

Bu ürəksıxıcı əlamətlər Vaqifə bəlli idi, onun səbəbini də gözəlcə bilirdi: qocalıq-gənclik, gözəllik-çirkinlik. kimi təzadlar daima onların həyatını zəhərləmiş və zəhərləyirdi. Lakin nə üçün Vaqif gənc deyildi? Nə üçün öz arvadı ona yabançı və yasaq olmuşdu? Nə üçün o, bir evdə, bir otaqda yaşadığı qadınının bu qədər həsrətini çəkir, dərdindən odlanırdı? Yaxınlıqla bərabər aralarında böyük məsafə, yıxılmaz barılar, bürclər vardı?

Vaqif illərdən bəri bu sualları özünə vermiş və yenə verirdi. Lakin cavabında aciz qalaraq, kədərlərə dalırdı. İndi də tutuldu. İştahası kə-

sildi, boğazı tıxandı. Ətrafa baxdı: otaq ona qaranlıq zindan kimi göründü; indi pəlmələnmiş boyalar süzülərək onun qəlbinə tökülür, soldurub, söndürürdü...

Vaqif xörəkdən yarımçıq ayrılıb qalxdı. Küçələr dəstə təpənlərlə dolmuşdu; dəf, sinc, "Heydər! Heydər!" – səsindən qulaq tutulurdu.

Vaqif ağır duyğular içində yürüyürdü, atını belə minməmişdi. Kürk ona ağırlıq da eləsə, dözürdü. Saatlı ilə Xoca Əmircanlı məhəlləsi arasında bir az dayanmaq lazım gəldi. İki məhəllənin dəstələri bir-birilə dalaşırdı. Göydən daş və çomaq yağırdı. Qışqırıq, söyüş aləmi bürümüşdü, tam bir müharibə idi. Saatlı dəstələri üstün gəlib, o biri məhəllənin camaatını püskürdüb, dar küçələrə soxdu. Vaqif ötüb getdi. Hamam qabağına çıxdı. Dərin dərənin üstündəki taxta körpünü keçdi. İndi artıq sakitlik idi. Hava bulud da olsa, çox soyuq deyildi. Bəlkə də Vaqifə elə gəldi: piyada yol və ağır kürk onu tərlətmişdi.

Mədinə naçaxlamışdı*. Yatağında oturub, bəyazlara dalmışdı. Ağbirçək bir qadın Vaqifin kürkünü aldı. Şair Mədinənin taxtının üstündə oturub, nəbzinə baxdı:

– Bir balaca qızdırman var, – dedi. Mədinənin solğun çöhrəsinə baxıb gülümsədi.

Mədinə:

– Olmazmı? – deyə ima ilə Vaqifi süzdü.

Vaqif bu baxışdan çox şeylər duydu:

– Ah Mədinə, bilsən bu dövlət işi nə cəncəlli şeydir: urus getdi, indi də şah gəlir. Üz göstərirsən, astar da istəyirlər...

– Bəs o üzdən dosta niyə göstərmisən? Neçə gündür yataqdayam; deyirəm, indi gələr, bir hor gələr...

Vaqif Mədinənin sözlərini haqlayır, lakin cavab tapa bilmirdi:

– Dərd birmi? – dedi, susdu, fikrində ailə dərdini vuruşduraraq düşündü. Lakin dərd-qəm çəkmək Vaqif üçün yabançı hallardan idi, ona görə yenə özündə nikbin qüvvələr toplayıb, müzəffər çıxdı.

Vaqifin üzündən gözlərini çəkməyən Mədinə:

– Şair, – dedi. – Üzündən bir duman keçdi, qaş-qabağın bulud kimi sallandı, canımı qara qeyd aldı. Amma axırı yaxşı oldu, üzünə yenə gün doğdu.

Vaqif Mədinənin yetikliyinə heyrət edərək:

---

* Kefsizləmişdi

– Mədinə, – dedi, – ürəkdən-ürəyə yol olduğuna indi inandım. Ancaq dumanla, buludla nə işimiz var, günəşdən danış! Əzizim, səni görəndə üzümə gün doğmazmı? Axı sən Mədinəsən! Şair qibləsi, iman məskəni Mədinə!

Mədinənin həsrətlə dolmuş gözləri şairə dikilmiş, hərarətdən qurumuş dodaqları yetişib, ötmüş qaysı kimi açıla qalmışdı. Şair onun boynuna sarılıb, şirin qaysıya qovuşdu. Ailə dərdi, şah dərdi, xan dərdi – hamısı bir neçə saniyə davam edən dadlı yoxluq içində əriyib söndü.

3

Məhərrəmin birindən başlayaraq onuna qədər davam edən imam təziyəsi: mərsiyə, növhə, dəstə təpmə məhəllələr arasında adət şəkli almış dalaşmalardan sonra bütün bu həngamə aşura büsatı ilə bitirdi. Qarabağ elləri əslən köçəri həyat keçirdikləri üçün islam dini və İran mədəniyyəti təsirinə düşməyərək, öz qədim türk ənənəsi və adətləri ilə yaşayıb gəlmişdilər. Şişənin binası xanlığın təsisi və İran ilə başlayan əlaqə və rabitə ancaq yabançı adətlərin gəlməsinə yol aça bilmişdi. Şəbihgərdanlıq da İrandan gətirilmiş bu adətlərdən biri idi. Əvvəllər Kərbəla vəqəsini təmsil edən yalnız bir tamaşa göstərər – tarixi simaların rolları bölünər, zikr oxunar, Hüseynin qətli və ailəsinin hərb meydanında ağır vəziyyətdə qaldığı olduqca mütəəssir bir şəkildə nümayiş etdirilər, camaatı ağlatmağa çalışardılar. İndi bu tamaşaya başyarma da əlavə olaraq, ənənə şəklinə girirdi. Vaqif bu başyarma ilə vaxtı ilə günahsız bir dəstəni xanın qəzəbindən qurtarmışdı. Xanın qəzəbi bitməz bir şey olduğu üçün bu adət də dustaq buraxdırmaq üçün bir vasitə olaraq qalırdı.

Bu il də həmişəki kimi, dustaqları olanlar kəfən geyib, səhər tezdən saray həyətinə gəlmişdilər. Vaqifin yazdığı zikrlərə indi şairlər yeni əlavələr də qoşmuşdular. Xan yenə artırmaya çıxıb, dustaqları buraxacağını vəd edib, camaatı sakit etdi. Dəstə zikir deyə-deyə Çuxur məhəlləyə, Məmmədhəsən ağanın imarətinə gedən yola çıxdı. Aşağısı qala divarları və yuxarısı yosma daxmalarla çevrələnən bu geniş meydan adam ilə dolmuşdu. Soyuğa və qara baxmayaraq, qətl hazırlığı görülürdü: əlvan geyimli şəbehlər bir tərəfdə toplanıb, rollarını əzbərləyir; başı dəmir pəncəli tuğlar şığıyır, dindar qadınlar onlara nəzir dəsmallar bağlayırdılar; uzun arxalıqlı, şiş papaqlı uşaqlar ora-bura qaçıb: "Ay şam alan, ay nəziri qəbul olan!" – deyə qışqırırdılar.

Xan sarayından gələn ağköynək dəstəsi meydana girdi və dairə təşkil edərək, dəstədəkilər zikr deyib, təkrar başlarını yarmağa başladı. Şəbehlər duran yerdən "yezidin" kəcavəsi çiyinlərə qalxdı; qarşısında bir sərpuş vardı, altında imam Hüseynin başı qənimət gətirilirdi. Arxadan "əsirlər" göründü, burada arvad-uşaq bir-birinə qarışmışdı. Haris Müslümün balalarını qamçı ilə döyəcləyirdi...Budur, qana bələşmiş zülcənah yedəkdə gətirilir, üstünə bir cüt göyərçin qonmuş yaralı Əliəkbər sallanaraq atı addım-addım sürür. Altun və ipəklərə donanmış "Qasım otağında" bir körpə qız oturub, saçlarını yolaraq: "Başıma küllər, gözümə milər!" – deyə inləyir. Hüseynin başı kəsik nəşinin görünməsi hönkürtü qoparır. Firəng şəbehi, şir şəbehi... bir-birini təqib edirdi. Müvəssir münacat, zikr, növhə, şəbehlərin şeir ilə söylədikləri mükaləmələr bir-birinə qarışıb, xalqı ağladırdı. Saray xalqı üçün qurulmuş çadırdan tutmuş meydanın ətrafına və damlara səpilmiş camaata qədər hamı göz yazı tökürdü. Burada iştirak edən, nəzir verən, ağlayan yalnız türklər deyildi, ermənilərin də bir qismi inanaraq iştirak edirdi. Allahqulu bütün ailəsi ilə burada idi. O nəzir elədiyi üçün körpələrinə şam almışdı, axşam evində yandırıb, "Şamiqəriban" edəcəkdi. Gülnaz Telli ilə yan-yana durub, həzin-həzin ağlayırdı. Bu əsnada meydanın ortasındakı xeyməgaha od vuruldu. Bir dəstə qara geyimli "ərəb" çıxıb, başlarına saman sovuraraq xeyməgahın ətrafına fırlanmağa başladı...

Xeyməgaha od düşəndə,
Od düşəydi aləmə,
Yandıreydi aləmi
Övladi-heydər qanlısı!
Ku Hüseynimə!
Va Hüseynimə!..

Ağ köynəklər zikrdən təkrar coşdular, parlaq qılınclar və xəncərlər göydə oynadı, sürəkli hönkürtü meydanı təkrar qaplayıb, şaxtalı havanı dəhşətlə titrətdi.

4

İkinci Osmanlı-Rus müharibəsi* davam edirdi. Qafqaz kənarda qalıb, özbaşına buraxılmışdı. İran daxilindəki vuruşmalar da illərdən

* Türkiyə ilə Rusiya arasında 1787-91-ci illərdəki müharibə nəzərdə tutulur.

bəri hələ bir nəticəyə bağlanmamışdı. Deməli, İbrahim xanın əli-qolu açılıb, öz mülkündə rahat səltənət sürürdü. Artıq Azərbaycanda ona dolaşacaq heç bir hökmdar qalmamışdı; nüfuzu yenə Şirvandan Təbrizə qədər yürüyürdü. İndi sarayı məşğul edən yalnız cıdır, ziyafətlər və ov kimi əyləncələr idi.

Payızın xoş günlərindən biri idi. Aran bağlarına sarı və qırmızı boyalar hələ yenicə səpilmişdi. İbrahim xan və məiyyəti yüz atlı nökərlə ovlağa* ova çıxmışdı. Vaqif də burada idi, sabiq Şəki xanının hədiyyəsi olan altun naxışlı tüfəngi yəhərin qaşından asmış, böyük bir ruhla atını sürürdü. Quşçular bəhləli** əllərində iyirmiyə qədər qızılquş tutmuşdular. Tula yox idi, çünki quş ovunda tula götürməzdilər, tulanın vəzifəsini nökərlər görərdilər.

Artıq turac və qırqovul görünməyə başlamışdı. Şeypur çalındı, hamı atdan endi. Yay-oxlu nökərlər sağa və sola yayılaraq geniş bir sahəni çevrələməyə başladılar. Dairəni düzgün təşkil etmək üçün Səfər atlanıb, nökərlərə baş çəkə-çəkə dolanıb geri döndü:

– Hazırdır, xan sağ olsun! – deyə baş endirdi.

Buyuruq verildi, şeypur çalındı, uzaqlardan şeypurla cavab alındıqdan sonra xan məiyyət ilə dairənin ortasına tərəf yürüdü. Nökərlər də irəli yüyürərək kol-kosa ox ataraq ov quşlarını perikdirir, yavaş-yavaş quşları getdikcə kiçilən dairənin ortasına uçururdular.

İndi qızılquşlar xan və məiyyətinin qollarında idi; arabir ətrafında pırıldayıb uçan kəklik və ya turacı gördükdə qızılquşlar paçabənddən qurtarıb qaçmaq istəyir, ayaqlarındakı qumrovları cingildədirdilər.

Vaqif, yaşına baxmayaraq, mətin addımlarla yürüyür, arx və çuxurlardan adlayır, ovu səbirsizliklə gözləyirdi. Bir də otluqdan iki-üç qırqovul qalxdı, Vaqif bir dəqiqə itirməyərək qızılquşun çılğısından*** dartaraq buraxdı. Xanın və başqa rəcalların da quşları buraxıldı. Qızılquşlar ox kimi süzüb, qırqovulları göydə alıb, otluğa endilər. Nökərlər qaçdılar, bir dəqiqə keçməmiş qızılquşları və qırqovulları gətirdilər.

Getdikcə ov quşları artır, bəzən böyük sürbə ilə qalxırdılar. Qızılquşlar ovlamaqdan yorulmuşdular. Ovçular da artıq həvəsdən düşmüş-

---

* İndiki Yevlağın civarı

** Əlcəkli

*** Cılğı – qızılquşun boğazına bağlanmış qayış yaxadır; quşun uçuşuna düzgün istiqamət vermək üçün ondan yapışıb buraxarlar.

dülər. Birdən hardansa bir ceyran çıxıb, düz xan ilə Vaqifin arasından keçib getdi.

Vaqif:

– Ceyran! – deyə səsləndi. Lakin ansızın çıxan bu ceyranı heç kəs ata bilmədi.

Xan gülərək Vaqifə tərəf yönəldi:

– Şair, – dedi, – sənin gözəlləri bənzətdiyin ceyran gördün nə getdi.

Vaqif heyrət etmədən:

– Xan, – dedi, – o da qocalığın üzündəndir: hansı ceyran bizə məhəl qoyar ki!

– Ağzı nədir qoymasın!

– Yox, xan, hökm hər şeyə çatar, qəlbə yox!.. Bu barədə mənim təcrübəm səndən çoxdur.

– Necə yanı? – deyə amiranə bir ifadə ilə soruşdu:

Vaqif yarızarafat, yarıciddi dedi:

– Qızılquş qırqovulun həsrətindən yanır. Görək qırqovulda da o həsrət varmı?

Xanın qaşları çatıldı, yanındakı pişxidmətə çönüb, sərt bir səslə:

– Söhbətdən bir şey çıxmaz, – dedi, – ocaq qalatdır, bir qırqovul kababı yeyək!

Şeypurlar gurladı, ov bitdi. Səfalı bir guşəyə ipək xalçalar döşənməyə başlandı.

5

– A kişi, nə deyirsən!.. Tanrı taqsırından keçsin!

Vaqif hələ də aldığı xəbərə inana bilmirdi. Geyinərək düşünürdü: "Ey dünya, Şahməmməd də ölərmiş! Vahiməsindən bütün şəhər titrərdi. Qapını açıq qoy yat – bir çöpün itməz, gecə başında bir məcməyi qızıl apar, onun qorxusundan heç kəs yaxın durmazdı."

Vaqifin dalınca göndərilmiş nökər divara söykənib durmuşdu. Vaqif fikirdən ayrılıb, sanki hələ də inanmayaraq soruşdu:

– Bir de görüm, necə olub ki, rəhmətliyi ilan vurub?

Nökər əllərini döşünə qoyaraq:

– Ağa, – dedi, – bilirsən ki, Şahməmməd ağanın həyətində ocaq var, ora ziyarətə çoxlu ilan gələr. O ilanlara dəymək olmaz, bilirsən ki, ilan kinli olar, onlardan birini öldürsən, qisasını alarlar... Şahməmməd

ağa həyətdə armud ağacı əkirmiş, beli vuranda yerdən bir ilan çıxır, rəhmətlik öldürmək istəyir, ilan çevrilib barmağından çalır.

Vaqif bir az düşündü, ona bu işlər gülünc gəldi:

– Sən get, mən gəlləm! – deyə Əliməmməd ağanın nökərini yola salıb, yataq otağının qapısına yanaşdı: – Qızxanım, mənə bir təmiz dəsmal ver! – deyə çağırdı.

Bir az sonra Vaqif evində saxladığı ağbirçək qadın əlində bir dəsmal kallayıya çıxdı.

Vaqif düşüncəli bir halda dəsmalı aldı:

– Qızxanım hardadır ki? – deyə soruşdu.

– Xına islatmışdı, başına qoyacaqdı, bu vay xəbəri işi korladı. Heç bilmirəm indi xına nə olacaq... heyf oldu...

– Əllərini bulamasın, yasa gedəcək – ayıbdır!

– Yox, ağa, bulamayıb!

Şahməmmədin evi Mehralı bəy bürcünün yanında idi. Bu bürcün qarşısında geniş bir meydança vardı, adına “Bəylik eşiyi” deyərdilər.

Şahməmmədin evi bu meydançanın şimal tərəfində idi. Vaqif oraya gəldikdə Bəylik eşiyi adam ilə dolmuşdu, atdan düşüb, darvazadan içəri girdi. Evə doğru gedən daş qaldırımı yenicə cücərmiş ot basmışdı; sol tərəf bağça idi. Rəngli pəncərələri bağçaya baxan evin qarşısına da çoxlu adam toplanmışdı: bir tərəfdə bir kəcavə qoyulub, tirmə şal ilə bəzənirdi, o biri tərəfdə çadırda ölünü yuyurdular. Bağçanın qırağında, otun üstə üzərinə ağ tənzif çəkilmiş yeddi məcməyi qoyulmuşdu, bunlara halva hülüşu* yığılmışdı, qəbir üstündə paylanacaqdı...

Mirzə Əliməmməd ağa uzaqdan Vaqifi görüb, istiqbalına qoşdu. Görüşdülər:

– Başın sağ olsun! Uşaqları yerində paydar olsun! Nə etməli? “Küllü nəfsin zaiqətil mot”! – Fani dünyanın qaydası budur!

Mirzə Əliməmməd Vaqifdən razılıq eləyib onu otağa dəvət etdi. Lakin Vaqif arvad-uşağı rahatsız etməsin deyə həyətdə dayanmağı tərcih etdi. Evin qarşısına gəldilər. İçəridən ağı səsi gəlirdi. Ağıçının gözəl səsi və nisgilli ağısı insanı olduqca mütəəssir edirdi:

Ürəyimdə yara var,
Üstə xal-xal qara var,
Aç ürəyimin başını,
Gör yanmamış hara var!

---

* Lavaşa bükülmüş halvaya “hülüş” deyərlər.

Dağlar dağımdır mənim,
Qəm otağımdır mənim,
Lal olubdur, bülbülüm,
Viran bağımdır mənim.

Vaqif Mirzə Əliməmmədin gözlərindən axan yaşa baxıb düşünür, "hər şeyin axırı ölümdür!" – deyirsə də, inanmırdı. Ona elə gəlirdi ki, həyat uzun inci düzümü kimi şeydir, hər incisi bir aləmdir. Hələ bu aləmdən nə qədər qalmışdı! Hər bir aləmin zövqü və səfasını süzdükdən sonra inci düzümü qırılsa nə olar ki? Hər şey fani də olsa, bu faniliyin qəlb, şüur və əql kimi gözəl rəhbərləri var!

İçəridən qopan şivən Vaqifi düşüncədən ayırdı. O, Mirzə Əliməmmədlə bir yerdə içəri getdi. Şala bükülmüş meyit xalının üstə qoyulmuşdu. Qonşu otaqda arvadlar "şaxsey-vaxsey!" – deyə qışqırırdılar. Meyiti baş və ayaq tərəfdən yapışıb, üç dəfə götürüb, təkrar yerə qoyduqdan sonra qaldırıb kəcavəyə apardılar.

Cənazə mərasiminə xanın tərəfindən oğlu Məmmədhəsən ağa gəlmişdi. Vaqif onunla görüşüb, bir yerdə ölü namazına durdular. Sonra çiyinlərdə aparılan cənazənin dalınca bir müddət piyada yürüyüb, söhbətə daldılar. Məmmədhəsən ağa daim xəstə olduğu üçün evdə oturar həyatını oxuyan-çalan məclisində keçirərdi. Ona görə qonşu ölkələrdə cərəyan edən hadisələr onu az maraqlandırardı. Lakin axır vaxtlar Ağaməmməd xanın gəlməsindən o qədər danışılırdı ki, xanın vəliəhdi ciddən rahatsız olmağa başlamışdı. O, səsində həyəcan duyduraraq:

– Axund, şahdan nə xəbər var? – deyə Vaqifin üzünə baxdı.

– Görünür, bütün düşmənlərinə qalib gələcək, – deyə, – Vaqif cavab verdi. – Axır vaxt Təbrizi də təsxir etdi. Oraya Süleyman xan adlı bir başbuğ göndərib, ətraf xanlardan zaval apartdırır. Süleyman xanın iyirmi min qoşunu var.

Məmmədhəsən ağa düşündü, təkrar Vaqifin üzünə baxdı, lakin Vaqifin üzünü görməyirdi, düşüncə və əndişələr onu başqa bir aləmdə dolaşdırırdı.

Vaqif fikrindən ayrıldı. Parlaq və oynaq gözlərini ona dikib, nədənsə müntəzir görünürdü. Məmmədhəsən ağa yenə soruşdu:

– Axund, tanrı hifz eləsin, işləri yaxşı görmürəm. Urus da uzaqlaşdı. Yenə asayişin bərpası üçün o yaxşı idi. Yaxşı, Ağaməmmədin fikri nə ola?

Vaqif:

– Ağa, bəllidir, – dedi, – Nadir yerişi yerimək istəyir. Parçalanmış İran mülklərini bir yerə yığıb, özünü, görünür, şah elan etmək istəyir.

Vaqif susdu. Məmmədhəsən ağanın rəngi ağarmışdı. Görünür, piyada getməkdən yorulmuşdu. Vaqif bunun fərqinə varıb dayandı:

– Ağa, piyada getməkdən özünüzü üzərsiniz, rüxsət buyurun cilovdar...

Məmmədhəsən ağa dayanaraq Vaqifin sözlərini kəsdi:

– Elə mən deyəcək idim.

Cilovdarlar atları irəli çəkdilər, Məmmədhəsən ağa və Vaqif minib, yan-yana, addım-addım sürməyə başladılar.

Cənazə irəlidə idi. Molla və tələbələrin "Sübhan Allah!" səsləri kədər doğururdu. Hava soyumuş, qalın duman şəhərin bir tərəfini bürümüşdü.

Vaqif sözünə davam etdi:

– Ağa, şah culus edərkən, İranın dörd valisi tac mərasimində iştirak etməlidir. Adətən iki vali şahın sağında, ikisi solunda durar. Ərəbistan valisi əlində cıqqa, Gürcüstan-qılınc, Loristan-xirqə, Kürdüstan valisi cavahiratlı həmail tutar. Bu adətdir. Vaqif bir az sükut edib, gülümsəyərək: – Axta xan təzə bardaq suyu olduğu üçün bu valilikləri təsxir etməyə ciddi-cəhd edəcək. Məsələnin bəlalı cəhəti burasıdır. Xanlığın mənafeyini güdərək bir yerə meyl etməliyik.

Vaqif bir az duruxub, qəti səslə: – Mən ki nicatımızı İran keşməkeşində görənlərdən deyiləm! – deyə sözlərinə xitam verdi.

Duman ətrafı bürümüş, göz-gözü görmürdü. Cənazənin arxasınca gedən adamlar kölgə kimi görünürdü. Vaqif susmuşdu, burnunu kürkün yaxasına soxub, nə isə düşünürdü. Məmmədhəsən ağa da eyni düşüncəli sükuta dalmışdı.

## 6

Ağaməmməd xanın Təbrizə göndərmiş olduğu Süleyman xan İravan və Naxçıvan xanlarını İran himayəsinə çağırırdısa da, müvəffəq ola bilməyirdi. Bunu görən Ağaməmməd bilavasitə elçilər göndərib, Qafqaz xanlarından zavallar tələb etdi. İravan, Qarabağ, Talış, Avarıstan və Gürcüstan elçilərə rədd cavabı verdilər. Şəki, Şirvan, Dərbənd, Bakı isə Axta xanın elçilərini hörmətlə qəbul edib, İran himayəsinə

boyun əydilər. Gəncə tərəddüd içində idi. Cavad xanla İraklinin arası açıldığı üçün İrakli Cavad xanı götürüb, yerinə Rəhim xanı nəsb eləmək istəyirdi. Cavad xan da belə bir vəziyyətdə istər-istəməz İrana tabe olmaq niyyətində idi.

Qarabağ sarayında böyük bir təlaş vardı: iki-üç ildən bəri davam edən asayiş pozulmuş, qayğı və əndişə hər kəsi qaplamışdı. Rusların Tiflisə gəlməsi ilə əlaqədar olaraq qırılmış Gürcüstan-Qarabağ dostluğu yenidən ehya olunur, başqa xanlarla ittifaqa girilir, Şişə Kələntəri Ağası bəyə kisə-kisə altun buraxılıb, qalanın təchizatı mükəmməlləşdirilirdi.

İki-üçü gündən bəri Vaqif evdən çölə çıxmayıb, rəsmi məktublar yazmaqda idi. O yazır, Mirzə Camal da üzünü tirmə kağızlara köçürürdü. Elə məşğul idilər ki, Mirzə Əliməmməd ağanın içəri girməsini belə görmədilər.

– Salaməleyküm!

Vaqif gözlüyün üzərindən Mirzə Əliməmmədi süzüb, salamına cavab verdi və yerində qurcuxdu.

Mirzə Əliməmməd cəld yüyürüb, əlini Vaqifin çiyninə qoydu:

– Zəhmət buyurulmasın! – dedi, – gəldim xudafizləşməyə!

Vaqif heyrətlə:

– Bu tezliklə? – deyə gözlüyünü yerə qoydu. – Axı sabah gedəcəkdin?

– Xeyr, – deyə, Mirzə Əliməmməd cavab verdi, – bu gün hazır olduq, vaxt itirmək caiz deyil.

Vaqif düşündü:

– Yaxşı, məsləhət sənindir, – dedi və sonra Mirzə Camala müraciət edərək: – Mirzə Camal, Rum sultanına yazılmış məhəbbətnaməni ver görüm!

Mirzə Camal sarıya çalan və lülələnmiş məktubu kağızların arasından götürüb Vaqifə verdi. Vaqif açıb başına baxdıqdan sonra:

– Buyur, Mirzə Əliməmməd! – dedi, bir az düşünüb əlavə etdi. – Daha məsələni bilirsən. Əvvəla, çalışarsan, özünü İstanbula tez yetirərsən. Bu barədə Süleyman paşa lazımi köməyi səndən əsirgəməyəcək. Saniyən, Sultan həzrətlərinə məsələni ətraflı ərz edəsən; deyərsən ki, bizi iki od arasından qurtaracaq yeganə çarə Osmanlı himayəsidir. Tezliklə əsgər göndərməsələr, Axta xan bizi həlak edəcək və ümməti – islam qan dəryasında boğulacaq.

Vaqif susdu, lakin böyük bir həyəcan keçirdiyi halından görünürdü; iztirabdan qamış qələm əlində titrədi.

Mirzə Əliməmməd məktubu qurşağına soxub dedi:

– Axund, arxayın ol, əliboş qayıtmaram.

Bir də şən bir təbəssüm Vaqifin çöhrəsini parlatdı:

– "Şah gəldi, şah gəldi!" – dedilər, axırda, deyəsən, "saman" düşüb "zaman" odlanacaq! – Vaqif qəhqəhə ilə güldü, sonra kiriyib, mətin bir səslə: – Əzizim, – dedi, – dövlət işi belədir – gah eniş, gah yoxuş; bir az səfa, iki elə cəfa. Nə etməli, məyus olmamalıyıq; şair demişkən:

"Səbr eylə, aqibət mey olur qan dedikləri,
Sübh visal olur şəbi hicran dedikləri!..

Mirzə Əliməmməd ağa istər bu şeirdən, istərsə də Vaqif kimi dostundan ayrıldığına kədərlənib doluxsundu. Vaqif ilə qucaqlaşıb ayrıldı. Vaqif onu artırma pilləkəninə qədər ötürdü:

– Lələ, ay lələ! – deyə çağırdı.

Lələ hazır oldu:

– Lələ, əlin yüngüldür, ağanın arxasından su at, uzaq səfərə gedir!

Mirzə Əliməmməd ağa ata minib tərpəndikdə lələ bir tas su gətirib, onun arxasınca atdı:

– Tanrı yaxşı yol versin. İşin avand olsun!

Atlar həyət darvazasından çıxıb, getdi. Vaqif gözlərini silə-silə geri döndü. Mirzə Camal kağızı dizinin üstə qoyub, səy ilə yazırdı.

Vaqif ona yönələrək:

– Oğlum, – dedi, – sərbaz baş ilə oynayan kimi bizlər də məmləkətin taleyi ilə oynayırıq. Qumardır: tuta-tutmaya! Hər halda biz vəzifəmizi görməliyik. Bəlkə, xanlığın rahi-nicata çıxmasına bir səbəbi xeyir olaq.

## 7

Şəhərdə böyük bir hərb hazırlığı duyulurdu: silahlı adam əlindən dar küçələrdən keçmək mümkün deyildi; şimaldan dağ yolları ilə gətirilən toplar şəhərin cənub-şərq cəhətlərinə yerləşdirilirdi. Avarıstandan göndərilmiş ləzgi və başqa xalqlara mənsub tutma əsgər mə-

həllələrə paylanırdı. Məmməd bəy də Kəhrizlidən çağırılıb gətirilmişdi. O, qoşunla Araz qırağına göndəriləcəkdi.

Baharın son ayı idi. Leysan yağışları yenicə dayanmış, hər yer yaşıllaşıb firuzəyə dönmüşdü. Ağabyəim ağa Məmməd bəyin gəlməsini eşidib, onunla görüşməyə bir vasitə axtarırdı. Yenə bütün günü bağçanı dolaşıb, Nazlını danışdırır, dəruni böhranından rahatlıq tapa bilmirdi. O, Əsgərana baxan bürcün qarşısındakı ağaca söykənib, əlindəki ağ zanbağı qoxulayaraq:

– Dayə, – dedi, – gecələr elə yatırsan ki, sənə həsəd aparıram... Ah dayə, nə bəxtəvər adamsan!

Nazlı güldü:

– Bəyim, başına dönüm, yatmayım nə qayırım?!

Ağabəyim ağa onu həsrətlə süzərək:

– Eh dayə, – dedi, – mən də yatardım...Amma indi yuxum gözlərimdən çəkilib. Gecə sabaha qədər ulduzlarla dərdləşirəm. Bilmirəm, bu dərd hayandan gəldi...

Ağabəyim ağa doluxsundu; ala gözlər odlu yaşla doldu.

Nazlı təlaşa düşdü; o, Bəyimin dərdindən baş açmayaraq, özü də dərdləndi:

– Bəyim, – dedi, – qurbanın olum, axı bilmirəm sənə oldu?! Gözəmi gəldin, naləyəmi gəldin?

Nazlı Bəyimin belini qucaqlayıb, onu oxşadı, ürək-dirək verdi.

– Bəyim, – dedi, – adam bir az toxtaq olar, hər şeyi ürəyinə salmaz. Axı bilmirəm sənə durduğun yerdə nə oldu?.. Bəlkə şər vaxtı yerə isti su atmısan, mələklərin qanadını yandırmısan, sənə nifrin ediblər?

– Yox, dayə!.. O deyil... Qəlbimdə bir mələk var, onun qanadı yanmışdı, gecə-gündüz ahu zarından üzülürəm!

Nazlı heyrətlə bəyimin yaşılı gözlərinə baxır, qəlbindəki mələyin nə olduğunu bir növ anlaya bilmirdi:

– Bəyim, – dedi, – qəlbdə mələk olduğunu eşitməmişdim? Deyirlər, adamın hər çiynində bir mələk olar, günahı-zavalı yazar, qiyamət günü ona görə adama əcir verərlər. Qəlbdə də mələk varmış. Bəs, görəsən, o nə qayırır?

Nazlının bu safdil mülahizələri Bəyimin gülümsəməsinə səbəb oldu:

– Dayə, – dedi, – xoş halına! Yaxşı ki, o mələk sənin qəlbini viranə bağa döndərməmişdir. Dayə, bilsən, o gözəl mələk mənə nə qədər əzab verir. Həm də nə qədər xoş və dadlı bir işgəncəsi var!..

Nazlı sakit duraraq, ona olduqca yabançı görünən bu fikirləri dinləyir, bir şey anlaya bilmirdi. Bu əsnada arxadan tappıltı gəldi. Ağabəyim ağa səksəkəli quş kimi cəld çöndü:

– Məmməd! – deyə dona qaldı.

Məmməd bəy Ağabəyim ağanı görcək bir az duruxdu, zənn ilə baxdıqdan sonra, sevinclə:

– Əmiqızım deyil? Maşallah, mən görməyəndən bəri lap yekə qız olmusan ki! – deyə cəld əl verdi.

Ağabəyim ağa qıpqırmızı kəsilib, gözlərini yuxarı qaldırmağa cəsarət etmirdi. Yalnız ağ tafta köynəkdə qönçələnən köksü həyəcan içində çırpınırdı.

– Necəsən, yaxşısanmı? – deyə Məmməd bəy soruşdu.

Bəyim gözlərini qaldırdı, Məmməd bəyin ala sərt gözlərinə rast gələr-gəlməz, baxışı onun yaşıl çuxasından, ağ arxalığından süzülüb, yenə yerə dikəldi.

– Yaxşıyam!.. Sağ ol!.. Sən görəli!

Bəyimin ərki və gileyi Məmməd bəyi oxşadı. O, Ağabəyimi yenidən süzdü: əlindəki zanbaq qədər lətif və gözəl idi... hadisələr olmuş, insanların başı qarışmış; göz açıb yumana qədər xeyli bir zaman gəlib keçmiş... bu bağçada yeni bir zanbaq yetişmiş; onu günəş oxşamış, hava qucmuş...nazlar, rayihələr, nəşələr ona yoldaş olmuş... Ah, vuruşmalar, igidliklər, şöhrət və ad...Kaş hamınız bir toz olub, bu gözəl dolaşan yollara səpiləydiniz...

Məmməd bəy köksünü ötürdü. Mərcan dodaqlardan “sən görəli” – deyə fırladılan sözlər bir xəncər olaraq onun qəlbinə sancıldı:

– Əmiqızı, – dedi, – gileyə haqqın var. Bilsən, ömrüm necə puç olub gedir.

Ağabəyim ağa artıq qəlb istirahəti tapıb cürətlənmişdi. O, süzgün baxışı ilə Məmməd bəyi oxşayaraq:

– Səbəb kimdir? – deyə gülümsədi və gözlərinin onun gözlərinə dikdi.

– Əlbəttə özüm. İnsan başına gələni bilseydi...

– Kəhrizlidə nə var? Hürü xanım, Ayişə bəyim necədirlər?

Məmməd bəy Ağa Bəyimin sərzənişinin mənasını anladı, qızararaq:

– Canına dua edirlər! Əllərindən öpürlər, – dedi.

Nazlı yaşmanıb, kənardan bunlara tamaşa edir və Bəyimin birdən dəyişilib nəşələndiyinə heyrət edirdi. Ağabəyim ona yönələrək:

– Dayə, – dedi, – bir kasa su gətir, içmək istəyirəm.

Nazlı cəld çönüb, saraya doğru diksləndi.

Ağabəyim ağa xoş bir əda ilə zanbağın yarpağını qırıb, dodaqlarına aldı və Məmməd bəyin üzünə baxmayaraq:

– Yaxşı, – dedi, – heç bir demirsən mənim bir əmim qızı var, qərib quş kimi, səhərdən axşama qədər bu ağaclara sığınıb, həsrət çəkir?!

– Ay Bəyim, görmürsən nələr olur: bu gün-sabah şah Arazı keçəcək...

Ağabəyim ağa Məmməd bəyin sözlərini xoş bir hiddətlə kəsdi:

– Yerə batsın şah da, Araz da!.. Kiri, vəfasızsan!

Məmməd bəy güldü, Bəyimin sözlərinə cavab tapa bilmədi.

Ağabəyim ərk ilə əlini onun xəncərinə uzadıb, qızıl yazılı dəstəsini əlləşdirərək dedi: – Sənə gülünc gəlir... Amma mən...

Yaş bəyimi boğdu. Əlləri ilə gözlərini qapayıb, hönkürdü.

Məmməd bəy onu ehmalca qucaqlayıb, özünə tərəf çəkdi. Bəyim Məmməd bəyin geniş köksünə sığınıb, ağlamaqda davam etdi.

İndi Bəyimin halı qorxunc bir fırtına keçirmiş qayıqçının sahilə çatıb, lövbər atmasını andırırdı. Sahil qəvi və təhlükəsiz idi, artıq coşan, köpürən fırtınalar arxada buraxılmışdı. Lakin bu sığınaq sahil idimi, sərab idimi? Səadətin özünün də sezilməz əndişələri olur. Bu əndişələr Ağabəyimin də qəlbinə yol axtarmağa başladı: o, yaşılı gözlərini qaldırıb, Məmməd bəyin gözlərinə baxdı:

– Eşitdim sabah qayıdırsan, bu düzdürmü? – deyə intizar içində çırpındı.

– Düzdür!

– Getmə! Gedərsən başına, dilim qurusun, bir iş gələr.

– Getməsəm olmaz, xanın buyruğu belədir...

Ağabəyim ağa küskün bir halda Məmməd bəydən aralanıb, ağaca söykəndi. Yenə zanbağın yarpaqlarını qırıb, dodaqlarına alır və sonra şüursuz bir halda otun üstə atırdı.

Vaqif yastıqlara söykənib, yatağında oturmuşdu. Kələntər Ağası bəy də bir saatdan bəri onun yanında idi. Vəziyyətin ağırlığı Vaqifi olduqca darıxdırırdı:

– Zəfim[*] olmasa, – dedi, – yenə durardım. Mən özümü yatağa verməyi sevmirəm.

Ağası bəy ehtiyatlı bir səslə:

– Yox, axund, hələ qalxma! – dedi.

– Həkim də eylə buyurur; dedi ki, sənadan[**] sonra iki gün yataqdan durmazsan! Ancaq işlər adamın ürəyini sıxır. Şah Arazı keçmişsə, çətin olacaq.

Ağası bəy:

– Axund, ərz etdiklərim səhihdir, – dedi. – Məmməd bəy Xudafərin körpüsünü uçurtdurmuşdu, indi, deyir, Axta xan onu təzədən tikdirir. Qoşunu üç yerə ayırıb: bir hissəsi Naxçıvan tərəfdən keçib, ələ düşən camaatı arvadlı-uşaqlı Təbriz tərəfə sürdürüb, əkinlərini də odlayıb, zay eləyiblər; ikinci qoşun Səlyanı alıb, arvad-uşağı əsir edib, kişilərin də başlarını nizəyə keçirib, şaha peşkəş aparıblar. Şahın özü Xudafərindən keçib, düz qalanın üstə gəlmək istəyir...

– Yazıq Talış xanı Mir Mustafa görəsən, necə oldu?

– Mir Mustafa xanın özü dağlara qaçıb, arvad-uşağı isə əsir gedib.

– Vay yazıq!.. Ağası bəy, insanın gərdişi-dövrandan zəhləsi gedir. Bu qədər də zülm olarmı?! Ellər, uluslar əldən getdi!..

Ağası bəy köksünü ötürərək:

– Hələ harasıdır, – dedi, – camaat əkinlərini buraxıb, baş götürüb, dağlara tərəf çəkilir. Rəvandan tutmuş övlağa qədər kəndlər xaraba haldadır; hamı pərə-pərən olub, dağılıb... Bunun dalı aclıqdır...

Vaqif başını aşağı salıb, barmağındakı əqiq üzüyü fırladırdı. Onun daima şənlik saçan üzündə indi dərin yas ifadəsi vardı. Ağası bəy də susmuşdu.

Birdən Vaqif başını qaldırıb, huşsuz bir halda Ağası bəyə tərəf yönəldi:

– Xan ha tərəfə getdi? – deyə soruşdu.

---

[*] Azarım

[**] Yapraq; mədəni təmizləmək üçün qaynadılıb, suyu içilir.

– Tuğ tərəfə gedib. İrakli xanın göndərdiyi qoşun ilə birləşib, Araz qırağına enməlidir. Əgər Məmməd bəy Xudafərinin yenidən salınmasına mane ola bilməzsə, deməli, labuddən vuruşma olacaq. Çətini Araz qırağını saxlamaqdır. Bu baş tutmasa, Qalanın ətrafına çəkilmək lazım gələcək. Başqa çarə yoxdur.

Vaqif yenə düşüncəyə daldı. Sonra nikbin bir təbəssümlə:

– Qələt eləyir. Qalaya bata bilməz, – dedi.

Ağası bəy mətin səslə:

– Mən də elə güman edirəm, – dedi. – Şəhər möhkəmdir: topumuz da onunkundan az deyil.

Vaqif ilə Ağası bəyin söhbəti bir saat daha davam etdi. Nəhayət, Ağası bəy gedib, Vaqifi tək buraxdı.

Günəş qüruba tərəf əyilmişdi, otaq sərinləmişdi. Lakin Vaqifin bundan xəbəri olmamışdı: hadisələr və ailə həyatı onu o qədər düşündürməyə başlamışdı ki, günün nə çağı olduğu zənninə belə gəlmirdi. Arvadı Qızxanım sabahdan bircə dəfə onun yanına gəlib, xala xətrin qalmasın deyə ərinin halın soruşub, yenə çəkilib getmişdi. İndiyə qədər Qızxanımın vəfasız hərəkətlərinə əhəmiyyət verməyən Vaqif indi xəstə yatağında inciməyə başlamışdı. O indi həm öz ailəsinə, həm məmləkətə və onu idarə edənlərə qarşı məyus bir vəziyyət almışdı. Sanki o, dünyaya yenicə gəlmiş bütün insan əməllərini bir tərəziyə qoyub çəkmiş və nəticəsində kədərlənmişdi. Artıq ruhunun heç bir guşəsində nəşə deyilən şey qalmamışdı. Bu əhvalı-ruhiyyə ilə o, lələni çağırıb, kağız və qələmdan istədi. Zəif əli ilə yazdı:

Mən cahan mülkində mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim,
Aşinalar ixtilatında sədaqət görmədim,
Beyətü-iqrarü-imanü-dəyanət görmədüm.
Bivəfadan, lacərəm, təhsili-hacət görmədim...

Qələm tez-tez qələmdandakı davata batırılıb, kağızın üzərində dolaşır sətir-sətir dalınca doğur, qəmli şairin ürəyini yüngülləşdirirdi. Nəhayət, son bəndə yetişdi, əvvəl köksünü ötürdü, sonra dini duyğulara qapılaraq təsəlli tapdı:

Baş ağardı, ruzigarım oldu gün-gündən siyah,
Etmədim, səd heyf kim, bir mahi-ruxsarə nigah,
Qədir bilməz həmdəm ilə eylədim ömrü təbah.

Vaqifə, ya rəbbanə, öz lütfünü eylə pənah.
Səndən özgə kimsədə lütfü-inayət görmədim.

Vaqif şeiri bitirib, gözlüyü gözündən çıxardı. O indi əzablı dərdlərdən bir az xilas olmuşdu. Lakin qəlbindəki dərdi acı bir həsrət əvəz etmişdi; bu Mədinə həsrəti idi.

9

Arandan qaçıb, gələn köç yolları və şəhərin ətrafındakı dağ və təpələri doldurmuşdu. Topxanadan tutmuş Datələbə qədər hər yerdə alaçıq qurulub, qoyun-quzu bir-birinə qarışmışdı. Atların kişnəməsi, qoyun-quzunun mələşməsi, inək və camışların böyürməsi insan səs-küyünə qarışaraq qorxunc, eyni zamanda da dərdli-bəlalı bir uğultu təşkil edərək, yer-göyü nalələrlə doldururdu. Hər kəs qorxu və əndişə içində idi. El-oba yerindən oynamış, taxıl biçilməmiş, qara-qayd xalqın canını almışdı. Şəhərdə, öz evində oturanlar gözəlcə bilirdilər, arvad-uşaq əl-ayaqda gedəcək, başlar nizəyə taxılacaq, qan su yerinə axacaqdır. Belə qarışıqlıqda haqq-nahaq axtarılırdımı? Həmişə qurunun oduna yaşlar da yanırdı.

Vaqif hələ xəstə idi, lakin baş verən hadisələri ona xəbər verib, məsləhətini soruşurdular. Çaparların Şişəyə gətirdiyi xəbərlər çox da düz olmayırdı: hələ indiyə qədər Araz qırağından səhih bir xəbər gəlməmişdi; kimi qalibiyyətdən, kimi məğlubiyyətdən dəm vururdu. Qorxmuş qaçqınlar az qala şahı Ağdamda görmüşdülər. İbrahim xanın oğlu Əbülfət ağanın gəlməsi Vaqif üçün bəzi məsələləri aydınlaşdırdı. Ən əvvəl xanın şəhərə döndüyünü və onu Vaqifin halını soruşmağa göndərdiyini bildirdi. Vaqif razılıq edib dedi:

– Ağa, işlər nə günədir?

Əbülfət ağanın gənc və yaraşıqlı çöhrəsi tutuldu:

– Axund, şah Arazı keçib, dava da olmuşdu. Bizimkilər dayana bilməmişlər: dörd-beş min qırx minin qabağında nə qayıracaq ki,

Vaqif məsələnin çox ciddi olduğunu duyub, bir daha sual verməyə cəsarət etmədi. Lakin Əbülfət ağa məyus bir səslə sözlərinə davam edirdi:

– Ağamı yandıran o deyil, Axta xan bizə düşməndir, bunu bilirik. Dərd Cavad xan dərdidir. Bu məlun Məlik Məcnunu da yanına salıb,

şahı pişvaz etməyə gedib. Bir tərəfdən də o ağamın qoşununa hücum edib. Ağamı yandıran da budur. İndi ağam elə qəzəblidir ki, söz belə demək olmur. Yenə siz, axund, naxoş olmasaydınız, gəlib bir çarə tapardınız. Onun çəmini siz yaxşı bilirsiniz.

Vaqif heyfsilənərək:

– Məni də ki, – dedi, – bu andır azar tərpənməyə qoymayır...

Xanın qəzəblənməsinin nə olduğunu Vaqif gözəlcə bilirdi, odur ki, Əbülfət ağa getdikdən sonra belə məsələni yadından çıxara bilməyirdi. Bu anda Ohan keşiş başı alovlu gəlib çıxdı.

– Ay canım, sən də azara vaxt tapdın, işlər heç də xoşuma gəlmir. Bu köpək Məcnunun şaha qahmar çıxması xanı qəzəbə gətirib, yenə qan olacaq, görürəm. Amandır, axund, bir çarə!

Ohan hirsindən bir yerdə otura bilməyib, otağı dolaşır, arabir iki əli ilə dizlərinə vurub, öz-özünə: Yetim qızsan büzül yat, – axı deyən gərək, köpək Məcnun, sənə dava nə yaraşır! Axı türk yaxşı demiş ki, at təpiyinə at dözər. Bu şahla xan davasıdır, sən niyə özünü oda soxursan!?

Ohan öz-özünə deyinib axırda burunotu çəkib sakit oldu:

– Axund, sənə qurban olum, məsləhətin nədir, axır bilirsən ki, hirsli başda ağıl olmaz!

Vaqif düşüncədən aralandı:

– Mirzə Ohan, – dedi, – elə sən gəlmədən əvvəl mən bunu düşünürdüm. Bilirəm ki, xanın qəzəblənib, camaatı asıb-kəsməsi hər şeydən əvvəl xanın özünə mənfəət deyil: düşmən qapıda, içəridə də bir tüğyan baş verərsə?.. Buna türklər: eşşəyə gücü çatmayıb, palanı toqqaşlamaq deyərlər. O ki, qaldı xanı sakit etməyə... Bircə çarəm var.

Ohan bir şey kəşf etmiş kimi cəld Vaqifə yanaşdı:

– De görüm, başına dönüm! – deyə cavaba müntəzir olaraq yerində durub qaldı.

Vaqif gülümsündü:

– Yenə bu işə şərbaf Kazım yaxşıdır.

– Necə?

– Lalın dilini anası bilər, – Kazım xan-bəylə çox oturub-durub, bir şey söylər, xanın kefi açılar.

Ohan təlaşla:

– Bəs nə durmusan? – dedi.

Lələ çağırılıb, Kazımın dalınca göndərildi. Lələ gedib-gəlincə Vaqifin həyəti camaatla doldu: yenə adamları zindana atılanlar rica və

məsləhətə gəlmişdilər. Dışarıdan gələn arvad hönkürtüsü Vaqifi pərişan hala gətirirdi.

Kazım gəlib çıxdı. Qolları çirməkli və əlləri palçıqlı idi. Vaqif gülümsünərək:

– Ay Kazım, – dedi, – yenə kəmiltifat olmusan, nədi, yoxsa əlin böyüklər ətəyinə yetişib?

Kazım qəhqəhə ilə güldü:

– Axund, – dedi, – mənim yox, böyüklərin əli mənim ətəyimə yetişib. Allahqulu ilə məni aparıb, xəndək qazdırırlar. Görürsən, darayı əvəzinə indi səngər toxuyuram.

Kazım sözünü bitirib, yenə qəhqəhə ilə güldü. Vaqifi və Ohanı da ürəkdən gülməyə vadar etdi.

Vaqifin gülməkdən gözləri yaşarmışdı, yastığın altından dəsmalını çıxarıb, gözlərini sildi. Bığ və saqqalını sığallayaraq məsələni Kazıma açdı. Kazım yerindən dik atıldı:

– Amandı! – dedi, – məni də Xanməmməd ağa yolu yollandırma! Yazığam, balalarım var!

Vaqif onu yumşaltmağa çalışdı, camaatın ağır vəziyyətdə olduğunu, günahsız qan töküləcəyini söyləyib, qəti səslə:

– Qorxma, – dedi, – dalında durmuşam, balalarının, əyalıyın yanında mən zamın. Başından bir tük əskik olmağa qoymaram.

Kazım əlini sinəsinə söykəyib dərin-dərin düşüncədən sonra razı oldu:

– Axund, uşaqlarımın canı sənin amanatın! – deyib, köksünü ötürərək çıxıb getdi.

Kazım İbrahim xanın sarayını heç görməmişdi, saraylar onda bir qorxu doğurduğundan, həmişə oradan gen qaçardı. Bu dəfə məcburiyyət onu çəkib gətirmiş, qorxu artıq nəzərinə belə gəlməyirdi. "Hər nə olacaq-olacaq", – deyə təvəkkülə bel bağlamışdı.

Kazım divan otağında dizi üstə oturmuş müqəvva kimi adamları gördükdə özünü itirdi. Yuxarı başdakı xan və yanındakı qırmızı paltarlı cəlladlar gözünə çarpar-çapmaz əti ürpəşdi, gözlərini səqfə, güzgü parçalarından yapılmış nəqşlərə çevirdi. Salam verib- verməməsindən heç özünün də xəbəri olmadı.

Xanın qəzəbli səsi otağı titrətdi:

– Salamı kimə verdin? – deyə xanın vahiməli gözləri Kazıma yamandı.

Kazım qorxu zəncirindən xilas olub, ayılan kimi oldu, gülümsünərək xanın üzünə baxıb dedi:

– Xan sağ olsun, izin ver, bir məsəl çəkim. Bir gün Bəhlul Danəndə qarğıdan özünə bir at qayırıb yolda çapırdı. O, üç mollaya rast gəlib, salam verdi, keçdi. Mollanın biri dedi, salam mənə idi, o biri dedi, mənə idi. Aralarında dava düşdü. Dedilər, davaya nə hacət, gəlin Bəhlulun özünü çağıraq, soruşaq görək salamı kimə verib. Bəhlulu çağırdılar. Soruşdular. Bəhlul dedi ki, salamı ən axmağınıza verdim. Mollalar yenə razı qalmadılar: bu dedi, mən axmağam, o dedi mən axmağam... Yenə Bəhlulsuz keçmədi. Bəhlul dedi, siz axmaqlığınızı söyləyin, mən deyim salamı kimə vermişəm.

Mollanın biri başladı:

– Mən, – dedi, – məktəbdə dərs deyirdim. Tələbələr məni zara gətirib yormuşdular. Nə ölüb qurtarırdım, nə də azarlayırdım ki, bir az dincəlim. Bir gün evə gəldim, gördüm arvad taxçaya bir nimçə küftə qoyub. Küftənin birini orduma sığışdırıb, ah-zar eləməyə başladım. Arvad gəldi ki, nə var, dedim, ordum şişib, ölürəm. İstədi baxsın, çığırıb qoymadım. Məni yorğan-döşəyə uzandırıb, cərrah çağırdılar. Cərrah gəldi, neştəri çıxardıb, ordumu yardı, küftənin düyüsünü və ləpəsini bir-bir çıxardı. Dedi çirk eləmiş imiş, bir az da tez üstünə düşməsəydik, öləcəydin. Xülasə, bu əməliyyatdan sonra doğrudan xəstələnib, iki həftə yatdım.

Bəhlul üzünü ikinci mollaya çevirib dedi: "Bunun axmaqlığını bildik, indi sən özününkünü nağıl elə!"

İkinci molla başladı.

– Mən də məktəbdə dərs deyirdim. Məktəbin bir iri su küpü vardı. Bir gün tələbələrdən birinə dedim, bir parç su gətir içim. Tələbə küpə yaxınlaşdı, başını içəri sallayanda, – "Ay molla küpdə bir adam var!" – deyə qışqırıb geri qaçdı. Uşaqların hərəsinə bir çubuq verdim, küpə yaxınlaşdıq. Yavaşca başımı salladım, gördüm küpdə, suyun içində bir molla var. Dedim: "Uşaqlar, bu molla burda düz iş üçün gizlənməyib, yəqin bir xatakünlüyü var. Mən küpə girib onu yuxarı qaldıracağam, başı çələ çıxan kimi siz çubuqdan döşəyin!" Girdim küpə, gördüm heç kəs yoxdu, demə öz əksim suya düşmüş imiş. İstədim çıxım elə başımı çölə çıxaran kimi tələbələr başıma çubuqdan döşədilər. Axırda qonşular səsimə gəlib məni küpdən çıxardılar. Bu vəqədən azarlayıb iki həftə yatdım.

Bəhlul üçüncü mollaya yönəldi:

– Sən de görək! – dedi. Üçüncü Molla başladı:

– Mən də müdərris idim. Məktəbdə belə bir qayda qoymuşduq; biri asqıranda, hər kəsin əlində nə olsaydı, yerə salıb əl vurardı. Bir gün tələbələri yığıb, şəhərdən çölə seyrə aparmışdım. Hava çox isti idi. Tələbələr susuzladı. Su axtardıq, tapmadıq. Axırda bir kor quyuya rast gəldik. Dedik, qurşaqlarımızı açaq, bir tələbənin belinə bağlayıb sallayaq, quyudan su çıxarsın. Tələbələr o qədər qorxaq idi ki, heç biri razı olmadı. Əlacım kəsildi: qurşağı öz belimə bağlayıb, ucunu tələbələrə verdim, məni quyuya salladılar. Yolun yarısında idim, burnumun içi gicişdi, bərk asqırdım, bunu eşidən tələbələr qurşağı o saat əllərindən boşladılar, gundurum-gup gedib düşdüm quyunun tərkinə. On gün ac-acına orada qaldım. Bir gün oradan keçən karvan quyuya dolça sallayanda dolçadan yapışıb çıxdım. Baş-gözüm elə əzilmişdi ki, iki ay yatdım.

Bəhlul dedi:

– Molla, salamı sənə vermişdim!

Kazım məsəli qurtaran kimi İbrahim xan şaqqıldayıb güldü. Məclisdəkilərin üzünə gün doğdu. Kazıma xələt-barat verib, saraydan yola saldılar. Dustaqlar da zindandan buraxıldı.

## 10

Ağaməmməd şahın Xudafərindən keçməsindən Məmməd bəyin xəbəri olmamışdı. O, üç min əsgərlə Arazın yuxarısında şahın yolunu gözləyirmiş. Çapar xəbər gətirdi ki, şah Qarabağ kəndlərini yandırır.

Məmməd bəy acıqlı:

– Necə yandırır? – dedi.

– Ağa, Tuğ yanır, ermənilərin başları nizələrdə gedib. Kəhrizlidə adam tapmayıb, evləri yandırmışlar. Sizin imarət də odlanıb.

Məmməd bəyin qan başına vurdu, hirsindən titrədi:

– Səfər! – deyə çağırdı.

Səfər hazır oldu.

– Ağa, qulluq?

– Bu saat üç yüz saz atlı götür gedək! Tez!

Düşərgəyə hay-küy düşdü. Atlar yəhərlənir, qılınclar qurşanırdı.

Yüyürən kim, qaçan kim, hər kəs hərəkətdə idi. Hamıdan da əvvəl Məmməd bəy hazır olub, Laçının belində yola çıxdı. Səfər çaparaq gəlib, atlıların bu saat hazır olacağını xəbər verdi.

Məmməd bəy:

– Səfər, – dedi, – atların tərkinə bir bağlı quru ot qoyun.

Səfər, məsələni başa düşməyərək, duruxdu:

– Nə üçün ki?

– Sənin işin yoxdur, bağlat, sonra bilərsən.

Yola çıxdılar. Axşama yaxın gəlib Hindarxın yanında toxtadılar.

Şahın düşərgəsi düzdə idi: çadır-çadıra söykənmişdi; orda-burda ocaq qalanıb, tüstü çıxırdı; atlar, eşşəklər, dəvələr düzə otlamağa buraxılmışdı, otlayırdı: qoşun əhli qarışqa kimi qaynaşırdı. Uzaq yollardan ot yüklü atlılar düşərgəyə doğru gəlirdilər.

Məmməd bəy gülümsünərək:

– Səfər, – dedi, – bilirsən nə var? İndi biz də saymazcasına düşərgəyə girərik, elə bilərlər ki, biz də onlardanıq, ot dalınca getmişdik. Ortaya çatarıq, onatan da toran qovuşar, otları yerə atıb, birdən cumub sərbazları qırıb tökərik. Sən bizim atlıları başa sal, mənim səsim gələndə başlasınlar. Bax ona qədər özlərini o yerdə qoymasınlar ha!

Səfər:

– Baş üstə! – deyib getdi.

Saqlı yerdə duran atlılara göstəriş verildikdən sonra hərə dağılıb, başqa-başqa yollarla düşərgəyə endi. Getdikcə düşərgədən qopan uğultu artır, adamlar daha aydın görünürdü. Orada əlvan geyimli, əlvan sifətli, əlvan dilli xalqlar vardı. Türklər, farslar, kürdlər, lorilər, ərəblər... bir-birinə qarışmışdı. Yaşlılarla bərabər cavan uşaqlar da vardı. İran torpağında əli silah tutanların hamısını buraya toplamışdılar.

Məmməd bəy qotaz birçəkli, sallaq bığlı bir sərbazın yanından keçdikdə atı yavaşıtdı. Yerə qoyulmuş palana söykənmiş bu sərbaz sazı bağrına basıb, yanıqlı bayatı oxuyurdu. Ətrafına bir dəstə uzun arxalıqlı sərbaz yığılıb, dərdli-dərdli qulaq asırdı.

Günəş təpənin arxasında gizlənsə də, qızartısı hələ göydən çəkilməmişdi. Üfüqlər tozanaq və bürkü içində idi. Düşərgəyə yad bir insan qoxusu çökmüşdü, kənardan bura gələnin ürəyi bulanırdı. Məmməd bəy atı saxladı, otu tərkindən salaraq, ətrafa bir göz gəzdirdi. Atlıları düşərgəyə yayılıb, qulaqlarını şəkləmişdilər.

– Hey-hey!

Məmməd bəyin səsi eşidilər-eşidilməz qılınclar sıyrıldı. Duyuqsuz sərbazlar, hürküdülmüş sərçə sürbəsi kimi, qalxıb bir-birinə qarışdılar. Qışqırıq qopdu, qoşunun içinə çaxnaşma düşdü, sərbazlar silah götürüb, bir-birinin canına düşdü. Məmməd bəy qıra-qıra geri dönür və iz itirmək üçün:

"Odur oradadır, qoyma vur"! – deyə sərbazları başqa yerə sövq edirdi.

Yarım saat davam edən bu vuruşmadan sonra Məmməd bəyin dəstəsi on-on beş yaralı və ölü buraxıb çəkildi. Onları iki yüzə qədər sərbaz izləyirdi. Məmməd bəy o yerlərə yaxşı bələd olduğu üçün sərbazların ağzını dərəyə çevirib, adamları ilə atdan düşdü, kolların arasına səpilərək, sərbazları gülləyə basdılar...

Arxadan iranlılara yeni qüvvə gələcəyindən ehtiyat edərək, sərbazları qırıb dağıtdıqdan sonra ata minib səyirtdilər.

Məmməd bəy qan-tər içində idi. Səfər də süst düşüb, onunla yan-yana gedirdi. Vuruşma mənzərəsi hələ də gözlərinin qabağında idi. Gecə sərinləyir, dağlardan gələn meh onları sanki ayıldırdı. Məmməd bəy:

– A Səfər, – dedi, – su olsaydı, düşüb bir əl-üzümüzü yuyardıq: bir köpək oğlunun boynundan qan fışıldayıb, hər yerimi batırıbdır.

Səfər belə vuruşmalardan sonra həmişə pərt olardı:

– Qabaqda su olacaq, – dedi, yenə sükuta daldı.

Məmməd bəy maraqla:

– Səsin kal çıxır, – dedi, – nə var? Yaralanmamısan ki?

– Yaralanmamışam. Amma nədənsə adam öldürməkdən xoşlanmıram. Onların da anası, bacısı, arvad-uşağı var... yağı olanda nə olar ki!

Məmməd bəy güldü:

– Əşi, mən səni ciyərli bilirdim!

– Ciyərliyəm. Ancaq adam öldürməyə qolum qalxmır.

– Bəs sən necə qaçaq idin?

– O da əlacsızlıqdan idi.

Məmməd bəy düşündü.

## 11

1795-ci ilin yayında Ağaməmməd şah Şişəyə tərəf hərəkət etdi. Öncə gedən Mustafa xan on minlik bir ordu ilə rast gələn kəndləri da-

ğıdır, əhaliyə qarşı olmazın zülmünü edirdi. İranlılar türklə, ermənİyə fərq qoymayaraq, iki xalqın ikisi ilə də eyni müamilədə bulunurdular. Bu hərəkət türklərlə erməniləri birləşdirib, özlərini müttəhid bir halda müdafiə etməyə məcbur etdi. Onsuz da əsrlərdən bəri yana-yana yaşayan bu iki xalqın geniş kütləsi bir-biri ilə dost keçinərdi: lakin balıq başından iylənən kimi, fənalıq həmişə yuxarı sinifdən törərdi. Bu dəfə yuxarıdakılar da birləşib, əlbirliklə Ağaməmməd şaha qarşı çıxdılar. Dızaq, Vərənd, Xaçın və Tuğ melikləri, Məmməd bəy, qardaşı Əsəd bəy və Səfər Qarqar çayının sağ tərəfindəki dağ və dərələrdən Ağaməmməd şahın qoşununa hücuma başladılar.

Qala müntəzəm bir halda durub, düşməni gözləyirdi. On beş min əsgər şəhərin içində və qismən də qərb cəhətindəki dağlıqlarda yerləşmişdi. Hamıda bir ruh yüksəkliyi duyulurdu, çünki şəhərin təbii mövqeyi o qədər əlverişli idi ki, onun alınacağı heç də nəzərə gətirilməyirdi.

Sübh əlmə içində açılırdı, günəş qan ləkəsi kimi üfüqə yapışmışdı. Kazım namazını qılıb qurtarmış və qatıqla bir az çörək yeyib, küçəyə çıxmışdı. Xalq bazara gedirdi. Çiyni səhəngli qadın və qızlar şirin quyulardan qayıdırdılar. Bir uşaq çəpərin dibində quzu otladırdı. Sanki şəhərin altı-yeddi ağaclığında heç müharibə getmirmiş, həyat həmin köhnə adi həyat idi.

Qapının ağzında bir daş səki vardı. Kazım hər axşam Allahqulu ilə onun üstündə oturub, söhbət edərdi. İndi də oturub, dostunu gözlədi. Çox çəkmədi Allahqulunun çal bığları qapıdan göründü:

– Usta, bu gün nə tez belə?

– Dedim, çıxaq görək təzə nə xəbər var.

– Onda tərpən!

Dostlar başmaqlarının nallarını taqqıldada-taqqıldada dar və tozlu küçələrlə meydana doğru yola düşdülər. Onlar işi olmayan və eyni yolu hər gün gedən adamlar kimi yavaş-yavaş yürüyür və çox az danışırdılar. Bunlar qiyafə etibarı ilə bir-birindən seçilməyirdi: qırxıq başlarında araqçın, əyinlərində çit qurşaqlı uzun arxalıq, ağ tuman və dabanları başmaqdan kənarda qalmış corabsız ayaqları vardı. İkisinin də əlləri bellərinin arxa tərəfində düymələnib, təsbeh çevirirdi.

Meydana çatdılar. Adam əlindən iynə salsaydılar, yerə düşməzdi.

Camaat bir-birini basıb irəli soxulur, meydanın ortasında nəyə isə tamaşa edirdi.

Kazım ayaqlarının ucuna qalxıb, boylandısa da, heç bir şey görə bilmədi. Önündə duran şiş papaqlı bir qocaya yönələrək:

– Əmi, bu nə həngamədir?

Qoca gülümsündü, yeganə dişini zahirə çıxararaq dedi:

– Məmməd bəylə tuğlu məlik Abbas bir xurcun sərbaz qulağı göndəriblər. Camaat kəsilmiş qulaqları görmək istəyir.

Qoca sözünü bitirib, qəhqəhə çəkdi, lakin öskürək onun qəhqəhəsini yarımçıq kəsdi.

Səs-küy bazarı ağzına almışdı, xalq iranlılara vurulan zərbə haqqında danışıb sevinirdi.

– Zalım oğlu igiddir ha!

– Atasına çəkib: Mehralı bəy igid deyildimi?

– O ayrı, bu ayrı!

– Yavaş, ayağımı əzdin!.. Ay həpənd, sənlə deyiləm?

– Həpənd özünsən...

İki adam bir-birilə vuruşurdu. Araya girdilər. Kazım Allahqulu ilə meydanı dolanıb, divanxana qabağına tərəf getdilər. Hər yer adamla dolu idi: kənd şəhərə qarışmışdı. Rastabazarda şirin alış-veriş vardı, alıcının əksəri tərəkəmə idi. Başları dingəli üzü açıq kənd qız-gəlinləri ağ çadralı şəhər qadınları içində qəribə bir mənzərə təşkil edirdilər. Burada da müharibə duyulmayırdı: xalq arandan şəhərə köçüb, hərə yaman-yaxşı bir yerdə yerləşib, sanki sakit olmuş, yandırılmış yurdunu unutmuşdu.

Divanxana qabağı da adi mənzərəsində deyildi. Bütün dar ağacları və işgəncə alətləri yığışılmış, cəlladlar xalqa qarışıb, orda-burda dəstə-dəstə oturaraq şirin söhbətdə idilər.

Bir də qala qapısı tərəfdə bir səs-küy qopdu. Hamı yerindən dik qalxıb, ora tərəf götürüldü. Kazım ilə Allahqulu sarayın önündəki dikə çıxıb, tamaşaya daldılar: yüzlərcə at, qatır və ulaq gətirilirdi. Ətrafa səpilən xalq bu ilxını şən bir bağırtı ilə qarşıladı. Bu heyvanlar iranlılardan qənimət alınmışdı.

## 12

Şişənin ətrafındakı vuruşmalar üç həftədən bəri davam edirdi.

Ağamməd şah Qarqar çayının sol tərəfi ilə yavaş-yavaş Şişəyə doğru irəliləyirdi. Qarqarın sağ sahili isə Məmməd bəyin əlində olub,

iranlılara çox tələfat verirdi. Yer dağlıq olduğu üçün meydan müharibəsi əlverişli deyildi. Qarabağlılar xırda dəstələrlə hücuma keçib, düşmən karvanlarını qarət edir, sursat və ələfin gətirilməsinə mane olurdular. Şah bunun önünü almaq üçün Dəvəli Mustafa xanı beş min qoşunla Əsgərana və Pirqulu xanı da Məmməd bəyin üstünə göndərdi. Məmməd bəy məsələni öyrənib, adamlarını Pirqulu xanın gələcəyi yolun ətrafına topladı.

Avqustun ortası idi. Hava bulud da olsa, son dərəcə xoş idi. Məmməd bəy qaya başında durub, Qarqara doğru gedən yolu süzürdü. O, zirehdə Pəhləvana bənzəyirdi. Sərt baxışı bir də xəşin şəkil aldı, sanki qartal ov görmüşdü. Uzaqdan qalxan tozun arasından İran atlıları göründü.

Məmməd bəy:

– Səfər, sən dəstənə tapşır, sakit oturub, gözləsin, – dedi, – mən qəflətən üstlərinə yeriyəndə, siz də daldan yolları kəsin.

Səfər daldalıq yerlərlə atılıb, adamlarının yanına getdi. Məmməd bəy də qayadan enib, yan dərədəki qoşuna qovuşub atlandı. Yolun üstü iki yandan alınmışdı. Lakin iranlıların gecikməsi hər kəsi darıxdırır, hamıdan da çox hövsələsizlik göstərən Məmməd bəy idi. Nəhayət, o, Tərlanı səyirdərək yola endi, otuz-qırx addımlıqda iki atlı arxayınca söhbət edərək gəlirdi, əsil İran qoşunu hələ uzaqda idi. Atlılar Məmməd bəyi görcək özlərini itirdilər: biri geri dönmək istədi, lakin o biri yəhərdən asılmış qutudan bir mizraq çıxarıb Məmməd bəyin üstünə gəldi. Bu adamın ovşar olduğu qiyafəsindən görünürdü. Ovşarların mizraq atmaları məşhur olduğu üçün, Məmməd bəy cəld qılıncını sıyırdı və mizraqdan göz çəkməyərək ehtiyatla irəlilədi. Mizraq ovşarın əlindən qopan kimi Məmməd bəyin qılıncı onu havada iki böldü. İkinci zərbə ovşarı atdan devirdi. İndi artıq dərə və yol nərə səsi ilə dolmuşdu.

Atların ayağından qopan çınqıllar havada oynayır, toz ətrafı bürümüşdü. Pirqulu xanın qoşunu hücumu gözləməyərək özünü itirib, ora-bura soxulurdu. Səfər də hücuma keçəndə artıq iranlılar sınıb, geriyə doğru can atırdılar. Məmməd bəy düşməni şahın düşərgəsinə qədər qovdu. Yolda dəhşətli bir mənzərəyə rast gəldilər. İranlılar yüzə qədər Qarabağ əsirini, qol-qıçları bağlı olaraq yerə yıxıb, xırman döyən kimi üstlərində at sürürdülər. İnsan iniltisindən sanki ətraf fəğan edirdi. Məmməd bəy Pirqulu xanın izlənməsindən vaz keçib, işgəncə dəs-

təsinin üstünə düşdü. Qırx-əlli adam bir dəqiqədə qılıncdan keçirilib, qulaqları kəsildi, xurcunlara dolduruldu.

Məmməd bəy Qarqarın sağ tərəfində möhkəm səngərlər qurub, şah qoşununa böyük zərbələr vurmasına baxmayaraq, Ağaməmməd şah sol sahillə dağa doğru çıxıb, Topxanadan Şişəni topa basırdı. Daş və dəmir qumbaralar qalanın müxtəlif yerlərinə düşüb, xalqı həyəcana gətirirdi. Lakin bir neçə gündən sonra bu da adət olub, təsirdən düşmüşdü. Şəhərlilər dəstə-dəstə cıdır düzünə toplanıb, oradan Topxananı başdan-başa tutmuş şah çadırlarına tamaşa edirdilər. Bəzən sakitlik olur, iki tərəf də dincəlməyə və ya yeməyə dalırdı. Bir də görürdün, top atışmaları başlandı, barıt tüstüsü ətrafı bürüdü. Bu atışmadan, təbii idi ki, heç bir nəticə çıxmayırdı Topxana ilə şəhərin arasında dərin bir uçurum var idi, bunun da dibindən Daşaltı çayı axırdı. Oranı keçmək qətiyyən mümkün deyildi. Keçilsəydi belə sıldırım qayaları, şəhər barı və bürclərini almaq mümkün olan şeylərdən deyildi: on beş min igid gecə-gündüz şəhərin keşiyini çəkirdi.

Qala ilə Topxananın arasındakı keçidin ən dar yeri Xəzinə qayasının önü idi. Ağaməmməd şah bura plan tökdürüb, keçmək niyyətinə düşdüsə də, bir nəticə çıxmayacağını anlayıb vaz keçdi. Nəhayət, o acığa düşüb, İbrahim xanın yanına qasid vasitəsilə bir məktub göndərdi. Qasidin gözlərini bağlayıb, saraya gətirdilər. Məktubda yazılmışdı.

Zi-mənçənəqe-fələk sənge-fitnə mibarəd,
To əbləhanə kirift miyanai-Şişə qərar*.

Xan şahın təhqirli məktubundan sınmadı. Yanındakı Vaqifə yönələrək:

– Amandı, axund, bu axta köpəyə bir yaxşı cavab yaz, – dedi.

Vaqif məktubu alıb, bir də gözdən keçirdi, sonra arxasına yazdı:

Gər nigahdare – mən anəst ki, mən midanəm,
Şişəra dər bəğəle- səng nigah midarəd**.

Vaqifin cavabı xana çox xoş gəldi. Məktubu qatlayıb, qasidə verdilər və yenə gözlərini bağlayıb yola saldılar.

Bir neçə saatdan sonra şəhər yenidən topa tutuldu, bu, şahın cavabı olmasına işarə idi. İbrahim xan bütün məiyyəti ilə atlanıb, Cıdır dü-

zünə çıxdı. Topxana barıt tüstüsünə bürünmüşdü. Bir az sonra top səsləri kəsildi, tüstü yavaş-yavaş uçuruma doğru enməyə və Topxana görünməyə başladı. Şah məiyyəti ilə durub, şəhərə tamaşa edirdi. İbrahim xan Xəzinə qayasının üstündə qürurla durmuşdu. Şah onu görcək cır səsi ilə söyüş yağdırmağa başladı. İbrahim xan nökərləri öyrətdi, hamı bir səslə:

– Ay axta xan! Vay axta xan! – deyə bağırışdılar.

Axta sözündən son dərəcə pərt olan şah qışqırdı. Yenidən atılan topların tüstüsü yenə topxananı bürüyüb, şahı gözdən itirdi.

## 13

Ağaməmməd şah otuz üç günlük bir mühasirədən sonra Şişəni ala bilməyib, Ağdam tərəfə, Qaratəpəyə çəkildi. Payız düşürdü. Sursat və ələf yoxluğu, heyvanların qırılması şahı olduqca ağır bir vəziyyətdə buraxmışdı. Şah qoşunundakı gəncləri ayrı, qacar ahıllarını ayrı və Azərbaycan ahıllarını da başqa bir yerə toplatdırıb, böyük bir müşavirə düzəltdi. Vəziyyətin ağırlığını anladıb, qoşunun rəyini bilmək istədi. Gənclər: "Biz əsgərik şahın əmrinə hazırıq!" – dedilər. Qacar ahılları Tehran tərəfə çəkilmək istədilər, Azərbaycanlılar isə Ərdəbil tərəfə. Şah: "Hazır olun, sabah tezdən yola çıxacayıq!" – deyə buyruq verib, çadırına çəkildi. O biri gün tezdən şah qoşunu götürüb, Gürcüstana tərəf getdi. Cavad xan da bələdçi sifəti ilə onu təşyi edirdi.

İbrahim xanın casusları bu xəbəri Şişəyə gətirər-gətirməz həmən Səfərə qoşun və kisə-kisə qızıl verilib, İrakli xana kömək göndərildi.

Səfər bir aydan sonra apardığı qoşunun az bir hissəsi ilə geri dönə bildi. O, Tiflisin dağılmasının şahidi olmuşdu. Kilsələr belə yandırılmış, xalq qırılmış və şah iyirmi min əsir alaraq Gəncəyə və oradan da Muğana, qışlamağa çəkilmişdi. Səfərin gətirdiyi xəbər Qarabağı yasa batırmışdı. Onsuz da vəziyyət ağır idi, iranlıların qorxusundan el dağdan arana enə bilmirdi. Qış düşür, dağda heyvan soyuqdan qırılırdı; xalq əkin əkməmişdi, olan ehtiyat qurtarır, aclıq əlamətləri yavaş-ya-

---

[*] Fələyin mancanağı fitnə daşını sənin üstünə yağdırır, sən də axmaqcasına şişənin (Şişə qalasının) içində gizlənmisən.

[**] Məni qoruyub saxlayan mən tanıdığımdırsa, inanıram ki, o, Şişəni daşın içində də qoruyar.

vaş baş qaldırmaqda idi. Vaqifin fitri nəşəsi tamamilə itib getmişdi. Onun yaşı yetmişdən ötdüyünə baxmayaraq daima şən və diribaş idi. İndi isə ətrafındakı hadisələr onu əzir, ruh və cismini öldürürdü. Tiflis faciəsi onu o qədər sarsıtdı ki, neçə gün yatağından dura bilmədi, nəhayət, Açıqbaşa qarşı bəslədiyi hisslərini bir şeirlə kağıza tərk edib, rahat ola bildi.

İbrahim xan da saray həyatini hər gün dolduran şikayətçilərdən təngə gəlmişdi. Camaat doğma yurduna dönmək istəyir, aclar çörək diləyirdi. Yeganə ümid Osmanlı Sultanına idi ki, bu da boşa çıxdı: Mirzə Əliməmməd ağa İstanbuldan yaxşı xəbər gətirməmişdi. Sultan Ağaməmməd şahla anlaşıb, onun Qarabağda ruslara qarşı çıxmağını təsvib edirmiş. Çıxılmaz bu vəziyyətdən qurtarmaq üçün İbrahim xan bir müşavirə çağırdı. Çox danışıqdan sonra Vaqif qısa olaraq;

– Axta xandan qurtarmaq üçün təkcə bir çarə var: Urus himayəsi, – dedi.

Bəzi ağalar etiraz etdisə də, xan Yekaterinaya məktub göndərilməsini təsvib edib, Vaqifə tapşırdı.

Vaqifin bu səfərki məktubu adi məhəbbətnamə deyildi, bu, əməli təkliflərdən ibarət idi. Rusiyaya qaçmış Xoylu Murtuzaqulu xanın iştirakı ilə Astrabada qoşun çıxarmaq; İbrahim xana on iki min qoşun göndərib, Naxçıvan yolu ilə İrana keçmək; İrakli xanın İravanı tutması başlıca təkliflərdən idi.

Vaqifin yazdığı məktub Qafqaz xəttindəki baş komandan Qudoviçin vasitəsi ilə Yekaterinaya göndərildi. 1796-cı il, yanvarın sonunda bu məktub Peterburqa çatdı. Bunun nəticəsi olaraq Qızlar qalasına qoşun yığılması əmr olundu və qraf Zubovun komandası altında yeni bir Qafqaz səfəri başlandı.

## 14

Vaqif Mirzə Əliməmməd ağa ilə rəsmi olaraq sarayda görüşmüşdü. Bu dəfə Qızxanımla bərabər onun ailəsinə gözaydınlığı vermək üçün getdi. Mirzə Əliməmməd Vaqifi gözəl döşənmiş səliqəli otağında qəbul etdi. Otağın bir tərəfini cürbəcür gül və çiçək çəlləkləri tutmuşdu. Sarmaşıqlar tavana sarılıb, gözəl bandaqlar əmələ gətirmişdi. Bitkilərin arasından qəfəslər asılmış və içlərindəki sarı və başqa bülbüllər cəh-cəh vururdular.

Bahara az qalmışdı. Dışarıda qalın duman olduğu üçün pəncərənin rəngli şişələri sönük görünürdü. Buxarı yanırdı. Vaqif dostu ilə qarşı-qarşıya oturub söhbətə başladılar. Vaqif dedi:

– Seyid, İstanbuldan gətirdiyin sovqatların məni sənə borclu eləyir. Elə gecə-gündüz şairlərin divanı ilə vaxt keçirirəm. Amma yaxşıca səyahət etdin.

Mirzə Əliməmməd ağa məmnun bir halda:

– Axund, – dedi, – aləmlər varmış, bizim xəbərimiz yox. Biz də bu dağın başında oturmuşuq, deyirik bəs bir şey görmüşük.

Vaqif xısın-xısın güldü:

– Mən bilirdim ki, sən səfərdən sonra buralara sığmayacaqsan.

– Sığılarmı? Çox nisgilləndim, dedim bircə axund burada olaydı, bir yerdə qayıq seyrinə çıxıb, Boğaz içini gəzəydik. Qüvveyi-natiqə onun təsvirindən acizdir. Dəniz firuzə, göy firuzə, ətraf şumal minarəli məscidlər, saraylar, imarətlər... İnsan baxdıqca baxır, doymaq bilmir. Axund, ayrı büsatdır!..

Vaqif dostunun üzünə heyran-heyran baxır, həyəcanından nəfəsi tutulurdu:

– Padşahın özünü gördünmü? – deyə sordu.

– Gördüm! Padşah qayıq seyrinə çıxmaq istədikdə bir gün əvvəl camaata xəbər verirlər. Bir gün getdim. Gözəl hava idi, hər yer adamla dolmuşdu. Boğazda Qız Qalası var, oradan top atılanda bildik ki, gəlir. Dəryanın kənarında adam-adamı basır, hər kəs Sultanı görmək istəyirdi. Bir də altı sandal göründü. İçlərində yüzdən yuxarı içoğlan vardı. Bunlar saray nökərləridir, kürək çəkirlər. Bu içoğlanlar elə geyinirlər ki, baxanda adamın gözləri qamaşır. Bu altı sandal yol açmaq üçündü. Sonra padşahın sandalı gəlir. Arxasında yenə altı sandal olur. Padşahın sandalında ayrı cəlal var! Adına “Sarıq sandalı” deyirlər. Orda mənə bir mehmandar qoşmuşdular, o hamısını mənə nağıl eləyirdi. Orada qayda imiş: padşahın bacıları lətif şal toxuyub, bayramlarda padşaha sovqat gətirərmişlər. Bu şal “sarıq sandalı”na döşənərmiş. Sandalın dörd qırağı gümüş sürahidir, üstündə də dörd gümüş sütunlu bir köşk qurulmuşdu. Hər tərəfinə ətrafı zəncirəli qırmızı mahud çəkilmişdi. Nə bəzəklər, nə naxışlar işlənmişdi. Nə incilər düzülmüşdü!.. Padşah ipək yastıqlara söykənmişdi. Sarığının daş-qaşı göz qamaşdırırdı.

Vaqif maraqla:

– Camaat baş əyirmi?

– Necə əyməz! Boğazın o tay-bu tayı iki qat olur. Hər kəs qorxusundan tir-tir əsir. “Sarıq sandalı”nın dalınca bir sandal da gəlir, ona da hərəm ağaları və onların böyüyü – qızlar ağası minir. Dedilər, ən qorxulacaq adam bu qızlar ağası deyilən imiş. Padşahın bütün hərəmi ona baxır. Ağaməmməd şah kimi o da axtadır. Elə acıqlıdır ki, üzünə baxanda adamı vahimə basır. Deyirlər sarayda nə istəsə arvadların vasitəsilə edə bilər. Padşah da onun əlində oyuncaqdır.

Vaqif yenə güldü:

– Sarban ilə dost olanın darvazası gen gərək! Yaxşı ki, sarban dostumuz yoxdur.

Mirzə Əliməmməd də güldü. Lələnin qəhvə və çərəz gətirməsi söhbəti kəsdi. Çərəzin içində qara xurma və İzmirənciri də vardı. Bunları Mirzə Əliməmməd İstanbuldan gətirmişdi.

– Çifayda, elə şey gətirmisən ki, mənim dişimin malı deyil, – deyə, – Vaqif nimçədən bir əncir götürdü. – Yaxşı, seyid, bəs səni kim qəbul etdi?

Mirzə Əliməmməd ağa ciddi bir sima taxınaraq:

– Onların, – dedi, – hökuməti oturan yerə “Babi ali” deyirlər. Ora getdim. Bir məmurla danışdım. Çıxıb o biri otaqda kiminləsə məsləhətləşib gəldi və məsələnin baş tutmayacağını bildirdi. Amma yaxşı hörmət göstərdilər: mənzil verdilər, hər yeri gəzdirdilər, cümə günü səlamliyə apardılar. “Səlamlıq” padşahın məscidə namaza getməsinə deyirlər. Ancaq nə padşahla, nə də vəzirlərlə görüşə bilmədim. Dedilər, İran şahı ilə dostluğumuz var, onu rəxnədar etmək istəməyirik. Məsələ belə oldu. Bilirsən, onlar iki dəfə Yekaterina ilə dava etmişlər, çox adam qırılıb, deyirlər, xəzinə də boşdur. Urusla bir də üz-üzə gəlməyə taqətləri qalmamışdır. İndi ümidləri şahadır. Deyirlər, bəlkə o, urusların Qafqaza gəlməsinə sədd çəkə.

Vaqif düşünürdü. Mirzə Əliməmməd də bir az düşünüb, sükutu pozdu:

– Şah Muğandan çəkilib getdi. Görəsən bir də gələrmi?

– Gələcək! Şübhəsiz! İranda yenə bir tüğyan baş verib, onu yatıra bilsə, öldürülməsə, yazı gözünün altına al!

– İndi xanın tədbiri nədir?

– Cavad xanın burnunu ovmaq! İrakli xan qoşun yığır. İbrahim Xəlil xanla Ömər xan da hazırlaşır. Bu günlər tərpənəcəklər. Urus qoşunu Dərbəndə çatana kimi Gəncə alınmalıdır.

Söhbət get-gedə qızışdı. Bir az sonra Saatlı Mirzə Məmmədqulu da gəldi. Bu, Vaqifin yerlisi olaraq, çoxdan Qarabağa köçənlərdən idi. Sarayda müəyyən vəzifələr daşıyırdı. Vaqif onu çoxdan görmədiyi üçün çox sevindi:

– Yerli, – dedi, – kəmməhəlsən! İmarətdə görüşdük, görüşdük; görüşməsək, heç bir deməzsən görüm aşıq necə oldu.

Mirzə Məmmədqulu üzr istədi, çox vaxt kənddə olduğunu söylədi:

– Şah getmiş ikən bir az da əkin – biçinə baxmalıyıq, yoxsa işlər xarabdır.

Vaqif təsvib edici bir gülümsəmə ilə:

– Vallah, qoçaqsan, hər işdə barmağın var! İçinizdə ən fərsizi mənəm, oturduğum evdən başqa gümanım heç bir şeyə gəlmir.

## 15

İrakli oğlu Aleksandrın komandası altında Gəncəyə qoşun göndərmişdi. Gəncə üç ay idi ki, mühasirədə idi. Lakin gürcü qoşunu get-gedə qaçıb dağılırdı. Çünki sursat bitir, silah yox, qoşunun ayağı belə yalın idi. İraklinin xəzinəsi boşalmışdı, qoşununu heç bir cəhətdən təmin edə bilmirdi. Zatən, Gəncə səfərindən başlıca məqsədi Cavad xanı itaətə gətirib, bac almaq və maddi vəziyyətini düzəltmək idi. İbrahim xanla Ömər xan qoşun ilə Gəncənin üstünə gəldikdə orada yüzcə gürcü qalmışdı.

Qarabağ və Avarıstan əsgərləri yetişər-yetişməz vəziyyət dəyişildi: bağlarda səngər qayıran gəncəlilər qalaya doğru çəkilməyə başladılar. Gəncə çargül bir hasara malik idi. "Qarabağ" və "Tiflis" adlı iki qapısı və qərb tərəfdə bir bürcü vardı. Qalanın mərkəzini kərpic tikili xan sarayı, narın qala və məscid təşkil edirdi. Qarabağ qapısına yaxın yerdə bir quyu var idi ki, şəhərə su verirdi. İbrahim xan Gəncə qalasına bələd olduğu üçün qoşunu ilə Gəncə çayını keçib, topları düzdürdü. Bir-iki top atəşindən sonra qoşun hücuma keçdi. Barılar qumbaraların zərbindən deşik-deşik olmuş, aman səsi göylərə çıxmışdı. Bir qədər sonra Qarabağ qapısının üstündə ağ ələm göründü, bu amana gəlmək əlaməti idi. Buyruq verildi, hücum dayandırıldı. Qala qapısı

açıldı, əlləri duz-çörəkli ağsaqqallar heyəti iki qat olaraq İbrahim xanın hüzuruna gəldilər.

Əlində quran tutmuş bir qoca:

– Xan sağ olsun, – dedi, – müsəlman qanı tökülməyə hərgiz razı olmazsınız. Nə əmriniz olsa, nökərçilik etməyə hazırıq.

İbrahim xan hirsli:

– Cavad xanın özü hanı! – dedi.

Ağsaqqallar üzr gətirdilər, müqəssir olub, üzə çıxmağa utandığını söylədilərsə də, xan razı olmadı. Nəhayət, əlac kəsilib, Cavad xanın özü gəlməyə məcbur oldu. Yerə qədər əyilərək təzim edir, şaha köməyə getməklə böyük səhv etdiyini irəli sürərək, günahını yumaq üçün hər bir cəzaya razı olduğunu söylədi.

İbrahim xan Ömər xanla məsləhətləşib, çadıra çəkildilər. Cavad xan da oraya gəlib, müzakirəyə başladılar. Qaliblər böyük bacdan başlayıb, yavaş-yavaş güzəştə getməyə məcbur oldular. Cavad xan yalvardı, verə bilməyəcəyini irəli sürdü. Axırda İbrahim xana on beş min manat pul, oğlunu zaval və bacısını hərəmə verməyə razı oldu. Qarabağ xanı pulu və zavalları alıb sakit oldu. Ömər xan da hər əsgərinə qırx qızıl alıb Gəncədən çəkiləcəyini bildirdi.

Barışıq xəbəri ətrafa yayılmışdı, xalq tökülüb gəlir və uzaqdan çadırı çevrələyirdi. Nəhayət, bir dəstə ayrılıb, İbrahim xanın yanına gəldi, ayağına döşəndi:

– Xan sağ olsun, bizi balalarıyın başına çevir!

Xan heyrətlə:

– Nə olub? – dedi.

– Xan, əyalımız neçə aydan bəri qalada əsirdir, – dedilər. İş-gücümüz tökülüb qalır, körpələr də ələm-yesir kökündədir!

İbrahim xan məsələni soruşub bildi. Bəlli oldu ki, Cavad xan kəndlilərin tüğyan etməsindən qorxaraq, kəndlilərin arvadlarını qalaya girov gətirmiş imiş.

İbrahim xan da müstəbid idi, xalqa olmazın zülmün edərdi, lakin arvadları zaval gətirmək ağlına gəlməmişdi. Qalibiyyət ona bir alicənablıq bəxş etmişdi, bundan istifadə edərək arvadların buraxılmasını Cavad xana tapşırdı:

– Bu qədər zülm olurmu? – dedi.

Cavad xan utandı. O dəqiqə adam göndərib, arvadları buraxdırdı. Qala qapısından çıxan min beş yüzə qədər arvad ərlərinə və övladla-

rına rast gələrək hönkürtü qopardılar. Bir çoxlarının ürəyi gedib, yerə yıxıldı. Bu cansıxan mənzərənin şahidi olan bir çox əsgər belə doluxsunub ağladı.

Barışıq olub bitmişdi. İbrahim xan dönüb Qarabağa getmək istərkən İrakli xan yeni toplanmış qoşunla gəlib Gəncəyə çıxdı. İbrahim xanla görüşdülər, məsələni anlayıb hiddətlə:

– Barışıq oldu? – deyə sordu.

İbrahim xan dedi:

– Oldu. Cavad xan zaval verib, canını qurtardı. Bundan sonra bir də İrana ümid bağlasa, oğlu cəllad əlində qalacaq.

– Bəs mən?

İbrahim xan İraklinin bac almaq meylində olduğunu anladı. Ehmal səslə:

– Bilirsən, – dedi, – İrakli xan, bir başa iki yumruq cəbrdir. Cavad xanın da işləri yaxşı deyil. Bu il mədaxili olmamışdır.

İrakli hirsindən titrədi:

– Mənim də şəhərim dağılıb, adamlarım qırılıb. İravan Axta xanda, Qazağı və Şəmsəddini də şah məndən ayırıb, İravana yapışdırdı...

İbrahim xan dinmədi. İrakli bir az deyindi. Nəhayət:

– Zərər yoxdur! – dedi, – urus gələr, hər şey düzələr: onda Qarabağı da səndən alıb, mənə verər!

İraklinin hədəsi İbrahim xanı sarsıtdı. Yenə köhnə şübhə onda baş qaldırıb, ruhunu əzməyə başladı.

Cavad xan İraklini razı buraxmaq üçün, Ağaməmməd şahın gətirib Gəncədə buraxdığı dörd yüz gürcü əsirini yığdırıb, ona təslim verdi. Buna baxmayaraq yenə də İrakli xan pərt bir halda Tiflisə qayıtdı.

## 16

Ağabəyim ağa bu gün yataqdan dışarı çıxmamışdı. Nazlı onun yanını kəsib əyləndirməyə çalışırdı: mücrüsünü açıb, zinətlərini göstərib, paltarlarının səliqəsindən danışırdı, lakin Bəyimi maraqlandıra bilməyirdi. Bəyimin bütün fikri Gəncə mühasirəsində yaralanmış Məmməd bəyin yanında idi:

– Yarası, deyirsən, çiynindəndir?.. Qolu şikəst olmaz ki?

Nazlı təkrar təsəlli verərək:

– Yox, iki gözüm! – dedi. Nahaq yerə xiffət eləyirsən! Heç bir şeyi yoxdur; onun kimi igidə bir xırda yara nədir ki!

Ağabəyim ağa düşüncəli bir halda mücrünün qapağını örtdü:

– Sən gedəndə onu necə gördün? Oturmuşdu, yoxsa uzanmışdı?

– Bəyim, yatağında oturmuşdu. Kağızı verdim, gülümsünə-gülümsünə oxudu, dedi, sağ olsun, heyf ki, cavab yaza bilmirəm. Bilirsən, Bəyim, sağ qolu boynundan asılıdır. Cərrah açmağa qoymur. Yoxsa, şükür yaradana, nəyi var ki. Dilim-ağzım qurusun, bir şey olsaydı, otura bilərdimi?

Ağabəyim ağa dinləyir, bəzən gülümsəyir, lakin qəlbini gəmirən şübhədən qurtara bilməyirdi. Anası Tutubəyim ağanın içəri girməsi onu dərddən daşındırdı.

– Ay qız, yenə nə olub?

– Heç, ana, kefim yoxdur!

Tutubəyim əndişə ilə əlini qızının alnına qoydu, üzünə diqqətlə baxdı və gülümsünərək:

– Nazlanırsan, bir şeyin yoxdur! – deyib, Ağabəyimin yanağından öpdü. Ağabəyim bu ansızın öpüşdən diksinib, qıpqırmızı kəsildi. Qanrıldı, anasının üzünə baxdı, kədərli gözlərində yaş parladı. Tutubəyim onu qucaqlayıb, yanında oturtdu:

– Eh, qızım, qızım! – deyə köksünü ötürdü, – hərənizin dərdini bir cür çəkirəm. Böyük bacın Tubunu verdik, dedik yarıdı, əri gedib, Gəncədən üstünə bir günü gətirib, indi evdə gündə davadır. Özü ikicanlı, zəif, xiffət eləməkdən bət-bənizi qaçıb. Sən niyə xiffət eləyirsən, bilmirəm. Eh, ana olarsan, onda mənim çəkdiklərimi bilərsən!..

Ağabəyim ağa anasına sığınaraq həzin-həzin ağladı.

Tutubəyim ağa qızının dərdini bilirdi, lakin üzə vurmurdu, çünki Məmməd bəylə yarıyacağına inanmırdı:

– Eh, qızım, bilmirəm səni necə başa salım... Qız başının ağrısını bilməz! Sənin ağzından hələ süd iyi gəlir, sən elə bilirsən ərə gedən ağ günə çıxır... Yox qızım, yanılırsan, qızın dərdi birsə, ərə gedəndə min olur. Eşitməmisənmi:

Qız idim – sultan idim,
Nişanlandım, xan oldum,
Ərə getdim, qul oldum,
Ayaqlara çul oldum!

İndi bax mən o çulam, ayaqlar altına düşmüşəm. Atan heç bilmir, mən dünyada varam, yoxsa yox. Bir müddət Hacı Kərimin qızına uydu, indi də Gəncədən təzə gətirdiyi bacıma uyub... Eh, gecələr yatağıma qor dolur, səhərə kimi yanıram...

Tutubəyim ağanı qəhər boğdu.

17

Zubovun komandasındakı ordu Dərbəndi alıb, Şirvan torpağına keçmişdi. Xanların nümayəndələri onu təbrikə qoşurdular. Şirvan, Şəki, Gəncə, İravan, Xoy, Qaradağ, Naxçıvan, Talış, Təbriz, Şahsevən və Şəqaqi xanları İbrahim xanın məsləhətinə görə rus himayəsinə keçməyə böyük arzu göstərirdilər. Lakin İrakli xanın Gəncədəki hədəsi İbrahim xanda bir tərəddüd və şübhə oyandırmışdı. Rus komandanlığının Qarabağ xanlığını ləğv edib və orada Rusiyaya tabe bir erməni əyaləti düzəltmək ehtimalı ona rahatlıq vermirdi. Məsələni yoxlamaq üçün Mirzə Əliməmmədi Şirvana göndərdi

Mirzə Əliməmməd Şirvana gəldikdə ora hökmdarı Mustafa xanı təlaş içində gördü. Mustafa xan Qarabağ vəkilinə dedi:

– Məsələ bizim zənn elədiyimiz kimi çıxmadı: burada açıqdan-açığa nəsəra və müsəlmanlıq düşmənçiliyi görünür. Qızılayaq[*] Dərbənddən çıxandan sonra erməni mahrasası Yusif ora gəlib çıxır. Bilirsən, bu bütün Rusiya ermənilərinin baş keşişidir. Uruslar bura ermənilərini əldə saxlamaq üçün ona çox hörmət edirlər. Mahrasa Yusif başlayır Dərbənddəki bir ovuc ermənini müsəlmanların üstünə qalxızmağa. Ortaya yenə biabırçılıq düşür. Müsəlmanlar yaranal Savelyevə şikayətə gedir, Dərbənd naibi Xıdır bəy naiblikdən çıxmaq istəyir. Qızılayaq görür ki, müsəlmanlar tüğyan edəcək, urus qoşununun işi xarab olacaq, Yusifi yanına çağırıb, məzəmmət eləyir, Xıdır bəyə də tapşırır ki, naibliyində otursun... Görürsən, hələ məscid tikilmədən kor hasasını dayayıb!

Mirzə Əliməmməd gördü ki, İbrahim xanın şübhəsi yersiz deyilmiş. Dedi:

---

[*] Zubovun bir ayağı qayırma olduğu üçün ona camaat arasında "Qızılayaq" deyərdilər.

– İndi fikriniz nədir? Axır vaxtlar bir az aramız soyumuşdu. Bu yaxşı iş deyil! Xanın da fikri budur ki, dost olaq, çünki mənafeyimiz bunu tələb edir. Mən Şəkiyə gedib, Səlim xanla da görüşəcəyəm. Səlim xan İbrahim Xəlil xanın qaynı ola-ola bir az sərkəşlik edir. Bu da yaramaz bir işdir. Ortalıqdan ziddiyyəti qaldırmalıyıq. İbrahim xan dünya görmüş bir adamdır. Özünün də xanlar arasında hörməti çoxdur. Onun məsləhəti hamımız üçün mənfəətlidir.

Mustafa xan hər kəsdən artıq rus ordusuna yaxın və bu ordunun hərəkətindən asılı olduğu üçün Qarabağ nümayəndəsini diqqətlə dinləyib, onun məsləhətlərini təsvib etdi. Mirzə Əliməmməd Şəki xanına da eyni təsiri bağışladı. Yeni bağlanan dostluğun daha da möhkəm olması üçün Səlim xanın bacısını da İbrahim xana istədi. Saziş düzəldiləndən sonra Mirzə Əliməmməd ağa məsələni yazıb, İbrahim xana bildirdi. İki həftədən sonra Səfər cavab gətirdi. Mirzə Əliməmməd kağızı oxuyub, heyrət etdi. Məzmununu Mustafa xana bildirdi. Səlim xanı da Şamaxıya çağırıb, müşavirə qurdular.

Mirzə Əliməmməd dedi:

– İndi görürsünüz ki, məsələ aydındır. Mahrasa Yusif üç kilsə mahrasası ilə birlikdə ermənilərin arasına bir xitabnamə buraxıb, rusların Azərbaycana gəlməsinin məqsədini bildirirlər. Xanlar taxtdan salınacaq, yerləri ermənilərə veriləcək... – Mirzə Əliməmməd köksünü ötürüb əlavə etdi: – Ölmədik, gordan harayçı gəldi! Din və qeyrət əldən getdikdən sonra ölüm yaxşıdır...

Xanların rəngi üzlərindən götürülmüşdü. Mahrasa Yusifin hərəkəti onları elə həyəcana gətirmişdi ki, cinayətə belə getməyə hazır idilər. Çox danışıb, məsləhətləşdilər, nəhayət, Mirzə Əliməmmədin təklifini qəbul edərək, Qızılayağı öldürməkdən başqa çarə olmadığına qane oldular.

Mustafa xan dedi:

– Bu işi ancaq Nurəli xan bacara bilər.

Mirzə Əliməmməd soruşdu:

– Nurəli xan kimdir?

– Bu, Kərim xan Zəndin qardaşı oğludur. Axta xandan qaçıb, urusa sığınıb. Urus yanında hörməti var. Dərbənd xanı Şeyxəli qaçdıqdan sonra onun mülkü buna verilmişdir. Xülasə, böyük hörmət sahibidir. Yanında yüz nökəri var, özü də Qızılayağın düşərgəsində olur. Nurəli xanı tərəfimizə çəkməliyik, başqa adamın düşərgəyə yolu yoxdur.

Bu təklif qəbul olundu, Nurəli xanla görüşməyə vasitələr axtarıldı. Nəhayət, Şamaxıda şöhrət tapmış bir falçı qarını onun yanına göndərmək qərara alındı.

Nurəli xan at çapmağı və silah oynatmağı çox sevərdi. Bir gün cıdıra çıxıb, düşərgədən uzaqlaşmışdı, bu zaman bir qarı ona yanaşdı:

– Ay cavan, falına baxım... Ah, sənin qismətində bir gözəl var, bilsən...

Nurəli xan atdan düşüb, qarının yanına gəldi:

– Nə var, ay qarı, xeyir ola!

– Xeyirdir, qadan alım, ver əlini!

Qarı Nurəli xanın əlini əlinə alıb, sözlərinə davam etdi:

– Ay cavan xan, sən ölümdən qurtarmısan, can çəkişdirmisən. İndi sənə bir yağı göz dikibdir, sənə zədə vurmaq istəyir. Amma xeyir iş ondan səni qurtaracaq. Qarabağ xanı İbrahim Xəlil padşahın qızı gözəllər gözəli Ağabəyim ağa sənə qismət olacaq, üstündə kisə-kisə əşrəfi alacaqsan, səni xan tikəcəklər... Bütün muradına yetişəcəksən...

Falçı qarının sözləri Nurəli xanı olduqca xoşhal etdi. O, Ağabəyim ağanın gözəlliyini eşitmişdi, lakin ona elçi göndərmək cürətində olmamışdı. İndi falçı onun niyyətini açıqca olaraq söyləyir və muradına çatacağını bildirirdi.

Nurəli xan qarıya bir əşrəfi bağışlayıb dedi:

– Qarı, de görüm, indi neyləyim?

Qarı onun əlinə baxıb dedi:

– Sabah bu vaxt burada ol, mən səni bir Qarabağ vəziri ilə görüşdürrəm, o sənə yol göstərər.

Nurəli xan razı olub, qarıya bir əşrəfi daha bağışladı.

## 18

Mahrasa Yusifin xitabnaməsindən asılı olaraq, bütün Qarabağa vəlvələ düşmüşdü. Yalnız saray deyil, əhali də qayğı içində çırpınırdı. Xanlıq məhv olarsa, iş başına erməni çıxarsa, müsəlmanların halı necə olar, deyə min bir fikir yürüdülürdü. Birinci Pyotrdan bəri körüklənən erməni-türk ziddiyyəti heç bir zaman belə gərginləşməmişdi. Mahrasa Yusifin vədlərindən coşan erməni sərkeşləri orda-burda türkə hücum belə etməyə başlamışdılar. İbrahim xan qaynı Cəmşidi yanına çağırıb, ermənilər tüğyan fikrini yerə qoymasalar, onun başının cəllad əlinə veriləcəyini söyləyib, erməniləri sakit etdi.

Bu əsnada Mirzə Əliməmməd Şirvandan döndü. İbrahim xan Vaqifi də çağırıb, Mirzə Əliməmməd gətirən xəbəri dinlədilər.

Mirzə Əliməmməd ağa:

– Xan sağ olsun, – dedi: – hər şey hazırlanmışdı, Nurəli xana üç min əşrəfi verilmiş və Ağabəyim ağa ilə də evlənməyi vəd olunmuşdu. Nurəli xanın nökərlərinə də yaraq – əsbab verilmişdi. Ərz etdiyim kimi hər şey hazırlanmışdı. Ancaq qəza işə pəl vurdu: Nurəli xan çadırdan çıxarkən sərpuşu başından düşür, içində Mustafa xanın kağızı varmış, sərpuşu götürür, kağızı görməyir. Kağız urus soldatının əlinə keçir. Nə baş ağrısı, sirr açılır. Nurəli xanı adamları ilə bərabər Hacıtərxana sürdülər. Biz də urus yanında rüsvay olduq.

Vaqifin gözləri yerindən oynadı, xanın üzünə baxdı, xanın da rəngi qaçmışdı.

– Xan, – dedi, – indi mahrasa Yusifin dili üstümüzdə uzun olacaq, çarə lazımdır!..

Xan qəzəbli bir halda:

– Nə çarə?

Vaqif eyni əndişə ilə:

– Əbülfət ağanın rəisliyi ilə Qızılayağın yanına bir heyət göndərilməlidir. Bir dəstə namdar bəy getsin, yaxşı peşkeşlər aparsınlar, sədaqət və dostluğumuzu bəyan etsinlər. Sonra bir vəkil də Fitilbörkə, düz Yekaterinanın hüzuruna göndərmək lazımdır. Çoxlu peşkəş yollamalıyıq. Bilirsən ki, ağlamayan uşağa süd verməzlər. Qoy qüvvət və qüdrətimizi bilsinlər.

Məsələ aydın idi, rus komandanlığının rəğbətini qazanmaq, mahrasa Yusifin xətasını yerinə bildirib, təminat istəmək lazım idi.

Vaqifin təklifi üzrə Əbülfət ağa bir dəstə bəy ilə bərabər Zubovun yanına, Saatlı Mirzə Məmmədqulu da hədiyyələr və xanın məktubu ilə bərabər Peterburq sarayına göndərildi.

Bu əsnada yenə Ağaməmməd şahın səsi eşidilməyə başladı, İranda baş vermiş yeni tüğyanı yatırdıqdan sonra Astrabada gəlib, oraları rusa qarşı bərkidirmiş. Zubovun gəlməsindən son dərəcə qəzəblənib, Qafqaz xalqlarına bir çağırış göndərdi və bu çağırışda rusun Qafqaza gəlməsindən məqsəd sırf xristianları himayə etmək olduğu üçün, müsəlmanlar da birləşib, rusa qarşı çıxmalıdır, – deyirdi. Lakin İran siyasəti nəticəsi olaraq, ölkə dağılmışdı. Xalq ac və səfil olduğundan

çağırışlara əhəmiyyət verən yox idi. Xalq asayiş tələb edir və bu asayişi kim verə bilsə idi, onun tərəfinə keçməyə hazır idi.

## 19

Kazım kişi qapıya çıxıb, yavaş səslə:

– Allahqulu! Allahqulu! – deyə dostunu çağırdı.

Bir az sonra Allahqulu donquldana-donquldana qapıdan çıxdı. Çiynində bir boş torba vardı.

– Bu da mən! – dedi. – Tanrı bir ölüm qismət eləmir, ölək qurtaraq. Uşaqlar çörək üçün dünəndən ağlaşırlar...

Aclıq bu iki dostun ikisini də sifətdən çıxarmışdı. Gözləri batıb, səsləri güc ilə çıxırdı. Bir söz daha söyləmədən bir-birinə qoşulub, taqətsiz addımlarla getdilər. Küçələrdə gözə az adam dəyirdi. Hərə başını götürüb, aclıqdan bir tərəfə qaçmışdı. Şəhərdə qalanların çoxu əlsiz-ayaqsızlar idi. Orda-burda dilənçilər durub, əl açmışdı, acından taqətdən düşüb yerə sərilmişlərə tez-tez rast gəlinirdi...

Kazım ilə Allahqulu meşəyə palıd qozası və pencər yığmağa gedirdilər. Camaat səhər tezdən meşələrə daraşıb, ot-ələflə qarınlarını doyurmağa çalışırdı. Şəhərdə it və pişik belə kəsilib yeyilmişdi.

İranlılar iki ildən bəri Aranı tutmuşdular. Kəndlilər tarlalarına yaxınlaşa bilməyirdilər, başqa yerlərdən də taxıl gəlmədiyi üzündən aclıq ölkəni ağzına almışdı.

Bir-iki məhəllə keçdikdən sonra Kazım dayandı.

– Allahqulu, bir dayan görüm, ürəyim pis olur!

Allahqulu ayaq saxladı, diqqətlə dostuna baxdı: Kazımı tər basmışdı.

– Yanını bir az yerə qoy, dincəl! – deyə Kazımı oturtdu.

Ətrafa göz gəzdirdi, yeyiləcək şey axtardı. Görünür oradan bir az əvvəl at keçmişdi, təzəyi yerdə dururdu. Allahqulu şərik çıxılmasın deyə qorxan bir adam kimi ətrafa baxıb, özünü təsin üstünə saldı və acgöz bir halda onu eşib, arpalarını ovcuna yığdı.

Kazım sevinc ifadə edən gözlərlə dostuna baxır və bəzən onda, – “Birdən Allahqulu özü yeyər də, mənə verməz”, – deyə xudbin şübhələr də oyanırdı. Lakin yerindən tərpənməyirdi, özünü kədərə qərq edərək, sakit olurdu. Allahqulu yarım ovuc arpa yığmışdı, o, arpaları bir daşın üstə töküb, əziklədi, sonra Kazım ilə bölüşdülər.

Arpanın çeynənməsi, ağızların marçıltısı, sonra dişlərin dibinin dil ilə yoxlanıb, əmilməsi bir neçə dəqiqə çəkdi.

Kazım gülümsünərək:

– Allahqulu, – dedi, – ağa atının təsi da can dərmanı imiş. Bir az quşəppəyi ver yiyək duraq. Yoxsa, atın dalınca adam düşər, əlimiz təsdən çıxar.

Allahqulu daşların dibindən bir az quşəppəyi qopardı, yedilər, sonra yollarına düzəldilər.

Şəhərin Xəlfəli qapısına yaxın bir yerdə Səfərə rast gəldilər. Səfər atını səyirdərək gəlirdi. Dayandılar. Səfər bir söz demədən xurcunundan bir parça çörək çıxarıb, iki böldü, yarısını Kazıma, yarısını da Allahquluya uzatdı. Allahqulu çörəyi o saat qapdı, Kazım isə zəif səslə:

– Səfər, mən yola gedərəm, payımı evə ver, uşaqlar acdır, – dedi.

Səfər sevinclə:

– Al, – dedi, – iki bütövü də var, evə aparıram. Bilirsən bu çörəkləri haralardan gətirirəm?

Kazım çörəyi aldı.

İndi dostların ikisi də çörəkləri ovuclarının içində bərk-bərk tutub, hərdən bir dişləyir və ansızın qismət olmuş bir nemət kimi ləzzətlə çeynəyirdilər.

## 20

İbrahim xanın Yekaterina və Zubovun yanına göndərdiyi heyətlər qayıdıb, müvəffəqiyyətlə gəlmişdilər. Heyətlər gözəl qəbul edilmiş İbrahim xana kömək və himayə vəd olunmuş və bir çox da hədiyyələr gətirilmişdi. Yekaterina xüsusilə Vaqifə üstü daş-qaşlı bir qızıl əsa göndərmişdi.

Bu hadisə sarayda böyük bir ümid və sevinc oyatmışdı. Lakin davam edən aclıq sarayı belə sarsıdaraq, sevinci söndürürdü. Xanın qoşunu belə aclığa davam etməyərək qaçıb dağılmışdı. Qala gün-gündən müdafiə qüvvəsini itirirdi. Yekaterinanın vədləri ilə iş aşmırdı. Bir az sonra Zubovun öz qoşunu ilə bərabər Şirvandan çəkilib, Rusiyaya dönməsi vədlərdən doğan ümidi belə qırdı. Bəlli oldu ki, Yekaterina ölmüş və taxta yeni çıxmış Pavel Qafqaz səfərinin lüzumsuz olduğunu bildirmişdir. Vəziyyət olduqca ağır idi, indi artıq Ağaməmməd şaha

müqavimət göstərmək qətiyyən mümkün deyildi. Barışıq da ola bilməzdi, çünki düşmənçilik çox dərinləşmişdi.

Vaqif yenə ümidini Şimaldan kəsməyərək məsələni aydınlaşdırmaq istədi:

– İrakli xan urusa bizdən daha yaxındı, – dedi. – Hər halda gedib, bir onun fikrini bilmək lazımdı.

Xan bu fikrə razı oldu. Tiflisə getməyi Vaqifin özü ilə muğanlı Cəmil ağaya tapşırdı:

– Gedin görək, hal-qəziyyə nə minval üzrədir. Əyər vaxtında kömək olmayacaqsa, biz də başımızın çarəsini qılaq.

Məclisdəkilər bu "çarə" sözünü eşidib, bir-birinin üzünə baxdılar. Ağalardan birisi:

– Nə çarə, xan? – deyə soruşdu.

Xan hiddətlə:

– Nə çarə olacaq! – dedi. – Axta xan Muğanda oturub, qalanı güdür, bir də gördün başımızın üstünü kəsdi... Qoşun, sursat olmayandan sonra nə qayıra bilərəm ki! Əhli-əyalı götürüb, vaxtkən Avar xanının yanına çəkilməkdən başqa çarə varmı?

Məclisə dərin bir sükut çökdü. Məclisdəkilər heç bir vaxt İbrahim xanı belə aciz halda görməmişdilər. Onun səsi belə əvvəlki hökmdar ahəngini itirmişdi.

Məclis dağıldı. Hər kəs öz hesabını anlayıb, məyus bir halda evinə getdi. Vaqif ilə Cəmil ağanı o biri gün Tiflisə yola saldılar.

Bir səhər İbrahim xanın bütün ailəsi ilə bərabər Cara qaçdığı şəhərə yayıldı. Aclıq camaatdakı marağı öldürmüşdü, kimsə bu məsələyə əhəmiyyət vermədi. Hər halda bir dəyişiklik olar deyə, bir çoxları ümidlənməyə başladı. Yenə şah məsələsi meydana çıxdı. "Budur gəldi, odur gəlir" – deyə gündə min şayiə ac evləri və boş bazarı dolaşdı. Nəhayət, bu şayiələr doğrulmağa başladı. Ağaməmməd şah İbrahim xanın qaçmasını eşidər-eşitməz, on min atlı götürüb, çaparaq Şişəyə doğru qoşdu.

İlk çapar şəhərə girib, şahın yolda olduğunu bildirdikdə, dərin bir qorxu əhalini qapladı.

Müstəbidi duz-çörəklə qarşılamaq lazım idi. Hər məhəllədən ağsaqqal seçib, bir heyət təşkil etdilər. Kazım ilə Allahqulu da bu heyətə daxil idi. Boğçadan təzə paltarlarını çıxarıb, geydilər, duz-çörək götürüb yola düşdülər.

Kazım gülə-gülə qorxu içində çırpınan dostuna təsəlli verirdi:

– Əşi, qorxma! Kim eşşək olarsa, biz ona palan olarıq. Nə olacaq ki... İndi sən gör şahın necə xoşuna gələcəyik!

Allahqulu candərdi gülümsünərək, dedi:

– Ay canım, padşahdır, birdən tərs damarına düşər, başımızı kəsdirər...

– Qorxma, ölsək də, bir ölərik, zərəri yoxdur.

Kazımın zarafatı və qəhqəhəsi Allahqulunu hiddətləndirirdi.

– Amma zarafata vaxt tapdın! – deyə heyrət edirdi.

Şəhərin İravan qapısından çıxdıqda heyət bir neçə yüz adamdan ibarət idi. Yayın isti bir günü idi. Hamı tər tökürdü. Qorxu da bir tərəfdən camaatı üzürdü. Şüşü kəndinə tərəf endilər. Aşağıdakı qayaların arasından toz qalxırdı. Şah yaxınlaşırdı. Yüz addımlıq bir məsafədən camaat dizi üstə çöküb, məcməyidəki üstü örtüklü duz-çörəyi irəli uzatdılar. Heç kəs qorxusundan dik baxa bilmirdi. Lakin Kazım hərdən bir qaşlarının altından irəlini süzürdü. Toz arasından atlıların yaxınlaşması görünürdü. Öndə təqribən on beş yaşlı çocuğu andıran bir adam gəlirdi. Çəlimsiz vücudu, tüksüz üzü, sərt baxışı vardı. Ətrafı bürüşmüş gözləri sulanırdı. Tez-tez xırda çocuq əli ilə gözlərini silirdi. İncə dodaqlarının ucları nədənsə Kazımı qorxutdu. O, başını aşağı salıb, bir azdan sonra təkrar ehtiyatla qaldırdı. Çocuq sifətli adamın şah olduğunu başındakı yuvarlaq tacdan, geyməsinin boynuna və döşünə düzülmüş daş-qaşdan anladı. İndi günəş onun üzərinə düşüb, onu parıl-parıl parıldadırdı. Kazım artıq sakit olmuşdu, ona elə gəlirdi ki, bu xırda padşahdan adama heç bir xətər toxuna bilməz.

Şah atını saxlayıb, qarşısında diz üstə düşən qarabağlıları qürurla seyr etməyə başladı. Xırda gözləri bir az gülümsəyirdi. Bu əsnada şahın qoşunundan bir dəstə ayrılıb, atdan düşdü və oxuya-oxuya camaata yanaşdı:

“Gəlmişik, gətirmişik bir əjdaha!” – deyə süzməyə başladılar.

Kazım bu halı görən kimi Allahqulunun qolundan dartıb, durğuzdu və şahın adamlarına cavab olaraq oxudu:

“Qovmuşuq, itirmişik bir tülkünü!”

Kazıma baxaraq, qarabağlılardan da bir dəstə ayrılıb, süzməyə və oxumağa başladı.

Bu oyunlar və şərqilər şaha görünür çox xoş gəlirdi. O gülür və güldükcə də gözlərindən su axırdı.

Beləcə camaat şahın qəzəbini yatırdıb, onu “Allah-Allah!” səsi ilə şəhərə gətirdi.

## 21

Ağaməmməd şahı Məmmədhəsən ağanın sarayında yerləşdirdilər. Sarayın qarşısındakı düzdə qoşuna çadırlar quruldu. Sanki artıq hər bir məsələ həll olundu. Şah İran tərəfdarlarına sovqatlar, xələtlər göndərdi, eyni zamanda düşmənləri də unutmadı: İbrahim xanın adamları bir-bir tutulub zindana atıldı. Lakin bir həftə qan olmadı, cəlladlar işsizlikdən darıxmağa başladılar. Əhali bu sakitliyin qorxunc bir hadisə ilə qurtaracağına inanaraq, vahimə içində çırpınırdı. Heç kəs sabahından arxayın deyildi. Günlər keçdi, Qarabağ tarixində unudulmaz bir yer tutan cümə axşamı yetişdi. O gün ziyarət günü idi. Dövlət adamları həyətə yığılıb, şahın pəncərədə, pərdə arxasında görünməsini gözləyirdilər. Lakin şah görünmürdü.

Şahın qəzəblənməsi xəbəri ağızdan-ağıza keçib, hər kəsi qorxuya salırdı. Pişxidmət Səfərəli bəy ətrafa göz gəzdirərək pilləkəndən cəld endi, ona-buna müraciət edə-edə:

– Sadıq xan hanı? Qibleyi-aləm istəyir? – deyirdi.

Bu əsnada şəqaqilər sərkərdəsi Sadıq xan darvazadan içəri girdi. Səfərəli bəy cəld ona yanaşıb, nə isə pıçıldadı. Sadıq xanın rəngi üzündən götürüldü. O tələsik pilləkənə doğru qoşdu.

Şah sarayın arxa tərəfindəki xırda bir otaqda qalırdı. Daş döşəmənin üstünə qiymətli bir xalı salınmışdı. Divarın dibinə şahın səfər taxtı qoyulmuşdu, üstünə ətrafı inci və daş-qaşla işlənmiş sumağı məxmərdən bir süzəni salınmışdı. Sadıq xan içəri girəndə şahı bu taxtın üstündə gördü. Arıq qılçalarını qucaqlayıb oturmuşdu. Onun sulu gözlərindən kin yağırdı. Üzünün qırışları daha da dərinləşmiş, istehzalı dodaqları qorxunc idi.

Sadıq xan uzun müddət şah ilə səfər yoldaşı olmuş, onun hər bir hərəkətini incədən-incəyə öyrənmişdi, lakin üzündəki bugünkü ifadə olduqca acı və qorxulu idi.

Şah hiddətlə dedi:

– Sadıq xan, sən də belə! Sən bir həftədən bəri Cavanşir Məmməd bəyin imarətində olursan, bir demirsən, niyə Məmməd bəy qibleyi-aləmin hüzuruna gəlmir?..

Sadıq xan diz çöküb, itaətkar bir səslə:

– Təsəddüqün olum, şah, – dedi, – Məmməd bəy qalada yoxdur, axtartdırıram...

Şah ayaqlarını taxtdan sallayıb, qollarını ölçərək cır səsi ilə çığırdı:

– Məlun köpək, sabah bir siyasət işlədim ki, ibrəti-nazirin olsun! Kəllələrdən bir minarə qoyduracam, yuxarısında da sənin başın!

Şahın sulu gözləri hədəqədən çıxmışdı. Cır səsi hirsindən tutularaq dedi: – Məmməd bəyin bacılarına söylə ki, axşama kimi qardaşları hüzuruma gəlməsə, onları sərbazlara xərabəliyə verəcəyəm! Mürəxxəs!

Sadıq xan titrəyərək yerdən qalxdı və dalı-dalı otaqdan çıxıb, ipək pərdənin arxasında yox oldu. Bir dəqiqədə şəhərin bu başından o başına qədər carçılar düzüldü: "Məmməd bəy heyy! Axşama kimi qibleyi-aləmin hüzuruna gəlməsən, bacıların sərbazlara xərabəliyə veriləcək!" – deyə səslər şəhərin hər tərəfinə yayıldı.

Sarayın həyətindəki intizar davam edirdi. Rəcal və sərkərdələr arasında altı nəfər qolu bağlı dustaq vardı. Mirzə Əliməmməd ağa da o cümlədən idi. Mirzə Əliməmmədin o sakit qüruru sönmüşdü, rəngi qaçmış, qımıldanmağa belə halı yox idi. Gözlərini yerə dikib, sakit durmuşdu. Şahın vəziri Mirzə Şəfi təlaş içində idi, o gözünü rəngli şişəli pəncərədən çəkmirdi, birdən pərdə tərpəndi. Mirzə Şəfi o saat torpağa düşdü. Bütün saray adamları da eyni vəziyyət aldı. Sərapərdə qaldırıldı, şahın cır səsi eşidildi. Mirzə Şəfi übudiyyət izhar edib, sonra dustaqların kim olduğunu söylədi. Şah istehzalı təbəssümlə:

– Beşinə paz çalınsın, Mirzə Əliməmməd seyid olduğu üçün tənəflənsin!

Cəlladlar bir dəqiqədə əl-ayağa düşdülər. Dustaqların şalvarları sıyrılıb, paz soxuldu. Mirzə Əliməmməd də oturdulub, boynuna sabunlu tənəf salındı. Qışqırtı, söyüş küfr həyəti ağzına almışdı. Əli çəkicli cəlladlar dustaqların arasında dolaşıb, pazlara çəkic döşəyirdilər. Mirzə Əliməmməd son nəfəsində idi, boğulduqca rəngi qaralır, gözləri hədəqəsindən çıxırdı:

– Ay zalım, Allah bu zülmü yerdə qoymaz! – deyə həyatından ayrıldı.

Paz çalınanların ahu-zarı ürək yandırırdı, onlar yalvarıb, tez öldürülmələrini istəyirdilərsə də, qulaq asan yox idi. Cəlladlar yenə çəkicdən vurub, onların qışqırtısını daha da artırırdılar.

Bütün bu mənzərəni İran şahı dərin bir ləzzətlə seyr edib, istehza ilə gülümsəyirdi.

Bu əsnada darvaza açıldı, içəri ala gözlü, sarı qısa saqqallı, geniş kürəkli sadə geyinmiş bir adam girdi. O, cəsur addımlarla pəncərənin önünə gəlib, şaha baş əydi. Onun torpağa düşməməsi hər kəsin nəzərini cəlb etdi. Sadıq xan diz çöküb:

– Qibleyi-aləm, Məmməd bəy Cavanşir budur! – deyə şaha ərz etdi.

Qibleyi-aləm Məmməd bəyi süzərək gülümsədi:

– Bəli... Lap qəssabdır. Mənim qoşunumda belə tənumənd adam yoxdur, – şah Mirzə Şəfiyə yönələrək: – Gözəl gözləri var, elə deyilmi? – deyə əlavə etdi.

Mirzə Şəfi şahın işarəsini anladı, bildi ki, Məmməd bəyin gözlərini çıxarmaq istəyir, dedi:

– Doğru buyurursunuz, təsəddüqün olum!

Məmməd bəy gülümsünərək:

– Yaxşı igidin adın eşit, üzün görmə! – dedi.

Şah ciddi ifadə ilə:

– Ağamın ərvahi haqqı, – dedi, – doğru deyirəm. Sənin kimi tənumənd bircə adam görmüşdüm, o da Zənd Lütfəli xan idi. – Şahın birdən sifəti dəyişildi, qorxunc istehza dodaqlarına yayıldı və əlavə etdi:

– Sabah danışarıq. Sadıq xan, Məmməd bəyi sənə tapşırıram, bərk saxla! Mürəxxəs!

Sərapərdə salındı, şah gözdən itdi.

İşgəncə edilənlərin kimisinin ürəyi gedib, yerə yıxılmış, kimisi hələ zarıldayırdı. Günəş qüruba doğru əyilirdi. Gündüzün istisindən sonra axşamçağının sərinliyi qorxu və aclıq içində əzilən xalqa bir xoş təsəlli kimi görünürdü. Orda-burda ələ keçirilmiş xan tərəfdarları yenə saraya doğru gətirilirdi. Bunların içində qolları bağlı bir müsinn kişi də vardı. Sərbazlar saraya çatdıqda dustaqları darvazada saxlayıb, içəri xəbər verdilər. Qapıya şahın sərkərdələrindən Məmmədhüseyn xan Qacar çıxdı. Lopa bığlarını əlinin dalı ilə o yan-bu yan edib soruşdu:

– Bu qoca kimdir?

– Bu həmən Molla Pənah Vaqifdir ki, eşidibsiniz! – deyə cavab verdilər.

Məmmədhüseyn xan "Vaqif" adını eşitdikdə üzünü turşudub, söyüşə başladı:

– Ay pədər suxtə! Qoca köpək!

Vaqif özünə məxsus mülayimliklə xanın söyüşlərini kəsib dedi:

– Ey xan – əzimüşşəm! Siz böyük şəxsi-dövlətsiniz varsınız, dəstgir və giriftarlara yaman kəlmələr və hədyan sözlər buyurmaq sizin rütbə və məratibinizə şayistə deyil...

Məmmədhüseyn xan Vaqifin nəzakətinə qarşı laqeyd qalaraq, söyüş yağdırmaqda davam edirdi. Bunu görən Vaqif özündən çıxdı:

– Ey xani-nanəcib, mən əgər dustağam, şah dustağıyam, sən nəçisən! Bəlkə şah sabah məni azad edəcəkdir və ya fələki-kəcrəftar və təqdiri-pərvərdigar bəlkə bir qeyri yol gedəcəkdir. "Şəb abistənəst, ta ci zayət bəruz"*.

Məmmədhüseyn xan Vaqifin sözlərinə əhəmiyyət verməyərək, sərbazlara tərəf yönəldi:

– Qibleyi-aləmin buyruğuna binaən bu məlunu zindana salın, sabah əcrinə çatacaq!

Sərbazlar Vaqifi götürüb getdilər.

## 22

Gecə yavaş-yavaş düşür, dərin bir sükut hər yeri qaplayırdı. Yalnız bürclərdən cırcırama səsi gəlir və bir də uçurumun dərinliyində axan Daşaltı çayının şırıltısı eşidilirdi. Dağlardan və dərələrdən süzülən xoş bir qoxu, sərin hava ilə bərabər şahın açıq pəncərəsindən içəri dolaraq onu xəyala daldırırdı. Lakin şahın xəyalı da sönük bir şam kimi can sıxırdı. O yenicə namazını qurtarmışdı, indi isə təsbeh çevirərək dua oxuyurdu. Lakin dua ona təsəlli verə bilərdimi? Onun şəxsi həyatı çocuq ikən söndürülmüşdü, buna əvəz olaraq onda hakimiyyət duyğusu və bu duyğu ilə bərabər dünyaya və bütün məxluqa qarşı bir kin doğmuşdu. Onun vuruş meydanlarında, səltənət ətrafında olan müvəffəqiyyətləri artdıqca, kini də artır və dərinləşirdi. O, səltənət uğrunda qardaşlarından birinin gözlərini çıxartdırmış, o birini isə öldürtmüşdü. Həm də namərd-

* Gecə hamilədir, kim bilir sabah nə doğacaq.

cəsinə öldürtmüşdü. Qardaşı İsfahan hakimi olmaq istəmiş, şah razı olmamış, onun nüfuzundan qorxmuşdu. O da küsüb, Astrabada çəkilmişdi. Astrabadda bir əngəl törətməsin deyə çağırtdırır, gəlməyir. Anasını dalınca göndərir. “And içsin ki, mənə dəyməyəcək”. Şah and içir. Qardaşı Tehrana gəlir. Hörmətlə qarşılanır. İkinci gün vəliəhd Baba xana qoşur: “Get təzə tikdirdiyim imarətə bax, gör xoşuna gəlirmi?” – deyir. Qardaşı gedir. İçəri girdikdə xəncər köksünə soxulur...

Nə qədər belə qanlar tökülmüşdü! Şah təsbehi çevirdikcə təsbehin dənələri adam kəllələri kimi barmaqlarına toxunub, onu coşdurur, daha da qan tökmək, dünya ləzzətlərindən məhrum olduğunun qisasını almaq istəyirdi.

İpək pərdə tərpəndi. Şəqaqi Sadıq xan içəri girdi. Şah hələ acı xəyallar və xatirələr içində dolaşırdı. Varlığa qarşı bəslədiyi kin dodaqlarının istehzalı ifadəsindən süzülürdü.

– Nə var? – deyə qışqırdı.

– Təsəddüqün olum, Səfərəli bəy dedi ki, qibleyi-aləm səni çağırır.

Şah hiddətlə:

– Səfərəli! – deyə çağırdı.

Pişxidmət hazır oldu.

– Sənə kim dedi Sadıq xanı çağır?

– Təsəddüqun olum, yarım saat əvvəl buyurdunuz.

Şah yanındakı təklüləni götürüb, Səfərəlinin döşünə dirədi:

– Yalan deyirsən, köpək!

Səfərəli titrədi, ancaq yerindən tərpənmədi:

– Bəlkə qulağıma belə gəlib!? – dedi.

Şah cümə axşamı olduğunu xatırlayıb, Səfərəlini öldürmək istəmədi, təklüləni kənara qoyub dedi:

– Qulağın pis eşidirsə, get onu kəsdirt!

Sadıq xanla Səfərəli otaqdan çıxdılar. Şah yenə tək qalıb, gözlərini gümüş piysuza dikib, acı düşüncələrə daldı. Hava daha da sərinləşmişdi. Qəzəbli bir sükut hər şeyə hakim idi. Yalnız qonşu otaqdan bir həzin zarıltı səsi gəlirdi. Şah tirmə xirqəsini dizlərinin üstünə çəkib, qulaqlarını şəklədi. Zarıltı Səfərəlinin zarıltısı idi. Şahın cır və qəzəbli səsi havanı titrətdi.

Səfərəli bəylə pişxidmət Abbas bəy içəri girdilər. Səfərəlinin bir qulağı dəsmalla bağlı idi, dəsmal qana batmışdı. Şah qışqırdı:

– Sən arvad deyilsən ağlayırsan! Şad ol ki, bir qulağın kəsildi, hələ öldürmədim! Abbas bəy, sən niyə bərkdən danışıb, yuxuma haram

qatırsan? Ah, azğınlar! Sabah elə bir siyasət eləyim ki, tarixlərdə deyilsin! Bir minarə qurduracağam, sizin də başınız, atamın ərvahi haqqı, lap yuxarıdan asılacaq! Gedin dəmirçilərə deyin minarə üçün çoxlu mıx qayırsınlar!

Gecədən çox keçmişdi. Lakin Sadıq xanla Məmməd bəyin gözlərinə yuxu getməyirdi: qabaq-qarşı oturub, sabahın dərdinə qalmışdılar. Bu əsnada nökər içəri girib, şahın yanından adam gəldiyini xəbər verdi. Qorxudan diksindilər. Gecənin bu vaxtında şahın adam göndərməsi nə demək idi?

– Gəlsin!

Səfərəli bəy içəri girdi. Sadıq xan hövləki soruşdu:

– Xeyir ola?!

Səfərəli suçlu-suçlu nağıl eləməyə başladı. Şahın qəzəbini, sabah siyasət işlədəcəyini, Sadıq xanı, Məmməd bəyi və başqalarını öldürəcəyini, kəllələrdən minarə qurduracağını birər-birər söylədi.

Sadıq xan şübhə ilə dinləyir, bir şey demək istəmirdi. Onun zənnincə, şah Səfərəlinin vasitəsi ilə onların sadiq olub-olmamasını sınayırmış. Lakin Məmməd bəy başqa cürə düşünürdü, o, Səfərəli bəyin səmimiyyətinə inanır və sabahkı gündən qurtarmağa çarə axtardığını anlayırdı.

– Səfərəli, – dedi, – bunlar hamısı doğru, çarəmiz nədir? Açıq söylə, qorxma!

– Çarə yolunu Abbas bəylə düşünmüşük. Siz ancaq ilqar verin ki, bizə qahmar çıxacaqsınız. Bizi ələ verməyəcəksiniz!

Sadıq xan hələ yenə şübhə içində idi. Məmməd bəy qəti olaraq:

– Sadıq xan, – dedi, – fikrə getmək yeri yoxdu. Başlarımız cəllad əlindədir. Çarə lazımdır, siz cürət etməyirsinizsə, mən özüm gedim. Dünya bu zalımın əlindən qurtarsın!

Sadıq xan, nəhayət, dilləndi:

– Yox, Məmməd bəy, sən getsən pərxoşluq düşər. Bunlar yaxşıdır. Qoy işlərini görsünlər!

Məmməd bəy daha cəsur bir səslə:

– Səfərəli bəy, – dedi, – qorxma dalında durmuşam, nökərləri yığıb, nə lazımsa elərəm!

Səfərəli bəy tələsik özünü saraya yetirdi. Abbas bəy şahın qapısının arxasında durub dinləyirdi. – Razıdırlar, tez ol, vaxt keçir.

Səfərəli bəylə Abbas bəy xəncərlərini götürüb, qapını yavaşca açdılar. Şah qəzəbli səslə nərildəyirdi. Səfərəli bəy qorxaraq, geri çəkil-

di. Abbas bəy pıçıltı ilə: – Yatıb, qorxma! Bilmirsənmi o qəzəblənəndə yuxuda sayır-vayır söyləyir?!

Bir az dinləyib, ayaqlarının ucunda içəri girdilər. Piysuz otağa sönük bir işıq salmışdı. Şah yaralı heyvan kimi inildəyirdi. Bu inilti insana dəhşət verirdi. Səfərəli bəy yetirib xəncəri şahın çəlimsiz döşünə soxdu. Şah dik atılıb, əlini yanındakı toppuza atdı:

– Xanəxərab, İranı viran eləyirsiniz! – deyə bildi. Səyrilib, xalının üstünə düşdü. Onun başını kəsdilər. Sonra qollarındakı tacmah və "dəryayi-nur" adlı qiymətli bazubəndləri çıxarıb, Sadıq xanın yanına apardılar.

* * *

Bu əsnada Vaqif zindanda oturub, rəml atırdı; o, qədərin sirlərini öyrənmək istəyirdi. Şəhərin başqa bir məhəlləsində dəmirçilər tər tökə-tökə mıx hazırlayırdılar, vaxtında hazır edə bilməsəydilər, onların da başları cəllad əlinə veriləcək idi. Sadıq xan gecə ikən carçı salıb, Şəqaqi qoşununu yığdı və şahın buyruğuna görə Tehrana gedəcəklərini söyləyib, Şişəni tərk etdi. Məmməd bəy dəstəsi ilə bərabər yerdə qalan şah tərəfdarlarını çevrələdi, kimini qırdı, kimini tutdurdu.

Dan yeri söküləndə artıq şahın ölüm xəbəri şəhərə yayılmışdı. Dəmirçilərə xəbər gəldi ki, mıx lazım deyil, şahın cənazəsi üçün bir neçə mismar lazımdır.

Bu xəbəri bilən baş dəmirçi alnının tərini silərək:

– Ey mıxı mismara döndərən Allah! – deyib, üzünü göyə tərəf çevirdi.

Xəbər hələ zindana yetişməmişdi. Vaqif rəmldən xeyir xəbər olacağını duyaraq tez-tez keşikçidən: "Təzə bir xəbər yoxdur ki?" – deyə soruşurdu. Nəhayət, adam gəlib, zindanı açdı. Vaqif sevinə-sevinə çıxdıqda qapıda Mədinəyə rast gəldi: axşamdan orada durub gözləyirmiş.

## 23

Ağaməmməd şahın öldürülməsi nəticəsində Qarabağ hakimiyyəti Məmməd bəyin əlinə keçdi. O, "Batman-qılınc" ləqəbi alaraq ölkəni idarə etməyə başladı. Lakin İrandakı hadisələr Məmməd bəyi

çox düşündürürdü. Sadıq xan Tehran taxtını ələ keçirə bilməmiş, Ağaməmməd şahın qardaşı oğlu Baba xan tərəfindən basılıb, məhv olmuşdu. Baba xan "Fətəli şah" adı ilə İran səltənətinə malik olmuşdu. İndi Fətəli şah Ağaməmməd şahın cənazəsini və onu öldürənləri tələb edirdi. Əlavə olaraq Qarabağın İrana itaət etməsini təmin etmək üçün Ağabəyim ağanı öz hərəminə və İbrahim xanın oğlanlarından birini də zaval olaraq Tehrana göndərilməsini istəyirdi. Bu məsələlər Məmməd bəydə bir tərəddüd doğurmuşdu. O, bir tərəfdən hakimiyyətə qarşı hərislik göstərir, asır-kəsir; o biri tərəfdən də hakimiyyətin baqi olaraq əlində qalacağına inanmırdı.

Vaqif yenə sarayda idi, lakin onun meyli İbrahim xan tərəfdə idi. O, Qarabağ övzaını gizli olaraq yazıb, Cara göndərir və İbrahim xanın qayıtmasını istəyirdi. Onsuz da İbrahim xana Dağıstanda xoş keçməyirdi. Cavad xanın fitnələri sayəsində İbrahim xanın oğlu Talıbxan bəy orada öldürülmüş və özünü də öldürtmək üçün tədbirlər görülürdü. Bu barədə Cavad xan Məmməd bəylə danışıq belə aparırdı. Vaqif məsələni yeni bir məktubda ətraflı olaraq yazıb Səfərə verdi və təcili olaraq Cara yetirməsini xahiş etdi. Səfər məktubu çarığının içinə qoyub, evinə qayıdarkən, onu Məmməd bəy uzaqdan gördü. Səfərin arabir çarığına baxdığının fərqinə vardı. O saat buyruq verib, Səfəri tutdurdu. Məktub çarıqdan çıxdı və Vaqifin Məmməd bəyə qarşı bəslədiyi fikirlər açıldı. Səfər zindana salındı, Vaqif ilə oğlu Qasım ağa da tutulub, Xəznə qayasından atılmağa məhkum olundu.

İsti bir gün idi. Vaqif ilə Qasım ağanı Cıdır düzünə tərəf aparırdılar. Qoca şair diki çıxdıqca töyşüyürdü. Onun dodaqları və boğazı tamamilə qurumuşdu. O, bir az dayanıb, nəfəs aldı, sonra zəif bir səslə:

– Bir az su olsaydı da! – deyib, cəlladların üzünə baxdı.

Cəlladlardan biri istehza ilə:

– Nə təfavütü var, – dedi, – qarnında gora gedəcək. Bir az sonra səni "Xəznə" qayasından elə diyirləyəcəyəm ki, heç ruhun da inciməyəcək.

Cəlladın istehzası Vaqifə heç bir təsir buraxmadı. O başqa bir aləmdə idi. Sanki dünyaya yenidən gəlmişdi – hər şey ona təzə və cazibəli görünürdü. Qayaların üstündə bitmiş kəkotu qoxusu ona elə xoş və gözəl gəlirdi ki, elə bil bütün ömründə heç onları görməmiş və qoxulamamışdı. Uzaqda Mədinənin evi görünürdü. Ah o nökər olaydı,

adsız-sansız bir nökər, bütün həyatını Mədinənin qapısında qulluq edəydi. Sadəcə bir nökər...

Vaqif yenə dayandı, töşük onu boğurdu. Rəngi qaçmış oğlunun üzünə baxıb:

– Qasım ağa, bizi hara aparırlar? – dedi.

Oğlu sərzənişli bir səslə:

– Ağa, – dedi, – bir çoxlarını sən bu yolla göndərmisən, indi də bizi yollayırlar!

Dəruni bir əzab Vaqifin üzündə əks etdi. O özünü zorlayaraq, tələsik yeriməyə başladı. Qoy bitsin, tükənsin kimsəyə lazım olmayan bu həyat! Ancaq Qasım ağanın günahı nə idi? Oğul nə üçün atanın oduna yansın?.. O cavandır, ona yaşamaq lazımdır!

Vaqif cıdır düzünə çıxan bir yamacda yıxılıb qaldı. Onda irəli getməyə artıq taqət qalmamışdı. Cəllad bir-iki dəfə qolundan dartdısa da, yerindən qaldıra bilmədi. Vaqif zəif, lakin qürurlu bir səslə dedi:

– Nə eləyəcəksiniz, elə burada eləyin, heç yerə getməyəcəyəm!

Cəlladlar bir-birinin üzünə baxaraq, nə isə danışdılar. Biri qəməsini çıxarıb, Qasım ağaya yanaşdı. Qasım ağanın kölgəsi qalmışdı, o hər bir duyğudan məhrum olmuşdu. Vaqif oğlunun qurbanlıq qoyun kimi uzadıldığını gördükdə qışqırdı:

– Amandır! Əvvəl məni, sonra onu! Mənə oğul dağı göstərməyin!

Cəllad qulaq asmadı. Vaqif oğlunun xırıltısını eşitdikdə, özünü itirdi. Artıq özünün öldürülməsini heç duymadı – yuxu kimi gəlib-getdi.

* * *

Kazım yerlisinin öldürülməsini eşidər-eşitməz oğlu ilə bərabər bel-kürək götürüb Cıdır düzünə gəldi. Orada Mədinəyə rast gəldi, Mədinə molla gətirib, çadır qurdurmuşdu, ölülərə qüsl verdirirdi. Kazım Mədinə ilə məsləhətləşib, qəbirlərin yerlərini təyin etdi. Yan-yana iki qəbir qazdırıb, Vaqif ilə oğlunu torpağa tapşırdılar.

Hamı fatihə verib qayıtmışdı. Lakin Mədinə orada qalmışdı. O, əziz qəbrə sarılıb, yanıqlı ağılar deyirdi...

Kəkotu yenə ətrafa gözəl qoxu saçırdı.

# EPİLOQ

İki aydan sonra İbrahim xan Dağıstandan qayıtdı. Məmməd bəyin tərəfdarları tutulub, cəllad əlinə verildi. Məmməd bəyə isə Şişəni tərk etməsi işarə olundu. Məmməd bəy Vaqifin arvadı Qızxanımla evlənmişdi, onu götürdü və şahın xəzinəsindən əlinə keçən sərvəti də atlara yükləyib, Qaladan çıxdı. Bir müddət Tərtərin qırağındakı Kələntərli mülkündə yaşadı. Sonra Şirvan xanı Mustafa məktub yazıb, qızını ona verəcəyini və özünü də vəliəhd təyin edəcəyini bildirib, onu Şirvana apardı. Şirvanda Məmməd bəyin xəzinəsi əlindən alındı, özü də zəncirləndi. Mustafa xan atası Ağası xanın və qardaşlarının qisasını almaq üçün Məmməd bəyə işgəncə verərək öldürtdü. Şair Valeh Məmməd bəyi belə tərif edir:

Məmməd bəy kimi cəllad – xunfəşan
Görməmişdi hərgiz dideyi – cahan,
Heyf ki, başadək sürmədi dövran,
Getdi ürəyində arzuman, hanı?..

Qızxanım dul qalıb, Sarıcalı Hüseyn bəyə ərə getdi. Bir çapavulda Hüseyn bəy öldürülüb, Qızxanım yenə dul qaldı. Sonra Mustafa xana ərə getdi, iki oğlu olduqdan sonra Mustafa xan onu boşadı. Nəhayət, Qarabağa qayıdıb, mayor Abbasqulu ağa ilə evləndi.

İbrahim xan Ağaməmməd şahın cənazəsini böyük hörmətlə götürdüb Tehrana göndərdi. İran ilə dostluğu möhkəmləndirmək məqsədi ilə qızı Ağabəyim ağa ilə oğlu Əbülfət ağanı da Tehrana yola saldı. Ağabəyim ağa Fətəli şahın o qədər xoşuna getmişdi ki, ona hərəmdə baş qadın ünvanı vermiş və özünə də başdan-ayağa inci ilə işlənmiş bir don bağışlamışdı. Lakin Ağabəyim öz vətənini arzulayıb dururdu:

Mən aşiqəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ! – deyə yazırdı.

Şah bunu eşidib, Ağabəyimə darılır. Ağabəyim deyir:

– Mən eylə yazmamışdım, yazmışdım ki, “Tehran cənnətə döndü, Yaddan çıxdı Qarabağ!”.

İbrahim xan Qarabağın müqəddəratını İran himayəsində təsəvvür etdiyi halda, Şimalda işlər tamamilə dəyişmişdi: rus ordusu bu dəfə ciddi olaraq Qafqazın istilasına başlamışdı. Sisyanov Gəncəni alıb dağıtmış, Cavad xanı öldürmüş və əhalini belə süngüdən keçirtmişdi. İbrahim xanı da rus himayəsinə girməyə çağırırdı. Mayor Lisaneviç Şişəyə gəlib, danışdıqdan sonra İbrahim xan Gəncənin yanındakı Quraq çayın qırağında Sisyanovla görüşüb, yapılmış müqavilə mevcibincə rus himayəsinə girdi (14 may 1805-ci il). Bu müqaviləyə görə Qarabağ xanı rus himayəsindən başqasına girməyir, qonşu dövlətlərlə rəsmi əlaqəni kəsir; Şişəyə gələcək rus qoşununa mənzil və sursat hazırlayır, ildə 8 min qızıl bac verir, Gəncə-Şişə yolunu qayırtdırır və böyük oğlundan olmuş oğlan nəvəsini Tiflisə zaval göndərir. Bunun əvəzində rus hökuməti Qarabağ xanlığına məxsus torpaqların xanda qalmasını və irsi olaraq övladlarına keçməsini təmin edir və xanlığın daxili işinə qarışmır. Xanlığı müdafiə etmək üçün də Şişə qalasına beş yüz əsgər və artilleriya göndərir.

Əlavə olaraq İbrahim xana general-leytenant və vəliəhdi Məmmədhəsən ağaya general-mayor rütbəsi verildi. Rəsmiyyət bitdikdən sonra mayor Lisaneviçin komandasında Şişəyə rus əsgəri gəldi. Təbiidir ki, Şişə Lisaneviçin əlinə keçər-keçməz, müqavilə unudulmağa başlandı, mayor Lisaneviç general-leytenant İbrahim Xəlil xana buyruqlar göndərməyə, tələblər verməyə başladı. Araları son dərəcə açıldı, əlavə olaraq Sisyanovun söyüşlə dolu məktubları İbrahim xanın heysiyyətini qırıb tökdü. Nəhayət, bir gecə Lisaneviç yüz əsgərlə Xan bağında yaşayan xanı əhatə edib, gülləyə basdırdı. Xan, arvadı, uşaqları, nökərləri qırıldı...

Səfər hələ Vaqif öldürülməzdən əvvəl zindandan qaçıb, yenə qaçaqlığa başlamışdı. O, İbrahim xan Cardan döndükdən sonra belə şəhərə qayıtmaq istəməmişdi.

Kazım yenə şərbaflığında qalmışdı. Dostu Allahqulu isə Tiflisə köçüb, görkəmli bir tacir olmaqla, nəhayət, məqsədinə çatmışdı.

*15/XII-1936 - 19/IV-1937-ci il*
*BAKI*

# KİTABDAKILAR


Studentlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .5

Qızlar bulağı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .345

İki od arasında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .451

| | |
|---|---|
| Buraxılışa məsul: | *Umud Rəhimoğlu* |
| Texniki redaktor: | *Mübariz Piriyev* |
| Kompyuter səhifələyicisi: | *Allahverdi Kərimov* |
| Korrektor: | *Şəhla Xəlilova* |

Yığılmağa verilib 07.10.2004. Çapa imzalanıb 07.04.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 41,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 72.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.